# HEYDƏR ƏLİYEV VƏ MƏTBUAT

*müsahibələr * bəyanatlar*
*müraciətlər * çıxışlar*
*təbriklər*

17875



# HEYDƏR ƏLİYEV
# və
# MƏTBUAT

Ӡ63(2A)
Ə65

# HEYDƏR ƏLİYEV və MƏTBUAT

*müsahibələr*
*bəyanatlar*
*müraciətlər*
*çıxışlar*

NURLAR
Nəşriyyat-Poliqrafiya Mərkəzi
BAKI - 2003

247399

# HEYDƏR ƏLİYEV və MƏTBUAT

*dörd cilddə*
*üçüncü cild*
*iyul, 1998 – sentyabr, 2000*

M.F.Axundov adına Azərbaycan Milli Kitabxanası

NURLAR
Nəşriyyat-Poliqrafiya Mərkəzi
BAKI - 2003

Redaktoru və ön sözün müəllifi
**RAMİZ MEHDİYEV**

Tərtib edənlər
**ƏLİ ABBASOV, TEYMUR ƏHMƏDOV**

**HEYDƏR ƏLİYEV VƏ MƏTBUAT** III cild (dörd cilddə)
B.: «NURLAR» Nəşriyyat-Poliqrafiya Mərkəzi, 2003, 640 səh.

Kitabın üçüncü cildində Azərbaycan Respublikasının Prezidenti Heydər Əlirza oğlu Əliyevin 1998-ci ilin iyulundan 2000-ci ilin sentyabrınadək olan dövr ərzində yerli və xarici jurnalistlərə müraciətləri, bəyanatları, müsahibələri, təbrik və çıxışları toplanmışdır. Burada zəmanəmizin görkəmli siyasi xadiminin kütləvi informasiya vasitələri nümayəndələri ilə görüşləri, eləcə də dünyanın nüfuzlu mətbuatında xarici ölkələrə səfərləri və zirvə görüşləri zamanı müdrik, uzaqgörən dövlət xadimi kimi qarşılanması, həmçinin onun xarici siyasət kursunun istiqamətləri, qlobal dünya problemlərinə və digər aktual məsələlərə münasibəti barədə verilən icmallar öz əksini tapmışdır. Bütün bu materiallar ölkəmizin ictimai-siyasi həyatında mürəkkəb proseslər şəraitində böyük dövlət xadiminin müstəqil dövlət quruculuğu, Dünya Birliyi ölkələri və beynəlxalq təşkilatlarla əməkdaşlığın gücləndirilməsi, iqtisadi və mədəni əlaqələrin genişləndirilməsi, hərbi təcavüzün sülh yolu ilə aradan qaldırılması və ərazi bütövlüyünün təmin edilməsi uğrunda ardıcıl, əzmlə mübarizəsini dolğun əks etdirir.

Kitab politoloqlar, siyasətçilər, tədqiqatçılar və ictimai-siyasi fikir tarixi ilə maraqlananlar üçün dəyərli mənbədir.

ISBN - 9952 - 403 - 20 - 8

© «NURLAR» 2003



# MOSKVA, SANKT-PETERBURQ, MDB VƏ BALTİYA ÖLKƏLƏRİNİN JURNALİSTLƏRİNƏ MÜSAHİBƏ

*Bakı, Prezident Sarayı*
*10 iyul 1998-ci il*

**«Vek» qəzetinin müxbiri, Moskva :** Cənab Prezident, biz ölkənizin bir sıra bölgələrinə getdik və əmin olduq ki, Siz xalq arasında çox məşhursunuz. Bununla əlaqədar belə bir sual vermək istərdim: Siz prezident seçkilərinə hansı hisslərlə gedirsiniz? Deyək ki, Rusiyada olduğu kimi, gələcəkdə siyasi varis haqqında məsələ Sizin də qarşınızda durur mu?

**Heydər Əliyev:** Seçkilərə hansı hisslərlə gedirəm? Mən bunu demişəm və bu gün də fürsətdən istifadə edib deyirəm ki, öz namizədliyimi irəli sürmürəm. Hətta 1993-cü ildə də belə olmuşdu.

Siz tarixi bilirsiniz. 1993-cü ildə Azərbaycanda, Bakıda Vətəndaş müharibəsi başlayanda məni Naxçıvandan buraya dəvət etdilər. Mən 1990-cı ilin yayından 1993-cü ilin iyun ayına qədər Naxçıvanda yaşamışam. Tərcümeyi-halım sizə məlumdur, buna vaxt sərf etmək istəmirəm. Mən 1987-ci ilin oktyabr ayında Sov.İKP MK Siyasi Bürosunun üzvü və SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifələrindən getdim, Moskvada yaşayırdım, təqiblərə məruz qalırdım. Bakıya qoşun yeridiləndə, 1990-cı il yanvar ayının 21-də mən buna qarşı etirazla çıxış etdim. Bundan sonra mənə qarşı təzyiqlər daha da çoxaldı.

10 gündən sonra bəzi qəzetlərdə, ən əvvəl, o vaxt ən nüfuzlu olan «Pravda» qəzetində tibb elmləri doktoru Əfəndiyevin imzası ilə mənim haqqımda «Əliyevçilik və şirin zəmanələr üçün fəryad» sərlövhəsi altında bütöv bir səhifəlik məqalə verildi. Əfəndiyev iki gündən sonra hər yerə teleqram vurub bildirdi ki, onun bu məqaləyə heç bir dəxli yoxdur. Lakin mənə hər cür şər-böhtan atırdılar. Ondan əvvəl də atırdılar, sonra isə daha çox iftiralar yağdırmağa başladılar, çünki mən o vaxt Qorbaçov başda olmaqla, Siyasi Büronun, Sov.İKP MK-nın həyata keçirdiyi aksiyaya qarşı etiraz edirdim. Buna görə də həmin təqiblər məni Moskvadan çıxıb getməyə vadar etdi.

Mən Bakıya gəldim, amma uzun illər ərzində yaşayıb işlədiyim və Bakı üçün, Azərbaycan üçün çox işlər gördüyüm doğma şəhərimdə mənə yaşamağa imkan vermədilər. Bir-iki gündən sonra Bakı şəhərini də tərk edib Naxçıvana getməli oldum. Naxçıvan o vaxtda da təcrid edilmişdi, blokadada idi, indi də belədir. Mən orada 1993-cü ilədək yaşadım. 1993-cü ildə məni dəvət etdilər və artıq beş ildir buradayam.

1993-cü ildə mən buraya gələndə burada da vəziyyət çox mürəkkəb idi, tək qalmışdım – prezidenti əvəz edirdim, Parlamentin sədri idim, baş nazir yox idi. Sonra mən baş nazir təyin etdim. Lakin siz onun kim olduğunu bilirsiniz. Mənim üçün ağır idi. Buna baxmayaraq, legitim hakimiyyətə malik olmaq üçün prezident seçkiləri təyin etməli oldum. Oktyabrda seçkilər keçirildi. Amma öz namizədliyimi bundan əvvəl də irəli sürməmişdim. Mən dedim: kim istəyirsə, qoy o da öz namizədliyini irəli sürsün.

Ancaq mənim namizədliyimi irəli sürdülər. Mən razılıq verdim və seçildim. Bunu bu gün də deyirəm. Hesab edirəm ki, beş ildə Azərbaycanda çox işlər görmüşəm. Nə kimi işlər gördüyümü sizə danışdım. Ona görə də indi mən yenidən prezident seçilməyim uğrunda mübarizə aparmaq istəmirəm. Əgər mən ölkəyə lazımamsa, öz xalqıma lazımamsa, onda seçkilərdə iştirak etməkdən boyun qaçırmayacağam. Mən seçkilərə məhz bu hisslərlə gedirəm. Ümidvaram ki, seçki kampaniyasında iştirak etsəm, mənə səs verəcəklər. Hər halda, prezident seçilməyim üçün lazım olan miqdarda səs verəcəklər.

**Latviya Televiziyasının müxbiri :** Necə bilirsiniz, Ermənistan-Azərbaycan münaqişəsi necə inkişaf edəcəkdir? Görüşdüyümüz adamlar təsdiq edirlər ki, bu ərazilər işğal olunmuşdur və qaytarılmalıdır. Artıq neçə illərdir antisanitariya şəraitində, çox pis şəraitdə yaşayan qaçqınları gördük. Yəni qarşıya bir az siyasi sual çıxır: onlar hələ nə qədər bu cür şəraitdə yaşayacaqlar?

**H e y d ə r Ə l i y e v :** Siz özünüz hər şeyi gördünüz. Bu bizim faciəmizdir. Həqiqətən, onlar uzun müddətdən bəri belə şəraitdə yaşayırlar. Çoxları bu cür şəraitdə təxminən altı ildir yaşayır. Çox ağırdır. Bununla belə, siz Azərbaycan xalqının nə qədər dözümlü, sülhsevər, dinc xalq olduğunu yəqin qiymətləndirə bilərsiniz. Azərbaycanlılar heç kəsə basqın etməyiblər. Azərbaycan xalqı heç kəsin – nə Ermənistanın, nə Gürcüstanın, nə Rusiyanın, nə də İranın ərazisinə göz



dikməyibdir. Mən həmsərhəd və qonşu olduğumuz ölkələri nəzərdə tuturam.

Keçmişdə Azərbaycanın böyük ərazisi olmuşdur. Lakin müstəqillik əldə edilən vaxtadək hər bir ölkənin, o cümlədən də Azərbaycanın öz sərhədləri var idi. Biz məhz bu sərhədlər daxilində yaşamaq istəyirik. Beynəlxalq təşkilatlar, Birləşmiş Millətlər Təşkilatı tərəfindən tanınmış bizim bu dövlət sərhədləri pozulub və Azərbaycan ərazisinin 20 faizini Ermənistan Silahlı Birləşmələri işğal edibdir. Həmin torpaqlarda yaşamış azərbaycanlılar isə oradan qovulmuşdur. Çoxları məhv edildi, çox adam həlak oldu. Sağ qalanlar isə oradan köçüb getdi və çadırlarda yaşayırlar.

Əlbəttə, onlar öz yerlərinə qayıtmalıdırlar. Azərbaycanın ərazi bütövlüyü bərpa edilməlidir. Ərazi bütövlüyü prinsipi Helsinki aktının, Birləşmiş Millətlər Təşkilatının, ATƏT-in əsas prinsipidir. Biz istəyirik ki, Dünya Birliyi və başqa ölkələr, o cümlədən münaqişədə olduğumuz Ermənistan bu prinsipə, nəhayət, hörmət etsinlər. Çünki əgər bu gün həmin prinsip Azərbaycan barəsində pozularsa, sabah Qazaxıstan barəsində, birisi gün isə hər hansı digər ölkə, elə Rusiyanın özü barəsində pozulacaqdır.

Buna görə də biz hesab edirik ki, işğal olunmuş torpaqlar azad edilməlidir, öz yaşayış yerlərindən qovulmuş adamlar torpaqlarına qayıtmalıdırlar. Onların orada necə yaşayacağı isə gələcəyin məsələsidir. Misal üçün, Füzuli rayonunda Ermənistan Silahlı Birləşmələri təxminən 23 kəndi işğal etmiş və dağıtmışdır. Sonra, 1994-cü ilin əvvəllərindən döyüş əməliyyatları zamanı qoşunlarımız Ermənistan Silahlı Birləşmələrini oradan vurub çıxartdılar. Orada hər şey dağıdılmışdı. Dünya Bankı, Avropa Birliyi bizə yardım göstərirlər və orada artıq çox şey bərpa edilmişdir. Bərpa olunmuş kənd və qəsəbələrə 40 minədək adam qayıtmışdır. Bir sözlə, beynəlxalq təşkilatların, o cümlədən Avropa Birliyinin iqtisad komissiyasının, Dünya Bankının bu işğal olunmuş ərazilərin bərpasına dair proqramı var. Belə düşünürəm ki, bu, vaxtla bağlı işdir və böyük problem olmayacaqdır. Ən başlıca problem işğal olunmuş əraziləri azad etməkdən, Azərbaycanın ərazi bütövlüyünü bərpa etməkdən ibarətdir ki, adamların öz yaşayış yerlərinə qayıtmağa imkanı olsun.

Bundan ötrü nə edilir? Ermənistan-Azərbaycan münaqişəsini sülh yolu ilə aradan qaldırmaq üçün 1992-ci ildə yaradılan ATƏT-in

Minsk qrupu bu istiqamətdə işləyir. Təəssüf ki, hələlik real nəticələr yoxdur. Lakin 1996-cı ilin dekabr ayında ATƏT-in Lissabon Zirvə görüşündə münaqişənin sülh yolu ilə tənzimlənməsinə dair prinsiplər qəbul edildi. Bunlar üç prinsipdən ibarətdir: birincisi – Ermənistanın və Azərbaycanın ərazi bütövlüyünün tanınması; ikincisi – Dağlıq Qarabağa Azərbaycan dövlətinin tərkibində özünüidarə statusu verilməsi; üçüncüsü – Dağlıq Qarabağın bütün əhalisinin, həm erməni, həm də azərbaycanlı əhalisinin təhlükəsizliyinə təminat verilməsi.

Biz bu prinsiplərlə razılaşdıq. ATƏT-in həmsədrləri – Rusiya, ABŞ və Fransa təxminən 1997-ci ildən başlayaraq həmin prinsiplər əsasında təkliflər hazırlamağa başladılar. 1997-ci ilin sentyabr ayında bu təkliflər həm Azərbaycana, həm də Ermənistana təqdim edildi. Biz bu prinsiplərlə razılaşdıq, hərçənd onları özümüz üçün ideal saymırıq. Lakin bu münaqişəyə son qoymaq, Ermənistanla Azərbaycan arasında sülh yaratmaq, bu vəziyyətdən çıxmaq üçün biz həmin prinsiplərlə razılaşdıq.

Ermənistan tərəfi bu prinsipləri uzun müddət müzakirə etdi. Sonra sabiq prezident Ter-Petrosyan razılıq verdi ki, bu prinsiplər nizamasalmanın əsası kimi götürülsün. Amma Ermənistanda rəylər uyğun gəlmədi. 1997-ci ilin oktyabr ayında Strasburqda bizim görüşümüz – Ermənistan prezidenti Levon Ter-Petrosyanın və Azərbaycan Prezidentinin görüşü oldu. Orada biz belə birgə bəyanat verdik ki, Ermənistan ilə Azərbaycan arasında Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə aradan qaldırılmasına sadiq qalırıq və ATƏT-in Minsk qrupu həmsədrlərinin təkliflərini əsas etibarilə qəbul edirik.

Lakin sonra bu, Ermənistanda öz inkişafını tapmadı. Bu sizə məlumdur. Ona görə də buna vaxt sərf etmək istəmirəm. İş ilişib qalmışdır. ATƏT-in həmsədrləri – Rusiya, Birləşmiş Ştatlar və Fransa regionda – Ermənistanda da, Dağlıq Qarabağda da, Azərbaycanda da olublar. Onlar öz məsləhətləşmələrini davam etdirirlər və biz onların tərəfindən yeni tədbirlər gözləyirik.

Aprelin 29-da Moskvada MDB dövlət başçılarının iclası keçirilərkən mən Ermənistanın yeni prezidenti cənab Robert Koçaryanla görüşdüm. Biz onunla ətraflı danışdıq, öz baxışlarımızı şərh etdik. Sonra mənim onunla Krımda qısa görüşüm oldu. Bir sözlə, bizim aramızda artıq ünsiyyət yaranmışdır. Biz hesab edirik ki, bu prinsiplər, ATƏT-in həmsədrlərinin təklifləri əsasında irəliləməliyik. Başqa yol yoxdur.



Bildiyiniz kimi, son vaxtlar orada verilmiş bəyanatlar nəinki sülh prosesinə kömək etmir, əksinə, böyük narazılıq doğurmuşdur. Lakin həmsədrlər bu bəyanatlara öz münasibətlərini bildirdilər. Belə düşünürəm ki, biz irəliləməliyik. Başqa yol yoxdur. Biz məsələnin sülh yolu ilə həll edilməsinə tərəfdarıq. Biz Dağlıq Qarabağa Azərbaycanın tərkibində yüksək özünüidarə statusu verilməsinə tərəfdarıq. Biz heç vaxt razılaşa bilmərik ki, ərazimizin hər hansı bir hissəsi başqa ölkənin əlinə keçsin. Dağlıq Qarabağın müstəqilliyi ilə heç vaxt razılaşa bilmərik və heç vaxt razılaşmayacağıq ki, Azərbaycanın ərazi bütövlüyü həmişəlik pozulsun. Biz bununla razılaşa bilmərik. Bütün bu hallar müvəqqəti xarakter daşıyır. Belə düşünürəm ki, Beynəlxalq Hüquq, Dünya Birliyi və BMT-nin, ATƏT-in prinsipləri, əlbəttə, bizim səylərimizlə – Azərbaycanın və Ermənistanın səyləri ilə münaqişənin sülh yolu ilə aradan qaldırılmasını təmin etməlidir.

Zənnimcə, məsələ sülh yolu ilə həll olunmayınca, bu adamlar, necə deyərlər, dözməlidirlər. Bilirsinizmi, indi biz onlar üçün abad evlər tikə bilmərik. Onlar öz yaşayış yerlərinə qayıtmalıdırlar. Bizim belə imkanımız sadəcə olaraq yoxdur. Malik olduğumuz imkanlar onlara kömək göstərməyə imkan verir ki, onlar yaşasınlar. Evlər ucaltmağa, nə isə başqa işlər görməyə imkanımız, sadəcə olaraq yoxdur. Buna görə də mən bütün bu qaçqınlara, zərər çəkmiş insanlara, bu cəsur adamlara, öz ölkəsinin vətənpərvərlərinə minnətdaram ki, onlar bu cür vəziyyətə dözürlər. Mən onlara minnətdaram ki, onlar bu məsələnin sülh yolu ilə həll ediləcəyinə inanırlar ki, biz onların öz doğma yerlərinə qayıtmasına nail olacağıq.

**«İzvestiya» qəzetinin müxbiri :** Heydər Əliyeviç, 1993-cü ildə «İzvestiya» qəzeti Milli Məclisdə Sizin ilk çıxışınız barədə yazmışdı. Qəzet yazmışdı ki, qrossmeyster Əliyev dərs verir. Sizin dərslərin nəticələrini biz iki rayonun – qrupla getdiyimiz Quba və Xaçmazın timsalında gördük. Respublika həqiqətən yüksəlişdədir və ona diqqət olduqca böyükdür.

Mən xəbərlər barəsində danışmaq istəyirəm. Biz burada olarkən öyrəndik ki, «İzvestiya» qəzeti Azərbaycanda cəmi 300 nüsxə tirajla yayılır. Mən redaksiyadan «İzvestiya»nın burada müxbir məntəqəsinin və nümayəndəliyinin açılması, yaxud, başqa cür desək, «İzves-

tiya»nın Azərbaycana qayıtması məsələsini öyrənmək tapşırığı almışam. Çünki bir vaxtlar biz burada 16 min tirajla çıxırdıq. Bununla əlaqədar Sizdən kömək göstərməyinizi xahiş edirik. Odur ki, belə bir sualım var: Rusiyanın kütləvi informasiya vasitələrinə, o cümlədən «İzvestiya» qəzetinə münasibətiniz necədir, hansı Rusiya qəzetlərini oxuyursunuz?

– Sualınızın birinci hissəsinə cavab verirəm ki, sizin burada öz müxbir məntəqənizi açmağınıza və «İzvestiya»nın Azərbaycanda daha böyük tirajla yayılması üçün tədbirlər görməyinizə etirazım yoxdur. Ümumiyyətlə deyim ki, ölkəmiz bütün ölkələrin və ən əvvəl, Rusiyanın mətbuatı üçün açıqdır. Azərbaycanda Rusiyanın bir çox qəzetlərini oxuyurlar. Yeri gəlmişkən, bir çox adamlar, zənnimcə, bunun hesabına qazanırlar. Onlar Rusiya qəzetlərini Moskvada alıb buraya gətirir, satır və bunun hesabına qazanırlar. Bu da pis deyil. Həm adamlar qazanc əldə edirlər, həm də bu qəzetlərə tələbat ödənilir. Odur ki, bizdə hər hansı qəzet yayıla bilər. Heç kəs üçün heç bir məhdudiyyət, heç bir qadağa yoxdur.

Rusiya qəzetlərinə gəldikdə isə, bilirsinizmi, bu məsələyə toxunmaq istəmirəm. Hər qəzetin öz ləyaqəti və nöqsanı var. İndi mətbuat azaddır. Belə düşünürəm ki, Rusiyada da, Azərbaycanda da bəzi jurnalistlər söz, mətbuat azadlığından sui-istifadə edirlər. Bilmirəm, Rusiyada necədir, lakin bizdə bəzən qəzetlərdə müxtəlif adamların barəsində, Prezidentin ünvanına təhqirlər yazırlar. Axı mən onları məhkəməyə verəsi və məhkəmədə çəkişəsi deyiləm. Nə deyirəm, yazırlar, qoy yazsınlar. Belə düşünürəm ki, hər kəs öz tərbiyəsinin, öz mədəniyyətinin səviyyəsinə uyğun olaraq hərəkət edir. Əgər mədəniyyətsiz, tərbiyəsiz adamlar həm də qəzet nəşr edə bilərsə və təhqiramiz ifadələr işlədərsə, biz siyasi plüralizmə, mətbuat azadlığına sabit şərait yaratmaq üçün bunların hamısına dözməliyik.

Buna görə də Moskva qəzetləri barəsində bir söz deməyəcəyəm. İndi mənim sadəcə olaraq imkanım yoxdur. İndi Moskvada nə qədər qəzet çıxır. Elə düşünürsünüz ki, onları oxumağa mənim imkanım var?

Hansı qəzetləri oxuyuram? Mən Moskva qəzetlərini daim oxumuram. Keçmişdə elə idi ki, səhərlər mütləq oxuyurdum, məsələn, «Pravda»nı. Mən öz keçmişimdən heç vaxt imtina etmirəm və əksinə, keçmişimlə fəxr edirəm. Məsələn, mən bu qəzeti çox sevirdim və mən



Azərbaycanda və ya Moskvada işləyərkən bu qəzetin səhifələrində mənim məqalələrim, yaxud fəaliyyətim haqqında məlumatlar dəfələrlə dərc edilmişdi. Lakin Azərbaycana qoşun yeridilməsinə qarşı mənim çıxışımdan sonra bu qəzet həmin qoşunların yeridilməsi barədə düşünməkdənsə, alçaq bir yol tutub mənə böhtanlar yağdırmağa başladı. 1990-cı ildə mən uzun illər ərzində tanış olduğum qəzetin redaktoru Frolova zəng vurub dedim: «Bura baxın, təkzib üçün və ya öz fikrimi bildirmək üçün mənə qəzetin səhifəsində iki-üç xətlik yer verin». O cavab verdi: «Biz bunu edə bilmərik». Mən o vaxtlar televiziyaya rəhbərlik edən və həmçinin uzun illər ərzində birlikdə işlədiyimiz Nenaşova zəng vurdum. Dedim: «Öz münasibətimi bildirmək üçün mənə iki dəqiqə vaxt verin». O cavab verdi: «Siz ki bizim qaydaları bilirsiniz. Olmaz. Siz ki özünüz işləmisiniz. Biz bunu edə bilmərik». Əlbəttə, bundan sonra «Pravda»nı daha oxumadım. Əgər burada «Pravda»nın nümayəndəsi varsa, qoy inciməsin. Mən o qəzeti oxumuram. Ola bilsin, bu mənim məsələyə subyektiv münasibətimdir. Hər bir adamın öz subyektiv hisslərini ifadə etməyə haqqı var.

Ona görə də mənim nəinki Rusiya qəzetlərini, hətta yerli qəzetləri oxumağa imkanım sadəcə olaraq yoxdur. Hərdən elə məqalələri oxuyuram ki, onlar məndə maraq doğurur. Mənə deyirlər ki, maraqlı bir məqalə var. Mən onu oxuyuram. Deyə bilərəm ki, səhərlər bütün qəzetləri mütləq gözdən keçirirəm. Mütləq. Yəni mən onları oxumuram, sadəcə olaraq nəzərdən keçirirəm. Baxıram, görüm nə kimi mövzu var, nə kimi sərlövhə var. Hər hansı məqalə diqqətimi cəlb etdikdə mən onu oxuyuram. Buna təxminən bir saat vaxt sərf edirəm. Sadəcə olaraq vaxtım yoxdur. Qalanlarına seçib baxıram. Əgər mənə desələr ki, hər hansı faydalı və ya maraqlı məqalə, yaxud bizdə narazılıq doğuran məqalə var, onda mən bu məqalə ilə, şübhəsiz, tanış oluram ki, münasibəti müəyyənləşdirim – bu narazılıq doğrudur, ya yox. Bax belə.

**Moldova Radiosunun Moskva müxbiri :** Görünür, mən əvvəlcə Lənkəranda 26 fermerlə görüşdə bizə verilmiş bir tapşırığı yerinə yetirməliyəm. Bizdən xahiş etdilər ki, Heydər Əliyeviçi bu diyara dəvət edək. Onlar buna çox ümid bəsləyirlər. Hesab edirəm ki, tapşırığı yerinə yetirdim.

**Heydər Əliyev :** Sağ olun. Televiziya qarşısında deyirəm ki, yaxın vaxtlarda oraya mütləq gedəcəyəm.

**Moldova Radiosunun Moskva müxbiri :** Siz MDB-nin gələcəyini necə təsəvvür edirsiniz? Bu, bir sual. İkinci sual: bu yaxınlarda Rumıniya prezidenti Emil Konstantineskunun Azərbaycana rəsmi səfəri oldu. Nə kimi danışıqlar aparıldı və hansı sazişlər imzalandı?

**H e y d ə r Ə l i y e v :** MDB-nin gələcəyi barədə. Siz MDB dövlət başçılarının noyabr ayında Kişinyovda keçirilmiş görüşünü xatırlayırsınız. O vaxt MDB-nin mövcudluğu ərzində ilk dəfə olaraq MDB-nin vəziyyəti çox açıq, tənqidi təhlil edildi. Bu təhlil ondan ibarətdir ki, biz hamımız MDB-nin vəziyyətindən, fəaliyyətindən narazı idik. Biz hamımız MDB Dövlət Başçıları Şurasının sədrinin bu işi necə həyata keçirməsindən narazı idik. O vaxt Rusiya prezidenti Boris Yeltsin axırda dedi: «Bəli, siz bütün bunları mənim haqqımda söyləyirsiniz, gəlin tədbirlər görək».

Sonra dövlət başçılarının iclası aprelin 29-da Moskvada oldu. Onda biz ancaq təşkilati məsələ ilə kifayətləndik, forum hazırlanması barədə razılığa gəldik. Forumu iyul ayında keçirmək istədik. İndi isə deyirlər ki, payızda keçirilsin.

MDB, bax, belə bir vəziyyətdədir. Hesab edirəm ki, əgər MDB-nin fəaliyyəti beynəlxalq təşkilatların dünya praktikasında təşəkkül tapmış prinsiplərinə uyğun gələrsə, MDB yaxşı beynəlxalq orqan ola bilər. Təəssüf ki, bu, MDB-nin fəaliyyətində hələlik yoxdur. Belə beynəlxalq təşkilatlar hüquq bərabərliyini, bir-birinin suverenliyinə hörmət bəslənməsini və mənafelərin uyğunlaşdırılmasını tələb edir. Məsələn, mən MDB-nin fəaliyyətindən narazıyam. Mən bunu hələ 1993-cü ilin dekabr ayında, biz Aşqabadda görüşərkən demişdim.

Başa düşürsünüzmü, qəribə bir haldır – MDB-yə daxil olan iki dövlət bir-biri ilə hərbi münaqişədədir, MDB məkanında çoxlu münaqişə var. Gürcü-abxaz münaqişəsi var. Rusiyanın özündə Şimali Qafqazda münaqişə var. İki dövlət arasında da münaqişə var. O ölkələrdə münaqişə ölkənin daxilində gedir. Məsələn, Gürcüstanda bu, Gürcüstanın daxili işidir. Yaxud, Şimali Qafqazda münaqişə Rusiyanın daxili işidir. Burada isə MDB-yə daxil olan iki dövlət bir-biri ilə münaqişədədir. Əgər beynəlxalq təşkilat buna fikir vermirsə, buna lazımınca münasibət göstərmirsə, üstəlik, ötən ilin əvvəllərində müəyyən edildiyi kimi, atəşkəsin üçillik dövrü ərzində Rusiya Ermənistana bir milyard dollarlıq silah göndəribsə, onda MDB necə etimad doğura bilər? Həm də bu məsələni Moskvanın özündə qaldırdılar, bu işi elə oradaca üzə çıxardılar. Bizim bundan xəbərimiz yox idi, silahın haradan haraya daşındığını öyrənmək üçün nə Rusiyada, nə də Ermənistanda kəşfiyyat aparmırdıq. Bu işi Rusiya Müdafiə Nazirliyi üzə çıxardı. Dövlət Duması bu məsələni müzakirə etdi, prokurorluğa tapşırıq verilməsi haqqında qərar qəbul etdi. Prokurorluqda bütün sənədlər var ki, bir milyard dollar məbləğində bu silahlar qanunsuz, qeyri-leqal, özü də təmənnasız olaraq verilmişdir. Belə isə, bu münaqişəni necə tənzimləmək olar? Biz atəşkəsə nail olduq ki, daha müharibə olmasın, bu yandan isə Rusiyanın Müdafiə Nazirliyi Ermənistanı silahlandırır.



Yaxud da, məsələn, – bu barədə açıq deyirəm, bu haqda bir daha deyə bilərəm – mən başa düşmürəm, məsələn, Ermənistanda nə üçün hərbi bazalar olmalıdır, nədən ötrü? Biz MDB tərkibindəyik, gəlin, birliyin bütün dövlətləri üçün ümumi qaydalar işləyib hazırlayaq. Əgər Rusiya hesab edirsə ki, Ermənistanın Azərbaycanla hərbi münaqişə vəziyyətində olduğu bir vaxtda Ermənistanda hərbi baza saxlamaq olar və əgər bunu normal sayırsa, bu, məndə rəğbət doğurmur.

Ona görə də deyirəm ki, əlbəttə, biz çox istəyirik ki, MDB həqiqətən beynəlxalq orqan olsun, biz əməkdaşlıq edə bilək. Buna ehtiyac var. Çünki bizim tarixi əlaqələrimizi – keçmişdə birlikdə olmağımızı, iqtisadi baxımdan sıx bağlılığımızı, insanların bir-biri ilə çox sıx bağlı olmasını – qırmaq mümkün deyildir. Buna görə də MDB çox zəruri təşkilatdır. Bu baxımdan qarşılıqlı etimada, hörmətə mane olan nə varsa, hamısını aradan qaldırmaq lazımdır. Əgər bu edilmirsə, onda, şübhəsiz, hər kəs fikirləşir ki, nə üçün belədir?

Mən öz iradlarımı açıq deyirəm. Bu gün də deyirəm və iki il bundan öncə də bu barədə demişəm. Ona görə də mənim mövqeyim belədir ki, biz MDB-nin fəaliyyətindəki nöqsanları aradan qaldırmalı, MDB-ni daha səmərəli beynəlxalq orqana, beynəlxalq təşkilata çevirməliyik. Azərbaycan bunu həqiqətən istəyir.

O ki, qaldı Rumıniya prezidentinin Azərbaycana səfərinə, bildiyiniz kimi, Rumıniya ilə bizim aramızda mehriban münasibətlər yaranmışdır. Mən, 1995-ci ildə bu ölkəyə rəsmi səfər etmişəm. 1996-cı ilin mart ayında Rumıniya prezidenti İon İliyesku Azərbaycanda rəsmi səfərdə olmuşdur. İndi Rumıniyada rəhbərlik dəyişmiş, Emil Konstantinesku prezident seçilmişdir. Biz onunla beynəlxalq təşkilatlarda görüşmüşdük və mən onu Azərbaycana dəvət etdim. O, təkcə Azərbaycanda deyil, habelə Gürcüstanda və Ermənistanda da olmuşdur.

Biz onunla ilk növbədə dövlətlərarası məsələlərimizi, münasibətlərimizin inkişafı məsələlərini müzakirə etdik. Eyni zamanda biz Rumıniyanın və Azərbaycanın daxil olduqları Qara dəniz iqtisadi əməkdaşlığında əlaqələrimizlə bağlı məsələləri, xüsusən Transqafqaz nəqliyyat dəhlizinin, yəni Avropa-Qafqaz-Asiya magistralının gələcək inkişafı haqqında məsələni, daha dəqiq desək, Böyük İpək Yolunun bərpası haqqında məsələni – Avropa Birliyinin proqramı üzrə bu, TRASEKA proqramıdır – müzakirə etdik. Bu məsələyə Rumıniya da böyük maraq göstərir. Yeri gəlmişkən, qeyd edim ki, buna Moldovanın da marağı çox böyükdür. Moldovanın prezidenti, mənim dostum Pyotr Kirilloviç Luçinski Azərbaycanda rəsmi səfərdə olmuşdur. Biz bu məsələləri onunla da müzakirə etmişik.

Sentyabrın 7-8-də Bakıda TRASEKA proqramı üzrə Böyük İpək Yolunun bərpası məsələsinə dair beynəlxalq konfrans keçiriləcəkdir. Bu konfransı Avropa Birliyi Azərbaycanla birgə hazırlayır. Həmin konfransda İpək Yolu üzərində yerləşən ölkələr iştirak edəcəklər. Bunlar isə Yaponiyadan tutmuş, zənnimcə, Böyük Britaniyaya və hətta İrlandiyaya qədər məsafədə yerləşən təxminən 34 ölkədir. Bu məsələ də müzakirə mövzusu olmuşdur.

Ölkələrimiz arasında yaxşı münasibətlər mövcuddur. Biz bunları inkişaf etdirmək və dərinləşdirmək istəyirik. Bir sözlə, bizim söhbətlərimizin məqsədi budur.

**«Delovıye lyudi» jurnalının müxbiri, Moskva :** Azərbaycanda və Gürcüstanda bir çox siyasətçilər Rusiyanın xarici siyasət strategiyasından danışarkən onu qeyri-ardıcıl və sonu bəlli olmayan strategiya kimi səciyyələndirirlər. Məsələn, Ermənistana bir milyard dollarlıq silah verilməsini, Azərbaycan gəmilərinin Volqa-Don kanalından keçməsi problemini və Azərbaycan yüklərinin Rusiya-Azərbaycan sərhədindən nəql edilməsi problemini belə sonu bəlli olmayan və qeyri-ardıcıl aksiyalar sırasında sadalayırlar. Rusiyanın Ermənistanı bu cür dəstəkləməsində Rusiyanın iqtisadi maraqları olduğunu görmək mümkündürmü? Mən neftlə bağlı maraqları nəzərdə tuturam. Yəni böyük neft kəmərinin məhz Novorossiyskədək çəkilməsi üçün Qarabağdan Azərbaycana müəyyən təzyiq vasitəsi kimi istifadə edilirmi?

**İkinci, əlavə bir sual :** Qarabağ probleminin həlli Boris Yeltsinin iradəsindən nə dərəcədə asılıdır?



**Heydər Əliyev :** Burada Rusiyanın iqtisadi maraqları olması fikri ilə mən razılaşmazdım. Çünki Rusiyanın iqtisadi maraqları üçün Azərbaycanda hər hansı manеələr yoxdur. Biz Rusiya üçün açığıq. Yeri gəlmişkən, Rusiya ilə çox fəal ticarət gedir. Rusiya ilə Azərbaycan arasında əmtəə dövriyyəsini Aleksandr Viktoroviç yəqin məndən yaxşı bilir.

**Aleksandr Bloxin** *(Rusiyanın səfiri)*: Azərbaycanla? 320 milyon.

**Heydər Əliyev :** Yəqin, biz birinci yerdəyik?

**Aleksandr Bloxin :** Bəli.

**Heydər Əliyev :** Rusiya ilə birinci yerdəyik. Burada problem yoxdur. Yenə deyirəm, Rusiyanın Azərbaycanda iqtisadi fəaliyyəti üçün heç bir məhdudiyyət və manеə yoxdur. Bundan ötrü bizə təzyiq göstərmək lazım deyil, Ermənistanı və Dağlıq Qarabağı silahlandırmaq lazım deyildir. Bu, sadəcə olaraq ağılsız siyasətin, daha doğrusu, ağılsız fəaliyyətin nəticəsidir.

Mənə elə gəlir ki, Rusiyada hər halda, məsələn, ölkə rəhbərliyinin iradəsi ilə deyil, məhz ayrı-ayrı nazirliklər tərəfindən çox işlər görülür. Bütün bunları Müdafiə Nazirliyi etmişdir. Bu tədbirlərin Rusiyanın prezidenti və ya baş naziri ilə nə dərəcədə razılaşdırıldığını bilmirəm. Bu barədə danışmaq istəmirəm. Lakin hər halda bu cür hərəkətlər var.

Rusiyadan olduqca çox şey asılıdır, Boris Yeltsindən də çox şey asılıdır. Ola bilsin ki, Ermənistan-Azərbaycan münaqişəsinin həlli hər hansı bir ölkədən deyil, ən çox Rusiyadan asılıdır. Mən bunu açıq çıxışlarımda da, prezident Boris Nikolayeviç Yeltsinlə şəxsi söhbətlərimdə də dəfələrlə demişəm. Yeri gəlmişkən, Rusiya rəhbərliyi bunu bilir. Belə düşünürəm ki, əgər Rusiya rəhbərliyi bu işə lazımınca girişsə, münaqişəni daha tez bir zamanda aradan qaldırmaq olar, bu məsələ daha belə uzanmaz. Bir sözlə, Rusiyadan çox şey asılıdır.

**«Tverskaya, 12» qəzetinin müxbiri :** Moskva hökumətinin qəzetini təmsil etdiyimə görə mənim sualım Moskva ilə qarşılıqlı münasibətlər, inkişafın perspektivləri barəsindədir. Çünki məndə elə təsəvvür yaranıb ki, paytaxt regionu, xüsusən Yuri Lujkov münasibətlərin inkişafına, hətta Rusiya hökumətinə nisbətən daha böyük maraq göstərir. Bu, bəlkə belə deyildir?

**H e y d ə r Ə l i y e v :** Rusiyanın hakimiyyət dairələrini bir-birinə qarşı qoymaq istəmirəm. Təkcə bir şey deyə bilərəm ki, Azərbaycanın Moskva bələdiyyəsi ilə, xüsusən mer Yuri Mixayloviç Lujkov ilə çox yaxşı münasibətləri var. Prezident olduğum dövrdə o, buraya məncə, iki dəfə gəlibdir. Mən də Moskvada olarkən dəfələrlə onun yanına getmişəm. Onunla görüşüb söhbət etmişəm.

Rusiya paytaxtının 800 illiyi ərəfəsində biz burada Moskvanın mədəniyyət günlərini keçirdik. Çox böyük nümayəndə heyəti, mədəniyyət xadimləri və Yuri Mixayloviç Lujkovun özü buraya gəlmişdilər. Biz onunla Respublika Sarayında Azərbaycanda Moskva mədəniyyəti günlərinin yekun mərhələsini keçirdik.

Bizim aramızda yaxşı iqtisadi münasibətlər də yaranmışdır. Bizim Bakı şəhəri Moskva ilə iqtisadi cəhətdən çox sıx əməkdaşlıq edir. Hətta ola bilsin ki, yaxın vaxtlarda Moskva Neft Şirkəti burada yataqların birində işləməyə başlayacaqdır. Bu işlə Yuri Şafrannik məşğul olur. Bir sözlə, aramızda çox yaxşı münasibətlər var. Bu, ümumən yaxşı nümunədir.

Yeri gəlmişkən, Rusiyanın bir çox bölgələri ilə yaxşı münasibətlərimiz var. Məsələn, Həştərxan vilayəti ilə. Onun qubernatoru Qujvin burada olub, biz Həştərxan ilə Azərbaycan arasında iqtisadi saziş imzalamışıq. Bizim Tatarıstanla münasibətlərimiz çox sıxdır. Mən hələ Şimali Qafqaz respublikalarını demirəm. Onlarla bizim aramızda çox sıx iqtisadi münasibətlər var. Biz hesab edirik ki, Rusiya böyük ölkədir. Azərbaycanla Rusiya Federasiyasının subyektləri arasında birbaşa münasibətlər yaradılması iqtisadi əlaqələr baxımından qarşılıqlı fayda gətirəcəkdir. Biz belə də edirik.

**«Novoye vremya» qəzetinin müxbiri :** Cənab Prezident, son vaxtlar dünyanın müxtəlif ölkələrinin, o cümlədən bölgəmizin kütləvi informasiya vasitələrində yazılır ki, Azərbaycan-İran münasibətləri, yumşaq desək, dostluq xarakteri ilə fərqlənmir. Siz bu xəbərləri necə şərh edərdiniz?

**H e y d ə r Ə l i y e v :** İndi iş elə gətirmişdir ki, Ermənistan-İran münasibətləri çox müvəffəqiyyətlə inkişaf edir, Azərbaycan-İran münasibətləri isə, Sizin qiymətləndirdiyiniz kimi, çox da yaxşı səviyyədə deyildir. Nə demək olar, bilirsinizmi, bir vaxtlar, Sovet İttifaqı dövründə həmişə qorxudurdular ki, islam təməlçiliyi İrandan Azərbaycan vasitəsilə Sovet İttifaqına keçə bilər. Buna görə də Azərbaycanı daim nəzarət altında saxlayırdılar, onu nəzərdə tuturdular ki, Azərbaycan İranın təsiri altına düşə bilər. Sovet İttifaqı dövründə Moskvadakı və yeri gəlmişkən, Ermənistandakı bəzi siyasətçilər Sovet İttifaqının rəhbərliyini hətta qorxudub deyirdilər ki, Azərbaycana göz qoymaq lazımdır, çünki İran Azərbaycanı ələ keçirə bilər, çünki onların dini birdir, çünki orada da azərbaycanlılar var.



Görürsünüzmü, indi nələr olur. İndi Azərbaycanın da müstəqil olduğu, Ermənistanın da müstəqil olduğu bir dövrdə Ermənistanla İran arasında çox yaxşı münasibətlər, dostluq münasibətləri var. Əvvəllər bizi bunda təqsirləndirirdilər ki, biz bir dinə mənsubuq, az qala Azərbaycanda da təməlçilik inkişaf edir. Lakin mən bilmirəm, indi Ermənistanda islam təməlçiliyi nə dərəcədə inkişaf edir, hər halda onların arasında böyük dostluq var. Ancaq biz də istəyirik ki, İranla dostluq münasibətlərimiz olsun. İran Şərqin iri bir ölkəsidir. İranda çoxlu azərbaycanlı yaşayır – müxtəlif rəqəmlər göstərirlər, bəziləri 30 milyon, başqaları 25 milyon deyir. Biz onları hesablamamışıq, mətbuatda göstərilən rəqəmlərdən istifadə edirik. Hər halda, İranda azərbaycanlılar çoxdur. Hətta İranın paytaxtı Tehranın özündə, deyilənlərə görə, sakinlərin yarısından çoxu Azərbaycan millətindən ibarət olan adamlardır, İranın şimal vilayətlərində isə əhalinin yüz faizi azərbaycanlılardan ibarətdir.

Bizim İranla böyük sərhədimiz var. Ermənistan da İranla həmsərhəddir və onların sərhədinin uzunluğu cəmi 40 kilometrdir. Biz isə 1300 kilometr uzunluğunda sərhədə malikik. Əlbəttə, bizim tarixi talelərimizdə, tarixi keçmişimizdə, adət və ənənələrimizdə oxşar cəhətlər çoxdur, biz eyni bir dinə – İslam dininə mənsubuq. Biz bir-birimizlə iqtisadi cəhətdən də çox bağlıyıq. Buna görə də İranla ən yaxşı münasibətlərə, dostluq münasibətlərinə malik olmaq istəyirik. Biz İran üçün, İrana qarşı heç vaxt pis bir iş görməmişik və görməyəcəyik, əksinə, müxtəlif səbəblər üzündən meydana çıxan bütün çətinliklərə baxmayaraq, İranla dostluq münasibətlərini möhkəmlətmək üçün hər şeyi etmişik və edəcəyik.

**«Moskovskaya pravda» qəzetinin müxbiri :** Heydər Əliyeviç, siyasətçilər – istər gənc, istərsə də xatırladığımız siyasətçilər arasında Sizi ən müdrik siyasətçi adlandırırlar. Mənim sualım bəlkə də bir qədər mücərrəddir. Şəxsən Sizin üçün, əvvəla, siyasətçinin səadəti, ikincisi isə insanın səadəti məhz nədədir?

247399

M.F.Axundov adına Azərbaycan Milli Kitabxanası

**H e y d ə r Ə l i y e v :** Verdiyiniz qiymətə görə sağ olun. Mən başqa siyasətçilərdən bəlkə də yaşa görə fərqlənirəm, çünki indi mən MDB-də bütün siyasətçilərdən yaşlıyam. Mən MDB hüdudlarından kənara çıxmıram. Siyasətçi üçün səadət nədədir? Bilirsiniz ki, mənim 75 yaşım var. Mən 55 ildir əmək fəaliyyəti ilə məşğulam – bu kifayət qədər çoxdur. İndi də işləməkdən yorulmuram. Bu beş ildə Azərbaycanda həyata keçirdiyim işləri – mən hələ Azərbaycanda keçmişdə qurub-yaratdıqlarımı demirəm – özüm üçün böyük xoşbəxtlik hesab edirəm.

Hər bir insanın həyatının məqsədi insanın özü tərəfindən müəyyən edilir. Lakin bununla yanaşı müəyyən ümumi meyarlar da var. Mən dövlət fəaliyyətinə, siyasi həyata gənclik illərindən cəlb edilmiş adamam. Mən siyasətdə böyümüşəm. Təbii ki, mən siyasətdən kənarda qala bilməzdim. 1987-ci ilin axırlarında istefa verdim və təxminən bir ildən sonra mənə qarşı böhtanlar, o cümlədən bəzi Moskva qəzetlərində və mənim sevdiyim, məni sevmiş qəzetlərdə böhtanlar başlandı – onlar mənim barəmdə çox ədalətsiz yazılar dərc edirdilər. Mən incidim. Özümə söz verdim ki, siyasətdən gedəcəyəm, uzaqlaşacağam və uzaqlaşdım.

Mən şəxsi həyatımda da, ailədə də və sairədə də olduqca çox çətinliklər görmüşəm. Moskvadan, isti mənzilimdən blokadada olan, qışda şaxtanın 40 dərəcəyə çatdığı Naxçıvana gəlib çıxdım. Hətta kabinetdə də paltoda və papaqda oturur, əllərimi belə qızdıra bilmirdim. Amma mən bu şəraitdə yaşayır və hesab edirdim ki, bir daha siyasətə qayıtmamalıyam. Ancaq tale elə gətirdi ki, 1993-cü ildə siyasətə qayıtdım. Xalqım, respublikam üçün ən ağır bir dövrdə qayıtdım. Ötən bu beş il müddətində nə etmişəmsə, bunu özüm üçün böyük xoşbəxtlik sayıram.

O ki qaldı şəxsi həyatıma, mənim övladlarım, nəvələrim var. Bu, şəxsi həyatımda ən böyük xoşbəxtlikdir. Mən məmnunam ki, layiqli övladlarım – qızım və oğlum var, nəvələrim var. Onlar layiqlidirlər və hesab edirəm ki, gələcəkdə Azərbaycanın layiqli vətəndaşları olacaqlar. Bu, mənim xoşbəxtliyimdir.

**«Vesti» proqramının müxbiri :** Cənab Prezident, mənim iki sualım var. Boris Nikolayeviçlə Sizin şəxsi münasibətləriniz kifayət qədər mürəkkəb olmuşdur. Biz isə bilirik ki, ali səviyyəli siyasətçilərin şəxsi münasibətləri bizim siyasətdə, hətta ən ekstremal siyasi məsələlərdə çox böyük rol oynayır. Sizin münasibətləriniz indi necədir? Bir qədər yadlaşmanı aradan qaldıra bilmisinizmi? Bu, birinci sual.



İkincisi. Dünən biz üç rayonda olduq, ən müxtəlif təbəqələrə mənsub insanlarla söhbət etdik, onları rəsmi binadan çıxartdıq ki, öz rəhbərlərindən çəkinməsinlər. Şübhəsiz ki, hamı Sizə çox yaxşı münasibət bəsləyir. Bunun da səbəbini başa düşürük, çünki Siz atəşi dayandıra bilmisiniz və indi adamlar Sizə danışıqlar prosesinin başlıca iştirakçısı kimi baxırlar. Ancaq bizə elə gəldi ki, – Siz özünüzə abidə qoyulmasını, Sizi hansısa simvola çevirməyi qadağan etməyinizə baxmayaraq, adamlar bu qadağanı pozurlar və zaman-zaman, deyək ki, «Heydər bulağı», daha nə isə meydana gəlir. Siz buna necə baxırsınız?

**H e y d ə r Ə l i y e v :** Bilmirəm, nə üçün bəzən belə fikir söyləyirlər ki, Yeltsinlə mənim münasibətlərim mürəkkəbdir. Mənim Yeltsinlə həmişə normal və xoş münasibətlərim olubdur. Məsələn, mən o illəri götürürəm. Yeltsin Sverdlovsk Vilayət Partiya Komitəsinin birinci katibi işləyirdi, mən Azərbaycan Kommunist Partiyası MK-nın birinci katibi işləyirdim. Aramızda elə bir dostluq yox idi, ancaq MK-nın plenumlarında, sessiyalarda görüşür, bir-birimizi mehribanlıqla salamlayırdıq. Doğrudur, hansısa xüsusi, şəxsi əlaqələrimiz yox idi. Mən Moskvada Siyasi Büronun üzvü, Nazirlər Soveti sədrinin birinci müavini işləyən vaxt Yeltsin Moskvaya dəvət olundu və Sov.İKP MK-nın tikinti şöbəsinin müdiri təyin edildi. Bizim işgüzar əlaqələrimiz var idi, xüsusən də ona görə ki, Nazirlər Kabinetində mən nəqliyyat və tikintiyə kuratorluq edirdim, o isə tikinti şöbəsinin müdiri idi. Biz çox vaxt bir-birimizlə telefonla əlaqə saxlayırdıq.

Hətta xatirimdədir, Arkadi Brejnev nəqliyyat tikintisi naziri təyin olunmuşdu – indi bu nazirlik yoxdur, ancaq o, deyəsən, hansısa nəqliyyat tikintisi təşkilatına rəhbərlik edir – və Nazirlər Sovetində bu sahəyə kuratorluq edən birinci müavin kimi mən onu təqdim etməli idim. Yeltsin də oraya gəldi və tikinti şöbəsinin müdiri kimi təqdimatda iştirak etdi. Biz oraya birlikdə gedib birlikdə də qayıtdıq.

O, Vilayət Partiya Komitəsinin birinci katibi işləyəndə mən Siyasi Büronun üzvü idim. Mən onun işlərinə çox müsbət yanaşır və onu dəstəkləyirdim. Yeri gəlmişkən, – bunu bəlkə də heç kim bilmir – 1987-ci ilin oktyabr ayında Yeltsin plenumda çıxış edəndə Siyasi Büro üzvlərinin, demək olar, hamısı çıxış edib Yeltsini pisləyəndə və dost-

larından bəziləri onun çıxışının arxadan vurulan bıçaq zərbəsi olduğunu bəyan edəndə, mən Yeltsinin əleyhinə çıxış etmədim. Ona görə də Yeltsinin məndən narazı olmağa əsası yoxdur. Əgər Yeltsin mənim barəmdə nə vaxtsa hansısa bəyanatlar veribsə, – keçmiş vaxtlarda bunlar olubdur – mən bunları ciddi qəbul etmirəm. Ona görə də bizim aramızda hansısa mürəkkəb münasibət olduğunu deyə bilmərəm. Mənim onunla dostluğum olmayıb, amma bir-birimizə heç bir ədavətimiz də olmayıbdır.

Mən burada prezident olanda, hələ prezident olmazdan əvvəl – prezidentin səlahiyyətlərini həyata keçirirdim – ona zəng etdim və Moskvaya getdim. Hələ prezidentin vəzifələrini icra edərkən MDB-yə daxil olmaq məsələlərini onunla müzakirə etdim, çünki Azərbaycan o vaxt MDB-yə daxil deyildi. Keçmiş rəhbərlik MDB-yə daxil olmaqdan imtina etmişdi. Artıq Azərbaycanın rəhbəri kimi, mənim onunla ilk görüşüm oldu. Sonralar aramızda normal münasibətlər yarandı. Mənim rəsmi səfərim oldu. Biz ötən il iyulun 3-də Kremldə mühüm sənədlər imzaladıq. Buna görə də mən ona böyük hörmət bəsləyirəm. Hərçənd sizdə, Rusiyada ona münasibət müxtəlifdir.

Onun axırıncı dəfə seçildiyi prezident seçkiləri zamanı mən mənən onun tərəfində idim. Gizlətmirəm. Bu seçki kampaniyası ərəfəsində Yeltsin Kislovodskda görüşməyi xahiş etdi. O, Şimali Qafqaz respublikalarının rəhbərləri ilə görüşürdü və təklif etdi ki, bu görüşdə Gürcüstan, Ermənistan və Azərbaycan prezidentləri də iştirak etsinlər. Gizlətmirəm, bu ötən söhbətdir. Mən bu görüşə getmək istəmirdim, ona görə yox ki, Yeltsini müdafiə etmək istəmirdim, Ermənistanla münasibətlərimizlə bağlı mənim başqa mülahizələrim vardı. Mən bu görüşə getmək istəmirdim. Lakin o vaxt Rusiya baş nazirinin birinci müavini olan Aleksey Alekseyeviç Bolşakov buraya gəldi. O mənimlə bir neçə saat danışıq apardı və Yeltsinin adından oraya getməyimi xahiş etdi. Dedi ki, siz getməsəniz, başqa prezidentlər də getməyəcəkdir. Mən başa düşdüm ki, bəli, Qafqazda ümumi həmrəylik yaratmaq üçün bu zəruridir. Mən Kislovodska gəldim və orada onu dəstəkləyən çıxış etdim və Şimali Qafqaz respublikalarının rəhbərlərinə birbaşa müraciət etdim. Onlardan bir çoxunu çoxdan tanıyıram və onlar da məni tanıyır. Yeri gəlmişkən, mənə hörmət bəslədiklərinə görə onlara minnətdaram. Mən onlara açıq dedim ki, Rusiyada islahatlar xəttini, demokratikləşdirməni dəstəkləmək lazımdır, bizə demokratik Rusiya lazımdır, bunun üçün isə Yeltsini müdafiə etmək lazımdır. Mən bunu açıq şəkildə dedim və televiziya bunun hamısını göstərdi.



Buna görə də münasibətlərimizdə hansısa çətinliklərin olması fikri ilə razılaşa bilmərəm. Hesab edirəm ki, hazırda münasibətlərimiz normaldır, yaxşıdır və istəyirəm ki, bunlar Rusiya və Azərbaycan arasında dostluq münasibətlərinin bundan sonra da möhkəmlənməsi naminə həmişə yaxşı olsun. Bilirsiniz, biz – dövlət başçıları – etimad göstərilmiş adamlar subyektiv hisslərə qapıla bilmərik. Bizim buna ixtiyarımız yoxdur. Çünki xalqın taleyi, dövlətin taleyi, ölkənin taleyi subyektiv hisslərdən və bütün şəxsi münasibətlərdən yüksəkdə durmalıdır. Mən həmişə bu prinsipləri rəhbər tutmuşam və bu gün də rəhbər tuturam.

İkinci sual barədə. Mən sizin dediyiniz bütün hallara mənfi münasibət bəsləyirəm. Belə şeyləri qadağan edirəm. Siz burada yəqin hiss etdiniz ki, adamların çoxu mənə böyük hörmət, hətta məhəbbət bəsləyir. Bu məhəbbət, bu hörmət isə müxtəlif şəkildə ifadə olunur. Mən iki, üç il bundan əvvəl hiss etdim ki, haradasa mənim büstlərimi hazırlamağa və haradasa yaymağa başlamışlar. Mən bunu qadağan etdim. Prospektlərdə mənim böyük portretlərimi asmağa başladılar. Mən bunu da qadağan etdim. Prezidentin portreti ola bilər və olmalıdır, çünki o, prezidentdir – dövlətin rəmzidir. Lakin küçədə yox, meydanda yox. Mən bütün bunları qadağan etdim.

Naxçıvanda yaşayarkən mənim iştirakımla Yeni Azərbaycan Partiyası yaradıldı və məni bu partiyanın sədri seçdilər. Bu partiyanın fəallarından biri öz pullarını sərf edərək mənim böyük büstümü hazırlamış və onu Bakının rayonlarından birində bu partiyanın ofisi qarşısında qoymağa cəhd etmişdi. Bu mənə məlum oldu, mən buna yol verilməməsi barədə göstəriş verdim. O, şəhərin merinə, rayonun İcra hakimiyyəti başçısına tabe olmadı. Mən onu yanıma dəvət etməli oldum. Bu işə iki saat vaxt sərf etdim. O ağladı, dedi ki, bunu mənə olan məhəbbətinə görə edir. Mən ona dedim ki, sənin hisslərini başa düşürəm, sağ ol, lakin bununla mənə xeyir gətirmirsən. O soruşdu ki, bəs nə edim. Mən dedim ki, bu büstü haradasa gizlət. Mən həyatda olmayanda qoya bilsən, qoy. Mən hamıya deyirəm: əgər siz məni həqiqətən belə qiymətləndirirsinizsə və adımı əbədiləşdirmək istəyirsinizsə, bacarsanız bunu mən dünyamı dəyişəndən sonra edin.

**Sankt-Peterburq Televiziyasının müxbiri :** Mənim iki sualım var. Birincisi, Azərbaycanın başlıca sərvəti olan neft barəsindədir. Bu günlərdə Rusiya və Qazaxıstan prezidentləri Xəzər dənizinin dibinin bölüşdürülməsi haqqında müqavilə imzalamışlar. Bu müqavilə barəsində və Xəzərin neft sərvətlərinin birgə işlənilməsi haqqında Sizin rəyinizi, Azərbaycanın mövqeyini eşitmək istərdim.

İkinci sualım tamamilə başqa mövzudadır. Biz burada öyrəndik, bizə dəfələrlə dedilər ki, Azərbaycanda və Bakıda cinayətkarlıq yoxdur. Biz Bakıda çox gec, gecə saat birdə, ikidə çıxıb gəzirdik – şəhərə baxmaq istəyirdik – həqiqətən çox sakit, çox mehriban, çox ürəyəyatan şəhərdir. Eyni zamanda Rusiyanın kriminal aləmində məhz azərbaycanlı cinayətkar qruplaşmalar kifayət qədər mühüm rol oynayır. Mən Moskva barədə deməyəcəyəm, ancaq Sankt-Peterburqda azərbaycanlı qruplaşması narkotiklərlə ticarətə nəzarət edir. Bu adamlar – zənnimcə, Rusiyada yaşayan azərbaycanlılar arasında belələri azdır – rusiyalıların nəzərində Azərbaycan haqqında təsəvvürə xeyli təsir göstərirlər. Bu uyğunsuzluğu aradan qaldırmaq üçün, ola bilsin, Rusiyanın orqanları ilə birlikdə nə iş görülür ki, burada bizə qarşı olduğu kimi, Rusiyada da azərbaycanlılara xeyirxah münasibət bəslənilsin?

**H e y d ə r Ə l i y e v :** Mən birinci suala cavab verəcəyəm. Xəzər dənizinin dibinin bərabər məsafə prinsipi üzrə orta xətt boyunca öz sektorlarına bölünməsi haqqında prezident Boris Yeltsinin və prezident Nursultan Nazarbayevin saziş imzalamaları haqqında xəbəri böyük sevinclə qarşıladım. Bu bizim 1994-cü ilin sentyabr ayından bəri, Xəzər dənizinin Azərbaycan sektorundakı neft yataqlarından istifadə olunmasına dair ilk müqaviləni imzaladığımız vaxtdan müdafiə etdiyimiz prinsipdir. Biz həmişə bu mövqedə olmuşuq və indi də həmin mövqedəyik ki, Xəzər dənizini Xəzəryanı ölkələr arasında sektorlara bölmək lazımdır. Ancaq bizim bu mövqeyimiz nə Rusiyada, nə də İranda dəstəklənmədi, Qazaxıstan, Türkmənistan da buna müsbət yanaşmırdılar. Ancaq vaxt keçdi, hər halda həyat göstərdi ki, bundan yaxşı prinsip tapmaq mümkün deyildir. Hesab edirəm ki, Rusiya və Qazaxıstanın atdıqları addım düzgündür. Mən bunu alqışlayıram. Biz bu prinsip barədə mövqeyimizdə möhkəm dayanırıq.

Rusiyada, o cümlədən Sankt-Peterburqda azərbaycanlılar tərəfindən olan cinayətkarlığa gəldikdə isə, bilirsiniz, mən açıq deyirəm, bunu eşitmək bizim üçün ağırdır. Əgər biz Azərbaycanda cinayətkarlığın qarşısını ala bilmişiksə, – mən artıq qeyd etdim ki, üç il bundan öncə, hətta iki il bundan öncə də belə deyildi, həm də bu, asanlıqla başa gəlməyib, ümumən bizim, o cümlədən hüquq-mühafizə orqanlarımızın böyük, gərgin işinin nəticəsidir – azərbaycanlıların Rusiyada, Sankt-Peterburqda kriminal hərəkətlər etməsi ağır gəlir. Ancaq bununla yanaşı, biz Rusiya ərazisində iş apara bilmərik. Hər bir ölkə öz ərazisi üçün cavabdehdir və hər bir ölkə özünün şəhərində, yaxud ölkəsinin ərazisində öz qanunlarına müvafiq olaraq iş görməlidir.



Mən hesab etmirəm ki, orada cinayət törədənlər təkcə azərbaycanlılardır. Əgər Sankt-Peterburqda cinayətkarlıq çoxdursa və bu cinayətkarlığın olmasında azərbaycanlılar günahkardırlarsa, onlar da bütün başqaları kimi cəzalandırılmalıdırlar. Bəs onları nə üçün cəzalandırmırlar? Nə üçün tutmurlar? Nə üçün? Mən sizə açıq deyirəm, bizim elə imkanımız yoxdur ki, Rusiya kimi böyük ölkəyə öz nümayəndələrimizi göndərək ki, orada cinayət törədən azərbaycanlıları Rusiyanın və ya hansısa şəhərlərin hüquq-mühafizə, yaxud digər dövlət orqanları ilə birlikdə tutsunlar. Cinayətkar harada cinayət törədirsə, hansı ölkənin vətəndaşı olmasından asılı olmayaraq, orada da məsuliyyətə cəlb edilməlidir – qanunla bu, belədir. Əgər Sankt-Peterburqda yaşayan azərbaycanlılar – birincisi, bəlkə də onlar artıq Azərbaycan vətəndaşı deyillər, çünki Rusiyada çox insanlar yaşayır, ancaq onlar Rusiya vətəndaşlarıdır – cinayət törədirlərsə, Rusiya hüquq-mühafizə orqanlarının onlara qarşı qanun tətbiq etməyə tam ixtiyarı var. Əgər bu qanun tətbiq edilmirsə, bu bizdə təəssüflə ağrı doğurur, xüsusən də ona görə ki, Siz deyirsiniz, bu, müəyyən dərəcədə Azərbaycanın imicini gözdən salır. Mən bu fikirlə razıyam. Biz birlikdə mübarizə aparmalıyıq.

**«Veçernyaya Moskva» qəzetinin müxbiri :** Heydər Əliyeviç, Qarabağ üstündə münaqişə başlayanda Siz Moskvada idiniz. Cəsarətlə deyə bilərəm ki, nadir istisna olmaqla, bütün Rusiya mətbuatı münaqişəni heç də həmişə ermənilərə rəğbətlə deyil, amma ermənilərin mövqeyindən işıqlandırırdı. Bu niyə belə oldu? İndi bu məsələ barəsində bəzi şeylər dəyişmişdir. 1994-cü ildən sonra ona daha obyektiv yanaşmağa başlamışlar. Sizcə, nə üçün belə olmuşdu, bu münaqişə nə üçün belə tərəfkeşliklə işıqlandırılırdı?

**H e y d ə r Ə l i y e v :** Bilirsinizmi, Ermənistan mətbuatının nümayəndələri buradadır. Demək istəyirəm ki, biz, şəxsən mən belə

mövqelərdə dururuq: keçmişdə nə olubsa, qoy keçmişdə də qalsın, irəliləmək və sülhə nail olmaq lazımdır. Mən bu fürsətdən istifadə edib sizə və bütün dünyaya bəyan etmək istəyirəm ki, biz münaqişənin sülh yolu ilə aradan qaldırılmasını, Ermənistan ilə Azərbaycan arasında sülh, özü də uzunmüddətli sülh, etibarlı sülh, möhkəm sülh yaranmasını istəyirik. Başqa yol yoxdur. Mənim çoxillik həyat təcrübəm və ümumiyyətlə bəşər tarixi, müxtəlif ölkələrdə, müxtəlif bölgələrdə müharibələrin tarixi göstərir ki, bu siyasət perspektivsiz siyasətdir. Ermənistanın və Azərbaycanın ərazi bütövlüyünə əməl etmək şərti ilə Ermənistan ilə Azərbaycan arasında sülh sazişi bağlamaq, əvvəlki mehriban qonşuluq münasibətlərini yaratmaq lazımdır. Prinsiplər haqqında sizə danışdım. Ona görə də keçmişə qayıtmaq istəməzdim.

Lakin bir halda ki, sual vermisiniz, deməliyəm – faciə də məhz bundadır ki, münaqişəni öz aralarında xalqlar deyil, ayrı-ayrı ekstremist, çox qatı millətçi ünsürlər yaratmışlar. Onlar həmişə olublar. Mən Azərbaycanda bir çox illər işləmişəm və respublikaya təxminən 14 il rəhbərlik etmişəm. Dağlıq Qarabağa yaxşı bələdəm, bu vilayəti, necə deyərlər, eninə-uzununa gəzib-dolaşmışam. Mən Ermənistanda dəfələrlə olmuşam və ermənistanlı həmkarlarım da Azərbaycanda dəfələrlə olublar. Azərbaycanda mənim fəaliyyətimin bütün dövrü ərzində bizim aramızda böyük dostluq olubdur. Mən Dağlıq Qarabağa, Stepanakertə – indiki Xankəndiyə gələndə məni Azərbaycanın hər hansı digər yaşayış məntəqəsindəkindən daha yaxşı qarşılayırdılar. Necə dostluq vardı! Birdən-birə bunların hamısı alt-üst oldu. Bunu həmin məqsədi güdən ayrı-ayrı ekstremistlər alt-üst etdilər.

Bu gün mən belə bir faktı xatırlayıram. 1975-ci ildə Azərbaycanda sovet ədəbiyyatı günləri keçirilirdi. Biz Sovet İttifaqının bütün respublikalarından, təbii olaraq həm də Rusiyadan, Moskvadan ən görkəmli ədəbiyyat xadimlərini dəvət etmişdik. Mən o günləri Azərbaycanın tarixində xüsusi hadisə kimi xatırlayıram. O vaxt görkəmli adamlar bizdə qonaq oldular – onların bir çoxu artıq aramızda deyildir. Mərhum Mariyetta Şaginyan ilk dəfə gəlmişdi. Özünün mənə dediyinə görə, Azərbaycanda, Bakıda 1948-ci ildən olmamışdı. Burada nə isə bir münaqişə baş vermişdi, o çıxıb getmişdi və buraya gəlmirdi. 1975-ci ildə isə gəldi. O vaxt mən onunla ilk dəfə şəxsən tanış oldum. Ondan xahiş etdim: Mariyetta Sergeyevna, bilirsinizmi, bu günlər qurtardıqdan sonra, zəhmət olmasa, Dağlıq Qarabağa gedin, Azərbaycanın ermənilər yaşayan bəzi digər bölgələrinə gedin, onlarla görüşüb danışın, bir görün orada nə kimi məsələlər var. Sonra mənə danışarsınız.

O, iyirmi gün burada mənim şəxsi qonağım oldu. Dağlıq Qarabağda, Gəncədə – o vaxtkı Kirovabadda, başqa yerlərdə oldu, Bakıda çoxları ilə görüşüb ünsiyyət saxladı. Burada çoxlu erməni yaşayırdı. Sonra biz onunla görüşdük. O, yanıma gəlib dedi: bilirsinizmi, mən buraya, Bakıya Yerevandan gəlmişəm. On gün Yerevanda qaldım, mehmanxanada yaşayırdım. Həmkarlarım – alimlər, yazıçılar yanıma gəldilər, Sov.İKP MK-ya yazıb imzaladıqları bir məktubu mənə verdilər və xahiş etdilər ki, Dağlıq Qarabağın Azərbaycandan alınıb Ermənistana verilməsi barədə məktubu mən də imzalayım. Mən onları dinləyib dedim: siz dəli olmusunuz, bu nəyinizə gərəkdir? O vaxtlar o, Dağlıq Qarabağda hələ olmamışdı. Deyirdi ki, biz bir ölkədə – Sovet İttifaqında yaşayırıq. İndi problem yaratmaq nəyinizə lazımdır? Dedi ki, mən onları söyüb biabır etdim və qovdum.

Mən bu faktı nə üçün xatırlayıram? Belə cəhdlər hələ 1975-ci ildə, hələ 1965-ci ildə də olmuşdu, lakin onda bunların qarşısı vaxtında alınmışdı. O vaxtlar Mariyetta Şaginyan burada oldu və öz təəssüratı barədə, Dağlıq Qarabağda keçirdiyi görüşlər barədə mənə danışdı. Sonralar biz onun ömrünün sonunadək dost olduq, məktublaşdıq.

Ekstremisit, separatçı hərəkatlar həmişə olmuşdur. Bunların qarşısını almaq lazım idi. Bütün bəla bundadır ki, 1988-ci ildə, 1987-ci ilin axırında onlar baş qaldırdılar və Qorbaçov onlarla sövdələşməyə girdi, onları ümid etdi ki, Dağlıq Qarabağı Ermənistan Respublikasının tərkibinə verəcəkdir və beləliklə, onlar fəal çıxışa başladılar. Buna Qorbaçov, onun ətrafındakılar və mətbuat tərəfindən əvvəlcədən müəyyən dərəcədə dəstək verildiyinə görə, Sizin dediyiniz həmin vəziyyət yarandı. Onlar Dağlıq Qarabağı qoparmaq və Ermənistana vermək iddiası ilə bu münaqişəni başladılar, özləri isə Azərbaycanı günahlandırdılar.

Mən sonralar bu barədə dedim və indi də xatırlayıram. Axı münaqişə 1988-ci ilin fevral ayında başlanmışdı. Qorbaçov bu məsələni yalnız 1989-cu ildə Ali Sovetin iclasında müzakirə etdi. Özü də o vaxt Ali Sovetin sədri Qromıko idi, Qorbaçov isə Baş katib kimi bu məsələni müzakirə etdi və qərara gəldi ki, bilirsiniz, Dağlıq Qarabağ üzrə xüsusi idarə yaratmaq və Dağlıq Qarabağı Moskvaya tabe etmək lazımdır.

Ağıllı bir şey tapa bilmədi. Bununla da o özü Sovetlər İttifaqının dövlət quruluşu prinsipini pozdu. Ona görə də belə vəziyyət yarandı.

Bəli, o zaman mən Moskvada yaşayırdım, ancaq heç bir hüququm yox idi. Mən – bundan cəmi yarım il öncə Siyasi Büronun tərkibinə daxil olan, Qorbaçovla, başqaları ilə bir yerdə oturan və iclaslarda iştirak edən insan – bunu hiss edəndə, bundan xəbər tutanda onlarla əlaqə saxlamağa, Siyasi Büronun digər üzvləri ilə görüşməyə çalışdım. Mənim telefon zənglərimə heç kim cavab vermirdi. Əgər azacıq ağılları olsaydı – Əliyev on dörd il Azərbaycana rəhbərlik etmiş, beş il Siyasi Büronun üzvü olmuş, ondan əvvəl 25 il Azərbaycanda DTK-da işləmişdir – fikirləşərdilər ki, gəlin, heç olmasa, ondan soruşaq ki, indi nə etməliyik. Onunla razılaşmamaq olar, ancaq o bizə nə isə deyəcəkdir. Əlaqə saxlamaq, məsləhət vermək üçün göstərdiyim bütün cəhdlərə onlar əsla məhəl qoymadılar. Bu münaqişənin qarşısını hələ 1988-ci ildə, 1989-cu ildə almaqdan ötrü nə isə etmək üçün göstərdiyim bütün cəhdlər heç bir nəticə vermədi. Məni tamamilə təcrid etdilər. İndi isə budur, acı nəticələrini dadırıq. Qorbaçovun Dağlıq Qarabağda etdikləri sonradan Abxaziyada, Osetiyada, daha sonra Çeçenistanda, Şimali Qafqazda baş verdi. Bütün bu münaqişələrin günahkarı Qorbaçov və onun rəhbərlik etdiyi Sov.İKP MK-nın Siyasi Bürosu və Sovet hökumətidir.

* * *

**Bu suala cavab verdikdən sonra Azərbaycan Prezidenti Heydər Əliyevə «Hakimiyyət: ayna və ya xidmətçi» kitabı təqdim olundu.**

Azərbaycan dövlətinin başçısı görüşün sonunda dedi:

– Hörmətli dostlar, sizinlə görüşə bildiyimə və mənə bu imkanı verdiyinizə, habelə öz fikirlərimi söyləməyə imkan yaratdığınıza görə məmnun qaldığımı bildirmək istəyirəm. Hesab edirəm ki, Siz mənim fikirlərimi dediyim kimi açıqlayacaqsınız. Mən hesab etmirəm ki, kimsə hansısa təhrifə yol vermiş olsun. Mən jurnalistikaya, mətbuata, jurnalistlərə hörmətlə yanaşır, onların əməyini çox faydalı, çox lazımlı sayıram, xüsusən də yeni hakimiyyət, yeni dövlət, yeni demokratik quruluş yaratdığımız bir vaxtda. Mətbuatsız demokratikləşdirmə ola bilməz. Müxalifətsiz demokratikləşdirmə ola bilməz. Mətbuat müəyyən dərəcədə müxalifət rolunu da oynayır. Yeri gəlmişkən, Sovetlər İttifaqı dövründə «Literaturnaya qazeta», bütün başqa qəzetlərlə müqayisədə, müəyyən dərəcədə müxalifətdə dayanan qəzet idi. Buna görə də onu çox oxuyurdular, amma bəziləri onu xoşlamırdı. Mən «Literaturnaya qazeta»da çıxış etmişəm. 1980-ci və ya 1981-ci ildə «Qoy ədalət zəfər çalsın» sərlövhəsi altında ümumən mənəviyyat problemləri haqqında, o cümlədən Azərbaycanda mənəviyyat uğrunda necə mübarizə apardığımız barədə bütöv bir səhifə verilmişdi. Həmin məqalə böyük əks-səda doğurmuşdu. Mən o zaman korrupsiya ilə, mənəviyyata zidd olan müxtəlif hallarla necə mübarizə apardığımızdan danışmışdım.

8 il sonra elə həmin «Literaturnaya qazeta» mənim əleyhimə yazılmış böhtanlarla dolu məqalə dərc etdi. Eybi yoxdur. Bütün bunlar keçmişdə qalmışdır. İndi tarix kimin kim olduğunu göstərdi. Hər halda, bu böhtançı məqaləni hazırlayan adamlar indi, demək olar, yoxdur. Əliyev isə bütün bunlara davam gətirdi və hazırda müstəqil Azərbaycanın Prezidentidir.

Mən bütün bunları görmüşəm, bütün bunlardan keçmişəm və hesab edirəm ki, mətbuat da müxalifət rolu oynayır, ancaq sağlam, normal, konstruktiv müxalifət rolu. Bu isə istər Rusiyada, istərsə də Azərbaycanda hər şeyi demokratikləşdirmək üçün çox lazımdır. Əmin ola bilərsiniz ki, Azərbaycanın Prezidenti kimi mən, demokratiyanın inkişaf etdirilməsi mövqeyində möhkəm dayanıram. Rusiya ilə dostluq münasibətləri olmasını istəyirəm, ancaq imperiya Rusiyası ilə deyil, demokratik Rusiya ilə. Keçmiş Rusiya ilə deyil, bugünkü, daha çox isə gələcək Rusiya ilə. Bu işdə isə sizin rolunuz böyükdür. Sizə öz fəaliyyətinizdə uğurlar arzulayıram. Diqqətinizə görə sağ olun.

## BÖYÜK BRİTANİYAYA RƏSMİ SƏFƏR

### BİNƏ HAVA LİMANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİ NÜMAYƏNDƏLƏRİNİN SUALLARINA CAVAB

*19 iyul 1998-ci il*

**S u a l :** Cənab Prezident, Böyük Britaniya ilə Azərbaycan arasında olan münasibətlərin indiki səviyyəsi göstərir ki, Sizin Londona növbəti səfəriniz iki ölkə arasında münasibətlərin inkişafında yeni mərhələ açacaqdır. Bu barədə nə deyə bilərsiniz?

**C a v a b :** Bəli, bizim ölkələrimiz arasında münasibətlər çox yaxşıdır. Bunların əsasını 1994-cü ilin fevral ayında mənim Böyük Britaniyaya ilk səfərim zamanı qoymuşuq. Biz o vaxt dostluq və əməkdaşlıq haqqında birgə bəyanat və bir çox müqavilələr, sazişlər imzalamışıq. Ona görə də bizim ölkələrimiz, dövlətlərimiz arasında bütün sahələrdə əməkdaşlıq etmək üçün lazımi, yetərli qədər hüquqi-normativ baza vardır. Bunun əsasında da bu əməkdaşlıq ötən illərdə inkişaf edibdir və bunun nəticələri göz qabağındadır.

Böyük Britaniyanın çoxsaylı şirkətləri Azərbaycanda fəaliyyət göstərir. Böyük Britaniya öz şirkətləri vasitəsilə Azərbaycana böyük sərmayələr, investisiyalar qoyur. İndi bu əlaqələri daha da yüksəyə qaldırmaq, inkişaf etdirmək üçün şübhəsiz ki, bu səfər əhəmiyyətlidir. Məni baş nazir cənab Toni Bleyr dəvət edibdir. Mən bu dəvəti qəbul etmişəm və bu gün oraya gedirəm. Bizim görüşlərimiz, danışıqlarımız olacaqdır və hesab edirəm ki, yaxşı nəticələr verəcəkdir.

**S u a l :** Cənab Prezident, səfər zamanı sənədlərin imzalanması nəzərdə tutulurmu?

**C a v a b :** Bizim bütün sahələrdə mövqelərimizin bir daha müəyyənləşdirilməsi təsdiq ediləcəkdir. Əsas sənəd birgə bəyanat olacaqdır, amma başqa sənədlər də imzalanacaqdır.

**S u a l :** Cənab Prezident, icazə verin, Sizə ANS teleşirkəti adından səfərlə bağlı olmayan bir sual verim. Bu yaxınlarda müxalifətin mövqeyini əks etdirən şərtlərin bəziləri Sizin tərəfinizdən qəbul olundu.



Yəni bu, böyük bir güzəşt kimi qiymətləndirilir. Amma indi müxalifət deyir ki, əgər Mərkəzi Seçki Komissiyasında müxalifətə altı yer veriləsə, biz seçkilərdə iştirak edərik. Kifayət qədər güzəşt addımı atmış iqtidar bu güzəştə də gedəcəkmi?

**C a v a b :** Onda sən də de ki, «Mənə beş yer verilməsə, mən ANS-də işləməyəcəyəm». Bilirsiniz, bu məsələlər onlar dediyi kimi heç vaxt həll oluna bilməz. Çünki «Mən bunu istəyirəm, onu istəyirəm». Nə üçün? Sən belə danış ki, «Mən ANS-də işləmək üçün gərək mənə üçqat məvacib verəsən». Deyə bilərsən?

**S u a l :** Möhtərəm Prezident, bu səfər çərçivəsində iqtisadi sahədə nələr gözlənilir?

**C a v a b :** Ola bilər ki, iqtisadi sahədə neft yataqlarının müştərək istifadə olunması üçün böyük bir müqavilə imzalansın. Sağ olun.

## LONDONDA JURNALİSTLƏRİN SUALLARINA CAVAB

*London*
*21 iyul 1998-ci il*

**Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev ilə Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının baş naziri Toni Bleyrin görüşü başa çatdıqdan və sənədlərin imzalanması mərasimindən sonra, ölkəmizin rəhbəri baş nazirin iqamətgahı qarşısında jurnalistlərin suallarına cavab verdi.**

**S u a l :** Bu gün Azərbaycanın imzaladığı müqavilələri necə qiymətləndirirsiniz?

**İ k i n c i s u a l :** Rusiya Xəzərdə Azərbaycan üçün tərəfdaşdır, yoxsa rəqib?

**C a v a b :** Birincisi, mən bu gün imzalanmış müqavilələri çox müsbət qiymətləndirirəm, əks halda onların imzalanmasına razılıq verməzdim. Yeri gəlmişkən, nəzərinizə çatdırım ki, bu gün bir sazişi imzalayanlar arasında Rusiya, Moskva şirkəti də var. Moskva Neft Şirkəti adından müqaviləni Rusiyanın keçmiş energetika naziri Yuri Şafrannik imzaladı. O buradadır. Bu faktın özü Sizin sonrakı sualınıza cavab verir. Rusiya Xəzər dənizində Azərbaycan üçün, əlbəttə ki, tərəfdaşdır. Rusiya bir sıra müqavilələrdə iştirak edir. İndi isə, gördüyünüz kimi, biz hətta burada, Londonda Birləşmiş Krallığın şirkəti, Amerika Birləşmiş Ştatlarının «AMOKO» şirkəti və Rusiya şirkəti ilə də müqavilə imzalayırıq. Yəni biz Xəzərdə hamı ilə və təbii ki, Rusiya ilə də əməkdaşlıq etmək istəyirik.

**S u a l :** Britaniya-Azərbaycan tərəfdaşlığının indiki səviyyəsini necə qiymətləndirirsiniz? Hesab etmək olarmı ki, bu gün imzalanmış çox mühüm sənədlərdən sonra bu tərəfdaşlıq artıq strateji xarakter alır?

**C a v a b :** Bu tərəfdaşlıq artıq yüksək səviyyədədir. Bizim – baş nazir cənab Bleyrin və mənim imzaladığımız siyasi bəyannamə Birləşmiş Krallıq ilə Azərbaycan arasında əməkdaşlıq və dostluğa dair məsələlərin bütün kompleksini nəzərdə tutur. Bu siyasi bəyannamənin məzmununun özü onun əhəmiyyətindən xəbər verir. Həmin bəyannamə



mətbuatda dərc ediləcək, Siz onunla tanış olacaq və özünüz nəticə çıxaracaqsınız.

**S u a l :** Bəyannamədə Dağlıq Qarabağ haqqında da söhbət gedirmi?

**C a v a b :** Şübhəsiz. Özü də təkcə Dağlıq Qarabağ haqqında yox. Dağlıq Qarabağ ətrafında Ermənistan-Azərbaycan münaqişəsinin sülh yolu ilə aradan qaldırılması haqqında məsələ Birləşmiş Krallığın baş naziri ilə söhbətimizdə çox böyük yer tutmuşdur. Əlbəttə, Birləşmiş Krallıq BMT-nin, ATƏT-in prinsiplərinin dəyişməzliyinə və beynəlxalq hüquqa tərəfdar çıxmışdır. 1996-cı ilin dekabrında Lissabon Zirvə görüşündə Birləşmiş Krallıq münaqişənin sülh yolu ilə həllinin üç prinsipinə səs vermişdir. Bu gün baş nazir Birləşmiş Krallığın bu mövqeyini bir daha bütünlüklə təsdiqlədi və təbii ki, regionumuzda tam sülhə, Ermənistan-Azərbaycan münaqişəsinin sülh yolu ilə həllinə nail olmaq üçün onlar tərəfindən göstəriləcək səyləri bildirdi.

**S u a l :** Cənab Prezident, Azərbaycan Avropa Şurasına üzv olmaqda İngiltərənin köməyinə bel bağlaya bilərmi?

**C a v a b :** Bəli, biz hamısına bel bağlayırıq. Avropa Şurasına çox dövlətlər mənsubdur, onların hər birinin dəstəyi bizə lazımdır. O cümlədən Birləşmiş Krallığın da dəstəyi lazımdır və güman edirəm, bu dəstəyi də alacağıq.

**S u a l :** Cənab Prezident, kraliça ilə görüşünüz barədə nə deyə bilərsiniz?

**C a v a b :** Kraliça ilə görüşüm mənə çox yaxşı təsir bağışladı. Biz həm ölkələrimiz arasında əlaqələr barəsində, İngiltərə mədəniyyəti haqqında, Azərbaycan mədəniyyəti haqqında, eyni zamanda Azərbaycandakı mövcud ictimai-siyasi vəziyyət, Ermənistan-Azərbaycan münaqişəsi barəsində və Birləşmiş Krallıq ilə Azərbaycan arasında olan münasibətlər, iqtisadi əlaqələr haqqında çox ətraflı söhbət etdik. Mən bu söhbətdən çox məmnunam.

**S u a l :** Cənab Prezident, İpək Yolunun bərpası məsələsindən danışıldımı?

**C a v a b :** Bəli, mən cənab Toni Bleyrə İpək Yolunun bərpası və sentyabr ayının 7-8-də Bakıda keçiriləcək Zirvə görüşü haqqında çox ətraflı məlumat verdim. Bilirsiniz ki, o da həmin Zirvə görüşünə dəvət olunubdur. Baş nazir cənab Toni Bleyr bu məsələyə çox böyük maraq göstərdi, çox suallar verdi, bir çox şeyləri özü üçün müəyyənləşdirmək

istədi. Hesab edirəm ki, onlar bu Zirvə görüşündə yüksək səviyyədə iştirak edəcəklər.

**S u a l :** Siz onu Azərbaycana dəvət etmisinizmi?

**C a v a b :** Bəli, bəli, şübhəsiz. Mən baş nazir Toni Bleyri şəxsi olaraq Azərbaycana rəsmi səfərə dəvət etmişəm. O mənim bu dəvətimi qəbul edibdir. Sentyabrın 7-8-də Bakıda keçiriləcək Zirvə görüşündə iştirak etmək üçün əvvəl də ona dəvət məktubu göndərmişdim, həmin dəvəti bu gün də təkrar etdim. O bunu da məmnuniyyətlə qəbul etdi. Sağ olun.



## BÖYÜK BRİTANİYANIN «FÖRST» JURNALININ BEYNƏLXALQ PREZİDENTİ PATRİK KORMAKIN SUALLARINA CAVAB

*London*
*21 iyul 1998-ci il*

**Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Londonda öz iqamətgahında Böyük Britaniyada çıxan «Först» jurnalının beynəlxalq prezidenti Patrik Kormakı qəbul etmişdir.**

**Səfər proqramının gərginliyinə baxmayaraq vaxt tapıb onu qəbul etdiyinə görə dövlətimizin başçısına minnətdarlığını bildirən cənab Kormak Prezident Heydər Əliyevə bir neçə sualla müraciət etmişdir.**

**Cənab Kormakı mehribanlıqla salamlayan respublikamızın rəhbəri «Först» jurnalının beynəlxalq prezidentinin suallarına cavab vermişdir.**

**S u a l :** Cənab Prezident, ümidvaram ki, ölkəmizə səfəriniz uğurlu keçir?

**C a v a b :** Bəli, dünən çox görüşlər olubdur və mən ümumiyyətlə səfərin gedişindən çox razıyam.

**P a t r i k  K o r m a k :** Cənab Prezident, zati-aliləri, bizim jurnalımız Azərbaycan barədə və Sizin Böyük Britaniyaya rəsmi səfərinizlə əlaqədar böyük bir hesabat dərc edəcəkdir. Ümidvarıq ki, bu hesabat Sizin ölkənizlə Qərb dövlətləri arasında münasibətlərin inkişafına öz töhfəsini verəcəkdir.

**H e y d ə r  Ə l i y e v :** Mən çox məmnunam, jurnalınızın Azərbaycana göstərdiyi diqqətə görə Sizə təşəkkür edirəm.

**S u a l :** İcazə versəydiniz, bir neçə sualla Sizə müraciət edərdim. Cənab Prezident, Siz öz ölkənizə böyük sabitlik gətirmisiniz. Ölkənizdə bərqərar etdiyiniz sabitliyə necə nail oldunuz? Siz bunu necə izah edərsiniz?

**C a v a b :** Ölkəmizdə sabitliyi cəmiyyətdə apardığımız ardıcıl tədbirlərin nəticəsində əldə etmişik. Bu bizim apardığımız siyasətin nəti-

cəsidir. Biz Azərbaycanda demokratik, hüquqi dövlət qururuq. Bu, dövlət quruculuğu prosesində bizim həyata keçirdiyimiz tədbirlərin, qəbul olunan qanunların və cəmiyyətdə insanların bu qanunlara riayət etməsi ilə əlaqədar apardığımız tədbirlərin nəticəsidir.

Keçmiş illərdə Azərbaycanda ictimai-siyasi sabitliyin olmamasının bir neçə səbəbi var idi. Birincisi, Sovet İttifaqı dağılandan sonra keçid dövründə yaşayan ölkələrin hamısında sabitlik bu və ya digər miqyasda pozulmuşdur. Yəni bu, keçid dövrü üçün xarakterikdir. Azərbaycanda isə buna əlavə olunan amillər var idi. Bu amillərdən biri Ermənistan-Azərbaycan münaqişəsidir, Ermənistanın Azərbaycana 1988-ci ildə etdiyi təcavüz nəticəsində yaranmış müharibə və münaqişədir.

İkincisi, müharibə, münaqişə nəticəsində və eyni zamanda Azərbaycanın daxilində ayrı-ayrı siyasi qüvvələrin, silahlı dəstələrin hakimiyyət uğrunda mübarizəyə qoşulması ilə əlaqədardır. Hakimiyyət uğrunda mübarizə hər bir demokratik ölkədə təbii bir şeydir. Sizdə də bu mübarizə gedir və biz də sizdən çox şeylər öyrənirik.

**Patrik Kormak:** Əvvəlki prezidentlik uğrunda mübarizə boks əlcəklərindən keçib.

**Heydər Əliyev:** Ancaq bizdə təkcə boks əlcəkləri deyil, avtomat da, tapança da, hətta top, tank da var idi. Bizdə ancaq əlcək olsaydı, dərd yarı idi.

**Patrik Kormak:** Biz çox şadıq ki, Siz Azərbaycanda, nəhayət, dincliyi bərqərar etdiniz.

**Heydər Əliyev:** Bəli, biz 1994-cü ilin may ayında Ermənistanla Azərbaycan arasında münaqişəni dayandırdıq, atəşkəs yaratdıq. İkincisi, daxildə olan silahlı qrupları, silahlı dəstələri, cinayətkar dəstələri zərərsizləşdirməyə başladıq. İnsanları öyrətməyə çalışdıq ki, əgər mübarizə aparırsansa, hüquqi yolla, qanuni yolla, mədəni yolla mübarizə apar.

**Patrik Kormak:** Tamamilə doğru buyurursunuz. Respublikada əmin-amanlıq olmasa, neftin gətirəcəyi gəlirdən onlar da faydalana bilməyəcəklər.

Cənab Prezident, Azərbaycanın zəngin enerji ehtiyatlarının Qərb şirkətləri ilə birgə istismar olunması barədə Sizin fikirlərinizi bilmək istərdik. Azərbaycandan çəkiləcək boru kəmərləri barədə nə deyərdiniz? Sizcə, Azərbaycan öz neftini hansı marşrut ilə ixrac edəcəkdir?



**Heydər Əliyev:** Bilirsiniz, Azərbaycanın zəngin neft yataqlarından indi və gələcəkdə istifadə edilməsi üçün dünyanın böyük neft şirkətlərinin, yəni müasir texnologiyaya, texnikaya, maliyyə imkanlarına malik olan neft şirkətlərinin Azərbaycana cəlb olunması tamamilə məqsədəuyğundur və bu günün tələblərinə uyğundur. Biz bunu etmişik və bundan sonra da edəcəyik. Bu gün də burada bir neçə saziş imzalanacaqdır.

İkinci məsələ, ixrac olunan neftin dünya bazarına çıxarılmasıdır. Bu, asan məsələ deyildir. Biz hesab edirik ki, bundan əlavə bir neçə neft kəməri marşrutu olmalıdır. Tək biri ola bilməz. Çünki gərək bizim manevr imkanımız olsun, Azərbaycanda işləyən Qərb şirkətləri, dünya şirkətləri də bizim bu fikrimizlə şərikdirlər. Buna görə də biz ilkin neftin ixracı üçün Bakıdan Rusiya ərazisi ilə Qara dənizdəki Novorossiysk limanına bir boru kəməri tikmişik. Biz artıq bu boru kəməri ilə nefti ixrac edirik. Eyni üsulla bir boru kəmərini də Gürcüstan ərazisindən Qara dənizin Supsa limanına çəkirik. Bunların hər biri ildə 5-6 milyon ton neft ixrac edən kəmərlərdir. Amma biz yaxın zamanlarda Azərbaycanda böyük neft gözləyirik. Buna görə də əsas, böyük neft kəməri lazımdır.

1994-cü ilin sentyabr ayında ilk neft müqaviləsini imzalayanda biz həmin müqavilədə bunu nəzərə almışıq. Biz bu neft kəmərini Bakıdan, Azərbaycandan, Gürcüstandan Türkiyə ərazisi ilə Aralıq dənizinə, Türkiyənin Ceyhan limanına çəkmək istəyirik. Ancaq bizim neftimizdən başqa, Xəzər dənizinin Qazaxıstan sektorunda da çox zəngin neft yataqları vardır. Qazaxıstanın öz ərazisində, Türkmənistanda da neft vardır, onların da bir qisminin ixrac edilməsi, şübhəsiz ki, Qərb istiqamətində olmalıdır. Məsələn, Qazaxıstan Bakı-Ceyhan neft boru kəmərindən istifadə etmək istəyir.

**Sual:** Siz bundan məmnunsunuzmu?

**Cavab:** Bəli, biz Qazaxıstanla müqavilə imzalamışıq. Qazaxıstanın Aktau limanından, Xəzər dənizinin dibindən Bakıya qədər neft kəməri, boru çəkmək planlaşdırılır. Qazaxıstan nefti bu neft kəməri ilə Bakıya gələcək, buradan Azərbaycan nefti ilə birlikdə Bakı-Ceyhan neft kəməri ilə Aralıq dənizinə gedəcəkdir. Ola bilər, bu neft bizim başqa neft boruları ilə də nəql edilsin.

**Patrik Kormak:** Biz hesab edirik ki, çoxsaylı boru kəmərlərinin olması bütün regionda sabitliyin bərqərar edilməsinə və region

dövlətləri, qonşu ölkələr arasında əməkdaşlığın inkişafına da öz töhfəsini verəcəkdir.

**Heydər Əliyev:** Doğrudur.

**Patrik Kormak:** Biz, yəni Böyük Britaniya şirkətləri Sizin regionda öz texnologiyamızdan, bizdə olan texniki vasitələrdən, imkanlarımızdan Sizinlə birgə isitifadə edib bu prosesləri qurmaqda, yaratmaqda Sizə yardımçı olmaq fikrindəyik.

**Heydər Əliyev:** Biz bu barədə eyni fikirdəyik. Ona görə də dörd ildir ki, çox müvəffəqiyyətlə əməkdaşlıq edirik.

**Patrik Kormak:** Biz öz jurnalımızda da diqqəti buna cəlb edəcəyik.

**Heydər Əliyev:** Bəli, mən hesab edirəm, bu lazımdır. Mən burada böyük görüşlər keçirirəm.

Böyük Britaniyanın 100-dən artıq şirkəti indi Azərbaycanda işləyir. Neft yataqlarının işlənilməsi üçün son illərdə – son iki il müddətində «Bi-Pi» şirkəti 260 milyon dollar, «Remko» şirkəti isə 29 milyon dollar sərmayə qoyubdur. Böyük Britaniyanın, Birləşmiş Krallığın şirkətləri konsorsiumun proqramını həyata keçirmək üçün 350 milyon dollarlıq sifariş alıblar, iş görürlər.

**Patrik Kormak:** Bu çox yaxşı xəbərdir. Bunları eşitməkdən çox məmnunam.

Cənab Prezident, bir məsələyə qısaca olsa da toxunmaq istəyirəm. Bu şirkətlərin Sizin ölkənizə cəlb olunması nəinki lazımdır – mən xüsusilə Böyük Britaniya şirkətlərini nəzərdə tuturam – həm də hesab edirik ki, onların investisiya qoyması üçün şəraitin daha da yaxşılaşdırılmasına – məsələn, lisenziyaların alınmasında və yaxud razılıqların verilməsində – ehtiyac vardır. Bu investorlar ruhlandırılmalıdır ki, daha çox pul qoysunlar.

**Heydər Əliyev:** Doğrudur, biz bu sahədə çox iş görmüşük. Ancaq nöqsanlar da vardır. Onlar bizim üçün yeni şeylərdir. Bunların hamısını bir ilə, iki ilə istənilən səviyyəyə qaldırmaq mümkün deyil. Ancaq biz bu yolla gedirik, biz bunu edirik. Bu sahədə günbəgün şərait yaradılır. Yəni bizdə lazım olan qanunlar, qaydalar var, müəyyən olunubdur. Sadəcə, onların icra olunmasında qüsurlar vardır.

**Patrik Kormak:** Daim belə olubdur. Yenicə demokratiya yolunu seçəndə mütləq çətinliklərlə qarşılaşırsan. Biz öz jurnalımızda ən azı bir məqalə dərc edib yazacağıq ki, xarici şirkətlər üçün necə şərait yaradılıbdır və onların daha da intensiv işləməsi üçün daha hansı işlər görülə bilər.



Zati-aliləri, Sizə uğurlu səfər arzulayıram. Ümidvaram ki, bizim ölkəmizdən xoş təəssüratla ayrılacaqsınız. Əminəm ki, Sizin bu səfəriniz azad, çiçəklənən Azərbaycanda xalqın rifah halının yüksəlməsində, əmin-amanlıq şəraitində yaşayan və inkişaf edən ölkənizdəki uğurlu quruculuq işində Sizə yardımçı olacaqdır.

**Heydər Əliyev:** Çox sağ olun. Mən elə bu ümidlərlə, bu arzularla rəsmi səfərə gəlmişəm və dünəndən səfərin gedişi göstərir ki, həqiqətən ümidlərim özünü doğruldacaq və bizim ölkələrimiz arasındakı əlaqələr daha da inkişaf edəcəkdir.

**Patrik Kormak:** Mən buna tamamilə əminəm. Amma yadınızda saxlayın ki, nə siyasətçilər, nə də jurnalistlər bankirləri gözlətmirlər. Bilirəm ki, Sizin məndən sonra bankirlə görüşünüz var. Ümidvaram ki, onunla da danışıqlarınız uğurlu olacaqdır.

**Heydər Əliyev:** Mən Sizi Azərbaycana dəvət edirəm. Gəlib Azərbaycanı öz gözlərinizlə görsəniz, Sizdə daha da geniş təəssürat yaranacaqdır. Azərbaycana mənim qonağım kimi gəlin. Orada biz geniş danışıqlar apara bilərik və Siz Azərbaycanda təkcə mənimlə yox, çox adamlarla görüşə bilərsiniz.

**Patrik Kormak:** Dəvətinizi yüksək qiymətləndirirəm. Ümidvaram ki, bundan istifadə edəcəyəm. Bu payız Sizə seçkilərdə uğurlar arzulayıram.

**Heydər Əliyev:** Çox sağ olun.

## Bİ-Bİ-Sİ TELEVİZİYASININ MÜXBİRİ İLƏ MÜSAHİBƏ

**Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Birləşmiş Krallığa rəsmi səfəri Böyük Britaniya mətbuatının diqqət mərkəzində idi. Dövlətimizin başçısının keçirdiyi görüşlər, apardığı danışıqlar ölkənin mətbuat orqanlarında və televiziyasında müntəzəm işıqlandırılırdı.**

**Böyük Britaniyanın ən böyük və nüfuzlu televiziya kanalı olan Bi-Bi-Si-nin müxbiri Piter Morqan iyulun 21-də Prezident Heydər Əliyevdən müsahibə aldı. Müsahibə elə həmin axşam Bi-Bi-Si televiziya kanalı ilə nəinki Böyük Britaniyaya, eləcə də dünyanın əksər ölkələrinə yayımlandı.**

**Sual**: Cənab Prezident, bu gün imzalanmış sazişlərin, sənədlərin əhəmiyyəti nədən ibarətdir?

**Cavab**: Bu gün imzalanmış sənədlərin əhəmiyyəti böyükdür. Birincisi, Birləşmiş Krallığın baş naziri cənab Toni Bleyr ilə Azərbaycan Prezidenti Heydər Əliyev iki ölkə arasında dostluq münasibətləri və tərəfdaşlıq haqqında birgə bəyannamə imzalamışlar. Bu siyasi bəyannamə bizim əməkdaşlığımızın demək olar ki, bütün sahələrini – siyasi, iqtisadi, elmi, mədəni sahələri əhatə edir. Ona görə də bu, çox böyük əhəmiyyət daşıyır. Mən bunu yüksək qiymətləndirirəm.

Bununla yanaşı, Azərbaycan Dövlət Neft Şirkəti ilə «Bi-Pi/Statoyl», «Remko», «Monument oyl ənd qaz» şirkətləri arasında Xəzər dənizinin Azərbaycan sektorundakı zəngin neft yataqlarının müştərək işlənilməsi haqqında sazişlər imzalanıbdır.

**Sual**: Cənab Prezident, Siz Böyük Britaniyanın Azərbaycan ilə əlaqələrinə necə qiymət verirsiniz? Böyük Britaniyanın Azərbaycan üçün əhəmiyyətini və gələcək münasibətlərinizi necə görürsünüz?

**Cavab**: Bilirsiniz, ötən dörd il müddətində Böyük Britaniya ilə Azərbaycan arasında əlaqələr yaxşı inkişaf edibdir. Mən əlaqələrin bugünkü səviyyəsindən razıyam. Ancaq mənim buraya rəsmi səfərim, apardığım danışıqlar və imzalanan sənədlər gələcəkdə bu əlaqələrin daha da genişlənməsi və inkişaf etməsi üçün yaxşı əsas yaradır.



Böyük Britaniya ilə əlaqələri inkişaf etdirmək bizim üçün çox faydalıdır. Biz buna xüsusi əhəmiyyət veririk. Güman edirəm, Böyük Britaniya da Azərbaycanla əlaqələrini faydalı hesab edir.

**Sual**: Cənab Prezident, Siz neft istehsal edən bir region kimi, XXI əsrdə Xəzər dənizi hövzəsinin necə böyük əhəmiyyət daşıyacağını söyləyə bilərsinizmi?

**Cavab**: Mən bunu aydın görürəm. XXI əsrdə Xəzər dənizi hövzəsi dünyanın neft hasil edən ən böyük regionlarından biri olacaqdır. Bunun əsasını qoyan və onu bütün dünya üçün açan da Azərbaycandır. 1994-cü ildə imzaladığımız ilk müqavilə ilə biz bu böyük eranı başlamışıq. İndiyədək Azərbaycan Dövlət Neft Şirkəti Xəzərin Azərbaycan sektorundakı yataqların birgə işlənilməsi üçün dünyanın böyük neft şirkətləri ilə 15 müqavilə imzalayıbdır. Bunların böyük gələcəyi vardır.

**Sual**: Sonuncu sualımı vermək istəyirəm. Cənab Prezident, Azərbaycanın neftdən əldə edəcəyi böyük sərvətlərlə, gəlirlərlə Siz nəyə nail olmaq istəyərdiniz? Əgər bir şeyə nail olmaq istəsəydiniz, həmin şey nə olardı?

**Cavab**: Yox, biz bir yox, çox şeyə nail olmaq istəyirik. Şübhəsiz ki, mən birinci növbədə Azərbaycan iqtisadiyyatının bütün sahələrinin inkişaf etdirilməsinə nail olmaq istərdim. Mən bunları Azərbaycanın iqtisadi cəhətdən güclü, qüdrətli bir dövlət olması üçün edirəm. Bu vasitələrlə mən bunları Azərbaycanın hər bir vətəndaşının rifah halının yaxşılaşdırılması üçün edirəm. Mən inanıram ki, biz bunlara nail olacağıq.

**Müxbir**: Cənab Prezident, bizə vaxt ayırdığınıza görə Sizə çox böyük təşəkkürümüzü bildiririk.

**Heydər Əliyev**: Sağ olun.

## JURNALİSTLƏRLƏ SÖHBƏT

*London*
*24 iyul 1998-ci il*

**Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Londondakı Azərbaycan Mədəniyyət Mərkəzində Türkiyənin «Samanyolu» televiziyasının müxbiri ilə və səfərdə iştirak edən azərbaycanlı jurnalistlərlə söhbət etmiş, onları maraqlandıran suallara cavab vermişdir.**

**S u a l :** Cənab Prezident, Birləşmiş Krallığa rəsmi səfərinizin yekunu barədə nə deyərdiniz?

**C a v a b :** Bu çox gözəl bir ziyarət oldu və mən rəsmi səfərimdən çox məmnunam. Mən beşinci gündür ki, bu ölkədəyəm. Burada gözəl görüşlər, çox əhəmiyyətli danışıqlar oldu, Böyük Britaniya ilə Azərbaycan arasındakı əlaqələrin yüksəklərə qaldırılması üçün yaxşı bir təməl qoyuldu. Bizim əlaqələrimiz indiyədək də çox yaxşı idi. Amma indi Birləşmiş Krallıqla Azərbaycanın əməkdaşlığının sürətlə inkişaf etdirilməsi üçün möhkəm zəmin yaradıldı. Bu, çox vacibdir. Çünki Birləşmiş Krallıqda yeni hökumət fəaliyyətə başlayıbdır. Bilirsiniz ki, Böyük Britaniyada keçənilki seçkilərdə Leyboristlər Partiyası qalib gəlibdir. Onlar 18 il müxalifətdə olublar. Yeni hökumət qısa vaxtda çox dəyərli işlər görübdür. Mən bunu əvvəllər də bilirdim. Leyboristlər Partiyasının təmsil olunduğu yeni hökumət təkcə Azərbaycanla əlaqədar yox, ümumiyyətlə xarici siyasəti daha da gücləndirir.

Böyük Britaniyanın Qafqaz regionuna, ümumiyyətlə, Avropa ilə Asiyanı birləşdirən bölgəyə çox böyük marağı vardır. Bu, təkcə iqtisadi yox, həm də siyasi maraqdır. Bilirsiniz ki, onlar öz bəyanatlarında da deyiblər ki, apardıqları xarici siyasətdə Azərbaycana xüsusi əhəmiyyət verirlər, yer ayırırlar. Biz bütün bunların hamısını qəbul edirik. Çünki Azərbaycan Qərb ölkələri ilə, o cümlədən Böyük Britaniya ilə bütün sahələrdə əməkdaşlığı genişləndirmək istəyir. Böyük Britaniyaya rəsmi səfərim zamanı gördüyümüz işlər bu baxımdan çox əhəmiyyətlidir, dəyərlidir. Mən bütün bunlardan məmnunam və hesab edirəm ki, Birləşmiş Krallığa rəsmi səfərim çox uğurlu olubdur.



Bilirsiniz ki, Londonda «Azərbaycanda biznes» mövzusunda böyük bir konfrans keçirildi və mən orada iştirak etdim. Bu konfransa dünyanın bir çox ölkələrindən iş adamları gəlmişdilər. Orada 300-dən çox nümayəndə var idi. Mən oradakı çıxışımda Türkiyə ilə Azərbaycan arasındakı əlaqələrdən və Bakı-Ceyhan boru kəmərindən də geniş danışdım. Mən Birləşmiş Krallığın baş naziri cənab Toni Bleyr ilə keçirdiyim görüşdə də Bakı-Ceyhan boru kəməri barədə geniş söhbət açdım.

İyulun 22-də Londonda beynəlxalq münasibətlər üzrə Kral İnstitutunda da mənim böyük bir görüşüm oldu. Oraya da xeyli adam toplaşmışdı. Mən Kral İnstitutundakı çıxışımda da Bakı-Ceyhan kəmərinin çəkilməsinin zəruri olduğundan bəhs etdim.

**S u a l :** Cənab Prezident, xahiş edirəm ki, Edinburqa səfəriniz barədə məlumat verəsiniz.

**C a v a b :** Mənim Edinburqa səfərim də çox gözəl oldu. Bilirsiniz ki, Şotlandiya, Edinburq Böyük Britaniyanın dəyərli bir hissəsidir. Londonda olduğu kimi, orada da mənim səfər proqramım çox sıx idi. Mən proqramda nəzərdə tutulanların hamısını yerinə yetirdim. Bütün görüşlərim çox uğurlu oldu.

Mən iyulun 23-də Edinburqda Şotlandiyanın işgüzar dairələrinin nümayəndələri ilə görüşdüm. Biz ətraflı danışıqlar apardıq. Şübhəsiz ki, şəhərin lord-provostu ilə və digər rəsmi şəxslərlə də görüşlər oldu. Biz Edinburqun tarixi abidələrinə də baxdıq. Biz «Britiş Petroleum» şirkətinin sənaye-istehsal kompleksi ilə tanış olduq. Onlar Temza çayı üzərindəki körpünün yaxınlığındakı limandan neftin daşınması və ixracı prosesini mənə göstərdilər. Sənaye-istehsal kompleksində «Bi-Pi»nin böyük bir muzeyi vardır və bu şirkətin indiyədək gördüyü işlər orada öz əksini tapıbdır. Biz bütün bunlarla da tanış olduq.

Bilirsiniz ki, Edinburqda XI əsrdə tikilmiş bir qəsr vardır. O, şotland krallarının yaratdığı bir qəsrdir. Bu qəsr, ümumiyyətlə, Böyük Britaniyanın ən dəyərli tarixi-memarlıq abidəsidir. Həmin qəsrdə böyük bir rəsmi qəbul təşkil edilmişdi. Həmin qəsr Kraliçanın sərəncamındadır. Bu rəsmi qəbula Birləşmiş Krallığın xarici işlər üzrə dövlət naziri cənab Henderson da xüsusi olaraq gəlmişdi. Biz orada birlikdə olduq, çox səmərəli danışıqlar keçirdik.

Şübhəsiz ki, Şotlandiya Böyük Britaniyanın bir hissəsidir. Amma onların da istəkləri, arzuları vardır. Şotlandiyalı iş adamları Azərbay-

canda çox iş görürlər. Biz bu işlərin daha da genişləndirilməsi üçün yaxşı danışıqlar apardıq. Mən Edinburqa səfərimdən çox razıyam. Biz oradan çox gec qayıtdıq.

**S u a l :** Cənab Prezident, xahiş edirik, əlahəzrət Kraliça ilə görüşünüz barədə bizə bir qədər ətraflı məlumat verəsiniz.

**C a v a b :** Əlahəzrət Kraliça ilə mənim çox yaxşı söhbətim, danışıqlarım oldu. Biz bir çox məsələləri müzakirə etdik.



## LONDONDAN BAKIYA QAYIDARKƏN BÖYÜK BRİTANİYAYA RƏSMİ SƏFƏRİN YEKUNLARI BARƏDƏ TƏYYARƏDƏ JURNALİSTLƏRLƏ MÜSAHİBƏ

**Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının baş naziri Toni Bleyrin dəvəti ilə bu ölkədə rəsmi səfərdə olmuş Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev iyulun 24-də Londondan Bakıya qayıdarkən rəsmi səfərin yekunları barədə təyyarədə jurnalistlərə müsahibə verərək dedi:**

– Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığına səfər başa çatıbdır. Biz vətənə dönürük. Bir saatdan sonra Bakıda hava limanına enəcəyik. Siz bütün bu səfər zamanı mənimlə bərabər olmusunuz, görüşlərin demək olar ki, əksəriyyətində iştirak etmisiniz. Güman edirəm ki, özünüzün müşahidələriniz vardır. Amma mən eyni zamanda, müəyyən qədər ümumiləşdirmələr edərək, səfər haqqında sizə bir neçə söz çatdırmaq istəyirəm.

Bildiyiniz kimi, bu, Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının baş naziri cənab Toni Bleyrin dəvəti ilə rəsmi səfər idi. Bu səfər artıq başa çatandan sonra hesab edirəm ki, o çox əhəmiyyətlidir, görüşlərimiz, danışıqlarımız məhsuldar olubdur. Səfərə yekun vuraraq hesab edirəm ki, o, Azərbaycan üçün çox uğurludur.

Böyük Britaniya ilə Azərbaycan arasındakı əlaqələr Azərbaycan dövlət müstəqilliyini əldə edəndən sonra yaranıbdır. Amma dövlətlərarası, hökumətlərarası görüşlər, imzalanmış müqavilələr 1994-cü ilin fevral ayında mənim Londona ilk rəsmi səfərim zamanı olmuşdur. Mən hesab edirəm ki, o vaxt – Azərbaycanın müstəqilliyinin ilk illərində həmin səfər çox əhəmiyyətli oldu. Biz bir çox vacib müqavilələr, sənədlər imzaladıq. Mən və baş nazir Birləşmiş Krallıqla Azərbaycan arasında dostluq və əməkdaşlığa dair siyasi bəyannamə imzalamışdıq. Mənim Böyük Britaniyanın baş naziri ilə ondan sonrakı illərdə də həm Londonda, həm də beynəlxalq təşkilatların toplantılarında bir çox görüşlərimiz, danışıqlarımız olmuşdur. Mən Böyük Britaniyanın bir sıra nazirləri ilə də görüşlər keçirmişəm. Böyük Britaniyanın xarici işlər

naziri Azərbaycanda səfərdə olmuşdur və hökumətlərimiz arasında bir neçə digər mühüm sənədlər imzalanmışdır.

Amma bilirsiniz ki, keçən il Birləşmiş Krallıqda hökumət dəyişikliyi olmuşdur. Orada Parlament seçkiləri keçirilmiş və 18 il hakimiyyətdə olan Mühafizəkarlar Partiyası seçkilərdə uduzmuş, Leyboristlər Partiyası hakimiyyətə gəlmişdir. Beləliklə, onların qayda-qanunlarına görə, hökumət tamamilə dəyişilmişdir. Bu səfərin mənası yeni hökumətin, Böyük Britanifya və Şimali İrlandiya Birləşmiş Krallığının Azərbaycana dair siyasətini daha da genişləndirmək, inkişaf etdirmək arzusundan ibarətdir və bu məqsədi daşıyır. Ona görə də mənim bu səfərim baş veribdir. Mənə rəsmi dəvət gəlibdir, məhz rəsmi dəvətə görə bu səfəri həyata keçirmişəm.

Deyə bilərəm ki, çoxsaylı danışıqlarımız olubdur. Dilarə Seyidzadə mənə bildirdi ki, hesablayıb – 46 görüş olubdur. Amma iş görüşlərin sayında deyildir, baxmayaraq ki, sayın da özünəməxsus mənası vardır. Bilirsiniz ki, mən iyulun 20-də səhər saat 9-dan görüşlərə başlamışam və bu gün hava limanına gələnə qədər görüşlər keçirmişəm. Hesab edirəm ki, qarşıya qoyduğumuz məqsədə nail olmaq üçün ötən beş gün çox məhsuldar olubdur. Çoxsaylı görüşlərin hər birinin özünəməxsus əhəmiyyəti və mənası vardır. Onların hamısı birlikdə Azərbaycan ilə Birləşmiş Krallıq arasında bugünkü əlaqələrin vəziyyətini əks etdirir və eyni zamanda, bu əlaqələri gələcəkdə daha da inkişaf etdirmək üçün çox möhkəm zəmin yaradır.

Şübhəsiz ki, bu görüşlər içərisində əlahəzrət Kraliça ilə görüşüm xüsusi əhəmiyyət daşıyır. Bilirsiniz ki, bu ölkənin özünəməxsus tarixi ənənələri vardır və onlar öz ənənələrinə sadiqdirlər. Kraliça çox az xarici ölkələrin başçıları ilə görüşür. Mən İkinci Dünya müharibəsində qələbənin 50 illiyi münasibətilə 1995-ci ildə Londonda keçirilən böyük mərasimdə iştirakım zamanı Kraliça ilə görüşüb söhbət etmişdim. Ancaq həmin görüş mərasim çərçivəsində olmuşdu. Bu dəfəki görüş isə Azərbaycan Respublikasının dövlət başçısının Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının kraliçası ilə görüşü idi. Biz bu görüşdə bir neçə məsələ barədə fikir mübadiləsi apardıq. Onların əksəriyyəti siyasi xarakter daşıyır. Kraliça Azərbaycanın tarixi, mədəniyyəti ilə də çox maraqlandı.

Mənim hökumət üzvlərinin demək olar ki, çoxu ilə görüşlərim oldu. İyulun 21-də baş nazir Toni Bleyrlə görüşümüzün, danışıqlarımızın nəticəsi olaraq çox mühüm, əhəmiyyətli sənədlər imzalandı. Toni Bleyrlə mən İkinci Dünya müharibəsində qələbənin 50 illiyi münasibətilə 1995-ci ildə Londonda keçirilən mərasimdə – o, hələ müxalifət partiyasının rəhbəri olduğu zaman görüşmüşdüm. Sonra biz beynəlxalq təşkilatların Madriddə və Strasburqda keçirilmiş toplantılarında görüşmüşdük. Ancaq onlar məhdud xarakter daşıyır. Bu görüş isə, hesab edirəm ki, mənim Böyük Britaniyaya səfərimin əsas zirvə görüşüdür. Biz ölkələrimiz arasında əməkdaşlığın daha da genişləndirilməsi barədə bir çox məsələləri ətraflı müzakirə etdik. Mən bütün başqa görüşlərdə olduğu kimi, burada bir daha hiss etdim ki, Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığı Azərbaycanla əlaqələri daha da genişləndirmək, yüksəklərə qaldırmaq, çoxşaxəli etmək istəyir.



Baş nazir Toni Bleyr özü bir neçə dəfə təkrar etdi ki, şübhəsiz, biz iqtisadi əməkdaşlığın genişləndirilməsinə çox böyük əhəmiyyət veririk. Bu əlaqələr indi yaxşı səviyyədədir. Ancaq biz siyasi sahədə də əməkdaşlığımızı genişləndirməliyik və inkişaf etdirməliyik. Hökumətin bütün üzvləri ilə görüşlərdə bu öz əksini tapan əsas fikir idi. Ancaq baş nazir bunu geniş mənada ifadə etdi.

Mən ümumiyyətlə hiss etdim ki, Birləşmiş Krallığın hökuməti regionumuza, yəni Qafqaz, Mərkəzi Asiya regionuna çox böyük maraq göstərir və bu bölgədə həm iqtisadi, həm də siyasi cəhətdən daha fəal rol oynamaq istəyir. Baş nazirdən sonra xarici işlər naziri də bəyan etdi ki, onlar Azərbaycanda öz səfirliklərinin ştatını artıracaqlar, səfirliyi genişləndirəcəklər. Hətta məndən xahiş etdilər ki, səfirliyə təzə ştatlara münasib olan yeni bina verilməsində onlara yardım edim. Bunlar hamısı mənim bu dediklərimi bir daha təsdiq edir.

Nəhayət, bunların hamısı bu fikrə gətirir. Baş nazir Toni Bleyr iyulun 21-də keçirdiyimiz görüşümüzdə bu fikirləri bəyan etmişdir. Xarici işlər naziri Daq Henderson da bu fikri bəyan etmişdir. Bilirsiniz ki, Birləşmiş Krallıqda Xarici İşlər Nazirliyi iki təbəqədən ibarətdir. Onlardan biri yüksək təbəqədir, ona Robin Kuk, ikincisinə isə Daq Henderson rəhbərlik edirlər. Cənab Henderson mənim səfərimlə əlaqədar iyulun 23-də Edinburqa gəlmişdi. Onlar Edinburqda bizim şərəfimizə böyük bir ziyafət verdilər. Daq Henderson oradakı nitqində bəyan etdi ki, bizim ölkələrimizin əlaqələri strateji tərəfdaşlıq xarakteri daşımalıdır. Mən də bu fikirlə razı olduğumu bildirdim.

Beləliklə, hesab edirəm ki, bu danışıqlar, görüşlər Azərbaycanı daha da çox tanıtdı, ölkəmizin bugünkü rolunu, əhəmiyyətini sübut etdi. İyulun 21-də sənədlərin imzalanması mərasimindəki çıxışında baş nazir Toni Bleyr bəyan etdi ki, Azərbaycan dünya siyasətində açar rolunu oynamalıdır.

Mən bunların hamısından çox razıyam. Çünki Böyük Britaniya dünya siyasətinə təsir edən nüfuzlu dövlətlərdən biridir. Həm Birləşmiş Millətlər Təşkilatı Təhlükəsizlik Şurasının daimi üzvüdür, həm ATƏT-də, həm də Avropa Birliyində, Avropa Şurasında çox güclü səsə malikdir. Ona görə də bu ölkə ilə əlaqələrin genişləndirilməsinin bizim üçün çox böyük əhəmiyyəti vardır.

Şübhəsiz ki, baş nazirlə danışıqlarımız zamanı biz bütün məsələləri müzakirə etdik. Biz xüsusən də Ermənistan-Azərbaycan münaqişəsinin başvermə tarixi, səbəbləri, bugünkü vəziyyət və ölkəmizin mövqeyi barədə məsələləri nəzərdən keçirdik. Böyük Britaniya hökuməti bizim mövqeyimizlə tam razıdır. İmzaladığımız birgə siyasi bəyannamədə bunlar hamısı öz əksini tapıbdır.

Bilirsiniz ki, cənab Toni Bleyrlə mən, Azərbaycan Respublikasının Prezidenti ilə Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının baş naziri dostluq münasibətləri və tərəfdaşlıq haqqında birgə bəyannamə imzaladıq. Həmin siyasi bəyannamədə Azərbaycanın beynəlxalq aləmdəki mövqelərini təmin edən bütün müddəalar, o cümlədən Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin ATƏT-in Lissabon Zirvə toplantısında qəbul olunmuş üç prinsip əsasında həll edilməsi öz əksini tapıbdır. Şübhəsiz ki, biz, danışıqlara başlamamışdan əvvəl bu bəyannamənin mətni hazır idi. Ancaq mən söhbətimizdə bu məsələni xüsusi olaraq dərinləşdirdim. Mən dedim ki, biz Dağlıq Qarabağa dövlət müstəqilliyi verilməsinə heç vaxt razı ola bilmərik. Biz sülh istəyirik, məsələ sülh yolu ilə həll olunmalıdır. Ancaq biz ərazimizin hər hansı bir kiçik hissəsinin də başqa ölkəyə verilməsinə heç vaxt razı ola bilmərik. Bu bizim qəti, prinsipial mövqeyimizdir. Biz bu mövqeyimizdən heç vaxt geriyə çəkilmərik.

Baş nazir bu fikirləri yüz faiz dəstəklədi. Mən ona dedim, o da mənə dedi ki, beynəlxalq hüquq normaları, Birləşmiş Millətlər Təşkilatının, ATƏT-in prinsipləri var, bunlar dəyişilməzdir. Ona görə də mən həmişə demişəm, indi də deyirəm: Ermənistan tərəfi gec-tez bunu anlamalıdır və anlayacaqdır.



Çox məmnunam ki, bu məsələ təkcə onunla yox, başqa görüşlərdə də ətraflı müzakirə olundu. Mən hətta konfranslardakı çıxışlarımda da bunların hamısını bəyan etmişəm.

Baş nazirlə görüşümüzdə xüsusi yer tutan bir məsələ də Avropa-Qafqaz-Asiya nəqliyyat magistralı məsələsi, Böyük İpək Yolunun bərpa olunması sahəsində görülən işlər idi. Baş nazir bu məsələyə çox böyük maraq göstərdi. Mən bu məsələnin tarixini, mahiyyətini və əhəmiyyətini ona xəritədə çox ətraflı izah etdim. O, çox məmnun oldu. Böyük Britaniya bu işə qoşulub və qoşulur. Sentyabr ayının 7-8-də Azərbaycanda keçiriləcək Zirvə görüşündə – konfransda, şübhəsiz ki, Böyük Britaniya iştirak edəcəkdir.

Mən qeyd etdim, baş nazirlə görüşümüzün, danışıqlarımızın nəticəsi o oldu ki, onun iqamətgahında həm siyasi bəyannamə imzaladıq, həm də Böyük Britaniyanın iri şirkətləri ilə Azərbaycan arasında müqavilələr imzalandı. «Bi-Pi» şirkəti ilə imzalanan müqavilə çox böyük müqavilədir. Azərbaycanın Xəzər dənizindəki ən zəngin yataqlarından biri barədədir. Orada üç yataq var, keçmişdə kəşf olunanda cürbəcür adlar qoyulmuşdu. Ancaq indi müqaviləni hazırlayanda yeni adlar qoyduq – «Araz», «Alov» və «Şərq» yataqları. Bunlar üçü birlikdə böyük bir blok təşkil edir. Bu yataqda pay bölgüsünün 30 faizinin «Bi-Pi/Statoyl» şirkətlərinə verilməsi haqqında müqavilə imzalandı. Hesab edirəm, bu çox böyük müqavilədir. Orada dəniz çox dərindir və onların bu sahədə çox böyük imkanları və təcrübəsi var. Hesab edirəm ki, bu çox perspektivlidir.

Başqa bir yataq var – «İnam» yatağı . O da zəngin yataqdır. Bu yatağa – elə «Bi-Pi» ilə müqavilə imzaladığımız yataqlara da – xarici şirkətlər çox böyük maraq göstərirdilər. Amma «Bi-Pi» ən yüksək iqtisadi təkliflər verdi, buna görə də biz müqaviləni onunla imzaladıq.

Siz bilməlisiniz, bu müqavilələr böyük tenderlər nəticəsində hazırlanıb və imzalanıbdır. Çox şirkətlər hər bir yatağa maraq göstərirdilər. Nəhayət, ən yüksək iqtisadi göstəricilər təklif edən şirkətlərlə müqavilələr imzalamağa nail olmuşuq.

«İnam» yatağı barədə Böyük Britaniyanın «Monument oyl», Amerikanın məşhur «AMOKO» şirkətləri və Rusiyanın Moskva şəhərinə mənsub olan yeni bir şirkəti ilə müqavilə imzaladıq.

«Muradxanlı» adlanan yerdə yatağımız var. Mənim xatirimdədir, bu neft yatağı 70-ci illərdə kəşf olunubdur. O vaxt oradan çox yaxşı neft

əldə edirdik. Sonra isə bəzi səbəblərdən bu yatağı yaxşı işlədə bilmədilər və indi o, çox az neft verir. Ancaq «Remko» şirkəti bu yatağa çoxdan maraq göstərirdi və bir sıra təkliflər verdi. Bu yatağın müştərək işlənilməsi haqqında da müqavilə imzaladıq.

Bilirsiniz ki, biz Bakıda otel və biznes mərkəzinin tikilməsi haqqında Bakı şəhəri ilə «Morrison» şirkəti arasında müqavilə imzaladıq. O, inşaat sahəsində fəaliyyət göstərən özəl şirkətdir.

Beləliklə, mən hesab edirəm ki, həm siyasi bəyannamə, həm də imzalanmış müqavilələr çox əhəmiyyətlidir. Ümumiyyətlə, Böyük Britaniya ilə aramızda olan əlaqələri, xüsusən iqtisadi əlaqələri tənzimləyən hüquqi-normativ sənədlər çoxdur, lazımi qədərdir. Ona görə də indi əlavə sənədlərin imzalanmasına ehtiyac yox idi.

Dedim ki, mən hökumət üzvlərinin bir çoxu ilə görüşdüm. Bu görüşlərin hər biri çox əhəmiyyətli, vacib və bizim üçün lazım idi. Bu təşəbbüs onların tərəfindən oldu.

Ancaq bir neçə başqa görüş də oldu. Məsələn, Britaniyada Azərbaycanda təhsil sahəsində bəzi tədbirlər aparan bir şura var. Onun rəhbəri də gəlib mənimlə görüşdü. Mən xüsusən Britaniya-Azərbaycan cəmiyyətinin yaranmasını və bu səfərim zamanı oteldə böyük bir salonda onun üzvləri ilə görüşümü bildirmək istəyirəm. Bu da böyük hadisədir. Çünki mənim xatirimdədir, 1994-cü ilin fevral ayında buraya gələndə Böyük Britaniya Azərbaycan üçün yalnız bir dünya dövləti idi. Orada səfirliyimizi təzəcə açmışdıq, bundan savayı heç bir şey yox idi. Amma bu dörd il müddətində əlaqələrimiz o qədər genişlənib, Azərbaycana maraq o qədər artıb ki, Britaniya-Azərbaycan cəmiyyəti yaranıbdır. Bu cəmiyyəti yaradanlar da İngiltərənin tanınmış adamlarıdır – keçmiş nazirlər, ölkənin ictimai-siyasi həyatında çox böyük yer tutan adamlardır və Azərbaycana maraq da çoxdur. Bu çox əhəmiyyətlidir. Mən buna çox yüksək qiymət verirəm.

Mən hesab edirəm ki, bu görüşlərdən ən əhəmiyyətliləri geniş auditoriyalardakı görüşlərimdir. Bilirsiniz ki, ayın 22-də Londonda böyük bir iqtisadi konfrans açılmışdı. Konfransı Böyük Britaniyanın «Ey-Bi-Si» şirkəti təşkil etmişdi və altı-yeddi ay idi ki, buna hazırlıq aparırdı. Bu, beynəlxalq konfrans idi və onda iştirak edənlər hərə öz xahişi ilə və öz pulu hesabına gəlmişdi. Konfransda iştirak etmək üçün pul vermək lazım idi, adi konfrans deyildi. İndi görün, Azərbaycana nə qədər böyük maraq var ki, həmin salonda – siz özünüz orada idiniz – üç



yüzdən artıq adam vardı. Bunlar hamısı iş adamları idi – həm Böyük Britaniyanın, həm də bir çox başqa ölkələrin nümayəndələri iştirak edirdilər. Çoxları çıxış etməyə həvəs göstərirdi, bəziləri də çıxış etmək imkanı olmadığına görə çox məyus olmuşdular. Konfransa Azərbaycandan bir çox nazirlər dəvət edilmişdi.

Mən orada giriş sözü söylədim. Siz iştirak edirdiniz və çıxışımın məzmunu sizə məlumdur. Ancaq konfransın əhəmiyyəti bundan ibarətdir ki, Azərbaycanın iqtisadiyyatına olan böyük marağı və Azərbaycanda işləmək istəyən adamların sayının get-gedə artmasını göstərir. Eyni zamanda göstərir ki, xarici investorların Azərbaycanda işləməsi üçün normal şərait, imkan var. Əgər bunlar olmasa, onlar Azərbaycana gəlməzlər. Dəfələrlə bu rəqəm səsləndi və baş nazir də, başqa nazirlər də fərəh hissi ilə dedilər ki, indi Azərbaycanda Böyük Britaniyanın 100-dən artıq şirkəti işləyir. Xatirinizdədirmi, hətta mən bundan istifadə edərək iki-üç yerdə dedim ki, hesab edirəm, Böyük Britaniyaya səfərimin ən böyük nailiyyəti ondan ibarətdir ki, Amerika Birləşmiş Ştatları ilə Böyük Britaniya arasında rəqabət yaradıram. Ancaq onlar hesab edirlər ki, artıq indi Azərbaycanda Böyük Britaniya şirkətlərinin sayı Amerika Birləşmiş Ştatlarının şirkətlərindən çoxdur. Çoxdur və hesab edirəm ki, bu gözəl bir göstəricidir. Ona görə mən həmin beynəlxalq iqtisadi konfransa da çox əhəmiyyət verirəm. O, çox böyük nəticələr verəcəkdir.

Bununla bərabər, mən hesab edirəm ki, beynəlxalq əlaqələr üzrə Kral İnstitutunda görüşüm də çox əhəmiyyətli oldu. Orada keçən dəfə də görüşüm olmuşdu. O vaxt da Azərbaycana böyük maraq var idi. Ancaq bu dəfə gördüm ki, maraq ondakından qat-qat artıqdır. Salon ağzına qədər dolu idi. Orada olan adamların da hamısı öz arzusu ilə gəlmişdi və siyasət sahəsində iş aparan, siyasət institutlarında işləyən adamlar, jurnalistlər, ayrı-ayrı ölkələrin səfirləri və səfirliklərin nümayəndələri idilər.

Görüş sırf siyasi xarakter daşıyırdı. Ona görə də, xatirinizdədir, mən ancaq siyasi məsələlər haqqında danışdım və imkandan istifadə edib, birinci növbədə Ermənistan-Azərbaycan münaqişəsinin tarixini və bugünkü vəziyyətini açdım ki, qoy bilsinlər. Çünki təəssüf ki, keçmiş zamanlarda təbliğatımız, izahat işimiz zəif olduğuna görə Dağlıq Qarabağ problemini başlayan, Azərbaycana təcavüz edən, torpaqlarımızı işğal edən, bir milyona qədər azərbaycanlını yerindən-yurdundan didərgin salan ermənilər olsa da, onların təbliğatı güclü olmuşdur. Onların dias-

poru çox güclü olmuşdur. Ümumiyyətlə, bu sahədə daha mahir olduqlarına görə üstünlük həmişə onlarda olubdur.

Çox zaman belə hesab edirdilər ki, bu problemdə günahkar guya Azərbaycandır. Mən hesab edirəm ki, son illər bizim xarici siyasətimizin – təkcə bu ölkədə yox, ümumiyyətlə, dünyada – ən böyük nailiyyəti ondan ibarətdir ki, nəhayət, biz Azərbaycan reallığını, gerçəkliyini dünyaya çatdıra, dünyada ictimai-siyasi fikri dəyişdirə bildik. Şübhəsiz ki, Ermənistan tərəfi hələ də güc göstərməyə çalışır. Onların gücü, adamları çoxdur, diasporları güclüdür. Bəlkə də bu işləri Ermənistan hökumətindən çox, onların diasporu, lobbiləri görür.

Bizim nə bu qədər diasporumuz, nə də lobbimiz var. Ona görə də biz xarici siyasətimizin gücünə, öz imkanlarımıza istinad edirik, bunlardan istifadə edirik. Bizim gördüyümüz işlər öz nəticəsini verir və bu baxımdan beynəlxalq əlaqələr üzrə Kral İnstitutundakı görüş, mənim oradakı çıxışım çox əhəmiyyətlidir və buna böyük qiymət verirəm.

Edinburqa, yəni Şotlandiyaya səfərimiz də çox əhəmiyyətli oldu. Bilirsiniz ki, Şotlandiya Böyük Britaniyada çox mühüm yer tutur. Bilirsiniz ki, onların özlərinin daxili problemləri var. Vaxtilə Şotlandiya ilə İngiltərə arasında müharibələr gedib, qırıblar-öldürüblər, sonra birləşiblər. İndi də özlərinə müəyyən qədər səlahiyyət əldə etmək arzuları var. Bu arzular da müəyyən qədər yerinə yetirilir.

Şotlandiya bu ölkənin sənaye cəhətdən inkişaf etmiş hissəsidir və neft sahəsinin də əsası buradadır. Ona görə mən oraya dəvəti qəbul etmişdim. «Bi-Pi»nin oradakı işləri ilə tanış olduq. Çünki «Britiş Petroleum»un gördüyü işlər, həm neft hasilatı, həm də neft emalı sahəsindəki texnologiyaları mənim üçün çox əhəmiyyətli idi. Bir də, şübhəsiz ki, ora qədim diyar, tarixi şəhərdir, tarixi abidələr şəhəridir, orada kraliçanın sarayı var, bunlar da onlar üçün müqəddəsdir.

Orada meriyada görüşümüz, danışıqlarımız oldu. «Bi-Pi» ilə çox gözəl danışıqlar apardıq, mən işlərlə tanış oldum. Böyük bir ziyafət verdilər. Ondan öncə Şotlandiyanın işgüzar dairələrinin nümayəndələri ilə görüşüm oldu. Bu da çox əhəmiyyətli görüş idi.

Nəhayət, XI əsrdə tikilmiş qəsrə getdik. Bu qəsri bizim üçün açdılar, onu çox nadir hallarda açırlar. Orada bizə ziyafət verdilər. Amma təkcə ziyafət cəhəti deyil, bu həm də siyasi xarakter daşıyır. Orada nazır, hesab edirəm ki, səfərimizi yekunlaşdıran çıxış etdi – siz o çıxışla tanış olacaqsınız. Orada mən də çıxış etdim.



Ümumiyyətlə, səfər çox əhəmiyyətlidir, maraqlıdır və çox məmnunam. Hesab edirəm ki, Azərbaycan xalqının mənə tapşırdığı səlahiyyətləri bu günlərdə də layiqincə yerinə yetirdim. Sağ olun. Həm də təşəkkür edirəm ki, mənimlə bərabər bu əziyyətlərə dözmüsünüz.

**«Amerikanın səsi» radiosunun Azərbaycan üzrə müxbiri:** Cənab Prezident, suallara vaxt qalmasa da, bir məqamı demək istəyirəm. Siz adətən Bakıdakı görüşlərdə, beynəlxalq görüşlərdə bizə kifayət qədər imkan yaradırsınız ki, lazımınca məlumat alaq. Bir növ, belə öyrənmişik. Ümumiyyətlə isə dünyada praktika belədir ki, jurnalistlərə çox məhdud imkan yaradırlar. Onların yaratdıqları məhdudiyyət Bakıda olsaydı, deyəcəkdilər ki, Heydər Əliyev guya demokratiyanı pozur.

**Heydər Əliyev:** İndi görün də, bizdə aşkarlıq, mətbuata münasibət necədir, inkişaf etmiş dövlətlərdə necədir.

## BİNƏ HAVA LİMANINDA JURNALİSTLƏRİN SUALLARINA CAVAB

*24 iyul 1998-ci il*

**S u a l :** Cənab Prezident, səfərin nəticələrini necə qiymətləndirirsiniz?

**C a v a b :** Səfərin nəticələri çox gözəldir. Məni müşayiət edən mətbuat nümayəndələrinə təyyarədə geniş, bir saat məlumat verdim. Yəqin ki, onu sabah televiziyada verəcəklər, dinləyərsiniz. Səfər çox yaxşı, uğurlu keçdi. Hər sahədə gözlənildiyindən də yaxşı oldu.

Başlıcası ondan ibarətdir ki, biz Böyük Britaniya ilə Azərbaycan arasındakı əlaqələrin inkişaf etdirilməsi üçün çox yaxşı əsas yaratdıq və əlaqələrimizin gələcək inkişafının yeni mərhələsi başlandı. Böyük Britaniyanın hökuməti, baş nazir və nazirlər Azərbaycan ilə Böyük Britaniya arasında, xüsusən siyasi sahədə əlaqələrin inkişafına çox maraq göstərirlər və arzularını bildirdilər, mən də bununla razı oldum.

**S u a l :** Cənab Prezident, Siz Londonda olarkən «Faynenşl Tayms» qəzetinin yaydığı məlumata görə, «Bi-Pi/Statoyl» alyansı Bakı-Ceyhan boru kəmərinin maliyyələşdirilməsini tamamilə öz üzərinə götürməyi təklif edib, Siz isə bunun qəti əleyhinə çıxmısınız. Bu, həqiqətə nə dərəcədə uyğundur?

**C a v a b :** Bilirsiniz, bu, xırda bir şeydir. Onların belə bir təklifi var, mən buna etiraz etmədim. Biz sadəcə, onlara izah etdik ki, konsorsiuma daxil olan şirkətlər əvvəlcə gərək bizə Bakı-Ceyhan xətti barədə öz layihələrini versinlər. Biz bunu oktyabr ayında gözləyirik. Bunu kim icra edəcək – onu sonra müəyyən edəcəyik. Şübhəsiz ki, «Britiş Petroleum» şirkəti boru kəmərləri tikməkdə çox böyük təcrübəyə malikdir. Dünyanın ən böyük neft kəmərini onlar Alyaskada tikiblər. Bu barədə təcrübələri böyükdür, yaxşı texnologiyaları var. Ancaq bu, ikinci mərhələnin işidir. Əgər gələcəkdə lazım olsa, bunu edə bilərlər.

**S u a l :** Amma Azərbaycan dəfələrlə bildirmişdir ki, boru kəmərinin operatoru ARDNŞ olsa...



**C a v a b :** Bilirsiniz, operatorluq ayrıdır, icraçılıq ayrı. Onlar operatorluq məsələsini qoymurdular. Onlar icraçı olmaq, bunu həyata keçirmək istəyirlər.

**S u a l :** Cənab Prezident, son müqaviləyə – London müqaviləsinə qədər 12 müqavilə imzalanıb, bunlardan yalnız biri – «Əsrin müqaviləsi» işləyir.

**C a v a b :** Müqavilələrin hamısı işləyir və onlar ölkələrimiz arasındakı işlərin görülməsi üçün tam yetərlidir. Sağ olun.

## UKRAYNANIN KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞ

**Vadim Dolqanov** *(Ukrayna milli televiziyasının birinci vitse-prezidenti)* : Hörmətli cənab Prezident, bizim üçün vaxt tapdığınıza görə Sizə, habelə bu səfər üçün çox iş görmüş olan cənab İbrahimova təşəkkür etmək istəyirəm. Mənim suallarım münasibətlərimiz üçün ən mühüm sahəyə – iqtisadiyyata aiddir. Ukrayna və Azərbaycan müstəqillik elan etdikləri vaxtdan bəri siyasi münasibətlərimiz yəqin ki, çox yaxşı səviyyədədir. Buna Sizin bu gün xatırladığınız yüksək səviyyəli səfərlər də sübutdur. Mən istərdim ki, Siz Ukrayna ilə iqtisadi münasibətlərin indiki vəziyyətini və inkişaf perspektivlərini şərh edəsiniz. Özü də ABŞ tərəfindən dəstək baxımından. Bu dəstək Xəzər neftinin nəqlində Ukraynanın iştirak etmək niyyəti ilə əlaqədar ötən həftə ifadə olunmuşdur.

İkinci sual indi, burada meydana gəldi: biz bilirik ki, bu gün Rusiya ilə danışıqlar aparılır. Mən belə başa düşürəm ki, söhbət Xəzərdə sərhədin delimitasiyasından gedir. İstərdim ki, Siz bu danışıqların gedişini şərh edəsiniz. Sağ olun.

**Heydər Əliyev** : Siz məsələlərin böyük bir dairəsini əhatə etdiniz. Bu, çox vaxt aparacaqdır. Buna baxmayaraq, cavab verəcəyəm.

Ukrayna ilə Azərbaycan arasında iqtisadi əməkdaşlıq inkişafdadır. Deyə bilmərəm ki, biz çox şeyə nail olmuşuq. Lakin hər halda əmtəə dövriyyəsinin həcmi artır və biz Ukrayna ilə iqtisadi əməkdaşlığı bacardıqca daha çox inkişaf etdirmək istəyirik.

Ukrayna Xəzər neftinə böyük maraq göstərir. Hələlik isə Xəzər nefti Azərbaycanın xarici şirkətlərlə birlikdə çıxardığı neftdən ibarətdir. Neftin ixracı üçün biz bir neft kəməri çəkmişik və indi nefti bu kəmər vasitəsilə Qara dəniz sahilindəki Novorossiysk limanına ixrac edirik. Biz ikinci boru kəmərini Bakıdan Gürcüstanın Qara dəniz sahilindəki Supsa limanına çəkirik. Ukrayna bu boru kəmərinə, habelə indi çox müvəffəqiyyətlə işləyən nəqliyyat dəhlizinə böyük maraq göstərir. Bu dəhliz Mərkəzi Asiyanı Avropa ilə Türkmənistan, Krasnovodsk, indiki Türkmənbaşı limanı, Azərbaycan limanı vasitəsilə



birləşdirir və dəmir yolu ilə Gürcüstanın Poti limanınadək və oradan da Avropayadək gedir. Ukrayna buna çox böyük maraq göstərir. Yeri gəlmişkən, Ukrayna bu sazişə qoşulmuşdur. Leonid Daniloviç Kuçma mənə dedi ki, onlar Poti və Odessadakı İliçevsk limanları arasında bərə keçidi yaratmışlar. Bu bərə keçidi hələlik yük avtomobillərinin daşınmasını təmin edir, ancaq dəmir yol bərəsi də inşa etmək planlaşdırılır. Ona görə ki, Xəzərin şərq və qərb sahillərini – Bakını və Krasnovodskı birləşdirən bərə ilə Mərkəzi Asiyadan Bakıyadək dəmir yol qatarları daşınır, buradan isə biz onları Potiyə çatdırırıq.

Avropa Birliyi TRASEKA proqramının həyata keçirilməsi ilə fəal məşğul olur. Söhbət böyük İpək Yolunun bərpasından gedir. Böyük İpək Yolu məsələsi qarşıya ciddi proqram kimi çıxmışdır. Biz Avropa Birliyi ilə birlikdə bu məsələnin təşkilatçısı olduq. Sentyabrın 7-8-də Bakıda beynəlxalq konfrans keçiriləcəkdir. İpək Yolu üstündə yerləşən 34 və ya 35 ölkənin dövlət və hökumət başçıları bu konfransa dəvət edilmişlər. Onların arasında Ukrayna da var.

İpək Yolu Yaponiyadan başlayaraq Çindən, Mərkəzi Asiyadan – Qazaxıstan, Özbəkistan və Türkmənistandan, Xəzər dənizindən, Qafqazdan keçir. Sonra o, qollara ayrılır: bir xətt Ukraynaya, oradan isə ən şimaladək gedə bilər, başqa xətt – ona Rumıniya böyük maraq göstərir – Dunay çayı ilə Avropanın şimal hissəsinədək, Bolqarıstana, Türkiyəyə gedəcəkdir. Bir sözlə, bu nəqliyyat xətti artıq yaradılmışdır, işləyir. Ona Ukrayna da qoşulmuşdur.

Sentyabrın 7-8-də biz İpək Yolunun bərpasına dair sənədlər qəbul edəcəyik. Əlbəttə, Mərkəzi Asiya ilə ən qısa nəqliyyat yolundan istifadə etməyə Ukraynanın da imkanı olacaqdır. Axı Mərkəzi Asiyadan Avropaya məsafə şimal tərəfdən yol ilə müqayisədə 2000 kilometr qısalır. Təbii ki, yükdaşımalarının xərcləri də azalır.

Bütün bunlar elə bir şərait yaradır ki, bu şəraitdə Ukrayna Azərbaycanla da, Mərkəzi Asiya ölkələri ilə də, Qafqazla, Gürcüstanla da iqtisadi cəhətdən fəal əməkdaşlıq edə bilər. Zənnimcə, böyük perspektivlər var.

Boru kəmərindən danışdım. Ukrayna Bakı-Supsa marşrutuna böyük maraq göstərir. Bu neft kəməri gələn ilin əvvəllərində hazır olacaq və biz bu istiqamətdə də neft ixrac edəcəyik. Ukrayna gələcəkdə Xəzərin enerji ehtiyatlarından, o cümlədən Xəzər dənizinin neftindən, Azərbaycan neftindən istifadə etmək üçün real imkana ma-

likdir. Hesab edirəm ki, iqtisadi inkişafın imkanları barədə danışmalı olsaq, bu, çox mühüm məsələdir.

İndi də Xəzərə dair danışıqlar haqqında. 1994-cü ilin sentyabrında 11 iri neft şirkəti konsorsiumda birləşdi və biz indi «Əsrin müqaviləsi» adlandırılan ilk müqaviləni imzaladıq. O vaxtlar bu müqaviləyə müxtəlif münasibətlər göstərilirdi. Müqaviləni imzalamış olan şirkətlər, ölkələr, əlbəttə, perspektiv barəsində düşünürdülər, bəzi digər ölkələr isə buna mənfi münasibət göstərir, qısqanclıqla yanaşırdılar. Bax, onda ortaya belə bir məsələ çıxdı ki, Xəzər dənizinin statusu yoxdur, o, əvvəllər Sovetlər İttifaqına mənsub idi. Doğrudur, cənubda İranın Xəzərə kiçik bir çıxışı var, Sovetlər İttifaqı Xəzər dənizində əslində hökmranlıq edirdi. O parçalanıb, müstəqil dövlətlər yarandıqdan, Xəzərdə beş Xəzəryanı ölkə – Rusiya, Qazaxıstan, Türkmənistan, İran və Azərbaycan meydana gəldikdən sonra, təbii olaraq qarşıya belə bir məsələ çıxdı: bu necə olan işdir, Azərbaycan müqavilə bağlamışdır, digər Xəzəryanı ölkələr isə bir tərəfdə qalmışlar? Doğrudur, bu ilk müqavilədə Rusiyanın «LUKoyl» şirkəti də iştirak edir. Həmin müqavilə imzalanmazdan əvvəl Xəzər dənizinin Azərbaycan sektorunda birgə iş haqqında Rusiya və Azərbaycan hökumətləri arasında saziş imzalanmışdır.

Biz müqaviləni imzalayanda bəziləri bəyan edirdi ki, Xəzər dənizində sektorlar yoxdur, o, ümumidir, ondan hamı istifadə etməlidir. Biz isə hələ Sovetlər İttifaqı dövründə yaranmış vəziyyətə əsaslanırdıq. Bu da ondan ibarətdir ki, 1970-ci ildə Xəzərdə neft və qaz yataqlarının işlənilməsi intensivləşəndə, Sovetlər İttifaqının Neft və Qaz Sənayesi Nazirliyi Xəzər dənizini sektorlara bölmək haqqında qərar qəbul etdi ki, Xəzərin bu və ya başqa hissəsində çıxarılan neftin hansı respublikaya aid olması bilinsin. Amma neft və qaz yataqlarının kəşfiyyatı, neftin çıxarılması ilə əsasən Azərbaycan məşğul olurdu. Xəzərdə neft və qaz hasilatı ilə məşğul olan bütün ittifaq təşkilatları da Azərbaycanda idi.

Hər halda, dənizin Azərbaycan sahillərində nə çıxarılırdısa, bu, məlum idi. Bəs sahildən uzaqda çıxarılan? Onu kimə vermək lazım idi – Türkmənistana, yoxsa Azərbaycana? Yeri gəlmişkən, Azərbaycan Türkmənistan sahillərində də neft çıxarırdı, çünki o zaman Türkmənistanın nə texnikası, nə də texnologiyası yox idi. Azərbaycanda isə bunların hamısı vardı. Elə o zaman da, 1970-ci ildə nazirlik



Xəzər dənizinin sektorlara bölünməsi haqqında sərəncam və ya qərar verdi. Biz də 1994-cü ildə müqavilə imzalayarkən onu əsas götürdük ki, hər işi öz sektorumuzda görürük. Rusiya, digər Xəzəryanı dövlətlər Xəzər dənizinin sektorlara bölünməsi prinsipini uzun müddət qəbul etmək istəmirdilər.

Amma biz öz işimizi görürdük. Sonra biz yeni müqavilələr imzaladıq. Bu ilin mart ayında Rusiya, nəhayət, qərara gəldi ki, Xəzər dənizinin dibinin sektorlara bölünməsi prinsipini qəbul etmək lazımdır. Boris Nikolayeviç Pastuxovun başçılıq etdiyi Rusiya nümayəndə heyəti mart ayında Azərbaycanda oldu, biz saziş imzaladıq ki, Xəzər dənizinin dibi sektorlara bölünməlidir.

Sonra bu məsələdə daha da irəliləyiş oldu. Gərək ki, bu ayın əvvəlində Moskvada Xəzər dənizinin Qazaxıstan ilə Rusiya arasında orta xətt üzrə sektorlara bölünməsi haqqında Rusiya ilə Qazaxıstan arasında prezidentlər səviyyəsində saziş imzalandı. Biz bu sazişi bəyəndik.

Bu yaxınlarda Rusiya nümayəndə heyəti İranda olmuşdur. İran hələlik bu mövqe ilə o qədər də razı deyildir. Ancaq Rusiyanın nümayəndə heyəti danışıqlar aparır. Türkmənistan öz mövqeyini çox da dəqiq müəyyən etməmişdir. Hər halda, indi artıq məlumdur ki, Xəzər dənizinin mineral ehtiyatlarından, onun dibindən istifadə olunması qəti şəkildə sektor bölgüsü prinsipi üzrə həyata keçiriləcəkdir. Bu gün həmin prinsip bir daha təsdiqləndi və biz hətta razılaşdıq ki, indiki sərhədlərimizin keçdiyi xətt üzrə Xəzər dənizinin Rusiya ilə Azərbaycan arasında bölünməsi haqqında Rusiya ilə Azərbaycan arasında prezidentlər səviyyəsində saziş imzalana bilər.

Rusiya belə hesab edir ki, dənizin dibini sektorlara bölmək olar, amma su qatı kondominium prinsipi üzrə ümumi istifadədə qalmalıdır, 12 və 45 kilometrlik sahilyanı zona olmalı, dənizin qalan hissəsi balıq ovu, gəmiçilik, ekologiya və sairə üçün umumi istifadədə olmalıdır. Azərbaycanın mövqeyi, gərək ki, İranın da mövqeyi belədir ki, hər şeyi sektorlara bölmək lazımdır. Biz bu məsələdə hələlik razılığa gələ bilməmişik. Bugünkü görüşümüz də elə bu səviyyədə başa çatmışdır.

Lakin biz irəliləyirik. Əgər dörd il bundan əvvəl heç nəyi tanımırdılarsa, indi məsələnin bir hissəsi artıq həll edilmişdir. Xəzərin dibi bölünür. Bax, beləcə tədricən irəliləyəcəyik.

Bu asan iş deyildir. Xəzər dənizinin Yer kürəsinin yaşı qədər yaşı var. Amma Xəzər dənizinin məsələsi ilə heç kim heç vaxt məşğul olmayıbdır. Bu birincisi. Keçmişdə bu dəniz, demək olar, tamamilə çar Rusiyasına mənsub idi, bundan əvvəl isə onun daha kimlərə mənsub olduğu məlum deyildir. Sonralar Xəzər Sovetlər İttifaqına mənsub olmuşdur. İndi burada beş Xəzəryanı dövlət var. Biz Xəzər dənizindən necə istifadə edilməsi və onun hansı statusa malik olması barədə danışıb razılığa gəlməliyik. Belə düşünürəm ki, razılığa gələcəyik. Sağ olun.

**M a r i n a  O s t a p e n k o** *(«İnterfaks» agentliyi, Ukrayna)* : Mənim birinci sualım Xəzər neftinin nəqli barədədir. İqtisadi və ya siyasi amil neftin nəqlinin bu və ya digər variantı barədə Azərbaycanın qərarına nə dərəcədə təsir göstərə bilər? İkinci sual, Siz prezidentimizi onun 60 illiyi münasibətilə təbrik etmək üçün avqustun 9-da Krıma gələcəksinizmi?

**H e y d ə r  Ə l i y e v** : Məmnuniyyətlə gələcəyəm. Bilirsinizmi, neftin Xəzər hövzəsindən nəqli məsələsi indi bütün dünyada müzakirə edilir. Buna Qərb ölkələri, bölgəmizin ölkələri, Amerika Birləşmiş Ştatları böyük maraq göstərirlər. Azərbaycanda ABŞ-ın, Avropanın və dünyanın digər ölkələrinin kifayət qədər böyük miqdarda çox iri neft şirkətləri işləyir. Onu da bilirəm ki, Qazaxıstan sektorunda dünyanın bir çox ən iri şirkətləri işləməyə başlayırlar. Onlar Türkmənistan sektorunda da işləməyə başlayırlar. Odur ki, bu işin XXI əsrdə böyük perspektivi var.

Biz belə bir mövqedə dururuq ki, neftin Xəzər dənizindən nəqli üçün çoxlu marşrut olmalıdır. Məsələn, Azərbaycanda biz özümüz üç marşrut müəyyən etmişik: birincisi – Bakı-Novorossiysk, ikincisi – Bakı-Supsa və üçüncüsü, biz bunu əsas neft kəməri hesab edirik – Bakı-Ceyhan. Ceyhan Türkiyənin Aralıq dənizində limandır. Söhbət Bakıdan başlayaraq Gürcüstan və Türkiyə ərazisi ilə Aralıq dənizi sahilinə neft kəməri çəkilməsindən gedir. Doğrudur, bu məsələ hələ qəti olaraq həll edilməyibdir. Lakin bu məsələdə bizim mövqeyimiz qəti olaraq müəyyən edilmişdir və biz onun haqqında danışdıq.

Ancaq başqa variantlar da ola bilər. Əlbəttə, bu zaman məsələnin ən əvvəl kommersiya tərəfi nəzərə alınır. Hərə istəyir ki, hər şey iqtisadi cəhətdən sərfəli olsun. Təbii ki, təhlükəsizlik məsələlərində də. Məsələnin siyasi tərəfi də buradan irəli gəlir.



Lakin söhbət təkcə neftin Azərbaycan sektorundan deyil, həm də bütün Xəzər hövzəsindən ixrac edilməsindən gedir. Söhbət hətta Qazaxıstan və Türkmənistan ərazilərində çıxarılan neftin və qazın nəqlindən də gedir. Orada quruda neft və qazın böyük ehtiyatları var. Məsələn, Qazaxıstan ərazisində «Tengiz» yatağı var, burada Amerikanın «Şevron» şirkəti Qazaxıstanın neft şirkəti ilə birlikdə ildə təqribən 8 milyon ton neft çıxarır. Onlar bu nefti Rusiya ərazisi ilə ixrac edirlər. Bizə müraciət etdilər. Biz öz razılığımızı verdik və ötən il bu nefti Qazaxıstanın Aktau limanından tankerlərlə Bakı limanına gətirdik və buradan dəmir yolu ilə Qara dənizin Batumi limanına göndərdik. Beləliklə, biz bir milyon tondan artıq neft daşımışıq. Yəqin ki, bu il iki milyon ton olacaqdır. Onlar bu neftin miqdarını bundan sonra da artırmaq istəyirlər. Güman ki, bu, təxminən 10 milyon ton olacaqdır. Buna görə də bu nefti boru kəməri ilə Qərbə ixrac etmək üçün Qazaxıstandan Bakıya neft kəməri çəkilməsi haqqında Qazaxıstan ilə Azərbaycan arasında saziş var.

Qərb ölkələri, xüsusən ABŞ türkmən qazının Qərbə Türkmənistan-Bakı qaz kəməri ilə nəql olunmasını təklif edirlər. ABŞ-ın nümayəndə heyəti hazırda Türkmənistandadır və bu məsələ ilə məşğul olur. O, Türkiyədə də olmuşdur, sabah bizə, Azərbaycana gələcəkdir.

Buna görə də belə düşünürəm ki, marşrutlar çox olacaqdır. Biz marşrutların variantlarının çox olmasına tərəfdarıq.

O ki qaldı Leonid Daniloviç Kuçmanın 60 illiyinə, mənim ona böyük hörmətim var. Mən onu mütləq təbrik edəcəyəm və onun 60 illiyinə həsr olunmuş şənliklərdə çox fəal iştirak edəcəyəm.

**K o n s t a n t i n  Q u s a r o v** *(Ukrayna Nazirlər Kabinetinin mətbuat xidməti)* : Heydər Əliyeviç, Sizin kimi misilsiz, nadir, əfsanəvi təleyə malik adamları barmaqla saymaq olar. Məlumdur ki, prezidentlər arasında şəxsi münasibətlər dövlətlərarası münasibətlərin səviyyəsinə aşkar təsir göstərir. Siz Leonid Daniloviçlə öz şəxsi mehriban, səmimi münasibətlərinizi necə səciyyələndirərdiniz? Bu münasibətlər dövlətlərarası münasibətlərin səviyyəsinə nə kimi təsir göstərir?

**H e y d ə r  Ə l i y e v** : Şəxsi münasibətlərin təşəkkül tapması üçün əsas olmalıdır. Bu, xüsusi olaraq yaradıla bilməz. Mənimlə prezident Leonid Kuçma arasında münasibətlərimiz ən əvvəl beynəlxalq həyatın bir çox məsələlərə: MDB-də həll edilən və Qafqaz bölgəsi-

nə, Ukraynaya, Mərkəzi Asiyaya aid siyasi baxışlarımızın, siyasi mövqelərimizin oxşarlığı əsasında təşəkkül tapmışdır. Bu çox mühüm amildir və bizim aramızda münasibətlərin təşəkkül tapması üçün şərait yaratmışdır.

Bundan başqa, bir-birinə insani rəğbət də olmalıdır. Xoşbəxtlikdən bizdə bu rəğbət qarşılıqlı olmuşdur. Buna görə də ona böyük hörmətlə yanaşıram. Zənnimcə, o da mənə bu cür hörmətlə yanaşır.

Fürsətdən istifadə edərək demək istəyirəm ki, sizin prezident Leonid Daniloviç Kuçma ağıllı insandır. Mən görürəm, hiss edirəm ki, o, Ukraynanın suverenliyi və müstəqilliyi mövqelərində möhkəm dayanmışdır, öz ölkəsi üçün çox işlər görmək istəyir. Hesab edirəm ki, xalqınız bunu qiymətləndirməli, onu fəal dəstəkləməli, ona kömək göstərməlidir.

Ukrayna zəngin iqtisadi potensialı, çoxlu əhalisi, geniş ərazisi olan böyük ölkədir. O, Avropanın inkişaf etmiş və aparıcı ölkələrindən biri ola bilər. Ukrayna təbii ehtiyatlar sahəsində də, iqtisadiyyat sahəsində də, intellektual potensial sahəsində də bu cür imkanlara malikdir. Belə düşünürəm ki, Ukraynada aparılan islahatlar, prezident Leonid Daniloviç Kuçmanın qətiyyətlə həyata keçirdiyi demokratikləşdirmə xətti düzgün yoldur və bu yol Ukraynanı yüksək səviyyəyə qaldıra bilər.

Bütün bunlar məndə rəğbət doğurur və cəlbedici qüvvədir, Leonid Daniloviç Kuçma ilə mənim aramda şəxsi münasibətləri də bu qüvvə təmin edir. Mən bu münasibətləri qiymətləndirirəm və şübhəsiz, onlar dövlətlərarası münasibətlərin inkişafına müsbət təsir göstərir. Çünki bizim aramızdakı qarşılıqlı anlaşma, baxışlarımızın oxşarlığı, şəxsi münasibətlərimizi nəzərə alaraq fəal əməkdaşlıq etmək istəyi, şübhəsiz, vahid kompleks əmələ gətirir.

Axı burada müxtəlif nümayəndə heyətləri olmuşdu. Ukraynanın baş naziri iqtisadi əməkdaşlıq məsələlərini müzakirə etmək üçün buraya iki dəfə xüsusi olaraq gəlmişdir. Bizim nümayəndə heyətləri Ukraynada olmuşlar. Hesab edirəm ki, şəxsi münasibətlərimiz çox möhkəmdir və bundan sonra da möhkəmlənəcəkdir. Sizə isə bir dost kimi məsləhət görürəm ki, prezident Leonid Daniloviç Kuçmaya daha çox kömək göstərəsiniz.

**Oleq Kolesnikov** *(«Region» qəzeti)* **:** Hörmətli cənab Prezident, təəssüf ki, postsovet məkanında millətlərarası hərbi münaqişələrin arası kəsilmir. Bir çox siyasətçilər bu vəziyyəti birbaşa Qorbaçovun son illərdə yeritdiyi milli siyasətlə bağlayırlar. Bu məsələ barəsində Sizin fikrinizi bilmək istərdik.



**Heydər Əliyev:** Postsovet məkanındakı bu münaqişələri Qorbaçovun buraxdığı kobud səhvlərlə bağlayan siyasətçilərlə razıyam. Məhz belə olmuşdur. Axı mən Qorbaçovla neçə il bir yerdə işləmişəm. O, Stavropolda, mən isə Azərbaycanda işləyərkən onunla çox yaxın əlaqədə işləmişəm. O, Moskvada işləyəndə, Sov.İKP MK katibi kimi, kənd təsərrüfatı məsələləri ilə məşğul olanda, mən Azərbaycan MK-nın birinci katibi idim. Sonra, 1982-ci ilin sonunda mən Moskvaya dəvət ediləndə və Sov.İKP MK Siyasi Bürosunun üzvü, Nazirlər Soveti sədrinin birinci müavini olanda, Qorbaçov da Siyasi Bürounun üzvü, MK katibi idi. Biz paralel işləyirdik.

Sonralar, 1985-ci ildə biz hamımız Siyasi Büroda ona səs verdik, onu Baş katib seçdik. Lakin sonra o lovğalandı və çoxlu səhvlər buraxdı. Lakin mənə elə gəlir ki, milli siyasət məsələlərində buraxılan kobud səhvlərin nəticələri daha ağırdır. Mənim fikrimcə, o səhv buraxmır, əksinə, bəzi şeyləri qəsdən edirdi. Əslində, elə buna görə aramızda münaqişə baş verdi. Ermənistan ilə Azərbaycan arasında Dağlıq Qarabağ münaqişəsinin günahı Qorbaçovdadır. O zaman bu, Sovetlər İttifaqında ilk münaqişə idi. O vaxta qədər heç bir münaqişə olmamışdı. Bu, ilk münaqişə idi. Sovetlər İttifaqının başçısı, birinci şəxs kimi o, 1988-ci ildə nəinki münaqişənin qarşısını almadı, aradan qaldırmadı, əksinə, onun genişlənməsinə imkan yaratdı. Mənim bunu deməyə tam əsasım var. O, 1990-cı ilin yanvarında, heç bir əsas olmadan sovet qoşunlarının iri kontingentini Bakıya, Azərbaycana yeritməklə, burada çoxlu günahsız insanları məhv etməklə, Bakı şəhərinin küçələrini qana boyamaqla cinayət törətmişdir. Siz yəqin ki, burada – Şəhidlər Xiyabanında – bu günahsız insanların dəfn edildiyi qəbiristanlıqda olmusunuz. O bu cinayətə görə cəzalandırılmayıb, lakin cəzalandırılmalıdır. Bu da onun milli məsələlərdə yol verdiyi kobud səhvlərdən biridir.

O, milli psixologiyaya, milli siyasətin xüsusiyyətlərinə məhəl qoymadan elə ağılsız qərarlar qəbul etmiş və o yerə gəlmişdi ki, öz xalqına qarşı hərbi təcavüz etmişdi. Məgər bunu etmək olardı?

Mən burada, Azərbaycanda işləmişəm, respublikanı yaxşı tanıyıram. Azərbaycan onsuz da qoşunla dolu idi. Burada sovet ordusunun

iri hərbi birləşmələri həmişə olmuşdur. Burada çox iri 4-cü ordu, Bakı hava hücumundan müdafiə dairəsi, Xəzər donanması, desant qoşunları – külli miqdarda qoşun var idi. Mən bunu bilirəm, çünki uzun illər Azərbaycanın rəhbəri olmuşam və bütün bu qoşun hissələrinə getmişəm. Bunlar ola-ola o, iri qoşun kontingentini, müdafiə naziri marşal Yazovu, daxili işlər naziri Bakatini, dövlət təhlükəsizliyi nazirinin birinci müavinini, başqalarını buraya göndərdi, burada qırğın törətdi. Bu da təkcə onun milli siyasətinin səhvləri deyil, cinayətdir.

Eyni şeylər sizdə də var. Siz indi Krımdakı separatizmdən əzab çəkirsiniz. Bütün bunlar da onun nəticəsidir. Bütün sonrakı münaqişələr – Gürcüstandakı abxaz və osetin münaqişələri, Çeçenistandakı, Dnestryanıdakı münaqişələr də Dağlıq Qarabağda baş verəndən sonra meydana çıxmışdır. Yəni bu yoluxucu xəstəlik yayılmışdır, bunun da təqsirkarı odur.

Təkrar edirəm, bununla əlaqədar mən onunla mübahisə etdim. Məsələn, 1986-cı ildə o, bəzi respublikaların rəhbərlərini dəyişməyə başladıqda, Qazaxıstanda MK-nın birinci katibi Kunayev istefaya getməli idi. Qazaxıstan böyük respublikadır. Kunayev qazaxdır, 22 il respublikanın rəhbəri olmuşdur. İndi birdən Qorbaçov oraya Qazaxıstan KP MK-nın birinci katibi vəzifəsinə tamamilə kənar bir adamı – Kolbini göndərir, ona görə ki, Kolbin onun dostudur. O isə Qazaxıstanda heç vaxt yaşamayıb, işləməyibdir, üstəlik, qazax millətinə deyil, rus millətinə mənsubdur. Qazaxlar bununla necə razılaşa bilərdilər? Tələbələr küçəyə çıxıb etiraz etdikdə onlara qarşı qoşun, milis qüvvələri yeritdilər, sonra da «qazax millətçiliyi» haqqında qərar qəbul etdilər. Nə qazax millətçiliyidir? Xalq sadəcə olaraq öz iradəsini bildirmişdir.

Bu, 1986-cı ildə olmuşdur. Onda mən hələ Siyasi Büronun üzvü idim və bu məsələdə onun mövqeyi ilə razı olmadığımı bildirdim. Aramızda təkcə bunun üstündə deyil, başqa məsələlər üstündə də böyük münaqişə oldu. Əslinə qalsa, məhz buna görə mən 1987-ci ilin axırlarında Siyasi Büroda bütün vəzifələrdən uzaqlaşdırıldım. Əlbəttə, mən istefa verdim, orada isə elan etdilər: öz xahişi ilə, səhhətinin vəziyyətinə görə. Mən istefa verdikdən, Siyasi Bürodan getdikdən təxminən bir ay sonra Dağlıq Qarabağda münaqişə haqqında ilk xəbərlər gəldi və bəzi erməni xadimləri bəyan etdilər ki, Dağlıq Qarabağı Ermənistana birləşdirmək lazımdır. Mən istefa verdikdən bir ay



sonra professor Aqanbeqyan Parisdə «Humanite» qəzetinə bildirdi ki, Dağlıq Qarabağı Ermənistana birləşdirmək lazımdır, habelə «bu məsələ Qorbaçovla razılaşdırılmışdır». Odur ki, bütün bu məsələlərdə Qorbaçov çox təqsirkardır. Sağ olun.

**İ r i n a  B a l a l i n a** *(«Komsomolskaya pravda na Ukraine» qəzeti)* : Cənab Prezident, kənardan dəstəklənən daxili müxalifət Azərbaycan üçün və onun beynəlxalq əlaqələri üçün nə ilə təhlükəlidir?

**H e y d ə r  Ə l i y e v :** Deməzdim ki, nə iləsə təhlükəlidir. Hər halda, mən artıq dedim ki, hər hansı demokratik dövlətdə müxalifətin olması normal haldır. Müxalifət olmasa, demokratiyadan danışmaq olmaz. Bizim barışmaz, radikal müxalifətə gəldikdə, təəssüf ki, o bizdə bir vaxtlar əldə silahla, öz silahlı dəstələri ilə, silahlı birləşmələri ilə meydana çıxmışdır. Xalq Cəbhəsinin öz silahlı dəstələri vardı. Hətta Xalq Cəbhəsi hakimiyyətə gəldikdə, onun nümayəndəsi prezident seçildikdə, prezidentin sərəncamında ordu, polis, Daxili İşlər Nazirliyi olduğu halda o, Xalq Cəbhəsinin silahlı dəstələrini saxlayırdı, bu dəstələr müstəqil surətdə mövcud idi. Buna görə də onlar öz köhnə vərdişlərindən, belə bir fikirdən heç cür əl çəkə bilmirlər ki, hakimiyyətə silahla, hakimiyyətin silahla devirlməsi yolu ilə nail olmaq mümkündür. Onlar bu psixologiyanı əsas götürərək, belə barışmaz mövqe tuturlar. Müxalifətdə ola bilərsən, təbii ki, prezidentin hakimiyyətini, onun siyasətini tənqid etmək olar. Amma gərək qanun çərçivəsində hərəkət edəsən. Əgər onlar nə isə istəyirlərsə, amma onların bu istəkləri həyata keçmirsə, onlar özlərini istədikləri kimi aparırlar.

Onların xarici aləmlə əlaqələrinə gəldikdə, əlbəttə, bu əlaqələr var. Məsələn, mən sizə 1994-cü ilin oktyabrında çevriliş cəhdindən danışdım. Bu cəhdi göstərən adamlar sonra aradan çıxıb Rusiyaya qaçdılar, burada onları gizlətdilər. Doğrudur, sonra ardıcıl səylərimiz sayəsində onların bir çoxunu tutmağa, oradan geri qaytarılmasına müvəffəq olduq. Əgər bu adamları orada gizlədirdilərsə, onlar orada normal yaşaya bilirdilərsə, deməli, onları kimlərsə dəstəkləyirdilər.

Yaxud, məsələn, 1995-ci ildə XTPD dəstəsi burada çevriliş etməyə cəhd göstərdi. Onların arasında Türkiyə xüsusi idarələrinin nümayəndələri də vardı. Halbuki Türkiyə bizə dost ölkədir. Aramızda çox sıx dostluq münasibətləri var. Mən Türkiyə rəhbərləri ilə, xüsusən prezident Süleyman Dəmirəl ilə çox səmimi dostluq münasi-

bətləri saxlayıram. Biz bir-birimizi 30 ildir tanıyırıq və bizim çox böyük dostluğumuz var. Buna baxmayaraq, xüsusi idarələrdəki bəzi qüvvələr burada silahlı çevriliş təşkil etmiş adamlarla əlbir olmuşlar. Buna görə də istina deyildir ki, radikal müxalifət də Azərbaycandan kənardakı müəyyən qüvvələrdən dəstək alırlar. Bu nə ilə təhlükəlidir? Əlbəttə, bunu proqnozlaşdırmaq çətindir. Amma təəssüflər olsun ki, müxalifətdəki bəzi ekstremist əhval-ruhiyyəli şəxslər iqtidara qarşı terror üsullarından və silahlı hərəkətlərdən əl çəkməmişlər. Bax, bu, baş verə biləcək ən ağır hadisədir. Lakin son illərin təcrübəsi göstərir ki, bu cür cəhdlər boşa çıxır.

**Lyubov Qorbatyuk** *(«Novosti-Nyus» qəzeti)* **:** Azərbaycanın bu ağır dövründə Siz həqiqətən milli lider olmağa, vahid dövlət yaratmağa müvəffəq oldunuz. Xahiş edirəm deyəsiniz, siyasi müvəffəqiyyətinizin sirri nədədir?

**Heydər Əliyev:** Bunu demək mənim üçün yəqin ki, çətindir. Siz ki bir neçə gün burada oldunuz, adamlarla görüşdünüz. Sirrin nədə olduğunu yəqin ki, özünüz hiss etdiniz. Mənim bioqrafiyam sizə məlumdur. Mən erkən yaşlarımdan dövlət fəaliyyətinə cəlb edilmişəm. 29 il bundan əvvəl, 1969-cu ilin iyulunda Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi seçildim. Burada 14 il işlədim. Brejnevin ölümündən sonra məni Moskvaya dəvət etdilər, mən Siyasi Büronun üzvü seçildim, SSRİ Nazirlər Soveti sədrinin birinci müavini təyin olundum. Bu vəzifədə beş il işlədim.

Dediyim kimi, 1987-ci ilin axırlarında istefa verdim. Bundan sonra həyatımda təqiblər dövrü başladı. Yadınızda olar, 1988-ci ildən mətbuat orqanlarında, qəzetlərdə mənim barəmdə, fəaliyyətim barədə, zənnimcə, iftiralı məqalələr dərc edilməyə başlandı. Mən gözdən salınmışdım, hər şeydən təcrid olunmuşdum. Buna baxmayaraq, 1990-cı ilin yanvarında Bakıya qoşun yeridilərkən Moskvada yaşasam da, Azərbaycanda ağır vəziyyət yarandığı barədə müəyyən məlumat ala bildim. O vaxt mən öz məsləhətlərimi, mülahizələrimi Qorbaçova, Siyasi Büronun digər üzvlərinə bildirməyə cəhd göstərdim. Lakin onlar mənim xidmətlərimdən tamamilə imtina etdilər. Mən onlarla, hətta telefonla da danışa bilmədim.

1990-cı ildə buraya qoşun yeridildikdə mən daha susa bilmədim. Moskvada izdihamlı mitinqdə çıxış edərək, sovet rəhbərliyinin, Siyasi Büronun bu əməllərinə qarşı, Azərbaycana qoşun yeridilməsinə qarşı etiraz etdim, bunu pislədim. Qəzetlərdə mənə qarşı daha çox iftiralar, böhtan dolu yazılar dərc edilməyə başlandı. Bütün bunlar ona gətirib çıxardı ki, mən Kommunist Partiyasını tərk etdim və Kommunist Partiyasından hansı səbəblərə görə getdiyim barədə rəsmi bəyanat verdim.



Mən Bakıya gəldim, çünki daha Moskvada yaşamaq ağır idi. Orada təqiblərə məruz qalırdım. Ancaq təəssüflər olsun ki, burada vəziyyət elə idi ki, mənə Bakıda da yaşamağa imkan vermədilər. Halbuki hakimiyyətdə vaxtilə mənim irəli çəkdiyim adamlar vardı. Nə demək olar, siyasət siyasət olaraq qalır. Mən çox-çox uzaqlara, doğulduğum Naxçıvana getməli oldum.

O, Azərbaycandan ərazicə təcrid edilmiş kiçik bir muxtar respublikadır. Üç il orada yaşadım. Nəhayət, 1993-cü ildə məni buraya dəvət etdilər. Özünüz diqqət yetirin, 1993-cü ildə burada çox təhlükəli bir vəziyyət yaranarkən, vaxtilə məni hətta Azərbaycandan da sıxışdırıb çıxarmış adamlar – mənim buradan da çıxıb getməyə yerim yox idi, çünki mən Moskvada yaşaya bilməzdim, buraya gəldim, burada isə məni yaşamağa qoymurlar, odur ki, Azərbaycanın ən ucqar guşəsinə getdim, məni oradan da uzaqlaşdırdılar, daha hara getməli idim, harayasa dağlara qalxmalı idim, hər halda ora da Azərbaycan ərazisidir – məni 1993-cü ildə buraya çağırmaq məcburiyyətində qaldılar.

Doğrudur, onlardan əlavə, cəmiyyətimizin bir çox adamları da məni dəvət edirdilər. Yəni burada elə bir adam yox idi ki, Azərbaycanın o ağır dövründə gərginliyi aradan qaldırmaq missiyasını öz üzərinə götürə bilsin. Məni dəvət etdilər və mən bunu edə bildim. O illərdə, mən qəzəbə gələndə çoxlu hücumlara məruz qalsam da, həmişə Azərbaycanda xalqın mənə olan etimadını hiss etmişəm. Özü də təkcə Azərbaycanda yox. Mən Rusiyada da həmişə əhalinin bir çox təbəqələrinin rəğbətini hiss etmişəm.

Nəyə görə? Yəqin ona görə ki, həm Azərbaycanda respublikanın başçısı kimi, həm də Moskvada Sovetlər İttifaqının rəhbərlərindən biri kimi çoxillik fəaliyyətim insanları əmin etmişdi ki, mənə inanmaq lazımdır. İnsanlar da mənə inanırlar. Şübhəsiz ki, insanların inamı mənə güc verir və bütün bu çətinlikləri dəf etməyə imkan yaradır. Hətta mən qəzəbə gələndə, təcrid olunmuş vəziyyətdə yaşayanda da belə idi. Şübhəsiz ki, mənim həyatım ağır idi, ancaq insanların inamını hiss edirdim və bu mənə kömək edirdi.

Yenə də etimad. Bəs mən nə edirəm? Mən sadəcə olaraq, bu etimadı ardıcıl fəaliyyətimlə doğrultmağa çalışıram. Mən çox işləyirəm və xalqımın bu ağır dövründə respublikanı yüksəltmək üçün nə bacarıramsa, mümkün olan nə varsa, hər şeyi edirəm.

Şübhəsiz, hər bir azərbaycanlı kimi, mənə də həmişə çox ağırdır ki, insanlarımızın bir qismi çadırlarda, çətin şəraitdə yaşayır. Bu, ürəyimi daim üzür. Amma onları öz doğma yerlərinə qaytarmaq üçün nə mümkündürsə, mən onu edirəm. İnanmıram ki, başqa birisi mənim etdiyimdən çox şey edə bilər. Əgər bilsəydim ki, beləsi var, mən öz yerimi ona verərdim. Qoy gəlsin, çox iş görsün. Amma hesab edirəm ki, mən mümkün olan nə varsa, hamısını edirəm.

Bu da mənə güc, qüvvət verir. Mənim uğurlarımın sirri yəqin ki, bundadır.

**Viktor Kozlovski** *(«İnter» teleşirkəti)* : Heydər Əliyeviç, Dağlıq Qarabağdakı münaqişədə və bütün Qafqazda Rusiyanın indiki rolunu açıqlaya bilərdinizmi? Rusiyanın indiki rəhbərliyi bu vəziyyətdə hansı mövqedə dayanır?

**Heydər Əliyev**: Biz münaqişənin həllində ATƏT-in Minsk qrupunun həmsədrlərindən biri kimi, Rusiyaya çox ümid bəsləyirik. Bir də ona görə ümid bəsləyirik ki, Rusiyanın Ermənistana böyük təsiri var. Bilirsiniz ki, Ermənistanda Rusiyanın böyük qoşun kontingenti yerləşir, onlar hərbi bazalar statusuna malikdirlər. Rusiya Ermənistanla çox sıx hərbi əməkdaşlıq edir. Bu yaxınlarda Rusiyanın müdafiə naziri Ermənistanda rəsmi səfərdə olmuş, onlar hərbi əməkdaşlıq haqqında yeni sənədlər imzalamışlar. Rusiya hər cəhətdən Ermənistana çox kömək edir. Ona görə də Ermənistan Rusiya ilə hesablaşır. Bunu nəzərə alaraq, biz hesab edirik ki, münaqişənin sülh yolu ilə aradan qaldırılması üçün Rusiya lap çox iş görə bilər.

Bəs biz münaqişəni nə üçün aradan qaldıra bilmirik? Ona görə ki, Ermənistan pozucu mövqe tutur. O, Dağlıq Qarabağa müstəqillik statusu almağa çalışır. Biz buna heç vaxt razı ola bilmərik. Buna dünya birliyi də razı olmur. Heç bir beynəlxalq təşkilat buna razı ola bilməz, çünki bu, beynəlxalq hüququn əsas prinsiplərinə, Birləşmiş Millətlər Təşkilatının, ATƏT-in prinsiplərinə ziddir. Hər bir dövlətin ərazi bütövlüyü məsələsi beynəlxalq hüququn pozulmaz prinsipidir. Əgər kimsə bunu pozursa, o özünə zərər vurur. İndi Rusiya özü Çeçenistandakı münaqişədən əziyyət çəkir. Çeçenistandakı vəziyyət Rusiyada şəraiti mürəkkəbləşdirir. Çeçenistan müstəqil olmaq istəyir, Rusiya isə, şübhəsiz ki, bu müstəqilliyi ona verə bilməz. Elə buna görə də münaqişə heç cür həll olunmur.



Buna görə də Ermənistanın, o cümlədən indi Ermənistanla tam vahid əmələ gətirən Dağlıq Qarabağın tələbləri əsassızdır. Onlara, sadəcə olaraq, dəqiq-dürüst demək lazımdır ki, sizin tələbləriniz haqsızdır və heç vaxt yerinə yetirilə bilməz. Əlbəttə, artıq bu halda Ermənistan 1996-cı ilin dekabrında ATƏT-in bütün üzvləri tərəfindən qəbul edilmiş prinsiplərlə razılaşa bilər. Ermənistan istisna olmaqla, 54 ölkədən 53-ü bu prinsiplərə səs vermişdir.

Bu üç prinsipdə nəzərdə tutulur: birincisi, Azərbaycanın və Ermənistanın ərazi bütövlüyünün tanınması. Azərbaycanın ərazi bütövlüyünü Ermənistan indiyədək tanımır, çünki Azərbaycanın ərazi bütövlüyünü o pozmuşdur. İkinci prinsip – Dağlıq Qarabağa Azərbaycan dövlətinin tərkibində özünüidarə statusu verilməsi. Üçüncü prinsip – Dağlıq Qarabağın bütün əhalisinin təhlükəsizliyinə təminat verilməsi.

Biz bu prinsiplərlə razıyıq, hərçənd onlar bizi də çox qane etmir. Amma Ermənistan razılaşmır, Dağlıq Qarabağın müstəqillik statusu almasına çalışır. Bu isə qeyri-mümkündür. Deməli, Ermənistana təsiri olan hər hansı bir ölkə – belə ölkə isə Rusiyadır – dəqiq bildirməlidir: Yox, bu, olmayacaqdır, gəlin, məsələni qarşılıqlı surətdə məqbul mövqelərdə həll edək. Biz buna hazırıq. Biz Dağlıq Qarabağa yüksək özünüidarə statusu verməyə hazırıq. Ancaq Dağlıq Qarabağ Azərbaycan dövlətinin tərkibində olmalıdır və Azərbaycanın ərazi bütövlüyü bərpa edilməlidir. Ona görə də Rusiyanın böyük imkanları var. Ümidvaram ki, Rusiya bu imkanlardan istifadə edəcəkdir.

**Olqa Len** *(«Zakon i biznes» qəzeti)* : Hörmətli Heydər Əliyeviç, Azərbaycanın xarici siyasətinin formalaşmasına şəxsən Sizin təsiriniz olduğu barədə rəy var. Siz ölkədə daxili sabitliyi və dinamik iqtisadi inkişafı təmin etməyə müvəffəq oldunuz. Bu isə nəticədə Azərbaycanın beynəlxalq nüfuzuna təsir göstərdi. Buna görə də belə bir suala cavab verə bilərsinizmi: ölkələrimizin daxil olmağa başladıqları strukturlar arasında GUAM-ın yeri necədir? Bu strukturun inkişaf perspektivləri necədir və bəzi vəzifəli şəxslərin belə bəyanatları nə dərəcədə əsaslıdır ki, bu struktur neft və qazın Xəzər bölgəsindən nəql olunmasını təmin etmək məqsədilə yaradılmışdır?

**H e y d ə r Ə l i y e v :** Bilirsinizmi, bu strukturu Ukrayna, Gürcüstan, Moldova və Azərbaycan prezidentləri Strasburqda olarkən yaratmışlar. Deməliyəm ki, çox yaxşı struktur əmələ gəlmişdir. Çünki biz beynəlxalq həyatda ümumən bir çox məsələlərdə eyni mövqe tutan ölkələrik. Biz bir-birimizlə coğrafi cəhətdən bağlıyıq – burada, Qafqazda – Gürcüstan və Azərbaycan, orada, Qara dənizdən o yanda isə – Ukrayna və Moldova. Hesab edirəm ki, bu struktur həm siyasi, həm də iqtisadi əhəmiyyətə malikdir. Əlbəttə, Xəzər dənizinin enerji ehtiyatlarından istifadə edilməsi məsələsi də istisna deyildir. Ancaq bu struktur Xəzər neftindən istifadə etmək məqsədləri çərçivəsindən çox-çox kənara çıxır. Hesab edirəm ki, onun yaxşı perspektivi var. Bu yaxınlarda yaradılmış gənc təşkilatdır. Azərbaycanda biz bu fikirdəyik ki, GUAM çərçivəsində əməkdaşlığımızı ardıcıllıqla möhkəmlətmək və inkişaf etdirmək lazımdır.

**A r z u S ə r d a r l ı** *(«Azərbaycanın səsi» qəzeti)* **:** Cənab Prezident, bizim qəzet Ukrayna azərbaycanlıları üçün informasiya mənbələrindən biridir. Biz Ukraynada yaşayan azərbaycanlılardan informasiya sarıdan kömək alırıq. Fürsətdən istifadə edərək, Siz Ukraynadakı abunəçilərə qəzetimiz vasitəsilə nə kimi arzularınızı çatdırmaq istərdiniz?

**H e y d ə r Ə l i y e v :** Ukraynada qəzetiniz nəşr edilir? Müntəzəm nəşr olunur? Həftəlik qəzetdir? Geniş yayılır?

**A r z u S ə r d a r l ı:** Ukraynada geniş yayılır, biz qəzetin bir hissəsini Azərbaycanda yaymağı planlaşdırırıq. Biz cənab səfir və səfirlik tərəfindən informasiya sarıdan tam kömək alırıq.

**H e y d ə r Ə l i y e v :** Sizi bu təşəbbüs münasibətilə təbrik edirəm, bunu çox xeyirxah, yaxşı iş hesab edirəm. Sizə uğurlar arzulayıram. İstərdim ki, qəzetiniz daha böyük şöhrət qazansın, öz yayılma coğrafiyasını genişləndirsin və Ukraynada yaşayan azərbaycanlılara daha böyük təsir göstərsin, Azərbaycan haqqında təkcə azərbaycanlılar üçün deyil, həm də bütün Ukrayna sakinləri üçün daha çox informasiya versin.

Sizə arzularımı dedim. Sizə uğurlar arzulayıram və ümidvaram ki, səfirliyimiz sizə öz imkanlarınızı genişləndirməkdə kömək edəcəkdir. O ki qaldı Ukraynada yaşayan azərbaycanlılara arzularıma, qəzetiniz vasitəsilə demək istərdim: ən əvvəl istərdim ki, onlar bu ölkənin, Ukraynanın qanunlarına, qaydalarına hörmət etsinlər, bu qanunlara tabe olsunlar, onlara əməl etsinlər. Bu hər bir vətəndaşın başlıca vəzifəsidir. Arzu edərdim ki, onlardan hər biri Ukrayna və Azərbaycan xalqları arasında dostluq, qardaşlıq münasibətlərinin daha da möhkəmlənməsinə öz töhfəsini versin.



İstərdim ki, Ukraynada yaşayan hər bir azərbaycanlı xalqımızı, respublikamızı, ölkəmizi, mədəniyyətimizi layiqincə təmsil etsin. Onu da istərdim ki, Ukraynada, eləcə də başqa ölkələrdə yaşayan azərbaycanlılar öz dilini, öz mədəniyyətini, öz adət-ənənələrini unutmasınlar. Bu çox vacibdir. Əlbəttə, yaşadığın ölkənin dilini bilmək lazımdır. Onun adət və ənənələrinə, qanunlarına hörmət etmək gərəkdir. Lakin eyni zamanda, öz milli özgünlüyünü də qoruyub saxlamaq, öz köklərini, öz dilini, öz mədəniyyətini unutmamaq lazımdır. Budur mənim arzularım.

**Y u r i R a y x e l** *(«Naş dom» qəzeti)* **:** Cənab Prezident, qəzetimizin nüsxələrini Sizə vermək istəyirəm. Burada Sizin bioqrafiyanızdan istifadə olunmuş, hazırda Azərbaycana necə rəhbərlik etdiyiniz barədə material var.

**H e y d ə r Ə l i y e v :** Çox sağ olun.

**Y u r i R a y x e l:** İki sualım var: Siz Ukraynanı strateji tərəfdaş adlandırdınız. Daha hansı ölkələri Azərbaycanın strateji tərəfdaşları adlandıra bilərsiniz? İkinci sual: Siz artıq xatırlatdınız ki, 1969-cu ildən Azərbaycana necə rəhbərlik etmisiniz. İndi, ölkəni yenidən idarə edərkən o dövrə aid nədən istifadə etmək istərdiniz?

**H e y d ə r Ə l i y e v :** Bizimlə strateji tərəfdaş olan ölkələr var. Bu haradasa dövlətlərarası sənədlərimizdə təsbit olunmuşdur, haradasa sadəcə bəyan edilmişdir. Məsələn, mən Böyük Britaniyadan yenicə qayıtmışam. Orada baş nazir də, hökumətin digər üzvləri də bir neçə dəfə bəyan etdilər ki, Azərbaycanla strateji tərəfdaşlıq münasibətləri olmasını istəyirlər. Bu mövqe ilə mən də razılaşdım. Buna görə də bütün bu ölkələri, burada, görünür, sadalamağa lüzum yoxdur, onlar çoxdur.

Keçmişin təcrübəsindən bu gün nəyi əxz etmək istədiyimə gəldikdə, bilirsinizmi, əvvəllər mən Azərbaycana rəhbərlik edərkən o, başqa ölkə, başqa dövlət sistemi, başqa iqtisadiyyat, başqa ideologiya idi. Mən və xalqımız o kommunist ideologiyasından imtina etdik. Hərçənd ki, biz bütün ömrümüz boyu bu ideologiyaya xidmət etmişdik. Yeri gəlmişkən, Azərbaycan Kommunist Partiyasına rəhbərlik etmə-

yimi mən heç vaxt özüm üçün nöqsan bilməmişəm. Əksinə, mən bununla fəxr edirəm, Azərbaycanda gördüyüm işlərlə fəxr edirəm. Fəxr edirəm ki, mən Sovet İttifaqının rəhbərlərindən biri olmuşam. Ölkə vardı, dövlət vardı. Biz hamımız bu ölkədə doğulub boya-başa çatmışdıq və ən əvvəl, öz xalqımıza, təbii olaraq ölkəyə, dövlətə vicdanla və düzgün xidmət edirdik.

İndi Azərbaycan müstəqil dövlətdir. Bu, o vaxt olduğundan köklü surətdə fərqlənir. Biz öz taleyimizin sahibləriyik. Nə etməli olduğunu özümüz həll edirik. Yaxşı da olsa, yaman da olsa – özümüz həll edirik. Biz daha heç kimdən asılı deyilik. Bu, hər bir xalq üçün, eləcə də Azərbaycan xalqı üçün çox böyük nailiyyətdir və çox böyük səadətdir. Buna görə də indi biz, rəhbər kimi mən, qalan hamı, milli dövlət quruculuğunda da, ictimai həyatda da, iqtisadiyyatda da tamam başqa prinsipləri əsas tuturuq.

O ki qaldı keçmişə aid hansı cəhətlərdən istifadə olunmasına, çox şeydən istifadə etmək olar. Həmişə vicdanla, düz işləmək lazımdır. Həmişə öz işinə sadiq olmaq, öz xalqına şərəflə xidmət etmək lazımdır. O illərdə təkcə mənim tərəfimdən deyil, eləcə də o nəslin bütün adamları tərəfindən toplanmış təcrübə böyükdür. Elə götürək sizin Ukraynanı. Axı bu və ya digər dərəcədə bütün rəhbərləriniz o dövrün görkəmli rəhbər işçiləri olmuşlar. Məsələn, Leonid Daniloviç Kuçma ümumittifaq əhəmiyyətli böyük bir sahəyə neçə illər rəhbərlik etmişdir. Yəni o, idarəçilik, dövlət, təşkilatçılıq təcrübəsinə malikdir. Bu təcrübə olmadan böyük işə rəhbərlik etmək çətindir, böyük işi yerinə yetirmək çətindir. Bəziləri hesab edirlər ki, o, sadəcə olaraq, siyasətlə məşğuldur, gəlib dövlətə rəhbərlik edəcəkdir. Bu qeyri-mümkündür. Yeri gəlmişkən, bunu ölkəmizdə əvvəlki təcrübə təsdiq etmişdir. Özü də təkcə bizim ölkənin deyil, başqa ölkələrin təcrübəsi də təsdiqləmişdir.

Əlbəttə, ölkəmiz, məsələn, Azərbaycan bu keçid dövrünü başa çatdırdıqdan, biz bütün demokratik təsisatları yaratdıqdan, sahmanlı və saz iqtisadi mexanizm yaratdıqdan, adamlar bütün qanunları yerinə yetirməyə vərdiş etdikdən sonra, yəni biz iqtisadi cəhətdən inkişaf etmiş ölkələrin, demokratiyanın səviyyəsi yüksək olan ölkələrin yüksək səviyyəsinə çatdıqdan sonra, bax, onda idarəçilik təcrübəsi, dövlət fəaliyyəti təcrübəsi olmayan adi siyasətçi də bu və ya digər sahəyə, yaxud bütövlükdə dövlətə rəhbərlik edə bilər.



MDB ölkələrinin təcrübəsinin göstərdiyi kimi, keçid dövrünü yaşayan ölkələrdə isə təcrübəli – həyat təcrübəsi, əməli iş təcrübəsi, təşkilatçılıq, dövlət fəaliyyəti təcrübəsi olan adamlar rəhbərlik edirlər.Məndə də olan bu təcrübə indi mənə bir çox məsələlərin həllində çox kömək edir.

**D a n a  R o m a n e t s** *(«Ukraina molodaya» qəzeti)* : Hörmətli cənab Prezident, Siz Azərbaycan KP MK-nın birinci katibi seçildikdən sonra ən əvvəl korrupsiyaya, rüşvətxorluğa qarşı mübarizə aparmağa başladınız. Xahiş edirəm deyəsiniz, indiki dövrdə bu halların kökünü kəsməyə müvəffəq olmusunuzmu?

**H e y d ə r  Ə l i y e v :** Həqiqətən, 1969-cu ildə mən MK-nın birinci katibi seçildikdə – bilirsiniz ki, bundan əvvəl burada milli təhlükəsizlik naziri olmuşdum və bir çox illər ərzində dövlət təhlükəsizliyi orqanlarında işləmişdim – bu sahədə öz işimdən çox şey bilirdim ki, korrupsiya, rüşvətxorluq inkişaf edir. Bu məni narahat edirdi. Mən o vaxtlar, həmin işdə də buna qarşı imkan daxilində mübarizə aparmağa çalışırdım. Amma o vaxtlar böyük hakimiyyətə malik deyildim. Mən MK-nın birinci katibi seçildikdə, yəni respublikada bütün hakimiyyət artıq mənə tabe edildikdə mən hətta iqtisadi, digər məsələləri bir tərəfə atdım və ən əvvəl korrupsiyaya, rüşvətxorluğa, vəzifəli şəxslərin öz xidməti mövqeyindən tamahkarlıq məqsədləri ilə istifadə etməsinə və başqa mənfi hallara qarşı mübarizə məsələsi ilə məşğul oldum. Deməliyəm ki, böyük bir işə başlamışdım.

Xatirimdədir, hələ o illərdə Sovetlər İttifaqının digər bölgələrində bunu çox müdafiə edirdilər. Çünki bu, Sovetlər İttifaqında ümumi xəstəlik idi. Bununla belə, mən müqavimətə, etirazlara da rast gəlirdim. Belə ki, bəzi digər respublikalarda, Moskvada buna müsbət yanaşılmırdı. O zaman bəziləri hesab edirdilər ki, mən bununla sosializm quruluşunu gözdən salıram. Çünki belə bir ideologiya mövcud idi ki, rüşvətxorluq kapitalizmin, keçmişin qalığıdır, o bizə kapitalizm dünyasından keçmişdir və sosializm cəmiyyəti üçün, dövlətimiz üçün səciyyəvi deyildir. Mən bu haqda açıq danışanda, mənim məruzələrim qəzetlərdə dərc olunanda, biz belə adamları ifşa edəndə və onlar müxtəlif növ cəzalara məruz qalanda və bu barədə qəzetlərdə yazılanda, insanların çoxu bunu bəyənir, müdafiə edirdi, Moskvadakı, digər respublikalardakı bəzi vəzifəli şəxslərdə isə bu, etiraz doğururdu. Onlar hesab edirdilər ki, «Əliyev sistemimizi, quruluşumuzu gözdən

salır», «Bu haqda belə açıq danışmaq olmaz», «Qərb təbliğatı bundan istifadə edir» və s. Bu mövzuda mənimlə hətta söhbətlər də olmuşdu: Siz bütün bunları nahaq yerə belə həddindən çox açıq edirsiniz.

Mən isə həmişə deyirdim ki, qərb təbliğatı onsuz da istifadə edir. Rüşvətxorların olduğunu deyib-deməməyimizdən asılı olmayaraq, onlar onsuz da deyirlər ki, korrupsiya, rüşvətxorlar var. Bunu gizlətməkdənsə, açıq danışmaq, buna qarşı mübarizə aparmaq daha yaxşıdır.

Bilirsiniz, biz Azərbaycanda xeyli uğurlara nail olmuşduq. Mən Moskvada, Siyasi Büroda işləyəndə bu məsələləri çox fəal surətdə qaldırırdım. Təəssüf ki, bu xəstəliyi, qüsuru aradan qaldırdığımızı deyə bilmərəm. Yox. Üstəlik, sonrakı illərdə, mən təqib olunanda, mən artıq dedim ki, qəzetlərdə mənim əleyhimə materiallar dərc edirdilər. İfşa olunmuş, həbs və məhkum edilmiş rüşvətxorların bir çoxu dustaqxanalardan azad edildi.

Onlardan bəzilərini Azərbaycanda hətta televiziyaya çıxarır, «Əliyev qanunsuzluğunun, Əliyev özbaşınalığının» qurbanları kimi təqdim edirdilər. İnanın, ötənlərin işidir, heç bir qanunsuzluq, heç bir özbaşınalıq olmamışdı.

Bu xəstəlik keçib getməmişdir. O, keçid dövründə daha da geniş yayılmışdır. İndi bizdə, Azərbaycanda demək olar, hamı korrupsiyadan danışır. Yeri gəlmişkən, korrupsiyadan ən çox o adamlar danışır ki, özləri onunla məşğul olurlar. İqtidarı tənqid edən müxalifət adamlarının başlıca dəlili dövlət orqanlarında korrupsiyanın olmasıdır. Var. Mən bunu heç vaxt inkar etməmişəm və inkar etmirəm. Yeri gəlmişkən, işlədiyim qısa dövr ərzində mən çoxlu nazirləri, digər vəzifəli şəxsləri, müxtəlif şəhər və rayonların icra hakimiyyəti başçılarını buna görə işdən çıxarmış, cəzalandırmışam. Lakin mənim bu barədə danışmağa ona görə mənəvi haqqım var ki, bu bəla ilə mübarizə aparıram. Amma Azərbaycanda, bəlkə də, korrupsiyanın müəllifi olan, bu işlə məşğul olmuş və indi də məşğul olan şəxslər isə iqtidarı korrupsiyanın olmasında günahlandırırlar. Bu, əlbəttə, şərəfsizlikdir.

Beləliklə, sizin sualınıza cavab verirəm ki, ömrüm boyu bununla mübarizə aparmışam və indi də həmin mövqelərdə dayanıram. O illərdə çox şey etmək mümkün olmuşdu. Xalqın o vaxtlarda da olan böyük dəstəyi və bu gün də qalmaqda olan etimadı bir çox cəhətdən bununla bağlıdır. Bununla belə, biz bu bəlanı aradan qaldıra bilməmi-



şik. İndi Azərbaycanda korrupsiya mənim işlədiyim 70-ci illərdəkindən çoxdur. Əlbəttə, o vaxt mübarizə aparmaq, ola bilsin, asan idi. Çünki onda başqa hakimiyyət idi, indi isə mübarizə aparmaq çətindir. Lakin biz mübarizə aparırıq və aparacağıq.

**N a t a l y a S m o l y a r o v a** *(«Tet-a-tet» teleşirkəti)* : Bizim teleşirkət səfirliklərlə əməkdaşlıq edir və «Azərbaycan səfirliyi təqdim edir» adlı iki film buraxmışıq. Televiziya ilə yaxşı əlaqələrimiz var və biz bundan sonra da əməkdaşlıq etməyə hazırıq. Siz bu səfər haqqında gələcək bizim filmin tələtamaşaçılarına nə arzu edərdiniz?

**H e y d ə r Ə l i y e v** : Nə arzu edərdim, əlbəttə ki, müvəffəqiyyət. Söhbətimizin əvvəlində dedim ki, buraya gəldiyinizə görə sizə təşəkkür edirəm. Həyatımızı və əlbəttə, kiçik olsa da, uğurlarımızı da, nöqsanlarımızı da, həyatımızın reallığını, problemlərimizi, çətinliklərimizi də özünüz görəcəksiniz. Qarşınızda hər şey açıqdır, hər şey üzünüzə açıqdır. Buna görə də arzu edərdim ki, Azərbaycan haqqında, qarşımızda duran və həll etmək istədiyimiz çətin problemlər haqqında da, Azərbaycanda əldə olunmuş real nailiyyətlər haqqında da daha çox məlumata malik olsunlar. Mən bunu arzulamaq istərdim. Sağ olun.

**O k s a n a V a ş ş e n k o** *(Ukrayna radiosu, «Novosti» kanalı)* : Siz uşaqların, gənclərin dini təhsilinə necə baxırsız? Siz bunu lazım bilirsinizmi?

**H e y d ə r Ə l i y e v** : Hesab edirəm ki, uşaqları maarifləndirmək lazımdır. Yəni uşaqlar dini nənə və babalarının sözlərindən deyil, yalnız mötəbər mənbələrdən, kitablardan öyrənməlidirlər. Dinin nə demək olduğunu bilməlidirlər. Hər bir kəs dinlə məşğul olmaqda, onu qəbul etməkdə azaddır. Axı keçmişdə biz dinlə mübarizə aparılan şəraitdə yaşamışıq. Tərbiyə işinin istiqamətlərindən biri ateist təbliğatı, din əleyhinə təbliğat idi. İndi belə şeylər yoxdur. İndi dinə böyük maraq göstərilir. Bu da təbiidir, çünki əgər 70 il hər şey yasaq edilmişdirsə, hazırda hər şey açıqdır. Adamlar məlumat almaq, dinə qovuşmaq istəyirlər. Hər bir insana dinə öz münasibətini sərbəst müəyyənləşdirməyə imkan vermək lazımdır. Bundan ötrü isə uşaqlar məktəblərdə din haqqında, onun tarixi, əhəmiyyəti haqqında məlumat almalıdırlar.

**M a r y a n a A n g e l o v a** *(Milli Xəbərlər Agentliyi)* : Çox hörmətli Heydər Əliyeviç, icazə verin, bu görüş imkanına görə Sizə tə-

şəkkür edim. Amma demək istəyirəm ki, bu bizim ilk görüşümüz deyildir. 75 illiyiniz bayram edilərkən biz hamımız Sizinlə birlikdə idik. Belə ki, Azərbaycan səfirliyi böyük bir bayram təşkil etmişdi, biz hamımız özümüzü bu hadisənin iştirakçısı kimi hiss edirdik. Siz çox böyük yol keçmisiniz və biz başa düşürük ki, bu yol bütün xüsusiyyətləri ilə birlikdə çox çətin olmuşdur. Bizim imperativimiz və Sizin imperativiniz yüksək bir amal – Azərbaycanın müstəqilliyi amalı idi. Siz belə mühüm qərarın, bu amalın həyata keçirilməsinin zəruriliyini nə vaxt yəqin etdiniz? Siz XXI əsrin astanasında müstəqil, azad və iqtisadi cəhətdən güclü Azərbaycanın rolunu necə təsəvvür edirsiniz?

**H e y d ə r Ə l i y e v :** Azərbaycana, o cümlədən də mənə diqqətinizə görə sağ olun. O ki qaldı sualınıza, bilirsiniz, mən 1986-87-ci illərdə Siyasi Büronun tərkibində olarkən hiss edirdim ki, bu quruluş və bu dövlət dağılır.

Mən bunu hiss edirdim. Azərbaycanın müstəqil olmasının zəruriliyi fikrinə isə qəti olaraq 1988-89-cu ildə gəldim. 1990-cı ildə Azərbaycana qayıtdım. O vaxt Kommunist Partiyası, Sovetlər İttifaqı hələ mövcud idi. Lakin təkrar edirəm, mən Kommunist Partiyasından çıxanda fəal çıxış və izah edirdim ki, Sovetlər İttifaqının artıq gələcəyi yoxdur, biz öz müstəqilliyimiz uğrunda mübarizə aparmalıyıq. Mən bunu açıq deyirdim, rəsmi surətdə deyirdim, qəzetlərdə çıxış edirdim.

1991-ci ilin əvvəllərində, Sovetlər İttifaqı dağılmağa başladıqda və Qorbaçov onu birtəhər saxlamağa çalışdıqda deyirdi ki, mövcud olan Sovetlər İttifaqı pisdir və yeni ittifaq müqaviləsi imzalamaq lazımdır. Bu müqavilə 1922-ci ildə imzalanmış müqavilədən fərqlənəcəkdir.

Bundan ötrü martın 17-nə Sovetlər İttifaqının saxlanması haqqında referendum təyin etdilər. 1991-ci ilin həmin günü mənim yadımdadır. Amma bu referendumu hələ 1990-cı ildə elan etmişdilər. Artıq 1991-ci ildə mən Naxçıvanda mitinqlərdə çıxış edərək açıq şəkildə deyirdim ki, Azərbaycan müstəqil olmalıdır, o, heç bir referenduma getməməlidir və sairə.

O zaman, 1990-cı ildə Azərbaycan Ali Sovetinə və Naxçıvan Ali Sovetinə seçkilər keçirildi. Məni, təqib və təcrid olunan insanı, xalq eyni vaxtda Azərbaycan Ali Sovetinin və Naxçıvan Muxtar Respublikası Ali Sovetinin deputatı seçdi. Yeri gəlmişkən, hakimiyyət orqanlarının məni təqib etməsinə baxmayaraq, məni seçmişdilər. O vaxt



mən Bakıya, Ali Sovetin sessiyasına gəldim və çıxış edərək açıq şəkildə dedim ki, siz bu salonda elə bir adam tapa bilməzsiniz ki, o, Sovetlər İttifaqına məndən çox xidmət etmiş olsun. Mən Sovetlər İttifaqının möhkəmlənməsinə fəal kömək edənlərdən biriyəm. Bu, həqiqətdir. Çünki mən bir çox illər Sovetlər İttifaqının rəhbərliyində olmuşam. 20 il SSRİ Ali Sovetinin deputatı, Sov.İKP MK-nın üzvü, Siyasi Büro üzvlüyünə namizəd, Siyasi Büronun üzvü olmuşam. Yəni mən həqiqətən Sovetlər İttifaqını möhkəmləndirmişəm. Ona görə dedim ki, indi siz burada oturub çalışırsınız ki, Azərbaycan xalqı Sovetlər İttifaqının saxlanmasına səs versin. Ancaq bunu etmək lazım deyildir. Sovetlər İttifaqı dağılır və Kommunist Partiyası hakimiyyətdən getməlidir. Azərbaycan müstəqil olmalıdır. Mən bunu 1990-cı ildə Azərbaycan Ali Sovetinin sessiyasında demişəm.

Yəni mənim belə xəttim vardı və onu qətiyyətlə davam etdirirdim. 1991-ci ildə Sovetlər İttifaqı dağılanda da mən rahat nəfəs aldım. Bununla belə, Sovetlər İttifaqının qala bilməsi təhlükəsi hələ var idi. Ona görə də biz indiyədək müstəqillik mövqelərində möhkəm dayanırıq ki, kimsə Sovetlər İttifaqını bərpa etməsin. Siz bilirsiniz ki, belə qüvvələr var. Bu qüvvələr Rusiyada var, zənnimcə, Ukraynada da var. Hətta bizdə də var. Doğrudur, onlar burada o qədər də fəal çıxış edə bilmirlər, baxmayaraq, çoxları var ki, Sovetlər İttifaqının bərpa olunmasını istəyirlər.

Bir sözlə, hazırda həyata keçən bu ideyanın, arzunun məndə yaranmasından çox illər ötmüşdür. Altı ildən artıqdır ki, biz müstəqil Azərbaycanda yaşayırıq.

**V i k t o r V o r o n i n** *(Ukrayna prezidentinin müşaviri)* **:** Çox hörmətli Heydər Əliyeviç, Ukrayna-Azərbaycan münasibətlərində tarixi məqam olacaq məzmunlu söhbətinizə görə Sizə nümayəndə heyətimizin adından ürəkdən minnətdarlığımı bildirirəm.

Ukrayna xalqı qardaş Azərbaycan xalqına həmişə rəğbət və məhəbbət hissi bəsləmişdir. Ukraynanın aparıcı kütləvi informasiya vasitələri müstəqil Azərbaycan dövlətinin həyatı barədə, ölkə rəhbərliyinin müdrik dövlət siyasəti haqqında ətraflı məlumat yayandan sonra, bu, ölkələrimiz arasındakı münasibətlərə, şübhəsiz, çox böyük fayda verəcəkdir.

Biz Azərbaycanda çox şey gördük. Şübhə etmirəm ki, burada iştirak edən jurnalistlərin hamısı bir çox faciəli məsələlər haqqında da –

ilk növbədə mən işğal edilmiş rayonlardan olan qaçqınların vəziyyətini nəzərdə tuturam – həqiqəti obyektiv yazacaqdır.

Bildiyiniz kimi, Ukrayna prezidenti Ukrayna-Azərbaycan münasibətlərinin inkişafına çox böyük diqqət yetirir. Müstəqil mətbuatımızın ölkələrimiz arasında əməkdaşlığın inkişafı haqqında doğru-düzgün və obyektiv yazması ona çox xoş olacaqdır.

Çox hörmətli cənab Prezident, Ukraynanın Azərbaycan Respublikasındakı səfiri Boris Qriqoryeviç Aleksenkoya qısa çıxış üçün söz verməyinizi xahiş edərdim.

**Heydər Əliyev:** Buyurun, Boris Qriqoryeviç.

**Boris Aleksenko** *(Ukraynanın Azərbaycandakı səfiri)* **:** Zati-aliləri, Azərbaycan Respublikasının cənab Prezidenti, hörmətli Heydər Əliyeviç. Sizə ən əvvəl təşəkkür edirəm ki, işinizin gərgin vaxtında imkan tapıb Ukraynanın kütləvi informasiya vasitələrinin təmsilçilərindən ibarət böyük bir nümayəndə heyətini qəbul etdiniz.

Bu gün bizim kütləvi informasiya vasitələrinin nümayəndələri üçün etdiyiniz dərin təhlilə görə Sizə olduqca minnətdaram. Siz ikitərəfli münasibətlərimizi həmişəki kimi, özünüzə xas dərin və geniş bir təfəkkürlə təhlil etdiniz. Siz xarici siyasət sahəsində vəziyyətin ətraflı təhlilini verdiniz.

Bizim Ukrayna prezidenti Leonid Daniloviç Kuçmanın ünvanına, Ukrayna xalqının ünvanına, dövlət müstəqilliyimizin ünvanına söylədiyiniz sözlərə görə, sağ olun. Ukrayna ilə Azərbaycan arasında ikitərəfli münasibətlərin yaranmasına, genişlənməsinə, dərinləşməsinə şəxsən töhfə verdiyiniz üçün Sizə təşəkkür edirəm.

Heydər Əliyeviç, Siz və Ukrayna prezidenti Leonid Daniloviç Kuçma bütün sahələrdə, iqtisadi sahədə də, humanitar sahədə də, habelə cəmiyyətin həyatının informasiya sahəsində də münasibətlərimizin inkişafı üçün əlverişli siyasi və hüquqi şərait yaratmısınız. Sizin rəhbərliyiniz altında Azərbaycanın artıq müstəqil bir dövlət kimi qazandığı uğurları biz yüksək qiymətləndiririk.

Burada Sizdən soruşdular ki, müvəffəqiyyətinizin sirri nədədir? Mən diqqətlə dinlədim. Siz özünüzə xas olan təvazökarlıqla hər şeyi açıqlamadınız. İcazə versəydiniz, əlavə edib deyərdim ki, Sizin müvəffəqiyyətinizin sirri öz xalqınıza sədaqətlə xidmət etməyinizdədir. Yəni öz məsuliyyətinizi dərindən dərk edərək xalqa xidmət etməyiniz, vəziyyəti genişliyi ilə və hərtərəfli araşdırmağınız, lazımi



qayda-qanun yaratmağınız və məsuliyyət hissi aşılamağınız, vəziyyətin hər hansı şəkildə qiymətləndirilməsinə prinsipial mövqedən yanaşmağınızdır.

Azərbaycan və Ukrayna xalqları arasında hörmətinizin sirri bundadır ki, Siz nəinki siyasi, iqtisadi əlaqələrin, həm də mədəni əlaqələrin inkişafına böyük töhfə vermisiniz və bu gün də verirsiniz. Siz incəsənətin sponsorusunuz, cəmiyyətin inkişafının bütün sahələrinə böyük diqqət yetirirsiniz.

Müharibənin dayandırılmasına Sizin şəxsi töhfənizi qeyd etmək istərdim. Sizin istedadınız və cəsarətiniz sayəsində bu gün Azərbaycanda qayda-qanun yaradılmış, cinayətkarlığın qarşısı alınmışdır. Əgər keçmiş ittifaq respublikaları arasında cinayətkarlığa qarşı mübarizə sahəsindəki vəziyyəti müqayisə etsək, onda görərik ki, indi Azərbaycan bu göstərici üzrə ən öncül yerdədir. Siz müxtəlif sui-istifadə hallarına qarşı mübarizənin təşəbbüskarısınız.

**Heydər Əliyev:** Boris Qriqoryeviç, sağ olun, bu mövzuda danışmaq lazım deyil, kifayətdir.

**Boris Aleksenko:** İstərdim ki, jurnalistlərimiz bunu bilsinlər, çünki, Heydər Əliyeviç, bu üç gündə hər şeydən hali olmaq çətindir. Mən isə, hər halda, respublikanı ara sözlərindən tanımıram, «Literaturnaya qazeta»da, mətbuatda dərc edilmiş həcvlərdən tanımıram.

**Heydər Əliyev:** Bilirsinizmi, bu artıq keçmişdə olan məsələlərdir.

**Boris Aleksenko:** Mən bunu gözlərimlə görmüşəm. Bütün bunlar böhtandır. Heydər Əliyeviç, nümayəndə heyətimizə göstərdiyiniz qonaqpərvərliyə görə Sizə minnətdarlığımı bildirmək istərdim. Prezidentin İşlər İdarəsinə, Prezidentin İcra Aparatına minnətdarlığımı bildirmək istərdim. Bugünkü görüşün keçirilməsinə, kütləvi informasiya vasitələrimizin nümayəndələrinin Azərbaycan xalqının, ölkənizin təşkilatlarının, nazirlikləri və idarələrinin həyatı və fəaliyyəti ilə tanış olması işinə böyük töhfə vermiş Azərbaycan Respublikasının Ukraynadakı fövqəladə və səlahiyyətli səfiri cənab Nazim Hüseynoviç İbrahimova şəxsən minnətdarlıq etmək istərdim.

Azərbaycanda yaşayan və onun vətəndaşları olan ukraynalılara göstərilən mehribanlığa və səmimiyyətə görə minnətdarlığımı bildirmək istərdim. Bu gün Ukrayna jurnalistlərinin Ukrayna diasporu ilə

görüşü olmuşdur. Diasporun nümayəndələri də məndən xahiş etmişlər ki, onlara göstərdiyiniz atalıq qayğısına görə minnətdarlıqlarını Sizə çatdırım.

Heydər Əliyeviç, sözümün sonunda Sizə möhkəm cansağlığı arzulamaq istərdim. Ümid edirəm ki, görüşdən sonra, mənə verilmiş ayrı-ayrı tapşırıqları diqqətinizə çatdırmağa icazə verərsiniz. Bir daha çox sağ olun. Allahdan Sizə cansağlığı, Azərbaycan xalqına sülh və tərəqqi arzulayıram. Diqqətinizə görə sağ olun.

**Heydər Əliyev:** Sağ olun. Bügünkü görüşdən böyük məmnunluq duyduğumu bir daha bildirmək istəyirəm. Mən sizin bütün suallarınıza cavab verməyə çalışdım. Sizin burada olmağınıza şadam və ümidvaram ki, görüşlərimiz gələcəkdə da davam edəcəkdir. Sizə cansağlığı, əmin-amanlıq, Ukrayna xalqına və ölkənizə xoşbəxtlik, prezident Leonid Daniloviç Kuçmaya yeni uğurlar arzulayıram. Sağ olun. Salamat qalın. Xudahafiz.



## BİNƏ HAVA LİMANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİ NÜMAYƏNDƏLƏRİNİN SUALLARINA CAVAB

*9 avqust 1998-ci il*

**Sual:** Cənab Prezident, səfərinizin məqsədi barədə jurnalistlərə nə deyə bilərsiniz?

**Cavab:** Səfərimin məqsədi məlumdur: Ukrayna prezidenti Leonid Kuçmanın 60 yaşı tamam olur, mən onu təbrik etməyə gedirəm. Bir sıra digər ölkələrin başçıları da Yaltaya gələcəklər. Orada bir sıra görüşlər olacaqdır. Bu işgüzar səfər həm də Ukrayna-Azərbaycan əlaqələrinin inkişaf etdirilməsi üçün yeni mühüm addımlar atmaq məqsədi daşıyır.

Bilirsiniz ki, bizim ölkələrimiz arasında əlaqələr dostluq, partnyorluq xarakteri daşıyır. Mən istəyirəm ki, bu əlaqələr daha da genişlənsin və inkişaf etsin. Ukrayna prezidenti də belə fikirdədir və onun da belə arzuları vardır. Bütün bunlara görə də mən bu gün oraya gedirəm.

**Sual:** Mən «ANS» televiziya və radio şirkətindənəm. Cənab Prezident, Siz Lalə-Şövkət Hacıyevaya, Əbülfəz Elçibəyə və İsa Qəmbərə müraciət etmisiniz. Həmin müraciətdə deyilir ki, onlar müəyyən qüvvələrin təsiri altında seçkilərə getmirlər. Amma müəyyən cavablar da olmuşdur. Bu cavaba Siz necə münasibət bəsləyirsiniz? Əgər onlar həmin qüvvələrin təsiri altında qalarsa, bu, Azərbaycandakı vəziyyətə mənfi təsir göstərə bilərmi?

**Cavab:** Bilirsiniz ki, yalnız Əbülfəz Elçibəy mənə cavab göndəribdir. Digər partiyaların başçılarından cavab almamışam. Mən istəyirəm ki, onlar, Azərbaycanda həqiqətən sosial bazaya malik olan partiyalardırsa, seçkilərdə iştirak etsinlər, kənarda qalmasınlar. Ancaq onlar özləri-özlərini kənarda qoyublar. Mən isə bir neçə cəhdlər göstərmişəm.

Hesab edirəm ki, dövlət başçısı kimi, mən bütün başqa hissiyyatlardan yuxarıda durub, Azərbaycanın bütün qüvvələrinin hamısının əməkdaşlıq etməsinə çalışmalıyam. Buna görə də mən bu işləri görürəm. Bilirsiniz ki, mən Azərbaycanda qeydiyyatdan keçmiş bütün siyasi partiyalara hələ iyunun 23-də müraciət etdim, onları dəvət etdim ki, Mərkəzi

Seçki Komissiyasında təmsil olunmaq üçün öz namizədlərini versinlər. Ancaq onlar buna cavab vermədilər. Təkcə Milli İstiqlal Partiyası öz təklifini verdi. Mən bu təklifi qəbul etdim və onların nümayəndəsi Mərkəzi Seçki Komissiyasına üzv qəbul olunubdur. Ancaq adlarını çəkdiyiniz partiyalar öz təkliflərini vermədilər. Vermədilər, mən nə edim? Amma buna baxmayaraq, mən hesab edirəm ki, əgər bir tərəf nəyisə dərk edə bilmirsə, o biri tərəf çalışmalıdır ki, onu anlatsın. Ona görə də mən avqustun 4-də Azərbaycan Xalq Cəbhəsi Partiyasının, Müsavat Partiyasının, Azərbaycan Liberal Partiyasının başçılarına məktub göndərdim. Bunlar sizə məlumdur. Orada hər şey çox açıq-aydın izah olunubdur. Ancaq onlardan müsbət cavab almamışam. Özləri bilərlər.

**S u a l :** Cənab Prezident, Siz Əbülfəz Elçibəyin cavab məktubundakı fikirlərini necə qiymətləndirirsiniz?

**C a v a b :** Bilirsiniz, mənim məqsədim ondan ibarətdir ki, bu partiyalar öz əsassız siyasi ambisiyalarını kənara qoyub seçkilərdə iştirak etsinlər və real tərəfdarlarının, partiya kimi güclərinin nə qədər olduğunu respublikada da, beynəlxalq aləmdə də nümayiş etdirsinlər. Amma onlar bundan çəkinirlər və cürbəcür bəhanələr irəli sürürlər. Məsələn, Elçibəy yazır ki, respublikada filan qədər siyasi məhbus vardır. Mən sizə deyirəm: Azərbaycanda siyasi məhbus yoxdur. Heç bir siyasi partiyanın üzvü toxunulmazlıq hüququna malik deyildir. Əgər siyasi partiyanın üzvü olan adam gedib adi bir kriminal cinayət edirsə və o cinayətə görə məsuliyyətə cəlb edilirsə, siyasi partiya sadəcə olaraq, bu cinayətin qarşısını almağa çalışmalıdır, amma cinayətkarı müdafiə etməməlidir. Əsas məsələ bundan ibarətdir.

Bilirsiniz, bir şeydən imtina etmək, yaxud bir məsələ ilə razı olmamaq üçün hər cür bəhanə tapmaq olar. Onlarla, ümumiyyətlə, danışıq aparmamaq üçün mənim əsasım var, bəhanəm yox. Bilirsiniz ki, onlar 1993-cü ilin əvvəlində Azərbaycanı nə vəziyyətə saldılar. Əgər onlar iqtidarda olduqları zaman Azərbaycanı idarə edə bilmədilərsə, hərəsi bir tərəfə qaçıb dağıldısa, indi şərtlər qoymağa nə haqları vardır? Yaxud ondan sonrakı dövlət çevrilişlərinə cəhdlərdə onların bilavasitə iştirakı vardır. 1993-cü ilin avqust ayında burada türkiyəli bir gənc mənə terror etməyə cəhd göstərdiyinə görə həbs olunubdur. Bu işin təşkilatçıları da onlardır. Amma mən bunların hamısını kənara qoymuşam ki, olan olub, keçən keçib, gəlin əməkdaşlıq edək. İndi gəlib bu bəhanəni, o bəhanəni qoyublar.



**S u a l :** Cənab Prezident, Ermənistan prezidentini Bakıya dəvətinizə rəsmi cavab olubmu? Ermənistanın bəzi dairələri Koçaryanın Bakıya səfərinin çox təhlükəli olduğunu söyləyirlər. Bu bəyanatlara Sizin münasibətiniz necədir?

**C a v a b :** Bilirsiniz, bu, onların öz işləridir. Əgər mən dəvət etmişəmsə, bilirəm ki, onun təhlükəsizliyini təmin etmək lazımdır. Ona görə də nə orada, nə də Azərbaycanda belə şayiələr yaymaq lazım deyildi. Biz dövlətik. 35-36 ölkənin dövlət və hökumət başçısı Azərbaycana dəvət olunubdur. Ermənistan da bu bölgədə olan ölkələrdən biridir. Bu tədbir də təkcə Azərbaycanın keçirdiyi tədbir deyildir. Bu, beynəlxalq tədbirdir. Ermənistanla bu gün hərbi münaqişədə olduğumuz halda həmin tədbirdə onların kənarda qalması düzgün deyildir. Mən bunu çox ölçüb-biçmişəm. Elə bilməyin ki, Ermənistan prezidentinə dəvət məktubu göndərmək mənim üçün çox asan məsələ idi. Amma mən bunu etmişəm. Əgər etmişəmsə, demək, hər bir zəmanət də veriləcəkdir.

**S u a l :** Cənab Prezident, Azərbaycandakı Amerika vətəndaşlarının təhlükəsizliyi barədə dövlət departamentinin verdiyi bəyanatla bağlı nə deyə bilərsiniz?

**C a v a b :** Bunlar əsassız şayiələrdir. Hesab edirəm ki, dövlət departamentinin yaydığı həmin məlumatlar tam əsassızdır. Bunun heç bir əsası yoxdur.

## SİMFEROPOL HAVA LİMANINDA UKRAYNANIN VƏ XARİCİ ÖLKƏLƏRİN JURNALİSTLƏRİNİN SUALLARINA CAVAB

*Simferopol*
*9 avqust 1998-ci il*

**S u a l :** Heydər Əliyeviç, məlum olduğu kimi, sentyabrda Azərbaycanda keçiriləcək Zirvə görüşündə Xəzər neftinin nəqli məsələsi həll ediləcəkdir. Siz bundan əvvəl Yaltada olarkən mənim sualıma cavab verərək bildirmişdiniz ki, bu məsələdə Ukraynanın mənafeyi gözləniləcəkdir. Siz həmin fikrinizdə qalırsınızmı? Bu məsələ praktikada özünü necə göstərəcəkdir?

**C a v a b :** Sualınız bir qədər dəqiq deyildir. Sentyabrın 7-8-də Bakıda keçiriləcək Zirvə görüşü Avropa Birliyinin TRASEKA proqramı üzrə Böyük İpək Yolunun bərpa olunması probleminə həsr edilir. Bu, Xəzər neftinin nəqlindən daha böyük məsələdir. Ona görə ki, Avropa-Qafqaz-Asiya nəqliyyat magistralından söhbət gedir. İpək Yolu üzərində yerləşən bütün dövlətlər – 34 dövlət – Bu zirvə görüşünə dəvət olunmuşdur. Ukrayna da dəvət edilmişdir.

O ki qaldı Xəzər neftinin nəqlinə, mən bu barədə keçən dəfə dedim və o vaxtdan bəri elə bir böyük dəyişiklik yoxdur. Neftin Qərb marşrutu ilə nəqlindən söhbət gedir. Biz artıq Şimal marşrutu ilə nefti Qara dəniz sahilindəki Novorossiysk limanına ixrac edirik. Qərb marşrutu üzrə iki neft kəməri çəkmək nəzərdə tutulur. Bunlardan biri Gürcüstanın Qara dəniz sahilinə çəkilən Bakı-Supsa boru kəməri, ikincisi isə böyük neft kəməri – Gürcüstan ərazisindən keçərək, Türkiyənin Aralıq dənizi sahilinə çəkiləcək Bakı-Ceyhan kəməridir. Şübhəsiz ki, Ukrayna bu proqramdan kənarda qalmır. Mən bunu keçən dəfə demişəm və bu gün də təkrar edirəm ki, bu marşrutların hamısından Ukraynanın neft almaq imkanı olacaqdır.

**S u a l :** Şəxsi sual vermək olarmı? Siz öz dostunuza – Ukrayna prezidentinə hansı hədiyyəni aparırsınız?

**C a v a b :** Məgər məsələ hədiyyədədir? Məsələ bundadır ki, mən gəlmişəm. Leonid Daniloviçə böyük hörmətim özünü məhz bunda göstərir ki, mən xüsusi olaraq gəlməyi və onu şəxsən təbrik etməyi qərara almışam. Hesab edirəm ki, hədiyyələrin həm məndən ötrü, həm də başqalarından ötrü heç bir əhəmiyyəti yoxdur.



## YALTADAN BAKIYA QAYIDARKƏN SƏFƏRİN YEKUNLARI BARƏDƏ TƏYYARƏDƏ JURNALİSTLƏRLƏ MÜSAHİBƏ

**Ukrayna Prezidenti Leonid Kuçmanın 60 illik yubileyində iştirak etmək üçün bu ölkədə səfərdə olmuş Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev avqustun 10-da Yaltadan Bakıya qayıdarkən səfərin yekunları barədə təyyarədə jurnalistlərə müsahibə verərək dedi:**

– Dünən, avqustun 9-da mən Ukraynaya, Krıma gəldim, bu gün vətənə qayıdıram. Bu qısamüddətli səfərimin əsas məqsədi Ukraynanın prezidenti Leonid Kuçmanı 60 yaşının tamam olması, doğum günü münasibətilə təbrik etməkdən ibarətdir.

Ukrayna ilə Azərbaycan arasında dostluq və partnyorluq əlaqələrinin yaranması və indi sürətlə inkişaf etməsi, Leonid Kuçma ilə mənim aramda yaranmış şəxsi dostluq münasibətləri belə bir səfərin zəruri olduğunu mənim üçün müəyyən etmişdir. Ona görə də mən bu səfəri etdim. Azərbaycanın dövlət başçısı kimi, mən gördüyüm hər bir işi, o cümlədən xarici ölkələrə hər bir səfərimi yalnız və yalnız Azərbaycanın, bizim respublikamızın, ölkəmizin nüfuzunun, hörmətinin daha da qaldırılması naminə və müxtəlif ölkələrlə əməkdaşlığımızın inkişaf etdirilməsi naminə edirəm. Bu səfər də məhz bu arzudan, bu istəkdən irəli gəlmişdir.

Bilirsiniz ki, Ukrayna ilə Azərbaycan arasında əlaqələr son illər yaranıbdır. Həm Ukrayna tərəfinin, həm də Azərbaycan tərəfinin və xüsusən də iki ölkənin prezidentlərinin səyi nəticəsində bu əlaqələr sürətlə inkişaf edir. Mən bunu çox zəruri hesab edirəm. Ukrayna-Azərbaycan əlaqələrinin mövcud şəraiti, vəziyyəti və onun inkişaf etməsinin bir neçə səbəbləri vardır. Birinci, biz bir-birimizə coğrafi cəhətdən çox yaxınıq. Ukrayna dünyanın, Avropanın böyük ölkələrindən biridir. Onun böyük ərazisi, 50 milyondan artıq əhalisi, böyük iqtisadi potensialı vardır. Qara dənizin sahilində onun böyük strateji coğrafi vəziyyəti vardır. Ukrayna Qafqaza, Azərbaycana çox meyl göstərir, o cümlədən Xəzər dənizi hövzəsinin enerji ehtiyatlarından istifadə olunmasına çox böyük maraq göstərir. Ukrayna Böyük İpək Yolunun bərpa edilməsi

probleminə də çox maraq göstərir. Sentyabrın 7-8-də keçirilməsi nəzərdə tutulmuş beynəlxalq konfransda Ukrayna prezidenti iştirak edəcəkdir.

Ukrayna ilə biz Müstəqil Dövlətlər Birliyində də çox səmərəli əməkdaşlıq edirik. Deyə bilərəm ki, Müstəqil Dövlətlər Birliyinin fəaliyyətində Ukrayna ilə Azərbaycanın mövqeləri bir çox məsələlərdə üst-üstə düşür. Ukrayna bir çox hallarda bizim təkliflərimizi müdafiə edir, biz də Ukraynanın təkliflərini müdafiə edirik. Şəxsən məni Ukrayna prezidenti ilə belə sıx əlaqələrə sövq edən amillərdən biri də ondan ibarətdir ki, hesab edirəm, Ukrayna prezidenti Leonid Kuçma öz ölkəsinin milli mənafelərinə cavab verən, düşünülmüş daxili və xarici siyasət aparır. Leonid Kuçmanın daxili siyasəti bizim siyasətimizlə demək olar ki, tam üst-üstə düşür.

Prezident Leonid Kuçma Ukraynada demokratik prinsiplərin inkişaf etməsinə və möhkəmlənməsinə çalışır. Ukraynada iqtisadi islahatlar həyata keçirilir, bazar münasibətlərinin bərqərar olunması üçün çox ciddi tədbirlər görülür. Beləliklə, Ukraynanın iqtisadiyyatı tamamilə yenidən qurulur.

Doğrudur, onların problemləri də vardır və bu problemlər az deyildir. Ukraynanın Parlamenti bir sıra məsələlərdə çox vaxt icra hakimiyyəti ilə razılaşmır. Məsələn, mən maraqlandım, özəlləşdirmə sahəsində onların çətinlikləri vardır. Kiçik və orta müəssisələrin özəlləşdirilməsini aparıblar və aparırlar, ancaq Ukraynanın Parlamenti iri müəssisələrin özəlləşdirilməsinə razı olmur.

Yaxud torpaq islahatı sahəsində də onların problemi vardır. Bilirəm ki, Leonid Kuçma və onun tərəfdarları geniş torpaq islahatı həyata keçirmək, o cümlədən torpağın şəxsi mülkiyyətə verilməsini təmin etmək istəyirlər. Ancaq buna nail ola bilmirlər. Çünki bunun əleyhinə çıxan qüvvələr çoxdur və onların əksəriyyəti də Ukraynanın Parlamentindədir.

Onların başqa problemləri də vardır. Lakin bunlara baxmayaraq, Ukrayna prezidenti Leonid Kuçmanın təşəbbüsü və rəhbərliyi ilə islahatlar demokratiya, bazar münasibətləri yolu ilə gedir. Güman edirəm, onlar bu çətinliklərin də öhdəsindən gələ biləcəklər.

Bütün bunlara görə Ukrayna ilə Azərbaycan arasında dostluq əlaqələri tamamilə təbiidir. Çünki biz eyni yolla gedirik. Doğrudur, burada bizim nailiyyətlərimiz daha çoxdur. Ancaq əsas məsələ bu nailiyyətlərin çox və ya az olmasında deyildir; bu, strateji yoldan, siyasətdən ibarətdir.



Ukrayna və prezident Leonid Kuçma xarici siyasətdə bütün ölkələrlə qarşılıqlı faydalı əlaqələr yaratmaq istəyir və artıq bunları yaradıbdır. Qeyd etdiyim kimi, Ukrayna Qafqaza, Mərkəzi Asiyaya, Xəzər dənizi hövzəsinə çox diqqət verir. Ukrayna Türkiyə ilə çox sıx iqtisadi əlaqələr yaradıbdır, Qərb ölkələri ilə əlaqələrin inkişafına çox fikir verir. O cümlədən, NATO-nun «Sülh naminə tərəfdaşlıq» proqramında iştirak edən Ukrayna bu sahədə daha irəliyə getmiş ölkələrdən biridir. Beləliklə, xarici siyasət sahəsində də bizim fikirlərimiz, niyyətlərimiz üst-üstə düşür.

Qeyd etdiyim kimi, Müstəqil Dövlətlər Birliyində biz, demək olar ki, əsas məsələlərdə eyni mövqedən çıxış edirik. Mən bunu da çox əhəmiyyətli hesab edirəm. Prezident Leonid Kuçmanın siyasətinin məni xüsusən cəlb edən bir cəhəti də ondan ibarətdir ki, – ola bilər ki, bu əsasdır – Leonid Kuçma Ukraynanın tam müstəqil dövlət olması yolunda öz səylərini qoyub çalışır və Ukraynanı daimi müstəqil dövlət görmək istəyir. Bu bizim üçün əsasdır. Çünki bilirsiniz ki, MDB çərçivəsində bəzən bu barədə açıq olmasa da, müxtəlif siyasətlər yürüdülür. Azərbaycan dövlət müstəqilliyinin qorunmasını, saxlanmasını və möhkəmlənməsini daim əsas şərt hesab etdiyinə görə və bu, Azərbaycan Prezidenti kimi, mənim siyasətimin əsas istiqaməti olduğuna görə, bu məsələdə də prezident Kuçma ilə mənim fikirlərimin eyni olması, eyni istiqamətdə olması məni Ukrayna ilə aramızda olan münasibətləri daha da genişləndirməyə, inkişaf etdirməyə sövq edir.

Ukrayna bir ölkə, dövlət kimi Azərbaycanın və Xəzər dənizinin neft və qaz yataqlarına çox böyük maraq göstərir, gələcəkdə bundan istifadə etmək istəyir. Mən də hesab edirəm ki, bu sahədə Ukrayna Azərbaycan üçün çox dəyərli partnyorlardan biri ola bilər.

Şübhəsiz ki, bütün bunlar mənim bu səfərimin əsasını təşkil edir. Ancaq bunlarla yanaşı, şəxsi münasibətlər də müəyyən rol oynayır. Leonid Kuçma ilə mənim aramda dostluq münasibətləri yaranıbdır. Prezident, dövlət xadimi kimi Leonid Kuçma, hesab edirəm, çox dəyərli işlər görür. Ancaq bir insan kimi də sadə, təvazökar, səmimi münasibət göstərən bir insandır. Bütün bunlara görə də mənimlə onun arasında dostluq əlaqələri yaranıbdır. Bütün bu amillərə görə də, mən prezident Leonid Kuçmanı təbrik etmək üçün belə bir səfər etdim və bu sə-

fərdən də çox məmnunam. Mən belə düşünürdüm və belə də oldu. Yəni mən düşünürdüm ki, bu sadəcə adi təbrik xarakteri daşımayacaqdır, eyni zamanda, ölkələrimiz arasında olan əlaqələrin daha da inkişaf etdirilməsi üçün danışıqlar, söhbətlər olacaqdır. Bu belə də oldu. Leonid Kuçma ilə biz bu barədə söhbətlər apardıq və yenə də fikirlərimizi bir-biri ilə tutuşdurduq, müqayisə etdik və eyni istiqamətdə hərəkət etdiyimizi müşahidə etdik.

Görüşlər Yaltanın lap kənarında olan Foros adlı bir yerdə, Kuçmanın iqamətgahında keçirilirdi. Məndən başqa, bir sıra digər ölkələrin də dövlət başçıları, mənim kimi, xüsusən Leonid Kuçmanı təbrik etməyə gəlmişdilər. Özbəkistanın prezidenti İslam Kərimov, Gürcüstanın prezidenti Eduard Şevardnadze, Moldovanın prezidenti Petru Luçinski, Latviyanın prezidenti Quntis Ulmanis, Rusiya prezidentinin nümayəndəsi İvan Rıbkin bu məqsədlə oraya gəlmişdilər. Müstəqil Dövlətlər Birliyinin icraçı katibi Leonid Berezovski, Rusiyanın keçmiş baş naziri Viktor Çernomırdin də Yaltaya gəlmişdilər. Qazaxıstan baş nazirinin birinci müavini orada prezident Nazarbayevi təmsil edirdi.

Mərasim həm görüşlərdən, həm də Leonid Kuçmanın 60 illik yubileyi münasibətilə qonaqlara verdiyi ziyafətdən ibarət oldu. Bu ziyafət Qorbaçovun vaxtilə Yaltanın kənarında, Forosda özü üçün tikdirdiyi çox əzəmətli, böyük bir iqamətgahda, malikanədə keçirilirdi. Mərasimdə Ukraynanın dövlət və hökumət rəhbərləri – Ukrayna Parlamentinin sədri Tkaçenko, baş nazir Pustovoytenko iştirak edirdilər. Tatarıstanın prezidenti Mintemir Şaymiyev də oraya xüsusilə bu məqsədlə gəlmişdi. Ukraynanın hökumət üzvləri və Krım Muxtar Respublikasının başçıları da bu mərasimdə iştirak edirdilər.

Deyə bilərəm ki, bu mərasim çox dostluq, mehribanlıq, səmimilik şəraitində keçdi. Hesab edirəm ki, biz dostumuz Leonid Kuçmanın 60 illik yubileyini birlikdə çox layiqincə qeyd etdik. Ancaq eyni zamanda, bu mərasim zamanı mənim bir neçə başqa görüşlərim də oldu. Biz Gürcüstan prezidenti Eduard Şevardnadze ilə mərasim ərəfəsində görüş keçirdik, ölkələrimiz arasındakı münasibətlərin inkişaf etdirilməsi haqqında bəzi fikirləri müzakirə etdik. O, Gürcüstanın bugünkü vəziyyəti haqqında mənə məlumat verdi. Mən Azərbaycanda olan bugünkü vəziyyət haqqında ona məlumat verdim. Prezident Şevardnadze Gürcüstan-Abxaziya münaqişəsinin həll olunması prosesi haqqında mənə xüsusi məlumat verdi. Mən isə Ermənistan-Azərbaycan münaqişəsinin həll olunması ilə əlaqədar mövcud vəziyyət haqqında ona məlumat verdim.



Bizim danışıqlarımızda Xəzər dənizindən və ümumiyyətlə, Xəzər regionundan, hövzəsindən hasil olunacaq neft və qazın gələcəkdə ixrac edilməsi üçün çəkiləcək boru kəmərlərinin marşrutları haqqında fikir mübadiləsi aparıldı. Eduard Şevardnadze xüsusən Türkmənistan qazının ixrac ediləcəyi boru xəttinin Xəzər dənizi vasitəsilə Azərbaycandan, Gürcüstandan keçməklə Qərbə getməsi haqqında aparılmış son danışıqlar barədə mənə məlumat verdi.

Şübhəsiz ki, Eduard Şevardnadze ilə mən sentyabrın 7-8-də Bakıda keçiriləcək beynəlxalq konfransa, Zirvə görüşünə hazırlıq barədə də fikir mübadiləsi apardıq. Biz başqa məsələlərə də toxunduq və bir daha bəyan etdik ki, Gürcüstanla Azərbaycan arasında olan dostluq, qardaşlıq əlaqələri bundan sonra da inkişaf etməlidir.

Prezident İslam Kərimovla mənim Özbəkistan-Azərbaycan əlaqələri haqqında görüşüm və danışıqlarım oldu. Biz, o cümlədən Avropa-Qafqaz-Asiya nəqliyyat magistralı və bu münasibətlə TRASEKA proqramı çərçivəsində qədim İpək Yolunun bərpa edilməsi ilə əlaqədar Bakıda keçiriləcək beynəlxalq konfrans haqqında danışıqlar apardıq.

Deyə bilərəm ki, digər ölkələrin prezidentləri, məsələn, Moldovanın, Ukraynanın prezidentləri ilə görüşlərimizdə də bu mövzuya toxunduq. Bildirmək istəyirəm ki, Özbəkistanın, Gürcüstanın, Ukraynanın, Moldovanın prezidentləri sentyabrın 7-də Azərbaycana gələcəklər. Onlar artıq bu barədə bəyanatlar veriblər və beynəlxalq konfransda fəal iştirak etməyə hazırlaşırlar.

Boris Berezovski ilə də mənim danışıqlarım oldu. Bilirsiniz ki, Müstəqil Dövlətlər Birliyinin icraçı katibi kimi, o, Ermənistan-Azərbaycan münaqişəsinin sülh yolu ilə həll olunması sahəsində müəyyən fəaliyyətə başlayıbdır. Biz bu fəaliyyətin davam etdirilməsi barədə onunla fikir mübadiləsi apardıq.

Beləliklə, hesab edirəm ki, qısa bir müddətdə ölkəmiz üçün vacib olan məsələlərin müzakirəsi və başqa dövlətlərlə əlaqələrimizin daha da inkişaf etməsi istiqamətində çox əhəmiyyətli işlər görüldü. Bütün bunların nəticəsində mən bu səfərimi çox əhəmiyyətli, vacib və səmərəli hesab edirəm.

Son dəfə mən Krımda 1982-ci ildə olmuşdum. Son üç ayda mən ikinci dəfədir ki, Krıma gəlirəm.

Biz iki ay bundan öncə burada Qara dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının üzvü olan ölkələrin dövlət, hökumət başçılarının növbəti görüşünə toplaşmışdıq. Mən buraya ikinci dəfədir ki, gəlirəm. Ona görə də mən, şübhəsiz ki, keçən dəfə də, bu dəfə də Krımda olan vəziyyətlə maraqlanırdım. Burada da vəziyyət sabitləşibdir.

Mən ümumiyyətlə, Ukraynada olan vəziyyətlə də maraqlanırdım. Ukraynada da vəziyyət sabitləşibdir. Həm Ukraynada, həm də onun tərkib hissəsi olan Krımda cinayətkarlığa qarşı mübarizə öz nəticələrini verir və mən Krımın rəhbərləri ilə danışıqlarımdan belə qənaətə gəldim ki, artıq Krımda ictimai-siyasi vəziyyətin sabitləşməsi, cinayətkarlara, cinayətkar qruplara qarşı aparılan mübarizə və onun müsbət nəticələri Krımın istirahət üçün bu çox dəyərli yerlərindən indi daha da səmərəli istifadə olunmasına imkan yaradıbdır.

Məsələn, dünən, bu gün danışırdılar ki, əvvəlki illərdən çox fərqli olaraq, bu il Krımın bu istirahət yerlərinə çoxsaylı, həddindən artıq çox, dünyanın bir çox ölkələrindən – şübhəsiz ki, əksəriyyəti Rusiyadan, Ukraynadan və başqa ölkələrdən də – istirahət etmək üçün insanlar gəlmişdir. Bu da müsbət haldır. Çünki bu, həm Ukraynanın, həm də Krımın iqtisadi vəziyyəti üçün çox əhəmiyyətlidir.

Mən həmişəki kimi, bu dəfə də Ukraynada, o cümlədən Krımda azərbaycanlıların vəziyyəti ilə də maraqlandım. Bizim səfirliyin mənə verdiyi məlumatdan görünür ki, Ukraynada təxminən 400 minə qədər azərbaycanlı yaşayır. Bu gün mənə Krımda məlumat verdilər ki, burada təxminən 2500 azərbaycanlı yaşayır. Mən azərbaycanlıların harada yaşamasından asılı olmayaraq, onlar haqqında daim düşünürəm, Azərbaycanın Prezidenti kimi, onlara daim qayğı göstərməyə çalışıram.

Mənim Ukrayna ilə Azərbaycan arasında əlaqələri inkişaf etdirmək istiqamətində işlərimin səbəblərindən biri də ondan ibarətdir ki, əgər Ukraynada 400 min azərbaycanlı yaşayırsa, demək, Ukrayna ilə Azərbaycan arasında olan dostluq və əməkdaşlıq əlaqələrinin inkişaf etməsi Ukraynada yaşayan azərbaycanlıların həyat şəraiti, iş şəraiti üçün xeyirli, faydalı olacaqdır. Mən belə düşünürəm və Ukraynanın prezidenti, eləcə də Krımın rəhbərləri ilə bu barədə söhbətlər apardım.

Krımda, Yaltada mənim qısamüddətli yaşamağım üçün iqamətgah ayrılmışdı. Bu, «Yeddinci yaylaq» deyilən bir yer idi. Vaxtilə, 50-ci illərdə Krımda Sovet hökuməti tərəfindən istirahət üçün təxminən 10-12 belə yüksək səviyyəli iqamətgah, yaylaq evləri tikilmişdi.



Mən 70-ci illərdə Azərbaycanın başçısı olduğum zaman bir neçə dəfə Krıma qısamüddətli istirahətə gəlmişdim. O vaxt Kommunist Partiyası Siyasi Bürosunun üzvlüyünə namizəd olduğuma görə, mən də belə xüsusi yaylaq binalarında istirahət etmək hüququna malik idim. Bunlar o vaxtlar tikilibdir, indi Ukraynanın mülküdür. Ukrayna bunlardan öz məqsədləri üçün istifadə edir. Amma uzunmüddətli fasilədən sonra gördüm ki, bu binalarda, demək olar ki, heç bir şey dəyişilməyibdir, hər şey 15 il bundan öncə gördüyüm kimidir. Vaxtilə belə binalarda yay mövsümündə Sovetlər İttifaqının başçıları daim istirahət edərdilər.

Məsələn, Mərkəzi Komitənin Baş katibi Brejnev, Nazirlər Sovetinin sədri Kosıgin, Ali Sovetin sədri Podqornı, Siyasi Büronun üzvləri, üzvlüyə namizədlər burada istirahət edirdilər. Mən o vaxt təkcə özüm istirahət etdiyim binanı yox, başqalarını da görmüşdüm, o cümlədən Leonid Brejnevin istirahət etdiyi iqamətgahı da görmüşdüm. Mənim onunla orada bir neçə dəfə görüşlərim olmuşdu. Ona görə də onu da görmüşdüm. Bunlar hamısı bir-birinə bənzərdir. Bəlkə bir-birindən quruluşuna, həcminə, ərazisinə görə bir az fərqlidir. Demək olar ki, bunların hamısı Qara dənizin sahilindədir və birbaşa dənizə çıxırlar.

Məsələn, Baş katib Brejnevin, ya Nazirlər Sovetinin sədri Kosıginin yaşadıqları binalar da bunlardan az fərqlənirdi. Bəlkə də onların ərazisi bir az böyük idi, yaxud da başqa şəraiti böyük idi. Ola bilər ki, otaqların sayı bir az artıq idi.

Ancaq mən keçən dəfə və bu dəfə də Mixail Qorbaçovun qısa müddətdə burada, Yaltanın kənarında, Foros adlanan yerdə özü üçün tikdirdiyi malikanəni, iqamətgahı, istirahət yerini gördüm. Doğrudan da, bu məni həm təəccübləndirdi, həm də dəhşətə gətirdi. Çünki yenə də deyirəm, mən Sovet hökumətinin tarixində Sovet hökuməti başçılarının vaxtilə özlərinin istirahəti üçün tikdirdikləri və yaşadıqları binaların, demək olar ki, əksəriyyətini görmüşəm. Məsələn, vaxtilə Stalinin Moskva yaxınlığında yaşadığı bina sonra boş idi. Mən rəhbər vəzifələrdə olduğum zaman gedib oranı sadəcə olaraq, muzey eksponatı kimi baxıb görmüşdüm. Xruşşovun yaşadığı yerləri görmüşdüm. Brejnevin Moskvada da, Krımda da yaşadığı yerləri görmüşdüm. Ancaq mən deyə bilərəm ki, Sovet hökuməti başçılarının heç biri özü üçün belə malikanə yaratmamışdır.

Bilirsiniz, burada, Krımda, Yaltada rus çarlarının da sarayları vardır. Məsələn, burada rus çarı Aleksandrın sarayı vardır. Düzdür, o, dəniz

kənarından uzaqdır, bir az Yaltanın dağ tərəfindədir. O illərdə bəzən buraya xarici qonaqlar gələndə onların istifadəsinə verirdilər, amma çox vaxt o, istifadəsiz bir bina idi. Mən sadəcə, Krımın görməli yerlərini ziyarət edərkən, oraya gedib baxmışdım. Məsələn, Rusiyanın padşahı Aleksandrın özünə tikdirdiyi o vaxtkı saray da Qorbaçovun özü üçün tikdirdiyinin yanında bir şey deyildir. Yaxud Ariadnada, Livadiya deyilən yerdə – ora indi muzeydir – vaxtilə, 1943-cü ildə orada Yalta görüşü olmuşdur. Yaltada, Livadiyada Sovet İttifaqı, Amerika Birləşmiş Ştatları, İngiltərə başçılarının – Stalin, Ruzvelt və Çörçillin görüşü olmuşdur. Mən o sarayı da görmüşəm. Heç bir padşah, heç bir rus çarı və yetmiş il hakimiyyətdə olmuş Sovet hökumətinin heç bir başçısı özü üçün belə bir böyük iqamətgah tikdirməmişdir.

Gürcüstanın prezidenti Eduard Şevardnadze mənə söylədi ki, Gürcüstanın Qara dəniz sahilində Pitsunda deyilən bir yerdə Qorbaçov bundan da böyük bir bina tikdirmişdir. Əgər nəzərə alsaq ki, Sovet hökumətinin, Kommunist Partiyasının özündən əvvəlki bütün başçıları ilə müqayisədə Mixail Qorbaçov hakimiyyətdə ən az olan adamdır – o, Sovet hökumətinə cəmi beş il başçılıq etmişdir – 1985-ci ilin mart ayından 1991-ci ilin sonuna qədər – amma Sovet hökumətinin ondan əvvəlki başçıları Brejnev 18 il, Xruşşov 10 il, Stalin 30 il, ondan əvvəl rus çarları da uzun müddət öz ölkələrinin başçısı, çarı kimi yaşamışlar və özləri üçün saraylar tikmişlər. Ancaq Mixail Qorbaçov qısa bir müddətdə özü üçün bu qədər işlər görmüşdü. Bu məni çox həyəcanlandırır, təəccübləndirir, ona görə ki, Mixail Qorbaçov özündən əvvəl hakimiyyətdə olan bütün insanları bir çox günahlara, o cümlədən özləri üçün xüsusi şərait, imtiyazlar yaratdıqlarına görə çox qəti tənqid edirdi, günahlandırırdı. Ancaq o özü qısa müddətdə – mən hələ Moskvadakıları demirəm – Moskvada «Vorobyovı qorı» deyirlər, sonra onun adını «Leninskiye qorı» qoymuşdular – Lujniki stadionundan bir az yuxarıda, Miçurin prospekti var idi, orada özü üçün bir yaşayış evi tikdi.

Moskvanın ətrafında Siyasi Büro üzvlərinin və hökumət başçılarının yaşaması üçün çox gözəl, yaxşı şəraiti olan malikanələr, yaylaq evləri var idi. Qorbaçov da vaxtilə Siyasi Büro üzvü kimi, belə evlərdən birində yaşayırdı. Brejnev də, Andropov da, Çernenko da, Tixonov da, Qorbaçov da beləsində yaşayırdı. Bəlkə mənim yaşadığım onlarınkından şəraitinə görə bir az kiçik idi, amma mən də beləsində yaşayırdım. Ancaq o, Mərkəzi Komitənin Baş katibi olan kimi bunları bəyənmədi.



Moskvanın yaxınlığında özü üçün böyük bir malikanə tikdi. Danışırdılar ki, bunu qısa bir müddətdə tikdilər. O, ora köçdü, bir az orada yaşadı. Sonra dedilər ki, burada ağcaqanad çoxdur, ona görə də biz burada yaşaya bilmərik. Qısa müddətdə başqa bir yerdə yenisini tikdilər.

Mən bunları Moskvada görmüşdüm. Mən Moskvada yaşayarkən Forosda, yəni Krımda, Yaltada da belə bir malikanənin tikilməsini bilirdim, eşitmişdim və hətta orada, bizim dövlət dairələrində danışıqlar gedirdi ki, o bu malikanənin, böyük bir iqamətgahın tikintisini Müdafiə Nazirliyinin tikinti təşkilatlarına tapşırmışdı. Danışırdılar ki, orada minlərlə əsgər, ordunun tikinti təşkilatları işləyirdilər. Danışırdılar ki, müdafiə naziri marşal Yazov həftədə bir dəfə – bazar günləri Moskvadan xüsusi təyyarə ilə gəlib bu tikintinin gedişinə nəzarət edir və bunu təmin edir. Şübhəsiz, əgər bu tədbirlər olmasaydı, qısa müddətdə belə bir nəhəng və həddindən artıq əzəmətli, böyük bir ərazini əhatə edən və deyə bilərəm ki, qayaların, dağların içində, yamacların döşündə belə böyük bir malikanə yarada bilməzdi.

Doğrudur, indi bu qalıbdır və Ukrayna dövləti ondan istifadə edir. Hər bir padşahın, kralın, çarın vaxtilə hər bir ölkədə yaratdıqları belə saraylar onlardan sonra gələnlər tərəfindən istifadə olunur. Bu təbiidir. Ancaq mən bu cəhətini demirəm. Məni hiddətə gətirən odur ki, Qorbaçov özü Sovet hökumətinin bütün başçılarının, rəhbər işçilərinin, funksionerlərinin imtiyazlarına qarşı guya mübarizə apardığı bir dövrdə, yenidənqurma adlandırdığı bir proses apardığı dövrdə bu işlərin əksinə olaraq, özü üçün belə imkanlar yaradırdı.

Güman edirəm ki, bunlar hələ gələcəkdə təhlil olunacaq, təhlil aparılacaqdır. Qorbaçovun buraxdığı başqa böyük səhvlərlə yanaşı və xüsusən onun etdiyi cinayətlərlə yanaşı, ona bu ittihamlar da veriləcəkdir.

Mən bu barədə fikirlərimi ona görə bölüşmək istədim ki, ola bilər, bunları çox az adam bilir. Mənim bildiyim bu şeylər istəyirəm ki, bizim xalqımıza, millətimizə də çatsın. Çünki biz – Azərbaycan 70 il Sovet hökumətinin tərkibində olmuşuq, o quruluşda yaşamışıq, o quruluşun Azərbaycan üçün verdiyi müsbət cəhətləri də bilirik, dərk edirik. Amma bizim xalqımıza qarşı edilən ədalətsizliyi də, təcavüzü də bilirik. Xüsusən, 1990-cı ildə xalqına qarşı edilmiş hərbi təcavüzün məhz Qorbaçov və onun Azərbaycanın başında duran, Azərbaycanda o vaxt siyasi fəaliyyətdə olan bəzi adamlar tərəfindən bir yerdə təşkil edildiyini

nəzərə alaraq, mən Qorbaçovun həmin fəaliyyətinin, həyatının o gizli hissələrini də bizim xalqımıza çatdırmaq istəyirəm. Bu fikirlərimi, təəssüratlarımı açıram ki, bizim xalqımız bunu bilsin. Ancaq bu mənim səfərimin xüsusi bir hissəsidir. Yəni bu, təəssüratlarımın xüsusi bir hissəsidir, bəlkə bu da faydalıdır.

Əsas məsələ ondan ibarətdir ki, mən bu səfərimi çox əhəmiyyətli, səmərəli hesab edirəm. Hesab edirəm ki, mən bu səfər zamanı Ukrayna ilə Azərbaycan arasında əlaqələrin inkişaf etdirilməsi üçün yeni bir addım atmışam. Təkcə Ukrayna ilə yox, burada, Krımda görüşdüyüm dövlət başçıları ilə, onların rəhbərlik etdikləri ölkələrlə respublikamız arasında əlaqələrin inkişaf etdirilməsi üçün bir addım atmışam.

Mənim səfərim başa çatır. Güman edirəm ki, bir saat, bəlkə ondan da az vaxt qalıbdır ki, biz vətəndə olacağıq, Bakıya enəcəyik. Məni siz də burada müşayiət etmisiniz. Sizin bu səfərdə məni bilavasitə müşayiət etmək və bu prosesdə iştirakçı olmaq imkanlarınız olmadığına görə, sizə təyyarədə bu məlumatları verirəm. Sağ olun.



## XARİCİ MƏTBUAT SƏHİFƏLƏRİNDƏ

**MDB-də ən uzunömürlü siyasətçi, Azərbaycan Prezidenti öz respublikasını necə xilas etdiyindən, özünə qarşı iki sui-qəsddən və oğluna indi siyasətə qoşulmağı nə üçün məsləhət görməməsindən danışır.**

**– Heydər Əliyeviç, Siz 87-ci ilin oktyabrında Sov. İKP MK Siyasi Bürosunun üzvü və SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifələrindən «gedəndə» çoxlarına elə gəldi ki, guya Əliyev epoxası həmişəlik qurtardı. Yəqin Sizdə də belə hiss yarandı ki, hər şey artıq keçmişdə qaldı, qarşıda isə ancaq tənha bir guşəyə çəkilib ötən günləri xatırlamaq, memuarlar yazmaq və bir də nəvələri qucağa alıb onları əzizləmək durur?**

– Əlbəttə, yaranmışdı. Başqa cür də ola bilərdimi? Şübhə etmirdim: həyatımın fəal dövrünə yekun vurulmuşdu. Qaydasınca pensiyaya çıxdım və Moskvada qulağı dinc, sakit yaşamaqda davam etdim. Daha doğrusu, mən belə yaşamaq istəyirdim, amma məni rahat buraxmırdılar. İstefaya çıxandan təxminən bir il sonra təqiblər başlandı. Nə gizlədim, incimişdim və söz vermişdim ki, siyasətdən birdəfəlik gedəcəyəm. Getdim də. İşdə də, şəxsi həyatda da başıma çox hadisələr gəlmişdi. Ona görə də istirahət etməyə haqqım vardı.

Lakin 1990-cı il yanvarın 20-nə keçən gecə sovet qoşunları Bakıya daxil oldular və dinc sakinlərin qanı axıdıldı... Mən susa bilmədim. Əvvəlcə Qorbaçovla və Siyasi Büronun digər üzvləri ilə görüşməyə nail olmağa çalışdım. Ağlıma sığışdıra bilmirdim ki, belə bir vəziyyətdə mənim təcrübəmdən istifadə etməsinlər. Axı mən hər halda on dörd il respublikaya rəhbərlik etmişdim, ondan əvvəl iyirmi beş il Azərbaycan DTK-sında işləmişdim. Odur ki, hökmən bir məsləhət verərdim. Amma heç kim məni dinləmək istəmədi.

Mən etiraz əlaməti olaraq Sov.İKP-dən çıxdım. Bundan sonra mənə qarşı təqiblər daha da gücləndi. Mənə əvvəllər də böhtan atır, qara yaxırdılar, indi isə bunlar sel kimi axırdı. Kampaniya getdikcə kəskinləşirdi. Məni Moskvadan çıxıb getməyə vadar etdilər.

**– Bir sözlə, əgər 80-ci illərin axırlarında Sizə dəyib-dolaşmasaydılar, bu gün Prezident Əliyev olmazdı?**

– Sonrasına qulaq asın. Moskvadan gedəndən sonra Bakıda da qala bilmədim, halbuki mən bu şəhərdə uzun illər ərzində işləmişdim, onun üçün nə qədər işlər görmüşdüm. Təxminən üç gündən sonra məni buradan da çıxıb getməyə məcbur etdilər. Blokadada olan Naxçıvana getməli oldum. Yadımdadır, qışda şaxta qırx dərəcəyə çatırdı, mən kabinetdə paltoda və papaqda oturub işləyirdim, ancaq canım qızmırdı... Üç il – xalq məni çağıranacan, 93-cü ilin iyun ayınadək Naxçıvanda qaldım. Mən Bakıya çox çətin bir vaxtda qayıtdım. Bir müddət hətta eyni zamanda prezidenti, parlamentin sədrini və baş naziri əvəz etməli oldum. Hakimiyyətin qanuni olması üçün 93-cü ilin oktyabr ayına prezident seçkiləri təyin etdim. Öz namizədliyimi irəli sürmədim. Xalq məndən xahiş etdi və mən də razılığımı verdim.

**– Deyəsən, Siz eyni üsuldan indi də istifadə etmək niyyətindəsiniz?**

– Doğrudur. Ötən beş ildə mən Azərbaycanda çox işlər görmüşəm, buna görə də yenidən seçilmək uğrunda mübarizə aparmaq istəmirəm. Amma əgər ölkəyə və xalqa gərəyəmsə, onda prezident vəzifəsindən imtina etməyəcəyəm.

**–Heydər Əliyeviç, bu «əgər» nəyə lazımdır? Cavab Sizə məlum olduğu halda, qeyri-səmimilik etməyə dəyərmi?**

– Bəli, cavab mənə məlumdur. Ümidvaram ki, qələbə üçün nə qədər səs lazımdırsa, mənə o qədər də səs verəcəklər...

Başa düşürəm: indi Azərbaycan mənsiz bir yana çıxa bilməz. Ancaq respublikamızda çox çirkin müxalifət var. Bu adamlar hər gün yazırlar ki, guya Əliyev işin öhdəsindən gəlmir, rəhbərlik edə bilmir və sair. Onlar bacararlarmı? Qoy gəlib özlərini göstərsinlər. Kənardan tənqid etmək asandır.

Buna görə də mənim sözlərimdə qeyri-səmimilik yoxdur. Bir var, prezident olmaq istəyini özün bəyan edəsən. Elə götürək Elçibəyi (Əbülfəz Elçibəy Azərbaycana 1993-cü ilin iyun ayınadək başçılıq etmişdir). O, dörd il yarım bundan əvvəl buradan qaçıb getdi, dağlarda yaşayırdı, indi isə haray salır: «Prezident olmaq istəyirəm». Bu adamda abır-həya deyilən şey yoxdur!

Yaxud, məsələn, bizdə Milli Məclisin, Parlamentimizin bir sədri vardı. O, çox böyük məbləğdə pul talayıb ölkədən getmişdir. Törətdiyi



cinayətlər üçün məsuliyyət daşıdığını bilərək və respublikaya qayıtmaqdan qorxaraq iki il Amerikada qalmışdır. İndi isə özünün prezidentlik iddiaları barədə «Azadlıq» radiostansiyası vasitəsilə elə buraya – respublikaya ardı-arası kəsilmədən car çəkir.

**– Belə zənn edirəm ki, söhbət Quliyevdən gedir?**

– Elədir, ondan gedir.

**– Moskva mətbuatında Rəsul Quliyevlə müsahibələr dərc edilmişdir. O, borclu qalmır, Sizi oğurluqda ittiham edir. Necə deyərlər, söz Sizindir.**

– Bu nə ittihamlardır?

**– Quliyev iddia edir ki, Sizin ailə üzvlərinizin xarici banklarda milyonları var.**

– Belə böhtanı hər bir adam barəsində uydurmaq olar. Məsələn, mən deyim ki, Siz bir milyard pul oğurlamısınız. Başa düşürsünüzmü? Amma Quliyevin ünvanına deyilən ittihamları sübut etmək mümkündür.

Həmin bu Quliyev 95-ci ildə tribunadan deyirdi (televiziya bunu da çəkmişdir) ki, bizim əsrimizdə Azərbaycanda iki tarixi hadisə olmuşdur. Birincisi, 91-ci ildə respublika müstəqillik əldə etmişdir, ikincisi isə budur ki, Əliyev sağ qalmış və ölkənin prezidenti ola bilmişdir. Quliyev 95-ci ildə də, 96-cı ildə də belə deyirdi. Bəs mənim necə oğurladığımı onda niyə açıb danışmırdı?

**– Yeri gəlmişkən, tarixlər haqqında. Bu yaxınlarda yubiley – Sizin Bakıya qayıtmağınızın beş illiyi oldu. Siz əvvəlcə Milli Məclisə, sonra da bütün respublikaya başçılıq etdiniz. İndi hər il iyunun 15-də Azərbaycanda Milli Qurtuluş Gününü qeyd edirlər. Gərək ki, bayram belə adlanır?**

– Bəli, hər şey doğrudur. Bu bizim Parlamentin qərarıdır.

**– Bir sözlə, Əliyevin ikinci gəlişi Azərbaycanı iflasdan xilas etdi?**

– Əlbəttə, xilas etdi. Bəs nə düşünürsünüz? Sizə düzünü deyəcəyəm: mən həqiqətən 93-cü ilədək yaşamaya bilərdim. Ağır xəstələnmişdim, başım çox müsibətlər çəkmişdi, asanlıqla o dünyalıq ola bilərdim. Əgər mən olmasaydım, heç bilmirəm, respublikanın taleyi necə olardı. Axı məndən başqa, respublikanı xilas edə biləcək bir adam tapılmadı. Əgər o vaxt, 93-cü ildə Naxçıvanda qalsaydım, Bakıya gəlməsəydim, necə olacaqdı? Prezident, Parlamentin sədri, baş nazir – hamı-

sı artıq istefa vermişdi. Tam hakimiyyətsizlik idi! Elə onda bu quldur Gəncədən Bakının üstünə yeriyirdi. Bütün bunlar nə ilə qurtarardı?

**– Siz 93-cü ilin iyununda Elçibəyə qarşı qiyam qaldırmış polkovnik Hüseynovu quldur adlandırırsınız?**

– O, məhz quldurdur. Elçibəy onu öz başına bəla olaraq yetişdirmişdi.

**– Doğrudanmı? Quliyev iddia edir ki, vəziyyətin sabitliyini pozmaq və hakimiyyətə gəlmək üçün Hüseynovun yürüşünü guya Siz təşkil etmişdiniz.**

– Sarsaqlıqdır! Mən bu Hüseynovun heç üzünü də görməmişdim. Heç vaxt! O ki Xalq Cəbhəsindən idi. Keçmiş müdafiə naziri Rəhim Qazıyev də oradan idi. Hakimiyyəti ələ keçirmək üçün bütün bunları onlar təşkil etmişdilər, mən isə Naxçıvanda oturmuşdum və heç yerə getmək istəmirdim. Lakin getmək lazım gəldi. Əks halda Azərbaycan bir neçə hissəyə parçalanardı.

**– Məgər hər şeyin bir adamın çiyninə düşməsi yaxşıdırmı?**

– Əlbəttə, yaxşı deyil, pisdir. Amma sevinmək lazımdır ki, heç olmasa bir nəfər tapıldı. O da olmasaydı, onda necə olardı?

**– Elə buna görə də xalq sevinir. Yəqin, Sizin yetmiş beş illiyiniz münasibətilə kütləvi şənliklər olmuşdur?**

– Belə şeylərə yol vermədim. Hətta ziyafət də vermədim.

**– Doğrudanmı, qonaqları ac-susuz yola saldınız?**

– Apreldə MDB ölkələri başçılarının görüşündə Əliyevi necə təbrik etmək barədə söhbətlər oldu. Yeltsin bu işi razılaşdırılmış şəkildə görməyi təklif etdi. Danışıb razılaşdılar ki, baş nazirlərin müavinləri səviyyəsində nümayəndə heyətləri gələcəklər. Mən bircə şeyi xahiş etdim: Allah xatirinə, hansı gün olursa-olsun, amma mayın 10-da gəlməsinlər, çünki həmin gün mən Bakıda olmayacağam.

**– Bəs harada idiniz?**

– Şəhərdən kənarda idim...

Həqiqətən də, xahiş etdiyim kimi, nümayəndə heyətləri mayın 8-də gəldilər. Biz nahar etdik və qonaqlar çıxıb getdilər.

Mayın 9-da Şevardnadze gəldi. Mən onun xətrinə dəyə bilməzdim. Əslinə qalsa, o məndən heç icazə də istəməmişdi.

**– Deməli, ümumi razılığı pozdu?**



– Şevardnadze özünün yetmiş illiyini qeyd edəndə, onun gözləmədiyi halda mən Tbilisiyə gəldim. Bu onun tərəfindən cavab addımı idi. Biz Eduard Amvrosiyeviçlə oturub nahar etdik və sağollaşıb ayrıldıq. Mayın 10-da isə Süleyman Dəmirəl sürpriz etdi (Süleyman Dəmirəl Türkiyə Respublikasının prezidentidir. – A.V.). Mən ona deyə bilməzdim ki, «gəlməyin». Biz hava limanında görüşüb, buraya gəldik, işgüzar danışıqlar apardıq, nahardan sonra isə Dəmirəl vətəninə yola düşdü. Vəssalam. Heç bir xüsusi şənliklər olmadı. Şəhər kənarındakı bağ evinə ancaq uşaqlarım və nəvələrim toplaşmışdılar. Başqa heç kəs yox idi – nə baş nazir vardı, nə də parlamentin sədri...

**– Bütün yubiley elə bundan ibarət oldu? Heç bir küçəyə və meydana Sizin adınız verilmədi?**

– Siz çox incə bir mətləbə toxundunuz. Görürəm, çox adam mənə hörmətlə və hətta məhəbbətlə yanaşır. Bu hisslər isə müxtəlif cür təzahür edilə bilər. İki il əvvəl nəzərimə çarpmağa başladı ki, bəzi yerlərdə mənim büstlərim qoyulub, şəhərlərin mərkəzi prospektlərində portretlərim asılır. Mən bunu qadağan etdim. Mənim fotoşəklim dövlət idarəsində, məmurun kabinetində ola bilər və hətta olmalıdır, çünki prezident dövlətin rəmzidir. Bir o qalıb ki, küçə və meydanlar da mənim portretlərimlə bəzədilsin!

Bizdə «Yeni Azərbaycan» partiyası var. O, mən Naxçıvanda yaşayan vaxtlarda mənim iştirakımla yaradılıb. Bu partiyanın fəallarından biri özünün bütün pullarını mənim iri bir büstümün hazırlanmasına sərf etmişdi və onu burada, Bakıda, «Yeni Azərbaycan» Partiyasının iqamətgahı qarşısında qoymağı qərara almışdı. Mən bu planlardan xəbər tutdum və müvafiq göstəriş verdim ki, buna yol verilməsin. Amma bu inadkar adam rayon İcra hakimiyyətinin başçısına və hətta şəhərin merinə tabe olmadı. Mən işə qarışmalı və bu sözəbaxmazı yanıma çağırmalı oldum. Söhbətə iki saat vaxt sərf etdim. O ağlayır, mənə məhəbbət bəslədiyinə and içir və deyirdi ki, hər şeyi yalnız ən xoş niyyətlərlə edir. Mən ona dedim: «Sizin hisslərinizi anlayıram, ancaq Siz öz hərəkətinizlə mənə başucalığı gətirməyəcəksiniz». Belə olduqda o soruşdu: «Yaxşı, indi mən nə edim?» Cavab verdim: «Siz bu büstü gözdən uzaq bir yerdə gizlədin. Mən bu dünyada olmayanda, çıxarıb qoyarsınız. Əgər bacarsanız».

Deyilənlərə görə, indi o büst həmin adamın həyətindədir...

**– Əgər Siz Ermənistan rəhbərliyi ilə birlikdə Dağlıq Qarabağ problemini həll etsəydiniz, onda, zənnimcə, sağlığınızda abidələr ucaldılmasının qarşısını heç bir qadağa ala bilməzdi.**

– Siz Azərbaycan qaçqınlarının düşərgələrində olmusunuzmu? Altı ildir ki, adamlar doğma yerlərinə qayıtmaq ümidi ilə yaşayırlar. Əlbəttə, belə yaşamaq çox çətindir. Digər tərəfdən, bu, xalqımızın necə səbirli və sülhsevər xalq olduğunu bir daha sübut edir. Biz heç kimə hücum etmirik, heç kimin ərazisinə – nə Ermənistanın, nə Gürcüstanın, nə Rusiyanın, nə də İranın ərazisinə göz dikmirik. Özgələrin ərazisi bizə lazım deyildir, öz ərazimizi versinlər.

**– Ermənistan tərəfini dinləsən, görərsən ki, onun öz həqiqəti olacaqdır.**

– Amma bu gün bizim respublikamızın ərazisinin təxminən beşdə bir hissəsi işğal edilmişdir! Belə vəziyyətlə razılaşmaq olmaz, ərazimizin bütövlüyü bərpa edilməlidir. Biz öz torpaqlarımızı qaytarmaq istəyirik. Lakin adamlarımızın orada yaşaya bilməsi üçün müharibənin dağıtdığı hər şeyi bərpa etmək lazımdır. Məsələn, Füzuli rayonunda iyirmi üç kənd döyüş əməliyyatlarından zərər çəkmişdir. Orada hər şey viran qoyulmuşdu, biz iş gördük, amma Azərbaycan hər şeyi təkbaşına edə bilməz. Sağ olsun beynəlxalq maliyyə təşkilatları – kömək göstərirlər.

**– Siz MDB-dən real yardım alırsınızmı?**

– MDB nə edə bilər? Ona qarşı iddialar çoxdur. Zənnimcə, əgər birliyin fəaliyyəti dünya praktikasında artıq təşəkkül tapmış və hüquq bərabərliyinə, bir-birinin suverenliyinə hörmət edilməsinə, qarşılıqlı maraqların əlaqələndirilməsinə əsaslanan prinsiplərə uyğun olsa, onun yaxşı beynəlxalq orqana çevrilmək imkanı var. Təəssüf ki, hələlik belə şey yoxdur. Açığını deyəcəyəm, mən MDB-nin fəaliyyətindən narazıyam. Paradoksdur ki, birliyin tərkibinə daxil olan iki dövlət hərbi münaqişə vəziyyətindədir. Bu bir yana, atəşkəsin davam etdiyi üç ildə Rusiya müharibə aparan tərəflərdən birinə bir milyard dollarlıq silah göndərmişdir. Belə də iş olar?

Yeri gəlmişkən, Ermənistana silahlar verilməsi məsələsini birinci olaraq biz qaldırmamışıq. Azərbaycan qonşuların ərazisində kəşfiyyat aparmır və biz heç nə bilmirdik. Rusiyanın Dövlət Duması Müdafiə Nazirliyindən hesabat tələb etdi və onda bu əhvalat üzə çıxdı. Hər şey qanunsuz, qeyri-leqal edilmişdir.



Yaxud, daha bir misal. Rusiya Azərbaycanla hərbi münaqişə vəziyyətində olan Ermənistanda qoşun saxlamağı mümkün hesab edir. Deyin görək, biz buna necə baxmalıyıq?

**– Bu Sizin Yeltsinlə münasibətlərinizə yəqin ki, təsir göstərir?**

– Xeyr, göstərmir, bizim münasibətlərimizdə hər şey normaldır. Boris Nikolayeviçin Sov.İKP Sverdlovsk vilayət komitəsinin birinci katibi işlədiyi, mənim isə Azərbaycanda respublika partiya təşkilatına başçılıq etdiyim vaxtlardan bəri həmişə belə olmuşdur. Aramızda xüsusi dostluq olmamışdır, lakin biz MK plenumlarında, Ali Sovetin sessiyalarında görüşürdük. Mən Nazirlər Sovetinə dəvət edildikdə, Yeltsin MK-nın tikinti şöbəsinin müdiri oldu. Aramızda işgüzar əlaqələr yarandı. 87-ci ilin oktyabrında Boris Nikolayeviç MK plenumunda kəskin çıxış etdi və Siyasi Büronun, demək olar, bütün üzvləri, o cümlədən Yeltsinin özünə dost bildiyi adamlar da onu möhkəm qınadılar, dedilər ki, o, partiyanın kürəyinə bıçaq sapladı. Mən isə Boris Nikolayeviçin əleyhinə çıxış etmədim. Odur ki, Yeltsinin məndən inciməyə haqqı yoxdur. Əgər o mənim ünvanıma nəsə deyibsə, mən onları ciddi qəbul etmirəm. Bunlar xırda-para şeylərdir.

Mənimlə Yeltsinin arasında münasibətlər pis ola bilməz, heç olmasa o səbəbdən ki, siyasətçi subyektiv hisslərə uymamalıdır. Xalqların taleyi emosiyalardan üstündür. Mən həmişə bu prinsipləri əsas tutmuşam.

**– Yeltsin varis barədə getdikcə tez-tez söhbət salır. Heydər Əliyeviç, bu sualı Sizə də vaxtaşırı verirlər, lakin Siz cavabdan yayınırsınız.**

– Məgər Boris Nikolayeviç kiminsə adını çəkmişdir?

**– Eyham vurmuşdur. Bunu Siz də edə bilərsiniz.**

– Bu gün varisdən danışmaq elə bir vəziyyət yaratmaq deməkdir ki, yer hamıya azlıq edər. Sovetlərin dövründə də rəhbər vəzifəyə namizədlər az olmurdu, o ki qalsın indiki dövrdə. İndi hər iki adamdan biri hesab edir ki, guya o, prezident ola bilər.

**– Siz keçmiş SSRİ ərazisində yəqin ki, ən uzunömürlü siyasətçisiniz. Zarafat deyil: respublikaya ilk dəfə hələ 69-cu ildə başçılıq etmisiniz. Lakin məndə belə bir hiss var ki, Siz nəinki rəhbər vəzifədə olmağın müddətinə görə, həm də özünüzə qarşı siyasi xəyanətlərin sayına görə rekordçusunuz. Eh, Sizə nə qədər xəyanətlər edilmişdir...**

– Bu doğrudur. Hətta təsəvvürümə belə gətirmirdim, ətrafımda nə qədər adam mənim büdrəməyimə bənd idi, yalnız elə bunu gözləyirdi. 80-ci illərin axırlarında Moskvada mənim üçün xüsusilə çətin oldu. Axı məni artıq həbs etməyə hazırlaşırdılar, hər yerdə ifşaedici materiallar axtarırdılar. Mən Sov.İKP-dən könüllü çıxdıqda vəziyyəti araşdırmaq və məni cəzalandırmaq üçün xüsusi komissiya yaratmışdılar. Səfeh adamlar idilər! O vaxtlar ən ciddi cəza partiyadan xaric edilmək idi, mən isə ondan özüm çıxmışdım...

Bir halda ki, biz xəyanətlərdən danışdıq, öz qənaətimi bölüşəcəyəm: əsasən vəzifəli adamlar satqın olurlar. Vəzifələr, hakimiyyət adamı pozur. Məmurlar mənsəb naminə hər şeyə əl atmağa hazırdılar. Sadə adamlar belə hərəkət etmirlər. Soruşursunuz ki, mən siyasətə qayıdacağıma inanırdımmı? 93-cü ildə mən buraya heç nəsiz gəldim – nə pulum vardı, nə də silahım. Təkcə adım vardı və xalq da ona inanırdı. Mən məhz bununla qələbə qazandım.

**– Oğlunuzun adı başqadır, əvəzində familiyanız eynidir. Bəlkə onu varis edəsiniz? Hər necə olsa da, öz qanınızdır, xəyanət etməməlidir.**

– Siz nə danışırsınız? Mənim oğlum ağıllı-kamallı, yaxşı, bacarıqlı, xeyirxah insandır, lakin həyatda onun öz yolu var.

**– Bununla belə, İlham artıq indinin özündə yüksək rəhbər vəzifədədir və eyni zamanda parlamentin deputatıdır. Oğlunuza böyük siyasətə qoşulmaq barədə ciddi düşünməyi məsləhət görmüsünüzmü?**

– Məndən sonra, mən gedəndən sonra o, bəlkə də bununla məşğul olacaqdır. Amma indi yox.

**– Niyə belə?**

– Məhz ona görə ki, o mənim oğlumdur. İlhamın neft şirkətinin vitse-prezidenti olması kifayətdir. Bizi buna görə də qınayırlar. Axı oğlum bir yanda işləməlidir, ya yox?

İlham Moskvada Beynəlxalq Münasibətlər İnstitutunu bitirib, lakin onu xaricə buraxmadılar, çünki artıq mənə qarşı təzyiqlər başlanmışdı. Oğlum institutda dərs deyirdi, sonra onu oradan da çıxardılar. O, iki uşağı ilə küçədə qaldı. Biznesə getdi. Əvvəlcə Moskvada işlədi. Mən Azərbaycana qayıtdıqda o mənimlə gəldi, məni tək qoymadı. Başqa cür ola bilərdimi? Axı mən tək idim, həyat yoldaşım vəfat etmişdi...



Respublika xarici aləmlə yavaş-yavaş əlaqələr yaratmağa başladı, İlham isə ingilis, fransız dillərini bilir. Onun təcrübəsi də kara gəldi.

**– Axı Siz də dillər bilirsiniz?**

– Bəli, əlbəttə, bilirəm.

**– Gərək ki, farsca, ərəbcə sərbəst danışırsınız.**

– O qədər də sərbəst yox. Danışıq səviyyəsində bilirəm. Mən ingilis və türk dillərini də öyrənmişəm. DTK-da işlədiyim vaxtlarda.

**– Yeri gəlmişkən, Sizə qarşı çoxsaylı sui-qəsdlərin uğursuzluqla qurtarmasının bir «səbəbkarı» da yəqin ki, Sizin çekist təcrübənizdir?**

– Sözsüz belədir. Deyərdim ki, ən ciddi təhlükə prezident təyyarəsini vurmaq cəhdi olmuşdur. Bizi o xilas etdi ki, onda güclü külək əsirdi (yeri gəlmişkən, bu, Bakı üçün normal haldır) və təyyarə yerə adətən endiyi tərəfdən enmədi. Əllərində raket olan terrorçular təyyarəni başqa yerdə gözləyirdilər.

Bir neçə gündən sonra biz məlumat aldıq və cinayətkarları tuta bildik.

**– Doğrudanmı, onlar raketi sökməmişdilər?**

– Xeyr, sökməmişdilər, hər şeyi gizlətmişdilər ki, sonra yenə cəhd göstərsinlər. Ancaq bizim xüsusi xidmət idarələri raketin gizlədildiyi yeri, sonra isə icraçıları tapdılar. Onlar təqsirlərini boyunlarına aldılar.

**– Bəs sui-qəsdin sifarişçisi kim idi? Bilirsinizmi?**

– Bilirəm. Amma indi biz bu mövzunun dərinliyinə getməyək.

**– Prezident Kuçma ilə Sizin keçib getməli olduğunuz körpünün minalanması hadisəsində də təqsirkarları müəyyənləşdirmək mümkün oldu, elədirmi?**

– Bəli, onda körpünün altına təxminən iki yüz kiloqram partladıcı maddə qoymuşdular.

**– Əməlli-başlı atəşfəşanlıq alına bilərdi.**

– Lap doğrudur. Leonid Daniloviçlə göyə uçardıq... Partladıcı maddəni terrorun vaxtına təxminən bir-iki saat qalmış aşkara çıxardıq.

**– Bu gün həyatınız üçün narahat olmağa əsasınız varmı?**

– Bəli, var. Həyəcanlı xəbərlər alınır. Mənim bəzi düşmənlərim ancaq qətlə ümid bəsləyirlər. Bilirlər ki, mənim öhdəmdən başqa cür gələ bilməzlər. Axı aydındır ki, seçkilər keçiriləcək və Əliyev yenə də prezident seçiləcəkdir. Deməli, onu aradan başqa cür götürmək lazımdır.

**– Bəs Sizi məhz kimlərin gözü götürmür?**

– Çoxlarının. Amma xalq yox. Mənim düşmənlərim, bədxahlarım başqa yerlərdəndir. Lakin bu, ayrıca bir mövzudur.

***Andrey Vandenko***
***Bakı-Moskva***
***(«Komsomolskaya pravda»***
***19 avqust 1998-ci il)***



## BİNƏ HAVA LİMANINDA JURNALİSTLƏRİN SUALLARINA CAVAB

*7 sentyabr 1998-ci il*

**Azərbaycan Prezidenti Heydər Əliyev Bakının Binə hava limanında, tarixi Böyük İpək Yolunun bərpası üzrə beynəlxalq konfransda iştirak etmək üçün respublikamızın paytaxtına gələn dövlət başçılarının və nümayəndə heyətlərinin qarşılanmasından əvvəl ölkəmizin və xarici ölkələrin kütləvi informasiya vasitələri müxbirlərinin suallarına cavab vermişdir.**

**S u a l :** Cənab Prezident, Böyük İpək Yolu Ukrayna ərazisindən keçməyəcəkdir. Sizin bu layihənizin Ukrayna dövləti üçün nə kimi faydası ola bilər?

**C a v a b :** Nə üçün deyirsiniz ki, keçməyəcək?

**M ü x b i r :** Mən xəritədə baxmışam.

**H e y d ə r  Ə l i y e v :** Xəritəni istənilən kimi çəkmək olar. Əvvəla, Ukrayna TRASEKA proqramına qoşulmuşdur. Tarixi İpək Yolunu isə məhz 1993-cü ildə qəbul olunmuş TRASEKA proqramı əsasında bərpa etmək planlaşdırılır. Ukrayna bu proqrama fəal qoşulub və zənnimcə, çox istəyir ki, Böyük İpək Yolunun iştirakçısı olsun. Bunun üçün bütün imkanlar var.

**S u a l :** Azərbaycan və TRASEKA-nın iştirakçısı olan digər ölkələr bugünkü konfransdan nə kimi siyasi, iqtisadi mənfəət götürəcəklər?

**C a v a b :** Bilirsiniz, beş ildən bəri həyata keçirilən TRASEKA proqramı öz faydasını verir. Kommunikasiya xətləri, Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizi, magistralı yaradılmışdır. Bunun özü iqtisadi fayda gətirir. O ki qaldı siyasi mənfəətə, biz bir-birimizlə nə qədər çox əməkdaşlıq etsək, əlaqə saxlasaq, o qədər çox tərəfdaş olacağıq və bu, bir o qədər də siyasi fayda gətirəcəkdir. Ən başlıca siyasi fayda isə sülhü, sabitliyi, dövlətlər arasında qarşılıqlı anlaşmanı təmin etməkdən ibarətdir. Bütün bunlar hamısı birlikdə həm iqtisadi, həm də siyasi faydaları təşkil edir.

**S u a l :** Cənab Prezident, bildiyiniz kimi, Ermənistanın baş naziri də bu tədbirə qoşulacaqdır. Mümkünsə, deyin, Ermənistan-Azərbaycan münaqişəsinin həllinə bunun bir köməyi ola bilərmi?

**C a v a b** : Birincisi, Ermənistan TRASEKA proqramının qəbulunda iştirak etmiş ölkələrdən biridir. 1993-cü ildə Brüsseldə Qafqaz və Mərkəzi Asiya ölkələri TRASEKA proqramını tərtib ediblər. Ona görə də Ermənistanın bu konfransda iştirak etməyə hüququ var.

İkincisi, biz Ermənistanla Azərbaycan arasında olan münaqişəni sülh yolu ilə həll etmək istəyirik. Bunun üçün də iki ölkə arasında düşmənçilik əhval-ruhiyyəsindən qarşılıqlı inam əhval-ruhiyyəsinə keçmək lazımdır. Qarşılıqlı inam olmasa, bu məsələnin sülh yolu ilə həlli də çətin ola bilər. Doğrudur, ötən on ildə biz böyük yaralar almışıq, bizə çox böyük zərbələr dəyibdir. Qurbanlar vermişik, qan tökülüb, torpaqlarımız işğal olunubdur. İşğal edilmiş torpaqlar viran olunub, bərbad vəziyyətdədir.

Bunlar hamısı məlumdur. Ancaq irəliyə baxmaq lazımdır. İrəliyə baxmaq üçün də düşünmək lazımdır ki, iki qonşu ölkə bir-biri ilə daim düşmənçilik münasibətlərində yaşaya bilməz. Dünyanın bütün ölkələrini, Avropa ölkələrini götürün. Fransa ilə Almaniya yüz il müharibə etdilər, indi dost ölkələrdir. Yaxud, Rusiya, Avropanın bir çox ölkələri Almaniya ilə müharibə etdilər, nə qədər qurbanlar verildi, insanlar həlak oldu, şəhərlər dağıldı. İkinci Dünya Müharibəsində Sovetlər İttifaqından 27 milyon adam həlak oldu. Təkcə Azərbaycandan cəbhəyə 600 min adam səfərbər edilmişdi, onlardan 300 mini qayıtmadı. Amma görürsünüz, indi Almaniya ilə Rusiya, keçmiş Sovetlər İttifaqına mənsub olmuş digər ölkələr arasında əməkdaşlıq, dostluq əlaqələri var. Bu, həyatdır, ona görə irəliyə baxmaq lazımdır.

**S u a l** : Cənab Prezident, Sizin ikitərəfli görüşlərinizdə Azərbaycan neftinin dünya bazarlarına nəqlinin marşrutları müzakirə ediləcəkmi?

**C a v a b** : Bilirsiniz, bu elə mövzudur ki, biz onu daim müzakirə edirik. Bu, tükənən mövzu deyildir.

**S u a l** : Ekspertlər bildirirlər ki, Azərbaycan neftinin ixracından hissediləcək gəlir yeddi ildən sonra götürüləcəkdir. Sizin fikriniz, proqnozunuz necədir, Azərbaycanın bugünkü tarixi tədbirdə iştirakının faydasını sadə vətəndaşlar nə vaxt hiss edəcəklər?

**C a v a b** : Bilirsiniz, sadə Azərbaycan vətəndaşı buna çox açıq gözlə, obyektiv baxmalıdır. Sadə Azərbaycan vətəndaşı tədricən fayda götürür. Belə təsəvvür etmək olmaz ki, elə bir gün yetişəcək, sadə Azərbaycan vətəndaşına göydən, yaxud kimdənsə içərisində, nə bilim, nə qədərsə pul, yağ və digər şeylər olan bağlama gələcəkdir. Bilirsiniz, indi



biz nə ediriksə, hər ay sadə Azərbaycan vətəndaşına praktiki olaraq xeyir gətirir. Bu, reallıqdır. Siz ətrafa nəzər salın, görün beş il, üç il əvvəl necə idi. Rusiyada rublun vəziyyətinə baxın. Bir dollar 6 rubl idi, indi təxminən 20 rubla qalxmışdır. Azərbaycanda vəziyyət necədir? Manat sabitdir. 1994-cü ildə inflyasiya 1600 faiz idi, indi isə inflyasiya yoxdur. Rusiyada baş verənlər bizi çox narahat edir – bu, Azərbaycana da mənfi təsir göstərə bilərdi. Biz tədbirlər gördük, bunun qarşısını aldıq, yol vermədik. Bax,bu, Azərbaycan vətəndaşının götürdüyü konkret, praktiki faydadır.

İslahatlar keçirilir, iqtisadiyyat inkişaf edir. Ötən illərdə sənaye və kənd təsərrüfatı istehsalı hər il 10, 15, 20, 25 faiz aşağı düşürdü. İndi isə təkcə son səkkiz ayda sənayedə artım 0,9 faiz olmuşdur. Bu az olsa da, hər halda artımdır, azalma deyildir. Yaxud, ümumi daxili məhsul 9 faiz artıbdır. Dünən mən Almaniya nümayəndə heyətini qəbul etmişəm. Onlar srağagün Nauman fondu çərçivəsində seminar keçirmişlər. Yeri gəlmişkən, orada müxtəlif xüsusi, qeyri-dövlət strukturlarının, habelə bir çox partiyaların, o cümlədən müxalifət partiyalarının nümayəndələri, mənim müşavirim, professor Axundov da iştirak etmişdir. Orada konkret rəqəmlər gətirilmişdir. Almaniya nümayəndə heyətinin başçısı mənə dedi ki, Azərbaycanda gedən müsbət dəyişiklikləri məmnunluqla qarşılayırıq. Bu, hər gün, yavaş-yavaş baş verir – iqtisadiyyatda sıçrayışlar ola bilməz.

O ki qaldı neftə, hərə öz bildiyi kimi hesablayır. Bizim isə öz hesablamalarımız var. Hər bir ekspert özü düşündüyü kimi danışır. Bizim konkret planlarımız, proqnozlarımız var. Neft və qaz yataqlarının işlənilməsinə dair proqramı ardıcıl həyata keçirərək iqtisadiyyatın və xalqın rifah halının yüksəlişini təmin edəcəyik. Bir neçə gün bundan əvvəl, «İstiqlal» adı verdiyimiz üzən qazma qurğusunun işə salınması münasibətilə təntənəli mərasim keçirilmişdir. Siz orada iştirak etmiş, televiziya ilə görmüsünüz. 17 ay ərzində bu qurğunun bərpasına, yenidən qurulmasına, modernləşdirilməsinə 200 milyon dollar xərclənmişdir. Həmin 200 milyon dolların xeyli hissəsi müxtəlif işlərdə iştirak edən Azərbaycan vətəndaşlarına, sakinlərinə çatmışdır. Digər tərəfdən də Azərbaycana 200 milyon dollar vəsait qoyulmuşdur. Həmin qurğu «Şahdəniz» yatağında quyu qazmağa aparılmışdır. Biz hər bir quyudan neft alacağıq. Bütün bunlar bir-biri ilə bağlı olan prosesdir.

Yaxud, bizim neft şirkətinin gəmi təmiri zavodunu götürək. Bərbad vəziyyətə düşmüşdü, onu bərpa etməyə imkanımız yox idi. Həmin gə-

mi təmiri zavodunu bərpa etmək üçün 13 milyon dollar xərclədilər. Bərpa etdilər, indi digər qurğular da bərpa olunacaq, gəmilər təmir ediləcəkdir.

Əgər televiziya ilə baxmısınızsa, yaxud orada olmusunuzsa, bilərsiniz – zavodda üç böyük kran var. Onlar işləmirdi. Həmin kranları bərpa etdilər, qaydaya saldılar.

«İstiqlal» qazma qurğusu nədir? O, ən yüksək dünya səviyyəli qurğudur. Mən Norveçdə səfərdə olarkən vertolyotla Stavangerdən təxminən 260 kilometr aralıda – Şimal dənizində yerləşən «Sleypner» platformasına getmişdik. Orada ildə 6 milyard kubmetr qaz çıxarılır və mənə dedilər ki, birbaşa Avropaya-Fransaya göndərilir. Biz həmin platformanı görəndə heyran qaldıq. İndi bizim ona bənzər «Çıraq-1» platformamız var. Təsəvvür edirsinizmi, suyun 700 metr dərinliyində quyu qaza bilən «İstiqlal» adlı üzən qazma qurğumuz var. Suyun 700 metr dərinliyində quyu qazmağın mümkünlüyünü təsəvvürə gətirmək belə çətin idi. O, nəhəng bir qurğudur. Bax bu, praktiki faydadır.

Mən qurğuda azərbaycanlılarla – mütəxəssislərlə, sadə fəhlələrlə söhbət etdim. Soruşdum ki, nə qədər maaş alırsan. Dedi ki, 2 milyon 600 min manat. Dollara çevirin, görün nə qədər olur. 2 milyon 600 min manat da sanballı səslənir. Adi işçi bu qədər alır. Buyur, bu da bizim iqtisadi faydamız və hər bir Azərbaycan vətəndaşı üçün konkret xeyir. Ona görə də siz başa düşün – bu elə prosesdir ki, hər gün faydasını verir.

Biz 15 müqavilə imzalamışıq. Bunların hamısı işləyir. Hər bir müqavilə üzrə investisiyalar gəlir. Təkrar edirəm, «Şahdəniz» yatağına dair müqaviləni 1996-cı il iyunun 4-də imzalamışıq. İki ildən sonra isə orada «Dədə Qorqud» qurğusu quyu qazır. Bir neçə gün bundan əvvəl isə yeni qazma qurğusunu istifadəyə verdik və o, orada quyu qazacaqdır. Həmin qurğu təkcə orada quyu qazmayacaq, Xəzər dənizində əsas qurğu olacaqdır. Xəzərdə öz yataqlarından istifadə etmək istəyən digər sahilyanı dövlətlərin belə imkanları yoxdur, onlar bizə müraciət edəcəklər. Hazırda geofiziki, seysmik tədqiqatları bizə, Azərbaycana məxsus olan gəmi aparır. Onu «LUKoyl» neft şirkəti modernləşdirib müasir səviyyəyə çatdırmışdır. O həm Qazaxıstan, həm İran, həm Türkmənistan, həm də Rusiya üçün geofiziki işlər görür. Onda 600 nəfər işləyir və çox yüksək əmək haqqı alırlar. Bax, bu da konkret fayda. Kifayətdirmi?



**Sual**: Böyük İpək Yolunun bərpasında Çinin rolu haqqında nə deyə bilərdiniz?

**Cavab**: Böyük İpək Yolu Çindən başlayıb, elədirmi? Nə üçün İpək Yolu adlandırıblar? Ona görə ki, Çində hələ qədimdən, eramızdan əvvəl ipək istehsal edir və Avropaya aparırdılar. Həmin Böyük İpək Yolu ilə aparırdılar. Əlbəttə, indi Çinin bir çox başqa nəqliyyat kommunikasiyaları var. Amma mən hesab edirəm ki, bərpa olunacaq bu yol da Çinə fayda gətirəcəkdir.

**Sual**: Cənab Prezident, sabah konfransın yekunlarına dair saziş imzalanacaqdır. Onun əhəmiyyətini şərh edərdinizmi?

**Cavab**: Əhəmiyyəti çox böyükdür, çünki belə saziş ilk dəfə imzalanacaqdır. Bunun özü onu göstərir ki, sazişin məzmunu nəqliyyat xəttinin gələcək inkişafı və Böyük İpək Yolunun bərpası üçün yaxşı şərait yaradır.

**Sual**: Saziş yüklərin təhlükəsiz daşınmasına təminatı nəzərdə tuturmu?

**Cavab**: Şübhəsiz, orada hər şey nəzərdə tutulur.

**Sual**: Heydər Əliyeviç, TRASEKA Rusiyanı faktiki olaraq kənarda qoyur. Bu, münasibətləri kəskinləşdirməzmi?

**Cavab**: Nə üçün kənarda qoyur? Biz Rusiyanı dəvət etmişik və Rusiya konfransda iştirak edir.

**Müxbir**: Müşahidəçi kimi iştirak edir.

**Heydər Əliyev**: Bilirsiniz, kimin müşahidəçi, kimin qeyri-müşahidəçi olması barədə status yoxdur. Hamı konfransın iştirakçılarıdır. Biz Rusiya ilə münasibətlərin kəskinləşməsinə heç vaxt yol verməyərik.

**Sual**: Ermənistanın baş naziri ilə görüşdə münaqişənin həlli yolları müzakirə olunacaqmı?

**Cavab**: Baxaq görək, imkan dairəsində danışıqlar aparılacaqdır.

## TÜRKİYƏNİN «NƏRGİZ TV» KANALININ BAKIDA STUDİYASININ AÇILIŞI

*29 sentyabr 1998-ci il*

**Azərbaycan Prezidenti Heydər Əliyev Türkiyənin «Nərgiz TV» kanalının Bakı studiyasının Yasamal rayonu ərazisində yerləşən Bakı ofisinin qarşısında keçirilən təntənəli mərasimdə iştirak etmiş və nitq söyləmişdir.**

### AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEVİN NİTQİ

– Əziz dostlar, əziz həmvətənlər, bacılar, qardaşlar! Əziz qonaqlar, Türkiyə Cümhuriyyətinin «Nərgiz TV» kanalının yüksək nümayəndə heyəti!

Azərbaycanın əziz dostu, Türkiyə Böyük Millət Məclisinin millət vəkili, keçmiş dövlət naziri, «Nərgiz TV»nin başqanı hörmətli Cavid Çağlar, Türkiyədən gəlmiş hörmətli dostlarımız!

Mən öncə Türkiyədən Azərbaycana gəlmiş dostlarımızı, qonaqlarımızı ürəkdən salamlayıram. Onlar Azərbaycana xoş gəliblər, səfa gətiriblər. Bu gəliş Türkiyə-Azərbaycan dostluğunun, qardaşlığının daha bir gözəl təzahürüdür.

Bu gün həm Azərbaycanda, həm də Türkiyədə əlamətdar bir hadisə baş verir. Bu mərasim Türkiyənin ən böyük televiziya kanallarından birinin, 200 milyon tamaşaçısı, seyrçisi olan «Nərgiz TV» kanalının Azərbaycandan Türkiyəyə birbaşa yayımlanması münasibətilə keçirilir. Bildiyiniz kimi, Türkiyənin «Nərgiz TV» kanalı keçən il Azərbaycana gəldi və indi daim öz verilişlərini Azərbaycanda yayır. Bu televiziya kanalı olduqca maraqlı, hörmətli və çox gözəl, operativ məlumatlar verdiyinə görə Türkiyədə sevildiyi kimi, Azərbaycanda da böyük hörmət qazanıb və sevilir. Bu gün isə bu mərasim «Nərgiz TV» kanalının verilişlərinin Azərbaycandan Türkiyəyə, həm də təkcə Türkiyəyə yox, kanalın əhatə etdiyi ölkələrə yayımlanması münasibətilə keçirilir. Bu, əlamətdar hadisədir. Bildiyiniz kimi, Azərbaycanda Türkiyənin bir neçə televiziya kanalı, o cümlədən «Nərgiz TV» sərbəst yayılır.



Ancaq biz həmişə düşünürdük ki, Azərbaycanda olan televiziya kanallarının da Türkiyədə yayılması lazımdır və bu, Türkiyə-Azərbaycan əlaqələrinin inkişaf etməsi üçün çox əhəmiyyətli olacaqdır. Bu addımı ilk olaraq «Nərgiz TV» kanalı atır. Ona görə də mən «Nərgiz TV» kanalının rəhbərlərinə, dostumuz, qardaşımız Cavid Çağlara və bütün heyətə təşəkkürümü bildirir, «Nərgiz TV» kanalına bundan sonra da böyük uğurlar arzulayıram.

Bu hadisənin əhəmiyyəti təkcə televiziya baxımından qiymətləndirilə bilməz. Bu hadisə Azərbaycan Respublikasının müstəqilliyini bir daha sübut edir, onun dövlət müstəqilliyini dünyaya nümayiş etdirir. Bütün dünyaya bir daha bəyan edir ki, Azərbaycan müstəqil dövlət olaraq demokratiya, sərbəstlik, azadlıq, hürriyyət yolu ilə gedir. Azərbaycanda söz, fikir, informasiya azadlığı mövcuddur və hər bir vətəndaş, mətbuat, hər bir qəzet, radio və televiziya bu imkanlardan istədiyi kimi istifadə edir və edə bilər. Hətta başqa ölkələrin informasiya orqanları, televiziya kanalları da Azərbaycanda sərbəst, azad, hürr içində fəaliyyət göstərə bilərlər və istədikləri verilişləri verə bilərlər. Azərbaycanda demokratiyanın inkişafını bundan da gözəl sübut edən fakt, misal ola bilərmi? Biz bununla fəxr edir və dünyaya bir daha bəyan edirik ki, Azərbaycan azad ölkə, müstəqil dövlətdir, öz məsələlərini özü həll edir və Azərbaycanda hər bir insan azaddır, müstəqildir, bütün insan haqları qorunur, bütün vətəndaşlara azadlıq verilib, Azərbaycan bütün dünyaya açıqdır.

Bugünkü bu hadisə Türkiyə-Azərbaycan dostluğunun və qardaşlığının əyani nümunəsidir. Xalqlarımız arasındakı dostluq, qardaşlıq əlaqələri qədim tarixə malikdir. Azərbaycan dövlət müstəqilliyini əldə edəndən sonra Türkiyə-Azərbaycan dostluğu, qardaşlığı günü-gündən inkişaf edir və yüksəlir. Biz həyatın bütün sahələrində sıx əməkdaşlıq, dostluq edir, bir-birimizə dayaq dururuq. 65 milyonluq Türkiyə Cümhuriyyəti Azərbaycanın dostu, qardaşıdır və beynəlxalq aləmdə çox etibarlı dayağıdır.

Azərbaycan bu dostluğa, qardaşlığa həmişə sadiq olmuşdur. Müstəqil Azərbaycan ölkəsi özünün qapılarının hamısını Türkiyə üçün, bizim dostlarımız, qardaşlarımız üçün açıbdır. Bizim aramızda sərhəd yoxdur, biz birik. Azərbaycan da müstəqil dövlət, dünya birliyində özünə layiqli yer tutmuş dövlət kimi həmişə Türkiyəyə dayaq olub və bundan sonra da olacaqdır.

Biz çox sevinir və iftixar hissi keçiririk ki, türk xalqı 75 il cümhuriyyət şəraitində yaşayaraq, böyük nailiyyətlər əldə etmişdir. Bir ay sonra Türkiyə Cümhuriyyətinin yaranmasının 75 illik yubileyini hamımız birlikdə qeyd edəcəyik. Bu, böyük, şərəfli bir yoldur. Bu yolun əsasını türk dünyasının qəhrəman oğlu, Böyük Öndər Mustafa Kamal Atatürk qoymuşdur. 75 ildir ki, türk xalqı, Türkiyə Cümhuriyyəti Böyük Mustafa Kamal Atatürkün yolu ilə gedir, böyük nailiyyətlər əldə edibdir, demokratiya yolu ilə gedir, iqtisadi cəhətdən dünyanın inkişaf etmiş ölkələrinin sırasında durur, öz vətəndaşlarının rifah halını günü-gündən yaxşılaşdırır və dünyada sülhün, əmin-amanlığın təmin olunması üçün öz xidmətlərini göstərir. Biz sevinirik ki, bu gün Türkiyə Cümhuriyyəti dünyada tanınmış, müstəqil, demokratik cümhuriyyətdir, dünyəvi dövlətdir. İnanırıq ki, türk xalqı bundan sonra da Böyük Atatürkün qoyduğu yolla irəli gedəcək, yüksələcəkdir.

Biz Türkiyə ilə Azərbaycan arasında olan dostluq, qardaşlıq əlaqələrini daim inkişaf etdiririk. Türkiyə Cümhuriyyətinin prezidenti, Azərbaycan xalqının böyük dostu, mənim əziz dostum, qardaşım Süleyman Dəmirəl Azərbaycana daim qayğı göstərir. 1991-ci ildə Azərbaycan dövlət müstəqilliyini elan edən zaman ölkəmizin səsinə ilk səs verən Türkiyə oldu. Azərbaycanın müstəqilliyini dünyada ilk dəfə Türkiyə tanıdı və bu qərarı Türkiyə Cümhuriyyətinin başçısı, dostumuz Süleyman Dəmirəl qəbul etdi.

Prezident Süleyman Dəmirəlin Azərbaycana səfərləri həmişə xalqımızın bayramına çevrilir. Bizim dostumuz, qardaşımız Süleyman Dəmirəl bu ayın əvvəlində Azərbaycanda keçirilmiş beynəlxalq konfransda – qədim, böyük, tarixi İpək Yolunun bərpası ilə əlaqədar təşkil olunmuş konfransda iştirak etdi və özünün parlaq nitqi, dəyərli tövsiyələri ilə bu böyük proqramın həyata keçirilməsinə çox fayda verdi. Bir daha qeyd edirəm, bunlar hamısı Türkiyə-Azərbaycan dostluğunun, qardaşlığının gözəl nümunələridir.

Mən bu gün «Nərgiz TV» vasitəsilə türk xalqını ürəkdən salamlayır, Türkiyə Cümhuriyyətinin bütün vətəndaşlarına Azərbaycan xalqının, vətəndaşlarının hərarətli salamlarını, ən xoş arzularını yetirirəm. Türkiyə Cümhuriyyətinə, türk xalqına, Türkiyənin vətəndaşlarına sülh, əmin-amanlıq və rifah arzulayıram.

Yaşasın Türkiyə Cümhuriyyəti! Mustafa Kamal Atatürkün yolu ilə gedən qəhrəman türk xalqına eşq olsun! Yaşasın müstəqil Azərbaycan!



Yaşasın əbədi, sarsılmaz Türkiyə-Azərbaycan dostluğu! Eşq olsun, eşq olsun, eşq olsun!

Sonra Prezident Heydər Əliyev «Nərgiz TV»nin Bakıdakı studiyasının açılışını bildirən qırmızı lenti kəsdi.

Ölkəmizin başçısı Heydər Əliyev Azərbaycanın və Türkiyənin dövlət bayraqları ilə bəzədilmiş «Nərgiz TV»nin Bakıdakı ofisi ilə də tanış oldu, bu televiziya kanalının iş prinsipi ilə maraqlandı, ayrı-ayrı otaqları gəzdi. Burada respublikamızın rəhbərinə verilişlər, proqramlar barədə məlumat verildi.

* * *

## AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEVİN «NƏRGİZ TV»yə MÜSAHİBƏSİ

**Müsahibə canlı yayımla bütün dünyaya yayımlandı.**

**S u a l :** «Nərgiz TV»nin bir az öncə gözəl bir mərasimlə açdığımız Bakı bürosundayıq. Studiyamızda qonağımız sayın cümhur başqanı Heydər Əliyevdir.

Sayın Əliyev, bu gün Sizi burada görmək bizim üçün xüsusi bir şərəfdir. Sadəcə cümhur başqanı yox, oktyabrın 11-də keçiriləcək Azərbaycan prezidenti seçkilərində namizədlərdən də birisiniz. Keçən həftə başlanmış «Günaydın, Qafqaz» səhər proqramımızda digər beş namizədi dinləmişdik. Sizinlə isə görüşə bilməmişdik. Ona görə də indi Sizi burada görmək bizi çox məmnun edir.

Sayın Əliyev, beş illik cümhur başqanlığınızı başa çatdırırsınız və indi təkrar seçkilərdə ən güclü namizəd sayılırsınız. Sizcə, qarşıdakı beş ildə Azərbaycan üçün daha nə edə bilərsiniz?

**C a v a b :** Bilirsiniz, Azərbaycanda ötən beş ildə gördüyümüz işlər önümüzdəki böyük işlərin görülməsi üçün təməl olubdur, əsas yaradıbdır. Bildiyiniz kimi, Azərbaycan dövlət müstəqilliyini əldə edəndən sonra demokratiya, bazar iqtisadiyyatı, sərbəst iqtisadiyyat yolu tutubdur. Yəni keçmişdə olan iqtisadiyyatın, siyasi quruluşun hamısı dəyişilir, yeni, müstəqil dövlət qurulur və bu dövlət də demokratik, hüquqi, dünyəvi dövlət olaraq, Dünya Birliyinə, Avropa Birliyinə daxil olmaq məqsədi daşıyır. Buna görə də ötən beş ildə olduğu kimi, gələcək illərdə də işlərimiz bu istiqamətdə gedəcəkdir, yəni Azərbaycanda demokratik, hüquqi, dünyəvi dövlətin qurulması davam etdiriləcəkdir. Azər-

baycanda insan haqlarının qorunması bundan sonra da daim təmin olunacaqdır. Azərbaycanda demokratiya tələblərinə uyğun insan azadlığı, yəni hürriyyət təmin olunacaqdır. Mətbuat azadlığı, vicdan, söz, fikir azadlıqları – hamısı bundan sonra da təmin olunacaqdır.

Dediyim kimi, Azərbaycan iqtisadiyyatı bazar iqtisadiyyatı yolu ilə gedir. Bu çox böyük dəyişiklikdir. Çünki 70 il ərzində Azərbaycan sosialist iqtisadiyyatı əsasında qurulubdur və Azərbaycanın böyük iqtisadiyyatı, böyük sənaye potensialı, böyük iqtisadi, elmi, intellektual potensialı vardır. Amma bunları çevirmək, döndərmək, özəlləşdirmə aparmaq çətindir.

Məsələn, torpağın xüsusi mülkiyyətə verilməsi. 70 il bundan öncə Sovet hakimiyyəti torpağı insanlardan alıb, dövlətin ixtiyarına veribdir. Biz isə 70 il ötəndən sonra dövlətdə olan torpağı insanlara, şəxsi, xüsusi mülkiyyətə veririk. Bu çox çətin, ağır bir prosesdir. Bu həm zaman tələb edir, həm də böyük iradə tələb edir. Ancaq biz bu yol ilə gedirik, özəlləşdirmə aparırıq. Azərbaycanda hər şey dövlətin əlində olubdur. Amma indi istəyirik ki, bu, insanların olsun, sərbəst olsun, insanlar bundan istədikləri kimi istifadə etsinlər, dolansınlar. Deməli, iqtisadiyyatda özəlləşdirmənin aparılması, torpaq islahatı, yəni torpağın şəxsi mülkiyyətə verilməsi və insanlara sərbəstlik verilməsi, dünya iqtisadiyyatı ilə Azərbaycan iqtisadiyyatı arasında maneəsiz, sərbəst əlaqələr yaradılması – bunlar hamısı Azərbaycanın inkişafına gətirib çıxaracaqdır.

**S u a l :** Cümhur başqanı kimi çox israrla üstündə durduğunuz məsələ Azərbaycanın ən önəmli təbii ehtiyatı olan neftin dünya bazarına çıxarılması üçün bir boru xəttinin çəkilməsi layihəsidir. Bakı-Ceyhan boru xətti üçün gecə-gündüz çalışırsınız. Sizcə, önümüzdəki beş ildə bunun gerçəkləşməsi yolunda nələr ola bilər?

**C a v a b :** Öncə demək istəyirəm ki, ötən müddət içərisində, dörd il bundan öncə bu işin təməlini qoyduq – «Əsrin müqaviləsi» adlanan bir müqavilə imzaladıq. Ötən dörd il içərisində Azərbaycan dünyanın ən böyük neft şirkətləri ilə 15 müqavilə imzalayıbdır. Bunların hamısının birlikdə Azərbaycana sərmayəsi 40 milyard dollardan yuxarı olacaqdır.

Bir şeyi qeyd etmək istəyirəm. Bunu Türkiyədəki tamaşaçılarınız, mənim dostlarım bilməlidirlər ki, mən bu dörd il içərisində Türkiyəni bir neft ölkəsi etdim. Türkiyənin bizim birinci müqavilədə payı 1,75 faiz idi. Sonra mən onun üzərinə beş faiz də qoydum, 6,75 faiz etdim. Üçüncü müqavilədə Türkiyəyə «Şahdəniz» neft yatağından 9 faiz pay



verildi. Son dəfə iyul ayında Londonda, Böyük Britaniyada imzaladığımız müqavilədə Türkiyəyə 10 faiz yer verildi. Artıq Azərbaycanın müqavilələrində Türkiyənin 25 faizə qədər payı vardır. Bu, işin bir tərəfidir və bu da çox önəmlidir. «Türk petrolları» şirkəti artıq Azərbaycandadır.

İkincisi, bu neftin dünya bazarına çıxarılmasıdır. Bunun bir neçə yolları vardır. İndi bütün dünya ölkələri bir-biri ilə yarışır və çalışırlar ki, bu boru xətləri haradan, nə cür keçsin. İndi bir boru xətti buradan Qara dənizə, Rusiyanın Novorossiysk limanına gedir. Bir boru xətti buradan qarşımızdakı ildə Qara dənizə, Gürcüstanın Supsa limanına gedəcəkdir. Amma ən əsas və ən böyük boru xətti Bakı-Ceyhan boru xəttidir. Bütün neftin böyük bir hissəsi bu xətlə gedəcəkdir. Mən öncə dediyim kimi, indi də deyirəm – biz Bakı-Ceyhan boru xəttini həyata keçiririk və keçirəcəyik. Bu ilin sonuna qədər bu barədə qərar qəbul olunacaqdır.

**S u a l :** Bakı-Ceyhan boru xəttinin tamamlandığı təqdirdə Azərbaycanın gəlirində nə kimi artım olacaqdır?

**C a v a b :** Bilirsiniz, indi heç bir rəqəm demək istəmirəm. Siz təsəvvür edin, 1994-cü ildə imzalanmış birinci müqavilədən Azərbaycanın 80 milyard dollar gəliri olacaqdır. Amma 15 müqavilə imzalanıbdır. Bunlar 25 il içərisində olacaqdır. Bu, bir ildə olmayacaqdır. Bu gəlirin çox hissəsi də bir, iki, üç, dörd, beş il bundan sonra olacaqdır. Ola bilər, altı, yeddi il bundan sonra daha da çox olacaqdır. Mən bu gün Azərbaycanın gələcəyi üçün, bizim uşaqlarımız, nəvələrimiz üçün çalışıram və biz buna da nail olacağıq.

**S u a l :** Heydər bəy, icazənizlə, son sualımı Azərbaycanın qan axan yarası Qarabağ barədə vermək istəyirəm. Bakıda və ondan kənarda bir milyondan çox qaçqın vardır. Bu insanlar torpaqlarına qayıtmaq istəyirlər. Siz bu istiqamətdə önəmli diplomatik addımlar atır, mühüm görüşlər keçirirsiniz. Bu sahədəki irəliləyiş nədən ibarətdir?

**C a v a b :** Bəli, biz bu barədə də çox işlər görmüşük.

On il bundan öncə, 1988-ci ildə Ermənistan-Azərbaycan savaşı, münaqişəsi başlayıbdır. Ermənistan Azərbaycana təcavüz edib, Qarabağı əlinə keçirmək istəyibdir.

1994-cü ilin may ayında, yəni dörd il bundan öncə mən birinci onu etdim ki, atəşi dayandırmağa nail oldum. Atəşkəs sazişi imzaladıq və artıq atəş yoxdur. Bu məsələni sülh, barış yolu ilə həll etmək istəyirik və bu barədə də çox irəliləmişik. Yəni ATƏT-in Minsk qrupu vardır,

biz bu məsələni Minsk qrupu daxilində həll edirik. Türkiyə Cümhuriyyəti də Minsk qrupuna daxildir. Biz Türkiyə ilə daim əməkdaşlıq edir, bir yerdə çalışırıq. Güman edirəm ki, 1996-cı ilin dekabr ayında ATƏT-in Lissabon Zirvə görüşündə qəbul olunmuş qərarlara əsasən, yəni Ermənistan-Azərbaycan münaqişəsinin, Qarabağ münaqişəsinin sülh, barış yolu ilə həll edilməsi üçün qəbul olunmuş prinsiplər əsasında bunu həll edəcəyik.

Yaxın vaxtlarda yeni görüşlər olacaqdır. Mən inanıram ki, Azərbaycanın ərazi bütövlüyü təmin ediləcək, işğal olunmuş torpaqlardan erməni silahlı qüvvələri çıxarılacaq və bir milyondan artıq Azərbaycan vətəndaşı öz yerlərinə-yurdlarına qayıdacaqdır.

**S u a l :** Digər həmkarlarımla birlikdə mən oktyabrın 11-də Azərbaycanda keçiriləcək prezident seçkilərində Sizə şans və uğurlar arzulayıram. Bu seçkinin Azərbaycanın daha böyük rifahı üçün, arzularının gerçəkləşdirilməsi yolunda daha önəmli xeyirlər gətirəcəyinə ümid bəsləyirik. Sizə yaxşı günlər arzulayırıq.

Sayın Heydər Əliyev, Sizə belə bir sualla müraciət etmək istəyirəm. Oktyabrın 11-də, bazar günü dörd milyon Azərbaycan seçicisi sandıq başına gedəcəkdir. Sandıqdan kim çıxacaqdır? Buna nə ümid bəsləyirsiniz?

**C a v a b :** Mən hesab edirəm ki, sandıqdan Heydər Əliyev çıxmalıdır. Təşəkkür edirəm.

***

Sonra Prezident Heydər Əliyev «Nərgiz TV»nin yaradıcı qrupunun üzvləri ilə görüşüb səmimi söhbət etdi, onlara xoş arzularını çatdırdı.

Dövlətimizin başçısı Heydər Əliyev və «Nərgiz TV»nin rəhbər işçiləri görkəmli ictimai-siyasi xadim Nəriman Nərimanovun heykəlini ziyarət etdilər. Abidənin ətrafına toplaşanlar Azərbaycan rəhbərini alqışlarla salamladılar.

Prezident Heydər Əliyev hörmətli qonaqlara heykəl barədə danışaraq dedi: 1972-ci ildə abidənin açılışı zamanı bura insanlarla dolu idi. O vaxtlar böyük işlər görmüşük. Bizim Cəlal Qaryağdı adlı böyük bir heykəltəraşımız var idi, abidəni o yaradıbdır. Bu heykəl çəkisinə görə dünyada ən ağır abidədir. O vaxtlar bu binalar yox idi. Bu binalar sonralar tikilibdir. Ümumiyyətlə, insan gərək dünyada ailəsi, dostları, şəhəri, məmləkəti üçün nə etdiyini fikirləşsin.



## NATO-nun BAŞ KATİBİ HAVYER SOLANA İLƏ BİRGƏ MƏTBUAT KONFRANSI

*Bakı, Prezident Sarayı*
*30 sentyabr 1998-ci il*

**Prezident Sarayında Azərbaycan Respublikasının və NATO-nun nümayəndə heyətləri arasında danışıqlar başa çatdıqdan sonra Azərbaycan Prezidenti Heydər Əliyev və NATO-nun Baş katibi Havyer Solana yerli və xarici kütləvi informasiya vasitələrinin nümayəndələri üçün birgə mətubat konfransı keçirmişlər.**

**Prezident Heydər Əliyev və NATO-nun Baş katibi Havyer Solana jurnalistlər qarşısında qısa bəyanatlarla çıxış etmişlər.**

### AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEVİN BƏYANATI

– Hörmətli mətbuat nümayəndələri!

Siz bizim danışıqlarımızda iştirak etmisiniz və bəlkə də buna görə heç əlavə görüş keçirməyə ehtiyac yox idi. Ancaq bu, əvvəldən planda olduğuna görə biz hesab etdik ki, sizinlə görüşməyə gəlmək lazımdır.

Siz eşitdiyinizdən əlavə onu deyə bilərəm ki, NATO-nun Baş katibi cənab Havyer Solana ilə bizim danışığımız çox qarşılıqlı anlaşma, mehribanlıq şəraitində keçibdir və Azərbaycan ilə NATO arasında «Sülh naminə tərəfdaşlıq» proqramı çərçivəsində əməkdaşlığımızı müsbət qiymətləndirmişik. Bundan sonra da bu əməkdaşlığı davam etdirmək əzmində olduğumuzu bildirmişik.

Bizim bugünkü görüşümüz çox əhəmiyyətli olubdur. Bu görüşdən əvvəl bizim qonağımız cənab Havyer Solana Azərbaycanın baş naziri, müdafiə naziri ilə görüşübdür və çox səmərəli danışıqlar aparılıbdır. Hesab edirəm ki, biz beləliklə əlaqələrimizi, əməkdaşlığımızı sürətləndiririk.

Azərbaycan hökuməti bu əməkdaşlığı qiymətləndirir və çox əhəmiyyətli hesab edir. Bugünkü görüşlərimiz, danışıqlarımız bu əməkdaşlığın sürətləndirilməsi üçün yaxşı əsas yaradıbdır.

İndi isə mən sözü cənab Baş katibə verirəm.

* * *

## NATO-nun BAŞ KATİBİ HAVYER SOLANANIN BƏYANATI

– Çox sağ olun, cənab Prezident.

Çox güman ki, Sizin dediklərinizə mənim əlavə etməyə sözüm yoxdur. Sadəcə olaraq demək istəyirəm ki, Sizdə yenidən qonaq olmağıma görə və nəinki Prezidentlə, həm də baş nazirlə, habelə müdafiə naziri ilə görüşmək, il yarım bundan əvvəl Sizdə axırıncı dəfə olduğum vaxtdan bəri istər «Sülh naminə tərəfdaşlıq» proqramının xətti ilə, istərsə də Avratlantika tərəfdaşlığı şürasının xətti ilə birlikdə nə qədər iş gördüyümüzü qiymətləndirmək imkanı olduğuna görə çox şadam.

Bu dövrdə həqiqətən çox iş görülmüşdür. Lakin iki məqamı ayrıca vurğulamaq istərdim. Azərbaycan qoşunlarının təlimlərdə iştirakına görə Sizə, sizin hökumətinizə və xalqınıza xüsusilə təşəkkür etmək istərdim. Məsələn, Makedoniya ərazisində çox mühüm təlimlər keçirildi və bu təlimlərdə Azərbaycan da iştirak etdi. Tərəfdaş ölkələrin və Alyans ölkələrinin geniş iştirakı ilə Orta Asiyada da belə oldu. Azərbaycan orada da iştirak etdi.

Həqiqətən çox rəmzidir ki, biz regionda sabitliyin, təhlükəsizliyin və sülhün təminatçısı kimi birlikdə işləyirik. Sizə demək istəyirəm ki, biz bu istiqamətdə sonrakı illərdə də işləməyi davam etdirəcəyik.

Qonaqpərvərliyə görə cənab Prezidentə də, sizin hökumətinizə də təşəkkür etmək istəyirəm. Çox sağ olun.



## PREZİDENT SEÇKİLƏRİ BARƏDƏ YERLİ VƏ XARİCİ JURNALİSTLƏR ÜÇÜN MƏTBUAT KONFRANSI

*Bakı, Prezident Sarayı*
*13 oktyabr 1998-ci il*

**Beynəlxalq müşahidəçilərin iştirakı ilə keçirilən mətbuat konfransının əvvəlində dövlətimizin başçısı qısa bəyanatla çıxış etdi.**

## AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEVİN BƏYANATI

– Hörmətli jurnalistlər, mətbuat nümayəndələri!

Mən sizi salamlayıram. Azərbaycana xoş gəlmisiniz! Sizin Azərbaycanın həyatına və xüsusən Azərbaycanda keçirilən prezident seçkilərinə göstərdiyiniz marağa görə təşəkkür edirəm.

Biz son günlər hiss etdik ki, Azərbaycanda oktyabr ayının 11-də keçirilmiş prezident seçkiləri demək olar ki, dünyanın çox ölkələrinin marağını və diqqətini cəlb edibdir. Təsadüfi deyil ki, bura, Azərbaycana çoxsaylı müşahidəçilər gəlibdir və eyni zamanda mətbuat, informasiya orqanlarının, təşkilatlarının nümayəndələri – jurnalistlər gəliblər. Biz bunu müsbət hal hesab edirik.

Siz bu gün Azərbaycandasınız, bizim ölkəmizlə tanış olursunuz və ölkəmizin bugünkü həyatını görürsünüz. Onu da görürsünüz ki, həqiqətən indi Azərbaycan müstəqil dövlətdir və insanlar müstəqil, azad ölkədə yaşayırlar. Burada ölkəmizin, insanların nailiyyətləri də vardır, bir çox problemləri də vardır. Ancaq ən əsas amil ondan ibarətdir ki, Azərbaycan müstəqil dövlətdir və müstəqilliyini son illərdə yaşadıb, möhkəmlədib və inkişaf etdiribdir.

Müstəqil ölkə, dövlət kimi biz öz həyatımızı qururuq və dövlət quruculuğu prosesində əsas mərhələlərdən biri də, şübhəsiz ki, hakimiyyət orqanlarının seçilməsidir, o cümlədən prezidentin seçilməsidir. Biz hüquqi, demokratik, dünyəvi dövlət quruculuğu prosesi apararaq, şübhəsiz ki, bütün bu prinsiplərin Azərbaycanda tətbiq olunmasına çalışırıq. Biz demokratiya yolu tutmuşuq və Azərbaycanda demokratiyanı yaradıb inkişaf etdirməyə çalışırıq.

Şübhəsiz ki, bizim ölkəmiz müstəqil ölkə, dövlət kimi gənc olduğuna görə Azərbaycanda demokratiya gəncdir. Ancaq burada əsas məsələ ondan ibarətdir ki, biz bu yol ilə gedirik. Bir tərəfdən demokratiyanı öyrənirik, ikinci tərəfdən də demokratik prinsiplər əsasında yaşayıb, fəaliyyət göstərmək istəyirik. Biz bu münasibətlə Azərbaycanda növbəti prezident seçkilərini, Azərbaycanın bir müstəqil dövlət kimi ilk Konstitusiyası əsasında keçirilən birinci prezident seçkilərini demokratik prinsiplər əsasında keçirməyə çalışmışıq.

Hər halda, seçkilərin demokratik, azad, sərbəst, ədalətli keçirilməsi üçün seçkiqabağı dövrdə, mən hesab edirəm ki, biz çox iş görmüşük və seçkilərin məhz bu şəraitdə keçirilməsi üçün əsas yaratmışıq. Artıq indi seçkilər keçirilibdir. Onların nəticələri müəyyən olunur, ilkin nəticə məlumdur. Hesab edirəm ki, Azərbaycanda oktyabr ayının 11-də keçirilmiş prezident seçkiləri bir müstəqil dövlət kimi, Azərbaycanın inkişafında mühüm bir mərhələdir və Azərbaycanda demokratiyanın inkişafında da çox böyük bir mərhələdir.

Seçkilər keçirilibdir, prezident seçilibdir. Güman edirəm ki, Mərkəzi Seçki Komissiyası bu günlərdə seçkilərin nəticəsini elan edəcəkdir və beləliklə Azərbaycan öz həyatının, öz inkişafının yeni mərhələsinə başlayır. Mən çox məmnunam ki, siz bunların hamısını özünüz müşahidə etmisiniz. Güman edirəm ki, bizim həyatımızın müsbət tərəflərini də görmüsünüz və şübhəsiz ki, nöqsanları da görmüsünüz.

Mən bir daha sizə təşəkkür edirəm. Mənə bir sözünüz, sualınız varsa, sizi dinləməyə hazıram.

* * *

**Sonra Azərbaycan Prezidenti Heydər Əliyev jurnalistlərin suallarına cavab verdi.**

**S u a l** *(«Səs qəzeti»)* : Cənab Prezident, bu seçkilər göstərdi ki, Azərbaycanda demokratiyadan daha çox danışanlar qeyri-demokratik yollarla hakimiyyətə can atdılar. Bunu seçkiyə qatılan müxalifətçilər haqqında da, qatılmayanlar haqqında da söyləmək olar. Hamı gördü ki, Azərbaycanda demokratiyanı, demokratik seçkini Siz və Sizin komandanız keçirdi. Qarşıdan gələn beş ildə həmin bu müxalifətə nə arzu edərdiniz?

**C a v a b** : Bilirsiniz, mən bu beş il müddətində həmişə arzu etmişəm ki, Azərbaycanda insanların hamısı demokratiya yolu ilə getsin. Ötən beş ildə mən çalışmışam ki, Azərbaycanda demokratik proses inkişaf etsin və hər kəs demokratiyaya alışsın. Şübhəsiz ki, demokratiya olan yerdə iqtidar-müxalifət vardır. Mən hesab edirəm ki, bir gənc müstəqil, demokratik dövlət kimi, bizdə həm iqtidar, həm də müxalifət demokratiya prinsiplərinə riayət etməlidir. Hamı ölkənin Konstitusiyasına, ölkənin qanunlarına riayət etməlidir.



Mən arzu edərdim ki, bu seçkilərdən o radikal müxalifətdə duran və seçkiyə qatılmayanlar özləri üçün nəticə çıxarsınlar, Azərbaycanda yaranmış demokratik mühitdən, şəraitdən hər birisi qanunlar çərçivəsində istifadə edib, Azərbaycanın ictimai-siyasi həyatında sivil formada, mədəni formada iştirak etsinlər. Onlara da və seçkilərdə iştirak etmiş, müxalifət mövqeyində duran namizədlərə və namizədlərin mənsub olduğu təşkilatlara da tövsiyə edərdim ki, gələn seçkilərə hazırlaşsınlar. Qanun çərçivəsində özlərini də hazırlasınlar, öz təşkilatlarını da hazırlasınlar.

Mən bu fürsətdən istifadə edib onu bəyan etmək istəyirəm ki, Azərbaycanın üzləşdiyi böyük problemlər ilə əlaqədar – həm Azərbaycanın daxilində olan problemləri, həm də Azərbaycanın Ermənistan ilə münaqişəsini və Azərbaycan torpaqlarının 20 faizinin işğal olunmasını, işğal edilmiş torpaqlardan bir milyondan artıq azərbaycanlıların yerindən-yurdundan çıxarılmasını, onların çadırlarda ağır vəziyyətdə yaşamasını nəzərə alaraq mən bu gün Azərbaycanda olan hər bir siyasi partiyaya, hər bir təşkilata, hər bir vətəndaşa bir daha müraciət edirəm ki, bizim ölkəmizdə milli birliyin, milli həmrəyliyin yaranmasına çalışaq.

Bizim, Azərbaycanın müstəqil dövləti qarşısında çox böyük, çətin problemlər durur. Azərbaycan öz dövlət müstəqilliyini möhkəmləndirməli, inkişaf etdirməli və onu daimi etməlidir. Azərbaycanda hüquqi, demokratik, dünyəvi dövlət quruculuğu prosesi davam etməlidir və inkişaf etməlidir. Azərbaycanda iqtisadi islahatlar həyata keçirilməlidir. Azərbaycanda demokratik cəmiyyət yaradılması prosesi davam etməlidir və bizim üçün ən əsas problem olan Ermənistan-Azərbaycan münaqişəsinə son qoyulmalıdır. Ermənistanın silahlı qüvvələri tərəfindən işğal olunmuş Azərbaycan torpaqları azad edilməlidir. Yerindən-yurdundan didərgin düşmüş Azərbaycan vətəndaşları öz evinə-obasına qayıtmalıdır. Azərbaycanın ərazi bütövlüyü bərpa olunmalıdır. Ermənistanla Azərbaycan arasında sülh yaranmalıdır. Ümumiyyətlə, biz bölgəmizdə sülhün, əmin-amanlığın yaranması üçün çalışırıq.

Bütün bu ali məqsədlərə nail olmaq üçün Azərbaycanda milli birlik, milli həmrəylik, vətəndaş həmrəyliyi lazımdır. Hər bir vətəndaş, hər bir siyasi-ictimai təşkilat, hər bir siyasi partiya bu ali məqsədlərin həyata keçirilməsi üçün öz səylərini göstərməlidir və əməkdaşlıq etməlidir. Ona görə də mən bütün qüvvələri, xüsusən müxalifət düşərgəsində olan qüvvələri bir daha milli həmrəyliyə dəvət edirəm. Onlar bəzən dialoq bəyan edirlər. Mən onları dialoqa da dəvət edirəm. Müstəqil Azərbaycanın bu günü və gələcəyi naminə Azərbaycanın Konstitusiyası, qanunları çərçivəsində bütün işlərin sivil normada, sivil şəraitdə həyata keçirilməsinə dəvət edirəm. Mən sizin sualınızdan istifadə edib, özümün bir neçə fikrimi də bildirdim.

**S u a l** *(«Naxçıvan» qəzeti)* : Cənab Prezident, biz Sizi prezident seçkilərinin demokratik və müvəffəqiyyətlə keçirilməsi münasibətilə təbrik edirik.

Sizə belə bir sualım vardır. Biz jurnalistlər prezident seçkiləri günü onlarca seçki məntəqələrində olduq. Yəqin ki, hamımız seçkilərin demokratik, tam azad şəraitdə keçdiyinin şahidiyik. Bundan əlavə, partiya rəhbərləri ilə, eləcə də beynəlxalq müşahidəçilərlə söhbətlərdə bu fakt bir daha vurğulandı və təsdiqləndi. Lakin bununla bərabər, müxalifət mətbuatı və onların təsiri altında olan bəzi beynəlxalq müşahidəçilər, seçkilərin guya qeyri-demokratikliyi barədə fikir yayırlar. Sizin buna münasibətiniz necədir?

Bir də bizim üçün bilmək maraqlı olardı ki, beynəlxalq müşahidəçilərin seçkilər barədə bu və ya digər fikirləri, yəni müsbət və mənfi fikirləri Azərbaycanın Avropa Şurasına üzv qəbul olunmasına nə dərəcədə təsir göstərə bilər?

**C a v a b** : Mən hesab edirəm ki, Azərbaycanda oktyabr ayının 11-də prezident seçkiləri mütəşəkkil keçirilibdir, seçicilərin yüksək fəallığı şəraitində keçibdir və demokratik şəraitdə, demokratik prinsiplər əsasında keçirilibdir. Azərbaycanda indiyə qədər keçirilmiş bütün seçkilərlə müqayisə ediləndə bu seçkilər onlardan çox yüksək səviyyədədir, çox fərqlənir və məhz özünün demokratikliyi, mütəşəkkilliyi, sərbəstliyi, azadlığı ilə fərqlənir.

Mən əvvəldə dedim – Azərbaycanda demokratiya gəncdir. Əgər Azərbaycanın seçiciləri oktyabrın 11-də böyük fəallıqla seçki məntəqələrinə gəlib öz səslərini veriblərsə, bu artıq göz qabağındadır. Bu özü-özlüyündə artıq böyük nailiyyətdir.



Müxalifətin bu barədə fikirlərinə gəldikdə, şübhəsiz, təəssüflər olsun ki, müxalifət qüvvələri çox vaxt müxalifət olduqlarına görə yox, qərəzli mövqe tutduqlarına görə bu məsələlərə obyektiv, ədalətli qiymət vermirlər.

Xarici müşahidəçilərin fikirlərinə gəldikdə isə, şübhəsiz, bunlar bizim üçün çox əhəmiyyətlidir. Xarici ölkələrdən çox sayda – yüzlərlə müşahidəçinin Azərbaycanda olması özü-özlüyündə çox əlamətdar hadisədir. Mən ümid edirəm ki, onlar ədalətli, obyektiv olacaqlar. Əgər kimsə belə mövqedə, yəni ədalətli olmasa, – nə deyə bilərik – buna ancaq təəssüf etmək olar.

Biz Azərbaycanın Avropa Şurasına daxil olması üçün son illərdə çox iş görmüşük. Avropa Şurasının nümayəndələri dəfələrlə Azərbaycanda olublar və gördüyümüz işləri yüksək qiymətləndiriblər. Prezident seçkilərinin demokratik keçirilməsi ilə əlaqədar da biz Avropa Şurasına daxil olmaq üçün yeni tutarlı bir addım atmışıq. Ümid edirəm ki, Azərbaycan Avropa Şurasına daxil olacaqdır. Avropa Şurasının üzvü olmaq vacibdir, çünki Azərbaycan Avropanın ən Şərqində, sərhədində, çox mühüm bir bölgədə yerləşən və xüsusi əhəmiyyətə malik olan bir ölkədir.

Bizim gördüyümüz işlər məlumdur. Bütün dünyanın Şərqində, müsəlman dövlətləri içərisində Azərbaycan ölüm hökmünü ləğv edən yeganə ölkədir. Bunun özü demokratiyaya, humanizmə, insan haqlarına Azərbaycanın nə qədər hörmət etdiyini və sədaqətli olduğunu göstərir. Güman edirəm ki, Avropa Şurası bunların hamısını nəzərə alacaqdır.

**S u a l** : Cənab Prezident, mən Türkiyənin «Sabah» qəzetindənəm. Biz seçkiləri izlədik. Seçkilərin nəticəsi hələ tam məlum deyildir. Sizə gələn məlumatlara əsasən nə qədər səs aldığınızı deyə bilərsinizmi?

**C a v a b** : Aldığım məlumatlara görə mən 75 faiz səs almışam.

**S u a l** : Cənab Prezident, mən də Türkiyədənəm. Siz xalqınızı milli birliyə və vətəndaş həmrəyliyinə çağırırsınız. Siz yenidən Prezident seçildiyinizə görə Azərbaycanı bütün müxalifət qüvvələri ilə birlikdə daha da inkişaf etdirmək istəyirsiniz?

**C a v a b** : Bilirsiniz ki, Azərbaycan öz dövlət müstəqilliyini əldə edəndən sonra ağır və çətin bir yol keçmişdir. Məlumdur ki, keçmiş illərdə də ölkəmizin daxilində Azərbaycanın müstəqilliyini dağıda, poza bilən hadisələr olmuşdur, dövlət çevrilişinə cəhdlər edilmişdir. Biz

bunların hamısının qarşısını ala bilmişik. Ancaq bunların hamısı xalqımıza çox zərər veribdir, daha doğrusu, necə deyərlər, baha başa gəlibdir. Ona görə də bizə milli birlik daim – bu gün də, gələcəkdə də lazımdır.

Bilirsiniz ki, radikal müxalifət düşərgəsində olan qüvvələr Azərbaycanda prezident seçkilərində iştirak etmədilər. Onlar cürbəcür iddialar irəli sürürdülər və öz qəzetlərində bəzən hakimiyyəti zorla ələ keçirmək fikirlərini bəyan edirdilər. Mən beləlməni qanunsuz hərəkətlərdən çəkindirmək istəyirəm. Eyni zamanda, milli birlik deyərkən bütün müxalifət qüvvələrinə, radikal müxalifət düşərgəsində olanlara da məsələlərin hamısının danışıq, dialoq vasitəsilə həll edilməsini məsləhət görürəm.

**S u a l** *(Türkiyənin «Nərgiz TV» kanalı)* **:** Cənab Prezident, Azərbaycanda keçirilmiş prezident seçkiləri Türkiyədə böyük diqqətlə izlənilmişdir. Amerikanın «Nyu-York Tayms» qəzeti Xəzərin Azərbaycan sektorundan hasil olunan nefti dünya bazarına çıxaracaq əsas boru kəmərini – Bakı-Ceyhan xəttinin guya çox baha başa gələcəyi haqqında məqalə dərc etmişdir. Bu da Türkiyədə müəyyən narahatlıq doğurmuşdur. Türkiyənin prezidenti Süleyman Dəmirəl bu barədə öz fikirlərini bildirmişdir. Sizcə, Bakı-Ceyhan boru xəttinin çəkilməsi barədə oktyabr ayının sonunadək qəti qərar qəbul ediləcəkmi?

**C a v a b :** Mətbuat azaddır, qəzetlər istədiklərini yazırlar. Ona görə də hər bir qəzetdə, o cümlədən «Nyu-York Tayms»da dərc olunan bir yazı heç də hansısa bir dövlətin fikrini ifadə etmir. Azərbaycanda prezident seçkilərindən bir gün əvvəl «Nyu-York Tayms» qəzetində verilmiş bu yazı bəlkə də təsadüf, yaxud da qəsdən yazılıbdır. Mən bu barədə bir şey deyə bilmərəm.

Ancaq mən onu bir daha bildirmək istəyirəm ki, Xəzərin Azərbaycan sektorundakı yataqlardan hasil ediləcək neftin dünya bazarlarına çıxarılması üçün Bakı-Ceyhan boru xəttinin çəkilməsi haqqında Azərbaycan dövləti və bir prezident kimi mən öz fikrimizi dəfələrlə bildirmişik. Mənim bu fikrim, qərarım dəyişilməyibdir. Mən bunu bu gün bir daha bəyan edirəm. İnanmıram ki, Amerika Birləşmiş Ştatlarının hökuməti Bakı-Ceyhan boru xəttinin çəkilməsinə dair əvvəl aparılmış danışıqlar barədə öz fikrindən geri çəkilsin.

Bilirsiniz ki, dünyada Bakı-Ceyhan xəttinin əleyhinə olan ölkələr, qüvvələr də çoxdur. Bəzi neft şirkətləri də bu məsələnin həll olunmasında iqtisadi maraqları başqa maraqlardan daha üstün tuturlar. Ona görə də, ola bilər, ayrı-ayrı şirkətlər bu barədə müxtəlif fikirlər söyləsinlər. Ancaq mən hesab edirəm ki, bizim əvvəl apardığımız danışıqlar və birgə qəbul etdiyimiz qərar dəyişilməyəcəkdir. Mən ümid edirəm ki, biz oktyabr ayının sonunadək bu məsələnin həllinə nail olacağıq.



**S u a l** *(Yaponiyanın «NHK» teleşirkəti)* **:** Cənab Prezident, mən öz sualımda iki məqama toxunmaq istəyirəm. Birinci sualım diplomatiya ilə əlaqədardır. Məlumdur ki, dünyanın bir çox ölkələri, o cümlədən Yaponiya, Azərbaycanın strateji cəhətdən əhəmiyyətinə böyük maraq göstərir. Bizim hətta xüsusi Qafqaz diplomatiyamız da vardır. Cənab Prezident, Siz dünya ölkələri ilə əlaqələri necə inkişaf etdirmək fikrindəsiniz?

İkinci sualım isə belədir: Siz Azərbaycanın iqtisadiyyatını XXI əsrdə necə inkişaf etdirməyi planlaşdırırsınız? Mən Azərbaycanın xarici investisiya vasitəsilə inkişafını nəzərdə tuturam.

**C a v a b :** Yaponiya ilə Azərbaycan arasında son illərdə çox yaxşı əlaqələr yaranıbdır. Biz iqtisadi sahədə əməkdaşlıq edirik.

Mən 1998-ci ilin fevralında Yaponiyanın baş naziri cənab Haşimotonun dəvəti ilə Yaponiyada rəsmi səfərdə oldum. Biz hökumətlərarası bir neçə vacib müqavilələr imzaladıq. Mən Yaponiyanın işgüzar dairələrinin, şirkətlərinin nümayəndələri, rəhbərləri ilə çoxsaylı görüşlər keçirdim. Yaponiyanın böyük şirkətlərinin, işgüzar dairələrinin Azərbaycana həddindən artıq böyük marağı olduğunu hiss etdim.

Yaponiyanın şirkətləri Xəzərin Azərbaycan sektorundakı neft və qaz yataqlarının müştərək işlənilməsinə çox böyük maraq göstərirlər. Bilirsiniz ki, Yaponiyanın «İtoçu» şirkəti Azərbaycan Dövlət Neft Şirkəti ilə bir sıra xarici şirkətlər arasında imzalanmış iki müqavilənin iştirakçısıdır. Mən Tokioda olarkən biz üçüncü müqaviləni də imzaladıq, bu ölkənin «Mitsui» şirkəti yeni bir müqavilədə özünəməxsus pay aldı. Bir qrup şirkətlər konsorsium yaradıblar, Xəzər dənizindəki digər neft yataqlarının birgə işlənilməsi üçün bizimlə əməkdaşlıq etmək istəyirlər. Biz hazırda onların təkliflərinə baxırıq.

Bilirsiniz ki, Azərbaycan böyük neft-kimya sənayesinə malikdir. Yaponiyanın «Niçimen» şirkəti bu sahədə bizimlə çox sıx əməkdaşlıq edir. Sumqayıtda etilen istehsalının yenidən qurulması və yaradılması üçün «Niçimen» şirkəti ilə Azərbaycanın «Azərikimya» Dövlət Şirkəti arasında müqavilə imzalanıbdır. Bu məsələ ilə əlaqədar Yaponiya

Azərbaycana 90 milyon ABŞ dolları məbləğində kredit ayırıbdır. Yaponiya hökuməti Azərbaycanda «Şimal» elektrik stansiyasının yenidən tikilməsi üçün Azərbaycana 160 milyon ABŞ dolları məbləğində güzəştli kredit ayırıbdır. Bu elektrik stansiyasının tikilməsi ilə «Mitsui» şirkəti məşğul olacaqdır. Ümumiyyətlə, qısa bir zamanda Yaponiya ilə Azərbaycan arasında çox yaxşı iqtisadi əməkdaşlıq yaranıbdır. Biz bundan çox məmnunuq və bu əməkdaşlığı davam etdirəcəyik. Hesab edirəm ki, bunun çox gözəl gələcəyi vardır.

Sizin ikinci sualınıza cavab verərək deyirəm ki, mən XXI əsrdə Azərbaycanın çox yaxşı gələcəyini gözləyirəm. Mən onu da nəzərə alıram ki, Azərbaycan bir müstəqil dövlət kimi inkişaf edəcəkdir. Azərbaycanda həyata keçirilən iqtisadi islahatlar öz nəticəsini verəcəkdir. Xaricdən Azərbaycana investisiya axını davam edəcəkdir. Bunların hamısının nəticəsində Azərbaycanın gəlirləri xeyli artacaq, iqtisadiyyatı inkişaf edəcək və insanların rifah halı yaxşılaşacaqdır.

**S u a l** *(«Yeni Azərbaycan» qəzeti)* : Cənab Prezident, Siz prezidentliyə namizədlərin hamısının qibtə edəcəyi və hamıya örnək ola biləcək bir seçki kampaniyası keçirdiniz. Bu kampaniyanın ən yadda qalan hadisələrindən biri də Sizin qaçqınlarla görüşlərinz oldu. Qaçqınlarla Bərdədə keçirdiyiniz görüş zamanı Siz onların vəziyyətinin yaxşılaşdırılması üçün görüləcək əlavə tədbirlərdən danışdınız. Deyə bilərsinizmi, bu tədbirlər nədən ibarət olacaqdır?

**C a v a b** : Bilirsiniz ki, mən seçkiqabağı ərəfədə iki həftə, 15 gün ərzində demək olar, hər gün Azərbaycanın müxtəlif bölgələrində seçicilərlə görüşmüşəm. Bu görüşlərin hamısı mənim üçün çox əhəmiyyətli, qiymətli idi. Mənim üçün ən əhəmiyyətli, ən qiymətli görüşlər işğal olunmuş torpaqlardan zorla qovulmuş, çıxarılmış insanlarla çadır düşərgələrində, onların yaşadıqları yerlərdə keçirdiyim görüşlərdir. Mən Azərbaycandakı çadır düşərgələrinin demək olar ki, əsas hissəsini ziyarət etdim, qaçqınlarla, köçkünlərlə görüşüb onlarla danışıq apardım.

Mən bilirdim, ancaq onların vəziyyətini görəndən sonra bir daha belə fikrə gəldim ki, biz qaçqınların vəziyyətini yaxşılaşdırmaq üçün ciddi əlavə tədbirlər görməliyik. Şübhəsiz, bizim əsas vəzifəmiz və məqsədimiz işğal olunmuş torpaqları azad etmək, qaçqınları öz evlərinə, doğma torpaqlarına qaytarmaqdır. Biz o vaxta qədər onların yaşayış şəraitini, maddi vəziyyətini xeyli yaxşılaşdırmalıyıq. Tədbirlər geniş və



müxtəlif olacaqdır. Güman edirəm ki, bunların hamısını burada demək, vaxt aparardı. Ancaq mən bunu qəti bəyan etmişəm və bu gün bir daha təsdiq edirəm ki, biz bu tədbirləri həyata keçirəcəyik və onların vəziyyətinin yaxşılaşdırılmasına nail olacağıq.

**S u a l** *(Frans-Press agentliyi)*: Cənab Prezident, Siz beynəlxalq müşahidəçilərin verdikləri qiymətin ədalətli və obyektiv olmasını istəyirsinizmi?

Mən istərdim biləm – Sizin məhz ATƏT-in, Avropa Şurasının və Beynəlxalq Respublika İnstitutunun müşahidəçilərinin verdikləri qiymətə münasibətiniz necədir? Siz onları dəvət etmisiniz və onlar beynəlxalq müşahidəçilərin əksəriyyətini təşkil edirlər. Onlar bildirirlər ki, bir çox hallarda, xüsusən İcra hakimiyyəti orqanları tərəfindən kobud pozuntulara yol verilmişdir. Sizcə, bu, seçkilərin nəticələrinə necə təsir göstərəcəkdir?

**C a v a b** : Bilirsiniz, seçkilərin ədalətli, demokratik prinsiplər əsasında keçməsi, heç bir pozuntunun olmaması üçün hər şey etmişik. Əgər kimsə, haradasa, hansısa pozuntuya yol veribsə, bu, seçkilərə qiymət verməyə əsas deyildir. Azərbaycanda 4400 seçki məntəqəsi var. Azərbaycan bu səviyyədə seçkiləri, demək olar, birinci dəfədir keçirir. Hesab edirəm ki, seçkilərin özünün baş tutması Azərbaycanda demokratiyanın böyük müvəffəqiyyətidir.

Sizin dediyiniz müxtəlif müşahidəçilərin rəyinə gəldikdə isə, əlbəttə, hər kəs öz fikrini düşündüyü kimi deyə bilər. Mən hesab edirəm ki, onlar daha obyektiv qiymət verə bilərdilər. O ki qaldı seçkilərin nəticələrinə, bunu Mərkəzi Seçki Komissiyası elan edir. Yəni bu, nə məndən, nə də müşahidəçilərdən asılı deyildir. Bunu Mərkəzi Seçki Komissiyası müəyyən edir. O, xüsusi olaraq seçkilərin keçirilməsi və onun nəticələrinin müəyyən edilməsi üçün yaradılmışdır.

**S u a l** *(Türkiyənin «Kanal-6» televiziya kanalı)* : Cənab Prezident, Milli İstiqlal Partiyasının lideri Etibar Məmmədov bugünkü mətbuat konfransında Sizin bütün səslərin üçdə ikisini aldığınızın elan olunacağı və Sizin cümhur başqanı elan ediləcəyiniz təqdirdə Konstitusiya Məhkəməsinə müraciət edəcəyini və burada onun müraciətinə baxılmazsa, Sizin prezidentliyinizi tanımayacağını söylədi. Bu barədə nə deyə bilərsiniz?

Oktyabrın 29-da Türkiyə Cümhuriyyətinin yaranmasının 75 illiyində Azərbaycanın Bakı-Ceyhan neft kəməri haqqında sənəd imzalama-

sı söylənilir. Bu barədə oktyabrın sonunda hər hansı bir sənəd imzalancaqmı?

**C a v a b** : Prezidentliyə namizəd Etibar Məmmədovun seçkilərin nəticəsi haqqında dediyi sözlər onun öz fikridir. O, prezidentliyə namizəd kimi istədiyi sözü deyə bilər və istədiyi hərəkəti də edə bilər. Ancaq hansısa bir dövlət orqanını, hansısa bir kəsi öz iradəsinə tabe edə bilməz.

Siz deyirsiniz , o bəyan edib ki, Heydər Əliyevin prezidentliyini tanımayacaq – bu da onun öz işidir. Əgər Azərbaycanın seçiciləri səs çoxluğu ilə Heydər Əliyevi prezident seçiblərsə və Mərkəzi Seçki Komissiyası belə bir nəticəyə gəlmiş olsa, onda Etibar Məmmədovun fikri o seçicilərin ümumi fikrinin yanında heç bir şeydir.

Mən artıq Bakı-Ceyhan boru xətti haqqında dedim. Bilirəm ki, oktyabr ayının sonunda Türkiyə Cümhuriyyətinin yaranmasının 75 illik yubileyi olacaqdır. Mən çox arzu edərdim ki, o vaxta qədər Bakı-Ceyhan boru xətti haqqında qərar qəbul edilsin.

**S u a l** *(«525-ci qəzet»)* : Cənab Prezident, Siz bir az bundan əvvəlki çıxışınızda həmrəylik məqsədi ilə müxalifəti dialoqa çağırdınız. Ancaq məlum olduğu kimi, müxalifətin tələblərindən biri də siyasi məhbusların azadlığa buraxılması ilə bağlıdır. Hakimiyyətinizin yeni mərhələsində bu məsələyə baxılması nə dərəcədə realdır?

**C a v a b** : Sualınıza cavab verərək bəyan edirəm ki, Azərbaycanda siyasi məhbus yoxdur. Cinayət etmiş adamlar məhkəmə ilə cəza alırlar və məhkəmənin qərarını da məhkəmə özü dəyişə bilər. Mən isə son iki ildə çox humanist addımlar atmışam.

Birincisi, – dedim, yenə təkrar edirəm – ölüm hökmünü Azərbaycanda ləğv etmişəm. Son iki ildə iki minə qədər cəza çəkən insanı cəzadan azad etmişəm, yəni bir Prezident kimi, öz fərmanlarımla əfv etmişəm. Cəzaya məhkum olunmuş 40 minə qədər Azərbaycan vətəndaşları mənim təşəbbüsümlə qəbul edilmiş amnistiya vasitəsilə cəzadan azad olunublar. Mən bundan sonra da bu humanistlik fəaliyyətimi davam etdirəcəyəm. Düşünürəm ki, bu yaxın zamanlarda yenidən amnistiya keçirilməsi haqqında təşəbbüs edəcəyəm. Əgər o müxalifətin dediyi adamlar bu amnistiyaya düşərlərsə, şübhəsiz ki, azad olunacaqlar. Ancaq yenə də deyirəm, Azərbaycanda siyasi məhbus yoxdur.

**S u a l** *(«Azadlıq» radiostansiyası, «Literaturnaya qazeta», «Obşaya qazeta»)* : Seçkilərin nəticələri elan edildikdən sonra və Siz ikinci



müddətə Prezident seçildiyiniz təqdirdə İcra hakimiyyətinin yeni strukturunu və yeni Nazirlər Kabinetini formalaşdırmaq niyyətiniz varmı, yoxsa köhnə komanda ilə işləməyi lazım biləcəksiniz?

İkinci sual. Əgər yeni Nazirlər Kabineti formalaşdırılacaqsa, seçkilərdə Sizdən sonra daha çox səs toplamış namizədlərə bu işdə əməkdaşlıq təklif edəcəksinizmi?

**C a v a b** : Siz mənim fəaliyyətimi bir çox illərdir ki, izləyirsiniz və yəqin hiss edirsiniz ki, mən hökuməti, İcra hakimiyyəti orqanlarını silkələməyin və kadrları tez-tez dəyişməyin tərəfdarı deyiləm. Çoxillik təcrübəm məni inandırır ki, bəzi liderlərin nümayişkaranə şəkildə gördükləri belə tədbirlər praktiki nəticələr vermir. İcra hakimiyyəti orqanlarının işini daim təkmilləşdirmək lazımdır. İcra hakimiyyəti orqanlarının təkmilləşdirilməsi zərurəti, şübhəsiz ki, ayrı-ayrı kadrların dəyişdirilməsinin mümkünlüyünü də müəyyən edir.

Mənim qarşımda yeni Nazirlər Kabineti formalaşdırmaq məqsədi və vəzifəsi də durmur. Təcrübə toplamış, işləyən, özü də pis işləməyən adamları nə üçün dəyişməliyəm? Təkmilləşdirmə prosesidir, şübhəsiz ki, bu gün öz vəzifəsinin öhdəsindən gələ bilməyənlər dəyişdirilməlidir.

Məndən sonra müəyyən sayda səs toplamış insanlardan istifadə edib-etməyəcəyim barədə sualınıza gəldikdə isə, bilirsiniz, bu səslər hələ həmin adamların hazırda icra orqanlarında hansısa yüksək vəzifələr tutmağa qadir, yararlı olmasını müəyyən etmir.

**S u a l** *(Azərbaycan televiziyası)* : Son günlər kütləvi informasiya vasitələri belə bir məlumat yayır ki, Ermənistan Dağlıq Qarabağın «müstəqilliyinin» tanınması, Ermənistana birləşdirilməsi haqqında iddialardan əl çəkir. Bunu onunla əsaslandırırlar ki, bu, Ermənistanın ziyanınadır, ona görə də Azərbaycanla əməkdaşlığa qoşulmaq istəyirlər. Ermənistanın mövqeyindəki belə kəskin dəyişikliyi necə izah edərdiniz?

**C a v a b** : Bəli, son aylar Ermənistanın liderləri bəyan edirlər ki, onlar Dağlıq Qarabağın «müstəqilliyi» məsələsini də qoymur və Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi tələbini də irəli sürmürlər. Bu barədə Ermənistanın prezidenti və baş naziri mənimlə görüş zamanı bilavasitə mənə də demişdilər. Ancaq onlar mənim sualıma dürüst cavab verə bilmirlər: bəs onda nə istəyirlər? Çünki indiyə qədər onlar deyirdilər ki, «Dağlıq Qarabağ müstəqil olmalıdır». Demək, əgər onlar

artıq Dağlıq Qarabağın «müstəqilliyini» tələb etmirlərsə, ATƏT-in Zirvə görüşündə qəbul olunmuş prinsiplərlə, yəni Azərbaycanın tərkibində Dağlıq Qarabağın özünüidarə statusu alması ilə razılaşmalıdırlar. Şübhəsiz ki, bütün bu sözlər Ermənistan-Azərbaycan münaqişəsinin sülh yolu ilə həlli çərçivəsində gedən danışıqların bir hissəsidir. Ancaq Ermənistan tərəfinin verdiyi bəyantları reallaşdırmaq üçün şübhəsiz ki, konkret tədbirlər görmək lazımdır. Güman edirəm ki, gələcək danışıqlarda bu məsələləri daha da aydınlaşdıracağıq.

**S u a l** *(«Ayna-Zerkalo» qəzeti)* : Cənab Əliyev, ötən prezident seçkiləri ilə müqayisədə Sizin xeyrinizə olan səslərin sayı bir qədər aşağı düşübdür. Sizcə, bu, demokratiyanın təzahürüdür, yoxsa Sizin reytinqinizin aşağı düşməsi ilə bağlıdır?

Bir də, Siz bəyan etdiniz ki, komandanızda dəyişiklik etməyəcəksiniz, çünki komandanız kifayət qədər mütəşəkkildir. Lakin sirr deyil ki, Sizin komandaya daxil olan bəzi şəxslər bir-birini korrupsiyada və digər cinayətlərdə ittiham edirlər. Buna Sizin münasibətiniz necədir?

**C a v a b** : Mən hesab edirəm ki, 1993-cü ildəki prezident seçkilərinin də, indiki – 1998-ci ildəki prezident seçkilərinin nəticəsi də Azərbaycanda demokratiyanın varlığını təsdiq edir. Mənim reytinqimə gəldikdə isə, hesab etmirəm ki, o, aşağı düşübdür və seçkilərin nəticəsini bununla bağlamaq olmaz.

İkinci suala da cavab verirəm. Deyirsiniz ki, guya hakimiyyətdə olan adamların bəziləri bir-birini korrupsiyada günahlandırırlar. Təəssüf ki, bu, Azərbaycanda çox geniş bir dəb olubdur, indi hər bir adam o birisini korrupsiyada günahlandırır. Ən qəribə hal odur ki, özləri uzun müddət korrupsiya ilə, rüşvətxorluqla məşğul olmuş adamlar başqalarını belə günahlarda təqsirləndirirlər. Ancaq Qanun tələb edir ki, hər bir kəsi nədəsə günahlandıran, gərək bunu Qanunla sübut etsin.

Mən inkar eləmirəm, Azərbaycanın bugünkü icra orqanlarında olan insanların içərisində rüşvətxorlar da, korrupsiya ilə məşğul olanlar da var. Mənim qarşımda duran vəzifələrdən biri də ondan ibarət olacaq ki, Azərbaycanda korrupsiya ilə mübarizəni gücləndirəm. Şübhəsiz ki, bu mübarizə korrupsiya ilə məşğul olan adamların aşkara çıxarılmasını və cəzalandırılmasını təmin edə biləcəkdir.

**S u a l** *(Türkiyənin «İhlas» xəbər agentliyi)* : Cənab Prezident, PKK qrupu Ermənistanda öz təmsilçilərini saxlayır. Ermənistan dövləti bu işlərdə onlara yardımçı olur.



**C a v a b** : Mənim buna münasibətim həmişə aydındır. PKK-ya kim havadarlıq edirsə, kim onları gizlədirsə, saxlayırsa, şübhəsiz ki, belələri ilə heç vaxt barışmaq olmaz. Bütün bunlara mənim münasibətim tam mənfidir.

**S u a l** *(Yaponiya televiziyası)* : Mən əvvəl verdiyim, diplomatiya haqqında olan suala qayıtmaq istəyirəm. Siz Amerika Birləşmiş Ştatları və Rusiya ilə əlaqələri necə qurmaq istəyirsiniz? Bir sualım da var. Məlumdur ki, seçki kampaniyası başa çatıb və Siz praktiki olaraq qələbənizi təmin etmisiniz. İndi hansı şəxsi hissləri keçirirsiniz?

**C a v a b** : Amerika Birləşmiş Ştatları ilə Azərbaycan arasında çox sıx əməkdaşlıq, tərəfdaşlıq əlaqələri yaranıbdır və şəxsən mən bundan sonra da bu əlaqələrin dərinləşməsini və inkişaf etməsini arzu edirəm və biz bu istiqamətdə hərəkət edəcəyik. Rusiya ilə Azərbaycan arasındakı əlaqələr də dostluq, əməkdaşlıq xarakteri daşıyır və bundan sonra bu əlaqələri də inkişaf etdirəcək və genişləndirəcəyik.

Ümumiyyətlə, müstəqil dövlət olaraq Azərbaycan, dünyanın bütün ölkələri ilə qarşılıqlı surətdə faydalı əlaqələr qurur, yaradır və inkişaf etdirir, xüsusən iqtisadi əməkdaşlığa çox böyük əhəmiyyət verir.

Seçkilərdən sonra mənim şəxsi hisslərimi yəqin siz özünüz də təsəvvür edə bilərsiniz. Bu seçkilər çox demokratik olduğuna və çox böyük mübarizə tələb etdiyinə görə, şübhəsiz ki, məndən çox böyük enerji tələb etmişdir. Son on-on beş gün içərisində mən Azərbaycanın bütün bölgələrini, çox vaxt da avtomobillə gəzmişəm. Elə olurdu ki, bir gündə altı-yeddi görüş keçirir və bir şəhərdən o birisi şəhərə gedirdim. Hətta gecələr də yatmırdım.

Bunlar öz nəticəsini verdi. Prezident seçkiləri baş tutdu, mən də prezident seçilmişəm. Şübhəsiz ki, indi daha da rahatam. Ancaq mən indi bugünkü, gələcək işlərlə məşğulam. Bir dəqiqə də olsun fasilə vermirəm.

**S u a l** *(«Azad Azərbaycan» radiostansiyası)* : Cənab Prezident, 1993-cü ildə Siz xalqın tələbi ilə hakimiyyətə gələndə müxalifəti hakimiyyətdə təmsil olunmaq üçün dəvət etmişdiniz. Bu seçkilərdə 75 faiz səs toplamaqla hakimiyyətə gəlibsiniz. Prezident seçkilərində iştirak edən namizədləri, sağlam müxalifəti işləməyə dəvət edəcəksinizmi?

**C a v a b** : Siz bilirsiniz ki, mən 1993-cü ildə hakimiyyətə gələndə heç kəsə fərq qoymadım. Kim işi bacarırdısa, onları da işə cəlb etdim. Hətta məndən öncə, keçmiş hakimiyyət dövründə işləyən adamların da

çoxunu işdə saxladım və onların bir çoxu indiyə qədər də mənimlə işləyirlər. Bəziləri özləri işləmək istəmədilər, vəzifələrini «dondurdular», yaxud qaçdılar, gizləndilər – bu onların öz işidir.

Azərbaycan Prezidenti kimi, mən bu gün də dövlət işində işləməyə və dövlətə, cəmiyyətə fayda verməyə qadir olan hər bir insanı dövlət, hökumət işinə cəlb etməyə hazıram.

**S u a l** *(«7 gün» qəzeti)* : Hörmətli Heydər Əliyev, Mərkəzi Seçki Komissiyası seçkilərdən əvvəl bəyan etmişdi ki, 8 ölkədə Azərbaycan vətəndaşlarının səsvermədə iştirakı üçün şərait yaradılmışdır. Ancaq üç ölkədə – Rusiyada, Türkiyədə və Ukraynada bu şəraitin yaradılmasını mümkünsüz bilmişdir. Yəni belə izah edirdi ki, Türkiyədə on minlərlə, Ukraynada da bu qədər, Rusiyada isə 2 milyondan artıq azərbaycanlı olduğu üçün bu mümkün deyildir. Həmin dövlətlərdə azərbaycanlıların seçkilərə qatılmamasını necə qiymətləndirirsiniz?

İkinci sual. Dəfələrlə dediyiniz və bizim də şahidi olduğumuz kimi, 1993-cü ildə xalqın tələbi ilə, Vətəndaş müharibəsinin qarşısını almaq məqsədi ilə Bakıya gəlmişdiniz. Əgər indi xalqın əksəriyyəti Sizin istefanız tələbini qoysa, bununla razılaşarsınızmı?

**C a v a b** : Bilirsiniz, ümumiyyətlə ictimaiyyətin ağzına bəzi ifadələr düşüb və çoxları da mənasına varmadan onu təkrar edirlər. Məsələn, deyirlər ki, Rusiyada 2 milyon azərbaycanlı var. Birincisi, bunu kim sayıbdır? İkincisi, əgər Rusiyada bir belə azərbaycanlı varsa, demək, onlar Rusiyanın vətəndaşlarıdır. Biz Rusiya vətəndaşlarını Azərbaycanda seçkilərdə iştirakamı dəvət edəcəyik? Qonşu Gürcüstanda, bizim sərhədimizdə, Qazax rayonu ilə yanbayan – Borçalı diyarında beş yüz min, yarım milyon azərbaycanlı yaşayır. Amma bunlar Gürcüstan vətəndaşlarıdır. Televiziya ilə gördünüz – oktyabr ayının 7-də mən oraya, Gürcüstan ərazisinə getmişdim, prezident Şevardnadze ilə görüşürdüm, orada körpünün açılışında iştirak edirdik. Oraya toplaşanların əksəriyyəti azərbaycanlılar, amma Borçalıda, Gürcüstanda yaşayan azərbaycanlılar idi. Onlar deyirdilər ki, biz Heydər Əliyevə səs veririk. Mən sizi inandırıram, Qazax rayonundan o tərəfə bir məntəqə yaradılsaydı, orada hamı gəlib səs verə bilərdi, əksəriyyəti də Heydər Əliyevə səs verərdi. Ancaq bunu etmək mümkün deyil, çünki onlar Gürcüstan vətəndaşlarıdır.

Yaxud Dağıstanda 150 min azərbaycanlı yaşayır. Onların da çoxu Dərbənddə, bizim Qusar, Xaçmaz rayonlarımızın yaxınlığında yaşayır.



Onlar da bizim seçkilərdə məmnuniyyətlə iştirak edə bilərdilər. Ancaq bu mümkün deyil, çünki Rusiya vətəndaşlarıdır.

Bu gün səhər mən televizora baxırdım. Azərbaycana gəlmiş bir azərbaycanlı Xarkovda «Ocaq» cəmiyyətinin başçısıdır. O deyirdi ki, Xarkovda 30 min azərbaycanlı yaşayır. Amma onların tam əksəriyyəti Ukrayna vətəndaşıdır.

Bu ölkələrdə, o cümlədən Türkiyədə yaşayan Azərbaycan vətəndaşlarının seçkidə iştirakını Mərkəzi Seçki Komissiyası imkan dairəsində təmin etmişdir.

İkinci sualınız isə bir az gülməlidir. Çünki seçki keçirilib, seçicilərin 75 faizi mənə səs veribdir və mən prezident seçilmişəm. Belə halda mənə sual verirsiniz ki, əgər Azərbaycan əhalisinin əksəriyyəti tələb etsə, istefa verərsinizmi? Bu, gülməli bir şeydir.

Təşəkkür edirəm. Sağ olun, gələn görüşlərə qədər.

## TÜRKİYƏ CÜMHURİYYƏTİNİN 75 İLLİK YUBİLEYİNDƏ İŞTİRAK ETMƏK ÜÇÜN QARDAŞ ÖLKƏYƏ SƏFƏR

*28 oktyabr 1998-ci il*

**Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Türkiyə Cümhuriyyəti yaradılmasının 75 illiyi münasibətilə keçirilən yubiley mərasimlərində iştirak etmək üçün qardaş ölkəyə səfərə yola düşmüşdür.**

**Dövlətimizin başçısı yola düşməzdən əvvəl kütləvi informasiya vasitələri nümayəndələrinin suallarına cavab verdi.**

**S u a l :** Cənab Prezident, Siz Türkiyə Respublikasının 75 illik yubileyi münasibətilə keçiriləcək təntənəli bayram mərasimlərində iştirak edəcəksiniz. Yəqin ki, əməkdaşlıq məsələləri də diqqət mərkəzində olacaqdır.

**C a v a b :** Şübhəsiz. Türkiyə Cümhuriyyətinin yaranmasının 75 illik yubileyi bizim də bayramımızdır. Çünki Türkiyə ilə Azərbaycan arasında olan dostluq, qardaşlıq əlaqələri xüsusi xarakter daşıyır və böyük tarixə malikdir. Ona görə də mən bu bayrama öz bayramımız kimi gedirəm. Hesab edirəm ki, bu çox əlamətdar bir hadisədir.

Şübhəsiz ki, orada bizim Türkiyə ilə Azərbaycan arasındakı əlaqələrə dair söhbətlərimiz, danışıqlarımız olacaqdır. Eyni zamanda bir çox başqa ölkələrin də dövlət və hökumət başçıları oraya dəvət olunubdur. Yəqin onların bir hissəsi Türkiyəyə gələcəkdir. Xüsusən Gürcüstanın, Mərkəzi Asiya ölkələrinin və başqa ölkələrin dövlət başçıları orada olacaqlar. Doğrudur, vaxt azdır, çünki orada bir neçə bayram tədbirləri vardır və onların hamısında iştirak etmək lazım gələcəkdir. Onlarla da imkan dairəsində görüşlərimiz, danışıqlarımız olacaqdır və bunların da hamısının Azərbaycan üçün xüsusi əhəmiyyəti vardır.

**S u a l :** Cənab Prezident, əsas neft kəməri ilə bağlı konkret qərar nə vaxt qəbul ediləcəkdir?



**C a v a b :** Yəqin ki, biz əsas neft kəməri ilə bağlı birgə bəyannamə imzalayacağıq.

**S u a l :** Cənab Prezident, Azərbaycan Beynəlxalq Əməliyyat Şirkətinin (ABƏŞ) rəhbərləri ilə oktyabrın 27-dəki görüşünüzdə əsas neft kəməri barədə qərarın qəbul edilməsi günü müəyyənləşdirildimi?

**C a v a b :** Bilirsiniz, bu danışıq lazım idi. Çünki ABƏŞ-in rəhbərliyinin bəzi fikirləri ilə bizim fikirlərimiz üst-üstə düşmür. Ona görə də mən oktyabrın 27-də ABƏŞ-in rəhbərləri ilə ətraflı danışıqlar apardım, öz tövsiyələrimi verdim, onlar bununla razılaşacaqlar. Mən Bakıya qayıdandan sonra onlarla bir daha görüşəcəyəm.

**S u a l :** Siz nə üçün Bakı-Ceyhan marşrutunu üstün tutursunuz?

**C a v a b :** Biz lap əvvəldən müəyyən etmişik ki, bu marşrut hər cəhətdən təhlükəsiz, Qərbə çıxış baxımından daha sərfəlidir. Əslinə qalanda, biz bu qərara indi gəlməmişik. Hələ 1994-cü ildə birinci müqaviləni imzalayanda bu variantın üstünlüyü barədə fikrimizi söyləmişdik.

**S u a l :** Noyabrın 12-də rəhbər komitənin iclası keçiriləcəkdir. Güman etmək olarmı ki, ABƏŞ məhz həmin gün daha optimal variantı Sizə təqdim edəcəkdir?

**C a v a b :** Hesab edirəm ki, təqdim edəcəkdir. Görünür, bizim görüşlərimiz zamanı – mən Türkiyə, Gürcüstan, Azərbaycan, Özbəkistan, Türkmənistan, Qazaxıstan prezidentlərinin görüşünü nəzərdə tuturam – yəqin ki, biz də müəyyən vahid fikrə gələcəyik. Çünki həmin marşrut ancaq bizim üçün faydalı deyil, ona Mərkəzi Asiya ölkələri, ilk növbədə Qazaxıstan, Türkmənistan və hətta Özbəkistan da maraq göstərirlər. Bilirsiniz ki, bu günlərdə Qazaxıstanın baş naziri Azərbaycanda rəsmi səfərdə olubdur. Onlar bizimlə protokol imzalayıblar və istəyirlər ki, 1999-cu ildə «Tengiz» yatağından çıxarılacaq 10 milyon ton neftin daşınmasını təmin edək. Bu il 2 milyon ton neft daşınacaq, gələn il isə beş dəfə artırmaq istəyirlər. Deməli, maraq böyükdür. Ona görə də, görünür, boru kəməri hamıya lazımdır.

**S u a l :** Cənab Prezident, Qərb şirkətləri təkid etsələr, Bakı-Ceyhana alternativ marşrut nəzərdən keçirilə bilərmi?

**C a v a b :** Bilirsiniz, gəlin hələ bu məsələni müzakirə edək, sonra baxarıq.

**S u a l :** Son vaxtlar Murtuz Ələsgərov barədə söhbətlər gəzir. Öz tərəfinizdən bu barədə nə deyə bilərdiniz?

**C a v a b :** Niyə bu söhbətləri aparırsınız?

**M ü x b i r :** Mən aparmıram.

**C a v a b :** Bəs kim aparır? Kim aparırsa, onlardan soruş. Gündə bir adam bir şey uyduracaq, yayacaq, mən də buna cavab verəcəyəm?

**S u a l :** Türkiyədə hansı məsələlərin müzakirəsi nəzərdə tutulur?

**C a v a b :** Çox məsələlər. Sağ olun.



## TÜRKİYƏNİN «TRT-1» TELEVİZİYA KANALINA MÜSAHİBƏ

**Azərbaycan Prezidenti Heydər Əliyev İstanbulda öz iqamətgahı «Hilton» mehmanxanasında Türkiyənin «TRT-1» televiziya kanalının müxbiri Kaya Yurdaqula müsahibə verdi.**

**S u a l :** Azərbaycanın sayın Cümhur başqanı Heydər Əliyev, Türkiyə Cümhuriyyətinin 75 illik yubileyi bayramında Türkiyə xalqına və dövlətinə nə arzu edərdiniz?

**C a v a b :** Türkiyə Cümhuriyyətinin 75 illik yubileyi tarixi bir hadisədir və bu, türk xalqının, Türkiyə Cümhuriyyəti vətəndaşlarının böyük bayramıdır. Eyni zamanda Azərbaycanın da bayramıdır, Azərbaycan xalqının da bayramıdır. Çünki bizim xalqlarımızın dostluğu və qardaşlığı böyük tarixə malikdir və bu dostluq və qardaşlıq daha da genişlənməli, daha da inkişaf etməlidir.

Bu bayram günündə mən arzu edirəm ki, Türkiyə, türk xalqı daha da xoşbəxt olsun. Türkiyəyə daha da firavan gələcək arzulayıram və ən əsas da onu arzulayıram ki, indiyə qədər olduğu kimi, bundan sonra da Türkiyə, türk xalqı Böyük Öndər Mustafa Kamal Atatürkün yolu ilə getsin. Çünki 75 il öncə bu cümhuriyyəti yaradan Mustafa Kamal Atatürk olmuşdur. Türk xalqı 75 il bu cümhuriyyətin içində böyük xoşbəxtlik əldə etmişdir, böyük nailiyyətlər əldə etmişdir.

Mən əminəm ki, Türkiyənin çox parlaq gələcəyi vardır və bu gələcək də uğurlu olmalıdır. Yəni Mustafa Kamal Atatürkün yolu ilə getməsi türk xalqını daha da yüksəklərə qaldıracaqdır.

## RUSİYANIN «VESTİ» İNFORMASİYA PROQRAMININ BAKI MÜXBİRİNƏ MÜSAHİBƏ

*Ankara*
*29 oktyabr 1998-ci il*

**Azərbaycan Prezidenti Heydər Əliyev Ankarada «Rusiya» telekanalının «Vesti» informasiya proqramının Bakı müxbirinə müsahibə vermişdir. Müsahibə Türkiyə Böyük Millət Məclisinin sədri Hikmət Çətinin adından «Assambleya-Holl»da verilmiş ziyafət zamanı olmuşdur.**

**S u a l :** Ankara bəyannaməsi qəbul edildikdən sonra növbəti addımlar necə olacaqdır?

**H e y d ə r Ə l i y e v :** Biz bəyannaməni imzalayarkən, Siz orada idiniz?

**M ü x b i r :** Əlbəttə, orada idim.

**H e y d ə r Ə l i y e v :** Bu, tarixi hadisədir. Mən artıq demişəm – əgər Siz mənim nitqimi dinləmisinizsə, təkrar etməyəcəyəm – biz dörd il bu işlə məşğul olmuşuq, bu bəyannaməyə doğru irəliləmişik. Bu gün isə, bir baxın, onu nə qədər dövlət imzaladı. Əvvəllər bu barədə yalnız bizimlə Türkiyə danışırdı. İndi isə Gürcüstan, Qazaxıstan, Özbəkistan da bizə qoşulmuşlar. Hesab edirəm ki, bu gün Türkmənistan da, əlbəttə, Amerika Birləşmiş Ştatları da qoşulacaqlar.

**S u a l :** Bəs bu məsələdə Rusiya hansı siyasəti yeridir?

**C a v a b :** Bildiyiniz kimi, biz Rusiya ilə Bakı-Novorossiysk neft kəmərinə malikik. Mən onun barəsində bu gün danışdım. Biz bu neft kəməri ilə nefti Rusiya limanına göndəririk. Odur ki, Rusiya vəziyyəti, zənnimcə, düzgün qiymətləndirir. Bizim çoxlu neftimiz var və onun hamısını Rusiya vasitəsilə buraxmaq mümkün deyildir. Bu gün dediyim kimi, bizdən başqa, Qazaxıstan da böyük imkanlara malikdir. Ona görə də bu neft kəməri zəruridir.

**S u a l :** Cənab Prezident, konkret tikinti nə vaxt başlanacaqdır?

**C a v a b :** Yəqin ki, tezliklə. Biz maliyyə məsələlərini həll edəcəyik. Ona görə ki, mən orada dedim, konsorsium etiraz edir, maliyyə-iqtisadi məsələləri ön sıraya çəkir. Lakin zənnimcə, orada hesablamalarda fikir ayrılıqları var.

**M ü x b i r :** Sağ olun.



## BİNƏ HAVA LİMANINDA JURNALİSTLƏRLƏ MÜSAHİBƏ

*30 oktyabr 1998-ci il*

**Dövlətimizin başçısı dedi:**

– Hər şeyi televiziya vasitəsilə görmüsünüz, bilirsiniz. Mənim orada olduğum günlərdə Türkiyə televiziyası bu barədə geniş məlumatlar veribdir, bunlar respublikamızda yayımlanıbdır. Ona görə də əlavə məlumat verməyə ehtiyac yoxdur.

**S u a l :** Cənab Prezident, Ankarada cənab Riçardsonla görüşünüzdə o bildirmişdir ki, «Amoko» şirkəti Bakı-Ceyhan marşrutunun əleyhinə çıxaraq, belə hesab edir ki, Bakı-Supsa marşrutu daha əlverişlidir. Sizcə, dövlət başçılarının Ankarada imzaladıqları bəyannamə konsorsium iştirakçılarına təsir göstərəcəkdirmi?

**C a v a b :** Mən bu gün İstanbuldan Bakıya yola düşərkən hava limanında Türkiyə televiziyalarının, qəzetlərinin, digər kütləvi informasiya vasitələrinin çoxsaylı nümayəndələri var idi. Məni Türkiyənin baş naziri Məsud Yılmaz yola salırdı. Mən hava limanına toplanmış mətbuat işçiləri qarşısında Türkiyəyə bu səfərimlə, səyahətimlə əlaqədar bəyanat verdim.

Sizə də bildirmək istəyirəm ki, mənim bu ziyarətim çox əhəmiyyətli bir səfər idi. Çünki Türkiyə Cümhuriyyətinin 75 illik yubileyini qeyd etmək Türkiyə üçün əziz olduğu kimi, Azərbaycan Respublikası, xalqı üçün də əzizdir. Buna görə də mən, birincisi, həmin yubiley mərasimlərində iştirak etməkdən çox məmnunam. Türkiyədə Azərbaycana əvvəllər olduğu kimi, indi də daim çox böyük diqqət, qayğı, hörmət göstərilir. Mən bunların hamısını həm hökumət, dövlət, həm də xalq tərəfindən bir daha hiss etdim. Türkiyə xalqının, vətəndaşlarının Azərbaycana böyük diqqəti, marağı və böyük məhəbbəti vardır. Mən bunu əvvəllər də hiss etmişdim. Bu səfər zamanı çox böyük kütləvi mərasimlər keçirildi, orada çoxlu insan iştirak edirdi. Mən bunları gördüm, hiss etdim.

Ümumiyyətlə, bu bayramlar çox gözəl keçdi, Türkiyə Cümhuriyyətinin 75 illik həyat yolunu yaxşı göstərdi. Dünyanın 75-dən çox ölkəsindən oraya nümayəndələr, bir çox ölkələrdən dövlət, hökumət başçı-

ları gəlmişdilər. Bunlar hamısı Türkiyənin 75 ildə böyük inkişafını dünyaya bir daha nümayiş etdirdi.

Biz Türkiyə ilə dost, qardaş ölkə olaraq, bu bayramların belə keçməsinə çox sevinirik. Şəxsən mən çox məmnunam ki, bu tədbirlərin hamısında iştirak etdim.

Bilirsiniz ki, bütün bunlarla yanaşı, orada Türkiyə, Azərbaycan, Gürcüstan, Qazaxıstan, Özbəkistan prezidentləri Bakı-Ceyhan boru xətti haqqında birgə bəyannamə imzaladılar. Bu bəyannaməni Amerika Birləşmiş Ştatlarının enerji naziri cənab Riçardson da imzaladı. Bu da çox tarixi bir hadisədir. Çünki biz 1994-cü ilin sentyabr ayında birinci müqaviləni imzalayandan sonra, həmin müqaviləni imzalayarkən də, hasil ediləcək neftin ən əsas ixrac borusu olaraq Bakı-Ceyhan marşrutunu nəzərdə tutmuşduq. Ancaq bu müddətdə onun əleyhinə çıxanlar, mane olanlar və səmərəsiz olduğunu daim bildirənlər var idi. Çox vaxt belə bir fikir yaradılırdı ki, Bakı-Ceyhan xətti real bir şey deyil. Ona görə də birgə bəyannamənin imzalanması bütün bunların hamısına son qoydu və bəyan etdi ki, Bakı-Ceyhan boru xətti yaranacaqdır.

Şübhəsiz ki, konsorsiumun üzvlərinin ümumiyyətlə hamısı, çoxu rəqəmlər veriblər və bu rəqəmlərlə belə sübut edirlər ki, guya bu, onların təklif etdikləri digər marşrutdan iqtisadi cəhətdən bir milyard dollar bahadır.

Mən Türkiyəyə getməmişdən bir gün əvvəl konsorsiumun nümayəndələrini qəbul etmişdim, onlarla danışmışdım. Onlar bunu mənə bildirmişdilər. Bu mənə əvvəl də məlum idi. Mən onlara bildirdim ki, bu məlumat o qədər də inandırıcı deyildir. Mən Azərbaycan Dövlət Neft Şirkətinə göstəriş verdim ki, konsorsiumla, Azərbaycan Beynəlxalq Əməliyyat Şirkəti ilə bu rəqəmləri 15 gün müddətində birgə araşdırsınlar və mənə birgə raport versinlər. Mən onu gözləyirəm.

Onların verdikləri təkliflərə görə də sizin verdiyiniz bu sual meydana çıxır. Onlar bunu özləri üçün iqtisadi cəhətdən səmərəli hesab etmirlər. Ancaq birincisi, bu rəqəmlər hələ araşdırılacaqdır. Çünki onların özləri bir-iki il bundan əvvəl başqa rəqəmlər vermişdilər. İkincisi, Türkiyə ilə Azərbaycan arasında Bakı-Ceyhan boru xəttinin çəkilməsi barədə danışıqlar aparılır. Çünki əgər bu boru xəttinin məsafə cəhətdən yarısı Azərbaycan, Gürcüstan ərazisindən – mən yuvarlaq olaraq deyirəm, tutaq ki, Azərbaycan ərazisindən 500 kilometr, təxminən o qədər də Gürcüstan ərazisindən – keçirsə, 1000 kilometri Türkiyə ərazisindən keçir. Ona görə də bu boru xəttinin keçmə şərtləri, onun vergiləri və iqtisadi cəhətdən başqa şərtləri müzakirə olunur. Bu məsələ Azərbaycan ilə Gürcüstan və Azərbaycan ilə Türkiyə arasında müzakirə edilir. Çünki Azərbaycan çıxarılan neftin sahibidir.



Biz nefti şübhəsiz ki, konsorsiumla birgə ixrac edəcəyik və indi ixrac edirik. Ona görə də buradan nə qədər qazanc götürəcəyimiz bizim üçün heç də xırda şey deyildir. Əgər konsorsium qazancı itirmək istəmirsə, biz qazancımızı itirməyi ondan da çox istəmirik. Çünki bu boru xətti onların dediyi kimi, əgər baha olsa, onun iqtisadi çətinliyi həm onların, həm də bizim üzərimizə düşəcəkdir. Onlar deyirlər ki, guya bizim gəlirimiz azalacaqdır. Yəni «azalacaq» deyəndə, nəzərdə tutulduğundan az olacaqdır. Amma bu nə qədər həqiqətdir? Bunlar araşdırılmalıdır.

Bunların hamısını nəinki araşdırmaq, həm bu boru xəttinin yaranması, həm də onun iqtisadi cəhətdən səmərəli olması və ölkəmiz üçün ən əsası – Azərbaycanın nəzərdə tutulan gəlirlərinin əldə edilməsi bizim üçün əsas şərtdir. Bu şərtləri həyata keçirmək üçün danışıqlar aparılır. Azərbaycan Dövlət Neft Şirkəti, Türkiyənin Enerji Nazirliyi və başqa şirkətlər bu danışıqları noyabrın 5-də İstanbulda davam etdirəcəklər. Bunların nəticəsində də bizdə son rəylər, təkliflər olacaqdır. Güman edirəm ki, bunlar hamısı normal olacaqdır.

**Sual:** Cənab Prezident, Ankara bəyannaməsinə Türkmənistanın imza atmamasını necə qiymətləndirirsiniz?

**Cavab:** Bunu Türkmənistandan soruşun.

**Sual:** Deyirlər ki, Rusiya Türkiyə və Azərbaycan arasındakı münasibətlərdən qorxuya düşəcəkdir.

**Cavab:** Rusiya heç bir şeydən qorxmur. Mən inanmıram ki, onlar qorxsunlar.

**Sual:** Cənab Prezident, Sizin fikrinizcə, neft kəməri ilə bağlı bütün işlər hansı müddətə tamamlanar və nəhayət, qərar qəbul edilər?

**Cavab:** Mən bunun müddətini indi deyə bilmərəm. Artıq elə bir mərhələyə gəlib çatmışıq ki, biz siyasi iradəmizi bildirmişik və bəyannaməni imzalamışıq. İndi biz bunun iqtisadi cəhətini də hazırlayıb, son qərar qəbul etməliyik. Bu uzun çəkməyəcəkdir.

**Sual:** Cənab Prezident, Türkmənistan prezidenti Saparmurat Niyazov Sizinlə görüşdə bildirmişdir ki, Xəzərin statusu ilə bağlı noyabrın 15-də görüş keçiriləcəkdir. Bu barədə nə deyə bilərsiniz?

**C a v a b :** Saparmurat Niyazovla mənim çox səmimi görüşümüz oldu. Onu bizim televiziya çəkibdir, verəcək, özünüz görəcəksiniz. Görüşümüz çox yaxşı, mehriban oldu. Görüş zamanı belə nəticəyə gəldik, qərar qəbul etdik ki, Azərbaycan və Türkmənistan ekspertləri, Azərbaycan Dövlət Neft Şirkəti, Türkmənistan tərəfindən bu işlə məşğul olan şəxslər, Azərbaycanın və Türkmənistanın xarici işlər nazirləri qısa müddətdə, təxminən 15-20 gün ərzində danışıqlara yenidən başlamalıdırlar. Biz mübahisəli məsələləri aradan götürməliyik. Hər halda Saparmurat Niyazov bu görüşdən dərhal sonra mətbuat qarşısında geniş bir bəyanat verdi ki, Türkmənistan ilə Azərbaycan tarixən dost olub, biz dostuq, qardaşıq, bizim dostluğumuza heç kim mane ola bilməz. Kimlərsə bizi bir-birimizlə savaşdırmaq, yaxud küsdürmək istəyirlər. Biz nə küsərik, nə də savaşarıq. Biz dost olacağıq. O, belə sözlər deyibdir, bizim televiziya bunları çəkibdir. Siz bunların hamısını özünüz izləyə bilərsiniz.

Biz bunların nəticəsində qərara aldıq ki, yaxın vaxtlarda danışıqlar başlanacaq və o məsələləri həll edəcəyik. Sağ olun.



## MƏTBUAT NÜMAYƏNDƏLƏRİ ÜÇÜN BİRGƏ BRİFİNQ

*Bakı, Prezident Sarayı*
*25 noyabr 1998-ci il*

**Azərbaycan Respublikası ilə ATƏT-in Demokratik Təsisatlar və İnsan Hüquqları Bürosu arasında memorandum imzalandıqdan sonra Azərbaycan Prezidenti Heydər Əliyev və ATƏT-in hazırkı sədri Bronislav Geremek respublikamızın və xarici ölkələrin kütləvi informasiya vasitələrinin nümayəndələri üçün birgə brifinq keçirdilər.**

### AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEVİN BƏYANATI

– Hörmətli xanımlar, cənablar! Hörmətli mətbuat nümayəndələri!

Siz hamınız bizim danışıqlarımızda, yəni ATƏT-in fəaliyyətdə olan sədri, Polşanın xarici işlər naziri cənab Geremek və onun rəhbərlik etdiyi nümayəndə heyəti ilə danışıqlarımızda iştirak etmisiniz. Ona görə də eşitdiyiniz sözləri yenidən təkrar etməyə ehtiyac yoxdur.

Özünüz eşitdiniz və bilirsiniz ki, bizim danışıqlarımızda əsas yeri Ermənistan-Azərbaycan münaqişəsinin sülh yolu ilə həll olunmasına dair ATƏT-in Minsk qrupunun təklifləri və bu barədə Azərbaycanın mövqeyinin bildirilməsi tutmuşdur. Mən danışıqlarımızdan məmnunam və ümidvaram ki, ATƏT-in fəaliyyətdə olan sədri cənab Geremek Azərbaycanın mövqeyini qəbul edəcək və bəyan etdiyi kimi, bunları gələcək işlərdə nəzərə alacaqdır. Sizin şahidliyinizlə ATƏT ilə Azərbaycan arasında bir memorandum imzaladıq. Bu memorandum da ATƏT ilə gələcək əməkdaşlığımızın əsas istiqamətlərini müəyyən edir. Hesab edirəm, bu da Azərbaycan üçün əlamətdar hadisədir.

Biz Polşa-Azərbaycan əlaqələri haqqında da ətraflı danışdıq və ümid edirəm ki, əlaqələrimiz gələcəkdə də daha sürətlə inkişaf edəcəkdir. Azərbaycana göstərdiyi diqqətə və bu səfərə görə ATƏT-in fəaliyyətdə olan sədri, Polşanın xarici işlər naziri cənab Geremekə və onun rəhbərlik etdiyi nümayəndə heyətinə bir daha təşəkkür edirəm.

## ATƏT-in HAZIRKI SƏDRİ BRONİSLAV GEREMEKİN BƏYANATI

– Mən ümid edirəm ki, Azərbaycana səfərim Azərbaycanla ATƏT arasında əlaqələrin daha da möhkəmlənməsinə xidmət edəcəkdir.

Azərbaycan xalqının əzablarını, əziyyətlərini yaxşı bilirəm, ona görə də regionda və Azərbaycanda sülh prosesinə kömək etməyə çalışıram. Mən çox şadam ki, geri qayıdarkən, ATƏT-ə dönərkən Prezident Əliyevin görüş zamanı ifadə etdiyi fikri ATƏT-dəkilərə çatdıra biləcəyəm. Prezident Əliyev görüş zamanı dedi ki, o, atəşkəs rejiminə sadiqdir. Azərbaycan atəşkəs rejiminə sadiq olacaq və sülh əldə etmək üçün qüvvəsini əsirgəməyəcəkdir.

Biz çalışacağıq ki, Dağlıq Qarabağ probleminin həll olunması üçün yollar axtarıb arayaq. Sülh yolu ilə həll, Azərbaycanın ərazi bütövlüyünü və Dağlıq Qarabağdakı ermənilərin milli özünüdərkini nəzərə alacaqdır.

Mən həm də çox şadam ki, biz hərbi əsirlərin dəyişdirilməsi haqqında müzakirələr apardıq. Cənab Prezident Əliyev əsirlərin dəyişdirilməsi haqqında öz fikrini açıqladı və bu işə sadiq olduğunu bildirdi. Çox şadam ki, Azərbaycana bu səfərim zamanı mən yalnız ATƏT-in nümayəndəsi kimi deyil, eyni zamanda Polşanın xarici işlər naziri kimi də çıxış elədim. Prezident Əliyevin Polşaya səfərindən sonra biz çox ümid edirik ki, gələn il prezident Kvasnevski də Azərbaycanda qəbul olunacaqdır. Polşa ilə Azərbaycan arasında iqtisadi, mədəni və siyasi əlaqələr qüvvətlənə bilər. Çox sağ olun.



## ANS TELEVİZİYA ŞİRKƏTİNİN RƏHBƏRLƏRİ İLƏ GÖRÜŞ

*Bakı, Prezident Sarayı*
*7 dekabr 1998-ci il*

Azərbaycan Prezidenti Heydər Əliyev Prezident Sarayında ANS Müstəqil Televiziya Şirkətinin prezidenti Vahid Naxışı, şirkətin baş siyasi məsləhətçisi Arif Mustafayevi, baş direktoru Mais Məmmədovu və baş redaktoru Mirşahin Ağayevi qəbul etmişdir.

Yenidən Azərbaycanın Prezidenti seçilməsi, həmçinin dünya siyasətçiləri arasında «İlin adamı» elan olunması münasibətilə dövlətimizin başçısını təbrik edən Vahid Naxış 1994-cü ilin noyabrında ANS-in bağlanmasının qarşısını aldığına, onun yenidən fəaliyyətə başlamasına, ümumiyyətlə, mətbuatla bağlı çətinliklərin aradan qaldırılmasına kömək etdiyinə görə Prezident Heydər Əliyevə dərin minnətdarlığını bildirdi və dedi:

**– Cənab Prezident, Siz daim çıxışlarınızda obyektivliyin tərəfində olmusunuz. Jurnalistika ilə bağlı problemlərin həllinə yaxından göstərdiyiniz qayğıya görə biz Sizə minnətdarlığımızı bildiririk. Siz bu addımlarınızla nəinki ANS-ə, ümumiyyətlə, bütün Azərbaycan jurnalistikasına böyük kömək etmisiniz.**

Xoş sözlərə görə şirkətin rəhbərlərinə təşəkkürünü bildirən respublikamızın rəhbəri Heydər Əliyev dedi ki, indi qarşıda beş il də vardır. Gərək beş il də xidmət edək. Güman edirəm ki, xidmət etmək mümkün olacaqdır. Hesab edirəm ki, buna ehtiyac var. Düzdür, bəziləri bəlkə də düşünürlər ki, bu mənim üçün çox lazımdır. Ancaq bu mənim üçün ona görə lazımdır ki, hesab edirəm, buna ehtiyac var. Ona görə də mən, hər halda, beş il müddətində də çalışmağı nəzərdə tutmuşam. İndiyə qədər olduğu kimi, bundan sonra da Allahınköməyi ilə işləyəcəyik.

Dövlətimizin başçısı həyatının çox çətin məqamları olduğunu, bu proseslərdən ilahi qüvvənin köməyi ilə çıxdığını və respublikamızın həyatı ilə bağlı çox işlər gördüyünü bildirdi. Prezident Heydər Əliyev dedi:

– Sizin şirkətlə əlaqədar mənim qayğımı, köməyimi əgər Siz yadınızda saxlamısınızsa, unutmamısınızsa, bu da yaxşı bir haldır. Amma bu

işlər mənim təbiətimlə bağlıdır, yəni mənim siyasi mövqeyimlə bağlıdır. Mən jurnalistika, mətbuat işinə həyatımın bütün zamanlarında diqqət vermişəm. Keçən dövrlərdə jurnalistikanın bir xüsusiyyəti var idi, indikinin başqa xüsusiyyəti var. Əgər onda hər şey həddindən artıq çərçivə içərisində idisə, amma indi həddindən artıq sərbəstdir, nəzarətsizdir. Ancaq o illərdə də mən çalışırdım ki, bizim mətbuat, xüsusən qəzetlər – o vaxt özəl televiziya yox idi, şübhəsiz ki, dövlət televiziyası idi – müəyyən qədər sərbəst olsunlar.

Ölkəmizin rəhbəri o vaxt Moskvada çıxan və Sovetlər İttifaqında müəyyən qədər müxalif fikirli hesab olunan «Literaturnaya qazeta» ilə çox yaxın əməkdaşlıq etdiyini nəzərə çarpdırdı, o zaman «Pravda» qəzetinə hörmətlə yanaşdığını vurğuladı və dedi:

– Mən vaxtilə «Pravda»nı çox sevirdim. Orada da tənqidi məqalələr dərc edilirdi. Ancaq mən 20 Yanvar hadisələri ilə əlaqədar Moskvada Azərbaycanın Daimi Nümayəndəliyində çıxış edəndən sonra fevralın 4-də «Pravda» qəzetində böyük bir məqalə dərc olundu. Mənə qarşı böyük bir ədalətsizlik, təcavüz edildi. Mən o vaxtdan «Pravda»dan incidim və indiyə qədər də barışa bilmirəm.

Prezident Heydər Əliyev o vaxt Azərbaycanda çox hörmətli mətbuat orqanı kimi tanınan «Kirpi» satirik jurnalını, «Mozalan» kinojurnalını, Moskvada buraxılan «Krokodil» jurnalını və «Fitil» kinojurnalını daim maraqla izlədiyini də xatırlatdı.

Cəmiyyətdə olan mənfi halların mətbuat orqanları vasitəsilə tənqid edilməsini, aşkar olunmasını və mənfi halların aradan götürülməsi sahəsində görülən işləri müsbət qiymətləndirən Prezident Heydər Əliyev dedi:

– Ümumiyyətlə, mən cəmiyyətimizdə, ölkəmizdə, dövlətimizdə olan çatışmazlıqları, nöqsanları, həqiqətləri aşkara çıxarıb göstərən mətbuata, o cümlədən televiziyaya həmişə müsbət münasibət göstərmişəm. Yəni bu mənim fəaliyyətim, mövqeyim, təbiətim üçün yeni bir şey deyildir.

Naxçıvanda işlədiyi zaman ANS özəl şirkətini bir o qədər də tanımadığını, o vaxt şirkətin əməkdaşlarının Naxçıvana gəldiyini xatırladan respublikamızın rəhbəri dedi:

– Mən sizə təşəkkür edirəm ki, neft lampasının işığında bizim necə işlədiyimizi, elektrik enerjisinin olmamasından nə qədər əziyyət çəkdiyimizi lentə almısınız. İndi o, çox unikal bir kadr kimi sizdə qalıbdır. Sizə minnətdaram ki, o vaxt o kadrı çəkib saxlamısınız. Yəni o vaxt sizin haqqınızda məlumatım var idi. Amma bir o qədər də dərinə varmırdım. Bakıdan və digər yerlərdən Naxçıvana müxbirlər gəlib bizim həyatımızı görürdülər. Amma Bakıya gələndən sonra hiss etdim ki, siz burada yaxşı iş görürsünüz. O vaxt şirkətinizi bağlamaq istədilər. Təbii ki, mən ancaq sizin müdafiənizdə dura bilərdim. Çünki başqa cür ola da bilməzdi.



Göstərilən verilişlərin kiminsə xoşuna gəlib-gəlməməsi məsələsinə toxunan dövlətimizin başçısı Heydər Əliyev dedi:

– Bilirsiniz, açıq deyirəm, şəxsən mən narazı deyiləm. Sadəcə olaraq, mən istəyirəm ki, hər şey obyektiv olsun. Ümumiyyətlə, subyektivlikdən xilas olmaq asan iş deyildir. Amma mən istəyirəm ki, hamı azad olsun, hər bir mətbuat orqanı, o cümlədən televiziya, xüsusən özəl televiziya subyektivlikdən azad olsun. Hesab edirəm ki, siz bu sahədə çalışırsınız. Hər halda, sizin verilişləriniz artıq hörmət qazanıbdır, bizim cəmiyyətdə, kütləvi informasiya orqanları içərisində öz yerini tutubdur. Açıq deyirəm ki, artıq bu yeri nə siz əldən verə bilərsiniz, nə də bunu kimsə sizin əlinizdən ala bilər. Əlbəttə, ola bilər, qanuna sığmayan başqa bir hakimiyyət gəlib hər şeyi dağıtsın. Amma inanmıram ki, bundan sonra belə bir şey olsun.

Mənim şirkətinizə göstərdiyim qayğı, şübhəsiz ki, sizin şirkətin xidmətlərinə olan münasibətim, hörmətimdir. Eyni zamanda, ümumiyyətlə, bizim kütləvi informasiya orqanlarında bu istiqamətin, obyektivliyin inkişaf etməsinə münasibətimdir. Yəni mən bunu inkişaf etdirmək istəyirəm.

## BİNƏ HAVA LİMANINDA MOLDOVA JURNALİSTLƏRİNİN SUALLARINA CAVAB

*18 dekabr 1998-ci il*

Moldova prezidenti Petru Luçinski Özbəkistandan rəsmi səfərdən qayıdarkən yolüstü Bakıda olmuşdur.

Ölkəmizin Prezidenti Heydər Əliyevin şəhərkənarı iqamətgahında Azərbaycan və Moldova rəhbərlərinin səmimi görüşü oldu. Moldova dövlətinin başçısı, Özbəkistan prezidenti İslam Kərimovun salamını ölkəmizin rəhbərinə yetirdi.

Azərbaycan Prezidenti Heydər Əliyev və Moldova prezidenti Petru Luçinski arasında təkbətək görüş keçirildi.

Görüşdən sonra Prezident Heydər Əliyev ali qonağın şərəfinə ziyafət verdi.

Sonra Moldova rəhbəri Petru Luçinski vətənə yola düşdü. Binə hava limanında onu Azərbaycan Prezidenti Heydər Əliyev səmimiyyətlə yola saldı və jurnalistlərin suallarına cavab verdi.

**S u a l :** Deyirlər ki, böyük siyasətdə kiçik mətləb yoxdur. Moldova prezidenti ilə iki saatlıq görüşünüz zamanı söhbət nədən gedirdi?

**C a v a b :** Əvvəla, Moldova ilə Azərbaycan arasında dostluq münasibətləri və mehriban əməkdaşlıq mövcuddur. Bu faktın özü görüşmək, fikir mübadiləsi aparmaq və gələcək işlər barədə razılığa gəlmək üçün hər bir imkandan istifadə olunmasını tələb edir. İkincisi, Moldova prezidenti, mənim dostum Petru Luçinski ilə bizi çoxdankı şəxsi dostluq bağlayır. Buna görə də onun Özbəkistana rəsmi səfərə gedərkən yolüstü Bakıda, Azərbaycanda dayanmaq niyyətində olduğunu eşitdikdə sevindim. Dünən mən böyük bir müşavirə keçirirdim, onunla görüşə bilmədim. Onunla baş nazir görüşdü. Bəlkə də belə yaxşı idi. Qayıdan baş, onun Özbəkistana səfər barədə təəssüratı da olanda, biz görüşdük və söhbət etdik.

Əlbəttə, ən əvvəl ikitərəfli münasibətlərimizlə bağlı məsələləri müzakirə etdik. Mən bu gün də hesab edirəm ki, Moldova ilə Azərbaycan arasında iqtisadi əməkdaşlığın inkişafı üçün böyük ehtiyat mənbələri var. Bizi bir çox digər cəhətlər də bağlayır. Başlıcası odur ki, Moldova da, Azərbaycan da gənc müstəqil dövlətlərdir və onların qarşısında



öz dövlət müstəqilliyini möhkəmlətmək və inkişaf etdirmək, bu müstəqilliyi dönməz etmək vəzifəsi durur. Bu asan iş deyildir. Bilirsiniz ki, Sovetlər İttifaqı dağıldıqdan sonra biz mürəkkəb dövr, keçid dövrünü yaşayırıq. İslahatların aparılması, demokratikləşdirmə, yeni iqtisadi sistemə keçid – bunların hamısı sadə problemlər deyildir. Odur ki, indiki halda da təcrübə, fikir mübadiləsi çox böyük rol oynayır. Bu gün biz bütün bunlar barədə danışdıq və deməliyəm ki, mən çox məmnunam.

Bizim daha bir ümumi ağrı-acımız var. Bu ondan ibarətdir ki, Moldovanın Dnestryanı bölgə problemi var. Azərbaycanın problemi isə Dağlıq Qarabağ üstündə Ermənistanla olan münaqişədir. Doğrudur, bunlar eyni səviyyəli problemlər deyildir. Moldova ilə müqayisədə bizim vəziyyətimiz daha mürəkkəbdir. Bununla belə, orada da, burada da müstəqil dövlətlərin – Moldova və Azərbaycanın ərazi bütövlüyünün pozulmasından söhbət gedir. Biz, hərə öz ölkəsində münaqişənin dinc-liklə aradan qaldırılması, dövlətlərimizin – Moldova və Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi yollarını axtarırıq. Odur ki, bununla əlaqədar fikir mübadiləsi də böyük əhəmiyyətə malikdir.

Bir baxın, nə qədər məsələlər var. Biz hətta hər şey barəsində danışmağa macal tapmadıq. Mən şadam ki, fikir mübadiləsi aparmağa, söhbət etməyə imkan oldu. Hesab edirəm ki, bu çox faydalıdır, hər halda mənim üçün, Azərbaycan üçün, zənnimcə, Moldova üçün də çox faydalıdır.

**S u a l :** Cənab Prezident, Siz GUAM-da indiki vəziyyəti və bu struktur çərçivəsində əməkdaşlığın inkişaf perspektivlərini necə qiymətləndirirsiniz?

**C a v a b :** GUAM böyük perspektivə malikdir. Biz nə isə xüsusi bir şeyin iddiasında deyilik. Sadəcə olaraq, ölkələrimizin – Ukrayna, Moldova, Gürcüstan və Azərbaycanın vəziyyəti müəyyən dərəcədə oxşardır. Biz müxtəlif sahələrdə əməkdaşlığı inkişaf etdirmək istəyirik. Qoy heç kim qorxmasın ki, biz hansısa xüsusi bir ittifaq, ələlxüsus, hansısa bir hərbi ittifaq yaradırıq. Sadəcə, hesab edirəm ki, biz bir regiondayıq. Bir fikir verin – Azərbaycan, Gürcüstan Qara dəniz vasitəsilə Ukrayna və Moldovaya çıxırlar. Əgər xəritəyə nəzər salsaq görərik ki, bu hətta coğrafi cəhətdən də tamamilə əsaslıdır. Üstəlik, bizi iqtisadi əməkdaşlıqda, digər bütün sahələrdə əməkdaşlıqda çox şey birləşdirir. Hesab edirəm ki, biz 1997-ci ilin oktyabrında Strasburqda GUAM təşkilatı yaratmaq barədə razılığa gəlməklə düzgün addım atmışıq. Mən hesab edirəm ki, biz GUAM çərçivəsində əməkdaşlığımızı dəstəkləməli və inkişaf etdirməliyik.

## TÜRKİYƏDƏ AzərTAc-ın VƏ AZƏRBAYCAN TELEVİZİYASININ MÜXBİRİNƏ MÜSAHİBƏ

*Ankara*
*19 yanvar 1999-cu il*

**Türkiyədə müayinə və müalicə olunan Azərbaycan Prezidenti Heydər Əliyev Ankarada Gülhanə Tibb Akademiyasında AzərTAc-ın və Azərbaycan televiziyasının müxbirinə müsahibə vermişdir.**

**S u a l :** Möhtərəm cənab Prezident, hazırda özünüzü necə hiss edirsiniz?

**C a v a b :** Özümü yaxşı hiss edirəm. Mən buraya gələndə də özümü yaxşı hiss edirdim. Mən artıq dünəndən buradayam. Dünən, bu gün burada bir çox müayinələr keçiriblər və eyni zamanda məni müalicə ediblər. Ona görə də vəziyyətim çox yaxşıdır, normaldır. Mən artıq burada görüşlər keçirirəm, danışıqlar aparıram.

**S u a l :** Cənab Prezident, Gülhanə Tibb Akademiyası haqqında Sizin təəssüratınız necədir?

**C a v a b :** Bilirsiniz, mənə bura haqqında akademiyanın rəisi də danışıbdır, eyni zamanda mənim əziz dostum, prezident Süleyman Dəmirəl də danışıbdır. Bu çox qədim bir Tibb Akademiyasıdır və tibb sahəsində çox yüksək elmi və praktiki təcrübəsi olan, çoxprofilli bir Tibb Akademiyasıdır. Bunlar böyük işlər görürlər. Bunların demək olar ki, dünyanın bütün tibb mərkəzləri ilə əlaqələri vardır və çox yaxşı mütəxəssisləri vardır. Buna görə də çox məmnunam ki, mən – doqquz ildən artıq nə xəstəxana, nə də həkim görməyən adam ilk dəfə belə bir xəstəxanadayam.

**S u a l :** Cənab Prezident, bu günlər ərzində Türkiyə rəhbərliyinin Sizə çox böyük diqqət göstərdiyinin şahidi olduq. İki dəfə prezident Süleyman Dəmirəl ilə, Böyük Millət Məclisinin sədri Hikmət Çətinlə, baş nazir Bülent Ecevitlə, xarici işlər naziri İsmayıl Cəm ilə görüşmüsünüz. Bu görüşləri necə qiymətləndirirsiniz?

**C a v a b :** Mən bu görüşləri çox yüksək qiymətləndirirəm və bunu müəyyən qədər də təbii hesab edirəm. Çünki, birincisi, bu insanların



hər biri mənim şəxsi dostumdur. Biz artıq bir çox ildir ki, dostluq əlaqələri saxlayırıq – vəzifəmizdən asılı olaraq, ya asılı olmayaraq. Ona görə də mən bunu təbii hesab edirəm. Bir halda ki, məni buraya müalicəyə Süleyman Dəmirəl dəvət etdi, bir halda ki, mən buraya gəlmişəm, onların gəlib mənimlə görüşməyi təbii bir haldır. Mən bunu yüksək qiymətləndirirəm. Eyni zamanda bu, Türkiyənin dövlət, hökumət başçılarının nə qədər insani xüsusiyyətlərə malik olduğunu göstərir, nə qədər qayğıkeş olduqlarını göstərir, nə qədər səmimi və mehriban olduqlarını göstərir. Həmçinin bu, Türkiyə-Azərbaycan dostluğunun nə qədər səmimi, nə qədər qardaşlıq dostluğu olduğunu bir daha nümayiş etdirir. Mən bunlardan çox razıyam.

**S u a l :** Möhtərəm cənab Prezident. Bilirsiniz ki, xalqımız çox böyük həyəcan keçirir. Çünki Siz 30 ildir ki, Azərbaycanın rəhbəri kimi çalışırsınız. Bu 30 ildə birinci dəfədir ki, Sizdən müsahibəni müayinə və müalicə olunduğunuz zaman alırıq. Çoxlu teleqramlar, fakslar daxil olur, çoxsaylı telefon zəngləri gəlir. Buradan Azərbaycan xalqına nə demək istərdiniz?

**C a v a b :** Mən bilirəm, mənə də məlumat verirlər ki, xalqımız həyəcan keçirir, narahatlıq vardır. Mənə olan bu münasibətə, mənim xəstələndiyim bu anda mənə olan bu diqqətə, qayğıya görə Azərbaycan xalqına təşəkkür edirəm. Eyni zamanda belə düşünürəm ki, bizim xalqımız mənim xəstələnməyimi heç vaxt görməmişdi. Bəli, keçmiş illərdə də, yəni 70-ci illərdə mən Azərbaycanın başçısı işləyərkən də bunu görməmişdilər. 1993-cü ildən mütəmadi olaraq, fasiləsiz, mənim bir gün də istirahətim olmayıbdır, bir gün də olsun evdə olmamışam. Həmişə işdə olmuşam, işləmişəm. Ona görə də onlar müəyyən qədər öyrənməyiblər. Bəzən elə dövlət başçıları olur ki, onlar xəstələnirlər, xəstəxanaya gedirlər, müalicə olunurlar. Cəmiyyət buna öyrəncək olur, ona görə də həm təəccüb etmir, həm də həyəcan keçirmir. Amma mən Azərbaycana rəhbərlik etdiyim dövrdə bizim cəmiyyətimizi, xalqımızı başqa bir şeyə öyrətmişəm ki, Heydər Əliyev nə xəstələnə bilər, nə istirahət edə bilər, nə də yorula bilər.

Hamıya məlumdur ki, mən həftənin beşinci günü saat 10-a qədər iş yerimdə olmuşam. Altıncı gün də işə getməyə hazırlaşırdım. Çünki orada saat 2-yə bir toplantı təyin olunmuşdu. Ancaq o vaxta qədər mənim temperaturum, hərarətim qalxdı, özü də çox güclü qalxdı və məndə öskürmə başladı. Mən artıq özüm belə düşündüm ki, bu vəziyyətdə

işə getməyim yaxşı olmaz. Ona görə də Artur Rasizadəyə və Ramiz Mehdiyevə tapşırdım ki, o müşavirəni keçirsinlər. Özüm isə hesab edirdim ki, yəqin, axşama qədər temperatur aşağı düşər.

Mən həftənin ikinci günündən qrip xəstəliyini özümdə hiss etmişdim və demək olar ki, bir neçə gün işə temperaturum ola-ola getmişdim. Ancaq həftənin altıncı günü işin axırında bu temperatur daha da artdı. Bunlar hamısı belə bir vəziyyətə gətirdi ki, məni artıq həkimlər müalicəyə başlamalıdır. Onlar da müalicə etdilər, çox yaxşı etdilər. Mən deyə bilərəm ki, artıq Süleyman Dəmirəl Bakıya həkimlər göndərmişdi. Onlar gəlmişdilər. Amma o vaxt mənim vəziyyətim artıq normal idi və mən buraya gəlmək istəmirdim. Ancaq prezident Süleyman Dəmirəl mənə bir daha telefon etdi və dedi ki, mən çox xahiş edirəm gələsən, burada müayinə olunasan. Mən də bu dəvəti qəbul etdim və gəldim.

Mən xalqımıza minnətdarlığımı bildirirəm. Bu 30 ildə müəyyən bir fasilə olubdur ki, mən Azərbaycanda olmamışam. Ancaq bütün bu illərdə, mənim Azərbaycana rəhbərlik etdiyim dövrdə həmişə Azərbaycan xalqının mənə olan böyük etimadını, böyük məhəbbətini hiss etmişəm. Yəqin ki, elə bunlar da mənə bütün bu işləri, bu ağır işləri aparmağa həmişə kömək edibdir. Əgər bu etimad, bu inam olmasaydı, 1993-cü ildə Vətəndaş müharibəsinin qarşısını almaq olmazdı. Bilirsiniz ki, onun qarşısını mən xalqla birlikdə aldım. Yaxud da ki, 1994-cü ildə dövlət çevrilişinin qarşısını almağa xalq gəldi. Xalq mənim çağırışımla Prezident Sarayının qarşısına gəldi və çevriliş cəhdinin qarşısını aldıq. 1995-ci ilin mart ayında yenə xalqın dəstəyi ilə bunların qarşısını aldıq.

Ona görə mən artıq bir neçə dəfə xalqla birlikdə belə imtahanlardan çıxmışam. Xalqın mənə olan məhəbbəti məlumdur. Nəhayət, keçən ilin oktyabr ayında prezident seçkilərində demokratik seçkilər nəticəsində xalq yenə də mənə etimad göstərdi. Ona görə də bu təbiidir, onlar mənə daim etimad göstəriblər, daim öz məhəbbətlərini bildiriblər. İndi isə onlar həyəcanlanırlar – bu təbiidir.

İnsanın ailəsində bir adam xəstələnəndə, məsələn, mənim oğlum iki gün xəstə olanda mən narahat oluram, işdə olanda telefon edirəm – nə oldu, temperaturu varmı, yoxmu və s. Amma mən xalqımızla o qədər doğmalaşmışam ki, xalqın mənə münasibəti təbiidir və mən də buna görə Azərbaycan xalqına, bütün Azərbaycan vətəndaşlarına bir daha təşəkkürümü bildirirəm.



Buraya gəlməyim məni bir şeydən məhrum etdi. Bilirsiniz ki, 20 Yanvar faciəsi bizim xalqımızın böyük faciəsidir və bunu heç vaxt unutmaq olmaz. 1990-cı ildə bu faciə baş verən kimi, mən yanvar ayının 21-də Moskvada öz etirazımı bildirdim, öz səsimi dünyaya qaldırdım və o vaxtdan da mən Azərbaycan xalqına edilmiş bu təcavüzü xalqımızın həyatında ən dəhşətli bir səhifə hiss edirəm. Bizim şəhidlərin şəhidliyi və qəhrəmanlığı həmişə mənim üçün qiymətli olubdur. Ona görə də 1990-cı ildən indiyə qədər mən bu günü – matəm gününü həmişə xalqla bir yerdə keçirmişəm.

Məsələn, mən 1990-cı ildə Naxçıvana gəldim. Biz Naxçıvanda da 1991-ci ilin 20 yanvarını, 1992-ci ilin 20 yanvarını, 1993-cü ilin 20 Yanvarını böyük hüznlə qeyd edirdik. Çünki bu bizim xalqımızın faciəsidir və matəm günü elan olunubdur.

Mən Azərbaycana gələndən sonra bu sahədə bir neçə addım atdım. Təəssüflər olsun ki, Azərbaycanın Parlamenti, Milli Məclisi bu hadisə ilə bağlı lazımi müzakirə aparıb ona qiymət verməmişdi. Siz bunu bilirsiniz. Mən 1993-cü ilin sonunda, 1994-cü ilin əvvəlində təşəbbüs göstərdim və Azərbaycanın Milli Məclisi yanvar hadisələrini bir ay müzakirə etdi. 1994-cü ilin yanvarında böyük bir qərar çıxardıq. Mən hesab edirəm ki, bu da xalqımın qarşısında borcum idi. Amma təəssüflər olsun ki, mənə qədər dörd il bunu heç kəs etməmişdi və nəhayət, xalqımıza qarşı edilmiş bu təcavüzə qiymət verildi. Çox dolğun, düzgün, obyektiv qiymət verildi, günahkarlar göstərildi.

Ancaq bu faciə elədir ki, biz bunu heç vaxt unuda bilmərik. Çünki biz həmişə xalqımızın gələcəyi haqqında düşünməliyik. Bu şəhidlərin şəhidliyi, Şəhidlər Xiyabanı xalqımızın gələcək nəslinin, bugünkü gənclərin ziyarətgah yeridir və o şəhidlərin də şəhidliyi bizim hər bir vətəndaşımız üçün, gənclər üçün örnəkdir. Ona görə də mən son illər Şəhidlər Xiyabanının abadlaşması üçün də çox tədbirlər gördüm. Nəhayət, keçən il mən orada əbədi məşəl abidəsi yaratdım. Bu, şəhidlərin xatirəsinə bugünkü hakimiyyət, dövlət tərəfindən verilən qiymətdir.

Təbii ki, mən bu il də 20 Yanvar faciəsi ilə əlaqədar lazım olan tədbirlər haqqında sərəncam vermişdim, komissiya yaratmışdım. Onlar çox işlər görüblər. Mən sabah – yanvarın 20-də Bakıda olmalı idim və Şəhidlər Xiyabanını bir daha ziyarət etməli idim. Ancaq bu xəstəlik məni bundan məhrum etdi. Ona görə də mən xalqımızın bu faciəsini bir

daha xatırlayıram, şəhidlərin şəhidliyini bir daha yüksək qiymətləndirirəm və o yanvar gecəsi xəsarət almış insanlara cansağlığı arzu edirəm. Şəhidlərin ailələrinə cansağlığı və firavan həyat arzu edirəm. Xalqımıza isə bu gün daha da bir olmağı, daha da yekdil olmağı, milli mənafe naminə birləşməyi və gələcəkdə Azərbaycanın suverenliyinə, müstəqilliyinə qarşı ola biləcək hər bir hadisənin qarşısını almağa qadir olmağı arzulayıram. Sağ olun.



## ANS TELEŞİRKƏTİNİN XÜSUSİ MÜXBİRİNƏ MÜSAHİBƏ

*Ankara*
*19 yanvar 1999-cu il*

**Ankaradakı Gülhanə Tibb Akademiyasında müayinə və müalicə olunan Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev ANS teleşirkətinin xüsusi müxbirinə müsahibə vermişdir.**

**S u a l :** Cənab Prezident, Siz burada da işləyirsiniz. Xarici işlər nazirini qəbul eləmisiniz, Süleyman Dəmirəl burada olubdur.

**C a v a b :** Əlbəttə işləyirəm. Siz yəqin ki, bunları çəkdiniz. Dünən çox adamlar gəliblər. Süleyman Dəmirəl də, Bülənd Ecevit də gəldi, Hikmət Çətin də gəldi.

**S u a l :** Özünüzü necə hiss edirsiniz?

**C a v a b :** Normal.

**S u a l :** Cənab Prezident, rəsmi diaqnoz nə qoyublar?

**C a v a b :** Bilirsən, rəsmi diaqnozu doktor deyə bilər. Mən belə şeylərlə heç vaxt maraqlanmıram. Hər halda bir şey məlumdur ki, mən həftənin ikinci günü səhər duranda gördüm ki, bədənimdə nəsə ağrı var. Gündüz işlədim və hiss etdim ki, temperaturum var. Bunu bəzən hiss edirəm. Amma bu mənim üçün qeyri-adi bir şey deyildir. Bəzən ya soyuq dəyir, ya qrip oluram, amma bunları ayaqüstə keçirirəm. Düzdür, bu, az hallarda olur, amma ara-sıra olur. Ona görə də bu günlərdə – ikinci, üçüncü, dördüncü günlər mən işləyərkən bir gün rahatsız olurdum, bir gün yaxşı olurdum.

Nəhayət, beşinci gün mən çox işlədim. Saat on idi, gedəndə gördüm ki, bədənim artıq çox istidir. Gəldim, temperaturu ölçdüm, gördüm ki, yüksəkdir – 38 dərəcəyə yaxındır. Aspirin içdim ki, temperaturu aşağı salım. Mən artıq demişəm, doqquz ildir ki, həkimsiz yaşayıram, heç bir həkimlə əlaqəm yoxdur, heç bir müalicə aparmıram. Amma gecə gördüm ki, istiliyim daha da qalxır. Məndə bir az da öskürmə əmələ gəldi. Səhər, altıncı gün siyahıyaalma ilə əlaqədar müşavirə təyin eləmişdim, yadınızdadır.

**M ü x b i r :** Bəli, Sizi orada görmədik, ondan narahat olduq.

**H e y d ə r Ə l i y e v :** Bəli, saat 12-də onu mən özüm aparmalı idim. Fikrim də var idi ki, işə gəlim. Ancaq təxminən saat 1-ə yaxın gördüm ki, temperaturum çox qalxdı. Rasizadəyə və Mehdiyevə telefon elədim və dedim ki, iclası siz aparın, mən gəlməyəcəyəm.

Ondan sonra, axşam istiliyim daha da qalxdı. Mən yenə də istəyirdim ki, istiliyimi aspirinlə aşağı salım. Ancaq axşam saat 9-da, 10-da öskürmə artdı. Onda mən həkimlərə müraciət etdim. Gəldilər, mənə iynə – antibiotiklər vurdular. Məndə yüksək temperatur, öskürmə iki-üç saat davam etdi. Şübhəsiz ki, bunlar da məni bir az zəiflətdi.

İlham mənim belə vəziyyətimi gördü və dostum prezident Süleyman Dəmirələ sadəcə telefon etdi. Şübhəsiz ki, o da narahat olduğuna görə, dərhal iki təyyarə ilə həkimlər göndərdi. Onlar gələnə qədər artıq məndə temperatur da keçmiş, normallaşmışdı, öskürmə də kəsilmişdi və mən hesab edirdim ki, bazar günü yenə işə gedə bilərəm. Ancaq bunlar gəldilər, məsləhətləşdilər. Gecə Rusiyadan da bir briqada kardioloqlar gəldi, onlar da bizim Cəmilin (professor Cəmil Əliyev – red.) dostlarıdır, öz təşəbbüsü ilə telefon edib çağırmışdı.

Onlar və bunlar, yəni Türkiyədən gələnlər, Rusiyadan gələnlər məsləhətləşdilər və hamısı bir yerdə gəlib mənə dedilər ki, heç şey yoxdur. Ancaq bir halda ki, Siz doqquz ildir həkimsiz yaşayırsınız, heç bir müayinə keçməmisiniz – hər halda həyatınızda ağır bir neçə saat olubdur – ona görə də haraya istəyirsiniz, müayinəyə gedin.

Şübhəsiz ki, məni prezident Süleyman Dəmirəl dəvət etmişdi. Mən yenə də tərəddüd edirdim. Sonra həkimlər prezident Süleyman Dəmirələ xəbər verdilər. O mənə telefon etdi, çox təkidlə, qardaşyana dedi ki, səni görmək istəyirəm, buraya gəl – həm görüşək, həm də müayinə, müalicə olun. Ona görə də mən qərara aldım və gəldim buraya. Burada qeyri-adi bir şey yoxdur.

**S u a l :** Cənab Prezident, bizi narahat edən başqa şeydir. Azərbaycan televiziyasından Sizin səhhətiniz haqqında məlumatı eşidəndə, sözün düzü, çox nigaran olduq. Bu informasiyanın efirə getməsinə, ümumiyyətlə bu şəkildə yayılmasına Siz özünüzmü icazə vermisiniz?

**C a v a b :** Nəinki icazə vermişəm, bu mənim öz təşəbbüsüm idi. Çünki niyə? Bir halda ki, gecə Türkiyədən təyyarə ilə həkimlər gəldilər və Moskvadan həkimlər gəldilər, mən belə anladım ki, cürbəcür şayiələr yayılacaqdır. Ona görə mən özüm səhər Əli İnsanova göstəriş verdim, dedim ki, kiçik bir xəbər hazırla, ver. Çünki başqa dövlət başçıları xəstələnir, nə bilim, qrip olurlar, o dəqiqə məlumat verirlər. Mən də dedim ki, hazırla, ver. Mən bunu sadəcə, insanların cürbəcür şayiələr yaymamasına görə dedim. Bilirəm ki, bu həkimlərin gəlməyini kimsə görübdür, kimsə bilibdir. Hərə bir şayiə yayacaq ki, Türkiyədən birdən-birə həkimlərlə iki təyyarə gəldi. Ona görə də bunu mən özüm etdim.



**M ü x b i r :** Amma orada terminoloji çətinliklər var idi.

**H e y d ə r Ə l i y e v :** Nə idi?

**M ü x b i r :** Kəskin respirator virus infeksiyası fonunda obstruktiv... nə bilim nə. Bəlkə də camaatı çaşdıran elə bu olub ki, xəstəliyin adı belə çətindirsə, görəsən, özü necədir.

**C a v a b :** Yəqin ki, bizim səhiyyə naziri gərək daha sadə dildə deyəydi.

**S u a l :** Cənab Prezident, bu həm də strateji seçimdir – Siz Rusiyanı yox, məhz Türkiyəni seçdiniz. Bu, böyük neftin Ceyhandan keçməsi ilə bağlı Azərbaycan Prezidentinin daha bir eyhamı deyilmi?

**C a v a b :** Bilirsən, Siz jurnalistlər böyük şeyləri kiçildirsiniz. Bu, Azərbaycanla Türkiyə arasında olan dostluq, qardaşlıq əlaqəsinin bir daha təzahürüdür. Mənim prezident Süleyman Dəmirəllə də çox səmimi, qardaşcasına dostluğumun təzahürüdür. İnsan xəstələnəndə, yaxud bir çətinliyə düşəndə ən yaxın adamları ilə bir yerdə olur, elədirmi? Bunlar ailə üzvləridir, dostlarıdır. Süleyman Dəmirəl mənim çox qədim dostumdur. Otuz ildən artıqdır biz bir-birimizi tanıyırıq və əlaqələrimiz də həmişə davam edibdir. Gecə biz İlhamla bərabər onunla iki-üç dəfə telefonla danışırıq – başa düşürsünüz, narahat olubdur, məni də dəvət eləyibdir. Belə olan halda mən hara gedə bilərdim? Bu, birincisi. İkincisi də, əgər seçim olsaydı, mənim özümə qalsaydı ki, hansı ölkəyə gedim, mən yenə də Türkiyəyə gələcəkdim. Bu heç də Bakı-Ceyhanla əlaqədar deyildir. Bu, Azərbaycanla Türkiyənin əlaqələrinin nə qədər qardaşlıq əlaqələri olduğunu göstərir və bir də bizim münasibətlərimizin nə qədər strateji əhəmiyyət xarakteri daşıdığını göstərir.

**S u a l :** Sizin Süleyman Dəmirəllə münasibətlərinizdən mənim xəbərim var. Səhv eləmirəmsə, Siz demişdiniz ki, Süleyman Dəmirəl elə adamdır ki, mənim qolumu da istəsə, ona verərəm. Öz canınızı ona etibar eləməklə, bunu bir daha sübut etdiniz.

Amma bu sual mənim sualım deyil, müxalifət mətbuatında daha çox hallanan suallardan biridir. Yeri gəlmişkən, müxalifət mətbuatını izləyə bilirsinizmi, burada imkanınız varmı?

**C a v a b** : Bilirsiniz, mən heç vaxt ona o qədər fikir vermirəm. Bu gün burada mənə bir az danışdılar. Əgər sən bu barədə bir məlumat vermək istəyirsənsə, buyur.

**S u a l** : Sizin xəstəliyiniz müxalifət mətbuatında çox narahatlıqla izlənilir və bu narahatlıq çox özünəməxsusdur. Məsələn, mən bu ifadəni heç dilimə gətirmək istəmirəm, çox qəribə, axmaq hazırlıq, tədarük ovqatı var – nə bilim, Murtuz Ələsgərov hələlik prezident oldu və sair. Mən belə, bu tipli söhbətlərə Sizin münasibətinizi soruşmaq istəyirəm də, istəmirəm də.

**C a v a b** : Sən narahat olma, istə. Onların arzusu gözlərində qalacaqdır. Murtuz Ələsgərov prezident olmayacaqdır, çünki mən Prezidentəm. Mən sənə deyim ki, buraya gəlmək haqqında qərar qəbul edəndən sonra Təhlükəsizlik Şurasının üzvlərini və bir neçə başqa rəhbər vəzifəli şəxsləri iqamətgaha dəvət etdim, bu xəstəliyim haqqında özüm məlumat verdim. Onlara dedim ki, mən qərar qəbul etmişəm, Türkiyəyə gedirəm. Göstərişlərimi verdim – kim nə etməlidir, kim nə iş görməlidir və bəyan etdim ki, mənim elə bir ağır xəstəliyim yoxdur ki, səlahiyyətimi kiməsə verim.

Ona görə Prezident səlahiyyətləri mənim özümdədir. Mən bu gün də, dünən də Ankaradan Azərbaycanın Prezidenti səlahiyyətlərini həyata keçirirəm. Əlaqə saxlayıram, mənə məlumatlar verilir, mən göstərişlər verirəm. Ona görə də mən səlahiyyətlərimi heç kəsə verməmişəm. Nə üçün belə qəribə şeylər qururlar ki, «Murtuz Ələsgərov nə qədər prezident ola biləcəkdir?» Onlar yəqin ki, mənim vəfat etməyimi arzu edirlər.

Bilirsiniz, bu arzularla yaşayan insanlara mən insan deyə bilmərəm. İnsan bir-birinə nə qədər pis münasibət də bəsləsə, hətta düşmən də olsa, humanist olmalıdır. Amma müxalifətdə meydana gələn həmin o sən dediyin fikirlər onların nəinki humanist olmadığını, onların vəhşi olduğunu, mədəniyyətdən tamamilə uzaq olduqlarını göstərir.

Bizim xalqımızın mənəvi dəyərlərindən biri də odur ki, çətin vəziyyətdə insan həmişə başqa şeyləri unudub, öz xoş münasibətini göstərməlidir. Ancaq əgər mən bir gün xəstə olmuşamsa... başqaları, hökumət başçıları var, on gün, on beş gün xəstə olurlar. Nə oldu,



indi mən bir gün, iki gün xəstə olmuşam, belə cürbəcür fərziyyələr irəli sürürlər.

Mən sənə deyirəm və sən də bunların hamısını ver efirə: onların arzuları gözlərində qalacaqdır. Heydər Əliyev hələ bir çox illər prezidentliyini davam etdirəcəkdir və Azərbaycanın problemlərini həll edib, Azərbaycanı inkişaf etmiş bir dövlət kimi başqa əllərə verəcəkdir.

**S u a l** : İnşallah, nə vaxt çıxacaqsınız?

**C a v a b** : Bunlar deyirlər ki, hələ bir iki-üç gün də müayinə lazımdır. Mən bunlarla razıyam. Məsələn, bir şey deyim. Dünən diş həkimi gəlmişdi, deyir dişlərinizi göstərin. Baxır mənim dişlərimə, deyir ki, bunlar cümhur başkanının dişləri ola bilməz. Dedim niyə? Dişlərim sağlamdır, mən yeyirəm, özü də bu yaşımda hamısı öz dişlərimdir. Deyir ki, yox, bax, bunu müalicə etmək lazımdır, onu etmək lazımdır. Təsəvvür edin ki, həqiqətən, doqquz ildir mənim dişlərimə bir diş həkimi baxmayıbdır. Amma məsələn, vaxtilə mən Moskvada Siyasi Büroda işləyəndə qanun idi ki, gərək ayda bir dəfə dişlər profilaktika nöqteyi-nəzərindən yoxlanılsın, nə bilim, daş varsa, təmizlənsin, profilaktik dərmanlar vurulsun. O vaxt mən buna riayət edirdim, çünki orada o şəraitdə idim.

Amma mən 90-cı ildə oradan Naxçıvana gəldim – hansı imkanım var idi bunu etməyə? Bakıya gələndən sonra mənim imkanım var idi. Ancaq bunu bilin, mən belə qərar qəbul etdim: üç il ki, o ağır blokada şəraitində həkimsiz və böyük məişət çətinlikləri içərisində yaşadım, hesab etdim ki, bundan sonra da heç bir həkimə, tibbə müraciət etməyəcəyəm, təbiət, Allah-taala məni yaşadıb, yaşadacaqdır. Enerjim var, işləyirəm, yorğunluğum-filanım yox, nə üçün müraciət edim.

Ona görə də indi bunlar deyirlər – bir halda ki, doqquz ildir müayinə olunmamısan, bir neçə gün də qalmaq lazımdır. Düzdür, gələn günü çox şeyləri – qan analizi, başqa şeylər ediblər, cürbəcür aparatlarla baxıblar. İndi mənim burada olmağım yalnız bununla bağlıdır.

Mən də düşündüm – bir halda ki, «ibtidai icma şəraitində» doqquz il yaşamışam, heç olmasa indi müasir şəraitə keçim. Ona görə razılıq verdim ki, qoy nə yoxlama aparırlarsa-aparsınlar, orqanizmin bütün hüceyrələrini yoxlasınlar, bilsinlər nə var, lazım olsa, müxalifətə də göstərərlər ki, arxayın olsunlar.

**S u a l :** Heydər müəllim, bu, balaca da olsa, sınaqdır. Mən son sualımı verirəm, Sizi yormaq istəmirəm. Bu sınaqdan yaxın və uzaq ətrafınız necə çıxdı? Bir Prezident kimi bunu necə qiymətləndirirsiniz?

**C a v a b :** Bu sınaqdan mən özüm çıxıram, necə yəni yaxın və uzaq... Mən xəstələnən kimi oğlum yanımda, yaxınlarım, ailə üzvlərim mənim yanımdadır. Başqa bir adam yoxdur mənim yanımda. Yəni o axşam ki, məndə temperatur qalxdı, səhərə qədər heç bilmirdilər, mən telefon eləyənə qədər heç xəbərləri də yox idi ki, gecə Süleyman Dəmirəl mənə telefon edib, həkimlər göndəribdir. Heç birisinin xəbəri yox idi, hamısı yatmışdı. Amma ona görə yox ki, onlar biganə olmuşdular. Sadəcə, mən heç kəsə heç bir şey deməmişdim, çünki buna ehtiyac duymamışdım. Mən hesab edirdim ki, keçib gedəcəkdir. Ona görə də mən özüm onları dəvət etdim, sınaqdan keçməyə imkanları da yox idi. Mən onları özüm dəvət etdim, göstərişlərimi verdim. Güman edirəm, onlar mənim göstərişlərimi düzgün yerinə yetirirlər.

Amma İlham da təsadüfi gəlmişdi. Eşitdi ki, mən işə çıxmamışam – özü işdə idi – telefon elədi ki, niyə işə çıxmamısan? Dedim ki, belədir. Dedi, yaxşı, gələcəyəm. İndi mənə deyir ki, saat 4-də gəlmək istəyirdim, sonra işdə başım qarışdı. Axşam saat 9-da gəldi. O gələndə məndə temperatur artıq çox yüksək idi, öskürək də artmışdı. Yaxud da qardaşım Cəlal – deyəsən gecə yarısı idi – haradansa bilmişdi, gəlmişdi. İlham gələndən sonra bizim Cəmili dəvət etmişdi. Çünki Cəmil də bizim yaxın qohumumuzdur, həkimdir, doğma adamdır. Mənim yanımda başqa bir adam yox idi. Sonra həkimlər gəldilər.

**S u a l :** «Azərbaycan» qəzetində verilmiş rəsmi informasiyaya əsasən, konsiliumda kardioloqlar çoxdur. Yeri gəlmişkən, müxalifət mətbuatı Sizin bronxlarınız haqqında yox, nə üçünsə, ürəyiniz haqqında yazır.

**C a v a b :** Yəqin ki, müxalifət tibbdən az şey bilir. Mənim əsas bronxlarımdır. Ancaq bronxlar ürəklə çox sıx əlaqədədir. Onlar bu işləri yəqin bilmirlər. Bu da məlumdur, gizlin deyil ki, mən 1987-ci ildə Moskvada infarkt xəstəliyi keçirmişəm. Ancaq sonra mən çox enerjili yaşadığıma görə, məndə bəzən şübhə olurdu ki, bəlkə heç infarkt olmayıb. Sadəcə, o vaxtlar məni işdən uzaqlaşdırmaq istəyir, mənim başıma işlər gətirirdilər. Amma indi bunlar yoxladılar ki, həqiqətən məndə infarktın izi var. İndiyə qədər yoxlanmamışdı, indi dedilər ki, infarktın balaca bir izi var. Ona görə də təbiidir, ürəklə ağ ciyər bir-biri ilə çox bağlıdır. Əgər tibb mövzusuna keçsək, orqanizmin hər bir orqanı bir-biri ilə bağlıdır.



**M ü x b i r :** Heydər müəllim, Sizi yormuram. Tez sağalın, Allah şəfa versin, Sizi Bakıda gözləyirik.

**H e y d ə r Ə l i y e v :** Sağ ol. Mən təşəkkür edirəm ki, sən maraq göstərib buraya gəlmisən.

## RUSİYANIN NTV TELEKANALININ MÜXBİRİ İLƏ MÜSAHİBƏ

*Ankara*
*20 yanvar 1999-cu il*

**Azərbaycan Prezidenti Heydər Əliyev yanvarın 20-də Ankarada Rusiyanın NTV telekanalının müxbirinə müsahibə vermişdir. Dövlətimizin başçısı həmin gün ölkəmizdə 9-cu ildönümü qeyd edilən faciə barədə fikirlərini söyləmişdir.**

– Bu gün yanvarın 20-dir. Bu gün Azərbaycan üçün matəm günüdür. Ona görə matəm günüdür ki, 1990-cı il yanvarın 20-də Siyasi Büronun qərarı ilə və şəxsən Mixail Qorbaçovun qərarı ilə iri qoşun kontingenti insanları əzmək üçün bir gecənin içində Azərbaycana, xüsusən Bakıya yeridildi. Bu insanlar Dağlıq Qarabağla əlaqədar Ermənistanın Azərbaycana hücumunun qarşısını almaq və mərkəzin – mən sovet rəhbərliyini nəzərdə tuturam – Azərbaycan barəsində fəaliyyətindəki ədalətsizliyə son qoyulması üçün o vaxtkı Azərbaycan rəhbərliyindən də, Sovetlər İttifaqının rəhbərliyindən də daha təsirli tədbirlər görülməsini tələb edirdilər. Amma rəhbərlikdə olanlar bu dinc adamlara qarşı qoşun yeritməkdən başqa ayrı heç nə tapmadılar. Özü də bilirdilər ki, onlarda silah yoxdur, heç nə yoxdur, onlar, sadəcə olaraq öz etirazını, öz fikrini bildirmək üçün meydanlara toplaşırlar. Bu, xalqdır. Lakin qoşun yeridib camaatı qırdılar. Bir gecədə 135 adam həlak oldu, onların arasında uşaqlar, qadınlar, qocalar vardı, halbuki bu adamlar həmin mitinqlərdə iştirak etməmişdilər. 740, yaxud 750 adam ağır yaralandı.

Bax, belə bir ədalətsizlik oldu. Mən Sovetlər İttifaqının tarixini, İkinci Dünya müharibəsinə qədərki tarixini də, ondan sonrakı tarixini də yaxşı bilirəm. Deyərdim ki, öz dövləti tərəfindən heç bir respublikaya qarşı belə təcavüz olmamışdı. Siz bu təcavüzün miqyasını təsəvvürünüzə gətirin, müdafiə naziri marşal Yazov, daxili işlər naziri Bakatin, Quru Qoşunlarına komandanlıq edən ordu generalı Varennikov, DTK sədrinin birinci müavini, ordu generalı Babkov və başqaları orada oturmuşdular. Azərbaycanda, bu kiçik respublikada görəsən nə olmuşdu ki, oraya bu qədər qoşun, bu qədər yüksək rütbəli generallar cəmləşdirmək, hamını qırmaq lazım idi? Küçələrdə qan tökdülər. Yaralar hələ də sağalmayıbdır. Olduqca ağır cinayət törədilmişdir.



Həmin vaxt mən Moskvada idim. Yeri gəlmişkən, qrip keçirdikdən sonra Barvixada istirahətdə idim. Bundan xəbər tutan kimi Moskvaya gəldim. Yanvarın 21-də Moskvada yaşayan azərbaycanlılar qarşısında çıxış etdim. Onlar Azərbaycanın daimi nümayəndəliyinin binası qarşısına toplaşmışdılar. Buraya bir neçə min adam toplaşmışdı və onların hamısı bu hadisədən çox böyük ürək ağrısı keçirirdi. O vaxt mən Qorbaçov başda olmaqla rəhbərliyin bu xalqa zidd siyasətinə qarşı etirazımı bildirdim.

Sonra məni gözümçıxdıya saldılar, təqib edirdilər, qəzetlərdə mənim barəmdə cürbəcür məqalələr dərc edirdilər və sairə. Hiss edəndə ki, görünür, tamamilə divan tutana qədər məni təqib edəcəklər, 1990-cı ilin yayında Moskvadan çıxıb getdim. Yeri gəlmişkən, mənə hətta Moskvadan çıxıb getməkdə də bir neçə dəfə əngəl törətdilər.

Bu, tarixdir. Siz mənim yanıma elə bir gündə gəlmisiniz ki, mən həmin gün haqqında danışmaya bilmərəm. Mən çox həyəcan keçirirəm, çünki mən indi, bu gün Bakıda deyiləm. Belə ki, hər il bu gün biz həmin təcavüzün qurbanlarının məzarlarını ziyarət edirik.

Məni təəccübləndirən budur ki, sonradan bütün bu işləri ört-basdır etməyə başladılar. Bunda Azərbaycan rəhbərliyinin, Azərbaycan Kommunist Partiyasının da təqsiri var idi. Lakin kommunist rejimi dövründəki həmin adamlar 1991-ci ildə Sovetlər İttifaqı dağıldıqdan sonra da rəhbərlikdə qalırdılar.

Müxtəsəri, 1993-cü ildə mən Bakıya gəldikdən sonra, 1994-cü ilin yanvarında biz bu məsələni Parlamentdə müzakirə edib, ona siyasi qiymət verdik. Əlbəttə, bu faciədə cinayətkar olan sovet rəhbərliyi, xüsusən də bunu törədən Qorbaçovun şəxsən özü öz cinayətləri barədə bir söz deyə bilməzdi. Amma məni təəccübləndirən budur ki, nə üçün indi, aradan bu qədər vaxt keçdikdən sonra heç kim bu cinayətdən danışmaq istəmir. Bu fürsətdən, sizin televiziyanızdan istifadə edərək – ümidvaram ki, siz bunu verəcəksiniz, kəsməyəcəksiniz – demək istəyirəm, ona təəccüblənirəm ki, nə üçün demokratik Rusiya sovet totalitar rejimində olmuş bir çox şeyləri pislədiyi halda, onun bu qara səhifəsini də açmaq istəmir. Əlbəttə, biz istərdik ki, təqsirkarlar cəzalandırılsın. Amma indi bəlkə də ən çox lazım olan bu deyildir. Daha çox lazım olan peşmanlıqdır, daha çox lazım olan etirafdır, daha çox lazım olan

ədalətlilikdir. Axı biz sonradan etiraf etdik ki, Sovetlər İttifaqı 1956-cı ildə Macarıstana qoşun yeritməklə səhvə yol vermişdi. Axı 1968-ci ildə Çexoslovakiyaya qoşun yeridilməsinin də səhv olduğunu etiraf etdik. Yadımdadır, Moskva mətbuatı Xruşşovun dövründə Rostov vilayətində kütləvi iğtişaşların necə yatırıldığını, Siyasi Büro üzvlərinin oraya getdiyini yazmışdı. O hadisə də pislənilir. Elə isə bəs nə üçün bu hadisə pislənilmir? Nə üçün?

Təkrar edirəm, ola bilsin, onlar bunu etməyə qadir deyildilər, çünki özləri cinayətkar idi. Amma haqq-ədalətin bərpa olunması naminə və Rusiya xalqı ilə Azərbaycan xalqı arasında mehriban, dostluq münasibətlərinin inkişaf etməsi naminə demokratik Rusiya buna qiymət verməlidir. Məsələn, mən belə hesab edirəm, əgər Rusiya hökuməti, Rusiya özünü Sovetlər İttifaqının hüquqi varisi elan edibsə, onda təbii ki, Sovetlər İttifaqının beynəlxalq aləmdə istifadə etdiyi imkanların hamısından istifadə etməlidir. Bununla bərabər, sovet rəhbərliyi tərəfindən törədilmiş mənfi, rüsvayçı, cinayətkar əməllər barəsində Rusiya öz mövqeyini aydınlaşdırmalı və müəyyənləşdirməlidir. Bu iş isə heç də çoxdan deyil, 1990-cı ildə baş vermişdir.

Odur ki, bu fürsətdən istifadə edərək Rusiya ictimaiyyəti üçün bəyan edirəm və Rusiya rəhbərliyinə üz tuturam ki, onlar 1990-cı ildə sovet rəhbərliyi tərəfindən törədilmiş cinayətə görə peşmançılıq çəkmək, belə bir cinayətə yol verildiyini etiraf etmək səviyyəsinə qalxmaq üçün nə etmək lazım olması barədə, hər halda düşünsünlər. Bu, Azərbaycan xalqı ilə Rusiya xalqı arasında münasibətlərin daha da yaxşılaşmasına kömək edə bilərdi.



## TÜRKİYƏNİN «NƏRGİZ-TV» TELEVİZİYSINA MÜSAHİBƏ

*Ankara, Gülhanə Tibb Akademiyası*
*20 yanvar 1999-cu il*

**S u a l :** Hörmətli Prezident Heydər Əliyev, Türkiyəyə xoş gəlmisiniz. Ramazan bayramı münasibətilə Sizi təbrik edirəm. Siz bayramı Azərbaycandan kənarda keçirirsiniz. Bu barədə nə demək istərdiniz?

**C a v a b :** Mən də Sizin bayramınızı təbrik edirəm və «Nərgiz-TV» vasitəsilə qardaş Türkiyə Cümhuriyyətinin bütün vətəndaşlarına öz bayram salamlarımı yetirirəm.

Bəli, ilk dəfədir ki, Ramazan bayramı zamanı ölkəmizdə deyiləm. Amma Türkiyə də mənim üçün doğma bir yerdir. Ona görə də bu, o qədər də fərqli deyildir.

Siz onu da bilməlisiniz ki, bu gün Azərbaycanın tarixində ən faciəli günlərdən biridir. Bu gün 20 Yanvar faciəsi günüdür. 1990-cı il yanvarın 20-də sovet kommunist rejimi Azərbaycan xalqının suverenliyinə, milli azadlıq duyğularına qarşı hərbi təcavüz etmişdir. Azərbaycana, xüsusən Bakı şəhərinə bir gecənin içində çoxsaylı əsgər, ordu dəstələri yeridilmiş, tanklardan, toplardan atəş açılmış, günahsız, dinc insanlar qırılmışdır. Bir gecədə 135 nəfər həlak, şəhid oldu, 740-750 nəfərdən çox adam yaralandı, xəsarət aldı. Onlar indi də həmin yaralarla yaşayırlar.

Bu gün Azərbaycanda matəm – hüzn günüdür. Mən həmişə 20 Yanvarda matəm mərasimlərində oluram. Amma bu il bundan məhrum oldum. Bu matəm mərasimlərinə bu il də əvvəlcədən böyük hazırlıq işləri görülübdür.

Türkiyədə özümü doğma məmləkətimdəki kimi hiss edirəm. Ona görə də burada heç bir sıxıntım yoxdur.

**M ü x b i r :** Cənab Prezident, Siz öz xalqınıza bu barədə demək istədiyiniz sözlərinizi «Nərgiz-TV» vasitəsilə də çatdıra bilərsiniz.

**H e y d ə r Ə l i y e v :** Mən şəhidlər günü münasibətilə Azərbaycan xalqına bir daha iradəli olmağı arzulayıram. Azərbaycanın müstəqilliyini qorumaq üçün hər bir vətəndaş əlindən gələni etməlidir.

1990-cı il 20 Yanvar faciəsi baş verəndə Azərbaycan Sovetlər Birliyinin tərkibində idi. Ancaq 1991-ci ildə Azərbaycan öz dövlət müstəqilliyini əldə etdi. Bu da Azərbaycan xalqının tarixində çox böyük bir hadisədir.

Biz 7 ildir ki, Azərbaycanın müstəqilliyini qoruyub saxlamışıq. Əlbəttə, bu bizim üçün o qədər də asan bir iş deyildir. Ancaq xalqımız müstəqil yaşamaq istəyir. Ötən 7 ildə bu müstəqilliyi yaşatmaq Azərbaycan Prezidenti kimi mənim vəzifəm olubdur.

Bu matəm günü arzu edərdim ki, insanlarımız tökülən qanları, verilən şəhidləri heç vaxt unutmasınlar və Azərbaycanın müstəqilliyi uğrunda bundan sonra daha da sıx birləşsinlər.

**S u a l :** Hörmətli Prezident, Siz Süleyman Dəmirəllə görüşünüzdə dediniz ki, 9 ildir həkimlərə müraciət etmirsiniz.

**C a v a b :** Bəli. Çünki həkimlərə ehtiyacım yox idi. Mən Moskvadan 1990-cı ildə ayrılmışam. Təbii ki, orada mənim həkimlərim var idi. Ancaq ondan sonra mənim həyatım çox çətin şəraitdə keçdi. Öz həkimim olmasına imkanım yox idi, amma heç ehtiyac da duymurdum. Hesab edirdim ki, mənim orqanizmim çox möhkəm və dözümlüdür, həkimsiz də yaşamaq olar. Mən 9 il həkimsiz yaşamaqla bunu sübut etdim və belə bir eksperiment də keçirdim.

**S u a l :** Cənab Prezident, Sizi burada Türkiyənin və Azərbaycanın həkimləri birgə müayinə və müalicə edirlər. Bundan məmnunsunuzmu?

**C a v a b :** Məmnunam. Mən bu xəstəxanadan çox məmnunam. Ən öncə, mənim əziz dostum, qardaşım, Türkiyənin cümhur başqanı Süleyman Dəmirəldən çox məmnunam ki, o mənim kiçik rahatsızlığımla maraqlandı, telefon etdi, həkimlər göndərdi və məni Türkiyəyə dəvət etdi. Buraya gəldiyim andan mən onun qayğısı altındayam. Hər gün görüşürük. Bu gün də buraya gəlmişdi, yenə də görüşüb söhbət etdik. Mən çox məmnunam. Eyni zamanda, burada mənə qayğı, diqqət göstərən insanlardan çox məmnunam. Baş nazir Bülənt Ecevit, Parlament sədri Hikmət Çetin buraya gəliblər, digərləri isə telefon edirlər, teleqramlar göndərirlər.

Bu xəstəxana da çox gözəl bir xəstəxanadır. Mən çox sevinirəm ki, Türkiyə Respublikasının belə gözəl hərbi xəstəxanası və həkimləri vardır. Burada dünyanın ən müasir müayinə və müalicə üsullarından istifadə edilir, ən önəmlisi odur ki, çox təcrübəli, bilikli həkimlər fəaliyyət göstərirlər. Onlar mənə çox yaxşı xidmət göstərirlər.



**S u a l :** Hörmətli Prezident, Türkiyə ilə Azərbaycan arasında əlaqələr qısa müddətdə çox sürətlə inkişaf edibdir. Bunun gələcəyini necə görürsünüz?

**C a v a b :** Gələcəyi çox yaxşı olacaqdır. Çünki bizim əlaqələrimizin bu səviyyəyə gəlib çatması asan bir iş deyildir. Bu həm Türkiyənin, həm Azərbaycanın, həm xalqlarımızın, həm də hökumətlərimizin qarşılıqlı istəyi, arzusu nəticəsində meydana gəlmişdir. Amma buna mane olmaq, onu pozmaq istəyənlər də çoxdur. Ona görə də biz çox sayıq olmalıyıq, bu dostluğumuzu qorumalıyıq, möhkəmləndirməliyik.

Bizim bu dostluğumuzun çox böyük gələcəyi vardır. Onun gələcəyi bizim kökümüzdədir. Bizi tarixi kökümüz birləşdirir. Amma eyni zamanda ölkələrimiz arasında yaranmış siyasi, iqtisadi əlaqələr Azərbaycan-Türkiyə əməkdaşlığını daha da inkişaf etdirəcəkdir.

Bilirsiniz ki, Türkiyə Cümhuriyyətinin 75-ci ildönümündə – oktyabrın 29-da biz Ankarada böyük bir bəyannamə imzaladıq. Bakı-Ceyhan boru kəməri tarixi bir hadisədir. O, XXI əsrin sonunadək yaşayacaq, Türkiyə və Azərbaycan üçün çox böyük faydalar gətirəcəkdir.

**S u a l :** Cənab Prezident, Siz Türkiyə – Azərbaycan dostluğunu pozmaq istəyənlərdən danışdınız. Bunlar kimlərdir və nə etmək istəyirlər?

**C a v a b :** Sizdə «paxıl» sözü var? Yəni bir adamın yaxşı olmasını istəməyən. Bu hər bir yerdə vardır. Bəzən görürsən ki, iki adam dost olur, amma üçüncüsü onu pozmaq istəyir. Elədirmi?

Dövlətlərə gəldikdə, Türkiyə dünyanın ən böyük və iqtisadi cəhətdən inkişaf etmiş güclü dövlətlərindən biridir. Azərbaycan isə Qafqazda coğrafi-siyasi cəhətdən çox böyük strateji mövqe tutan bir ölkədir. Azərbaycanın çox zəngin təbii yeraltı sərvətləri vardır. Azərbaycan Xəzərdəki yataqlardan neftin, qazın dünya bazarına çıxarılmasında çox böyük işlər görübdür. Ancaq bir çox ölkələr də vardır ki, onlar da bu işdə iştirak etmək istəyirlər. Onlar istəmirlər ki, Türkiyə ilə Azərbaycan bu qədər yaxın olsunlar. Bunların səbəbləri çoxdur, qısa vaxtda onların hamısını söyləmək mümkün deyildir.

**S u a l :** Cənab Prezident, təşəkkür edirəm. Sevinirəm ki, səhhətiniz çox yaxşıdır. Sizi belə yaxşı görmək bizi çox məmnun etdi. «Nərgiz-TV» ilə daha nə demək istərdiniz?

**C a v a b :** Mən «Nərgiz-TV» televiziyasına təşəkkür edirəm. «Nərgiz-TV» 1997-ci ildə məni «Dünyada ilin dövlət adamı» elan etdi. Siz

məni İstanbula dəvət etdiniz, orada mənə mükafat verdiniz, çox təntənəli bir mərasim keçdi. Mən onu unutmuram, çox yüksək qiymətləndirirəm. «Nərgiz-TV»nin verilişləri indi Azərbaycanda da yayılır. Azərbaycanda onun bürosu fəaliyyət göstərir.

Mənim dostum Cavid Çağlar vaxtilə Bakıya gəldi, biz bu məsələləri onunla bərabər həll etdik. Mən arzu edirəm ki, «Nərgiz-TV» daha da geniş yayılsın, böyük uğurlar əldə etsin.

Mən bu imkandan istifadə edib Türkiyənin bütün vətəndaşlarını Ramazan bayramı münasibətilə bir daha təbrik edirəm, türk xalqına sülh, əmin-amanlıq və səadət arzulayıram.

**M ü x b i r :** Hörmətli Prezident, Sizə çox təşəkkür edirəm. Sizə cansağlığı və işlərinizdə uğurlar arzulayıram.

**H e y d ə r  Ə l i y e v :** Sağ olun.



## «MOSKOVSKİ KOMSOMOLETS» QƏZETİNİN MÜXBİRİNƏ MÜSAHİBƏ

*Ankara*
*26 yanvar 1999-cu il*

**Xəbər verdiyimiz kimi, Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Ankarada Gülhanə Tibb Akademiyasında onun üçün ayrılmış müalicə-istirahət otağında Rusiyanın «Moskovski komsomolets» qəzetinin şərhçisi Aleksandr Budberqə müsahibə vermişdir.**

**S u a l :** Birinci sual ən təbii və aşkar sualdır: Sizə nə olmuşdur, Türkiyəyə müalicəyə getmək zərurəti nədən yaranmışdır və indi Siz özünüzü necə hiss edirsiniz?

**C a v a b :** Bəri başdan deyim ki, özümü çox yaxşı hiss edirəm. Bəs, mənə nə olmuşdu? Bilirsiniz, Moskvadan getdiyim 9 ildə mənim həkimim olmayıb, təbabətin xidmətlərindən istifadə etməmişəm. Bütün bu illər ərzində həkimsiz yaşamışam. Doğrudur, mənə soyuq dəyən və ya qriplə xəstələndiyim vaxtlar olub. Ancaq mən özümü aspirinlə, bəzi digər dava-dərmanla müalicə edirdim. Bu baxımdan uşaqlarım mənə bələddirlər və nə lazımdırsa edirlər. Mən 9 ili bax, beləcə, yaşamışam. Deməliyəm, inanmışam ki, məndə həqiqətən elə bir orqanizm var ki, o, gecə-gündüz işləyə bilər və mənə təbabət gərək deyildir. Buna görə də, məsələn, soyuq dəyəndə və ya qriplə xəstələndiyimi hiss etdikdə evdə oturmurdum, bunu ayaq üstündə keçirirdim və hər şey, bir qayda olaraq normal keçirdi.

Bu dəfə, daha doğrusu, bazar ertəsi özümü rahatsız hiss etdim. Axşam hiss etdim ki, mənə ya soyuq dəyib, ya da qrip olmuşam. Bununla belə, çərşənbə axşamı işə getdim. Axşam temperaturum təxminən 38 dərəcəyə qalxdı. Aspirin atdım və qızdırmasalan başqa dərmanlar içdim. Ertəsi gün temperaturum düşdü, mən yenə də işə getdim. Amma özümü, əlbəttə, tam sağlam hiss etmirdim. Kabinetdə üşüyürdüm, hətta iki dəfə işçiləri çağırıb soruşdum ki, otaq nə üçün belə soyuqdur, onlar isə deyirdilər ki, «xeyr, soyuq deyil».

Mən təxminən cümə gününədək belə işlədim. Cümə günü axşam temperaturum kəskin surətdə qalxdı, məndə öskürək əmələ gəldi. Belə

olduqda mən həkim çağırdım. O mənə dedi ki, Siz qripsiniz və hansısa dərmanları verdi. Görünür, qrip artıq bronxlara fəsad vermişdi. Onlar mənə dedilər ki, bronxlarınızdır. Odur ki, müvafiq dərmanlar verdilər.

Cümə günündən şənbəyə keçənədək belə oldu. Şənbə günü işə getməli idim, çünki saat ikiyə əhalinin siyahıyaalınmasına həsr olunmuş böyük respublika müşavirəsi təyin etmişdim. Azərbaycanda yanvarın 27-dən fevralın 3-dək əhalinin siyahıyaalınması keçirilir. Bu mühüm işdir. Ona görə də böyük respublika müşavirəsi təyin etmişdim və saat ikidə bu müşavirəyə getməli idim. Ancaq hiss etdim ki, yox, temperaturum da var, qüvvəm də kifayət qədər deyildir. Odur ki, müşavirəni keçirməyi işçilərimə tapşırdım, özüm isə hər halda evdə qaldım. Günün sonuna yaxın məndə güclü öskürək əmələ gəldi, temperatur çox yüksəyə qalxdı. Buna görə də axşam saat 9 radələrində həkimləri çağırmaq lazım gəldi. Onlar ağ ciyərimi rentgenə saldılar və orada dəyişikliklər gördülər. Yəni hansısa bir pis qrip virusu ağ ciyərə fəsad vermişdi ki, bu da çox yüksək temperatura, öskürəyə səbəb olmuşdu.

Bu baxımdan həmin axşam bütün bu illər ərzində mənim üçün qeyri-adi bir axşam oldu. Uşaqlarım, oğlum yanımda idilər. Həkimlər gecədən xeyli keçənədək yanımda qaldılar, sonra da dedilər ki, stasionar müalicə lazımdır. Əlbəttə, bizim Bakı xəstəxanasına gedə bilərdim. Amma təəssüflər olsun, bizim bu xəstəxananın təchizatı lazımi səviyyədə deyildir. Buna görə də qarşıya sual çıxdı: nə etməli?

Türkiyə prezidenti, dostum Süleyman Dəmirəl bundan xəbər tutdu. O, oğlumla telefonla danışdı, narahat olduğunu söylədi və dedi ki, dərhal həkimlər göndərir. Həqiqətən, elə həmin gecə iki təyyarə ilə iki həkim briqadası Bakıya gəldi. O, əvvəlcə bir briqada, sonra ikinci briqada göndərdi. Sonra mənim qohumum, uzun illər Moskvada işləmiş və bir çox moskvalı həkimlərlə tanış olan tibb professoru məsləhətləşmək üçün onlara zəng vurdu. Onlar öz xidmətlərini təklif edərək dedilər ki, gələ bilərlər və gəldilər. Amma həm Türkiyədən, həm də Moskvadan gəlmiş həkimlər mənə baxdıqda yekdilliklə qərara aldılar ki, mən xəstəxanada ətraflı müayinə olunmalı və müəyyən müalicə kursu keçməliyəm, çünki qrip böyük fəsad vermişdi. Yenə də onlar təkid etdilər ki, mən getməliyəm. Mən isə onlara dedim ki, gəlin müalicəni yaşadığım yerdə təşkil edin. Amma dedilər ki, bu mümkün deyildir. Bütün gün danışıqlarda keçdi – onlar getməyimi təkid edirdilər, mən isə istəmirdim.



Prezident Süleyman Dəmirəl bundan xəbər tutan kimi bir də telefon etdi, mənimlə danışıb dedi ki, həkimlər ona məlumat verirlər ki, mən xəstəxanaya getməliyəm. Buna görə də o məni buraya təkidlə dəvət etdi və bildirdi ki, onlarda çox yüksək səviyyədə olan Hərbi Tibb Akademiyası var. Günün sonuna yaxın mən qərara aldım və buraya gəldim. Hava limanında məni prezident Süleyman Dəmirəl, digər rəhbərlər çox səmimi qarşıladılar və buraya gətirdilər. Beləliklə, müalicə başlandı. Mən nə üçün Türkiyəyə gəldim? Vəziyyət belə idi.

**S u a l :** Bəs nə üçün Rusiyaya getmədiniz?

**C a v a b :** Bilirsiniz, mənim səhhətimə Türkiyə tərəfindən dövlət səviyyəsində maraq göstərildi. Qohumumun dəvət etdiyi rusiyalı həkimlər qeyri-rəsmi surətdə gəlmişdilər. Mənə Rusiyadan dəvət yox idi. Burada isə mənim müalicəm üçün hər şey artıq hazırlanmışdı. Sonra düşündüm ki, Rusiyada onun öz xəstələri var, nəyə görə mən onlara əlavə zəhmət verməliyəm.

**S u a l :** Heydər Əliyeviç, hazırda Moskvada belə siyasi şayiələr yayılıb ki, əslində, Sizin xəstəliyiniz qismən diplomatik xarakter daşıyır, NATO-nun və ya Türkiyənin hərbi bazalarının Azərbaycan ərazisində yerləşdirilməsi haqqında Türkiyə ilə gizlin danışıqlar aparmaq üçün xəstəliyinizdən bir bəhanə kimi istifadə etmisiniz. Siz bunu necə şərh edərdiniz?

**C a v a b :** Bilirsiniz, şayiələr həmişə və hər yerdə – Rusiyada da, başqa ölkələrdə də çoxdur. Mənim xəstəliyimə və qəflətən xəstəxanaya düşməyimə bütün dünyada maraq göstərilmişdir. Avropada, Amerikada, Rusiyada, şübhəsiz ki, başqa ölkələrdə də, hətta ərəb ölkələrində də bir çox qəzetlər müvafiq xəbərlər, şərhlər vermişlər ki, Əliyev xəstələnibdir. Mən hətta təəccübləndim – ömrümdə bir dəfə xəstələnmişəm və bu da belə maraq doğurmuşdur. Mən artıq 6 ilə yaxındır Bakıdayam, respublikaya başçılıq edirəm, Prezidentəm, bir dəfə də xəstələnməmişəm. Digər ölkələrdə hökumət, dövlət başçıları xəstələnirlər də, istirahət də edirlər və heç kim narahat olmur. Yeri gəlmişkən, mən dövlət və hökumət başçılarından çoxlu teleqram, o cümlədən Rusiyanın baş naziri Yevgeni Maksimoviç Primakovdan, Rusiyanın bir çox qubernatorlarından, Moskva şəhərinin meri Yuri Lujkovdan teleqramlar almışam. Onlar teleqramları xəstəxanaya düşdüyümdən xəbər tutan kimi, elə həmin gün göndəriblər.

Yəni danışıqlar aparmaq üçün – biz isə onları açıq şəkildə aparırıq – bütün dünyaya yaymaq lazım deyildi ki, mən xəstələnmişəm. Əlbəttə, bunlar qeyri-ciddi şayiələrdir. O ki qaldı danışıqlara, şübhəsiz, biz onları həmişə apara bilərik, bunun üçün bizdə məhdudiyyət yoxdur. Yeri gəlmişkən, Türkiyə kimi ölkənin prezidenti ilə də, baş naziri ilə də daim əlaqə saxlayırıq. Danışıqlar aparmaq üçün bu elə bir problem deyildir. Lazım olduqda onlar Azərbaycana gəlirlər, mən buraya gəlirəm.

**Sual:** Gəlin, bu maraqlı mühitdən ayrılaq, Türkiyə hərbi bazalarının və ya NATO bazalarının Azərbaycanda yerləşdirilməsinin mümkünlüyü problemini müzakirə edək. Belə bir imkan varmı və bu nə dərəcədə aktualdır?

**Cavab:** Siz məsələni nə üçün məhz bu cür qoyursunuz?

**Müxbir:** Ona görə ki, son günlər Rusiya mətbuatında da, Azərbaycanın bir neçə rəsmi şəxsinin bəyanatlarında da hətta ehtiyatla yox, açıqca deyilir ki, bəli, belə imkan var, bu müzakirə olunur. Rəsmi şəxslərin dediklərini, yəni həqiqət olub-olmadığını Prezident kimi Siz müəyyən edirsiniz.

**Heydər Əliyev:** Bilirsinizmi, Azərbaycanda xarici hərbi bazalar yoxdur. Ancaq bəzi MDB ölkələrində, o cümlədən Ermənistanda Rusiyanın hərbi bazaları var. Gürcüstanda da müvafiq hərbi hissələri var. Nədənsə, bir çox MDB ölkələrində sərhədlərin birgə mühafizəsi funksiyalarını Rusiya sərhədçiləri öz üzərlərinə götürmüşlər. Məsələn, Ermənistanın sərhədini Rusiya sərhədçiləri Ermənistan sərhədçiləri ilə birlikdə, Gürcüstanın sərhədlərini Rusiya sərhədçiləri Gürcüstan sərhədçiləri ilə birlikdə qoruyurlar. Mən Qafqazdan danışıram. Amma bilirəm ki, bu, başqa MDB ölkələrində də var. Hesab edirəm ki, buna ehtiyac yoxdur.

Açığını deyim ki, MDB-nin xarici sərhədlərinin birgə mühafizəsi barədə təkliflər bizə də edilmişdi. Rusiya hökuməti tərəfindən, o cümlədən Federal Sərhəd Xidmətinin direktoru Nikolayev tərəfindən bir neçə dəfə belə təkliflər irəli sürülmüşdü. Lakin biz hər bir təklifi məqsədəuyğunluq və zərurilik baxımından nəzərdən keçiririk. Mən ondan soruşdum ki, bu sizin nəyinizə gərəkdir? Siz öz sərhədlərinizi normal qoruya bilmirsiniz. O deyir – bilirsinizmi, siz sərhədləri çox etibarlı qorumursunuz və İran tərəfdən narkotik maddələr keçirilir, cinayətkarlar soxulurlar. Mən deyirəm – nə ilə təminat verirsiniz ki, sərhədi siz qoruduqda belə olmayacaqdır? Axı mən Rusiyanın sərhəd xidmətinin indiki vəziyyətini bilirəm. Ona görə də bu, burada öz hərbi qüvvələrinin olmasını təmin etmək üçün sadəcə bir bəhanədir. Məsələn, yadımdadır, bir dəfə o təklif etmişdi ki, – gəlin Xəzərdə İranla sərhədi birlikdə qoruyaq. Yəni Sovetlər İttifaqı dövründə olduğu kimi qoruyaq. O vaxtlar Xəzər dənizinin cənubunda Astara-Həsənqulu sərhədi vardı. O, hətta Bakıda birgə qərargah yaratmağı təklif etdi. Mən ona yenə də dedim ki, buna ehtiyac yoxdur. Yeri gəlmişkən, hətta sovet dövründə – mən bunu yaxşı bilirəm – həmin xətt çox ciddi mühafizə edilirdi və hansısa bir İran gəmisinin Xəzərdə bu xətti keçməsi hadisəsi olmamışdı. Buna heç cəhd də göstərilməmişdi. Buna görə də adamlar ya başa düşmürlər, ya da sadəcə özləri özlərinə problemlər yaradırlar.



Beləliklə, bizdə, Azərbaycanda bir dənə də olsun hərbi baza yoxdur. Bununla yanaşı, mən bir neçə dəfə demişəm ki, Rusiyanın öz ölkəsinin hüdudlarından kənarda, məsələn, Qafqazda hərbi bazalara malik olmasına ehtiyac yoxdur. Mən Rusiya hökuməti qarşısında, xüsusən prezident Boris Nikolayeviçin qarşısında bir neçə dəfə məsələ qaldırıb soruşmuşam ki, nə üçün kiçik bir ərazisi olan Ermənistanda bu qədər böyük miqdarda Rusiya qoşunları var. Televiziya ilə çox xəbərlər eşidirik ki, Rusiya ordusunda vəziyyət ağırdır. Amma di gəl ki, hesab edirlər ki, haradasa uzaqlarda, Rusiya ilə hətta sərhədləri olmayan Ermənistanda hərbi baza saxlamağa ehtiyac var.

Bilirsiniz ki, 1997-ci ildə Moskvada müvafiq orqanlar Rusiyanın Müdafiə Nazirliyi tərəfindən Ermənistana gizli surətdə, qeyri-leqal yolla üç il ərzində bir milyard dollarlıq silah göndərildiyi barədə məlumatı yaydılar. Bu bizə məlum olduqda biz, əlbəttə, çox həyəcan keçirdik. Bu, 1997-ci ilin martında olmuşdu.

Mən Boris Nikolayeviç Yeltsinlə söhbətdə dedim ki, biz buna etiraz edirik və bu nə üçün edilmişdir? O isə mənə hətta dedi ki, «bunu mənim nəzarət idarəm aşkara çıxarıb, bunu kimsə bizim xəbərimiz olmadan edibdir». O söz verdi ki, bu məsələ ilə əlaqədar müvafiq tədbirlər görəcəkdir. Mən bu barədə ona rəsmi məktub göndərdim. Amma tədbirlər görülmədi. 1997-ci ilin iyul ayında, mən Rusiyada rəsmi səfərdə olanda və bu məsələni də qaldıranda isə söhbəti başqa cür aparmağa başladılar, hərçənd Boris Nikolayeviç Yeltsinin özü mənə etiraf etmişdi ki, bu faktları onun nəzarət idarəsi aşkara çıxarmışdır. Yəni danışmağa başladılar ki, bilirsiniz, Sovet İttifaqı dağılan vaxtlarda Azərbaycanda Ermənistandakına nisbətən daha çox silah, hərbi texnika qalmışdır. Mən deyirəm – əvvəla, Siz bunu nə üçün indi deyirsiniz. İkincisi, əgər

bu, belə diqqətə layiqdirsə, onda gəlin aydınlaşdıraq, görək Sizin bu məlumatlarınız nə dərəcədə doğrudur. Üçüncüsü, 1994-cü ilin may ayında Ermənistanla Azərbaycan arasında atəşkəs haqqında saziş imzalandıqdan sonra Ermənistana qeyri-leqal, qanunsuz surətdə silahlar göndərilməsinə bunun nə dəxli var. Əvəzində, hərbi əməliyyatlar zamanı bir çox Rusiya hərbi qulluqçularının Azərbaycanla Ermənistan arasında gedən döyüş əməliyyatlarında iştirak etməsi faktdır. Oraya hərbi texnika göndərilməsi də faktdır. Rusiyadan oraya yanacaq göndərilməsi də faktdır. Amma bunlar, necə deyərlər, tarixin o tərəfində qaldı. Bir halda ki, biz 1994-cü ilin may ayında atəşkəs haqqında saziş imzalamışıq, deməli, yeni mərhələ başlanmışdır. Əksinə, hər şeyi dayandırmaq lazımdır, çünki biz məsələnin sülh yolu ilə nizama salınması haqqında danışıqlar aparırıq. Amma elə bu vaxt Ermənistana çox böyük miqdarda silahlar göndərildi.

1997-ci ilin iyul ayında mənə izah etməyə başladılar. Mən dedim – bilirsinizmi, əziz dostlar, bir işi digəri ilə bağlamaq cəfəngiyatdır. Siz söz verdiniz ki, Ermənistana qeyri-leqal surətdə silah göndərilməsini araşdıracaq və bu silahları geri qaytaracaqsınız. Ancaq eyni zamanda sizi Sovetlər İttifaqı dağıldıqdan sonra kimə nə qədər silah düşməsi məsələsi maraqlandırırsa, onda gəlin yoxlayaq. Mən bəyanat verdim ki, başqa ölkələrlə müqayisədə məhz Azərbaycana daha az silah qaldığı mənə məlumdur. O vaxtlar Azərbaycanın rəhbərliyi bu baxımdan kifayət qədər ağıllı və ya kifayət qədər uzaqgörən, kifayət qədər ciddi olmamışdır. Onlar vaxtı əldən vermişlər. Mən bilirəm ki, Azərbaycan ərazisində böyük miqdarda sovet qoşunları və müvafiq texnika yerləşdirilmişdi. Çox böyük miqdarda hərbi təyyarələr vardı, Bakıda hava hücumundan müdafiə dairəsi, Xəzər donanması, 4-cü ordu, desant diviziyaları yerləşirdi. Əgər bunların heç olmasa yarısı bizə qalsaydı, onda bu, zənnimcə, Azərbaycana 50 il müddətinə kifayət edərdi. Lakin hər şeyi apardılar. İndi isə deyirlər ki, çox şey qaldı.

Buna baxmayaraq, əgər belə bəyanatlar varsa, onda xahiş edirəm, gəlin, bizim qaldırdığımız məsələni hər halda həll edin, mən isə sizin bəyanatınızı qəbul edirəm və gəlin yoxlayaq. Mən artıq başqa əhval-ruhiyyə – bu işi birtəhər ört-basdır etmək arzusu görürəm. Bu məsələ 1997-ci ilin əvvəllərində üzə çıxan Dövlət Dumasının iclasında müzakirə olundu. Duma qərar qəbul etdi və materialları yoxlamaq və aydınlaşdırmaq üçün Rusiyanın Baş Prokurorluğuna göndərdi. Boris Nikolayeviç Yeltsinin özü 1997-ci ilin mart ayında mənə dedi ki, baş prokuror Skuratova məsələni yoxlamaq və adamları cəzalandırmaq barədə göstəriş veribdir. Sonra mənə məlum oldu ki, o, belə də etmiş, bu cür göstəriş vermişdir. Ancaq üç aydan sonra onlar üçün vəziyyət dəyişdi, əhval-ruhiyyə dəyişdi, münasibət dəyişdi.



Deməliyəm ki, nəhayət, bizim gərgin danışıqlarımızdan sonra hər halda Rusiya, Azərbaycan və Ermənistanın birgə hökumət komissiyasını yaratmaq fikrinə gəldilər ki, bu komissiya, ən əvvəl, Rusiya silahlarının Ermənistana qanunsuz, qeyri-leqal göndərilməsi məsələlərini, habelə kimdə nə qədər silah qaldığını araşdırsın. Mən dərhal nümayəndəmizin, yəni komissiyanın həmsədrinin – Azərbaycan baş nazirinin birinci müavini Abbas Abbasovun adını çəkdim. Biz çıxıb getdik və bir müddətdən sonra xəbər tutduq ki, Boris Nikolayeviç Yeltsin Rusiya hökuməti sədrinin müavini Serovu təyin etmişdir. Amma Ermənistanın nümayəndəsi uzun müddət olmadı, çünki Ermənistanın bunda marağı yox idi. Nəhayət, iki-üç aydan sonra Ermənistanın hansısa bir nümayəndə heyəti bir iclasa gəldi. Bu nümayəndə heyəti aşağı səviyyədə idi, hətta heç hökumət rəhbərliyi səviyyəsində də deyildi.

Bu uzun əhvalatdır. Artıq yeni mərhələ, məsələni uzatmaq, bunu aydınlaşdırmağı istəməmək mərhələsi başlandı. Halbuki Baş Prokurorluq haradan – hansı hərbi hava limanından nə qədər və nə vaxt silah göndərildiyi barədə Rusiya hərbi hissələrindən səhih sənədlər almışdı. Bunların hamısı Baş Prokurorluqda var. Amma mən artıq başa düşdüm ki, siyasi rəhbərlik ayrı mövqe tutubdur, hərçənd mən bu məsələni bitmiş hesab etmirəm. Düşünürəm ki, əgər Rusiya ilə Azərbaycan arasında dostluq münasibətlərimiz varsa, əgər bu münasibətlərin möhkəmlənməsini istəyiriksə, onda Rusiya rəhbərliyi məsələyə bu cür birtərəfli yanaşılmasına yol verməməlidir.

Bu söhbətlər zamanı, hətta MDB-nin iclasında mən məsələ qaldırdım ki, başqa ölkə ilə münaqişədə olan ölkənin ərazisində hərbi bazalar ola bilməz. Onu nəzərdə tuturdum ki, bu hər iki ölkə MDB-yə daxildir. Siz başa düşürsünüzmü. Bütün dünyada belə bir analoq yoxdur ki, eyni ittifaqa daxil olan dövlətlər bir-biri ilə müharibə aparsınlar. Yeri gəlmişkən, ilk dəfə bu barədə bəyanatı mən 1993-cü ilin dekabrında MDB ölkələri dövlət başçılarının Aşqabadda, Türkmənistanda keçirilən görüşü zamanı vermişdim. Lakin bu bəyanata münasibət göstərilmədi, o vaxt Ermənistanla Azərbaycan arasında müharibə gedirdi. Mən

sonra bu məsələni bir neçə dəfə qaldırdım. Mən bu məsələni təkidlə qaldıranda bəzi adamlar deyirlər: bilirsinizmi, Siz narahat olmayın, bu, Sizə qarşı deyildir. Mən isə soruşuram: bəs kimə qarşıdır? İrana qarşıdırmı? Axı sizin İranla çox səmimi münasibətləriniz var. Türkiyəyə qarşıdırmı? Mən inanıram və əminəm ki, Türkiyə heç vaxt Rusiyaya hücum etməyəcəkdir. Bu, ağılsızlıqdır. Başa düşürsünüzmü, bir şey edəndə gərək düşünüb-daşınasan. Kimsə demişdir ki, bu, NATO-ya qarşıdır. Mən cavab verirəm: axı Sizin NATO ilə Avropada çox böyük sərhədiniz var. Belə isə onda nə üçün Siz NATO-ya qarşı Ermənistanda hərbi baza yaradırsınız? Bir görün, Ermənistan NATO-dan nə qədər uzaq məsafədə, ucqar bir yerdədir.

Sualınıza cavab verərək bir daha demək istəyirəm, hesab edirəm ki, Rusiyanın siyasi rəhbərliyi düzgün iş tutmur. Son vaxtlar Ermənistanla Rusiya arasında fəal hərbi əməkdaşlıq getməsi Azərbaycanda bizə xüsusilə aydın deyildir. Yeri gəlmişkən, 1997-ci ilin avqust ayında Rusiya ilə Ermənistan qarşılıqlı hərbi yardım haqqında müqavilə bağlamışlar. Özü də Rusiya MDB ölkələrindən yalnız biri ilə bu cür müqaviləyə malikdir. Əgər əvvəllər silahları gizli surətdə göndərirdilərsə, son il yarımda müxtəlif hərbi vasitələr, o cümlədən birinci dərəcəli MİQ-29 hərbi təyyarələri, S-300 raketləri Ermənistan ərazisində açıq-aşkar yerləşdirilir. Özü də bu barədə Rusiya mətbuatında da yazılar, hətta belə bəyanatlar verirlər ki, guya Ermənistanda Rusiya ilə Ermənistanın xüsusi bir hava hücumundan müdafiə xidməti yaradılır. Əlbəttə, mən buna təəccüblənmişəm və hesab edirəm ki, Rusiyanın siyasi rəhbərliyi səhvə yol verir. Bu, MDB-nin möhkəmlənməsinə kömək etmir.

Biz tez-tez deyirik ki, MDB-ni möhkəmlətmək lazımdır. Mən də bu mövqelərdə dururam. Əgər MDB-də başlıca, həlledici rol oynayan – bizim buna etirazımız yoxdur – Rusiya MDB-nin tərkibinə daxil olan ölkələri bir-birindən ayırırsa, bir ölkəni, xüsusən Azərbaycanla hərbi münaqişədə olan ölkəni silahlandırırsa və bu münaqişə hələ aradan qaldırılmayıbsa, onda bu, yolverilməzdir. Əgər Rusiyanın Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsini sülh yolu ilə tənzimlənməsi üzrə ATƏT-in Minsk qrupunun həmsədri olduğunu da nəzərə alsaq, onda görərik ki, bu tamamilə anlaşılmaz olur.

Deməliyəm ki, biz münaqişənin sülh yolu ilə nizama salınması üzrə Minsk qrupunun tərkibində Rusiya ilə fəal əməkdaşlıq edirik. Siz bilirsiniz ki, Fransa və Amerika Birləşmiş Ştatları da həmsədrlərdir. Ona



görə də belə anlaşılmaz ikili standart MDB-ni möhkəmlətmir, əksinə, onun zəifləməsinə təkan verir. Mən bu siyasəti düzgün hesab etmirəm.

**Sual:** Siz Rusiyanın siyasi rəhbərliyində konkret olaraq kimisə «Müharibə partiyası»nın lideri adlandıra bilərsinizmi, yoxsa bunu edə bilməzsiniz?

**Cavab:** Bilirsinizmi, mən bunu istəmirəm və arzu etmirəm. Mən bilirəm ki, Rusiya Federasiyası dövləti var. Bir dövlətdə bir neçə lider ola bilməz.

**Sual:** Mən belə başa düşürəm ki, Azərbaycan ərazisində Türkiyə hərbi bazalarının yerləşdirilməsinin mümkünlüyü məsələsi bir növ nəzərdən keçirilir. Hər halda belə variant mümkündür, ya yox?

**Cavab:** Bilirsiniz, gəlin, qabağa qaçmayaq. İndi belə bir məsələ yoxdur.

**Sual:** Heydər Əliyeviç, Siz Türkiyəyə gedərkən prezidentə xas olan bir sıra dövlət vəzifələrinin icrasını kiməsə tapşırdınızmı?

**Cavab:** Xeyr, mən heç kəsə tapşırmadım. Çünki mən öz ölkəmə buradan rəhbərlik etməyə qabiləm. İndiki rabitə vasitələri şəraitində buna lüzum yoxdur. Axı mən müxtəlif ölkələrə uzunmüddətli ezamiyyətlərə getmişəm və bu müddətdə prezident səlahiyyətini bir dəfə də olsun heç kimə verməmişəm. Buna indi də lüzum yoxdur. Çünki mən tamam sağlam vəziyyətdəyəm, Bakı ilə daim telefon əlaqəsi saxlayıram, mənə məlumat verirlər, müvafiq təklifləri nəzərdən keçirirəm, onların həyata keçirilməsinə icazə verirəm. Azərbaycanda dövlət, hökumət normal işləyir.

**Sual:** Heydər Əliyeviç, Siz elə bir adamın bilavasitə hazırlaşdırılması ilə məşğul olmaq fikrində deyilsinizmi ki, o, 5, 10, 15 ildən sonra, lazım gələndə dövlət idarəçiliyi estafetini Sizdən qəbul etməyə hazır olsun?

**Cavab:** Yaxın 5 il üçün mən heç kimi hazırlamıram və heç kəsi görmürəm, çünki mən hələlik özüm idarə etməyə qadirəm. Ancaq lüzum duyduqda, bunu hökmən edəcəyəm.

**Müxbir:** Oktyabrda seçkiqabağı mitinq zamanı söylədiyiniz bir ifadə yadıma düşdü. Sizin rusca müraciət edib, əhalinin rusdilli hissəsinə təşəkkürünüzü bildirməyiniz və bu sözləri deməyiniz çox xoşuma gəldi: nə qədər ki, mən Azərbaycandayam, xalqlar dostluğundan heç bir yayınma halları olmayacaqdır. Bundan sonra sözünüzə ara verib dediniz: mən isə Azərbaycanda əbədi olacağam. Onda düşündüm ki, bunu hətta müxtəlif cür yozmaq olar, yəni bir insan kimi hökmən Siz deyil, Sizin ruhunuz...

**Heydər Əliyev:** Mən məhz cismani cəhətdən nəzərdə tuturam ki, əbədi olacağam. Yeri gəlmişkən, onlar burada müayinə apardılar və bu müayinə göstərdi ki, mənim dediklərimin əsası var. Mən 10 ildə ilk dəfə olaraq tibbi müayinədən keçdim.

**Sual:** Allaha şükür. Sizin xəstəliyiniz Moskvada qəzetlərdə, televiziyada nəzərəçarpacaq reaksiya doğurdu. Mən hətta təsəvvürümə belə gətirmirəm ki, hər hansı digər prezidentin xəstələnməsi bu cür reaksiyaya səbəb olardı. Siz yaxın gələcəkdə Rusiyanın perspektivlərini necə görürsünüz?

**Cavab:** Bunu mən Sizdən soruşmaq istərdim.

**Müxbir:** Yəqin ki, hələlik nikbin bir şey görmürəm.

**Heydər Əliyev:** Burada mənim Rusiya barədə informasiyam çox azdır. Yeganə olaraq onu deyə bilərəm ki, hər gün Bakı ilə danışarkən soruşuram ki, orada inflyasiya necədir, artırmı? Çünki bunun əziyyətini biz çəkirik. Yeri gəlmişkən, deməliyəm ki, Türkiyə də ziyan çəkmişdir.

**Müxbir:** İnflyasiya, şübhəsiz ki, artacaqdır.

**Heydər Əliyev:** Amma hələlik dayanıbdır. Dollar 22 rubl məzənnəsində durur.

**Müxbir:** 23,5 rubl. Düşünürəm ki, inflyasiya bundan sonra da artacaqdır, çünki onlar xoşagəlməz tədbirlər görmək istəmirlər. Belə isə olmur.

**Heydər Əliyev:** Yeri gəlmişkən, bir halda ki, aramızda belə qeyri-rəsmi söhbət gedir, onda deməliyəm: belə xəbərlər gəzir ki, PKK terror təşkilatının lideri Abdullah Öcalan İtaliyadan sonra Rusiyada peyda olub və hazırda Dağlıq Qarabağdadır. Bunu Moskva qəzetləri yazmışdı.

**Müxbir:** Mən bilən, o, İtaliyada idi. Mən Moskvada 10 gün olmamışam, bir səfərdən digərinə getmişəm. Lakin, bizdə yazıldığı kimi, o, İtaliya polisinin nəzarəti altında idi...

**Heydər Əliyev:** Xeyr, o, İtaliyadan çıxıb getmişdir. Türkiyədə onu hər gün izləyirlər, çünki bu, Türkiyə üçün çox böyük siyasi problemdir. Hər gün televiziya, bütün 18 kanal bundan danışır.

**Müxbir:** Heydər Əliyeviç, sağ olun.

**Heydər Əliyev:** Diqqət göstərdiyinizə və buraya xüsusi olaraq gəldiyinizə görə sağ olun.



## TÜRKİYƏNİN TRT-1 TELEVİZİYASINA MÜSAHİBƏ

*6 aprel 1999-cu il*

**Sevtar Yasa** *(aparıcı)*: Salam. Dünyanın fikir mütəfəkkirlərindən biri olan Sartr demişdir: «Müasir cəmiyyətimizdə hər kəs hər şeyə görə məsuliyyət daşıyır. Ancaq məsuliyyətlərin yerinə yetirilməsi hər şeydən öncə və hər şeydən çox, məlumat sahibi olmaqla gerçəkləşdirilə bilər».

Bu məqsədlə bugünkü verilişimizdə daha bir dünya mütəfəkkirinin gözü ilə böyük öndərimiz Mustafa Kamal Atatürkü və onun qurduğu cümhuriyyəti gözünüz önünə gətirəcək və sizin müzakirələrinizə, fikir mübadiləsi aparmağa təqdim edəcəyik. Hörmətli professor, doktor Özer Ozankayanın hazırladığı bir müsahibəni izləyəcəksiniz.

**Özer Ozankaya** *(professor, doktor)*: Həmin şəxs böyük dövlət və smyasət adamı, eyni zamanda da qardaş türk xalqlarından birinin dövlət başçısı, yəni qonşu və qardaş Azərbaycanın cümhur başqanı hörmətli Heydər Əliyevdir. Bildiyiniz kimi, çox hörmətli Heydər Əliyev Sovetlər Birliyinin dağılması gedişində öz ölkəsində hadisələri diqqətlə izləyən və xalqını düzgün yola istiqamətləndirmiş bir şəxsdir.

**Sevtar Yasa:** Zənnimcə, Heydər Əliyev əvvəllər də böyük vəzifələrdə çalışmış bir dövlət adamı olmuşdur.

**Özer Ozankaya:** Bəli, hörmətli Heydər Əliyev Azərbaycanın çox dəyərli bir siyasətçisi, dövlət adamı, uzun müddət ictimai həyatda müəyyən vəzifələr daşımış, xalqının etimadını qazanmış bir şəxsdir. Təbii ki, belə bir şəxsiyyətin Atatürk və cümhuriyyətlə bağlı fikirlərini öyrənmək bizim üçün hər cəhətdən faydalı və yararlıdır.

Hörmətli Heydər Əliyev kiçik rahatsızlığı ilə əlaqədar müayinə və müalicə almaq üçün qısa zamanda Ankaraya gəlmişdi. O, tam sağaldıqdan sonra biz cənab Heydər Əliyevlə Çankayada onun üçün ayrılmış iqamətgahda görüşdük. Bir saata yaxın ətraflı söhbət etdik. Bu görüşün iki önəmli istiqaməti vardır. Birincisi, 75 illik sosializm quruculuğunu yaşayan və onun zəifləyərək dağılması zamanı da öz xalqına istiqamət verən bir şəxs kimi, Heydər Əliyevin Türkiyədə həyata keçirilən Mustafa Kamal Atatürkün demokratik inqilabı ilə bağlı fikirlərini dinləmək maraqlıdır.

**S e v t a r Y a s a :** İndi müstəqillik təcrübəsi və ona sahib olmaq qayğıları ilə yaşayan Azərbaycan üçün bu, çox maraqlı bir təcrübədir.

**Ö z e r O z a n k a y a** Türkiyə demokratik yolla inkişafını müstəqillik bayrağı altında, tam müstəqillik qazandıqdan sonra həyata keçirmişdir. Ancaq qonşu və qardaş Azərbaycan sovet imperiyası tərkibində, Rusiyanın böyük təzyiqi altında yaşamağa məcbur olmuşdu. Bunun doğurduğu səbəblər barədə hörmətli Prezident Heydər Əliyevin bir dövlət adamı kimi söylədiyi maraqlı fikirləri də, şübhəsiz ki, verilişimizdə diqqətlə izləyəcəyik, şahidi olacağıq.

**S e v t a r Y a s a :** Siz müsahibə alarkən hörmətli Heydər Əliyevin fikirləri 6-7 illik, ya da elə bir neçə il əvvəl əldə edilən müstəqillik dövrü ərzində Atatürkü çox oxuması təəssüratı bağışladı, yoxsa uzun müddətdir onlar bu məlumatlara sahibdirlər?

**Ö z e r O z a n k a y a :** Şübhəsiz ki, onun açıqlamalarından, suallara verdiyi cavablardan da aydın oldu ki, Azərbaycanın görkəmli xadimləri Türkiyə və Atatürk ilə çox yaxından maraqlanmış və onu anlamağa çalışmışlar.Təbii ki, Atatürkə çox böyük bir heyranlıq, çox dərin bir hörmət, çox yüksək duyğular bəsləyən bir qonşu və qardaş xalqdan söz gedir.

* * *

**İndi isə gəlin hörmətli Heydər Əliyevin bu düşüncə və duyğular içərisində söylədiyi fikirləri izləyək.**

**S u a l :** Hörmətli cümhur başqanım, bəllidir ki, Mustafa Kamal Atatürkün ölümündən 60 il keçdiyi halda, millətimiz bu gün də onu ehtiramla yad edir, ona ilham qaynağı kimi baxır. Baxmayaraq ki, onunla eyni dövrdə, XX yüzillikdə yaşayan Lenin kimi başqa şəxsiyyətlər də vardı. Onlarla müqayisədə Mustafa Kamal Atatürkün bu daimi dəyərini necə izah edərdiniz və bizə bu barədə nə deyə bilərdiniz?

**C a v a b :** Bu təbiidir. Çünki Mustafa Kamal Atatürk XX əsrin dünyada ən böyük şəxsiyyətlərindən biridir. Dövlət adamı kimi, siyasət adamı və dövlət başçısı kimi. Ölümündən 60 il sonra da Türkiyə xalqı onun qoyduğu yol ilə gedir. Görün yol nə qədər doğru-düzgün qurulub ki, o yoldan nə sağa, nə sola dönmək mümkün deyil. Bu, Mustafa Kamal Atatürkün müdrikliyini göstərir, dahiliyini göstərir, öz xalqına böyük xidmətlərinin nəticəsini göstərir.



Mən istəməzdim ki, böyük Mustafa Kamal Atatürkü digər şəxsiyyətlərlə müqayisə edim. Çünki Türkiyə qədim bir ölkədir, qədim bir dövlətdir, xalqdır. Osmanlı İmperatorluğunun 700-cü ildönümü olacaqdır. Bu dövlət 700 il yaşayıbdır və dünyanın böyük bölgələrinə öz təsirini göstəribdir, böyük izlər qoyubdur. Ancaq bütün imperatorluqlar kimi, Osmanlı İmperatorluğu da dağılmağa məcbur edildi. Ola bilər, bəzi imperatorluqlar daha da çox yaşadı, bəzisi ondan az yaşadı, bunların səbəbləri çeşidlidir, fərqlidir.

Ancaq Birinci Dünya müharibəsindən sonra Osmanlı İmperatorluğu dağıldı. Türkiyənin torpaqlarını ələ keçirmək istəyən başqa ölkələr o vaxt çox idi. Yalnız Mustafa Kamal Atatürkün iradəsi, ağlı, zəkası, qəhrəmanlığı, müdrikliyi ona imkan verdi ki, türk xalqının içindən çıxaraq Osmanlı İmperatorluğunun dağıntılarının, külünün yerində yeni bir çağdaş dövlət yaratsın. Onu da Mustafa Kamal Atatürk yaratdı.

Ancaq bundan öncə Türkiyə böyük sınaqlardan keçdi. Bilirsiniz ki, Türkiyəni o vaxt parçalamaq istəyirdilər. Mustafa Kamal Atatürkün başçılığı ilə, onun başqanlığı, rəhbərliyi ilə aparılan Qurtuluş savaşı türk xalqını bütün bu ölkələrin Türkiyəyə qarşı yönəldilmiş cəhdlərindən xilas etdi. Burada, Türkiyənin torpağında yerləşən yunanlar, italyanlar, oradan ermənilər, onunla bərabər Rusiya Türkiyənin şərq hissəsini əllərinə keçirmək istəyirdilər. Bunların hamısının qarşısı alındı və nəhayət, 1923-cü ildə Türkiyə torpağında, 700 il imperatorluq tarixi olan bir ölkənin üzərində yeni bir dövlət – Türkiyə Cümhuriyyəti yarandı. Bu, çox tarixi bir hadisədir. Şübhəsiz ki, hər bir ölkənin həyatında tarixi hadisələr çoxdur. Ancaq Türkiyənin həyatında 700 il ömür sürən bir imperatorluq dağılan zaman Mustafa Kamal Atatürk belə bir zəka, ağıl göstərib, iradə, qəhrəmanlıq göstərib, xalqı bir yerə toplayıb, xalqın önündə gedib və cümhuriyyət yaradıbdır.

Siz bilirsiniz ki, cümhuriyyətin yaranması da o qədər asan olmayıbdır. Ondan sonra onun yaşaması da o qədər asan olmayıbdır. Ancaq Mustafa Kamal Atatürkün şəxsiyyəti bir də ona görə qiymətlidir ki, həm Türkiyə xalqı üçün, həm bütün türk dünyası üçün, həm də bütün dünya üçün o, qurub-yaratdığı cümhuriyyəti yaşada bilibdir.

Məsələn, 1918-ci ildə Rusiya İmperatorluğu dağılan zaman, yəni orada bir inqilab – Oktyabr inqilabı olandan sonra Rusiya dağılmağa başladığı zaman Qafqazda Azərbaycan və digər Qafqaz ölkələri cümhuriyyət yaratdılar. 1918-ci il may ayının 28-də Azərbaycan Xalq Cüm-

huriyyəti yarandı. Amma o, cəmisi 23 ay yaşadı. Yaşaya bilmədi. Çünki Rusiya İmperatorluğunun yerində yeni bir dövlət – bolşevik, Kommunist İmperatorluğu yarandı. O imperatorluq da Rusiyanın torpaqları içərisində olmuş bütün ölkələri əlindən vermək istəmədi. Bir tərəfdən də Ermənistanla Azərbaycan arasında o vaxt gedən savaş, Azərbaycanın içində sabitliyin olmaması və yaranmış cümhuriyyətin içində böyük bir liderin olmaması, lider məsələsi var idi. Elə oldu ki, 23 aydan sonra bu cümhuriyyət dağıldı.

1923-cü ildə Türkiyə Cümhuriyyətinin yaranması bir də ona görə tarixi hadisədir ki, bu, müsəlman aləmində, türk dünyasında ilk yaşayan cümhuriyyətdir. Yenə də deyirəm, yaranması da çox əhəmiyyətlidir. Bu, tarixi bir hadisədir. Amma əgər yaranan şey yaşaya bilmirsə, davam edə bilmirsə, onun əhəmiyyəti də itir. Mustafa Kamal Atatürk cümhuriyyəti yaratdı, onun təsislərini yaratdı, cümhuriyyəti qaldırdı, xalqı qaldırdı və ondan sonra da cümhuriyyəti, ölkəsini etibarlı əllərə tapşırdı.

**S u a l :** Çox hörmətli cümhur başqanım. Atatürkün qurduğu bu cümhuriyyətin bir dünyəviliyi də vardır. Bildiyiniz kimi, təkcə Azərbaycandan və bir-iki başqa türk cümhuriyyətlərindən savayı, bütün islam dünyasında, Pakistandan İndoneziyaya qədər və ərəb ölkələrində – heç birində belə bir dünyəvi dövlət yoxdur. Bu cümhuriyyətin əhəmiyyəti barədəki fikirlərinizi bilmək istərdik.

**C a v a b :** Mustafa Kamal Atatürkün böyüklüyü bir də ondan ibarətdir ki, İslam dininin təsiri altında yaşamış İslam dininin hakim olduğu bir dövlətdən çıxan yeni bir dövlət, məhz dünyəvi dövlət qurulubdur. Siz ona layiq dövlət deyirsiniz, biz Azərbaycan dilində buna dünyəvi dövlət deyirik. Bu da Mustafa Kamal Atatürkün o cümhuriyyəti qurarkən ən böyük nailiyyətlərindən biridir.

Şübhəsiz ki, o zaman, İslam dini bütün islam aləmində, o cümlədən Türkiyə torpağında hakim olduğu bir dövrdə bu torpaqda əsrlər boyu İslam dininin təsiri altında, onun hökmü altında yaşamış xalq üçün cümhuriyyət yaradaraq onu dünyəvi, layiq cümhuriyyət etmək böyük bir qəhrəmanlıqdır, böyük bir cəsarətdir. Eyni zamanda, çox uzaqgörənlikdir. Yəni o, xalqı üçün dünya sivilizasiyası yolunu açıbdır. Geriyə yox, irəliyə. Ona görə də Türkiyə Cümhuriyyətinin dünyəvi cümhuriyyət olması, şübhəsiz ki, onu bütün başqa cümhuriyyətlərdən fərqləndirir.



Mən sizə deyə bilərəm ki, Azərbaycanın da cümhuriyyəti dünyəvi cümhuriyyət olubdur. 1918-ci ildə də və indi, 1991-ci ildə biz müstəqilliyimizi, istiqlaliyyətimizi əldə edəndən sonra biz ancaq dünyəvi bir cümhuriyyətik. Bizim Azərbaycan demokratik, hüquqi, dünyəvi dövlətdir. Bu bizim Konstitusiyamızda yazılmış əsas prinsiplərdir.

Mustafa Kamal Atatürk bu barədə çox böyük iş görübdür. Hesab edirəm ki, ötən 75 il ərzində Türkiyə xalqı bu istiqamətdə böyük bir məsafə qət edibdir. Doğrudur, hələ bu gün də problemlər var. Biz də bunu bilirik, siz də bunu bilirsiniz. Bu dünyəvi cümhuriyyətə pis baxanlar, yəni onu qəbul etməyənlər də vardır. Amma mən hesab edirəm ki, onlar geridə qalacaqlar. Türkiyə xalqını bundan sonra da irəliyə yalnız Mustafa Kamal Atatürkün qoyduğu yol, onun müəyyən etdiyi prinsiplər aparacaq, o cümlədən Türkiyə Cümhuriyyəti dünyəvi dövlət olaraq inkişaf edəcəkdir.

**S u a l :** Bununla əlaqədar olaraq bizdə Mustafa Kamal Atatürkün dünyəvi bir cümhuriyyət qurmaqla həqiqətən İslam dininin demokratiya ilə əlaqəliyini və heç də bundan kənara çıxmadığını sübut etdiyini, göstərdiyini, eyni zamanda İslam dininin etibarını yüksəltdiyini də söyləyirlər. Bu barədə fikrinizi bilmək olarmı?

**C a v a b :** Bu da Mustafa Kamal Atatürkün dahiliyidir və eyni zamanda o, bütün islam dünyasına nümayiş etdirib, göstəribdir ki, İslam dinindən imtina etmədən, İslam dinini xalqın mənəvi dəyərləri hesab edərək dünyəvi bir dövlət qurmaq olar. Yəni bunlar heç vaxt bir-birinə zidd deyildir. Bunu yalnız islam dövlətçiliyini qoruyub saxlamaq istəyən adamlar o vaxt da, indi də sübut etmək istəyirlər ki, guya dünyəvilik İslam dininə ziddir. Bu doğru deyildir.

Azərbaycanda əsas prinsiplərimizdən biri, yəni bizim mənəvi, milli ideologiyamız milli-mənəvi dəyərlərimizi ümumbəşəri dəyərlərlə birləşdirməkdən, sintez etməkdən ibarətdir. Biz bu yol ilə gedirik. Mustafa Kamal Atatürk bu yolu qoyubdur. Yəni İslam dinindən heç kəs imtina etmir. İslam dini bizim mənəvi mənbəyimizdir. Əsrlər boyu bizim xalqlarımız – Türkiyə də, Azərbaycan da İslam dininə itaət edibdir.

Azərbaycanda Sovet hakimiyyəti qurulandan sonra din tamamilə yasaq olundu. Təkcə İslam dini yox, bütün dinlər. Yəni ateizm siyasəti aparıldı. Azərbaycanda 70 il din yasaq olundu. Amma din ölmədi. İnsanlar dini saxladı, qorudu – qəlbində qorudu, bütün adət-ənənələrində

qorudu. Amma Sovet hakimiyyətindən sonra, yəni o yasaq üzərindən götürüləndən sonra bir ilin içərisində bu din hər yerdə özünü göstərdi. İndi, son illərdə Azərbaycanda çoxlu məscidlər tikilibdir, yaradılıbdır. Özü də bunu xalq edir. Bu çox gözəl bir haldır. Yəni biz dinimizi heç vaxt unutmamalıyıq. İslam dini bizim xalqımıza böyük dəyərlər veribdir. Amma bu da heç zidd deyil ki, biz bəşəri dəyərlərdən də istifadə edək və layiqli, öz xalqımız üçün daha da uyğun yol ilə gedək.

**S u a l :** Bir misal çəkmək istəyirəm. Türkiyədə inqilabdan sonra cəmiyyət daxilində qadınlarla kişilər eyni hüquqa sahib oldular. İnqilabın bu töhfəsi barədə fikirlərinizi söyləyərsinizmi?

**C a v a b :** Şübhəsiz ki, bu da Mustafa Kamal Atatürkün böyük xidmətlərindən biridir. Bilirsiniz, bizim üçün, azərbaycanlılar üçün burada qeyri-adi bir şey yoxdur. Çünki Azərbaycanda Sovet hakimiyyətinin nə qədər zərərli cəhətləri olubsa, o qədər də xeyirli cəhətləri olubdur. Azərbaycanda 1920-ci ildə bütün qadınlara tam azadlıq verildi, qadınlarla kişilərin hüquqları bərabərləşdirildi. Qadınlar çadraları atdı. Bu bir gündə olmadı. Bu proses 20 il getdi. Amma indi bizim qadınlar sərbəst, rahatdırlar. Bir indi deyil, 50 il bundan öncə də belə idi və onlar hər şeydə bərabərhüquqludurlar.

Məsələn, Azərbaycanda təhsil sahəsində çalışanların 70 faizi qadınlardır. Səhiyyə sahəsində çalışanların – həkimlərin, başqa tibb işçilərinin 60 faizi qadınlardır. Yəni bu bizim üçün yeni bir şey deyildir. Amma əgər biz bütün islam dünyasını, islam aləmini götürsək, o vaxt Mustafa Kamal Atatürkün islam aləminin içində qalaraq, cümhuriyyət quraraq, eyni zamanda İslam dininin qadınlara qarşı qoyduğu yasaqları götürməsi də ən böyük, cəsarətli addımlarından biridir. Bu da özünü doğrultdu. İndi, Allaha şükür, Türkiyədə qadın, kişi – hamısı bərabərhüquqludur. Hətta bəzən baxırsan, Fransadan da irəliyə gedibdir.

**S u a l :** Cənab Prezident, Atatürkün iqtisadi siyasətinin üzərində dayanmaq istərdim. Bəllidir ki, Atatürk dövlətçilik siyasəti ilə həm kapitalizmdən, həm də sosializmdən, yəni kollektivləşmədən bəhrələnərək onların əsasında yeni, üçüncü iqtisadi yol yaratmış oldu. Bu barədə nə deyə bilərsiniz?

**C a v a b :** Bu da doğrudur. Bu tamamilə doğrudur.

Məsələn, biz o vaxt Sovetlər Birliyində yaşayan zaman belə düşüncələr var idi ki, Türkiyədə də Mustafa Kamal Atatürk sosializm qurur. Bilirsiniz ki, Mustafa Kamal Atatürkün Leninlə də ünsiyyəti olmuşdur və Sovetlər Birliyi ilə Türkiyənin münasibətləri İkinci Dünya müharibəsi başlayna qədər normal olmuşdur. Çünki burada da sosializm ideyaları yayılırdı və Mustafa Kamal Atatürkün həm siyasətində, həm dövlətçilik işlərində, həm də iqtisadiyyatın qurulmasında bu prinsiplərdən istifadə olunurdu. Amma mən burada Mustafa Kamal Atatürkün müdrikliyini yenə də qeyd etmək istəyirəm. Bu nədən ibarətdir?



Sovetlər Birliyində kommunizm ideologiyası kapitalizmi tamamilə yox etməyə, yeni bir iqtisadi sistem qurmağa əsaslanırdı. Sosializm sistemi kapitalizmi dağıtdı, kapitalizmdə olan bütün kapitalı dağıtdı. Kəndlilərdən torpaqları alıb dövlətə verdi. Kəndlini torpaqsız etdi, kollektivləşdirdi. Bu, 30-40 il öz nəticəsini verdi. Amma nəticədə nə oldu?

Məsələn, Sovetlər Birliyində kollektivləşmə başlayanda bu kollektivləşməni həyata keçirmək üçün o qədər zor, güc işlədilirdi, o qədər insanlar repressiya olunurdu, o qədər öldürülürdü ki – milyonlarla. Yəni Sovet hakimiyyəti öz xalqına böyük zərbələr vurdu – o ideyasını həyata keçirmək üçün, amma ideya da doğru ideya olmadı. Yəni bu cür ola bilməz. Atatürk isə burada yanlışlığa yol vermədi. O bundan da istifadə etdi, ondan da istifadə etdi və düzgün yol tutdu, ölkəsini iqtisadi nöqteyi-nəzərdən çox düz yol ilə apardı. Bu da onun böyüklüyüdür.

Məsələn, 1992-ci ildə mərhum Turqut Özal və mənim dostum, qardaşım, hörmətli Süleyman Dəmirəl məni İzmir iqtisadi konqresinə dəvət etdilər. Mən onda bildim ki, 1923-cü ildə Atatürk birinci iqtisadi konqres keçiribdir və iqtisadiyyatın inkişaf etməsinin yollarını göstəribdir. 1992-ci ildə keçirilən üçüncü iqtisadi konqres idi. Ona görə iqtisadiyyat sahəsində, dövlətçilik sahəsində də o, çox ağıllı yollarla gedibdir.

**S u a l :** Hörmətli Prezident, Mustafa Kamal Atatürkün vaxtilə həyata keçirdiyi yazı, yəni əlifba məsələsi ilə bağlı fikirlərinizi öyrənə bilərikmi?

**C a v a b :** Bu da bizim üçün yeni deyildir. Ancaq mən bunu başqa ölkələrlə müqayisədə deyə bilərəm.

Şübhəsiz ki, Mustafa Kamal Atatürkün ərəb əlifbasından imtina edib latın əlifbasına keçməsi də türk xalqı üçün böyük bir nailiyyət oldu, xalqın gələcəyi, mədəniyyəti üçün böyük yollar açdı. Ancaq mən sizə bildirmək istəyirəm ki, hələ XIX əsrin 70-ci illərində Azərbaycanın böyük yazıçısı Mirzə Fətəli Axundov Azərbaycan xalqı üçün, türk xalqı üçün latın əlifbasına keçmək təşəbbüsünü irəliyə sürmüşdür. Sonra onu çox sıxmışlar. O, İstanbula gəlib – çünki o vaxt mərkəz İstanbul

idi – bütün bu alimlərin, üləmaların qarşısında bir neçə dəfə sübut etməyə çalışıb ki, biz artıq latın əlifbasına keçməliyik. Ancaq onu qəbul etməyiblər və Mirzə Fətəli Axundov da bir şey edə bilməyibdir. Yəni görün bu işin başlanğıcı haradadır. Ancaq o vaxt bunu həyata keçirmək mümkün olmadı.

Azərbaycanda Sovet hakimiyyəti qurulanda Azərbaycan çox böyük bir təşəbbüs etdi: 1926-cı ildə Azərbaycanda Türkoloji Konqres oldu və Türkiyədən də oraya böyük insanlar, o cümlədən Fuad Köprülüzadə gəlmişdi. Onlar Bakıda birinci Türkoloji Konqresdə iştirak etdilər. 1926-cı ildə qərar qəbul olundu ki, Azərbaycan latın əlifbasına keçir. Yəni bu, bizim üçün yeni bir şey deyildir. Amma Mustafa Kamal Atatürkün Türkiyədə latın əlifbasına keçməsi – mən bilirəm, buna dindarlar tərəfindən nə qədər müqavimətlər olubdur, bu nə qədər çətin olubdur. Amma o bunu həyata keçiribdir – bu da böyük uğurdur.

**S u a l :** Sayın cümhur başqanım. Mustafa Kamal Atatürkün liderliyi ilə aparılan bu inqilabların qardaş türk cəmiyyətlərinə, islam dünyasına, eləcə də Avropa cəmiyyətlərinə nə kimi təsirləri olmuşdur?

**C a v a b :** Şübhəsiz, çox təsir edibdir.

Məsələn, biz Azərbaycanda Mustafa Kamal Atatürkü həmişə böyük bir qəhrəman kimi tanımışıq. Baxmayaraq ki, Sovetlər Birliyinin içərisində olduğumuz zaman bizim sərhədlər bağlı, hər şey qapalı idi və Moskva Azərbaycanda pantürkizm ideyasının olduğunu daim irəliyə sürərək bizi Türkiyədən ayırmağa çalışırdı. Biz öz mədəniyyətimiz, ədəbiyyatımız haqqında bir həqiqəti deyəndə və yaxud öz xalqımıza xas olan bir yazı yazanda deyirdilər ki, bunlar pantürkistlərdir. Yəni Rusiyanı, Moskvanı bir tərəfdən ermənilər qızışdırırdılar, bir tərəfdən də Rusiya qorxurdu ki, Azərbaycan Türkiyə ilə çox yaxın bir dövlətdir, ona görə bunların arasını o qədər kəsmək lazımdır ki, heç kəs qovuşa bilməsin.

Biz Mustafa Kamal Atatürkü o dövrdə – bizim tarixdə də var, mən özüm bunu çox kitablardan oxumuşam – həmişə böyük bir şəxsiyyət, qəhrəman kimi tanımışıq. Ona görə indi Mustafa Kamal Atatürkü Azərbaycanda Türkiyədən də çox sevirlər. Mən bilirəm, bəlkə bəziləri, dünyəvi dövlətin əleyhinə çıxan adamlar buna etiraz da edirlər. Amma Azərbaycanda birmənalı şəkildə elə bir insan tapa bilməzsən ki, Mustafa Kamal Atatürkün haqqında pis bir söz desin. Hamı onu böyük sevgi və məhəbbətlə xatırlayır.



Şübhəsiz ki, Türkiyə kimi bir ölkədə dünyəvi cümhuriyyətin yaradılması başqa islam ölkələrinə də təsir edibdir. Ola bilər, birinə çox, birinə az. O cümlədən Avropaya da müəyyən təsir edibdir. Yəni orada da görüblər ki, bu dünyəvilik təkcə Avropaya məxsus deyildir, Şərq xalqlarında, islam dünyasında da bu ola bilər. Yəni avropalılar güman etməsinlər ki, bu ancaq onlarındır, onlara məxsusdur, başqalarında ola bilməz. Mustafa Kamal Atatürkün gördüyü işlər, şübhəsiz ki, burada da öz təsirini göstəribdir.

**S u a l :** Cənab Prezident, icazənizlə, son sualımı vermək istəyirəm. Mustafa Kamal Atatürkün bu inqilablarının və qurduğu cümhuriyyətin təmsil etdiyi düşüncələrin Türkiyə üçün, islam dünyası üçün ən böyük mirası nədir – sualına necə cavab verərdiniz? Əvvəlcədən çox təşəkkürümü bildirirəm.

**C a v a b :** Ən böyük mirası Türkiyə cümhuriyyətidir. O, 75 ildən çoxdur ki, yaşayır və şübhəsiz ki, Mustafa Kamal Atatürkdən sonra altmış il içərisində onun işinin davamçılarının fəaliyyəti nəticəsində, onların çox böyük işlərinin nəticəsində cümhuriyyət çox yüksəlmişdir. Türkiyə böyük, qüdrətli bir dövlətə çevrilmişdir. Budur, Mustafa Kamal Atatürkün mirası. Qüdrətli, güclü, iqtisadi cəhətdən inkişaf etmiş, dünya miqyasında çox özəl bir yer tutmuş Türkiyə Cümhuriyyəti! Budur Mustafa Kamal Atatürkün mirası!

Təşəkkür edirəm. Mən bu görüşdən çox məmnunam.

* * *

**S e v t a r Y a s a** (*aparıcı*) **:** Hörmətli Ozankaya, bu görüşdə Sizin ən çox diqqətinizi çəkən nə oldu?

**Ö z e r O z a n k a y a :** Doğrusu, dəyərli tamaşaçılarımıza ətraflı məlumat vermək üçün görüşdəki bəzi məqamları qeydə almışdım və hətta sonra onu kağıza köçürdüm. Atatürkün çox böyük imtahanlardan böyük uğurlarla çıxmış bir şəxsiyyət olaraq, Osmanlı İmperatorluğunun süqutundan sonra, özünün dediyi kimi, imperiyanın külünün içindən yeni, yaşayan, müstəqil, canlı bir Türkiyəni çıxarmış və yaratmış olması çox təqdirəlayiqdir.

İkincisi, islam və türk dünyasında ilk cümhuriyyətdir, deyir.

Mən bir az sonra təkrar yenə toxunacağam. 1918-ci ildə yaranmış və cəmi 23 ay yaşamış bir respublikanı onlar daha əvvəl qurmuş olmaqla bərabər, tam müstəqillik ideyasına sahib olan türk inqilabı, türk mədəni inqilabı nəticəsində, Atatürkün deyimi ilə, sonsuzluğa qədər yaşaya

biləcək qüdrətdə bir cümhuriyyət qurulmuşdur. Bunun islam və türk dünyasında ilk cümhuriyyət olduğunu xüsusi vurğulaması önəmlidir.

Hörmətli Heydər Əliyev Atatürkün liderliyi altında gerçəkləşdirilən ictimai inqilabların mühüm bir hissəsinin Azərbaycanda çoxdan həyata keçirildiyini, sınandığını və bunların qeyri-adi bir şey olmadığını söyləyir. O, Türkiyədə bunların daha böyük miqyasda uğurla gerçəkləşdirildiyini bildirir və belə bir nəticəyə gəlir ki, 1918-ci ildə ilk dəfə Azərbaycanda qurulan respublika Qafqazda baş verən geosiyasi hadisələr axarında, sovetlər imperiyası daxilində müstəqillikdən məhrum olaraq yaşaya bilmədi. Eləcə də əlifba inqilabının zəruriliyini, ərəb əlifbasının dilimizə uymadığını və latın əlifbası ilə dəyişdirilməsi lüzumunu görürdük. 1926-cı ildə Bakıda keçirilən Türkoloji Konqresdə latın qrafikasına keçmək barədə qərar qəbul edildi. Amma Stalinin təzyiqi nəticəsində Azərbaycan latın əlifbasından istifadə edə bilmədi. Çünki Türkiyə də 1928-ci ildə latın qrafikasına keçmişdi. Türkiyə-Azərbaycan mədəni əlaqələrinə mane olmaq üçün və dolayısı ilə Azərbaycanı sovet sərhədləri daxilində təcrid etmək məqsədilə Azərbaycana bu qrafikadan istifadə etməyə icazə verilməmişdi.

Dünyəvilik, qadın haqları sahəsində də mühüm uğurlar qazanılmışdır. Bunlar həqiqətən də müasir sivilizasiyanın mühüm ünsürləridir. Bunlar hörmətli Heydər Əliyevin çıxışlarında və açıqlamalarında bir leytmotiv kimi keçir və ümumən türk inqilablarına onun dərin ehtiramını nümayiş etdirir.

Cənab Prezident iqtisadi sahədə də bir müqayisə aparır. Məsələn, dövlət və ictimai sektorlara yer vermək lüzumunun, Atatürkün etatizm siyasətinin Azərbaycan üçün gözlənilməz bir şey olmadığını söyləyir. Ancaq o vaxt Azərbaycanda, bütün Sovet İmperiyasında olduğu kimi, inzibati-amirlik üslubu, kollektivləşdirmə üsulu zorakılıqla həyata keçirildiyinə görə bunlar lazımi səmərə verməmişdi. Bu mənada Atatürkün həyata keçirdiyi demokratik islahatların tam müstəqilliyə xidmət etdiyi və düzgün olduğu hörmətli Heydər Əliyev tərəfindən açıqca qeyd olunur.

Cənab Prezident maraqlı bir cəhətə də toxundu. Mən bunu ilk dəfə onun özündən eşitdim. Onun türk inqilabının dünyəvilik sahəsində Avropaya təsir göstərdiyi və dünyəviliyin yalnız Avropaya xas olmadığı, başqa millətlərin, xüsusilə müsəlman xalqlarının da dünyəviliyi gerçəkləşdirmiş olması barəsində fikri də son dərəcə qiymətlidir.



Pantürkizm və panislamizm ideyalarının Atatürk tərəfindən rədd edilməsinin Türkiyə və digər türkdilli cəmiyyətlər üçün nə qədər dəyərli olduğunu söyləyərkən Prezident Heydər Əliyevin bu ideyaların bütün türk dünyasını çıxılmaz vəziyyətə saldığını, onlara qarşı rusların müdaxiləsi üçün şərait yaratdığını bildirməsi də maraqlıdır.

Zatən Atatürk də pantürkizmin və panislamizmin tarixdə heç vaxt həyata keçmədiyini və keçə bilməyəcəyini, bunun boş bir xəyal olduğunu, bundan türk millətinin, türk xalqının böyük ziyan çəkdiyini dəfələrlə söyləmiş, bunun düşmənlərimizin sayını artırmağa, bizə qarşı təzyiqləri çoxaltmağa səbəb olduğunu bildirmişdir. Hörmətli Heydər Əliyev də eyni şəkildə Atatürk kimi, panturanizm və pantürkizm ideyalarının, bu cür siyasətin zərərli olduğunu nəzərə çarpdırır.

**Sevtar Yasa:** Hörmətli Özer Ozankaya, Sizə çox təşəkkür edirik. Ümid edirik ki, biz yeni bir düşüncə çiçəyi dərərək elm, sənət, fəlsəfə sahəsində görülən hər işdə olduğu kimi, dünyanın gözəlliyə, yaxşılığa, həqiqətə doğru dəyişməsinə kiçik bir töhfə verdik. Güman edirik ki, hamımız irəliyə doğru bir addım da atdıq. Bu amalla Sizinlə yenidən görüşənədək. Sağ olun.

## GÜRCÜSTAN JURNALİSTLƏRİ İLƏ MÜSAHİBƏ

*Bakı, Prezident Sarayı*
*7 aprel 1999-cu il*

**Azərbaycan Prezidenti Heydər Əliyev Prezident Sarayında Gürcüstan jurnalistlərini – Gürcüstan televiziyasının birinci kanalından Georgi Kvitaşvilini, «Sakartvelos respublika» qəzetindən Aleko Aslanişvilini və «Gürcüstan» (Azərbaycan dilində) qəzetindən İslam Əliyevi qəbul etmiş, onların suallarına cavab vermişdir.**

**S u a l :** Cənab Prezident, Siz Qərb istiqamətində neft kəmərinin inşasının başa çatdırılmasına nə kimi əhəmiyyət verirsiniz?

**C a v a b :** Bakı-Supsa neft kəmərinin inşası istər Azərbaycan, istərsə də Gürcüstan üçün və Xəzər dənizinin Azərbaycan sektorunda bizimlə birlikdə neft çıxaran şirkətlər üçün böyük hadisədir.

Azərbaycan qədim neft diyarıdır. Onun torpaqlarının təkindən artıq bir milyard ton neft çıxarılmışdır. Lakin Azərbaycanda quruda və dənizdə hələ çoxlu neft və qaz var. Son 50 ildə mütəxəssislər, geoloqlar, neftçilər Xəzərin nəzəri ehtiyatlarını fəal surətdə müəyyənləşdirirlər.

Biz Xəzərin təkindən neft çıxarmağa hələ 1949-cu ildə başlamışıq. Dənizin dibindən neft çıxarılması işində biz dünyada birinci olmuşuq. Bu müddət ərzində dənizdə neft hasilatı sahəsində dünya praktikası çox irəliləmişdir və biz bu üsulla neft çıxarılmasının indi əslində ikinci mərhələsindəyik.

1994-cü ilin sentyabrında biz 11 ən iri neft şirkətinin daxil olduğu konsorsiumla müqavilə imzaladıq. Bu müqavilə «Əsrin müqaviləsi» adlandırılmışdır. Bu, həqiqətən belədir. Biz Xəzər dənizindən neft hasilatı sahəsində irimiqyaslı işlərin bünövrəsini qoymuşuq.

Həqiqətən də, böyük neftin hasilatından söhbət gedir. Müqaviləyə görə, üç yataqda («Azəri», «Çıraq» və «Günəşli») neft ehtiyatları 510 milyon ton miqdarında müəyyən edilmişdi. Təxminən yarım ildən sonra, ilk quyuların sınaqlarından sonra isə ehtiyatları yenidən müəyyənləşdirməyə imkan yarandı: məlum oldu ki, ehtiyatlar 630 milyon tondur!



Lakin bu, yalnız ilk müjdə idi. İndi biz artıq 15 müqavilə imzalamışıq.

Təsəvvür edin, Xəzər dənizinin Azərbaycan sektorundan nə qədər neft çıxarmaq olar: elə neft yataqları var ki, onların işlənilməsinə hələ başlanmayıbdır. Bir çox xarici şirkətlər bizə yataqların birgə işlənilməsi barədə təkliflə müraciət edirlər. Yəqin ki, ayın sonunda biz Amerikanın daha iki iri şirkəti ilə müqavilələr imzalayacağıq.

1994-cü ildə biz müqavilə imzalayan kimi, dərhal neft kəmərləri barədə də düşünməyə başladıq. Əsas magistral kimi Bakı-Ceyhan neft kəməri çəkmək ideyası yarandı. Biz bu ideyanı araşdırmaqla yanaşı, Bakı-Novorossiysk xəttinin inşasına başladıq. Sonra belə qərara gəldik ki, alternativ marşrut gərəkdir. Bakı-Supsa magistralının tikintisinin zəruriliyi belə yarandı. Hərçənd ki, bu magistral ilk müqavilədə nəzərdə tutulmurdu.

Təbii ki, bu məsələnin həlli zamanı biz böyük maneələrlə qarşılaşdıq. Çünki burada dünyanın bir çox ölkələrinin maraqları cəmləşirdi, müxtəlif tərəflərdən təzyiqlər də var idi. Lakin biz öz sözümüzü dedik və qərar qəbul etdik, hərçənd, təkrar edirəm, ilk layihədə Bakı-Supsa neft kəmərinin inşası və çox böyük məbləğdə müvafiq sərmayələr nəzərdə tutulmamışdı. Üstəlik, müxtəlif ölkələrin qəzetlərində mənfi rəylər, hətta hədə-qorxular olan məqalələr dərc edilirdi.

Sonra Bakı-Supsa neft kəməri inşasının dəyəri 275 milyon dollar artdı və 590 milyon dollar oldu. Lakin bizi bu da dayandırmadı, biz tikintini davam etdirdik. Mütəxəssislərin dedikləri kimi, neft kəməri keyfiyyətlə, çox yüksək texniki səviyyədə çəkilmişdir. Azərbaycan, Gürcüstan mütəxəssisləri, mühəndislər, əcnəbi mütəxəssislər böyük birgə iş görmüşlər.

Budur, vaxt gəlib çatmışdır və biz neft kəmərinin açılışını, Supsa terminalından tankerə ilk neftin vurulmasını birlikdə bayram edirik.

Bu böyük hadisədir.

Şübhəsiz ki, Bakı-Supsa neft kəmərinin Gürcüstan və Azərbaycan üçün böyük iqtisadi əhəmiyyəti var. Biz bu yeni marşrutla Xəzər neftini təmiz halda dünya bazarına ilk dəfə çıxaracağıq. Bu yalnız başlanğıcdır. Bakı-Supsa xəttinin yanından keçəcək əsas marşrutun – Bakı-Tbilisi-Ceyhan neft kəmərinin inşası üçün yaxşı başlanğıcdır.

Dostluq və qardaşlıq ənənələrinə sadiqliyi qoruyub saxlayan Gürcüstan və Azərbaycan bu gün müstəqil dövlətlər kimi sıx əməkdaşlıq

edirlər. Mən buna böyük əhəmiyyət verirəm və ümidvaram ki, bu, Gürcüstana da, Azərbaycana da böyük fayda gətirəcəkdir.

Bir sözlə, biz böyük hadisələrin astanasındayıq.

**S u a l :** Cənab Prezident, müəllifi özü olduğu ideya reallaşarkən insan hansı hisslər keçirir?

**C a v a b :** Əgər siz məni nəzərdə tutursunuzsa, deyə bilərəm: böyük məmnunluq duyuram. 1994-cü ildə biz müqaviləni imzalayandan sonra Azərbaycanı böyük təhlükə gözləyirdi. Bizi qorxutmaq, əsrin layihəsinin həyata keçirilməsinə mane olmaq üçün hər şey edilirdi.

Biz bu maneəni dəf edib, 1997-ci ildə neft çıxarmağa başlayanda da çoxlu məkrli məqalələr yazıldı, şayiələr yayıldı ki, neft azdır, böyük neft olmayacaq və s. Biz Bakı-Novorossiysk boru kəmərinə neft vurmağa və Bakı-Supsa neft kəməri barədə düşünməyə başlayanda da çox çətinlikləri dəf etməli olduq. Bu gün biz öz məqsədimizə çatmışıq, mən bundan məmnunluq duyur, bununla fəxr edirəm.

**S u a l :** Cənab Əliyev, Gürcüstan bilir ki, Bakı-Supsa neft kəməri Sizin zəhmətinizin və səylərinizin nəticəsidir, buna görə biz Sizə minnətdarıq. Magistralın iqtisadi mənfəəti dollarla ifadə ediləcək, bəs onun siyasi faydası nə olacaq? Demək olarmı ki, Qərb neft kəməri «Dinc Qafqaz» ideyasının – Gürcüstan prezidenti Eduard Şevardnadze ilə birlikdə müəlliflərindən birinin Siz olduğunuz ideyanın həyata keçirilməsinə töhfə verəcəkdir?

**C a v a b :** Siyasi nəticələr iqtisadi nəticələrdən heç də az olmayacaqdır. Ən əvvəl, Qərb neft kəməri bütün dünyaya göstərəcək ki, müstəqil dövlətlər kimi, Azərbaycan və Gürcüstan, heç nəyə baxmayaraq, öz problemlərini müstəqil həll edir və öz məqsədlərinə çatırlar. Bu, çox böyük siyasi əhəmiyyət kəsb edir, imkanları nümayiş etdirir və bunu təsdiqləyir ki, hərbi münaqişələrlə əlaqədar Azərbaycanda və Gürcüstanda, bütövlükdə Qafqazda vəziyyətin ağır olmasına baxmayaraq, biz müstəqil ölkələrik, yaşayıb yaradırıq, uğurlar qazanırıq, planlarımızı həyata keçiririk. Bu ən başlıcasıdır! İqtisadi səmərə isə, əlbəttə, olacaq və onu hamı hiss edəcəkdir.

**S u a l :** Siz Bakı-Tbilisi-Ceyhan əsas neft kəmərinin gələcəyini necə təsəvvür edirsiniz? Onun həyata keçirilməsinin ləngiyə biləcəyi barədə çox danışırlar. Tikintisi haqqında ötən ilin oktyabrında Ankarada Türkiyə, Gürcüstan, Azərbaycan, Qazaxıstan və Özbəkistanın bəyannamə imzaladıqları bu marşrut həyata keçiriləcəkmi?



**C a v a b :** Bu layihə ümumən istər Dünya Birliyində, istərsə də ayrı-ayrı ölkələrdə mübahisələr doğurur. Elə «Əsrin layihəsi»ni götürək. Nə qədər mübahisələr və maneələr oldu! Amma biz bu layihəni imzalayan kimi onu dərhal «Əsrin müqaviləsi» adlandırmağa başladılar. Ona bu adı biz vermədik, dünyanın iri dövlətləri, o cümlədən ABŞ onu belə adlandırdı. Onlar bu müqavilənin əhəmiyyətini belə qiymətləndirdilər. Halbuki lap əvvəldən çoxları elə düşünürdü ki, o, həyata keçirilə bilməz. Ancaq biz sübut etdik ki, bu, real layihədir.

İndi Bakı-Tbilisi-Ceyhan magistralının növbəsi gəlib çatmışdır. Bizi çox maneələr gözləyir. Bəziləri düşünür ki, bu magistral məqsədəuyğun deyildir, digərlərinin fikrincə, ona ehtiyac yoxdur, üçüncülər isə ümumiyyətlə, hədə-qorxu gəlirlər. Amma mən inanıram ki, bu layihə də həyata keçiriləcək, çünki təkcə Azərbaycan sektorundakı olduqca böyük neft ehtiyatlarını – mən hələ Qazaxıstan və Türkmənistanın ehtiyatlarını demirəm – Bakı-Supsa və Bakı-Novorossiysk boru kəmərləri ilə nəql etmək çox çətin olacaqdır. Neftin həcmi buna imkan verməyəcəkdir.

Ona görə də Bakı-Tbilisi-Ceyhan real layihədir və mütləq həyata keçiriləcəkdir.

**S u a l :** Cənab Prezident, Siz «Əsrin müqaviləsi»nin həyata keçirilməsi prosesində olmuş hədələri, qorxutmaq cəhdlərini xatırlatdınız. Siz hesab etmirsinizmi ki, istər Azərbaycanda, istərsə də Gürcüstanda kifayət qədər olmuş terror aktları, təxribatlar hansı şəkildəsə neft kəmərinin inşasına qarşı yönəldilmişdi?

**C a v a b :** Mən bu fikri həqiqətə uyğun sayıram. Biz «Əsrin müqaviləsi»ni imzalayan kimi dərhal mənə qarşı terror etməyə cəhd göstərdilər. 1995-ci ilin martında dövlət çevrilişi cəhdi oldu, elə həmin ilin yayında isə Azərbaycan Prezidentinin təyyarəsini istilik raketi ilə vurmağa cəhd göstərdilər. Azərbaycan Milli Məclisi sədrinin müavinini öldürdülər. Başqa terror aktları da oldu, bunlar ölkəyə böyük zərər vurdu.

Mən Azərbaycan Prezidentinə qarşı terror tədbirləri barədə danışdım. Gürcüstan prezidenti Eduard Şevardnadzeyə qarşı törədilən terror tədbirləri barədə də bizim məlumatımız vardır. Bunlar əsasən bizim – həm Azərbaycan, həm də Gürcüstan prezidentlərinin apardıqları cəsarətli, müstəqil siyasəti gözü götürməyənlərin əməlləridir. Amma biz yolumuzdan, siyasətimizdən dönməyəcəyik. Bu siyasətin miqyası ge-

nişdir. Burada bizim neft siyasətimiz müstəsna yer tutur. Azərbaycan Prezidentinin hazırlayıb həyata keçirdiyi Azərbaycan neft strategiyası möhtəşəm hadisədir və bir sıra ölkələrin müəyyən qüvvələrinin mənafeyinə toxunur. Buna görə də bizim real hərəkətlərimiz qarşısında aciz olan adamlar terror tədbirləri, dövlət çevrilişi cəhdləri kimi qeyri-insani vasitələrə əl atırlar.

Sözümün sonunda fürsətdən istifadə edib gürcü xalqına, Gürcüstanın bütün sakinlərinə salamımı və ən xoş arzularımı göndərirəm. Mən gürcü xalqını Bakı-Supsa neft kəmərinin açılışı bayramı münasibətilə təbrik etmək istəyirəm. Xahiş edirəm Gürcüstan prezidenti, mənim dostum Eduard Şevardnadzeyə atəşin salamımı və ən xoş arzularımı yetirin. Ona böyük dövlət fəaliyyətində yeni-yeni uğurlar arzulayıram.

Bu hadisə Azərbaycan və gürcü xalqlarının sarsılmaz dostluğunun daha bir təsdiqidir.



## NATO-nun 50 İLLİK YUBİLEYİNDƏ İŞTİRAK ETMƏK ÜÇÜN ABŞ-a YOLA DÜŞƏRKƏN BİNƏ HAVA LİMANINDA JURNALİSTLƏRİN SUALLARINA CAVAB

*22 aprel 1999-cu il*

**S u a l :** Cənab Prezident, qarşıdakı səfər NATO-Azərbaycan əlaqələrinin inkişafına və regionda sülhün, təhlükəsizliyin təmin olunmasına necə təsir göstərəcəkdir? Bu barədə Sizin fikrinizi bilmək istərdik.

**C a v a b :** Qarşıdakı səfər birinci növbədə NATO-nun 50 illik yubileyi ilə əlaqədardır. Mən o yubiley mərasimlərində iştirak edəcəyəm. Şübhəsiz ki, orada NATO-nun gələcək fəaliyyəti haqqında çox mühüm sənədlər təqdim olunubdur və onlar müzakirə ediləcək, qəbul olunacaqdır.

Səfərimin əsas məqsədi bundan ibarətdir. Amma eyni zamanda, siz bilirsiniz ki, Vaşinqtonda mən Ermənistan prezidenti Koçaryanla görüşəcəyəm, sonra Amerika Birləşmiş Ştatlarının dövlət katibi, xarici işlər naziri xanım Olbraytın iştirakı ilə Cənubi Qafqaz ölkələrinin – Gürcüstan, Azərbaycan və Ermənistanın prezidentlərinin görüşü olacaqdır. Bizim bölgəmizdə əməkdaşlığın inkişaf etdirilməsi üçün, sülhün yaranması üçün başqa bir çox görüşlər də keçiriləcəkdir. Mənim Amerika Konqresində görüşlərim olacaqdır, başqa dövlət xadimləri ilə görüşlərim olacaqdır. Əgər vaxt imkan versə, başqa ölkələrin prezidentləri ilə də bir neçə görüş nəzərdə tutulubdur. Neft müqavilələri imzalanacaqdır. Qısa müddətdə görəcəyimiz işlər çoxdur.

Bilirsiniz ki, bizim bütün səfərlərimizdə məqsədimiz birinci, Azərbaycanın reallığını bütün ölkələrə, dünyaya çatdırmaq, Azərbaycanın inkişafı üçün bütün bu imkanlardan istifadə etmək, ən əsası isə Azərbaycanda sülhün, əmin-amanlığın təmin olunması üçün, bölgədə münaqişənin, xüsusən Ermənistan – Azərbaycan münaqişəsinin ləğv olunması üçün lazımi addımlar atmaqdır. Məqsədimiz budur. Güman edirəm ki, bu bizim üçün xeyirli olacaqdır.

**S u a l :** Cənab Prezident, Siz Vaşinqtonda məsələ qaldıracaqsınızmı ki, Balkan münaqişəsinə nisbətən Dağlıq Qarabağ münaqişəsinə az fikir verilir.

**C a v a b :** Bəli, mütləq olacaqdır. Yəqin siz müşahidə etdiniz – mən Viktor Çernomırdinlə görüşəndə onunla bu barədə çox ciddi danışıqlar apardım. Biz həmişə hesab edirik ki, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi daha da böyük diqqətə layiqdir. Çünki bu münaqişə çox uzunmüddətli münaqişədir və bizim ölkəmizə çox böyük zərərlər gətiribdir.

**S u a l :** Cənab Prezident, Amerika Birləşmiş Ştatları tərəfindən bu məsələyə dair yeni təkliflər ola bilərmi?

**C a v a b :** Hər şey ola bilər. Amma indi nə demək olar ki, hər şey ola bilər.

Sağ olun.



## «VAŞİNQTON POST» QƏZETİNİN JURNALİSTLƏRİ İLƏ GÖRÜŞ

*ABŞ, «Monarx» oteli*
*26 aprel 1999-cu il*

**Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev «Monarx» otelində ABŞ-ın nüfuzlu mətbuat orqanlarından olan «Vaşinqton post» qəzetinin jurnalistləri Stiv Rozenfeld, Fred Xayyat, Stiv Kolb, Nora Bostani və Devid İqnatius ilə görüşdü.**

**Heydər Əliyev jurnalistləri salamlayaraq dedi:**

– Mətbuatla görüş həmişə çox maraqlı olur. Xüsusən dünyada məşhur olan belə bir qəzet – «Vaşinqton post» qəzetinin nümayəndələri ilə. Mən sizi salamlayıram və təşəkkür edirəm ki, siz vaxt tapıb bizimlə görüşməyə gəlmisiniz.

Adətən qəzetçilər suallar verirlər. Yəqin ki, sizin də suallarınız vardır.

**S t i v  R o z e n f e l d :** Cənab Prezident, Sizə çox təşəkkür edirik ki, bizi dəvət etmisiniz. Bəli, doğru buyurursunuz, Sizə çoxlu suallarımız vardır. Əgər etiraz etməsəydiniz, elə birbaşa suallardan başlayardıq.

**H e y d ə r  Ə l i y e v :** Buyurun, başlayın.

**S u a l :** Cənab Prezident, bilmək istərdik ki, Siz NATO-nun Kosovodakı əməliyyatlarını necə qiymətləndirirsiniz və Sizcə, NATO-nun Kosovo barədə qərarları sülhün bərqərar olmasına gətirib çıxaracaqmı?

**C a v a b :** Əvvəlcə mən istəyirəm sizə təşəkkür edim ki, qəzetiniz və siz Azərbaycana, Azərbaycanın Prezidentinə bu günlər çox böyük diqqət göstərmisiniz. Aprel ayının 22-də bizim Vaşinqtona gəlməyimizlə əlaqədar siz aprelin 23-də öz qəzetinizdə bizim gəldiyimizi bəyan etmisiniz və hətta bir şəkil də vermisiniz. Deyirlər ki, «Vaşinqton post» qəzetində belə bir fotonun yerləşdirilməsi bu qəzetin xüsusi münasibətini göstərir. Ondan sonrakı gün bizim Hərbi Dəniz Akademiyasında olmağımız haqqında sizin qəzetdə bir məqalə verilibdir. Bunlara görə təşəkkür edirəm. Bizim Azərbaycanda deyirlər ki, göz dəyməsin,

həmişə belə olsun. Çünki burada prezidentlər çoxdur. İndi siz bizə belə diqqət göstərmisiniz. Ola bilər, buna görə də göz dəysin.

Sizin sualınıza cavab olaraq onu deyə bilərəm ki, şübhəsiz, Yuqoslaviya, Kosovo problemi çox mürəkkəb bir problemdir. Amma siz bilirsiniz ki, biz, Azərbaycan on ildir belə bir problemin içində yaşayırıq. Yəqin sizə məlumdur ki, Azərbaycanın tərkibində olan Dağlıq Qarabağ vilayətini 1988-ci ildə Ermənistan Azərbaycandan ayırıb özünə bağlamağa çalışıbdır. Bunun nəticəsində müharibə baş veribdir və Ermənistan silahlı qüvvələri müəyyən səbəblərə görə Azərbaycan ərazisinin 20 faizini işğal edibdir.

Buna baxmayaraq biz beş il öncə atəşkəs haqqında saziş imzalamışıq, atəşi dayandırmışıq və məsələni sülh yolu ilə həll etmək istəyirik. Məsələni sülh yolu ilə həll etmək üçün Dağlıq Qarabağa Azərbaycanın tərkibində yüksək dərəcəli özünüidarəetmə statusu verməyə razıyıq. Amma Ermənistan tərəfi bununla razı deyildir. Ona görə də indiyə qədər bu məsələ həll olunmur.

Yuqoslaviyada isə Miloşeviç Kosovonun muxtariyyətini ləğv edibdir və beləliklə, o, beynəlxalq hüquq normalarını pozubdur, ədalətsizlik edibdir və Kosovo albanlarının özünüidarəetmə statusu almaq cəhdlərinə görə də orada müharibə başlayıbdır. O, etnik təmizləmə ilə məşğul olur. Bizim bu barədə fikrimiz belədir ki, hər bir ölkənin ərazi bütövlüyü toxunulmaz olmalıdır. Ona görə də biz Yuqoslaviyanın ərazi bütövlüyünü müdafiə edirik, dəstəkləyirik. Biz separatçılığın əleyhinəyik. Amma eyni zamanda etnik təmizləmənin də, soyqırımın da əleyhinəyik.

Şübhəsiz ki, biz Kosovo albanlarına müstəqillik vermək, müstəqil dövlət yaratmaq təklifinin əleyhinəyik. Amma eyni zamanda Kosovo albanlarının hüquqlarının tapdalanmasının da əleyhinəyik. Biz hesab edirik ki, bu məsələdən ən düzgün çıxış yolu budur ki, Yuqoslaviyanın ərazi bütövlüyünün toxunulmazlığı şərti ilə Kosovo albanlarına Yuqoslaviya dövlətinin tərkibində muxtariyyət hüququ verilməlidir və hər iki tərəf belə bir prinsip əsasında münaqişəyə son qoymağa məcbur edilməlidir. Bu baxımdan NATO-nun Yuqoslaviyada apardığı əməliyyatlar, görünür ki, son qərardır. Yəni bütün başqa imkanlar nəticə vermədiyinə görə NATO bu cür əməliyyatlara başlayıbdır.

Ümumiyyətlə, biz hərbi əməliyyatların əleyhinəyik. Ancaq Miloşeviçin hərəkətlərinin qarşısını yəqin ki, başqa cür almaq mümkün deyildir. Ona görə də biz NATO-nun bu əməliyyatlarını da məqsədəuyğun hesab edirik.



Təbiidir ki, məsələnin sülh yolu ilə həll edilməsi hər şeydən yaxşı olardı. Əgər Miloşeviç bununla razı olmursa və özünü bu qədər sərbəst aparırsa, onda onu məcbur etmək lazımdır.

Birləşmiş Millətlər Təşkilatının nizamnaməsində sülhə məcbur etmək kimi bir müddəa var. Ona görə də biz hesab edirik ki, əgər NATO bu yol ilə gedibsə, bu yol ilə də məsələni sona çatdırıb həll etməlidir. Bu mənim prinsipial fikrimdir. Amma taktiki cəhətlər, şübhəsiz ki, NATO-nun özündən asılıdır.

**S u a l :** Siz «bu münaqişəyə son qoyulmalıdır» deyərkən, əgər lazım olarsa, quru qoşunlarının da Kosovoya göndərilməsinin tərəfdarısınızmı?

**C a v a b :** Bilirsiniz, indi vəziyyət elədir ki, Miloşeviç bütün dünyaya meydan oxuyur.

Rusiyanın məsələni sülh yolu ilə həll etmək fikri ilə razıyam. Amma əgər Miloşeviç heç bir təklifi qəbul etmirsə və özbaşınalıq edib soyqırımı siyasəti həyata keçirirsə, bunun başqa yolu yoxdur.

**S u a l :** Cənab Prezident, İraq Küveyti işğal edərkən Sovetlər İttifaqı beynəlxalq səylərə qoşularaq bu təcavüzə qarşı çıxış etdi. Sizcə, indi Rusiya nə üçün beynəlxalq qüvvələrlə bir mövqedən çıxış etmir?

**C a v a b :** Buna mən tam cavab verə bilmərəm. Onu Rusiyadan soruşmaq lazımdır. Ancaq bizi narahat edən bir məsələ ondan ibarətdir ki, Rusiyada bu dəqiqə şovinist, millətçilik əhval-ruhiyyəsi çox geniş yayılıbdır.

Şübhəsiz ki, hər dövlət öz siyasətini özü bildiyi kimi aparır. Amma Rusiyada slavyan birliyi, yaxud da pravoslav, xristian birliyi şüarı altında onlar bu ədalətsizliyə dəstək verirlər. Mən hesab edirəm ki, Rusiya o qədər də düzgün siyasət aparmır. Ümumiyyətlə, Rusiyanın məsələləri sülh yolu ilə həll etmək prinsipi əsaslı fikirdir. Ancaq məlumdur ki, NATO da bu məsələni sülh yolu ilə həll etməyə çalışır. Amma bunlar nəticə vermədi. Rusiya da həmin o əlaqə qrupunun, yaxud da Rambuyedəki danışıqların iştirakçısı idi. Gərək o, həmin vaxt çalışaydı və Miloşeviçlə xüsusi əlaqəsi olduğuna görə gərək ona başa salaydı ki, bu cür hərəkətlərdən əl çəksin. Amma buna nail olmayaraq, eyni zamanda NATO-nun əməliyyatlarının əleyhinə çıxmaq, şübhəsiz ki, anlaşılmazdır. Rusiya deyir ki, məsələni danışıqlarla həll etmək lazımdır. Bu düzgün fikirdir. Ancaq əgər danışıqlar nəticə vermirsə?

Məsələn, biz beş ildir Ermənistanla danışıqlar aparırıq ki, məsələni sülh yolu ilə həll edək. Ermənistan Azərbaycan torpaqlarının 20 faizi-

ni işğal edibdir. İndi də deyir ki, «Dağlıq Qarabağa müstəqillik vermək lazımdır». Biz nə qədər çalışırıq, münaqişəni həll edə bilmirik. Minsk qrupunun həmsədrləri Rusiya, Amerika Birləşmiş Ştatları, Fransa da Ermənistanı bu məsələnin sülh yolu ilə həll olunmasına təhrik edə bilmirlər. Məsələ həll olunmur, torpaqlarımız işğal altındadır, bir milyondan artıq həmvətənimiz qaçqın vəziyyətində çadırlarda yaşayır.

Məsələn, Dağlıq Qarabağda müharibə etmək lazım deyildir. Sadəcə, Ermənistan tərəfinə daha da güclü təsir olsaydı ki, onlar düzgün mövqe tutsunlar, məsələni həll etmək mümkündür.

Görünür ki, indi Miloşeviç həm özünə arxayındır, həm də başqa şeylərə arxayındır. O, heç bir ədalətli fikrə məhəl qoymur. Mənim fikrim bu qədər.

**S u a l :** Cənab Prezident, öncə bildirdiniz ki, Siz Dağlıq Qarabağa Azərbaycanın tərkibində geniş statuslu muxtariyyət verməyə razısınız. Bilmək istərdik ki, bu «geniş muxtariyyət» deyərkən nəyi nəzərdə tutursunuz? Yəni mən Dağlıq Qarabağda yaşayan erməni çoxluğuna geniş muxtariyyət verilməsini nəzərdə tuturam. Ümumiyyətlə, «geniş muxtariyyət» deyərkən nəyi nəzərdə tutursunuz? Bir az bu məsələnin spesifik cəhətlərinə vara bilərsinizmi?

Məsələn, Siz Dağlıq Qarabağa özünün polis qüvvələrini saxlamağa və silah gəzdirərək yerli əhalinin təhlükəsizliyini təmin etməyə, yaxud Dağlıq Qarabağ ilə Ermənistan arasında planlı şəkildə körpünün fəaliyyət göstərməsinə, dəhlizin olmasına icazə verərsinizmi? Xahiş edirəm, geniş muxtariyyətin detallarında nəyi nəzərdə tutduğunuz barədə bizə ətraflı məlumat verəsiniz.

**C a v a b :** Bilirsiniz, əgər Ermənistan tərəfi bu geniş muxtariyyətin tərəfdarı olsa, biz onlarla birlikdə bu məsələni daha da dəqiqləşdirə bilərik.

Məsələn, prinsip etibarilə, siz dediyinizə – əlbəttə ki, Dağlıq Qarabağda polis qüvvələrinin saxlanmasına və silahlı polisin olmasına biz tamamilə razıyıq. Ermənistanla daim əlaqə saxlamaq – buna da biz tamamilə razıyıq. Biz onlara iqtisadiyyatda da çox böyük səlahiyyətlər verməyə hazırıq. Yaxud xarici ölkələrlə müstəqil iqtisadi əlaqələr saxlanmasına da biz razıyıq. «Yüksək muxtariyyət» deyəndə, orada bir neçə məsələlər üzrə onlar gərək Azərbaycan hökuməti ilə mütləq bağlı olsunlar. Qalan məsələlərdə isə biz onlara geniş səlahiyyət veririk.



Dünyada çox belə muxtariyyətlər var, muxtariyyət statusu vardır. Biz bəyan etmişik ki, Ermənistan tərəfi üçün uyğun olan muxtariyyət statusunu biz onlara verməyə hazırıq. Amma Ermənistan tərəfi bununla razı deyildir.

**S u a l :** Cənab Prezident, mən mövzunu dəyişərək İrandakı cari siyasi durum barədə Sizin fikirlərinizi bilmək istərdim. Sizcə, İranın cari siyasi vəziyyəti nə qədər sabitdir və Siz gələcəyə baxdıqda İranda nələrin baş verə biləcəyini görürsünüz?

**C a v a b :** Bu barədə qəti bir söz demək çox çətindir. İranda olan rejim, İslam dövləti rejimi, şübhəsiz ki, gücə arxalanan bir rejimdir. İran əhalisinin çox hissəsinin dindar olması və dinin İranda çox güclü təsiri olması, şübhəsiz ki, bu rejimi daha da möhkəmləndirir.

İranda təxminən 30 milyona qədər azərbaycanlı yaşayır. Bu, İran əhalisinin təxminən yarısıdır. Onlar istəyirlər ki, öz dillərində məktəb olsun, kitab olsun, qəzet olsun. Onlar başqa bir şey istəmirlər.

Baxmayaraq ki, vaxtilə öz Konstitusiyalarında belə hüquqların verilməsi haqqında maddə yazılıbdır və bugünkü prezident Xatəmi də prezident seçkiləri vaxtı söz veribdir ki, prezident seçilsə, Konstitusiyanın 15-ci maddəsini həyata keçirəcəkdir, ancaq onu həyata keçirmir.

**S u a l :** Cənab Prezident, sizcə, prezident Xatəmi İranda mövcud olan mühafizəkar qüvvələr və kəşfiyyat orqanları üzərində öz ideyaları ilə qalib gələ biləcəkmi və Siz Xatəmini yaxın 5-10 il ərzində İranda önəmli rol oynayan siyasi fiqur kimi görürsünüzmü?

**C a v a b :** Şübhəsiz ki, prezident Xatəmi bir siyasi fiqur kimi İranda böyük rol oynayır və gələcəkdə də oynaya bilər. O, Qərblə müəyyən bir dialoq etmək təklifini irəli sürübdür.

**S u a l :** Bu səfəriniz zamanı prezident Klinton ilə söhbət etmək imkanınız oldumu? Xüsusilə Azərbaycana humanitar yardım göstərilməsinə qoyulmuş qadağa barədə onunla söhbət edə bildinizmi? Azərbaycana qarşı tətbiq olunmuş bu maddənin aradan qaldırılması və bu vəziyyətin düzəldilməsi üçün yeni təşəbbüslər edəcəyi barədə onun tərəfindən vədlər almısınızmı?

**C a v a b :** Ayın 24-də axşam görüşümüz zamanı mən onunla qısa söhbət etdim və aprelin 25-də NATO-nun toplantısı bitəndən sonra biz yenə də bir neçə dəqiqə söhbət etdik. Bu söhbətlər zamanı bizim əsas fikirlərimizi mən ona bir daha çatdırdım. Bizim üçün əsas iki məsələdir: biri Ermənistan-Azərbaycan münaqişəsinin, Dağlıq Qarabağ müna-

qişəsinin sülh yolu ilə həll olunmasında Amerika Birləşmiş Ştatlarının səylərinin artırılması, ikincisi isə Konqresin qəbul etdiyi 907-ci maddənin, Azərbaycana yardıma qadağa qoyan maddənin aradan götürülməsidir. Ayın 24-də və 25-də apardığımız söhbətimizin ikisində də o, qətiyyətlə bildirdi ki, bu məsələlərlə ciddi məşğul olur və olacaqdır. Həttа belə dedi ki, mən prezidentlik müddətimin sonuna qədər Ermənistan-Azərbaycan münaqişəsinin həll olunmasını mütləq təmin etməliyəm.

Mən bir neçə vaxt, 10-15 gün bundan öncə prezident Klintondan və xanım Olbraytdan məktublar almışam. O məktublarda prezident Klinton və xanım Olbrayt göstərirlər ki, Amerika hökuməti Dağlıq Qarabağ münaqişəsinin həll edilməsi üçün bundan sonra daha da ciddi məşğul olacaqlar. 907-ci maddə haqqında onlar daim bildirirlər ki, bu 907-ci maddənin əleyhinədirlər. Onların bəyanatına görə, hökumət çalışır və bundan sonra da çalışacaq ki, 907-ci maddə aradan götürülsün.

Mən bu gün xanım Olbraytla görüşəcəyəm. Görüş zamanı bu mövzuları mütləq müzakirə edəcəyəm.

**S u a l :** Cənab Prezident, Kosovo mövzusuna toxunan zaman Rusiyada son dövrdə artmaqda olan şovinizm və millətçilik təzahürlərində narahatlığınızı bildirdiniz. Öyrənmək istərdik ki, bu özünü daha hansı formalarda büruzə verir və Sizin regiona bu halların təsiri necədir?

**C a v a b :** Rusiyanın siyasətində millətçilik, şovinizm hər yerdə özünü büruzə verir. Mən sizə bildirmək istəyirəm ki, keçmişdə Sovetlər İttifaqının rəhbərliyində olan şəxslərin də siyasətində millətçilik, şovinizm daim hiss olunurdu. İndi isə Rusiya baxmayaraq ki, onlar demokratik dəyərləri özlərinin əsas prinsipləri elan ediblər, ancaq orada şovinizm, millətçilik əhval-ruhiyyəsi genişdir – həm Rusiyanın daxilində, həm də Rusiyanın müxtəlif dövlətlərlə, ölkələrlə münasibətlərində.

Biz, rus millətinə mənsub olmayanlar bu cür hallara həmişə çox həssasıq. Məsələn, mən Rusiyanın rəhbər vəzifəli şəxslərinə son vaxtlar bir neçə dəfə demişəm ki, siz ölkənizdə münasibətləri milli zəmində, yaxud da ki, dini zəmində qurmaqla özünüz-özünüzə çox böyük zərər vurursunuz. Çünki Rusiya əhalisinin hamısı slavyan deyildir, hamısı pravoslav, xristian deyildir. Rusiyada müsəlmanlar da, yəhudilər də, buddistlər də var və başqa dinlərə, başqa millətlərə mənsub olanlar da vardır. Rusiyada 20 milyon müsəlman var. İndi bu Yuqoslaviya, Kosovo problemində ardıcıl deyəndə ki, «biz slavyanıq, pravoslavıq, xristianıq, biz serblərə kömək etməliyik», bu, müsəlman millətindən, yaxud başqa millətlərdən olan vətəndaşlara toxunur.



Qafqaz ölkələrinə münasibətlərində də bu millətçilik, şovinistlik özünü göstərir.

Məsələn, xatirimdədir, bir dəfə – 1998-ci ilin əvvəlində televiziya vasitəsilə Yeltsin Ermənistanı dəstəkləyərək dedi ki, ermənilər xristiandırlar, onlar bizim strateji təsirimiz altındadırlar, ona görə də biz onlara xüsusi diqqət yetirməliyik.

Şübhəsiz, belə anlamaq olar ki, demək, başqa dinə, yaxud başqa millətə mənsub olan ölkələrə onların münasibəti başqadır. Belə millətçilik, şovinizm siyasəti bizi çox narahat edir.

**S u a l :** Cənab Prezident, Siz hələ Sovetlər İttifaqının Siyasi Bürosunda çalışdığınız vaxtdan bəri uzun illərdir ki, Rusiyanın prezidenti Boris Yeltsini tanıyırsınız. Bilmək istərdik, Siz onu bir lider və bir şəxs kimi necə qiymətləndirirsiniz? Sizcə o, nəyi düzgün edir, nəyi isə səhv edir?

**C a v a b :** Bu çox mürəkkəb sualdır.

**S u a l :** Cənab Prezident, biz bu günlər Gürcüstan prezidenti Eduard Şevardnadze ilə də görüşmüşük. Buna bənzər sualla ona müraciət edəndə o, Rusiyada hökumət ilə hökumətdənkənar qüvvələr arasında bir fərq qoydu. Qeyd etdi ki, Rusiyada bir hökumət dairələri var, bir də hökumətdən kənarda olan qüvvələr vardır ki, onlar daha millətçi, daha şovinistdirlər. Siz də bu fikirlə razılaşırsınızmı, yoxsa Sizcə, elə Rusiyanın hökumət dairələrinin özləri də Sizin regiona qarşı münasibətdə şovinist mövqedədirlər?

**C a v a b :** Bilirsiniz, mən ümumi fikir söyləyirəm. Bunu araşdırmaq, seçmək çox çətindir. Bu gün hökumətdə olmayan sabah hökumətdədir, bu gün hökumətdə olan isə sabah hökumətdə deyil. Mən ümumi fikrimi deyirəm. Mən bunu fərdiləşdirmək istəmirəm, ümumi əhval-ruhiyyəni deyirəm.

**S u a l :** Cənab Prezident, icazə verin, Azərbaycanın şəxsiyyətləri barədə sual verim. Sizin partiyanın üzvlərinin bəziləri məqalələrində yazırlar ki, Azərbaycanın gələcəyi üçün ən ağıllı, ən düzgün yol gələcəkdə Sizin oğlunuzun prezident olmasıdır. Bu fikrə necə münasibət bəsləyirsiniz?

**C a v a b :** Bizdə fikir müxtəlifliyi, plüralizm vardır. Kim nə cür düşünür, o cür də deyir. Mən hər bir fikrə münasibət bəsləyə bilmərəm.

Son zamanlar Heydər Əliyevin oğlu haqqında müxalifətdə cürbəcür danışıqlar gedir. Həmin müxalifətdə olan insanlar kimi, Heydər Əliyevin oğlu İlham Əliyev – o mənim yanımda oturubdur – o da Azərbaycanın vətəndaşıdır. Onun seçib-seçilmək hüququ vardır. O da bir vətəndaş kimi öz hüquqlarından nə vaxt, nə cür istifadə etmək istəsə, o vaxt da istifadə edəcəkdir. Bu tam müstəqildir.

**S u a l :** Siz ona səs verərdinizmi?

**C a v a b :** Bəs hesab edirsiniz ki, verməzdim? Əksinə desəydim, siz inanmazdınız.

**S u a l :** Cənab Prezident, Xəzər dənizində olan enerji ehtiyatlarının həcmi barədə bizdə müxtəlif hesablamalar, ehtimallar vardır. Əgər biz əvvəllər Xəzər dənizinin çox böyük enerji ehtiyatlarına malik olması barədə fikirlərlə rastlaşırdıqsa, son dövrlər bu ehtiyatların daha məhdud olması barədə fikirlər eşidirik. Sizin hesablamalarınız necədir?

**C a v a b :** Mən bu gün Strateji və Beynəlxalq Araşdırmalar Mərkəzində çıxış edərkən bu mövzuya toxundum. Xəzər dənizinin enerji ehtiyatları dörd il bundan öncə elan edildiyindən də çoxdur.

Biz 1994-cü ildə ilk müqaviləni – «Əsrin müqaviləsi»ni imzalayanda mən təsəvvür edə bilməzdim ki, cəmi üç il ərzində müqavilələrin sayı 16-ya çatacaqdır. Sabah biz burada, Vaşinqtonda yenə üç müqavilə imzalayacağıq – «Eksson», «Mobil» və «Monkrift oyl» şirkətləri ilə. Əgər Azərbaycanda, ya Xəzər dənizində neft ehtiyatları az olsa, bu qədər şirkətlər yeni-yeni müqavilələr imzalamaq üçün müraciət edərlərmi?

İndiyə qədər imzalanmış 16 müqavilədə 32 şirkət iştirak edir və bu şirkətlər 14 ölkəni təmsil edirlər. İndi üç müqavilə də imzalanacaqdır və bütün müqavilələrə görə investisiyanın ümumi həcmi 50 milyard dollara qədərdir. Neft ehtiyatlarına gəldikdə isə bizim mütəxəssislərin hesablamaları göstərir ki, Xəzər dənizinin Azərbaycan sektorunda olan neft yataqlarının ehtiyatı 4 milyard tondan 10 milyard tona qədərdir. Hələ bu, ilkin hesablamalardır. Amma həqiqətdə bundan artıqdır.

Məsələn, biz birinci müqaviləni imzalayanda layihədə nəzərdə tutmuşduq ki, oradan 510 milyon ton neft götürüləcəkdir. Amma indi görünür ki, 630 milyon ton götürüləcəkdir. Yəni 120 milyon ton artıq. Biz hər qazılan quyudan sutkada 500 ton neft gözləyirdik, amma indi 2 min ton neft alırıq.



Bilirsiniz, Sizin o dediyiniz fikirlər Rusiya mətbuatında, Amerika Birləşmiş Ştatlarının və başqa ölkələrin mətbuatında yayılıbdır. Bu fikirləri yayanlar Azərbaycanın neft strategiyasının əleyhinə olan adamlardır, o cümlədən ermənipərəst qüvvələrdir.

Məsələn, siz bilirsiniz ki, Rusiya bizim bu neft strategiyamızın əleyhinədir, xüsusən Amerika Birləşmiş Ştatları, Avropa ölkələri şirkətlərinin Xəzər dənizinə gəlməsinin əleyhinədir. Ona görə də onlar gördülər ki, bundan bir şey çıxmır, indi bu cür şayiələr yayırlar. Bunlar əsassızdır. Xəzər dənizinin çox böyük enerji ehtiyatları vardır. Təkcə Azərbaycan sektorunda yox, digər sektorlarda da. Xüsusən Qazaxıstan sektorunda.

**S u a l :** Cənab Prezident, Siz mənim indi vermək istədiyim suala qismən cavab verdiniz. Amma yenə bilmək istəyirəm ki, Sizcə, Rusiya Xəzər regionundakı layihələrdə daha fəal iştirak etmək üçün, Ermənistana yardım göstərmək vasitəsilə Sizə təzyiq etmək istəyirmi?

**C a v a b :** Bilirsiniz, şübhəsiz ki, təsir etməyə çalışır. İndi Rusiyanın bizim Xəzər dənizindəki neft yataqlarında fəal iştirak etməyə maddi imkanları, maliyyə imkanları yoxdur. Onların bəziləri hesab edirlər ki, Azərbaycan bu ehtiyatları saxlamalıdır, nə vaxt onların imkanları olacaq, o vaxt istifadə edə bilsinlər. Ona görə cürbəcür vasitələrlə təsir etməyə çalışırlar.

1994-1995-ci illərdə Azərbaycanda terror aktları, silahlı dövlət çevrilişinə cəhdlər də məhz Azərbaycanın neft strategiyasının qarşısını almaq məqsədi daşıyırdı.

Məsələn, 1994-cü il sentyabrın 20-də biz «Əsrin müqaviləsi»ni imzaladıq. Sentyabr ayının 29-da Azərbaycan Parlamenti sədrinin müavinini və bir də yüksək rütbəli hərbi zabiti terrorla öldürdülər. Bu zaman Milli Təhlükəsizlik Nazirliyinin təcridxanasına hücum edildi və oradan dörd nəfər siyasi cəhətdən çox cinayətkar adamı çıxarıb Rusiyaya qaçırdılar.

Biz 1994-cü ilin oktyabr ayındakı çevriliş cəhdinin qarşısını aldıq. 1995-ci ilin mart ayında yenidən dövlət çevrilişinə cəhd göstərdilər. 1995-ci ilin avqust ayında Azərbaycan Prezidentinin təyyarəsini xaricdən qayıdarkən Azərbaycan hava limanının üzərində raketlə vurmağa cəhd göstərdilər. Bizə məlumdur ki, burada Rusiyanın xüsusi xidmət orqanlarının rolu vardır. Azərbaycan Prezidentini silahlı yolla devirmək, yaxud da ki, ona qarşı terror etmək və beləliklə, Azərbaycanın siyasətini dəyişmək məqsədi var idi.

**S u a l :** Cənab Prezident, bizim ölkədə analitiklər belə hesab edirlər ki, Rusiya təzədən dirçələcək, təzədən güclü bir dövlət olacaq və həm Sizə, həm də Amerikaya təhlükə törədə biləcəkdir. Bu barədə nə düşünürsünüz?

**C a v a b :** Mən ümumiyyətlə proqnoz verməkdən çəkinirəm. Ona görə də qəti proqnoz vermək istəmirəm. Hər halda, Rusiyanın daxilində gedən proseslər göstərir ki, diqqətli olmaq lazımdır.

**S u a l :** Cənab Prezident, bu ölkədə fikir müxtəlifliyi vardır. Bəziləri zəif Rusiyanın, bəziləri isə sağlam Rusiyanın tərəfdarıdırlar. Lakin hər ikisi razılaşır ki, zəifləmiş Rusiya qonşuları üçün, Qərb üçün təhlükədir, həm də hesab edirlər ki, Rusiyanın sağlamlaşması üçün Beynəlxalq Valyuta Fondu gərək ona yardımlarını davam etdirsin. Hətta baxmayaraq ki, bəzən Siz də, biz də Rusiyanın etdiyi hərəkətlərlə razılaşmırıq. Amma buna baxmayaraq bəzi adamlar hesab edirlər ki, Beynəlxalq Valyuta Fondu Rusiyaya yardımı davam etdirməlidir. Sizin bu fikirlərə münasibətiniz necədir?

**C a v a b :** Bu da çox ciddi fikirlərdir. Mən bir onu deyə bilərəm ki, biz istəyirik Rusiya demokratik ölkə olsun, Rusiyada ümumbəşəri dəyərlərə, demokratik prinsiplərə söykənən hakimiyyət olsun, Rusiyada imperiya iddiaları inkişaf etməsin və Rusiya imperiya iddialarından əl çəksin, Rusiya sülhsevər ölkə olsun və qonşularına, o cümlədən Cənubi Qafqazda olan qonşularına ədalətli, normal münasibət göstərsin.

**S u a l :** Cənab Prezident, Siz GUAM Birliyi və onun əhəmiyyəti barədə nə deyə bilərsiniz? Səhv etmirəmsə, Özbəkistan da bu birliyə daxil olmaq istəyir.

**C a v a b :** Bəli, biz – prezident Kuçma, prezident Şevardnadze, prezident Luçinski, prezident Kərimov, bir də Azərbaycan prezidenti Əliyev srağagün Özbəkistanın Vaşinqtondakı səfirliyində görüşdük. Biz Özbəkistanı GUAM-a üzv qəbul etdik və GUÖAM-ın bugünkü mövqeyi, fikirləri haqqında birgə bəyannamə imzaladıq. Biz hamımız eyni fikirdəyik ki, il yarım bundan öncə Strasburqda yaranmış bu təşkilat özünün bu gün və gələcək üçün vacibliyini və lazımlılığını sübut edibdir. Biz bu təşkilat çərçivəsində gələcəkdə müştərək fəaliyyət göstərmək haqqında bəyannamədə öz fikirlərimizi bildirdik.

**S t i v R o z e n f e l d :** Cənab Prezident, bizə verdiyiniz çox maraqlı müsahibəyə görə təşəkkürümüzü bildiririk.

**H e y d ə r Ə l i y e v :** Sağ olun. Amma suallarınız azdır. Mən Sizdən daha çox sual gözləyirdim.



Amma mən bütün suallara cavab verdim. Özü də çox geniş cavab verdim və sizinlə çox açıq danışdım. Güman edirəm ki, siz mənim fikirlərimi tam açıqlığı ilə hiss etdiniz.

* * *

Sonra Azərbaycan Prezidenti Heydər Əliyev «Vaşinqton post» qəzetinin jurnalistlərinə müraciətlə dedi:

– Mən sizə xatirə olaraq Azərbaycan-Amerika əlaqələrinə həsr olunmuş kitab və bir də Azərbaycanın NATO ilə əlaqələri haqqında kitab təqdim edirəm.

«Vaşinqton post» qəzeti ilə gələcəkdə sıx əməkdaşlıq etmək istəyirəm və hesab edirəm ki, bizim aramızda yaxşı, səmimi əlaqələr yaranıbdır. Güman edirəm ki, bizim əməkdaşlığımız gələcəkdə də səmərəli, uğurlu olacaqdır.

**S t i v R o z e n f e l d :** Cənab Prezident, çox sağ olun. Sizə dərin minnətdarlığımızı bildiririk. Bizə çox böyük şərəf verdiniz, Sizinlə Bakıda görüşəcəyik.

**H e y d ə r Ə l i y e v :** Bəli, sizi Bakıya dəvət edirəm. Əgər gəlsəniz, çox razı olacaqsınız. Sağ olun. Təşəkkür edirəm.

## ORT TELEKANALI MÜXBİRİNƏ MÜSAHİBƏ

*London*
*19 may 1999-cu il*

**M ü x b i r :** Söz yox ki, hələ o dövrlərlə, necə deyərlər, bizim hamımız birlikdə olduğumuz dövrlərlə bağlı tam aydın səbəblərə görə Siz rusiyalılarda, Rusiyanın televiziya tamaşaçılarında xüsusi maraq doğurursunuz. Suallar vermək üçün ORT-yə – Rusiyanın birinci telekanalına imkan yaratdığınıza görə sağ oun. Bizi ən çox maraqlandıran birinci sual, əlbəttə, Sizin ABŞ-a getməyinizlə və Türkiyəyə qarşıdakı səfərinizlə bağlıdır. Lakin insani baxımdan bizi ən əvvəl maraqlandıran budur ki, Siz özünüzü necə hiss edirsiniz? Cərrahiyyə əməliyyatı necə və harada aparıldı?

**H e y d ə r Ə l i y e v :** Özümü yaxşı, normal hiss edirəm. Əməliyyat aprelin 29-da oldu. Bu gün mayın 19-dur, aradan 20 gün keçibdir. Belə düşünürəm ki, gördüyünüz kimi, bu müddətdə Sizi həm qəbul etməyə, həm də suallarınıza cavab verməyə qadirəm. Elə bunun özü çox şey deyir.

**S u a l :** Amerika həkimləri nə deyirlər?

**C a v a b :** Mən Amerikaya aprelin hələ 22-də, NATO-nun Zirvə görüşü başlanmazdan əvvəl gəlmişdim. Mənim çox görüşlərim, olduqca böyük, gərgin işim oldu, sonra NATO-da tədbirlər başlandı. Bundan sonra mənim yenidən görüşlərim oldu. Bax, orada özümü bir az nasaz, bir az narahat hiss etdim. Həkimlər baxıb dedilər ki, yaxşı olar, müayinədən keçim. Klivlend klinikasını məsləhət gördülər. O, dünyada çox məşhurdur, bütöv bir şəhərcikdir.

Mən oraya getdim – bu şəhər Vaşinqtonun yaxınlığındadır – orada məni müayinədən keçirib dedilər ki, ürəyimdə cərrahiyyə əməliyyatı aparmaq lazımdır. Doğrudur, mən razılaşmadım. Çünki, yəqin ki, bilirsiniz, 1987-ci ildə infarkt keçirmişdim. Bundan sonra iki-üç il özümü yaxşı hiss etmədim. Lakin 1990-cı ildə Azərbaycana qayıtdıqdan sonra halım xeyli yaxşılaşdı və 1990-cı ildən 1999-cu ilədək, əslində, həkimlərsiz yaşadım. Mənim həkimim yox idi və hətta heç bir müayinədən keçməmişdim.



1999-cu ilin yanvarında bronxitdən sonra məndə ağırlaşma baş verdi. Ankaraya getdim, iki həftə orada müalicə edildim. Qayıtdım, normal, çox fəal işləyirdim, özümü çox yaxşı hiss edirdim. ABŞ-da mənə dedilər ki, cərrahiyyə əməliyyatı aparmaq lazımdır.

**S u a l :** Bu, gərək ki, Debeyki deyildi, başqa bir komanda idi?

**C a v a b :** Xeyr, Debeyki Hyustondadır. Bu, Klivlend klinikasının böyük bir komandası idi. Orada çoxlu adam çalışır. Məni kifayət qədər cavan – yeri gəlmişkən, mən bunu hətta güman etmirdim – lakin çox təcrübəli kardioloq, Türkiyədən olan Murad Tuzçu müayinədən keçirdi. O məni müayinədən keçirib cərrahiyyə əməliyyatı aparılmasını təklif etdi. Təbii ki, sonra çox təcrübəli cərrah olan Brüs Laytlı dəvət etdilər. Orada aldığım məlumata görə, o, az qala 25 ildir bu klinikada işləyir. Mənim üzərimdə əməliyyatı o apardı. Aprelin 28-də razılıq verdim, aprelin 29-da səhər mənim üzərimdə cərrahiyyə əməliyyatı apardılar.

Hesab edirəm ki, hər şey normal, yaxşı səviyyədə keçdi. Əməliyyatdan sonrakı dövr normal gedir.

**S u a l :** Siz sabah Türkiyəyə yola düşürsünüz. İnformasiya agentlikləri xəbər vermişlər ki, orada Sizə türk xalqı qarşısında görkəmli xidmətlərə görə Türkiyənin nüfuzlu mükafatını təqdim edəcəklər.

**C a v a b :** İki ay bundan əvvəl mən Türkiyə Respublikasının banisi Atatürkün adını daşıyan mükafata layiq görülmüşəm. Bu, çox nüfuzlu mükafatdır. Zənnimcə, o, 1986-cı ildə təsis olunmuşdur, sülh uğrunda mübarizəyə görə verilir. Bu, sülh mükafatıdır. Mustafa Kamal Atatürkün məşhur sözləri var: «Yurdda sülh, cahanda sülh». Həmin mükafat bu deviz altında mövcuddur. Orada çox nüfuzlu komitə var. Onlar hər şeyi çox diqqətlə öyrənirlər. Ümumiyyətlə, 1986-cı ildən bəri bütün dövr ərzində onlar 8 belə mükafat veriblər. Mən də bu mükafata layiq görülmüşəm. Yeri gəlmişkən, bu gün, mayın 19-da mən Ankarada olmalı idim. Orada Mustafa Kamal Atatürk tərəfindən Türkiyədə qurtuluş hərəkatının başlanması ilə bağlı bayramdır. Həmin gün qeyd edilir. Mükafat da adətən həmin günə iki ay qalmış verilir və o təqdim olunur. Lakin təəssüf ki, mən bu gün orada deyiləm, həmin mükafatı ala bilməyəcəyəm. Görünür, onu mənə sonra təqdim edəcəklər.

**S u a l :** Sabah isə Siz uçursunuz...

**C a v a b :** Sabah mən Türkiyəyə uçuram. Lakin Türkiyə prezidenti, mənim dostum Süleyman Dəmirəlin dəvəti ilə gedirəm. Mən xəstə-

xanada olarkən o, mənə çox böyük qayğı göstərmiş, müalicədən sonra məni istirahət üçün təkidlə Türkiyəyə gəlməyə dəvət etmişdir.

**Sual:** Yəni bu, diplomatların dediyi kimi, «qalstuksuz görüşdür»?

**Cavab:** Bəli, bəli. Mən Antalyaya, dəniz sahilinə gedirəm.

**Müxbir:** Rusiyalılara tanış yerdir.

**Heydər Əliyev:** Deyirlər, rusiyalılar Antalyada tez-tez olurlar. Doğrudur, mən görməmişəm, orada heç vaxt olmamışam. Lakin dəvəti qəbul etmişəm və ora uçuram. Belə ki, orada bir az dincələcək, sonra isə Bakıya, Azərbaycana gedəcəyəm.

**Sual:** Etiraz etmirsinizsə, bir qədər fəal siyasətdən danışaq. Avropa Balkan yarımadasında hərbi münaqişəyə cəlb olunmuşdur. Yuqoslaviya son illərdə qanlı milli münaqişələr mənbəyinə çevrilibdir. Siz bir çoxlarının potensial təhlükəli region adlandırdığı, çox müxtəlif xalqların yaşadığı və kəskin milli, ərazi problemləri olan Qafqazdakı vəziyyəti necə qiymətləndirirsiniz? Yoxsa belə müqayisə əsassızdır?

**Cavab:** Bilirsiniz, müqayisə etmək istəmirəm. Hər regionun öz xüsusiyyətləri var. Burada müqayisə o qədər də düz gəlmir. Bununla belə, mən hazırda Qafqazın mürəkkəb vəziyyətdə olması barədə fikrinizlə tamamilə razıyam. Əvvələn, bilirsiniz ki, hələ 11 il bundan əvvəl Dağlıq Qarabağ üstündə Ermənistanla Azərbaycan arasında münaqişə yaranmışdır. Bu münaqişə nəticəsində erməni silahlı birləşmələri Azərbaycan ərazisinin 20 faizini işğal etmişlər. İşğal olunmuş ərazilərdən bir milyondan çox azərbaycanlı qovulub və onlar köçkün vəziyyətində, əksəriyyəti çadırlarda yaşayır. Doğrudur, beş il bundan əvvəl, 1994-cü il mayın 12-də biz atəşkəs haqqında saziş bağladıq və beş ildir ki, tam sülhə nail olmaq üçün ATƏT-in Minsk qrupu çərçivəsində danışıqlar aparırıq.

Bilirsiniz ki, Gürcüstan ərazisində Abxaziya və Osetiya münaqişələri var. Şimali Qafqazın çətinlikləri, vəziyyəti Sizə məlumdur. Əlbəttə, Qafqaz özü-özlüyündə qeyri-adi regiondur, son illərdə isə şübhəsiz ki, millətlərarası toqquşmalar, müstəqillik cəhdləri və sairə buna gətirib çıxarmışdır. Balkanlarda da vəziyyət son dərəcə mürəkkəbləşmişdir.

Doğrudur, deməliyəm ki, 1992-1993-cü illərdə Azərbaycanda vəziyyət yaxşı deyildi. Əlbəttə, indi bütün Dünya Birliyi, Balkan yarımadasında qayda-qanun yaratmaq istəyən dövlətlər etnik təmizləmənin əleyhinə, bu vəhşiliyin əleyhinə çıxırlar və sair. Ermənistan silahlı birləşmələrinin etnik təmizləmə ilə məşğul olduğu və adamları öz yaşayış yerlərindən didərgin saldıqları, torpaqlarımızı işğal etdikləri vaxtlarda Azərbaycana qarşı da bu cür vəhşilik olmuşdur. Ola bilsin, o vaxtlar Azərbaycan və Ermənistanla bağlı hallara indiki kimi əhəmiyyət verilməmişdir. Ancaq hesab edirəm ki, münaqişə harada olursa-olsun, onu aradan qaldırmaq lazımdır.



**Sual:** Lakin bununla əlaqədar Siz razısınızmı ki, NATO indi Kosovoda olduğu kimi, məsələn, haradasa daha yaxında, Sizin Qafqaz regionunda sakitləşdirici rolunu oynasın, qayda-qanun yaratsın?

**Cavab:** Bilirsiniz, açığını deyəcəyəm, kim bizdə – mən Cənubi Qafqazı nəzərdə tuturam – qayda-qanun yarada bilərsə, Ermənistanla Azərbaycan arasında münaqişəni aradan qaldırarsa, biz onları məmnunluqla qəbul edərik. Ona görə ki, bizə sülh gərəkdir. Başa düşürsünüzmü, bizə sülh gərəkdir, bizə əmin-amanlıq gərəkdir. Xalqımız sülh şəraitində yaşamaq istəyir. Biz özümüz beş ildir danışıqlar aparırıq. Düzdür, danışıqları tək aparmırıq. Biz bunu həmsədrləri Rusiya, Birləşmiş Ştatlar və Fransa olan Minsk qrupunun iştirakı ilə edirik. Buna görə də biz hər şeyə hazırıq.

**Sual:** Ötən 10 il nəinki coğrafi sərhədləri labüd surətdə dəyişdirmiş, həm də xalqlarımızı bir-birindən bir qədər uzaqlaşdırmışdır. Lütfən deyin, Siz indiki vəziyyəti və Müstəqil Dövlətlər Birliyinin perspektivlərini necə təsəvvür edirsiniz? Yoxsa hesab edirsiniz ki, gələcək hər halda müsəlman dünyasının coğrafi cəhətdən Orta Asiyada, Qafqazda yerləşən ölkələrinin daha kiçik, daha məhəlli ittifaqlarınındır?

**Cavab:** Bilirsiniz, heç bir proqnoz vermək istəməzdim. Əgər hər hansı ittifaq, hər hansı birlik iqtisadi inteqrasiyaya, ölkələr arasında qarşılıqlı münasibətlərin yaxşılaşmasına, ən başlıcası isə, möhkəm sülhün bərqərar olmasına xidmət edirsə, məqbuldur. Buna görə də, əgər Müstəqil Dövlətlər Birliyi – doğrudur, o, çox ağır irəliləyir – ən əvvəl özünün daxilindəki münaqişələrin tənzimlənməsi üçün belə səviyyəyə gəlib çıxarsa, bu, gözəl olardı. Məsələn, mən hələ 1993-cü ildə dövlət başçılarının görüşü zamanı bəyanat verərək bildirmişdim ki, birliyin daxilindəki münaqişələri ləğv etmək üçün, gəlin, qüvvələri hər halda səfərbərliyə alaq. Əgər birliyin daxilində, hər hansı ittifaqın daxilində ölkələr arasında münaqişələr varsa, onda bu birlik möhkəm, etibarlı ola bilməz. Ümumiyyətlə, Siz dünyadakı digər ittifaqlara nəzər salsanız, onların daxilində münaqişə edən, bir-biri ilə müharibə aparan ölkələr olduğunu heç yerdə görməzsiniz. Təəssüf ki, bizim birliyimiz bu məsələni həll edə bilmir.

**S u a l :** Xahiş edirəm deyəsiniz, Siz bu fikirlə razısınızmı ki, Azərbaycanı MDB-nin ən çox qərbpərəst və ya Qərbə meylli ölkələrindən biri adlandırırlar? Yəni iqtisadi əlaqələr vasitəsilə, Xəzər nefti vasitəsilə Britaniya ilə xüsusi əlaqələr yaranıb, Britaniyanın isə ABŞ ilə xüsusi əlaqələri var. Beləliklə, Bakının da təkcə Londonla deyil, həm də Vaşinqtonla xüsusi əlaqələri var. Siz bununla razısınızmı?

**C a v a b :** Bilirsiniz, müstəqil dövlət olaraq biz öz siyasətimizi belə elan etmişik: biz dünyanın bütün ölkələri ilə qarşılıqlı surətdə faydalı əməkdaşlıq etmək istəyirik. Başa düşürsünüzmü, biz fərq qoymuruq. Bizə öz iqtisadiyyatımızı inkişaf etdirmək lazımdır, xalqımızın həyat səviyyəsini yüksəltmək lazımdır. Bizim iqtisadi potensialımız, təbii ehtiyatlarımız və bir çox digər sərvətlərimiz var. Digər MDB ölkələrində olduğu kimi, biz də indi bütün bunlardan öz gücümüzlə istifadə edə bilmirik. Buna görə də kimlərlə, necə deyərlər, özümüz üçün faydalı, səmərəli əməkdaşlıq edə biliriksə, onlarla da əməkdaşlıq edirik. Biz Amerika Birləşmiş Ştatları ilə, Avropa ölkələri ilə – Böyük Britaniya, Fransa, Almaniya və təbii ki, MDB ölkələri ilə də əməkdaşlıq edirik. Başa düşürsünüzmü, əsla belə mülahizələr yürütmək olmaz, bir halda ki, biz MDB-dəyik, deməli, bütün dünyadan təcrid olunmalıyıq. Axı MDB-də başlıca tərəfdaşımız olan Rusiya təcrid olunmur. İndi təcrid olmaq hamıya ziyandır. Odur ki, belə mülahizələr və yeri gəlmişkən, təəssüflər olsun, Rusiyanın kütləvi informasiya vasitələrində verilən belə qiymətlər ədalətsizlikdir. Mən onlarla razı deyiləm.

**S u a l :** Azərbaycan NATO-nun genişlənməsinə necə baxır? Siz Şimali Atlantika Assosiasiyasına daxil olmaq istərdinizmi?

**C a v a b :** Bilirsiniz, Siz belə birbaşa sualları əbəs yerə verirsiniz. Ancaq NATO-nun genişlənməsi prinsipcə artıq reallığa çevrilmişdir. NATO-nun genişlənməsinin əleyhdarları olsa da, Avropanın üç dövləti bu təşkilata daxil olmuşdur. Sonra, Şimali Atlantika Assosiasiyasına təxminən 50 ölkə daxildir, oraya bütün MDB ölkələri də daxildir. Yeri gəlmişkən, onların hamısı Vaşinqtonda NATO-nun 50 illiyində təmsil olunmuşdu...

**M ü x b i r :** Demək olar, hamısı.

**H e y d ə r Ə l i y e v :** Rusiya istisna olmaqla. Amma Rusiya da təmsil edilə bilərdi... Yadınızdadır ki, bir vaxtlar Parisdə Rusiya ilə NATO arasında xüsusi xartiya imzalanmışdı. Bu nəyi göstərir? Onu göstərir ki, Rusiya NATO ilə ən əvvəl əməkdaşlıq etmək istəyir. Buna görə də belə düşünmək ədalətli deyildir ki, Rusiya NATO ilə əməkdaşlıq edə bilər, amma başqaları yox.



**M ü x b i r :** Cavaba görə sağ olun. Əlbəttə, Rusiyada baş verən dramatik hadisələr haqqında Sizin rəyinizi bilmək bizim üçün çox maraqlı olardı. İndi Rusiyanın yeni baş naziri var – Sergey Stepaşin. O, bir ildən bir qədər az müddətdə üçüncü baş nazirdir.

**H e y d ə r Ə l i y e v :** Bilirsiniz, bu, Rusiyanın daxili işidir. Mən bu işə qarışmaq və qiymət vermək istəmirəm. Xalq tərəfindən seçilmiş prezident Yeltsin hər halda ölkəyə rəhbərlik edir və öz məsələlərinin həlli üçün müəyyən tədbirlər görür. Əgər o bunu indi etmişdirsə, görünür, daha yaxşı nəticəyə ümid bəsləyir. Biz isə istəyirik ki, Rusiyada vəziyyət yaxşı olsun. Ona görə ki, biz Rusiya ilə çox, olduqca sıx bağlıyıq. İqtisadi cəhətdən də bağlıyıq, Rusiyada çoxlu azərbaycanlı yaşayır, insani əlaqələr olduqca çoxdur, lap çoxdur. Biz 200 il Rusiya ilə birlikdə olmuşuq. Buna görə də bir neçə ildə, on ildə bir-birindən ayrılmaq qeyri-mümkündür və lazım deyildir. Əgər biz bütün dünya ilə inteqrasiya etmək istəyiriksə, onda nə üçün 200 il birlikdə olduğumuz ölkədən uzaqlaşmalıyıq? Buna görə də biz istəyirik ki, Rusiyada vəziyyət getdikcə yaxşılaşsın. Yeri gəlmişkən, bunu iqtisadi əlaqələrimiz də tələb edir. Məsələn, Rusiyada iqtisadi böhran oldu, bundan biz də çox çətinlik çəkdik. Doğrudur, biz tab gətirdik, Azərbaycanda inflyasiyanın, böhranın inkişaf etməsinə imkan vermədik. Buna baxmayaraq, təzyiq güclü idi. Ona görə də, Rusiyada vəziyyət nə qədər yaxşı olarsa, bizim üçün də bir o qədər yaxşı olacaqdır.

O ki qaldı dəyişikliklərə, təkrar edirəm, bu, Rusiyanın daxili işidir. Mən Sergey Vadimoviç Stepaşini tanıyıram, o, təcrübəli, zənnimcə, bir çox vəzifələrdə sınanmış adamdır. Bilirəm ki, Rusiya da kifayət qədər nüfuza malikdir. Görünür, buna belə bir fakt sübutdur ki, Rusiya hökumətinin sədri vəzifəsinə onun namizədliyini Duma elə ilk dəfədən təsdiq etmişdir. Buna görə də ümidvarıq ki, vəziyyət yaxşı olacaqdır.

**M ü x b i r :** Heydər Əliyeviç, suallarıma ətraflı, diplomatikcəsinə və olduqca maraqlı cavablar verdiyinizə görə çox sağ olun. Biz Sizə, ən əvvəl, möhkəm cansağlığı və uğurlar arzulayırıq. Sağ olun.

**H e y d ə r Ə l i y e v :** Mənə göstərdiyiniz diqqətə görə, Siz də çox sağ olun. Televiziyanız vasitəsilə bütün rusiyalılara öz salamımı və ən yaxşı arzularımı yetirirəm.

**M ü x b i r :** Çox sağ olun.

## RUSİYANIN NTV TELEKANALI MÜXBİRİNƏ MÜSAHİBƏ

*London*
*19 may 1999-cu il*

**S u a l :** Cənab Prezident, özünüzü necə hiss edirsiniz?

**C a v a b :** Normal, indi özümü yaxşı hiss edirəm.

**S u a l :** Əməliyyat uğurla keçdi?

**C a v a b :** Əməliyyat çox uğurla keçdi. Əgər mənim üzərimdə cərrahiyyə əməliyyatının aprelin 29-da aparıldığını, bu gün isə mayın 19-u olduğunu nəzərə alsaq, onda hesab edirəm ki, hər şey normal keçmişdir.

**S u a l :** Siz Rusiyadakı son dəyişiklikləri, Yevgeni Primakovun istefasını necə qiymətləndirərdiniz? Bu, rusiyalılar üçün ağrılı məsələdir.

**C a v a b :** Bilirsiniz, nə isə demək mənə çətindir. Əvvəla, ona görə ki, bütün bunlar baş verən vaxtda mən xəstəxanada idim və çox şeyi bilmirdim. Hökumətin istefaya göndərildiyini, yeni hökumətdən söhbət getdiyini eşitdikdə mənə məlum oldu ki, Sergey Stepaşinin namizədliyi ortaya çıxmışdır, indi isə deyirlər ki, onun namizədliyini Duma da təsdiq etmişlər. Nə demək olar, Rusiyada nə edilirsə, görünür, Rusiya onları öz milli mənafeləri naminə edir.

**S u a l :** Bu, ölkələrimiz arasında münasibətlərə hansı şəkildəsə təsir göstərəcəkmi?

**C a v a b :** Deməzdim ki, təsir göstərəcəkdir, çünki xarici siyasət xəttini əsasən prezident müəyyənləşdirir. Doğrudur, bu məsələdə hökumətin sədri, Xarici İşlər Nazirliyi də iştirak edirlər. Bir sözlə, Rusiyadakı son dəyişikliklər bizim münasibətlərimizə təsir göstərməyəcəkdir.

**S u a l :** Cənab Prezident, Qafqaza bələd olan bir insan kimi, Siz bu regionda indiki vəziyyəti necə qiymətləndirərdiniz? Necə bilirsiniz, Rusiyaya yeni baş nazir gəldikdən sonra vəziyyət dəyişəcəkmi?

**C a v a b :** Əlbəttə, ümid etmək olar ki, nə isə yaxşı olacaqdır. Hər şeyin birdən-birə dəyişəcəyini söyləmək çətindir, ona görə ki, Qafqazda vəziyyət çox mürəkkəbdir. Sergey Vadimoviç Stepaşin Qafqazla – Çeçenistanla, Dağıstanla və digər Qafqaz respublikaları ilə artıq neçə illərdir bağlıdır. Fikir vermişəm, təxminən son iki-üç ildə o, nəinki Çeçenistanda, həm də Dağıstanda tez-tez olmuşdur. Dağıstanda vəziyyət çox mürəkkəb idi, bu bizi də narahat edir. O, vəziyyətə bələddir, onu tanıyırlar, hiss olunur ki, orada adamlar ona meyllidirlər. Onun xüsusən Dağıstanda gördüyü tədbirlər müəyyən nəticələr vermişdir. Bütün bunları nəzərə alaraq hesab edirəm ki, bunun yaxşılığa doğru əhəmiyyəti olacaqdır.



**S u a l :** Bəs bu regiondakı indiki vəziyyəti necə görürsünüz?

**C a v a b :** Bilirsiniz, bu regionda vəziyyət həmişə mürəkkəbdir. Mən Bakıdan yola düşən vaxtda, yəni təxminən bir ay bundan əvvəl vəziyyət nisbətən sakit idi.

**S u a l :** Cənab Prezident, Balkan böhranına münasibətiniz necədir? Hesab edirsinizmi ki, bu böhran danışıqlar stolu arxasında həll olunmalıdır? Siz Birləşmiş Ştatlarda oldunuz, orada kimlərlə görüşdünüz, kimlərlə danışıqlar aparıldı? Belqradda yaranmış vəziyyətə Sizin və dövlətinizin münasibəti necədir?

**C a v a b :** Vaşinqtonda görüşlərim çox oldu. Prezident Bill Klintonla, dövlət katibi Olbraytla, Konqresdə, Senatda bir çox digər adamlarla, nazirlərlə görüşdüm. Biz bu məsələni xüsusi olaraq müzakirə etmədik, bu, NATO-nun 50 illiyini qeyd etməyə gəlmiş ölkələrin yubiley görüşünün müəyyən bir mövzusu idi.

Prinsipcə isə, harada olmağından asılı olmayaraq münasibətim belədir: biz dünyada hər bir ölkənin ərazi bütövlüyünə tərəfdarıq. Bununla bərabər, biz etnik təmizləmənin əleyhinəyik, soyqırımının əleyhinəyik. Miloşeviç isə orada, əslində, etnik təmizləmə aparır və neçə illərdir soyqırımı törədir. Əlbəttə, buna əsla biganə qalmaq olmaz. Mənim münasibətim bax, belədir.

**S u a l :** Rusiyada dəyişikliklərə qayıdıram. Necə bilirsiniz, indi bütün bu yerdəyişmələrindən, dəyişikliklərdən sonra Balkan böhranı Rusiyanın köməyi ilə həll edilə bilərmi?

**C a v a b :** Bilirsiniz, mən bunu Vaşinqtonda da hiss etmişdim, NATO ilə Rusiya arasında əməkdaşlıq getdikcə inkişaf edir. Mən bunu belə hiss etdim. Hər halda, NATO bu cür əməkdaşlığı çox istəyir. Düşünürəm ki, indi Rusiya da bu böhranın həll olunmasını istəyir və NATO da bu böhranın həll edilməsini istəyir. Zənnimcə, onlar ümumi səylərlə bunu həll edəcəklər.

**S u a l :** Siz hesab edirsiniz ki, məsələ əvvəl-axır danışıqlar stolu arxasında həll olunacaqdır?

**C a v a b :** Sözsüz ki, hər hansı münaqişə, hər hansı böhran hansı yollarla inkişaf etsə də, nəticə etibarilə danışıqlar stolu arxasında həll olunur. Hesab edirəm ki, nəticə etibarilə belə də olacaqdır.

**S u a l :** Siz Amerikadakı görüşləriniz barədə daha ətraflı danışa bilərsinizmi, kimlərlə görüşdünüz?

**C a v a b :** Görüşlər lap çox oldu. Mən öz səfərimdən, öz görüşlərimdən çox məmnunam. Səfərin məqsədi aydın idi – digər ölkələrin prezidentləri kimi, biz də NATO-nun 50 illiyinə dəvət edilmişdik. Mən oraya bu tədbirlərdən bir neçə gün əvvəl getmişdim və onlardan sonra da bir neçə gün işlərlə məşğul oldum. Prezident Bill Klintonla görüşdüm, onunla söhbət etdim. Dövlət katibi xanım Olbraytla görüşdüm, onunla çox görüşümüz oldu. İkitərəfli münasibətlərimizin problemləri, xüsusən Ermənistan-Azərbaycan münaqişəsinin həlli məsələsi haqqında təkbətək görüşümüz oldu. Sonra o, Qafqaz respublikalarının – mən Cənubi Qafqazı nəzərdə tuturam – Gürcüstan, Ermənistan, Azərbaycan prezidentlərinin, zənnimcə, faydalı görüşünü təşkil etdi. Görüşdə onunla yanaşı, Almaniya, Fransa, İtaliya, Norveç, Türkiyə və məncə, daha bəzi ölkələrin xarici işlər nazirləri də iştirak edirdilər. Biz regionumuzda sülhün və sakitliyin bərpası naminə Cənubi Qafqazda əməkdaşlığın inkişafı üçün nə kimi işlər görülməli olduğu barədə fikir mübadiləsi apardıq. Hesab edirəm ki, bu çox faydalı görüş idi. Görüşdə hamı – prezidentlər də, bütün nazirlər də çıxış etdilər, öz fikirlərini söylədilər. Belə düşünürəm ki, bu öz nəticələrini verəcəkdir. Sonra xanım Olbrayt Ermənistan prezidenti ilə görüşümüzü təşkil etdi. Biz əvvəlcə üçlükdə görüşdük – xanım Olbrayt, Ermənistan prezidenti və mən. Sonra o bizi tərk etdi və biz ikilikdə görüşüb çox ətraflı söhbət etdik. Hər halda, Ermənistanla Azərbaycan arasında münaqişənin dincliklə tənzimlənməsi üçün hər iki tərəfdən yollar axtarılır.

Beş il bundan əvvəl biz atəşkəs haqqında saziş imzalamışıq – bu, mayın 12-də olmuşdur. Bu beş il qəti sülhə gəlmək üçün hər halda kifayətedici müddətdir. Əlbəttə, bundan ötrü əsas prinsiplər var – onlar xanım Olbraytın çıxışında təsdiqləndi – Azərbaycanın ərazi bütövlüyü təmin olunmalı, Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmiş torpaqlar – onlar isə ərazimizin 20 faizi qədərdir – azad olunmalı, bu torpaqlardan məcburi köçkün düşmüş, yəni işğal edilmiş rayonların sakinləri öz yaşayış yerlərinə qayıtmalıdırlar və Dağlıq Qarabağa Azərbaycan dövlətinin tərkibində yüksək özünüidarə statusu verilməlidir.



Bu prinisiplər ATƏT-in 1996-cı ilin dekabrında keçirilmiş Lissabon Zirvə görüşünün sənədlərində öz əksini tapmışdır. Xanım Olbrayt bu prinsiplər əsasında daha da irəliləməyi təklif etdi. Biz bu təklifi dəstəkləyirik, hesab edirik ki, bu yolla irəliləyə bilərik və nəticələrə nail ola bilərik.

**S u a l :** Cənab Prezident, axırıncı sual. Başa düşürəm ki, Londona səfəriniz qısamüddətlidir. Siz burada görüşlər planlaşdırırdınızmı, keçirdinizmi və görüşlər kimlərlə, hansı məsələlər barəsində oldu?

**C a v a b :** Xeyr, mən burada görüşlər keçirməyi planlaşdırmamışam. Mən sadəcə olaraq yolüstü burada dayandım, axı uçuş məsafəsi hər halda uzun idi. Sabah Türkiyəyə yola düşürəm. Türkiyə prezidenti, mənim dostum Süleyman Dəmirəl Amerikada müalicəmə çox böyük diqqət və qayğı göstərirdi, məni müalicədən sonra istirahətə dəvət etdi.

Yeri gəlmişkən, deməliyəm ki, Amerikada mənə son dərəcə böyük diqqət göstərirdilər. Prezident cənab Bill Klintonun özü mənə həm telefonla zəng etdi, həm də məktub göndərdi. Mənim bütün müalicəm onun daimi himayəsi, daimi diqqəti altında idi. Xanım Olbrayt mənimlə bir neçə dəfə telefonla danışdı, vitse-prezident cənab Qor mənə məktub göndərdi. Mən orada çox böyük qayğı ilə əhatə olunmuşdum, buna görə onlara çox minnətdaram. Üzərimdə cərrahiyyə əməliyyatı apardıqları və məni müalicə etdikləri klinika çox yüksək səviyyədədir. Cərrah Brüs Laytl son dərəcə istedadlıdır. Hesab edirəm ki, o, cərrahiyyə əməliyyatını uğurla apardı. Orada mənimlə kardioloq Murad Tuzçu məşğul olurdu. Yeri gəlmişkən, bu cavan adam Türkiyədəndir və orada böyük nüfuz qazanmışdır. Bir sözlə, bütün bunlar mənim mümkün qədər tezliklə ayağa qalxmağıma olduqca müsbət təsir göstərdi.

**M ü x b i r :** Çox sağ olun.

**H e y d ə r Ə l i y e v :** Siz sağ olun ki, televiziyanız mənə belə böyük diqqət yetirir.

## Bİ-Bİ-Sİ RADİOSU MÜXBİRİNƏ MÜSAHİBƏ

**S u a l :** Cənab Prezident, xahiş edirəm, mənim təbrikimi qəbul edəsiniz. Özü də bu, ikiqat təbrikdir. Çünki Siz taleyin yeni bir sınağından uğurla çıxmısınız. Digər tərəfdən isə Sizi Türkiyədə Mustafa Kamal Atatürk adına Beynəlxalq Sülh Mükafatı gözləyir. Siz bu mükafatı nə zaman qəbul etməyə hazırsınız?

**C a v a b :** Sağ olun. Sizin təbrikinizə görə təşəkkür edirəm. Minnətdaram.

Mən bu gün Türkiyəyə gedirəm. Türkiyənin proqramına görə, onlarda qəbul olunmuş qanuna görə Mustafa Kamal Atatürk adına Beynəlxalq Sülh Mükafatı mayın 19-da verilir. Çünki 19 may Mustafa Kamal Atatürkün Samsundan yürüşə, vuruşa başlaması günüdür. Bu, bayramdır. Ancaq mən o günə çatdıra bilmədim. Görünür ki, müəyyən bir gün təyin olunacaq və mükafat mənə veriləcəkdir. Əsas mükafatla təltif olunmaqdır, onun hansı vaxtda alınması o qədər də əhəmiyyətli deyildir.

**S u a l :** Cənab Prezident, Sizin Amerikada Robert Koçaryanla görüşünüz olub və həmin görüşdən sonra Ermənistan prezidenti bizim Vaşinqtondakı müxbirimizə deyib ki, ümumiyyətlə, bu görüşlər çox səmərəli keçibdir. Çünki artıq bu görüşdən sonra o, Prezident Heydər Əliyevi daha yaxşı başa düşür. Siz həmin görüşdən hansı nəticəni çıxardınız?

**C a v a b :** Mən də bu görüşün əhəmiyyətli olduğunu və səmərəli olduğunu təsdiq edirəm. Mən də belə fikirdəyəm.

Mən Robert Koçaryanla 1994-cü ildə bir neçə dəfə görüşmüşəm və o, Ermənistanın prezidenti seçiləndən sonra da bizim onunla Moskvada iki dəfə görüşlərimiz olubdur. Ancaq Vaşinqtondakı görüş daha da səmərəlidir və görünür ki, o məni daha da yaxşı tanıdığı kimi, mən də onu daha da yaxşı tanıyıram. Yəni tanımaq imkanı əldə edirəm və bunlar da ümid verir ki, biz danışıqlarda müəyyən qədər irəliyə gedə bilərik.

**S u a l :** Cənab Prezident, Siz Bakıdan çıxandan sonra bir müddətdir ki, Azərbaycanda hansısa mənada hakimiyyət boşluğu hiss olunur. Yəni baxmayaraq ki, Siz kənardasınız, ölkədən xaricdəsiniz, əlbəttə, əminəm ki, Siz bütün problemləri və məsələləri nəzərdən keçirirsiniz.



Amma bizim dinləyicilər və bir çox insanlar, mütəxəssislər, Bakıda hiss edirlər və deyirlər ki, bəlkə prezident vəzifəsinin hansısa bir hissəsini Konstitusiyaya müvafiq şəkildə, kiməsə həvalə etsəydi, bu, Azərbaycanda siyasi vəziyyətin yaxşılaşmasına və səmərəli şəkildə inkişafına kömək edərdi.

**C a v a b :** Sizin dediyiniz o sözlər – yəni bilmirəm, bu öz sözünüzdür, yaxud da Sizin dinləyicilərin sözləridir – onlar səhvdir. Azərbaycanda qətiyyən hakimiyyət boşluğu yoxdur. Hakimiyyət tam yerindədir.

Mən Amerika Birləşmiş Ştatlarına rəsmi işdən ötrü getmişdim. Bir həftədən çox bu işlərlə məşğul olmuşam. Bundan sonra cərrahiyyə əməliyyatı keçirilən zaman mənim cəmi bir gün Bakı ilə, Azərbaycanla əlaqəm olmayıbdır. Qalan vaxtlar həmişə əlaqələrim olubdur. Öz vəzifələrini yerinə yetirənlərlə mütəmadi telefon əlaqələrim vardır. Lazım olan məsələləri mənimlə məsləhətləşirlər, mən lazım olan göstərişləri verirəm.

Onu qeyd edə bilərəm ki, mən 1993-cü ildən Azərbaycana rəhbərlik etdiyim dövrdən indiyə qədər, demək olar ki, bu qədər uzun müddətdə ölkədən kənarda olmamışdım. Ancaq bu, eyni zamanda mənim üçün sınaq oldu və bizim ölkəmiz üçün də sınaq oldu ki, demək, mən bəlkə də bundan artıq, uzun müddətdə ölkədən kənarda ola bilərəm. Bizim hakimiyyət artıq çox mütəşəkkildir. Hərə öz işi ilə məşğuldur, hərə öz işini aparır və mən deyə bilərəm ki, bu bir ay müddətində Azərbaycanda heç bir sahədə hansısa bir zəiflik yoxdur.

Mən hər gün Milli Məclisin sədri ilə, baş nazirlə, Prezident Aparatının başçısı ilə, nazirlərin çoxu ilə, Bakı şəhər İcra Hakimiyyəti ilə telefon əlaqəsi saxlayıram. Onlar mənə məruzə edirlər və hər dəfə də mənə işlərin yaxşı getməsini deyirlər. Mən bir onların məruzəsindən yox, başqa yerdən aldığım məlumatlara görə də hesab edirəm ki, bu elə bizim ən böyük nailiyyətlərimizdəndir. Yəni Azərbaycanda artıq sabitlik yaranıbdır, istiqrar yaranıbdır, ictimai-siyasi sabitlik möhkəmdir, əsaslıdır və onu pozmaq, dəyişdirmək mümkün deyildir. Bu xəstəlik mənim üçün xəstəlik oldu, eyni zamanda ümumi dövlət işimizdə müəyyən bir sınaq dövrü oldu. Bu sınaqdan da biz çox gözəl çıxırıq.

**M ü x b i r :** Çox gözəl. Cənab Prezident, Sizə təşəkkür edirəm.

**H e y d ə r  Ə l i y e v :** Sağ olun. Mən də sənə təşəkkür edirəm.

## TÜRKİYƏNİN «CEYLAN-TV» TELEKANALINA MÜSAHİBƏ

*Antalya*
*26 may 1999-cu il*

**M ü x b i r :** Sayın cümhur başqanı, xoş gəlmisiniz. Sağlamlığınız necədir, özünüzü necə hiss edirsiniz?

**H e y d ə r Ə l i y e v :** Sağ olun, təşəkkür edirəm, sağlamlığım indi yaxşıdır. Yəni mən Amerikadan Türkiyəyə, Ankaraya gələndən – Ankaraya mayın 20-də gəldim – səhhətim gündən-günə daha da yaxşılaşır. Bilirsiniz ki, mən Ankarada həm dincəlirdim, həm də bir çox görüşlər keçirdim, əhəmiyyətli görüşlərim oldu. Buraya gələndən sonra isə daha da yaxşıyam. Bura çox gözəl bir yerdir. Bu gün dünənkindən də çox yaxşıyam. Hər halda mən çox məmnunam.

**S u a l :** Sayın Əliyev, cümhur başqanı Süleyman Dəmirəl Sizi burada ziyarət edəcək. Dəmirəl Sizə «qədim dostum» deyir, Siz isə ona «hörmətli qardaşım» deyirsiniz. Bu iki dövlət adamı arasında dostluq necə yarandı?

**C a v a b :** Bilirsiniz, hörmətli Süleyman Dəmirəl ilə mənim dostluğum həqiqətən qədimdir. Bu dostluğun təxminən 32 yaşı var.

Hörmətli cümhur başqanı Süleyman Dəmirəl ilk dəfə Türkiyənin baş naziri kimi Sovetlər Birliyinə ziyarətə gəlmişdi. Bu, 1967-ci ildə olmuşdur. O, Moskvaya gələndən sonra istəmişdi ki, Azərbaycanı da gəlib görsün. O, Azərbaycana gəldi, biz onu qarşıladıq və Azərbaycanda, Bakıda olduğu zaman mən hər dəqiqə onunla bərabər oldum. O vaxt biz bir-birimizlə tanış olduq. Baxmayaraq ki, o vaxt Azərbaycan müstəqil dövlət deyildi, Sovetlər Birliyinin içində bir cümhuriyyət idi, müstəqilliyimiz, yəni səlahiyyətimiz yox idi, ancaq tanışlıq çox yaxşı, gözəl oldu. Ondan sonrakı dövrdə bizim əlaqə saxlamağa imkanımız olmadı.

Mən 1990-cı ildə Moskvadan Azərbaycana, Bakıya döndüm, oradan isə Naxçıvana getdim. 1991-ci ildə məni Naxçıvanın başçısı seçdilər. Ondan sonra Süleyman bəy məni aradı, mən də onunla danışdım.

Bilirsiniz ki, Naxçıvan Azərbaycanın özək cümhuriyyətidir və torpağı Azərbaycanın böyük hissəsindən ayrıdır. Yəni Azərbaycanın böyük hissəsi ilə Naxçıvan torpağının arasında Ermənistan torpağı vardır. Ermənistan-Azərbaycan münaqişəsi, savaşı getdiyinə görə Naxçıvan üçün Azərbaycandan, Bakıdan gələn bütün elektrik xətləri, qaz borusu və sairə – Ermənistanın ərazisindən keçən bu xətlərin hamısı kəsilmişdir. Naxçıvan blokada vəziyyətində çox ağır şəraitdə yaşayırdı.



O vaxt hörmətli Süleyman Dəmirəl Naxçıvana çox yardım etdi. Həm Azərbaycan üçün, o cümlədən Naxçıvan üçün, həm də Türkiyə üçün 1991-1992-ci illərdə ən böyük iş ondan ibarət oldu ki, Türkiyə ilə Azərbaycan arasında ilk körpü yarandı. Bu körpünü də Süleyman Dəmirəlin rəhbərliyi ilə Türkiyə yaradırdı. Bu iş qısa müddətdə görüldü, yəni 1991-ci ilin sentyabr ayında başlandı, 1992-ci ilin may ayında başa çatdı. Beləliklə, bir körpü yaratdıq. Bu körpünü yaradan zaman hörmətli Süleyman Dəmirəl məni Ankaraya dəvət etdi. Mən bir-iki dəfə Ankaraya gəldim, onunla görüşdük. Naxçıvanda vəziyyət çox ağır və çətin idi. Ona görə Naxçıvana maddi yardım lazım idi. Mən müraciət etdim və hörmətli Süleyman bəy Naxçıvana çox yardım etdi – həm kredit ayırdı, həm ərzaq, yeyinti məhsulları, ət, şəkər göndərdi.

May ayının 28-i Azərbaycanın İstiqlaliyyət günüdür. 1992-ci ilin bu günündə biz Azərbaycanla, Naxçıvanla Türkiyə arasında olan həmin körpünü açdıq. Bu da tarixi bir hadisə oldu. Hörmətli Süleyman Dəmirəl bir qrup – 10-15 nazirlə, 60 millət vəkili ilə birlikdə təyyarə ilə Naxçıvana gəldi. Naxçıvanın tarixində heç zaman belə bir hadisə olmamışdı ki, Türkiyə Cümhuriyyətinin, yaxud da başqa bir dövlətin cümhur başqanı, yaxud hansısa bir ölkənin böyüyü Naxçıvana gəlmiş olsun. Naxçıvan ayağa qalxdı. Qonaqlara böyük hörmət etdilər, qarşıladılar və birlikdə körpünü açdıq. Körpünün açılışında Naxçıvan camaatı Araz çayının kənarına toplaşmışdı. Buraya Türkiyənin Ərzurum, Qars, İğdır, Diyarbəkir, Muğan və digər vilayətlərindən insanlar axıb gəlmişdi. Orada on minlərlə adam var idi, çox böyük canlanma var idi. Çox da gözəl oldu. Biz bu körpünü açdıq və bundan sonra da bizim əlaqələrimiz həmişə davam edirdi. Bəli, bu şəxsi dostluğumuz bizim dövlətlərimizin , hökumətlərimizin, xalqlarımızın arasında olan dostluğun yaranmasına, inkişafına yardım etdi.

1993-cü ildə isə, bilirsiniz, mən Naxçıvandan Bakıya qayıtmalı oldum, Azərbaycanın Prezidenti, cümhur başqanı seçildim. Ondan sonra biz daim əlaqədəyik, çox tez-tez telefonla danışırıq, görüşürük, mən buraya gəlirəm, hörmətli Süleyman Dəmirəl Azərbaycana gəlir. Hansı bir

ölkəyə tədbirdə iştirak etməyə getsək, biz mütləq görüşürük. Bu dostluq Türkiyə-Azərbaycan dostluğunun rəmzidir. Bu dostluq elə bir dostluqdur ki, mən inanmıram ki, dünyada buna bənzər bir dostluq olsun.

Məsələn, mən yanvar ayında xəstələnəndə o, gecə ikən Bakıya təyyarə ilə həkimlər göndərdi. Məni Ankaraya gətirdilər. Mən iki həftə burada Gülhanə xəstəxanasında müalicə olunduqdan sonra vətənə getdim.

Sonra isə biz Vaşinqtonda NATO-nun toplantısında iştirak edirdik. Orada da bərabər idik, görüşürdük, danışırdıq. NATO-nun toplantısı bitəndən sonra mənə dedilər ki, müayinədən keçmək lazımdır. Klivlendə gedib bunu edəndən sonra dedilər ki, cərrahiyyə əməliyyatı lazımdır. Mən də dedim ki, əməliyyat lazımdırsa edin. Amma o dəqiqədən də, yəni biz Klivlend klinikasına gedəndən sonra yenə də mənim həyatım hörmətli qardaşım Süleyman Dəmirəlin nəzarəti, qayğısı, diqqəti altındadır. Əməliyyat dövründə də mənim səhhətimə buradan nəzarət etmişdir, əməliyyat bitəndən sonra nəticəni soruşmuşdur. Ürəyimdə cərrahiyyə əməliyyatı aparan cərrah Brüs Laytlla bir neçə dəfə telefonla danışmış, mənə çox böyük hörmət və qayğı göstərmişdir.

Nəhayət, məni əməliyyatdan sonra Türkiyəyə dəvət etmişdir.

Bax, bizim dostluğumuz haqqında saatlarla danışmaq olar. Amma güman edirəm, bu dediklərim bizim dostluğumuzun mənasını, tarixini Sizin üçün tamamilə aydınlaşdırdı.

**S u a l :** Cənab Prezident, Sizin dövlət adamı olmağınızdan başqa, bizim üçün Əliyevin ailəsi barədə də məlumat almaq maraqlıdır. Bir qədər də ailəniz, nəvələriniz barədə danışa bilərsinizmi?

**C a v a b :** Danışaram. Mənim iki övladım vardır: oğlum İlham, qızım Sevil. Sevilin üç uşağı – bir qızı, iki oğlu vardır. İlhamın da üç uşağı – iki qızı, bir oğlu vardır. Bunlar mənim nəvələrimdir. İlhamın son uşağı 1997-ci ildə anadan olub. O vaxt mən Amerika Birləşmiş Ştatlarına, ABŞ-ın prezidenti, cümhur başqanı Bill Klintonun dəvəti ilə Vaşinqtona rəsmi ziyarətə getmişdim. Mən Vaşinqtona ziyarətimi bitirdim. Sonra Hyüstona getdim. Orada olanda mənə xəbər verdilər ki, İlhamın uşağı olubdur, oğlandır, onun da adını Heydər qoyduq. İndi bizim ailəmizdə iki Heydər vardır. Mən övladlarımı, nəvələrimi çox sevirəm, onlar da məni çox sevirlər. İlhamın uşaqları bu axşam buraya gələcəklər. İndi İlham mənim yanımdadır, uşaqları da gələcəklər və mənimlə burada olacaqlar. Mən onda daha da rahat olacağam. Çünki



onları mən çox sevirəm. Onlarla bərabər olanda daha da ruhlanıram, daha da sevinirəm, daha da rahat istirahət edirəm.

**S u a l :** Cənab Prezident, Bakı-Ceyhan neft boru xəttinin hazırkı vəziyyəti barədə nə deyə bilərsiniz?

**C a v a b :** İndi bu çox normal vəziyyətdədir. Ən əsası odur ki, biz dörd ildən çoxdur Bakı-Ceyhan boru xəttinin yaranması üçün çalışırıq. 1994-cü ildə biz ilk neft müqaviləsini imzaladıq. Dünyanın 11 böyük neft şirkəti bir konsorsium yaradıb Azərbaycan Dövlət Neft Şirkəti ilə müqavilə, anlaşma imzaladılar. Bu müqavilə Azərbaycanın Xəzər dənizində olan bölgəsində üç zəngin neft yatağından – «Azəri», «Çıraq», «Günəşli» neft yataqlarından 30 il müddətində neft çıxarılması barədədir. O vaxt biz çalışırdıq ki, bu neft dünya bazarlarına Türkiyə ərazisindən keçərək çatdırılsın. Həmin müqaviləni imzalayanda biz müqavilə də yazdıq və hamı da imza atdı ki, bunun üçün bir neft boru xətti lazımdır, bu da Türkiyədən keçməlidir və Bakı-Ceyhan neft boru xətti olmalıdır.

Ancaq sonrakı illər bu layihəni həyata keçirmək o qədər də asan olmadı. Çünki siz bilirsiniz ki, bir çox ölkələr Xəzər dənizinə böyük maraq göstərirlər. Xəzər zəngin bir dənizdir. Xəzər dənizində Azərbaycanın çox zəngin neft-qaz yataqları vardır. Ona görə də bizə qarşı bir çox təzyiqlər oldu və Bakı-Ceyhan boru xəttinin mümkün olmadığını bildirdilər – yəni bu olmayacaqdır, qoymayacağıq və sair. Ancaq bu illər ərzində biz çox çalışdıq. Mən – bu işə rəhbərlik edən bir adam – Azərbaycanda bütün bu maneələrin, çətinliklərin arasından keçdik, gəldik və nəhayət, keçən il Türkiyə Cümhuriyyətinin 75 illik yubileyi günü – oktyabrın 29-da Ankarada biz – Türkiyənin, Azərbaycanın, Gürcüstanın, Qazaxıstanın, Özbəkistanın dövlət başçıları böyük bir bəyannamə imzaladıq. Buna Amerika da qoşuldu. ABŞ-ın enerji naziri cənab Riçardson da bu sənədə imza atdı. Beş ölkənin prezidentləri, cümhur başqanları bəyannamə imzaladılar ki, biz Azərbaycan neftinin əsas hissəsini Bakı-Ceyhan boru xətti ilə keçirəcəyik və Bakı-Ceyhan boru xətti yaradılacaqdır.

Bu çox önəmli oldu. Çünki biz bütün mühüm problemləri çözdük, onları həll etdik. Onlar arxada qaldı. Sonra bunun maliyyə, texniki məsələləri vardır. O vaxtdan bu işlər gedir. Güman edirəm, bir-iki ay qədər bu işlər bitəcəkdir. Bakı-Ceyhan boru xətti yaranacaq və Xəzər dənizində olan neft yataqlarından, təkcə Xəzərin Azərbaycan sektorunda yox, Qazaxıstan, Türkmənistan sektorlarında da olan neft yataqlarından çıxarılan neft bu boru xətti, kəməri ilə Ceyhan limanına axacaq və ora-

dan da dünya bazarlarına çıxacaqdır. Bu, tarixi bir hadisədir, tarixi bir işdir. Bunu da biz həm indiki nəsillər qarşısında, həm də gələcək nəsillər qarşısında özümüzə borc bilərək edirik, həyata keçiririk.

**S u a l :** Cənab Prezident, «Atatürk Beynəlxalq Sülh Mükafatı»nı almağınızdan hansı hissləri keçirirsiniz?

**C a v a b :** Bilirsiniz, bu mənim üçün böyük iftixar hissidir. Bu, Türkiyə Cümhuriyyətinin ən yüksək mükafatıdır və mənim üçün çox önəmlidir ki, bu, Mustafa Kamal Atatürkün adını daşıyır və Mustafa Kamal Atatürkün adına olan, barış üçün verilən mükafatdır. Məni bu həddən ziyadə sevindirdi, məmnun etdi. Yenə deyirəm, böyük qürur duyuram. Mustafa Kamal Atatürk mənim üçün müdriklik rəmzidir, mərdlik, qəhrəmanlıq rəmzidir, mənəviyyat, insanlıq rəmzidir. Mustafa Kamal Atatürk türk dünyası üçün əziz bir insandır, XX əsrdə dünyada siyasət, dövlət adamlarının içində ən böyüklərindən biridir. Biz Mustafa Kamal Atatürklə fəxr edirik ki, ümumtürk dünyasının belə bir böyük insanı vardır və dünya xalqları içərisində ona görə bizim adımız vardır. Buna görə də Mustafa Kamal Atatürk adına mükafatın mənə verilməsi mənə göstərilən böyük hörmətdir, mənim fəaliyyətimə, o cümlədən sülh, barış fəaliyyətimə verilən böyük qiymətdir. Bu, Türkiyə-Azərbaycan dostluğunun daha da inkişaf etməsi üçün böyük bir hadisədir. Mən bunu böyük qürur hissi ilə qəbul etdim.

Atatürk Mükafatı Komissiyasının üzvlərinə minnətdaram, təşəkkür edirəm. Xüsusən mənim əziz dostum, qardaşım, hörmətli prezident Süleyman Dəmirələ minnətdaram ki, mənə bu qədər hörmət göstərilib, bu qədər yüksək qiymət verilib və bu mükafat mənə verilibdir. Mən çox məmnunam.

**S u a l :** Hörmətli cənab Prezident, burada istirahətiniz necədir?

**C a v a b :** Bilirsiniz, mən Türkiyəyə hörmətli dostum, cümhur başqanı Süleyman Dəmirəlin dəvəti ilə gəlmişəm. O məni dəvət etdi ki, Türkiyəyə gəlim və Antalyada dincəlim. Amma o, hər il məni dəvət edir. Deyir ki, burada çox gözəl yerlər vardır, gəl istirahət et. Mən hər il ona söz verirəm ki, istirahət etməyə gələcəyəm. Ancaq imkanım olmur. İl bitdi, deyirəm, gələn il gedəcəyəm. Amma indi qismət bu imiş ki, istəsəm də, istəməsəm də dincəlməliyəm. Ona görə də mən hörmətli Süleyman Dəmirəlin bu dəvətini məmnuniyyətlə qəbul etdim. Ankaraya gəldim və onunla görüşlər keçirdik. O dedi ki, mütləq Antalyaya getməlisən. Nəhayət, dünən buraya gəldim.



Bura bir möcüzədir, cənnətin bir parçasıdır, gözəl bir yerdir. Mən heç də bunu belə təsəvvür etmirdim. Allah Türkiyə xalqına belə gözəl yerlər bəxş edibdir. Bu da Allahın işidir. Bura çox gözəl bir yerdir. Mən bura gəlməyimdən çox məmnunam.

Ancaq dünyada təbiətin gözəl yerləri çoxdur. Bütün dünyanı, Yer kürəsini götürsək ,təbiətin gözəl yerləri çoxdur. O gözəl yerləri isə insanlar daha da gözəlləşdirirlər, insanların istifadə etməsi üçün onu daha da yuxarılara qaldırırlar, gözəl, yaxşı edirlər. Bu baxımdan burada Türkiyənin insanları, hökuməti gözəl işlər görüblər və indi Antalyada mənə bu şəhərin valisi, dostlarım söylədilər ki, bura dünyanın hər yerindən nə qədər insan gəlir, dincəlirlər. O cümlədən Azərbaycandan da çox gəlirlər. Azərbaycandan gələn adamlar mənə çox söyləmişlər ki, bura dünyanın ən gözəl bir yeridir və burada dincəlmək üçün gözəl imkanlar yaradılıbdır.

Mən buraya gəldim. İndi Antalyanın hər yerini görməmişəm. Amma təsəvvür etmirəm ki, bu Ceylanlar qardaşlarının yerindən də gözəli olsun. Dünən axşam çıxıb burada gəzdik, ətrafa baxdıq, gördük. Otelə baxdım, digər yerlərə baxdım. Mən düşündüm ki, insanın normal, gözəl istirahət etməsi üçün burada bütün şərtlər vardır, yaradılıbdır və Ceylanlar qardaşları burada çox böyük işlər görüblər, zövqlə görüblər.

Bilirsiniz, bizim üçün – Azərbaycan,Türkiyə üçün Avropa, xaric örnək olubdur. Orada hər şey daha da yüksək keyfiyyətlidir. Tarixən belə olubdur. Biz çox şeyləri də oradan götürmüşük. Amma dünyanın hansı ölkəsindən gəlirsən gəl, hansı padşah, kral gəlirsə gəlsin, buradan, yəni burada dincəlmək üçün yaranan imkanlardan gözəl yer görə bilməyəcəkdir.

Mən otelə baxdım. Necə gözəl bir oteldir! İnsanların dincəlməsi üçün onun ətrafında hər bir şərait yaradılıbdır. Mən yaşadığım bu Ceylanlar qardaşlarının evi də bir xatirədir, gözəl bir şeydir. Ona görə çox məmnunam ki, mən buraya gəlmişəm.

Söyləyim ki, dünən mən buraya gələndən sonra özümü daha da yaxşı hiss edirəm. Əməliyyatdan sonra mən indiyə qədər özümü bu qədər gözəl hiss etməmişdim. Özü də bir günün içərisində. Buranın həm havasından, şəraitindən və ən əsas – burada mənə göstərilən yüksək qardaşlıq, dostluq qonaqpərvərliyindən çox məmnunam. Çox-çox təşəkkür edirəm.

**M ü x b i r :** Biz Sizə burada daha uzun müddət xidmət göstərməyə hazırıq və bundan şərəf duyuruq.

**H e y d ə r Ə l i y e v :** Sağ olun, təşəkkür edirəm. Sizin televiziya kanalına uğurlar diləyirəm. Sizin televiziya vasitəsilə bütün Türkiyə Cümhuriyyətinin vətəndaşlarına hörmətimi, sevgimi, ehtiramımı bildirirəm və hər bir kəsə uğurlar diləyirəm.



## «SAMANYOLU» TELEVİZİYASINA MÜSAHİBƏ

*Antalya*
*28 may 1999-cu il*

**M ü x b i r :** Sevimli tamaşaçılar, axşamınız xeyir olsun. Burada, Antalyada Azərbaycan Respublikasının möhtərəm Prezidenti Heydər Əliyevin qonağıyıq. Möhtərəm cümhur başqanı, çox təşəkkür edirik ki, bizi qəbul etdiniz. Çətin bir əməliyyata məruz qaldınız, amma çox yaxşı görünürsünüz. İndi sağlamlığınız necədir?

**H e y d ə r Ə l i y e v :** Yaxşıyam. Türkiyəyə, Antalyaya gələndən sonra günü-gündən yaxşılaşıram. Səhhətim tam yaxşılaşıbdır.

**S u a l :** Müstəqil Azərbaycan Xalq Cümhuriyyəti yaranmasının 81-ci ildönümünü bayram edir. Siz bu münasibətlə xalqa müraciət etdiniz. Bu barədə duyğu və düşüncələrinizi söylərdinizmi?

**C a v a b :** Mən dünən sizin televiziya vasitəsilə buradan birbaşa Azərbaycana və Respublika Sarayında toplaşmış Azərbaycan vətəndaşlarına milli bayramımız – 28 May günü, İstiqlaliyyət günü münasibətilə təbriklərimi bildirdim, qəlbimdə olan sözləri bütün Azərbaycan vətəndaşlarına çatdırdım. Sizə təşəkkür edirəm ki, «Samanyolu» televiziyası bu işi təşkil etdi. Eyni zamanda sizin televiziya kanalınız mənim xalqa dünənki müraciətimi Türkiyəyə yaydı, Azərbaycana yaydı. Buna görə sizə təşəkkür edirəm.

Bu gün bizim İstiqlaliyyət bayramımızdır. Mən səhərdən Azərbaycanla, Bakı ilə telefon əlaqəsi saxlayıram. Mənə məlumat verdilər ki, İstiqlal bayramı Bakıda, Azərbaycanın bütün şəhərlərində, hər yerdə böyük ruh yüksəkliyi ilə qeyd olunur. İnsanlar sevinir, şadlanırlar ki, artıq səkkizinci ildir Azərbaycan müstəqil dövlətdir və müstəqillik şəraitində yaşayır. Dünən dediyim kimi, bu səkkiz il müddətində bir çox nailiyyətlər əldə olunubdur. Bunlara görə mən bu gün çox xoşbəxtəm, çox sevinirəm. Həm də məmnunam ki, sizinlə yenidən görüşmüşəm.

**S u a l :** Sayın cümhur başqanı, çox təşəkkür edirəm. O məmnuniyyət bizə aiddir. Təbii ki, hər bir müstəqillik böyük zəhmətlə əldə edilir. Azərbaycan da müstəqilliyini qazanarkən xalqınız böyük fədakarlıq göstərdi. Azərbaycan müstəqil türkdilli dövlət olaraq dünyada şərəfli yerini tutdu. Biz bundan çox məmnunuq.

Siz bu yaxınlarda «Atatürk Beynəlxaq Sülh Mükafatı»na layiq görülmüsünüz. Bununla əlaqədar duyğu və düşüncələrinizi bilmək istərdik.

**C a v a b :** Mən çox xoşbəxtəm, çox böyük qürur hissi keçirirəm, çox fəxr edirəm ki, mənə Türkiyə Cümhuriyyətinin ən yüksək mükafatı – «Atatürk Beynəlxalq Sülh Mükafatı» verilibdir. Mən həyatımda çox mükafatlar almışam. Keçmişdə, Sovetlər Birliyində bu böyük dövlətin ən yüksək mükafatlarını almışam, bir neçə başqa dövlətlərin də mükafatlarını almışam.

Ancaq böyük Mustafa Kamal Atatürkün adını daşıyan bu sülh mükafatı mənim üçün həyatımda aldığım mükafatların hamısından qiymətlidir, üstündür və hamısından şərəflidir. Mən çox məmnunam ki, Türkiyə Cümhuriyyətinin Atatürk Mükafatı Komitəsi böyük araşdırmalardan sonra mənim Azərbaycanda gördüyüm işlərə, Azərbaycanın Prezidenti kimi fəaliyyətimə və xüsusən Azərbaycanda sülhün, əmin-amanlığın yaranmasında gördüyüm işlərə və fəaliyyətimə yüksək qiymət veribdir və məni bu mükafatla təltif edibdir. Mən çox minnətdaram ki, Türkiyə Cümhuriyyətinin Prezidenti, əziz dostum, qardaşım Süleyman Dəmirəl bu Komitənin çıxardığı qərarı təsdiqləyib, beləliklə mənə bu mükafatın verilməsi elan olunubdur.

Bilirsiniz ki, Azərbaycan on bir il bundan öncə Ermənistanın təcavüzü nəticəsində hərbi münaqişəyə qatılıbdır. 1988-ci ildən 1994-cü ilin may ayına qədər Azərbaycan döyüşlər, müharibə içərisində idi. Azərbaycan bu döyüşlərdə çox itkilər verdi, çox qanlar töküldü. 1994-cü ilin may ayında biz Ermənistanla atəşkəs haqqında saziş imzaladıq. Beləliklə, beş ildən artıqdır ki, xalqımız atəşkəs şəraitində yaşayır.

Siz onu da bilirsiniz ki, təkcə atəşkəslə iş bitmir. Bildiyiniz kimi, Azərbaycanın daxilində də çox çarpışmalar, çəkişmələr, toqquşmalar vardı.

**M ü x b i r :** Zati-aliniz cümhur başqanı seçildikdən sonra Sizin ilk məqsədiniz Azərbaycanın daxilində sabitlik yaratmaq oldu.

**H e y d ə r Ə l i y e v :** Bəli. Bilirsiniz ki, 1993-cü ilin iyun ayında Azərbaycanda Vətəndaş müharibəsi başladı, insanlar bir-birinə qarşı durdular, qan töküldü. Azərbaycan artıq parçalanırdı. Bu zaman məni Naxçıvandan Bakıya dəvət etdilər. Bakıya gəlib bir həftə məsələləri öyrənəndən sonra razılıq verdim ki, məni Azərbaycan Milli Məclisinin sədri seçsinlər. Bir neçə gündən sonra isə Azərbaycan prezidentinin səlahiyyətləri mənə verildi. 1993-cü il oktyabr ayının 3-də isə mən Azərbaycanın Prezidenti seçildim.



O vaxt Azərbaycanda vəziyyətin necə olduğunu siz yaxşı bilirsiniz. Çünki bilirəm ki, Siz hələ 1992-ci ildən Azərbaycandaydınız – Sizi həm Bakıda, həm də Naxçıvanda görmüşdüm. Çox ağır vəziyyət idi. Bir tərəfdən, ermənilərlə müharibə gedirdi. İkinci tərəfdən, Azərbaycanın daxilində sabitlik yox idi, ayrı-ayrı qanunsuz silahlı dəstələr, ayrı-ayrı insanlar hakimiyyət uğrunda mübarizə aparırdılar, beləliklə də ermənilərə fürsət verirdilər ki, onlar daha da irəliləsinlər, daha çox torpaqlarımızı işğal etsinlər.

Ona görə mənim üzərimə çox böyük vəzifələr düşdü. Bir tərəfdən, mən gərək Azərbaycanın torpaqlarının qorunmasını təmin edəydim. Amma Azərbaycanın daxilində vəziyyəti normallaşdırmasaydıq, yəni ictimai-siyasi sabitlik yarada bilməsəydik, bunu edə bilməzdik. Bu da asan bir şey deyildi. Bunun üçün biz çox çalışdıq. Bir neçə il – 1993-cü ildə, 1994-cü ildə, 1995-ci ilə qədər daxili məsələlərimizin normallaşması, sabitliyin əldə edilməsi üçün çalışdıq. Çünki 1993-cü ildə vətəndaş savaşının qarşısını alandan sonra, 1994-cü ilin oktyabr ayında da Azərbaycanda yeni bir silahlı dövlət çevrilişi cəhdi oldu. Ondan sonra, 1995-ci ilin mart ayında OMON dəstəsi silahla ayağa qalxdı, Azərbaycanın hakimiyyətini, Prezidentini məhv etmək, devirmək istədilər. Bunların da qarşısını aldıq.

Ondan sonra bir neçə terror, təxribat aktları oldu. Bunların da qarşısını aldıq. Nəhayət, 1995-ci ilin sonundan başlayaraq Azərbaycanda ictimai-siyasi sabitliyi təmin etdik. Bu gün, bayram günü mən onu deyə bilərəm ki, bu illərdə bizim ən böyük nailiyyətimiz odur ki, Azərbaycanın daxilində ictimai-siyasi sabitlik yaratdıq. Bu sabitlik də gündən-günə möhkəmlənir və hesab edirəm ki, Azərbaycanın müstəqil dövlət kimi yaşaması və inkişaf etməsi üçün bu ən əsas şərtdir. Biz buna nail olmuşuq.

**S u a l :** Yəni ən əvvəl, daxili sabitlik gərəkdir. Çünki bütün dünyanın gözü müstəqil Azərbaycan dövlətində idi.

**C a v a b :** Bəli. Ona görə də mən daxildə sülh yaratdım. Həm də ki, ermənilərlə atəşkəs əldə etdim. Böyük Mustafa Kamal Atatürk demişdir: «Yurdda sülh, cahanda sülh». Mən yurdda sülh yaratdım, cahanda da sülhün yaranması üçün bütün səylərimi qoyuram.

**S u a l** : Zati-alilərinizin sayəsində Ermənistanla imzalanmış atəşkəs sazişi sülh üçün çox önəmli köməkdir. Hörmətli cümhur başqanı, bundan sonra sülh üçün nə iş görülür?

**C a v a b** : Biz atəşkəs sazişi imzaladıq ki, Ermənistan-Azərbaycan münaqişəsini sülh yolu ilə həll edək. Beş ildir ki, biz bu barədə çalışırıq. Bilirsiniz ki, 1992-ci ildə ATƏT Ermənistan-Azərbaycan münaqişəsinin həll edilməsi üçün Minsk qrupu yaradıbdır. Minsk qrupunun da həmsədrləri Rusiya, Amerika Birləşmiş Ştatları və Fransadır. 1996-cı ilin dekabr ayında ATƏT-in Lissabon Zirvə görüşündə böyük bir nailiyyət əldə etdik. O da ondan ibarətdir ki, 54 dövlətdən 53-ü səs verdi ki, Ermənistan-Azərbaycan münaqişəsi hansı prinsiplər əsasında həll oluna bilər.

Bu bizim üçün çox önəmlidir. Azərbaycanın ərazi bütövlüyü o deməkdir ki, Azərbaycanın işğal edilmiş 20 faiz torpağı azad olunmalıdır, yerindən-yurdundan didərgin düşmüş soydaşlarımız öz evinə-obasına qayıtmalıdır. Təhlükəsizlik də ondan ibarətdir ki, daha müharibə olmamalıdır. Dağlıq Qarabağa Azərbaycan dövlətinin daxilində yüksək dərəcəli özünüidarə statusu verilməsi normal bir şeydir.

Ancaq ermənilər bunu qəbul etmədilər. 1997-ci ildə, 1998-ci ildə bunu qəbul etmədilər. Baxmayaraq ki, Lissabonda ATƏT-in 54 üzvündən 53-ü bu prinsiplərə səs verdi, ancaq Ermənistan etiraz etdi.

Ondan sonra yeni danışıqlar aparırıq. Bilirsiniz ki, mən son vaxtlar Ermənistanın prezidenti ilə də görüşmüşəm. Rusiyanın prezidenti, Fransanın prezidenti ilə görüşmüşəm, Amerikanın prezidenti Klintonla görüşmüşəm və hər biri söz verir ki, onlar çalışırlar və bundan sonra da çalışacaqlar ki, məsələnin sülh yolu ilə həllinə nail olsunlar. Hətta Amerikanın prezidenti cənab Bill Klinton Vaşinqtonda mənimlə danışarkən belə bir söz dedi ki, 2000-ci ildə prezidentlik səlahiyyətim bitir. Hesab edirəm ki, mənim əsas vəzifələrimdən biri prezidentlik səlahiyyətim bitənə qədər Ermənistan-Azərbaycan münaqişəsini, Qarabağ məsələsini həll etməkdən ibarətdir. Mən bunu Sizə söz verirəm.

Mən çox məmnun oldum, çünki onların bu işdə fəallığı, əlbəttə ki, məsələnin həll edilməsinə gətirib çıxara bilər.

**S u a l** : Sayın cümhur başqanı, Azərbaycan çox çətin günlərdən keçərək bu gözəl günlərə gəldi, müstəqil dövlətdir. Bizim indiki canlı yayımımız Azərbaycandakı türk məktəblərinin növbəti dərs ilinin başa çatması münasibətilə Bakıda toplaşan uşaqlar və onların valideynləri tərəfindən də izlənilir. Mən bu barədə də sualımı verəcəyəm.



İndi isə soruşmaq istərdim ki, Azərbaycanın gələcəyini necə təsəvvür edirsiniz?

**C a v a b** : Azərbaycanın gələcəyi mənim üçün çox açıq görünür. Birincisi, Azərbaycanın müstəqilliyi – bu əsas şərtdir. Azərbaycanın müstəqilliyini qoruyub saxlamaq və onu dönməz, əbədi etmək bizim əsas vəzifəmizdir. Səkkizinci ildir ki, Azərbaycan müstəqillik dövrünü yaşayır. Altı ildir ki, mən Azərbaycana rəhbərlik, prezidentlik edirəm. Qürur hissi keçirirəm ki, bu illərdə, ağır illərdə Azərbaycanın müstəqilliyinin qorunub saxlanmasına xalqla, millətlə birlikdə, bütün ölkə ilə birlikdə nail ola bilmişəm. Bu mənim gördüyüm ən böyük işlərdəndir.

Azərbaycanın gələcəyi də bununla bağlıdır. Azərbaycanın imkanları böyükdür ki, müstəqil yaşayanda iqtisadiyyatı inkişaf etsin, insanların rifah halı yaxşılaşsın, Azərbaycanın mədəniyyəti, elmi, təhsili inkişaf etsin. Mən Azərbaycanın gələcəyini çox gözəl görürəm, çox gözəl. Əgər biz Ermənistan-Azərbaycan münaqişəsini tezliklə həll edə bilsək, bölgəmizdə sülh yarada bilsək, Azərbaycanın işğal olunmuş torpaqlarını azad edə bilsək, soydaşlarımızın öz yerinə-yurduna qayıtmasını təmin edə bilsək, ondan sonra Azərbaycanın bütün problemlərini çox gözəl və asanlıqla həll edəcəyik.

**M ü x b i r** : Azərbaycanın üfüqü, önü açıqdır...

**H e y d ə r Ə l i y e v** : Üfüqü açıqdır, önü açıqdır. Azərbaycan irəliyə gedir, dünyanın ən gözəl dövlətlərindən biri olacaqdır. Elə indi də Azərbaycan Dünya Birliyində, dünya dövlətləri içərisində öz yerini tutubdur. Azərbaycana böyük hörmət edirlər, maraq göstərirlər.

Azərbaycan dünyanın strateji nöqtələrindən biridir. Siz bilirsiniz, biz bu barədə çox işlər görürük. Qədim, tarixi İpək Yolunun bərpa edilməsi sahəsində Azərbaycanın gördüyü işlər dünyada bu məsələnin canlanmasına, həll olunmasına gətirib çıxarıbdır. Məsələn, Yaponiya hökuməti İpək Yolu haqqında qərar çıxarıb. Yaxud Amerika senatoru Braunbek İpək Yolu haqqında qanun layihəsi hazırlayıbdır ki, Konqresdə İpək Yolu barədə qanun qəbul olunsun. Bu işlərin əsasını, təməlini biz Azərbaycanda qoymuşuq.

**S u a l** : Bir az öncə buyurdunuz ki, Azərbaycan dövlətinə etibar edilir. Demək istəyirəm ki, Azərbaycan dövləti zati-alilərinizin rəhbərliyi sayəsində bu nöqtəyə gəldi. İki gündür ki, Sizin qonağınızıq, təşəkkür edirik. Fikir verirəm ki, Siz hər an, hər dəqiqə bütün dünya ilə əlaqə

saxlayırsınız. Mətbuat vasitəsilə, telefonla əlaqə saxlayırsınız. Burada davamlı olaraq Azərbaycanla bağlı yeni layihələr üzərində çalışırsınız.

**C a v a b** : Bəli, tamamilə doğru deyirsiniz. Yeni layihələr üzərində çalışıram və əminəm ki, bu layihələrin hamısını həyata keçirə biləcəyik.

**S u a l** : İnşallah, inanırıq ki, belə də olacaqdır. Sayın cümhur başqanı, Amerikada da bir müddət oldunuz, oraya da işlər görmək üçün getmişdiniz. Mühüm görüşlər keçirdiniz, hörmətli Klintonla, başqa liderlərlə görüşdünüz.

Bu sualı çox vermişəm, izn versəydiniz, bir də soruşardım. Bakı-Ceyhan boru xətti məsələsində son vəziyyət necədir?

**C a v a b** : Mən Amerikaya NATO-nun toplantısına, Zirvə görüşünə getmişdim. Bu çox önəmli bir hadisədir. Azərbaycan NATO-nun «Sülh naminə tərəfdaşlıq» proqramında iştirak edir. Bu proqram çərçivəsində biz NATO ilə çox geniş əməkdaşlıq edirik. Bu əməkdaşlıqdan iş birliyindən də çox məmnunuq. Məsələn, iki-üç gün bundan öncə NATO-nun böyük bir heyəti, altmış nəfər NATO-nun Baş katibi köməkçisinin rəhbərliyi ilə Azərbaycana gəlmişdi. Bir neçə gün Azərbaycanda olmuş, 8 ölkənin təmsilçilərini dəvət edib «Sülh naminə tərəfdaşlıq» proqramının irəlilədilməsi üçün tədbirlər görmüşlər. Bunu gəlib Azərbaycanda ediblər, Azərbaycana 8 ölkədən təmsilçilər gəlibdir. Bu, Azərbaycanla NATO arasında əlaqələrin nə qədər yaxşı inkişaf etməsini göstərir.

Mən Vaşinqtonda NATO-nun bütün mərasimlərinə qatıldım, bütün görüşlərdə oldum. NATO-nun Zirvə görüşündə mən Azərbaycan adından söz dedim, münasibətimizi bildirdim, NATO-nun yeni strateji konsepsiyasını dəstəklədim.

Amma NATO-nun toplantısından iki-üç gün öncə də və ondan sonra da Vaşinqtonda çox görüşlər keçirdim. Prezident cənab Bill Klintonla, dövlət katibi xanım Olbraytla, bir çox senatorlarla, nazirlərlə, konqresmenlərlə görüşdüm. Biz orada Amerikanın böyük şirkətləri ilə üç yeni neft müqaviləsi imzaladıq. Beləliklə, 1994-cü ildən indiyə qədər Azərbaycan neft şirkətləri ilə 19 müqavilə imzalayıbdır.

Sonuncu üç müqaviləni Amerika Senatının binasında – senatorların, konqresmenlərin iştirakı ilə imzaladıq. Bu çox önəmli bir hadisədir.

Başqa görüşlərimiz də oldu. Məsələn, Amerikanın dövlət katibi xanım Olbrayt Qafqaz dövlətlərinin prezidentlərini – Gürcüstan, Azərbaycan, Ermənistan prezidentlərini bir yerə topladı, bir neçə ölkənin



xarici işlər nazirləri ilə birlikdə Qafqazda iş birliyi haqqında, müştərək işlər görülməsi haqqında məsələlər müzakirə edildi. Sonra Ermənistanın prezidenti ilə görüşdüm. Bir çox başqa işlər də gördük.

Bunları bitirəndən sonra isə mənə dedilər ki, səhhətimi yoxlamaq lazımdır. Mən o qədər də istəmirdim. Mənim indi bir doktorum var – Ərtan Dəmirtaş. O da Türkiyədəndir, gözəl bir insandır, paşadır, admiraldır, böyük bir kardioloq, professordur. O da Vaşinqtonda mənim yanımda idi və mənə dedi ki, mütləq lazımdır. Mən onun sözünə baxdım, getdik Klivlendə. Orada mənim səhhətimi yoxladılar, dedilər ki, əməliyyat lazımdır. Dedim ki, lazımdır, lazımdır – əməliyyatı keçirdim. Sizə bunları demək istədim.

Sualınız Bakı-Ceyhan boru xətti barədədir. Bakı-Ceyhan neft kəməri haqqında qərarı biz 1994-cü ildə ilk müqaviləni imzalayanda yazmışıq. Amma sonrakı dövrdə bu layihəni həyata keçirmək üçün çox maneələrlə, etirazlarla rastlaşdıq. Bəzi ölkələr tərəfindən bizə təzyiq edildi, çox çətin oldu. Son olaraq konsorsiumun üzvləri də Bakı-Ceyhan xəttinin baha olduğunu bəyan edərək dedilər ki, Azərbaycanda, Xəzər dənizindən çıxarılan nefti dünya bazarına hələlik iki boru xətti ilə daşımaq olar: biri Bakı-Novorossiysk kəməri ilə Rusiyanın Novorossiysk limanına, ikincisi də – aprel ayının 17-də biz Bakıdan Gürcüstanın Qara dənizdəki Supsa limanına boru xəttini açdıq – Bakı-Supsa kəməri ilə çatdırmaq olar.

Ancaq mən dedim yox, Bakı-Ceyhan neft kəməri barəsində 1994-cü ildən çalışıram. Nəhayət, keçən il oktyabr ayının 29-da Ankarada, Türkiyə Cümhuriyyətinin 75-ci ildönümü münasibətilə böyük bir toplantıda idik, orada böyük bəyannamə imzalandı. Onu Türkiyənin, Azərbaycanın, Gürcüstanın, Qazaxıstanın və Özbəkistanın prezidentləri imzaladılar. Amerika Birləşmiş Ştatlarının energetika naziri Riçardson da ona imzasını atdı. Beləliklə, biz Bakı-Ceyhan boru xəttinin reallaşmasını həyata keçirdik.

Ondan sonrakı aylarda bəzi maliyyə məsələləri, texniki məsələlər həll olunur. Azərbaycan Beynəlxalq Əməliyyat Şirkəti, yəni konsorsium çox böyük qiymət göstərmişdi – 3,7 milyard dollar. Amma indi Türkiyənin bu işlə məşğul olan adamları, maliyyəçiləri – onlar neçə vaxtdır Azərbaycanla danışıqlar, müzakirələr aparırlar – bəyan edirlər ki, ola bilər, bunun qiyməti 2,4 milyard dollar olsun. Bu da tamamilə yaxşıdır.

İndi Türkiyədə yeni hökumət quruldu.

**M ü x b i r :** Quruldu, əfəndim. Hörmətli baş nazirimiz Bülənd Ecevit ortaq partiyalarla bir protokol imzaladılar. Hörmətli cümhur başqanımıza təklif ediləcək, yəni «Hökumət quruldu» deyə bilərik.

**H e y d ə r Ə l i y e v :** Hörmətli prezident Süleyman Dəmirəl bu gün mənə telefon etmişdi. Azərbaycanın İstiqlaliyyət günü münasibətilə məni təbrik etdi, eyni zamanda dedi ki, hökumət artıq qurulur. Beləliklə, Türkiyədə hökumət qurulandan sonra Bakı-Ceyhan boru xəttinin bir çox məsələsini də tezliklə həll etmək mümkün olacaqdır.

**S u a l :** Sayın cümhur başqanı, canlı yayımımızdır, bayaq ərz etdiyim kimi, minlərlə Azərbaycan gəncinin də dərs ilinin qurtarması ilə əlaqədar mərasim keçirilir. Böyük Atatürkün göstərdiyi məqsədlər yönündə Azərbaycanda türk kollecləri açıldı və ötən illərdə Sizin himayənizlə onlar beynəlxalq müsabiqələrdə Azərbaycan dövlətinin bayrağını ən yüksək nöqtədə dalğalandırdılar. Çox birinciliklər qazandılar. Təbii ki, bu gənclər böyük Azərbaycanın gələcəyində çox önəmli xidmətlər göstərəcəklər. Bu məktəblər barədə düşüncələrinizi söyləməyinizi rica edərdim.

**C a v a b :** Bilirsiniz, Azərbaycanda türk məktəblərinin açılmasını mən hələ Naxçıvanda olarkən, hələ 1992-ci ilin əvvəllərində hiss etdim. Sizin adamlar Naxçıvana gəldilər, mənimlə görüşdülər. Naxçıvanda türk məktəbinin açılmasını rica etdilər, mən də bunu dəstəklədim və türk məktəbi açıldı.

Amma bu məktəblər Azərbaycanın başqa yerlərində də açılmağa başlamışdı. 1993-cü ildə mən Bakıya gələndən sonra Azərbaycanda türk məktəblərinin açılması haqqında mənə geniş məlumat verdilər. Mən bunu həmişə dəstəkləmişəm, buna həmişə yardım etmişəm, bu gün də edirəm, sabah da edəcəyəm.

Çünki bu məktəblər Azərbaycanın təhsil sistemində bir yenilik yaradır. Azərbaycanın təhsil sistemi keçmiş Sovetlər Birliyinin təhsil sistemidir. İndi biz o təhsil sistemində – həm orta məktəb təhsilində, həm ali, universitet təhsilində bir çox islahatlar həyata keçiririk və bundan sonra da keçirəcəyik. Ona görə də Türkiyənin məktəblərinin, kolleclərinin təcrübəsi Azərbaycan üçün lazımdır. Bu, birincisi.

İkincisi də, sizin bu məktəblərdə Azərbaycanın uşaqları, gəncləri təhsil alırlar, oxuyurlar. Bildiyimə görə, onların təhsil alması üçün çox gözəl şərait yaratmısınız. Onlara yaxşı təhsil verirsiniz. Bunun da nəticəsində onlar dünya olimpiadalarında medallar alırlar, gözəl



yerlər tuturlar. Mənə məlumat verdilər ki, sizin məktəbləri bitirənlərin 99 faizi Azərbaycanın universitetlərinə qəbul olunurlar. Bu da böyük işdir, çox böyük işdir. Ona görə də mən sizə təşəkkürümü bildirirəm. Güman edirəm ki, siz Azərbaycanda bu işləri davam etdirəcəksiniz.

**M ü x b i r :** Sizin sayənizdə.

**H e y d ə r Ə l i y e v :** Bəli, mən sizə yardım edəcəyəm. Sizi də təbrik edirəm. Bu gün mənə dedilər ki, Bakıda, Respublika Sarayında türk məktəblərinin məzunları toplaşıblar, onlar bizi dinləyirlər. Mən onların hamısını salamlayıram, əldə etdikləri nailiyyətlərə görə təbrik edirəm. Bu gənclərin, Azərbaycan gənclərinin hər birinə gözəl gələcək arzulayıram. Ali təhsil almağı, gələcəkdə yaxşı işləməyi və müstəqil Azərbaycanın irəliyə getməsində, inkişaf etməsində iştirak etməyi arzulayıram.

**S u a l :** Sayın cümhur başqanı, yayımımızda iştirak etdiyinizə görə çox təşəkkür edirəm. Bu anda Sizi həm türk xalqı, həm də Azərbaycan xalqı dinləyir. Sizi dinləyən minlərlə azərbaycanlı gəncə, Azərbaycan xalqına sözlərinizi eşitmək istərdik.

**C a v a b :** Sizin televiziyanız vasitəsilə bu gün, Azərbaycanın İstiqlaliyyət günü Azərbaycan xalqını, Azərbaycanın vətəndaşlarını bir daha təbrik edirəm. Hər bir Azərbaycan vətəndaşına cansağlığı, səadət, bütün işlərdə uğurlar arzulayıram. Azərbaycanın gənclərini təbrik edirəm, onlara gələcəkdə xoşbəxt həyat, yaxşı təhsil və Azərbaycanın inkişaf etməsində fəal iştirak etmələrini arzulayıram.

**M ü x b i r :** Sayın cümhur başqanı, yayımımızda iştirak etdiyinizə görə bir daha təşəkkür edirik. Bizə şərəf verdiniz, Sizi sağlam görüb çox sevindik. Bizi qəbul etdiyiniz üçün çox minnətdarıq.

**H e y d ə r Ə l i y e v :** Sağ olun, mən də bu görüşdən çox məmnunam. Xüsusən ona görə məmnunam ki, mənim buradan – Türkiyədən, Antalyadan dediyim sözləri sizin televiziya vasitəsilə Azərbaycanda dinləyirlər. Dediniz ki, eyni zamanda Azərbaycan televiziyası vasitəsilə, elədirmi?

**M ü x b i r :** Elədir.

**H e y d ə r Ə l i y e v :** Mən bundan çox məmnunam. Mənim qəlbim Azərbaycandadır. Amma belə əlaqəni bütün Azərbaycanın vətəndaşları ilə yaratmaq dünən də mümkün oldu, bugün də. Mən bundan çox məmnunam. Sizə təşəkkür edirəm, çox sağ olun.

## TÜRKİYƏNİN «CEYLAN-TV» TELEVİZİYASI MÜXBİRİNİN SUALLARINA CAVAB

*Antalya*
*9 iyun 1999-cu il*

**S u a l :** Cənab Prezident, indi səhhətiniz necədir və bu istirahət ocağı barədə nə deyə bilərsiniz?

**C a v a b :** Mən Türkiyəyə, Antalyaya gəldiyim zaman səhhətim xeyli yaxşılaşmışdı və burada istirahət edəndən sonra səhhətim tam yaxşıdır. Bu istirahət ocağı barədə fikrim çox yüksəkdir. Bura cənnət kimi bir yerdir. Ancaq bu cənnət kimi yeri daha da gözəlləşdirən buranın sahibləri – Ceylan qardaşlarıdır. Onlar burada böyük bir istirahət, dincəliş mərkəzi yaradıblar. Burada minlərlə insan istirahət edir, öz sağlamlığını möhkəmləndirir. Burada hər şey dünya standartlarına uyğundur. Bu, böyük bir bir nailiyyət, xoşbəxtlikdir. Çünki Türkiyədə hər şeyi dünya və Avropa standartları səviyyəsinə qaldırmaq asan məsələ deyil. Ona görə də bu istirahət ocağı barədə mənim ən gözəl təəssüratlarım vardır.

**S u a l :** Cənab Prezident, türk xalqına sözünüz varmı?

**C a v a b :** Türk xalqına sözümü deməmişdən əvvəl istəyirəm məni Türkiyəyə istirahətə dəvət edən əziz dostum, qardaşım, Türkiyənin cümhur başqanı hörmətli Süleyman Dəmirələ hədsiz minnətdarlığımı və təşəkkürümü bildirim.

Mən may ayının 20-dən iyunun 9-dək Türkiyədəyəm, burada istirahət edirəm. May ayının 25-dən isə Antalyadayam. Mənim istirahətim üçün burada ən gözəl şərait yaradılıbdır. Bunların hamısına görə təşəkkür edirəm.

Burada istirahət etdiyim bu iqamətgah Ceylan qardaşlarınındır. Onlar burada mənə çox böyük qonaqpərvərlik, mehribanlıq, dostluq münasibəti göstərdilər. Bunlar hamısı isə mənim yaxşı istirahətimi və sağlamlığımın artmasını təmin edibdir. Mən bütün bunlara görə Ceylan qardaşlarına təşəkkür edirəm. Onları Azərbaycana dəvət edirəm ki, respublikamıza gəlsinlər, bizim dostluğumuz bundan sonra daha da inkişaf etsin.



Türk xalqına isə sözüm ondan ibarətdir ki, türk xalqı qəhrəman xalqdır. Türk xalqı Türkiyəni qısa bir zamanda dünyanın ən qüdrətli və inkişaf etmiş dövlətlərindən birinə çevirdi. Bu, türk xalqının xidmətlərinin nəticəsidir. Mən türk xalqına gözəl istiqbal, rifah, sülh, əmin-amanlıq, ən gözəl uğurlar diləyirəm.

**M ü x b i r :** Cənab Prezident, Sizə dərin təşəkkürümü bildirirəm.

**H e y d ə r Ə l i y e v :** Sağ olun, mən də sizə təşəkkür edirəm.

## BİNƏ HAVA LİMANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİ NÜMAYƏNDƏLƏRİNİN SUALLARINA ÇAVAB

*15 iyul 1999-cu il*

**S u a l :** Cənab Prezident, Sizin Azərbaycanın siyasi rəhbərliyinə gəlməyinizin 30 ili iyulun 14-də tamam oldu. Bu əlamətdar tarixi hadisə münasibətilə Sizi təbrik edirik.

Cənab Prezident, mətbuatda verilən xəbərə görə, Siz İsveçrədə Ermənistan prezidenti Robert Koçaryanla görüşəcəksiniz. Ermənistan-Azərbaycan danışıqlarının bu mərhələsini necə qiymətləndirirsiniz?

**C a v a b :** Birincisi, mənim Azərbaycanda siyasi hakimiyyətə gəlməyimin 30 ilinin tamam olmağından çox məmnunam ki, 30 il yaşamışam, yaratmışam, respublikamıza xidmət etmişəm. Çox məmnunam ki, xalqımız da mənim keçmişdə də, indi də gördüyüm işləri unutmur. Xalqa təşəkkür edirəm.

Mən İsveçrəyə Ermənistan prezidenti cənab Koçaryanla görüşməyə gedirəm. Biz aprel ayında Vaşinqtonda onunla görüşmüşdük, danışıqlar aparmışdıq. Qərara gəlmişdik ki, bu danışıqları, yəni birbaşa, bilavasitə danışıqları davam etdirək.

Biz Lüksemburqda görüşməliydik. Ancaq mən Lüksemburqa gedə bilmədim. Bundan sonra bir-birimizlə əlaqə saxladıq və belə qərara gəldik ki, Cenevrədə görüşmək münasib olardı. Mən oraya gedirəm ki, onunla görüşüb, şübhəsiz ki, əsas məsələmizi – Ermənistan-Azərbaycan münaqişəsinin sülh yolu ilə həll olunması məsələsini müzakirə edək.

**S u a l :** Cənab Prezident, Siz yola düşməzdən əvvəl Türkiyə prezidenti Süleyman Dəmirəl ilə telefonla danışmısınız. Bu barədə bir neçə söz deyə bilərsinizmi?

**C a v a b :** Mən Türkiyənin prezidenti hörmətli cənab Süleyman Dəmirəl ilə çox tez-tez telefonla danışıram. Elə olur ki, biz həftədə iki dəfə danışırıq. O mənə, mən də ona telefon edirəm. Mənim dostum Süleyman Dəmirəl indi İsraildədir. O bu gün səhər mənə telefon etmişdi. Bakı-Ceyhan neft kəmərinin Türkiyədə bəzi məsələləri həll olunur.



Bizim nümayəndə heyətimiz də oradadır. Azərbaycan Dövlət Neft Şirkətindən Valeh Ələsgərov orada iştirak edir. Türkiyə tərəfi bəzi məsələləri vaxtında həll etməyi çatdıra bilməyibdir. Bilirsiniz ki, üç aylıq protokol imzalanmışdı. İndi onlar istədilər ki, biz yenidən protokol imzalayaq. Prezident Süleyman Dəmirəl məndən xahiş etdi, mən də Ankarada olan Valeh Ələsgərova göstəriş verdim ki, protokolu imzalasın.

**S u a l :** Cənab Prezident, Dağlıq Qarabağın statusu ilə bağlı Robert Koçaryanla söhbətiniz olacaqmı?

**C a v a b :** Bəs necə! Bütün məsələlər üzrə söhbət olacaqdır. Sağ olun.

## BİNƏ HAVA LİMANINDA JURNALİSTLƏR QARŞISINDA BƏYANAT

*17 iyul 1999-cu il*

– Səfər çox faydalı oldu. Dünən mən İsveçrədə – Cenevrə şəhərində Ermənistan prezidenti Robert Koçaryanla görüşdüm. Ətraflı söhbət elədik.

Bu görüş haqqında biz Vaşinqtonda görüşərkən razılıq əldə etmişdik. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həll olunması haqqında yenidən geniş fikir mübadiləsi apardıq. Məsələnin həll olunması üçün yollar axtarırıq. Hər iki tərəf kompromisə getməlidir. Biz – o tərəf də, bu tərəf də bu kompromisləri axtarırıq. Çünki əgər kompromislər olmasa, bu məsələni həll etmək mümkün olmayacaqdır.

Görüş faydalı oldu. Hesab edirəm ki, bunun əhəmiyyəti var. Həm bizim üçün, həm Dağlıq Qarabağ üçün. Razılaşdıq ki, bu görüşləri bundan sonra da davam etdirəcəyik.



## AZƏRBAYCAN RESPUBLİKASININ MƏTBUAT İŞÇİLƏRİNƏ

Hörmətli mətbuat işçiləri!

Sizi əlamətdar bayramınız – Milli Mətbuat günü münasibətilə ürəkdən təbrik edir və hər birinizə səmimi arzularımı yetirirəm.

Azərbaycan mətbuatı zəngin və şərəfli tarixi boyu həmişə böyük ictimai ideallarn carçısı olmuş, xalqımızın azadlıq istəyinin, müstəqillik amalının güclənməsində, mənəvi tərəqqisində, yüksək əxlaqi dəyərlərinin qorunub saxlanılmasında və daha da inkişaf etdirilməsində müstəsna xidmətlər göstərmişdir.

Respublikamız dövlət müstəqilliyi qazandıqdan sonra milli və bəşəri dəyərlərdən bəhrələnən mətbuatımız özünün ali məqsədlərini həyata keçirmək üçün daha geniş imkanlar əldə etmişdir. Demokratik, hüquqi və dünyəvi dövlət quruculuğu yolu seçmiş Azərbaycan Respublikasında mətbuat, söz və fikir azadlığının qorunmasına, siyasi plüralizmə dönmədən əməl olunur.

Hazırda Azərbaycanda güclü kütləvi informasiya sistemi yaradılmışdır. Azad surətdə fəaliyyət göstərən yüzlərlə mətbuat orqanı, agentliklər, teleradio şirkətləri cəmiyyətimizin çoxşaxəli və etibarlı media şəbəkəsini təşkil edir. Yaşadığımız informasiya əsrində ölkəmizdə mətbuat vasitələrinin maneəsiz fəaliyyəti, dünya təcrübəsi ilə zənginləşməsi, xüsusilə də onların maddi-texniki vəziyyətinin yaxşılaşdırılması, jurnalistlərin peşə səviyyəsinin yüksəldilməsi, hüquqlarının qorunması üçün bütün zəruri tədbirlər görülür.

Mətbuat demokratiyanı dərinləşdirən, siyasi inkişafa təkan verən qüdrətli vasitədir. Bu gün əsas vəzifə onun geniş imkanlarından milli dövlət quruculuğunda, demokratik dəyərlərin bərqərar edilməsində, sivil vətəndaş cəmiyyətinin formalaşmasında, islahatların həyata keçirilməsində, insanların mənəvi saflaşmasında səmərəli istifadə etməkdən ibarətdir. Mətbuat həyatın güzgüsü, həqiqətin carçısı olmalıdır, insanları yüksək ideallar uğrunda mübarizəyə səsləməli və səfərbər etməlidir.

Əmin olduğumu bildirmək istəyirəm ki, zəngin və mütərəqqi mətbuat ənənələri ilə fərqlənən Azərbaycan jurnalistləri mənsub olduqla-

rı peşənin şərəfini həmişə uca tutacaq, ölkəmizdə və beynəlxalq aləmdə baş verən hadisələrin respublika ictimaiyyətinə çatdırılmasında yüksək peşəkarlıq, obyektivlik və prinsipiallıq nümayiş etdirəcək, Azərbaycan həqiqətlərinin bütün dünyaya yayılmasına bundan sonra daha böyük səy göstərəcəklər.

***Heydər ƏLİYEV***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 21 iyul 1999-cu il***



## BİNƏ HAVA LİMANINDA JURNALİSTLƏRİN SUALLARINA CAVAB

*21 avqust 1999-cu il*

**S u a l :** Cənab Prezident, xalqımız Ermənistan-Azərbaycan münaqişəsinin sülh yolu ilə həll olunacağına böyük ümid bəsləyir. İnanırıq ki, ikitərəfli danışıqlar gələcəkdə çox böyük nəticə verəcəkdir. Növbəti səfəriniz barədə bir neçə kəlmə deməyinizi xahiş edirəm.

**C a v a b :** Növbəti səfərim elə buna həsr olunubdur. Bilirsiniz ki, biz beş ildən artıqdır atəşkəs şəraitində yaşayırıq. Ötən beş ildə məsələnin sülh yolu ilə həll olunması üçün bütün vasitələrdən istifadə etmişik. Birincisi, ATƏT-in Minsk qrupu bütün bu müddətdə daim fəaliyyət göstərir və həmsədrlər, onların nümayəndələri bu illərdə öz təkliflərini veriblər və bunlar müzakirə olunubdur. Ancaq hələ ki bu təkliflərdən heç birisi qəbul edilməyibdir. Buna baxmayaraq ATƏT-in Minsk qrupu, onun həmsədrləri bu işləri davam etdirirlər. Ancaq bununla bərabər, dediyim kimi, biz çalışırıq ki, bütün vasitələrdən istifadə edək. Burada heç bir vasitə bizim üçün mənfi ola bilməz, hər bir vasitədən istifadə etmək lazımdır.

Bu baxımdan, bilirsiniz ki, ümumiyyətlə dünyada və böyük ölkələrdə belə fikir var ki, Minsk qrupunun danışıqları ilə yanaşı, bəlkə birbaşa danışıqlar da məsələnin irəli getməsinə müəyyən kömək edə bilər. Bilirsiniz ki, mən aprel ayında bu baxımdan Ermənistan prezidenti Robert Koçaryanla Vaşinqtonda görüşüb danışmışdım. Bir ay bundan öncə Cenevrədə danışmışdım. İndi də yenə Cenevrəyə gedirəm, görüşək, danışaq. Məqsədimiz odur ki, məsələnin sülh yolu ilə həll edilməsi üçün hər iki tərəfdən qəbul oluna biləcək təkliflər, yəni razılıq əldə edə bilək. Bundan ötrü gedirəm.

**S u a l :** Azərbaycan tərəfdən hansısa qarşılıqlı kompromislərə getmək konkret olaraq müəyyənləşdirilibmi?

**C a v a b :** Bilirsiniz, kompromislər haqqında danışıqlar aparılır. Əgər danışıqlar nəticə versə, əgər görsək ki, o tərəfin kompromisi, bu

tərəfin kompromisi bizim üçün əlverişlidir, onda sizə deyə bilərəm. Amma indi bunu deyə bilmərəm.

**S u a l :** Cənab Prezident, Vardan Oskanyan belə bir ifadə işlətmişdir ki, Dağlıq Qarabağa status müstəqillikdən aşağı, muxtariyyətdən yuxarı ola bilər.

**C a v a b :** Bu köhnə sözdür, yeni bir şey deyildir. Onlar bunu çoxdan deyirlər. Onlar bu sözü işlədirlər. Hərə öz istədiyi fikri işlədir, başa düşürsünüzmü – onlar öz istədiklərini, biz öz istədiyimizi.



## ERMƏNİSTAN PREZİDENTİ İLƏ KEÇİRİLMİŞ TƏKBƏTƏK GÖRÜŞDƏN SONRA BƏYANAT

*Cenevrə, Le-Seji iqamətgahı*
*22 avqust 1999-cu il*

– Hörmətli mətbuat nümayəndələri!

Bu gün burada Ermənistan Respublikası prezidentinin və Azərbaycan Respublikası prezidentinin görüşü oldu.

Bu bizim ikinci təkbətək görüşümüzdür. Bir ay əvvəl olmuş görüş də, bu görüş də burada, Cenevrədə keçirilmişdir.

Hər şeydən əvvəl, İsveçrənin, Cenevrənin hakimiyyət orqanlarına təşəkkür etmək istərdim. Ona görə ki, onlar bizə görüşmək və qarşılıqlı münasibətlərimizə aid olan məsələləri müzakirə etmək imkanı vermişlər. Burada bu baxımdan hər şey gözəldir və hesab edirəm ki, gələcəkdə də belə görüşlərə zərurət olarsa, bundan ötrü başqa şəhər axtarmaq lazım deyildir.

Biz Ermənistanla Azərbaycan arasında münaqişənin – Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə nizama salınmasına aid bir çox məsələləri müzakirə etdik. Hesab edirəm ki, bir ay əvvəlki görüş də, bu görüş, keçirdiyimiz söhbətlər, apardığımız danışıqlar da faydalıdır və bizə münaqişənin dincliklə nizama salınmasının real yollarının axtarışı ilə daha yaxşı məşğul olmağa imkan verir.

Prezident Robert Koçaryanla biz həm Azərbaycanın maraqları, həm də Ermənistanın maraqları barədə çox açıq danışdıq. Lakin mənə xoşdur ki, hər ikimiz belə bir eyni fikirdə olduq ki, biz məsələnin dincliklə nizama salınmasının qarşılıqlı maraqlara cavab verən yollarını axtarıb tapmalıyıq.

Bununla əlaqədar biz görüş zamanı həmin məsələyə toxunduq və bu gün demək istəyirəm ki, Azərbaycan atəşkəs rejiminin qorunub saxlanması, hər hansı pozuntulara yol verilməməsi, münaqişə, sülh yolu ilə qəti olaraq nizama salınan vaxtadək bu rejimin saxlanması mövqeyində əvvəlkitək möhkəm dayanmışdır.

Praktiki baxımdan razılığa gəldik ki, biz Azərbaycan Respublikasının və Ermənistan Respublikasının müdafiə nazirlərinə belə bir göstəriş verək ki, onlar görüşüb atəşkəs rejiminin möhkəmləndirilməsi üçün

konkret tədbirlər müəyyənləşdirsinlər. Bunu çox böyük bir nailiyyət kimi qeyd edirəm ki, heç bir xarici ölkənin iştirakı olmadan, sülhyaratma qüvvələrinin hər hansı müdaxiləsi olmadan biz beş ildən artıqdır münaqişə vəziyyətində olsaq da, atəşkəs rejimi vəziyyətindəyik və onu qoruyub saxlayırıq.

Bununla yanaşı, atəşkəs xəttində atışmalar, həm bu, həm də digər tərəfdən itkilər olur. Bu bizi narahat edir. Ona görə də biz atəşkəs rejimini möhkəmləndirməyi və bu məqsədlə elə etməyi zəruri bilirik ki, atışmalar olmasın, itkilər olmasın.

O ki qaldı nizamasalma probleminə, zənnimcə, biz belə bir yekdil fikirdəyik ki, qarşılıqlı kompromislərə – hər iki ölkənin milli maraqlarına uyğun olan kompromislərə getməliyik. Görünür, dialoqumuzu və danışıqlar prosesimizi, hər halda gücləndirmək üçün biz son bir neçə ayda əslində zəifləmiş olan bu danışıqlar prosesinə yenidən başlamalıyıq.

Biz bu məsələ ilə əlaqədar xarici işlər nazirlərinə müvafiq göstərişlər verdik. Buna görə də ümidvaram ki, bizim şəxsi görüşlərimizi və keçirdiyimiz söhbətləri nəzərə alaraq danışıqlar prosesinin yenidən başlanması münaqişənin sülh yolu ilə nizama salınmasına nail olmaq sahəsində bütün işi gücləndirə bilər.

Azərbaycan şübhə etmir ki, münaqişəni nizama salmaq, özü də sülh yolu ilə nizama salmaq lazımdır. Hər şeydən görürəm ki, buna Ermənistanın da şübhəsi yoxdur. Ancaq hər halda, biz bu mürəkkəb məsələdə gərək ən düzgün qərarlar axtarıb tapaq. Azərbaycan məsələnin sülh yolu ilə nizama salınmasını istəyir və biz dincliklə nizamasalmaya nail olmaq üçün hər şey edəcəyik.

Əgər bütövlükdə Qafqazda sülh bərqərar edilsə, xüsusən də Ermənistanla Azərbaycan arasındakı münaqişə nizama salınsa, onda ölkələrimiz qarşısında, ümumən Qafqazda böyük perspektiv açılar. Biz bunu dərk edirik və bunu əsas tutaraq müvafiq tədbirlər görürük və görəcəyik. Diqqətinizə görə sağ olun.



## RUSİYANIN XARİCİ İŞLƏR NAZİRİ İLƏ KEÇİRİLMİŞ GÖRÜŞDƏN SONRA MƏTBUAT ÜÇÜN BƏYANAT

*Bakı, Prezident Sarayı*
*2 sentyabr 1999-cu il*

– Hörmətli mətbuat nümayəndələri!

Bilirsiniz ki, bu gün Rusiya Federasiyasının xarici işlər naziri cənab İvanov İqor Sergeyeviç Azərbaycana səfərə gəlibdir. Biz çox ətraflı söhbət, danışıqlar aparmışıq.

Əslinə qalsa, bu danışıqlar səhərdən xarici işlər nazirliyində başlanmışdı. Azərbaycanın baş naziri ilə görüş olmuşdur. Bizim görüşümüz uzun sürdü.

İndi sizin yanınıza gəlmişik. Siz onsuz da bizim danışıqlarımızın əsas hissəsində iştirak edibsiniz, amma yenə də nəticələr haqqında ümumi məlumat vermək istəyirik.

Söhbətlərin və danışıqların gedişində və sonda belə bir yekdil fikir ifadə olundu ki, Rusiya ilə Azərbaycan arasında münasibətlər bütün sahələrdə – siyasi, iqtisadi, humanitar, elmi, mədəni, insani sahələrdə inkişaf edib dərinləşməlidir. Əslinə qalsa, bu indiyədək edilmişdir. Bununla yanaşı, bəlkə də hər şey mümkün olmamışdır. Bu da təbiidir, çünki hər şey dərhal hasil olmur.

Bu gün biz bir sıra konkret məsələləri müzakirə etdik, elə məsələlər ki, onların barəsində nəticələr əldə edə bilərik və bu nəticələr Rusiya ilə Azərbaycan arasında münasibətlərin daha sürətli inkişafını, şübhəsiz təmin edəcəkdir.

Rusiya Federasiyası ilə Azərbaycan arasında münasibətlər dostluq münasibətləridir və belə də olacaqdır. Hansısa məsələlər, hansısa ziddiyyətlər, hansısa ayrı-ayrı məqamlar Azərbaycanda mövcud olan və Rusiya ilə münasibətlərin möhkəmlənməsinə və inkişafına yönəldilmiş strateji xətti heç də poza bilməz.

Bu gün biz Ermənistanla Azərbaycan arasında münaqişə, Dağlıq Qarabağ münaqişəsi problemini çox ətraflı müzakirə etdik. Siz bizim söhbətimizdə oldunuz, orada deyilmiş sözləri təkrar etməyə lüzum

yoxdur. Başlıcası ondan ibarətdir ki, Ermənistanla Azərbaycan arasında münaqişənin dincliklə nizama salınması üzrə Minsk qrupunun həmsədri kimi, Rusiya bu gün bəyan etdi ki, o, münaqişənin nizama salınması məsələsi ilə son vaxtlardakına nisbətən indi daha fəal məşğul olacaqdır. Yəqin ki, biz yaxın vaxtlarda Minsk qrupundan – təbii ki, Rusiya, Amerika Birləşmiş Ştatları və Fransadan birlikdə – müəyyən yeni təkliflər ala biləcəyik, yəni danışıqlar prosesimizi fəallaşdıra biləcəyik. Son vaxtlar olmuş durğunluğun öz səbəbləri və müəyyən dərəcədə obyektiv səbəbləri var.

İndi Azərbaycanda biz bütün imkanlardan istifadə edərək danışıqlar prosesini fəallaşdırmaq mövqeyində möhkəm dayanmışıq. Əlbəttə ki, Minsk qrupu, Minsk qrupunun həmsədrləri – Rusiya, Amerika Birləşmiş Ştatları və Fransa başlıca vasitə olaraq qalırlar.

Biz regional məsələləri, Şimali Qafqazda, Cənubi Qafqazda, yaxın rayonlarda vəziyyəti də müzakirə etdik. Bu məsələlərdə bizim aramızda fikir ayrılığı yoxdur, biz bütün bu problemlərə eyni cür yanaşırıq və həmin münasibət ondan ibarətdir ki, Qafqazda sülhə, sabitliyə nail olmaq lazımdır, Cənubi Qafqazda tam və etibarlı sülhə nail olmaq lazımdır. Azərbaycanda biz bunu istəyirik. Rusiya da bəyan edir – zənnimcə, əvvəllər də bəyan edirdi ki, bu, Rusiya üçün də çox zəruridir.



## BİNƏ HAVA LİMANINDA JURNALİSTLƏRİN SUALLARINA CAVAB

*9 sentyabr 1999-cu il*

**S u a l :** Cənab Prezident, Baltik-Qara dəniz əməkdaşlığı çərçivəsində Azərbaycan Respublikasının perspektivləri barədə nə deyə bilərsiniz?

**C a v a b :** Bunun perspektivləri haqqında qısaca demək olmaz. Ancaq əsas onu demək olar ki, biz Qara dəniz hövzəsi ölkələri ilə artıq bir neçə ildir əməkdaşlıq edirik. İndi də sabah Yaltada Baltik ölkələri ilə Qara dəniz hövzəsi ölkələri arasındakı əməkdaşlığa həsr olunmuş belə bir konfrans keçiriləcəkdir. Amma onun məqsədi həm iqtisadi əməkdaşlıqdır, həm də Avropa inteqrasiyasına doğru ayırıcı xətlərsiz irəliləməkdir, yəni Avropa bir olmalıdır. Avropanın bir olması, yeni müstəqillik əldə etmiş ölkələrin, o cümlədən Şərqi Avropa dövlətlərinin Avropa ilə bütün sahələrdə daha da sıx inteqrasiya edilməsi üçün – əlbəttə, birinci növbədə iqtisadi cəhətdən – bu konfrans çox vacibdir. Ona görə də mən bu beynəlxalq konfransa dəvət almışam və oraya gedirəm.

**S u a l :** Cənab Prezident, gözləmək olarmı ki, Siz orada Robert Koçaryanla yenə də ikitərəfli danışıqlar aparacaqsınız?

**C a v a b :** İstəyirsiniz ki, danışım? Amma bəzileriniz deyirsiniz ki, Heydər Əliyev gizli danışıqlar aparır. İndi də sən məndən soruşursan ki, danışıqlar aparacağam, yoxsa yox?

Bir çox ölkələrin prezidentləri, o cümlədən Ermənistanın prezidenti də orada olacaqdır. Şübhəsiz ki, belə bir şəraitdə onunla görüşməmək olmaz.

**S u a l :** Cənab Prezident, Robert Koçaryanla ikitərəfli növbəti görüş keçirilməsi planlaşdırılırmı?

**C a v a b :** Oğlum, mən bu suala cavab verdim və dedim ki, çox ölkələrin prezidentləri orada olacaqlar. Belə hallarda adətən biz bir-birimizlə mümkün qədər görüşürük. Bəzi prezidentlərlə mənim də görüşmək istəyim vardır, onların da mənimlə görüşmək istəyi vardır. Bu sırada yəqin ki, Robert Koçaryanla da görüşəcəyəm.

Çox sağ olun. Salamat qalın.

## BALTİK-QARA DƏNİZ SAMMİTİNDƏN VƏTƏNƏ QAYIDARKƏN BİNƏ HAVA LİMANINDA JURNALİSTLƏRİN SUALLARINA CAVAB

*11 sentyabr 1999-cu il*

**S u a l :** Cənab Prezident, Yaltada keçirilən beynəlxalq konfransın işini və Azərbaycan Respublikası nümayəndə heyətinin orada iştirakını necə qiymətləndirirsiniz?

**C a v a b :** Mən güman edirəm ki, Yalta konfransı haqqında sonra televiziyada geniş məlumat verəcəyəm. Bu çox böyük əhəmiyyətə malik olan beynəlxalq konfransdır. İki kəlmə ilə demək olar ki, 1945-ci ildə böyük dövlətlər Avropanı nüfuz dairəsinə bölüblər və ondan sonra da «soyuq müharibə» başlayıbdır. Onun da nəticələri Avropa üçün, xüsusən Şərqi Avropa üçün çox ağır, çətin və bəzən də faciəli olubdur. İndi isə bizim Yaltadakı konfransımız demək olar ki, 1945-ci ildəki Yaltanın nəticələrini dəfn etdi.

Yeni Avropanın birləşməsi, Avropa inteqrasiyası və xüsusən o vaxt Avropa dəyərlərindən ayrı düşmüş ölkələrin indi Avropa ilə birlikdə olması prosesi, şübhəsiz ki, başlanıbdır və çoxdan da başlanıbdır. Ancaq bu konfransda bu fikir çox gözəl əks olundu və deyə bilərəm ki, konfransın əsas mənası bundan ibarətdir. Baltik, Şərqi Avropa ölkələri, Qara dəniz hövzəsi ölkələri hamısı birlikdə eyni fikirdə oldular və bəyanat qəbul etdilər, gələcək üçün böyük yollar açdılar.

**S u a l :** Cənab Prezident, Robert Koçaryanla görüşünüz haqqında hansı məlumatı verə bilərsiniz?

**C a v a b :** Görüşdük, danışdıq. Yenə də danışdıq ki, məsələni sülh yolu ilə necə həll edək.

**S u a l :** Cənab Prezident, Yaltada ikitərəfli və çoxtərəfli görüşlərinizdə Siz regional təhlükəsizlik baxımından Dağıstandakı vəziyyəti müzakirə etdinizmi?

**C a v a b :** Yox. O məsələ müzakirə olunmurdu. Çünki məsələ ora o qədər də aid deyildir. Həmin məsələni yəqin ki, başqa yerdə müzakirə etmək lazımdır. Sağ olun.



## TÜRKİYƏNİN «SAMANYOLU» TELEVİZİYASININ MÜXBİRİ İLƏ MÜSAHİBƏ

*Naxçıvan*
*14 oktyabr 1999-cu il*

**S u a l :** Cənab Prezident, Naxçıvan Muxtar Respublikasının 75-ci ildönümü bayramınızı təbrik edirik. Dörd gündür ki, Naxçıvanda çox coşğun hava mövcuddur. Siz 1993-cü ildə Bakıya qayıtdıqdan sonra ikinci dəfədir ki, Naxçıvana gəlirsiniz, Naxçıvandakı dəyişiklikləri Siz də gördünüz. Naxçıvanda keçirilən bayram tədbirlərini və müsbət dəyişiklikləri necə qiymətləndirirsiniz?

**C a v a b :** Təşəkkür edirəm. Mən əvvəlcə Sizin bu televiziyanızdan istifadə edərək Türkiyə Cümhuriyyətinin bütün vətəndaşlarına, türk xalqına öz salamımı, sayqılarımı, sevgimi, məhəbbətimi bildirirəm. Çox məmnunam ki, biz Naxçıvan Muxtar Respublikasının 75-ci ildönümü münasibətilə bu bayram mərasimlərini qardaş Türkiyə ilə bərabər keçiririk. Mən xüsusən sizin televiziyanın – «Samanyolu» televiziyasının da bu sahədə xidmətlərini yüksək qiymətləndirirəm.

Bəli, mən 1993-cü ilə qədər Naxçıvanda işləmişdim. 1993-cü ilin iyun ayında Azərbaycanda yaranmış gərgin vəziyyətə görə, vətəndaş müharibəsi başlandığı və Azərbaycanın artıq dağıldığı bir zamanda xalq tərəfindən və o vaxtkı hakimiyyət tərəfindən xahiş etdilər, Bakıya getdim. Mən o vaxtdan Azərbaycana rəhbərlik edirəm.

Naxçıvan Azərbaycanın ayrılmaz bir hissəsidir, Muxtar Respublikadır. Naxçıvanın xüsusiyyəti ondan ibarətdir ki, vaxtilə Azərbaycana qarşı ədalətsizlik edilib və Zəngəzur diyarının Ermənistana verilməsi ilə əlaqədar Naxçıvan Azərbaycanın əsas torpağından ərazi nöqteyi-nəzərdən ayrı düşübdür. Ona görə də burada muxtariyyət dövründə yaşayış o qədər də asan olmayıbdır. Ancaq Naxçıvanın muxtariyyətinin olması ərazi cəhətdən ayrı düşmüş Naxçıvanın inkişaf etməsinin əsas şərtlərindən biridir.

Naxçıvanın muxtariyyət statusu alması da çox ağır, gərgin bir dövrdə, yəni gərgin mübarizələr nəticəsində olmuşdur. Bu mübarizələrdə Türkiyə Cümhuriyyətinin və böyük Mustafa Kamal Atatürkün də böyük rolu olmuşdur. Xüsusən 1921-ci ildə Türkiyə, Azərbaycan, Rusiya, Er-

mənistan və Gürcüstan tərəfindən imzalanmış Qars müqaviləsi Naxçıvanın statusunun müəyyən edilməsinə çox böyük yardım göstərmişdir.

Təbiidir ki, bütün bunlara görə də indi Naxçıvan Muxtar Respublikasının 75-ci ildönümündə türk xalqı, Türkiyə Cümhuriyyəti belə yaxından, bizimlə bərabər iştirak edir. Bu təntənəli mərasimi daha da zənginləşdirən, ona daha da böyük ruh verən Türkiyə Cümhuriyyətinin prezidenti, Azərbaycan xalqının böyük dostu, mənim əziz dostum, qardaşım Süleyman Dəmirəlin göndərdiyi təbrik məktubudur.

Siz müşahidə etdiniz ki, təntənəli mərasimin keçirildiyi salonda olan insanlar bu məktubu, mesajı nə qədər böyük sevinclə, hərarətlə qarşıladılar və ayağa qalxaraq onu alqışladılar. Türkiyənin böyük nümayəndə heyətinin – dövlət və hökumət nümayəndələrinin, o cümlədən nazirlərin, millət vəkillərinin, qonşu vilayətlərin valilərinin də bu mərasimdə iştirak etməsi göstərdi ki, biz bayramı bir yerdə keçirdik. Yenə də deyirəm, bu sevindiricidir, ancaq təəccüblü də deyil, belə də olmalıdır. Bu təbiidir, çünki Türkiyə ilə Azərbaycan arasında olan dostluq, qardaşlıq əlaqələri bunu tələb edir, belə olmalıdır.

Bu mərasim sırasında çox sevindirici hal bir də odur ki, vaxtilə, 1992-ci ildə mən Naxçıvanda işləyərkən, Türkiyənin hökuməti, dövləti ilə əlaqələr qurarkən, xüsusən Türkiyənin o vaxtkı baş naziri, indiki prezidenti Süleyman Dəmirəlin dəvəti ilə bir neçə dəfə Ankaraya gedib Naxçıvanın problemlərini həll edərkən və Türkiyədən gələn nümayəndələrlə burada görüşərkən Türkiyə tərəfindən bir məscidin, camenin tikilməsini də rica etmişdim. O vaxt buna razılıq verdilər, yer seçdik, layihəsinə baxdıq və sonra onun inşasına başladılar. Çox məmnunam ki, gözəl bir məscid, came tikildi. Biz Türkiyədən gələn qonaqlarla, o cümlədən hörmətli diyanət işləri naziri ilə bu məscidin, camenin açılması mərasimini keçirdik.

Məni çox sevindirdi ki, Azərbaycan üçün, xüsusən Azərbaycanın Naxçıvan bölgəsi üçün adı çox əziz olan Kazım Qarabəkir Paşanın qızı da Naxçıvanı ziyarət etdi. O bu mərasimdə iştirak etdi. Bu cameyə Türkiyə xalqının qəhrəmanı, böyük Mustafa Kamal Atatürkün silahdaşlarından biri Kazım Qarabəkir Paşanın adı verildi.

Görürsünüz, biz sizinlə birgə qısa bir müddətdə Türkiyə-Azərbaycan dostluğunu, qardaşlığını göstərən, nümayiş etdirən və bir daha təsdiq edən nə qədər hadisələrin iştirakçısı və şahidi olmuşuq. Şübhəsiz ki, mən bütün bunlara görə də sevinirəm və çox məmnunam.



**M ü x b i r :** Siz buradakı bütün çıxışlarınızda demisiniz ki, Türkiyə ilə Azərbaycan əbədi olaraq qardaşdır və qardaş olaraq da qalacaqlar.

**H e y d ə r Ə l i y e v :** Bəli.

**S u a l :** Burada ən önəmli hadisələrdən biri də Robert Koçaryanla sərhəddə keçirdiyiniz görüş idi. Qarabağ məsələsini uluslararası, beynəlxalq təşkilatın artıq həll edə bilməyəcəyi, ikitərəfli görüşlərin başlanmasının vacibliyi barədə yeni bir test irəli sürdünüz. Sizin səylərinizsayəsində bu görüşlər baş tutdu. Qarabağ probleminin həlli ilə bağlı ikitərəfli görüşlər necə olacaq və bu, beynəlxalq təşkilatları hansısa şəkildə üzərmi, sıxıntıya salarmı?

**C a v a b :** Yox, nə üzməz, nə də sıxıntıya salmaz. Uluslararası təşkilatlar, yəni ATƏT-in Minsk qrupu və Minsk qrupunun həmsədrləri – Rusiya, Amerika Birləşmiş Ştatları, Fransa bu işlərlə məşğul olurlar və məşğul olacaqlar. Onların vasitəçilik, yəni araçılıq fəaliyyəti indiyə qədər olub, indi də olmalıdır.

Mən sentyabr ayının əvvəlində Rusiyanın xarici işlər naziri İvanovla görüşərkən, sonra Amerika Birləşmiş Ştatları prezidentinin ATƏT-in Minsk qrupundakı xüsusi nümayəndəsi ilə də görüşərkən bəyan etdim, dedim ki, Minsk qrupu fəaliyyətdə olmalıdır, çalışmalıdır və bizə yeni təkliflər verməlidir. Çünki öncə verilmiş təklifdə, yəni təxminən bir il, yaxud 11 ay bundan əvvəl verilmiş təklifdə məsələni sülh yolu ilə həll etmək üçün bir «Ortaq dövlət» prinsipi meydana atılmışdı. Biz bunu qəbul etməmişdik, bu gün də qəbul etmirik. Çünki «Ortaq dövlət» prinsipini qəbul etmək Dağlıq Qarabağa müstəqillik vermək deməkdir. Sadəcə, bunu üstüörtülü edirlər. Bu bir az adamaldatmaya bənzəyir. Guya ki, Azərbaycan Dağlıq Qarabağa status verir və Azərbaycanın torpaq bölünməzliyi, yəni ərazi bütövlüyü təmin olunur, amma eyni zamanda Azərbaycanın torpağında bir yeni erməni dövləti meydana çıxır.

Biz bunu qəbul etmədik. Amma keçmişdə də təkliflər olmuşdu, biz bu təkliflərin demək olar ki, əksəriyyətini qəbul etmişdik. Yəni bu təklifləri Minsk qrupu vermişdi, ancaq Ermənistan onları qəbul etməmişdi. İndi ilk dəfədir ki, biz qəbul etmirik, Ermənistan qəbul edir. Minsk qrupunun həmsədrləri də bundan artıq təklif vermək istəmirlər. Bəzi yerlərdə də erməni lobbisinin təsiri ilə bizi günahlandırırlar ki, nə üçün biz bunu qəbul etmirik. Mən deyirəm ki, əcəba, bəs vaxtilə, 2-3 il bundan öncə, hətta 2 il bundan əvvəl Minsk qrupunun verdiyi təklifi biz qəbul edəndə, Ermənistan qəbul etməyəndə siz onları niyə suçlandır-

mırdınız, günahlandırmırdınız, tənqid etmirdiniz, indi bizi tənqid edirsiniz?

Ona görə də mən bu gün də bəyan edirəm ki, bu danışıqlar davam etməlidir. Bir də ona görə ki, bu danışıqlar, yəni Minsk qrupunun fəaliyyəti sürətləndirilməlidir. Çünki qarşıdakı ayda, noyabr ayının 18-19-da İstanbulda ATƏT-in Zirvə görüşü olacaqdır. Belə bir Zirvə görüşü 3 il bundan öncə, 1996-cı ilin dekabr ayında Portuqaliyada, Lissabonda olmuşdur. İndi yeni Zirvə görüşü olacaqdır və o, böyük bir hadisədir. Orada Minsk qrupu hesabat verməlidir ki, nə edib və biz Ermənistan-Azərbaycan , Qarabağ münaqişəsinin həll olunması üçün nə etdik. Ona görə də o vaxta qədər qalan günlərdə çox çalışmaq lazımdır. Mən bu gün bəyan edirəm ki, biz Minsk qrupundan yeni təklif gözləyirik. Mənim və Ermənisitan prezidentinin təkbətək görüşməsi heç də beynəlxalq təşkilatların fəaliyyətini dayandırmır və onları uzaqlaşdırmır. Əksinə, mən hesab edirəm ki, onlar da çalışmalıdır, biz də təkbətək görüşərkən bu məsələnin həll olunması üçün öz səylərimizi göstərməliyik.

Məhz buna görə də bu ilin aprel ayında Vaşinqtonda bizim ilk belə görüşümüz oldu. Sonra biz iki dəfə Cenevrədə, bir dəfə Yaltada görüşdük. Bu dəfə burada, Ermənistan-Azərbaycan sərhədində, Sədərək kəndi yaxınlığında görüşdük, danışdıq.

**S u a l** : Cənab Prezident, bu görüşdə bir irəliləyiş əldə edildimi?

**C a v a b** : Şübhəsiz ki, irəliləyiş alınır və mən hesab edirəm, bu görüşlərin faydası vardır. Bizim görüşlərimiz və müəyyən qədər irəliləyiş əldə olunması, ikinci tərəfdən də Minsk qrupunun sürətlə çalışması, ola bilər, ATƏT-in Zirvə görüşünə bizi dəyərli bir təkliflə gətirib çıxarsın.

**M ü x b i r** : ATƏT-in Zirvə görüşü bu münaqişənin sülh yolu ilə həll edilməsi üçün çox önəmli olacaqdır.

**H e y d ə r Ə l i y e v** : Bəli.

**S u a l** : İndi Türkiyədən Azərbaycana həm təhsil, həm də ticarət sahəsində iş görməyə xeyli adam gəlir. Azərbaycana dünyanın bir çox ölkələrindən də gələnlər çoxdur. Türkiyədən gələn iş adamları haqqında nələr düşünürsünüz və indən sonra gələnlərə nələri tövsiyə edirsiniz?

**C a v a b** : Türkiyədən gələn iş adamlarına Azərbaycanda yer çoxdur. Azərbaycanda indi ən çox iş görən Türkiyənin iş adamlarıdır. Ölkənizin böyük elçisi bir dəfə mənə dedi ki, indi Bakıda, Azərbaycanda iş görmək üçün gələn 5000 türk yaşayır. Təbiidir ki, mən istəyirəm onlar daha da çox yatırım qoysunlar. Onlar inşaatda, ticarətdə və başqa sahələrdə çalışırlar, bir neçə kiçik fabriklər yaradırlar. Ancaq bunlar azdır.



Mən dəvət edirəm ki, onlar Azərbaycana böyük yatırımlar qoysunlar. Məsələn, biz neft sahəsində Amerika və Avropanın bir çox ölkələri ilə, Qərb ölkələri ilə əməkdaşlığımızla Azərbaycana çox böyük yatırım gətirmişik. Yalnız bu müqavilələrdən Azərbaycana 3 milyard dollara yaxın yatırım gəlibdir. Bunların içərisində Türkiyənin də yeri vardır.

Mən 1994-cü ildə «Türk petrolları» şirkətini birinci müqaviləyə qatdım. O vaxta qədər layihədə Türkiyənin həmin müqavilədə 1,75 faiz yeri var idi. Amma müqavilə bağlanandan sonra mən Azərbaycanın hissəsindən 5 faiz Türkiyəyə verdim və onu 6,75 faiz etdim. Türkiyəyə «Şahdəniz» yatağı üzrə bağlanan müqavilədə 10 faiz, digər yataqlarda da 10 faiz yer vermişik.

Bilirsinizmi, beləliklə, mən Türkiyəni neft ölkəsi etdim. Bu önəmlidir. Amma başqa sahələrə də yatırım gətirmək lazımdır. Türkiyədə belə imkanlar var. Türkiyənin iş adamları dünyanın çox ölkələrinə yatırımlar qoyurlar. Amma onlar ən çox yatırımı Azərbaycana qoymalıdırlar. Çünki Türkiyəyə Azərbaycan qədər yaxın bir ölkə yoxdur.

**S u a l** : Bütün çıxışlarınızda bəhs etdiyiniz xüsusi bir nöqtə vardır. Zati-alinizin rəhbərliyi altında son 8-10 il ərzində Azərbaycanda demokratik, hüquqi dövlət quruculuğu sahəsində çox böyük işlər görülmüşdür. Siz demokratik və hüquqi dövlət quruculuğu yolunu necə görürsünüz?

**C a v a b** : Yox, biz 10 il deyil, 8 il bundan əvvəl öz müstəqilliyimizi bəyan etmişik. Amma sən bu 8 ilin 3 ilini çıx. Çünki onda dövlət qurmaq mümkün deyildi. O vaxt Vətəndaş müharibəsinin qarşısını almaq lazım idi.

Sizə məlum olduğu kimi, 1994-cü, 1995-ci illərdə dövlət çevrilişinə silahlı cəhdlərin qarşısını almaq lazım idi. Azərbaycanın cənubunda «Talış-Muğan Cümhuriyyəti» yaranmasının, bir neçə terror aktlarının qarşısı alınmalı idi.

Ona görə də biz 1995-ci ildən bu işləri daha da sürətlə apardıq. 1995-ci ilin noyabr ayında biz müstəqil Azərbaycanın ilk Konstitusiyasını, ana yasasını qəbul etdik. Bu Konstitusiyada Azərbaycanın demokratik, hüquqi, dünyəvi dövlət kimi inkişaf etmək yolunu müəyyən etdik. İndi bunu həyata keçiririk, dövlət quruculuğu gedir. Amma bu döv-

lət quruculuğu bir ayın, bir ilin işi deyildir. Bu böyük bir prosesdir. Biz bu prosesi aparırıq. Azərbaycanda demokratiya inkişaf edir, insan haqları qorunur, insan, mətbuat, söz, fikir, vicdan azadlığı – hamısı təmin olunubdur. Azərbaycan öz inkişaf yolunu belə seçib və belə də gedəcəkdir.

**M ü x b i r :** Cənab Prezident, Sizə çox təşəkkür edirəm. Yoruldunuz. Sağ olun.

**H e y d ə r Ə l i y e v :** Mən tamaşaçıları bir daha salamlayıram, onlara xoşbəxtlik, səadət arzulayıram və hər kəsə, hər bir türk qardaşıma uğurlar arzulayıram.

**M ü x b i r :** Sağ olun.



## AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEVİN VƏ POLŞA PREZİDENTİ ALEKSANDR KVASNEVSKİNİN BİRGƏ MƏTBUAT KONFRANSI

*Bakı, Prezident Sarayı*
*27 oktyabr 1999-cu il*

**Dövlət başçıları jurnalistlərin suallarına cavab verməzdən əvvəl bəyanatlar verdilər.**

### AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEVİN BƏYANATI

– Zati-aliləri Polşa prezidenti, cənab prezident Aleksandr Kvasnevski!

Polşa nümayəndə heyətinin hörmətli üzvləri! Xanımlar və cənablar!

Bu gün Polşa prezidentinin Azərbaycana rəsmi səfəri başlanmışdır. Bu, Polşa prezidentinin ölkəmizə ilk rəsmi səfəridir.

Ötən saatlar ərzində biz böyük iş görə bildik. Prezidentlər arasında təkbətək görüş oldu, bu görüş zamanı biz Polşa ilə Azərbaycan arasında dövlətlərarası münasibətlərə, beynəlxalq həyatın problemlərinə, Cənubi Qafqaz regionunda problemlərə, ölkələrimiz arasında münasibətlərin inkişaf perspektivlərinə aid bir çox məsələlər barəsində çox açıq, səmimi fikir mübadiləsi apardıq. Ermənistanla Azərbaycan arasında münaqişə, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı məsələlərə, bu problemin dincliklə nizama salınması yollarına xüsusi diqqət yetirildi.

Deməliyəm ki, bizim şəxsi görüşümüz və söhbətimiz dostluq ruhunda, qarşılıqlı hörmət, qarşılıqlı etimad şəraitində keçdi.

Nümayəndə heyətlərinin görüşü olmuşdur. Biz həm Polşa, həm də Azərbaycan nümayəndə heyətlərinin üzvlərini dinlədik. Zənnimcə, buradakı jurnalistlərin hamısı həmin görüşdə olmuşdur və ona görə də bunun üzərində xüsusi dayanmağa lüzum yoxdur.

Biz nümayəndə heyətlərimizin danışıqlarına yekun vurduq və belə bir yekdil fikirdə olduq ki, xüsusən 1997-ci ilin avqustunda Azərbaycan prezidentinin Polşaya səfərindən sonra Polşa ilə Azərbaycan arasında dostluq və əməkdaşlıq müvəffəqiyyətlə inkişaf edir. Həmin səfər zamanı münasibətlərimizin müqavilə-hüquqi əsasını yaradan bir çox mü-

hüm dövlətlərarası sənədlər imzalanmışdı. Biz münasibətlərimizin inkişaf etdirilməsinin zəruriliyi barədə razılığa gəldik və bundan ötrü böyük potensial var.

Polşa prezidentinin nümayəndə heyətində Polşa biznesmenlərinin böyük bir qrupunun olmasını mən böyük məmnunluqla qarşıladım. Sabah xüsusi forum keçiriləcəkdir. Forumda Polşa və Azərbaycan biznesmenləri fikir mübadiləsi aparmaq və iqtisadi əməkdaşlığı daha da genişləndirmək məsələlərini müzakirə etmək imkanı qazanacaqlar.

İndi imzalanmış sənədlərin çox böyük əhəmiyyəti var. Əvvəla, neft sənayesi sahəsində əməkdaşlıq haqqında niyyət protokolu bu sahədə gələcək inkişafımız üçün yaxşı təməldir. Polşa prezidentinin və Azərbaycan prezidentinin imzaladıqları birgə bəyannamədə çox mühüm müddəalar var və hesab edirəm ki, Polşa ilə Azərbaycan arasında hərtərəfli əməkdaşlığın daha da inkişaf etdirilməsi və dostluğun möhkəmləndirilməsi üçün mühüm əsasdır.

Mən olduqca şadam ki, hörmətli prezident Aleksandr Kvasnevski dəvətimi qəbul etmiş və bu gün Azərbaycana öz rəsmi səfərinə başlamışdır. Cənab prezidentin Azərbaycana gəlişindən sonrakı vaxtda görülmüş işdən olduqca məmnunam və əminəm ki, ölkələrimiz arasında dostluğun və hərtərəfli əməkdaşlığın inkişafı üçün qarşıdakı günlərdə daha çox işlər görüləcəkdir.

Bir daha nəzərə çarpdırmaq istəyirəm ki, Polşa prezidenti cənab Aleksandr Kvasnevskinin rəsmi səfəri Azərbaycanın həyatında, Polşa-Azərbaycan münasibətlərində mühüm hadisədir. Mən bunu yüksək qiymətləndirir və hesab edirəm ki, bundan sonra biz daha iti sürətlə irəliləyəcəyik.

Cənab prezident, sözü Sizə verirəm.

## POLŞA PREZİDENTİ ALEKSANDR KVASNEVSKİNİN BƏYANATI

– Hörmətli cənab Prezident! Hörmətli xanımlar və cənablar!

Polşa Respublikası prezidentinin Azərbaycana ilk rəsmi səfərini etmək şərəfi ilə əlaqədar sevincimi bildirmək istəyirəm. Buna görə öz xanımımın adından da təşəkkür etmək istəyirəm.

Azərbaycan Prezidentinin Polşaya 1997-ci ildəki rəsmi səfəri və o vaxt imzalanmış sənədlər, habelə mənim indiki səfərim ölkələrimiz



arasında qarşılıqlı münasibətlərin yeni keyfiyyətindən xəbər verir. Ölkələrimiz arasında siyasi əməkdaşlıq, müxtəlif məsələlərə dair məsləhətləşmələr inkişaf edir. Biz ticarət dövriyyəsinin artdığını qeyd edirik, mədəni və elmi əməkdaşlığın müxtəlif formaları müşahidə olunur. Lakin şübhəsiz, cənab Prezident Heydər Əliyevin dediyi kimi, biz hələ çox böyük iş görməliyik. Əminəm ki, qarşıdakı görüşlər, iqtisadi forum əməkdaşlığımıza yeni təkan verəcək, onun sürətini artıracaqdır.

Ümidvaram ki, prezidentlərin qarşılıqlı səfərləri, sizin şərhləriniz bizə böyük informasiya verir. Xalqlarımız bugünkü Azərbaycanın polyaklar üçün, bugünkü müasir Polşanın isə azərbaycanlılar üçün nə demək olduğunu öyrənə bilərlər.

Beynəlxalq səviyyədə də qarşılıqlı fəaliyyətimizi vurğulamaq istəyirəm. Polşa və Azərbaycan «Sülh naminə tərəfdaşlıq» proqramı çərçivəsində, habelə Şimali Atlantika Komissiyası çərçivəsində əməkdaşlıq edirlər. NATO-nun üzvü kimi, biz Azərbaycanın bu Avropa strukturları ilə əməkdaşlıq barəsindəki tədbirlərini hər vasitə ilə dəstəkləmək istəyirik.

Bu gün biz təklif etdik ki – yeri gəlmişkən, bu, Azərbaycan tərəfindən bəyənildi və qəbul olundu – regionda təhlükəsizlik məsələsinə dair müntəzəm siyasi məsləhətləşmələr aparılsın. Biz Sizi gələn ilin yazında Varşavaya bu cür məsləhət görüşünə dəvət edirik.

ATƏT çərçivəsində əməkdaşlığımızdan da danışmaq istəyirəm. Polşa Dağlıq Qarabağda münaqişənin dinclikIə nizama salınması yollarının axtarışına nəinki maraq, həm də bu sahədə fəallıq göstərir. Ümidvarıq ki, qarşıdakı İstanbul Zirvə görüşü bu münaqişənin dinclik-lə nizama salınması yollarının axtarışına yeni təkan, yeni impuls verəcəkdir. Artıq dediyim kimi, biz bu münaqişənin dinclikIə nizama salınması yollarının axtarışında bundan sonra da fəallıq göstərəcəyik. Bu gün biz Prezident Heydər Əliyevlə həmin məsələ barəsində çox söhbət etdik.

Regional miqyasda əməkdaşlığımızı nəzərə çarpdırmaq istəyirəm. Ötən il Polşa İpək Yolunun, yeni regionlarımızı birləşdirə biləcək nəqliyyat marşrutlarının bərpası məsələsinə dair Bakıda keçirilən konfransda iştirak etmişdir. Prezident Heydər Əliyevlə birlikdə biz sentyabrda Yalta konfransında iştirak etmişik. Bu konfrans Baltik dənizi və Qara dəniz hövzələri, Cənubi Qafqaz və Mərkəzi Avropa dövlətlərinin regional əməkdaşlığı məsələləri ilə məşğul olmuşdur.

Biz Xəzər dənizindəki, o cümlədən Azərbaycandakı iri neft yataqları haqqında, bu neftin Qərbi Avropa ölkələrinə nəqlindən də danışdıq. Biz neftin Xəzər bölgəsindən Avropaya nəqli, çatdırılması ilə bağlı iri layihələrin həyata keçirilməsində iştirak etməyə hazırıq.

Cənab Prezident, icazə verin, Azərbaycan torpağında olduğumuz ilk dəqiqələrdən qarşılaşdığımız qonaqpərvərliyə, səmimiyyətə və mehribanlığa görə bir daha təşəkkür edim. Prezident Heydər Əliyevlə artıq səkkizinci görüşümün, nəhayət, Bakıda keçirilməsi ilə əlaqədar sevincimi ifadə etmək istəyirəm. Biz Parisdə, Lissabonda, Vaşinqtonda, hətta Varşavada görüşmüşük. Çox şadam ki, bugün və sabah Bakıdayam. Sizə təşəkkür edirəm.

* * *

**Azərbaycan Prezidenti Heydər Əliyev və Polşa Prezidenti Aleksandr Kvasnevski jurnalistlərin suallarına cavab verdilər.**

**S u a l :** Qarşılıqlı maraq doğuran beynəlxalq problemlər, o cümlədən Rusiyanın Şimali Qafqaz bölgəsində vəziyyət görüş zamanı müzakirə edildimi?

**H e y d ə r Ə l i y e v :** Biz bu məsələ barəsində ətraflı fikir mübadiləsi apardıq.

**A l e k s a n d r K v a s n e v s k i :** Bəli, bu barədə danışdıq. Mən öz narahatlığımı ifadə etdim, amma qərar Rusiyanın əlində, Moskvadadır.

**H e y d ə r Ə l i y e v :** Əlavə edim ki, Rusiya ilə həmsərhəd olan və Şimali Qafqaz respublikaları ilə çox sıx əlaqələrə malik bir ölkə kimi Azərbaycan çox istəyir ki, Şimali Qafqazda sülh və sakitlik tez bir zamanda bərqərar edilsin.

**S u a l :** Sual Polşa Respublikasının prezidenti cənab Aleksandr Kvasnevskiyədir. İpək Yolunun bərpasına dair layihədə Polşanın iştirakı necədir və Siz bu istiqamətdə nə kimi addımlar atmısınız?

**A l e k s a n d r K v a s n e v s k i :** Əvvəla, biz ötənilki konfransda iştirak etmişik və bu layihədə marağımız var. İndi əlaqədar nazirliklər və baş idarələr onun üzərində işləyirlər. Əlbəttə, istərdik ki, Avropanın bir hissəsi bütün Avropa nəqliyyat infrastrukturuna qoşulsun – bu infrastruktur neft və qazın nəqli üçün boru kəmərləridir. Əlbəttə, siyasi iradə var, amma bu, iri maliyyə tədbiridir, ondan ötrü çox böyük məbləğdə vəsait gərəkdir və bir korporasiya bunun öhdəsindən gələ bilməz. Beynəlxalq təşkilatlar və neçə-neçə dövlət bu məsələyə qoşulmalıdır.



**S u a l :** Sual hər iki prezidentədir. NATO-da Azərbaycanın maraqlarını təmsil etməyə hazır olmaq barədə Polşa nümayəndə heyətinin bugünkü bəyanatını və eyni zamanda bu strukturla «Sülh naminə tərəfdaşlıq» proqramı çərçivəsində əməkdaşlığı genişləndirmək niyyəti haqqında Azərbaycanın daim verdiyi bəyanatları nəzərə alaraq hazırda Gürcüstan kimi, Azərbaycan da ümid bəsləyə bilərmi ki, yaxın beş il ərzində o, həmin təşkilatın üzvü ola biləcəkdir?

**H e y d ə r Ə l i y e v :** Mən dedim və təkrar edirəm ki, biz Şimali Atlantika İttifaqı Şurası ilə, «Sülh naminə tərəfdaşlıq» proqramının həyata keçirilməsində artıq fəal əməkdaşlıq edirik. Vaşinqtonda NATO-nun 50 illiyi bayram edilərkən Azərbaycan NATO-nun genişlənməsini dəstəklədiyini bildirdi. Biz Polşanın NATO-nun üzvü olmasını alqışlamışıq və bu gün bir daha alqışlayırıq. Bu gün razılaşdığımız kimi, Polşa və Azərbaycanın xarici işlər nazirlikləri xətti ilə aparılacaq siyasi məsləhətləşmələr digər məsələlərlə yanaşı, bu məsələləri də əhatə edəcəkdir. Gələcəkdə nə olacağını isə həyat göstərəcəkdir.

**A l e k s a n d r K v a s n e v s k i :** Sözümü cənab Prezident Heydər Əliyevin fikrini tamamladığı məqamdan başlaya bilərəm. İnteqrasiya proseslərinin nə dərəcədə sürətlə baş verəcəyini həyat göstərəcəkdir. Bizim heç birimiz peyğəmbər deyilik və konkret tarix haqqında danışmaq çətindir. Lakin NATO-nun üzvü kimi, Polşa adı çəkilən strukturlarda – Şimali Atlantika İttifaqı Şurasında və «Sülh naminə tərəfdaşlıq» proqramında Azərbaycanın iştirak etməsində olduqca maraqlıdır. Demək istəyirəm ki, Vaşinqton görüşü zamanı Prezident Heydər Əliyevin çıxışında verdiyi dəstəyin böyük əhəmiyyəti və böyük təsiri oldu. Prezident Klintonla aparılan danışıqlarda həm Gürcüstan tərəfindən, həm də Azərbaycan tərəfindən dəstək verilməsinin NATO-nun genişləndirilməsi məsələsinə mühüm təsiri oldu.

Bizim vəzifəmiz ilk növbədə mövcud strukturlar çərçivəsində yaxşı əməkdaşlıq etməkdən ibarətdir. Bu baxımdan, hər iki tərəf – Azərbaycan və Polşa yekdil, həmrəydir və buna hazırdır.

**S u a l :** Sual cənab Kvasnevskiyədir. Cənab Prezident, Polşa beş dövlətin ittifaqı olan GUÖAM-a nə dərəcədə maraq göstərir? Perspektivdə Polşanın bu ittifaqa qoşulması mümkündürmü? Əgər mümkündürsə, nə zaman? Mümkün olarsa, Azərbaycan Prezidentindən də bu suala öz münasibətini bildirməyi xahiş edərdim.

**Aleksandr Kvasnevski:** Bayaq dediyim kimi, biz bu təşkilatla əməkdaşlıq edirik, lakin üzvlük məsələsi hələlik nəzərdən keçirilmir. Bundan ötrü vaxt gərəkdir, təcrübə toplamaq lazımdır. İndi məhz belə bir vaxtdır.

**Heydər Əliyev:** Mən prezident Aleksandr Kvasnevskinin verdiyi cavabla tamamilə razıyam. Sağ olun.



## TÜRKİYƏ PREZİDENTİNİN DƏVƏTİLƏ QISAMÜDDƏTLİ İŞGÜZAR SƏFƏRƏ YOLA DÜŞMƏZDƏN ƏVVƏL BİNƏ HAVA LİMANINDA JURNALİSTLƏRİN SUALLARINA CAVAB

*31 oktyabr 1999-cu il*

– Səfərin məqsədi elan olunubdur. Mən Türkiyə Cümhuriyyətinin prezidenti, hörmətli dostum, qardaşım Süleyman Dəmirəlin dəvəti ilə həmin ölkəyə iki günlük səfərə gedirəm. Mən bu gün İstanbula, sabah səhər tezdən isə zəlzələ olan yerə – Kocaeli diyarına gedəcəyəm. Orada zəlzələdən zərər çəkmiş yerlərlə tanış olacağam.

Kocaeli Universitetində dərslər indiyə qədər açılmayıbdır, sabah orada dərslər başlanacaqdır. Həmin diyarda Süleyman Dəmirəl adına Mədəniyyət Mərkəzi vardır. Biz o mərkəzdə və Kocaeli Universitetində hörmətli Süleyman Dəmirəl ilə bərabər olacağıq. Sonra onunla birgə Ankaraya uçacağıq. Mənim arzum, istəyim o idi ki, noyabrın 1-də Ankaraya gedib Türkiyə Cümhuriyyətinin prezidenti, Azərbaycan xalqının böyük dostu hörmətli Süleyman Dəmirəlin doğum gününü – 75 illiyini təbrik edim. Ancaq onlar proqramı dəyişiblər. Sabah gərək ki, saat 17.30-da Çankaya köşkündə mənə Beynəlxalq Atatürk Sülh mükafatının təqdim edilməsi mərasimi olacaqdır. Ondan sonra isə mən dostum, qardaşım Süleyman Dəmirəli təbrik edəcəyəm. Bunun üçün ayrıca mərasim olacaqdır.

Məqsədimiz bundan ibarətdir. Bundan sonra isə zəlzələdən zərər çəkmiş insanların müalicə olunduğu xəstəxanaya gedəcəyəm, onlara baş çəkəcəyəm, onları ziyarət edəcəyəm. Ayın 2-də isə Bakıya dönəcəyəm. Məqsədimiz bundan ibarətdir.

**Sual:** Cənab Prezident, Sizcə, Ermənistanda yaranmış vəziyyət sülh danışıqlarına mənfi təsir edə bilərmi?

**Cavab:** Bilirsiniz, həm Ermənistan prezidenti Robert Koçaryan, həm Rusiyanın xarici işlər naziri İqor İvanov, həm də Amerika Birləşmiş Ştatları Dövlət katibinin müavini Stroub Talbott artıq neçə dəfə bəyanat veriblər, xüsusən Ermənistan bəyanat veribdir ki, birincisi, Ermənistanda baş vermiş faciəli hadisələrin, terror hadisələrinin Ermənistan-

Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həll olunması, tənzimlənməsi ilə heç bir əlaqəsi yoxdur. İkincisi, onlar eyni zamanda bəyanat veriblər ki, bu hadisə sülh prosesinə mane olmayacaqdır. Siz bunları bilirsiniz, amma mən də sizə deyirəm.

**Sual:** ATƏT-in İstanbul Zirvə görüşündə bir sülh müqaviləsi imzalana bilərmi?

**Cavab:** ATƏT-in İstanbul Zirvə görüşündə çox müqavilələr imzalanacaq, ola bilər, bu müqavilə də imzalansın.

**Sual:** Cənab Prezident, müxalifət qüvvələri son istefaları özlərinə xeyir olan variantda təqdim edirlər. Bu məsələyə münasibətiniz necədir?

**Cavab:** Onlar hər şeyi tərsinə təqdim edirlər. Sağ olun.



## ATATÜRK ADINA HAVA LİMANININ ŞƏRƏF SALONUNDA JURNALİSTLƏRİN SUALLARINA CAVAB

*İstanbul*
*31 oktyabr 1999-cu il*

**Azərbaycan Prezidentinin İstanbulda qarşılanması mərasimini işıqlandırmaq üçün hava limanına yerli və xarici ölkələrin mətbuat nümayəndələri, televiziya kanallarının əməkdaşları toplaşmışdılar.**

**Sual:** Cənab Prezident, Ermənistanda son terror hadisəsinin baş verməsi bir təsadüfdürmü və Siz bu barədə nə düşünürsünüz?

**Cavab:** Bilirsiniz, bu olaylar artıq hamıya məlumdur. Sizə də məlumdur. Ermənistanda olan olaylar terrordur. Biz hər zaman terrorun əleyhinə olmuşuq, bu gün də terrorun əleyhinəyik. Ancaq bu terror Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həll edilməsinə mane olmayacaqdır. Çünki Ermənistanın cümhur başqanı və digər şəxslər belə bəyanat veriblər ki, birincisi, bu terrorun Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə heç bir əlaqəsi yoxdur. İkincisi, bu onların daxili işidir. Üçüncüsü, bu məsələ, bu olay bizim sülh danışıqlarımıza mane olmayacaqdır və Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həll edilməsi prosesinə maneçilik törətməyəcəkdir. Daha kimin nə sözü var?

**Sual:** Ermənistandakı həmin hadisədən sonra bu ölkənin hökumətində bir böhran əmələ gəlmişdir. Ermənistan prezidentinin istefaya getməsi barədə də iddia var. Əgər Ermənistan hökumətində rəhbərlik dəyişirsə, bu, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə aradan qaldırılmasına mənfi təsir göstərə bilərmi və bu sahədə problem olacaqmı?

**Cavab:** Bilirsiniz, insanlar dəyişməyiblər. İndi kimsə terrordan vəfat edibdir, kimsə yaşayır. Ancaq həyat davam edir. Ona görə də hesab edirəm ki, – mən dedim, bir də bəyan edirəm – həm Ermənistan rəsmilərinin, o cümlədən cümhur başqanının, həm Amerika Birləşmiş

Ştatlarının, o cümlədən dövlət katibinin yardımçısı Talbottun – hansı ki, indi Yerevandadır – həm də Rusiyanın xarici işlər naziri İvanovun verdiyi bəyanatlardan belə görünür ki, bu, Ermənistanın daxili məsələsidir, Ermənistan-Azərbaycan münaqişəsinə heç bir aidiyyəti yoxdur və bizim sülh prosesinə heç bir maneçilik törətməyəcəkdir.

Amma sülh prosesi uzun bir prosesdir. Neçə ildir, 1994-cü ilin may ayından atəşkəs yaratmışıq. O vaxtdan da danışıqlar aparırıq. Amma hələ bir nəticəyə gəlməmişik. Danışıqlar bundan sonra da gedəcəkdir. Amma sülh barədə danışıqlar gedəcəkdir. Yəni biz, Azərbaycan bu münaqişəni sülh yolu ilə həll etmək istəyirik.

**S u a l :** Cənab Prezident, noyabrın 18-19-da ATƏT-in İstanbulda keçiriləcək Zirvə toplantısında Dağlıq Qarabağla bağlı bir anlaşmanın imzalanması mümkündürmü və Siz belə bir sazişin imzalanmasını gözləyirsinizmi? Eyni zamanda bu Zirvə görüşü zamanı Bakı-Ceyhan neft kəməri barədə də sazişin imzalanması gözlənilirmi?

**C a v a b :** Birincisi, o günlərə qədər yaşayaq, onda hər şey məlum olacaqdır. İkincisi, mən təəccüb edirəm ki, artıq Bakı-Ceyhan barəsində mənə sual vermirlər. Çünki bir neçə il bundan öncə mən Türkiyəyə – ya İstanbula, ya Ankaraya gələndə mənə hamı sual verirdi ki, Bakı-Ceyhan nə oldu? Allaha şükür olsun ki, indi siz də rahatsınız, biz də rahatıq ki, Bakı-Ceyhan boru kəməri məsələsi çözülüb. Keçən il, düz bir il bundan öncə Ankarada biz böyük bir bəyannamə imzaladıq. Türkiyə, Azərbaycan, Gürcüstan, Qazaxıstan, Özbəkistan cümhur başqanları və Amerika Birləşmiş Ştatlarının enerji naziri Riçardson bunu imzaladılar. Amma bu bir il müddətində Bakı-Ceyhan boru xətti ilə əlaqədar çox gərgin iş gedibdir. Bəyannaməni imzaladıq, ancaq bu boru xəttinə aidiyyəti olan şirkətlər – hansı ki, konsorsiuma daxildirlər və Xəzərin Azərbaycan sektorunun bir hissəsində, «Azəri», «Çıraq», «Günəşli» yataqlarında neft istehsalı ilə məşğuldurlar, neft çıxarmaqla məşğuldurlar – onlar bu boru xəttinin dəyəri haqqında, qiyməti haqqında fərqli fikirdə idilər.

Ona görə də siz onu bilməlisiniz – o vaxtdan bir ildir ki, Azərbaycan bu barədə çalışır. Azərbaycanın nümayəndə heyəti daim – ya Ankarada, ya İstanbulda, ya Nyu-Yorkda, ya Vaşinqtonda bu məsələnin çözülməsi ilə məşğul olur. Bu gün də bizim nümayəndə heyətimiz Ankaradadır və Türkiyə ilə bərabər bu işləri görürük. Biz istəyirik ki, hazır olsun.



Nəhayət, bir çətin, ağır məsələ var idi. Bu ondan ibarət idi ki, konsorsiuma daxil olan xarici ölkələrin şirkətləri tələb edirdilər ki, əgər Bakı-Ceyhan boru xəttinin qiyməti, dəyəri 2,4 milyard dollardan artıq olsa, onda bu dəyəri, vəsaiti Türkiyə ödəməlidir. Çünki onlar deyirdilər ki, bu, 3 milyard, yaxud 3,7 milyard dollar olacaqdır. Türkiyə isə hesabladı və dedi ki, 2,4 milyard olacaqdır. Biz də belə fikirdəyik ki, bu belə olacaqdır. Ancaq sonra belə bir məsələ meydana çıxdı ki, əgər belə olmasa, yəni şirkətlər dedilər ki, əgər tikintinin dəyəri 2,4 milyard dollardan artıq olsa, onda bunu Türkiyə ödəməlidir. Bir neçə ay danışıqlar bundan ötrü getdi.

Sonra hörmətli dostum, cümhur başqanı, əziz Süleyman Dəmirəl oktyabrın 18-də Azərbaycanda olarkən biz bu məsələni bir də müzakirə etdik. Məndən rica etdilər bu şirkətlərlə danışım ki, onlar Gürcüstan və Azərbaycan torpaqlarından keçən boru xəttinin riskini öz üzərinə götürsünlər. Türkiyə isə Türkiyə ərazisindən keçən boru xəttinin riskini – yəni 2,4 milyarddan artıq olanı öz üzərinə götürəcəkdir. Biz də bu işi apardıq və şirkətlər də artıq buna razılıq veriblər. Ona görə də Bakı-Ceyhan məsələsi həll olunubdur və güman edirəm ki, ATƏT-in Zirvə toplantısı zamanı burada, İstanbulda bunu tamam imzalayacağıq.

**S u a l :** Cənab Prezident, bu boru xəttinin, yəni Bakı-Ceyhanın yanından Türkmənistan və Azərbaycan qazı üçün paralel bir kəmərin çəkilməsi barədə nə deyə bilərsiniz?

**C a v a b :** O da indi bir mövzudur. Danışıqlar gedir. Sağ olun.

## KOCAELİNİN «KÖSƏKÖY» HAVA LİMANINDA JURNALİSTLƏR QARŞISINDA BƏYANAT

*Türkiyə*
*1 noyabr 1999-cu il*

– Əziz dostum, qardaşım, cümhur başqanı Süleyman Dəmirəl! Hörmətli mətbuat nümayəndələri!

Mən dünən İstanbula enmişəm, bu gün də buraya, Kocaeliyə gəlmişəm. Mənim dostum, qardaşım, cümhur başqanı Süleyman Dəmirəlin dəvəti ilə. Amma buraya gəlməyimin iki səbəbi vardır.

Birinci, mənim arzum, istəyim olubdur ki, bu gün qardaşım, əziz dostum, Azərbaycan xalqının böyük dostu, hörmətli Süleyman Dəmirəlin doğum günü –75 yaşı tamam olan gün onun yanında olum, onu təbrik edim, onunla bərabər olum və sevincimi bölüşdürüm. Eyni zamanda mən bu gəlişimlə istədim ki, zəlzələ bölgəsində olum və burada görülən işlərlə tanış olum, bugünkü vəziyyətlə tanış olum. Hörmətli dostum, əziz qardaşım Süleyman Dəmirəl başqa bir mərasim də yapıbdır, orada da iştirak edəcəyik.

Ona görə də mən indi burada, Kocaelidəyəm, zəlzələnin ən şiddətli, ən dəhşətli yerindəyəm. Biz Azərbaycan olaraq, Azərbaycan xalqı, Azərbaycan dövləti zəlzələ olan Türkiyəyə əlimizdən gələn yardımı etdik, Türkiyəyə nə mümkün idi – bunu etdik və mən məmnunam ki, bizim bu yardımımızdan Türkiyə cəmiyyəti, xalqı, vətəndaşları və əziz dostum, cümhur başqanı Süleyman Dəmirəl məmnun olmuşlar.

Xüsusən indi mən hərbi vertolyotla gələrkən Neftayırma zavoduna baxırdım. Çox böyük zavoddur. Azərbaycanda da bunlardan vardır. Zavodda yanğının söndürülməsində Azərbaycan vətəndaşlarının, yanğınsöndürənlərin xidmətlərini o vaxt sizin mətbuat da, hamı da yüksək qiymətləndirdi. Mən məmnunam ki, bunu da gördüm. İndi buraya gəlmişik. Bizim burada bir neçə ziyarətimiz vardır. Ancaq bu gün mənim üçün çox əziz gündür. Bu gün mənim dostum, qardaşım, Azərbaycan xalqının böyük dostu, Türkiyə Cümhuriyyətinin prezidenti, cümhur başqanı, türk dünyasının lideri, türk xalqının ən böyük oğlu, təkcə Türkiyə xalqının yox, bütün türk xalqlarının ən böyük oğlu Süleyman Dəmirəlin 75 yaşı tamam olur. Mən çox şadam, çox sevinc içindəyəm ki, bu gün buradayam, Türkiyə torpağındayam, qardaşım, dostum Süleyman Dəmirəlin yanındayam və onu şəxsən təbrik etmək imkanına malik olmuşam.



Əziz qardaşım, Siz burada mətbuat nümayəndələrinə bir neçə dəyərli söz dediniz, onlara tövsiyələrinizi verdiniz. Hansı yaşa gələcəksiniz – yaşayın. Allah hamıya Sizin kimi xoşbəxt həyat bəxş etsin! Allah hamıya Sizin kimi çoxmənalı həyat bəxş etsin! Çünki 75 il yaşamaq, bəlkə də 100 il yaşamaq, təkcə yaşamaq elə bir böyük iş deyildir. İnsan doğulandan onun nə qədər yaşayacağı alnında yazılır. Ancaq bu 75 ilin 50 ilini siyasətdə, dövlət işində, xalqa xidmətdə keçirən Süleyman Dəmirəl xoşbəxt bir insandır. Ona görə də mən arzu edirəm ki, hamı Sizin kimi belə bir xoşbəxt həyat yaşamış olsun.

Mən bu gün Sizə uzun-uzun ömür arzulayıram. Siz bu yaşınızda çox gümrah, çox güclü, çox zəkalı və çox təcrübəli bir insansınız. Ona görə də Siz Türkiyəyə lazımsınız, türk xalqlarına lazımsınız, Azərbaycana lazımsınız. Hesab edirəm ki, bizim bu sözlərimizi eşidən cənab Allah Sizi qoruyacaq, saxlayacaq və Siz bundan sonra gələcəkdə də bütün xalqlarımıza çox böyük faydalar verəcəksiniz. Mən Sizi təbrik edirəm, Sizə cansağlığı arzu edirəm. Bütün Türkiyə xalqına sevgi, məhəbbətimi bildirirəm.

## TÜRKİYƏYƏ QISAMÜDDƏTLİ İŞGÜZAR SƏFƏRDƏN VƏTƏNƏ QAYIDARKƏN BİNƏ HAVA LİMANINDA JURNALİSTLƏRİN SUALLARINA CAVAB

*2 noyabr 1999-cu il*

**S u a l** : Cənab Prezident, keçirdiyiniz görüşlər haqqında nə deyə bilərsiniz?

**C a v a b** : O qədər görüşlər keçirmişəm ki, onlar haqqında burada danışa bilərəm. Bunları televiziyada da görmüsünüz.

Mən Türkiyənin prezidenti cənab Süleyman Dəmirəl ilə birlikdə dünən səhər ertədən Kocaelidə, İzmitdə, yəni baş vermiş zəlzələnin mərkəzində olmuşam, orada zəlzələdən zərər çəkmiş insanlarla görüşmüşəm, onlar üçün tikilmiş müvəqqəti evlərə baxmışam, çadırlarda insanları, onların vəziyyətini, dağıntıları görmüşəm. Orada çox görüşlər olubdur.

Kocaeli Universiteti zəlzələ ilə əlaqədar dərs ilinə indiyə qədər başlamamışdı. Dünən onların dərs ilinə başlaması günü idi. Biz – prezident Süleyman Dəmirəl ilə mən orada iştirak etdik, ikimiz də nitq söylədik.

İki iş adamı orada zəlzələdən zərərçəkənlər üçün müvəqqəti evlər tikiblər. Amma onlar elə daimi evlər kimi də ola bilər. Biz bu evlərə də baxdıq. İctimaiyyətlə, yəni orada yaşayan insanlarla da görüşlər keçirdik.

Əlbəttə, faciə böyükdür, fəlakətdir, xeyli insan həyatını qeyb edib, vəfat edib, həlak olubdur, yaralılar çoxdur. Ancaq insanların ruhu yüksəkdir. Türkiyə Cümhuriyyəti, milləti, hökuməti, xalqı çox böyük işlər görürlər ki, zəlzələnin vurduğu zərərləri aradan götürsünlər, uçqunların yerlərində yeni evlər tiksinlər. Onların konkret proqramları var. Məsələn, bu ayın axırına qədər bir proqram var – gərək çox adamlar hazır, yaxud müvəqqəti evlərə köçsünlər. Müvəqqəti evlər nə deməkdir? Müvəqqəti evin içində üç-dörd otaq, hamamı, suyu, televiziyası, radiosu var. Mən gedib bunları gördüm.Həmin işləri bu ayın içərisində görəcəklər. Onların qarşıdakı iki-üç ay üçün də proqramları vardır. Çalışırlar ki, qışın soyuqlarına qədər çox işləri həyata keçirsinlər.



Bütün bu görüşlər mənim üçün çox əhəmiyyətli oldu. Onlar da çox sevindilər. Mən onlara yardım aparmışdım. Təxminən 100 min dollar dəyərində olan bu yardımı – gələn yardımların yığılması üçün orada onların mərkəzi vardır – təhvil verdim. Hamı bunu bilir.

Sonra mən Ankaraya getdim. Orada Beynəlxalq Atatürk Sülh mükafatının mənə təqdim edilməsi mərasimi oldu. Deyirlər ki, mərasim Türkiyənin 4-5 televiziya kanalı ilə yayılaraq buraya da çatıbdır. Siz bunları bilirsiniz.

Bu gün səhər isə mən terror nəticəsində yaralanmış, xəsarət almış, xəstəxanada müalicə olunan əsgərlərlə gedib görüşdüm. Onların əksəriyyəti Gülhanə Hərbi Tibb Xəstəxanasında müalicə olunur. Mən gedib onlarla görüşdüm. Orada təxminən 61 belə xəstə var idi. Mən deməli olar ki, hamısı ilə görüşdüm, onlara ürək-dirək verdim, hədiyyələr verdim. Onların əksəriyyəti 20, 22, 23, 24, 25 yaşlı gənc insanlardır. Ancaq bu əsgərlərin hamısında böyük ruh yüksəkliyi var. Vətən uğrunda döyüşmüş bu insanların birinin ayağı, birinin qolu yoxdur, birinin gözü görmür. Başqa ağır xəsarət alanlar da var. Amma onların ruhları çox yüksəkdir. Çünki bunu vətən yolunda ediblər, qazi olublar və buna görə də fəxr edirlər. Mən onları təbrik edərək xəstəxanadan çıxandan sonra Azərbaycana gəlməyə dəvət etdim ki, gəlib ölkəmizdə dincəlsinlər.

Prezident Süleyman Dəmirəl ilə bizim həm Kocaelidə, həm də Ankarada çox danışıqlarımız olubdur. Biz daim bir yerdə olmuşuq. Bilirsiniz ki, dünən onun 75 yaşı tamam olurdu. Mən onu orada təbrik etdim. Ondan sonra o məni öz ailəsinə dəvət etdi. Onun çoxlu qohumları, qardaşları, böyük bir ailəsi var. Mən və oğlum İlham şəhərdən kənarda onun ailəsi ilə bir yerdə olduq. Biz onun ad gününü bir yerdə, ailə şəraitində – yəni orada başqa bir tədbir keçirilmir – qeyd etdik.

Bu gün mənim Türkiyənin baş naziri Bülənd Ecevitlə görüşüm, danışığım oldu. Yəni mən onların hamısı ilə dünən axşam görüşmüşəm. Çünki mükafat veriləndən sonra orada bir kokteyl var idi. Burada insanlar bir saat ayaqüstə bir-biri ilə görüşüb danışırlar. Ancaq bu gün xüsusi görüşümüz oldu. Biz çox ətraflı danışdıq, yaxşı söhbətlər etdik.

Türkiyə-Azərbaycan dostluğu yüksəklərdədir və bundan sonra da yüksək olacaqdır. Mənim də, onların da istəyi, arzusu budur. Beynəlxalq Atatürk Sülh mükafatı da elə buna görə Azərbaycana, onun

müstəqil dövlətinə, xalqımıza və sülh yaratdığıma görə mənə verilibdir.

Atatürkün sözləri var: «Yurdda sülh, cahanda sülh». Mən ilk dəfə 1993-cü ildə yurdda, yəni ölkənin içində sülh yaratmağa çalışdım və bunu yaratdım. Cahanda sülhün isə bir hissəsi Qafqazdadır. Ermənistanla Azərbaycan arasında gedən müharibəni, qan tökülməsini dayandırdım. Bunu Türkiyədə çox yüksək qiymətləndirirlər. Ona görə də məni belə bir yüksək mükafata layiq görüblər.

**S u a l :** Cənab Prezident, ATƏT-in İstanbul sammitinə qədər Robert Koçaryanla görüşünüz planlaşdırılırmı?

**C a v a b :** Bilmirəm.

**S u a l :** Cənab Prezident, Bülənd Ecevitlə görüşünüzdə onun bu yaxınlarda Moskvaya olacaq səfərini dəyərləndirdinizmi?

**C a v a b :** Bilirəm, gedəcək, biz bu barədə söhbət etdik. Sağ olun.



## TÜRKİYƏYƏ ATƏT-in NÖVBƏTİ ZİRVƏ GÖRÜŞÜNƏ YOLA DÜŞMƏZDƏN ƏVVƏL BİNƏ HAVA LİMANINDA YERLİ VƏ XARİCİ JURNALİSTLƏRİN SUALLARINA CAVAB

*17 noyabr 1999-cu il*

**S u a l :** Cənab Prezident, qardaş Türkiyə Respublikasına növbəti səfəriniz barədə nə deyə bilərsiniz?

**C a v a b :** Mən qardaş Türkiyə Respublikasına həmişə çox böyük həvəslə və məhəbbət hissi ilə gedirəm. Çünki bu bizim üçün dost ölkədir. Mən çox məmnunam ki, XX əsrin sonunda ATƏT-in Zirvə görüşü məhz Türkiyədə – İstanbulda keçirilir. Bu, Türk dünyası üçün və Türkiyə Cümhuriyyəti üçün, eləcə də bizim üçün çox böyük, əlamətdar hadisədir. Xalqımız, türk xalqı bununla fəxr edə bilər.

Məqsədimiz aydındır – Zirvə görüşündə iştirak etməkdir. Bilirsiniz ki, ATƏT-in Zirvə görüşü dünya beynəlxalq təşkilatlarının ən mötəbər görüşlərindən hesab olunur. Çünki ümumiyyətlə, ATƏT 25 il bundan öncə yarandıqdan indiyə qədər həqiqətən, dünyada həm sülhün, həm təhlükəsizliyin, həm də insan haqlarının qorunması, demokratiyanın inkişafı üçün çox böyük səylər qoyur və bu prinsiplərin həyata keçirilməsi üçün həddən artıq fəaliyyət göstərir.

Ona görə də Azərbaycanın müstəqil dövlət olaraq inkişaf etməsi, ümumiyyətlə, bu təşkilatda olması və Zirvə görüşündə iştirak etməsi – dünyanın ATƏT-ə daxil olan ölkələrinin dövlət başçıları, nümayəndə heyətləri ilə birlikdə iştirak etməsi, əlbəttə ki, bizim millətimiz üçün, Azərbaycan xalqı üçün çox əhəmiyyətlidir. Biz bununla fəxr edə bilərik, biz fəxr edə bilərik ki, ölkəmiz, millətimiz, dövlətimiz müstəqildir və biz müstəqil dövlət olaraq dünyanın böyük dövlətləri ilə bərabər hüquqda belə bir təşkilatdayıq və bu təşkilatın Zirvə görüşündə onlarla bərabər hüquqda iştirak edəcəyik. Məqsəd bundan ibarətdir.

Orada müzakirə olunacaq məsələlər məlumdur. Mən bu yaxınlarda bir qrup yazıçı və şairlə görüşümdə də bu barədə demişəm. Hər halda, ATƏT-in üçüncü Zirvə görüşüdür ki, mən Azərbaycanı təmsil edirəm. Birinci Zirvə görüşü 1994-cü ilin dekabr ayında Budapeştdə, ikincisi

1996-cı ilin dekabr ayında Lissabonda – Portuqaliyada olmuşdur. Nəhayət, indiki görüş İstanbuldadır. Çox məmnunam ki, Azərbaycan təmsil olunubdur. Azərbaycanın prezidenti kimi mən Azərbaycanı təmsil edəcəyəm və əvvəlki Zirvə görüşlərində olduğu kimi, Azərbaycanın milli mənafelərinə aid olan məsələlərin, şübhəsiz ki, həyata keçirilməsinə nail olacaq və nail olmağa çalışacağam. Azərbaycanın milli mənafeləri tamamilə qorunacaqdır.

**S u a l :** Cənab Prezident, Azərbaycan bu görüşdən nə gözləyir?

**C a v a b :** Hazırda bütün Avropa nə gözləyirsə, Azərbaycan da onu gözləyir. Çox şey gözləyir. Xartiya – Avropa regionunda sülhün və təhlükəsizliyin möhkəmləndirilməsi, demokratiyanın, Helsinki sazişinin digər prinsiplərinin inkişafı üçün bir çox vacib müddəaları əks etdirən siyasi bəyannamə qəbul olunacaqdır. Yəni, çox şey gözlənilir.

**S u a l :** Cənab Prezident, Bakı-Ceyhan boru kəməri haqqında anlaşma imzalanacaqmı?

**C a v a b :** Bakı-Ceyhan boru xətti ilə bağlı anlaşma üzərində bir ildir ki, çalışırıq. Bilirsiniz ki, beş ildir – 1994-cü ilin sentyabr ayından bəri Azərbaycan Bakı-Ceyhan boru xətti layihəsinin qəbul edilməsində aparıcı rol oynayıb, hegemonluq edibdir və buna nail olubdur. Bir il bundan öncə Ankarada bəyannamə imzalanandan sonra biz çox iş görmüşük. Bizim nümayəndə heyəti bu il ərzində demək olar ki, qısa fasilələrlə iki-üç aylarla Ankarada, İstanbulda Türkiyə ilə, Gürcüstanla, xüsusilə Türkiyə ilə birlikdə bu müqavilənin hazırlanması üçün çalışıbdır. Bu iş başa çatıb və müqavilə orada imzalanacaqdır.

**S u a l :** Transxəzər təbii qaz kəməri ilə bağlı hansısa çərçivə anlaşması gözlənilirmi?

**C a v a b :** O da imzalanacaqdır.

**S u a l :** Cənab Prezident, Siz orada Azərbaycanın adi silahlar kvotasının artırılması məsələsini qaldıracaqsınızmı?

**C a v a b :** Sən mənə qulaq asdın. Biz dörd ildir bu məsələni qaldırırıq. Ancaq buna nail ola bilmirik, çünki heç bir ölkənin kvotası qaldırılmır. Mən o vaxt ilk dəfə açıqladım və bir daha sizə deyirəm ki, Azərbaycanda olmuş hərc-mərclik, hakimiyyətsizlik, hakimiyyət uğrunda əsassız mübarizə Azərbaycanı belə bir faciəyə də düçar edibdir.

Bəli, 1992-ci ilin may ayında, Varşava paktı dağılandan sonra NATO ilə Rusiya arasında danışıqlar aparılan zaman, şübhəsiz ki, Rusiya başçılıq edərək MDB dövlətlərini Daşkəndə toplamışdı ki, Varşava paktında, o cümlədən Rusiyanın ərazisində olan silahların hansı ölkədə, hansı respublikada nə qədər saxlanması müəyyən edilsin.

Demək lazımdır ki, Azərbaycanın ekspertləri orada çox səmərəli fəaliyyət göstərmiş və yaxşı təkliflər hazırlamışdılar. Amma o vaxt Azərbaycanın dövlətçiliyi haqqında düşünən yox idi. Mütəllibov cinayət etdi, hakimiyyətdən getdi. Tərəfdarları bir-iki ay çalışdılar onu hakimiyyətə gətirsinlər. Bir yerə toplaşmış Xalq Cəbhəsi, Müsavat, başqaları xalqın o dövrdə Azərbaycana qarşı olan ədalətsizliyə, Sovet hakimiyyətinə, Kommunist Partiyasına qarşı qalxdığı bir zamanda bu fürsətdən istifadə edib hakimiyyəti ələ keçirməyə çalışdılar. Bu hakimiyyət mübarizəsindən də kim uddu, kim uduzdu? Yenə də Azərbaycan uduzdu! Birincisi, Azərbaycanda ictimai-siyasi vəziyyət pozuldu, dağıldı, Azərbaycan bərbad bir vəziyyətə düşdü. İkincisi də, belə bir məsələ həll olunduğu zaman Azərbaycandan Daşkəndə normal bir nümayəndə heyəti, düşünülmüş təkliflərlə silahlanmış nümayəndə heyəti getmədi.

Bilirsiniz ki, may ayının 7-də ermənilər Şuşanı işğal etdilər, xatirinizdədir. Azərbaycanda böhran başlanmışdı, çünki hakimiyyətsizlik idi. May ayının 14-də Mütəllibovun tərəfdarları onu bir daha hakimiyyətə gətirdilər. Bəli, may ayının 15-də camaat, xalq toplaşdı, onu hakimiyyətdən qovdu və düz elədi. Amma o vaxtlar xalqın fikri, məqsədi ilə hakimiyyət uğrunda mübarizə aparan və bu gün də o fikirlərindən hələ ki, daşınmayan insanlar hərəsi özü üçün düşünürdü. Millət haqqında, ölkəmiz, dövlət haqqında düşünən yox idi.

Ona görə də Daşkəndə kim gedib, kim getməyib – heç kəsə məlum deyildir. İki-üç il bundan öncə biz bu məsələni araşdıranda tapa bilmirdik ki, oraya kim gedib və müqaviləyə kim imza atıbdır. İmzaya baxırıq, heç kəs tanıya bilmir. Biri deyir ki, Rəhim Qazıyevin imzasıdır. Abbas Abbasov – o, indi bu adamlardan bizim yanımızda olandır – boynuna aldı ki, oraya gedibdir. Bəs imza kimindir? Deyir, mənimki deyildir. Bəs kiminkidir? Bəlkə Rəhim Qazıyevindir? Rəhim Qazıyevin imzası ilə tutuşdurdular, dedilər ki, yox, onun imzası deyildir. Nəhayət, tapdılar ki, o vaxtlar Nazirlər Soveti sədrinin müavini olub, Əzizbəyov – hamının yadından çıxmış bir adamdır, yəqin ki, müvəqqəti işləmiş adamdır – o, imza atıbdır.

Ən böyük əhəmiyyətli, dövləti əhəmiyyəti olan məsələni bu cür həll etməkmi olar? Belə nümayəndə heyəti ilə həll etməkmi olar? Ekspertlər indi də sağdır, onlar danışırlar ki, o vaxt təklif hazırlamışdılar ki,

Azərbaycanın ərazisi də, əhalisi də Cənubi Qafqazın o biri respublikalarından artıq olduğuna görə, bizim kvota da artıq olmalıdır: 400, 415, 420. Buna da razılıq alınmışdı. Amma Rəhim Qazıyev gedib Qraçovla, filanla danışırdı ki, onlar bunu hakimiyyətə gətirsinlər. Mütəllibov Moskvanın xüsusi xidmət orqanlarının əli ilə yenidən hakimiyyətə gələ bilmişdi. Xalq Cəbhəsi, Müsavat və başqa bu kimi təşkilatlar da birləşib hakimiyyəti əldə etmək istəyirdilər. Hərəsi öz mənafelərinə nail olmaq üçün millətin mənafeyini qurban verdilər.

O vaxtdan biz düşmüşük bu tələyə. Mən dedim, bir də sizə təkrar edirəm ki, dörd ildir bu barədə bizimlə danışıqlar aparırlar. Özü də Amerika Birləşmiş Ştatlarının yüksək nümayəndə heyətləri danışıqlar aparır. Üç il bundan qabaq, Lissabon Zirvə görüşü ərəfəsində gəldilər, burada danışıqlar apardıq. Nəhayət, Lissabonda mənə müraciət etdilər. Biz buna razılıq vermədik. Amma sonra gördük ki, kvotanı qaldırmaq mümkün deyildir. Lakin adi silahlar haqqında müqavilə də imzalanmalıdır. Çünki imzalanmasa, bu, ola bilər, bizim region üçün daha böyük təhlükədir.

Siz bilirsiniz, Rusiya indi iddia edir ki, yeni müqavilə əsasında ona Qafqazda bu silahları daha çox saxlamağa icazə verilsin, Qafqazda vəziyyət ağırdır. Demək, bu müqavilə imzalanmasa, Rusiya harada nə qədər istəyirsə, gətirib o qədər də silah saxlayacaqdır. Başa düşürsünüzmü? Vəziyyət belədir. Ona görə də biz məcbur olduq, razılıq verdik. Bizə kvotanı heç kəs artırmayacaqdır.

**Sual**: Cənab Prezident, İstanbulda GUÖAM çərçivəsində görüş keçiriləcəkmi?

**Cavab**: Ola bilər.

Daha nə sözünüz var? Bir belə adam yığışıbsınız, bir dənə əməlli sual verə bilmirsiniz. Siz narahat deyilsinizmi ki, orada bir şey imzalanacaqmı? Görürəm, hamınız sakit olmusunuz. Bəs niyə sakit oldunuz?

**Jurnalist**: Yazıçılarla görüşdə hər şeyi demisiniz.

**Heydər Əliyev**: Yazıçılarla görüşdə. Mən yazıçılarla görüşməsəydim?.. Bilirsiniz, sizin əksəriyyətiniz müxalifətin hay-küyünə uyursunuz. «Müsavat» da onların başçılarından biridir. Bəli, hər şeyə uyursunuz. Ona görə də bu hay-küyün təsiri altına düşürsünüz.

Amma hay-küy edən adamlar heç vaxt Azərbaycanın milli mənafelərini qoruyan olmayıblar, Azərbaycanın milli mənafeləri haqqında düşünən olmayıblar. Mən hamısının haqqında deyirəm. Onların hər biri



1988-1989-cu illərdə Azərbaycanda xalq öz hüquqlarını müdafiə etmək üçün qalxdığı zaman, sadəcə, çevik olublar, üzə çıxıblar. Məqsədləri isə o olub ki, hakimiyyəti ələ keçirsinlər.

Elə bu günlərdə Elçibəy hansısa qəzetdə yazmışdı ki, Primakovla danışanda Primakov dedi ki, nə istəyirsən? Mən dedim ki, seçkilər keçirin – çünki bilirdik ki, o vaxt seçkilər keçirilsə, biz çoxluğu götürəcəyik. Demək, hakimiyyət mübarizəsi aparılırdı. Yəni o vaxt Dağlıq Qarabağ məsələsinin, hamı birləşib Azərbaycana qarşı olan hücumun qarşısını almaq üçün yox, belə bir gərgin vəziyyətdə hakimiyyət mübarizəsi aparırdılar. Bunu özləri etiraf edirlər.

Bunlar budur və on ildir hərdənbir belə şeyləri ortaya atır, hay-küy salırlar. Siz də düşürsünüz bu hay-küyün təsiri altına. Mən sizə məsləhət görürəm ki, öz ağlınızla işləyin. Həmin o adamlar ki, indi hay-küy salırlar – onlar daim bir-birinə düşmən olublar, bir-biri ilə rəqabət aparıblar. Biri o birisinə deyir ki, sənin əlin qana batıb, o biri bu birisinə deyir ki, sənin əlin qana batıbdır. Biri o birisinə deyir ki, sən günahkarsan, o birisi deyir...

İndi hamısı birləşib, nə var-nə var, fürsət düşüb ki, yenə də özlərini bir az göstərsinlər. O adamlardan indi kimsə Türkiyəyə getmək, orada nümayiş keçirmək istəyir. Kimsə burada hay-küy salır. Mənim xatirimdədir, keçmişdə Azərbaycanda belə bir söz vardı: filankəsi Biləcəridən o tərəfə tanıyan yoxdur. Bu söz yadınızdadırmı? İndi də işlədirlər – Biləcəridən o tərəfə tanıyan yoxdur.

Mən də deyirəm ki, birincisi, bu adamların bir-birinə sevgisi, məhəbbəti əsl sevgi-məhəbbət deyildir. Elə dostluqdur ki, bu gün bunlar dostdurlar, sabah düşməndirlər. Bəzilərinin sevgisi-məhəbbəti də elə adamların sevgi-məhəbbətinə bənzəyir ki, bu gün bununladır, o birisi gün məhəbbətini o birinə bağlayır, dördüncü gün başqasına bağlayır. O adamlar bu qəbildən olan adamlardır.

İndi belələri gedib İstanbulda nümayiş keçirmək istəyir. Sən kimsən, səni tanıyan kimdir? Yaxud o birilərin hamısının səsi harada çıxıbdır? Altı ildir ki, biz dünyanın ən mötəbər kürsülərindən bu məsələlər haqqında fikirlər deyirik, Azərbaycanın mənafelərini müdafiə edirik, konkret təkliflər veririk, lazımi qərarların qəbul edilməsinə nail oluruq. Bunları isə nə Biləcəridən o tərəfə tanıyanlar var, nə də bunlarda bir sabitlik var. Məhəbbət sabitliyi də yoxdur, dostluq sabitliyi də yoxdur. İndi belə adamlar düşüblər ortaya. Məsləhət görmürəm ki, onların təsiri altına düşəsiniz. Sağ olun.

## TƏYYARƏDƏ JURNALİSTLƏRLƏ GÖRÜŞ

**Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev noyabrın 20-də İstanbuldan Bakıya qayıdarkən təyyarədə jurnalistlərlə görüşdü.**

Dövlətimizin başçısı Heydər Əliyev dedi:

– Mənə çatdırdılar ki, siz təyyarədə mənimlə görüşmək, sammit və ümumiyyətlə İstanbulda baş vermiş böyük beynəlxalq hadisələr haqqında qısa məlumat almaq istəyirsiniz.

Təbiidir ki, vaxt çox azdır, çox şey demək olmaz. Ancaq onu bildirmək istəyirəm ki, həqiqətən bu, bəşər tarixinə daxil olacaq bir hadisədir. Çünki XX əsrin sonunda bu qədər geniş əhəmiyyətli beynəlxalq toplantı, sammit keçirilir. Güman edirəm ki, XX əsrin sonuna qədər belə bir şey artıq olmayacaqdır.

Bunun ən böyük əhəmiyyəti ondan ibarətdir ki, bu, ATƏT-in sammitidir, Zirvə görüşüdür. Gördüyünüz kimi, oraya çox yüksək səviyyəli nümayəndə heyətləri – prezidentlər, baş nazirlər və bir çox beynəlxalq təşkilatların nümayəndələri gəlmişdilər.

Siz müzakirələri gördünüz. Amma nəticə bundan ibarətdir: birincisi, xartiya qəbul olundu. 1975-ci ildə Helsinkidə qəbul olunmuş sənədlərdən sonra 1990-cı ildə Paris xartiyası qəbul edilmişdir. Bu isə ATƏT-in 25 illik tarixində üçüncü belə sənəddir, İstanbul xartiyasıdır. Bu xartiyanın çox böyük mənası, əhəmiyyəti vardır. Yəni Avropada təhlükəsizliyin, sülhün, əmin-amanlığın təmin edilməsi üçün bu xartiyada çox lazımlı maddələr – indiki reallıq, yəni Paris xartiyasından sonra baş vermiş hadisələr və onlara olan münasibət əks olunubdur. Yenə də deyirəm, burada xartiyanın əsas məğzi olan məsələlər – ölkələrin ərazi bütövlüyünün, müstəqilliyinin qorunması, təhlükəsizliyinin təmin olunması, sülhün möhkəmləndirilməsi, insan haqlarının qorunması, demokratiyanın inkişaf etdirilməsi və başqa məsələlər öz əksini tapıbdır.

Ona görə də bu xartiya üzərində çox iş getdi. Biz də Azərbaycanın mənafelərini gələcəkdə təmin etmək üçün xartiyanın üzərində öz səylərimizi göstərdik və təkliflərimizi həyata keçirə bildik. Şübhəsiz ki, siz onu oxuyanda tapa bilməzsiniz ki, orada hansı cümlə kimə aiddir.



Amma biz bilirik ki, orada hansı cümlələr üzərində çalışmışıq və onların qəbul edilməsinə nail olmuşuq.

Mən ümumiyyətlə, bu xartiyadan çox məmnunam və hamı bundan məmnundur. Mən bunu ATƏT-in fəaliyyətinin böyük nailiyyəti kimi qiymətləndirirəm və onun Azərbaycan üçün də çox böyük əhəmiyyəti olduğunu bildirmək istəyirəm.

Bilirsiniz ki, ondan sonra siyasi bəyannamə qəbul olundu. Sammitin gedişində müzakirə edilən məsələlər bu sənəddə əksini tapıbdır. Orada ümumi məsələlər vardır. Amma konkret məsələlər Avropa qitəsinin ayrı-ayrı ölkələrindəki münaqişələrə – Bosniya və Herseqovina, Yuqoslaviya, Dnestryanı, Ermənistan-Azərbaycan, Gürcüstan və başqa münaqişələrə, onlara münasibətə aiddir. Hesab edirəm ki, orada Azərbaycan haqqında yazılmış maddə – 20-ci maddə bu günün reallığını əks etdirir və biz bundan məmnunuq.

Keçən sammitdə biz vuruşduq, çarpışdıq və konsensus olmadığına görə yekun sənədinə maddə düşmədi. Bunun nəticəsində biz ATƏT sədrinin bəyanatını aldıq. Amma biz istədiklərimizin hamısı orada öz əksini tapdı. Bu dəfəki sammitin bəyannaməsində isə maddə var. Hesab edirəm ki, reallığa görə biz bu maddəni qəbul edirik. Yəni bizim buna etirazımız yoxdur və həmin maddənin formalaşdırılması üzərində özümüz işləmişik.

İkinci ən böyük hadisə, Avropada adi silahlar haqqında qəbul olunmuş, artıq imzalanmış müqavilədir. Mən yazıçılarla, şairlərlə bu yaxınlarda keçirdiyim görüşdə bu barədə ilk dəfə danışmışdım. Əvvəllər heç vaxt mən bunu mətbuata verməmişdim. Ancaq bilirsiniz ki, 1990-cı ildə Varşava paktı ilə NATO arasında adi silahlar haqqında müqavilə qəbul edilmişdi, NATO-nun hansı ölkələrdə nə qədər adi silahlar saxlaması və Varşava paktının hansı ölkələrdə nə qədər silah saxlaması müəyyən olunmuşdu. Sovet İttifaqı, Varşava paktı dağıldı. Bilirsiniz ki, 1992-ci ildə bu məsələyə yenidən baxıldı. Rusiya başçılıq etdi. MDB ölkələrinin başçılarını 1992-ci il mayın 14-15-də Daşkənddə topladı. Keçmiş Sovetlər İttifaqına daxil olmuş ölkələrin orada kvotaları müəyyən edildi.

Mən demişəm, bir də təkrar edirəm: o vaxt Azərbaycanda Xalq Cəbhəsi, Müsavat və başqa təşkilatlar Mütəllibov hakimiyyəti ilə hakimiyyət uğrunda mübarizə apardı. Mütəllibov istefa verdi, bundan sonra tərəfdarları onu yenidən hakimiyyətə qaytarmağa çalışdılar və

birgünlük qaytardılar. Xalq ayağa qalxdı. Bundan istifadə edən Xalq Cəbhəsi, Müsavat və onlarla birlikdə olan başqa təşkilatlar burada boğuşan zaman, may ayında bu məsələlər həll edilirdi. Azərbaycan bizim ekspertlər tərəfindən əvvəlcədən hazırlanmış təklifləri – Cənubi Qafqazda Azərbaycanın kvotası Gürcüstanla, Ermənistanla bərabər ola bilməz – orada həyata keçirə bilmədi. Çünki oraya Rəhim Qazıyev getmişdi. O, həm Xalq Cəbhəsinin, həm də Mütəllibovun nümayəndəsi idi. Oraya gedənlərdən biri də Əzizbəyov idi. Əzizbəyov o vaxt Nazirlər Soveti sədrinin müavini idi, heç bir siyasi hüquqa, yəni siyasi biliyə malik olan adam deyildi. Oraya bir də Abbas Abbasov getmişdi. İndi o izah edir ki, o elə bunları müşayiət edirdi. Təəssüf ki, belə hallarda o, müşayiət etmək işləri ilə vaxtilə çox məşğul olubdur. Ancaq o vaxt Azərbaycana xəyanət edilibdir. Çünki Rəhim Qazıyev Qraçovla sövdələşmişdilər, Ermənistana, Azərbaycana, Gürcüstana eyni kvota müəyyən olunmuşdu – 220 tank, 220 BMP, nə bilim, nə qədər təyyarə, nə qədər top və filan.

Biz dörd ildir bunun qarşısını alırdıq. Bax, bu müqaviləni imzalamağa amerikalılar daha çox tərəfdar idilər. Çünki amerikalılar bunu yenidən imzalamadığı halda Rusiya nəzarətsizlikdən istifadə edərək istədiyi yerlərə silahları yayırdı. Amma biz müqaviləyə razılıq verməyə məcbur olduq və o imzalandı. Bizim kvotamız əvvəl təyin olunduğu kimi qaldı. Təəssüflər olsun ki, Ermənistanın da öz kvotası var, bundan əlavə, Rusiyanın orada təxminən 170 tankı, hərbi maşınları və sair vardır. Nəzarətdə olmayan bir region kimi, Dağlıq Qarabağda olan silahlar bu müqaviləyə düşmür.

Mən bunu elan etmişəm. Biz amerikalılara həmişə demişik ki, bunu uçota almaq lazımdır. Onlar deyirlər ki, onda ya gərək Dağlıq Qarabağ bu müqavilənin subyekti olduğuna imza atsın, yaxud da ki, sizin ərazidir – bu sizin üstünüzə yazıla bilər. Yaxud siz deyirsiniz, bu silahlar Ermənistanındır, onda siz etiraf edin ki, bu, Ermənistanındır, bunu Ermənistanın üzərinə yazaq. Biz çıxılmaz vəziyyətdə idik. Ona görə də biz artıq müqavimət göstərmədik, bu müqavilə də imzalandı. Bu, sammitin ilk müqaviləsi idi. Ancaq onun əsas nəticəsi, orada olan mühit, işgüzarlıq, hesab edirəm ki, XX əsrin sonunda dünyada gedən dəyişiklikləri əks etdirir.

Mən bu sammitdən çox məmnunam. Hesab edirəm ki, mənim 1994-cü ildə Budapeştdə, 1996-cı ildə Lissabonda iştirak etdiyim sammitlərə nisbətən bu öz məzmununa, qəbul olunan sənədlərə görə çox yüksək səviyyəli bir sammit idi. Qardaş Türkiyənin bu sammitin ev sahibi olması və bu sammitin İstanbul sammiti, orada qəbul edilən əsas sənədlərdən birinin İstanbul xartiyası adlanması və bu toplantının Türkiyədə keçirilməsi, şübhəsiz ki, bizim üçün iftixar hissidir. Türkiyə nəyə qadir olduğunu dünyaya bir daha göstərdi. Əvvəlki sammitlərdə siz də olmusunuz. Demək istəyirəm ki, burada sammitin işi üçün yaradılmış şərait hamısından yüksək idi. «Çırağan Sarayı» bunun üçün nə qədər uyğun bir yer idi.



Xatirimdədir, Lissabonda bizim üçün taxtadan ayrı-ayrı otaqlar ayırmışdılar, bu otaqda danışanı o birisi eşidirdi və gedib danışırdı. Ancaq burada çox gözəl şərait yaradılmışdı. Əlbəttə ki, bu da mənim üçün çox əhəmiyyətlidir. Çünki mən istəyirəm ki, qardaş Türkiyə bildirsin, dünyaya göstərsin ki, o həqiqətən nəyə qadirdir, nə edə bilər.

Təbiidir ki, Türkiyə bizim üçün qardaş, dost ölkə olduğu üçün prezident Klintonun beş gündən artıq Türkiyədə olması, həm Türkiyəni, həm bu ölkənin bəzi tarixi yerlərini ziyarət etməsi, həm də sammitdə fəal iştirakı – təkcə Klintonun yox, dünyanın başqa böyük dövlətlərinin başçılarının da fəal iştirakı – bizi çox sevindirir. Dünən axşam Süleyman Dəmirəllə biz bir yerdə yemək yeyirdik. Bilirsiniz ki, mən artıq hava limanına gəlirdim, siz də hava limanında idiniz. O mənə telefon edərək dedi ki, mən Klintonu bu dəqiqə yola saldım, ancaq səninlə görüşmək istəyirəm. Dedim ki, mən yol üstəyəm. Soruşdu ki, nədir? Dedim ki, təyyarə artıq uçmağa hazırdır. Bildirdi ki, təyyarə sənin təyyarəndir? Dedim ki, bəli. Dedi ki, əmr elə, qoy sabah uçsun. Mən də bunu etdim. Biz axşam görüşdük, bir yerdə ailəvi yemək yedik, həm sammitin yekunları, həm də Bakı-Ceyhan boru kəməri haqqında ətraflı söhbət etdik.

Burada bizim üçün, Türkiyə üçün və bütün dünya üçün baş verən ən tarixi hadisə Bakı-Ceyhan neft kəmərinin imzalanması mərasimidir. Bu imzalanma mərasiminin bu qədər yüksək səviyyədə, bu qədər möhtəşəm, əzəmətli şəraitdə keçməsi, şübhəsiz ki, Bakı-Ceyhan kəmərinin nə qədər əhəmiyyətli olduğunu bildirir.

Bilirsiniz, orada bir neçə sənəd, dövlətlərarası sənədlər imzalandı. Azərbaycan-Türkiyə-Gürcüstan sənədi – Bakı-Ceyhan boru xətti haqqında. Bundan əlavə, bəyannamə imzalandı. O bəyannaməyə həm Klinton, həm də Nazarbayev imza atdılar, yəni bizdən başqa, bu döv-

lətlər – Amerika da, Qazaxıstan da – bir halda ki, o bu boru xətti ilə neft keçirmək istəyir – bu layihənin həyata keçirilməsi üçün üzərlərinə öhdəliklər götürürlər. Bu da çox böyük hadisədir. Başqa sənədlər də imzalandı, onları bizim şirkətlər imzaladılar. Böyük bir paket imzalandı. Bu tarixi hadisədir.

Siz orada mənim çıxışımı eşitdiniz. Biz beş ildir çalışırıq. Təbiidir ki, hamı bilir – bunun əsasını biz qoymuşuq. Əgər biz «Əsrin müqaviləsi»ni imzalamasaydıq, Bakı-Ceyhan haqqında söhbət ola bilməzdi. «Əsrin müqaviləsi»ni imzaladıq, onu həyata keçirdik, neft hasil etdik. Hamı, dünya inandı ki, Xəzərdə neft var və çoxdur, Azərbaycanın nefti həddindən artıq çoxdur. Ona görə də belə bir baha qiymətli kəmərin tikilməsi üçün qərar qəbul olundu. Bu asan məsələ deyil. Beş ildir biz bundan ötrü çalışırıq. Mən özüm bu barədə nə qədər işlər görmüşəm, onu dünən dedim. Hər dəfə Türkiyəyə gələndə bunu məndən soruşurdular – heç kəsdən yox – Bakı-Ceyhan nə vaxt olacaq? Mən də dedim, oldu!

Mən çox şadam. Çünki bu gün həm Azərbaycanın hörmətini qaldırdıq, həm Türkiyənin hörmətini qaldırdıq, həm də dünyaya sübut etdik ki, bəli, Azərbaycanın bəyan etdiyi neft ehtiyatları Xəzər dənizində, xüsusən Azərbaycan sektorunda var və ondan da artıqdır.

Bilirsiniz ki, sonra Türkmənistan qazının nəqli haqqında da müqavilə imzalandı. Hesab edirəm, bu da çox əhəmiyyətli bir haldır. Çünki beş-altı ildir ki, Türkmənistan öz qazını haradan keçirmək barədə çalışır. İrandan keçirmək istədi və Türkiyə ilə müqaviləsi vardı. Amma bu mümkün olmadı. Sonra bir layihəsi var idi ki, Əfqanıstan vasitəsilə Pakistana keçirilsin. Üç-dörd il bundan əvvəl Amerikanın «Yunokal» şirkətinin nümayəndəsi mənə dedi ki, biz layihə hazırlamaq istəyirik. Mən dedim ki, siz əcəb işlə məşğul olursunuz. Soruşdular ki, nə üçün? Dedim ki, bu mümkün deyildir, sadəcə, vəziyyəti anlamırsınız. Amma bir-iki ildən sonra mənimlə yenidən görüşəndə etiraf etdi ki, Siz düz deyirsiniz. Ona görə də Türkmənistan qazı satmaq üçün yol axtarırdı. Buradan da keçməsini həm istəyirdi, həm də istəmirdi. Ancaq indi gördü ki, başqa yol yoxdur. Şübhəsiz ki, Amerika Birləşmiş Ştatları da onlara həm təsir etdi, həm də dəstək verdi. Qaz kəmərinin çəkilməsi haqqında sənədi də Türkmənistan, Azərbaycan, Gürcüstan və Türkiyə imzaladılar.

Amma eyni zamanda biz ayrıca bir memorandum da imzaladıq. Birinci imzalanmış sənəddə deyilir ki, gələcəkdə Azərbaycanın qazı da bu kəmərdən keçəcəkdir. Amma əlavə bir memorandum da imzaladıq ki, Türkiyə öhdəlik götürür ki, gələcəkdə Azərbaycanın nə qədər artıq qazı olsa, onu alacaq və təkcə özü üçün yox, Avropaya da çıxaracaqdır. Bu da çox böyük hadisədir. Ona görə də mən hesab edirəm ki, biz böyük qələbələrlə geriyə dönürük. Bizim millətimiz, xalqımız, ölkəmiz sevinməlidir ki, belə böyük nailiyyətlər əldə etmişik.



Mən bu sammiti və Bakı-Ceyhan layihəsinin, Xəzər qaz layihəsinin Türkiyədə, İstanbulda imzalanmasını bir daha xüsusi qeyd edirəm. Türk xalqı kimi, Azərbaycan xalqı da buna sevinir. Ona görə də dünən axşamı əziz dostum Süleyman Dəmirəllə bir yerdə keçirdik və bu nailiyyətləri bir yerdə qeyd etdik. Mənim sizə deyəcəyim sözlər budur.

**Jurnalist:** Biz dünən bütün axşamı, gecəni İstanbulu gəzdik. Siz görəydiniz ki, hamı bizi necə hərarətlə qarşılayırdı. Ən sadə türk adamları küçələrdə, mağazalarda, restoranda Bakı-Ceyhan haqqında ağızdolusu danışır, sevinirdilər. Mən ömrümdə belə bir şey görməmişdim. Özü də türk xalqı o qədər də siyasiləşmiş xalq deyildir. Amma aşağıdan yuxarıya qədər hamı bu hadisəni müzakirə edirdi. Hamı deyirdi ki, bunu Heydər Əliyev edibdir.

**Heydər Əliyev:** Bəli, hamı da bunu bilir. Ona görə də Türkiyədə Azərbaycana və şəxsən Azərbaycanın Prezidenti Heydər Əliyevə həmişə çox məhəbbət olubdur. Amma Bakı-Ceyhana görə bu məhəbbət həddindən artıqdır.

**Jurnalist:** Özü də inanmırdılar ki, bu layihə barədə saziş imzalanacaqdır.

**Heydər Əliyev:** Bəli, bəli, inanmırdılar.

**Jurnalist:** Viktor Kalyujnı bəyanat verib ki, bu neft kəməri iqtisadi baxımdan sərfəli deyil, siyasi mülahizələrə əsaslanır.

**Jurnalist:** Xahiş edirik, ikitərəfli görüşləriniz barədə danışasınız.

**Heydər Əliyev:** İkitərəfli görüşlərim də çox oldu və bunlar çox da səmərəli oldu. Prezident Klintonla çox gözəl görüşümüz, danışıqlarımız oldu. Bütün məsələlər haqqında, o cümlədən də Ermənistan-Azərbaycan münaqişəsinin sülh yolu ilə həll olunması barəsində danışdıq. Prezident Şirakla çox gözəl görüşümüz və danışıqlarımız oldu. Almaniyanın kansleri Şröderlə görüşüm oldu. Bilirsiniz ki, mən bizdə olan bir-iki rəsm əsərini təqdim etdim. 12 əsərdən 2-si bizdədir, qalanları Nyu-Yorkda saxlanılıb. Mən ona təsdiq etdim ki, bunlar da sizinki-

dir. Başqa əlaqələrimiz haqqında, Ermənistan-Azərbaycan münaqişəsi barədə danışdıq.

Bütün bu görüşlərdə Ermənistan-Azərbaycan münaqişəsi, Azərbaycanın düşdüyü vəziyyət və bu məsələnin sülh yolu ilə həll edilməsi mövzusu birinci yer tuturdu. Mənim apardığım danışıqların hamısını bilirsiniz, bunları sadalamaq istəmirəm. Mən bunların hamısını çox uğurlu hesab edirəm. Bir də, güman edirəm ki, siz mənim sammitdəki çıxışıma diqqətlə baxmısınız. Mən çox sərt çıxış etdim, amma eyni zamanda konstruktiv çıxış idi. Konstruktivliyi də ondan ibarətdir ki, Cənubi Qafqazda sülh və təhlükəsizliyin yaranması üçün paktın hazırlanmasını təklif etdim. Həm Amerika Birləşmiş Ştatlarını, həm Avropa Birliyini, həm Türkiyəni, həm Gürcüstanı, həm Ermənistanı, həm ATƏT-in bu işdə marağı olan başqa ölkələrini dəvət etdim ki, bu paktın hazırlanıb bağlanması üçün səylərini göstərsinlər. Amma şərtlər qoydum. Şərtlər də ondan ibarətdir ki, Cənubi Qafqazdan bütün silahlar çıxarılmalıdır, Cənubi Qafqaz silahsızlaşdırılmalıdır, ayırıcı xətlər olmamalıdır, təhlükəsizlik təmin edilməli, terrorizm, etnik təmizləmə, separatizm aradan qaldırılmalı, ikili standartlara, baş vermiş faktlar əsasında hərəkətlərə yol verilməməlidir. Bunlar çox ciddi məsələlərdir. Mən bunları qaldırdım və hesab edirəm ki, ATƏT-in üzvlərinin əksəriyyətini Azərbaycanın bu təklifinə cəlb etdik. Bu da çox böyük hadisədir.

Dağlıq Qarabağ haqqında da kəskin mövqeyimi bir daha bildirdim, Minsk qrupunu tənqid etdim. Amma Ermənistan prezidenti ilə danışıqlarımızı da müsbət qiymətləndirdim. Mən bu gün də belə fikirdəyəm. Hesab edirəm ki, bu danışıqlar davam edəcəkdir. İndi həm Minsk qrupu işləyəcək, həm də bu danışıqlar davam edəcək ki, məsələni sülh yolu ilə həll edək.

**Jurnalist:** Deyəsən, birgə bəyanat olmalı idi.

**Heydər Əliyev:** Birgə bəyanat yox. Ancaq biz, Amerikanın xarici işlər naziri xanım Olbrayt, Fransanın xarici işlər naziri Vedrin, Rusiyanın xarici işlər naziri İvanov – bunlar Minsk qrupunun həmsədrləridir – bir də Ermənistan prezidenti və Azərbaycan prezidenti Minsk qrupunun fəaliyyətini gücləndirmək üçün görüş keçirib müzakirə apardıq. Mən Minsk qrupunun fəaliyyətsizliyini orada da üzlərinə dedim və tələb etdim ki, Minsk qrupu fəaliyyətini artırsın. Onlar da söz verdilər ki, artıracaqlar.



Yəni Azərbaycanın mənafelərini təmin etmək üçün qısa bir müddətdə nə mümkündürsə, mən etdim. Daha bir sözünüz var?

İndi gedin o ağlayanlara, qara yaylıq bağlayanlara, sonra «yürüş edənlərə» deyin ki, onları İstanbul küçələrində görmədik. Onlar harada idilər? Gəlib burada nümayiş keçirmək istəyirdilər. Siz bilirsiniz ki, biz Klinton qalan oteldə yaşayırdıq. Həmin oteldə təkcə Klinton yaşayırdı, bir də Azərbaycan Prezidenti. Biz orada yaşayırdıq. Siz də oraya gəlib-gedirdiniz, hamınızın imkanı vardı. Yəqin ki, elə bunun özü də Azərbaycana və Azərbaycan Prezidentinə göstərilən münasibətdir.

**Jurnalist:** İmzalanma zamanı deyirdilər ki, Klinton gəlməyəcək, olmayacaq, onu burada gözləməyin, onun nümayəndəsi gələcəkdir. Dedik ki, axı o, Heydər Əliyevə söz vermişdir, məktubunda da yazmışdır ki, İstanbula şəxsən gələcəkdir. Amma o, gələndə hamı rahat oldu.

**Heydər Əliyev:** Əlbəttə, onun bayrağı orada idi, belə şey ola bilməzdi. O bu işə çox maraqlı bir şəxsdir, bu məsələnin həll olunması üçün şəxsən çox işlər görübdür. Mən bunu orada öz çıxışımda qeyd etdim, siz eşitdiniz. Sonra onunla təkbətək görüşümdə də xidmətlərini qeyd etdim. Biz çalışdıq, çox işlər gördük. Amma Amerika Birləşmiş Ştatlarının, şəxsən Bill Klintonun bu işə daimi dəstəyi olmasaydı və məsələni həyata keçirmək üçün maliyyə vəsaiti tapmaqdan ötrü onun tədbir görəcəyi barədə bəyanatlar verilməsəydi, təbiidir ki, bunu etmək bir az çətin olacaqdı. Sağ olun.

***İstanbul-Bakı***

# ATƏT-in NÖVBƏTİ ZİRVƏ GÖRÜŞÜNDƏN VƏTƏNƏ QAYIDARKƏN BİNƏ HAVA LİMANINDA JURNALİSTLƏRİN SUALLARINA CAVAB

*20 noyabr 1999-cu il*

– Güman edirəm ki, siz televiziya vasitəsilə hər şeyi görmüsünüz, hər şeyi eşitmisiniz. Ona görə sizə geniş məlumat verməyə ehtiyac yoxdur. Təyyarədə də məni müşayiət edən televiziya, qəzet jurnalistləri xahiş etdilər, mən təxminən 40-45-50 dəqiqə onlara izahat verdim. Ona görə indi siz məndən tam geniş məlumat almaq istəyirsinizsə, bu mənim vaxtımı çox alacaqdır. Ancaq onu qeyd edə bilərəm ki, İstanbul sammiti dünya tarixində, XX əsrdə ən böyük hadisələrdən biridir və ATƏT-in XX əsrdə son sammitidir, bundan sonra daha olmayacaqdır. Bunun da İstanbulda keçməsi, şübhəsiz ki, Türkiyə üçün və Türkiyənin dostu olan bir ölkə kimi, bizim üçün də çox böyük əhəmiyyət kəsb edir. Çünki orada qəbul olunmuş sənədlər artıq İstanbul sənədləri adlanacaqdır. Bu, zahiri tərəfi, yəni xarici tərəfi. Daxili tərəfi də ondan ibarətdir ki, çox məzmunlu bir sammit oldu – həm məsələlərin müzakirə edilməsi, həm qəbul olunan sənədlərin sayı, həm də onların dünya üçün əhəmiyyəti və məzmunu.

Bilirsiniz ki, orada üç sənəd qəbul olundu. Birincisi – İstanbul xartiyasıdır. 1975-ci ildə Helsinki xartiyasından sonra 1990-cı ildə Paris xartiyası qəbul edilmişdir. İndi isə – 1999-cu ildə İstanbul xartiyası qəbul olundu. Bu xartiya dünyada sülhün, təhlükəsizliyin təmin olunması, bu gün dünyada olan reallıqlara söykənərək və Helsinki aktından sonra dünyanın inkişaf etməsi, müstəqil dövlətlərin yaranması xartiyasıdır – çünki Paris xartiyası qəbul olunanda hələ indiki müstəqil dövlətlər yox idi, nəinki Sovetlər İttifaqından ayrılmış ölkələr, eyni zamanda Şərqi Avropa ölkələri də hələ Varşava paktının içində idilər – ona görə də bu, reallıqlara söykənən bir xartiyadır. Xartiyanın əsas mənası, məqsədi Avropada sülhü təmin etmək, əmin-amanlığı təmin etmək, təhlükəsizliyi təmin etmək, ölkələrin ərazi bütövlüyünü qorumaq və baş vermiş ixtilafları, münaqişələri sülh yolu ilə həll etmək, demokratiyanı inkişaf etdirmək, insan haqlarına xüsusi fikir vermək və s. – bax, bu məsələlərdir. Yəqin ki, bizim mütəxəssislər bu xartiya haqqında sonra sizə geniş məlumat verəcəklər.



Bu xartiyanı Azərbaycan imzaladı, mən Azərbaycanın xalqı adından, Azərbaycanın dövləti adından imzaladım. Hesab edirəm ki, imzamı, Azərbaycanın imzasını tarixi bir sənədə qoymuşam. Çünki Azərbaycanın imzası keçmişdə heç bir yerdə yox idi. Siz bilirsiniz ki, indi, müstəqillik əldə edəndən sonra mən bir çox yerlərdə Azərbaycanın adından belə beynəlxalq sənədlərə imzalar atmışam. Bunların içərisində ən mühümü İstanbul xartiyasıdır.

İkinci sənəd Avropada adi silahlar haqqında sənəddir. Mən bu yaxınlarda Azərbaycanın hörmətli şairləri, yazıçıları ilə görüşərkən bu barədə bir az izahat vermişdim. Çünki bizim ictimaiyyətimizin bu müqavilə haqqında az məlumatı var və ictimaiyyətdə bu barədə heç vaxt müzakirə getməmişdir. Ancaq biz özümüz Azərbaycan dövləti olaraq dörd ildən artıqdır ki, bu məsələ ilə məşğul idik və öz mövqelərimizi qorumağa çalışırdıq.

Avropada adi silahlar haqqında bu müqavilə 1990-cı ildə NATO ilə Varşava paktı arasında imzalanıbdır. Ona görə imzalanıb ki, hər bir tərəf o biri tərəfin adi silahlarının həm miqdarını, həm də yerləşdiyi regionları müəyyən etsin, beləliklə də təhlükəsizlik təmin edilsin. Ancaq Varşava paktı dağılandan sonra və ondan sonra da Sovetlər İttifaqı dağılandan sonra, Sovetlər İttifaqına mənsub olan respublikalar dövlət müstəqilliyini əldə edəndən sonra şübhəsiz ki, bu müqavilə pozulmuş hesab olunur. Ona görə də Amerika tərəfi, yəni NATO tərəfi çalışırdı ki, bu müqaviləni yeniləşdirsin. Bunun üçün onlar, yəni NATO tərəfindəki kvotalar məlum idi. Ancaq keçmiş Sovetlər İttifaqının ərazisində silahlar harada, nə qədər olmalıdır – bunu müəyyən etmək lazım idi, bu tələb olunurdu.

O vaxt – 1992-ci il may ayının 14-15-də MDB üzvü olan dövlətlərin nümayəndələri Daşkənddə toplaşmışdılar və bu məsələni müzakirə edirdilər. Amma bu, elə bir gündə müzakirə olunmamışdı. Bu məsələ müzakirə olunan zaman hər bir dövlət öz nümayəndə heyətini göndərmişdi. Orada bu müqavilənin hazırlanması prosesi gedirdi.

O vaxt Azərbaycanda hakimiyyətsizlik olduğuna baxmayaraq, daxildə hakimiyyət mübarizəsi getdiyinə baxmayaraq, Azərbaycanın da ekspertləri gedib Daşkənddə bu barədə işlər görmüşdülər və mənə indi verilən məlumatlardan bəlli olur ki, Azərbaycan ekspertləri – indi onlar aşağı vəzifəli insanlardır – orada vətənpərvərlik göstəriblər, Azərbaycanın mənafelərini müdafiə etməyə çalışıblar və sübut ediblər ki, bu kvotalar müəyyən ediləndə Cənubi Qafqazda Azərbaycan ilə Gürcüs-

tanın və Ermənistanın kvotaları fərqli olmalıdır. Azərbaycan həm ərazisinə görə, həm də əhalisinə görə digər iki respublikadan böyükdür. Ona görə də Azərbaycana daha çox kvota verilməlidir və buna nail olublar. Ekspertlər səviyyəsində Azərbaycana təxminən 415, ya 420 tank, o qədər də BMP, o qədər də top, ümumiyyətlə beş növ silah nəzərdə tutulurdu. Ancaq təəssüflər olsun ki, Azərbaycan bir tərəfdən Azərbaycanın rəhbərləri və ikinci tərəfdən o rəhbərlərə müxalifət çıxıb hakimiyyəti ələ keçirən qüvvələr o həlledici dövrdə Azərbaycanın sabitliyini saxlaya bilməmişlər.

Bilirsiniz, o dövr – Sovetlər İttifaqının dağılması dövrü keçmiş Sovetlər İttifaqına daxil olmuş hər bir ölkə üçün, xalq üçün çox əhəmiyyətli idi. Çünki Sovetlər İttifaqının bu qədər tezliklə dağılmasını heç kəs gözləmirdi, heç kəs təsəvvür edə bilməzdi. Bu dağılma prosesi gedirdi. Amma heç kəs təsəvvür edə bilməzdi ki, birdən-birə Sovetlər İttifaqı dağıla bilər. Demək, bu dağılan kimi hər bir ölkə, hər bir dövlət müstəqilliyini aldı. Bu müstəqillik də elan olunmuşdu.

Məsələn, Azərbaycan bu prosesi görürdü. Düzdür, Azərbaycan burada təşəbbüskar deyildi. Çünki Azərbaycan 1991-ci ilin mart ayında keçirilən sessiyada Sovetlər İttifaqının, SSRİ-nin saxlanılması haqqında referendumu dəstəklədi və Azərbaycanda doxsan neçə faiz səs toplandı ki, azərbaycanlılar hamısı istəyirlər ki, Sovetlər İttifaqı yaşasın. Bir neçə başqa respublika isə bunu etmədilər. Amma SSRİ çoxluq əldə etdiyinə görə qərar qəbul etdi ki, SSRİ-yə daxil olan respublikalar SSRİ-nin saxlanılmasını istəyirlər. Bu, mart ayının 17-də oldu. Amma avqust ayında Moskvada qiyam və onunla əlaqədar hadisələr oldu. Ondan sonra isə dərhal bir neçə ölkə öz müstəqilliyini elan etdi. Məsələn, sentyabrda elan edən oldu.

Amma Azərbaycan hələ yenə də qorxurdu. Deyirdi ki, hələ bəlkə SSRİ-nin tərkibində qalmaq lazımdır. Ona görə də, demək olar ki, başqa ölkələrdən ən gec – oktyabr ayının 18-də müstəqillik haqqında Konstitusiya aktı qəbul olundu və o qərarla da təyin edildi ki, dekabr ayının 30-da referendum keçiriləcəkdir. Nə üçün referendum keçiriləcəkdir? Əgər mart ayında bunlar o referendumda Sovetlər İttifaqının, SSRİ-nin saxlanılmasına camaatın səsini süni olaraq toplayıb verməsəydilər, indi SSRİ-dən ayrılmaq üçün nə referendum? Müstəqilliyini elan etdin, qurtardı getdi! Bu referendum da dekabrın 30-da keçirildi. Demək, hüquqi nöqteyi-nəzərdən belə çıxır ki, Azərbaycan dövləti öz



müstəqilliyini 1991-ci ilin dekabrında aldı. Ancaq biz oktyabrın 18-də Konstitusiya aktının qəbul olunmasını əsas götürürük.

Yəni bu proseslər gedirdi. Həm hakimiyyətdə olan qüvvələr, həm də müxalifətdə olan qüvvələr, gərək Azərbaycanın milli mənafeləri haqqında düşünəydilər, bir-biri ilə vuruşmaq, dava etmək, hakimiyyət mübarizəsi aparmaq haqqında yox. Bu vaxt bir tərəfdən də Ermənistanla müharibə gedirdi, torpaqlarımız işğal olunurdu.

Bilirsiniz ki, həmin o may ayında Azərbaycanın başına nə kimi fəlakətlər gəldi. Həmin may ayında müxalifət – Xalq Cəbhəsi, Müsavat və onların ətrafında toplaşan adamlar xalqı öz arxası ilə aparırdılar. Çünki xalq o vaxtlar hakimiyyətdən o qədər narazı idi və həqiqətən müstəqillik istəyirdi – kim meydana çıxırdı, onun dalınca gedəcəkdi və getdi. Amma o vaxt, may ayında bu vuruşmanın nəticəsində nə oldu? May ayının 8-də ermənilər Şuşanı işğal etdilər.

O vaxt da mənə demişdilər və indi də mən Ermənistanın nümayəndələri ilə, xüsusən prezident Koçaryanla – o zaman Stepanakertdə oturmuş adamdır – danışıqlar aparıram. O dedi ki, Şuşanı biz işğal etmədik. Sadəcə, Şuşanı azərbaycanlılar tərk edib çıxıb getdilər, biz də gəldik ora. O mənə danışır ki, orada kilsə vardır – bilirsiniz, o kilsə də bərpa olunmuşdur. O vaxtlar, bizim vaxtımızda bərpa işi qurtarmışdı – deyir o kilsədə o qədər silah var idi ki, onlarla bütün Stepanakerti dağıtmaq olardı. Biz gəldik, silahların hamısını götürdük və ondan sonra başladıq hərəkət etməyə.

Amma Azərbaycanda nə var idi bu vaxt? Hakimiyyət mübarizəsi gedirdi. Mütəllibov yenidən hakimiyyətə qayıtmaq istəyirdi, müxalifət onun qarşısını alırdı və nəhayət, ayın 15-də həmin o məlum hadisələr baş verdi. Ayın 15-də də Azərbaycanın müqəddəratı Daşkənddə həll olunurdu. Görün, ona biganə qaldılar. Rəhim Qazıyev satqınlıq etdi, xəyanət etdi. Getdi, Qraçovla sövdələşdi və onlar tələb edən, Rusiya tələb edən – bizim ekspertlərin tələbi qaldı – imza atıldı. Özü də həmin o Əzizbəyov buna imza atdı. Onlar Azərbaycan xalqına böyük xəyanət ediblər.

Bundan üç gün sonra – ayın 17-də yenə də hakimiyyət mübarizəsi gedirdi. Bilirsiniz ki, mayın 18-də Ali Sovetin sessiyası keçirilirdi. Xalq Cəbhəsi Ali Soveti əlinə keçirmək istəyirdi və o vaxt İsa Qəmbəri Ali Sovetin sədri seçdilər. O gün də Laçın işğal olundu. Bəli, həmin o gün Laçın işğal olundu. Çünki onlar hamısı burada hakimiyyət mübarizəsi ilə məşğul idilər, orada da rayonlar işğal edilirdi.

Beləliklə, o vaxt edilən xəyanət, şübhəsiz ki, bizə böyük bir zərbə olubdur, Azərbaycanın hərbi potensialına zərbə olubdur. Bunu sizə ona görə deyirəm ki, dörd il bundan öncə amerikalılar bu müqavilənin yeni şəraitə uyğunlaşdırılması prosesini başlayarkən biz bunun qarşısını alırdıq. Məqsədimiz də o deyildi ki, bunun uyğunlaşdırılmasına yol verməyək. Məqsədimiz ondan ibarət idi ki, biz çalışırdıq müqavimət göstərək, çalışırdıq ki, kvotamızı artıraq. Amma bizim kvotamızı artırmadılar.

Mən keçən dəfə demişdim – Lissabon sammitindən əvvəl Amerikanın böyük nümayəndə heyəti gəldi. Bizdən nə qədər xahiş etdilər, biz buna razı olmadıq. Mənə Lissabonda ən yüksək səviyyədə nə qədər müraciət etdilər, mən buna razı olmadım. Amma ondan üç il keçibdir. Nə edək? İndi bu müqavilənin yeni şəraitə uyğunlaşdırılmaması, şübhəsiz ki, ümumi təhlükəni daha da artırır. Yəni Rusiya, məsələn, Şimali Qafqazda bu kvotadan artıq silah saxlayır. Amma orada, o müqavilədə cinahlar məsələsi vardır – hansı cinahda nə ola bilər. Məsələn, cənub cinahında Rusiya nə qədər silah saxlaya bilər. Həddindən artıq silah saxlayır. İndi bu müqavilə imzalanandan sonra, şübhəsiz ki, hər şey qanunlaşdırılmalıdır. Ona görə də bu müqavilənin imzalanmasına biz razılıq verdik və bu müqavilə imzalandı.

Hesab edirəm, indi biz burada ağır vəziyyətdə olmağımıza baxmayaraq – əgər mənim çıxışımı dinlədinizsə, orada dedim – Azərbaycan bizim region hərbiləşdirildiyi halda, hərbi silahla doldurulduğu bir halda və nəzarət olmayan – yəni Dağlıq Qarabağı deyirəm – bölgədə həddindən artıq silah olduğu halda biz kvotamızın az olmasına baxmayaraq, belə bir müqavilənin imzalanmasına səs vermişik və imzalayırıq. Deməli, bu da əsas sənədlərdən biridir, imzalandı. Hesab edirəm ki, bu da sammitin ən gözəl nəticəsidir.

Üçüncüsü, siyasi bəyanat, siyasi bəyannamə. Bu, hər sammitdə qəbul olunur. Orada bugünkü reallıqlar əks olunur – harada hansı münaqişə var, harada hansı məsələlər olmalıdır və s.

Bilirsiniz ki, Lissabon sammitində biz çox mübahisə apardıq ki, bizi qane edən sənəd, maddə qəbul olunsun. Ermənistan buna konsensus vermədi. Mən isə bütün sənədə konsensus vermədim. O maddə, yəni biz istədiyimiz maddə oradan çıxarıldı. Amma mən bütün sənədə konsensus vermədiyimə görə həmin o maddənin məzmunu, müddəaları ondan geniş şəkildə ATƏT-in sədrinin bəyanatında əks olundu. Bu bəyanat da 53 dövlətin səs verməsi ilə qəbul edildi.



Bu dəfə belə bir mübahisə aparmağa ehtiyac yox idi. Orada bizim bugünkü reallığı nəzərə alaraq hesab edirəm ki, uyğun müddəalar göstərilib və xüsusən indi əsas fikir ona yönəlibdir ki, Azərbaycan və Ermənistan prezidentlərinin birbaşa görüşləri yüksək qiymətləndirilir. Onu bir çox natiqlər çıxışlarında da dedilər və orada da yazılıbdır ki, bu, Minsk qrupunun fəaliyyəti ilə bərabər, məsələnin sülh yolu ilə həll olunmasına bizi yaxınlaşdırır.

Mənim çıxışımı siz eşitmisiniz, oxumusunuz. Mən çox sərt çıxış etdim. Eyni zamanda, çox konstruktiv çıxış etdim və konstruktivlik də ondan ibarətdir ki, mən təklif etdim ki, Cənubi Qafqazda təhlükəsizlik və əməkdaşlıq paktı yaransın. Bu, ciddi bir məsələdir. Çünki bu, sadə bir şey deyildir. Mən orada onun şərtlərini də dedim. Yəqin o şərtləri oxumusunuz. Həmin o şərtlər ki, buradan xarici silahlar tamamilə çıxarılmalıdır və ikili standartlara yol verilməməlidir, terrorizmin, ekstremizmin, separatizmin və s. – bunların qarşısı alınmalıdır, münaqişələr sülh yolu ilə həll olunmalıdır, baş vermiş faktlar əsasında qərarlar qəbul edilməməlidir. Mən bunu bir çox belə müddəalarla bağladım. Güman edirəm ki, indi biz bu sahədə öz işimizi aparacağıq. Çünki belə bir paktın qəbul olunması, şübhəsiz ki, Cənubi Qafqazda münaqişələrin aradan götürülməsini təmin etməlidir. Biz bunu edəcəyik.

Bu da siyasi bəyannamə – üç əsas sənəd.

Yekunlaşdıraraq onu demək istəyirəm ki, hesab edirəm, bu, çox müsbət nəticəli bir sammitdir. Mən bundan çox məmnunam və hamı, iştirakçılar da məmnundur. Belə bir məmnunluqla da biz bir-birimizdən ayrıldıq.

Ancaq orada bizim üçün və Türkiyə üçün, bizim bölgə üçün daha da böyük əhəmiyyət kəsb edən tarixi bir hadisə baş verdi ki, o da Bakı-Ceyhan neft kəməri haqqında müqavilənin imzalanması idi. Müqaviləni Azərbaycan, Türkiyə, Gürcüstan imzaladılar. Sonra dövlətlərin öhdəliyinə dair siyasi bəyannamə imzalandı. Bunu prezident Klinton imzaladı. Nazarbayev də Qazaxıstanın bizim bu Bakı-Ceyhan xəttinə qoşulması barədə bəyanat verdi, o da imzalandı. Bir çox başqa sənədlər də imzalandı. Beş il bundan öncə bizim başladığımız iş indi öz nəticəsini verdi. Əgər eşitmisinizsə – mən orada çıxışımda da dedim – biz «Əsrin müqaviləsi»ni yaratmasaydıq Bakı-Ceyhan olmayacaqdı. Amma Bakı-Ceyhanı da beş il müddətində həyata keçirmək üçün çox böyük maneələrin qarşısını aldıq, çox işlər gördük. Nəhayət, buna nail ol-

duq. Bu bizim üçün böyük bir hadisədir – həm Azərbaycan üçün, həm Türkiyə üçün. Eyni zamanda, əgər Amerika Birləşmiş Ştatlarının dəstəyi olmasaydı və bu barədə fəal iştirakı olmasaydı, bunu etmək mümkün deyildi. Çünki bunun əleyhinə çox qüvvələr var idi.

Türkmənistan qazının Xəzər dənizindən, Azərbaycandan, Gürcüstandan Türkiyəyə keçməsi barədə Xəzər qaz kəmərinin layihəsi vardır. O da çoxdan hazırlanırdı. Bunu da imzaladıq. Orada da mənafelərimiz təmin olunubdur ki, bizim qazımız da o kəmər vasitəsilə keçəcəkdir. Əlavə bir memorandum da imzalandı ki, gələcəkdə Türkiyə həm özü üçün, həm də Avropaya keçirmək üçün Azərbaycandan qaz almağı öz öhdəsinə götürür.

Mənim bir çox ikitərəfli görüşlərim oldu, onları da bilirsiniz. Yəqin ki, qəzetlərdə verəcəklər, yazacaqlar. Prezident Klintonla, prezident Şirak ilə, Almaniyanın kansleri Şröder ilə, İsrailin baş naziri ilə, prezidentlər Şevardnadze, Kuçma və Nazarbayev ilə – bizim bu dostlarımızın hamısı ilə. Avropa Birliyinin yeni sədri Prodi ilə çox əhəmiyyətli danışıqlarımız oldu, görüşlərimiz oldu. Türkiyə prezidenti Süleyman Dəmirəllə bir neçə dəfə və dünən axşam da, sammit qurtarandan sonra biz bir yerdə oturduq, çox ətraflı söhbətlər etdik. Bunların hamısı ilə, bu görüşlərdə də əsas məsələ Ermənistan-Azərbaycan münaqişəsinin sülh yolu ilə həll olunması məsələsi idi və burada da mən həm Amerika Birləşmiş Ştatlarının, həm Fransanın həmsədrlər kimi dəstəklərini hiss edirəm, görürəm. Orada ayrıca bir görüş də keçirildi: həmsədr olan ölkələrin xarici işlər nazirləri – ABŞ-ın dövlət katibi xanım Olbrayt, Fransanın xarici işlər naziri Vedrin, Rusiyanın xarici işlər naziri İvanov və bir də Azərbaycan, Ermənistan prezidentləri. Orada da biz müzakirə apardıq. Düzdür, bu, qapalı müzakirədir. Hər halda qısa bir zamanda çox işlər gördük və bunların da hamısını Azərbaycan xalqının naminə gördük. Bunları siz daha da dəqiq, daha da ətraflı televiziyada, mətbuatda görəcəksiniz.

**S u a l :** Cənab Prezident, Sizcə, İstanbul sammiti Dağlıq Qarabağ probleminin sülh yolu ilə həll olunması sahəsində aparılan danışıqlara yeni təkan verəcəkmi?

**C a v a b :** Mütləq verəcəkdir. Elə mənim də orada gördüyüm iş bundan ibarətdir.

**S u a l :** İstanbul bəyannaməsində Azərbaycanın ərazi bütövlüyünün qeyd olunmasını necə qiymətləndirirsiniz?



**C a v a b :** Bilirsiniz, birincisi, o, keçən sammitdə qeyd olunubdur. İkincisi, qəbul olunmuş xartiyada bütün dövlətlərin ərazi bütövlüyünün təmin olunması – indi mən o incəlikləri sizə demək istəmirəm, onu sonra izah edəcəklər – hətta orada bizim təklifimizlə yazılıbdır ki, məsələn, o yerlərdə ki milli azlıqlar var, özünüidarəetmə, yəni öz hüququnu müəyyənetmə var, bu heç vaxt ərazi bütövlüyünü pozmamalıdır. Bunlar hamısı vardır. Ona görə burada onun bir daha yazılmasına, sadəcə, ehtiyac yox idi.

Görürəm ki, daha başqa bir sualınız yoxdur. Mən təəccüb edirəm. Yəqin ki, mən sizə geniş danışıram və sual verməyə imkan vermirəm. Gələn dəfə heç bir şey deməyəcəyəm, deyəcəyəm ki, sual verin. Ancaq suallarınıza cavab verəcəyəm.

**S u a l :** Cənab Prezident, Cənubi Qafqazda əməkdaşlıq barədə təklif qəbul olundumu?

**H e y d ə r Ə l i y e v :** Cənubi Qafqaz ölkələrinin iqtisadi forumu məsələsini Amerika təklif etmişdi. Bu təkliflə mənim yanıma gəlmişdilər – əgər xatirinizdədirsə, bu, televiziya vasitəsilə verildi. Amerikanın nümayəndəsinə mən qəti olaraq etiraz etdim. Amma bu, orada da, o bəyannamədə də var idi. Biz onu çıxardıq.

**S u a l :** Cənab Prezident, İstanbul sammitində Azərbaycan ilə Ermənistan arasında hansısa sazişin imzalanacağı əvvəlcə nəzərdə tutulurdumu?

**C a v a b :** Bilirsiniz, mən çoxdan demişəm ki, heç nə imzalanmayacaqdır. Müxalifət iki-üç ay hay-küy saldı. Bilirəm ki, çoxunuz onlara mənsubsunuz. Qəzetlər yazırdı, o yazırdı, bu yazırdı ki, Azərbaycan batacaq, saziş imzalanacaq, Qarabağ müqavimət hərəkatı yaradaq, qara örpəkli qadınlar küçələrə çıxsınlar, nə bilim, gedib İstanbulda nəsə etsinlər. Mən gedəndə sizə dedim axı – onların heç birini Biləcəridən o tərəfə heç kim tanımır. Amma mən İstanbulun küçələrində onlardan bir adam görmədim. Mən gedəndə sizə dedim ki, heç bir şey imzalanmayacaqdır. Bu, əvvəldən də nəzərdə tutulmamışdı. Sadəcə olaraq, bunu ayrı-ayrı müxalifət qüvvələri uydurdular, ortaya atdılar ki, özləri üçün bir müddət siyasi məşğuliyyət tapsınlar. İndi bunlar özlərinə məşğuliyyət tapa bilmirlər. Görək bundan sonra hansı məşğuliyyəti tapacaqlar.

**J u r n a l i s t :** Cənab Prezident, indi də sazişin imzalanmamasını onlar öz nailiyyəti hesab edirlər.

**H e y d ə r Ə l i y e v :** Bəlkə onlar elə dünyanın fırlanmasını da öz nailiyyətləri hesab edirlər ki, onlara görə dünya fırlanır? Sağ olun.

## TÜRKİYƏYƏ QISAMÜDDƏTLİ İŞGÜZAR SƏFƏRƏ YOLA DÜŞMƏZDƏN ƏVVƏL BİNƏ HAVA LİMANINDA JURNALİSTLƏRƏ SÖZÜ

*27 noyabr 1999-cu il*

– Mətbuat xidmətinin məlumatı verilibdir. Mən İstanbulda olanda Türkiyənin prezidenti, əziz dostum Süleyman Dəmirəl məndən xahiş etmişdi ki, bu gün Ankaraya gedim, orada ekologiya və torpaq eroziyası ilə əlaqədar bir toplantı var, onda iştirak edim. Onun vətəni İspartada böyük bir universitet var, sabah onun yeni bir fakültəsinin təməli qoyulacaqdır. İsparta universiteti mənə fəxri doktor adı veribdir. İsparta Süleyman Dəmirəlin vətənidir. Onun qardaşı orada bir xəstəxana tikib, bunun açılışı olacaqdır. İspartada Süleyman Dəmirəl adına mədəniyyət mərkəzi yaradılıb, o da açılacaqdır.

O xahiş edib ki, mən bu tədbirlərdə iştirak edim. Mən bunu məmnuniyyətlə qəbul etmişəm, çünki bilirsiniz, bizim şəxsi dostluğumuz var. Bir də ki, Süleyman Dəmirəl təkcə mənim yox, bütün Azərbaycan xalqının dostudur. İspartanı ziyarət etmək, onun vətəninə getmək mənim üçün çox böyük şərəfdir. Ona görə də mən gedirəm və sabah axşam da dönəcəyəm. Başqa məqsəd yoxdur.



## BİNƏ HAVA LİMANINDA JURNALİSTLƏRƏ TÜRKİYƏ RESPUBLİKASINA SƏFƏR BARƏDƏ MƏLUMAT

*29 noyabr 1999-cu il*

– Mən nədən ötrü getdiyimi sizə bildirmişdim. Ona görə də dediklərimin hamısı oldu. Dünən Ankaraya gəldim. Orada böyük bir təşkilat var, torpaq eroziyası ilə mübarizə, ətraf mühitin qorunması və başqa problemlərlə məşğul olur. Həm dövlət, həm də onunla bərabər iş adamları, böyük şirkətlər bu təşkilatda öz güclərini birləşdiriblər, adı da Türkiyə Eroziya ilə Mübarizə, Yaşıllaşdırma və Ətraf Mühitin Mühafizəsi Vəqfi – TEMA-dır. Bu vəqf yeddi il bundan qabaq dövlətlə birlikdə yaradılıbdır. Dediyim kimi, torpaq eroziyası ilə mübarizə, torpaqların şoranlaşmasının qarşısının alınması, meşələrin, ağacların inkişaf etdirilməsi, həm də onların məhv olunmasının qarşısının alınması ilə məşğul olur. Çox əhəmiyyətli bir işdir.

Orada vəqfin başçıları, bir çox nazirlər çıxış etdilər. Prezident Süleyman Dəmirəl çıxış etdi. Mənə də söz verdilər, mən də çıxış etdim. Hesab edirəm, bu, həm elmi cəhətdən, həm də xüsusən praktiki cəhətdən çox əhəmiyyətli tədbir idi. Mən orada dedim, yəqin ki, biz bunu edəcəyik, orada çox böyük təcrübə var, biz gərək oraya nümayəndə heyəti göndərək, bu təcrübə ilə tanış olsunlar, görək biz nə edə bilərik. Əlbəttə, bunu indi etmək çətindir, çünki böyük vəsait tələb olunur. Orada həmin vəqf bu işə həm xalqı cəlb edib, həm də dövlətin imkanlarını toplayıbdır.

Keçmişdə, Sovet İttifaqı vaxtında eroziyaya qarşı mübarizəyə, meliorasiyaya, torpaqların şoranlaşması qarşısının alınmasına, yaxud şoranlaşmış torpaqların yuyulmasına çox pul xərclənirdi. İndi isə bizim iqtisadi imkanımız pisdir. Ancaq hər halda meşələri qoruya bilərik, yaşıllaşdırmanı inkişaf etdirə, yeni meşələr saldıra bilərik. Məsələn, otuz il öncə biz Bakının yaşıllaşdırılması problemini qaldırdıq. Düzdür, arada beş-altı il buna xəyanət oldu, amma görürsünüz, son beş-altı ildə Bakıda yenə də hər yerdə ağaclar əkilir, yaşıllaşdırmaya diqqət artırılır.

Mən bu gün İsparta şəhərinə getmişdim. Orada da hava limanından gedəndə yolun qırağında şam ağacları var. Bir hissəsi qalxıbdır, görünür, beş-altı-yeddi-səkkiz il bundan öncə əkiblər. Amma bir hissəsi balaca ağaclardır, bunlar da böyüyəcəkdir. Yəni bu işləri görmək, xalqı bu işə cəlb etmək olar. Orada belə bir təşəbbüs qaldırıblar ki, gərək hər bir vətəndaş doqquz ağac yetişdirsin. Şübhəsiz ki, meyvə ağaclarından yox, yaşıllaşdırma üçün əkilən ağaclardan söhbət gedir. Mən bu tədbirdə iştirak etməyimdən məmnunam. Bu bizim üçün xeyirlidir.

Bu gün səhər tezdən hörmətli prezident Süleyman Dəmirəllə bərabər İspartaya getmişdik. Bilirsiniz ki, İsparta onun vətənidir. İsparta vilayətdir, İsparta şəhərinin 450 min əhalisi var. Bu şəhər də çox inkişaf edib və təbiidir ki, bu işlərin çoxu prezident Süleyman Dəmirəlin himayəsi altında aparılır. Dövlət də çox işlər görür, amma şirkətlər, vəqflər də edirlər. Məsələn, Süleyman Dəmirəlin qardaşı var – Şövkət Dəmirəl – o öz puluna ürək-damar cərrahiyyəsi xəstəxanası tikibdir, dediyinə görə, altı milyon dollar xərcləyibdir. 93-cü ildə o da mən keçirdiyim əməliyyatı keçiribdir. Yəqin ondan sonra görüb ki, bu insanlara nə qədər lazımdır, öz pulunu xərcləyibdir, iş adamıdır. Xəstəxana tikib, onu cihazlarla yüksək səviyyədə təmin ediblər.

Xəstəxananın açılışı oldu, ona baxdıq. Orada yeni bir məktəb tikilmişdir, onun açılışı oldu, ona baxdıq. Orada böyük bir mədəniyyət mərkəzi tikilibdir. Vaxtilə bunların təməlini prezident Süleyman Dəmirəl özü atıbdır. Ona görə açılışında da iştirak edirdi, məni də dəvət eləmişdi. Mədəniyyət mərkəzi böyük kompleksdir. Böyük salonları var – həm müxtəlif konqreslər keçirmək, həm konsert vermək, yaxud da toy mərasimləri, başqa mərasimlər keçirmək olar. Çox gözəldir. Orada günorta bir az yemək yedik.

İspartada yeddi il bundan öncə universitet yaranıb və Süleyman Dəmirəl adınadır. Təbiidir ki, dövlət universitetidir. Amma orada bəzi binaları, deyəsən, Süleyman Dəmirəlin qardaşı Şövkət Dəmirəl tikibdir. Universitet böyükdür, orada 25 min tələbə oxuyur, neçə min də müəllimi, professorları var. Yeddi ildə çox böyüyüb, amma yenə də genişlənir. Şəhərin kənarında universitet şəhərciyi yaranıbdır. Onun tibb fakültəsinin binası tikilir, səkkiz mərtəbəsi qalxıb, ona da baxdıq.

Mənə universitetin fəxri doktoru adı vermişdilər. Şimali Kipr Türk Cümhuriyyətinin başçısı Rauf Denktaşa da fəxri doktor adı vermişdilər. Bu mərasim oldu. Mərasim də çox böyük idi: rektor danışdı, milli təhsil naziri, səhiyyə naziri, başqaları danışdılar. Sonra da Süleyman Dəmirəl çox dəyərli nitq söylədi. Bizə fəxri doktor diplomları verdilər. Şübhəsiz ki, hər birimiz nitq söylədik. Əgər vaxtınız olsa, televiziya vasitəsilə baxarsınız. Bunlar hamısı bu gün olub, səhər saat 9-da biz Ankaradan uçduq, indi də İspartadan iki saat yarım yol gəlmişəm.



Təbiidir ki, Türkiyə prezidenti Süleyman Dəmirəl ilə Türkiyə-Azərbaycan əlaqələri haqqında, Ermənistan-Azərbaycan münaqişəsinin həll olunması haqqında, başqa problemlər barədə söhbətlərimiz oldu. Dünən axşam biz təkbətək görüşdük, bir yerdə yemək yedik və danışıqlar apardıq. Mərasim zamanı da bir yerdə idik, amma dünən axşam toplantıdan sonra buna xüsusi vaxt sərf etdik. Bunlar da çox əhəmiyyətlidir.

Türkiyədə yeni hökumətdir, yeni nazirlər var. Bizi üç-dörd nazir müşayiət edirdi. Onlarla görüşdük, danışdıq. Bunlar hamısı bizim ölkələrimizi bütün sahələrdə bir-birinə daha da yaxınlaşdırmaq üçün, əməkdaşlığı inkişaf etdirmək üçün lazımdır. Mən bu səfərdən çox məmnunam. Düzdür, buna iki gün vaxt getdi, amma çox məmnunam.

## UKRAYNAYA İŞGÜZAR SƏFƏRƏ YOLA DÜŞMƏZDƏN ƏVVƏL BİNƏ HAVA LİMANINDA JURNALİSTLƏRİN SUALLARINA CAVAB

*30 noyabr 1999-cu il*

**S u a l :** Cənab Prezident, Ukraynaya Sizin hər bir səfəriniz xalqlarımız arasındakı əlaqələrin sıxlaşdırılmasına çox böyük kömək göstərir. Bu səfəriniz barədə nə deyə bilərsiniz?

**C a v a b :** Məlumdur ki, Ukraynada prezident seçkiləri keçirilibdir. Leonid Kuçma yenidən prezident seçilibdir. Bununla əlaqədar bu gün andiçmə mərasimi keçiriləcəkdir. O mənə müraciət edib, yəni dəvət edibdir.

Hər bir ölkənin öz adəti var. Belə hallarda adətən başqa ölkələrdən dəvət olmur. Ancaq vaxtilə Boris Yeltsin öz andiçmə mərasiminə məni dəvət etmişdi. İndi də Leonid Kuçma dəvət edibdir. Mən də bu dəvəti qəbul etmişəm, oraya gedirəm. Çünki Ukrayna ilə Azərbaycan arasında yaxın dostluq əlaqələri vardır.

Bu yay mövsümündə taxıl yığımı zamanı vəziyyət ağır olduğuna görə biz onlara çox yaxşı kömək etdik, istənilən qədər yanacaq verdik. Ukraynaya Rusiyadan, başqa yerlərdən gələn yanacaq nədənsə kəsilmişdi. Taxıl məhsulunun toplanması təhlükə altında idi. Onlar mənə müraciət etdi, Ukraynanın baş naziri buraya gəldi. Biz onlara təcili olaraq yanacaq göndərdik. Ancaq təkcə bu deyil. Bizim ölkələrimiz arasında həm siyasi, həm iqtisadi əlaqələrimiz çox yaxındır. Ona görə də mən bu dəvəti qəbul etmişəm və oraya gedirəm, axşam da qayıdacağam.

**S u a l :** Cənab Prezident, Siz orada digər görüşlər keçirəcəksinizmi?

**C a v a b :** Orada proqram çox gərgindir. Mən inanmıram ki, belə bir şey ola bilsin.

**S u a l :** Cənab Prezident, Ukrayna ilə Azərbaycan arasında ikitərəfli əməkdaşlığa dair sənədlər imzalanacaqmı?

**C a v a b :** Azərbaycan ilə Ukrayna arasında çox yaxşı əlaqələr vardır və bu əlaqələr inkişaf edir. Sağ olun.



## BİNƏ HAVA LİMANINDA JURNALİSTLƏRİN SUALLARINA CAVAB

*2 dekabr 1999-cu il*

**Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Bolqarıstan prezidenti Petr Stoyanovun Bakıya rəsmi səfərə gəlişindən əvvəl Binə hava limanında jurnalistlərlə görüşərək onların suallarına cavab vermişdir.**

**Dövlətimizin başçısı Heydər Əliyev dedi:**

– Salaməleyküm. Necəsiniz, kefiniz necədir, nə yazırsınız? Müxalifət yalan-yalan şeylər, uydurmalar yazır. Siz niyə belə edirsiniz? Hər şeyi düz yazın. Çalışırsınız ordan-burdan yalan bir şey çıxarasınız.

**M ü x b i r :** Cənab Prezident, Siz konkret nəyi deyirsiniz?

**H e y d ə r Ə l i y e v :** Elə sənin o yazdıqlarından yüz dənəsini çıxararam.

Bilirsiniz, mətbuatın azadlığı çox gözəl şeydir. Ancaq mən bunu bir neçə dəfə demişəm, bizim bu mətbuat verilən azadlıqdan xəstəlik dövrünü keçirir. Amma mən inanıram ki, bu xəstəlik keçəndən, sizin üçün keçid dövrü keçəndən sonra, hər şey daha yüksək səviyyəyə qalxandan sonra sizin yazılarınız daha yaxşı olacaqdır. Ona görə də mən sizin bu cür yazılarınıza o qədər də təəccüblənmirəm. İndi yalanlar, böhtanlar, uydurmalar yazırsınız, o cümlədən mənim haqqımda. Məni bunlar narahat etmir. Siz bilin ki, mənim əleyhimə nə qədər çalışıb yazsanız, mən narahat olmayacağam. Mən heç bundan incimirəm. Ona görə də ədalətli olun, düz yazın. Çünki gərək azad mətbuatın ədalətliliyinə öyrənəsiniz.

**S u a l :** Cənab Prezident, Bakı-Ceyhan neft kəməri barədə saziş imzalanmayana qədər Azərbaycan bildirirdi ki, o, balanslaşdırılmış siyasət yeridir. İndi Bakı-Ceyhan kəməri haqqında saziş imzalandı. Bundan sonra demək olarmı ki, Azərbaycan qərbyönlü siyasət yeridəcəkdir?

**C a v a b :** Elə bilirsən ki, balanslaşdırılmış siyasəti biz elə Bakı-Ceyhana görə həyata keçiririk? Bakı-Ceyhan bizim işimizin bir hissəsidir. Biz ümumi siyasət aparırıq. Siyasətin çox cəhətləri vardır. Bu bizim işimizin bir hissəsidir. Amma bizim işimiz Bakı-Ceyhan ilə qurtar-

mır. Biz müstəqil dövlətik və müstəqil siyasət aparırıq. Onu da görürsünüz. Ancaq eyni zamanda, biz istəyirik ki, hər bir ölkə ilə əlaqələrimiz normal olsun. Biz heç bir ölkə ilə əlaqələrimizi pozmaq istəmirik. Hətta bizimlə əlaqələrini pozmaq istəyən ölkələrə də istəyirik başa salaq ki, onlar düz hərəkət etmirlər. Bu nəyə lazımdır? Biz balaca bir ölkəyik, ağır bir şəraitdə yaşayan ölkəyik. Ərazimizin 20 faizi işğal olunubdur. Bir milyondan artıq qaçqınımız vardır.

Bizim strateji vəziyyətimiz çox dəyərlidir. Yəni mən bunu Bakı-Ceyhanın yekunları haqqında danışanda nitqimdə dedim. Bu gün bizim təbii sərvətlərimiz ən qiymətli sərvətlərimizdir. Xüsusən yeraltı sərvətlərimiz. Bir də ölkə üçün, müstəqil dövlət üçün bizim ən qiymətli sərvətimiz geostrateji, geosiyasi vəziyyətimizdir. Bu bizim üçün həm müsbətdir, yəni bizə xeyirlər gətirir. Amma eyni zamanda bu, müxtəlif ölkələrin bizə olan münasibətlərinin kəsişdiyi bir yerdir. Ona görə burada gərək həqiqətən balanslı siyasət aparaq. Ümumiyyətlə, balanslı siyasət həmişə düzgün siyasətdir.

XX əsr sona çatır, XXI əsrə keçirik. İndi o böyük müharibələr də qurtardı, «soyuq müharibə» də qurtardı. İndi münasibətləri yenidən kəskinləşdirməyə ehtiyac yoxdur. Bu, təkcə bizim siyasətimiz deyildir. Bu, dünyada gedən proseslərdir. Biz də bu proseslərin axarında gedirik. Biz bu siyasəti bundan sonra da davam etdirəcəyik.

**S u a l :** Cənab Prezident, Putinlə görüşünüz barədə məlumat verərdinizmi?

**C a v a b :** Putinlə görüşüm çox yaxşı görüş oldu. Biz çox ətraflı danışdıq. Bizi müşayiət edənlər yazdılar – biz bir saat qırx dəqiqə danışdıq. Çox ətraflı danışdıq. Buna da ehtiyac var idi. Çünki çoxdandı Rusiyanın rəhbərliyi ilə belə geniş söhbətimiz olmamışdı. Prezident Boris Yeltsin tez-tez xəstə olur. Bilirsiniz ki, mən onunla son vaxtlar bir dəfə telefonla danışmışam. Orada hökumət dəyişilir – birini təyin edirlər və bir neçə aydan sonra çıxarırlar. Ona görə də bu görüşə onların tərəfindən də, bizim tərəfimizdən də ehtiyac var idi və biz bu fürsətdən istifadə etdik. Demək olar ki, çox ətraflı söhbət etdik, bir çox məsələlərə aydınlıq gətirdik.

O viza məsələsi sizi narahat etməsin və heç kəsi narahat etməsin. Bu, sadəcə, indi müəyyən bir şəraitdə ortaya atılmış bir sözdür. Bunu onlar deyəndə də mən narahat olmadım. Bildim ki, bunu müəyyən bir təsir üçün edirlər, yaxud nə üçünsə edirlər. Ancaq hesab edirəm ki, bu



o qədər əhəmiyyətli bir şey deyildir. Biz o vəziyyətə gəlib çatmayacağıq ki, Rusiya ilə Azərbaycan arasında viza əlaqələri olsun. Amma eyni zamanda, orada Putin elə mətbuat nümayəndələri qarşısında dedi ki, bir neçə problem vardır. Məsələn, pensiyaların oradan buraya keçirilməsi, sonra onlar bu pulkeçirmə ilə əlaqədar orada müəyyən çətinliklər yaradıblar. Söz verdi ki, onları da həll etsinlər. Hər halda görüşümüz çox əhəmiyyətli oldu. Mən bu görüşümdən çox razıyam.

**S u a l :** Cənab Prezident, yaxın vaxtlarda prezident Koçaryanla görüşünüz nəzərdə tutulurmu?

**C a v a b :** Sən belə sualları mənə niyə verirsən? Mən sənə neçə dəfə demişəm.

**S u a l :** Cənab Prezident, ATƏT-in nümayəndələrinin yaxın vaxtlarda bölgəyə ziyarəti gözlənilirmi?

**C a v a b :** Bilmirəm nə vaxt ziyarət edəcəklər, amma ziyarət edəcəklər.

**S u a l :** Bu ziyarət çərçivəsində sülh sazişi ilə əlaqədar yeni təkliflər gözlənilirmi?

**C a v a b :** Bunu onlar bilir.

**S u a l :** Cənab Prezident, Petr Stoyanov Sofiyadan yola düşməzdən əvvəl bəyan etmişdi ki, Bakıda iki məsələyə – neft nəqli və Qarabağ probleminin həllinə onların köməyi məsələlərinə baxılacaqdır. Onlar bu sahədə bizə necə kömək edə bilərlər?

**C a v a b :** Qoy gəlsin, desin görək.

**S u a l :** Cənab Prezident, Bolqarıstanın keçmiş prezidenti Jelyu Jelev vaxtilə Bakıda olanda bildirmişdi ki, Bolqarıstanın GUÖAM-a daxil olması məsələsi müzakirə edilə bilər. İndi Petr Stoyanovla görüşdə bu barədə danışılacaqmı?

**C a v a b :** Axı Jelyu Jelev indi prezident deyildir. O, şəxsi adamdır və çox söz deyə bilər. Biz gərək öz münasibətlərimizi prezidentin sözləri ilə müəyyən edək.

**S u a l :** Cənab Prezident, son vaxtlar istefa verənlər deyirlər ki, guya onlar özləri istefa verib çıxıblar. Bununla da özlərini qəhrəman hesab edirlər. Ümumiyyətlə, vəziyyət necədir? Onlar özləri istefa veriblər?

**C a v a b :** Qoy qəhrəman olsunlar. Kim qəhrəman olmaq istəyir, qoy olsun. Azərbaycanda o qədər qəhrəman olmaq istəyənlər var, niyə başqaları qəhrəman olurlar, amma onlar olmurlar? Qoy onlar da qəhrəman olsunlar.

**Müxbir:** Mən «Turan» agentliyindənəm.

**Heydər Əliyev:** «Turan» agentliyi həmişə çox yaxşı məlumatlar yayır, amma yalan məlumatlar da yayır. Operativliyinizə, əlaqələrinizə görə mən sizin agentliyi çox qiymətləndirirəm. Amma uydurma şeylər yazdığınıza görə sizin bu işlərinizi bəyənmirəm. Buyurun, nə demək istəyirsiniz?

**Sual:** Mənim sualım Ermənistan-Azərbaycan münaqişəsi ilə bağlıdır. İstanbul sammiti ərəfəsində Amerika Birləşmiş Ştatları Ermənistanla Azərbaycan arasında çərçivə sazişinin imzalanmasını təklif edib?

**Cavab:** Elə bir şey yoxdur.

**Sual:** Ermənistanla Azərbaycan arasında sülh sazişinin imzalanmasından əvvəl münaqişənin həllolunma prinsipləri ilə bağlı çərçivə sazişi imzalanmasını tövsiyə etmişdilər. Yəni bu, məktubda da var idi. Bu barədə nə deyə bilərsiniz?

**Cavab:** Klintonun məktubunda elə bir şey var idi.

**Sual:** Biz də onu bilmək istəyirik. Onlar ATƏT-in İstanbul sammitinə kimi bunu gözləyirdilər. ATƏT-in İstanbul sammiti başa çatdı və heç nə olmadı. Hazırda vəziyyət nə yerdədir?

**Cavab:** Bilirsiniz, həyat belədir ki, bu gün bir şey istəyirsən – alınmır. Sabah bir şey meydana çıxır. Ona görə də belə şeyləri əvvəldən proqnozlaşdırmaq olmaz.

**Sual:** Cənab Prezident, Türkiyəyə son ziyarətiniz zamanı bir çox tədbirlərdə iştirak etdiniz, o cümlədən Süleyman Dəmirəl adına Universitetdə oldunuz. Son zamanlar Türkiyə ilə Azərbaycan arasında təhsil sahəsində əlaqələr genişlənir. Azərbaycanlı tələbələr Türkiyədə, türkiyəli tələbələr Bakıda təhsil alırlar. Bununla bağlı hər hansı bir görüşünüz oldumu?

**Cavab:** Sən öz sualına özün cavab verdin. Təhsil əlaqələri çox gözəldir. Azərbaycan tələbələri Türkiyədə təhsil alırlar, Türkiyənin tələbələri Azərbaycanda təhsil alırlar. Mənim İspartada Süleyman Dəmirəl adına universitetdə olmağım da, orada görüşməyim də – bunlar hamısı onu göstərir ki, biz Türkiyə ilə Azərbaycan arasında bütün sahələrdə əlaqələri daim inkişaf etdiririk. O cümlədən təhsil sahəsində.

**Sual:** Cənab Prezident, dekabr ayında Tbilisidə üç Cənubi Qafqaz ölkəsinin prezidentlərinin görüşü gözlənilirdi. Bu nə yerdə qaldı?

**Cavab:** Biz ondan imtina etdik.



**Müxbir:** Amerikanın 14 konqresmeni Azərbaycanda bələdiyyə seçkilərinin demokratik keçirilməsi barədə Sizə müraciət etmişdi.

**Heydər Əliyev:** Siz onu haradan götürmüsünüz?

**Müxbir:** Müraciət bizə ingilis dilində gəlmişdi.

**Heydər Əliyev:** Nə vaxt gəlmişdi?

**Müxbir:** Bir neçə gün əvvəl.

**Heydər Əliyev:** Onu siz məndən tez oxumusunuz. Amma hələ mən oxumamışam. Ancaq bunlar əbəs şeylərdir. Bilirsiniz, biz heç kəsin diktəsi ilə, heç kəsin arzusu ilə – yəni mən ayrı-ayrı fərdləri, qurumları və s. deyirəm – işimizi qurmuruq. Azərbaycanda bələdiyyə seçkiləri tam demokratik şəkildə keçiriləcəkdir. Buna heç kəsin şübhəsi olmasın. İndi onların sayı yadımdan çıxıbdır, deyirlər ki, 24 min namizəd vardır. Onların böyük bir hissəsi müxalifətdə olan partiyalardan namizədliklərini veriblər. Bu nə məsələdir ki, ona Amerika konqresmeni müraciət etsin? Bu onun şəxsi işidir – müraciət edə bilər, edə bilməz. Amma biz işimizi onların heç birinin sözü ilə qurmuruq. Biz işimizi özümüz qururuq.

## BİRGƏ MƏTBUAT KONFRANSI

*2 dekabr 1999-cu il*

**Azərbaycan prezidenti Heydər Əliyev və Bolqarıstan prezidenti Petr Stoyanov Prezident Sarayında ikitərəfli sənədlər imzalandıqdan sonra birgə mətbuat konfransı keçirdilər. İki dövlətin başçıları jurnalistlərin suallarına cavab verməzdən əvvəl bəyanatla çıxış etdilər.**

### AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEVİN BƏYANATI

– Hörmətli cənab Prezident Petr Stoyanov!

Bolqarıstan nümayəndə heyətinin hörmətli üzvləri! Xanımlar və cənablar!

Bolqarıstan prezidentinin bu gün səhər Azərbaycana rəsmi səfəri başlanmışdır. Bu, dövlətlərimiz müstəqillik əldə etdikdən sonra Bolqarıstan prezidentinin ölkəmizə ilk rəsmi səfəridir.

Səfər mənim dəvətimlə edilir. Şadam ki, cənab prezident mənim dəvətimi qəbul etmişdir.

Artıq bu gün biz yaxşı işlədik. Təkbətək görüşümüz oldu. Dövlətlərarası münasibətlərə aid bir çox məsələləri, Bolqarıstanla Azərbaycan arasında əməkdaşlığın daha da inkişaf etdirilməsi, dostluğun möhkəmləndirilməsi problemlərini, xüsusən Azərbaycanın, Xəzər dənizinin enerji ehtiyatlarından Bolqarıstanın bəhrələnməsinə, Böyük İpək Yolunun bərpası proqramının, TRASEKA, İNOQEYT proqramlarının həyata keçirilməsinə aid problemləri müzakirə etdik. Biz həmçinin fikir mübadiləsi apardıq, beynəlxalq həyatın problemlərinə aid məsələləri müzakirə etdik. Bolqarıstan da, Azərbaycan da Avropa qitəsində yerləşir, biz ATƏT-in, bir çox digər Avropa təşkilatlarının və beynəlxalq təşkilatların üzvləriyik, Şimali Atlantika İttifaqı ilə əməkdaşlıq edirik. Buna görə də bir çox məsələlər var ki, onların barəsində fikir mübadiləsi aparmaq lazım idi.

Məmnunluqla deyə bilərəm ki, bizim bu söhbətimiz çox səmərəli, çox maraqlı oldu və bir çox məsələlərdə, demək olar, bütün məsələlərdə yekdil fikirdə olduq, eyni mövqelərdən çıxış etdik.



Mən buna şadam, çünki Azərbaycan dünya ölkələri ilə, xüsusən Avropa ölkələri ilə öz münasibətlərini genişləndirməyə, Avropa strukturlarında əməkdaşlıq etməyə çalışır. Ona görə də söhbətimiz bu baxımdan qarşılıqlı surətdə çox faydalı oldu.

Nümayəndə heyətlərinin görüşü keçirildi. Bu görüş də, dostluq, qarşılıqlı anlaşma ruhunda, ən xoş ab-havada oldu. Biz dövlətlərarası sənədlər imzaladıq. Bu sənədlər arasında, əlbəttə, Bolqarıstanla Azərbaycan arasında münasibətlərin daha da inkişaf etdirilməsi haqqında cənab prezident Petr Stoyanovla mənim tərəfimdən imzalanmış siyasi bəyannamə böyük əhəmiyyətə malikdir.

Deməliyəm ki, 1995-ci ildə Bolqarıstana rəsmi səfərim zamanı bir sıra sənədlər imzalanmışdır, Bolqarıstanla Azərbaycan arasında dostluq münasibətlərinin və əməkdaşlığın inkişaf etdirilməsi haqqında saziş həmin sənədlər arasında ən əhəmiyyətlisidir. Bu sənədlər öz rolunu oynamışdır, Bolqarıstanla Azərbaycan arasında dostluq münasibətlərinin inkişafı haqqında əsas sənəd uzunmüddətli əhəmiyyətə malikdir.

Bu gün imzalanmış sənədlər isə, təbii olaraq, suveren, müstəqil dövlətlərimiz arasında müqavilə-hüquqi bazanı genişləndirir, dostluq münasibətlərimizin daha da inkişaf etməsi üçün, bütün sahələrdə əməkdaşlığımızın dərinləşməsi və genişlənməsi üçün daha əlverişli zəmin yaradır.

Buna görə də Bolqarıstan prezidentinin artıq başlanmış olan səfərindən, görülmüş işlərdən, imzalanmış sənədlərdən böyük məmnunluq duyduğumu bildirirəm və sözü qonağımıza verirəm.

### BOLQARISTAN PREZİDENTİ PETR STOYANOVUN BƏYANATI

– Hörmətli cənab Prezident Heydər Əliyev!

Hörmətli xanımlar və cənablar!

Fəxr etdiyimi demək istəyirəm ki, mən Bolqarıstan dövlətinin Azərbaycana səfərə gəlmiş ilk başçısıyam. Cənab Prezident, dəvətə görə Sizə təşəkkür edirəm.

Bu gün biz çox mühüm sənədlər imzaladıq və hesab edirəm ki, bununla da müqavilə bazamızı rəsmiləşdirərək irəliyə doğru böyük addım atdıq. Əlbəttə, müqavilə-hüquqi əsas çox vacibdir. Lakin bu əməkdaşlıqda irəliləmək üçün qarşılıqlı arzularımız da çox vacibdir. Jurnalistlərin bəzi suallarını qabaqlayaraq, bəri başdan deyim ki, bu əməkdaşlığın zənginləşdirilməsi aydın siyasi iradənin təzahürüdür.

Biz nəinki iqtisadi, siyasi əməkdaşlıqdan, həm də mədəni və elmi əməkdaşlıqdan danışdıq. Bu isə xalqları bir-birinə tanıtmaq üçün bütün imkanlardan istifadə etmək deməkdir.

Mən daha təfərrüata varmayacağam, çünki ümumi iclas sizin qarşınızda keçdi və siz söhbətin bütün təfərrüatını eşitdiniz.

Mənə elə gəlir ki, mən yalnız bir təfərrüatı – Prezident Heydər Əliyevlə təkbətək görüşdə toxunduğum təfərrüatı buraxmışam. Biz TRASEKA və İNOQEYT kimi çoxcəhətli layihələr barədə öz təsəvvürümüzü uyğunlaşdırmaq barədə razılığa gəldik. Məsələn, mən Azərbaycanın yardımına görə cənab Heydər Əliyevə təşəkkür etdim, ona görə ki, Bolqarıstan öz yüklərinin daşınmasında heç bir maneələrlə qarşılaşmır, çünki Azərbaycan burada əsas dövlətdir. Hesab edirəm, bu baxımdan Azərbaycanı nümunə göstərmək olar, çünki Bakı bəyannaməsi rüsumların, gömrük tariflərinin qaldırılmasına deyil, bütün daşımaların asanlaşdırılmasına yönəldilmişdir.

Mən bu məsələ üzərində dayanmağa söz vermişdim və sualları gözləyirəm.

* * *

**Sonra Azərbaycan prezidenti Heydər Əliyev və Bolqarıstan prezidenti Petr Stoyanov jurnalistlərin suallarına cavab verdilər.**

**Sual:** Cənab Heydər Əliyev, sual Sizədir. Bakı-Ceyhan haqqında saziş imzalandıqdan sonra Sizin Bolqarıstan ərazisi ilə ikinci boru kəməri çəkmək üçün ehtiyatlarınız olacaqmı?

**Heydər Əliyev:** Bunlar qətiyyən bir-birinə zidd deyildir və bir-birinə mane olmur. Xəzər dənizinin Azərbaycan sektorundakı zəngin neft yataqlarının işlənməsi haqqında 1994-cü ildə biz iri beynəlxalq neft şirkətləri ilə birinci müqaviləni – «Əsrin müqaviləsi» adlandırılmış müqaviləni imzaladıqda, təbii olaraq, neftin dünya bazarlarına nəql edilməsi imkanlarını da nəzərdə tutmuşduq. Buna görə də deməliyəm ki, biz qısa müddətdə çox işlər görmüşük. Bakı-Novorossiysk neft kəmərini çəkmişik. İmzalanmış müqavilə əsasında hasil olunmuş nefti artıq 1997-ci ilin noyabrında bu boru kəməri ilə ixrac etməyə başlamışıq. Biz Bakı-Supsa neft kəmərini çəkmişik və cari ilin aprelində onun açılış mərasimi olmuşdur. Ötən aylar ərzində bu boru kəməri ilə üç milyon tondan çox neft vurulmuşdur. Bu neft kəmərlərinin hər ikisi Qara dənizin limanlarına gedir. Bolqarıstan da Qara dəniz ölkəsidir. Buna











görə də neftin bu boru kəmərləri ilə Bolqarıstana çatdırılması imkanları tamamilə realdır. Elə Bakı-Ceyhan boru kəməri də neftin bu iki boru kəməri ilə nəqlinə əsla mane olmur.

Bu gün mən cənab prezidentlə danışdım ki, Azərbaycanda – həm Xəzər dənizinin Azərbaycan sektorunda, həm də quruda neft və qaz ehtiyatları olduqca böyükdür. Son beş ildə dünyanın inkişaf etmiş neft şirkətləri ilə əməkdaşlıq şəraitində müasir texnika və texnologiyalar əsasında işlədikcə, güman etdiyimizdən də çox ehtiyatlar aşkara çıxarmışıq. Buna görə də istər Bakı-Ceyhan, istər Bakı-Supsa, istərsə də Bakı-Novorossiysk neft kəmərləri tamamilə doldurulacaqdır. Əgər böyük bir arzu olarsa, onda Bakı-Burqas boru kəmərini də çəkərik.

**Sual:** Cənab Stoyanov, Bolqarıstanın Azərbaycandan enerji daşıyıcıları almasına dair layihə siyasi cəhətdən nə dərəcədə məqsədəuyğundur? Məlum olduğu kimi, Siz artıq onları Rusiyadan və İrandan alırsınız. İkinci sual: Siz Azərbaycan sektorundan hansı həcmdə neft almağa hazırsınız?

**Petr Stoyanov:** Məsələ burasındadır ki, biz həcm barəsində hələ danışmamışıq. Bu, prezidentlərin işi deyildir.

Hər bir suveren dövlət kimi, Bolqarıstan da istəyir ki, onun müxtəlif mənbələri olsun. Söhbət heç də təkcə Bolqarıstanın özündən getmir, söhbət Bolqarıstanın tranzit mövqeyindən gedir; söhbət ondan gedir ki, neft və qaz Bolqarıstan vasitəsilə Qərbi Avropaya göndərilə bilər.

**Sual:** «Sülh naminə tərəfdaşlıq» proqramı çərçivəsində Azərbaycanın və Bolqarıstanın əməkdaşlığı məsələləri müzakirə olundumu? Balkan yarımadasında, xüsusən Kosovoda vəziyyət müzakirə edildimi?

**Petr Stoyanov:** Bəli, bu gün «Sülh naminə tərəfdaşlıq» proqramı çərçivəsində əməkdaşlıq nümayəndə heyətlərimiz arasında müzakirə olundu. Burada təəccüblü bir şey yoxdur. Biz hamımız bu proqramdayıq və onun daxilində öz əməkdaşlığımızı genişləndirə bilərik.

Mən Balkan yarımadasında vəziyyət haqqında, onu Bolqarıstanda necə təsəvvür etdiyimiz barədə fikrimi Prezident Heydər Əliyevlə bölüşdüm. Arzumuz budur ki, Yuqoslaviyada sülh və demokratiya həmişəlik bərqərar olsun və beləliklə, Bolqarıstan öz tranzit mövqeyindən daha yaxşı istifadə edə bilsin. Bolqarıstanın bütün qonşuları ilə münasibətləri əladır. Buna görə də hesab edirik ki, bu həmin regionun inkişaf etməsi üçün, buraya daha çox sərmayə qoyulması üçün əsas şərtdir.

**H e y d ə r Ə l i y e v :** Mən prezident Petr Stoyanovun dediklərinin hamısını təsdiqləyirəm. Demək istəyirəm ki, biz bir çox məsələlər barəsində fikir mübadiləsi apardıq, o cümlədən mən hörmətli prezidentə Cənubi Qafqazdakı vəziyyət haqqında, Ermənistan-Azərbaycan münaqişəsi haqqında, bu məsələni dinc yolla həll etmək, əməkdaşlığın daha da genişləndirilməsi naminə Cənubi Qafqazı sülh və sakitlik zonasına çevirmək cəhdlərimiz haqqında məlumat verdim.

Prezident Petr Stoyanov bu fikrə tamamilə şərik çıxır və bu problemlərə bələd olduğundan həmçinin hesab edir ki, bu, bölgəmiz üçün çox faydalı olacaqdır. Bir sözlə, gördüyünüz kimi, hazırda Balkan yarımadası və Qafqaz dünyanın çox mühüm bölgələridir, bütün Dünya Birliyinin diqqətini cəlb edir. Belə düşünürəm ki, fikir mübadiləmiz bu problemlə bağlı məsələlərdə hər ikimizi zənginləşdirdi.

**S u a l :** Cənab Stoyanov, indi Bolqarıstanın GUÖAM-a daxil olması imkanlarından çox danışırlar və Moskvada, Bakıda bəzi analitiklər ciddi surətdə belə hesab edirlər ki, əgər Bolqarıstanın ərazisi ilə Bakı-Burqas boru kəməri çəkilərsə, Bolqarıstan GUÖAM-a daxil olmağa hazırdır. Bu məlumat nə dərəcədə ciddidir?

**P e t r S t o y a n o v :** Bu, indiki halda Bolqarıstanın qarşısında duran heç də ən ciddi vəzifə deyildir. Amma bu, əsla o demək deyil ki, biz əməkdaşlığı inkişaf etdirmək istəmirik. Əksinə, biz GUÖAM-ın hər bir dövləti ilə və bütövlükdə GUÖAM ilə əməkdaşlığı fəal inkişaf etdirməyi çox istəyirik.

Bakı-Burqas boru kəmərinə dair ikinci sualınıza gəldikdə, belə düşünürəm ki, bu çox ciddi layihədir. Burqas çox güclü neft limanıdır və biz onu daha da modernləşdirəcəyik. Biz artıq imkanlı holland sərmayədarları ilə bu barədə danışıqlar aparırıq. Bölgəmizdə ən iri neftayırma zavodlarından biri Burqasda yerləşir. Burqas səkkiz nömrəli dəhlizin marşrutu üstündədir. Bir sözlə, bu şəhər təkcə neft və qazın deyil, eləcə də hər hansı məhsulun ixracı üçün çox münasib yerdir.

Azərbaycan Prezidenti Heydər Əliyev və Bolqarıstan Prezidenti Petr Stoyanov jurnalistlərə təşəkkür etdilər.



## RUSİYA JURNALİSTLƏRİ QRUPU İLƏ GÖRÜŞ

*Bakı, Prezident Sarayı*
*25 dekabr 1999-cu il*

**Azərbaycan Prezidenti Heydər Əliyev Prezident Sarayında Rusiya jurnalistləri qrupunu qəbul etmişdir.**

Dövlətimizin başçısı qonaqlara müraciətlə dedi:

– Sizi, Rusiya, Moskva jurnalistlərini salamlayıram. Şadam ki, siz ölkəmizə – Azərbaycana diqqət göstərmisiniz.

Mənə dedilər ki, siz buraya bizim həyatımızla tanış olmağa gəlmisiniz və bundan, təbii olaraq hər bir jurnalistin etdiyi kimi, öz yazılarınızda istifadə etmək niyyətindəsiniz. Ümidvaram ki, siz bu baxımdan müəyyən iş görməyə müvəffəq olmusunuz, hərçənd ola bilsin, bundan ötrü Azərbaycana səfəriniz üçün ayırdığınız vaxtdan daha çox vaxt gərəkdir.

Buna baxmayaraq, hər bir belə fürsət ictimaiyyətimizdə, məndə məmnunluq hissi doğurur. Çünki Rusiya mətbuatı Azərbaycanda indiyədək geniş oxunur. Burada insanlar Rusiya mətbuatını oxuyur və əlbəttə, yazılar normal, yaxşı, obyektiv olduqda buna öz münasibətlərini bildirirlər. Şübhəsiz, adamlar sevinirlər ki, ölkəmiz haqqında, xalqımız haqqında doğru-düzgün yazırlar. Amma onlar hər cür iftiralar, uydurmalar və ya aşkar yalan gördükdə, əlbəttə, bu, adamları narahat edir və onlarda hətta hiddət, narazılıq doğurur.

Buna baxmayaraq, Rusiya mətbuatını oxuyurlar. Çünki bizdə, Azərbaycanda cəmiyyət, təbii ki, yekcins deyildir. Elə adamlar var ki, onlar həyatın real surətdə mövcud olan, yaxud özlərinə mənfi görünən hansısa tərəflərinin üzə çıxarılmasını istəyirlər. Təkrar edirəm, buna görə də heç nədən asılı olmayaraq oxuyurlar.

Mən bu mənada həmişə istəmişəm ki, Moskva jurnalistləri Sovet İttifaqı dağılandan sonra müstəqillik əldə etmiş MDB ölkələrində həyatı doğru-düzgün şəkildə işıqlandırsınlar. Çünki Rusiya böyük ölkədir və bizim üçün çox vacibdir ki, Rusiya ictimaiyyəti, hər halda mətbuatla, qəzetlərlə əlaqə saxlayan ictimaiyyət doğru-düzgün məlumatlandırılsın.

Biz şübhəsiz, deyə bilmərik ki, Azərbaycanda hər şey idealdır, hər şey yaxşıdır. Yox, bu belə deyildir. Hətta iqtisadi cəhətdən inkişaf et-

miş demokratik ölkələrdə də hər şey ideal deyildir. Buna görə də biz belə iddiada deyilik ki, haqqımızda yalnız və yalnız tərif yazılsın. Əksinə, burada olan və o qədər də aşkarlanmayan nöqsanların, qüsurların işıqlandırılması mənfi cəhət deyildir. Amma uydurmalar yazanda... təəssüf ki, təxminən 1986, 1987-ci illərdə hər cür uydurmalarla fərqlənməyə çalışan, bu uydurmaları həqiqət kimi qələmə verən jurnalistlər peyda olmağa başladı. Beləlari bu gün də var.

Bunlar mənim ümumi fikirlərimdir. Şübhəsiz ki, onların heç kimə, xüsusən də sizə birbaşa dəxli yoxdur. Bunu özümün belə bir fikrimi bir daha təsdiqləmək üçün deyirəm ki, Azərbaycanda Rusiya mətbuatına maraq böyükdür və istərdim, siz ölkəmizə diqqət yetirərək bu həqiqəti özünüz görəsiniz və bunu öz yazılarınızda mümkün qədər və ya özünüz bildiyiniz kimi işıqlandırasınız.

Siz üç gündür buradasınız. Bu çox vaxt deyildir. Buna baxmayaraq, müəyyən təsəvvür əldə etmək mümkündür. Mən buna şadam. Mənə dedilər ki, siz mənimlə görüşmək istəyirsiniz. Budur, mən sizinlə görüşə gəlmişəm. Sizi salamlayıram.

«Jurnalist» jurnalının baş redaktoru, Milli İnformasiya Palatasının prezidenti, Rusiya Jurnalistlər İttifaqının katibi, Rusiya Təbiətşünaslıq Elmləri Akademiyasının müxbir üzvü, Rusiyanın əməkdar mədəniyyət işçisi Gennadi Maltsev dövlətimizin başçısına təşəkkür edərək dedi:

– Biz həqiqətən Sizinlə görüşmək və fikrimizcə, zəmanəmizin və həyatımızın görkəmli siyasi xadimini salamlamaq istəyirdik. Şadıq ki, bizə Sizin kimi insanla bir zəmanədə yaşamaq nəsib olmuşdur. Rusiyada Sizə çox hörmət edir və Sizi xatırlayırlar.

Aramızda elə adamlar var ki, onlar Azərbaycanda doğulmuşlar, elələri var ki, burada olmuşlar, bəziləri də buraya ilk dəfə gəlmişlər. Deməliyəm ki, Bakıda olduğumuz elə ilk anlardan biz burada baş vermiş dəyişikliklərə heyran qaldıq – yeni hava limanını gördük, bu münasibətlə Sizi təbrik edirik, biz şəhərdə yeni tikintiləri, adamların yeni mənzillərə köçdüyünü və gözümüz önündə baş verən bir çox digər şeyləri gördük. Digər Qafqaz ölkələrində biz, təəssüflər olsun, hələlik belə şeylər görmədik.

Deməliyəm ki, mən öz səfərim barədə xüsusi olaraq car çəkməmişdim. Lakin səfərimiz ərəfəsində mən Moskvada, Mərkəzi Jurnalistlər Evində keçirilən jurnalist görüşlərindən birində oldum və orada jurnalistikamızın veteranı, «İzvestiya» qəzetinin veteranı Aleksandr Bovinlə, habelə Rusiya Vəkillər Gildiyasının prezidenti Həsən Mirzəyevlə rastlaşdım. Onlar məndən xahiş etdilər ki, imkan daxilində Sizə çoxlu salam yetirim. Çünki Sizi tanıyır, xatırlayır və Sizə böyük məhəbbət bəsləyirlər.



Biz Sizi müxtəlif siyasi məsələlər barəsində sorğu-suala tutmaq məqsədi güdmürük. Sadəcə olaraq Sizi görmək və Yeni Azərbaycan Partiyası qurultayının uğurla keçməsindən heyran qaldığımızı bildirmək istəyirdik. Biz qurultaya televiziya ilə baxdıq və düzü, çıxışınız dərc edilmiş qəzeti çətinliklə ala bildik.

**Heydər Əliyev:** Axı çıxış Azərbaycan dilində idi.

**Gennadi Maltsev:** Biz onu rusca tapdıq.

**Heydər Əliyev:** Onu rus dilinə tərcümə etmişlər? Birinci çıxışı da, ikincini – yekun çıxışını da?

**Dilarə Seyidzadə:** O, «Bakinski raboçi» qəzetində dərc edilmişdir.

**Gennadi Maltsev:** Heydər Əliyeviç, deməliyəm ki, biz bu çıxışda özümüz üçün bir çox gözlənilməz və jurnalistika baxımından faydalı cəhətlər tapdıq və onlardan öz işimizdə istifadə edə bilərik. Sizin bəzi bəyanatlarınız tamamilə yeni idi və zənnimizcə, müəyyən dərəcədə sensasiya xarakteri daşıyırdı.

Biz respublikanın neft sənayesinin inkişafı ilə də tanış olmaq istəyirdik – bu, səfərimizin məqsədlərindən biridir. Aramızda Rusiyada çox tanınan və iqtisadiyyat problemlərindən yazan üç jurnalist var. Biz bədən tərbiyəsi və idmanın inkişaf problemləri ilə də tanış olmaq istəyirdik – «Sportivnaya Moskva» qəzetinin baş redaktoru bizim aramızdadır. Biz XXI əsrdə Sizə kömək edəcək adamları, yəni yetişdirdiyiniz və gələcəkdə işləyəcək adamları da görmək istəyirdik. Biz belə adamları tapırıq və hesab edirik ki, onlar tamamilə layiqli və maraqlı insanlardır.

Aldığımız ilk təəssüratlar barədə bu qədər. Qalanlarını həmkarlarım danışarlar. Biz jurnalistlər arasında demokratiya var və hərə öz sözünü özü deyir. Dediklərim əsasən mənim təəssüratımdır, amma mənə elə gəlir ki, həmkarlarım da təxminən bu cür düşünürlər.

**Vladimir Sanko** *(«Nezavisimaya qazeta»nın şöbə müdirinin müavini)* : Mən Azərbaycanda doğulub boya-başa çatmışam. Valideynlərim burada 60 il yaşayıblar. Düzünü deyəcəyəm, Bakının köhnə Dağlıq məhəlləsini uşaqlıqdan xatırlayıram.

**Heydər Əliyev:** Siz orada yaşamısınız?

**V l a d i m i r S a n k o :** Xeyr, mən Sumqayıtda yaşamışam, lakin Bakıya gəlib-gedirdim və Bakının Dağlıq məhəlləsinə kifayət qədər yaxşı bələdəm. Mən burada 1990-cı ildən olmamışam və deməliyəm ki, bu müddət ərzində baş vermiş dəyişikliklərə heyran oldum. İnqilabdan sonra bütün Sovet dövrü ərzində mövcud olmuş köhnə evlərdən əsər-əlamət qalmayıbdır. Bu çox heyrətamiz və xoş idi.

**G e n n a d i M a l t s e v :** Vladimirin təmsil etdiyi «Nezavisimaya qazeta» Azərbaycanın neft sənayesinin inkişafı haqqında böyük material hazırlamaq istəyir. Bu, qrupumuzun tərkibində onun buraya səfərinin məqsədlərindən biridir.

**H e y d ə r Ə l i y e v :** Çox yaxşı.

**A l e k s e y M a k u r i n** *(«Komsomolskaya pravda»nın xüsusi müxbiri)* : Mən əvvəllər Uzaq Şərqdə, Amur vilayətində – BAM-ın çəkildiyi əsas vilayətdə işləməli olmuşam. Orada vilayət qəzetinin redaktoru idim. Təxminən iki il bundan əvvəl biz BAM-ın tikintisində Sizin iştirakınız haqqında material dərc etdik. Bunu danışmaqda məqsədim yaşlı həmkarımın dediyi bu sözləri təsdiq etməkdir ki, Rusiyanın uzaq bölgələrində də Sizi böyük səmimiyyətlə xatırlayırlar. Yadımdadır, məqalədə Sizin BAM-a gəlişiniz barədə fotoşəkil vardı. Orada yaşayan azərbaycanlılardan – axı Rusiyada çoxlu azərbaycanlı yaşayır – kimsə BAM-da keçirilmiş görüşlərdən söhbət açmışdı, bunu köhnə BAM-çılar da xatırlayırdılar. İndi Sizi burada, Azərbaycanda gümrah və güclü prezident kimi görmək çox xoşdur.

Heydər Əliyeviç, Siz bununla əlaqədar necə işlədiyinizdən danışa bilərsinizmi? Hiss olunur ki, Siz çox fəal Prezidentsiniz. Qurultaydakı çıxışınız da misilsizdir. Zənnimcə, təkcə Fidel Kastro hazırlıqsız üççıxışınız da misilsizdir... dörd saat danışa bilər. Siz buna necə müvəffəq olursunuz? Axı bilirik ki, Siz ağır xəstələnmişdiniz, üzərinizdə cərrahiyyə əməliyyatı aparılmışdı, buna baxmayaraq, Siz gecədən keçənədək işləyirsiniz. Yoxsa, səhv edirəm? Siz öz iş gününüzü necə qurursunuz? Bu barədə danışa bilərsinizmi? Bunu maraqlandığımıza görə soruşuruq.

**H e y d ə r Ə l i y e v :** Başa düşürəm. Danışacağam. Deməyə sözünüz varmı?

**G e n n a d i R o q o v** *(«Sportivnaya Moskva» qəzetinin baş redaktoru)* : Heydər Əliyeviç, Aleksey dedi ki, biz qurultaydakı çıxışınızı televiziya ilə dinlədik. İdman redaktoru olaraq məni Sizin idman formanız valeh etdi. Mənə elə gəlir ki, Siz MDB-də bir çox prezidentlərə nümunə ola bilərsiniz.

Zənnimcə, Sizin nümunəniz – çıxış etməyiniz də, özünüzü şax tutmağınız da respublikanızın bütün idman rəhbərlərinə nümunədir. Deməliyəm ki, biz keçmiş Sovet respublikaları haqqında, onların idmançıları haqqında, idmanda uğurları haqqında kifayət qədər çox şey bilirik, amma mənə elə göründü ki, Azərbaycan idmanı mövzusu bizdən bir qədər uzaqlaşmışdır. Bu gün biz idmana cavabdeh olan adamlarla görüşəcəyik, onlar respublikada nə kimi işlər görüldüyü barədə danışa bilərlər. Düşünürəm ki, bu görüş yaranmış boşluğu dolduracaqdır.

**A l e k s a n d r P r o t s e n k o** *(«Trud» qəzetinin iqtisadi icmalçısı)* : Heydər Əliyeviç, mən Azərbaycanda ilk dəfəyəm. Çox məmnunam ki, mənə buraya gəlmək nəsib olmuşdur. Mən Bakı haqqında çox eşitmişdim və burada gördüklərim eşitdiyim ən yaxşı sözlərin hamısının doğru olduğunu göstərdi.

Mən buraya gəlməyə hazırlaşanda, vaxtilə Moskvada oxumuş azərbaycanlı tələbələrin söylədikləri bu sözləri xatırladım ki, Heydər Əliyev onları müntəzəm olaraq bir yerə toplayır, təhsillərinin gedişi ilə daim maraqlanır, deyirdi ki, onlar yaxşı oxumalıdır, çünki öz Vətəninə – Azərbaycana çox gərəkdirlər, Heydər Əliyeviç onlara böyük ümidlər bəsləyirdi. Budur, görürəm ki, Sizin yetirmələriniz artıq həqiqətən burada yaşayır və işləyirlər, nəticə çox yaxşıdır. Hərçənd bütün MDB ölkələrində böhrandır, amma mən bilən, Azərbaycan postsovet məkanında bu baxımdan ən firavan ölkələrdən biridir.

Sizin rəyinizi eşitmək istərdim, belə deyək, əgər hamıda Sizdəki kimi bu qədər xoş məram və bu qədər müdriklik olsaydı, MDB sistemi indi necə inkişaf edə bilərdi?

Prezident Heydər Əliyev jurnalistlərin təəssüratını və suallarını dinləyərək dedi:

– İlk öncə, məni xatırlayan və mənə salam göndərən jurnalistlər barədə dediklərinizə görə təşəkkür edirəm. Mən Aleksandr Bovini çoxdan tanıyıram – o həm jurnalist, həm də diplomat idi, başqa işlərlə də məşğul olurdu. İndi o, nə işlə məşğuldur?

**G e n n a d i M a l t s e v :** İndi o, «İzvestiya»da siyasi icmalçıdır.

**H e y d ə r Ə l i y e v :** Yəni İsraildən qayıdıbdır. Bilirəm ki, çox yaxşı jurnalistdir. Onun yaxşı üslubu var. Xatirimdədir, 70-80-ci illərdə onu müxtəlif, çox mühüm sənədlərin hazırlanması üçün Sov.İKP

MK-ya fəal cəlb edirdilər. Bir sözlə, o, çox istedadlı, bacarıqlı adamdır. Mirzəyevi də xatırlayıram.

**Gennadi Maltsev:** O bizdə bütün vəkillərə başçılıq edir.

**Heydər Əliyev:** Çox xoşdur. Buna görə də mənim salamımı və xoş arzularımı onlara yetirin.

«Jurnalist» çoxdan çıxan jurnaldır. Xatirimdədir, bir vaxtlar mən bu jurnalda çıxış etmişəm. Bu, mən burada, Azərbaycanda, respublikanın rəhbəri işlədiyim dövrlərdə olmuşdur. Mən bu jurnalda çıxış etmişəm. Bilmirəm məqalə idi, yoxsa müsahibə. Hər halda xatirimdədir, o vaxtlar bu jurnal mənə böyük maraq göstərirdi.

Yeri gəlmişkən, «Jurnalist» digər jurnallarla müqayisədə azadfikirliliyi ilə səciyyələnirdi.

**Gennadi Maltsev:** O, indi də belədir.

**Heydər Əliyev:** Bəli, elədir, amma indi belələri çoxdur, indi hamısı belədir, hətta həddindən artıq belədir.

**Gennadi Maltsev:** Əksinə, indi biz tarazlığı gözləyirik, onları da, başqalarını da tənqid edirik.

**Heydər Əliyev:** Azərbaycanda MK-nın birinci katibi kimi mən də azadfikirliliyimlə müəyyən dərəcədə, o vaxtın çərçivəsi daxilində fərqlənirdim. O vaxtlar korrupsiyaya, əxlaqa zidd hallara, cəmiyyətdəki bütün mənfi hallara qarşı mübarizə barədə qaldırdığım məsələlər onda partiya dairələrində heç də hər yerdə yaxşı qarşılanmırdı. Çünki o vaxtlar belə bir müddəa mövcud idi: cəmiyyətimizdə mənfi nə varsa, hamısı keçmişin qalıqlarıdır və biz onları qabartmamalıyıq, çünki sosialist və kapitalist ideologiyaları arasında mübarizə gedir və aramızda qarşıdurma, «soyuq müharibə» olan ölkələrdəki düşmən qüvvələr bundan istifadə edirlər. Ona görə də mənim açıq çıxışlarım, məruzələrim, məqalələrim cəmiyyətdə çox böyük maraq doğururdu, ancaq eyni zamanda bunlar partiya rəhbərliyimizdə heç də həmişə bəyənilmirdi.

«Jurnalist»i məhz bununla əlaqədar xatırlayıram. Yeri gəlmişkən, «Literaturnaya qazeta» da təxminən belə idi. Təəssüf ki, indi o öz simasını itirmişdir.

Buna görə də jurnalistlərə, jurnala, sizə sağ olun deyirəm.

İndi də sabiq sumqayıtlının Bakının Dağlıq məhəlləsi barədə, şəhərdəki dəyişikliklər barədə xatirələri haqqında. Bilirsiniz, Bakının Dağlıq məhəlləsi şəhərin ən köhnə hissəsidir. Axı Bakının tikilməsinin bir neçə mərhələsi var. Orta əsrlər Bakısı var – bu onun Qala hissəsindədir və İçərişəhər adlanır, yuxarı hissədə salınmış Bakı var. Bir də mərkəzdə Avropa üslublu evlər olan Bakı var, bu evlər XIX əsrin ikinci yarısında – XX əsrin əvvəllərində, burada neft sahəsində böyük canlanmanın mövcud olduğu dövrdə tikilmişdir. Lakin Sovet hakimiyyəti illərində, xüsusən də – qoy bu qeyri-təvazökarlıq kimi səslənməsin – respublikanın rəhbəri kimi 14 il ərzində burada işlədiyim dövrdə geniş vüsətli tikinti işləri getmiş Bakı da var.



Bax, siz bizim hava limanından danışdınız. Mən onu 1981-ci ildə, respublikanın rəhbəri olarkən tikdirməyə başlamışdım. Sonra Azərbaycandan getdim. Moskvada işləyərkən üstəlik, Nazirlər Soveti sədrinin birinci müavini kimi nəqliyyata kuratorluq etdiyimə görə bu işi nəzarətdə saxlayırdım və tikinti müəyyən dərəcədə irəliləyirdi. Sonra onu tamamilə dayandırdılar.

Mən respublikaya rəhbərliyə 1993-cü ildə qayıtdım və gördüm ki, bütün bu işlər dayandırılıb, uçulub-dağılır. Başladığım işi axıra çatdırmaq istəyirdim, amma vəsait yox idi. Lakin işlər qaydaya düşəndən, biz vəsait əldə etməyə başladıqdan sonra mən hava limanının tikintisi ilə məşğul oldum. İndi bu, beynəlxalq dərəcəli hava limanıdır.

Bakının yuxarı, Dağlıq məhəlləsinin abadlaşdırılmasına dair də belə baş planım vardı və o bu gün də var. Tikinti planı belə idi: biz köhnə evləri uçuracaq, onların yerində isə uca müasir yaşayış binaları və inzibati banalar tikəcəyik. Müəyyən işlər görməyə başlamışdıq, amma sonra bütün bunlar yarımçıq qaldı. İndi, bazar iqtisadiyyatı dövründə isə biz həmin məhəllələri abadlaşdırmaq imkanını xarici sərmayədarlara vermişik. Onlar rahatlığı olmayan köhnə evlərin dəyərini sahiblərinə ödəyir, onlara başqa yerlərdə mənzillər alır, tikinti üçün yerləri boşaldır və orada evlər ucaldırlar. Açığını deyim ki, bu işlər də uğurla gedir.

Ancaq o illərdə də yeni binalar tikilirdi. Məsələn, şəhərin indi sizinlə olduğumuz hissəsi və vaxtilə Kirov parkı adlandırılan parkadək olan yuxarı hissəsi də bir vaxtlar Bakının ucqarı sayılırdı, oraya Çəmbərəkənd deyirdilər və bu, hündür kənd mənasını verirdi. Burada da çoxlu köhnə evlər vardı, Çəmbərəkənddən yuxarıda, Kirov parkının olduğu, indi isə Şəhidlər Xiyabanı – Yanvar faciəsi qurbanlarının uyuduqları xiyabanın yerləşdiyi ərazi isə qəbiristan idi. 30-cu illərdə bu qəbiristanı dağıdıb yerində park saldılar. Parkla şəhərin mərkəzi hissəsi arasında köhnə evlər vardı. Burada işlədiyim illərdə mən sakinləri köçürməli ol-

dum, özü də harasa deyil, mikrorayonlara köçürdük, biz orada yaxşı evlər tikirdik. Adamlar razı idilər, çünki köhnə evlərdə, iki otaqda yeddi-səkkiz adam yaşayırdı, biz isə orada onlara iki-üç mənzil verirdik.

Biz, gördüyünüz bu binaları köhnə evlərin yerində tikmişik. Məsələn, indi bizim olduğumuz binanın yerləşdiyi bu sahədən təxminən 500 ailə köçürmüşdük. Onları köçürdükdən sonra biz partiyanın Mərkəzi Komitəsi üçün bina tikdirdik, indi bu, Prezident Sarayıdır. Belə ki, mən buna şadam.

Yaxud siz «Gülüstan» sarayını görmüsünüzmü? Onun ucaldığı yerdə də əvvəllər adamlar çox ağır şəraitdə yaşayırdılar. Mən oraya bir dəfə getdim, ikinci dəfə getdim – adətən bazar günlərində o yerlərə baş çəkirdim. Mən evlərin bir-birinə yapışdığı bu dar küçələrdə görünən kimi, əvvəla, mənə baxmaq üçün, ikincisi isə öz şikayətlərini bildirmək üçün çoxlu adam axışıb gəlirdi. Soruşurdular ki, biz nə vaxtadək belə ağır şəraitdə yaşayacağıq? İndi «Gülüstan» sarayının olduğu yerdən biz 900 ailə köçürdük. Bu, o illərdə olmuşdur.

Belə misallar çoxdur. Yaxud misal üçün, bizdə «Respublika» sarayı var – bu, Moskvadakı Qurultaylar Sarayı kimidir. O yerdən biz min ailə köçürdük. 1972-ci ildə sarayı tikdik, şükürlər olsun, 30 ilə yaxındır ki, respublikaya xidmət edir.

Belə misallar olduqca çoxdur. O vaxtlar imkanımız vardı. Yəni dövlət vəsaiti vardı və kim ondan maksimum səmərəli istifadə edə bilirdisə, o da tikib yaradırdı. Sovet İttifaqının büdcəsindən bizə buraxılan dövlət vəsaitindən biz məhz bu baxımdan maksimum səmərəli istifadə edirdik.

İndi isə belə dövlət tikintisi üçün imkan yoxdur. Buna ehtiyac da yoxdur. Çünki özəl strukturlar evlər, binalar tikirlər. Məsələn, Milli Bankı götürək. Onun özü pul qazanır, binasını da özü tikdirmişdir. Dövlət bir qəpik də ayırmamışdır – çünki bu qədər vəsaiti yoxdur. Amma bu bina lazım idi. Yeri gəlmişkən, bundan əvvəl Beynəlxalq Bank da özünə bina tikdirmişdir. Yəni bu işin mexanizmi belədir.

Özü də bütün bunlar respublikamızın çox ağır bir dövr keçirdiyi şəraitdə baş verir. Ərazimizin 20 faizi erməni silahlı birləşmələri tərəfindən işğal olunmuş, işğal edilmiş bu torpaqlardan bir milyon insan qovulub didərgin salınmışdır, onlar çadırlarda yaşayırlar. Bir çoxu burada tələbə yataqxanalarında, məktəb binalarında, çox ağır şəraitdə yaşayır. Bu birincisi. İkincisi isə, onların çoxu işləmir. Biz gərək onları dolandıraq. Bax, belə bir şəraitdə biz hər iki işi görə bilirik.



Bunun sirri nədədir? Sadəcə olaraq iqtisadi islahatları səmərəli aparmaqdadır. Səmərəli islahatlar müxtəlif respublikalarda müxtəlif cür həyata keçirilir. Mən keçmiş Sovet İttifaqı respublikalarını nəzərdə tuturam. Biz irəli qaçmamışıq, amma çox geri də qalmamışıq. Sadəcə olaraq bu işə planlı surətdə, daha ağıllı yanaşmışıq və yanaşırıq. Buna görə də bizdə iqtisadi islahatlar öz nəticələrini verir. Bizdə torpaq tamamilə kəndlilərə verilmişdir və kənd təsərrüfatı məhsulunun 98 faizini özəl sektorun hesabına əldə edirik. Yeri gəlmişkən, bu il kənd təsərrüfatı məhsulu istehsalı 6 dəfə artmışdır.

1993-cü ildən, yəni buraya gəldiyim vaxtdan bəri biz hər gün çörək problemi ilə məşğul olurduq. Nə etməli, unu, taxılı haradan almalı? Çörək üçün növbəyə dayanırdılar. Ət probleme çevrilmişdi. İndi bizdə ət problemi yoxdur, ət bizdə hər yerdən ucuzdur. Nəyə görə? Ona görə ki, özəl sektorda mal-qaranın sayı o vaxtlar dövlət sektorunda olduğuna nisbətən çoxalmışdır. Vəssalam.

Əlbəttə, islahatları müxtəlif cür aparmaq olar. Hesab edirəm ki, biz onları daha səmərəli aparırıq.

Mənə xoşdur ki, BAM-çılar məni xatırlayırlar. BAM mənim həyatımın ən parlaq dövrlərindən biri olmuşdur. Nazirlər Soveti sədrinin birinci müavini, Siyasi Büronun üzvü kimi mən Moskvada işlədiyim dövrdə bir çox sahələrə, o cümlədən nəqliyyata kuratorluq edirdim. Mən o vaxtlar təhsilə, yeri gəlmişkən, idmana da rəhbərlik edirdim, səhiyyənin, gənclər siyasətinin də kuratoru idim.

Biz «Xoş məramlı oyunlar» keçirdik, mən bu oyunların hazırlanması və keçirilməsi üzrə Dövlət Komissiyasının sədri idim. Bir biləydiniz, biz bununla nə qədər məşğul olmuşduq. Bir sözlə, mən idmana da, mədəniyyətə də, səhiyyəyə də, təhsilə də, ticarətə də, nəqliyyata da kuratorluq edirdim.

Deməliyəm ki, mən nəqliyyatla məşğul olarkən bir çox şeyləri də böyük maraqla öyrəndim. O vaxtlar isə BAM Sovet İttifaqı üçün «əsrin tikintisi» idi. BAM-ı bütün ölkə tikirdi, bu işdə hər bir respublika, hər bir vilayət iştirak edirdi. Mən bu işlə məşğul olmağa başladıqda, təbii ki, BAM üzrə komissiyanın sədri idim, aydınlaşdırıb gördüm ki, işlər qəzetlərdə yazıldığı kimi getmir.

Nə etməli? Mən təxminən bir il bu məsələni araşdırdım, sonra isə 1984-cü ildə BAM-a səfər etməyi qərara aldım. Mən, sadəcə olaraq Moskvadan təyyarə ilə yola düşmədim, əksinə, qatara minib Vladivos-

tokadək getdim, yolboyu bu tikintinin əsas stansiyalarında, əsas qovşaqlarında dayanırdım.

Məni Tındada xatırlamışlar? Mən Tındada çox böyük bir müşavirə keçirdim. Bir çox nazirlər mənimlə birlikdə idi, jurnalistlər də vardı. Bu işi elə sevmişdim ki, Tında mənə Sovet İttifaqının ən yaxşı şəhəri kimi görünürdü. Amma görürdüm ki, adamlar böyük maraqla işləyir, onların bir çoxu BAM ətrafındakı qəsəbələrdə yaşayır, tikinti isə yaxşı getmir.

Baykal-Amur Magistralının ən mürəkkəb sahəsi Şimali Muysk tuneli idi.

**Aleksey Makurin:** İndiyədək tikirlər.

**Heydər Əliyev:** Əlbəttə, ora çox çətin keçiddir, orada çox mürəkkəb dağ strukturları var. Buna baxmayaraq, bir halda ki, qərara almışlar, deməli, tikmək lazımdır. Bir neçə digər tunel, demək olar, tikilib qurtarmışdı, mən onlardan keçib getdim. Şimali Muysk tunelində isə üç gün qaldım. Tikintinin problemini öyrənmək gərək idi. Orada qazma işləri şərqdən və qərbdən aparılırdı. Hamı da bəyan edirdi ki, tunel iki ildən sonra – 1986-cı, yaxud 1987-ci ildə çəkilib başa çatdırılacaq və BAM istifadəyə veriləcəkdir.

Bu işə Nəqliyyat Tikintisi Nazirliyi başçılıq edirdi, nazir yaşlı, çox təcrübəli bir insan olan İvan Dmitriyeviç Sosnov idi. Amma təəssüf ki, onlar mühafizəkar düşüncəli adamlar idi.

Biz şərqdən də, qərbdən də tunelə baxdıq. Əlbəttə, orada şərait çox mürəkkəbdir, daim su axır və adamlar dizədək suyun içində işləyirdilər. Mən də həm şərqdən, həm də qərbdən suyun içi ilə keçib getdim.

Şübhəsiz ki, mən Tındada vəziyyəti öyrəndim. Qayıdandan sonra Siyasi Büroya məktub yazdım ki, bu işi nəinki 1986-cı ildə, 1987-ci ildə görmək olmaz, bunun üçün azı daha beş il vaxt gərəkdir. Mən bu məktubu təqdim edəndən sonra böyük müzakirə oldu, mən məruzə etdim, hamı məəttəl qaldı. Çünki tikintinin başlandığı 1974-cü ildən bəri ölkə rəhbərliyindən, Siyasi Büro üzvlərindən, Nazirlər Sovetinin rəhbərliyindən heç kim oraya gedib vəziyyətlə tanış olmamışdı. Nə məlumat verilirdisə, ona da inanırdılar.

Xatirələrim çoxdur. Bilirəm ki, bu yaxınlarda BAM-ın tikintisinə başlanmasının ildönümünü qeyd etmişlər, mən Tındaya təbrik göndərdim. Həmin tunelin çəkilməsi ilə maraqlandım. Deyirlər ki, hələ qurtarmayıblar, ya bir kilometr, ya da kilometr yarım qazılmalıdır.



Bilirsinizmi, bu məndən uzaq olan problemdir, buna baxmayaraq, mən onunla maraqlanıram, çünki beş il bu işə çoxlu əmək sərf etmişəm və istəyirəm ki, bu iş başa çatdırılsın, Rusiya qərbdən şərqədək yaxşı dəmir yoluna malik olsun.

Lap yaxşı, əgər imkan olsa, mənim salamımı, xoş arzularımı BAM-çılara yetirin. Mən onlarla işi, görüşləri böyük məmnunluqla xatırlayıram. Bunların hamısı xatirimdədir.

Siz mənim necə işləməyimlə maraqlanırsınız. Necə lazımdırsa, eləcə də işləyirəm. Burada heç bir sirr yoxdur. Amma şadam ki, siz çıxışımı televiziya ilə görmüsünüz. Yeri gəlmişkən, birinci çıxışım təxminən bir saat əlli dəqiqə çəkdi. Sonra qurultayın axırında, biz rəhbər orqanları seçdikdən sonra isə mən otuz dəqiqədən artıq danışdım.

Hamı təəccüblənir. Bilirsinizmi, mən heç bir çıxışı, heç bir məruzəni heç vaxt əvvəlcədən yazmıram. Nə yadımdadırsa, o da yadımdadır. Hər hansı əlavə materiallar, rəqəmlər göstərmək lazımdırsa, sadəcə olaraq məlumat tələb edirəm və onu mənə verirlər. Məsələn, mən bu çıxışımda yadımda qalan çox rəqəmlər gətirdim. Mən onları bilirdim, lakin bu barədə daha dəqiq danışmaq üçün bir gün əvvəl məlumat istədim və onu mənə verdilər, mən bu rəqəmləri yaddaşımda bərpa etdim. Allaha şükür, yaddaşım yaxşıdır, buna görə də çox şeyi yadda saxlayıram.

Sonra. Hətta Sovet dövründə də mən respublikamızda əsasən mətnsiz çıxış edirdim. Moskvada isə bir dəfə belə etdikdə, mənə dedilər ki, belə lazım deyil. Hamı çıxışını mətndən oxuyur, siz isə fərqlənmək istəyirsiniz? Bu ona görə deyildi ki, mən fərqlənmək istəyirəm. Sadəcə olaraq hər adamın öz vərdişi var, bu vərdiş isə məndə çoxdan yaranmışdır. Əgər sən işlədiyin, çalışdığın yerdəki həyatla həqiqətən yaşayırsansa, onda belə etmək olar. Əgər sən işi bilirsənsə, onunla hər gün məşğulsansa, onda bunların hamısı yaddaşında yığılır, fikirlərini formalaşdırır. Fikirlər isə bir gündə, tutalım, sənə haradasa çıxış etmək lazım olanda formalaşmır. Onlar tədricən formalaşır, yığılıb cəmləşir və gərək olduqda, lazım gəldikdə üzə çıxır. Mən belə təsəvvür edirəm. Bu barədə danışmaq mənim üçün çətindir, xüsusən də söhbət məndən gedəndə. Amma mən bunu belə təsəvvür edirəm.

O ki qaldı mənim idman formama, sağ olun. Axı mən cavan adam deyiləm, neçə yaşım olduğunu bilirsiniz. Mən bütün MDB ölkələri prezidentlərindən yaşca böyüyəm. Özü də onların bir çoxundan mənim yaş

fərqim böüykdür. Təkcə Eduard Şevardnadzedən başqa. O məndən bir az cavandır, onun yaşı yetmişi keçibdir. Qalanları isə təxminən 50 yaşla 60 yaş arasındadır. Sizin prezidentin gərək ki, 65, yox 68 yaşı var. O məndən xeyli cavandır.

**Gennadi Roqov:** Siz səhərlər idman edirsinizmi?

**Heydər Əliyev:** Mən ömrüm boyu səhərlər idman etmişəm. Gəncliyimdə daha çox gimnastika ilə məşğul olurdum. Sonra, burada işləməyə başladıqda dənizdə çox üzürdüm. Mən həmişə səhərlər idman etmişəm. Bu artıq vərdişdir. Ona görə yox ki, belə istəyirəm, sadəcə, çoxdan, ən gənc yaşlarımdan belə olmuşdur. Bizdə deyildiyi kimi, bu sağlam həyat tərzidir. Ən başlıcası budur.

Bəli, 1978-ci ildə Moskvada məndə ürək tutması oldu, infarkt keçirdim. Bundan sonra təqiblərə məruz qaldım. 1987-1988-ci illərdə hər dim. Bundan sonra təqiblərə məruz qaldım. 1987-1988-ci illərdə hər şeyə qara yaxmış bəzi jurnalistlər haqqında danışdım. Ancaq bu işdə hər şey məqsədyönlü idi – bəzilərini qaralayır, onların barəsində hər cür uydurmalar söyləyirdilər, digərləri isə bir növ kənarda qalırdı. Bunların hamısını Qorbaçov tənzimləyirdi. O illərdə mənə də çox iftiralar, özü də tamamilə əsassız iftiralar yağdırırdılar. Əgər bu yazıların, heç olmasa bircə faizi həqiqətə uyğun olsaydı, onda deyərdim ki, bu doğrudur, o birisi isə yalandır. Ömrüm boyu – o illərdə də, bu gün də işləmişəm, özü də sədaqətlə. Mən gizlətmirəm. Sovet İttifaqına da, Kommunist Partiyasına da çox sədaqətlə xidmət etmişəm. Çox sədaqətlə. Bəziləri indi deyirlər ki, hələ o vaxt bu quruluşu sevmirdilər, onunla daxilən razı deyildilər. Belə adamlar var.

Mən əqidəli kommunist və erkən, çox gənc yaşlarımdan fəal dövlət işçisi olmuş adamam. Bilirsiniz ki, mən Azərbaycanın rəhbəri seçilməzdən əvvəl bir çox illər dövlət təhlükəsizliyi orqanlarında işləmişəm. Moskvada işləmişəm.

Lakin sonra ədalətsizliklə qarşılaşmışam. İlk dəfə bunu xəstələndikdə hiss etdim. Niyə xəstələnməyim isə ayrı məsələdir. Xəstəxanaya düşdüm və gördüm ki, heç kim, yəni iş yoldaşlarım, yəni Siyasi Büronun üzvləri, Nazirlər Sovetindəkilər – mən orada birinci müavin idim, cəmisi isə 12 müavin vardı – rəhbərliyim altında işləmiş nazirlər maraqlanmırlar ki, sağam, ya yox. Axı biz birlikdə, çiyin-çiyinə işləmişdik, çalışmışdıq. Mən tamamilə təcrid olunmuş vəziyyətə düşmüşdüm. Bu məndən ötrü heyrətli idi. Amma sonra gördəndə ki, burada çox şey ədalətsizdir və sair, onda baxışlarım dəyişməyə başladı.



Məndə kəskin dönüş 1990-cı ilin yanvarında, Azərbaycan xalqına qarşı təcavüz, terror törədilən vaxt baş verdi. Mən xalqıma qarşı bu cür ədalətsizliyə daha dözə bilmədim və Kommunist Partiyasından çıxdığımı bəyan etdim, bu təcavüzə, Qorbaçovun, bütün Siyasi Büronun siyasətinə qarşı açıq çıxış etdim. Əlbəttə, bu, qəzəb, hiddət doğurdu – necə yəni, axı mən Siyasi Büronun dünənki üzvü idim.

Sonra mənim yeni həyat tərzim başlandı. Məni təqib etməyə başladılar. Qəzetlərdə yazır, xəlvəti nəsə edirdilər. Sonra isə açıqca təqib etməyə başladılar və mən Moskvadan getməyə məcbur oldum.

Bakı da Moskvanın təsiri altında idi və mənə burada yaşamağa imkan vermədilər. Mən Naxçıvana getdim. Siz yəqin bilirsiniz ki, Naxçıvan Azərbaycanın Ermənistan ərazisi tərəfindən əhatə edilmiş kiçik bir Muxtar Respublikasıdır və blokadada idi. Mən orada üç il yaşadım. Sonra xalq məni dəvət etdi və mən 1993-cü ildən buradayam.

Bir sözlə, mən həmişə işləmişəm. Hətta Naxçıvanda o üç ildə, çox ağır şəraitdə də. Doğrudur, bir ildən sonra xalq məndən xahiş etdi və Naxçıvan Respublikasının rəhbəri vəzifəsini öz üzərimə götürdüm. Yenə də gecə-gündüz işlədim. Amma görünür, bu iş insanı mətinləşdirir, ona görə də mən mətinləşmişəm.

Cərrahiyyə əməliyyatı da təsadüfən oldu. Mən 1990-cı ildə Moskvadan çıxıb getdikdən sonra həkimlərin xidmətindən istifadə etmirdim. Mənim həkimim yox idi, həkimlərə müraciət etmirdim. Buraya gəldikdən sonra Prezident kimi imkanım var idi ki, öz həkimim olsun. Ancaq mənim həkimim yox idi. Düşünürdüm ki, belə yaşamaq daha yaxşıdır. Lakin Vaşinqtonda NATO-nun 50 illiyində olarkən axırıncı gün özümü nasaz hiss etdim. Xəstəxanaya getdim, orada baxıb dedilər ki, müayinə aparmaq lazımdır.

Mən bunu istəmirdim. Düşünürdüm ki, keçib gedər. Ancaq Amerika həkimləri müayinə aparılmasında təkid etdilər. Müayinə edib dedilər ki, cərrahiyyə əməliyyatı aparmaq lazımdır. Doğrudur, mən istəmirdim, bu mənim üçün tamamilə gözlənilməz idi. Lakin onlar məni inandırandan sonra razılaşdım. Cərrahiyyə əməliyyatı apardılar.

Cərrahiyyə əməliyyatından təxminən bir ay sonra mən artıq işdə idim. Xəstəxanada təqribən 18 gün qaldım, sonra mənə məsləhət gördükləri kimi, iki həftə Antalyada dəniz sahilində oldum, sonra buraya gəldim və elə ertəsi gün də işə çıxdım. Həmin vaxtdan bəri də işləyirəm.

**G e n n a d i   M a l t s e v :** Siz gündə neçə saat işləyirsiniz?

**H e y d ə r   Ə l i y e v :** Bu gün həftənin neçənci günüdür?

**G e n n a d i   M a l t s e v :** Şənbə günüdür.

**H e y d ə r   Ə l i y e v :** Əgər şənbə günü də işləyirəmsə... sabah da yanıma gələ bilərsiniz, mən burada olacağam.

Neçə saat işləyirəm? Mənim üçün saat yoxdur, başa düşürsünüzmü? Mənim həyatımda şənbə günü də yoxdur, bazar günü də. Bax, belə. Mən bütün günləri işləyirəm. Özü də çox. Nəyə görə işləyirəm? Ona görə ki, görürəm edilməli işlər hələ edilməyibdir. Ona görə şənbə günləri də işə gəlməyə məcbur oluram. Şənbə günü evə gedib görəndə ki, bazar ertəsinədək təxirəsalınmaz məsələlər var, onda bazar günü də işə gəlirəm. Bax, daim beləcə olur.

Mən gileylənmirəm, yox. Axı məni heç kim məcbur etmir.

Yadımdadır, mən Azərbaycanda işləyərkən indi dünyasını dəyişmiş həyat yoldaşım bəzən deyərdi: «Bura bax, sən ki respublikanın rəhbərisən, sənə heç kim nəzarət etmir». Həyat yoldaşım göz həkimi işləyirdi, professor, elmlər doktoru idi. Onun işində belə bir qayda vardı – onlar səhərlər işə gəlir və işə çıxmaq haqqında jurnala qol çəkirdilər. Təbii ki, o da klinikaya gəlir və bu jurnalda qol çəkirdi. O mənə deyərdi: «Axı sənə heç kim nəzarət etmir, səndən jurnala qol çəkməyi tələb etmir. Bizə isə nəzarət edirlər və əgər işə geciksəm, özümü pis hiss edərəm». Bir şəxsiyyət kimi ona hörmətlə yanaşırdılar, bir də ki, axı o mənim həyat yoldaşım idi. O mənə deyərdi: «İşə niyə belə tələsirsən? Sən bir qədər sonra gedə bilərsən. Sən niyə gedirsən? Bazar günü heç kim işləmir». Mən ona həmişə belə cavab verirdim: «Bu mənim adətimdir, ayrı cür mümkün deyil».

Hesab edirəm ki, mən öz respublikama, öz xalqıma hələ çox illər fayda verə bilərəm.

Bax, siz neft sənayesi ilə maraqlanırsınız. Bizim neft şirkətində daha ətraflı məlumat ala bilərsiniz.

Azərbaycanda neft sənayesi köhnə sənaye sahəsidir – burada 150 ildir sənaye üsulu ilə neft çıxarılır. Azərbaycan qədim neft ölkəsidir. Ancaq mərhələlər var. Birinci mərhələ burada nefti xarici konsessiyaların çıxardığı mərhələdir. Bu, təxminən 1848-ci ildən Sovet hakimiyyəti dövrünədək davam etmişdir. İkinci mərhələ Sovet hakimiyyəti dövrüdür, onda Azərbaycan Sovet İttifaqının başlıca neft təchizatçısı idi. İkinci Dünya müharibəsi, Böyük Vətən müharibəsi illərində neftin 80 faizini Bakı, Azərbaycan verirdi.



Yeri gəlmişkən, köhnə neftçi və bakılı, müharibə illərində Sovet İttifaqı neft sənayesi nazirinin müavini olmuş, sonralar – Stalinin dövründə isə uzun müddət nazir işləmiş Nikolay Konstantinoviç Baybakov Moskvada da, burada da dəfələrlə bəyan etmiş, öz kitabında yazmışdır ki, əgər Azərbaycan nefti olmasaydı, Sovet İttifaqı faşizm üzərində qələbə çala bilməzdi. Çünki bütün texnikanı yanacaqla təmin etmək lazım idi. Bəs neft yoxdursa, yanacağı haradan tapasan?

Növbəti mərhələ dənizdə – yeri gəlmişkən, dünyada ilk dəfə – neft yataqlarının kəşf olunub işlənilməyə başlandığı mərhələdir. Bu, 50 il öncə olmuşdur.

Sonra Sovet İttifaqında zəngin neft yataqları aşkara çıxarıldı. Yeri gəlmişkən, onların işlənilməsində Bakı mütəxəssisləri həmişə fəal iştirak etmişlər. Ona görə də bu yerləri «İkinci Bakı», «Üçüncü Bakı», «Dördüncü Bakı» adlandırırdılar. Tümendə çoxlu azərbaycanlı yaşayır. Çünki Tümendə neft hasilatına başlanılan kimi, oraya Azərbaycandan çoxlu adam göndərildi. Onlar orada məskən saldılar və indiyədək yaşayırlar. Əlbəttə, o vaxtlar Sovet İttifaqında neft hasilatının həcmi artmışdı və ola bilsin ki, Azərbaycan neftinin xüsusi çəkisi az idi, bununla belə, dənizdə nefti təkcə biz çıxarırdıq, Azərbaycan çıxarırdı.

Yeni mərhələ artıq Azərbaycanın müstəqil dövlət olduğu və öz iqtisadiyyatının inkişafını, öz xalqının, öz vətəndaşlarının rifahının yüksəlməsini özünün təmin etməli olduğu dövrdür. Təbiidir ki, biz, ilk növbədə, bu sərvətlərimizdən istifadə etməyi qərara aldıq. Xarici şirkətləri cəlb etdik. Təəssüf ki, bəzən Rusiyada ya anlaşılmazlığa görə, ya da qəsdən deyirlər ki, Azərbaycanda nə üçün xarici şirkətlər işləyir? Axı indi onlar harada yoxdur? Rusiyada da xarici şirkətlər var. Nə üçün onlar bir yerdə ola bilər, başqa yerdə isə ola bilməzlər?

İkincisi, bizim – mən dənizdə neft hasilatı sahəsində dünyada ən təcrübəli mütəxəssislər olan Azərbaycan neftçilərini nəzərdə tuturam – nə vəsaitimiz, nə də dənizdə neft çıxarmaq üçün dünya praktikasında işlədilən texnologiyamız, texnikamız var. Şimal dənizində – Böyük Britaniya və Norveç sahillərində neft hasilatına 25 il əvvəl başlamışlar. Amma orada nə cür texnologiya, texnika var! Onlar nə qədər neft çıxarırlar! Biz isə dənizdə neft hasilatına 50 il əvvəl başlamışıq, lakin bizim belə texnikamız yoxdur. Rusiyanın da yoxudur. Məsələn, Rusiyanın «LUKoyl» şirkəti digər şirkətlərlə birlikdə Azərbaycanın dəniz yataqlarının işlənilməsində fəal iştirak edir. Lakin ona görə iştirak etmir ki,

onun belə texnika və texnologiyası var. Sadəcə olaraq onun kapitalı var və onu «Bi-Pi», «AMOKO», «Eksson» kimi başqa şirkətlərlə birlikdə bizim yataqların işlənilməsinə qoymuşdur.

İndi bizdə Yaponiyadan başlamış Amerika Birləşmiş Ştatlarınadək 15 ölkənin 32 şirkəti işləyir. Onların kapitalı var və onu buraya qoyurlar. Onlar dənizin 400-500 metr dərinliyində platforma qurmağımıza imkan verə biləcək həmin müasir texnikanın harada olduğunu bilirlər. Onların mütəxəssisləri var. Buna görə də biz onları cəlb etmişik. Biz onların kapitalından, texnikasından, texnologiyasından istifadə edirik.

Lakin əsas işi bizim mütəxəssislər görürlər. Yeri gəlmişkən, həmin şirkətlərin Azərbaycanda uğurla işləməsi xeyli dərəcədə bununla bağlıdır ki, bizdə çoxlu, olduqca yaxşı neftçi mütəxəssislər var. Onlar çox yaxşı, yüksək hazırlıqlı, Xəzər dənizinə bələd olan mütəxəssislərdir. Neft şirkətində sizə daha ətraflı danışarlar.

Bax, bu. Azərbaycanın neft sənayesinin inkişafında yeni mərhələdir və indi biz müstəqil dövlət olaraq öz təbii ehtiyatlarımızdan istifadə edirik.

Zənnimcə, mən sizin gözlədiyinizdən də çox danışdım.

Gennadi Maltsev dövlətimizin başçısını diqqətlə dinləyərək dedi:

– Heydər Əliyeviç, bizimlə görüşməyə vaxt tapdığınıza görə çox sağ olun.

Demək istəyirəm ki, Rusiya jurnalistlərinin ünvanına söylədiyiniz tənqidi biz ədalətli tənqid kimi qəbul edirik. Bizim mətbuatımızda jurnalistlərin heç də hamısı peşə etikası məcəlləsini gözləməyə çalışmır və sadəcə desək, tez-tez yalan danışır, hətta kiminsə sifarişini yerinə yetirirlər. Təəssüf ki, belə hallar var. Biz bunu öz aramızda da, jurnallar vasitəsilə də, xüsusi təşkilatlar vasitəsilə də tənzimləməyə çalışırıq. Amma cəhdimiz heç də həmişə baş tutmur, çünki iqtisadi inkişaf, sadəcə desək, yoxsulluq bəzən pul almağa və başqa işlərə vadar edir. Belə bir lətifə var, bizim qurultayda sədrimiz Boqdanov demişdir ki, Rusiya jurnalisti pul da alar, həqiqəti də yazar. Zənnimcə bu, həmişə belə olmur.

Biz, indi Sizin gördüyünüz adamlar, Azərbaycanın dostlarıyıq. Öyrəndiklərimiz və gördüklərimizi obyektiv şəkildə çatdırmağa çalışacağıq. Biz isə yeni çox şey öyrəndik. Sizi dövlət işlərinizdən çox ayırmaq istəmirik. Amma sırtıqlıq kimi qəbul etməyin, bizə lütfkarlıqla bağışlanmış aforizmlər və müdrik kəlamlar kitabınıza avtoqraf yazardınızmı?



**Heydər Əliyev:** Bu kitab sizdə haradandır? Mən onu görməmişəm.

**Gennadi Maltsev:** Bizdəki bu kitab rus və ingilis dillərindədir. Çox maraqlı kitabdır. Bəzi fikirlər biz jurnalistlərin ünvanınadır.

**Heydər Əliyev:** Mən bu kitabı görməmişəm.

**Gennadi Maltsev:** Heydər Əliyeviç, axı Sizin aforizmlərinizdir. Siz sadəcə olaraq bu nəşri görməmisiniz.

**Heydər Əliyev:** Yox, mən bu kitabı görməmişəm.

**Gennadi Maltsev:** Belə bir lətifə yadınızdadırmı, Leonid İliç Suslovdan soruşur: «Kiçik torpağ»ı oxumusanmı?» Suslov isə deyir: «Xeyr. Amma Pelşe oxuyub, deyir, maraqlı kitabdır».

**Heydər Əliyev:** Yox, düzgün müqayisə deyil. Burada yazılanların hamısı mənim sözlərimdir. Sadəcə olaraq indi bu səpkidə çoxlu kitab nəşr edilir və onlar mənə gəlib çatmır. Şəkli də yaxşı seçmisiniz.

**Gennadi Maltsev:** Şəkil çox yaxşıdır. Rəsmilikdən uzaqdır. Mən belə şəkilləri nadir hallarda görürəm. Bu şəkli ilk dəfə görürəm.

**Heydər Əliyev:** Öz aramızdır, bu cür şəkillər adamların xoşuna gəlir. Deyirlər ki, mənim fotoşəkillərimi satırlar və adamlar belə şəkillərə daha çox maraq göstərirlər.

**Gennadi Maltsev:** Heydər Əliyeviç, Siz gözəl görünürsünüz, az dəyişibsiniz. Bu mənim şəxsi müşahidəmdir.

**Heydər Əliyev:** Zənnimcə, mənim bu şəklimi üç il bundan əvvəl çəkiblər. Mən bu üç ildə dəyişməmişəm?

**Gennadi Maltsev:** Qətiyyən dəyişməmisiniz. Elə bu üç ildə də dəyişməmisiniz.

**Heydər Əliyev:** Haraya imza edim? Bax, buraya qol çəkəcəyəm.

**Gennadi Maltsev:** Bu, Sizdən bizə Yeni il hədiyyəsidir.

**Heydər Əliyev:** Kitab hər birinizdə varmı?

**Aleksey Makurin:** Yaxşı ki, biz ancaq beş nəfərik.

**Heydər Əliyev** (*imza edərək*) : İndi bizdə hər şey Azərbaycan dilindədir, amma imza keçmişdəki kimi rus dilində qalmışdır.

Gennadi Roqov ölkəmizin rəhbərinin avtoqrafını alaraq dedi:

– Bu axşam Puşkin küçəsindəki «Arbat» kafesində dostlarımı bununla sevindirəcəyəm.

**Gennadi Maltsev:** «Tənqid həmişə kömək edir», Heydər Əliyeviç, Sizin bu aforizminiz bizim peşə haqqındadır. Çox sağ olun.

**Heydər Əliyev:** Bəs «Arbat»a necə gedib çıxacaqsınız, bu gün çatacaqsınızmı?

**Dilarə Seyidzadə:** Bu kafe burada, bizdədir.

**Əli Həsənov** (*Azərbaycan Prezidentinin İcra Aparatının ictimai-siyasi şöbəsinin müdiri*): Bizdə, Bakının Puşkin küçəsində «Arbat» kafesi var.

**Heydər Əliyev:** Belə de! Mənsə düşünürdüm ki, siz Moskvada olacaqsınız. Bilirəm ki, bizdə Puşkin küçəsi var, amma «Arbat» kafesi olduğunu eşitməmişdim.

**Gennadi Roqov:** Heydər Əliyeviç, icazə verin, söhbətimizi Sizin bir aforizminizlə tamamlayaq: «Görkəmli şəxsiyyətlər xalqın zəkasını, elmini, mədəniyyətini və mənəviyyatını dünyaya nümayiş etdirirlər». Zənnimcə, bu aforizm tamamilə Sizə aiddir.

**Heydər Əliyev:** Sağ olun. Gəlin, sizinlə xatirə şəkli çəkdirək. Yeri gəlmişkən, deyim ki, mən jurnalistlərə həmişə böyük hörmətlə yanaşmışam.

Rusiya jurnalistləri görüşə görə Azərbaycan Prezidenti Heydər Əliyevə dərin təşəkkürlərini bildirdilər.



## TÜRKİYƏYƏ QISAMÜDDƏTLİ İŞGÜZAR SƏFƏRƏ YOLA DÜŞMƏZDƏN ƏVVƏL BİNƏ HAVA LİMANINDA JURNALİSTLƏRİN SUALLARINA CAVAB

*9 yanvar 2000-ci il*

**Sual:** Cənab Prezident, Türkiyə Respublikasına bu dəfəki səfərdən məqsəd nədir və səfər zamanı Türkiyə rəhbərliyi ilə hansı məsələləri müzakirə etmək nəzərdə tutulur?

**Cavab:** Bilirsiniz ki, Türkiyə Cümhuriyyəti ilə Azərbaycan arasında çox sıx dostluq, əməkdaşlıq əlaqələri var. Bu əlaqələr daim bizim görüşlərimizin və məsləhətləşmələrimizin olmasını tələb edir. Bilirsiniz ki, son zamanlar mən bir neçə dəfə Türkiyədə olmuşam və hər dəfə bütün başqa tədbirlərdə iştirak etməklə yanaşı, ölkələrimiz arasındakı əlaqələr haqqında geniş fikir mübadiləsi aparmışıq.

İndi mənim səfərim prezident, hörmətli cənab Süleyman Dəmirəlin dəvəti ilədir. Bu, qısamüddətli bir səfərdir. Əsas məsələ Dağlıq Qarabağ probleminin sülh yolu ilə həll olunması barədə yenidən məsləhətləşmələr aparmaqdır. Çünki bilirsiniz ki, Ermənistan Azərbaycanın torpaqlarını işğal etdiyinə görə, Türkiyənin bu ölkə ilə indiyə qədər nə diplomatik əlaqəsi var, nə sərhədlərinin açılmasına yol verirlər, nə yolların açılmasına yol verirlər. Bilirsiniz ki, Türkiyə ilə Ermənistan arasında uzun məsafəli sərhəd var. Burada yollar var: həm dəmir yolu, həm avtomobil yolu var, bu da təbiidir ki, Ermənistan üçün çox lazımdır. Ona görə də bu məsələnin həll olunmasında Ermənistan prezidenti Koçaryanla mənim apardığım danışıqlar, bu problemlər həmişə durur.

Bu barədə Ermənistanın özü də Türkiyə ilə danışıqlar aparıbdır. Bu məsələləri bir daha dəqiqləşdirmək, mövqelərimizi müqayisə etmək, məsləhətləşmək məqsədi ilə mən Türkiyəyə gedirəm. Əsas məsələ bundan ibarətdir.

Bilirsiniz ki, Bakı-Ceyhan neft kəməri haqqında müqavilə artıq imzalanıbdır. Bunun icrasına başlamaq lazımdır. Türkiyə də bunu istəyir, biz də bunu istəyirik. Ancaq biz indiyə qədər bu müqavilələri Parlamentdə ratifikasiyaya verə bilməmişik. Çünki bir neçə məsələ Gürcüstan ilə bu günə qədər həll edilməyibdir. Bilirsiniz ki, bu yaxın za-

manlarda Türkiyənin nümayəndə heyəti Gürcüstanda və Azərbaycanda olmuşdur. Onlar Gürcüstan prezidenti Eduard Şevardnadzeyə və mənə prezident Süleyman Dəmirəlin məktublarını vermişlər. Bu barədə də danışmaq lazımdır. Çünki bunu gecikdirmək olmaz. Türkiyə də maraqlıdır ki, bu gecikməsin. Biz də maraqlıyıq, təbii ki, Gürcüstan da maraqlıdır. Amma Gürcüstan bəzi məsələləri ortaya atıbdır. Bunlar bizim üçün uyğun məsələlər deyildir, Türkiyə üçün də uyğun deyildir. Bu barədə də fikir mübadiləsi aparacağıq. Ümumiyyətlə, ölkələrimiz arasındakı əlaqələri daha da inkişaf etdirmək, genişləndirmək məsələləri də bizim qonşularımızla danışıqların əsas mövzusudur. Görürsünüz, qısamüddətli səfərə gedirəm, amma nə qədər məsələ var.

**Sual**: Cənab Prezident, Bakı-Ceyhan müqaviləsi imzalanmamışdan əvvəl Gürcüstan indiki şərtlərini irəli sürmürdü. İndi nəyə görə bu şərtlər irəli sürülür?

**Cavab**: Sürmürdü, yox. Siz bunu onlardan soruşun.

**Sual**: Cənab Prezident, Azərbaycanın Avropa Şurasına üzv olması məsələsi nə yerdədir?

**Cavab**: Necə nə yerdədir? Biz Avropa Şurası ilə əməkdaşlıq edirik və lazımi danışıqlar aparırıq. Yəqin ki, vaxtı gələndə bunların hamısı həll olunacaqdır.

**Sual**: Cənab Prezident, Şimali Qafqazdakı vəziyyəti səfəriniz zamanı müzakirə edəcəksinizmi?

**Cavab**: Əlbəttə ki, biz bu barədə fikir mübadiləsi aparmalıyıq. Şimali Qafqazdakı, Çeçenistandakı vəziyyətə nə Türkiyə, nə də Azərbaycan müdaxilə edir. Ancaq təəssüf ki, Rusiyanın mətbuat orqanları, hətta rəsmi dairələri axır zamanlar bir çox əsassız bəyanatlar veriblər. Bu da bizi çox narahat edibdir. Bilirsiniz ki, dünən Azərbaycanın Xarici İşlər Nazirliyi Rusiyanın bu hərəkətlərinə görə bu barədə çox sərt bəyanat veribdir. Yəqin ki, biz bu barədə də danışacağıq, bu mövzu kənarda qala bilməz. Çünki Rusiyanın mətbuat orqanları, rəsmi dairələri də bəzən çalışırlar sübut etsinlər ki, guya bu terrorçular, yaraqlılar Türkiyədən, başqa Şərq ölkələrindən gəlib Azərbaycandan, Gürcüstandan keçirlər və buradan silah-sursat keçir. Bu tamamilə yalan sözdür, böhtandır, iftiradır. Heç bir belə fakt yoxdur. Kiyevdə olarkən mən bu barədə baş nazir, indi prezident səlahiyyətlərini həyata keçirən Vladimir Putinlə də danışdım, ona da dedim. Yəqin ki, biz bu barədə də söhbət edəcəyik.



**Sual**: Cənab Prezident, Bakı-Ceyhan neft boru kəməri ilə bağlı Gürcüstanın sərt mövqeyi barədə nə deyərdiniz?

**Cavab**: Bilirsiniz, siz düzgün demirsiniz. Sərt mövqe yoxdur. Gürcüstanın müəyyən şərtləri var. Hərə istəyir ki, burada öz problemini ölkəsi üçün daha da faydalı həll etsin. Mən elə hesab edirəm ki, burada həll oluna bilməyən elə bir problem yoxdur. Bunların hamısı həll olunacaqdır.

**Sual**: Cənab Prezident, indiki gərgin münasibətlərdə İrana Sizin qarşıdakı səfəriniz barədə nə deyə bilərsiniz?

**Cavab**: Nə gərgin münasibətlərdir? İranla bizim gərgin münasibətimiz yoxdur. Sən bunu haradan götürmüsən? Mən bəyan etmişəm ki, İranla bizim çox yaxşı münasibətimiz var. Bu günlərdə mən Yeni Azərbaycan Partiyasının qurultayındakı çıxışımda hətta qeyd etdim ki, mənim İstanbulda irəli sürdüyüm Cənubi Qafqazda təhlükəsizlik və əməkdaşlıq paktı yaranmasında İran da iştirak etməlidir. İranın prezidenti məni dəvət edibdir, mən də, şübhəsiz ki, həmin dəvəti bu yaxınlarda həyata keçirəcəyəm.

**Sual**: Cənab Prezident, Aram Sarkisyanın Dağlıq Qarabağla bağlı son təklifinə Sizin münasibətiniz?

**Cavab**: Elə bir təklif mənə məlum deyil.

**Sual**: Cənab Prezident, sammitdə Siz Koçaryanla görüşəcəksinizmi?

**Cavab**: Görüşəcəyəm. Hələ Moskvada da görüşəcəyəm, lap arxayın olun.

**Sual**: Cənab Prezident, Cövhərqala alındığı halda rus qoşunlarının Azərbaycana və Gürcüstana girməsi ehtimalı varmı?

**Cavab**: Bilirsiniz, mən istəyirəm ki, siz bu sualları verməyəsiniz. Çünki bunlar əsassız suallardır. Orada Rusiya öz daxili işi ilə məşğuldur. Nə üçün sən deyəsən ki, Qroznının, nə bilim, alınmasından sonra onlar Azərbaycana müdaxilə edəcəklər? Buna bir əsas yoxdur.

Yaxşı, sağ olun.

## ANKARANIN ESENBOĞA HAVA LİMANININ ŞƏRƏF SALONUNDA AZƏRBAYCANIN, TÜRKİYƏNİN VƏ XARİCİ ÖLKƏLƏRİN ANKARADA AKKREDİTƏ OLUNMUŞ JURNALİSTLƏRİ QARŞISINDA BƏYANAT

*10 yanvar 2000-ci il*

– Dəyərli mətbuat nümayəndələri, xanımlar, cənablar!

Əziz qardaşım, dostum, Türkiyənin cümhur başkanı Süleyman Dəmirəlin dəvəti ilə mən dünən Ankaraya, Türkiyəyə gəlmişəm və indi də artıq yola düşürəm, Bakıya dönürəm. Mən bu dəvətə görə və burada mənə göstərilən çox böyük dostluq, mehribanlıq, qardaşlıq münasibətinə görə dostum, qardaşım, cümhur başkanı Süleyman Dəmirələ təşəkkürümü bildirirəm.

Türkiyəyə hər dəfə gəlmək mənim üçün böyük bir hadisədir, yəni böyük bir sevinc hadisəsidir. Bu dəfə mən Türkiyəyə mübarək Ramazan bayramı günü gəlmişəm. Mən bir tərəfdən rahatsız idim ki, Ramazan bayramı zamanı – insanlar bayram edib, istirahət etdiyi zaman mən buraya gəlib bu istirahətə mane olacağam. Amma eyni zamanda düşündüm ki, bu Ramazan bayramını Türkiyədə çox gözəl keçirirlər. Bizdə, Azərbaycanda Ramazan bayramı 7-8 il bundan öncə bərpa olunubdur. Ondan öncə Sovetlər Birliyi dövründə Azərbaycanda din qadağan, yasaq olunduğuna görə, Ramazan bayramı da dini bayram olduğuna görə bu, qadağan idi. İndi isə insanlar çox qısa bir zamanda öz dinini dəstəklədi, aldı və Ramazan bayramı da keçirilir. Amma Türkiyədəki kimi yox.

Mən televiziya vasitəsilə baxdım: insanlar nə qədər sevinirlər, mahnılar söyləyirlər, rəqs edirlər. Mən bu gün 10 dəqiqə televiziyaya baxdım. Bir azəri mahnısını çox gözəl oxudular və rəqs etdilər. Mənim ürəyim sevindi. Ona görə də məhz bu gün – Ramazan bayramı günü burada olmağım məni daha da sevindirmişdir.

Ancaq təbiidir, mənim ziyarətim gəzmək üçün, istirahət üçün deyil. Mənim ziyarətim hər dəfə işlər görmək üçündür və dostum, qardaşım Süleyman Dəmirəl də elədir – gecə də, gündüz də çalışır. Onun üçün



bayram da yoxdur, bazar da yoxdur, başqa günlər də yoxdur. Ona görə biz dünən də, bu gün də görüşüb çox dəyərli söhbətlər, danışıqlar apardıq. Mənim əsas danışıqlarım, söhbətlərim hörmətli cümhur başqanı Süleyman Dəmirəl ilə oldu. O, bəyan etdiyi kimi, biz ölkələrimiz üçün vacib olan bir neçə məsələləri ortaya qoyduq, fikir mübadiləsi apardıq. Bunların içində birinci növbədə Ermənistan-Azərbaycan münaqişəsinin sülh yolu ilə həll edilməsi və Azərbaycanın işğal edilmiş torpaqlarının azad olunması, köçkünlərin, qaçqınların öz yerinə qayıtması məsələsidir. Biz bu məsələni noyabr ayında ATƏT-in İstanbul Zirvə görüşündə də çox geniş müzakirə etmişdik – həm hörmətli Süleyman Dəmirəl ilə, həm də prezident Klinton ilə, prezident Şirak ilə, digərləri ilə. Ancaq yenidən tələbat var idi ki, Türkiyə ilə Azərbaycan bu gün bu məsələni bir daha dəyərləndirsinlər, bu məsələ haqqında nə ediləcəkdir – eyni fikirdə olsunlar.

Məmnunam ki, həmişə olduğu kimi, indi də Türkiyə Azərbaycanı dəstəkləyir. Biz bu barədə eyni fikirdəyik və fikrimiz də bundan ibarətdir ki, bu il, yəni 2000-ci ildə mütləq sülh yaransın, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ problemi sülh yolu ilə həll olunsun. Mən bu danışıqlardan çox məmnunam və çox məmnunluqla Bakıya dönürəm.

Bakı-Ceyhan boru xəttinin yaranması haqqında biz beş il çalışdıq, beş il vuruşduq – birlikdə, Azərbaycan-Türkiyə. Nəhayət, ortaya gətirdik, nail olduq və İstanbul Zirvə görüşü zamanı bu anlaşma çox böyük təntənə ilə imzalandı. Bu, dünyada böyük bir hadisə kimi qiymətləndirilibdir. Ancaq indi biz bu mərhələni keçdik. İkinci mərhələ praktiki işlər, yəni bu boru xəttinin inşasına başlanmasıdır. Biz bu barədə də danışdıq, fikir mübadiləsi apardıq.

Bizim heyətlər görüşüblər və bu ayın 21-22-də İstanbulda Türkiyə-Azərbaycan-Gürcüstan heyətləri görüşəcəklər və güman edirəm, inanıram ki, orada bütün məsələlər həll olunacaq, çözüləcəkdir və biz işə başlayacağıq. Bunu etmək lazımdır. Çünki nə qədər ki, Bakı-Ceyhan boru xətti haqqında, neft kəməri haqqında hazırlıq gedən zaman bizlərə çox əngəl edənlər var idisə, indi də var. Bunlar indi tükənməyiblər. Bəziləri də belə şayiə yayırlar ki, «imzalandı, amma həyata keçirilmir. Bu, real deyil, filan deyil». Amma mən bu gün də bəyan edirəm ki, imzalanan anlaşma həyata keçiriləcəkdir və bu əsrin böyük boru xəttini biz yaradacağıq. Buna heç şübhə yoxdur.

Başqa ikitəfli münasibətləri də danışdıq, müzakirə etdik. Burada heç bir problem yoxdur. Kiçik məsələlər meydana çıxır: hansısa məmur nəsə etmədi, ya etdi, filan. Amma əsas ondan ibarətdir ki, Türkiyə ilə Azərbaycan arasında olan dostluq, qardaşlıq əlaqələri hər gün, günügündən genişlənir, inkişaf edir və insanların bunu inkişaf etdirməsi nə qədər önəmlidirsə, o qədər də dövlətlərin, hökumətlərin bu işi həmişə əlində saxlaması, ona daha da çox dəstək verməsi və öz tərəflərindən lazımi tədbir görməsi vacibdir. Biz Azərbaycanda bunu edirik. Türkiyə də edir. Amma bir çox məsələləri daha da sürətlə irəliyə aparmaq üçün görüşmək lazımdır, danışmaq lazımdır.

Mən bu gün hörmətli baş nazir Bülənd Ecevit ilə görüşdüm. Bu barədə, dediyim sözlər, məsələlər haqqında çox ətraflı söhbət etdik. Sonra baş nazirin müavini hörmətli Dövlət Baxçəli ilə görüşdük. Onunla da məsələlər ətrafında çox geniş söhbətlər apardıq. Silahlı Qüvvələrin Baş Qərargahının rəisi hörmətli Hüseyn Kıvrıkoğlu ilə görüşdük. Onunla da bizim iş birliyimiz haqqında danışıqlar apardıq.

Mən bütün bu görüşlərdən, danışıqlardan çox məmnunam. Hesab edirəm ki, bu, Azərbaycan üçün faydalıdır. Düşünürəm ki, Türkiyə üçün də faydalıdır və Türkiyə-Azərbaycan dostluğu, qardaşlığı üçün də faydalıdır.

Mən Sizə, əziz dostum, bir daha təşəkkür edirəm və üzr diləyirəm ki, mən Sizə bu bayram günü bir az əziyyət verdim. Sağ olun.



## BİNƏ HAVA LİMANINDA JURNALİSTLƏRİN SUALLARINA CAVAB

*10 yanvar 2000-ci il*

**M ü x b i r:** Cənab Prezident, xahiş edirəm, səfəriniz haqqında qısa da olsa məlumat verəsiniz.

**H e y d ə r  Ə l i y e v :** Çox gözəl təəssüratım var. Hər dəfə Türkiyəyə gedəndə çox gözəl təəssüratlarla geriyə dönürəm. Bilirsiniz, bu dəfə mən Türkiyədə cəmisi 24 saatdan da az olmuşam. Ancaq bu müddətdə çoxlu görüşlərimiz, danışıqlarımız olubdur. Bunların hamısı da çox əhəmiyyətlidir.

Türkiyədə bayramdır. Azərbaycanda Ramazan bayramı bir gün, amma Türkiyədə üç gün qeyd edilir. Orada bu gün də bayramdır, dünən də bayram idi. İnsanlar orada çox gözəl bayram edirlər, mahnılar oxuyurlar, rəqs edirlər, bir-birini ziyarət edirlər.

Bilirsiniz, yəqin Türkiyə televiziya kanalları veribdir. Türkiyənin prezidenti, mənim əziz dostum, qardaşım, hörmətli Süleyman Dəmirəllə çox ətraflı görüşlərimiz, danışıqlarımız olubdur. Türkiyənin baş naziri hörmətli cənab Bülənd Ecevitlə, baş nazir müavini hörmətli cənab Dövlət Baxçəli ilə, Türkiyə Silahlı Qüvvələri Baş Qərargahının rəisi hörmətli cənab Hüseyn Kıvrıkoğlu, xarici işlər naziri hörmətli cənab İsmayıl Cəm ilə çox məsələləri müzakirə etmişik. Mən bütün bu danışıqlardan, müzakirələrdən məmnunam. Ona görə də, görürsünüz, yaxşı əhval-ruhiyyə ilə gəlmişəm.

**S u a l :** Cənab Prezident, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həll edilməsi barədə danışıqlar hansı səviyyədədir?

**C a v a b :** Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həll olunması barədə danışıqlar davam edir. Biz bu danışıqları aparırıq və aparacağıq.

**S u a l :** Cənab Prezident, Gürcüstan Neft Şirkəti ilə danışıqlar apara bildinizmi?

**C a v a b :** Gürcüstan Neft Şirkəti ilə danışıqlar aparılmır, ancaq biz – Türkiyə, Azərbaycan və Gürcüstan qərar qəbul etmişik, yanvar ayının 21-22-də nümayəndə heyətlərimiz görüşəcəklər, mənçilik edən

məsələləri aradan qaldıracaqlar və Bakı-Ceyhan neft kəməri tikiləcək, vaxtında işə başlayacaqdır.

**S u a l :** Gürcüstanın irəli sürdüyü tələbləri biz qəbul edəcəyik?

**C a v a b :** Dedim ki, nümayəndə heyətlərimiz orada görüşüb danışacaqlar.

**S u a l :** Cənab Prezident, Türkiyə ilə Ermənistan arasında yolların açılması barədə söhbət oldumu?

**C a v a b :** Yox, olmadı və olmaz. Çünki Ermənistan-Azərbaycan münaqişəsi hələ ki həll olunmayıb, Türkiyə Ermənistana nə yol açacaqdır, nə diplomatik əlaqələr quracaqdır. Türkiyə bunu dəfələrlə bəyan edibdir. Bu çox prinsipial məsələdir.

**S u a l :** Cənab Prezident, Şevardnadze Ankaraya niyə gəlmədi, dəvəti qəbul etmədi?

**C a v a b :** Hansı dəvəti?

**M ü x b i r:** Sizə verilən məktub ona da verilmişdi.

**H e y d ə r Ə l i y e v :** Mən Türkiyəyə o məktuba görə getməmişəm. Elə bilirsiniz ki, mən o məktuba görə oraya getmişəm? Yox. Mən məktuba görə oraya niyə gedirəm? Məktuba görə telefonla danışardıq. Siz burada səhv edirsiniz.

Cənab Süleyman Dəmirəl mənə danışdı ki, yanvarın 15-də onun Gürcüstana rəsmi səfəri olacaqdır. Ancaq mənim Türkiyəyə səfərim heç də həmin məktubla əlaqədar deyil. Məktub xırda bir şeydir.

**S u a l :** Cənab Prezident, Süleyman Dəmirəlin Gürcüstana səfəri Bakı-Ceyhan boru kəməri ilə əlaqədar yaranan anlaşılmazlıqla bağlı deyil ki?

**C a v a b :** Yox. Bu, əvvəldən planlaşdırılmış səfərdir.

**S u a l :** Cənab Prezident, üzr istəyirəm, burada çox söz-söhbətlər gəzir ki, Siz Gülhanəyə baş çəkmisiniz, orada həkimlərlə görüşmüsünüz. Siz bunu təkzib edə bilərsinizmi?

**C a v a b :** Birincisi, bunlar yalandır. İkincisi, sən poliklinikaya gedirsən, yoxsa yox? Sən də, o da, başqası da gedir. İndi bunu niyə bir problem edirsiniz?

**M ü x b i r :** Biz etmirik, istəyirik ki, Siz təkzib edəsiniz.

**H e y d ə r Ə l i y e v :** Nəyi təkzib edim? Sizin uydurduqlarınızın hamısını təkzib edirəm.

**M ü x b i r :** Cənab Prezident, Təbriz Universitetinin professoru Çehreqani müraciət edib və Sizdən incikliyini bildirib.



**H e y d ə r Ə l i y e v :** Bilirsən, mən sizə deyirəm, o yalanları danışmayın. Azərbaycan ilə İran arasında əlaqələri gərginləşdirmək istəyən bizim içimizdəki bəzi yaramaz qüvvələr – mən indi bunu əsəbiliklə deyirəm – ortaya problem çıxarırlar, hansı ki yoxdur. Prezidentin mətbuat xidməti iki-üç gün bundan əvvəl bu barədə məlumat veribdir. Birincisi, Çehreqaninin nə məktubu, nə də buraya gəlmək arzusu var. İkincisi, Azərbaycandan gündə nə qədər adam Təbrizə, Tehrana müalicə olunmaq üçün gedir. İndi İranda tibbi xidmət və tibbi işlər çox ölkələrdən yüksəkdir, Azərbaycandan qat-qat yüksəkdir. Buradan gedib Tehranda ürək-damar cərrahiyyə əməliyyatı keçirirlər, başqa müalicələr alırlar. İndi nə olubdur ki, müalicə almaq üçün buraya gəlsinlər? Bunu sizin dostlarınız yayırlar. Sən hansı qəzetdənsən?

**M ü x b i r :** Cənab Prezident, mən TURAN agentliyindənəm, müraciət ediblər.

**H e y d ə r Ə l i y e v :** Elə bu işlərin çoxunu TURAN yayır. Bunları TURAN yayır. Belə bir iş yoxdur, hamısı yalandır. Sağ olun.

## MÜSTƏQİL DÖVLƏTLƏR BİRLİYİNİN ÜZVÜ OLAN ÖLKƏLƏRİN DÖVLƏT BAŞÇILARININ NÖVBƏTİ ZİRVƏ GÖRÜŞÜNDƏ İŞTİRAK ETMƏK ÜÇÜN YOLA DÜŞMƏZDƏN ƏVVƏL BİNƏ HAVA LİMANINDA JURNALİSTLƏRİN SUALLARINA CAVAB

*23 yanvar 2000-ci il*

**S u a l :** Cənab Prezident, Moskvaya səfərinizin məqsədi barədə nə deyə bilərsiniz?

**C a v a b :** Səfərimin məqsədi, güman edirəm, məlumdur. Ayın 25-də Moskvada Müstəqil Dövlətlər Birliyinə mənsub olan ölkələrin dövlət başçılarının görüşü olacaqdır. Eyni zamanda xarici işlər nazirlərinin, sonra ayrıca baş nazirlərin, müdafiə nazirlərinin görüşləri keçiriləcəkdir. Əsas məqsəd bundan ibarətdir, bundan ötrü gedirəm.

Ancaq sabah orada mənim və Ermənistan prezidenti Koçaryanın təkbətək görüşümüz olacaqdır. Nəzərə alın ki, o görüşə sonra Rusiya prezidentinin səlahiyyətlərini aparan Vladimir Putin də qatıla bilər. Sonra nəzərdə tutulubdur ki, dörd prezidentin, yəni Rusiya, Gürcüstan, Ermənistan, Azərbaycan prezidentlərinin də görüşü olacaqdır. Təbiidir ki, başqa ikitərəfli görüşlər də olacaqdır. Amma əsas tədbirlər bundan ibarətdir.

**S u a l :** Cənab Prezident, Azərbaycan MDB-nin sədri vəzifəsində kimi görür?

**C a v a b :** Mürəkkəb sualdır. Oraya gedirik, məsləhətləşəcəyik. Bu elə işdir ki, ümumi rəy olmalıdır.

**S u a l :** Cənab Prezident, birliyin indiki vəziyyətini necə qiymətləndirirsiniz?

**C a v a b :** Bilirsiniz, hələ ki, birlik həmişə eyni vəziyyətdədir. Demək olmaz ki, bu gün pisdir, dünən yaxşı idi. Siz bilirsiniz ki, son iki ildə birlik, hər halda – mən böhran deməzdim – mürəkkəb dövr yaşayır. Biz ildə bir dəfə toplaşır, sanki nə barədəsə razılığa gəlirik, ancaq sonra heç də hər şey reallaşdırılmır. Ölkələrin heç də hamısı digər ölkələrlə razılaşmır. Ona görə də hesab edirəm ki, birlik hələlik təşəkkül dövrünü yaşayır.

Daha kimin nə sözü var?



**S u a l :** Ermənistan-Türkiyə sərhədinin həftədə bir dəfə açılmasına dair protokol imzalandığı barədə xəbərlər nə dərəcədə doğrudur?

**C a v a b :** Bu, tamam yalandır. Mən bunu keçən dəfə də demişəm – Türkiyə ilə Ermənistanın sərhədləri yalnız Ermənistanla Azərbaycan arasında Dağlıq Qarabağ münaqişəsi həll olunandan sonra, sülh bağlanandan sonra açıla bilər. Bu, Türkiyənin həm prezidentinin, həm də baş nazirinin və bütün başqa dövlət rəhbərlərinin fikridir, Türkiyənin xalqının fikridir. Mən bunu bir neçə dəfə demişəm, Türkiyənin prezidenti, bizim əziz dostumuz Süleyman Dəmirəl dəfələrlə deyibdir ki, bu sərhədlərin açarları bizdə deyil – birincisi, Türkiyə xalqındadır, ikincisi də Azərbaycandadır.

**S u a l :** Cənab Prezident, axır zamanlar mətbuat yazır ki, Bakı-Ceyhan layihəsi ilə əlaqədar Gürcüstan bəzi təkliflər irəli sürmüşdür. Bu iddialar layihəni nə dərəcədə geriyə ata bilər?

**C a v a b :** Bilirsiniz ki, Türkiyə ilə bizim aramızda bütün danışıqlar qurtarıb, hər şey razılaşdırılıbdır. Ancaq Gürcüstan dörd məsələ irəli sürübdür. İndi Türkiyənin, Azərbaycanın, Gürcüstanın nümayəndə heyətləri Ankarada görüşürlər. Azərbaycan nümayəndə heyətinə baş nazirin müavini Şərifov rəhbərlik edir. İndi də məlumatı dinləyirdim, səhər tezdən də dinlədim. Görünür ki, dörd məsələdən bir-ikisi aradan götürülüb, birinin haqqında hələ mübahisə gedir, biri də hələ həll olunmayıbdır. Güman edirəm, bunlar həll ediləcək, heç kəsin şübhəsi olmasın və Bakı-Ceyhan neft kəməri tikiləcək, işə başlayacaqdır.

Ancaq mətbuatda yazılanlar – nə bilim, Bakı-Ceyhan neft kəməri olmayacaq – bunlar yalan şeylərdir. Gürcüstan ölkədir, daxilində iqtisadi vəziyyət bir az çətindir, bəzi problemləri var. Ona görə bəzi şərtlər qoyur və təbiidir ki, bu şərtlər də müzakirə olunur.

**S u a l :** Cənab Prezident, deyilənə görə, Transxəzər qaz kəməri ilə də bağlı oxşar şərtlər ortaya çıxıbdır.

**C a v a b :** Yox, çıxmayıbdır. Transxəzər qaz kəməri haqqında hələ bu səviyyəyə gəlib çatmamışıq. Hələ danışıqlar gedir. Bizim nümayəndə heyəti, Türkiyəninki, Gürcüstanınkı Aşqabadda oldular, danışdılar. Prinsipial məsələlər üzrə razılıq var. Amma əlbəttə ki, gələcəkdə konkret çox şeylər müzakirə olunacaqdır.

**S u a l :** Cənab Prezident, Rusiyada təhlükəsizlik məsələləri barədə müzakirələr aparacaqsınızmı?

**C a v a b :** Elə hər şey təhlükəsizliklə bağlıdır. Sağ olun.

# MÜSTƏQİL DÖVLƏTLƏR BİRLİYİNİN ÜZVÜ OLAN ÖLKƏLƏRİN DÖVLƏT BAŞÇILARININ NÖVBƏTİ ZİRVƏ SAMMİTİ ƏRƏFƏSİNDƏ JURNALİSTLƏRLƏ GÖRÜŞ

*Moskva*
*24 yanvar 2000-ci il*

**Azərbaycan Prezidenti Heydər Əliyev Moskvada, ona ayrılmış iqamətgahda Gürcüstan Prezidenti Eduard Şevardnadze ilə görüşdükdən sonra jurnalistlərlə görüşdü.**

**Azərbaycan Prezidenti Heydər Əliyev jurnalistlərin suallarına cavab verməzdən əvvəl bəyan etdi:**

– Bu gün Gürcüstan prezidenti Eduard Şevardnadze və mən bizim aramızda yaranmış dostluq ənənəsinə uyğun olaraq görüşdük. Biz hara-da oluruq-olaq – suallar olsa da, olmasa da – hökmən görüşürük, fikir mübadiləsi aparırıq. Bu ənənə yaşayır və bizə – Gürcüstana və Azərbaycana, Eduard Amvrosiyeviçə və mənə kömək edir. Odur ki, biz bu ənənəyə sadiq qalaraq görüşdük, Gürcüstanda, Azərbaycanda olan vəziyyətdən, dostluq, qardaşlıq münasibətlərimizin inkişafı sahəsində gələcək addımlardan danışdıq. Ölkələrimiz arasında problemlər yoxdur, məsələlər yoxdur. Bu çox yaxşıdır. Allah eləsin ki, bütün ölkələr arasında Gürcüstanla Azərbaycan arasındakı kimi belə münasibətlər olsun.

**S u a l :** Dağlıq Qarabağ və Abxaziya məsələlərinin hələ nizama salınmadığını nəzərə alsaq, Siz qarşıdakı sammitdən nə gözləyirsiniz?

**H e y d ə r Ə l i y e v :** Şübhəsiz ki, Müstəqil Dövlətlər Birliyinin üzvləri arasında ən çox bizdə – Gürcüstanda və Azərbaycanda həmişə böyük ümidlər və ən mürəkkəb vəziyyət olmuşdur, çünki Gürcüstanda abxaz münaqişəsi, bizdə isə Ermənistan-Azərbaycan münaqişəsi davam edir. Bunlar çox ağır münaqişələrdir və onları həll etmək lazımdır. Lakin sabah bu məsələlər sammitin gündəliyində olmayacaqdır.

**S u a l :** Sizin Robert Koçaryanla bugünkü görüşünüzdə müəyyən irəliləyiş oldumu? Siz Rusiyanın münaqişəni nizama salmağa həqiqətən kömək göstərmək arzusunda olduğunu hiss etdinizmi?



**H e y d ə r Ə l i y e v :** Rusiya bəyan edir ki, o, münaqişənin həllinə kömək göstərmək istəyir.

**S u a l :** Eduard Amvrosiyeviç, son vaxtlar mətbuatda yazırlar ki, Gürcüstan Bakı-Ceyhan layihəsi ilə bağlı tələblər irəli sürür və bu tələblər həmin layihənin digər iştirakçıları üçün məqbul deyildir. Siz bu barədə nə deyə bilərsiniz?

**E d u a r d Ş e v a r d n a d z e :** Zənnimcə, bu heç də ən mürəkkəb məsələ deyildir. Əvvəla, Ankarada danışıqların birinci mərhələsi yaxşı keçdi, tərəflər üç əsas məsələ barəsində razılığa gəldilər, tariflərlə bağlı problemlərin müzakirəsinə başladılar. Bu gün onlar danışıqları başa çatdıra bildilər, belə ki, nümayəndə heyətimizə başçılıq etmiş xarici işlər naziri buraya gəlmişdir. Yəqin ki, növbəti görüş Bakıda, Ankarada və ya İstanbulda olacaqdır. Lazım gələrsə, biz Heydər Əliyeviçlə öz sözümüzü deyərik.

**S u a l :** Qafqazda regional təhlükəsizlikdən söhbət gedəcəkmi? Sabahkı dördtərəfli görüş nəyə həsr olunacaqdır?

**H e y d ə r Ə l i y e v :** Görüşərik, sonra isə sizə deyərik.

**S u a l :** Bu gün Siz Boris Yeltsinlə görüşdünüz. Əgər sirr deyilsə, o, necə görünür? Sizin xudahafizləşməyiniz necə keçdi?

**E d u a r d Ş e v a r d n a d z e :** Bu, təsirli görüş idi. Axı biz onu 20-30 ildir tanıyırıq, birlikdə işləmişik. Deməliyəm və Heydər Əliyeviç də razılaşar ki, Boris Yeltsin yaxşı formadadır. Deme, istirahət o qədər də qorxulu deyilmiş.

**S u a l :** Sabah o, sammitdə olacaqmı?

**E d u a r d Ş e v a r d n a d z e :** Xeyr.

**S u a l :** Bəs Siz MDB Dövlət Başçıları Şurasının sədri vəzifəsinə kimi namizəd göstərəcəksiniz?

**E d u a r d Ş e v a r d n a d z e :** Cənubi Qafqaz ölkələrindən çətin ki, kimisə. Ancaq özünüzün gümanınız var.

## MDB ÖLKƏLƏRİ DÖVLƏT BAŞÇILARININ MOSKVA ZİRVƏ GÖRÜŞÜNÜN YEKUNLARINA DAİR BİRGƏ MƏTBUAT KONFRANSI

*Moskva, Kreml sarayı*
*25 yanvar 2000-ci il*

**H e y d ə r Ə l i y e v :** Məlumdur ki, Qafqaz Müstəqil Dövlətlər Birliyində mürəkkəb bölgələrdən biridir. Cəsarətlə deyə bilərəm ki, o, hətta dünya miqyasında mürəkkəb bölgələrdən biridir. Qafqazda münaqişələr baş verir. 1988-ci ildən bəri Dağlıq Qarabağ münaqişəsi – Ermənistanla Azərbaycan arasında münaqişə gedir, Abxaziya münaqişəsi gedir. Habelə Şimali Qafqazda da uzun illərdən bəri davam edən münaqişə. Ona görə də bu bölgəyə çox böyük diqqət yetirilməli idi. Mənim fikrim isə belədir ki, bunu Rusiya etməli idi, çünki biz hamımız uzun müddət Rusiyanın tərkibində, Sovet İttifaqının tərkibində olmuşuq. Rusiya, Moskva tərəfindən idarə edilmişik, onların rəhbərliyi altında olmuşuq.

Amma çox təəssüf ki, indiyədək bu bölgəyə lazımi diqqət, nəinki lazımi, həm də ümumən diqqət göstərilməmişdir. 1996-cı ildəki Kislovodsk görüşümüz yaxşı görüş idi. Lakin o görüş – bu gün mən bunu deyə bilərəm – bəlkə də epizodik xarakter daşımışdır, halbuki onda biz yaxşı bəyannamə qəbul etmişdik. Ancaq açığını deyəcəyəm, o vaxt həmin görüş başqa məqsədlər də güdürdü. Odur ki, Rusiya tərəfindən bu münaqişələrə indiyədək diqqət yetirilməməsi bizi, şübhəsiz, həmişə ağır vəziyyətə salmışdır və salır. Təbii ki, Cənubi Qafqazda təhlükəsizlik üçün şərait olmamasından, Şimali Qafqazda da mürəkkəb problemlər olmasından Rusiyanın özü də çətinliklər çəkir.

Vladimir Vladimiroviç Putinin təşəbbüs göstərməsini və prezident vəzifəsini icra edən yeni bir şəxs kimi vəziyyətin ondan ötrü mürəkkəb olmasına baxmayaraq, vaxt ayırmasını, bizimlə görüşüb fikir mübadiləsi aparmasını artıq irəliyə doğru əhəmiyyətli addım sayıram.

Həmkarlarımın dediyi kimi, biz məsələlər barəsində həqiqətən fikir mübadiləsi apardıq, onları müzakirə etdik. Əlbəttə, hər hansı qərarlardan danışmaq hələlik tezdir. Ancaq bu, irəliyə doğru getməkdir və Qafqazda və Cənubi Qafqazda təhlükəsizliyin və əməkdaşlığın təmin olunmasına Rusiyanın böyük maraq göstərdiyinə sübutdur.



Əlbəttə, Cənubi Qafqazda tam təhlükəsizliyi və əməkdaşlığı təmin etmək üçün münaqişələri, xüsusən Ermənistanla Azərbaycan arasındakı münaqişəni, habelə digər münaqişələri aradan qaldırmaq lazımdır. Bunsuz təhlükəsizlikdən ciddi şəkildə danışmaq mümkün deyil. Şimali Qafqazda münaqişənin nizama salınmalı olmasına və bundan ötrü tədbirlər görüldüyünə gəldikdə isə, bu da bütün Qafqazda vəziyyətin tədricən sabitləşdirilməsi üçün mühüm addımdır. Bu görüşü çox faydalı hesab edirəm, onu gələcək qarşılıqlı fəal tədbirlərimiz üçün başlanğıc sayıram və buna ümid bəsləyəcəyəm.

# MÜSTƏQİL DÖVLƏTLƏR BİRLİYİNİN ÜZVÜ OLAN ÖLKƏLƏRİN DÖVLƏT BAŞÇILARININ MOSKVADA KEÇİRİLƏN NÖVBƏTİ ZİRVƏ GÖRÜŞÜNDƏN QAYIDARKƏN BİNƏ HAVA LİMANINDA JURNALİSTLƏRİN SUALLARINA CAVAB

*25 yanvar 2000-ci il*

**Sual**: Cənab Prezident, Siz Moskva görüşünü dönüş yaradan sammit adlandırdınız. Sizcə, bu görüşün əhəmiyyəti nədədir?

**Cavab**: Görüşün əhəmiyyəti ondadır ki, bilirsiniz, Müstəqil Dövlətlər Birliyi neçə illərdir fəaliyyət göstərir, ancaq mənim verdiyim qiymət ondan ibarətdir ki, – orada mətbuat konfransı oldu, mən orada da demişəm, yəqin bizim televiziyada verəcəklər, eşidəcəksiniz – dövlət başçılarının bu görüşü və aparılan müzakirələr, qəbul olunan qərarlar Müstəqil Dövlətlər Birliyinin indiyə qədərki bütün fəaliyyətindən fərqlənir.

Dövlət başçılarının görüşü bağlı görüşdür. Bu görüş çox səmərəli, demokratik şəraitdə, fikir azadlığı şəraitində keçdi. Hərə öz fikrini dedi, çox məsələləri müzakirə elədik. Bəzi məsələlər – hansılar ki, ümumi iclasa çıxarılmalı, qərar qəbul olunmalı idi – onların bəziləri ayrı-ayrı prezidentlərin iradına görə qəbul edilmədi, təxirə salındı. Mən dövlət başçılarının görüşündən çox məmnunam.

Bilirsiniz ki, biz hamımız eyni fikirdə idik ki, Müstəqil Dövlətlər Birliyinin Dövlət Başçıları Şurasının sədri vəzifəsinə Putini seçək. Biz Putini də seçdik. Mən hesab edirəm ki, bu düzgündür. Çünki bizim hələ o formaya keçməyə ki, rotasiya olsun, hər ildə biri olsun – bu mümkün deyildir. Biz əvvəl belə qəbul eləmişdik ki, Yeltsinin prezidentlik müddəti qurtarana qədər o olsun, ondan sonra isə ildə bir respublika sədrlik eləsin. Ancaq indiki şəraitdə bu mümkün deyil. Ona görə də biz Putini seçdik. Mən hesab edirəm ki, bu çox yaxşıdır.

Mən çox razıyam. Hər halda, həm işin formasında, həm məzmununda, həm müzakirələrin aparılmasında, münasibətlərdə böyük keyfiyyət dəyişiklikləri var. Buna görə də mən bu görüşdən, sammitdən çox məmnunluqla qayıtmışam.



**Sual**: Koçaryanla görüşünüz, danışıqlarınız barədə nə deyərdiniz?

**Cavab**: Koçaryanla görüşümüz təkbətək oldu. Ondan sonra bu görüşə Putin də qatıldı. Belə fikirləşdik, belə qərara gəldik ki, biz bu dialoqu davam etdirməliyik. Güman edirəm ki, mən Davosda da onunla görüşəcəyəm. Hələ ki, görüşləri davam etdirməliyik, görək hansı nəticəyə gələ bilirik. Putin də bu məsələyə qatılanda dedi ki, Rusiya da lazımi nəticənin əldə olunmasına çalışacaq, Ermənistan və Azərbaycan hansı razılığa gəlsələr, Rusiya onu həmişə dəstəkləyəcəkdir.

**Sual**: Cənab Prezident, Siz Vladimir Putinlə ikitərəfli görüşün yekunlarını necə qiymətləndirirsiniz?

**Cavab**: Çox yaxşı qiymətləndirirəm. Bizim çox məzmunlu, çox yaxşı söhbətimiz oldu. Putin dedi ki, Azərbaycanda tədbirlər görülmüşdür. Çünki mən böyük iradlarımı bildirmişdim ki, Rusiyanın kütləvi informasiya vasitələrində Azərbaycana və Gürcüstana qarşı əsassız, tamamilə yalan məzmunlu kampaniya başlanmışdır. Onlar əsassız olaraq hesab edirlər ki, guya buradan silah göndərilir, yaraqlılar burada hazırlıq keçirlər. Mən dedim ki, buyurun, bütün istiqamətlər üzrə kompleks komissiya təşkil edin və Azərbaycana göndərin, qoy o komissiya baxsın, görək bu düşərgələr haradadır, yaraqlılar haradadır? Putin bunun cavabında dedi ki, yox, bu yazılanlar yalnız informasiyadır, biz hesab edirik ki, Azərbaycanda belə şeylər yoxdur. Bir sözlə, şəxsən mən bu məsələni çox kəskin qoymuşdum, buna münasibət də belə oldu ki, onlar qəzetlərdə yazılanla razı deyillər.

**Sual**: Rusiyanın Ermənistana silah verməsi məsələsinin araşdırılması üzrə yaradılmış üçtərəfli komissiyanın işi barədə danışıqlar oldumu?

**Cavab**: Yox, bu barədə danışıq olmadı. Çünki onun yeri deyildi. İki ildir ki, bu danışıq gedir, bunlar hamısı keçmiş prezidentin, keçmiş rəhbərliyin vaxtında olmuşdur. İndi bu məsələni qaldırmaq mənasızdır. Gərək yeni prezident seçilsin, yeni bir hökumət yaransın. Ondan sonra, təbiidir ki, biz bu məsələni qaldıracağıq, bunu heç vaxt unutmayacağıq.

**Sual**: Cənab Prezident, mümkünsə, üç Cənubi Qafqaz dövləti prezidentlərinin Putinlə görüşü barədə məlumat verərdiniz.

**Cavab**: Yaxşı görüş oldu. Dörd prezidentin – həm Cənubi Qafqaz ölkələrinin prezidentlərinin, həm də Rusiyanın prezidenti səlahiyyətlərini həyata keçirən Putinin iştirakı ilə yaxşı görüş oldu. Hesab edirəm ki, biz yaxşı söhbət etdik və ola bilər, belə söhbətlər gələcəkdə də davam edəcəkdir.

**S u a l :** Cənab Prezident, viza rejiminin tətbiqi haqqında qərar barədə söhbət oldumu?

**C a v a b :** Bilirsiniz, o barədə heç sual da verən, cavab verən də yoxdur. Ancaq mən ümumi əhval-ruhiyyədən belə hiss edirəm ki, bu eləcə danışıqdır, tətbiq olunmayacaqdır.

**S u a l :** Cənab Prezident, Ermənistanda Koçaryanın istefasını tələb edən bir sıra partiyalar var. Artıq belə məlumatlar daxil olur ki, Koçaryanın istefası gözlənilir. Əgər Koçaryan istefa verərsə, Ermənistan-Azərbaycan danışıqları yenidənmi başlanacaq? Bu onu göstərmirmi ki, danışıqlara yenidən başlamaqla proses uzadılır?

**C a v a b :** Qızım, o qədər uzun sual verirsən ki, belə olsa nə olar, elə olsa nə olar... Mən sənə çox qısa, kəsə cavab verəcəyəm. Koçaryanın istefa məsələsini kim qaldırır, niyə qaldırır – mən bunu bilmirəm. Bunu orada-burada yazırlar. Nə olsun, çox yerdə gedib deyirlər «istefa, istefa». Mən inanmıram ki, Koçaryan istefa verəcəkdir. Ona görə, demək, sənin verdiyin sualların qalanı öz qüvvəsini itirdi.

**S u a l :** Cənab Prezident, Putin hakimiyyətə gələndən sonra Azərbaycan barəsində hansısa dəyişiklik hiss etdinizmi?

**C a v a b :** Hiss elədim, müsbət dəyişiklik hiss elədim və çox məmnunam. Çünki mən Putinlə Kiyevdə də görüşmüşdüm, bizim onunla iki saat yarım görüşümüz olmuşdu. İndi təkbətək görüşdük, sonra başqa görüşlər oldu. Məsələn, mətbuat konfransında Putinə sual verdilər ki, Cənubi Qafqaz ölkələrində rusdilli xalqların vəziyyəti necədir? Putin buna yaxşı cavab verdi. Mən də əlavə etdim ki, Azərbaycanda rus millətinə mənsub olan, rusdilli xalqların vəziyyəti çox yaxşıdır. Onlar öz vəziyyətindən razıdırlar. Azərbaycanda rus məktəbləri var və hətta azərbaycanlıların bəziləri də rus bölməsində oxuyurlar. Bəzən bizim dərsliklərimiz çatışmır, onu da Moskvadan göndərirlər. Dedim ki, rus millətindən olanlar mənim dostlarımdır və onlar həmişə mənə yüz faiz səs veriblər. Bunu da Putin təsdiq etdi və dedi ki, biz də belə fikirdəyik ki, Azərbaycandan rusdilli əhalinin köçüb getməsi halları yoxdur.



## İSVEÇRƏYƏ SƏFƏRDƏN VƏTƏNƏ QAYIDARKƏN BİNƏ HAVA LİMANINDA JURNALİSTLƏRİN SUALLARINA CAVAB

*30 yanvar 2000-ci il*

**S u a l :** Cənab Prezident, səfərinizin yekunları haqqında məlumat verməyinizi xahiş edirik.

**C a v a b :** Bu səfərim o qədər zəngin olubdur ki, onun haqqında qısa bir zamanda məlumat vermək mümkün deyildir. Yəqin ki, televiziya, radio, mətbuat vasitəsilə hər şeyi biləcəksiniz. Bilirsiniz ki, mənim bütün səfərlərim haqqında məlumatın hamısı açıq-aydın mətbuata verilir.

Onu deyə bilərəm ki, çox səmərəli bir səfərdir. Davos forumu beynəlxalq iqtisadi forumdur. 30 ildir ki, bu forum davam edir, ildə bir dəfə keçirilir. Həm çox ölkələrin dövlət başçıları, hökumət başçıları, həm də çox iş adamları gəlirlər. Orada həm cari iqtisadi məsələlər, gələcək məsələlər müzakirə olunur, həm də ki, təbiidir, insanlar bir-biri ilə görüşürlər. Bu böyük imkandır. Yəni dövlət, hökumət başçıları, yaxud xarici işlər nazirləri müəyyən görüşlər keçirib öz məsələlərini müzakirə edirlər. Bir də ki, dünyanın çoxlu iş adamları, məsələn, Yaponiyadan tutmuş Amerikaya qədər, hətta Latın Amerikasından, Cənubi Amerikadan adamlar var idi.

Forum bizim üçün də səmərəli, əhəmiyyətlidir. Çünki orada xüsusi bir bölmə var idi, adını bir az qəribə qoymuşdular: «Böyük İpək Yolu – böyük oyundur». Amma əsas məsələ ondan ibarət idi ki, bu İpək Yolu, doğrudan da realdır, nə cürdür, nə təhərdir.

Orada Qafqaz respublikalarından ikisinin – Azərbaycanın, Ermənistanın prezidentləri, habelə Qırğızıstanın prezidenti var idi. Türkiyə, xarici işlər naziri ilə təmsil olunurdu. Qazaxıstandan baş nazir gəlmişdi, prezident yox idi. İrandan da xarici işlər naziri gəlmişdi.

Çox səmərəli görüş keçdi. Bu, həm İpək Yolu haqqında, həm Xəzər hövzəsi haqqında, həm də Bakı-Ceyhan boru xətti barədə Azərbaycanın mövqelərini bildirməyə imkan yaratdı. Eyni zamanda suallara cavab verərək imkan oldu ki, Ermənistan-Azərbaycan münaqişəsi haqqında fikirlərimizi, vəziyyəti geniş kütləyə çatdıraq. Mən bunu çox uğurlu hesab edirəm.

Ən böyük, maraqlı tədbir dünən Amerika Birləşmiş Ştatlarının prezidenti Bill Klintonun gəlməsi, orada böyük bir salonda onun çıxışı idi. Çıxış çox məzmunlu idi: dünyanın bu günü və gələcəyi haqqında. Ümumiyyətlə, bu forumun ən əsas məzmunu, yəni onun ana xətti dünyanın qloballaşması barədə idi. Klintonun da çıxışı əsasən buna həsr olunmuşdu. Mən hesab edirəm ki, çox dəyərli çıxış idi, dəyərli fikirlər irəli sürdü. Həm məzmunca, həm mənaca, həm də formaca çox cəlbedici bir çıxış oldu. Televiziya ilə də birbaşa translyasiya gedirdi – Si-En-En, başqaları verirdi. Ola bilər, sizlərdən də kimsə görübdür. İndi onun çıxışının məzmununu danışmaq mümkün deyil. Hər halda bizim də mətbuatda onun müəyyən bir hissəsi veriləcək. Yəqin ki, hamısını vermək çətindir, amma müəyyən bir hissəsi veriləcəkdir. Gələcəkdə, kimin imkanı varsa, hər halda tanış olsa yaxşı olar – dünyanın problemlərinə aiddir.

İkitərəfli görüşlər çox oldu. Ermənistan prezidenti Koçaryanla növbəti dəfə görüşdüm, danışıqları davam etdirdik. Danışıqlar hələ gedir. Hər iki tərəf kompromislər haqqında danışıqlar aparırdı. Ancaq belə qərara gəldik ki, danışıq prosesi davam etməlidir və məsələnin hər iki tərəf üçün məqbul, sülh yolu ilə həllinə nail olmalıyıq.

Amerika Birləşmiş Ştatlarının xarici işlər naziri xanım Olbrayt öz nümayəndə heyəti ilə, mən də xarici işlər naziri və nümayəndə heyətinə daxil olan başqa adamlarla birgə görüşdük. Bu görüşdə birinci yerdə yenə Ermənistan-Azərbaycan münaqişəsinin həll olunması məsələsi dururdu. Hesab edirəm, çox əhəmiyyətli, maraqlı görüş idi. Bəli, Amerika Birləşmiş Ştatlarının hökuməti çox həvəslidir ki, məsələni sülh yolu ilə tezliklə həll edək.

Bir çox başqa dövlət, hökumət başçıları ilə görüşlərim oldu. Onların hamısını burada sadalamaq istəmirəm, mətbuatda veriləcəkdir. Bütün görüşlərdə hamı, hətta, məsələn, İsveçrə Konfederasiyasının prezidenti, yaxud da İordaniyanın kralı bu məsələ barəsində məlumat almaq istəyirdi. Bəzən görürsən ki, məsələn, məlumat qıtlığı var, məlumatı yoxdur, ona görə də verilən məlumat maraq doğurur. Mən ikitərəfli çox görüşlər keçirmişəm, hamı belə fikirdədir ki, məsələ sülh yolu ilə həll olunmalıdır. Hamı da arzu edir ki, tezliklə həll olunsun, çünki bunun həm iqtisadi, həm də siyasi əhəmiyyəti var. Çünki Qafqaz, Mərkəzi Asiya indi dünyada çox böyük maraq dairəsi olduğu üçün Qafqazda, xüsusən Cənubi Qafqazda sülh yaranmasında hamı maraqlıdır.



Bir neçə iş adamları, xüsusən bizimlə əməkdaşlıq edən neft şirkətlərinin prezidentləri ilə görüşlər oldu. Onlarla bugünkü və gələcək işlərimiz haqqında danışdıq.

Mən bu görüşlərdən çox məmnunam. Ümumiyyətlə, bu forumda Azərbaycanın iştirak etməsindən çox məmnunam. Beş il bundan öncə, 1995-ci ildə bir dəfə bu forumda olmuşdum. Bu, ikinci dəfədir. Amma bəziləri hər il gəlir, ya da bir il gəlir, bir il gəlmirlər. Ancaq deyə bilərəm ki, bu, indiyə qədər keçirilən forumlardan məzmunca və səviyyəcə daha da yüksək idi. Ona görə də bu səfəri uğurlu hesab edirəm.

**S u a l :** Cənab Prezident, İsveçrənin «Frank Müller» və «Andre Qrup» şirkətləri Azərbaycanın işğal olunmuş Qarabağ bölgəsində iqtisadi layihə həyata keçirmək fikrindədir. Bununla bağlı Azərbaycanın Xarici İşlər Nazirliyi İsveçrənin Xarici İşlər Nazirliyinə nota göndəribdir. İsveçrə nümayəndələri ilə görüşünüzdə bu məsələyə toxunuldumu?

**C a v a b :** Bəli, biz bu məlumatı almışıq və bizim Xarici İşlər Nazirliyi nota göndəribdir. Mən bu barədə İsveçrənin prezidenti ilə ətraflı danışdım. O dedi ki, mən bunu bilmirdim. Çox da mütəəssir oldu. Eyni zamanda İsveçrənin maliyyə naziri mənimlə ayrıca görüşdü. O mənimlə görüşməyi xahiş etmişdi, müəyyən məsələləri var idi. Ona da dedim, çox qəti dedim ki, bunların qarşısı alınmalıdır. Çünki ikisi də həmin problemlə çox maraqlanırdı və mən onlara geniş məlumat verəndən sonra, xəritədə hər şeyi göstərəndən sonra axırda dedim ki, görürsünüz, siz maraqlanırsınız, istəyirsiniz ki, məsələ həll olunsun. Məsələn, 1996-cı ildə Lissabon sammitində – o zaman İsveçrə ATƏT-in sədri idi – İsveçrənin xarici işlər naziri Flavio Kotti çox dəyərli iş gördü, biz Lissabon sammitinin sənədini əldə edə bildik. Mən dedim ki, o vaxt siz bizə kömək etmisiniz və onlara təşəkkür etdim. Amma indi belə bir hal var. Onlar – həm prezident, həm də maliyyə naziri dedilər ki, biz bunu bilmirik, ancaq lazımi tədbir görüləcəkdir.

**S u a l :** Cənab Prezident, Amerika hökuməti dəfələrlə öz narahatlığını bildirib ki, Çeçenistandakı münaqişə Azərbaycana və Gürcüstana keçə bilər. Prezident Klintonla Sizin görüşünüz olub, bu barədə nə deyə bilərsiniz?

**C a v a b :** Prezident Klintonla görüşlərim oldu, bu barədə danışıqlar olmadı. Amma bu məsələ ilə maraqlananlar çoxdur. Xanım Olbraytla bu barədə ətraflı danışdıq. Çünki Klintonla bu barədə danışmağa eh-

tiyac olmadı. Ancaq Klinton orada öz çıxışında, ümumiyyətlə, Çeçenistandakı işlər haqqında Rusiyadan narazılığını bildirdi.

Amma Rusiya Azərbaycanı Çeçenistana yardım etməkdə günahlandırır, bunun əsasında indi Rusiya mətbuatında antiazərbaycan təbliğatı gedir – mən bunu keçən dəfə demişdim, Moskvada kəskin qoymuşdum. Rusiyada prezident səlahiyyətlərini həyata keçirən Putinlə çox ciddi danışığımız oldu. Amma o mənə dəfələrlə dedi ki, bu bizim dövlətimizin siyasəti deyildir. Azərbaycanın müdafiə naziri Rusiyanın müdafiə nazirinin məktubuna rəsmi, kəskin cavab vermişdir. Bildirmişik ki, bunlar hamısı yalandır. Mən Moskvada olanda Putinə də dedim ki, göndərin, istəyirsiniz nümayəndə heyətiniz 10 nəfər olsun, 20 nəfər olsun, 50 nəfər olsun – gəlin, Azərbaycanın hər yerinə baxın. Biz heç bir yardım, filan etmirik.

Hər halda sizə məlumdur ki, Amerika hökuməti Rusiyaya bu barədə – Azərbaycan və Gürcüstan haqqında xəbərdarlıq edibdir. Ona görə artıq bu barədə danışmağa ehtiyac yoxdur.

**Sual:** Cənab Prezident, Qafqazda təhlükəsizlik paktı ilə bağlı müzakirələriniz oldumu? Digər ölkələr buna necə münasibət bəsləyirlər?

**Cavab:** Bilirsiniz, indi bu mövzu çox aktual, loru dillə desək, çox dəbdə olan mövzu olubdur. Bununla çox maraqlandılar, hamı buna həvəs göstərir. Yəni indi bütün mövzular içərisində bu mövzu – bilirsiniz ki, mən Cənubi Qafqazda təhlükəsizlik və əməkdaşlıq paktı yaranması haqqında İstanbulda təklif vermişdim – barədə çox danışır, çox böyük maraq göstərir və çox da istəyirlər. Aparılan ikitərəfli danışıqlarda da bu barədə çox deyildi. Onların hamısına deyirəm ki, mən İstanbulda bu təklifi irəli sürmüşəm, ancaq eyni zamanda o vaxt da demişəm və indi də deyirəm: əgər Ermənistanla Azərbaycan arasında münaqişə həll olunmasa, Ermənistanla Azərbaycan arasında sülh yaranmasa, təhlükəsizlik paktından heç də söhbət gedə bilməz.

**Sual:** Cənab Prezident, Türkiyənin baş naziri ilə görüşünüzdə hansı məsələlər müzakirə olunmuşdur?

**Cavab:** Bəli, Bülənd Ecevitlə görüş keçirdik. Elə bu məsələlər, dediyim məsələlər müzakirə edildi. Türkiyə ilə bizim aramızda elə bir problem yoxdur. Bilirsiniz ki, bundan öncə mən Türkiyədə olmuş, hamı ilə danışıqlar aparmışdım. Amma indi, bu dəqiqə bizim üçün ən aktual məsələ – Ermənistan-Azərbaycan münaqişəsini həll etməkdir. Burada Türkiyə amili də var. Çünki Türkiyə bu işdə bilavasitə iştirak edir. Türkiyənin iştirakı olmadan... Məsələn, Ermənistan dəfələrlə deyib ki, məsələ həll olunarsa, Türkiyə sərhədləri açmalı və ticarət əlaqələrini, diplomatik əlaqələri qurmalıdır. Türkiyə də bəyan edir ki, əgər münaqişə sülh yolu ilə həll olunsa, Azərbaycanın işğal edilmiş torpaqları azad olsa, qaçqınlar yerinə qayıtsa, onda sərhədləri də, yolları da açacaqlar. Yəni Türkiyə bu prosesin iştirakçısıdır. Ona görə də hörmətli Bülənd Ecevitlə bizim danışıqlarımız əsasən bu məzmunda olubdur.



**Sual:** Cənab Prezident, Siz İranın xarici işlər naziri Kamal Xərrazi ilə də görüşmüsünüz. Sizin İrana qarşıdakı səfəriniz barədə söhbət oldumu?

**Cavab:** Bəli, onlar çox istəyirlər ki, mən İrana gedim. Mən söz vermişəm. Mən onlara dedim ki, əvvəl bizim xarici işlər naziri oraya səfər etsin, ondan sonra mən. Hər halda, yaxın zamanda vaxtını təyin edəcəyik. Onlar da çox istəyirlər, mən də buna razılıq vermişəm. Mən İrana gedəcəyəm.

**Sual:** Cənab Prezident, Siz dediniz ki, Dağlıq Qarabağ münaqişəsi barədə bəzi ölkələrin ətraflı məlumatı yox idi. Davos forumunda iş adamları da iştirak edirdilər. Bu söhbətlərdən sonra hiss etdinizmi ki, onların Azərbaycana marağı artdı?

**Cavab:** Bilirsiniz, bu söhbətlər təkbətək gedir. İş adamı nə bilir ki, mən baş nazirlə hansı söhbəti aparıram? Amma iş adamları Azərbaycana çox böyük maraq göstərirlər, çox investisiya qoymaq istəyirlər. Ona görə mən orada iş adamlarının əlindən qaçırdım – hamı mənimlə görüşmək istəyirdi, amma vaxtım yox idi. Ancaq kiminlə ki, lazım idi, onlarla görüşdüm.

Sağ olun.

## AMERİKA BİRLƏŞMİŞ ŞTATLARINA YOLA DÜŞMƏZDƏN ƏVVƏL BİNƏ HAVA LİMANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİ NÜMAYƏNDƏLƏRİNİN SUALLARINA CAVAB

*12 fevral 2000-ci il*

**S u a l :** Cənab Prezident, Amerika Birləşmiş Ştatlarına səfər zamanı əsasən hansı məsələləri müzakirə etmək niyyətindəsiniz?

**C a v a b :** Sizə məlumdur, bizim mətbuat xidməti mənim səfərim haqqında məlumat veribdir. Elə həmin məsələləri də müzakirə edəcəyik.

Bilirsiniz ki, Amerika Birləşmiş Ştatları ilə Azərbaycan arasındakı əlaqələr çox genişdir, ətraflıdır və biz Amerika Birləşmiş Ştatlarının dövlət başçısı, hökumət üzvləri ilə vaxtaşırı görüşlər keçiririk. Bir neçə məsələ bizim görüşlərin həmişə mərkəzində olur. Birinci, Ermənistan-Azərbaycan münaqişəsinin, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həll olunması. Bu məsələ hələ ki, həll olunmayıbdır. Ancaq son bir il içərisində, hesab edirəm ki, müəyyən irəliləmələr vardır.

Xəzər dənizinin enerji ehtiyatlarından istifadə olunması, Bakı-Ceyhan, Xəzər qaz kəmərlərinin çəkilməsi və başqa bu kimi problemlər, ticarət əlaqələrimiz, Amerika Birləşmiş Ştatlarının başqa strukturları ilə də bizim əməkdaşlığımız – bunlar hamısı çox geniş əhəmiyyət kəsb edir.

Bilirsiniz ki, son vaxtlar mənim çox görüşlərim olubdur. Mənim Davosda görüşlərim sizə məlumdur. Prezident cənab Bill Klintonla və xarici işlər naziri xanım Olbraytla, başqa hökumət üzvləri ilə – orada Amerikanın çox hökumət üzvləri var idi – onlarla bu danışıqları davam etdirmək lazımdır. Doğrudur, Davosda biz yaxşı söhbət edə bildik, amma biz eyni fikrə gəldik ki, bunları daha da geniş təhlil etmək üçün görüşlər lazımdır. Ona görə də mən gedirəm.

Mənim bu səfərim işgüzar səfərdir və artıq bilirsiniz ki, çox görüşlər təyin olunubdur. Həm prezident Bill Klintonla, həm xarici işlər naziri xanım Olbraytla, enerji naziri ilə görüşəcəyəm. Başqa nazirlərin də mənimlə görüşmək arzuları vardır. Əgər vaxt olsa, orada bir neçə siya-



si xadimlər, Amerikanın çox hörmətli mətbuat orqanlarının nümayəndələri mənimlə görüşmək istəyirlər. Xahiş ediblər ki, Con Hopkins Universitetinin Beynəlxalq Əlaqələr İnstitutunda mən onları maraqlandıran məsələlər barəsində çıxış edim. Yəqin o da olacaqdır. Hər halda, hər dəfə olduğu kimi, işim çoxdur. Bunların hamısı üçün Amerikaya gedirəm və bunlar da bizim dövlətimiz üçün bu gün çox vacib məsələlərdir.

**S u a l :** Cənab Prezident, 907-ci düzəliş barədə nə demək olar?

**C a v a b :** Bəli, bu məsələ mütləq bizim danışıqlarımızın mərkəzində olacaqdır. Çünki bu barədə mən Davosda çox kəskin danışmışam.

**S u a l :** Bakı-Ceyhan neft kəməri ilə əlaqədar danışıqlar olacaqmı?

**C a v a b :** Bakı-Ceyhan məsələsi həll olunubdur. Sadəcə, orada Gürcüstanın mövqeyində bir balaca məsələ var – onu həll etmək lazımdır. Güman edirəm ki, bu gün, yaxud ayın 14-də Azərbaycanda Türkiyə, Gürcüstan, Azərbaycan nümayəndə heyətləri görüşəcəklər və bunu həll edəcəklər.

## ABŞ PREZİDENTİ İLƏ GÖRÜŞ BAŞA ÇATDIQDAN SONRA AĞ EVİN QARŞISINDA YERLİ VƏ XARİCİ JURNALİSTLƏRLƏ GÖRÜŞ

**Prezident Heydər Əliyev jurnalistlərə müraciətlə dedi:**

– Mən sizi salamlayıram və anlayıram ki, məndən hansısa məlumatlar gözləyirsiniz. Sizə deyə bilərəm ki, prezident cənab Bill Klintonla mənim danışığım çox uğurlu, çox səmərəli və çox da məzmunlu oldu. Birincisi, biz Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həll olunması məsələsini müzakirə etdik. Mən hesab edirəm ki, bizim danışıqlarımız, fikir mübadiləmiz bu məsələnin həll olunması üçün çox əhəmiyyətlidir və sülh danışıqlarının irəliyə getməsinə yardım edəcəkdir.

Sonra biz Xəzər dənizinin enerji ehtiyatlarından istifadə edilməsi məsələsi barədə fikir mübadiləsi apardıq. Bilirsiniz ki, biz Bakı-Ceyhan neft kəmərinin tikilməsi haqqında saziş imzalamışıq. İndi onun əməli surətdə həyata keçirilməsi barədə danışıqlar apardıq. Türkmənistandan Azərbaycan, Gürcüstan vasitəsilə Türkiyəyə gedəcək Transxəzər qaz kəmərinin tikilməsi ilə də əlaqədar fikir mübadiləsi apardıq. Biz bütün bu məsələlərdə eyni fikirdəyik və mən prezidentin mövqeyindən çox məmnunam.

Müzakirə etdiyimiz məsələlərdən biri də 1992-ci ildə Amerika Konqresi tərəfindən Azərbaycana qarşı edilmiş ədalətsizlikdir, yəni ədalətsiz 907-ci maddənin qəbul olunmasıdır. Amerika kimi ədalətli bir ölkədə, ədalətli Konqresdə, təəssüf ki, ədalətsiz qanun da qəbul edilibdir. Bunun qəbul edilməsinə Amerikadakı erməni lobbisi nail olubdur. Ancaq bu maddənin heç bir əsası yoxdur. Guya 907-ci maddəni ona görə qəbul ediblər ki, «Azərbaycan Ermənistanı blokadaya alıbdır». Əksinə, Ermənistan silahlı qüvvələri Azərbaycanla müharibə edib, Azərbaycan torpaqlarının 20 faizini işğal edib və indiyə qədər də işğal altında saxlayır. İşğal olunmuş torpaqlardan bir milyondan artıq azərbaycanlı zorla çıxarılıb, oralarda etnik təmizləmə aparılıbdır. Yerindən-yurdundan çıxarılmış insanlar çadırlarda ağır vəziyyətdə yaşayırlar.

Belə oduğu halda, «Azərbaycanın Ermənistanı blokadaya alması» haqqında fikir tamamilə əsassızdır. Ona görə də 907-ci maddənin ləğv olunması məsələsi bizim üçün çox əhəmiyyətlidir. Biz prezidentlə bu məsələni də müzakirə etdik.



Azərbaycan Respublikası və Amerika Birləşmiş Ştatları arasında dostluq, tərəfdaşlıq əlaqələri yaranıbdır, geniş iqtisadi əməkdaşlıq həyata keçirilir və bu, hər iki tərəf üçün faydalıdır. Biz Amerikanı özümüzün dostu və strateji tərəfdaşı hesab edirik. Bir də qeyd edirəm ki, mən prezidentlə görüşümdən və apardığım danışıqlardan çox məmnunam. Sağ olun.

**Azərbaycan Prezidenti Heydər Əliyev daha sonra jurnalistlərin suallarına cavab verdi.**

**S u a l :** Cənab Prezident, Bakı-Ceyhan boru kəməri həm də maliyyələşdirilməlidir. Biz belə anlayırıq ki, maliyyənin əsas hissəsi özəl şirkətlərdən gəlməlidir. Siz bu görüşünüz zamanı Bakı-Ceyhan boru kəmərinin maliyyələşdirilməsi yolları barədə də fikir mübadiləsi apardınızmı? Əgər apardınızsa, layihənin kimlər tərəfindən maliyyələşdiriləcəyi barədə nə deyə bilərsiniz?

**C a v a b :** Bakı-Ceyhan layihəsi yalnız özəl şirkətlər tərəfindən maliyyələşdiriləcəkdir. Azərbaycanda təşkil edilmiş konsorsiuma həm Amerika Birləşmiş Ştatlarının şirkətləri, həm də Böyük Britaniyanın şirkətləri, başqa şirkətlər daxildir və onlar hamısı birlikdə Azərbaycanda neft hasilatı ilə məşğul olduqlarına görə, hamısı birlikdə də Bakı-Ceyhan neft kəmərinin maliyyələşdirilməsi ilə məşğul olacaqlar. Bu məsələ həll edilib, bunun prezidentlə müzakirəsinə ehtiyac olmayıbdır.

**S u a l :** Cənab Prezident, Qafqaz regionunda terrorizm problemi müzakirə edildimi? Vəhhabilik probleminə Azərbaycanın münasibəti necədir?

**C a v a b :** Biz bu məsələni müzakirə etməmişik. Biz vəhhabiliyə son dərəcə mənfi münasibət bəsləyirik. Hesab edirik ki, bu hərəkat həm Şimali Qafqaz üçün, həm də ümumən Qafqaz üçün və regionumuzun digər ölkələri üçün təhlükəlidir.

**S u a l :** Cənab Prezident, Dağlıq Qarabağda sülh əldə edilməsi üçün Azərbaycan və Ermənistan nə kimi güzəştlərə gedirlər? Sülh üçün ərazi verilməsi ehtimalı varmı?

**C a v a b :** Təbiidir ki, hər iki tərəfdən güzəşt olmalıdır. Bizim danışıqlarımız əsasən güzəştlərin müəyyən olunması ilə əlaqədardır. Ancaq danışıqlarımız qurtarmadığına görə bu barədə hələ bir şey deyə bilmərəm.

Daha kimin nə sualı var, yoxdur? Sağ olun.

## «NYU-YORK TAYMS» QƏZETİNİN ƏMƏKDAŞLARI İLƏ GÖRÜŞ

**ABŞ-da işgüzar səfərdə olan Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev öz iqamətgahında bu ölkənin ən nüfuzlu mətbuat orqanlarından sayılan «Nyu-York tayms» qəzetinin əməkdaşları – baş diplomatik müxbir xanım Ceyn Perlez, Ağ Ev üzrə müxbir Mark Leysi, beynəlxalq iqtisadiyyat üzrə müxbir Cozef Kan, Vaşinqton üzrə redaktorun müavini Tom Şanker və Vaşinqton bürosunun redaktoru Karl Lavin ilə görüşmüş, onların suallarına cavab vermişdir.**

**Amerika jurnalistləri dövlətimizin başçısını səmimi salamladılar.**

**Ceyn Perlez:** Cənab Prezident, çox məmnunuq ki, bizimlə görüşmək üçün vaxt ayırmısınız. Ümidvaram ki, bizim belə çoxsaylı olmağımız Sizə təsir etməyəcəkdir. «Nyu-York tayms» qəzetindən beş nəfər Sizin görüşünüzə gəlmişik.

**Heydər Əliyev:** Mən də çox məmnunam. On nəfər olsaydı, daha yaxşı olardı.

**Ceyn Perlez:** Bu qəbulunuzla bizi çox şərəfləndirdiniz. Ümidvarıq ki, Sizinlə birbaşa sual-cavaba keçə bilərik. İstərdik ki, ilk sualımızı Vaşinqtonda hamını narahat edən, hamını maraqlandıran bir məsələ barədə verək. Bu, Azərbaycan nefti ilə əlaqədardır. Bilmək istərdik ki, Siz Azərbaycan neftinin İran ərazisindən ixrac olunması variantına necə baxırsınız? Mümkündürmü ki, Azərbaycan nefti Bakı-Ceyhanla paralel surətdə həm də İran vasitəsilə ixrac edilsin?

**Heydər Əliyev:** Mən belə başa düşürəm ki, Amerikada fikir dəyişilir? Çünki indiyə qədər mən beş ildir bu işlə məşğul oluram. Amerika Birləşmiş Ştatlarında mənə belə sual vermirdilər. Həmişə deyirdilər ki, qərb istiqamətində, Bakı-Ceyhan boru xətti ilə neftin ixracı nə cür olacaq? Amma indi Siz başqa bir sual verirsiniz.

**Jurnalist:** Ona görə də Sizin cavabınız bizi maraqlandırır.

**Heydər Əliyev:** Mən bunu belə deyə bilərəm ki, biz beş ildir Azərbaycanın Qərb ölkələrinin şirkətləri ilə imzaladığı ilk müqavilənin – dünyada buna «Əsrin müqaviləsi» deyirlər – həyata keçirilməsi ilə məşğuluq. Bu gün mən çox qürur hissi ilə deyirəm ki, biz böyük nailiyyətlər əldə etmişik. 1994-cü ilin sentyabr ayında o müqaviləni imzalayanda bəziləri buna inanmırdı, bəziləri isə müxtəlif istiqamətlərdən təzyiqlər edirdilər, yəni buna etiraz edirdilər. Amma biz bütün sınaqlardan keçdik, neftin hasilatına və sonra ixracına başladıq.



Təbiidir ki, biz neft hasilatına başlayanda düşünürdük və həmişə düşünmək lazımdır ki, nefti hasil edəndən sonra onu dünya bazarlarına necə ixrac edəcəksən?

Ona görə də biz 1994-cü ildə müqaviləni imzalayanda orada birmənalı yazılmışdı ki, Xəzər dənizinin Azərbaycan sektorundan çıxarılan neft Bakı-Ceyhan boru kəməri ilə ixrac olunacaqdır. Ancaq təbiidir ki, Bakı-Ceyhan boru kəmərinin tikilməsinə dərhal başlaya bilməzdik. Sizə məlumdur ki, ona görə ilkin neftin ixracı üçün biz 1996-1997-ci illərdə Rusiyanın Qara dənizdəki limanına çıxan Bakı-Novorossiysk boru xəttini çəkdik. 1997-ci ilin noyabr ayında biz Novorossiysk limanından artıq ilk tankerləri yola saldıq.

Amma bilirdik ki, bizə bir alternativ variant da lazımdır. Ona görə də biz eyni zamanda Bakı-Supsa boru xəttini – Gürcüstanın Qara dənizdəki limanına – çəkməyə başladıq. Keçən ilin aprel ayında biz Supsa limanından neft tankerlərini yola saldıq. Ona görə də indi hasil olunan neftimizi iki istiqamətdə ixrac etmək imkanımız var. Amma bunların ikisi də Qara dəniz limanlarınadır və tankerlər gərək Bosfor boğazından keçsinlər. Bu da get-gedə çətinləşir.

Doğrudur, Rusiyadan keçən, yəni Bakıdan Novorossiysk limanına gedən boru xəttimiz normal işləmir. Çünki bilirsiniz ki, Çeçenistandakı vəziyyətlə əlaqədar bir müddət bundan öncə o xətt tamamilə bağlanıbdır. Ona görə Bakı-Supsa boru kəməri indi çox əhəmiyyətlidir.

Ancaq neft hasilatı artır. Əgər 1994-cü ildə biz bir müqavilə imzalamışdıqsa, indi Xəzərin Azərbaycan sektorundakı və qurudakı yataqlara dair 19 müqavilə imzalamışıq. Gələcəkdə bu yataqlardan ildə azı 50-60 milyon ton neft hasil ediləcəkdir. Ona görə də əsas ixrac boru kəməri hesab etdiyimiz Bakı-Ceyhan boru kəməri ilə daim məşğul olmuşuq.

Bilirsiniz ki, keçən ilin noyabr ayında İstanbulda biz, yəni Azərbaycan, Gürcüstan, Türkiyə – bu işə Qazaxıstan da qoşuldu, çünki öz neftini Xəzər dənizindən keçməklə bu yolla ixrac etmək istəyir – son müqaviləni imzaladıq. Bu müqaviləni Amerika Birləşmiş Ştatlarının prezidenti Bill Klinton da imzaladı.

Ona görə indi Bakı-Ceyhan neft kəməri bizim üçün əsas ixrac kəməridir və onu tikib başa çatdırmaq əzmindəyik, bunu da edəcəyik. Bu barədə heç kəsin şübhəsi olmasın. Doğrudur, biz İstanbulda bu müqaviləni imzalayandan sonra mətbuatda buna müxtəlif münasibətlər bildirilir, müxtəlif qiymətlər verilir. Amma bunda da qeyri-adi bir şey yoxdur. Çünki əvvəldən bunun əleyhinə olanlar, yaxud başqa marşrutlardan istifadə edilməsini istəyənlər var. Hər halda bəzi ölkələr hərə öz marağını güdərək bu barədə müxtəlif fikirlər deyirlər.

Ancaq Xəzər dənizində, elə Azərbaycan sektorunda neft ehtiyatları çoxdur. Ona görə, əgər gələcəkdə mümkün olsa, biz İran ərazisindən də neft ixrac edə bilərik. Bunun üçün lazımi şərait yaranmalıdır.

Güman edirəm, siz bilirsiniz ki, Azərbaycanın Xəzər dənizindəki sektoru təkcə neftlə yox, qazla da çox zəngindir. Təbiidir ki, biz bunu bilirdik, ancaq fikrimizi əvvəl neftə cəlb etmişdik. Amma indi aparılan işlər, yəni xarici şirkətlərlə birgə gördüyümüz işlər nəticəsində bizim gözlədiyimizdən də çox qaz yataqları açılmışdır. Məsələn, Xəzərdəki «Şahdəniz» yatağında iş aparmaq üçün 1996-cı ildə imzaladığımız müqavilə – doğrudur, bu müqavilədə Amerika şirkətləri iştirak etmir. Orada əsas «Bi-Pi», «Statoyl» və başqa şirkətlər var – əsasında indi oradan 1 trilyon kubmetrdən artıq qaz hasil etmək imkanı olduğu görünür. Amma əvvəl biz hesab edirdik ki, orada ehtiyat 400 milyard kubmetr olacaqdır. Deməli, 2,5 dəfə artıqdır, amma bu da son hədd deyildir.

O yatağa yaxın olan başqa bir yatağımız var, «Abşeron» adlanır. Onu işlətmək üçün biz Amerikanın «Şevron» şirkəti ilə müqavilə imzalamışıq. Son iki ildə orada aparılan işlər bu yataqda «Şahdəniz»dəkindən də çox – 3 trilyon kubmetr qaz ehtiyatı olduğunu göstərir. Biz görürük ki, başqa neft yataqlarında da böyük qaz ehtiyatları aşkar edəcəyik.

Ona görə də indi qazın ixracı bizim qarşımızda duran bir problemdir. Güman edirəm, biz bunu da həll edə bilərik. Bilirsiniz ki, Türkmənistan qazının Xəzər dənizi, Azərbaycan, Gürcüstan vasitəsilə Türkiyəyə ixrac edilməsi üçün İstanbulda müqavilə imzalanıbdır. Biz hesab edirik ki, Transxəzər borusu ilə Azərbaycan qazının da bir hissəsi ixrac olunmalıdır.

Gələcəkdə daha çox şeylər gözlənilir. Ona görə İran – Sizin sualınıza bir də qayıdıram – təbiidir ki, istifadə oluna bilər.

**S u a l :** Sizcə, İran ərazisindən daha çox qaz ixracı üçün istifadə etmək olar, yoxsa neft ixracı üçün?



**C a v a b :** Həm neft üçün, həm də qaz üçün.

**S u a l :** Siz «gələcək» deyəndə, bunun müddətini nə qədər görürsünüz?

**C a v a b :** Bilirsiniz, hesab edirəm, gələcək beş il, on il... Bizim müqavilələr 30-40 il müddətinə imzalanıbdır. Bu işlər o qədər də asan deyildir. Çünki müqavilə imzalanandan sonra təxminən iki-üç il geoloji kəşfiyyat işləri gedir. Ondan sonra orada olan neftin və ya qazın həcmi müəyyən edilir. Sonra hasilat prosesi başlayır. Hasilat prosesinə başlamaq üçün bir çox işlər görmək, dənizdən qazı, yaxud da nefti sahilə çatdırmaq üçün borular çəkmək, infrastruktur yaratmaq lazımdır. Çox çətin işdir. Mən Sizə məsləhət görürəm, Azərbaycana gəlin, indi işlətdiyimiz «Çıraq» yatağındakı platformaya Sizi vertolyotla göndərərəm, orada gözəl mənzərə görərsiniz.

Neft sahəsində daha geniş bilgi almaq istəyirsinizsə, Neft Şirkətinin birinci vitse-prezidenti İlham Əliyev bu işlərlə bilavasitə məşğul olur, o sizə əlavə cavablar verə bilər.

**S u a l :** Cənab Prezident, Siz qarşıdakı həftə ərzində prezident Klintonla görüşəcəksiniz. Bilmək istərdik ki, prezident Klintonla görüşdə müzakirə edəcəyiniz məsələlər sırasında öncül məsələlərdən biri ABŞ-dan Sizin ölkənizə yardım göstərilməsinə qoyulmuş məhdudiyyətlərin aradan qaldırılması məsələsi olacaqmı? Əgər bu məsələni qaldıracaqsınızsa, o zaman Ermənistana hər hansı güzəştlər edilməsini nəzərdə tutacaqsınızmı? Məsələn, Ermənistanın tərkibində bir muxtar qurumun yaradılması, yaxud Dağlıq Qarabağa Azərbaycanın tərkibində muxtariyyət verilməsi sahəsində hansı güzəştlər olunmasını planlaşdırırsınız?

**C a v a b :** Bəli, sabah mən prezident Bill Klintonla görüşəcəyəm. Onunla danışılası çox sözlərim var. Ancaq Sizin dediyiniz problem, təbiidir ki, bizim üçün öncül problemdir. Çünki sizə məlumdur ki, on iki ildir Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi davam edir. Bəzi səbəblərdən, bu münaqişə nəticəsində Ermənistan silahlı qüvvələri Azərbaycanın ərazisinin 20 faizini işğal ediblər.

Siz bu xəritəni görürsünüz. Burada Azərbaycan, ərazi etibarilə Azərbaycandan bir az aralı düşən, Azərbaycanın tərkib hissəsi olan Naxçıvan göstərilibdir. Bu xəritənin rənglənmiş hissələri var. Qırmızı rənglə rənglənən Azərbaycanın tərkibindəki keçmiş Dağlıq Qarabağ muxtar vilayətidir.

Ermənistan 1988-ci ildə Dağlıq Qarabağ vilayətini özünə bağlamaq üçün münaqişəni başlayıbdır. Azərbaycan da etiraz edibdir. Çünki bu, Azərbaycanın torpağıdır. Dağlıq Qarabağda ermənilərlə bərabər azərbaycanlılar da yaşayırdı. Amma Ermənistan nəyin bahasına olursa-olsun, Dağlıq Qarabağı ələ keçirməyə çalışıbdır. Bununla da müharibə başlayıbdır. Qan tökülüb, döyüşlər gedib və müxtəlif səbəblərdən Ermənistan silahlı qüvvələri birinci növbədə Dağlıq Qarabağı tamamilə işğal ediblər.

Ondan sonra Ermənistan müharibəni genişləndirib və Dağlıq Qarabağın ətrafında yerləşən, gördüyünüz xəritədə yaşıl və sarı rənglərlə rənglənmiş, bütünlüklə azərbaycanlılar yaşayan ərazini, Dağlıq Qarabağa heç bir dəxli olmayan rayonları işğal edibdir. Rənglənmiş bütün bu yerlər Azərbaycan ərazisinin 20 faizini təşkil edir və Ermənistan silahlı qüvvələrinin işğalı altındadır. Buradan zorla çıxarılmış bir milyon azərbaycanlı indi Azərbaycanın müxtəlif bölgələrində yaşayır – bu da xəritədə göstərilibdir. Onların əksəriyyəti çadırlarda yaşayır. Təsəvvür edin, insanlar yeddi ildir ki, çadırlarda, ağır vəziyyətdə yaşayırlar.

1994-cü ildə biz döyüşləri, atəşi dayandırdıq və Ermənistanla Azərbaycan arasında atəşkəs haqqında saziş əldə etdik. Ancaq indiyə qədər məsələnin sülh yolu ilə həll edilməsinə nail ola bilməmişik. Bilirsiniz ki, bu məsələ ilə ATƏT-in Minsk qrupu məşğul olur və Minsk qrupuna da üç böyük dövlət – Rusiya, Amerika Birləşmiş Ştatları və Fransa başçılıq edirlər.

Biz məsələni sülh yolu ilə həll etmək istəyirik. Vaxtilə, 1996-cı ildə ATƏT-in Lissabon Zirvə görüşündə qəbul olunmuş sənəddə də göstərilir ki, Dağlıq Qarabağa Azərbaycanın tərkibində yüksək dərəcəli özünüidarə hüququ, yəni muxtariyyət hüququ verilsin və Ermənistan silahlı qüvvələri işğal olunmuş torpaqlardan çıxarılsın, bu torpaqlardan zorla çıxarılmış azərbaycanlılar öz yerlərinə-yurdlarına qayıtsınlar. Amma Ermənistan buna razı olmur. Ermənistan istəyir ki, Dağlıq Qarabağa müstəqillik statusu, müstəqillik hüququ verilsin. Biz buna razı ola bilmərik. Beynəlxalq hüquq normaları da buna razı ola bilməz. Çünki bu, Azərbaycanın ərazi bütövlüyünün tamamilə pozulması deməkdir.

O ki qaldı, Siz deyirsiniz, Azərbaycana qarşı qoyulmuş qadağanın götürülməsi, deməliyəm ki, bəlkə də Amerika kimi demokratik, ədalətli ölkənin tarixində Konqresin ən ədalətsiz qərarı 1992-ci ildə qəbul olunubdur. Bu, «Azadlığı dəstəkləmə aktı»nın 907-ci maddəsinin Azərbaycana tətbiq edilməsidir.



Səbəbi nə olubdur? İzah edirlər ki, guya Azərbaycan Ermənistanı və Dağlıq Qarabağı blokadaya alıbdır. Birincisi, Azərbaycan Ermənistanı necə blokadaya ala bilər? Ermənistan tamamilə başqa bir ölkədir. Burada dəmir yolundan söhbət gedir. Bəli, müharibə başlanandan bir müddət sonra Bakıdan, Azərbaycandan gedən dəmir yolunun – baxın, dəmir yolu gəlir buraya, buradan Yerevana gedir – bu hissəsi, İranla bizim sərhədimizin 130 kilometr hissəsi Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunubdur. Bizim Naxçıvan Muxtar Respublikası – hansı ki, dəmir yolu, başqa yollar vasitəsilə Azərbaycanla bağlı idi – o, blokadaya alınıbdır.

Ona görə də biz deyirik ki, gəlin bu münaqişəni qurtaraq, Dağlıq Qarabağa həmin o statusu verək və sülh yaransın. Amma hələ bu məsələ həll olunana qədər 907-ci maddəni mütləq götürmək lazımdır. Çünki, birincisi, o, 1992-ci ildə əsassız qəbul olunub və Amerika Birləşmiş Ştatlarının hakimiyyətinin – həm Konqresinin, həm də hökumətinin ədalətsiz bir qanun qəbul etdiyini göstərir. İkincisi də, əgər istəyirsinizsə ki, hər şey qurtarsın, onda gərək Ermənistan silahlı qüvvələri işğal olunmuş torpaqlardan çıxsın, yol açılsın və əgər Ermənistan hesab edirsə ki, o, blokadadadır – amma blokadada deyil, çox gözəl inkişaf edir, İranla, Gürcüstan yolu ilə, başqa vasitələrlə onun iqtisadi inkişafı çox yüksək səviyyədədir – onda bu yol da açılacaqdır.

**S u a l :** Bu münaqişəyə son qoymaq üçün Siz Dağlıq Qarabağın beynəlxalq administrasiyasının nəzarətinə verilməsi ideyasını nəzərdən keçirə bilərsinizmi?

**C a v a b :** Bilirsiniz, belə ideyalar çoxdur, təkcə Siz dediyiniz deyildir. Biz bunların hər birini nəzərdən keçirə və lazımi güzəştlərə gedə bilərik. Baxmayaraq ki, bizə böyük zərbələr vurulub, Azərbaycanın işğal olunmuş torpaqlardakı bütün mülkü, varidatı dağılıbdır. Azərbaycanın bir milyon vətəndaşı öz yerindən, mülkündən məhrum olubdur. Nə qədər insanlar tələf olubdur. Bunlara baxmayaraq, biz sülh istəyirik. Təbii ki, sülhü də həm Azərbaycan tərəfindən, həm də Ermənistan tərəfindən olunacaq qarşılıqlı güzəştlərlə əldə etmək olar.

Ancaq Ermənistan çox qeyri-konstruktiv mövqe tutur: «Dağlıq Qarabağa müstəqillik verilsin». Heç bir başqa status qəbul etmirlər. Dünyada muxtariyyət statusunun bir çox forması var. Biz təklif edirik

ki, bunlardan hansını istəyirsinizsə, onu götürək. Amma onlar deyirlər ki, «biz dünyada olan statusların heç birini qəbul etmirik, bizə müstəqillik verilməlidir».

**S u a l :** Cənab Prezident, Sizin həyatınıza bir neçə dəfə qəsdlər olub və Siz təhlükələrlə qarşılaşmısınız. Bilmək istərdik ki, bu təhlükələrdə, bu qəsdlərdə kimin əlini görürsünüz? Sizcə, bu, daxili opponentlərinizin, yoxsa Moskvanın əlidir? Moskva mövzusuna toxunmuşkən, onu da soruşmaq istərdim ki, Sizcə, Putinin meydana çıxması və irəliləməsi Azərbaycan-Rusiya münasibətlərinin inkişafına gətirib çıxaracaqmı?

**C a v a b :** Bilirsiniz, Azərbaycan 1991-ci ildə dövlət müstəqilliyi əldə edəndən burada üç dəfə silahlı dövlət çevrilişi cəhdi olmuşdur. Nəhayət, 1993-cü ilin iyun ayında Azərbaycanda kritik vəziyyət yaranmışdı, yəni Vətəndaş müharibəsi başlanmışdı və Azərbaycan parçalanırdı.

Məhz o zaman mən Azərbaycana rəhbərliyə dəvət olunmuşam. Ağır bir dövrdə Azərbaycana başçılıq etmək vəzifəsini üzərimə götürmüşəm. Bundan sonra, 1994-cü ilin oktyabr ayında böyük bir silahlı çevriliş cəhdi göstərildi. 1995-ci ilin mart ayında böyük bir silahlı qrup Heydər Əliyevi öldürüb hakimiyyəti devirmək istədi. 1995-ci ildə mən xarici səfərdən qayıdarkən təyyarəmi raketlə vurmaq, təbii ki, mənə qarşı terror etmək və Azərbaycanda hakimiyyəti dəyişdirmək cəhdi göstərildi. 1996-cı ildə şəhərdən hava limanına gedən körpünün – o vaxt mən Ukraynanın prezidenti Leonid Kuçmanı yola salmalı idim – altına 200 kiloqram trotil qoyulmuş, körpünü partladıb mənə terror etmək cəhdi göstərilmişdi. 1996-cı ilin dekabrında yenə bir terrorist qrupu gəlib Azərbaycanda mənim iqamətgahımı zəbt etmək, məni öldürüb çevriliş etmək istəmişdi.

Bunların hamısı xarici ölkələrin xüsusi xidmət orqanları tərəfindən və təbiidir ki, Azərbaycanın daxilində olan cinayətkarların vasitəsilə təşkil edilmişdi. Bizdə çox konkret sübutlar, dəlillər var ki, bu xüsusi xidmət orqanlarının içərisində Rusiya Müdafiə Nazirliyinin Baş Kəşfiyyat İdarəsi deyilən təşkilatı çox fəal iştirak etmişdir. O, çox dəhşətli bir təşkilatdır. Mən bu barədə prezident Boris Yeltsinə çox açıq-aydın məktublar da yazıb göndərmişdim.

Sualın ikinci hissəsi Rusiyanın yeni rəhbəri Putin haqqındadır. Təbiidir, biz istəyirik ki, Rusiya ilə Azərbaycan arasında normal münasibətlər yaransın, bizim ölkəmizin müstəqilliyinə heç bir qəsd olmasın, Rusiya ilə dostluq əlaqələrimiz və geniş əməkdaşlığımız olsun. Mən bununla demək istəmirəm ki, Rusiya ilə bizim əlaqələrimiz düşmənçilik vəziyyətində, yaxud da çox gərgin vəziyyətdədir. Amma istəyirik ki, həqiqətən səmimi münasibətlər olsun.



Məsələn, Rusiyadan əsas narazılığımız bir də ondan ibarətdir ki, Rusiya bizimlə münaqişədə olan Ermənistana həddindən çox silah-sursat verir. 1997-ci ildə Rusiyanın hakimiyyət orqanlarına məlum oldu ki, əvvəlki üç il müddətində Rusiya Ermənistana gizli olaraq bir milyard dollar dəyərində müxtəlif silahlar və hərbi texnika vermişdir.

**S u a l :** Cənab Putinin özünün tərcümeyi-halı da kəşfiyyat orqanları ilə bağlıdır. İndi isə o, Rusiyada iqtisadi islahatlar aparmaq amalları ilə çıxış edir. Putinin gəlişi ilə Rusiya-Azərbaycan münasibətlərində yaxşılaşma meyli görürsünüzmü?

**C a v a b :** Bilirsiniz, kimin keçmişi kəşfiyyatla bağlıdır – bu onun siyasi fəaliyyəti üçün əhəmiyyətli deyildir. Sizin keçmiş prezident Corc Buş da Mərkəzi Kəşfiyyat İdarəsinə başçılıq etmişdir. Bunun heç bir əhəmiyyəti yoxdur. Mən də keçmişdə təhlükəsizlik orqanlarında xidmət etmişəm. Bu, insan üçün heç də mənfi bir şey deyildir.

Putin haqqında ki soruşursunuz, mən hesab edirəm, indi Rusiyanın siyasi səhnəsində Putin çox görkəmli bir simadır. Düşünürəm ki, qarşıdakı seçkilərdə Putin qalib gələcək və onun prezidentliyi zamanı Azərbaycanla Rusiya arasında əlaqələrin daha da inkişaf etməsinə ümid bəsləyirəm. Mən Putinlə görüşmüşəm və onu həm ağıllı, həm praqmatik, həm də tarazlı siyasət apara bilən adam kimi hiss edirəm.

**S u a l :** Sizcə, 907-ci maddənin aradan qaldırılmasına nə qədər yaxınlaşmısınız?

**C a v a b :** Bilmirəm, hökumət və Konqres nə qədər yaxınlaşıbdır. Bu bizdən asılı deyil, onlardan asılıdır.

**M ü x b i r:** Onlar çox yaxınlaşmayıblar.

**C a v a b :** Mən nə edə bilərəm? Prezident Klinton neçə dəfə bəyan edib, hətta 1997-ci ildə bizim birgə imzaladığımız bəyanatda da yazılıb ki, 907-ci maddə götürülməlidir. Dövlət katibi xanım Olbrayt bir neçə gün bundan öncə Konqresdə çıxış edərkən 907-ci maddənin götürülməsi haqqında öz fikrini bildiribdir. Ancaq hələ ki, nəticə yoxdur.

Mən bir də deyirəm, biz Amerikanı ədalətli ölkə, dövlət hesab edirik. Amerika düşünməlidir ki, bu cür ədalətsiz hala bundan sonra daha yol verməmək olmaz.

**S u a l :** Cənab Prezident, Siz Konqresdə məqsədlərinizə nail olmaq üçün konqresmenlərlə birbaşa danışıqlar aparmısınızmı? Hansı konqresmenləri əhəmiyyətli hesab edirsiniz ki, onlarla bu sahədə danışıqlar aparmaq olar?

**C a v a b :** Çox danışıqlar aparmışam. Mən dəfələrlə Vaşinqtonda, Konqresdə olmuşam. Senatorların, Nümayəndələr Palatasının üzvlərinin çoxları Azərbaycanı ziyarət ediblər, onlarla çox danışıqlar aparmışam. Onların içərisində çox adam var ki, dərk edirlər ki, 907-ci maddə ədalətsizdir və onun aradan götürülməsi üçün təşəbbüs göstərirlər. Məsələn, konqresmen Kinq, yaxud senator Sem Braunbek təkcə söz demir, konkret proqramlar meydana çıxarıblar.

Məsələn, keçən ilin aprel ayında biz burada olanda Sem Braunbek İpək Yolu layihəsi haqqında Senatda böyük bir konfrans təşkil etdi. Orada 9 prezident iştirak elədi: Qazaxıstan, Özbəkistan, Qırğızıstan, Türkmənistan, Azərbaycan, Türkiyə, Gürcüstan, Ermənistan, Rumıniya. Semüel Berger nitq söylədi, Beyker nitq söylədi, Bzejinski nitq söylədi, bütün prezidentlər nitq söylədilər. Hamı hesab etdi ki, İpək Yolu layihəsi, Sem Braunbekin layihəsi Amerika üçün çox əhəmiyyətlidir. Bu layihə həyata keçirilsə, təbiidir ki, 907-ci maddə götürülməsə də, onun bir çox bəndləri zəifləyəcəkdi. Amma Amerika üçün belə faydalı olan bir layihəni də Konqres qəbul etmədi.

**S u a l :** Sonuncu sualımı vermək istəyirəm. Dağlıq Qarabağa muxtariyyət vermək təklifiniz və mümkün olsa, bu muxtariyyətin beynəlxalq administrasiyasının nəzarətinə verilməsinə razı olmağınız 907-ci maddənin aradan qaldırılması məqsədi daşıyırmı?

**C a v a b :** Bilirsiniz, bizim Dağlıq Qarabağ problemimiz təkcə 907-ci maddədən ibarət deyildir. Bizim Dağlıq Qarabağ problemimiz Ermənistanla Azərbaycan arasında sülh yaratmaq məqsədi daşıyır. Əgər Ermənistanla Azərbaycan arasında sülh yaransa, Cənubi Qafqazda sülh, təhlükəsizlik, əmin-amanlıq yaranacaqdır.

İndi Azərbaycanda Amerika Birləşmiş Ştatlarından təxminən 100 şirkət fəaliyyət göstərir. Beş il müddətində Azərbaycana təxminən 5 milyard dollar həcmində sərmayə qoyulubdur. Amerikanın təkcə neft şirkətləri Azərbaycana 1 milyard 700-800 milyon dollar sərmayə qoyublar. Gələcəkdə bu artacaqdır. Yəni Amerika Cənubi Qafqaza daxil olur. Cənubi Qafqaz – Azərbaycan, Gürcüstan, Ermənistandır.

Amma Ermənistan-Azərbaycan münaqişəsi, sülh olmaması bu məsələləri çətinləşdirir. Bizim məqsədimiz budur, 907-ci maddə ikinci dərəcəlidir. Bəs nə üçün bu gün 907-ci maddəni belə kəskin qoyuruq? Çünki hələ bu böyük məsələ həll olunmadan 907-ci maddə Azərbaycana böyük zərbə vurur.



Amerika yeni müstəqillik almış bütün ölkələrə maliyyə yardımı göstərir: ildə 100 milyon dollar Ermənistana, Gürcüstana, başqalarına. Amma Azərbaycan bu yardımdan məhrumdur. Məsələ belədir.

**M ü x b i r:** Bu gün səhər-səhər bizə həddindən çox vaxt ayırdınız. Suallarımıza cavab verdiyinizə, vaxt ayırdığınıza görə Sizə təşəkkürümüzü bildiririk.

**H e y d ə r Ə l i y e v :** Sağ olun. Mən çox məmnunam ki, sizinlə görüşdüm. Sizin qəzetiniz təkcə Amerikada yox, dünyada çox məşhur və eyni zamanda dünya ictimaiyyətinə təsir edən bir qəzetdir. Mən sizə arzu edirəm ki, – bu, ümumiyyətlə jurnalistlərə olan arzumdur – qəzetiniz ədalətli olsun, obyektiv olasınız, Konqresin ədalətsizliyini təkrar etməyəsiniz. Sağ olun.

# BİNƏ HAVA LİMANINDA JURNALİSTLƏRİN SUALLARINA CAVAB

*28 fevral 2000-ci il*

**S u a l :** Cənab Prezident, Amerika Birləşmiş Ştatlarına işgüzar səfərinizin yekunları barədə nə deyə bilərsiniz?

**C a v a b :** Axşamınız xeyir olsun. Düşünürəm ki, səfər haqqında sizdə müfəssəl məlumat vardır. Çünki mənim orada keçirdiyim görüşlər, danışıqlar haqqında bizim televiziya, mətbuat operativ olaraq məlumat veribdir. Siz onları oxumusunuz, ola bilər, televiziya vasitəsilə dinləmisiniz, görmüsünüz. Ona görə, bilmirəm, bunu təkrar etməyə ehtiyac var, yoxsa yox.

Sadəcə onu deyə bilərəm ki, bu səfər çox uğurlu səfərdir. Biz İstanbulda görüşmüşdük. Qısa bir fasilədən sonra Amerika prezidenti cənab Bill Klintonla yenidən görüşüb, bütün məsələlər barəsində çox ətraflı söhbət etdik. Xanım Olbraytla, sonra Sendi Berger ilə, nazirlər – müdafiə naziri Kohen, enerji naziri Riçardson, kənd təsərrüfatı naziri Qlikman ilə, «Eksimbank»ın prezidenti ilə, bir çox siyasi xadimlərlə, o cümlədən Bjezinski, keçmiş müdafiə naziri Slezincer, keçmiş müdafiə nazirinin müavini Volfoviç ilə, jurnalistlərlə – mən həm «Vaşinqton post»da oldum, həm də «Nyu-York tayms»ın jurnalistləri gəlmişdilər – çox görüşlər oldu, yaxşı da müzakirələr oldu. Mən bunların hamısından razıyam.

Bizim üçün əsas məsələlər, bilirsiniz, birinci növbədə, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həll olunması, Xəzər dənizindəki enerji ehtiyatlarından istifadə edilməsi, Bakı-Ceyhan boru xətti, Transxəzər qaz xətti, Amerika-Azərbaycan ikitərəfli həm iqtisadi, həm siyasi əlaqələr – bütün bunlar bizim danışıqlarımızın əsas mövzuları olubdur. Mən bu danışıqların hamısından çox məmnunam və səfərimdən də çox məmnunam.

**S u a l :** Cənab Prezident, biz Sizi həmişəki kimi sağlam, gümrah görməkdən çox şadıq və Sizə Allahdan uzun ömür, cansağlığı arzulayırıq. Cənab Bill Klintonla görüş, danışıqlar zamanı 907-ci maddənin ləğvi ilə bağlı məsələyə toxunuldumu?



**C a v a b :** Mütləq. 907-ci maddə ilə bağlı nəinki onunla, kim ilə görüşmüşük – hətta mətbuat nümayəndələri ilə də – hamısı ilə danışmışıq. 907-ci maddə indi bizim üçün elə bir prinsipial maddə olubdur və Amerikanın bütün ictimaiyyəti də – bu işdən uzaq adamlarla bəzən danışırsan, görürsən o da 907-ci maddəni bilir. Yəni bu illərdə 907-ci maddədən biz dünya mətbuatında, siyasət dairələrində, hətta iqtisadiyyat dairələrində o qədər güclü bəhs etmişik – o mənada ki, bu 907-ci maddənin Azərbaycan üçün ədalətsiz bir qərar olduğunu o qədər sübut edə bilmişik ki, bu barədə söhbət hər yerdə gedibdir.

Mən orada konqresmenlərlə görüşə bilmədim. Mən gələn gündən bir gün öncə bir-ikisi var idi, amma imkan olmadı. Çünki o vaxt konqresmenlər tətildə idilər, istirahətdə idilər. Ancaq əlbəttə ki, həm Ağ Evdə danışıqlarda bu barədə söhbət gedibdir, həm də bütün başqa dairələrdə. Vəziyyət belədir ki, hər dəfə 907-ci maddəni hökumət götürmək istəyir, ancaq Konqres buna getmir. Çünki erməni lobbisi güclüdür.

İndi bilirsiniz ki, Amerikada prezident seçkiləri prosesi başlayıbdır. Güman edirəm, siz orada erməni assambleyasının namizəd Buşa məktubunu və Buşun ona cavabını oxumusunuz. Oxumusunuzmu? Yəqin oxumamısınız. Oxumusunuzsa, çox yaxşı. Ümumiyyətlə, bilirsiniz, biz aldığımız bütün o informasiyaları mətbuata vermək lazımdır. Mən orada demişdim ki, bir xülasə düzəldin. Onları mətbuata vermək lazımdır ki, camaat mətbuatda elə bir bu müsbət şeyləri görməsin. Mətbuatda insanlar görsün ki, Azərbaycanın başında nələr var, Azərbaycana qarşı hansı qüvvələr hərəkət edir. Başa düşürsünüz, ümumiyyətlə, gələcəkdə bütün bu cür məlumatları ki, biz alıb oxuyuruq – daim mətbuata vermək lazımdır. Qoy insanlar bilsinlər. Dediyim o xülasəni də mütləq bu günlərdə hazırlayın və mətbuata verin.

Erməni assambleyasına Qor da böyük bir məktub yazıbdır ki, «mən prezident olanda ermənilərə belə yardım edəcəyəm, elə yardım edəcəyəm, nə bilim, genosid barəsində öz fikirlərimi deyəcəyəm». Sonra o erməni assambleyası qubernator Buşa – hansı ki, indi respublikaçılardan əsas namizəddir – ona məktub yazıbdır. O da geniş bir cavab yazıb – onların hamısını dərc edərsiniz – geniş bir cavab yazıbdır. «Erməni xalqı dünyada ən qədim, ən dəyərli xalqdır» – bu cür qiymətlər verir və söz verir ki, prezident olsa, əməkdaşlıq edəcəkdir, genosid məsələsində yenə də çalışacaqdır. Hər halda, onlar bu «genosid»i birbaşa tanımırlar, tanıdıqlarını bildirmirlər, amma bu problemin olduğunu, «genosid»

adı olmasın, ancaq guya 1915-ci ildə, 1918-ci ildə «ermənilərin Türkiyədə qırılmasını» bunlar açıq elan edirlər.

Bilirsiniz ki, Fransa Parlamentində də bu məsələ qalxmışdı. Bizim Parlament burada çox yaxşı hərəkət etdi. Biz danışdıq və qərar qəbul etdilər, göndərdilər. Həm də deputatların imzaları ilə məktublar göndərdilər. Türkiyə də çox ciddi bəyanatlar vermişdi və orada məsələ dayandırıldı. İndi 24 aprel qarşıdadır. Bu məsələ ermənilər tərəfindən, bilirsiniz, çox canlandırılır və onlar da hər dəfə deyirlər. Erməni lobbisi Amerikada çox güclüdür və ona görə də hökumət onunla hesablaşır. Onların Konqresdə gücü var.

Belədir, bilirsiniz, təəssüflər olsun ki, bizim Azərbaycanda çoxları, bəlkə də əksəriyyəti bu erməni probleminin Azərbaycan üçün nə qədər ağır bir problem olduğunu dərk edə bilmirlər. Bəziləri elə deyirlər «niyə erməni bunu etdi, sən bunu etmədin? Siz nə etdiniz?» və s.

Məni orada Cons Hopkins Universitetinin Beynəlxalq Əlaqələr İnstitutuna dəvət etmişdilər. Çox böyük bir tədbir oldu. Orada salon ağzına qədər dolu idi. Çox böyük maraqla gəlmişdilər. Mənim çıxışımı veriblər, yəqin eşitmisiniz. Təsəvvür edin, mən ayın 14-də ora getmişəm. Vaşinqtona gələn gündən bir gün sonra ora getmişəm. Orada nə bilim, beş-altı, yeddi-səkkiz, bəlkə on-on iki erməni şüarlarla, filanlarla durublar: «Heydər Əliyev, qayıt öz ölkənə», «Heydər Əliyev, sən niyə Dağlıq Qarabağda erməniləri qırırsan?», «Heydər Əliyev, sən niyə bunu edirsən?» – qışqırırlar, qışqırırlar. Orada mühafizə sistemi çox güclüdür, onların hamısının qarşısını almışdılar. Amma mən avtomobildən düşəndən sonra o binaya getmədim, onlara doğru getdim, onlara əl etdim. Amma onlar yenə də qışqırırlar. Biz Universitetdə iki saatdan çox olduq. Çıxanda yenə də görürəm – onlar durublar, qışqırırlar.

Mən keçən dəfə də rəsmi ziyarətə gedəndə, bilirsiniz ki, onlar hələ mən getməmişdən iki-üç ay əvvəl məktublar göndərmişdilər – 50 min məktub göndərmişdilər. Amma Ermənistan prezidenti Amerikaya getsin, Fransaya getsin, İngiltərəyə getsin, hansı bir ölkəyə getsin – üç nəfər azərbaycanlı gedib, bir dənə şüarla onun əleyhinə bir şey deyəcək, yoxsa yox? Deməyəcəklər, qətiyyən deməyəcəklər.

İndi təsəvvür edin, Amerikada azərbaycanlılar çox yaşayır. Azərbaycan Prezidenti gəlibdir, mən demirəm ki, onlar hamısı toplaşsın – onsuz da bu dəfə mənim vaxtım yox idi. Amma mən onları yığanda da çox adam toplaya bilmirdim. Ancaq bu ermənilər haradan bilirdilər ki, Heydər Əliyev gəlir? Bu, mətbuatda var. Deməli, gör nə qədər izləyirlər. Biliblər ki, mən o universitetə gedəcəyəm, qabaqcadan hazırlaşıblar, şüarlar yazıblar, gedib orada durublar. Yenə də deyirəm, mənim o universitetin binasına girib-çıxmağım iki saatdan çox oldu. Çünki universitetin rektoru ilə bir az söhbət etdik, sonra getdim orada çıxış etdim, ondan sonra da bir az söhbət etdik – cəmi iki saat oldu. Onlar iki saat yarım orada durmuşdular. Hələ mən ora gəlməmişdən də nə qədər öncə durmuşdular. Bilirsiniz, bax, belədir dünyada vəziyyət. Bu erməni lobbisi hər yerdə güclüdür.



Mən bununla onu demək istəmirəm ki, indi biz gördüyümüz işləri görməməliyik. Amma sadəcə, gərək xalqımız, millətimiz dərk etsin ki, bizim qarşımızda duran, bizə düşmən olan hansı gücə malikdir. Öz ölkəsində yox, başqa ölkələrdə. O ölkələrdə ki, orada dünyanın böyük siyasəti müəyyən olunur.

907-ci maddə, təbiidir, biz daim bu məsələni qoyuruq və güman edirəm ki, indi orada – prezident Klinton da dedi – o maddənin bir neçə hissəsini zəifləd iblər.

Yəqin ki, sizin xəbəriniz var ki, bu il Azərbaycana yardım bir az artıbdır – bu, mətbuatda var – Ermənistana da bir az azalıbdır. Ermənistanda buna görə bir hay-küy qaldırıblar ki, «niyə, nə təhər, nə üçün?» O maddələrin bir hissəsi zəifləyən zaman bu, Amerikanın bəzi dövlət təşkilatlarının müəyyən sahələrdə Azərbaycana yardım etməsinə imkan verəcəkdir. Ancaq bilirsiniz, bu maddə bizim üçün daha çox maddi xarakter, maliyyə xarakteri daşımır, mənəvi xarakter daşıyır. Görürsünüz, tarixdə belə hallar olur – bir vaxt buraxılan səhvi neçə illərlə düzəltmək olmur.

Mən bunu demişəm – 1992-ci ildə tamamilə ağılsız olaraq həmin hərəkəti etdilər, dəmir yolunu bağladılar. Mən onda Naxçıvanda yaşayırdım. Dəmir yolu onsuz da işləmirdi: bir dəfə qatar gedəndə üç dəfə tutub saxlayırdılar. Onu da saxlayanların əksəriyyəti bizim Xalq Cəbhəsinin silahlı dəstələri idilər. Bilirsiniz də nə üçün saxlayırdılar? Mən bunu açmaq istəmirəm. Ona görə də dəmir yolunun işləməsi-işləməməsi Ermənistan üçün heç bir şey deyildi. Ermənistan onsuz da o müharibəni aparmaq üçün ayrı-ayrı ölkələrdən, xüsusən Rusiyadan yetərli qədər yardım alırdı. Amma yolda hərəkəti saxlamaqla Konqresdə erməni lobbisinə imkan verildi ki, həmin maddəni keçirsin. Keçirdilər və indi onu çıxarmaq mümkün deyildi.

Ümumiyyətlə, Amerikada konqresmenlər danışırlar ki, hansısa bir maddəni, ola bilər, konqresmenlərin başı qarışıq olanda, yorğun olan vaxtda keçirmək asandır. Amma o maddə yazılandan sonra onu çıxarmaq çox çətin olur. Onda ayılırlar və fikirləşirlər ki, yox, daha bunu qəbul etmişik, çıxarmaq mümkün deyil.

Beləliklə, hesab edirəm ki, biz ardıcıl, davamlı surətdə bu işlə məşğul olaraq öz istədiyimizə nail olacağıq.

**S u a l** : Cənab Prezident, Siz burada olmayan vaxtda çeçen mücahidlərinin Azərbaycanda müalicə edilməsi ilə əlaqədar məlumatlar yayılmışdı və bu məlumatlar Rusiyanın ORT televiziya kanalının Azərbaycanda olan müxbirindən sızmışdı. Bu barədə açıqlama verməyiniz mümkündürmü?

**C a v a b** : Nə deyim? Azərbaycanda olan müxbir, azərbaycanlı bəzən olmayan şeyi yazır. Mən də oxumuşam. Hansısa müxbir gedib deyir ki, «mən ora müraciət etdim, dedilər yoxdur. Bura müraciət etdim, dedilər yoxdur. Amma nə bilim, 5 nömrəli xəstəxanaya getdim, hansı xəstəxanaya getdim, orada gördüm ki, bunlar var».

Bilirsiniz, necə deyərlər, mən etiraf etmişəm və bunu Moskvada, Rusiya prezidentinin səlahiyyətlərini həyata keçirən Putinə demişəm ki, bizdə yaralı çeçenlər var. Yaralı adamı qəbul etməmək antihumanist bir şeydir. Ancaq biz bunları kütləvi surətdə qəbul etmirik. Birinin burada qohumu var, birinin dostu var, bir vasitə ilə gəlir və bizim sərhəddə yoxlanılır. Əgər doğrudan da o, yaralı, ağır yaralıdırsa, onda, necə deyərlər, bu, insanlıq keyfiyyətindən kənardır ki, biz onu qəbul etməyək. Biz onu qəbul etmişik. Mən bunu gizlətmirəm, etiraf etmişəm və öz təşəbbüsümlə demişəm. Amma indi bir azərbaycanlı jurnalistin gedib haradasa nəyisə qurdalayıb çıxarıb, nə bilim, Moskvanın hansı qəzetində, yaxud da başqa yerdə yazması... İndi baxın da, bizim millətimizin içərisində, təəssüflər olsun, nə qədər qeyri-vətənpərvər adamlar var. Bu da bizim bəlamızdır.

**S u a l** : Cənab Prezident, Transxəzər qaz kəməri ilə əlaqədar türkmənbaşının son açıqlamaları barədə nə deyə bilərsiniz?

**C a v a b** : Siz bu açıqlamaları eşitmisiniz. Amma bir məsələ də bəlkə sizə məlumdur ki, «Britiş Petroleum» şirkəti «Şahdəniz» yatağında ikinci quyunu qazandan sonra orada çox böyük qaz ehtiyatları olduğunu görübdür. Ona görə də ayın 25-də Ankarada təqdimetmə mərasimi keçiriblər və elan ediblər ki, onlar keçmişdən qalan qaz boru kəməri vasitəsilə birbaşa Türkiyə bazarına çıxacaqlar – şübhəsiz ki, bizimlə birlikdə. Onların nümayəndələri Vaşinqtonda mənim yanıma gəldilər və bəyan etdilər ki, bu, – onlar haradasa Alyaskanın yanında belə bir yataq açmışdılar – tarixdə öz tutumuna, həcminə, perspektivinə görə ikinci yerdə duran bir yataqdır. Onlar bu işə arxayın olduqlarına görə indi həmin qazı necə ixrac etmək barədə düşünürlər. Xahiş ediblər, mən iki-üç gündən sonra onları burada qəbul edəcəyəm. Onlar mənim qarşımda da bir təqdimetmə mərasimi keçirmək istəyirlər. Ona görə də biz birinci növbədə öz işimizi aparırıq.



O ki qaldı türkmənbaşı, bu onun öz işidir. Hər halda, mən bunu anlaya bilmirəm ki, ölkənin prezidenti noyabr ayında bir sazişə böyük təntənə ilə imza atsın, amma iki ay sonra gedib, başqa bir sənədi imzalasın, bundan imtina etsin. Yenə də deyirəm – hər halda bu, çox qeyri-ciddi bir məsələdir.

Ancaq Londonda həmin Transxəzər qaz kəmərini inşa etmək istəyən «Pi Es Ci» şirkəti var – onu Türkmənistan dəvət edibdir. Onlar əvvəllər bir neçə dəfə Bakıya da gəlmişdilər. Onların nümayəndələri Londonda yerləşirlər. Xahiş etmişdilər, mən onları dünən Londonda qəbul etdim. Bu görüş televiziya vasitəsilə bütünlüklə yazılıbdır. Mən sadəcə, geniş danışdım və imkan verdim bizim televiziya həmin görüşü çəksin, ictimaiyyətimiz onun dilindən bilsin ki, iş nə yerdədir. O bunun nə olduğunu təsdiq edir.

Onlar bu yaxınlarda Rusiya ilə 20 milyard kubmetr qaz haqqında müqavilə imzalayıblar. Hətta istəyirlər ki, sonra 30 milyard kubmetr qaz barədə sənəd imzalasınlar. Ona görə də bu layihəni ləğv etmirlər, ancaq bunu hərəkətə gətirmək istəmirlər. Amma həmin «Pi Es Ci» şirkəti və Amerika tərəfi bu işi belə buraxmır. Onlar bir neçə gündən sonra buraya gələcəklər. Mən onları qəbul edəcəyəm. Güman edirəm ki, bəlkə bunlar hamısı manevrdir, yoxsa nədir.

**S u a l** : Cənab Prezident, mən həmkarımın verdiyi suala qayıtmaq istəyirəm. Çeçenlərin Azərbaycan xəstəxanalarında müalicəsi barədə məlumat Rusiyanın ORT kanalının Azərbaycandakı müxbirləri tərəfindən sızdırıldıqdan sonra «Vremya» proqramının aparıcısı dünən belə bir ifadə işlədib ki, Azərbaycanın ANS televiziya kanalı həmin müxbirlərə guya hansısa təzyiqlər göstərir. Biz əminik ki, ORT kanalına müsahibə verməyə söz verən Azərbaycan Prezidenti bu barədə öz fikrini, öz münasibətini bildirəcəkdir. Bu haqda nə deyə bilərsiniz?

**C a v a b :** Mən müsahibə barədə heç kimə söz verməmişəm. Onu da bilməlisiniz ki, müsahibə almaq üçün mənə çox müraciət edirlər, çoxundan imtina edirəm. Onlar mənə müraciət etməyiblər. Bəlkə mən burada olmayanda müraciət ediblər. Amma mən onlara söz verməmişəm. İnana bilərsiniz, bir halda ki, bizə qarşı belə ədalətsizlik ediblər, mən onlara müsahibə verməyəcəyəm.

**S u a l :** Cənab Prezident, burada olmadığınız müddətdə Robert Koçaryan Sizin onunla apardığınız danışıqların bəzi məqamlarını açıqlayaraq bildiribdir ki, Siz onunla ərazi mübadiləsi məsələsinə toxunmusunuz. Respublika mətbuatında bu məsələ son günlər o tərəf-bu tərəfə çox çevrilir və guya söhbətin Mehri və Laçın dəhlizlərindən getdiyi bildirilir. Bu məsələyə Sizin münasibətinizi bilmək istərdik.

**C a v a b :** Robert Koçaryan Ermənistanın prezidentidir, nə istəyir – onu da deyir. Amma mən bilmirəm ki, o nə deyibdir. Onun dediklərinin bizim danışıqlarımıza və aramızda olan müəyyən razılığa münasibəti, hesab edirəm ki, yoxdur. Dediyinə o cavab verir, mən ki belə söz deməmişəm. Hamınız götürüb yazırsınız ki, «o belə getdi, bu belə getdi». Mən ki bir şey deməmişəm.

**S u a l :** Cənab Prezident, Bakı-Ceyhan neft kəməri ilə bağlı nə deyə bilərsiniz?

**C a v a b :** Bilirsiniz ki, Bakı-Ceyhan neft kəməri barədə Bakıda danışıqlar getdi. Gürcüstan real olmayan bəzi təkliflər irəli sürdü. Ona görə də bu danışıqlar kəsildi. Sonra isə mən ayın 25-də Vaşinqtondan çıxarkən bizim səfir məlumat verdi – prezident Bill Klintonun bu işlə məşğul olan xüsusi nümayəndəsi səfir Vulf telefon edib, xahiş edibdir ki, Türkiyədə yenidən görüş keçirilsin. Amma onlara deyiblər ki, Azərbaycan nümayəndələri getmək istəmirlər. Mən baş nazir Artur Rasizadəyə telefon etdim, ona dedim ki, doğrudur, bizim nümayəndə heyətinin belə cavab verməsinə bəlkə də əsas vardır. Çünki bir dəfə, iki dəfə, üç dəfə görüşdülər, hamısı da eyni şey idi. Amma Vulf demişdi ki, guya Amerika tərəfi onlarla danışıq aparıbdır, məsələ həll ediləcəkdir. Mən göstəriş verdim, bizim nümayəndə heyətimiz indi orada, İstanbuldadır. Abid Şərifovu da, Valeh Ələsgərovu da oraya göndərmişik. Danışıqlar davam edir.

**S u a l :** Cənab Prezident, məlum olduğu kimi, Siz Vaşinqtonda Türkiyənin Amerikadakı səfiri ilə görüşmüsünüz. Maraqlıdır, bu görüşdə hansı məsələləri müzakirə etmisiniz?



**C a v a b :** O mənə «keçmiş olsun» deməyə gəlmişdi. Türkiyə prezidenti hörmətli dostum cənab Süleyman Dəmirəl, baş nazir Bülənd Ecevit, Parlamentin sədri Yıldırım Akbulut, xarici işlər naziri İsmayıl Cəm göz əməliyyatı keçirməyimlə əlaqədar mənə məktublar göndərmişdilər. Ancaq təbiidir ki, biz çox geniş söhbət etdik. Söhbətimiz nə olacaqdı? Türkiyə ilə Azərbaycanın əlaqələrində elə bir problem yoxdur. Amma biz dostluğumuzu, qardaşlığımızı, birgə hərəkətimizi hər dəfə təsdiq edirik. Eyni zamanda, orada söhbətimizin çoxu «genosid məsələsi»nə həsr olundu. Çünki həmin günlər bu məsələ orada yenə də qalxmışdı. O mənə erməni lobbisinin nə qədər kəskin işlər gördüyü barədə bir çox məlumatlar verdi. Səfir orada bunu daha yaxşı hiss edir. Çünki bu «genosid məsələsi» Türkiyəyə qarşıdır. O da Türkiyənin Amerika Birləşmiş Ştatlarında səfiridir. Səfir mənə bu barədə çoxlu məlumatlar verdi. Hesab edirəm ki, bu söhbətimiz də çox dəyərli oldu.

**S u a l :** Cənab Prezident, martın 15-də Beynəlxalq Valyuta Fondu tərəfindən Azərbaycana kredit ayrılması nəzərdə tutulurdu. Lakin belə bir məlumat yayılır ki, Azərbaycan Dövlət Neft Şirkətində aparılan auditor yoxlamaları nəticəsində hansısa uyğunsuzluqlar ortaya çıxıbdır. Ona görə də Beynəlxalq Valyuta Fondu bu krediti verməkdən deyəsən imtina edibdir.

**C a v a b :** Siz bu məsələni Artur Rasizadədən soruşun. Çünki mən bu məsələ ilə məşğul olmağı ona tapşırmışam.

Yaxşı, görürəm ki, suallarınız təkrar olunur. Amma siz bir sualı vermədiniz ki, mənim səhhətim necədir? Deyə bilərəm ki, səhhətim çox yaxşıdır. Bu barədə də məlumat verilibdir. Mənim gözümdə son vaxtlar bir az problem yaranmışdı. Türkiyədə həkimlər baxanda dedilər ki, necə deyərlər, geniş analiz aparmaq lazımdır. Amerikada olarkən, həmin Cons Hopkins Universitetində – bu çox böyük bir universitetdir, onun bir çox şaxələri vardır - məni çıxış etməyə dəvət etmişdilər. Eyni zamanda dedilər ki, oranın çox yüksək dərəcəli göz klinikası var. Orada mənim gözlərimə baxdılar, dedilər ki, bəli, katarakt əmələ gəlir, ona görə də onu götürmək lazımdır. Götürdülər. Gözlərim də çox yaxşıdır, elə əvvəl də yaxşı görürdüm, amma indi sizin hamınızın gözünüzün içini də, çölünü də görürəm.

Orada işlərimi qurtarandan sonra ayın 25-də Klivlendə uçdum, bir neçə saat orada oldum. Məni orada müalicə edən həkimlər məni bütün müayinələrdən keçirdilər. Bilirsiniz ki, orada çox yüksək səviyyəli tibb

avadanlığı, həkimlər var. Orada da məni başdan-ayağa – təkcə ürəkdə cərrahiyyə əməliyyatı ilə əlaqədar yox, bütünlüklə, necə deyərlər, hamısını – müayinədən keçirdilər. O əməliyyatdan on ay keçibdir. Onlar dedilər ki, biz bunu heç belə gözləmirdik. Sizin vəziyyətiniz bizim gözlədiyimizdən qat-qat yaxşıdır. Onlar belə şeyi çox edirlər, dedilər, nadir halda belə olur. Məsələn, əməliyyatdan altı ay, on ay, bir il sonra biz nə gözləyirik – biz gözlədiyimizdən çox-çox yaxşıdır.

Ona görə də səhhətim çox yaxşıdır. İstəyənlər sevinsinlər, istəməyənlər kor olsunlar. Sağ olun.



## RUSİYA MƏTBUATI AZƏRBAYCAN PREZİDENTİ VƏ ONUN KOMANDASI HAQQINDA

Rusiyanın nüfuzlu və sabit oxucu auditoriyasına malik «Jurnalist» jurnalının 2000-ci il fevral nömrəsində, «Kütləvi informasiya vasitələri və cəmiyyət» rubrikasında baş redaktor Gennadi Maltsevin «Heydər Əliyev və onun komandası» sərlövhəli məqaləsi dərc edilmişdir. Bu ərəfədə Rusiyanın mərkəzi nəşrlərində çalışan bir qrup jurnalist respublikamızda tanışlıq səfərində olmuşdur. Azərbaycan Prezidenti Heydər Əliyev Rusiya KİV nümayəndələrini qəbul etmişdi. Jurnalistlərlə müstəqil Azərbaycan Respublikasının bugünkü vəziyyəti, dövlət quruculuğu, hüquq və iqtisadi inkişaf sahəsində islahatlar, Dağlıq Qarabağ problemi və onun həlli yolları, ölkəmizin daxili və xarici siyasətinin nailiyyətləri barədə ətraflı fikir mübadiləsi olmuşdu.

Yazıda qeyd olunur ki, Heydər Əliyev hələ iyirmi il əvvəl, 1979-cu ilin oktyabrında «Jurnalist» jurnalında məqalə ilə çıxış etmişdir. Bu öz işini və öz respublikasını bilən və sevən insanın fikirləri idi. Heydər Əliyev həmin məqalədə bu gün üçün də böyük maraq doğuran rəqəmlər gətirmişdir. O zaman Azərbaycanda 130 qəzet, 107 jurnal nəşr olunur, hər il ümumi tirajı 13,5 milyon nüsxəyə çatan 1400 adda kitab buraxılır, respublika televiziyasının iki kanalı işləyir, sutkada 48 saat yeddi dildə radio verilişləri yayımlanırdı.

Məqalə müəllifi Azərbaycan Prezidentinin qeyri-adi tale yaşadığını qeyd edir. O göstərir ki, 80-ci illərin əvvəllərində Moskvaya yüksək dövlət vəzifəsinə dəvət edilən Heydər Əliyev ona tapşırılan işlərin öhdəsindən şərəf və vicdanla gəlməyə çalışırdı. O, SSRİ-də nəqliyyatın inkişafına, Baykal-Amur Magistralının tikintisinə rəhbərlik etmişdir. Bədən tərbiyəsi və idman, mədəniyyət, gənclər siyasəti onun səlahiyyətləri dairəsinə daxil idi. O, Sovet İttifaqının rəhbərləri arasında öz erudisiyası və qabiliyyətləri ilə seçilirdi. Yalnız bunu demək kifayətdir ki, köməkçilərin əvvəlcədən hazırladığı mətnlərə ehtiyac duymadan onun sərbəst danışması, vacib məsələləri kəskin şəkildə qoymaq bacarığı Siyasi Büro üzvləri tərəfindən qısqanclıqla qarşılanırdı.

Sonra Heydər Əliyev ali dövlət rəhbərliyindən ədalətsizcəsinə kənarlaşdırıldı. Daha çonra Naxçıvanda keçirilən illər, Vətənin dirçəli-

şi uğrunda mübarizə, böyük siyasətə qayıdış qarşıda dururdu. Jurnalist öz müşahidələri əsasında Heydər Əliyevin respublikada hamılıqla qəbul edilən lider və şəriksiz nüfuz sahibi olduğunu bildirir. G.Maltsev yazır ki, Heydər Əliyev ölkənin idarə sükanını əllərində inamla saxlayır. Onun yenidən rəhbərliyi illərində az iş görülməmişdir. Yeni, beynəlxalq standartlara cavab verən hava limanı, vağzal tikilmişdir, köhnə şəhər yenidən qurulur, təzə yaşayış məhəllələri yaranır. Torpaq üzərində xüsusi mülkiyyət tətbiq edilmişdir. Kənd təsərrüfatı məhsulu istehsalı 6 dəfə artmışdır. Yeni Azərbaycan Partiyası yaradılmış və möhkəmlənmişdir. Heydər Əliyev partiyanın qurultayında heç bir «kağızdan» istifadə etmədən bir neçə saatlıq məruzə etmişdir.

Jurnal yazır ki, hər yerdə xalqın Heydər Əliyevə hörmətlə yanaşdığı hiss olunur. Məclislərdə onun şərəfinə sağlıqlar deyilir, avtobusların və böyük maşınlarının sürücüləri ön şüşəyə onun şəklini vururlar. Lakin burada Şərq üçün ənənəvi olan şəxsiyyətin ilahiləşdirilməsindən söhbət getmir. Prezidentin heykəlləri və çox böyük portretləri yoxdur, Heydər Əliyevin fotoları rəsmi şəxslərin kabinetlərində asılmışdır. Heydər Əliyev Rusiyaya və onun vətəndaşlarına rəğbətlə və xeyirxah nostalgiya hissləri ilə yanaşır. Özünün Moskvada işlədiyi dövrü fəxrlə xatırlayan Heydər Əliyev bildirir ki, «onun sevgisini Azərbaycan xalqının ürəyindən çıxarmağı Qorbaçov bacarmadı».

Məqalədə Azərbaycanın beynəlxalq iqtisadi əlaqələrin qurulması sahəsində uğurlarından danışılaraq göstərilir ki, xarici şirkətlər tərəfindən respublika iqtisadiyyatına 5 milyard dollarlıq investisiya qoyulmuşdur. Azərbaycan Rusiya ilə də əməkdaşlığa hazırdır. Burada Rusiyaya tənqidi münasibət də vardır. Bu, ucuz və keyfiyyətli Azərbaycan mallarını Rusiyanın idxal etmək arzusunun olmaması, neft və qaz yataqlarını birlikdə işlətmək istəyinin yoxluğu ilə izah edilir.

Jurnalist yazır ki, Heydər Əliyev nə istədiyini bilən siyasətçidir. Təcrübəli siyasətçi və rəhbər kimi o, ölkə qarşısında konkret məqsədlər qoyur və onların yerinə yetirilməsinə çalışır. Prezident qəti şəkildə təsdiq edir ki, Azərbaycan demokratik, hüquqi, dünyəvi dövlət qurur. Bu dövlət yeni dövrün tələblərinə cavab verən gənc idarəçi kadrlarla, siyasətçi və iqtisadçılarla XXI əsrə qədəm qoyur. Böyük siyasətçi Heydər Əliyev də gənc elitanı yeni dövrün sınaqlarına hazırlamaq üçün çox iş görür.



Jurnalda Heydər Əliyevin komandasına daxil olan gənc siyasətçilər – Azərbaycan Dövlət Neft Şirkətinin birinci vitse-prezidenti , Milli Olimpiya Komitəsinin prezidenti İlham Əliyev, Dövlət Gömrük Komitəsinin sədri Kəmaləddin Heydərov, Qiymətli Kağızlar üzrə Dövlət Komitəsinin sədri Heydər Babayev, dövlət vergilər naziri Fazil Məmmədov haqqında maraqlı məlumatlar verilir.

İlham Əliyev Avropa təhsili almış geniş dünyagörüşlü şəxsiyyət kimi səciyyələndirilir. Bildirilir ki, o, Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunda oxumuş və müəllimlik etmiş, Türkiyədə işləmişdir. Neft Şirkətində xarici iqtisadi əlaqələrə rəhbərlik edir. Onun bilavasitə rəhbərliyi altında Azərbaycan neftinin və qazının işlənilməsi, hasilatı və nəqli üzrə 19 müqavilə hazırlanıb, həyata vəsiqə almışdır. Artıq 2000-ci ildə bu müqavilələrin həyata keçirilməsindən 150 milyon dollar əldə ediləcəkdir. İlham Əliyev ölkədə idmanın inkişafına da rəhbərlik edir, yeni stadionlar tikir, Azərbaycan yığma komandasının olimpiya oyunlarında layiqli iştirakı üçün çox iş görür. Perspektivli siyasətçi Yeni Azərbaycan Partiyası sədrinin müavinidir.

Kəmaləddin Heydərov da perspektivli rəhbər, istedadlı şəxsiyyət kimi səciyyələndirilir. O, siyasi və iqtisadi quruculuqda fəal iştirak edir, mədəniyyət və idmanın inkişafına kömək göstərir. Heydər Babayevin qiymətli kağızların idarə olunması sahəsində işi düzgün təşkil etdiyi, respublikada Fond Birjasının yaradıldığı bildirilir. Dövlət vergilər naziri Fazil Məmmədovun keçən ildən bu vəzifədə işlədiyi qeyd edilərək, vergilərin yığılması planının III rübdə 90 faiz, IV rübdə isə 100 faiz icra olunduğu bildirilir.

Məqalə Prezident Heydər Əliyevin Rusiya KİV nümayəndələri ilə görüşlərini əks etdirən fotolarla, Şəhidlər Xiyabanını, Şirvanşahlar sarayını, Bakı mənzərələrini canlandıran və nümayiş etdirən şəkillərlə və başqa fotolarla müşayiət edilmişdir.

Heydər Əliyevin belə bir aforizmi ayrıca gətirilir ki, «Tarix öz yaddaşından heç nəyi silib atmır».

Məqalə Rusiya ictimaiyyətinə, siyasi dairələrinə Azərbaycan haqqında qiymətli, obyektiv informasiya çatdırılması baxımından diqqətəlayiq təşəbbüsdür.

## DÜNYA MƏTBUATININ DİQQƏT MƏRKƏZİNDƏ

**Dünyanın kütləvi informasiya vasitələri Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Amerika Birləşmiş Ştatlarına işgüzar səfəri haqqında**

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev 2000-ci il fevralın 12-dən 25-dək Amerika Birləşmiş Ştatlarında işgüzar səfərdə olmuşdur.

Həmişə olduğu kimi, bu dəfə də Azərbaycan Prezidentinin səfəri dünyanın aparıcı kütləvi informasiya vasitələrinin diqqət mərkəzində olmuş, qəzetlərdə və elektron media şəbəkələrində bu barədə çoxsaylı məlumatlar yayımlanmışdır.

Qeyd etmək lazımdır ki, Prezident Heydər Əliyevin özü də kütləvi informasiya vasitələrinin əməkdaşları ilə daim ünsiyyət yaradır və bu cür imkanlardan Azərbaycan həqiqətlərinin bütün dünyaya çatdırılması üçün səmərəli istifadə edir. Səfər zamanı Prezident Heydər Əliyev «Vaşinqton post» və «Nyu-York tayms» qəzetlərinin redaksiya heyətləri ilə görüşüb, ətraflı müzakirələr aparmış, Ağ Evin qarşısında mətbuat nümayəndələri üçün bəyanatla çıxış etmiş və onları maraqlandıran suallara cavab vermişdir.

Ağ Evin mətbuat katibi Co Lokard, Ağ Evin Milli Təhlükəsizlik Şurasının nümayəndəsi Cim Follen, Dövlət Departamentinin mətbuat katibinin müavini Ceyms Fouli Prezident Heydər Əliyev ilə prezident Bill Klintonun görüşü barədə rəsmi açıqlamalar vermişlər.

Azərbaycan Respublikasının Vaşinqtondakı səfirliyi də səfərin yekunları barədə mətbuat üçün press-reliz buraxmışdır.

Assoşieyted Press, Röyter, Frans Press, Almaniyanın informasiya agentlikləri, «Bi-Bi-Si», «Azad Avropa/Azadlıq» radiostansiyaları, «Nyu-York tayms», «Vaşinqton post», «Los-Anceles tayms» qəzetləri və çoxsaylı elektron media kanalları Azərbaycan Prezidentinin Vaşinqtonda keçirdiyi görüşləri və apardığı müzakirələri geniş işıqlandırmışlar.

Dünyanın aparıcı kütləvi informasiya vasitələri əsasən Amerika və Azərbaycan prezidentləri arasında müzakirə olunmuş məsələlər barədə ətraflı yazılar dərc etmişlər. Məqalələrdə bildirilir ki, Ağ Evdə bir saata yaxın davam etmiş və çox mehriban dostluq şəraitində keçmiş faydalı görüş zamanı hər iki prezident ilk növbədə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə aradan qaldırılması, Xəzər hövzəsinin zəngin enerji ehtiyatlarından birgə istifadə olunması, hasil edilən neft və qazın alternativ marşrutlarla, təhlükəsiz və etibarlı şəkildə Qərb bazarlarına ixrac olunması, regionun təhlükəsizlik problemləri, ABŞ ilə Azərbaycan arasında siyasi-iqtisadi əməkdaşlığın və strateji tərəfdaşlığın dərinləşdirilməsi məsələlərini müzakirə etmişlər.



Beynəlxalq agentliklərin verdiyi məlumata görə, Prezident Heydər Əliyev Amerika Birləşmiş Ştatlarını 1992-ci ildə Konqres tərəfindən Azərbaycana qarşı ədalətsiz olaraq qəbul edilmiş «Azadlığa yardım aktı»na bədnam 907-ci düzəlişi aradan qaldırmağa çağırmışdır.

Elektron media kanallarında yayımlanmış məlumatların əksəriyyətində regiondakı vəziyyət, sülh, təhlükəsizlik və sabitlik əldə edilməsi, münaqişələrin aradan qaldırılması üçün göstərilən səylər, Prezident Heydər Əliyevin neft strategiyası, Azərbaycan dövləti ilə Qərbin aparıcı şirkətləri arasında «Əsrin müqaviləsi»ndən başlanmış uğurlu əməkdaşlığın təkcə Azərbaycan üçün deyil, bütün region üçün gətirəcəyi faydalar geniş təhlil olunmuşdur. Məqalələrdə keçən ilin noyabrında ATƏT-in İstanbul Zirvə görüşü çərçivəsində təntənəli şəkildə imzalanmış sazişlər xatırlanmış, Prezident Heydər Əliyevin Bakı-Ceyhan əsas ixrac boru kəmərinin və Transxəzər qaz kəmərinin çəkilməsi barədə Azərbaycan dövlətinin dəyişməz, prinsipial və ardıcıl mövqeyini əks etdirən bəyanatları və bu nəhəng layihələrin həyata keçirilməsi sayəsində region dövlətlərinin suverenliyinin, müstəqilliyinin möhkəmlənəcəyi, onların iqtisadi tərəqqi yoluna çıxacağı barədə açıqlamaları xüsusi olaraq vurğulanmışdır.

Nüfuzlu informasiya agentlikləri Xəzər dənizinin Azərbaycan sektorunda zəngin neft ehtiyatları ilə bərabər, çox böyük həcmdə ehtiyatlara malik qaz yataqlarının da kəşf olunduğunu və Azərbaycanın yaxın zamanlarda qaz ixrac edən aparıcı ölkələrdən birinə çevriləcəyi, Türkiyə və Avropa bazarlarına Azərbaycan qazının nəqli perspektivləri barədə Prezident Heydər Əliyevin bəyanatlarını geniş işıqlandırmışlar.

Prezident Heydər Əliyevin Vaşinqtonda Cons Hopkins adına Universitetin Beynəlxalq Münasibətlər İnstitutundakı dərin məzmunlu çı-

xışı da böyük əks-səda doğurmuşdur. Amerikada ictimai verilişlər proqramı hesab edilən və jurnalistlərin, siyasətçilərin, ictimai-siyasi xadimlərin və siyasi elmlərə yiyələnən tələbələrin əsas informasiya mənbələrindən biri olan «Si-Spən» telekanalı Azərbaycanın dövlət başçısı Heydər Əliyevin çıxışının tam mətnini iki dəfə bütün Amerikaya yayımlamışdır.

Prezident Heydər Əliyevin Amerika Birləşmiş Ştatlarına uğurlu səfərindən dərin narahatlıq keçirən erməni icmasının təşvişləri də media mənsublarının diqqətindən yayınmamışdır. Amerikanın erməni milli komitəsinin buraxdığı və Heydər Əliyevin Ermənistan və Dağlıq Qarabağ barəsində siyasətinə etiraz ifadə edən press-relizlərə baxmayaraq, Azərbaycanın dövlət başçısının səfəri həm dünyanın kütləvi informasiya vasitələri, nüfuzlu agentlikləri və mətbuat orqanları tərəfindən, həm də Amerikadakı çoxsaylı strateji araşdırma mərkəzlərinin ekspertləri, ictimai-siyasi xadimlər, politoloqlar və regionumuzla maraqlanan mütəxəssislər tərəfindən diqqətlə, maraqla izlənilmiş və Azərbaycandakı vəziyyətin obyektiv işıqlandırılmasına, ölkəmizin əldə etdiyi nailiyyətlərin və Azərbaycan barədə həqiqətlərin doğru, dürüst şəkildə dünyaya çatdırılmasına öz dəyərli töhfəsini vermişdir.

«Vaşinqton-tayms» qəzetinin 16 fevral tarixli nömrəsində dərc edilmiş «Azərbaycan lideri Klintonla məsləhətləşir» sərlövhəli yazıda Azərbaycan Prezidenti Heydər Əliyevin ABŞ prezidenti Bill Klintonla Vaşinqtonda keçirdiyi görüş barədə ətraflı məlumat verilir, yüksək səviyyədə görüş zamanı Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin aradan qaldırılması, Bakı-Ceyhan neft kəmərinin tikintisi ilə bağlı geniş müzakirələr aparıldığı bildirilir.

«Azad Avropa/Azadlıq» radiostansiyasının fevralın 15-də efirə getmiş buraxılışında Prezident Heydər Əliyevin ABŞ-a səfərindən bəhs olunmuşdur. Radiostansiya Azərbaycana qarşı ABŞ Konqresi tərəfindən 1992-ci ildə tətbiq edilmiş iqtisadi sanksiyaların aradan qaldırılması üçün Prezident Heydər Əliyevin göstərdiyi səylərin ABŞ prezidenti Bill Klinton tərəfindən də dəstəkləndiyini bildirir. Radiostansiya Azərbaycan Prezidenti Heydər Əliyevin Cons Hopkins adına Universitetin Beynəlxalq Münasibətlər İnstitutunda çıxışından bəhs edərək, regionda yaranmış coğrafi-siyasi vəziyyəti təhlil süzgəcindən keçirir.

Assoşieyted Press agentliyinin «Nyu-York tayms» qəzetinin 15 fevral tarixli nömrəsində dərc olunmuş məlumatında deyilir ki, Heydər



Əliyev fevralın 14-də Beynəlxalq Münasibətlər İnstitutunda keçirdiyi görüşdə Birləşmiş Ştatların dəstəklədiyi boru kəmərinin tikintisinə «çox tezliklə» başlanacağını bildirmiş və öz ölkəsi ilə Ermənistan arasında münaqişənin tənzimlənməsində ABŞ-ı daha çox səy göstərməyə çağırmışdır.

Azərbaycan Prezidenti Heydər Əliyevin ABŞ-a səfəri Rusiya mətbuatının da diqqət mərkəzində olmuşdur.

«Nezavisimaya qazeta» hələ 11 fevral tarixli nömrəsində Heydər Əliyevin yaxın günlərdə Vaşinqtona səfər edəcəyini bildirərək yazırdı: «Səfərin başlıca məqsədi Qarabağ münaqişəsinin tənzimlənməsinin indiki mərhələsi, Bakı-Ceyhan neft kəməri layihəsinin həyata keçirilməsi və ABŞ Konqresinin «Azadlığı müdafiə aktı»na 907-ci düzəlişinin ləğv olunması barədə prezident Klinton və dövlət katibi Olbrayt ilə məsləhətləşmələr aparmaqdan ibarətdir».

Qəzetin 16 fevral tarixli nömrəsindəki «Bir daha Azərbaycanda NATO-nun bazaları haqqında» sərlövhəli yazıda Azərbaycan Prezidenti Heydər Əliyevin Vaşinqtona səfəri ərəfəsində «Bakının Ankara və Tbilisi ilə hərbi-siyasi ittifaq yaratmaq niyyəti barədə» informasiya vasitələrində yayılmış xəbərin heç də təsadüfi olmadığı bildirilir. NATO qüvvələrinin Azərbaycanda yerləşdirilməsi məsələlərinin öz aktuallığını itirmədiyi barədə fevralın 12-də Azərbaycanın xarici işlər naziri Vilayət Quliyevin verdiyi bəyanat da, qəzetin fikrincə, Azərbaycan Prezidentinin ABŞ-a səfəri məcrasında qiymətləndirilməlidir.

«Nezavisimaya qazeta»nın 18 fevral tarixli nömrəsindəki «Rusiya və İran ABŞ-a qarşı duruş gətirə biləcəklərmi?» sərlövhəli məqalədə regionun coğrafi-siyasi vəziyyəti təhlil olunur. MDB-nin cənub ölkələrində ABŞ-ın mövqelərinin möhkəmləndirilməsi üçün Vaşinqtonda yeni-yeni planlar hazırlandığını və bu işdə ABŞ-da əsas etibarilə Azərbaycana bel bağlandığını yazan qəzet təəssüflə qeyd edir ki, bu gün Rusiyanın Azərbaycana təsir etmək üçün Ermənistan ilə hərbi əməkdaşlıqdan savayı heç bir başqa imkanı yoxdur. Məqalədə daha sonra deyilir: «Rusiya Azərbaycana və başqa Xəzəryanı ölkələrə digər təsir vasitəsindən də özünü məhrum etmişdir. Söhbət Xəzər dənizinin statusundan gedir. Bu məsələdə Moskvanın kifayət qədər yaxşı start mövqeləri vardı: SSRİ ilə İran arasında Xəzərin statusunu müəyyən edən 1920-ci və 1940-cı il tarixli müqavilələr, Moskvanın Aşqabad və Tehran tərəfindən dəstəklənməsi. Lakin buna baxmayaraq, Rusiya öz mənafelə-

rini müdafiə edə bilməmiş, hətta Xəzərin statusu məsələsində öz müttəfiqlərinə xəyanət edərək, Xəzərin milli sektorlar üzrə bölünməsi prinsipini qəbul etmişdir». Regionda baş verən bütün bu dəyişiklikləri Azərbaycan Prezidentinin Vaşinqtona səfəri kontekstində təhlil edən yazı müəllifi Azərbaycanın əsas problemi olan Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsi prosesində Rusiyanı təşəbbüsü əldən verməməyə çağırır.

Qəzetin 19 fevral tarixli nömrəsindəki «Azərbaycan NATO-ya daxil olmaq istəyir» sərlövhəli yazıda Prezident Heydər Əliyevin ABŞ-a səfəri zamanı Bakı-Ceyhan neft kəməri layihəsinin maliyyələşdirilməsi məsələlərinin müzakirəsinə xeyli yer verilir. Qəzet yazır ki, Heydər Əliyev Azərbaycanın Rusiya və İran ilə münasibətlərini «normal münasibətlər» kimi səciyyələndirdiyi halda, Azərbaycan-Amerika qarşılıqlı əlaqələrini «tərəfdaşlıq və müttəfiqlik» kimi qiymətləndirir. Qəzet Prezidentə istinad edərək Azərbaycanın Türkiyə və Gürcüstan ilə qarşılıqlı münasibətlərinin «gözəl və çox yaxın» olduğunu qeyd edir. Prezident Heydər Əliyevin sözlərini sitat gətirərək yazır ki, Dağlıq Qarabağ probleminin həll olunmaması ucbatından yaranmış qarşıdurma bütün regionda əməkdaşlıq mühitinə və münasibətlərin inkişafına mane olur. Məqalədə deyilir: «Münaqişəni artıq bu il həll etməyin mümkünlüyünə ümidvar olduğunu bildirən Heydər Əliyev ATƏT-in Minsk qrupu həmsədrlərinin səylərinin fəallaşdırılmasının və ikitərəfli dialoqun davam etdirilməsinin zəruriliyini vurğulamışdır».

Qəzetin yazdığına görə, Heydər Əliyev Cons Hopkins adına Universitetin Beynəlxalq Münasibətlər İnstitutunun auditoriyasında iştirak edən çeçenlərin suallarına cavab verərək bildirmişdir ki, Azərbaycan hər cür separatizm, terrorizm və cinayətkarlıq hallarını pisləyir, çeçen xalqına isə böyük rəğbət və hörmət hissi ilə yanaşır.

«Nezavisimaya qazeta»nın 22 fevral tarixli nömrəsində «Bakıda NATO-nun informasiya mərkəzi açılacaqdır» adlı yazıda bildirilir: «Ötən həftənin axırlarında Prezident Heydər Əliyev ABŞ-a başlanmış səfəri zamanı NATO mövzusuna bir daha toxunmuşdur. Fevralın 14-də Vaşinqtonda Cons Hopkins adına Universitetin Beynəlxalq Münasibətlər İnstitutunda Azərbaycanın NATO-ya üzv olmaq barədə verilmiş sualı cavablandıran Prezident Heydər Əliyev demişdir ki, NATO-nun üzvü olmaq asan iş deyil və bu, təkcə bizdən asılı deyildir. Eyni zamanda Prezident Əliyev onu da əlavə etmişdir ki, Bakı hələlik NATO ilə



Şimali Atlantika Assambleyası və «Sülh naminə tərəfdaşlıq» proqramı çərçivəsində əməkdaşlığı fəal inkişaf etdirmək niyyətindədir». Qəzet daha sonra yazır: «Heydər Əliyev Ermənistanda Rusiya hərbi bazalarının saxlanmasından və bu ölkəyə Rusiyanın müasir silahlarının göndərilməsindən narahat olduğunu bildirmişdir. Əliyev demişdir: «Yerevan əvvəlcə Moskva ilə, indi isə Minsk ilə hərbi ittifaq bağlamışdır». Azərbaycan Prezidenti «Cənubi Qafqazın militarizasiya təhlükəsi ilə üzləşdiyini» bildirmişdir.

Rusiyada nəşr olunan başqa bir mətbuat orqanı – həftəlik «Vek» məcmuəsi də Azərbaycan Prezidentinin Amerikaya səfərinə biganə qalmamışdır. Məcmuənin 18 fevral tarixli nömrəsində «Adi bir vəziyyətdə çaşqınlıq» sərlövhəsi altında dərc olunmuş yazıda Azərbaycanın dövlət başçısının «qəflətən okeanın o üzünə yollanması»nın başlıca səbəblərindən biri kimi, neft problemi, neftin qiymətləri və Xəzər neftinin dünya bazarlarına ixracı məsələləri göstərilmişdir.

Qəzet hesab edir ki, Azərbaycan rəhbərinin ABŞ-a səfərinin əsas məqsədi Bakı-Ceyhan layihəsinin maliyyələşdirilməsi üçün Bill Klintonun dəstəyini qazanmaqdır.

«Kommersant» qəzetinin 16 fevral tarixli nömrəsində Azərbaycan Prezidentinin Vaşinqtonda apardığı danışıqların gedişinə həsr olunmuş «Heydər Əliyev kəməri öz əlində saxlayır» başlıqlı yazıda bildirilir: «Bu günlərdə ABŞ Bakı-Ceyhan neft kəmərinin tikintisi üçün əvvəllər Türkiyəyə vəd olunmuş tranşın təxirə salınması barədə qərar qəbul etmişdir... ABŞ-ın mövqeyinə təsir göstərmək üçün Azərbaycan Prezidenti Heydər Əliyev bu ölkəyə işgüzar səfərə gəlmişdir. Dünən onun Bill Klinton ilə görüşü olmuşdur».

«Noviye izvestiya» qəzeti Azərbaycan Prezidenti Heydər Əliyevin ABŞ-a işgüzar səfəri faktı əsasında regiondakı vəziyyətin geniş təhlilini verərək, Cənubi Qafqaz regionunun ABŞ üçün əhəmiyyətindən bəhs edir.

«Vesti.RU» elektron informasiya şəbəkəsində «Xəzər tənzimləyicisi» sərlövhəsi ilə dərc olunmuş yazıda Azərbaycan Prezidentinin Vaşinqtona səfərinin məqsədlərindən biri kimi, Bakıdan Türkiyənin Ceyhan limanınadək neft kəmərinin çəkilişinə nail olmaq məsələsi göstərilir. Yazıda deyilir ki, bu layihə gerçəkləşərsə, Xəzərin Azərbaycan şelfində beynəlxalq şirkətlər tərəfindən hasil olunan neftin nəqli məsələsində Azərbaycanın Rusiyadan asılılığı aradan qaldırılacaqdır.

«İnterfaks» agentliyinin 17 fevral tarixli bülletenində bildirilir ki, Azərbaycan Prezidenti Heydər Əliyevin dediyinə görə, neft kəmərinin tikintisinin maliyyələşdirilməsi məsələsi, demək olar, həll edilmişdir. «Bu barədə Heydər Əliyev B.Klintonla görüşdən sonra jurnalistlərə bildirmişdir». Elə həmin xəbərdə «İnterfaks» yazır ki, Azərbaycan Prezidenti ABŞ-ın Dövlət katibi M.Olbrayt ilə Dağlıq Qarabağ məsələsinə dair danışıqlar aparmışdır. Azərbaycanın dövlət başçısı qeyd etmişdir ki, Bakı Dağlıq Qarabağa «Azərbaycanın tərkibində ən yüksək status» verməyə hazırdır. O, həmçinin bildirmişdir ki, Dağlıq Qarabağ «ikinci Ermənistan» ola bilməz, çünki erməni xalqının artıq dövləti vardır.

«İnterfaks» agentliyi 21 fevral tarixli buraxılışında Azərbaycan Prezidentinin Vaşinqtona səfərinin gedişindən bəhs edərək yazır: «Amerika mətbuatının nümayəndələri ilə görüşdə Heydər Əliyev Rusiyada prezident seçkilərində Vladimir Putinin qələbə çalacağına ümidvar olduğunu bildirmişdir. Heydər Əliyev V.Putini Rusiya siyasətinin görkəmli nümayəndəsi kimi səciyyələndirmişdir. Azərbaycan Prezidenti Rusiyanın rəhbəri ilə apardığı şəxsi söhbətlərdən belə bir qənaətə gəldiyini bildirmişdir ki, V.Putin tarazlaşdırılmış siyasət yeritməyə qadir olan praqmatik dövlət xadimidir».

Fevralın 22-də Rusiyanın «Rosbiznеskonsaltinq» agentliyinin yaydığı xəbərdə bildirilir ki, Heydər Əliyev Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsi üçün təklif olunan bütün ideyaları müzakirə etməyə Bakının hazır olduğunu vurğulamışdır. Agentliyin informasiya bülletenində deyilir: «Nyu-York tayms» qəzetinə müsahibəsində Heydər Əliyev bildirmişdir ki, biz bu təklifləri müzakirə etməyə və zəruri kompromislərə getməyə hazırıq. Lakin Azərbaycanın lideri qeyd etmişdir ki, erməni tərəfi buna razı deyildir və Dağlıq Qarabağın müstəqilliyinin tanınmasını tələb edir. Heydər Əliyev demişdir: «Biz bununla razılaşa bilmərik, çünki bu, Azərbaycanın ərazi bütövlüyünün pozulması deməkdir». Azərbaycan Prezidentinin bu sözlərindən nəticə çıxaran agentlik bildirir ki, Heydər Əliyev həm Dağlıq Qarabağı ölkənin hüdudları daxilində saxlamaq, həm də bunu beynəlxalq təşkilatların əli ilə həyata keçirmək istəyir.

Rusiyanın kütləvi informasiya vasitələri Azərbaycan Prezidenti Heydər Əliyevin səfər zamanı müzakirə etdiyi məsələlərlə yanaşı, onun səhhətinə də ciddi fikir vermişlər. «Kommersant» qəzetinin 22 



fevral tarixli nömrəsində, «İnterfaks» agentliyinin 18 fevral tarixli bülletenində Prezident Heydər Əliyevin gözündə kataraktanın aradan qaldırılması üçün aparılmış uğurlu cərrahiyyə əməliyyatından söz açılır.

Rusiyanın televiziya kanalları da Azərbaycanın dövlət başçısının Amerikaya səfərini diqqətlə izləmiş, Prezident Heydər Əliyevin Birləşmiş Ştatlara səfərinin gedişi, onun Bill Klinton, Madlen Olbrayt və Amerika hökumətinin digər üzvləri ilə görüşləri barədə məlumatlar yaymışlar.

Azərbaycan Prezidenti Heydər Əliyevin ABŞ-a işgüzar səfərini Türkiyə qəzetləri də geniş işıqlandırmışlar. «Radikal», «Zaman», «Ortadoğu», «Yeni şafaq», «Ayulduz» qəzetləri Azərbaycan rəhbərinin ABŞ-a işgüzar səfərinin gedişi, prezident B.Klinton, dövlət katibi M.Olbrayt, energetika naziri B.Riçardson və digər rəsmi şəxslərlə görüşləri, Dağlıq Qarabağ probleminin həlli, Bakı-Ceyhan əsas neft ixrac kəmərinin tikintisi, regional məsələlər ilə bağlı apardığı danışıqlar barədə öz oxucularına mütəmadi qaydada məlumatlar çatdırmışlar.

«Ayulduz» qəzetinin 14 fevral tarixli nömrəsində deyilir ki, Heydər Əliyev ABŞ prezidenti Bill Klintonla görüşü zamanı Azərbaycanla Ermənistan arasındakı münaqişənin nizamlanması və Bakı-Ceyhan neft kəmərinin tikintisi mövzularında ciddi danışıqlar aparmışdır. Amerika və Azərbaycanın dövlət başçıları regional enerji layihələri, o cümlədən Türkmənistandan Türkiyəyə qaz ixrac edəcək Transxəzər kəmərinin inşası məsələsinə də toxunmuşlar. Görüşdən sonra Heydər Əliyevin jurnalistlərə bildirdiyinə görə, o, Bill Klintonla söhbət zamanı vaxtilə Azərbaycana qarşı haqsız tətbiq olunmuş 907-ci düzəlişin ləğvi məsələsini yenidən gündəliyə gətirmişdir. «Ayulduz» qəzeti belə bir nəticə çıxarır ki, «Klintonun Heydər Əliyevlə görüşündən sonra Azərbaycanın müstəqillik və azadlığına tam dəstək veriləcəkdir».

«Zaman» qəzetinin Əliyev-Klinton görüşünə dair dərc etdiyi xəbərdə deyilir: «Əliyev Qarabağ ixtilafının dinc danışıqlar yolu ilə tənzimlənməsi üçün bundan sonra da əllərindən gələni edəcəklərini, ancaq Minsk qrupunun üzvü olan ABŞ, Rusiya və Fransanın da üzərinə bu baxımdan böyük məsuliyyət düşdüyünü qeyd etmişdir. Xüsusilə öz ölkəsinin son altı ildə ABŞ-la qarşılıqlı əməkdaşlıq proqramı həyata keçirdiyini xatırladan Əliyev artıq ABŞ-a belə bir sual verməkdə haqlı olduğunu söyləyib: «Qarabağ məsələsində Azərbaycanı niyə yetərincə dəstəkləmirsiniz və embarqonu niyə aradan qaldırmırsınız?» «Zaman»

qəzeti daha sonra yazır ki, Bakı-Ceyhan layihəsini dəstəklədiyini bir daha nümayiş etdirən Əliyev Türkiyə ilə münasibətlərini «olduqca dostcasına», Rusiya və İranla münasibətlərini «normal» qiymətləndirmişdir.

«Ortadoğu» qəzeti də Heydər Əliyevin ABŞ-a səfəri ilə bağlı dərc etdiyi yazıda Azərbaycan Prezidentinin Cons Hopkins adına Universitetdəki çıxışını geniş təhlil edərək, Bakı-Ceyhan əsas ixrac boru kəmərinin inşası məsələsi ətrafındakı müzakirələrə böyük yer verir.

«Gözçü» qəzetinin şərhçiləri isə Amerika görüşləri zamanı Bakı-Ceyhan məsələsinə xüsusi əhəmiyyət verildiyini qeyd edərək, yazırlar ki, bu layihənin gerçəkləşdirilməsi tezliklə baş verməzsə, bəzi qüvvələr tərəfindən maneələr də yaradıla bilər.

Əliyev-Klinton və Əliyev-Olbrayt görüşləri həmçinin «Radikal», «Türkiyə», «Cümhuriyyət», «Milliyyət», «Yeni minil» qəzetlərində də öz əksini tapmışdır. Türkiyə qəzetlərinin fikrincə, həmin görüşlər zamanı bölgədəki vəziyyət, Cənubi Qafqazda təhlükəsizlik, sabitlik və əmin-amanlıq məsələləri barəsində geniş fikir mübadiləsi aparılmışdır.

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin ABŞ-a işgüzar səfərinin gedişi dünya ölkələrinin, xüsusən də Cənubi Qafqaz regionunda siyasi-iqtisadi marağı olan dövlətlərin kütləvi informasiya vasitələrində hərtərəfli işıqlandırılmış, müxtəlif siyasi dairələrdə, analitik mərkəzlərdə dərindən təhlil edilmiş, geniş müzakirə olunmuşdur.

Dünyanın aparıcı informasiya orqanları Qafqaz regionundakı təhlükəsizlik problemləri, region dövlətlərinin iqtisadi-siyasi əməkdaşlığı, Azərbaycanın qarşılaşdığı çətinliklər, problemlər, ölkəmizin inkişaf perspektivləri barədə Prezident Heydər Əliyevin açıq, səmimi və cəsarətli bəyanatlarına özlərinin gündəlik buraxılışlarında əsas yer vermişdilər.



## RUSİYA JURNALİSTLƏRİNİ QƏBUL

*Prezident Sarayı*
*4 mart 2000-ci il*

**Azərbaycan Prezidenti Heydər Əliyev Prezident Sarayında «İzvestiya», «Komsomolskaya pravda», «Arqumentı i faktı», «Nezavisimaya qazeta», «Trud», «Vek», «Ekonomiçeskaya qazeta», «Rossiyskiye vesti», «Rossiyskaya qazeta», «Meqopolis-kontinent», «Kultura», «Sportivnaya Moskva», «Veçerni klub», «Verstı», «Oqonyok», «Obozrevatel», «Novoye vremya», «Mir» Dövlətlərarası Teleradio Şirkəti, TV-Sentr və TSN kimi məşhur qəzetləri, jurnalları, telekanal və teleproqramları təmsil edən Rusiya jurnalistlərinin böyük bir qrupunu qəbul etmişdir.**

**Prezident Heydər Əliyev jurnalistlərə müraciət edərək dedi:**

– Bu gün mən bütün günü müxtəlif nümayəndə heyətləri ilə görüşmüşəm. Sizdən sonra daha bir görüşüm var. Tez-tez belə olur. Bizə çoxlu adam gəlir və təbii ki, hamı da Prezidentlə görüşmək istəyir. Mən imtina etmirəm, ancaq bu, olduqca çox vaxt aparır. Əlbəttə, bu sizə aid deyil, sadəcə olaraq mən iş günümün necə keçdiyi barədə məlumat verirəm.

Mən sizi salamlayıram. Şadam ki, Rusiyanın bir çox mətbu orqanlarını təmsil edərək, ölkəmizin həyatı ilə tanış olmaq üçün belə böyük heyətlə Azərbaycana gəlməyə təşəbbüs göstərmisiniz. Prinsipcə biz buna çox maraq göstəririk, çünki istəyirik ki, Rusiya ictimaiyyətində Azərbaycan haqqında təsəvvür obyektiv olsun. Bundan ötrü isə hər şeyi gərək özün görəsən, eşidəsən, hiss edəsən. Amma təəssüf ki, heç də həmişə belə olmur. Rusiyanın bəzi qəzetləri bilmirsən haradan götürülmüş və nə üçün götürülmüş materiallar dərc edirlər. Son bir neçə ayda Rusiyanın kütləvi informasiya vasitələrində Çeçenistan hadisələri ilə və ümumən digər hadisələrlə bağlı Azərbaycan haqqında dezinformasiya, mənfi xarakterli materiallar xüsusilə tez-tez dərc olunmağa başlanmışdır.

Təkrar edirəm, biz sizin gəlməyinizi istəyirik və təşəbbüsünüzü alqışlayaraq böyük məmnuniyyətlə görüşə gəldim. Əgər bu görüş bir qədər əvvəl başlasaydı, onda, əlbəttə, biz sizinlə daha çox ünsiyyətdə olardıq. Buna baxmayaraq, nə qədər lazımdırsa, o qədər də ünsiyyətdə olacağıq.

Mən sizin haraya getməyinizdən və nə kimi işlər görməyinizdən xəbərdaram. Doğrudur, bu, həm çoxdur, həm də azdır. Gördüklərinizin, keçirdiyiniz görüşlərin çox və ya az olmasının, hər halda, fərqi yoxdur, siz yəqin şəhərə də baxmısınız. Naxçıvana gedib-gəlməyə də macal tapmısınız. Bu da çox maraqlı və vacibdir, çünki bizim bu muxtar respublikamız Azərbaycanın əsas hissəsindən ayrı düşmüşdür və onunla yalnız hava nəqliyyatı ilə əlaqə saxlanılır. Başqa heç nə yoxdur. Naxçıvana maraq göstərməyiniz çox yaxşıdır.

İndi deyin görək, söhbəti necə aparacağıq? Siz məndən soruşacaqsınız, yoxsa? Buyurun.

Respublikamızın Prezidentinə birinci olaraq Rusiya Jurnalistlər İttifaqının sədri Vsevolod Boqdanov müraciət etdi. O dedi:

– Hörmətli Heydər Əliyeviç, əvvəla, əlbəttə, bu nümayəndə heyəti çox məşhur nəşrlərin jurnalistlərindən ibarət çox geniş heyətdir. Düşündüm ki, bizi nümayəndə heyəti adlandırmaqda Siz bəlkə də tam haqlı deyilsiniz. Axı biz buraya öz adamımızın yanına gələn kimi gəlmişik. Biz Sizi gözəl tanıyırıq, Sizə hörmət edirik, Sovet İttifaqı dövründə Moskvadakı fəaliyyətinizi xatırlayırıq.

Jurnalistlərin Sizə münasibəti həmişə çox hörmətcil olubdur. Buna görə də istərdik ki, Siz bizi rəsmi nümayəndə heyəti kimi deyil, hər şeydən əvvəl, dostlar, həmkarlar kimi qəbul edəsiniz. Moskvada kitab sərgi-yarmarkasını necə açdığımızı xatırlayıram. Sizin adınızla bağlı daha bir çox işləri də yada salmaq olar. Sizi görmək bizə çox xoşdur, bir də ona görə ki, Siz Moskvadakına nisbətən indi, hətta deyərdim, bir qədər cavan və enerjili görünürsünüz. Adam istər-istəməz belə qənaətə gəlir ki, yəqin yaşa dolduqca, daha güclü və cavan olmağa imkan verən həyat yolu tapmaq olar.

Sizə olan münasibətimizi təsdiqləmək üçün, əvvəla, bizim müharibə iştirakçılarından marşal Jukov adına «Cəsurluğa və vətənə məhəbbətə görə» medalını Sizə təqdim etmək istərdim, çünki Moskvada Sizinlə işlədikləri günləri onlar da xatırlayırlar. Qələbənin qarşıdakı 55 illiyi ilə əlaqədar bunun xüsusi əhəmiyyəti var.



İkincisi, bizim Jurnalistlər İttifaqının bu yaxınlarda 80 illiyi tamam oldu və biz yubiley medalı buraxdıq. Mən onu Sizə bütün jurnalistlər adından təqdim edirəm. İcazə verin, kiçik bir suveniri – bizim gümüş jurnalist qələmini də yadigar olaraq Sizə təqdim edim. Bu qələm Moskvadakı jurnalist həmkarlarınızı Sizə xatırladacaqdır.

Burada təklif etmək istədiyimiz iki layihə barədə də bir neçə kəlmə demək istərdim. Birinci layihəyə jurnalistlərin Xəzər boyunca beynəlxalq avtoekspedisiyası da aiddir. Biz istərdik ki, Siz bu layihəni dəstəkləyəsiniz. Avtoyürüş YUNESKO-nun və BMT-nin himayəsi ilə may ayında keçiriləcək, biz Qazaxıstanda və İranda, buna böyük maraq göstərən Türkiyədə, Çeçenistanın döyüş əməliyyatları gedən rayonunda, habelə Dağıstanda olmaq fikrindəyik. Ekspedisiyadan məqsəd hər bir xalqda, hər bir ölkədə xeyirxah qəlbli insanlar tapmaqdır. Bələsi özgə uşaqlarını saxlayan qadın da ola bilər, Xəzər ətrafında sülh problemi sarıdan narahatçılıq keçirən hər hansı bir siyasi xadim də ola bilər. Ekspedisiyada iştirak etmək üçün çoxlu müraciət, o cümlədən Yaponiya və Koreyadan da müraciətlər almışıq. Biz onu Kazanda böyük «dəyirmi masa» arxasında görüşlə başa çatdırmaq istərdik – Şaymiyev orada toplaşmağa dəvət edir. Beləliklə, ekspedisiya bütün Xəzər ölkələrindən keçəcək və buna görə də Sizin dəstəyiniz bizim üçün çox vacibdir. Biz Sizə ətraflı məktub yazıb verəcəyik. Biz artıq yazmışıq, lakin hələlik cavab almamışıq, buna görə də daha ətraflı məktub yazıb Sizə göndərəcəyik.

İndi də ikinci layihə haqqında. Biz Bakıda Sizin bir çox nazirliklərin, baş idarələrin rəhbərləri ilə görüşdük və onlar deyirlər çox pis haldır ki, Azərbaycanla Rusiya arasında nə isə bir ayrılıq düşübdür, biz əməkdaşlıq edə və bir-birimizə daha yaxın ola bilərdik. Məsələn, burada istehsal edilən mallardan söhbət getdi. Söhbət ən əvvəl, kənd təsərrüfatı məhsullarından və başqa məhsullardan gedir. Azərbaycanda istehsal olunan və Moskvada, Rusiyada satıla biləcək bütün məhsulların Moskva Sənaye-Ticarət Palatasının, Bələdiyyə İdarəsinin, Jurnalistlər Birliyinin himayəsi ilə Moskvada təxminən iki həftəlik böyük bir sərgisini təşkil etmək və keçirmək ideyası da məhz buradan yaranmışdır. Mənə elə gəlir ki, indiki halda bu, nəinki iqtisadiyyat üçün, həm də hansısa digər baxımdan da faydalı olardı. Çünki indi Sizin ölkənizdən olan bir çox adamlar Moskvada işləyir, bazarlarda Afrika və Cənubi Amerika tərəvəzi və meyvələri satırlar. Bütün bunlarda bir mənasızlıq

var. Zənnimcə, bütün bunları qarşılıqlı münasibətlərin, əməkdaşlığın, dostluğun və qarşılıqlı anlaşmanın normal məcralarına keçirmək lazımdır. Bu gün təklif etmək istədiklərimiz bax, bunlardır.

Prezident Heydər Əliyev Vsevolod Boqdanova təşəkkür edərək dedi:

– Əvvəla, respublikamıza gəlişinizdən məmnun qaldığımı bir daha bildirirəm. Dediyim kimi, biz bunu çox istəyirik, xüsusilə də şəxsən mən çox istəyirəm. İkincisi, bu medallarla, xüsusən Jukov medalı ilə – bu mənim üçün çox əziz, çox xoşdur – təltif etməklə mənə göstərdiyiniz diqqətə görə Sizə təşəkkür edirəm. Əlbəttə, Jurnalistlər İttifaqının medalına görə də. Mən jurnalistləri həmişə sevmişəm, onlarla həmişə dost olmuşam. Amma jurnalistlərin medalını alıb-almadığım yadımda deyildir. Yəqin ki, almamışam və bu, ilk medaldır. Bütün bunlara görə sağ olun.

O ki qaldı təkliflərinizə, onlar tamamilə məqbuldur. Hesab edirəm ki, Xəzər boyunca avtosəyahət ideyası yaxşı ideyadır. Bizdən, Azərbaycandan nə asılıdırsa, biz hamısını etməyə hazırıq. Əgər daha ətraflı məktub göndərmək istəyirsinizsə, göndərin, mən sərəncam verərəm və öz hissəmizi tamamilə yerinə yetirmək üçün Azərbaycanda hər şeyi edərlər.

Kənd təsərrüfatı məhsullarının sərgisi haqqında təklifinizə gəldikdə isə, bu yaxşı təklifdir. Azərbaycanda müxtəlif meyvələr, tərəvəzlər çoxdur və yeri gəlmişkən, onlar çox dadlıdır. Vaxtilə, Sovetlər İttifaqının tərkibində olduğumuz dövrdə Azərbaycan xüsusən Mərkəzi Rusiyaya, Moskvaya, Leninqrada və başqa şəhərlərə bu cür məhsul göndərənlərdən biri idi. Xatirimdədir, o vaxtlar Azərbaycanı, xüsusən onun cənub Lənkəran zonasını Ümumittifaq bostanı adlandırırdılar, çünki onda biz martda yetişən faraş kələm hasil edir və onu Moskvaya, Leninqrada, digər mərkəzi şəhərlərə göndərirdik. Doğrudur, bu bizi çox zəhmətə salırdı, çünki bu məhsul tez xarab olur, vaqonlar, refrijeratorlar lazım idi. Biz onları alır, məhsulu yükləyib yola salırdıq. Haradasa, nəsə lazımınca olmurdu. Buna baxmayaraq, Azərbaycanda işlədiyim o illərdə biz Moskvaya, Leninqrada, Rusiyanın digər mərkəzi şəhərlərinə ildə 200-250, bəzən isə 300 min ton faraş tərəvəz – əvvəlcə kələm, sonra xiyar, pamidor, badımcan göndərirdik.

Bu, yaxşı idi. Əvvəla, biz bu şəhərlərdə adamların tələbatını ödəyirdik, ikincisi, adamlar bu məhsulu əkib-becərir və pul qazanırdılar. Yadımdadır, təkcə Lənkəran rayonunun təxminən 200 min ton faraş kələm



yetişdirdiyi həmin zonada indi 15-20, bəlkə də uzağı 30 min ton faraş kələm istehsal edilir, çünki bu, Azərbaycanın tələbatını ödəyir. Doğrudur, son vaxtlar onlar birbaşa əlaqələr yaratmışlar və öz məhsulunu göndərirlər. Ona görə də bu sərgini keçirmək, təbii ki, yaxşı olardı.

Bax, Siz dediniz ki, Cənubi Amerikadan gətirilmiş meyvə satılır. Bəli, bu isti ölkələrdə elə meyvələr var ki, onlar Azərbaycanda, digər Qafqaz, Orta Asiya ölkələrində yetişmir və təbii ki, onları gətirmək lazımdır. Bununla yanaşı, başa düşmək olmur ki, özümüzdə daha yaxşı meyvə və tərəvəz olduğu halda, onları haradansa uzaqlardan gətirməyə nə ehtiyac var. Mən bu işlərə belə baxıram: bu, hər şeyin təşəkkül tapmağa başladığı, bir növ, çalxalanma gedən dövrdür. Bu keçib gedəcəkdir. Məsələn, bir vaxtlar Azərbaycan Rusiyaya şərab və şərab materialları göndərirdi. Hətta Sovet hökumətinin xüsusi təkidi ilə biz, əlbəttə, şərab üzümü yetişdirmək üçün burada çox geniş sahələrdə üzüm bağları salmışdıq.

Mən burada işləyərkən Aleksey Nikolayeviç Kosıginlə olmuş söhbətlərimizi xatırlayıram. O mənə dəfələrlə demişdi: bu necə işdir, bizim şərab materiallarına, təbii olaraq, üzümə tələbatımız 8-10 milyon tondur. Fransa 50 milyon ton üzüm istehsal edir, İtaliya da təxminən bir o qədər istehsal edir, biz isə cəmi 4-5 milyon ton. Buna görə də məsələ qaldırdılar, qərar qəbul etdilər, tapşırıq verdilər, təbii ki, bütün lazımi vasitələrlə təmin etdilər və biz qısa müddətdə, beş ildə burada üzüm plantasiyaları salınması işini genişləndirdik. Özü də, bunun məhz burada edilməsi təsadüfi deyildi. Alimlər, mütəxəssislər Sovetlər İttifaqının digər regionlarını öyrənərək belə bir qənaətə gəldilər ki, ən əlverişli torpaq-iqlim şəraiti Azərbaycandadır. Bir sözlə, bu bizim icadımız deyildi.

Biz bu işi yaxşı həyata keçirdik. Xatirimdədir, 1981-1982-ci ildə bütün Sovetlər İttifaqında istehsal olunan 6 milyon ton üzümün 2 milyon tonunu biz verdik. Çoxlu şərab zavodları, ilkin şərab emalı zavodları tikdik. Əlbəttə, adamlar bunun hesabına yaxşı qazanır, təbii ki, şərab materialları ilə təmin edirdilər. O vaxtlar biz hətta Sibirdə, İrkutskda, Altayda, Rostov vilayətində, digər yerlərdə çoxlu şərab zavodu tikdik. Biz oraya sisternlərlə şərab materialı göndərirdik, orada isə onları şüşələrə doldurub satırdılar.

Əlbəttə, Qorbaçov, Liqaçov və onun dəstəsi antialkoqol siyasətinə başlayaraq bu işə böyük zərbə vurdular. Burada bütün üzümlükləri ko-

sib doğradılar. Halbuki onlar çox böyük zəhmət bahasına və olduqca böyük vəsait hesabına yaradılmışdı. Yaxşı, əgər söhbət arağa qarşı mübarizədən gedirdisə, bunun üzümə nə dəxli vardı? Yeri gəlmişkən, yenə də mərhum Aleksey Nikolayeviç Kosıgini xatırlayıram. O deyirdi, bilirsinizmi, əgər biz böyük miqdarda keyfiyyətli şərablar istehsal edib ölkəmizin əhalisini onunla təmin etsək, onda əhaliyə araq içməyi tərgidərik. Zənnimcə, o, düzgün mühakimə yürüdürdü. Çünki şərab, hər halda, araq deyildir.

1985-ci ildə antialkoqol mübarizəsi deyilən mübarizə başlanan vaxtlarda mən Moskvada işləyirdim, Siyasi Büronun üzvü idim və hətta bu məsələ üzrə komissiyanın üzvü idim. Ona Rıjkov başçılıq edirdi. Bununla yanaşı, partiyanın Mərkəzi Komitəsində Liqaçovun rəhbərliyi ilə qrup fəaliyyət göstərirdi, bu qrupu alkoqolizmə qarşı mübarizənin necə həyata keçirildiyini yoxlamaq üçün hər 15 gündən bir respublikalara göndərirdilər. Onlar gəlib soruşurdular – nə üçün sizdə üzümlüklər qalır? Onları kəsib doğrayın.

Onda mən Qorbaçova da, Liqaçova da deyirdim – bilirsinizmi, siz heç də lazımi istiqamətdə hərəkət etmirsiniz. Azərbaycanlılar dini əqidəyə görə, prinsipcə, alkoqollu içkilər içməyirlər. Bir vaxtlar içmək qadağan olunmuşdu. Doğrudur, indi içirlər, lakin hər halda, o qədər də yox. Siz isə hey oraya gedir, üzümlükləri məhv etdirirsiniz. Bu, birincisi. İkincisi isə, o vaxtlar mən bu ideyanı ümumən dəstəkləmirdim, hərçənd, onlara deyirdim ki, mənim üçün fərqi yoxdur – mən içki içən deyiləm, Azərbaycan xalqı da içki içməyən xalqdır və indiki halda onun üçün problem yoxdur. Buna baxmayaraq, siz inzibati metodlarla Rusiyanı araq içməkdən necə tərgitdirə bilərsiniz? Amma nə olsun, istədiklərini etdilər. İş hətta cəfəngiyyata gəlib çıxırdı. O vaxtlar Nazirlər Soveti sədrinin birinci müavini kimi mən ticarətə də kuratorluq edirdim, bu komissiyanın üzvü idim. Mənə müxtəlif yerlərdən materiallar gəlirdi, hətta bir növ konyuktura var idi – bir halda ki, alkoqolizmə qarşı mübarizə gedir, deməli, hər kəs özünü göstərmək istəyirdi, amma hamı yox. Bir dəfə Siyasi Büroda dedilər ki, pivə zavodlarını bağlamaq lazımdır, çünki pivədə alkoqol var. Həmin vaxt isə keyfiyyətli pivə istehsalı üçün xaricdən bir neçə pivə zavodu alınmışdı. Onları bağladılar.

Sonra Leninqraddan hansısa alimlər qrupu məktub yazmışdı ki, uşaq kefirində alkoqol var. Xatirimdədir, o vaxtlar Partiya Nəzarəti Komitəsinə başçılıq edən Solomentsev bu məktubu mənə göndərmişdi. Deyirəm – bilirsinizmi, axı mən mütəxəssis deyiləm, bununla belə, necə yəni uşaq kefirində də alkoqol var? Onu da qadağan etmək lazımdır? Yeri gəlmişkən, mən səhiyyənin də kuratoru idim və bu məktubu səhiyyə nazirinə, Tibb Elmləri Akademiyasının prezidenti Nikolay Nikolayeviç Bloxinə göndərdim. Əlbəttə, onlar güldülər. Bununla belə, nə etmək olar? Axı bu, MK-nın tapşırığı idi. Və məsələni aydınlaşdırmaq lazım idi. Onlar yığışıb müzakirə etdilər və yazdılar ki, bu doğru deyildir. Mən məktub göndərdim ki, mütəxəssislər deyirlər, bu, həqiqətə uyğun deyildir. Amma yox ki, yox, dedilər ki, «alkoqol var, kefiri qadağan etmək lazımdır». Görün, necə cəfəngi bir zəmanə yaşamışıq.



Mən əsas mövzudan bir qədər yayındım, o mənada ki, bəli, indi biz bu imkandan məhrum olmuşuq. İndi Rusiyaya şərabı daha haralardan gətirmirlər, hətta doğru dediniz ki, Cənubi Amerikadan da gətirirlər. Özü də, təkcə Rusiyaya yox. Bizə də şərab gətirirlər. Azərbaycana şərabı müxtəlif ölkələrdən gətirirlər. Halbuki özümüzün əla şərablarımız var. Bizim əla şampan şərabı istehsal edən şampan şərabları zavodumuz var. Amma kənardan gətirirlər. Azad ticarətdir, necə deyərlər, bazar iqtisadiyyatıdır. Bununla belə, hesab edirəm ki, hər halda, Azərbaycanda bu sahədə qayda-qanun yaratmaq lazımdır. Çünki əgər azərbaycanlılar Azərbaycan şərabı içsələr, elə bunun özü kifayətdir. Onların Fransa, Avstraliya və ya Kaliforniya şərabı içmələri vacib deyil. Yəni, Sizin bu fikrinizi dəstəkləyirəm ki, bunu etmək olar. Sadəcə, bunu praktik olaraq necə təşkil etmək barədə düşünmək lazımdır. Əgər bu məsələ barədə də təkliflər varsa, mən bizim Nazirlər Kabinetinə tapşıraram, onlar bu işlə məşğul olarlar.

**V l a d i m i r   K u z n i ç e v s k i** *(«Rossiyskaya qazeta»)* : Cənab Prezident, bu gün səhər biz baş nazirin müavini Əli Həsənovun müşayiəti ilə qaçqınlar yaşayan rayona getdik. Təəssüratımız dəhşətlidir. Bu adamlar səkkiz ildir əsl ekstremal şəraitdə yaşayırlar. Biz özümüz gördük, bəziləri, obrazlı desək, bağlamalarını açmırlar, səkkiz ildir geriyə qayıdacaqları günü gözləyirlər. Bizə dedilər ki, qaçqınların ümumi sayı təqribən 950 min nəfərdir. Onların 50 mini Dağlıq Qarabağdan, 900 mini hazırda Ermənistan silahlı qüvvələrinin nəzarət etdikləri yeddi rayondandır. Bütün bunlara baxmaq ağırdır. Odur ki, belə bir sualım var: xahiş edirəm deyəsiniz, indi bu müşkül düyünü açmaq daha ağıllı bir iş olmazdımı? Yəni Dağlıq Qarabağı Ermənistana vermədən, ona

müstəqillik vermək və qaçqınların Ermənistan silahlı qüvvələrinin nəzarət etdiyi yeddi rayona qayıtmasından ötrü, bu rayonların qaytarılması üçün erməni tərəfi ilə kompromisə getmək, sonra isə söhbəti Dağlıq Qarabağın statusuna dair siyasi danışıqlar müstəvisinə keçirmək daha ağıllı bir iş olmazdımı? Məsələn, Kuril adalarından dördü barədə Rusiyanın Yaponiya ilə apardığı danışıqlar kimi, bu söhbəti də illərlə aparmaq olar. Gördüklərimizdən və azərbaycanlılarla söhbətlərimizdən məndə belə bir təəssürat yarandı ki, Siz ölkədə xalq arasında olduqca böyük nüfuza maliksiniz. Təşəkkür edirəm, çox sağ olun.

**Heydər Əliyev:** Hər şeydən öncə, qaçqınlarımızın yaşadıqları yerlərə getdiyinizə görə sizə təşəkkür edirəm. Qaçqınlarımız burada, Bakıda çoxdur. Amma nəzərə alın ki, buradakı şərait daha yaxşıdır. Onlar ağır şəraitdə də olsa, hər halda, binalarda yaşayırlar. Sizdən çox xahiş edərdim ki, gələn dəfə qaçqınların çadır düşərgələrinə də gedəsiniz. Jurnalistlərin hamısına olmasa da, müəyyən qrupuna vertolyot verərəm, oraya maşınla da getmək olar. Onlar 8 ildir çadırlarda yaşayırlar. Axı çadır da tab gətirmir – gah qar, gah yağış yağır, gah da qızmar yay olur. Onların bu çadırlarda necə yaşadıqlarını təsəvvürə gətirmək çətindir. Mən vaxtaşırı bu düşərgələrə gedirəm və hər dəfə də oradan, demək olar, xəstə halda qayıdıram.

Ölkəmizə gələn əcnəbilər bəzən oralarda olurlar. Çoxlarından danışmayacağam. Bir dostum var – Rostropoviç, siz onu tanıyırsınız, onun özü bakılıdır, buraya gəlib-gedir. İki il əvvəl buraya gəldikdə məhz çadırlarda yaşayan qaçqınların yanına getmək istədiyini bildirdi. Təbii ki, biz ona kömək etdik, vertolyot verdik. O, oraya gedib qayıtdı, axşam isə mən onunla görüşdüm və gördüm ki, ağlayır, göz yaşları dayanmır. O deyirdi: mən heç təsəvvür etməzdim ki, adamlar bu cür şəraitdə yaşaya bilərlər, özü də illərlə.

Bilirsiniz, bu çadırlarda uşaqlar doğulur, insanlar həyatdan köçür, nikahlar bağlanılır. Bir dəfə orada olarkən gördüm ki, bir neçə qadın sacda çörək bişirir. Görürəm ki, çoxlu çörək bişiriblər. Soruşuram: bu qədər çörək nəyə lazımdır? Deyirlər: biz burada toya hazırlaşırıq. Soruşuram: bəs bəy kimdir, gəlin kimdir? Bir cavan oğlan yaxınlaşdı, yəqin 18-19 yaşında olardı, arıq idi. Deyirlər: bax, bəy bu oğlandır, bizim oğlumuzdur. Soruşuram: Bəs gəlin hanı? Cavab verirlər ki, gəlin başqa rayondadır. O da çadırda yaşayır. Deyirəm: toy olacaq? O cavab verir: biz bax burada hazırlaşırıq, sonra gedib gəlini gətirəcəyik və burada toy



edəcəyik. Siz təsəvvür edirsinizmi, 3-4 adam üçün nəzərdə tutulan bir çadırda, bir dam altında on nəfər yaşayır. İndi görün, təzə ailə quranlar nə etsinlər? Axı bir ailə çadırdan çıxmalıdır, onu, heç olmasa, ilk günlərdə cavanlara verməlidirlər ki, onlar normal yaşaya bilsinlər. Xahiş etdim ki, toy olanda məni də çağırsınlar. Axı toylar tez-tez olmur. Mən oraya getdim. Doğrudur, həmin vaxtadək burada bir neft şirkətindən xahiş etdim, bu şirkət çadır şəhərciyinin mərkəzində toy etmək, müxtəlif tədbirlər keçirmək mümkün olan ev tikdirdi.

Mən oraya getdim. Bu ev təxminən yüz adam tuturdu, daha bir neçə yüz adam isə evin ətrafına, bu toya toplaşmışdı. Son 20 ildə və ya hətta 30 ildə toya getdiyim yadımda deyildir. Bu toyda isə oldum. Orada iki cüt gənc ailə qururdu. Belə ağır şəraitdə yaşamalarına baxmayaraq, qızlar da, oğlanlar da, valideynləri də xoşbəxt idilər. Mən onlarla birlikdə oldum, oxuduq, oynadıq. Yəni başa düşürsünüzmü, insan ən ağır şəraitə alışır. Təsəvvürə belə gətirmək çətin idi ki, insan bu cür şəraitdə yaşaya bilər, amma yaşayır. Lakin bu o demək deyil ki, onların bundan sonra da belə yaşaması ilə razılaşmalıyıq. Biz onları xilas etməli, bu vəziyyətdən çıxarmalıyıq. Biz məhz bu istiqamətdə işləyirik. Axı siz bilirsiniz ki, Ermənistanla Azərbaycan arasında Dağlıq Qarabağ ilə əlaqədar münaqişə hələ 1988-ci ildə yaranmışdı. O vaxt Sovetlər İttifaqı var idi, yeri gəlmişkən, onda bu münaqişəni dayandırmaq, onun böyüyüb müharibəyə çevrilməsinə yol verməmək tamamilə mümkün idi. Lakin o vaxt bunu etmədilər. Niyə? Başa düşmürəm. Bilmirəm, bəlkə də o vaxtlar bunu sovet rəhbərliyindən kimlərsə istəyirdi. Bilmirəm.

Hər halda, Sovet dövləti – sizli-bizli hamımızın tanıdığı, xüsusən mənim tanıdığım, çünki mən bu dövlətin dövründə daha çox yaşamışam və onun ali orqanlarında işləmişəm, o, güclü dövlət idi – bu cür halların qarşısını çox uğurla ala bilərdi.

Yeri gəlmişkən, bu, ermənilərin Dağlıq Qarabağ barəsində heç də ilk iddiası deyildir. Keçmiş vaxtlarda Ermənistanın, əsasən, ədəbiyyat, mədəniyyət xadimləri arasından ayrı-ayrı qruplar Moskvaya məktub göndərirdilər ki, Dağlıq Qarabağı Ermənistana birləşdirmək lazımdır. Həmin məktublara baxılırdı, ermənilərə izah edirdilər ki, bu qeyri-mümkündür, onlar bu məsələni əbəs yerə qaldırırlar, biz hamımız bir dövlətdə – Sovetlər İttifaqında yaşayırıq. Amma 1988-ci ildə bu məsələ ortaya çıxanda, ona başqa cür yanaşıldı. Bəziləri bu işi hətta təşviq

edirdilər. Budur, indi Azərbaycan üçün də, Ermənistan üçün də belə bir müsibət var. Doğrudur, Azərbaycan daha çox zərər çəkmişdir, çünki onun ərazisinin 20 faizi işğal altındadır və Sizin dediyiniz kimi, işğal edilmiş bu rayonlardan təxminən bir milyon adam qovulmuşdur.

Biz neçə illərdir danışıqlar aparırıq. Mən Azərbaycana rəhbərliyə qayıtdıqdan sonra ilk öncə müharibəni dayandırmağa çalışdım. 1994-cü ilin mayında biz müharibəni dayandırdıq, baxmayaraq ki, ərazimiz işğal edilib, bir milyon adam yaşayış yerlərindən qovulub, çoxlu insan həlak olmuşdur. Lakin o vaxt da düşünürdüm, indi də belə düşünürəm ki, müharibə bütün hallarda hamı üçün zərərlidir. Buna görə də biz müharibəni dayandırdıq, danışıqlar aparırıq. Dağlıq Qarabağın statusuna, Sizin dediyiniz məsələyə gəldikdə isə, biz artıq bir çox variantları müzakirə etmişik. Doğrudanmı, siz düşünürsünüz ki, biz bu məsələnin həllini istəmirik? Amma Ermənistan tərəfi qeyri-konstruktiv mövqe tutur.

Bilirsiniz ki, ATƏT-in tərkibində Minsk qrupu var və o, həmin məsələ ilə məşğul olur. Minsk qrupuna Rusiya, Amerika Birləşmiş Ştatları və Fransa başçılıq edirlər. Bu ölkələr məsələnin həllinə, necə deyərlər, təsir etmək imkanına malikdirlər. Lakin bu baş vermir. Yeri gəlmişkən, siz Rusiyadansınız. Ona görə də demək istəyirəm ki, ATƏT-ə və ya Minsk qrupuna daxil olan hər hansı digər ölkəyə nisbətən Rusiya bu məsələnin həlli üçün daha üstün mövqeyə malikdir. Ancaq bu iş görülmür.

Biz bəyan etmişik və bəyan edirik ki, Dağlıq Qarabağa Azərbaycanın tərkibində ən yüksək özünüidarə statusu verilə bilər. Amma Ermənistan tərəfi Dağlıq Qarabağa müstəqillik statusu verilməsini tələb edir. Əvvəla, Dağlıq Qarabağ kiçik bir yerdir, indi orada təxminən 60 min adam yaşayır. Ən yaxşı dövrlərdə orada 170 min adam yaşayırdı, onların 30 faizi azərbaycanlılar, 70 faizi ermənilər idi. Azərbaycanlıları oradan qovub çıxartmışlar, ermənilərin bir qismi oradan köçüb getmişdir. Orada ağır şəraitdə yaşayırlar, lakin buna baxmayaraq, müstəqil dövlət, beynəlxalq hüququn subyekti olmaq istəyirlər. Biz bunu edə bilmərik. Əgər indi biz bu statusla razılaşsaq, onda bu, məsələnin artıq qəti həlli olar və bundan sonra heç bir danışıq gedə bilməz. Bax, Rusiya Çeçenistanda müharibə, özü də, ağır, çox ağır müharibə aparır. Nəyin naminə? Öz ərazi bütövlüyünü qoruyub saxlamaq naminə. Bu prinsipi biz də dəstəkləyirik. Çünki beynəlxalq hüquq, xüsusən 1975-ci ildə qəbul olunmuş Helsinki Aktı hər bir dövlətin ərazi bütövlüyünün toxunulmazlığını əsas prinsip hesab edir.



Dağlıq Qarabağa müstəqillik statusu verilsə, bu o deməkdir ki, Azərbaycan öz ərazisinin bir hissəsini itirir. Lakin ona yüksək özünüidarə statusu verilməsi o deməkdir ki, həm onlar özünüidarə hüququ alırlar, həm də Azərbaycanın ərazi bütövlüyü pozulmur. Özü də biz onlara dünya praktikasında mövcud olan hər hansı ən yüksək statusu təklif etmişik. Məsələn, Rusiyanın tərkibində Tatarıstan var. Bir baxın, o nə kimi böyük hüquqlara malikdir. Bununla belə, o, Rusiyanın tərkibindədir. Bir sözlə, biz bunu etmək istəyirik, amma Azərbaycan ərazisinin bir hissəsini müxtəlif səbəblərə görə ələ keçirmiş Ermənistan tərəfi, təəssüflər olsun, indi bundan öz məqsədinə nail olmaq üçün təzyiq vasitəsi kimi istifadə edir. Biz isə bununla razılaşa bilmərik. Düşünürəm ki, bu cür ağır şəraitdə yaşayaraq artıq səkkiz ildən bəri dözən qaçqınlarımız yenə də dözərlər ki, Azərbaycan özünün ərazi bütövlüyünün toxunulmazlığı barədə hüququnu, hər halda, qoruya bilsin.

**N i k o l a y  T a r a s e n k o** *(«Ekonomiçeskaya qazeta»)* : Hörmətli cənab Prezident, biz bu siyasi problemləri əyani şəkildə görmüşük. Bilirik ki, Sovet hakimiyyətinin bütün illəri ərzində iqtisadiyyat, təəssüflər olsun, siyasətin girovu olmuşdur. Sizə elə gəlmirmi ki, iqtisadi problemləri həll etməklə siyasi problemləri də həll etmək mümkündür? Əgər belədirsə, onda xahiş edirəm, Azərbaycan iqtisadiyyatında islahatın öncül istiqamətlərindən, heç olmasa, tezis halında danışasınız. İqtisadiyyat nəyin hesabına dirçələ bilər, hansı sahələr öz sözünü deyə bilər?

**H e y d ə r  Ə l i y e v :** Bilirsiniz ki, zənnimcə, bizim hamımızın – mən Sovetlər İttifaqı dağıldıqdan sonra dövlət müstəqilliyi qazanmış ölkələri nəzərdə tuturam – eyni problemlərimiz, eyni bir yolumuz var. Yəni biz sosialist iqtisadi sistemindən imtina etdik, demokratiya, bazar iqtisadiyyatının inkişafı, özəlləşdirmə, sahibkarlar, mülkiyyətçilər yaranması yoluna qədəm qoyduq. Artıq başqa yol yoxdur.

Doğrudur, bu, xalqa ağır başa gəlir, çünki Oktyabr inqilabından, Sovetlər İttifaqının təşkilindən sonra qolçomaqlığın ləğv edilməsi, yəni kəndlilərin əlindən bütün mülkiyyətin – torpağın da, mal-qaranın da alınması, bunların ictimailəşdirilməsi, dövlətə verilməsi üçün, hər halda, Azərbaycan şəraitində 10 ildən çox vaxt lazım olmuşdur.

Azərbaycanda bütün bunlar çox ağır getmişdir. Bir çox adamlar bunun əleyhinə çıxış etdiklərinə görə repressiyaya məruz qalmışlar. Bir çox adamlar kolxoz quruluşu ilə razı olmadığına, öz torpağını, mal-qa-

rasını vermək istəmədiyinə görə Azərbaycandan uzaq diyarlara – Qazaxıstana, Mərkəzi Asiyanın müxtəlif rayonlarına sürgün edilmişlər.

Lakin repressiya tədbirləri, necə deyərlər, inqilabi yol, kənd təsərrüfatının kollektivləşdirilməsi istəyinə nail oldu. İnsanlar kollektiv təsərrüfata – kolxozlara, sovxozlara alışdılar. Ədalət naminə demək lazımdır, elə bir vaxt gəlib çatdı ki, insanlar xeyir görməyə, yaxşı yaşamağa başladılar. Mən keçmişdəki hər şeyin pislənməsi mövqeyini heç zaman dəstəkləmirəm.Hərçənd, keçmiş həm də faciəli hadisələrlə, ağır proseslərlə bağlıdır. Buna baxmayaraq, nəhayət, 1935-1936-cı illərdə bərqərar olmuş sistem öz nəticələrini verdi, insanlar ona, kollektiv təsərrüfata, özlərinin heç nələrinin olmamasına, hər bir kəsin işləyib əmək haqqı aldığı dövlət zavodları və fabriklərinin, ticarət müəssisələrinin, nəqliyyatının olmasına alışdılar.

İndi əks proses gedir. Ola bilsin, bu elə bir proses deyil ki, burada hər hansı inzibati tədbirlər və ya repressiya tədbirləri tətbiq edilsin. Lakin bu o qədər də asan deyildir. Sizə, məsələn, kənd təsərrüfatı barəsində deyə bilərəm. Biz torpaq islahatına, yəni kolxoz və sovxozların ləğv edilməsinə, mal-qaranın və torpağın kəndlilərə paylanmasına çox cəsarətlə getdik. Deməliyəm ki, bu çox yaxşı nəticələr verir. Məsələn, ötən il bizdə kənd təsərrüfatı istehsalı 7 faiz artmışdır. Nəzərə alın ki, kənd təsərrüfatı istehsalının 98 faizi özəl sektorun, cəmi 2 faizi isə dövlət sektorunun payına düşür.

Xatirimdədir, 1981-1985-ci illərdə təkcə burada yox, Moskvada da ət, yağ çox qıt idi. Mən burada 1982-ci ilədək işləmişəm, biz hər adama talonla ayda yarım kiloqram yağ satırdıq. O vaxtlar mən birinci katib, respublikanın rəhbəri idim, bu işlə çoxlu məşğul olurdum ki, talonlar vaxtında verilsin, adamlar onlarla ərzaq ala bilsinlər. Bayramqabağı kolbasa və ət daha çox buraxılırdı, üstəlik, bu məhsulları oğurlayırdılar. Yadımdadır, bayramlar ərəfəsində mən mağazalara gedir və aydınlaşdırırdım ki, hamısını açıq satırlarmı, gizlətmirlər ki. Bu da olubdur.

İndi isə Azərbaycanda ət, yağ, çörək sarıdan problem yoxdur. Bunların hamısı var. Doğrudur, deməliyəm ki, 1993-cü ildə mən buraya gəldikdə vəziyyət ağır idi. 1994-cü, 1995-ci illərdə adamları çörəklə təmin etmək bizim üçün ağır idi. Dövlət vəsaiti az idi. Biz taxıl satın alıb gətirir, satırdıq, növbələr yaranırdı. Sonra biz bütün bunların hamısını sərbəst buraxdıq, taxıl istehsalı ilə bağlı bütün təsərrüfatı özəlləşdirdik və təxminən yarım ildən sonra bizdə bu sahədə problem olmadı.



İndi bizdə nə qədər istəyirsən ət, eləcə də başqa məhsullar var. Doğrudur, qiymətlər bəlkə də hamı üçün münasib deyildir, hər halda, onlar Rusiyada olduğundan aşağıdır.

Bax, Siz deyirsiniz ki, iqtisadi problemlərin həlli siyasi problemlərin də həllinə kömək edər. Bu düzdür. İqtisadi problemləri həll etmək lazımdır və biz onları bax, belə həll edirik. Bizdə ticarət tamamilə özəlləşdirilibdir. Bizdə nə kimi mağazaların meydana gəldiyini yəqin ki, gördünüz. Məgər o vaxtlar belə mağazalar vardı? Bu, təkcə bizdə deyil, Moskvada da, keçmiş Sovetlər İttifaqının bir çox regionlarında da belədir. Yadınızdadırmı, keçmiş vaxtlarda biz xaricə gedərkən oradan sovet mağazalarında olmayan şeylər almağa çalışırdıq. Yaxud mərhum Arkadi Raykinin çox gözəl dediyi qıtlıq məsələsini götürək: ən nüfuzlu adam kimdir? Əlbəttə, əmtəəşünas. Hə, yadınızdadırmı? Bəs nə üçün belə idi? Ona görə ki, mağazada əmtəəşünasın hər şeyi var idi və hər bir kəs qıt mal almaq istəyirdi. İndi isə qıtlıq yoxdur.

İri sənaye müəssisələrinin özəlləşdirilməsi daha çətindir. Nəyə görə? Ona görə ki, əvvəla, onlar iridir. Sanballı sərmayədarlar gərəkdir. İkincisi isə, o vaxt istehsal etdiklərimizin heç də hamısını bu gün istehsal etmək mümkün deyildir, çünki bazar yoxdur. Yuri Mixayloviç Lujkov mənə söylədi ki, onlar ZİL zavodunu, daha hansısa zavodu alıblar. Bilmirəm, onlar nə qədər istehsal edirlər, hər halda çox deyildir, sovet dövründəkinə nisbətən qat-qat azdır. Bizdə boruyayma zavodu var, orada 10 min adam işləyirdi. Bu zavod boru istehsal edir və onu Sovetlər İttifaqının hər yerinə göndərirdi. İndi isə, əvvəla, hətta neft çıxarılan Rusiyanı və başqa ölkələri də götürsək, bazar ümumən məhdudlaşıbdır, ikincisi isə avadanlıq köhnəlib və böyük sərmayə lazımdır. Yəni satış bazarı olmalıdır.

Bizdə, məsələn, böyük kimya var. Biz yarımfabrikatlar istehsal edir və son məhsul hazırlanması üçün Rusiyanın müxtəlif vilayətlərinə göndərirdik. Məsələn, biz apatiti Murmanskdan alırdıq. Bəs indi onu almaq sərfəlidirmi? Təkcə yol xərcləri neçəyə başa gələr? İstehsal etdiyimiz məhsuldan nə qazanacağıq? Doğrudur, kimya sənayemiz polietilen istehsalı üçün bir yapon şirkəti ilə müqavilə bağlamışdır. Bu şirkət 90 milyon dollar ayırmışdır. Nəzərdə tutulduğuna görə, bu, tamam yeni texnologiya olacaq, yüksək keyfiyyətli polietilen buraxılacaq, ondan yaponların özləri istifadə edəcək və ya onu satacaqlar. Bu var. Lakin malik olduğumuz nə varsa, onlar – Azərbaycan isə böyük sənaye ölkəsidir – indi bizə çətinliklər yaradır.

Rusiyada müdafiə sənayesinin nə qədər zavodları vardı. Misal üçün götürək Zelenoqrad şəhərini. O vaxtlar bu şəhər möcüzə idi. Mən burada işləyərkən biz Zelenoqrada getmişdik və oradakı müəssisələrə, evlərə, necə yaxşı insanlar işlədiyinə heyran qalmışdıq. Bəs Zelenoqrad indi nə vəziyyətdədir? Hamısı ona görədir ki, tələbat yoxdur. O vaxt biz də burada elektron sənayesini inkişaf etdirməyə başladıq və yaxşı məhsul istehsal edir, onları yığılmaq üçün digər zavodlara göndərirdik. İndi isə buna tələbat yoxdur.

Buna baxmayaraq, bizdə iqtisadiyyatda da böyük nəticələr var. Əvvəla, neft sənayesini götürək. Biz xarici sərmayədarları cəlb edə bildik və artıq onlarla birlikdə neft çıxarırıq, onu gələcəkdə də çıxaracağıq. Yeri gəlmişkən, bu gün mən burada gündüz saat 1-dən düz üç saat oturaraq, şirkətlərimizin rəhbərlərinin Bakı-Ceyhan boru kəmərinin tikintisi, habelə qaz məsələsi barədə məlumatını dinlədim. Biz bilirdik ki, Xəzər dənizinin Azərbaycan sektorunda qaz var, amma onun çox böyük həcmdə qaz olduğunu təsəvvür etmirdik. 1994-cü ildə biz indi «Əsrin müqaviləsi» adlandırılan ilk iri müqavilə imzaladıq, artıq 1997-ci ildə neft hasil etdik. Yeri gəlmişkən, bu nefti indi Çeçenistanda vəziyyətlə əlaqədar çətinliklər olan Bakı-Novorossiysk boru kəməri ilə göndərməyə başladıq. Biz Gürcüstanın Qara dəniz sahilindəki Supsa limanına başqa bir neft kəməri çəkdik, nefti oraya nəql edirik. Lakin indi gözlədiyimizdən iki dəfə çox neft, o cümlədən də neftli qaz çıxarırıq. Mən bu gün onları hətta məzəmmətlədim. Onlar «Çıraq» platformasından neftli qazın sahilə nəqli üçün boru kəməri çəkmişlər. Yeri gəlmişkən, müqaviləyə görə, həmin qaz Azərbaycana pulsuz olaraq verilir. İndi məlum olur ki, bu boru kəməri kifayət deyildir, biz qazın yarısından çoxunu onun vasitəsilə nəql edə bilmirik və bu qaz yandırılır. Halbuki indi bizdə qaz çatışmır. Bu gün mən onlardan soruşdum: niyə belə olub? Onlar cavab verirlər: biz təsəvvür etmirdik ki, bu qədər neftli qaz olacaqdır. Mən deyirəm: görürsünüzmü, siz belə böyük şirkətlərsiniz, amma səhvə yol verirsiniz. Bu gün söhbət başqa platformadan getdi və onlara dedim: baxın, amma orada da səhv etməyin ki, biz itkiyə yol verməyək.

Neft məsələsi aydındır, biz artıq onu çıxarırıq və çıxaracağıq. 1994-cü ildən sonra biz daha 19 müqavilə imzaladıq və hesab edirəm ki, 5-10 ildən sonra onlar Azərbaycana çox böyük fayda gətirəcəkdir.

1996-cı ildə biz Xəzər dənizində, sahildən təxminən 60 kilometrdə yerləşən «Şahdəniz» yatağına dair müqavilə imzaladıq. Quyular qazdıq



və orada çox böyük həcmdə qaz olduğunu aşkara çıxardıq. Geoloqlarımız orada təqribən 400 milyard kubmetr qaz olduğunu proqnozlaşdırmış, şirkət isə bunun bir trilyon kubmetrdən artıq olduğunu müəyyənləşdirmişdir. Doğrudur, şirkət bunu elan etmir, çünki bu onlara sərfəli deyildir. Bu gün biz həmin qazın dünya bazarlarına necə ixrac olunması məsələsini müzakirə etdik.

Bizdə böyük həcmdə neft və qaz ehtiyatları olan başqa yataqlar da var. Haqqında müqavilə imzaladığımız təkcə «Azəri», «Çıraq» və «Günəşli» yataqlarından təxminən 2008-ci ilədək 60 milyon ton neft çıxaracağıq. Lakin xarici sərmayələri cəlb etməyimiz sayəsində digər firmalar da Azərbaycana gəlir. Məsələn, imzaladığımız müqaviləyə 11 neft şirkəti daxildir və onlar işləməyə başlamışlar. İşləmək üçün onlar bir çox digər firmaları cəlb etməlidirlər. Bu firmalar buraya gəlir, işləyirlər, Azərbaycana isə əlavə sərmayələr yönəldilir. Məsələn, dərin qazma işləri aparılması üçün onlar bizim bir qazma qurğusunu yenidən qurmuş və buna 200 milyon dollar sərf etmişlər. Bizdə belə qurğular vardı. Sovet dövründə, mən burada işləyən vaxtlarda biz bu işlə məşğul olur, «Şelf» üzən qazma qurğuları yaradırdıq, bizdə beş belə qurğu var. Lakin onlar köhnəlib, tələb edilən standartlara cavab vermir. Onların modernləşdirdiyi qurğular isə dənizin 600-700 metr dərinliyində quyular qazır və özü də çox yaxşı qazır.

Təbii ki, bu, olduqca çox adama iş yeri açmışdır. Bütün bu şirkətlərdə işləyənlərin 90 faizi bizim adamlardır, bizim neftçilərdir, onlar isə çox təcrübəlidirlər. Onlar yaxşı əmək haqqı alırlar – ayda orta hesabla 700-800 dollar. Bizdə bu iş yaxşı gedir və hesab edirəm ki, yaxşı perspektivə malikdir.

Lakin biz bu fikirdəyik ki, iqtisadiyyatımız yalnız neft-qaz sənayesi vasitəsilə inkişaf etməməlidir. Bizim digər imkanlarımız da çoxdur, biz onları inkişaf etdirəcəyik. Başlıcası, müharibəyə, münaqişəyə son qoymaqdır, qalan hər şey isə elə bir vəziyyətdədir ki, biz yaxşı iqtisadi nəticələrə malik ola bilərik və təbii ki, siyasi məsələləri həll edə bilərik.

Əslində, münaqişəni aradan qaldıra bilsək, elə ciddi siyasi məsələlər də qalmır. Münaqişənin aradan qaldırılması isə təkcə bizə deyil, Ermənistana da lazımdır. Ermənistan olduqca çətin iqtisadi vəziyyətdədir, hərçənd, ona Rusiya, Amerika və başqaları çox kömək edirlər. Bundan əlavə, Ermənistan Cənubi Qafqazda ticarət prosesinə qoşulmaq imkanından məhrumdur. Əgər münaqişə aradan qaldırılarsa və Er-

mənistanla Azərbaycan arasında sülh bərqərar edilərsə, onda, əlbəttə, Cənubi Qafqaz respublikalarının ticarəti xeyli canlana bilər və bu, şübhəsiz, Azərbaycan üçün də, Ermənistan üçün də, Gürcüstan üçün də faydalı olar. Mən Sizə qənaətbəxş cavab verdimmi?

**Qadılbek Şaləhmədov** *(«Mir» DTRŞ)* : Heydər Əliyeviç, mən "Mir" Dövlətlərarası Teleradio Şirkətinin sədriyəm, bildiyiniz kimi, iqamətgahımız Moskvada yerləşir. Moskvalı həmkarlarımız bəlkə də bilirlər ki, Sizin fəal köməyinizlə 1997-ci ildə Bakıda «Mir»in milli müdiriyyəti və filialı açılmışdı.

**Heydər Əliyev:** Yeri gəlmişkən, yaxşı filialdır.

**Qadılbek Şaləhmədov:** Bu gün artıq biz həmin vaxt ərzində görülmüş işi araşdırırıq. Siz onda demişdiniz ki, bu filial, onun binası və peyk antennası Azərbaycan üçün dünyaya informasiya pəncərəsi olmalıdır. Əslində, belə də olur. Azərbaycanda baş verən ən mühüm hadisələr, demək olar, hər gün Rusiya ictimai televiziyasının birinci kanalında görünür, Avropaya gedir, Amerikaya gedib çıxır. Əgər Amerikadan danışsaq, filial Si-En-En üçün xüsusi süjetlər hazırlayır. Yəni bu cür iş gedir.

Doğrudur, biz hesab edirik ki, bu azdır. Biz artıq qüvvə toplamışıq və daha çox işləməyə hazırıq. Biz Rusiya prezidentinin vəzifəsini icra edən Vladimir Putinə məktub hazırlamışıq – düşünürəm ki, onu müvafiq xidmətlərə verəcəyik – və ondan xahiş edirik ki, «Mir»in yayımlanma həcmləri digər MDB ölkələrində genişləndirildiyi kimi, Rusiya telekanallarında da genişləndirilməsinə imkan verilsin. Təbii ki, bizim hamımızı yaxınlaşdıran rus dilində. Zənnimcə, Siz bunu dəstəkləyəcəksiniz.

**Heydər Əliyev:** Bunun üçün Siz Vladimir Vladimiroviç Putinə...

**Qadılbek Şaləhmədov:** Sizin adınızdan məktub göndərmək lazımdır.

**Heydər Əliyev:** Mən ona yazmalıyam?

**Qadılbek Şaləhmədov:** Bəli.

**Heydər Əliyev:** Nə üçün mən yazmalıyam?

**Qadılbek Şaləhmədov:** Bütün prezidentlər «Mir» Teleradio Şirkətinin təsisçiləridir və onlar bir-birlərinə xahişlə müraciət edirlər. Zənnimcə, məktubda hər şey səliqə ilə və dəqiq yazılıbdır.

**Heydər Əliyev:** Yaxşı, mən baxaram.



**Qadılbek Şaləhmədov:** Mən bir məsələ barəsində soruşmaq istərdim. Siz təcrübəli siyasətçisiniz. MDB-nin müqəddəratı, əslində, bütün Birlik ölkələrinin sakinlərini narahat edir. Çünki iqtisadi, siyasi proseslər gah kəskinləşir, gah da zəifləyir. Bilmək istərdim, Siz Rusiyada qarşıdakı seçkilərlə, yaxınlıqda gedən müharibə ilə, İpək Yolu layihəsinə dair meydana çıxan bir çox problemlərlə əlaqədar MDB-nin taleyi barədə nə düşünürsünüz?

**Heydər Əliyev:** Deməliyəm ki, Müstəqil Dövlətlər Birliyi yaradılarkən, bildiyiniz kimi, Azərbaycan oraya daxil olmadı. Burada başqa hakimiyyət vardı, onlar MDB-yə daxil olmaqdan imtina etdilər.

Mən Azərbaycanın rəhbəri olduqda – bundan əvvəl Parlamentin sədri idim və prezident vəzifəsini icra edirdim – Azərbaycanda böyük təbliğat işi nəticəsində Parlament vasitəsilə nail oldum ki, ölkəmiz MDB-nin üzvü olsun. 1993-cü ilin payızında Azərbaycan MDB-nin üzvü oldu. Yəni mən bunu istəyirdim və bundan çox şey gözləyirdim. Lakin deyə bilmərəm ki, MDB-nin fəaliyyətindən çox razıyam. Ona görə yox ki, Azərbaycan MDB-nin üzvü olmuşdur. Mən bu gün də belə bir fikirdəyəm ki, biz düzgün hərəkət etmişdik. Lakin mən MDB-dən narazıyam. Özü də təkcə mən yox, demək olar, hamı narazıdır. Birliyin üzvü olan ölkələrin prezidentləri arasında razı olanları tapmaq çətindir. Bu da əsaslıdır, çünki bütün bu illər ərzində MDB-nin işi heç cür qaydaya düşməmişdir.

Bilirsiniz ki, hamı kimi, biz də MDB-nin işlərində Rusiyaya, daha doğrusu, Rusiya hökumətinə üstünlük vermişik. Deməli, bu öhdəlikləri, məsuliyyəti öz üzərinə götürərək onları lazımi qaydada icra etmək gərəkdir. Amma təəssüflər olsun ki, biz indiyədək bunu görmürük. Ona görə MDB hələ də bizim görmək istədiyimiz orqana çevrilməyibdir. Rusiyada seçkilərin nəticələrini gözləyək.

Hesab edirəm ki, MDB-nin həyatında yeni mərhələ başlanacaqdır. Biz axırıncı dəfə toplaşarkən əslində bütün prezidentlər belə bir nikbin əhval-ruhiyyədə idilər ki, seçkilərdən sonra, yəni Vladimir Vladimiroviç Putin prezident seçildiyi təqdirdə, biz MDB-nin fəaliyyətində yəqin ki, yeni mərhələyə başlaya biləcəyik.

**Yulian Lukasik** *(«Meqapolis-kontinent»)* : Rusiya prezidentinin vəzifəsini icra edən Vladimir Putinlə görüşünüzdən sonra Rusiya-Azərbaycan münasibətlərinin perspektivləri barədə fikrinizi eşitmək istərdim.

**Heydər Əliyev**: Bilirsiniz, Rusiya-Azərbaycan münasibətləri normaldır. Əgər siyasi perspektivlərdən danışsaq, biz MDB-yə daxilik, əlaqələr saxlayırıq.

Başa düşürsünüzmü, MDB-də doğmalar və ögeylər olmamalıdır. Bir halda ki, Rusiya MDB-nin aparıcı ölkəsidir, onda bütün ölkələrə münasibət eyni cür olmalıdır. Əlbəttə ki, bu münasibətlər qarşılıqlı olmalıdır. Lakin bu, həmişə böyükdən çox asılıdır – o mənada böyük ki, biz Rusiya prezidentini artıq neçənci dəfədir Birlik Ölkələri Dövlət Başçıları Şurasının sədri seçirik. Odur ki, MDB-nin bütün orqanları Rusiyanın ixtiyarındadır. Buna görə də bu işdə Rusiyanın siyasəti çox çevik və çox tarazlı olmalıdır. Bu və ya digər ölkəni özündən uzaqlaşdırmaq çətin deyil, amma bu boşluğu doldurmaq daha mürəkkəbdir. Bunu tarixi təcrübə sübut edir.

Azərbaycan həmişə istəmişdir və bu gün də, hər halda, mənim prezidentliyim dövründə istəyir ki, Rusiya ilə ən səmimi münasibətləri – həm siyasi, həm iqtisadi, həm də digər münasibətləri olsun. Çünki biz Rusiya ilə heç də bir il deyil, bir onillik deyil ki, bağlıyıq. Bizi Rusiya ilə iki yüz il bağlayır. XX əsrdə Azərbaycanda mədəniyyətin, elmin, iqtisadiyyatın, bütün həyatın inkişafı 20-ci ildən başlayaraq, Sovet İttifaqının tərkibində birgə olmağımızla bağlıdır. Təbii ki, orada da əsas rol Rusiyaya mənsub idi. Biz bunu heç vaxt unuda və inkar edə bilmərik.

1919-cu ildə Azərbaycanda ilk universitet yaradıldı. O, cəmi 23 ay mövcud olmuş müstəqil hökumətin dövründə yaradılmışdı. O zaman rus alimlərini, professorlarını dəvət etmişdilər, çünki özümüzünkülər yox idi. Doğrudur, deyilənlərə görə, o vaxtlar mübahisələr gedirdi – necə yəni, biz müstəqil dövlət olmuşuq, odur ki, bütün müəllimlər azərbaycanlılar olmalıdır. Lakin baxıb gördülər ki, azərbaycanlı müəllimlər yoxdur, bir neçə adam var, amma universitet təhsilini təmin etmək üçün isə yoxdur. Azərbaycan Universitetinin ilk prezidentini – Razumovskini və bir çox başqalarını bizdə indiyədək xatırlayırlar. Sonralar bu universitetin əsasında bizdə başqa ali məktəblər də meydana gəldi, indi onların sayı çoxdur.

Elmdə də belə olmuşdur. Əlbəttə, Azərbaycan xalqı bəşəriyyət tarixində çox görkəmli elm xadimlərinə malikdir. YUNESKO gələn ili Nəsirəddin Tusi ili elan edir – o, böyük riyaziyyatçı idi, rəsədxanası vardı. Bu rəsədxana indi İran ərazisindədir. O, dünya şöhrətli riyaziyyatçıdır.



Lakin bunlar Şərqdə, o cümlədən Azərbaycanda tək-tək şəxsiyyətlər idi. Bu, orta əsrlər və sonrakı dövrlərdir. Əgər XIX, XX əsrləri götürsək, onda görərik ki, Azərbaycanda mədəniyyət, elm, təhsil Rusiyanın təsiri ilə, Rusiya alimlərinin, mədəniyyət xadimlərinin və başqalarının iştirakı ilə inkişaf etmişdir. Təsəvvür edirsinizmi, Azərbaycanda – İslam dininə etiqad olunan ölkədə 125 il əvvəl dünyəvi teatr yaradılmışdır. Heç bir müsəlman dövlətində belə bir şey yox idi, elə bu gün də yoxdur. O, dünyəvi teatr idi, Avropa və Rusiya yazıçılarının, dramaturqlarının əsərlərini səhnəyə qoyurdu. 1908-ci ildə Azərbaycanda milli opera yaradıldı. Ona görə ki, görkəmli bəstəkarımız Üzeyir Hacıbəyov Sankt-Peterburqda çox yüksək musiqi təhsili almışdı və operalar yazırdı. Sonralar bizim opera sənətimiz inkişaf etdi, simfoniya sənəti də, qalan digər sənətlər də inkişaf tapdı.

Bütün bunlar Azərbaycana Rusiya vasitəsilə gəlmişdir.Başa düşürsünüzmü, buna görə də indi Rusiyadan üz döndərməyimiz, ondan uzaqlaşmağımız heç cür mümkün deyildir, olmaz. Həm də ona görə mümkün deyil ki, bu, insanların qəlbində dərin kök atmışdır. Nəhayət, Azərbaycanda əvvəllər çoxlu rus yaşayırdı, indi bəlkə o qədər deyildir. Bu gün isə rusdilli əhali Azərbaycanda gözəl yaşayır. Heç bir problem yoxdur. Amma başqa respublikalarda problemlər var. Bizdə rus dilində təhsil verən nə qədər orta məktəb vardısa, o qədər də qalmışdır, biz heç nəyi azaltmamışıq. Universitetlərimizdə rus və Azərbaycan sektorları var. Rusiyanın qalan bütün MDB ölkələri ilə müqayisədə, özünə daha yaxın saydığı Ermənistanda orta və ali məktəblərdə rus dilində tədris qadağan edilmişdir. Bax, belə.

Buna görə də bu sahədə siyasətimiz birmənalıdır – biz Rusiya ilə dostluq münasibətləri, mədəniyyət, iqtisadiyyat, incəsənət xətti üzrə geniş əməkdaşlıq, hər cür əlaqələr olmasını istəyirik. Məsələn, apreldə biz «Dədə Qorqud» eposumuzun 1300 illiyini qeyd edəcəyik. Dünən mənə bildirdilər ki, bu yubiley münasibətilə martın 15-də İttifaqlar Evinin sütunlu salonunda yubiley şənlikləri keçirmək nəzərdə tutulmuşdur. Məgər bu, fakt deyilmi? Bu bizim arzumuzdur? Təbii ki, bu, Rusiyanın mədəniyyət, ədəbiyyat xadimlərinin arzusudur.

Hərçənd, deməliyəm ki, son illər Rusiya-Azərbaycan münasibətlərinə çox böyük ziyan vurmuş faktlar olmuşdur. Zənnimcə, siz Şəhidlər Xiyabanında olmusunuz və bir gecədə – 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə həlak olmuş gənclərin, günahsız insanların məzarlarını

görmüsünüz. Bu, vəhşilikdir və onu Azərbaycan xalqına qarşı, öz xalqına qarşı sovet rəhbərliyi törətmişdir. Xalqımız bunu sovet rəhbərliyinə, Qorbaçova bağışlaya bilməz. Mən bağışlaya bilmərəm.

Lakin biz bunu Rusiyanın Azərbaycana münasibəti ilə eyniləşdirmirik. Bizdə bir çox qüvvələr var ki, onlar belə hesab edir və ya sübut etmək istəyirlər ki, Bakıda bir gecədə bu qədər günahsız insanı rus əsgəri, Rusiya, rus ordusu qırmışdır. Bəli, buraya çox böyük qoşun kontingenti yeritdilər və ona müdafiə naziri Yazov, daxili işlər naziri Bakatin, Dövlət Təhlükəsizliyi Komitəsi sədrinin birinci müavini Bobkov və çox böyük sayda generallar başçılıq edirdilər.

Bu mənzərəni xatırladıqda dəhşətə gəlirsən. Doğrudur, o vaxt mən Moskvada idim, orada yaşayırdım, lakin bunu bilirəm və bu mənzərəni təsəvvür edirəm. Bəs burada nə olmuşdu ki, buraya müdafiə nazirinin başçılığı ilə Sovet Ordusunun bu qədər tanklarını, toplarını, silahını, bu qədər silahlı qüvvəsini yeritmək lazım idi? Heç nə olmamışdı. Əlbəttə, bu, vəhşilik idi.

Tarixdən bilirik ki, son dövrdə Sovet hökuməti tərəfindən öz xalqına qarşı heç yerdə belə təcavüz edilməmişdi. 1956-cı ildə Macarıstana qoşun yeridilməsini xatırlayıram, o vaxt çoxlu adam həlak olmuşdu. Lakin orada məsələ başqa cür idi, o zaman Macarıstana sosialist sistemindən ayrılmağa imkan vermək istəmirdilər. Çexoslovakiyaya qoşunların necə yeridildiyini xatırlayıram. Doğrudur, o vaxt daha ağıllı hərəkət etdilər, əslində qan tökülmədi və elə bir qırılan da olmadı, işi daha yaxşı təşkil etmişdilər. Başqa bir şey yadıma gəlmir. Həm də onlar özgələri idi, öz ölkələrimiz deyildi. Burada isə öz ölkəmiz, öz xalqımız idi, amma bir görün, necə bir vəhşilik törədildi.

Əlbəttə, bütün bunlar insanların qəlbində qövr edir. Yeri gəlmişkən, bunda Azərbaycanın o vaxtkı rəhbərləri də təqsirkardır. Mən nəinki keçmiş Sovetlər İttifaqının o vaxtkı rəhbərlərini, həm də Azərbaycanın rəhbərlərini təqsirləndirirəm. Onlar özlərini müdafiə etmək, qoruyub saxlamaq üçün Azərbaycanda vəziyyət barədə məlumat verərək bu məsələni qaldırdılar, ola bilsin, hətta şişirtdilər. Lakin bu hadisə baş verdi.

Mən bunu fürsətdən istifadə edərək sizə deyirəm ki, mənim mövqeyimi biləsiniz. Yəqin ki, hadisələr barədə bilirsiniz. Digər tərəfdən, hətta bu cür faciəli hadisələr də indi Rusiya ilə Azərbaycan arasında dostluq münasibətlərinin inkişafına və möhkəmlənməsinə heç cür manea ola bilməz.



Bu gün söhbətimin əvvəlində dedim ki, kimisə özündən uzaqlaşdırmaq asan, özünə yaxınlaşdırmaq isə çətindir. Təxminən son beş-altı ay ərzində Çeçenistan hadisələri ilə bağlı olaraq qəzetlərdə, radio və televiziya ilə Azərbaycanın Çeçenistanla əlaqələri haqqında tam yalan informasiya verilir. Mən Kiyevdə, sonra da Moskvada Vladimir Vladimiroviç Putinlə görüşdüm, ona dedim: hanı faktlar? Bunları haradan götürmüsünüz? Bütün bunlar nəyə gərəkdir? Özünüz deyin, gah bir, gah da digər qəzetin guya Azərbaycanın antirusiya siyasəti apardığı, bununla da terrorçulara, digərlərinə və ya üçüncülərə kömək etdiyi barədə yazması ilə vəziyyət daha yaxşı olacaq? Əksinə, bu yazılarla siz buna müəyyən əks-təsir əhval-ruhiyyəsi yaradırsınız. Bu əks-təsir isə mənfi münasibətdə öz ifadəsini tapır. Bu nəyə gərəkdir? Əvvəla, bu, gerçəkliyə uyğun deyildir. İkincisi, hətta nəsə varsa, məgər onu şişirtmək lazımdırmı?

Yeri gəlmişkən, əvvəlki müharibə dövründə də belə olmuşdur. Biz onda da etiraz etmişdik. Nə üçün belə olur? Məhz ona görə ki, öz vəzifələrinə görə Çeçenistanda qayda-qanun yaratmalı olanlar bu işin öhdəsindən gəlməmişlər. Bax, buna görə də onlar uydurmuşlar ki, «Pakistandan, İrandan, Türkiyədən, Səudiyyə Ərəbistanından gələn yaraqlılar Azərbaycan vasitəsilə keçirlər». Xatirimdədir, o vaxt mən məsələ qaldırdım və Rusiya Sərhəd Xidmətinin nümayəndə heyətini buraya dəvət edib dedim ki, buyurun, sərhədə gedin və yoxlayın. Əvvəla, Azərbaycanın Çeçenistanla bilavasitə sərhədi yoxdur. Azərbaycanla Çeçenistan arasında Dağıstan yerləşir. Rusiya ilə sərhədimiz Dağıstanla olan sərhəddir. Yeri gəlmişkən, bu sərhəddə çox böyük miqdarda Rusiya sərhədçiləri var. Əgər Azərbaycan sərhədçilərinin təqsiri üzündən kimsə buradan keçirsə, nə üçün Rusiya sərhədçiləri onları buraxırlar? Nə üçün?

Bunlar uydurmadır. Əlbəttə, mən ayrı-ayrı halları istisna etmirəm, buna heç kim təminat verə bilməz. Lakin bunu şişirtmək, belə təsəvvür yaratmaq heç kimin xeyrinə deyildir. Buna görə də, bir halda ki, Siz sual vermisiniz və mən bu suala, gördüyünüz kimi, çox geniş cavab verirəm, istərdim ki, Rusiyada, onun kütləvi informasiya vasitələrində, onun dövlət fəaliyyəti dairələrində MDB ölkələrinə, o cümlədən Azərbaycana həssas münasibət göstərsinlər. Biz isə dostluğu daha da inkişaf etdirmək və möhkəmlətmək mövqeyində möhkəm dayanmışıq.

**N a t a l y a  J e l n o r o v i ç** *(«Arqumentı i faktı»)* : Hörmətli cənab Prezident, Sizin xalqınızda məmurlarla aşağı təbəqələrin həyat səviyyəsi arasında nəzərə çarpan olduqca böyük fərq məni çox təəccübləndirdi. Düşünürəm, Siz çox təcrübəli siyasətçisiniz, siyasi kəhkəşanımızda, siyasi olimpimizdə, əslində, patriarxsınız. Doğrudanmı, Siz bunu ya görmürsünüz, yaxud nədənsə buna yol verirsiniz?

Siz elə ürək ağrısı ilə deyirsiniz ki, qaçqınlar yazıqdır, yoxsullar yazıqdır, iqtisadiyyatı dirçəltmək lazımdır, ilk nəticələr var, Allah eləsin ki, bunlar axırıncı nəticələr olmasın. Əgər Sizdə bu cür təbəqələşmə gedərsə, onda nə edirsinizsə edin, fərqi yoxdur, məmurların acgözlüyü hər şeyi məhv edəcək, nüfuzunuza xələl gətirəcək, bütün bu islahatları puça çıxaracaq, adamlar narazı qalacaqlar, buraya gələnlər bunların hamısını görəcəklər. Sizin təkcə elə bu binanızın özü nəyə desən dəyər, heyrətamiz təsir bağışlayır. Hərçənd bilirəm ki, o, çoxdan tikilmişdir. Digər binalar, məmurlarınızın evləri, çox qəşəng avtomobillər – bax, bütün bunlar, bunların hətta bir qismi heç olmasa indiki dövrdə yoxsullara da nəsə vermək, sonra isə onları işləməyə məcbur etmək üçün tamamilə kifayət edərdi. Elə götürək qaçqınların bu gün gördüyümüz evini. Bir tərəfdən, bəli, dəhşət doğuran vəziyyətdir. Amma digər tərəfdən adi həyat məntiqi deyir: bu yeddi ildə cavanların güclü əlləri, gənc adamlar, gənc qadınlar hətta bu evi normal mənzilə çevirə bilərdilər. Əgər səkkiz ildir bu çadır düşərgələri qalırsa, doğrudanmı insanlar – onlar isə Yer üzündə ən qiymətli varlıqdır – özlərinə heç olmasa ucuz, amma münasib mənzil tikə bilmir? Məsələn, mən bunu başa düşmürəm, ona görə də bunu aydınlaşdırmağınızı xahiş edərdim. Sağ olun.

**H e y d ə r  Ə l i y e v :** Əvvəla, Azərbaycan cəmiyyətində təbəqələşmə istisna hal deyildir.

**N a t a l y a  J e l n o r o v i ç :** Bəli, şübhəsiz ki, belədir. Ancaq axı Siz təcrübəli adamsınız.

**H e y d ə r  Ə l i y e v :** Bəli, mən təcrübəliyəm. Lakin iqtisadiyyatın obyektiv qanunları var.Siz hansısa tikilmiş binalardan danışırsınız. Bəli, keçmiş illərdə, Azərbaycana rəhbərlik etdiyim illərdə biz çox tikmişik – gördüyünüz yaşayış evlərini, ictimai istifadə üçün müxtəlif sarayları, bu binanı. Niyə də tikməyəydik? Niyə? Biz olduqca çox mənzil tikirdik. Siz ətrafda çoxlu evlər, yeni mikrorayonlar görürsünüz – bunları biz tikmişik. Çünki o vaxtlar imkan vardı, pul, vəsait vardı. Yaxşı, o vaxtlar Azərbaycana rəhbərlik edən Əliyev bunları tikdirə bilirdi, indi isə yox? Siz özünüzə belə sual vermirsinizmi? Ona görə yox ki, o istəmir, ona görə yox ki, o görmür, məhz ona görə ki, indi bunun üçün, sadəcə olaraq, şərait yoxdur, imkan yoxdur.



Bəli, cəmiyyətdə təbəqələşmə var. Bu məgər təkcə bizdədirmi? Mənə deyirlər ki, Moskvanın Rublyovsk şosesində necə böyük malikanələr tikdirirlər. Vaxtilə mən Siyasi Büronun üzvü olarkən bağ evinə bu şosse ilə gedib gəlirdim, lakin o vaxtlar orada bir dəfə də olsun belə ev görməmişdim. İndi isə tikdirirlər. Halbuki Moskvada nə qədər yoxsul adam var. Yəni istərdim elə düşünməyəsiniz ki, bu, yalnız Azərbaycanda belədir. Postsovet məkanında, demək olar hər yerdə belədir. Bu onunla bağlıdır ki, biz bazar iqtisadiyyatı yaratmaq istəyirik. Bazar iqtisadiyyatının yaradılması isə bir tərəfdən, mülkiyyətçilər, sahibkarlar təbəqəsinin, digər tərəfdən isə, təbii olaraq, maddi çətinliklər çəkən adamlar kateqoriyasının əmələ gəlməsi ilə şərtlənir.

Ancaq nəzərə alın ki, biz əmək haqqını vaxtında veririk. Son iki ildə mən müəllimlərin, həkimlərin, bütün başqalarının əmək haqqını üç dəfə artırmışam. Biz fevral ayının pensiyasını demək olar ki, ödəmişik. Bir sözlə, biz bunları edirik. Mən artıq sizə boruyaymaq zavodu haqqında dedim. Əvvəllər orada 10 min adam işləyirdi, indi isə orada min nəfər işləyir. Qalanları harada iş tapsın? Axı bu zavodu biz tikmişik, onu biz işlətmişik, biz boru istehsal etmişik. Bizdə çoxlu sayda neft maşınqayırması zavodu var. Biz Sovetlər İttifaqının neft-mədən avadanlığına tələbatının təxminən 70 faizini təmin edir, bu avadanlığı Sovetlər İttifaqının hər tərəfinə göndərirdik. Bu gün isə həmin regionlarda öz istehsalatlarını yaratmışlar, bəziləri konversiya yolu ilə hərbi zavodları neft-mədən avadanlığı istehsal edən zavodlara çeviriblər və indi bizim məhsulları almırlar. Bizdə isə ona o qədər də böyük ehtiyac yoxdur. Zavodlarımız isə çox böyükdür, hərəsində 4-5-6 minə qədər adam işləyirdi. Nə etməli? Bu təbii prosesdir. Əbəs yerə belə hesab edirsiniz ki, biz bunu görmürük.

Qaçqınlara gəldikdə isə, bilirsiniz, biz onların öz doğma yerlərinə qayıtmalarına çalışırıq. Yeri gəlmişkən, onların hər biri ilə söhbət edəndə deyirlər ki, bizə öz doğma torpağımıza qayıtmaq lazımdır, baxmayaraq ki, orada hər şey dağılıb, qarət olunub, evlərimiz yerlə-yeksan edilib, heç nə qalmayıbdır. Hər şeyi yenidən tikmək lazım gələcəkdir.

Lakin bu adamlar dədə-babalarının məzarları olan yerlərə, nəsillikcə yaşadıqları yerlərə qayıtmaq istəyirlər. Bu çadır şəhərciklərində onlar üçün hansısa müvəqqəti mənzillər yaratmağımız nə verər? Bəli, biz dəmir yolu nəqliyyatında istifadə olunan konteynerlər qoya bilmişik, digərləri oraya kiçik evlər gətiriblər. Lakin hamı üçün bunu edə bilməmişik. Odur ki, Sizin narahatçılığınız aydındır. Səbəblərə gəldikdə isə – nə üçün mümkün olmur – bunlar əsassızdır.

İndi isə hazırda gedən tikintilər haqqında. Biz aerovağzal kompleksi tikmişik. Siz onu gördünüz? Yaxşıdır? Lazımlıdır? Biz onu 1981-ci ildə, mən burada işləyəndə tikməyə başlamışdıq. Sonra illər ötdü, onun tikintisini başa çatdırmadılar. İndi Azərbaycan müstəqil dövlətdir. Mən artıq yeddi ildir ki, burada işləyirəm. Gördüm ki, bu kompleksdə iş dayanıb və o dağılır. Nə etməli? Xarici banklara müraciət etdik, 40 milyon dollar məbləğində kredit götürdük və tikdik. Əvvəla, ora yaraşıqlı oldu, ikincisi də şərait yaratdıq. Bizə müxtəlif ölkələrdən çoxlu adam gəlir, biz müstəqil dövlətik. Əgər biz hələlik hər şeylə təmin edə bilmiriksə, heç olmasa, bizi ölkələrlə bağlayan əsas yerləri təmin etməliyik. Bəli, biz onu tikmişik, 40 milyon dollar sərf etmişik və hava limanımızın fəaliyyətindən əldə olunan gəlirlə borcumuzu ödəyəcəyik.

Zənnimcə, bu proseslər obyektiv xarakter daşıyır. Biz Azərbaycanda aztəminatlı adamlara kömək etmək, iş yerləri yaratmaq üçün maksimum çalışırıq. Yeri gəlmişkən, xarici sərmayədarların neft-qaz sənayesinə cəlb edilməsi ilə əlaqədar çoxlu iş yerləri yaradılmışdır. Düşünürəm ki, vaxt gələcək və həyatımızdakı bu ciddi çatışmazlıqlar azalacaqdır.

Kifayətdir?

**N a t a l y a J e l n o r o v i ç :** Siz bizə öz aforizmlər kitabınızı hədiyyə etdiniz. Mən isə Sizə gözəl rəssamımızın kollajlar albomunu hədiyyə etmək istərdim. Onlar həmişə qəzetin birinci səhifəsinə çıxarılır. Xahiş edirəm bu kollajlara baxasınız və Rusiya siyasətçilərinin, Rusiya hökumətinin halından xəbərdar olasınız. Sizə cansağlığı arzulayıram.

**H e y d ə r Ə l i y e v** *(ona hədiyyə edilən «AiF» albomunu nəzərdən keçirərək)*: Bizdə hələ bu dərəcəyə gəlib çatmayıblar, lakin çatırlar. Hər halda, qəzetlərdə Rusiyanı artıq ötüb keçiblər. Yəqin ki, belə şeylər yaratmaq üçün mütəxəssislər çatışmır.



**N a t a l y a J e l n o r o v i ç :** Siz qəzetlərdən inciməyin.

**H e y d ə r Ə l i y e v :** Bilirsiniz, hərdən səhərlər qəzetləri nəzərdən keçirirəm. Bir qəzetdə mənim barəmdə 5-6 mənfi məqalə olur. Ancaq bir qəzetdə, bizdə isə Rusiyada olduğundan daha çox qəzet çap edilir. İndi bizdə qəzet xəstəliyi yayılıbdır. Kimin pulu var, qəzet yaradır, bir qrup jurnalisti toplayır, pul verir və onlar yazırlar. Lakin həmişə elə yazırlar ki, özlərinin dediyi kimi, onları oxusunlar. Oxunaqlı olmaq üçün də mütləq rəhbərliyi tənqid etmək lazımdır. Tənqid etmək ifadəsi hələ yumşaq səslənir. Müxtəlif uydurmalar, yalan informasiya, əfsanələr və sair yazırlar.

Görürəm ki, albom yaxşı hazırlanıbdır. Məgər pisdir? Baxın. Məsələn, Çernomırdin çox gözəl görünür. Burada heç bir pis şey yoxdur. Bunu Sizin qəzet buraxır?

**N a t a l y a J e l n o r o v i ç :** Bizdə birinci səhifədə həmişə belə kollaj çıxır.

**H e y d ə r Ə l i y e v :** Buyurun, burada Klinton da olduğu kimidir.

Yaxşı. Sağ olun. Xudahafiz.

## BİRGƏ MƏTBUAT KONFRANSI

**Azərbaycan Prezidenti Heydər Əliyev və Ukrayna Prezidenti Leonid Kuçma sənədlərin imzalanmasından sonra birgə mətbuat konfransı keçirdilər. İki dövlətin başçıları jurnalistlərin suallarına cavab verməzdən əvvəl bəyanatla çıxış etdilər.**

### AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEVİN BƏYANATI

– Hörmətli Leonid Daniloviç Kuçma! Hörmətli qonaqlar, xanımlar və cənablar!

Bu gün Azərbaycanda əlamətdar gündür – Ukrayna prezidenti Leonid Daniloviç Kuçmanın Azərbaycana rəsmi səfəri başlanmışdır.

Xalqlarımız dövlət müstəqilliyi əldə etdikdən sonra Ukrayna ilə Azərbaycan arasındakı münasibətlər sıx dostluq, əməkdaşlıq, qarşılıqlı anlaşma və ən xoş münasibətlərlə səciyyələnir.

Son illər biz münasibətlərimizin inkişafında böyük yol keçmişik. Prezidentlərin, müxtəlif səviyyəli nümayəndə heyətlərinin çoxlu görüşləri olmuş, bu görüşlər zamanı bir sıra məsələlər müzakirə edilmiş, 60-dək dövlətlərarası, hökumətlərarası sənəd imzalanmışdır. Bu, ölkələrimiz arasında, dövlətlərimiz arasında daha uğurlu əməkdaşlığın təmin edilməsi üçün yaxşı normativ-hüquqi bazadır.

Ukrayna prezidenti çox hörmətli Leonid Daniloviçin indiki səfəri münasibətlərimizi daha yüksək səviyyəyə qaldırır. Mən onu nəzərdə tuturam ki, biz həm kifayət qədər sanballı inkişaf yolu keçmişik və həm də bu gün mühüm sənədlər, xüsusən dostluq, əməkdaşlıq və tərəfdaşlıq haqqında müqavilə imzaladıq.

Bu müqaviləyə böyük əhəmiyyət verirəm, çünki bu, sadəcə olaraq dostluq, əməkdaşlıq və tərəfdaşlıq haqqında sənəd deyildir, o həm də çox dərin məzmuna malikdir, beynəlxalq həyat, ölkələrimiz arasında münasibətlərin möhkəmləndirilməsi, dövlətlərimizdə müxtəlif islahatlar aparılması məsələlərində müstəqil Ukraynanın və müstəqil Azərbaycanın prinsipial xəttini bir daha və yenidən təsdiqləyir.

Mən şadam ki, Leonid Daniloviç dəvətimi qəbul etmiş və Azərbaycana səfərə gəlmişdir. Bu gün biz təkbətək kifayət qədər səmərəli söhbət etdik, bir çox məsələlər barəsində fikir mübadiləsi apardıq.



Deyə bilərəm ki, müzakirə etdiyimiz bütün məsələlərdə biz baxışlarımızın uyğun gəldiyini gördük. Bu, şəxsən məni çox sevindirir, çünki biz Ukraynaya elə bir ölkə kimi baxırıq ki, onunla strateji xarakterli uzunmüddətli, uzunsürən və daimi əməkdaşlıq edəcəyik və etməliyik.

Bu gün nümayəndə heyətləri vasitəsilə apardığımız danışıqlar da, imzaladığımız sənədlər də indiyədək etdiyimiz əməkdaşlığın nəticəsidir. Demək istəyirəm ki, bizim müvafiq nazirliklər və baş idarələr, Azərbaycanın və Ukraynanın xarici işlər nazirlikləri, nazirlər kabinetləri bu görüşümüzün və imzaladığımız sənədlərin hazırlanması üçün böyük, səmərəli iş görmüşlər.

Mən söhbətlərdən də, fikir mübadiləsindən də, bu gün mühüm sənədlər imzalamağımızdan da çox məmnunam.

Leonid Daniloviç, Sizi bir daha salamlayır və sözü Sizə verirəm.

### UKRAYNA PREZİDENTİ LEONİD KUÇMANIN BƏYANATI

– Çox hörmətli Heydər Əliyeviç!

Hörmətli xanımlar və cənablar, jurnalist korpusunun hörmətli nümayəndələri!

İlk öncə, qonaq kimi, Ukrayna nümayəndə heyətini mehribanlıqla və qonaqpərvərliklə qarşıladığına görə Azərbaycan tərəfinə ürəkdən və səmimiyyətlə təşəkkür etmək istəyirəm. Azərbaycan üçün belə böyük bayram günündə Sizi əlavə zəhmətə saldığımıza görə bu gün müəyyən dərəcədə üzrxahlıq etdim. Lakin Heydər Əliyeviç əmin etdi ki, biz bu bayramı birlikdə qeyd edəcəyik.

**H e y d ə r  Ə l i y e v :** Bax, bayram elə budur.

**L e o n i d  K u ç m a :** Şadam ki, bu gün Heydər Əliyeviçlə – təkcə Ukraynada deyil, təkcə MDB-də deyil, həm də bütün dünyada məşhur olan dövlət xadimi və siyasi xadimlə uzunsürən dialoq aparmaq imkanım oldu. Artıq neçə illərdir ki, biz məhrəmanə münasibətlər saxlayırıq, aramızda həmişə konstruktiv dialoq olur.

Razılaşmaq istəyirəm ki, iki əsas sənədin – dostluq, əməkdaşlıq və tərəfdaşlıq haqqında müqavilənin, iqtisadi müqavilənin imzalanması bugünkü görüşümüzün, sözsüz, başlıca yekunu olmuşdur. Bu sənədlər bizə haqqında həmişə danışdığımız strateji tərəfdaşlığa həqiqətən nail olmaq üçün imkan verir. Bu ən əvvəl Ukrayna tərəfinin, zənnimcə,

həm də Azərbaycan tərəfinin xeyrinədir, eyni zamanda ümumi gələcəyimizə nikbinliklə baxmağımıza imkan yaradır.

Problemlərin siyasi bloku, həmişəki kimi, yenə də çox zəngin olmuşdur – bunlar Qafqazda sabitlik problemidir, Dağlıq Qarabağ, işğal edilmiş ərazi problemləridir, habelə qaçqınlar problemidir. Bu nəinki iqtisadi, həm də ciddi siyasi problemdir. Mən Heydər Əliyeviçi əmin etdim ki, biz Azərbaycanın mövqeyinə tamamilə şərikik və bu problemlərin həllində hər hansı şəkildə çox yaxından iştirak etməyə hazırıq. Çünki həmin problemlər həll edilməsə, bu regionda heç vaxt sülh olmayacaqdır. Bu heç də təkcə Azərbaycanın və Ermənistanın deyil, heç də təkcə qonşuların problemi deyildir. Düşünürəm ki, bu, qlobal problemdir və Birləşmiş Millətlər Təşkilatından, Təhlükəsizlik Şurasından tutmuş bütün beynəlxalq təşkilatlar onun həllinə qoşulmalıdırlar. Hesab edirəm ki, indi Ukraynanın Təhlükəsizlik Şurasının üzvü olmasını nəzərə alaraq, Ukrayna orada da öz sözünü deyəcəkdir.

Əlbəttə, biz ölkələrimizin MDB-də rolu və yerləri ilə, nəqliyyat dəhlizləri, ən əvvəl Xəzər dənizi regionundan neft və qaz göndərilməsi ilə bağlı problemlərdən də yan keçmədik. Çoxdan planlaşdırılmış səfərimin Ukrayna üçün belə həyati əhəmiyyətli problem olan neft məhsulları göndərilməsi məsələsinin həllinin zəruriliyi ilə bir vaxtda düşməsinə görə müəyyən dərəcədə şad olduğumu söyləsəm, gərək ki, sirr açmış olmaram.

Mən Gürcüstanda dedim, işə bax ki, Ukraynanın həyatı üçün məsul anlarda – keçən il məhsul yığımı zamanı, bu il əkin kampaniyası zamanı – ona neft məhsullarının göndərilməsini dayandırmağı sanki kimsə qabaqcadan planlaşdırır. Buna görə də Heydər Əliyeviçə səmimi təşəkkürümü bildirmək istəyirəm ki, o, ötən il də, bu gün də Ukraynaya kömək etmiş və neft məhsullarının ilk hissəsi artıq göndərilmişdir.

Odur ki, biz sabahkı günə nikbinliklə baxırıq, hərçənd Ukraynada da, Azərbaycanda da problemlər çoxdur. Lakin əgər biz qarşılıqlı surətdə məqbul, faydalı qərarları birlikdə axtarmağa çalışsaq, əlbəttə, bu problemlər təklikdə olduğundan daha asan həll ediləcəkdir.

Bir sözlə, Heydər Əliyeviç, bir daha ürəkdən sağ olun deyirəm ki, strateji tərəfdaşımız – Azərbaycan ölkəsi var, böyük dostum – Prezident Heydər Əliyeviç var, mən onunla gecə də, gündüz də ünsiyyətdə ola bilərəm və o, Ukrayna üçün ağır anlarda onun köməyinə gəlməkdən heç vaxt imtina etməyəcəkdir. Sağ olun.

* * *



Sonra Azərbaycan prezidenti Heydər Əliyev və Ukrayna prezidenti Leonid Kuçma jurnalistlərin suallarına cavab verdilər.

**S u a l** *(«Azadlıq» radiosu, «Obşaya qazeta»)* : Sualım hər iki prezidentədir. Siz Şimali Qafqazdakı vəziyyəti müzakirə etdinizmi və əgər müzakirə etdinizsə, hazırda Çeçenistanda baş verən hadisələr barəsində prinsipial mövqeyiniz necədir? Siz Çeçenistan probleminin güc metodları əsasında həlli ilə razısınızmı? Siz Rusiyada Azərbaycanı və bəzən hətta Ukraynanı çeçen separatçılarını dəstəkləməkdə və onlara kömək etməkdə təqsirləndirilməsinə necə baxırsınız?

**H e y d ə r  Ə l i y e v :** Bayaq dediyim kimi, biz müasir beynəlxalq həyatın, demək olar, bütün məsələlərini müzakirə etdik. Şübhəsiz ki, biz Şimali Qafqazda, ümumən Qafqazda, o cümlədən Çeçenistanda vəziyyət barəsində də fikir mübadiləsi apardıq.

Əlbəttə, mən və Leonid Daniloviç böyük təəssüflə dedik ki, Çeçenistanda artıq neçə aydır müharibə gedir, özü də bu, hərbi əməliyyatların, necə deyərlər, ikinci dövrəsidir. Şübhəsiz ki, günahsız insanların həlak olması bizi narahat edir. Bununla yanaşı, biz terrorizm, separatizm və ekstremizmlə barışa bilmərik.

O ki qaldı Azərbaycanın mövqeyinə, ölkəmiz artıq 12 ildir, bəlkə bundan da çoxdur ki, separatizmdən əziyyət çəkir. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi keçmiş Sovet İttifaqının ərazisindəki bütün münaqişələrdən əvvəl, Dağlıq Qarabağdakı və Ermənistandakı bir qrup adamın məhz separatçı hərəkətləri nəticəsində yaranmışdır. Bu separatizm Ermənistanla Azərbaycan arasında müharibəyə gətirib çıxarmışdır. Ona görə də biz separatizmi dəstəkləyə bilmərik.

Biz hər hansı ölkənin ərazi bütövlüyünün pozulmasının əleyhinəyik. Hər hansı ölkənin ərazi bütövlüyünün pozulmazlığı haqqında beynəlxalq hüquqi prinsip, təbii ki, hamıya aiddir. Amma nədənsə belə hesab etmişlər ki, bu, Azərbaycan barəsində mümkündür. Azərbaycanın ərazi bütövlüyü artıq çoxdan, səkkiz ildən də əvvəl pozulmuşdur. Azərbaycan ərazisinin 20 faizi Ermənistan silahlı qüvvələrinin işğalı altındadır.

Lakin bu gün ürək ağrısı ilə deyirəm ki, MDB-yə daxil olan ölkələr, elə Rusiyanın özü də və ya başqa Avropa ölkələri erməni separatizmini, Azərbaycanın ərazi bütövlüyünün pozulmasını nədənsə pisləmir, onlara qarşı sanksiyalar tətbiq etmirlər. Əksinə, bir sıra hallarda biz beynəlxalq sənədləri imzaladıqda və Ermənistan tərəfi bu və ya digər

ölkənin ərazi bütövlüyü haqqında tezislə razılaşmadıqda, onlar konsensusdan istifadə edərək buna nail olurlar.

Buna görə də, təəssüf ki, dünyada, o cümlədən keçmiş Sovetlər İttifaqı məkanında mövcud olan ikili standart hamı üçün böyük faciədir. Lakin bu faciəyə bəziləri bir qədər əvvəl, digərləri bir qədər sonra məruz qalırlar. Əgər erməni separatçıları Dağlıq Qarabağın Azərbaycandan qoparılmasına çalışanda Sovet İttifaqı tərəfindən, sonra isə Rusiya, digər MDB ölkələri tərəfindən təsirli tədbirlər görülsəydi, onda sonralar Çeçenistanda, Abxaziyada, Dnestryanı bölgədə, keçmiş Sovetlər İttifaqının başqa regionlarında meydana gəlmiş münaqişələr bəlkə də olmazdı.

Bir halda separatizm bağışlanır, ölkənin ərazi bütövlüyünün pozulması görməməzliyə vurulur, digər halda isə separatizmə qarşı müharibə aparılır və o, ölkənin ərazi bütövlüyü uğrunda aparılır. Bununla mən əsla ölkənin ərazi bütövlüyünün qorunmasına qarşı, separatizm əleyhinə mübarizə aparılmasına qarşı çıxış etmək istəmirəm. Biz separatizmin əleyhinəyik, hər hansı ölkənin ərazi bütövlüyünün pozulmasının əleyhinəyik, beynəlxalq hüququn prinsiplərinə əməl olunmasına tərəfdarıq. Bu hər bir dövlətin sərhədlərinin toxunulmazlığı, onun ərazisinin bütövlüyü deməkdir.

Görürsünüzmü, bu baxımdan bizdə necə də təzadlı hisslər var. Mən bu baxışları və bu əhval-ruhiyyəni əvvəllər də bildirmişdim, bu gün Leonid Daniloviç Kuçmaya da bildirdim.

**L e o n i d  K u ç m a :** Bu problemin Heydər Əliyeviçin şərhində qoyuluşu ilə razılaşmaya bilmərəm. Həqiqətən bu gün dünyada ikili standartlar siyasəti mövcuddur. Əlbəttə, bu, Heydər Əliyeviçin dediyi separatizmi heç vaxt dayandırmayacaqdır və onda bu, əsrin ən başlıca xəstəliyinə çevriləcəkdir. Bu isə indi dünyada hamının pislədiyi terrorizmin törətdiyi xəstəlikdir, lakin biz ona qarşı konkret ciddi tədbirlər görülməsinin şahidi deyilik.

Əlbəttə, bu gün hamı və həmişə ərazi bütövlüyü prinsipini əsas tutmalıdır, xüsusən də ona görə ki, Birləşmiş Millətlər Təşkilatı kimi beynəlxalq təsisatlar var. Düşünürəm ki, bu, pozulmaz qayda olmalıdır. Əgər belə olmasa, onda biz bir-birimizə suallar verəcək, bir-birimizi qınayacaq və bu vəziyyətdən çıxış yolunu heç zaman tapmayacağıq.

Ona görə də biz Çeçenistan problemini ancaq Rusiya Federasiyasının ərazi bütövlüyü kontekstində nəzərdən keçirə bilərik. Çünki bu məsələdə zəncirvari reaksiyanın nə demək olduğunu, o cümlədən də Rusiya üçün nə demək olduğunu gözəl başa düşürük.



Məgər Moskva hadisələri, digər hadisələr Dağıstandan – Rusiya ərazisindən başlanmışdır? Hansı normal adam bununla razılaşa bilər və ya bunu qəbul edə bilər? Bu bütün dünyada çox sürətlə yayılan xəstəlikdir.

Lakin bu zaman dinc əhalinin, əsasən qocaların, uşaqların əzab-əziyyət çəkməsinə də, əlbəttə, heç kim haqq qazandıra bilməz. Buna görə də biz ən əvvəl istəyirik ki, Çeçenistan problemi mümkün qədər tezliklə həll edilsin, Çeçenistanda çoxdan gözlənilən sülh, nəhayət, bərqərar olsun.

**S u a l** *(Azərbaycan Dövlət Televiziyası)*: Mənim sualım hörmətli Leonid Daniloviçədir. Səkkiz milyonluq Azərbaycan xalqı Sizi Heydər Əliyeviçin səmimi dostu kimi tanıyır. Bilmək istərdik, Sizi hansı səciyyəvi cəhətlər və xüsusiyyətlər yaxınlaşdırır?

**L e o n i d  K u ç m a :** Bizim aramızda bir-birimizə son dərəcə böyük etimad var. Heydər Əliyeviç, bağışlayın, mən öz fikrimi deyirəm.

**H e y d ə r  Ə l i y e v :** Doğrudur.

**L e o n i d  K u ç m a :** Siyasətdə qarşılıqlı etimad isə çox böyük şeydir. Hesab edirəm ki, ölkələr və xalqlar arasında münasibətlər bu ölkələrin liderlərinin bir-birini nə dərəcədə başa düşməsindən çox asılıdır. Buna bir çox misallar, hətta müharibədən sonrakı tarixdən misallar gətirmək olar ki, gərgin dövlətlərarası münasibətlər sonralar dostluq, qarşılıqlı yardım və tərəfdaşlıq haqqında müqavilələrə çevrilmişdir. Helmut Kolun vaxtilə mənə çəkdiyi bir misalı deməyə bilmərəm. O demişdi ki, İkinci Dünya müharibəsindən sonra Almaniya ilə Fransa arasında münasibətlər çox gərgin idi. Helmut Kolun söylədiyinə görə, Almaniya kansleri seçildikdən sonra o və Fransa prezidenti Fransua Mitteran hər ay Fransa və ya Almaniyada, yaxud da üçüncü ölkənin ərazisində görüşmək barədə razılığa gəlmişdilər. Hətta lüzum olmadıqda da bu görüşləri keçirirdilər və bunun sayəsində də Almaniyanın və Fransanın yüksək siyasi dairələri, bu ölkələrin sakinləri öz dövlətlərinin gələcəyinə tamam başqa cür baxmağa başlamışdılar.

Burada da belədir. Əlbəttə, mən Heydər Əliyeviçin Ukrayna barəsində gördüyü işləri nəzərdə tuturam. Onu həmişə öz sözünün üstündə duran adam kimi, Ukraynada yaxşı tanıyırlar. Bu isə mənə də inam ve-

rir ki, münasibətlərimiz üzərində səma həmişə açıq olacaqdır. Son dərəcə böyük təcrübəsi olan Heydər Əliyeviçin Azərbaycanın tarixinin ən ağır dövründə respublikaya başçılıq etməsini, bütün hadisələrin dinc məcrada inkişafına imkan verməsini Ukraynada biz, bir prezident kimi, mən də görməyə bilməzdik. Buna görə də şadam ki, Heydər Əliyeviç mənim mehriban dostumdur və mən bu dostluğu həmişə əziz tutacağam.

**Heydər Əliyev:** Sağ olun. Belə başa düşdüm ki, bu sual mənə verilməmişdi, buna baxmayaraq öz fikrimi söyləməyə bilmərəm.

Əvvəla, Leonid Daniloviç, şübhə etməyin ki, dediklərinizin hamısı tamamilə mənim fikirlərimdir və mən dostluğumuzun, münasibətlərimizin xarakteri baxımından onları təsdiqləyirəm.

Öz tərəfimdən deyə bilərəm ki, axı dostluq ikitərəfli prosesdir. Burada həlledici amillər olduqca çoxdur. Ölkələrin liderləri üçün, siyasi xadimləri üçün ən başlıcası onların siyasi baxışlarıdır, siyasətidir. Müasir mərhələdə prezidentlər Kuçmanın və Əliyevin siyasi baxışlarının üst-üstə düşməsi bu illər ərzində aramızda yaranmış dostluğun və əməkdaşlığın məhz əsasını təşkil edir.

Leonid Daniloviçin Ukraynada apardığı daxili və xarici siyasət bizim həyata keçirdiyimiz siyasətə tam uyğundur. Yəni biz bir çox məsələlərdə eyni mövqelərdə dururuq.

Bundan əlavə, şəxsi münasibətlərin də əhəmiyyəti var. Mən Leonid Daniloviçi çoxdan tanıyıram. O, Ukrayna prezidenti seçildiyi vaxtdan bəri isə aramızda əlaqələr güclənmiş, biz bir-birimizi daha yaxşı tanımışıq.

Mənə elə gəlir ki, bizim şəxsi xarakterlərimizdə oxşarlıq çoxdur. Leonid Kuçma doğru deyir ki, ölkə liderləri arasında sağlam əsasa malik səmimi dostluq xalqlar və ölkələr arasında münasibətlərin inkişafı üçün çox böyük əhəmiyyət kəsb edir.

Mən şadam ki, mənimlə Leonid Daniloviç Kuçma arasında çox sağlam, yaxşı, insani dostluq yaranmışdır. Bu dostluq mənə, o cümlədən bir çox məsələlərin həllində ümumi işimizə kömək edir. Əgər bu dostluq olmasaydı, tez-tez ünsiyyətlərimiz də olmazdı. Yadımdadır, mən Leonid Daniloviçin 60 illiyini onunla birlikdə qeyd etmək üçün xüsusi olaraq Yaltaya getmişdim. Mən də, o da çox şad olduq.

Yaxud da, məsələn, Ukraynada prezident seçkilərini biz Azərbaycanda böyük diqqətlə izləyirdik və Leonid Daniloviçin seçilməsini istəyirdik. Mən Kiyevə getməyə hazırlaşırdım, lakin mümkün olmadı. Əvəzində mən Ukrayna televiziyasına çox geniş müsahibə verdim və Ukraynanın lideri kimi, Ukraynanın qarşısında duran çətin və mürəkkəb məsələləri bu gün, bu mürəkkəb şəraitdə həll etməyə qadir olan adam kimi Leonid Kuçmaya Azərbaycan xalqının münasibətini və öz münasibətimi Ukrayna ictimaiyyətinin nəzərinə çatdırdım. Bizim ümidimiz doğru çıxdı. Leonid Kuçma inamlı qələbə qazandı və təbii, mən elə şad idim ki, Leonid Kuçmanın andiçmə mərasimində iştirak etmək üçün Kiyevə getdim. Yeri gəlmişkən, mərasim çox gözəl şəraitdə keçdi.



Bizim şəxsi münasibətlərimizlə bağlı bir çox başqa faktları da göstərmək olar. Hesab edirəm ki, bu şəxsi münasibətlər, bizim şəxsi dostluğumuz, Ukrayna ilə Azərbaycan arasında dostluq və əməkdaşlığın gələcək inkişafının əsasıdır.

**Leonid Kuçma:** Onda gərək mən izahat verim. Mən sizin seçkilərdən əvvəl Bakıya gəlməmişdim, çünki sizin alternativinizin olmayacağına şübhə etmirdim.

**Heydər Əliyev:** Siz borclu qalırsınız. 2003-cü ildə seçkilər keçiriləcək...

**Leonid Kuçma:** Yaxşı, gələrəm.

**Heydər Əliyev:** Əgər ehtiyac olsa.

**Sual** (*«İnterfaks», Ukrayna*): Heydər Əliyeviç, Gürcüstan prezidenti Eduard Şevardnadze dünən Tbilisidə keçirilən mətbuat konfransında bildirmişdir ki, Gürcüstan 2005-ci ildə NATO-nun qapısını döyməK niyyətindədir. Deyin, Azərbaycan NATO-nun qapısını döymək niyyətindədirmi? Belədirsə, onda nə vaxt?

İkinci sual Leonid Daniloviçədir. Leonid Daniloviç, Ukrayna öz borclarının restrukturizasiyasına və BVF tərəfindən geniş maliyyələşdirilməyə nail ola biləcəkmi?

**Leonid Kuçma:** Dünən çox yaxşı informasiya dərc edilmişdir ki, kreditorların 89' faizi Ukrayna tərəfinin təklif etdiyi şərtlərlə borcların restrukturizasiyasına razıdır. Odur ki, bu gün biz nikbin əhval-ruhiyyədəyik və demək olar, şübhə etmirik ki, Ukraynanın borcları hökmən restrukturizasiya ediləcəkdir.

Geniş maliyyələşdirilmə proqramına gəldikdə isə, yaxşı başa düşürsünüz ki, hazırda Beynəlxalq Valyuta Fondu üçün öncül məsələ kadr məsələsidir. Bu məsələ nə vaxt həll olunsa – bu istiqamətdə bir

neçə addım atılmışdır, belə ki, Avropa Birliyi və Amerika Birləşmiş Ştatları Avropa Yenidənqurma və İnkişaf Bankı prezidentinin namizədliyini dəstəkləmişlər, Yaponiya öz namizədini geri götürmüşdür – yəqin yaxın vaxtlarda BVF-nin sədri seçiləcəkdir və onda Ukraynanın geniş maliyyələşdirilməsi proqramı üzrə dialoqu bərpa etmək mümkün olacaqdır.

**Heydər Əliyev:** Məndən NATO haqqında soruşurdunuz. Belə dəqiq proqnoz verdiyinə görə dostum, Gürcüstan prezidenti Eduard Şevardnadzenin bəyanatını məmnunluqla qəbul edirəm. Görünür, bunun üçün onun əsası var.

**Leonid Kuçma:** Həmin vaxtadək onun prezidentliyinin ikinci müddəti qurtarır.

**Heydər Əliyev:** Ancaq görünür, onun mülahizələri, hansısa proqramları var. Çünki NATO-ya daxil olmaq birtərəfli proses deyildir. NATO-ya daxil olmaq üçün gərək NATO da bu və ya digər ölkəni qəbul etmək istəsin. Buna belə sadə və bəsit şəkildə yanaşmaq olmaz. Mən Azərbaycanı nəzərdə tuturam.

Əlbəttə, biz «Sülh naminə tərəfdaşlıq» proqramı çərçivəsində əməkdaşlığımızı çox yüksək qiymətləndiririk və bu baxımdan Şimali Atlantika İttifaqında, NATO-nun həyata keçirdiyi bir çox digər tədbirlərdə çoxlu konkret addımlar atmışıq. Yeri gəlmişkən, bu gün danışıqlarımız zamanı Ukraynanın müdafiə naziri Ukrayna ilə NATO-nun bəzi birgə tədbirlər planlarından söhbət açdı və Azərbaycanı da bunlarda iştirak etməyə dəvət etdi. Hesab edirəm ki, biz bunu hökmən edəcəyik.

Yəni Azərbaycan ilə NATO arasında münasibətlərin inkişaf etməsi prosesi gedir. Hesab edirəm ki, bu proses normal gedir və bu düzgündür. Biz bu yolla gedəcəyik. Əgər bu kiminsə xoşuna gəlmirsə, onun öz işidir. Lakin bundan guya xoşu gəlməyən adamların özləri deyirlər ki, NATO-ya daxil olmaq istəyirlər. Belə çıxır ki, hamı NATO-ya daxil olmaq istəyir. Bununla yanaşı, kimsə NATO-ya daxil olmaq istədiyini bəyan etdikdə, dərhal deyirlər ki, o nə üçün bunu bəyan edir? Belə bir vəziyyətdə biz başqalarından geri qala bilmərik. Bax, belə.

**Leonid Kuçma:** Çox aydındır.

**Sual** *(«Nezavisimaya qazeta»)* : Leonid Daniloviç, neft sahəsində əməkdaşlıqda nə kimi irəliləyiş var?

**Leonid Kuçma:** Bu qəzet kimdən müstəqildir? Kimin qəzetidir? Hə, bu, «Nezavisimaya qazeta»dır. O, bütün MDB liderlərinin «sevimli» qəzetidir. Biz tez-tez oradan elə «komplimentlər» alırıq ki, düşünürsən, o, həqiqətənmi müstəqildir?



**Müxbir:** Qəzet o dərəcədə müstəqildir ki, artıq indi ondan heç nə asılı deyildir.

**Leonid Kuçma:** Mən Tbilisidə dedim və bu gün də təkrar etmək istəyirəm ki, biz yalnız bir ölkəyə, Rusiyaya ümid ola bilmərik, biz Ukraynaya enerji daşıyıcıları göndərilməsinin alternativ mənbələrini axtarırıq və axtaracağıq. Onlardan biri də Xəzər dənizi regionudur, Azərbaycandır. Odur ki, biz həmişə görüşəndə, şübhəsiz, bu mövzuda danışıqlar aparırıq. Planlarımıza – onlar artıq təkcə Ukraynanın planları deyil, bizi başqa ölkələr də dəstəkləyir – terminal tikintisi və Odessa-Brodı neft kəməri çəkilməsi daxildir. Biz bu kəmərin təxminən 700 kilometrindən 500 kilometrini çəkmişik. Gələn il boru kəmərini də, terminalı da istifadəyə verəcəyimizə Ukraynada şübhə edən yoxdur. Düşünürəm ki, bu cür imkan yarandıqdan sonra beynəlxalq şirkətlər də, neft çıxaran ölkələr də Ukraynanın təklifinə tamamilə və ya bir qədər başqa cür baxacaqlar.

Dekabr ayından Rusiyadan bir barrel belə neftin gəlmədiyi də «Nezavisimaya qazeta» üçün sirr deyildir. Həm də, ən təəccüblüsü odur ki, Ukrayna üçün yox, Rusiya üçün. Çünki Odessa neft emalı zavodu «LUKoyl»un mülkiyyətidir. Özəlləşdirmə zamanı «LUKoyl» bu zavoda müəyyən miqdarda neft göndərmək barədə öz üzərinə öhdəlik götürmüşdür, belə ki, biz istehsalın dayanması və adamların qovulması ilə nəticələnəcək özəlləşdirmə ilə razı deyilik. Lakin «LUKoyl» dekabr ayından bəri bir barrel də olsun neft göndərə bilmir, çünki ona imkan vermirlər.

Kremençuk neft emalı zavodu Tatarıstanla birgə müəssisədir. Tatarıstan neftinin tərkibində çoxlu miqdarda kükürd var və Kremençuk zavodu məxsusən Tatarıstan nefti üçün tikilmişdir. Bu nefti bilərəkdən Ukraynaya, Tatarıstan-Ukrayna zavoduna buraxmırlar. Onda deyin, Rusiya öz hərəkətləri ilə bizi alternativ mənbələr axtarmağa vadar etməyəcəkmi? Nəinki edəcək, o bunu uğurla edir.

Odur ki, bu gün mən Heydər Əliyeviçə təşəkkürümü bildirdim ki, Azərbaycan çətin məqamda Ukraynaya kömək əlini uzadır. Rusiya isə sanki heç görmür. Özü də, gömrük haqqı yalnız Ukrayna üçün 20 dollaradək artırılmışdır. Baxmayaraq ki, bu gün neftin qiyməti 2,5 dəfə artmışdır.

Ona görə də mən bu yaxınlarda bəyan etmişəm və bu gün də təkrar edə bilərəm ki, Rusiya Ukraynaya nə qədər çox təzyiq göstərsə, biz ondan bir o qədər uzaqlaşacağıq. Əgər bu, Rusiyanın maraqlarına uyğundursa, qoy olsun. Lakin mən hesab edirəm ki, yox, bu nə Ukraynanın, nə də Rusiyanın maraqlarına uyğun deyildir. Çünki Ukrayna Rusiya ilə strateji tərəfdaşlığa həvəs göstərir. Strateji tərəfdaşlıq isə bərabər hüquqlu, qarşılıqlı surətdə faydalı, xalqların maraqlarına cavab verən tərəfdaşlıq deməkdir.

Biz tez-tez qardaşıq və sairə kimi gəlişigözəl sözlər deməyi xoşlayırıq. Lakin hansısa problemlərin, ilk növbədə iqtisadi problemlərin həllinə gələndə isə, yalnız bir tərəfin maraqları nəzərə alınır. Bu tərəfdaşlıqdırmı? Yox.

Yaxud, 1994-cü ildə biz azad ticarət haqqında müqavilə imzaladıq. Biz onu dərhal Parlamentdə ratifikasiya etdik, Rusiya isə indiyə qədər onu öz Parlamentinə verməyibdir. Orada 63 məhsulun adının çıxarıldığı göstərilir və bu gün o, əlavə olaraq nəzərdən keçirilərkən Rusiya bizə daha 300-ə qədərini çıxarmağı təklif edir. Özü də orada Ukraynadan Rusiyaya göndərilən bir sıra strateji mallara qadağa var. Bunun arxasında kim dayanır? Qoy sizin müstəqil qəzetiniz desin.

**S u a l** *(«Kommersant» qəzeti)*: Leonid Daniloviç, Siz Ukrayna ilə Rusiya arasında qarşılıqlı münasibətlərin, o cümlədən ticarət sahəsində münasibətlərin bugünkü vəziyyətindən danışdınız. Siz Moskvanın bu cür mövqeyini nə ilə izah edərdiniz? Sizin fikrinizcə, Ukrayna-Rusiya münasibətlərinin, o cümlədən enerji ehtiyatları göndərilməsi məsələsində, inkişaf perspektivləri necədir?

**L e o n i d K u ç m a :** Belə bir atalar sözü var – «Üyüdülüb un olar». Ona görə də hesab edirəm ki, bunlar müvəqqəti, konyuktur çətinliklərdir. Onlar mütləq aradan qaldırılacaqdır. Axı tale belə gətirib ki, biz qonşuyuq. Qonşular isə həmişə sülh və dostluq şəraitində yaşamalı, bir-birini başa düşməli, bir-birinə hörmət və kömək etməlidirlər. Tarix göstərir ki, təzyiq siyasəti yaxşı nəticə vermir. Odur ki, iqtisadi müharibələr həmişə sülhlə bitir. Biz buna ümid edirik.



## AZƏRBAYCAN VƏ GÜRCÜSTAN PREZİDENTLƏRİNİN BİRGƏ MƏTBUAT KONFRANSI

*Tbilisi, Krsanisi iqamətgahı*
*22 mart 2000-ci il*

**İkitərəfli sənədlərin imzalanma mərasimi başa çatdıqdan sonra Azərbaycan Prezidenti Heydər Əliyev və Gürcüstan Prezidenti Eduard Şevardnadze birgə mətbuat konfransı keçirdilər.**

**S u a l** *(Gürcüstan televiziyasının I kanalı)* : Sual hər iki prezidentədir. Tariflər üzrə razılaşma əldə olunduğu barədə sizin bəyanatlarınızla əlaqədar xahiş edirəm dəqiqləşdirəsiniz – konkret olaraq hansı tarif barədə qərar qəbul edilmişdir?

**E d u a r d Ş e v a r d n a d z e :** Tariflər elə tariflərdir. Bakı-Tbilisi-Ceyhan neft kəməri çəkilir və tariflərin səviyyəsi də, təbii olaraq, bu kəmərin gücü, buraxılış qabiliyyəti nəzərə alınaraq müəyyən ediləcəkdir. Biz normalar barəsində razılığa gəldik.

O ki qaldı daha konkret rəqəmlərə və konkret faktlara, biz Heydər Əliyeviçlə sabah, yaxud birisi gün xüsusi mətbuat konfransı keçirmək barədə razılığa gəlmişik. Məsələlərin bütün təfərrüatı, bütün kompleksi bu mətbuat konfransında ictimaiyyətin nəzərinə çatdırılacaqdır.

**H e y d ə r Ə l i y e v :** Tarifin nə demək olduğu aydındır və yəqin ki, onu izah etməyə ehtiyac yoxdur. Söhbət neft kəməri çəkilən ölkənin ərazisi ilə neft göndərilməsinə görə tranzit xidmətlərindən gedir. Bu neft kəməri çox uzundur, təxminən 1800 kilometrdir, Bakıdan başlayıb Tbilisidən keçərək Türkiyənin Ceyhan limanınadək gedəcəkdir. Eduard Amvrosiyeviçin dediyi kimi, tariflərin dəyəri də hər ölkənin ərazisində neft kəmərinin uzunluğundan asılı olaraq müəyyən edilir. Buna görə də nəqlə görə tarifləri, yəni onların ərazilərindən çəkilmiş boru ilə neftin keçməsinə görə gəliri həm Azərbaycan, həm Gürcüstan, həm də Türkiyə öz ərazilərindəki boruların gücünə və uzunluğuna uyğun olaraq almalıdırlar.

İstanbulda əsas saziş imzalandıqdan sonra çoxsaylı danışıqlar aparıldı. Bəzi əməli məsələləri həll etmək üçün Türkiyədə, Azərbaycanda,

Tbilisidə danışıqlar keçirildi. Məsələlər həqiqətən mürəkkəb idi. Lakin Azərbaycan, Gürcüstan və Türkiyə ekspertləri onları işləyib hazırladılar. Gürcüstan üçün tariflər məsələsi həll edilməmiş qalırdı. Burada açıq demək lazımdır ki, Gürcüstan daha böyük tariflər iddiasında idi. Amma bütün boru kəməri üzrə tariflərin ümumi dəyəri dəyişdirilə bilməz.

Biz çox müzakirə etdik və gizlətmirəm, buraya gəlməzdən əvvəl, mən ekspertlərimizi yanıma çağırıb onlara məsələnin həlli yolunu tapmağı tapşırdım, çünki biz buna görə layihənin həyata keçirilməsini ləngidə bilmərik. Bundan əlavə, bu məsələ ətrafında xoşagəlməz çox söhbətlər gedirdi.

Ekspertlərimiz gəlib mənə dedilər ki, məsələnin həllini tapmaq mümkündür. Necə? Deyirlər ki, biz Azərbaycan üçün tranzit tariflərindən Gürcüstanın xeyrinə imtina etməliyik. Mən qərar qəbul etməli idim və qəbul etdim. Bununla da hər şey qurtardı. Beləliklə, bunun ümumi işimiz olduğunu, neft kəmərinin inşasına tezliklə başlamalı oluğumuzu nəzərə alaraq Azərbaycan öz ərazisi ilə tranzit üçün ona düşən tarifləri Gürcüstana güzəştə getdi.

**E d u a r d Ş e v a r d n a d z e :** Mətbuat konfransında adətən əl çalmırlar, lakin gəlin bu ənənəni pozaq.

**S u a l** *(«Yeni Azərbaycan» qəzeti)* **:** Sual cənab Şevardnadzeyədir. Sizin özünüzün dəfələrlə nəzərə çarpdırdığınız kimi və ən yeni tarixin sübut etdiyi kimi, Gürcüstanda yaşayan azərbaycanlılar Sizin ən sadiq elektoratınızdır. Dünən Siz Marneuli rayonunda olmusunuz. Cənab Şevardnadzenin indiki platforması Gürcüstanda əsrlərdən bəri yaşayan azərbaycanlıların vəziyyətinin daha da yaxşılaşması üçün nə vəd edir?

**E d u a r d Ş e v a r d n a d z e :** Gürcüstanda yaşayan bütün vətəndaşların tam hüquq bərabərliyini Konstitusiya təmin edir. Biz Konstitusiyamızın hər bir bəndinə, hər bir ifadəsinə, hər bir sözünə əməl olunmasına ciddi göz qoyuruq.

O ki qaldı azərbaycanlıları narahat edən bəzi problemlərə, bu problemlər gürcüləri də, ermənileri də, yunanları da, kürdləri də, ərazimizdə yaşayan bütün başqalarını da narahat edir. Bunlar başlıca olaraq sosial problemlərdir – pensiyaların ödənilməsi problemləridir. Təəssüf ki, biz pensiyaları çox gec ödəyirik. Əmək haqqının, xüsusən müəllimlərin əmək haqqının ödənilməsi ilə bağlı problemlər, bəzi digər problemlər də var.



Bununla yanaşı, biz gücümüz çatan problemləri həll etmişik, özü də pis həll etməmişik. Kənddə, hətta şəhərdə yaşayan hər bir vətəndaş torpaq sahibi olmuşdur. Torpaq sahibi olmaq hüququ haqqında şəhadətnamələri mən özüm təqdim etmişəm. Marneuli rayonunun və digər rayonların bütün sakinləri – azərbaycanlılar da, ermənilər də, gürcülər də bu hüquqa malikdirlər.

Məşğulluq sahəsində müəyyən işlər görülmüşdür. İndi vəziyyət ümumən yaxşılaşır. Hərçənd Marneuli rayonunda bəzi problemlər var. Dünən mən fəallar qarşısında çıxış etdim və belə bir fikir söylədim ki, biz Marneuli rayonunun sosial-iqtisadi vəziyyətinin yaxşılaşdırılması sahəsində bir neçə il üçün tədbirlər işləyib hazırlamalıyıq. Rayon çox böyükdür, əhalisi çoxdur, məşğulluq problemi var və biz onu həll edəcəyik.

Azərbaycan məktəbləri fasiləsiz fəaliyyət göstərir. Uşaqların Azərbaycan dilində təhsil aldığı 187 məktəbimiz var. Bu məktəblərin hamısı kadrlarla təmin edilmişdir, ali məktəblərimizdə kadrlar hazırlayan fakültələr fəaliyyət göstərir, lakin gənclərin müəyyən qismi Bakıda və Azərbaycanın digər şəhərlərində hazırlıq keçirlər.

Daha bir məsələ barəsində. Milliyyətcə azərbaycanlı vətəndaşların özlərinin təşəbbüsü ilə biz tədris proqramına xüsusi fənn – dövlət dilinin öyrədilməsi fənni daxil etmişik. Dövlət dilini bilməyən adamlara dövlətin, elmin və başqa sahələrin idarə olunmasında iştirak etmək təbii ki çətindir. Buna görə də deməliyəm ki, öz uşaqlarını doğma Azərbaycan dilində oxutmaq hüququna malik olan və bu imkanla real surətdə təmin edilmiş azərbaycanlı əhali əlavə olaraq, dövlət dilini də öyrənmək öhdəliyi götürmüşdür. Biz onlara bu işdə də kömək edirik.

Parlamentimizin deputatı seçilmiş azərbaycanlılar qanunvericilik hakimiyyətinin işində fəal iştirak edirlər, bəziləri bir sıra nazirliklərdə və baş idarələrdə vəzifələrə irəli çəkilmişlər, tədricən irəli çəkiləcək perspektivli adamların kifayət qədər uzun bir siyahısı var. Vəziyyət bax, belədir.

**S u a l**:*(Gürcüstan)* Sual cənab Əliyevədir. Cənab Prezident, Siz Dağlıq Qarabağda Qukasyana qarşı edilmiş terroru necə qiymətləndirirsiniz? Bu, radikal qüvvələrin hakimiyyəti ələ keçirmək cəhdidir, yoxsa əksinə? Yoxsa bu, siyasətlə, hakimiyyətlə bağlı deyildir? Bu, Dağlıq Qarabağda münaqişənin nizama salınmasına, bütövlükdə Cənubi Qafqazın təhlükəsizliyinə necə təsir göstərə bilər? Sağ olun.

**H e y d ə r Ə l i y e v :** Bilirsiniz, Dağlıq Qarabağda Qukasyana qar-

şı həyata keçirilmiş terror aktı barədə mən yalnız bu gün səhər xəbər tutdum. Onun təfərrüatı mənə məlum deyildir. Buna baxmayaraq, terror terrordur və ona hər hansı izahat verməyə lüzum yoxdur.

Bunun Ermənistan-Azərbaycan münaqişəsi, Dağlıq Qarabağ münaqişəsi probleminin həlli üçün nə kimi əhəmiyyəti olacağına gəldikdə, bunları deyə bilərəm: Azərbaycanda biz Ermənistan-Azərbaycan münaqişəsinin dincliklə nizama salınmasının təmin edilməsi barədə qəti mövqe tutmuşuq. Bu nə deməkdir? Bu o deməkdir ki, Ermənistan silahlı qüvvələri Azərbaycanın işğal olunmuş və ancaq azərbaycanlılar yaşamış rayonlarından çıxmalıdırlar, Azərbaycanın ərazi bütövlüyü təmin edilməlidir və Dağlıq Qarabağa Azərbaycan Respublikasının tərkibində ən yüksək özünüidarə statusu verilə bilər. Bu məsələnin dincliklə həllinin forumu belədir. Bununla əlaqədar biz artıq neçə illərdir danışıqlar aparırıq. Son vaxtlar bilavasitə Ermənistan prezidenti Robert Koçaryanla mənim bir neçə görüşüm və danışıqlarım olmuşdur.

Bilirsiniz ki, oktyabrın 27-də Yerevanda daha ağır terror aktı törədilmişdir. Onda olduğu kimi, indi də Azərbaycan bütün bu işlərə qarışmamaq mövqeyi tutur.

Deməliyəm ki, 1991-1993-cü illərdə Azərbaycanda daxili siyasi vəziyyətin qeyri-sabit olduğu, müxtəlif qanunsuz silahlı dəstələrin hakimiyyət uğrunda mübarizə apardığı dövrdə və 1993-cü ilin əvvəllərində ölkəmizdə, əslində, vətəndaş müharibəsinin başlandığı vaxtda Ermənistan silahlı qüvvələri bu vəziyyətdən, yəni Azərbaycandakı qeyri-sabitlikdən istifadə edərək Azərbaycanın bəzi rayonlarını işğal edə bildilər. Yeri gəlmişkən, onların özləri də həmin dövrdə bu vəziyyətdən istifadə etdiklərini danmırlar.

Biz heç vaxt belə mövqe tutmamışıq və tutmayacağıq. Biz atəşkəs haqqında 1994-cü il tarixli sazişimizə sadiqliyi saxlayırıq və atəşkəs rejiminin pozulmasına yönəldilmiş hər hansı hərəkətə öz tərəfimizdən yol verməyəcəyik, xüsusən də Ermənistan üçün bu mürəkkəb dövrdə.

Biz başa düşürük ki, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həlli Ermənistanda da, Azərbaycanda da tam sabitlik şəraitində mümkün ola bilər. İndi Azərbaycanda bu sabitlik tamamilə təmin edilmişdir. Ermənistanda isə, bildiyiniz kimi, oktyabr terror aktından sonra müəyyən dəyişikliklər baş vermişdir. Təbii ki, Dağlıq Qarabağda Qukasyana qarşı terror aktının da öz mənfi nəticələri ola bilər, lakin arzu edirik ki, bu mənfi nəticələr mümkün qədər tez aradan qaldırılsın, münaqişənin dincliklə nizama salınmasına dair danışıqları davam etdirə bilməyimiz üçün Ermənistanda, Dağlıq Qarabağda sabitlik bərqərar olsun.



**S u a l** *(«Azadlıq» radiosunun rus xidməti)* : Sual cənab Şevardnadzeyədir. Eduard Amvrosiyeviç, Rusiya Federasiyası prezidentinin seçkilərində Vladimir Putin qalib gələrsə, Rusiyanın və Cənubi Qafqaz ölkələrinin qarşılıqlı münasibətlərinin perspektivləri, Sizcə necə olacaqdır? Siz Rusiya dövlətinin yeni başçısından konkret olaraq nə gözləyirsiniz?

Şəxsən Siz Gürcüstanda qarşıdakı prezident seçkilərində müvəffəqiyyət qazanmaq imkanlarınızı necə qiymətləndirirsiniz? Siz birinci dövrəsində qalib gəlmək niyyətindəsinizmi, yoxsa fikrinizcə, ikinci dövrə labüddür? Sağ olun.

**E d u a r d Ş e v a r d n a d z e :** MDB ölkələrinin bütün prezidentləri Moskvada Zirvə görüşündə olarkən Vladimir Putinlə görüşdülər. Kollektiv görüşlərdən sonra fərdi görüşlər, söhbətlər oldu. Mənim də belə söhbətim oldu. Təsadüfi deyil ki, sonra, demək olar, bütün prezidentlər mətbuat konfransında çıxış edərək öz münasibətini, öz mövqeyini açıqladılar. Biz hamımız – digər müstəqil dövlətlərin nümayəndələri Rusiyanın siyasətində daha böyük realizm olacağına ümid bəsləyərək və inanaraq Vladimir Vladimiroviç Putini bacardığımız qədər dəstəklədik.

O ki qaldı bizim Cənubi Qafqaz ölkələrinə, xüsusən Azərbaycana və Gürcüstana, biz daha çox qarşılıqlı anlaşmaya, dövlətlərimizin suverenliyinə, müstəqilliyinə hörmət ediləcəyinə ümid bəsləyirik. Burada problemlər var. Məsələn, hələ 1994-cü ildə imzalanmış böyük müqavilə Rusiyada indiyədək ratifikasiya edilməmişdir. Başqa problemlər də var. Əlbəttə, indi bunların hamısını konkretləşdirməyə vaxt yoxdur.

Mən cənab Putinlə söhbət etdim və məndə elə təsəvvür yarandı ki, o, Cənubi Qafqaz ölkələri ilə, o cümlədən Gürcüstanla və yəqin Azərbaycanla da münasibətlərin yaxşılaşmasına, tamamilə sağlamlaşmasına nail olmağı ürəkdən istəyir. Heydər Əliyeviç onunla söhbət etmişdir.

Zənnimcə, cənab Putin prezident seçiləcəkdir. Mən münasibətlərimizdə müsbət dəyişikliklər yaranacağına çox ümid bəsləyirəm. Biz Rusiya ilə əməkdaşlığı – iqtisadiyyatda da, siyasətdə də, beynəlxalq təşkilatlarda da, hər cəhətdən əməkdaşlığa həvəs göstəririk. Amma tam hüquq bərabərliyi və ölkələrimizin müstəqilliyinə hörmət edilməsi şərti ilə.

O ki qaldı mənim Gürcüstan prezidenti seçilməyimin perspektivlərinə, bu perspektivlər var. Mən bu barədə dəfələrlə demişəm, hər halda mən əminəm, başqalarını bilmirəm.

Siyasətimizdə hər hansı köklü dəyişikliklər baş verəcəkmi? Xarici siyasətə, ən yaxın qonşularımızla, Rusiya, Qərb ölkələri, Avropa strukturları ilə münasibətlərə gəldikdə, zənnimcə, biz mövqeyimizi, mənafelərimizi, coğrafi-strateji mənafelərimizi kifayət qədər dəqiq ifadə etmişik. Biz yanılmamışıq. Bu siyasət bütün dünyada realist siyasət kimi tanınmışdır və biz müəyyən nüfuza malikik.

O ki qaldı daxili problemlərə, bəli, burada dəyişikliklər – yaxşılığa doğru dəyişikliklər olacaqdır. Biz iqtisadiyyatın inkişafına, sosial sahədə vəziyyətin yaxşılaşmasına daha çox diqqət yetirəcəyik. Mən pensiyaların, əmək haqqının ödənilməsi ilə bağlı problemlərdən və başqa məsələlərdən danışdım. Büdcə ilə bağlı problemlər də var. Bütün bu problemlərin həlli daxili işlərimizdə, daxili siyasətimizdə bizim üçün öncül istiqamət olacaqdır.

Birisigün məni dəstəkləyənlər – vəkillərim və başqaları qarşısında çıxış edəcəyəm. Mən öz proqramımı açıqlamaq fikrindəyəm. Zənnimcə, proqramım diqqətəlayiqdir.



## BİNƏ HAVA LİMANINDA JURNALİSTLƏRİN SUALLARINA CAVAB

*23 mart 2000-ci il*

**S u a l :** Cənab Prezident, Gürcüstana rəsmi səfəriniz başa çatdı. Səfərin nəticələri barədə nə deyə bilərsiniz?

**C a v a b :** Mən belə başa düşdüm ki, səfərin gedişi Azərbaycan televiziyası vasitəsilə canlı yayımlanıbdır. Siz bunların əsas hissəsini görmüsünüz, eşitmisiniz və bu barədə təəssüratlarınız vardır. Mənə gəldikdə isə, hesab edirəm ki, bu çox vacib bir səfər idi.

Gürcüstan ilə Azərbaycan arasında çox sıx dostluq, əməkdaşlıq münasibətləri vardır və bu əlaqələr həmişə inkişaf edibdir. Biz tez-tez görüşürük – mən Gürcüstanda oluram, Gürcüstan prezidenti də Azərbaycana gəlir. Sonra bizim ölkələrin baş nazirləri görüşürlər və qarşılıqlı səfərlər edirlər. Biz beynəlxalq təşkilatların toplantılarında da çoxlu görüşlər keçiririk. Ancaq Azərbaycan Prezidentinin Gürcüstana rəsmi səfəri 1996-cı ilin mart ayında olubdur. Ona görə də indi belə bir rəsmi səfər zəruri idi. Mən dəvət almışdım və ona görə də Gürcüstana getdim.

Hesab edirəm ki, bütün danışıqlarımızın hamısı çox səmərəli oldu. Biz Şevardnadze ilə təkbətək görüş keçirdik, bütün məsələləri müzakirə etdik. Sonra isə nümayəndə heyətlərimizin iştirakı ilə görüş oldu və nəhayət, biz çox mühüm bir bəyanat imzaladıq. Bu bəyanat mətbuatda dərc olunacaqdır, siz onu oxuyacaqsınız. Bizim əməkdaşlığımızın bütün sahələri, yəni indiyədək görülən işlər, əldə olunan nəticələr və ölkələrimizin bundan sonrakı əməkdaşlığının əsas istiqamətləri orada öz əksini tapıbdır. Söhbət ondan gedir ki, biz bütün sahələrdə – siyasi, iqtisadi, elm və mədəniyyət sahələrində əməkdaşlıq edirik. Bizim əməkdaşlığımız strateji tərəfdaşlıq xarakteri daşıyır. Biz bunları əks etdirdik.

Tbilisi Dövlət Akademik Opera və Balet Teatrında Gürcüstan ictimaiyyəti ilə görüşdə prezident Eduard Şevardnadzenin çıxışı və mənim çıxışım, təbii ki, Gürcüstan-Azərbaycan dostluğunun gözəl bir nümunəsinə çevrildi. Siz gördünüz ki, mən «İstiqlal» ordenini ona təqdim etdim.

Bu gün Parlamentdə mənim çıxışım da çox böyük hərarətlə qarşılandı. Onların bildirdiyinə görə hamı – təkcə Şevardnadzenin tərəfdarları yox, bütün müxalifət nümayəndələri də mənim dediyim sözləri alqışlarla qarşılayırdılar. Təkcə orada yox, Dövlət Akademik Opera və Balet Teatrında keçirilən görüşdə də bu ölkənin müxalifət nümayəndələrinin hamısı iştirak edirdi. Onların da hamısı mənim dediyim bütün sözləri dəstəkləyirdilər, alqışlayırdılar, əl çalırdılar. Eduard Şevardnadze, baş nazir, Parlamentin sədri bunu mənə söyləyirdilər. Çünki salondakılardan kimin müxalifət, kimin iqtidar nümayəndəsi olduğunu onlar bilirlər. Mən onları o qədər də seçə bilmirəm və belə məqsəd də daşımıram.

Yəni bunların hamısı, ümumiyyətlə, Gürcüstanın ictimaiyyəti tərəfindən çox müsbət qarşılanıbdır. Təbiidir ki, bu görüşün mənası, bəlkə də əsas mənalarından biri ondan ibarətdir ki, aprelin 9-da Gürcüstanda prezident seçkiləri keçiriləcəkdir. Mənim bu ölkəyə səfərim, Azərbaycanın Gürcüstana münasibəti, Azərbaycan Prezidenti kimi mənim Eduard Şevardnadzeyə şəxsi münasibətim, onun haqqında dediyim sözlər və sair – əlbəttə ki, bunlar hamısı Eduard Şevardnadzenin seçilməsinə bizim tərəfdən göstərilən dəstəkdir. Mən bunu orada açıq demişəm, bildirmişəm.

Hesab edirəm, bu seçkilərdə Şevardnadze seçilməlidir və ümid edirəm ki, seçiləcəkdir. Burada da biz Gürcüstan xalqına və Gürcüstan prezidentinə öz dostluq münasibətimizi göstərdik. Bu qədər. Yenə də sözünüz var?

**S u a l :** Cənab Prezident, Siz Rusiyada seçkiqabağı vəziyyəti necə qiymətləndirirsiniz və bu vəziyyət demokratik normalara, Sizcə, nə dərəcədə uyğundur?

**C a v a b :** Bilirsiniz, təəssüf ki, mən bu barədə çox az informasiyaya malikəm. Gördüyünüz kimi, iki gündür respublikadan ayrılmışam və televiziya ilə heç nə görməmişəm və sair. Bundan əvvəl, hesab edirəm ki, orada hər şey normal gedir. Şübhə etmirəm ki, Vladimir Putin prezident seçiləcəkdir. Ona görə ki, seçkilərə hazırlıq demokratik yolla gedir.

Bəs sizin bu hazırlığın demokratik getmədiyini söyləməyə hər hansı əsasınız varmı? Əgər sizin əsasınız yoxdursa, mənim də əsasım yoxdur.

**S u a l :** Cənab Prezident, Siz tariflər barədə Tbilisidə çox gözlənilməz bir qərar verdiniz. Mümkünsə, bu barədə bir qədər ətraflı söhbət açasınız.



**C a v a b :** Bəli, qərar verdim və məsuliyyəti də öz üzərimə götürdüm.

**S u a l :** Bunun əsas səbəbi nə idi?

**C a v a b :** Əsas səbəbi o idi ki, biz noyabr ayında İstanbulda Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəməri haqqında sazişi imzaladıq. Bunu Türkiyənin, Azərbaycanın, Gürcüstanın, Qazaxıstanın prezidentləri və Amerikanın prezidenti cənab Bill Klinton imzaladılar. Bu sazişin bir sıra kommersiya cəhətləri vardır. Bundan sonra onları həll etmək lazım idi. Onları da bizim nümayəndə heyətləri – Türkiyənin, Gürcüstanın, Azərbaycanın nümayəndə heyətləri həll edirdilər, müzakirə edirdilər. Türkiyədə, Azərbaycanda, Gürcüstanda bir neçə dəfə görüşlər keçirilmişdi. Aparılan bu görüşlər nəticəsində ardıcıl surətdə həmin məsələlər barədə hər bir tərəfdən olan bəzi müəyyən narazılıqların, yaxud təkliflərin hamısı ilə əlaqədar razılıq əldə edilmişdi.

Gürcüstan bir neçə təklif irəli sürmüşdü. Onlar həm ekologiya, həm əsas ixrac boru kəmərinin təhlükəsizliyinin təmin olunması, həm bu kəmərin keçdiyi ərazilərdə yerin alınması, həm də tariflər ilə əlaqədar təkliflər irəli sürmüşdülər. Bu təkliflərə bir neçə dəfə baxılmışdı. Nəhayət, Gürcüstan tərəfi həmin dörd təklifdən üçünü götürmüşdü, yəni Türkiyənin, Azərbaycanın təklifləri ilə razılaşmışdı.

Ancaq onlar tariflər barədə danışıqlar aparır, deyirdilər ki, Gürcüstan tranzit ölkəsidir, iqtisadi cəhətdən onun imkanları azdır. Ona görə də onlar daha yüksək tarif əldə etmək istəyirdilər. Ancaq təbiidir ki, bu tarifin də bir iqtisadi qanunu var. Bu tariflər əsas ixrac boru kəmərinin uzunluğu, yəni nə qədər kilometr olması, onun neft ixracetmə imkanları və başqa parametrlərə görə hesablanır. Türkiyənin tarifləri hesablanmışdı, onlar bunu qəbul etmişdilər. Gürcüstanın və Azərbaycanın da tarifləri hesablanmışdı.

Ancaq Gürcüstan daim bizə müraciət edirdi ki, onların tariflərini qaldıraq. Onların tariflərini artırmaq üçün gərək biz ya Türkiyənin tariflərindən nə isə kəsəydik, ya da Azərbaycanın tarifindən götürəydik.

Biz Türkiyəyə toxunmadıq, öz tariflərimizdən bir hissəsini onlara təklif etdik. Amma bu da onları qane etmədi. Vəziyyət belə idi ki, bundan çıxış yolu tapmaq lazım idi. Çünki bu kommersiya müqavilələri gərək tezliklə imzalansın, aprelin axırına qədər tamam olsun və parlamentlərin ratifikasiyasına verilsin. Ratifikasiya da tez olmalıdır ki, artıq iyun ayının axırında Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinin in-

şasının başlanması üçün investorlar öz işlərini görsünlər və tikinti işləri başlansın. Əgər biz bu sahədə müəyyən qədər geciksək, investorların prinsiplərinə görə onda ola bilər ki, həmin gecikmə bizə daha çox zərər gətirsin, ola bilər, bu işin başlanması hətta bir il təxirə düşsün.

Ona görə də onların dəfələrlə müraciətini və dünən mənə çoxlu xahişlərini nəzərə alaraq ölçdüm-biçdim, fikirləşdim və qərar qəbul etdim ki, Azərbaycan öz tariflərini Gürcüstana verir və beləliklə də Gürcüstana yenidən yardım edir. Mən belə bir qərar qəbul etdim və bununla da məsələ həll olundu.

**S u a l :** Cənab Prezident, Bakı-Ceyhan neft kəməri ilə bağlı problemlər həll edildikdən sonra, ehtimal olunan «İran variantı» gündəlikdən çıxır, yoxsa qalır?

**C a v a b :** Bilirsiniz, gəlin tələsməyək. Biz beş ildir ki, Bakı-Tbilisi-Ceyhan neft kəməri layihəsi üzərində işləyirik. Görürsünüz, biz noyabr ayında sazişi imzalamışıq, indi mart ayı sona çatır, hələ bu işi başa çatdıra bilmirik. Burada bir çox ciddi hərəkətlər etmək, risklərə getmək lazımdır. Mən dünən çox böyük bir riskə getdim və məsuliyyəti də öz üzərimə götürdüm. Bilirsiniz, Azərbaycan 40 il ərzində ona məxsus olan tariflərdən imtina etmədi, onları Gürcüstana bağışladı. Mən bunu etdim ki, məsələ həll olunsun. İndi hələ bu məsələləri həll edirik. Sən İran haqqında niyə narahat olursan? Vaxt gələcək, o suallara da cavab verəcəyik.

**S u a l :** Cənab Prezident, bu, birtərəfli güzəşt idi, yaxud da bunun əvəzində Azərbaycan nə isə alacaq?

**C a v a b :** Güzəşt birtərəflidir. Burada ikitərəfli güzəşt ola bilməz. Onlar bizdən xahiş edirlər, bunun əvəzində onlar bizə nə verə bilərlər? Bir halda ki, onlar xahiş edirlər ki, biz onlara kömək edək, burada ikitərəfli güzəşt ola bilməz.

**S u a l :** Başqa çıxış yolu yox idi? Onların inadkarlığı nə ilə bağlıdır?

**C a v a b :** İstəyirlər özlərinə müəyyən qədər iqtisadi yardım alsınlar. Aydındır.

**S u a l :** Cənab Prezident, bu layihədə Qərb də maraqlıdır. Bəs, Qərb Azərbaycana nə isə vəd edə bilərmi?

**C a v a b :** Ay kişi, nə vəd edəcəkdir? Biz böyük bir layihə həyata keçiririk. Demək olar ki, XX əsrin sonunda, prezident Bill Klintonun İstanbulda dediyi kimi, dünyanın ən böyük layihələrindən birini həyata



keçiririk. Biz durub burada Qərbdən nə gözləyəcəyik? Layihənin öz xüsusiyyətləri vardır. Həmin layihənin həyata keçirilməsi Azərbaycanın gələcəyi üçün böyük faydalar verəcəkdir. İndi burada işə hələ başlamamış deyək ki, biz bunu etdik, Qərb də bizə bir kömək göstərsin – bu, gülünc bir şeydir. Yaxşı olar ki, mənə elə-belə suallar verməyəsiniz.

**S u a l :** Cənab Prezident, Sizin gəlişinizi hamı səbirsizliklə gözləyirdi. Əfv ilə bağlı məlumat yayıldı, ən çox da bəzi ailələr gözləyirlər ki, Siz gələn kimi bu barədə fərman imzalayacaqsınız. Bu məlumat nə dərəcədə düzgündür? Bütün qəzetlər yazır ki, əfv olunanlar arasında İsgəndər Həmidov ilə Ənvər Qafarlı da vardır.

**C a v a b :** Bilirsən, mən neçə dəfə əfv etmişəm, amnistiya haqqında Milli Məclisə neçə dəfə təkliflər vermişəm. Son illərdə 50 mindən artıq insan cəza yerlərindən məhz mənim təşəbbüsümlə qəbul edilən amnistiyalar və əfvlər nəticəsində azad olunubdur. Mən bu siyasətimi ardıcıl surətdə aparıram və aparacağam, bir qrup adamları da əfv edəcəyəm. Amma kimi əfv edəcəyəm – o mənim işimdir. Sağ olun.

# GÜRCÜSTAN MİLLİ TELEVİZİYASINA MÜSAHİBƏ

*Tbilisi*
*23 mart 2000-ci il*

**Gürcüstanda rəsmi səfərdə olan Azərbaycan Prezidenti Heydər Əliyev Gürcüstan Milli Televiziyasının müxbiri Georgi Kalandiyaya müsahibə vermişdir.**

**S u a l :** Heydər Əliyeviç, Siz gürcü və Azərbaycan xalqlarının indiki mərhələdə qarşılıqlı münasibətlərini necə qiymətləndirirsiniz?

**C a v a b :** Mən bu barədə dünən də, bu gün də kifayət qədər danışmışam. Buna baxmayaraq, deyə bilərəm ki, Azərbaycan-Gürcüstan münasibətləri həmişə çox dostcasına, qardaşcasına olmuşdur, bu münasibətlər artıq yüzilliklər ərzində mövcuddur.

Lakin dövlət müstəqilliyi əldə edildikdən sonra bu münasibətlər, təbii olaraq, keyfiyyətcə ayrı xarakter daşımağa başlamışdır. Yeni şəraitdə, müstəqil, suveren dövlətlər olaraq Gürcüstanın da, Azərbaycanın da daxili və xarici xarakterli bir çox mürəkkəb məsələləri həll etdikləri şəraitdə Gürcüstanla Azərbaycan arasında münasibətlər daha yaxın və daha yüksək olmuşdur. Çünki bu münasibətlər artıq nəinki xalqlar arasındadır, həm də dövlətlər, suveren dövlətlər, ölkələr arasındadır. Deməli, burada artıq olduqca çox məsələlər meydana çıxır. Söhbət xalqların dostluğundan getdikdə, bu dostluq qarşılıqlı yardım, mehriban qonşuluqdur, yəni bir adamın başqa birisi üçün nə edə biləcəyi deməkdir. Söhbət dövlətlərarası münasibətlərdən, müstəqil dövlətlər arasındakı münasibətlərdən getdikdə isə, burada qarşıya çox məsələlər çıxır – hər bir ölkənin seçdiyi yol barəsində mövqelər, xarici siyasət sahəsində mövqelər, regionda vəziyyətə, dünyada baş verən proseslərə aid mövqelər bir-birinə nə dərəcə uyğun gəlir. Yəni çox şeylər var.

Əgər bütün bunları cəmləşdirsək, iqtisadi əməkdaşlığın, mədəniyyət, təhsil, elm sahəsində əməkdaşlığın inkişafının yeni təkan aldığını da buraya əlavə etsək, onda, zənnimcə, münasibətlərimiz ən yüksək səviyyədədir.

**S u a l :** Cənab Prezident, Gürcüstanın və Azərbaycanın eyni bir problemi var – onların ərazi bütövlüyü pozulmuşdur. Necə bilirsiniz, bu



problemi ölkələrimiz özləri həll etməyə qadirdirmi, yoxsa Dünya Birliyinin köməyi olmadan mümkün deyildir?

**C a v a b :** Dağlıq Qarabağ üstündə Ermənistanla Azərbaycan arasındakı münaqişəyə, habelə Abxaziyadakı münaqişəyə kənardan müdaxilə olmasaydı, onda, şübhəsiz, müstəqil dövlətlər olan ölkələrimiz onları özləri həll edərdilər.

Dağlıq Qarabağda baş vermiş münaqişəni götürün. Dağlıq Qarabağ əzəli Azərbaycan torpağıdır, orada qədimdən bəri azərbaycanlılar yaşamışlar, sonra oraya ermənilər gəlmişlər. XX əsrin əvvəllərində orada ermənilər az idi. Münaqişə başlayan vaxtadək Dağlıq Qarabağda 170 min adam yaşayırdı, onların 30 faizi azərbaycanlılar, 70 faizi ermənilər idi.

Əgər bu problem dövlətimizin hüdudlarından kənara çıxmasaydı, əgər bu problemin arxasında Ermənistan – o, əslinə baxsan, bu münaqişəyə lap əvvəldən cəlb edilmişdir – durmasaydı, onda, əlbəttə, biz öz erməni vətəndaşlarımızla ümumi dil tapardıq, razılığa gələrdik. Mən demişəm ki, artıq onlar muxtar vilayət statusuna malik idilər, biz onlara ən yüksək özünüidarə statusu veririk, yəni adına görə, o, respublika olacaq, səlahiyyətlərinə görə isə, keçmişdə başa düşdüyümüz adi muxtar respublikaya nisbətən daha böyük muxtariyyət olacaqdır.

Hesab edirəm ki, biz ümumi dil tapardıq və razılığa gələrdik, burada məsələlər olmazdı. Amma Ermənistan müdaxilə etdi, bu hətta müdaxilə də deyildir. Bu, əslində, Ermənistanla Azərbaycan arasında münaqişədir. Buna baxmayaraq, biz – Ermənistan və Azərbaycan bu problemi hər halda daha sadəcə və asan həll edə bilərdik, nəinki hər bir başqa ölkə öz mənafelərini güddüyü bir şəraitdə. Yəni başqa ölkələrin müdaxiləsi var.

Bir tərəfdən, indi biz bəzi ölkələrin – Azərbaycan və Ermənistan üçün bunlar ATƏT-in Minsk qrupudur, indi ona Amerika Birləşmiş Ştatları, Rusiya və Fransa başçılıq edirlər – dəstəyi və ya müdaxiləsi, vasitəçiliyi olmadan keçinə bilmirik. Digər tərəfdən, mən və Ermənistan prezidenti Robert Koçaryan bilavasitə danışıqlar aparmağa başladıqda, biz hiss etdik ki, irəliləyə bilərik.

Mənə elə gəlir ki, bunlar abxaz münaqişəsinə də aiddir. Zənnimcə, müdaxilə olmasaydı, bu münaqişəyə, yəni onun olmasına müxtəlif ölkələr tərəfindən maraq göstərilməsəydi, onda Gürcüstan dövləti abxazlarla razılığa gəlməyə imkan tapardı və razılığa da gələrdi. Bir sözlə, burada başqa ölkələrin müdaxiləsi var və bu, xeyir əvəzinə bəzən ziyan gətirir.

**S u a l :** Bir siyasətçi kimi və bir insan kimi Eduard Şevardnadzeyə Siz xarakteristika verə bilərsinizmi?

**Cavab:** Əlbəttə. Mən bu barədə dünən də, bu gün də danışmışam.

Mən onu 1968-ci ildən, yəni 30 ildən artıqdır tanıyıram. Bu müddət ərzində bizim aramızda şəxsi münasibətlər, yoldaşlıq münasibətləri olmuşdur. Bu mənim hansısa bir dövlət xadimini sadəcə olaraq tanımağıma bənzəmir. Bizim aramızda şəxsi insani münasibətlər yaranmışdı. O, Gürcüstanın daxili işlər naziri idi, mən isə Azərbaycanın dövlət təhlükəsizliyi naziri idim. Təbii ki, biz işlə əlaqədar tanış olmuşduq. Lakin tezliklə aramızda şəxsi insani münasibətlər yaranmışdı.

Sonralar taleyimiz çox oxşar olmuşdur. 1969-cu ildə mən Azərbaycan KP MK-nın birinci katibi seçildim, 1972-ci ildə isə Eduard Şevardnadze Gürcüstan KP MK-nın birinci katibi seçildi. Təbii ki, öz respublikalarımızın başçıları kimi, biz əməkdaşlıq etməyə borclu idik. Amma öz dövlət vəzifələrini yerinə yetirərək əməkdaşlıq etmək bir şeydir, sırf dostluq münasibətlərinə malik olmaq isə başqa şeydir. Ona görə də dostluq münasibətlərimiz, şübhəsiz, çox böyük rol oynamışdır. Yəni Gürcüstanla Azərbaycan arasında münasibətləri inkişaf etdirmək kimi dövlət funksiyalarımızın həyata keçirilməsində insani, ailəvi, dostluq münasibətlərimizin çox böyük rolu vardı.

Sonra tale elə gətirdi ki, hər ikimiz Siyasi Büronun üzvü kimi Moskvada işlədik. Mən əvvəlcə, 1982-ci ildə, Eduard Amvrosiyeviç isə sonra, 1985-ci ildə. Mən həm də Nazirlər Soveti sədrinin birinci müavini idim, o, xarici işlər naziri idi. Biz Siyasi Büronun iclaslarında birlikdə olurduq.

Sonralar talelərimiz bir qədər müxtəlif cür oldu. 1987-ci ildə mən bəzi səbəblərə görə istefaya getdim, Eduard Amvrosiyeviç vəzifəsini davam etdirdi, işlədi. Bildiyiniz kimi, sonra mən Moskvanı tərk etməli oldum. 1990-cı ilin yanvarında Bakıdakı məlum hadisələrdən, Azərbaycan xalqına qarşı hərbi təcavüz edildikdən sonra mən Kommunist Partiyasından çıxdığımı bildirdim və getdim. Amma mən Bakıda yaşaya bilmədim. Öz vətənimə, Naxçıvana getdim, orada yaşadım.

Eduard Amvrosiyeviç Moskvada qalmaqda davam etdi. Lakin Gürcüstanda çox ağır vəziyyət yarandıqda xalq onu tələb etdi və o, respublikaya gəldi, yəni o, Gürcüstana mən Azərbaycan rəhbərliyinə gəldiyimdən əvvəl gəlmişdir. Ancaq burada fərq o qədər də böyük deyil – bir ildən bir qədər artıqdır.

Budur, hər ikimizin taleyi elə gətirdi ki, biz Gürcüstana və Azərbaycana artıq yeni şəraitdə başçılıq etməli olduq. Baxın, necə böyük dövrdür! Bu da mənə onun haqqında çox dəqiq və aydın danışmağa əsas verir – o, son dərəcə gözəl, sadə, qəlbiaçıq, təvazökar, çox



ünsiyyətli insandır, onunla dostluq etmək çox asandır. Bilirəm ki, o, ailəcanlıdır, dostluq etdiyi adamlarla dostluğa çox sadiqdir. Əlbəttə, o, qeyri-adi dövlət xadimi, siyasi xadimdir. Hesab edirəm ki, o, XX əsrdə gürcü xalqının ən görkəmli dövlət, siyasi xadimlərindən biridir.

Zənnimcə, gürcü xalqının çox böyük xoşbəxtliyi ondadır ki, xalq özünə belə bir insan tapmış, onu irəli çəkmişdir. Bu insan, Eduard Amvrosiyeviç Şevardnadze artıq 30 ildən çoxdur ki, adi bir vətəndaş kimi deyil, ölkənin rəhbəri kimi, xalqın taleyi ilə bağlıdır. Buna görə də onu təcrübəli siyasətçi, böyük beynəlxalq nüfuza malik insan hesab edirəm. Gürcüstanda işlədiyi dövrdə də onun nüfuzu var idi. Lakin Eduard Amvrosiyeviç Siyasi Büronun üzvü, xarici işlər naziri kimi Moskvada işləyən dövrdə bu nüfuz daha da artmışdır.

Buna görə də bir daha deyim ki, bu, gürcü xalqı üçün böyük səadətdir. Onu qorumaq lazımdır. O, Gürcüstana da, Qafqaza da, bizim hamımıza da gərəkdir.

**Sual:** Cənab Prezident, axırıncı sualımdır. Siz gürcü xalqına nə arzu edə bilərsiniz?

**Cavab:** Bilirsiniz, indi gürcü xalqı öz tarixinin ağır dövrünü keçirir. Amma biz, yəni Sovetlər İttifaqının süqutundan sonra dövlət müstəqilliyinə qovuşan bütün xalqlar da belə bir dövrü yaşayırıq.

Bu, bəzi ölkələrdə mürəkkəb, digərlərində isə asan keçir. Amma iş elə gətirmişdir ki, Gürcüstanda da, Azərbaycanda da oxşar problemlər, münaqişələr var, bizdə gedən proseslər əslində eyni proseslərdir. Gürcü xalqına arzu edirəm ki, o, bütün çətinliklərə, necə deyərlər, mərdliklə dözsün. Yəni demək istəyirəm ki, mən bu çətinliklərin arxasında, bu mürəkkəb problemlərin arxasında Gürcüstanın gözəl gələcəyini görürəm. Bunun üçün zəmin ölkənin müstəqilliyidir, gürcü xalqının bir çox yüzilliklərdən sonra dövlət müstəqilliyinə qovuşmasıdır. Öz taleyinin, öz ölkəsinin, öz torpağının sahibi olan xalq, öz dövləti, öz dövlətçiliyi olan xalq çox şeyə qadirdir. Gürcü xalqı isə hər cəhətdən çox istedadlıdır. Gürcü xalqının istedadı belə şəraitdə özünü daha çox büruzə verəcək və o, şübhəsiz, gözəl gələcəyə malik olacaqdır.

Arzu edirəm ki, xalq bu gözəl gələcəyə doğru səbirlə, təmkinlə, müdrikliklə, cəsarətlə irəliləsin.

**Müxbir:** Cənab Prezident, çox sağ olun. Sizə ən xoş arzularımızı bildiririk.

**Heydər Əliyev:** Sağ olun.

## AZƏRBAYCANDA MİLLİ MƏTBUATIN YARADILMASININ 125 İLLİYİ HAQQINDA AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycanın ictimai həyatının ən mühüm hadisələrindən biri olan milli mətbuatın formalaşması XIX əsrin ortalarına təsadüf edir. Azərbaycan və eləcə də bütün Şərq aləmi üçün tamamilə yeni siyasi, mədəni və elmi ünsiyyət vasitəsi olan mətbuatın yaranması, əslində, ölkədə gedən mühüm ictimai-siyasi, iqtisadi və mədəni proseslərlə, o cümlədən maarifçilik hərəkatının, dünyəvi teatrın və yeni tipli məktəbin təşəkkül tapması ilə sıx bağlıdır.

1832-ci ildə «Tiflis əxbarı» qəzeti və 1845-ci ildə «Zakavqazski vestnik» qəzetinə «Qafqazın bu tərəfinin xəbəri» adlı azərbaycanca buraxılan əlavə milli mətbuatın yaradılması istiqamətində atılmış ilk addımlar olmuşdur. Rəsmi bülleten xarakteri daşıyan həmin nəşrlər, sözün əsl mənasında, hələ qəzet adlandırıla bilməzdi.

Milli mətbuatımızın bünövrəsi 1875-ci il iyulun 22-də «Əkinçi» qəzetinin ilk nömrəsinin nəşri ilə qoyuldu. Bütün Qafqazda böyük əks-səda doğuran bu qəzetin naşiri də, redaktoru da, korrektoru da Azərbaycan milli maarifçilik hərəkatının banilərindən biri, təbiətşünas alim Həsən bəy Zərdabi idi. Qəzetin ərsəyə gəlməsində Mirzə Fətəli Axundov, Seyid Əzim Şirvani, Nəcəf bəy Vəzirov, Əsgər ağa Gorani və başqa ziyalıların böyük xidmətləri olmuşdur. Dövrünün görkəmli maarifçiləri olan bu şəxsiyyətlər «Əkinçi» qəzeti səhifələrində öz maarifçi və demokratik ideyalarını təbliğ edərək, ictimai, siyasi və bədii fikrin inkişafına böyük təsir göstərmişlər.

Mütərəqqi ideyaların carçısı və tribunası olan «Əkinçi» elm, maarif və mədəniyyətin, ədəbiyyat və incəsənətin inkişafına, yeni tipli məktəblərin yaradılmasının zəruriliyinə aid materiallar dərc edirdi. Qəzetin qazandığı ən böyük uğurlar ilk növbədə onun dilinin xalq dilinə yaxın, sadə və səlis olması idi. Xalqın elmi və mədəni cəhətdən tərəqqi etməsi uğrunda çalışan «Əkinçi» qadın azadlığı və qadın təhsili ideyasını təbliğ edən ilk Azərbaycan qəzeti olmuşdur. O, dini mövhumata, xürafata və cəhalətə qarşı kəskin çıxışlar edirdi. Qəzetdə təbiət elmləri və kənd təsərrüfatının inkişafı ilə bağlı elmi-kütləvi məqalələr verilirdi. «Əkinçi» Azərbaycandan kənarda da – Gürcüstan, Dağıstan, Özbəkistan və başqa yerlərdə yayılırdı.



Milli demokratik mətbuatın «Əkinçi» qəzeti tərəfindən bəyan edilmiş başlıca prinsipləri – maarifləşmə, müasirləşmə, məfkurə saflığı, ümummilli məqsədlərin təbliği, bəşəri dəyərlərin milli ənənələrlə üzvi vəhdəti, ədəbi dilin danışıq dilinə yaxınlaşdırılması, hadisələrin obyektiv işıqlandırılması Azərbaycanda milli demokratik mətbuatın gələcək inkişafı üçün təməl daşları rolunu oynadı.

1877-ci ildə «Əkinçi» qəzeti bağlandıqdan sonra müxtəlif səylər göstərilməsinə baxmayaraq, ölkəmizdə bir müddət azərbaycanca mətbu orqanı çıxmamışdır. Ölkədə cərəyan edən ictimai proseslər və cari məsələlər bir müddət yerli rusdilli mətbuatda öz əksini tapırdı. Bakıda rus dilində çıxan ilk qəzet isə birinci nömrəsi 1871-ci ilin mart ayında işıq üzü görən «Bakinski listok» olmuşdur. 1876-cı ildə ikinci rusdilli qəzet «Bakinskiye izvestiya» nəşrə başlamışdır. Rusdilli qəzetlər içərisində daha uzunömürlü olmuş «Kaspi»nin 1897-ci ildən etibarən naşirliyini Hacı Zeynalabdin Tağıyev öz üzərinə götürmüş və təxminən həmin dövrdən onun redaktoru Əlimərdan bəy Topçubaşov, sonralar isə Əlibəy Hüseynzadə olmuşdur. Rus dilində nəşr edilən qəzetlər Azərbaycan səhifəsi yaratmaq təşəbbüsü göstərsələr də, buna nail ola bilməmişlər.

1879-cu ildə Hacı Səid Əfəndi Ünsizadə Tiflisdə «Ziyayi-Qafqaziyyə» qəzetini çıxarmağa nail olmuşdur. Qəzetin cəmi 104 nömrəsi çıxdıqdan sonra 1880-ci ildə o, çapını dayandırmışdır. 1883-1891-ci illərdə Tiflisdə «Əkinçi» üslubunu davam etdirən «Kəşkül» qəzeti və jurnalı çıxırdı.

XX əsrdə isə Azərbaycan dilində çıxan ilk qəzet Məmmədağa Şahtaxtinskinin 1903-cü ildə Tiflisdə buraxdığı ictimai-siyasi, iqtisadi, elmi, ədəbi «Şərqi-rus» qəzeti olmuşdur. Qəzetin Azərbaycanda ictimai fikir tarixinin inkişafında xüsusi yeri olmuşdur. Qəzetdə dünyəvi elmlər, ana dili, qadın azadlığı ilə bağlı mütərəqqi fikirlər öz əksini tapırdı. «Şərqi-rus» qəzeti Cəlil Məmmədquluzadə, Mirzə Ələkbər Sabir, Abbas Səhhət, Ömər Faiq Nemanzadə, Hüseyn Cavid, Məmməd Səid Ordubadi, Əliqulu Qəmküsar, Əli Nəzmi kimi böyük maarifçiləri öz ətrafında birləşdirə bilmişdi. Qəzetin ən böyük xidmətlərindən biri də Cəlil Məmmədquluzadəni bir jurnalist kimi üzə

çıxarması oldu. O, mətbuatda demokratik cərəyanın bərqərar edilməsində mühüm rol oynayan peşəkar bir redaktor kimi məhz bu qəzetdə yetişmişdir.

Artıq «Şərqi-rus» qəzeti ətrafında formalaşmış yaradıcı heyət Azərbaycanda mətbuatın inkişafının yeni mərhələsinin başlanması üçün zəmin yaratdı. Cəlil Məmmədquluzadənin təşəbbüsü, redaktorluğu və naşirliyi ilə 1906-cı il aprelin 7-də Tiflisdə həftəlik illüstrasiyalı ilk Azərbaycan satirik jurnalı – «Molla Nəsrəddin» işıq üzü gördü. 1918-ci ilədək Tiflisdə nəşr olunan jurnal 1921-ci ildə Təbrizdə, 1921-31-ci illərdə isə Bakıda çap olunmuşdur.

Mütərəqqi ideyaların carçısı olan «Molla Nəsrəddin» jurnalı müstəmləkəçilik siyasətini, geriliyi, mövhumatı amansız satira atəşinə tutur, Azərbaycan dilinin saflığı uğrunda ardıcıl mübarizə aparırdı. Kəskin və cəsarətli tənqidi çıxışlarına, acı həqiqətləri söylədiyinə görə daim hücum və təqiblərə məruz qalan jurnalın nəşri çar senzurası tərəfindən dəfələrlə dayandırılmış, bir sıra nömrələri müsadirə olunmuş, redaktoru bir neçə dəfə məhkəmə məsuliyyətinə cəlb edilmiş, cərimə edilmişdir. Lakin bütün təqib və təzyiqlərə baxmayaraq, «Molla Nəsrəddin»in haqq səsi çox keçmədən Qafqazın hüdudlarını aşıb Rusiyada, türk aləmində, bütün Yaxın və Orta Şərqdə eşidildi. Jurnalın Mərkəzi Asiyada, Krımda, İrəvan, Kazan, Ufa, Həştərxan, Orenburq, Təbriz, Tehran, Ərzurum, İstanbul, Qahirə, Bombey, Kəlkütə və sair şəhərlərdə çoxlu oxucusu var idi.

«Molla Nəsrəddin» dövrünün mühüm siyasi hadisələrinə səs verir, milli oyanış prosesinə xidmət edirdi. Jurnalın mövzu və təsir dairəsi çox geniş idi. «Molla Nəsrəddin» Azərbaycan xalqının mütərəqqi qüvvələrini, demokratik ziyalıları öz ətrafında toplamışdı. Jurnalda Azərbaycanın görkəmli şair, yazıçı və jurnalistləri ilə yanaşı, Oskar Şmerlinq, İosif Rotter, Əzim Əzimzadə kimi rəssamlar da fəaliyyət göstərərək Azərbaycanda yeni rəssamlıq məktəbinin təməlini qoydular. «Molla Nəsrəddin»in müasir ədəbiyyat, maarifləşmə, demokratikləşmə uğrunda mübarizəsi, onun güclü satirası jurnalda əməkdaşlıq edən şair və yazıçıların yaradıcılıq istiqamətini müəyyən etmiş, onların görkəmli sənətkar kimi formalaşmasında həlledici amil olmuş, beləliklə də «mollanəsrəddinçilik» adlı böyük bir ictimai-ədəbi hərəkat yaranmışdı. Mollanəsrəddinçilər klassik Azərbaycan, Şərq, rus və dünya bədii-publisist irsinin ənənələrindən, xalq yumorundan məharətlə bəhrələnərək,



milli mətbuat tarixində satirik jurnalistikanın bünövrəsini qoymuş, Azərbaycan publisistikasını janr və üslub rəngarəngliyi ilə zənginləşdirərək onun inkişafında misilsiz rol oynamışlar.

Bu dövr Azərbaycanda uşaq və valideynlər üçün «Dəbistan», «Rəhbər», «Məktəb» kimi jurnalların buraxılması ilə də əlamətdar idi. Azərbaycan ziyalılarının fəal iştirakı ilə nəşr olunan «Həyat», «Füyuzat», «Təzə həyat», «Şəlalə», «Açıq söz», «Dirilik» kimi qəzet və jurnalların da mətbuatımızın inkişafında böyük rolu olmuşdur.

Əsrin əvvəllərində Azərbaycanda çıxan dövri mətbuat orqanları, sözsüz ki, milli oyanış, milli özünüdərk proseslərinin aparıcı vasitələrindən biri olmuşdur.

Azərbaycanın 1918-ci il mayın 28-də öz müstəqilliyini qazanmasında milli mətbuatın da mühüm rolu olmuşdur. Azərbaycan Xalq Cümhuriyyətinin bütün xadimlərinin həm bir lider kimi formalaşmasında, həm də onların siyasi fəaliyyətinin gerçəkləşdirilməsində mətbuatın misilsiz xidmətləri vardır. Azərbaycan Xalq Cümhuriyyəti dövründə ümummilli platformadan çıxış edən «Azərbaycan» qəzetinin dahi Üzeyir bəy Hacıbəyov tərəfindən nəşr edilməsi ictimai-siyasi proseslərin milli mədəniyyətin inkişafı ilə nə qədər bağlı olduğunun ən bariz nümunəsidir. Əslində, cümhuriyyət dövrü mətbuatının fəaliyyəti Həsən bəy Zərdabi ideyalarının, «Əkinçi» prinsiplərinin həyata keçirilməsinin yeni və çox mühüm mərhələsi idi. Təəssüf ki, bu mərhələnin ömrü az oldu.

XX əsrin 70 ildən artıq dövrü sovet mətbuatının fəaliyyət göstərdiyi illərə təsadüf edir. Bu dövrün də xüsusi yeri vardır. Məhz bu illərdə qəzet və jurnalların şəbəkəsi genişlənmiş, mətbuat kütləvi informasiya vasitələrinin yeni növləri hesabına zənginləşmişdir. Jurnalistikanın çeşidli növləri meydana çıxmışdır. Mətbuat daha çox partiyalı, sinfi olsa da, vətənpərvər jurnalistlərimiz öz qələmlərini daim xalqın xidmətində işlətmiş və bu yolda bəzən təqiblərə də məruz qalmışlar.

Azərbaycanda Sovet hakimiyyəti qurulduqdan sonra mətbuatın inkişafı daha çox partiyalı mövqe ilə bağlı idi. Respublikanın «Kommunist» (ilk nömrəsi 1919-cu ildə çıxmışdır), «Bakinski raboçi» (1906-cı ildən çıxır), «Vışka» (1928-ci ildən çıxır), «Azərbaycan gəncləri», «Molodyoj Azerbaydjana» (ilk nömrələri 1919-cu ildə çıxmışdır), «Bakı», «Baku» (1958-ci ildən çıxır), «Ədəbiyyat və incəsənət» (1934-cü ildən çıxır) və sair tanınmış mətbuat orqanlarında kommunist ideologiyası ilə

bağlı məsələlərlə yanaşı, respublikanın iqtisadi, elmi, mədəni inkişafı ilə əlaqədar problemlər də öz əksini tapırdı. Xalqın həyatının işıqlandırılmasında ideoloji buxovların mövcudluğuna baxmayaraq, öz səhifələrində müxalif fikrə də yer verən, o dövr üçün doğrudan da vətənpərvər ruhlu məqalələr dərc edən mətbuat orqanlarının milli şüurun və özünüdərkin formalaşdırılmasında böyük rolu olmuşdur. Bu qəzetlərin xalqımızın dil, ədəbiyyat və mədəniyyətə həsr etdiyi, azərbaycançılıq ideyasına xidmət edən yazıları bu gün də aktual olaraq qalır və totalitar rejim şəraitində belə, Azərbaycan jurnalistikasının mövqeyini nümayiş etdirir. Sovet hakimiyyəti illərində Azərbaycan mətbuatı kommunist ideologiyasının güclü təsiri altında fəaliyyət göstərsə də, o öz milli varlığını qoruyub saxlaya bilmiş, əldə etdiyi zəngin ənənələri davam etdirərək respublikanın ictimai-siyasi həyatında fəal rol oynamışdır. Məhz bu dövrdə publisistikanın tamamilə yeni bir növü – teleradio jurnalistikası təşəkkül tapdı. Mətbuatımızın coğrafiyası və ifadə vasitələri genişlənərək respublikanın ictimai-siyasi həyatının demək olar ki, bütün sahələrini əhatə etmişdir.

Azərbaycan öz müstəqilliyini bərpa etdikdən sonra həyatın bir çox sahələrində olduğu kimi, mətbuatın inkişafında da dönüş yarandı, siyasi plüralizm və söz azadlığını təmin etmək üçün mühüm işlər həyata keçirildi. Hələ Azərbaycan Xalq Cümhuriyyəti illərindən sonra rüşeym halında inkişafını dayandırmış proseslər yenidən dirçələrək demokratik mətbuatın inkişafına xidmət etdi.

Azərbaycan mətbuatının sürətli inkişafı respublikamızda dünya standartlarına cavab verən müstəqil kütləvi informasiya vasitələrinin yaranmasına gətirib çıxardı. Bu gün hüquqi, demokratik dövlət və vətəndaş cəmiyyəti qurmaq istiqamətində irəliləyən Azərbaycanda 650-dən çox müxtəlif kütləvi informasiya vasitəsi – qəzet, jurnal, informasiya agentliyi və teleradio şirkətləri fəaliyyət göstərir. Bu da ölkəmizin mətbuatının inkişaf yolunda olmasına dəlalət edir.

Milli özünüdərkin bərqərar olmasında, vətənpərvərlik hisslərinin aşılanmasında, milli və ümumbəşəri dəyərlərin təbliğində müstəsna rol oynamış Azərbaycan mətbuatı xalqımızın azadlıq və müstəqillik uğrunda mübarizəsinə öz böyük töhfəsini vermişdir.

Yarandığı 125 il ərzində Azərbaycan milli mətbuatı zəngin və mənalı bir inkişaf yolu keçmişdir. Azərbaycan xalqının qədim ədəbi və mədəni irsə malik olması, Şərq və Qərb sivilizasiyasının qovuşduğu məkanda formalaşmış mədəniyyəti demokratik milli mətbuatın gələcək inkişafı üçün möhkəm zəmin yaratmışdır.



Azərbaycan mətbuatının ictimai-siyasi və mədəni həyatımızın inkişafındakı mühüm rolunu, respublikanın həyatında böyük əhəmiyyətini nəzərə alaraq qərara alıram:

Azərbaycanda demokratik mətbuatın yaradılmasının 125 illiyi təntənəli surətdə qeyd olunsun.

*Heydər ƏLİYEV*
*Azərbaycan Respublikasının Prezidenti*
*Bakı şəhəri, 27 mart 2000-ci il*

# AZƏRBAYCAN VƏ QAZAXISTAN PREZİDENTLƏRİNİN BİRGƏ MƏTBUAT KONFRANSI

*Bakı, Prezident Sarayı*
*7 aprel 2000-ci il*

**İkitərəfli sənədlərin imzalanması mərasimindən dərhal sonra, Azərbaycan Prezidenti Heydər Əliyev və Qazaxıstan Prezidenti Nursultan Nazarbayev birgə mətbuat konfransı keçirmişlər.**

## AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEVİN BƏYANATI

– Zati-aliləri, Qazaxıstan Respublikasının prezidenti hörmətli Nursultan Nazarbayev! Hörmətli qonaqlar, xanımlar və cənablar!

Qazaxıstan prezidentinin Azərbaycana səfəri bizim respublikamızın həyatında, Qazaxıstan-Azərbaycan münasibətlərində mühüm hadisədir.

Biz bu gün bir çox məsələlər barəsində fikir mübadiləsi etmək, danışıqlar aparmaq və mühüm sənədlər imzalamaq imkanı əldə etdik.

Qazaxıstan-Azərbaycan münasibətləri dostluq, qardaşlıq xarakteri daşıyır. Azərbaycan və Qazaxıstan öz dövlət müstəqilliklərini qazandıqdan sonra biz əməkdaşlığımızın inkişafı üçün çox işlər görmüşük. Həm də kifayət qədər yaxşı müqavilə-hüquqi baza yarada bilmişik. İndiyədək bizim dövlətlərimiz, hökumətlərimiz, ayrı-ayrı idarələrimiz arasında 50-dən çox sənəd imzalanmışdır. Bu gün bunlara daha 10 sənəd əlavə olundu. Bu çox yaxşı nəticədir.

Prezident Nazarbayevlə təkbətək görüşümüz zamanı biz dövlətlərarası münasibətlərimizlə bağlı bir çox məsələlər, regionumuzun, MDB-nin problemlərinə, beynəlxalq problemlərə aid məsələlər barəsində fikir mübadiləsi apardıq. Sevindirici haldır ki, biz münasibətlərimizin və baxışlarımızın eyni olduğunu gördük.

Başlıcası odur ki, Qazaxıstan ilə Azərbaycan arasında dostluq və əməkdaşlıq ildən-ilə inkişaf edir və möhkəmlənir. Bu gün biz münasibətlərimizin bundan sonra da inkişafı, onların hərtərəfli dərinləşməsi üçün imkanlar açdıq.



Mənim dəvətimi qəbul edib rəsmi səfərə gəldiyinə görə, bizim artıq çox iş görə bildiyimizə görə prezident Nazarbayevə olduqca minnətdaram. Sabah yenə görüşlər olacaqdır. Hörmətli prezident Nazarbayev o birisi gün də Azərbaycanda olacaq ki, bu da ona bizim həyatımızla yaxından tanış olmaq imkanı verəcəkdir.

* * *

**Azərbaycan Prezidenti Heydər Əliyev və Qazaxıstan Prezidenti Nursultan Nazarbayev jurnalistlərin suallarına cavab verdilər.**

**S u a l** *(Frans-Press agentliyinin Azərbaycandakı müxbiri)* : Cənab Nazarbayev, Siz Qazaxıstan neftinin Bakı-Tbilisi-Ceyhan boru kəməri sistemi ilə ixracının perspektivlərini necə görürsünüz? Siz bu boru kəməri ilə neft vurulmasının həcminə təminat verməyə hazırsınızmı, əgər hazırsınızsa, onda nə vaxt? Sağ olun.

**N u r s u l t a n  N a z a r b a y e v :** Bu məsələnin tarixi hamıya məlumdur. Həmin prosesin digər iştirakçıları kimi, Qazaxıstan da vaxtilə Ankara bəyannaməsini, Amerika Birləşmiş Ştatları prezidentinin iştirakı ilə İstanbul bəyannaməsini imzalamışdır. Qazaxıstan neftin Bakı-Ceyhan marşrutu ilə nəql edilməsini dəstəkləyir.

Biz konkret həcm göstərməmişik, ona görə ki, Sizə məlum olduğu kimi, 2001-ci ildə Şimali Xəzər neft kəməri istifadəyə veriləcəkdir. Burada iştirak payının təxminən 20 faizi Rusiyanın, bir o qədəri də bizimdir, qalan pay xarici şirkətlərə məxsusdur. Biz «Tengiz» yatağından çıxarılan nefti bu boru kəməri ilə nəql edəcəyik.

Lakin biz Xəzər dənizi şelfində qazma işlərinin qurtarmasını gözləyirik. Proqnozlarımıza görə, bunun nəticələri ehtiyatlarımızı dəfələrlə artıracaqdır. Odur ki, bizə neftimizi dünya bazarına nəql etmək üçün yeni marşrutlar lazım olacaqdır. Biz həmin həcmə çatdıqdan sonra, şübhəsiz, hamımız üçün vacib olan bu layihəyə dərhal qoşulacağıq.

**S u a l** *(«Kazaxstanskaya pravda» qəzeti)* : Bu gün biz neftdən danışırıq. Lakin Qazaxıstanın ixracının taxıl kimi, eyni dərəcədə mühüm sahəsi də var. Bilmək istərdim, Azərbaycana taxıl satışı məsələləri müzakirə edildimi? Sağ olun.

**H e y d ə r  Ə l i y e v :** Deyə bilərəm ki, Qazaxıstan çox iri taxıl istehsalçısıdır. Biz isə taxıla olan tələbatımızı hələlik ödəyə bilmirik, həbələ Azərbaycanda onun istehsalı ildən-ilə artır. Buna görə də kəhərçənd, Azərbaycanda onun istehsalı ildən-ilə artır. Buna görə də kənardan taxıl gətiririk, amma bunu daha dövlət xətti ilə etmirik. Artıq

bütün bunlar özəlləşdirilib, özəl şirkətlərin ixtiyarındadır. Onlar nə qədər bacarırlarsa, bir o qədər də taxıl gətirirlər.

Əlbəttə, indi taxıl çoxdur. 1994-cü ildə, bütün bunlar dövlətin ixtiyarında olduğu dövrdə nə kimi çətinliklər çəkdiyimizi xatırlayıram. Daha haralara müraciət etmirdik, nə qədər xərc çəkirdik və necə çətin yaşayırdıq. Yadımdadır, 1995-ci ildə mən Nursultan Abişoviçdən bizə taxıl göndərilməsini xahiş etdim və biz razılığa gəldik. Lakin sonra biz çörəyin və taxılın qiymətlərini sərbəstləşdirdik, bunların hamısını özəl sektora verdik. Biz bununla daha məşğul olmuruq.

Bilirəm ki, Qazaxıstandan bizə taxıl gətirir, burada satırlar. Bununla özəl şirkətlər məşğul olur. Çox istəyirəm ki, Azərbaycanın da, Qazaxıstanın da özəl şirkətləri bu sahədə daha uğurla əməkdaşlıq etsinlər. Çünki Qazaxıstan taxılı çox keyfiyyətlidir. Çörək bişirənlər haradan və hansı taxılı almaq lazım olduğunu bilirlər. Hər halda, Azərbaycan firmalarının Qazaxıstandan satın aldıqları taxılın həcminin artması, təbii olaraq, ölkələrimiz arasında əmtəə dövriyyəsinin də artmasına təsir göstərəcəkdir.

**Nursultan Nazarbayev:** Biz ənənəvi olaraq Azərbaycana ərzaq taxılı göndərirdik. Son qarmaqarışıqlıq illərində bütün bunlar pozuldu, əsasən də ona görə ki, məhsulun Rusiya ərazisi ilə aparılmasına böyük tariflər qoyulmuşdu. Lakin Bakı ilə Aktau limanı arasında yol açıldıqdan sonra gəmilərlə gündə 2 milyon tondan çox məhsul daşımaq imkanı yarandı. Biz yük terminalı tikirik. Mənə elə gəlir ki, bu terminal rəqabət qiyməti üzrə taxıl göndərməyə imkan verəcəkdir.

Mənə deyiblər ki, bu il Sizə Qazaxıstandan 150 min tonadək ərzaq taxılı gətiriləcəkdir.

**Sual** *(«Naş vek» qəzeti, Azərbaycan)* : Sual hər iki prezidentədir. Xəzərin statusunun müəyyən edilməsi məsələsi hansı mərhələdədir? Xəzər dənizinin səthindən birgə istifadə barədə Rusiyanın təklifi necə qiymətləndirilir? Sağ olun.

**Heydər Əliyev:** Bilirsiniz, Xəzərin hüquqi statusu haqqında məsələ gündəlikdə artıq çoxdan durur. Xəzəryanı ölkələrin nümayəndə heyətləri çox görüşlər keçirmiş, müxtəlif variantları müzakirə etmişlər. Ancaq bu görüşlər hələlik bir nəticə verməmişdir.

Siz bilirsiniz ki, Azərbaycan lap əvvəldən Xəzərin həm suyun səthi üzrə, həm də dənizin dibi üzrə sektorlara Xəzəryanı ölkələr arasında bölünməsi mövqeyində durur. Biz 1993-cü ildən başlayaraq bunda israr edirik. Doğrudur, o vaxt biz bu baxımdan tək idik. Sonra proseslər



ona gətirib çıxardı ki, digər ölkələr də dənizin sektorlara bölünməsi mövqeyinə keçməyə başladılar. Məlumdur ki, Qazaxıstan Rusiya ilə orta xətt haqqında saziş imzalamışdır. Düşünürəm ki, Xəzər dənizinin statusunu birdəfəlik müəyyənləşdirmək üçün biz bu danışıqları davam etdirməliyik. Bizim mövqeyimiz belədir.

**Nursultan Nazarbayev:** Gördüyünüz kimi, Qazaxıstan və Azərbaycan tərəflərinin mövqeləri əsasən uyğun gəlir. 1998-ci ildə mən və Rusiya prezidenti sahillərdən eyni uzaqlıqda olan orta xətt haqqında saziş imzalamışıq. Biz bu əsasda işləyirik, çünki Xəzərin mərkəzi üzrə Qazaxıstan yalnız Rusiya ilə, cənubda isə Türkmənistanla həmsərhəddir. Azərbaycan və Türkmənistan isə həm də İranla həmsərhəddir. Buna görə də belə düşünürəm ki, mövqelər yaxınlaşır.

Hər dövlət öz sektorunda iş aparır və bu mövqe belə sututarların bölgüsünə dair dünya konvensiyasına, məncə, uyğundur. Buna görə də bütün dövlətlər, əlbəttə, belə bir ümumi qənaətə gəlməlidirlər ki, Xəzər dənizi əmin-amanlıq, etimad dənizi olmalı və bütün Xəzəryanı ölkələrin firavanlığına xidmət etməlidir. Ən başlıcası, belə saziş vasitəsilə Xəzər dənizinin çox həssas ekologiyasının və bioloji ehtiyatlarının, onun təkindəki ehtiyatların mühafizəsinə gəlib çıxmaqdır. Bütün dövlətlər birlikdə işləmək üçün ümumi qənaətə, ortaq məxrəcə gəlməlidirlər. Qazaxıstanın mövqeyi bundan ibarətdir. Bilirəm ki, Azərbaycanın da mövqeyi bu cürdür.

**Sual** *(Qazaxıstanın «Xabar» milli agentliyi)* : Hörmətli Heydər Əliyeviç, hörmətli Nursultan Abişoviç, Siz xatırlatdınız ki, söhbətiniz zamanı MDB daxilində qarşılıqlı münasibətlərdən danışmısınız. Dəqiqləşdirmək istərdim: Siz Rusiyada prezident seçkilərindən sonra bu ölkə ilə qarşılıqlı münasibətlər məsələsini müzakirə etmisinizmi? Sağ olun.

**Heydər Əliyev:** Bəli, biz bu məsələ barədə fikir mübadiləsi apardıq. Sizə məlumdur ki, Rusiyada prezident seçkilərindən əvvəl, yanvarın 25-də Moskvada MDB ölkələri dövlət başçılarının görüşü olmuşdur. Orada biz fikir mübadiləsi apardıq və bütün prezidentlər – birlik ölkələrinin dövlət başçıları bildirdilər ki, Rusiya prezidenti vəzifəsi uğrunda seçki kampaniyasında Vladimir Vladimiroviç Putini dəstəkləyirlər.

Məsələn, mən şadam, zənnimcə, Nursultan Abişoviç də şaddır ki, arzumuz çin oldu və Vladimir Vladimiroviç Putin Rusiyanın prezidenti seçildi.

Biz buna böyük ümidlər bəsləyirik, çünki dəfələrlə demişik ki, Müstəqil Dövlətlər Birliyi öz təyinatını hələlik doğrultmur, öz fəa-

liyyətini hələlik səmərəli həyata keçirmir.

Son illər bu birliyin mövcudluğu müəyyən dərəcədə formal xarakter, hətta protokol xarakteri daşımışdır. Ona görə də birliyin daha dinamik və səmərəli olması üçün çox güclü impuls gərəkdir. Şübhə yoxdur ki, biz – Azərbaycan, bilirəm, həm də Qazaxıstan – MDB çərçivəsində fəal əməkdaşlığa həvəs göstəririk, çünki birlik ölkələrinin hər biri bundan böyük fayda götürə bilər, xüsusən də iqtisadiyyat sahəsində.

Lakin indiyədək olanlar bundan ötrü lazımi şərait yaratmamışdır. Təkrar edirəm, biz böyük ümidlər bəsləyirik ki, Vladimir Putin öz prezident vəzifələrinin icrasına başlayandan sonra, yəqin ki, MDB-nin fəaliyyətində yeni mərhələyə qədəm qoymağımız üçün addımlar – təbii ki, təkcə onun tərəfindən deyil, həm də bütün MDB dövlət başçıları tərəfindən – atılacaqdır.

Aydındır ki, MDB-nin meydana gəldiyi vaxtdan Rusiya birliyimizdə üstün mövqe tutur. Ona görə də biz axırıncı görüşümüzdə Vladimir Vladimiroviç Putini yekdilliklə MDB Dövlət Başçıları Şurasının sədri seçdik. İnanırıq ki, Rusiyanın yeni prezidenti ümidlərimizi doğruldacaqdır.

**Nursultan Nazarbayev:** Biz Rusiyada istər Dumaya, istərsə də prezident vəzifəsinə seçkiqabağı mübarizələrin başa çatmasını alqışlayırıq. Ümidvarıq ki, bütün istiqamətlərdə fəal və dəqiq siyasət aparılacaqdır.

Heydər Əliyeviçin dediyi kimi, indi, hər şeyin müəyyən edildiyi, bütün prezidentlərin öz yerlərində olduğu bir vaxtda MDB ölkələri dövlət başçılarının, habelə gömrük dördlüyünün sammiti keçiriləcəkdir. MDB dövlətlərinin inteqrasiyası üçün bu gün həll edilməmiş başlıca məsələ azad ticarət zonası və gömrük rüsumlarının eyniləşdirilməsi haqqında müqavilənin bütün ölkələr tərəfindən ratifikasiya olunmasından ibarətdir. İndiki vəziyyət normal ticarət etməyə imkan vermir. Razılaşmalar əldə edilmişdir. Yaşayarıq, görərik. Zənnimcə, istər birgə yaşayışın tarixi təcrübəsinə, istərsə də əvvəlki iqtisadi əlaqələrə əsaslanaraq, MDB dövlətləri arasında inteqrasiyanın inkişaf etdirilməsi, etimadın möhkəmləndirilməsi həm Rusiyanın qonşularının, həm də Rusiyanın özünün mənafelərinə uyğundur. Əminəm ki, məhz bu cür siyasət aparılacaqdır.

Qazaxıstan Rusiya ilə sıx dostluq münasibətlərinə sadiqdir, Siz bunu yaxşı bilirsiniz, çünki o, bizim ticarət meydanımızdır. Rusiya bizim ən yaxın qonşumuzdur, dövlətlərdən hər birinin müstəqilliyi və suverenliyi şəraitində Qazaxıstan onunla bərabərhüquqlu münasibətlər yaratmaq istəyir. Vladimir Putin axırıncı sammitdə bu cür bəyanat vermişdir. Əminəm ki, belə də olacaqdır.



## AZƏRBAYCAN PREZİDENTİNİN MƏTBUAT ÜÇÜN QISA BƏYANATI

*Bakı, Binə hava limanı*
*8 aprel 2000-ci il*

– Bizim əziz dostumuz, qardaşımız, ən əziz qonağımız, hörmətli prezident Süleyman Dəmirəl yenə də Azərbaycandadır. Bütün Azərbaycan xalqı bu gəlişi, səfəri gözləyirdi. Mən çox məmnunam ki, hörmətli Süleyman Dəmirəl bizim dəvətimizi qəbul edib, vaxt tapıb gəlibdir.

Bu gün Bakıda türkdilli dövlətlərin başçılarının VI zirvə görüşü keçiriləcəkdir. Bizim hamımızın tarixi abidəsi olan «Kitabi-Dədə Qorqud»un 1300 illiyi sabah təntənəli surətdə bayram ediləcəkdir. Ancaq bütün bu tədbirlərin, təntənəli mərasimlərin hamısına ən yüksək qiymət verən və onların hamısını daha da yüksək səviyyəyə qaldıran – Türkiyə Cümhuriyyətinin prezidenti, əziz dostumuz, qardaşımız Süleyman Dəmirəlin bu tədbirlərdə iştirak etməsidir. Ona görə də mən Sizə təşəkkür edirəm, bundan məmnunam və xalqımız Sizi səbirsizliklə gözləyir.

# TÜRKDİLLİ DÖVLƏTLƏRİN BAŞÇILARININ VI ZİRVƏ GÖRÜŞÜNÜN YEKUNLARINA DAİR BİRGƏ MƏTBUAT KONFRANSINDA BƏYANAT

*Bakı, Gülüstan sarayı*
*8 aprel 2000-ci il*

– Hörmətli xanımlar və cənablar! Hörmətli mətbuat nümayəndələri!

Bu gün Bakıda, Azərbaycanda əlamətdar bir hadisə baş verdi. Türkdilli dövlətlərin başçılarının VI Zirvə görüşü keçirildi və o, uğurla sona çatdı. Keçirilmiş Zirvə görüşünün əsas məzmunu və mənası ondan ibarətdir ki, biz bu birliyimizin varlığını bir daha təsdiq etdik, türkdilli dövlətlər birliyinin ötən 8 ildə keçdiyi şərəfli yolu qeyd etdik, əməkdaşlığımızın səmərəli olduğunu bəyan etdik, gələcək işlər üçün fikirlərimizi bildirdik və təkliflərimizi verdik.

Sevindirici haldır ki, bütün dövlət başçıları və məclis başçıları, yəni türkdilli dövlətlərin burada iştirak edən nümayəndələrinin hamısı türkdilli dövlətlər birliyinin işinin gələcəkdə eyni istiqamətdə təşkil olunmasının vacibliyini ifadə etdilər. Biz bir daha əmin olduq ki, türkdilli dövlətlər birliyi xalqlarımız, millətlərimiz üçün lazımdır. Əmin olduq və bir daha inandıq ki, 1992-ci ildə Ankarada bu birliyin təməlini qoyanlar çox böyük işlər görüblər. Bu, Türkiyə Cümhuriyyətinin və bizim əziz dostumuz, qardaşımız Süleyman Dəmirəlin təşəbbüsü ilə olmuşdur. Hamımız bəyan etdik ki, türkdilli dövlətlər birliyinin bu illərdə yaşamasında, inkişaf etməsində və bu qədər yüksək səviyyəyə çatmasında Türkiyə Cümhuriyyətinin xüsusi rolu vardır.

Bu gün bizim hər birimiz hörmətli dostumuz, qardaşımız, Türkiyə Cümhuriyyətinin prezidenti Süleyman Dəmirələ böyük minnətdarlıq hissi ilə müraciət edirik. Çünki bu 8 ildə bu birliyimizin yaşamasında, inkişaf etməsində və bir-birimizə yaxınlaşmağımızda, tarixi köklərimizin araşdırılıb bərpa edilməsində, bütün sahələrdə iş birliyimizin təmin olunmasında Türkiyə Cümhuriyyətinin prezidenti, əziz dostumuz, qardaşımız hörmətli Süleyman Dəmirəlin böyük xidmətləri olmuşdur. Ona



görə də hamımız onun böyük xidmətlərini bir səslə qeyd etdik. Qəbul olunmuş bəyannamədə bu öz əksini xüsusi olaraq tapdı.

Hesab edirəm ki, VI Zirvə görüşünün Bakı bəyannaməsi bizim gələcəyimiz üçün mühüm bir proqram xarakteri daşıyır. Biz hamımız bəyan etdik ki, biz bundan sonra da bu yolla gedəcəyik. Yəni türkdilli dövlətlər birliyi var, yaşayır, gələcək üçün lazımdır və gələcək nəsillərə də xidmət edəcəkdir.

## «JURNALİST»in BAŞ REDAKTORU GENNADİ MALTSEVİN SUALLARINA CAVAB

**– İyirmi il əvvəl bizim «Jurnalist» jurnalında «Kütləvi informasiya və təbliğat vasitələrinin səmərəliliyini və təsirini yüksəltməli» adlı məqaləniz dərc edilmişdi. Ötən müddət ərzində çox böyük dəyişikliklər baş vermişdir. Bu gün Siz cəmiyyətin həyatında KİV-in rolu barədə nə düşünürsünüz?**

– Həqiqətən, heyrətamiz dəyişikliklər baş vermişdir. Cəmiyyət totalitar sistemdən çıxaraq demokratiya hüdudlarına keçmişdir. Mətbuatın funksiyaları da dəyişmişdir. Yadımızdadır ki, «sosialist ideologiyası» kütləvi informasiya vasitələrinin vəzifələrini müəyyənləşdirərkən klassik tərifin ehkamına əsaslanırdı: «Qəzet yalnız kollektiv təbliğatçı və kollektiv təşviqatçı deyil, habelə kollektiv təşkilatçıdır». Leninin bu tərifi qanun halına salınmışdı və uzun illər mətbuata rəhbərlik sahəsində partiyanın göstərişinə çevrilmişdi. «Partiya-dövlət!» hibridinin mətbuatı inhisara aldığı şəraitdə ona bu üç funksiyanın verilməsi hökmran siyasi-ideoloji təsisatların mütləq hakimiyyətinə təminat yaradır, onların qərarlarını, əslində, alternativsiz edirdi. Mətbuatın rəhbərlik və idarəetmənin sırf ideoloji (çox vaxt da birbaşa, direktiv şəkildə idarəetmə) vasitəsinə, ictimai şüurun manipulyasiya edilməsi mexanizminə çevrilməsi mətbuatı deformasiyaya uğratmaya, onu başlıca sosial vəzifədən – cəmiyyətdə gedən proseslər barədə məlumat vermək, auditoriyanı maksimum tam həcmdə xəbərlərlə təmin etmək vəzifəsindən məhrum etməyə bilməzdi.

Yada salaq, keçmiş ittifaqın informasiya məkanı necə idi? Bu məkan əzəl başdan cəmiyyətin komanda-siqnal sistemi kimi formalaşmışdı. Qəzet və efir partiya və hökumətin fərmanlarını, direktivlərini auditoriyaya çatdırır, növbəti təbliğat-təşviqat müddəalarını adamların şüuruna yeridir, «sosializm yarışı»nın gedişinə nəzarət edir, «xalq düşmənləri»ni gözdən qoymur və şəxsiyyətə pərəstişin xronikasını yaradırdı. Lakin ideoloji senzorların aradan qaldıra bilmədikləri başqa hal da vardı: sıravi insana, vətəndaşa, onun ehtiyac və qayğılarına diqqət yetirilməsi. KİV ilə auditoriya arasında birbaşa və əks-əlaqə yaranmışdı. Hər bir böyük və kiçik qəzetdə məktublar şöbəsi vardı. Vətəndaşlar haqlı olaraq qəzetə ən mötəbər instansiyalardan biri kimi baxır, öz problemlərini onlara etibar edir, öz fikir və düşüncələrini, təkliflərini bölüşürdülər. Kütləvi informasiya vasitələrindəki tənqiddən oddan qorxan kimi qorxurdular. Bununla yanaşı, mətbuatda tərif ən yüksək mükafat kimi qarşılanırdı. Bu mənada sovet dövrünün kütləvi informasiya vasitələri yüksək səmərəliliyə malik idi. Məsələn, respublikamızda mətbuat korrupsiya, oğurluq, yerlibazlıq, mənəvi düşkünlük və s. eybəcər hallara qarşı çox fəal mübarizə aparırdı. Mən iyirmi il əvvəl sizin jurnalınızda dərc edilmiş məqaləmdə məhz bütün bunların barəsində yazmışdım.



İndi mətbuat özünün təbliğat funksiyalarını itirmişdir. O, sərbəst olmuşdur: həm siyasi, həm ideoloji mənada, həm də maliyyə baxımından. Demokratik mətbuat nə deməkdir? Çox ümumiləşdirilmiş şəkildə desək, bu, rəsmi və sırf fərdi nöqteyi-nəzərlərin ifadəsi üçün hüquqların bərabərliyinə nail olmaqdır, hakimiyyətin müxtəlif qollarının (o cümlədən də «dördüncü» qolunun, yəni mətbuatın özünün) fəaliyyəti haqqında operativ xəbərlər axınıdır. Nəhayət, mətbuat dövlətlə cəmiyyəti birləşdirən canlı əlaqə vasitəsidir, fasiləsiz ikitərəfli əlaqə kanalıdır. Yalnız bu şərtlər təminat yaradır ki, hökumət xalqın iradəsinə uyğun olaraq hərəkət edəcəkdir.

**– Azərbaycan informasiya baxımından həmişə zəngin region olmuşdur. Kütləvi informasiya vasitələri bazarında vəziyyət necədir? Respublikada müxalifət mətbuatı deyilən mətbuat varmı?**

– Cənubi Qafqazda ən iri qəzet-nəşriyyat kompleksi Azərbaycandadır, biz onu hələ sovet dövründə tikdirmişdik. Təkcə Bakıda – mən hələ rayonları demirəm – beş yüzədək qəzet çıxır. Onlardan yalnız üçü – «Xalq qəzeti», «Azərbaycan» və «Bakinski raboçi» rəsmi qəzetdir. Mətbuatın qalan hissəsi müstəqil, necə deyərlər, kommersiya və müxalifət mətbuatından ibarətdir. Respublikada müstəqil agentliklər («Trend», «Turan», «ASSA-İradə», «Şərq» və digərləri), telekanallar («ANS», «SPACE») fəaliyyət göstərirlər.

Qeyd etməliyəm ki, Azərbaycanda KİV-in azad fəaliyyət göstərməsi Konstitusiyanın müvafiq maddələri ilə, KİV haqqında qanunla, nəhayət, senzuranın hədsiz hakimiyyətinə son qoyulması ilə təmin olunmuşdur. On illər ərzində hər bir mətbu nəşrin buraxılışını nəzarət altında saxlayan, ictimaiyyətə yönəldilmiş hər bir sözü az qala zərrəbinlə yoxlayan Qlavlit mənim fərmanımla qəti şəkildə ləğv edilmişdir. Biz bütün bunları Azərbaycan cəmiyyətinin Qərbin demokratiya standartlarına yaxınlaşdığını sübut edən müsbət əlamətlər sayırıq.

Əlbəttə, KİV-in demokratikləşməsi prosesi mürəkkəbdir, birmənalı getmir. Biz mətbuatın və elektron informasiya vasitələrinin müstəqilliyinin hüdudlarını genişləndirməkdən danışarkən, jurnalistlərin hüquq və vəzifələrini uyğunlaşdırmağın zəruriliyini də unutmamalıyıq. Söz azadlığı məsələlərinə ictimai məqsədəuyğunluq mövqeyindən, dövlətin maraqları və milli rifah baxımından yanaşmaq lazımdır.

Azərbaycan jurnalistləri yeni mövzular, janrlar, faktların şərhi metodlarının axtarışında təkcə Qərbin kütləvi informasiya vasitələrinin təcrübəsini öyrənib mənimsəməli deyil, həm də Azərbaycan demokratik mətbuatının baniləri H.Zərdabinin, C.Məmmədquluzadənin, Sabirin, Üzeyir Hacıbəyovun və bir çox başqalarının dərslərini hökmən nəzərə almalıdırlar.

Respublikada müxalifət qəzetlərinin spektri kifayət qədər genişdir. Mən bunu normal hal hesab edirəm – demokratik cəmiyyətdə müxalifət mövcud olmalı və öz nöqteyi-nəzərini bildirmək, hakimiyyət orqanlarını və onların həyata keçirdikləri tədbirləri tənqid etmək hüququna malik olmalıdır. Biz konstruktiv və obyektiv tənqidi nəzərə alırıq, sivil müxalifətlə dialoqa gedirik.

Lakin təəssüflər olsun, plüralizm vasitəsi bəzi nəşrlərin redaktor və jurnalistlərinin əllərində demokratik təsisatların möhkəmlənməsinə deyil, hərdən tamam zidd məqsədlərə xidmət edir. Totalitar rejim mətbuatının ənənələrində fəaliyyət göstərən, opponentləri barəsində siyasi dözümsüzlük, davakarlıq, öz baxışlarının müdafiəsində hansısa neobolşevik fanatizmi nümayiş etdirən müxalifət qəzetləri az deyildir. Onlar demokratiya qanunlarını pozaraq, öz səhifələrində hakimiyyəti ələ keçirməyin yol verilməyən, Konstitusiyaya zidd metodlarını təbliğ edirlər. Azərbaycan xalqı hakimiyyətə. hər cür vasitələrlə gəlmək cəhdlərinin nə kimi avantürizm ilə nəticələndiyini Xalq Cəbhəsi Partiyasının hakimiyyəti illərində başa düşmüşdür.

Bəzi müxalifət qəzetlər iqtidarla və rəqib radikal partiyaların liderləri ilə barışmaz mübarizəyə başlayaraq, siyasi duel, digər partiyalarla açıq-aşkar haqq-hesab çəkmək vasitəsinə çevrilmişdir. Siyasi diskussiyalar aparmaq metodlarında çox vaxt mənəvi məhdudiyyətlər, əxlaq normaları pozulur. Məsələn, bu yaxınlarda müxalifətçi Müsavat Partiyasının mətbu orqanı Naxçıvandakı Nehrəm kəndi sakinlərinin ünvanına təhqiramiz yazı dərc etmişdi. Azərbaycanlı temperamentini və mentalitetini nəzərə alaraq, onların buna necə münasibət göstərəcəyi



qabaqcadan bəlli idi – onlar «Yeni Müsavat» qəzetinin redaksiyasına gələrək, öz etirazlarını kifayət qədər emosional şəkildə bildirmişdilər.

Lakin, əlbəttə, ən çox da Azərbaycan Prezidentinin payına düşür. Hətta ürəyimdə cərrahiyyə əməliyyatı aparılması ilə əlaqədar ABŞ-da olanda da müxalifət mətbuat mənə rəhm etmədi.

Mətbuat azadlığı müxtəlif baxışları, nöqteyi-nəzərləri, ideyaları, rəyləri açıq ifadə etməyi nəzərdə tutur. Amma bəla burasındadır ki, tənqid bəzən tənqidbazlığa çevrilir, belə olanda isə konstruktivlik, obyektivlik itirilir. Aşkar dezinformasiya, böhtan, şantaj, şişirdilmiş sensasiyalı ifşalarla birlikdə bu cür siyasi nihilizm cəmiyyətə, insanların mənəvi sağlamlığına, demokratiya mədəniyyətinin özünə ağır ziyan vurur.

Nəşrlərin başqa bir tipi də var. O, ancaq kommersiya mənafelərinə yönəldilmiş qəzetləri birləşdirir: onlar ideoloji amirlikdən bəzən ən bəsit instinktlərlə oynamağa keçmişlər. Belə münasibət olanda Ermənistan-Azərbaycan münaqişəsinin nizama salınması yolları, bir milyondan artıq qaçqının sosial vəziyyətinin yaxşılaşdırılması, Xəzər neftinin hasilatına və nəqlinə dair qlobal layihələrin həyata keçirilməsi və sair kimi respublika üçün aktual problemlər diqqətdən kənarda qalır.

Bəzi nəşrlərdə geniş auditoriya üçün nəzərdə tutulan informasiyanın keyfiyyəti tələbatın yanlış yozulmuş strukturu, problemin qətiyyən öyrənilməməsi əsasında formalaşdırılır: oxucu, tamaşaçı, dinləyici bu gün nəyə xüsusilə kəskin ehtiyac duyur? Onu əsasən nələr düşündürür, o, qəzet səhifələrində və efirdə nə axtarır? Bəzi redaktorlar və jurnalistlər bu sualların cavablarını bilmirlər və bilmək də istəmirlər. Onları yalnız bir şey maraqlandırır – mənfəət! Onlar diqqəti özlərinə çəkmək və öz nəşrlərinə reklam yaratmaq üçün söz azadlığından açıq-aşkar sui-istifadə edirlər. Tam bir sıra bu cür nəşrlər öz vəzifəsini sensasiya, «yağlı faktlar» ardınca qaçmaqda, respublikanın tanınmış şəxslərini nüfuzdan salmaq məqsədilə böhtanlar, uydurma ifşalar yaymaqda görürlər. Oxucu faktları riyakarcasına saxtalaşdıran, kriminal əhvalatlardan ləzzət alan, özlərindən toxuduqları uydurmalarla adamların beynini dolduran bu qəzetlərin təsiri altına düşür. Nədənsə, onlar bunların hamısını nöqsanların tənqidi və mənəviyyatı düzəltmək metodu adlandırırlar.

**– Yeri gəlmişkən, tənqid haqqında. Siz Rusiya mətbuatında Azərbaycan Respublikasının siyasi, iqtisadi və mənəvi həyatına həsr edilmiş yazılara necə yanaşırsınız? Rusiyanın kütləvi informasiya vasitələrində öz ünvanınıza olan tənqid Sizə toxunurmu?**

– Tənqidə normal yanaşıram, hesab edirəm ki, o, cəmiyyətin demokratik inkişafının ən mühüm şərtlərindən biridir. Tənqidsiz heç bir irəliləyiş, heç bir tərəqqi ola bilməz. Mən Rusiyanın və ya bizim, Azərbaycanın kütləvi informasiya vasitələrində öz ünvanıma olan tənqidi qeydlərə müsbət yanaşıram. Lakin təkrar edirəm, bir şərtlə ki, bu, xeyirxah, konstruktiv tənqid, indi gənc müstəqil dövlətin üzləşdiyi mürəkkəb keçid dövründə Azərbaycana, onun xalqına, onun liderinə ürəkdən kömək etmək arzusundan irəli gələn tənqid olsun.

Sirr deyil ki, Rusiya mətbuatında verilən bir sıra məqalələri sifarişlə yazılmış məqalələr, onların müəlliflərini isə müəyyən siyasi qüvvələr tərəfindən ələ alınmış adamlar adlandırmaq olar. Həm də belə bir qanunauyğunluq özünü göstərir: şəxsən mənim ünvanıma heç bir aşkar tənqidi iradlar tutulmur, əvəzində, respublikanın xarici siyasətindəki hər şey amansızcasına inkar edilir, Azərbaycanın enerji ehtiyatlarının qiymətləndirilməsinin reallığı şübhə altına alınır, Bakının Böyük İpək Yolunun dirçəldilməsinə yönəldilmiş təşəbbüsləri zaman-zaman Rusiyanın mənafelərini məhdudlaşdırmaq, onu Qərblə, ən əvvəl, ABŞ-la toqquşdurmaq cəhdləri kimi qələmə verilir.

Mən dəfələrlə bəyan etmişəm və indi də deyirəm: müstəqil Azərbaycan müxtəlif dövlətlərin mənafeləri ilə oynamır, o öz xarici siyasətində «soyuq müharibə» dövründən miras qalmış metodları tətbiq etməyəcəkdir. Suveren respublika heç bir ayrı dövləti yeni «böyük qardaş» rolunda görmək istəmir, lakin ona xeyirxahlıqla yanaşanların, əməkdaşlığın əsarətli rejimini ona zorla qəbul etdirməyənlərin və bərabərhüquqlu, qarşılıqlı surətdə faydalı şərtlər seçənlərin, nəhayət, Ermənistan-Azərbaycan münaqişəsindən Azərbaycan ilə Rusiya arasında süni surətdə yaradılmış qarşıdurmanı sərtləşdirmək üçün sui-istifadə edənlərlə deyil, bu münaqişənin tezliklə ədalətli şəkildə nizama salınmasına həvəs göstərənlərin hamısı ilə tərəfdaşlığa açıqdır.

Bəli, bu gün Rusiya kütləvi informasiya vasitələrinin bəzi vicdansız jurnalistləri azərbaycanlılardan düşmən obrazı yaradılmasında, azərbaycanlılar barəsində aşkar mənfi rəy və onlara qarşı etimadsızlıq doğurmalı olan mənfi stereotiplərin formalaşdırılmasında yarışırlar. Bu belədir. Lakin Rusiya KİV-in əksəriyyətində vicdanlı jurnalistlər işləyirlər. Azərbaycan ərazisinin beşdə bir hissəsini işğal etmiş Ermənistana Rusiya tərəfindən təmənnasız olaraq bir milyard dollarlıq ağır silahlar verilməsi kimi görünməmiş faktdan dünya bu jurnalistlərin sayə-



sində xəbər tutmuşdur. Azərbaycan ərazisində guya çeçen yaraqlılarının düşərgələrinin olduğu barədə, respublikamız vasitəsilə Çeçenistana silah ötürüldüyü barədə uydurmanı Rusiya mətbuatı hamıdan daha fəal yayır və hamıdan da fəal ifşa edir.

Rusiyanın bir sıra iri qəzetləri və agentliklərinin rəhbərləri bu yaxınlarda respublikamızın qonağı oldular. Özlərinin dediklərinə görə, onlar Cənubi Qafqazın bəzi moskvalı «biliciləri» tərəfindən yaradılmış mənfi Azərbaycan obrazı ilə respublikanın bugünkü reallıqları arasındakı təzadı gördükdə yaxşı mənada təəccübləndilər. Onlar azərbaycanlıların Rusiyaya, ruslara meyl göstərdiklərini hiss edə və bunu təsdiqləyən minlərlə misal tapa bildilər. Rusiya jurnalistlərinin hamısı deyirdi ki, Azərbaycan postsovet məkanında yeganə respublikadır ki, burada ruslar özlərini yad hiss etmir, çoxlu rus məktəbi fəaliyyət göstərir, hətta ayrıca Rus Dili İnstitutu var və rus dilində çoxlu qəzet çıxır.

Mən dəfələrlə bəyan etmişəm ki, Rusiya bizim strateji tərəfdaşımızdır. Ölkələrimiz inteqrasiya, kooperasiya prosesinə tarixən cəlb olunmuşlar. Bu, sübuta ehtiyacı olmayan həqiqətdir.

SSRİ-nin dağılmasının mənfi nəticələrindən biri də respublikalar arasında iqtisadi və mədəni əlaqələrin bünövrəsini sarsıtması olmuşdur. Bu süqut Rusiya ilə Azərbaycan arasında münasibətlərə də mənfi təsir göstərmişdir. Lakin gəlin, hələ bu yaxınlaradək ümumi olmuş tariximizdən haqq-hesab istəməyək. Yaxşısı budur, düşünək: keçmiş mehriban qonşuluq münasibətlərini necə dirçəltməli, etimadsızlığı necə aradan qaldırmalı, maddi və mənəvi sahələrdə ənənəvi əməkdaşlığı necə bərpa etməli? Əminəm ki, bu nəcib vəzifənin həllində jurnalistlərdən, onların istedadından və Azərbaycanın həyatının müxtəlif sahələrində gedən proseslər barədə məlumat verərkən nə dərəcədə obyektiv, səmimi və ədalətli olmalarından çox şey asılıdır.

– Heydər Əliyeviç, söhbətə görə sağ olun.

## ŞƏMKİR SES-də JURNALİSTLƏRLƏ SÖHBƏT

*23 may 2000-ci il*

**S u a l :** Cənab Prezident, dediniz ki, başladığınız işlər Siz Bakıdan gedəndən sonra yarımçıq qaldı. Bu işləri yaxın vaxtlarda davam etdirmək fikriniz varmı?

**C a v a b :** Birincisi, sən artıq gördün ki, mən bu işləri davam etdirmişəm. 1994-cü ildə böyük çətinlik var idi, amma biz 53 milyon dollar kredit aldıq və bu Yenikənd su elektrik stansiyasını tikdik. Hazırda mənim üçün bu stansiyanın tikilib başa çatdırılmasından böyük hədiyyə yoxdur. Bu işi mən etmişəm.

Bu gün Tovuz su elektrik stansiyasının tikintisi barədə məsələ qaldırdılar. Bu bir qədər çətindir, çünki onun tikintisinə 200 milyon dollar vəsait lazımdır. Amma həmin stansiyanın da gücü bu qədər olacaqdır.

Bilirsiniz, su elektrik stansiyası çox əlverişlidir, çünki ucuzdur, orada yanacaqdan istifadə olunmur. Mən Yenikənd su elektrik stansiyasının açılış mərasimindəki nitqimdə də dedim ki, biz nə qədər yanacağa qənaət edirik. Əgər istilik elektrik enerjisinin alınmasında qazdan istifadə edilsə, bu nisbətən ucuz olar. Amma mazut bundan çox bahadır. Bayaq da dedilər, biz ildə mazuta 400 milyon dollar pul veririk. Bu bizim büdcənin yarısını təşkil edir. Gərək biz bu işlərdən xilas olaq.

Təbiidir ki, Tovuz su elektrik stansiyasını da tikəcəyik. Hazırda Mingəçevir su elektrik stansiyasında da yenidənqurma işləri aparırıq ki, onun gücünü artıraq. Ancaq gərək indi 200 milyon dollar vəsait tapaq. Əgər indi kredit tapmasaq, bir neçə ildən sonra bizim özümüzdə bu pullar olacaqdır və biz bu işləri mütləq görəcəyik.

Mən bu işlərə o illərdən başlamışam. Yəni bu mənim üçün xırda bir şeydir. O mənada xırda yox ki, bu mənim üçün idmandır, yaxud əyləncədir. Bu mənim həyatımın mənasıdır. Mən bunlarla yaşamışam, bunlarla da yaşayacağam. Məsələn, mən vaxtilə Şəmkir su elektrik stansiyasını yaratdım, yaxud Yenikənd su elektrik stansiyasının əsasını qoydum. Başqa tikintilər də var.



Mən bayaq da dedim, biz Mingəçevir su elektrik stansiyasında 8 blok qurmuşuq. Həmin blokların hər biri 300 meqavat enerji verir. Biz o vaxt birinci bloku quranda, mən oraya getdim. Bu böyük bir hadisə idi.

O dövrdə bizimlə nə qədər mübarizə aparırdılar ki, burada su elektrik stansiyaları yaratmaq olmaz. Tarixdir, fürsət düşüb, bir məsələni də bildirmək istəyirəm. Özü də bura gözəl yerdir, mənim də kefim bir az açılıb. Hətta mənim doğma böyük qardaşım Həsən Əliyev akademik idi.

**Y e r l ə r d ə n  s ə s l ə r:** Allah rəhmət eləsin.

**H e y d ə r  Ə l i y e v :** O, Azərbaycan ekologiyasının birinci müdafiəçisi, Azərbaycan Təbiəti Mühafizə Cəmiyyətinin başçısı idi, həqiqətən də respublikamızın təbiətini çox gözəl bilirdi, necə deyərlər, canını buna – həm meşələrə, həm sulara, həm torpağa – hamısına sərf etmişdi.

Həsən Əliyev bunları eşidib mənim yanıma gəldi ki, sən nə edirsən, bunu belə etmək olmaz, bu stansiyalar havanı çirkləndirəcək, filan edəcək. Dedim ki, a kişi, bəs bizə elektrik enerjisi lazımdır. Dedi ki, qoy elektrik enerjisini ruslar versinlər. Bildirdim ki, ruslar elektrik enerjisi verirlər, amma mən istəyirəm bizim özümüzünkü olsun. Mən istəmirəm ki, həmişə onlara ümidli olaq. Bizim bir neçə dəfə belə söhbətimiz oldu. Hətta bir dəfə böyük bir iclasda mənim əleyhimə çıxış etdi. Hamı məəttəl qaldı ki, Azərbaycanın rəhbəri, Mərkəzi Komitənin birinci katibi iclas aparır, böyük qardaşı da durub onu tənqid edir. Yəqin Müslüm İmanovun xatirində olar. Hava məsələsindən sonra dedilər ki, Mingəçevir gölündən götürülən su elektrik stansiyasında dövr edib su kanalına veriləndə həmin suyun temperaturu iki dərəcə artacaq. Temperaturu iki dərəcə artan həmin su kanal vasitəsilə tarlalara gedəcək və pambığa zərər verəcəkdir.Bu yadınızdadır?

**M ü s l ü m  İ m a n o v :** Bəli. O vaxt bizi Özbəkistana göndərdiniz. Gedib gördük ki, orada da belə bir stansiya var, oradan çıxan suyu tarlalara verirlər.

**H e y d ə r  Ə l i y e v :** Bəli, gəlib bunu mənə dedilər. Mənim boğazımdan tutmuşdular ki, bunu etmə. Amma mən heç bir şeyə baxmadım. Yenə də deyirəm, hətta böyük qardaşımın da – mən ona çox böyük hörmət edirdim. O, çox böyük alim idi – sözünə baxmadım. Biz həmin stansiyaları tikməyə başladıq. İndi təsəvvür edin, orada 8 blok var, onlar 2400 meqavat enerji verir. Yəni bütövlükdə Azərbaycanda istehsal edilən 5000 meqavat elektrik enerjisinin yarısını onlar verir. Başa

düşürsünüz, əgər bu olmasaydı, indi Azərbaycan nə gündə idi? Əgər Şəmkir su elektrik stansiyası – bu, 380 meqavat enerji verir – olmasaydı, indi Azərbaycan nə gündə idi?

Bütün bu imkanlarla hazırda Azərbaycanda qışda müəyyən çətinliklər yaranır. Doğrudur, insanlar bu çətinliyi başa düşür. Amma fürsətdən istifadə etmək istəyən bir qrup adam bunu başa düşmək istəmirlər. Hətta prezident seçkiləri zamanı namizədlərdən biri deyirdi ki, siz mənə səs verin, mən bir ildə hamınızı elektrik enerjisi və qazla təmin edəcəyəm. Mən fikirləşdim ki, görəsən bu adam bir dəfə elektrik stansiyasını, harada qaz hasil edildiyini görübdürmü? O, heç birisini görməyibdir. Bütün bunları görməyən adam havadan danışır, insanlar belələrinə inanmaz. Ola bilər ki, bir-iki ağılsız adam inansın, amma qalanları inanmaz.

Mən isə bütün bu yerlərin hamısını qarış-qarış gəzmişəm. Mən 1982-ci ildə Azərbaycandan gedəndə biz 15 milyard kubmetr qaz hasil edirdik. Amma indi respublikamızda 6 milyard kubmetr qaz hasil olunur. Təsəvvür edin ki, 15 milyard kubmetr qaz nə deməkdir. O vaxt biz Rusiyadan iki milyard kubmetr qaz alırdıq. Bununla da biz Azərbaycanın bütün kəndlərini, hətta ən ucqar dağ kəndlərini qazlaşdırdıq. Məsələn, Lerikin dağ kəndlərinə qədər hər yeri qazlaşdırdıq, hamı qaz alırdı. İndi isə qaz yoxdur, lakin həmin şəbəkələr qalıbdır. Nə edək, hazırda 6 milyard kubmetrdən artıq qaz çıxara bilmirik. Allah üzümüzə baxdı, «Şahdəniz» yatağında böyük miqdarda qaz ehtiyatı tapıldı. Gələcəkdə oradan qaz hasil edəcəyik, onu həm xaricə satacağıq, həm də əhalinin tələbatını ödəyəcəyik.

Bəli, biz bunları edirik və gördüyümüz işlərin də nəticəsi vardır. Amma bütün bunların heç birini bilməyən adam gəlib deyir ki, «siz mənə səs verin, mən prezident olum, bir ildən sonra sizə qaz da, elektrik enerjisi də verəcəyəm». Bunlar cəfəngiyatdır.

Bilirsiniz, mən bu gün həddindən artıq sevinirəm. Çünki gördüyümüz işlərin bəhrəsi vardır. Yəni mən bunları əzbər bilirəm, amma bir də var ki, gəlib özün görəsən. Məsələn, baxıram, görürəm ki, Yenikənd su elektrik stansiyası nə qədər gözəldir, böyük bir abidədir. Mən oradakı nitqimdə vaxt sərf etmək istəmədim – onu da deyim ki, axı həm də bunlar bizim torpaqların böyük bir hissəsinin suvarılmasını təmin edəcəkdir. Gərək ki, Yenikənd SES-dən altı min hektar sahənin suvarılması üçün su götürüləcəkdir. Aslanov, buradan nə qədər sahə suvarılır?



**Aslan Aslanov** *(Şəmkir rayon İcra Hakimiyyətinin başçısı)* : 46 min hektar sahə suvarılır.

**Heydər Əliyev:** Demək, 46 min hektar sahə buradan suvarılır. İndi Azərbaycanda problemlərdən biri də odur ki, kənd təsərrüfatı bitkiləri əkilən torpaqların çoxu susuzdur. Yenə də deyirəm, vaxtilə su çatmayan 46 min hektar sahə indi buradan su götürür.

Baxın, stansiyanın verdiyi enerji ucuzdur. Yəni bunun təkcə istismarına xərc qoyulur, başqa bir xərc yoxdur, yanacaq, yaxud başqa bir şey verilmir. Ona görə də mən fəxr edirəm ki, bunları yaratmışıq. Bunlar hamısı Azərbaycanın müstəqilliyi üçün yaradılıbdır. Əgər bunlar olmasaydı, biz yaşaya bilməzdik. Bəli, elektrik enerjisiz müstəqil yaşamaq mümkün deyildir. Bu elektrik enerjisini bizə kim verəcəkdi? Rusiya versəydi, pul istəyəcəkdi. Pulumuz isə yoxdur. Qonşu ölkələrdə vəziyyətin necə olduğunu bilirsiniz.

**Müslüm İmanov:** Cənab Prezident, Gürcüstanda da, Ermənistanda da vəziyyət çox ağırdır.

**Heydər Əliyev:** Bəli, indi onları atom elektrik stansiyası xilas etdi. Əvvəl Ermənistanda bütün ağaclar kəsilmişdi, atom elektrik stansiyası işə düşəndən sonra onların vəziyyəti düzəldi. Amma bundan qabaq onların vəziyyəti çox ağır idi. O vaxt həmin atom elektrik stansiyasını tikməkdə uzaqgörənlik etdilər. Ancaq onun xətası – o tərəfi də, bu tərəfi də var.

**Sual:** Cənab Prezident, gələcəkdə Azərbaycanda atom elektrik stansiyasının olması barədə düşünürsünüzmü?

**Heydər Əliyev:** Yox, mən istəmirəm. Biz burada belə stansiya tikməyi planlaşdırırdıq, hətta yerini də müəyyən etmişdik – Duvannının yanında. Orada bir az işlər də apardıq. Hətta o vaxt bunu bizə vermirdilər. Xatirinizdədir ki, Gürcüstan hətta gətirib Mingəçevirin yaxınlığında, yuxarıda, sərhəddə bir atom elektrik stansiyası tikmək istəyirdi. Biz buna etiraz etdik. Çünki belə çıxırdı ki, onlar bunu gətirib respublikamızın sərhədində tikmək istəyirdilər ki, tullantılar gəlib bizim əraziyə keçsin. Bizim Mingəçevir su anbarının zəhərlənməsi çox böyük təhlükə qarşısında idi.

Yenə də deyirəm, biz buna etiraz etdik, çoxlu çətinliklər çəkdik.

Amma fikirləşdik ki, gərək biz də bir atom elektrik stansiyası tikək. Ona görə də bu barədə məsələ qaldırdıq. Bizə icazə vermirdilər. Mən sizə deyim ki, bu məsələdə bir az yarış oldu. Bir tərəfdən gürcülər, bir tərəfdən də biz məsələ qaldırdıq. Amma mən buna nail oldum ki, atom

elektrik stansiyasının layihəsi hazırlandı. Duvannıdan aşağıda, Navahıda onun üçün yer ayrıldı.

Mən Moskvada işləyəndə gürcülər gəlirdilər ki, kömək edin, bizim atom elektrik stansiyası tezliklə fəaliyyətə başlasın. Mən energetika nazirinə bir-iki dəfə göstəriş də vermişdim. Amma sonra Çernobıl hadisəsi oldu. Gürcüstanın o vaxtkı birinci katibi Patiaşvili – o, prezident seçkilərində Eduard Şevardnadzeyə alternativ idi, prezident olmaq istəyirdi – mənim yanıma gəldi. Dedim ki, göstəriş verim, Gürcüstanda atom elektrik stansiyasının tikintisini gücləndirsinlər? Cavab verdi ki, yox, yox, lazım deyil.

Həmin Çernobıl hadisəsindən sonra hamı atom elektrik stansiyası tikməkdən çəkindi. Bəlkə də Allahın işiydi, gərək belə olaydı ki, biz bu işə qarışmayaydıq. Çünki o vaxt hamını inandırırdılar ki, bu çox təhlükəsizdir. Amma necə təhlükəli olduğunu, həm Ukraynanın, həm də Belarusun indiyədək bundan nə qədər əziyyət çəkdiyini, nə qədər insanın şikəst olduğunu görürsünüz.

**Sual:** Cənab Prezident, Azərbaycanda fəaliyyət göstərən özəl türk liseylərinin məzunları Respublika Sarayında görüş keçirirlər. Zati-aliləri, fəxri müəllimi olduğunuz həmin liseylərin şagirdlərinə və onların valideynlərinə nə arzulayardınız?

**Heydər Əliyev:** Bilirsiniz, həmin lisey çox yaxşı məzunlar hazırlayır. Mən bu yaxınlarda təsadüfən televiziyada gördüm ki, onlar yenə də dünya olimpiadasında qızıl medallar qazanıblar. Həmin liseylə sənin əlaqən var?

**Jurnalist:** Bizim televiziya şirkətinin həmin liseylə əlaqəsi vardır.

**Heydər Əliyev:** Sən hansı televiziya şirkətində işləyirsən?

**Jurnalist:** Mən «Saman yolu» televiziya şirkətində çalışıram.

**Heydər Əliyev:** Doğrudan da həmin liseydə çox yaxşı işlər görürlər. Mən onların işindən razıyam. Mən bilmirəm ki, onlar Respublika sarayında hansı tədbir keçirirlər. Ancaq mən həmin liseyə həmişə yaxşı münasibət bəsləmişəm, onlara qayğı göstərmişəm. Doğrudur, onların qaldırdığı məsələni həll edəndən sonra yenisini tələb edirlər. Bir az da genişləndirsən, yenə də tələb edəcəklər. Amma görürəm ki, yaxşı işləyirlər, ona görə də onlara həmişə kömək edirəm.

Arzu edirəm ki, onlar həmişə belə, əgər mümkün olsa, bundan da yaxşı işləsinlər və gənclərimizə daha da yaxşı bilik versinlər.



**Sual:** Cənab Prezident, Şəmkir və Yenikənd su elektrik stansiyalarını Siz yaratmısınız. Amma bu silsiləyə Sizin adınızın verilməsinə nə üçün razı olmadınız?

**Heydər Əliyev:** Əzizim, bilirsən, bunu dəfələrlə demişəm – nə qədər ki, bu dünyada yaşayıram, mənim adıma heç nə vermək lazım deyil. Mən bunu istəmirəm.

Məsələn, Milli Məclisdə o qədər məktublar var ki, Heydər Əliyevə Milli Qəhrəman adı verilsin. Mən demişəm ki, həmin məktubları arxivə qoyun. Birincisi, mən Azərbaycanın prezidentiyəm, özüm-özümə mükafat verə bilmərəm. Çünki Milli Qəhrəman adı üçün gərək mən fərman verəm. Mən bunu edə bilmərəm. Ad vermək üçün də gərək mənim fərmanım olsun. Şəxsən mən fərman verməsəm də, mənim idarəmdə olan adamlardan kimsə bunu etməlidir.

İkincisi, bu mənim təbiətimə uyğun deyil. Bu dünyada heç kəs daimi deyil. Vaxt gələcək, mən də bu dünyanı tərk edəcəyəm. Əgər xeyirxah insanlar mən dünyadan gedəndən sonra da indiki kimi belə düşünsələr, onlar nə etsələr, mənim ondan xəbərim olmayacaq. Onlar bu barədə sərbəstdirlər.

**Sual:** Cənab Prezident, Sizin təşəbbüsünüzlə Şəmkir-Tovuz bölgəsində üzümçülük böyük sürətlə inkişaf etmişdi. Lakin on il bundan əvvəl bir sıra problemlər üzündən – elektrik enerjisi, qaz olmadı – bütün bu sahələr məhv edildi. Bu sahəni dirçəltmək üçün yeni bir layihə olacaqdırmı?

**Cavab:** Bunlar elektrik enerjisi, qaz olmadığına görə məhv edilmədi. Bu, sadəcə, Qorbaçovun antialkoqol proqramına görə məhv edildi. Gəlib burada üzüm bağlarını kəsməyə məcbur edəndə, elə bil ki, mənim ürəyimə xəncər sancırdılar. Çünki mən həmin üzüm bağlarının yaradılması üçün 1970-ci ildən nə qədər əziyyət çəkmişdim. Mən fəxr edirdim.

Sən burada birinci katib idin?

**Əhməd Əhmədzadə** (*Meliorasiya və Su Təsərrüfatı Komitəsinin sədri*) **:** Bəli, əvvəlcə Füzulidə, sonra isə burada katib olmuşam.

**Heydər Əliyev:** Bilirəm, sonra bura gəlmisən. Elə bilirsən mənim yadımda deyil? Hamısı yadımdadır. Bayaq mən dedim, burada 120 min ton üzüm istehsal edilirdi.

**Əhməd Əhmədzadə:** Füzulidə 130 min ton üzüm istehsal olunurdu.

**H e y d ə r Ə l i y e v :** Bəli, Füzulidə 130 min ton üzüm istehsal edilirdi. Amma biz vaxtilə Füzulidə üzümçülüyü inkişaf etdirməyə başlayanda orada ildə heç 10 min ton da üzüm əldə olunmurdu.

**Ə h m ə d Ə h m ə d z a d ə :** Bəli, əvvəllər orada ildə heç 10 min ton da üzüm istehsal olunmurdu.

**H e y d ə r Ə l i y e v :** Amma sonra ildə 130 min ton üzüm istehsal edilirdi. Şəmkirdə 120 min ton, Cəlilabadda 200 min ton üzüm əldə olunurdu. Azərbaycanda 2 milyon ton üzüm istehsal edilirdi.

Bu günlərdə Fransanın «Kastel» şirkətinin nümayəndələri gəlmişdi. Söhbət zamanı mən onlara dedim ki, vaxtilə Sovetlər İttifaqında ildə cəmi 6 milyon ton üzüm istehsal olunurdu. Amma o vaxt SSRİ-nin tələbatına görə ildə 8-9 milyon ton üzüm lazım idi.

60 milyon əhalisi olan Fransa keçmiş SSRİ ilə müqayisədə kiçik bir ölkədir. Fransada da, İtaliyada da ildə 10 milyon ton üzüm istehsal edilir. Amma keçmiş SSRİ-də cəmi 6 milyon ton üzüm istehsal olunurdu. Vaxtilə mütəxəssislər müəyyənləşdirmişdilər ki, SSRİ-də üzüm istehsalı üzrə ən əlverişli yer – həm torpağına, həm də hava şəraitinə görə – Azərbaycandır. Yenə də deyirəm, o vaxt biz Azərbaycanda üzümçülüyün inkişaf etdirilməsi sahəsində böyük işlər gördük. Amma saldığımız üzüm bağlarını sonra qırdılar. İndi bunları bərpa etmək olar, ancaq bu baha başa gələr.

Üzüm bağlarını yaratmaq üçün basdırılan çubuqlar beş ildən sonra məhsul verir. Hökumət beş il pul verirdi. Yəni həmin çubuqlar alınırdı, gətirilirdi, kəndlilər onun yerinin hazırlanmasından, əkilməsindən, becərilməsindən pul qazanırdı, beş ildən də sonra məhsul götürürdü. Amma məhsul götürülənə qədər kəndlilər oradan o qədər pul qazanırdılar ki, ondan sonra heç çox pul qazanmağa ehtiyac olmurdu. Bunların hamısını dövlət edirdi. İndi, birincisi, dövlətin belə imkanları yoxdur. İkincisi, biz torpaqları kəndlilərə paylamışıq.

Yenə də deyirəm, mən bu yaxınlarda Fransanın «Kastel» şirkətinin nümayəndələri ilə danışırdım. Prezident Jak Şirak vaxtilə bu şirkət barədə məndən xahiş etmişdi. «Kastel» şirkəti söz vermişdi ki, gəlib Azərbaycanda müəyyən sahədə yeni üzüm sortları əkəcəklər, şərab zavodu tikəcəklər. Amma hələ bunu etməyiblər. İndi onlar pivə zavodunu qurmaqla məşğuldurlar.

Mən belə hesab edirəm ki, bizim iş adamları, torpaq sahibləri bir müddətdən sonra bu məsələni həll edəcəklər. Ancaq burada bir rəqabət var. Bizim əsas bazarımız Rusiyadır. İş burasındadır ki, indi Rusiyadan, digər xarici ölkələrdən respublikamıza yüksək keyfiyyətli o qədər şərab gətirirlər ki, gərək bizim istehsal etdiyimiz şərablar onunla rəqabət apara bilsin.



Keçmiş üzüm bağlarının yenidən bərpa olunması hələ də qüvvədədir. Ancaq indi nə sovxoz, nə də kolxoz yoxdur, dövlət isə bu işi edə bilməz. Amma mən ümidvaram ki, torpağın sahibləri bu işi edəcəklər. Çünki respublikamızda üzümçülüyü, şərabçılığı inkişaf etdirmək üçün çox yaxşı şərait vardır.

**S u a l :** Cənab Prezident, biz bir gündür ki, Sizinlə bir yerdəyik. Sizin gördüyünüz işlər hamının gözü qarşısındadır. Bəzi müxalifət partiyalarının rəhbərləri hazırda Amerika Birləşmiş Ştatlarındadırlar. Siz onların addımlarını necə qiymətləndirirsiniz?

**C a v a b :** Mən onların addımlarını heç qiymətləndirmək istəmirəm.

**J u r n a l i s t :** Cənab Prezident, mənim Moskvada tanışlarım var, Bakıda istehsal olunan şərablar onların çox xoşuna gəlir.

**İ r ş a d Ə l i y e v** (*kənd təsərrüfatı naziri*) **:** Bəli, Azərbaycanda istehsal olunan bir çox şərabların – «Mədrəsəli», «Qız qalası» və sair – Rusiyada alıcıları çoxdur.

Cənab Prezident, Şəmkir bölgəsindəki süfrə üzümü bağlarının hamısı qalır.

**H e y d ə r Ə l i y e v :** Burada «Şampan» sortları da var idi.

**İ r ş a d Ə l i y e v :** Bəli, onların bir qismi saxlanılır. Digər hissəsi isə vaxtilə sıradan çıxıbdır.

**Ə h m ə d Ə h m ə d z a d ə:** Cənab Prezident, «Şampan» sortları vaxtilə Sizin rəhbərliyinizlə əkilmişdi.

**H e y d ə r Ə l i y e v :** Bəli, vaxtilə biz gözəl bir Şampan zavodu tikdirmişdik. İndi əsas məsələ bazardır. Bazarı ələ alsaq, digər işlər yaxşı gedəcəkdir. Əsas məsələ bazarın tapılmasıdır.

## İQTİSADİ ƏMƏKDAŞLIQ TƏŞKİLATININ (EKO-nun) ÜZVÜ OLAN ÖLKƏLƏRİN DÖVLƏT VƏ HÖKUMƏT BAŞÇILARININ ZİRVƏ GÖRÜŞÜNƏ YOLA DÜŞMƏZDƏN ƏVVƏL BİNƏ HAVA LİMANINDA JURNALİSTLƏRİN SUALLARINA CAVAB

*9 iyun 2000-ci il*

**S u a l :** Cənab Prezident, Azərbaycanın iqtisadi əlaqələrinin genişlənməsinə kömək edən bu cür görüşlərdə iştirakınızı necə qiymətləndirirsiniz?

**C a v a b :** Mən bunu həmişə yaxşı qiymətləndirmişəm. Mən Azərbaycanın nəinki iqtisadi sahədə, bütün sahələrdə əlaqələrinə kömək edən hər bir görüşü qiymətləndirirəm və belə görüşlərdə Azərbaycanın, xüsusən Azərbaycan Prezidentinin iştirak etməsini də ən vacib məsələlərdən biri hesab edirəm. Ona görə də mən həmişə belə beynəlxalq, yaxud regional görüşlərə gedirəm və orada Azərbaycanın mövqelərini müdafiə etməyə çalışıram.

**S u a l :** Cənab Prezident, EKO təşkilatının işini fəallaşdırmaq üçün Azərbaycanın hansı təklifləri vardır?

**C a v a b :** Təklifimi orada deyəcəyəm, eşidərsiniz.

**S u a l :** Cənab Prezident, Transxəzər qaz kəməri ilə əlaqədar Siz Türkmənistan prezidenti ilə görüşəcəksinizmi?

**C a v a b :** Türkmənistan prezidenti ilə yəqin ki, görüşəcəyəm. Ancaq Transxəzər kəməri bizim işimiz deyildir. Türkmənistan öz qazını Türkiyəyə satmaq istəyir. Azərbaycan burada tranzit ölkəsidir. Ona görə də, ola bilər, biz bu məsələyə razı olaq və ya razı olmayaq. Amma yenə deyirəm, qazı satan Türkmənistandır, alan da Türkiyədir. Əgər Türkmənistan satırsa, Türkiyə də alırsa, bizdən xahiş ediblər ki, bu qaz kəmərinin Azərbaycandan, Xəzər dənizindən keçməsinə razılıq verək, biz də buna razılıq vermişik. Bu onların işidir. Amma bu məsələ gecikibdir. Bunu kim gecikdirir? Onlar gecikdirirsə, bu onların öz işidir. Azərbaycanın bu barədə təşəbbüs göstərməyinin heç əhəmiyyəti yoxdur. Amma onlar bu məsələni nə vaxt həll etmək istəsələr, söz vermişik ki, biz bu sahədə əməkdaşlıq edəcəyik.



**S u a l :** Cənab Prezident, Siz Mahir Cavadov məsələsinə toxunmusunuz. Bu səfəriniz zamanı onunla bağlı bir məsələ müzakirə edəcəksinizmi?

**C a v a b :** Bilirsən, Mahir Cavadov elə bir şəxs, adam deyildir ki, mən onu müzakirə edim. Srağagün mən bu məsələyə ona görə toxundum ki, 1995-ci ildə Mahir Cavadovla birlikdə Azərbaycanda dövlət çevrilişinə cəhd göstərən Avstriya vətəndaşı Kənan Gürəl o vaxt həbs olunmuşdu. Mən onu əfv etdim. Bir müddət deyirdilər ki, o xəstədir. Sonra Avstriya hökuməti, burada Avstriyanı təmsil edən Almaniya səfiri də bizə bir neçə dəfə müraciət etmişdi.

Amma ən əsası odur ki, Kənan Gürəl bir neçə dəfə mənə müraciət yazıbdır. Yazıbdır ki, mən səhvimi başa düşmüşəm, səhv etmişəm, məni bağışlayın. Yəni, o, əfv olunmağı barədə bir neçə dəfə müraciət yazıbdır. Mən də onun müraciətini, eyni zamanda Avstriya hökumətinin öz vətəndaşlarına göstərdiyi münasibəti nəzərə alaraq onu əfv etdim.

Mən Kənan Gürəli əfv etdikdən sonra Almaniya səfiri ilə görüşümdə dedim ki, görürsünüz, Avstriya kimi mütərəqqi, demokratik bir ölkə aparıb cinayətkara orada sığınacaq verdi, amma Azərbaycanın dövlətçiliyinə qəsd edən, çevrilişə cəhd göstərən, Azərbaycan Prezidentinə terror etmək istəyən adamı biz indi burada əfv edirik. Görün, humanistlik harada daha çoxdur.

**S u a l :** Cənab Prezident, ayın 28-də Azərbaycanın Avropa Şurasına qəbulu məsələsinə baxılacaqdır. Avropa Şurasına qəbul olunmaq Azərbaycana nə verə bilər?

**C a v a b :** Ay qardaş, ay oğul, biz üç ildir ki, orada namizədik. Üç ildir söhbət gedir ki, biz bu şuraya üzv qəbul olunaq. Əgər bu bir şey verməyəcəksə, onda biz üç ildir niyə belə can qoyuruq, cəfakeşlik edirik?

Təbiidir ki, bu, Azərbaycana çox şey verəcəkdir. Çünki biz Avropa ölkəsiyik, Avropa qitəsində yerləşirik. Avropa dəyərləri Azərbaycanda bizim milli-mənəvi dəyərlərimizlə bərabər, necə deyərlər, kök salıbdır. Amma mən onu da xüsusi bildirmək istəyirəm ki, Azərbaycan xalqının öz tarixi, öz milli mədəniyyəti, mentaliteti, milli-mənəvi dəyərləri vardır. Biz hansısa bir ölkəyə xoş gəlmək üçün bu milli-mənəvi dəyərlərimizdən heç vaxt imtina edə bilmərik.

Eyni zamanda, dünyada ümumbəşəri dəyərlər vardır. Azərbaycan olaraq biz, xalqımız bu il yox, keçən il yox, hələ XIX əsrdən ümumbə-

şəri dəyərlərə tədricən – böyük sürətlə olmasa da – bağlanıbdır. Artıq XX əsrdə bu ümumbəşəri dəyərləri öz milli-mənəvi dəyərlərimizlə sintez edərək, Azərbaycanda xüsusi bir əxlaqi-mənəvi dəyərlər forması yaratmışıq.

Biz həm Avropa qitəsindəyik, həm də ümumbəşəri Avropa dəyərlərindən bəhrələnirik, demokratiya, hüquq, bazar iqtisadiyyatı yolu ilə gedirik. Ona görə də nə üçün biz bu təşkilatdan kənarda qalaq? Onlar da istəyirlər ki, biz bu təşkilatda olaq. Çünki onlar istəyirlər ki, bütün Avropanı əhatə etsinlər. Biz də bunu istəyirik. Amma bu nə verəcək – onu gələcək göstərəcəkdir.

**S u a l :** Cənab Prezident, Təbrizdə Azərbaycan konsulluğunun açılması məsələsini İranda müzakirə edəcəksinizmi?

**C a v a b :** Bilirsiniz ki, biz bu məsələni çoxdan qaldırmışıq. Amma nə olacaq – onu deyə bilmərəm.

**S u a l :** Cənab Prezident, ikitərəfli görüşlərinizdə Qafqazda təhlükəsizlik və əməkdaşlıq paktı məsələsi barədə müzakirələr aparacaqsınızmı?

**C a v a b :** Bilirsiniz ki, mən ATƏT-in İstanbul Zirvə görüşündə Qafqazda təhlükəsizlik və əməkdaşlıq paktı barədə təklif irəli sürmüşəm. Ondan sonra Türkiyənin prezidenti hörmətli Süleyman Dəmirəl də təxminən bu fikirlərlə əlaqədar səkkiz ölkəyə məktublar göndərmişdi ki, Qafqazda sülh, təhlükəsizlik və əməkdaşlıq paktı olsun. Biz bunun təşəbbüskarıyıq. Ancaq onu həyata keçirmək bir çox şərtlərdən, birinci növbədə, Ermənistan-Azərbaycan münaqişəsinin sülh yolu ilə aradan qaldırılmasından asılıdır. Əgər bunlar mümkün olarsa, Qafqazda təhlükəsizlik və əməkdaşlıq paktını yaratmaq mümkündür.

**S u a l :** Cənab Prezident, Ermənistan-Azərbaycan münaqişəsi məsələsi orada qaldırılacaqmı?

**C a v a b :** Bilirsiniz ki, biz Ermənistan-Azərbaycan münaqişəsi məsələsini hər yerdə qaldırırıq və qaldırmalıyıq. Ümumiyyətlə, Azərbaycan təmsilçilərinin, o cümlədən siz jurnalistlərin ən böyük çatışmazlığı ondan ibarətdir ki, Azərbaycan Ermənistanın təcavüzü altına düşübdür, torpaqlarımızın 20 faizi işğal edilibdir, bir milyondan çox azərbaycanlı öz ölkəsində qaçqın düşübdür, ağır şəraitdə yaşayır, ancaq Azərbaycanın bu vəziyyəti dünyada hələ indiyə qədər olduğu kimi məlum deyildir. Ermənistanın təbliğatı güclüdür. Əlbəttə ki, Ermənistanın imkanları da çoxdur, çünki onların hər yerdə lobbiləri vardır. Amerikada oturan ermənilər hər gün müzakirə edirlər ki, Dağlıq Qarabağ necə olacaq, Ermənistan necə olacaq? Ermənistanın rəhbərləri bunu heç o qədər müzakirə etmirlər, amma Amerikada, Fransada, başqa ölkələrdə, elə Moskvada oturan ermənilər bunu edirlər. Bu münaqişə hələ ki, həll olunmayıbdır, ona görə də bu mövzu çox aktual, vacib mövzudur. Bu məsələni heç vaxt unutmaq olmaz və kiçikdən böyüyə qədər hamı – jurnalist də, dövlət məmuru da, yaxud dövlət xadimi də, siyasi xadim də – kim olursa-olsun, bu məsələni hər yerdə, həmişə deməlidir ki, nəhayət, dünya ictimaiyyəti obyektiv məlumat ala bilsin.



**S u a l :** Cənab Prezident, İrana nə vaxt rəsmi səfər edəcəksiniz?

**C a v a b :** Baxaq, görək.

**S u a l :** Cənab Prezident, İranda yaşayan azərbaycanlıların hüquqları ilə bağlı məsələ Azərbaycan-İran münasibətlərində əks olunubmu? Vilayət Quliyev Amerikada səfərdə olarkən bu barədə bəyanat vermişdi.

**C a v a b :** Bilirsiniz, Vilayət Quliyev nə deyib – mən bilmirəm. Azərbaycanda bir məsəl var: «Özünə umac ova bilməyən, başqasına əriştə kəsmək istəyir». Bildiniz bunun mənası nədir? Bizim özümüzün, bir milyondan çox azərbaycanlının hüquqları tapdalanıbdır. Azərbaycan ərazi bütövlüyünün pozulması ilə əlaqədar bu dəqiqə dünyada ən ağır vəziyyətdə olan bir ölkədir. Biz öz problemlərimizi həll etməliyik. Yoxsa, sən istəyirsən burada Filippinin, yaxud da İndoneziyanın məsələsini həll edəsən. Bəzi adamlar populist fikir söyləyərək deyirlər ki, İranda azərbaycanlıların hüquqları tapdalanıbdır. Qoy o adamlar gedib desinlər ki, Azərbaycanda azərbaycanlıların hüquqları tapdalanıbdır. Bunlar kənarda qalıb, başlayıblar ki, orada azərbaycanlıların hüquqları tapdalanıbdır. İranda bizdən sayca bir neçə dəfə çox azərbaycanlı var və orada azərbaycanlılar dövlətdə, Parlamentdə, hökumətdə təmsil olunublar. Özləri bilirlər ki, onların hüquqları tapdalanıb, yaxud tapdalanmayıbdır və necə bilirlər, o cür də hərəkət etməlidirlər. Biz başqa ölkənin işinə qarışmamalıyıq. Bizim də ölkənin işinə heç kəs qarışmamalıdır. Biz İranın daxili işinə qarışmamalıyıq. Biz İranla dostluq, əməkdaşlıq münasibətləri yaratmalıyıq.

Lazımi qədər təfəkkürü olmayan bəzi adamlar öz şəxsi populist niyyətlərinə görə bu işdə Azərbaycana zərbə vururlar. Sən də bu sualı verməklə onu göstərirsən. Gəl sən də, mən də, hamımız yığışaq, müstəqil Azərbaycanda olan azərbaycanlıların hüquqlarını qoruyaq və

ölkəmizi bu ağır vəziyyətdən çıxaraq. Yoxsa, öz ölkən ağır vəziyyətdədir, düşmüsən ki, Təbrizdə nə var, nə bilim, Ərdəbildə nə var. Bu onların öz işidir.

**J u r n a l i s t :** Xarici işlər naziri belə bəyanat vermişdi.

**H e y d ə r Ə l i y e v :** Xarici işlər naziri əgər bunu deyibsə, düz deməyibdir.

**S u a l :** Cənab Prezident, bu səfər zamanı neft və qaz sahəsində əməkdaşlıq barədə bir məsələ müzakirə ediləcəkmi?

**C a v a b :** Nə olacağını bilmirəm. Sağ olun.



## «DİALOQ AVRASİYA» DƏRGİSİNİN TƏQDİMAT MƏRASİMİNDƏ NİTQİ

*Bakı, Gülüstan sarayı*
*13 iyun 2000-ci il*

– Hörmətli xanımlar və cənablar! Hörmətli qonaqlar!

Mən sizi bu gün bu əlamətdar hadisə – «Dialoq Avrasiya» dərgisinin, jurnalının təqdim olunması münasibətilə ürəkdən təbrik edirəm. Bu dərgiyə uzun ömür və daimi uğurlar arzulayıram.

Bu gün dərginin təqdimat mərasimində Türkiyədən Azərbaycana gəlmiş hörmətli qonaqlarımız – yazıçılar, qəzetçilər, alimlər, ziyalılar bu salondadırlar. Mən sizin hamınızı səmimi-qəlbdən salamlayıram. Azərbaycana xoş gəlmisiniz, səfa gətirmisiniz!

Belə bir dərginin meydana çıxması böyük və çox əhəmiyyətli təşəbbüsdür. Buradakı çıxışlardan mən anladım ki, bu fikir çox illər öncə meydana gəlmiş bir fikirdir, bu dərgini təsis edənlərin, onun arzusunda olanların qəlblərindəki fikirdir. Onların çalışmaları nəticəsində, nəhayət, belə bir dərgi yaranıbdır.

Mən bunu əlamətdar hadisə hesab edirəm. İnanıram ki, «Dialoq Avrasiya» dərgisi Avropa ilə Asiya arasındakı əlaqələrin inkişaf etməsinə, Avropa və Asiyanın bir-birinə qovuşmasına yardım edəcəkdir.

Son illər dünyada çox böyük və siyasi əhəmiyyətli proseslər gedir. Bunların əsasını təşkil edən qloballaşma prosesidir. Qloballaşma ilk növbədə, iqtisadi, ticarət nöqteyi-nəzərindən meydana gəlibsə də, ancaq «qloballaşma» geniş məfhumdur. Bunu biz belə anlayırıq, belə qəbul edirik. «Qloballaşma» o deməkdir ki, ölkələr, xalqlar, millətlər bir-biri ilə daha da yaxınlaşmalı, əlaqələri inkişaf etdirməlidirlər. «Qloballaşma» o deməkdir ki, dünyada daimi sülh, əmin-amanlıq yaranmalıdır, hərbi münaqişələrə son qoyulmalıdır, gələcəkdə baş verə biləcək hansısa bir münaqişənin qarşısı alınmalıdır, bundan sonra heç bir müharibəyə yol verilməməlidir. XX əsrin sonunda bəşəriyyət bu əsrdə gördüyü dəhşətləri nəzərə alaraq, başa çatmaqda olan bu əsrin bir tərəfdən bəxş etdiyi elmi-texniki tərəqqini, ikinci tərəfdən bu əsrin bəşəriyyətə, xüsusən Avropa və Asiyaya gətirdiyi faciələrin hamısını nəzərə alaraq artıq dərk edibdir ki, XX əsrin nailiyyətlərindən bütün bəşə-

riyyət XXI əsrdə bəhrələnməlidir. Amma XX əsrin faciələrinə, müharibələrinə, qırğınlarına son qoyulmalıdır, artıq onlar XXI əsrə keçməməlidir.

Biz Azərbaycanda XXI əsri məhz bu duyğularla, fikirlərlə qarşılayırıq və istəyirik belə olsun. Ona görə də bir müstəqil dövlət kimi, bu prosesdə öz yerimizi tapmağa çalışırıq, öz töhfəmizi vermək istəyirik.

Bütün bunlar başqa vasitələrlə yanaşı, birinci növbədə dialoqdan asılıdır. Dialoq həm xalqların, millətlərin daha da dürüst, daha da düzgün, daha da obyektiv göstərilməsi, yazılması üçün lazımdır. Dialoq həm də ölkələrin, xalqların, millətlərin bir-biri ilə əməkdaşlıq etməsi və bunun nəticəsində dünyada sülhün yaranması üçün lazımdır. Ona görə də sizin «Dialoq Avrasiya» dərginiz dünyada qarşıda duran bu qloballaşma vəzifəsinin bir hissəsini təmin edə bilər. Yəni ona öz xidmətini göstərə bilər, payını verə bilər. Avropa-Asiya Yer kürəsinin şərqinin əksər hissəsini təşkil edir.

Təbiidir ki, İspaniya da, Portuqaliya da Avropaya aiddir, Yaponiya, Çin də Asiyadır. Eyni zamanda İndoneziya da, Filippin də – bunların hamısı Asiya qitəsinə aiddir. Bu qitə Yer kürəsində dünya əhalisinin çox hissəsini özündə təmsil edən bir qitədir. Əhalinin əksər hissəsi dünyanın bu hissəsində yaşayır.

Dünyada gedən böyük proseslər, həm qədim tarix, həm də yeni tarix əsasən bu qitələrdə yaranıbdır. Şərqdə, Avropada – Qərbi Avropada, Şərqi Avropada, Yaxın Şərqdə, Uzaq Şərqdə, demək olar ki, ən qədim dövlətlər, xalqlar, mədəniyyətlər mövcuddur. Ona görə də Avropa-Asiya dialoqu çox geniş bir anlayışdır. Bu gün bizim gördüyümüz dərginin əhatə etdiyindən qat-qat genişdir. Ona görə də «Avrasiya dialoqu» deyəndə, mən bu gün belə başa düşdüm ki, siz Avropanın və Asiyanın müəyyən bir hissəsini nəzərə alırsınız. Bu da yəqin ki, məqsədəuyğundur. Çünki dünyanın hamısını qucaqlamaq mümkün deyildir. Dünyanın yarısını da qucaqlamaq mümkün deyil.

Əgər həqiqətən sizin bu dərgidə – bu gün birinci nömrəni mən artıq vərəqlədim – göstərilən ölkələr arasında dialoq yarana bilsə, bunun özü böyük bir hadisə olacaqdır, ümumiyyətlə, Avrasiya məkanında dialoqun daha geniş mənada yaranmasına xeyir edəcəkdir.

Mən belə anlayıram ki, burada bu işin əsas təşəbbüskarı Türkiyə ziyalıları, alimləri, yazıçıları, qəzetçiləri və Azərbaycan yazıçıları, ziyalıları, alimləridir. Eyni zamanda, artıq görünür ki, başqa ölkələr də bu dərgidə təmsil olunublar. Bu onu göstərir ki, siz həqiqətən müəyyən bir çərçivəni əhatə etmisiniz. Bu çox sevindirici haldır. Bu gün bunun özəyini təşkil edən Türkiyə və Azərbaycandır. Xüsusən onu qeyd etmək lazımdır ki, bu birinci növbədə Türkiyə Cümhuriyyətinin, onun alimlərinin, ziyalılarının təşəbbüsünün nəticəsidir. Şəxsən mən bunu qiymətləndirirəm.



Vaxtilə, Sovetlər İttifaqı dağılandan, bu ittifaqa daxil olan cümhuriyyətlər müstəqilliyini əldə edəndən sonra məhz Türkiyə Cümhuriyyətinin və mərhum prezident Turqut Özalın və Türkiyənin doqquzuncu prezidenti Süleyman Dəmirəlin təşəbbüsü ilə Türkdilli Dövlətlər Birliyi yaranmışdır. Ötən dövrdə bu birlik çox iş görmüşdür. Bilirsiniz ki, bu birliyin dövlət başçılarının son görüşü bu ilin aprel ayında Azərbaycanda keçirilmişdir. Aprel ayında Azərbaycanda «Kitabi-Dədə Qorqud»un 1300 illik yubileyini hamımız birlikdə qeyd etdik. Onlar bir-biri ilə bağlıdır. Çünki əgər Türkdilli Dövlətlər Birliyi 1992-ci ildə yaranıbsa, bunun tarixi çox azdır. Amma bizim birliyimiz, bizim tarixi köklərimiz böyük tarixə malikdir. Bu köklər çox dərindir. Bu köklər «Kitabi-Dədə Qorqud»dur. Ancaq «Kitabi-Dədə Qorqud» da bunun bir mərhələsidir. Bizim xalqlarımızın tarixi «Kitabi-Dədə Qorqud»un 1300 illik tarixindən də qat-qat qədimdir, qat-qat çoxdur. Ancaq hər halda, «Kitabi-Dədə Qorqud» bütün dünyaya onu nümayiş etdirdi ki, bizim xalqlarımız qədim mədəniyyətə, ədəbiyyata, dilə malik olan xalqlardır. Bizim xalqlarımızın kökü birdir. Heç də təsadüfi deyil ki, «Kitabi-Dədə Qorqud» türkdilli ölkələrdə eyni səviyyədə tanınır. Biri ona «Kitabi-Dədə Qorqud» deyir, o birisi «atam Qorqud» – hərə bir cür deyir. Türkdilli dövlətlərə mənsub olan hər bir xalq deyir ki, bu mənimdir. Bu da təbiidir. Bu həm mənimdir, həm də hamımızındır. Çünki hər kəs nəyinsə ona mənsub olduğunu dərk edə bilməsə, onun eyni zamanda qardaşına mənsub olduğunu dərk edə bilməz. Ona görə «Kitabi-Dədə Qorqud» hamımızındır, bütün türkdilli dövlətlərin, türkdilli millətlərin milli və əvəzedilməz bir sərvətidir.

Ancaq bu proseslərin inkişaf etməsində mən yenə də Türkiyənin rolunu xüsusi qeyd edirəm. Bu da təbiidir. Çünki biz dövlət müstəqilliyimizi cəmi 8-9 il bundan öncə əldə etmişik. Amma Türkiyə Cümhuriyyəti 1923-cü ildə yaranıbdır. O, böyük Atatürkün rəhbərliyi altında və onun iradəsi ilə yaranan bir dövlətdir. Ancaq ondan öncə Osmanlı imperatorluğunun 700 illik tarixi var. Osmanlı imperatorluğunun dünya

tarixində rolu və dünya mədəniyyətinə, dünya elminə verdiyi pay həddindən çox böyükdür. Türkiyənin o böyük tarixi keçmişi, həm də 1923-cü ildə Osmanlı imperatorluğu dağıldığı zaman böyük qüdrət göstərərək öz torpaqlarını qoruyub, imperatorluğun külləri içində cümhuriyyət yaradıb xalqı tərəqqi yolu ilə aparması və indi dünyada böyük dövlətlərdən biri olması bizim hamımız üçün böyük dayaq olmuşdur.

Ona görə də biz, yəni yeni müstəqillik əldə etmiş xalqlar birləşərkən Türkiyənin təşəbbüsü, bu dövlətin köməyi, Türkiyənin bu işdə fəaliyyəti, təbiidir ki, əsas rol oynamışdır.

Güman edirəm ki, sizin dərginiz bu prosesin daha da inkişaf etməsinə kömək edəcəkdir. Ancaq bu, işin bir hissəsidir. Dərgi öz qarşısında daha geniş məqsədlər qoyubdur. Hesab edirəm ki, onlar da təqdirəlayiqdir.

Avrasiya məkanı tarixi əlaqələr nöqteyi-nəzərindən böyük tarixə malikdir. Bu baxımdan bizim son illər qədim İpək Yolunun bərpası ilə məşğul olmağımız da məhz Avrasiya dialoqunu, Avrasiya birliyini yaratmaq məqsədini daşıyır. «Qədim İpək Yolu» deyəndə bəzən onu daha çox ticarət vasitəsi kimi anlayırlar. Amma əslində qədim İpək Yolu bəlkə də əsasən ticarət üçün yaranaraq, eyni zamanda bu yolun üzərində yerləşən ölkələrin və onların əhatəsində olan dövlətlərin, xalqların mədəniyyətinin inkişaf etməsi üçün, bir-biri ilə əlaqə yaradaraq hər birinin əldə etdiyi nailiyyətlərdən bəhrələnməsi üçün çox böyük rol oynamışdır. Ona görə də indi biz qədim İpək Yolunu bərpa edərkən, birinci növbədə kommunikasiyaların yaranması və bu kommunikasiyalar vasitəsilə ticarət əlaqələrinin yaranması məqsədlərini qarşımıza qoyuruq. Çünki bunlar çox vacibdir. İqtisadiyyat, ticarət, mal mübadiləsi hər şeyin əsasını təşkil edir. Ancaq bunlar istər-istəməz xalqların mədəniyyətinin, elminin bir-birinə daha da qovuşması üçün böyük imkanlar yaradacaqdır. Ona görə də biz Böyük İpək Yolunun bərpası, yaranması üçün başqa dövlətlərlə birlikdə son illər çox iş gördük.

Bilirsiniz ki, Böyük İpək Yolunun bərpası ilə əlaqədar 1998-ci ilin sentyabr ayında Bakıda, məhz bu salonda beynəlxalq konfrans keçirdik. 32 ölkənin nümayəndələri və 13 beynəlxalq təşkilatın təmsilçiləri bu konfransın iştirakçıları idi. 9 ölkədən nümayəndə heyətlərinə dövlət başçıları – prezidentlər rəhbərlik edirdilər.

TRASEKA proqramı – qədim İpək Yolu eyni şeydir. Biz qədim İpək Yolunun və Avropa Birliyi tərəfindən irəli sürülmüş TRASEKA



proqramının həyata keçirilməsi üçün böyük saziş imzaladıq. Bu sazişin, bu proqramın həyata keçirilməsinin mərkəzi də məhz Azərbaycan, Bakıdır. Onun daimi katibliyi Azərbaycanda yerləşir və burada həmin daimi katiblik bütün bu işlərin həyata keçirilməsi ilə məşğul olacaqdır.

Siz öz dərginizlə bu Böyük İpək Yolunun bir qismini əhatə edirsiniz. Beləliklə, öz qarşınızda qoyduğunuz məqsədlərə nail olursunuz, böyük iş görürsünüz. Amma eyni zamanda bu böyük proqramın, məhz qloballaşma prosesi ilə əlaqədar olan bu böyük proqramın həyata keçirilməsinə də xidmət edirsiniz.

«Dialoq Avrasiya» dərgisinin birinci nömrəsində bir neçə ölkə, bəzi adət-ənənələr haqqında məlumatlar vardır. Məni çox sevindirən Novruz bayramı haqqındakı məqalələr oldu. Nə üçün? Çünki Novruz bayramı qədim zamanlardan Azərbaycan xalqının ən istəkli bayramı olmuşdur. Doğrudur, Sovet hakimiyyəti vaxtında buna məhdudiyyət qoyulmuşdu. O mənada ki, bu, bir ictimai məna, xarakter daşıyan bayram kimi qeyd olunmurdu. Ancaq hər bir azərbaycanlı ailəsi Novruz bayramını qeyd edirdi və bizim üçün o bayramdan əziz bayram heç vaxt olmayıbdır. Amma mən sonralar hiss etdim ki, bizim türkdilli başqa ölkələrdə Novruz bayramı Azərbaycanda olduğu kimi qeyd edilmir.

Bəzilərində də heç qeyd edilmir. Məsələn, bizim qardaş Türkiyədə Novruz bayramı qeyd edilmir. Xatirimdədir, bir-iki il bundan öncə Türkiyədən bura mənim qonaqlarım gəlmişdi. Elə oldu ki, onların gəlişi Novruz bayramı gününə düşdü. Novruz bayramı şənliklərini, buradakı kütləvi mərasimləri, hər bir azərbaycanlının bu bayramı nə qədər qiymətləndirdiyini görənlər mənim dostum, qardaşım Süleyman Dəmirələ bunların hamısını danışandan sonra o demişdi ki, bəs biz indiyə qədər niyə bu bayramı belə qeyd etmirik?

Türkiyədə də Novruz bayramını qeyd etməyə başlamışlar. Amma hələ zəif qeyd edirlər. Mən bunu dostlarımıza açıq demək istəyirəm. Təbiidir ki, mən bununla heç kimə heç bir şeyi calamaq istəmirəm. Ancaq bu bizim bütün xalqlarımızın qədim bayramıdır.

Orta Asiya ölkələrində də Novruz bayramı Azərbaycanda olduğu kimi qeyd edilmirdi. Amma indi ara açılmış, bir-birimizlə əlaqələrimiz genişlənmişdir. Sovet ideologiyasının məhdudiyyətləri üzərimizdən götürülmüşdür. Mən televiziya ilə baxıram, görürəm ki, Novruz bayramı Özbəkistanda çox geniş qeyd olunur. Orta Asiyanın başqa ölkələrinin bəzisində az, bəzisində çox qeyd olunur.

Mən gördüm ki, siz Türkmənistanda Novruz bayramının necə keçirilməsini dərgidə yazmısınız. Sizin bu dərginiz vasitəsilə xalqlar bir-birinin keçmiş adət-ənənələrini daha da yaxından tanıyacaqlar, biləcəklər. Amma keçmişdə ayrılıq ona səbəb olmuşdu ki, biz bunları bilmirdik. Bir də ki, əvvəllər birlik yaradan belə vasitələr yox idi. İndi ölkələrimiz arasında əvvəlki ayrılıq yoxdur, yəni sədlər götürülübdür. Amma eyni zamanda, indi belə bir dərgi vasitəsilə siz bunu yayacaqsınız. Bütün ölkələrdə hamı biləcəkdir ki, Novruz bayramı nədir. Güman edirəm ki, hamı Novruz bayramını Azərbaycanda olduğu kimi qeyd edəcəkdir.

Məni bağışlayın, amma mən bu gün iftixar hissi ilə deyirəm ki, Novruz bayramı Azərbaycanda qeyd edilən kimi indiyədək heç bir yerdə keçirilməyibdir. Yəni bizim xalqımız bu adət-ənənəni saxlayıbdır.

İndi dərgidəki bu məqalələrə baxanlar sadəcə olaraq, bir o qədər dərindən fikir vermirlər. Mən gördüm ki, jurnalın nə qədər böyük əhəmiyyəti var. Ancaq bu hələ başlanğıcdır, ilk addımdır. Təbiidir ki, siz bu təşəbbüslə böyük bir yol açmısınız. Əgər siz bu yolla uğurla gedə bilsəniz, çox işlər görə biləcəksiniz.

Mən bir məsələni də aydınlaşdırmaq istəyirəm. Bilmirəm, siz bu dərgini ictimai, elmi, mədəni dərgi kimi təsis etmisiniz, yaxud bunun müəyyən siyasi xarakteri də var. Özünüz üçün bunu da araşdırmalısınız. Əgər siz çoxlu mövzu götürsəniz, mənə belə gəlir ki, bu bir qədər çətinliklər yarada bilər. Çünki mən dərgiyə baxdım – Qırğızıstanda siyasi partiyalar haqqında yazı vermisiniz. Deməli, bu, siyasi məsələdir. Mən heç bir şey demək istəmirəm. Dərgiyə yalnız bu gün, ötəri olaraq baxmışam. Dərginin yaranmasından da mənim heç xəbərim yox idi. Mən bunu sizə tam etiraf edirəm. Amma sadəcə olaraq, sual edirəm, özünüz müəyyən edəsiniz ki, doğrudan da əgər bu lazımdırsa, edin. İndi heç bir şeyə məhdudiyyət yoxdur, mətbuat azadlığı, fikir azadlığı, söz azadlığıdır, hər şey azaddır. Əgər siyasət məsələləri də olacaqsa, bu da ola bilər.

Ancaq yox, dərgi daha çox elmi, mədəni, ictimai xarakter daşıyacaqsa, bu başqa məsələ. Yenə də bildirirəm – mən sadəcə olaraq, sizə öz fikrimi deyirəm, heç bir təklif də vermirəm, bunu sizə sadəcə olaraq düşünmək üçün deyirəm.

Siz burada mənə ödül verdiniz. Ancaq düzü, heç düşünmürdüm ki, siz mənə belə bir mükafat verəcəksiniz. Əgər siz Türkdilli Dövlətlər



Birliyinin, xüsusilə Türkiyə ilə Azərbaycan arasında əlaqələrin inkişaf etdirilməsində mənim xidmətlərimi qiymətləndirmisinizsə, çox sağ olun, təşəkkür edirəm. Ancaq bu barədə mənim gördüyüm iş, apardığım siyasət dövlətimizin xarici siyasətinin üstün istiqamətidir. Artıq yeddi ildir ki, mən Azərbaycanın dövlət başçısı, Prezidenti kimi bu siyasəti aparıram. Özü də burada hörmətli dostumuz dedi ki, bu mükafatın təqdim edilməsi Milli Qurtuluş Günü ərəfəsindədir.

Bu gün iyun ayının 13-dür. Həqiqətən, yeddi il bundan öncə iyun ayının 13-də mən burada Vətəndaş müharibəsinin qarşısının alınması ilə məşğul idim. Məhz bu gün mən Vətəndaş müharibəsi baş vermiş Gəncə şəhərinə getdim. Ağır günlər idi, qardaş qanı tökülürdü, insanlar bir-birini qırırdılar. Getdim odun-alovun içərisinə və Azərbaycanın ağır vəziyyətini görərək iyun ayının 15-də məsuliyyəti öz üzərimə götürmək qərarını qəbul etdim, razılıq verdim və məni Azərbaycan Parlamentinin – Milli Məclisin sədri seçdilər. İki gün ondan sonra prezidentimiz qeyb oldu. Ona görə də o gündən mən Azərbaycanda prezident səlahiyyətlərini öz üzərimə götürməyə məcbur oldum.

O vaxtdan da mən Azərbaycanın dövlət başçısıyam. O gündən mən dövlət başçısı kimi, Türkiyə ilə Azərbaycan arasında əlaqələrin inkişaf etdirilməsini ölkəmizin xarici siyasətinin əsas, üstün istiqaməti kimi qarşıma qoymuşam və bunu ardıcıl surətdə həyata keçirirəm. Bu da təsadüfi deyil. Birincisi, bu bizim tarixi köklərimizlə, keçmişimizlə bağlıdır. İkincisi, Türkiyə ilə Azərbaycan arasında XX əsrdə də elə dövrlər olmuşdur ki, Türkiyə Azərbaycana böyük yardımlar etmişdir.

Bizim tarixi köklərimiz, adət-ənənələrimiz, eyni dildə danışmağımız, yəni eyni dilə mənsub olmağımız, bütün başqa amillər və Türkiyənin Azərbaycanı Qafqazda özü üçün böyük dayaq hesab etdiyinə görə və Türkiyənin də Azərbaycan üçün böyük dayaq olduğuna görə mən bu siyasəti aparmışam və aparıram.

Bilirsiniz ki, Azərbaycanın 10-12 il bundan əvvəl başlanmış ağır bir problemi Ermənistanın Azərbaycana təcavüzüdür, bunun nəticəsində Azərbaycan torpaqlarının bir qisminin işğal olunması, həmin torpaqlardan bir milyon azərbaycanlının zorla çıxarılmasıdır. O vaxtdan, yəni Ermənistanın Azərbaycana təcavüz etdiyi zamandan, hələ Azərbaycan Sovetlər İttifaqının tərkibində olmasına baxmayaraq, Türkiyənin ictimaiyyəti, türk xalqı və dövləti Azərbaycanın bu vəziyyətində ölkəmizə dayaq olmuş və Azərbaycanın haqq işini müdafiə etmiş, bizimlə bir

yerdə olmuşdur. Bu sahədə Azərbaycanla belə əlaqə saxlayan ikinci bir dövlət yoxdur. Təbiidir ki, bu da təsadüfi hal deyildir, yəni xalqlarımız arasında əsrlər boyu yaranmış münasibətlərin nəticəsidir. Bu, təkcə ölkə liderlərinin, dövlətlərin və hökumətlərin iradəsi deyil. Bu, xalqlarımızın iradəsidir. Xalqların iradəsi də dövlətlərin, hökumətlərin iradəsində öz əksini tapır.

Azərbaycan dövlət müstəqilliyi əldə etdikdən sonra ötən illərdə biz Türkiyə ilə əlaqələrimizdə böyük nailiyyətlər əldə etmişik.

Bizim insanlarımız Sovet hakimiyyəti dövründə Türkiyə həsrəti ilə yaşayırdılar. Türkiyədə də başqa yerlərə nisbətən, daha çox Azərbaycana diqqət yetirirdilər. Təsadüfi deyil ki, böyük Mustafa Kamal Atatürk demişdi ki, «Azərbaycanın ələmi bizim ələmimizdir, Azərbaycanın sevinci bizim sevincimizdir». Bu sözlər həm Türkiyənin dövlət başçıları tərəfindən, həm də mənim tərəfimdən dəfələrlə təkrar olunubdur. Ancaq elə bu sözlər onu göstərir ki, hələ o vaxt – bu sözlər 1930-cu ildə deyilibdir – Türkiyə Azərbaycan haqqında düşünübdür, ölkəmiz və xalqımız haqqında düşünübdür. Deməli, bizim xalqlarımız daim bu həsrətlə yaşayıblar və nəticədə də bir-birinə qovuşublar.

Türkiyə Cümhuriyyəti 1923-cü ildən bu günədək böyük yol keçmiş və böyük nailiyyətlər əldə etmişdir. Mən Türkiyə Cümhuriyyəti yaranmasının 75-ci ildönümü mərasimində böyük iftixar hissi ilə iştirak etdim. Bu cümhuriyyətin yaranması, inkişaf etməsi və bu gün dünyanın böyük dövlətlərindən biri olması xalqın iradəsidir, xalqın unudulmaz lideri böyük Mustafa Kamal Atatürkün xidmətləridir. Ona görə də Türkiyədə olduğu kimi, Türkiyə Cümhuriyyətinin yaranmasını və Mustafa Kamal Atatürkün xidmətlərini Azərbaycanda da yüksək qiymətləndirirlər.

Mən çox sevinirəm ki, burada qeyd olunduğu kimi, keçən il mənə Mustafa Kamal Atatürkün adını daşıyan sülh mükafatı – ödülü verildi.

Mustafa Kamal Atatürk demişdir: «Yurdda sülh, cahanda sülh». O, bax, bu sözlərlə sülh uğrunda mübarizə aparmışdı. Onun adını daşıyan mükafatın mənə verilməsi, təbiidir ki, Azərbaycan-Türkiyə, Türkiyə-Azərbaycan dostluğuna, qardaşlığına verilən yüksək qiymətdir. Burada mənim də xidmətlərim qeyd olunubsa, mən bunu özüm üçün şərəf hesab edirəm.

Ancaq yenə sizin dərginin məzmununa qayıtmaq istəyirəm. Dərginiz təkcə türkdilli dövlətləri, Türkiyə və Azərbaycanı yox, geniş bir



ərazini əhatə edir. Arzu edirəm ki, dərginiz nəzərdə tutduğunuz həmin ölkələr arasında fikir mübadiləsini, tarixi keçmişi və bu günü doğrudan da yaxşı təsvir edə bilsin. Bunların hamısı bizim bu məkanda xalqları bir-biri ilə daha da yaxınlaşdıracaq, birləşdirəcək, sülhə, əmin-amanlığa xidmət edəcəkdir.

Güman edirəm ki, gələcəkdə dərgi təkcə türk və rus dillərində yox, başqa dillərdə də çıxacaqdır.

Mən başa düşürəm ki, rus dili türkdilli dövlətlər və başqa dövlətlər üçün elə bir dildir ki, biz bunu bilirik. Ona görə də dərgi rus və türk dillərində nəşr olunur. Amma gələcəkdə hər bir xalqın dilində nəşr edilərsə, bu daha da yaxşı olar. Bilmirəm, bəlkə siz də bu barədə düşünəsiniz: əgər mənim bu fikrim sizin üçün faydalı olarsa, qəbul edəsiniz, faydalı olmasa – yox.

Bir sözlə, doğrusu, bu gün səhər mənə deyəndə ki, məni belə bir tədbirə dəvət ediblər, işim də çoxdur, çox tərəddüd edirdim – gələcəyəm, yaxud gələ bilməyəcəyəm: bura nəyə gəlirəm, bu dərgi nədir? Ona görə də götürüb dərgi ilə müəyyən qədər tanış olmağa məcbur qaldım. Ancaq indi görürəm ki, doğrudan da sizin dəvətiniz təkcə sizin üçün yox, mənim üçün də faydalı imiş. Çünki gəlib həm sizinlə görüşdüm, həm də bu münasibətlə bəzi fikirlərimi sizə çatdırdım.

Sizə bu yolda bir daha uğurlar, hamınıza cansağlığı, səadət arzulayıram. Sağ olun.

## MÜSTƏQİL DÖVLƏTLƏR BİRLİYİNİN ÜZVÜ OLAN ÖLKƏLƏRİN DÖVLƏT BAŞÇILARININ NÖVBƏTİ ZİRVƏ GÖRÜŞÜNDƏ İŞTİRAK ETMƏK ÜÇÜN MOSKVAYA YOLA DÜŞMƏZDƏN ƏVVƏL BİNƏ HAVA LİMANINDA JURNALİSTLƏRİN SUALLARINA CAVAB

*20 iyun 2000-ci il*

**Sual:** Cənab Prezident, sammitdə hansı məsələlər müzakirə ediləcək və bu səfər zamanı ikitərəfli görüşləriniz nəzərdə tutulubmu?

**Cavab:** Bu sammitdə müzakirə olunacaq məsələlər artıq məlumdur. Bunlar bir neçə məsələdən ibarətdir. Azad ticarət zonası yaratmaq məsələsi sammitin gündəliyində çoxdan durur. Biz onu qəbul etmişik, amma bəzi ölkələr qəbul etməyiblər. Bu məsələyə xüsusən Rusiyanın müxtəlif etirazları var idi. Ola bilər ki, bunlar aradan götürülsün. İndi əsas məsələ budur. Gündəlikdə beynəlxalq terrorizmə qarşı mübarizə və digər məsələlər də vardır. Hər halda, bu məsələlər müzakirə olunduqdan sonra siz onları biləcəksiniz. Eyni zamanda, ikitərəfli görüşlər də nəzərdə tutulubdur. Mən bu gün Ermənistan prezidenti Robert Koçaryanla, sonra Rusiya prezidenti Vladimir Putinlə görüşəcəyəm. Rusiya prezidenti Vladimir Putin, Ermənistan və Azərbaycan prezidentləri arasında üçtərəfli görüş də ola bilər. Daha sonra dördtərəfli – Rusiyanın, Gürcüstanın, Azərbaycanın və Ermənistanın prezidentləri arasında Qafqaz məsələləri ilə əlaqədar görüş keçirilə bilər. Əsas məsələlər bundan ibarətdir.

**Sual:** Cənab Prezident, viza rejiminin tətbiq olunması güman edilir. Bu məsələyə yenidən baxılması barədə Rusiya Xarici İşlər Nazirliyinin bəyanatı yayılıbdır. Viza rejiminin tətbiq olunması haqqında məsələ sammitdə müzakirə ediləcəkmi?

**Cavab:** Bu məsələ sammitdə müzakirə olunmayacaqdır. Əgər Rusiya belə bir təşəbbüs irəli sürürsə, yəqin ki, bu məsələ hər bir ölkə ilə konkret müzakirə ediləcəkdir. Mən hesab etmirəm ki, Rusiya birdən-birə bütün ölkələrə viza rejimi qoysun.



**Sual:** Cənab Prezident, Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft kəməri barədə sənədlər Türkiyə Böyük Millət Məclisində hələ indiyədək ratifikasiya edilməyibdir. Bu barədə nə deyə bilərsiniz?

**Cavab:** Bilirsiniz ki, onların öz daxili işləri, komissiyaları var. Hər bir parlamentin öz qaydası vardır. Hər halda biz də, gürcülər də bunu tez etdik. Mənim xəbərim var, bu məsələ Türkiyə Parlamentinin komissiyalarından keçir. Burada heç bir problem yoxdur, sadəcə, prosedur məsələləri vardır.

**Sual:** Hörmətli Prezident, dördtərəfli görüşdə Qafqazda təhlükəsizlik və əməkdaşlıq paktı reallaşa bilərmi?

**Cavab:** Bilirsinizmi, mən bir neçə dəfə demişəm – Qafqazda təhlükəsizlik və əməkdaşlıq paktı çox mürəkkəb məsələdir. Biz bu paktın əldə olunması üçün çox işlər görməliyik və addımlar atmalıyıq. Yəqin ki, gördüyümüz bu işlər bizi həmin pakta doğru aparır. Ancaq bu nə vaxt olacaq – məlum deyildir. İndi bu məsələni konkret müzakirə etmək mümkün deyildir.

Başqa sözünüz varmı?

**Sual:** Cənab Prezident, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli barədə yeni təkliflər gözləyirsinizmi?

**Cavab:** Axı siz niyə belə suallar verirsiniz? Bizim gecə-gündüz məşğul olduğumuz məsələ elə Ermənistan-Azərbaycan münaqişəsinin həlli məsələsidir. Hansı yeni təkliflər gözləyirik? Ola bilər, məndə, yaxud başqasında, üçüncüsündə bir təklif olsun. Yəni sualları verəndə bir az düşünün. Çünki başa düşürsünüz, vaxtı boş keçirməməliyik.

**Sual:** Cənab Prezident, viza rejimi tətbiq olunarsa, azad ticarət zonası yaradılmasının əhəmiyyəti qalacaqmı?

**Cavab:** Yəqin ki, bunlar bir-biri ilə uzlaşdırılacaqdır. Amma bundan çox qorxmayın. Sağ olun.

## «HƏQİQƏT ANI» TELEVİZİYA PROQRAMININ APARICISI ANDREY KARAULOV İLƏ MÜSAHİBƏ

*Moskva, Vorobyovı Qorı*
*21 iyun 2000-ci il*

**Andrey Karaulov:** Zati-aliləri, bu gün məhz TVS kanalını şərəfyab etdiyinizə görə Sizə təşəkkürümü bildirirəm. Heydər Əliyeviç, biz bir-birimizi çoxdan və yaxşı tanıyırıq, ona görə də, yəqin xalqlarımızı nəyin yaxınlaşdırdığını və birləşdirdiyini deməyə ehtiyac yoxdur. Bəs bu gün Rusiya ilə Azərbaycanı ayıran nədir? Nə kimi problemlər həll edilməyibdir?

**Heydər Əliyev:** Əvvəla, mən sizinlə görüşməyimə şadam. Bəli, biz bir-birimizi çoxdan, 10 ildən artıqdır tanıyırıq. Mən Moskvanı düz 10 il əvvəl iyun ayında tərk etdim. Bir həftədən, bəlkə də on gündən sonra siz mənim dalımca Naxçıvana gəlib çıxdınız, mən orada üç il sürgün vəziyyətində yaşadım. Bu gün sizinlə görüşə gələrkən mən rəhmətlik bacımın həmin kiçik evində, sizinlə həyətdə oturub söhbət etməyimizi xatırladım.

**Andrey Karaulov:** Naxçıvanda gecələr yaxşı idi. Mənə elə gəlir ki, o dövr vahid ölkəmizin respublikaları arasında münasibətlər üçün daha səmimi vaxt idi.

**Heydər Əliyev:** Bilirsinizmi, məsələ nədədir, axı biz bir dövlətdə, bir ölkədə yaşayırdıq.

**Sual:** Bu gün isə Azərbaycan NATO-ya daha yaxındır, nəinki Moskvaya?

**Cavab:** Səhv edirsiniz. Bunu açıqlamaq lazımdır. 90-cı ili yadınıza salın. O il bizim üçün necə ağır il idi. 1990-cı ilin yanvarı, yanvarın 19-dan 20-nə keçən gecə. Mən yanvarın 20-də axşam sizə zəng vurdum. Biz sizinlə yanvarın 21-də gündüz saat 12-də Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinin yanında görüşdük. Yadınızdadır, necə ağır vaxt idi, qoşun yeridilməsi, adamların güllələbaran edilməsi ilə əlaqədar insanlar necə fəryad qoparır, necə ağlayırdılar.

**Sual:** Siz o vaxtdan bəri Qorbaçovla görüşməmisiniz?

**Cavab:** Xeyr, görüşməmişik, görüşmək arzum da yoxdur. Görünür, kimsə ona nəsə çatdırmışdı. Bunun həqiqətə nə dərəcədə



uyğun olub-olmadığını bilmirəm. O ki qaldı onun təəssüflənməsinə, bunun artıq heç bir əhəmiyyəti yox idi.

**Sual:** Heydər Əliyeviç, doğrudanmı Azərbaycan bizim hərbçiləri, o zaman Qorbaçovun və Yazovun əmrini yerinə yetirənləri heç vaxt bağışlamayacaq?

**Cavab:** Bilirsinizmi, bağışlamaq geniş anlayışdır. Əgər adamlar cinayət törədibsə, mühakimə olunubsa və cəzalarının müəyyən hissəsini çəkirsə, mən onları bağışlayıram və ya amnistiya elan edirəm, bu amnistiyaya əsasən onlar azadlığa buraxılırlar. Yəni, əslində onları bağışlayırlar və ya bağışlamırlar, bir sözlə, əfv edirlər. Bu isə elə bir cinayətdir ki, onu heç vaxt bağışlamaq olmaz. Bu, vəhşicəsinə törədilmiş cinayətdir. Bu iş üzrə istintaq indiyədək qurtarmayıb və ya ümumiyyətlə, çoxdan dayandırılmışdır. Buna görə də bu cinayətdə kimlərin təqsirkar olduğu hüquqi cəhətdən müəyyənləşdirilməyib, siyasi, mənəvi günahkar isə məlumdur. Ona görə də söhbət məhz bu kateqoriyadan gedir.

**Sual:** Heydər Əliyeviç, o vaxtlar səslər eşidilirdi ki, Rusiya, Moskva Azərbaycanı özündən həmişəlik uzaqlaşdırmışdır. Bu gün biz həmin siyasətin acısını çəkmirikmi?

**Cavab:** Bilirsiniz, ümumiyyətlə, biz çox şeyin, bütövlükdə Qorbaçovun siyasətinin acısını, özü də təkcə Azərbaycana münasibətdə deyil, ümumən o düşünülməmiş siyasətin acısını çəkirik. Əlbəttə, onun özü və çoxları hesab edir ki, o, Sovetlər İttifaqını demokratikləşdirməyə, islahat keçirməyə çalışırdı. Əslində isə, mən onunla birlikdə Siyasi Büronun üzvü idim, o, nə etdiyini özü də bilmirdi. Gəmi yerindən tərpənib istiqamət götürəndə hara getdiyini, hansı koordinatla getdiyini və haraya çatmağını bilir. Bəzən də elə olur ki, gəmi dənizdə üzür, kompası da yoxdur, heç bir koordinatı da, külək haraya aparsa, oraya da gedib çıxacaqdır. O, təxminən belə vəziyyətdə idi. Ona görə də çox ziyan vurdu. Azərbaycana gəldikdə isə, şübhəsiz ki, Azərbaycanın 20 Yanvar yarası çox ağırdır.

**Sual:** Heydər Əliyeviç, bu, həqiqətən, dəhşətli günahdır, o vaxtlar müdafiə naziri Yazovun, DTK-nın ordu generalı Babkovun və o vaxtkı daxili işlər naziri Bakatinin və əlbəttə, Qorbaçovun əmrini yerinə yetirməyə məcbur olan zabitlərimizin dəhşətli günahı idi. Digər tərəfdən, hər halda zaman irəli gedir və mənim sevimli şəhərim olan Bakıda Birləşmiş Ştatların nüfuzunun necə gücləndiyini müşahidə etmək

bizə çox ağır gəlir. Bu gün Amerikanın Bakıdakı səfirliyində nə qədər adam var, 200 nəfərdən çoxdur?

**C a v a b :** Əvvəla, sizin ifadənizi bir qədər dəqiqləşdirmək istəyirəm. Əsgərlərin günahı. Şübhəsiz, onlar öz əsgəri vəzifələrini yerinə yetirirdilər. Əlbəttə, vəhşilik göstərmişlər. Amma başlıca təqsirkarlar onlar deyillər. Başlıca təqsirkarlar bunu burada, Moskvada planlaşdıranlardır. Mən Sovet İttifaqı Kommunist Partiyasının rəhbərlərini nəzərdə tuturam. Başlıca təqsirkarlar bunu onlarla birlikdə planlaşdırıb həyata keçirən Azərbaycanın rəhbərləridir. İstəmirəm ki, on il keçəndən sonra birtərəfli qiymət verilsin. Onlar da təqsirkardır, Azərbaycanın o vaxtkı rəhbərləri də. Onlar da, bunlar da. O ki qaldı Amerika Birləşmiş Ştatlarının Azərbaycandakı səfirliyindəki əməkdaşların sayına, deyin, görək, Moskvadakı səfirlikdə nə qədərdir?

**A n d r e y K a r a u l o v :** Az deyildir. Amma bizim Azərbaycandakı nümayəndələrimizin əməkdaşları xeyli azdır. Bakıda bizim diplomatlarımız Amerika diplomatlarından qat-qat azdır.

**H e y d ə r Ə l i y e v :** Bəs onların daha çox olmasını kim qadağan edir? Axı heç kəs məhdudiyyət qoymur.

**A n d r e y K a r a u l o v:** Biz istəyirik ki, ölkələrimiz arasında ticarət genişlənsin. Azərbaycan sərhəddəki gömrük rüsumlarının götürülməsi təklifini irəli sürür və bir növ, azad zona yaratmaq istəyir. Amma bu bizə, Rusiyaya sərfəli deyildir.

**H e y d ə r Ə l i y e v :** Andrey, əvvəla, mən bir daha təkrar edirəm, səfirlik əməkdaşlarının sayı hələ heç nəyi müəyyənləşdirmir. Məsələn, biz müstəqil dövlətik. İstəyirik ki, bir çox ölkələrdə səfirliyimiz olsun. Ona görə yox ki, onlar başqalarına nisbətən bizə yaxındır, məhz ona görə ki, biz sadəcə, dünyada daha böyük əlaqələrə malik olmaq istəyirik. Məsələ bundadır ki, haqqında qərar qəbul etdiyimiz səfirlikləri açmağa maliyyə imkanlarımız yoxdur. Biz bu qərarı həyata keçirə bilmirik. Bu, maliyyə imkanları ilə bağlıdır. Siz də bilin, bütün ictimaiyyət də bilsin ki, heç kim heç nəyi əsla məhdudlaşdırmır, ümumiyyətlə, heç bir kvota yoxdur. Rusiya səfirliyi istəyir günü bu gün 100 əməkdaşa, diplomata malik olsun, hökumətimizdə heç kəs deməyəcəkdir ki, nə üçün? Demək istəyirəm ki, biz hətta orada nə qədər əməkdaş olduğunu bilmirik, bununla maraqlanmırıq, bunun bizə dəxli yoxdur. Bu, Rusiyanın öz işidir. Bu, birincisi.

İkincisi isə, siz azad ticarət zonasından danışdınız. Yeri gəlmişkən, həmin məsələ bu gün sammitdə müzakirə edilmiş əsas məsələlərdən biri idi. Bu məsələ hələ 1994-cü ildə gündəlikdə dururdu. Onu əsasən qəbul etmişdik, amma tamamilə yox. Məsələn, biz onu həm qəbul, həm də ratifikasiya etmişik. Lakin indi az qala ondan imtina etmək prosesi gedir. Rusiya prezidenti bu gün bəyan etdi ki, söhbət həmin qanunda hansısa istisnalardan gedir. Bəli, bəzi məsələlər Rusiya üçün, bir sıra digər məsələlər isə, ola bilsin, başqaları üçün sərfəli deyildir. Biz Azərbaycan olaraq bunda təkid etmədik. Amma elə ölkələr var ki, onların buna çox ehtiyacları var. Məsələn, Ukrayna, Qazaxıstan və bəzi başqaları. Ona görə də bu məsələ, misal üçün, bizim Rusiya ilə qarşılıqlı münasibətlərimizə təsir göstərən bir məsələ deyildir.



**S u a l :** Ukrayna neftin haqqını tam ödəyirmi?

**C a v a b :** Ukrayna neftin haqqını bizə tam ödəyir.

**S u a l :** Bəs nə üçün Ukrayna Rusiyaya qazın haqqını tam yox, heç ona yaxın olan həcmdə də ödəmir?

**C a v a b :** Siz bunu Ukraynadan soruşun. Bunu məndən niyə soruşursunuz?

**S u a l :** Mən bu sualı Leonid Kuçmaya hökmən verəcəyəm. Qəribə vəziyyət alınır. MDB ölkələri arasında münasibətlər, həqiqətən, tərəfdaşlıq münasibətləridir. Söhbət Rusiyadan, böyük qardaşdan gedirkdə, haqqı ödəməmək, pulu verməmək, təxirə salmaq, restrukturlaşdırmaq və ya nə isə başqa bir şey düşünüb tapmaq olar. Bununla da Rusiya pul itirir. Heydər Əliyeviç, nə üçün belədir? Siz təcrübəli adamsınız, izah edin.

**C a v a b :** Andrey, mən Rusiyanın daxili işlərinə qarışmaq istəmirəm.

**A n d r e y K a r a u l o v:** Bu bizim yox, MDB-nin işləridir.

**H e y d ə r Ə l i y e v :** Bilirsinizmi, MDB-də hər bir ölkə öz mənafelərini qoruyur. MDB SSRİ deyil, o, ittifaq yox, birlikdir. Odur ki, hər bir ölkə öz mənafelərini müdafiə edir. Yeri gəlmişkən, Andrey, mən sənə deməliyəm ki, Rusiya Təhlükəsizlik Şurasının katibi Sergey İvanov bu yaxınlarda bizdə, Bakıda olmuşdur. O, mətbuat nümayəndələrinin yanında bəyan etdi ki, Azərbaycan MDB-də yeganə ölkədir ki, onun Rusiyaya borcu yoxdur.

**S u a l :** Biz hamımız bilirik ki, digər MDB ölkəsinin, yeri gəlmişkən, Sizin qonşunuz olan ölkənin prezidenti ilə müqayisədə Prezident Əliyevlə dialoq aparmaq qat-qat asandır. Amma buna baxmayaraq, Siz də təkid edirdiniz ki, Azərbaycan ərazisində bizim hərbçilər olmasın. Heydər Əliyeviç, bu məgər pisdir?

**Cavab:** Əvvəla, necə yəni təkid edirdik – Rusiyanın yox, Sovetlər İttifaqının hərbçilərinin çıxmasını təkid edirdik. Azərbaycan öz müstəqilliyini bəyan etdikdən az sonra Sovetlər İttifaqının hərbi qulluqçuları Azərbaycanı tərk etdilər. Yəni bizim qarşımızda belə bir məsələ durmurdu.

**Sual:** Bəs sərhədlər?

**Cavab:** Sərhədlər də. Sərhədçilər də tərk etdilər.

**Sual:** Bəs niyə, Heydər Əliyeviç?

**Cavab:** Necə niyə, tərk edib getdilər. Onda Sovetlər İttifaqı idi. Siz müxtəlif şeyləri dolaşdırırsınız. Biri var Sovetlər İttifaqı, biri də var Rusiya. Bunlar heç də eyni şey deyildir. Sizsə, onları eyniləşdirmək istəyirsiniz. Bəli, Sovetlər İttifaqı dövründə biz bir dövlətdə idik. Ona görə də hər şey vahid idi. Sovet İttifaqı dağılandan sonra isə hamı bir-birindən ayrıldı. Sərhədçilər hardasa qaldılar. Məsələn, hazırda Ermənistanın Türkiyə, İran ilə sərhədini Rusiya sərhədçiləri qoruyurlar. Rusiya Federal Sərhəd Qoşunları Xidmətinin direktoru cənab Totski bu yaxınlarda Bakıda oldu. Mən ondan soruşdum ki, siz, məsələn, Ermənistanda nə qədər sərhədçi saxlayırsınız. Dedi ki, üç min nəfər. Bu sizin işinizdir, Rusiya dövlətinin işidir. Siz niyə orada sərhədçilər saxlayırsınız? Sizin özünüzün qayğılarınız kifayət edir. Belə isə siz nə üçün başqa ölkədə sərhədçilər saxlayırsınız? Amma bu, hər halda Ermənistanın işidir, Rusiyanın işidir.

**Andrey Karaulov:** Heydər Əliyeviç, icazə verin, Sizə etirazımı bildirim. Bu günlərdə Bakı-Moskva qatarından 40 nəfər hindlini düşürmüşlər – Sizə bu barədə bəlkə də məlumat verməyiblər. Hərbi qədd-qamətli olan bu hindlilər guya Peterburqa getmək istəyirdilər. Sərhədçilərimiz yoxlayıb görüblər ki, Peterburqda belə xidmət, belə firma yoxdur. Demə, onlar Çeçenistana gedirlərmiş. Türkiyədən keçib Azərbaycana və oradan da Rusiyaya gəlirdilər.

**Heydər Əliyev:** Tamamilə yalan məlumatdır. General Totski Azərbaycanda mətbuat nümayəndələrinin yanında tam qətiyyətlə bəyan etdi ki, Rusiya sərhəd xidmətlərinin Azərbaycana qarşı heç bir problemi, heç bir iddiası, heç bir məsələsi yoxdur. Bütün bunlar uydurmadır. Bütün faciə bundadır ki, kütləvi informasiya vasitələrində – Andrey, görürəm ki, sən də belə olmusan, mən səni əvvəllər belə bilmirdim – Azərbaycana qarşı yönəldilmiş olduqca çox yalan məlumat var. Heç yerdə heç bir hindlini, heç bir ərəbi tutub saxlamayıblar.



Onu da nəzərə alın ki, axı Rusiya ilə sərhədimiz iki tərəfdən qorunur: Azərbaycan tərəfdən Azərbaycan sərhədçiləri, digər tərəfdən isə Rusiya sərhədçiləri qoruyurlar. Bir sözlə, ikiqat sərhəd var. Əgər Azərbaycan sərhədçiləri nəyisə, kimisə buraxarlarsa, Rusiya sərhədçiləri onları buraxmamalıdır. Nəhayət, bizim sərhəddən Çeçenistanadək arada Dağıstan da var, yeri gəlmişkən orada Rusiyanın çox böyük miqdarda müxtəlif növ qoşunları yerləşir. Onlar oradan buraxmamalıdırlar. Televiziya ilə, müxtəlif qəzetlərdə isə bəyan edirlər ki, «Azərbaycan ərazisi vasitəsilə Çeçenistana yaraqlılar keçirlər». Mən hiss edirəm ki, bu ağ yalandır, böhtandır və uydurma məlumatdır. Ona görə ki, Rusiyanın heç bir xidməti – sərhəd və ya digər xidməti bizə bir dənə belə fakt təqdim etməyibdir.

**Sual:** Cənab Prezident, xahiş edirəm deyəsiniz, son vaxtlar Sizin sərhədçilər Türkiyə ilə Azərbaycan arasında sərhəddə nə qədər narkotik maddə aşkara çıxarmışlar?

**Cavab:** Andrey, bilirsən, mənə elə gəlir ki, sən bütün bu məsələləri, hər halda, tamamilə düzgün təsəvvür etmirsən. Artıq bu gün mən sənə deyə bilərəm ki, MDB-nin iclasında Tacikistan prezidenti belə bir məsələni həyəcanla qaldırdı ki, Əfqanıstandan Tacikistan ərazisi vasitəsilə tonlarla narkotik maddələr gəlir. Ona görə də kömək göstərmək, tədbirlər görməyi çox xahiş etdi, çünki özləri heç nə edə bilmirlər. Əlbəttə, onların sərhəd xidməti gəncdir. Əslinə baxsan, orada bütün sərhədi Rusiya sərhəd qoşunları qoruyurlar. Rusiya mətbuatına yaxşı məlumdur ki, indi Avropa narkotik maddələrlə əvvəlkinə nisbətən daha çox təchiz edilir və bu maddələrin 90 faizindən çoxu Avropaya Əfqanıstandan – Tacikistan, Rusiya vasitəsilə göndərilir. Əfqanıstanda artıq narkobiznesi yaratmışlar. Onlar bunun hesabına yaşayırlar. Bir tərəfdən, onlar bunun hesabına çox böyük məbləğdə pul qazanırlar, digər tərəfdən isə, görünür, onların digər məqsədləri – başqa ölkələrin xalqlarına ziyan vurmaq məqsədləri də var. Ona görə də siz ünvanı dəyişik salırsınız.

**Andrey Karaulov:** Heydər Əliyeviç, mən bütün bu sualları Sizə heç də təsadüfən ünvanlamıram. Siz və bəlkə, bir də Mintimer Şaymiyev müsəlman dünyasında, gördüyümüz sərhədlərdə ən nüfuzlu şəxslərsiniz desəm, səhv etmərəm. Biz çox istərdik ki, dostlarımızın, bütün ömürləri boyu Sovet İttifaqına, eləcə də Rusiyaya həqiqətən xidmət etmiş olan adamların səsi Çeçenistan hadisələrində var gücə səs-

lənsin. Başa düşürəm ki, hətta Siz də Çeçenistan kampaniyasını dayandırmağa qadir deyilsiniz. Başa düşürəm ki, Rusiyada biz Sizə nə kömək üçün, nə məsləhətlər üçün müraciət etməmişik, Sizə, məsələn, Marakeş məliki kimi vasitəçi olmağı təklif etməmişik. Amma bilirəm ki, xalq diplomatiyası, qeyri-rəsmi əlaqələr, qeyri-rəsmi görüşlər nə deməkdir. Rusiyada biz Nobel sülh mükafatına məhz Sizin namizədliyinizin irəli sürülməsinin mümkünlüyü barədə xəbəri böyük məmnunluqla qarşıladıq. Heydər Əliyeviç, öz müsəlmanlarımızla münasibətləri qaydaya salmaqda bizə kömək edin. Çünki bu gün vəhhabilik...

**Heydər Əliyev:** Andrey, əzizim, mən görürəm ki, sən Azərbaycandan çoxdan uzaqlaşmısan və heç də dəqiq məlumata malik deyilsən. Mən çox təəssüflənirəm, ona görə ki, məncə, sən bizim – şəxsən mənim, xalqımızın böyük dostusan. Azərbaycanda səni çox gözəl tanıyır və qiymətləndirirlər, ona görə ki, sən Azərbaycan üçün ağır bir zamanda, 1990-cı ilin Yanvar hadisələrində yeganə jurnalist idin ki, öz kameranla Azərbaycanın daimi nümayəndəliyinə gəlmişdin və sair. Bunu çox yaxşı xatırlayır və qiymətləndirirlər. Amma görünür, sənin məlumatın çox da dəqiq deyil, Çeçenistan hadisələri barədə o qədər də dəqiq məlumatın yoxdur. Azərbaycan bu barədə öz rəyini dəfələrlə bəyan etmişdir. Bu nədən ibarətdir? Biz, ümumiyyətlə, separatizmin, xüsusən də təcavüzkar separatizmin əleyhinəyik. Siz gözəl bilirsiniz ki, keçmiş Sovetlər İttifaqının xalqları və keçmiş Sovetlər İttifaqının respublikaları arasında hamıdan çox əziyyət çəkən Azərbaycan, Azərbaycan xalqı olub – 12 ildir ki, erməni separatizmindən əzab-əziyyət çəkir.

Bilirsiniz ki, separatizmin müxtəlif rəngi yoxdur, separatizm separatizm olaraq qalır. Azərbaycan xalqı üçün çox ağır faciəyə gətirib çıxaran Dağlıq Qarabağ, Ermənistan-Azərbaycan münaqişəsi deyilən münaqişənin səbəbi məhz erməni separatizmi olmuşdur. Azərbaycan ərazisinin 20 faizi Ermənistan silahlı birləşmələri tərəfindən işğal olunmuşdur, bir milyondan çox azərbaycanlı öz yaşayış yerlərindən didərgin salınmışdır və onlar artıq 7-8 ildir çadırlarda yaşayırlar və biz bu münaqişəni indiyədək həll edə bilmirik. Bu nəyin nəticəsində olmuşdur? Separatizm nəticəsində. Dağlıq Qarabağ Azərbaycanın tərkibində Muxtar Vilayət idi. Bu Muxtar Vilayət 1923-cü ildən mövcud idi. Dağlıq Qarabağ əhalisi – ermənilər və azərbaycanlılar orada əsrlərdən bəri yaşayırlar. Hətta XIX əsrdən bəri. Doğrudur, ermənilər oraya köçürülüb gətirilmişlər. Yeri gəlmişkən, sizin bilməyiniz üçün deyim



ki, ermənilər oranın aborigen, yerli sakinləri deyillər. Ermənilər oraya Rusiyanın İrandakı səfiri Qriboyedov tərəfindən təxminən 170-180 il əvvəl köçürülmüşlər. Çünki təqribən 1980-ci illərdə ermənilərin özləri Dağlıq Qarabağda İrandan bu torpaqlara köçüb gəlmələrinin 150 illiyini qeyd etmiş, hətta bu münasibətlə abidə də ucaltmışdılar. Yəni onlar bu yerlərin əzəli sakinləri deyillər. Buna baxmayaraq, Çar imperiyası dövründə bu imperiya insanları istədiyi kimi məskunlaşdırırdı. Belə olmuşdur. Amma insanlar normal yaşayırdılar. Doğrudur, münaqişələr baş verirdi, amma sonra onlar sakitləşirdi.

1988-ci ildə bu münaqişə meydana çıxdı. Bu, Dağlıq Qarabağ ermənilərinin separatizmi, lakin o vaxtlar Azərbaycan kimi, hələ Sovetlər İttifaqının müttəfiq respublikası olan Ermənistan tərəfindən idarə edilən və həm də Sovetlər İttifaqının rəhbərliyi, xüsusən Qorbaçov tərəfindən dəstəklənən separatizmdir. Biz bu separatizmdən əzab-əziyyət çəkirik. Məgər biz separatizmi dəstəkləyə bilərikmi? Biz dəfələrlə təkid etmişik ki, MDB sənədlərində yazılsın: separatizm əleyhinə mövqe. Amma Ermənistan çıxarır. Çıxarmasa da yazır ki, sənədi qeyd-şərtlə imzalayır: Ermənistan bu ifadə ilə razı deyildir.

Bir sözlə, Çeçenistanda bu cür separatizm var, yəni insanlar Rusiya Federasiyasının bir hissəsini ondan ayırmaq və müstəqilliyinə nail olmaq istəyirlər. Dağlıq Qarabağda ermənilər də belə edir, müstəqillik istəyirlər. Hərçənd, müqayisə etsək görərik ki, burada fərq var. Çeçenlər də Rusiyanın yerli sakinləridir, amma onların öz müstəqil ölkəsi yoxdur. Ermənilərin isə öz ölkəsi var. Yəni, hər bir ölkənin sərhədlərinin pozulmazlığını nəzərdə tutan 1975-ci il Helsinki aktına nəzər salsaq, görərik ki, orada xalqın öz müqəddəratını təyin etmək amili də var. Ancaq erməni xalqı öz müqəddəratını çoxdan müəyyən etmişdir, çünki erməni xalqı Ermənistan Respublikasının simasında öz dövlətinə malikdir. Çeçen xalqının isə öz dövləti yoxdur, çeçen xalqı Rusiya Federasiyasının subyekti kimi Rusiyanın tərkibində yaşayır. Lakin mən bununla onlara haqq qazandırmıram. Sadəcə olaraq, separatizmin fərqini – oradakı və burada olan separatizm arasındakı fərqi sizə bir balaca aydınlaşdırmaq istəyirəm. Bununla belə, orada da separatizm var, burada da. Biz separatizmin əleyhinəyik, biz terrorizmin əleyhinəyik, biz ekstremizmin əleyhinəyik, biz təməlçiliyin əleyhinəyik, biz vəhhabiliyin əleyhinəyik. Siz bunların nə olduğunu bilmirsiniz, ona görə də mənə belə suallar verirsiniz...

**S u a l :** Yox, əsla yox, Heydər Əliyeviç, mən başqa bir məsələni nəzərdə tuturam. Axı Sizə sirr deyil, elə bizə də sirr deyildir ki, Dağlıq Qarabağda münaqişə meydana çıxdıqda Amerikadakı, bütün dünyadakı erməni icmalarının pulları haraya axmağa başladı. O vaxtlar onlar qondarma «Dağlıq Qarabağ Respublikası»nın «prezidentinə», erməni diasporuna kömək edirdilər. Bu gün Çeçenistana axan pullar haradan gəlir? Ən əvvəl islam dünyasından – Pakistandan, Səudiyyə Ərəbistanından, Türkiyədən. Mən isə bilirəm ki, Heydər Əliyeviç Əliyevin Türkiyənin o vaxtkı prezidenti Dəmirəl ilə, Səudiyyə Ərəbistanının məliki ilə, Pakistanla və başqaları ilə gözəl şəxsi münasibətləri var. Sözümün canı bunda deyildir. Əgər siz liderlər, müsəlman dünyasının real liderləri – Əliyev, Dəmirəl və başqaları normal bir şəraitdə oturub vəhhabizmə «yox» desəydiniz, onda belə beynəlxalq dəstək olmazdı. Heydər Əliyeviç, mən haqlı deyiləm?

**C a v a b :** Andrey, sən haqlı deyilsən! Vəhhabilik çox qorxulu təriqətdir və dünyanın müxtəlif regionlarına nüfuz edir. Əlbəttə, o, əsasən, Səudiyyə Ərəbistanından başlayır. Bəs vəhhabilik Şimali Qafqaza necə keçmişdir? İndi bunu demək mənə çətindir. Mən, sadəcə, bu məsələ ilə məşğul olmamışam. Vəhhabilikdən biz də qorxuruq. Amma indi vəhhabilik Əfqanıstanda başlıca qüvvədir. Əgər siz müsəlman dünyasının liderlərindən danışmaq istəyirsinizsə, bilməlisiniz ki, müsəlman dünyasının liderlərinin çoxu Mərkəzi Asiyadadır. Çünki vəhhabiliyin vətəni ora – Əfqanıstandır. Orada isə artıq 20 ildir müharibə, daxili müharibə gedir. Lakin orada təkcə vəhhabilik deyil, bir çox ölkələr, həm də Qərb ölkələri tərəfindən dəstəklənən bir çox başqa şeylər də var.

Sovetlər İttifaqının mövcud olduğu və sovet rəhbərliyi Əfqanıstanda şahı devirməyi və orada sosialist dövləti qurmağı qərara aldığı dövrdə müharibə başlandı. Onda kimlərin arasında qarşıdurma baş verdi? Sovet İttifaqı ilə Babrək və sonra isə Nəcibulla quruluşuna müxalif liderləri dəstəkləyən Amerika Birləşmiş Ştatlarının simasında Qərb dünyası arasında. O vaxtlar həmin liderlərin arxasında Amerika Birləşmiş Ştatları, digər Qərb ölkələri və əlbəttə, Pakistan dururdu. İndi nə Sovetlər İttifaqı var, nə də Əfqanıstanda sosializm qurmaq istəyən qüvvələr. Onlar öz aralarında vuruşurlar. Ona görə də vəhhabilik əsasən orada kök salmışdır. Yeri gəlmişkən, təsəvvür edirsinizmi, əgər keçmiş Sovetlər İttifaqı məkanındakı ölkələri götürsək, görərik ki, vəhhabilik Mərkəzi Asiyada yayılmışdır. O, oraya daxil olmuşdur. Özü də qəribədir. Tutalım, Dağıstanda da vəhhabiliyin izləri var. Amma vəhhabilik orada özünə, hər halda Çeçenistandakı qədər yer tapmamışdır.



Ona görə də sənin mülahizələrin səhvdir ki, Əliyev müsəlman dünyasının lideridir. Əsla belə deyildir. Əliyev Azərbaycanın lideridir. Əgər mənim, məsələn, Türkiyənin sabiq prezidenti Dəmirəl ilə yaxşı münasibətlərim varsa, bu o demək deyil ki, mən həmin məsələni həll edə bilərəm, yeri gəlmişkən, Dəmirəl ilə söhbət zamanı onlar da vəhhabiliyin əleyhinə çıxdılar. Siz Türkiyəni nəzərdə tutursunuz, amma bilmək lazımdır ki, indi Türkiyə Avropa ölkəsidir. Türkiyə bütün Avropa strukturlarının üzvüdür. Türkiyə NATO-nun üzvüdür. İndi Türkiyə Avropa Birliyinə qəbul olunmağa çalışır. Türkiyə özünü bundan tamamilə təmizləmək istəyir.

**S u a l :** Heydər Əliyeviç, Azərbaycan NATO-ya qəbul olunmağa çalışır?

**H e y d ə r Ə l i y e v :** Sən, ümumiyyətlə, nə üçün belə sual verirsən? Belə sual üçün əsas varmı?

**A n d r e y K a r a u l o v :** Çünki bizim qəzetlərdə, təəssüflər olsun, çox şəkk-şübhə var ki, – doğru olub-olmadığını bilmirəm – Azərbaycan yaxın beş ildə NATO-nun üzvü ola bilər, bu isə münasibətlərimizi yaxşılaşdırmaz.

**H e y d ə r Ə l i y e v :** Andrey, mən yenə də çox təəssüflənirəm ki, sən Azərbaycandan uzaqlaşmısan.

**A n d r e y K a r a u l o v :** Mən yox, mənim həmkarlarım.

**H e y d ə r Ə l i y e v :** Bu böhtançı, yalan xəbərlərə inanırsan, inanırsan. Bilirsən, mən lap təngə gəlmişəm, Rusiya qəzetlərini daha oxumuram, çünki orada, demək olar, hər gün Azərbaycan haqqında belə məqalələr verilir. Mən bu barədə öz fikrimi Rusiyanın keçmiş rəhbərliyinə də, indiki rəhbərliyinə də bildirmişəm. Onlar mənimlə razıdırlar ki, bu Rusiyanın mövqeyi deyildir. Yeri gəlmişkən, bunu mənə bu gün sən də xatırlatdın, mən bizim bu məhdud çərçivəli iclasımızda susdum. Amma bir çox dövlət başçıları Rusiyanın kütləvi informasiya vasitələrindən – qəzetlərdən, televiziyadan gileyləndilər, demək olar, hamı gileyləndi.

**A n d r e y K a r a u l o v:** Onların hamısının sosini birdəfəlik kəsmək lazımdır.

**Heydər Əliyev:** Prezident Putin dedi ki, bu, Rusiya dövlətinin mövqeyi deyildir. Yeri gəlmişkən, qısa mətbuat konfransı olanda – yəqin onu göstərəcəklər – məncə, o, hətta bu məsələyə toxundu. Yəni o dedi ki, kütləvi informasiya vasitələri vəziyyəti daha obyektiv işıqlandırmalıdır. Odur ki, sənin suallarının mahiyyətcə əsası yoxdur.

**Sual:** Heydər Əliyeviç, şadam ki, Siz bunların hamısına aydınlıq gətirdiniz, buna görə çox sağ olun. Mən sual verdikdə, o demək deyildir ki, bütün bu cəfəngiyata inanıram. Amma istəyirəm ki, qonşumuzun səsi həqiqətən eşidilsin və çox yaxşıdır ki, bütün suallara məhz Prezident cavab verir. Əgər olarsa, daha iki-üç sual verim.

Ayrı-ayrı generallarımızın Ermənistana pulla silah satdıqları məlum olduqda, bunu Rusiyada bir çoxumuz hiddətlə qarşıladıq. Bu, narazılıq doğurdu. Digər tərəfdən, bizi – Rusiyanı Xəzər neftinin müqəddəratı narahat edir. Bilirəm ki, indi Rusiyanın Azərbaycana neft sarıdan iddiaları yoxdur. Amma Heydər Əliyeviç, mən əmin deyiləm ki, illər keçdikdən sonra Rusiyada bu iddialar meydana gəlməyəcəkdir. Mən haqlıyam?

**Cavab:** Yaxşı sualdır. Bax, indi sən yaxşı sual verdin. Birinci sual Rusiya generalları, təkcə ayrı-ayrı generallar barəsində deyil, Rusiyanın Müdafiə Nazirliyi barəsindədir. Yeri gəlmişkən, 1997-ci ildə bu fakt Rusiyanın dövlət orqanlarının özləri tərəfindən, əvvəla, Prezident Aparatında, Nəzarət İdarəsində aşkara çıxarıldı, sonra isə, məncə, Dövlət Dumasının Müdafiə Komitəsində sənədlər əsasında açıqlandı. Deyilirdi ki, əvvəlki üç ildə, yəni Ermənistanla Azərbaycan arasında müharibə gedən illərdə Rusiyanın Müdafiə Nazirliyi qeyri-qanuni, qeyri-leqal və pulsuz olaraq Ermənistana bir milyard dollarlıq silah, hərbi texnika və döyüş sursatı vermişdir.

**Andrey Karaulov:** Görünür, rüşvət vermişdilər.

**Heydər Əliyev:** Yəqin, rüşvətə görə vermişdilər. Bir halda ki, pulsuzdur, deməli, rüşvət almışdılar. Əlbəttə, bundan sonra biz öz işimizə başladıq. Bizim bütün bunlar barəsində indiyədək sənədlərimiz var və bu sənədləri Moskvada olan sənədlərə əlavə olaraq təqdim etdik. Bunun müqəssirləri var və onlar orada, Ermənistanda böyük məbləğdə rüşvət almışlar. Biz bu məsələni prezident Boris Yeltsinin qarşısında qaldırdıq. Mən onun yanında oldum. Xatirimdədir, mən Parisdə idim, orada Rostropoviçin 70 illiyini qeyd edirdik, ertəsi gün isə burada dövlət başçılarının iclası oldu. Mən axşam Yelisey sarayında idim, gecə ikən oradan yola düşdüm ki, səhər saat 10-da Kremldə olum. Bundan sonra mən bu məsələni dövlət başçılarının iclasında qaldırdım. Sonra prezident Yeltsinlə görüşümüz oldu. O dedi ki, bəli, düzdür, mən bundan hiddətlənmişəm, bunu araşdırmaq və lazımi tədbirlər görmək barədə göstəriş vermişəm.



Biz çox sevindik. Bizdən də əlavə materiallar istədilər. Biz bu materialları buraya göndərdik, prokurorluqda təhqiqata başladılar. Sonra isə 1997-ci ilin yayında mən prezident kimi Rusiyaya rəsmi səfərə gəldim. Bu, 1997-ci il iyulun 3-də oldu. Mən həmin məsələni qaldırdım. Amma Boris Nikolayeviç başqa cür danışır. Gördüm ki, deyir, bəli, biz baxırıq və sair. Dedim, yox, bu işə aydınlıq gətirmək lazımdır. Belə olduqda o dedi, bilirsiniz, axı deyirlər ki, Sovet İttifaqı dağılarkən Azərbaycanda Ermənistana nisbətən daha çox silahlar qalmışdır. Mən dedim, hörmətli Boris Nikolayeviç, bunun digərinə nə dəxli var? Əvvəla, Siz bütün bunları haradan deyirsiniz? İkincisi isə, Siz mənə düzünü deyin, mən hesab edirəm ki, bu, düzgün məlumat deyildir. Siz hətta mənə bu məlumatın düzgün olmağı barədə sübutlar da təqdim etsəniz, məgər bu, daha Sovetlər İttifaqının silahından deyil, Sovetlər İttifaqının süqutundan sonra Rusiyada qalmış silahdan bir milyard dollar məbləğində Ermənistana qeyri-leqal, qeyri-qanuni, pulsuz silah verməyə əsas verirmi? Belə çıxır ki, 1992-ci ildə bölgü zamanı nə isə ədalətsizliyə yol verilmişdi. Siz bunun hesabına Ermənistanın silah cəbbəxanasını bu yolla qeyri-leqal surətdə doldurmaq istəyirsiniz. Axı bunda əsla məntiq yoxdur. Bizim çox kəskin söhbətimiz oldu və onda o, təklif verməyə məcbur oldu: gəlin, bu məsələni araşdırmaq üçün üçtərəfli komissiya yaradaq.

Mən isə deyirəm, yenə də başa düşmürəm – yarım il əvvəl Siz bütün bu işi etiraf etdiniz və onun araşdırılması barədə göstəriş verdiniz. Baş Prokurorluq bu təhqiqatla məşğuldur. Demək olar, hər şey sübuta yetirilmiş, təqsirkarlar müəyyənləşdirilmişdir – bu, Zaqafqaziyadakı qoşunların komandanıdır. O, Tbilisidə otururdu, bundan əvvəl isə Yerevanda idi, bütün bunlar müəyyən edilibdir. İndi isə deyirsiniz, gəlin, komissiya yaradaq. Deyirəm, nədən ötrü? Yox, gəlin, komissiya yaradaq. Deyirəm, bilirsiniz ki, məni 1995-96-97-ci illərdə baş vermiş hadisələr maraqlandırır. Sizi isə 92-ci ildə olmuş hadisələr. Gəlin, əvvəlcə bir, sonra isə digər məsələni araşdıraq. Yox, o, dediyinin üstündə durdu. Üçtərəfli komissiya yaratdıq, biz Rusiya hökuməti sədrinin bi-

rinci müavini Serovu dəvət etdik, lakin Ermənistan bu komissiyada iştirak etməkdən boyun qaçırdı. Bu komissiya iki-üç dəfə toplaşdı, amma heç nə etmədi. Bununla belə, 92-ci ildə keçmiş Sovetlər İttifaqı silahlarının müttəfiq respublikalar arasında bölüşdürülməsinin Ermənistana qeyri-leqal, qeyri-qanuni silah verilməsinə hər halda heç bir dəxli yoxdur.

Yeri gəlmişkən, 1992-ci il haqqında. 1992-ci ildə, Sovetlər İttifaqı artıq dağıldıqdan sonra Daşkənddə MDB dövlətləri başçılarının görüşü keçirilirdi. Orada kvotalar müəyyənləşdirilirdi ki, kim nə qədər silaha, xüsusən tanka və sairəyə malik ola bilər. O vaxtlar Azərbaycanda daxili mübarizə getməsi, çevrilişlə əlaqədar – bu, 1992-ci ilin mayında olmuşdur – oraya hansısa ikinci dərəcəli adam və Rusiyanın sabiq müdafiə naziri Qraçovla sövdələşmiş, həmçinin prezident olmağa can atan başqa bir adam da getmişdi. Bizə məlumdur ki, o vaxt Qraçov ona demişdi ki, siz bu bölgü ilə razılaşın – yeri gəlmişkən, belə bir bölgü Avropada adi silahlar haqqında müqaviləyə uyğun olan kvotaya görə Azərbaycanın ziyanına idi – biz sizə prezident olmağa kömək edərik. O da həmin sənədi imzalamışdır.

Odur ki, sualınız mənə tarixin çox ciddi səhifələrini açmağa imkan verir. Buna görə də həmin məsələ indiyədək həll edilməyib, adamlar cəzalandırılmayıb. Heç bir iş görülməyibdir. Bu isə bizə Rusiyanın Müdafiə Nazirliyinə və bütövlükdə Rusiyaya qarşı iddialar irəli sürməyə əsas verir. Bir sözlə, bu, birinci sual barədə.

**S u a l :** Bəs prezident Putin bu iddialardan xəbərdardırmı?

**C a v a b :** Xəbərdardır.

İkinci sual Xəzər nefti barədədir. Bilmirəm, bu suala hansı tərəfdən yanaşım. Burada Rusiya ilə Azərbaycan arasında fikir ayrılıqları yoxdur. 1994-cü ildə biz xarici sərmayələri cəlb etməyə başladıq. İlk böyük müqavilə Xəzər dənizinin Azərbaycan sektorundakı neft yataqlarının işlənilməsi üçün bağlandı.

Azərbaycan sektoru nə deməkdir? 1970-ci ildə Xəzər dənizində neft hasilatı artmağa başladıqda, Sovetlər İttifaqının Nazirlər Soveti Xəzərin sektorlara bölünməsi haqqında qərar qəbul etdi. Prinsipcə, hətta bundan sonra da bu məsələ ilə Azərbaycanın neft sənayesi təşkilatları məşğul olurdu. Ona görə ki, bildiyiniz kimi, 50 il bundan əvvəl, yeri gəlmişkən, dünya praktikasında ilk dəfə olaraq, Azərbaycan neftçiləri Xəzərin dibindən neft çıxarmağa başladılar – orada Neft Daşları adlanan dəniz şəhəri var, sahildən təxminən 100 kilometr məsafədə yerləşir. O ili unutmaq olmaz. Lakin sonra Xəzər dənizində neft hasilatı artırıldı, bundan sonra isə dünya praktikası çox sürətlə irəlilədi, dənizlərdə neft çıxarılmağa başlandı. Məsələn, Böyük Britaniya və ya Norveç Şimal dənizində cəmi 30 ildir neft çıxarırlar. Özü də böyük dərinlikdən. Nə qədər çıxarırlar? Təkcə Norveç 150 milyon ton neft hasil edir.



O vaxtlar mən burada, Moskvada işləyirdim və bilirdim ki, bunun da səbəbləri var, çünki Tümendə olduqca çox neft vardı və bu neftin hasilatı daha ucuz başa gəlirdi. Sovetlər İttifaqında neft hasilatının illik artımı təxminən 20 milyon təşkil edirdi. Sovetlər İttifaqı bütövlükdə ildə 600 milyon tondan çox neft çıxarırdı və yeri gəlmişkən bu, Sovetlər İttifaqının sabiq valyuta əldə etməsi üçün əsas ixrac məhsulu idi. Ona görə də Sovet hökuməti Xəzər dənizindəki yataqlarla daha ciddi məşğul olmağa vəsait ayırmışdı.

Azərbaycan müstəqil dövlət olduqda isə qarşıya belə bir məsələ çıxdı: Nə etməli? Biz bilirik ki, orada zəngin neft və qaz yataqları var. Bizim özümüzün vəsaitimiz yoxdur. Hətta vəsaitimiz olsa belə, hazırda dünya praktikasının, yəni dünyanın iri neft şirkətlərinin malik olduqları texnologiyalar, texnika Azərbaycanda yoxdur. Bəs nə etməli? Deməli, xarici sərmayədarları və suyun çox dərinliklərindən neft çıxarmaq təcrübəsinə, müasir texnikaya və texnologiyalara malik iri xarici şirkətləri cəlb etmək lazımdır.

Biz 1994-cü ilin sentyabrında ilk müqaviləni bağladıq. Yeri gəlmişkən, bu müqavilədən sonra Azərbaycanda böyük siyasi hadisələr baş verdi. Çünki müxtəlif qüvvələr bunu istəmirdilər. Bundan bir gün sonra bizdə DTK-nın daxili həbsxanasından iri dövləti cinayətkarlar qaçırıldı. Yeri gəlmişkən, sonra onların hamısı Rusiyaya getdi və burada gizləndilər. 10 gündən sonra Azərbaycanda terror aktları törədildi – Parlament sədrinin müavini və prezidentin yanında xüsusi idarənin rəisi öldürüldü. O vaxt mən Amerika Birləşmiş Ştatlarında idim. Bundan 3-4 gün sonra sizin tanıdığınız polkovnik Surət Hüseynov tərəfindən dövlət çevrilişi cəhdi oldu. Bütün bunlar həmin müqavilə imzalandıqdan sonra baş verdi.

O vaxtlar biz bunun çox ağır nəticələrinə məruz qaldıq. Həmin vaxtdan bəri biz öz sektorumuzda işləyirik. Amma elə onda Xəzər dənizinin hüquqi statusunu müəyyənləşdirmək məsələsi dururdu. Çünki artıq onda xarici sərmayədarlar Azərbaycana gəlmişdilər, söz düşmüşkən,

onlar bundan sonra Qazaxıstan sahillərinə, Türkmənistan sahillərinə də gəldilər – hər bir Xəzəryanı ölkənin harada neft çıxara biləcəyini yəqinləşdirməsi üçün Xəzər dənizinin hüquqi statusunu müəyyənləşdirmək məsələsi qarşıya çıxdı. Amma bu məsələ indiyədək həll edilməyibdir.

Yeri gəlmişkən, biz birinci müqaviləni imzalayarkən Rusiyanın iri neft şirkəti olan «LUKoyl» şirkətini cəlb etmişdik. Yəni biz Rusiyasız heç nə etməmişdik. Orada təxminən 10 şirkət var, onlar müxtəlif miqdarda paya malikdirlər. «LUKoyl» şirkətinin bu müqavilədə 10 faiz payı var. «LUKoyl» sonrakı müqavilələrdə də hökmən paya və hətta bir yatağa malikdir. Yeri gəlmişkən, 1997-ci ilin iyununda mən burada, Kremldə olarkən «LUKoyl» ilə Azərbaycan Dövlət Neft Şirkəti arasında müqavilə imzalandı, bu müqavilədə biz Xəzər dənizinin Rusiya sektoruna bitişik olan öz sektorumuzun şimal hissəsindəki bir yatağın işlənilməsi üçün bütün operatorluğu «LUKoyl»a verdik. Ortaya məsələlər çıxmadı, problemlər yoxdur, heç bir sual yoxdur.

**S u a l :** Heydər Əliyeviç, bu o deməkdirmi ki, ümumiyyətlə, Rusiya ilə Azərbaycan arasında heç bir problem yoxdur?

**C a v a b :** Yox, problemlər var.

**S u a l :** Ən başlıca problem?

**C a v a b :** Bilirsinizmi, bizim üçün ən başlıca problem Ermənistanla Azərbaycan arasında münaqişənin sülh yolu ilə həll olunmasından, Azərbaycanın işğal altındakı ərazilərinin Ermənistan silahlı qüvvələrindən azad edilməsindən, qaçqınların – insanlar öz dövlətində, öz ölkəsində qaçqın olmuşlar, çadırlarda yaşayırlar – öz yaşayış yerlərinə qayıtmasından ibarətdir. Yeri gəlmişkən, həmin ərazilərdə hər şey yerli-dibli dağıdılmış və qarət edilmişdir. Bu adamların əvvəlki yaşayış yerlərinə qayıtmasından sonra orada normal həyatın bərpa edilməsinə azı 10-15 il lazımdır, özü də buna vəsait olarsa. Çünki buna olduqca böyük məbləğdə vəsait lazımdır.

**S u a l :** Rusiya isə yalnız vasitəçi rolunu oynayır, mən düzmü başa düşdüm?

**C a v a b :** Rusiya ATƏT-in Minsk qrupunun digər həmsədrləri Birləşmiş Ştatlar və Fransa ilə birlikdə vasitəçi rolu oynayır. Lakin Rusiya bu məsələdə Birləşmiş Ştatlara, Fransaya və digər ölkələrə nisbətən həmişə daha fəal rol oynamışdır. Rusiya bu münaqişənin həlli üçün böyük imkanlara malikdir. Yeri gəlmişkən, dünən biz Kremldə bu



mövzuda söhbət etdik. Mən əvvəlcə Ermənistan prezidenti Robert Koçaryanla təkbətək görüşdüm. Sonra biz – prezident Vladimir Putin, prezidentlər Koçaryan və Əliyev üçlükdə görüşdük. Biz məhz bu məsələni müzakirə etdik.

**S u a l :** Hansı qərarı qəbul etdiniz?

**C a v a b :** Hələlik qərar yoxdur. Biz sadəcə olaraq müxtəlif variantları müzakirə edirik.

**S u a l :** Amma ermənilər bu variantları müzakirə edirmi, yəni dialoqa getməyə hazırdırlar?

**C a v a b :** Bizdə dialoq çoxdan gedir. Xüsusən də Azərbaycan və Ermənistan prezidentləri arasında dialoq 1999-cu ilin təxminən əvvəllərindən gedir.

**S u a l :** Necə bilirsiniz, bu münaqişə nə vaxt həll ediləcəkdir?

**C a v a b :** Ermənilər konstruktiv mövqe tutanda. Çünki ermənilərin, Ermənistanın tələb etdikləri beynəlxalq hüquqa tamamilə ziddir. Ermənilər Dağlıq Qarabağ üçün dövlət müstəqilliyi statusu tələb edirlər. Bundan ötrü onlar Dağlıq Qarabağdan əlavə, Dağlıq Qarabağ vasitəsilə Ermənistana dəhliz də tələb edirlər – bu, iri Laçın rayonudur. Onlar bunun müqabilində Dağlıq Qarabağa daxil olmayan, Dağlıq Qarabağ ətrafında yerləşən işğal edilmiş Azərbaycan rayonlarını tərk etməyə razıdırlar. Necə deyərlər, əngəl də bax, bundadır. Axı bu qanunsuzdur. Bu, beynəlxalq hüquqa ziddir. Azərbaycanın ərazi bütövlüyü pozulmuşdur, Azərbaycan sərhədlərinin toxunulmazlığı pozulmuşdur. Lakin bu, de-faktodur. De-yure isə biz bununla razılaşa bilmərik. Ermənilər bunu tələb edirlər. Biz bəzi kompromislər təklif edirik. Onların da bu barədə hansısa təklifləri var. Lakin biz razılığa gəlməkdən hələlik uzağıq.

**A n d r e y K a r a u l o v :** Heydər Əliyeviç, mənim yoldaşım, çox sevilən insan – Artyom Borovik həlak olduqda Siz başsağlığı teleqramı göndərdiniz. Teleqramı qəzetlərimiz dərc etdi. Digər həmkarlarınızdan fərqli olaraq, Siz yeganə Prezident idiniz ki, həmin gün susmağı lazım bilmədiniz, onun valideynlərinə, həyat yoldaşına təsəlliverici sözlər deməyi lazım bildiniz. Belə anlarda nədənsə çox aydın şəkildə anlayırsan ki, həqiqətən, ölkələrimiz arasında belə münasibətlər, heç zaman qırılmayacaq belə tellər mövcuddur. Adam istəyir ki, sammitdə məsələlər ildən-ilə çoxalmasın, əksinə, azalsın. Bu baxımdan Sizin rolunuz böyükdür.

**H e y d ə r Ə l i y e v :** Bilirsinizmi, tellər olduqca çoxdur. Sizin xatırlatdığınız fakt bir çox faktlardan biridir. Mən Artyom Boroviki çox təcrübəli, çox fəal, çox cəsarətli jurnalist kimi tanıyırdım. Yeri gəlmişkən, bir jurnalist kimi o da, başçılıq etdiyi jurnalist təşkilatları da Rusiyanın demokratikləşdirilməsində çox böyük rol oynamışlar. Mən ona buna görə hörmət edirdim. O, Azərbaycanda bir neçə dəfə olmuşdu, mən onunla görüşüb söhbət etmişdim. Bu mənim üçün hər cəhətdən maraqlı idi. Ona görə də mən onun həlak olmasını, əlbəttə, ürək ağrısı ilə qarşıladım. Odur ki, teleqram göndərərək öz münasibətimi bildirdim.

Tellər olduqca çoxdur, lap çoxdur. Amma gərək bu tellərə hər iki tərəfdən hörmətlə, xeyirxahlıqla yanaşılsın. İlk növbədə Rusiya tərəfindən. Rusiya böyük ölkədir. Böyük xalqdır. Azərbaycan isə kiçik ölkədir və xalqı da sayca çox deyildir. Gördüyünüz kimi, vəziyyətimiz necə müxtəlifdir. Azərbaycanda belə bir məsəl var: bizə tərəf bir addım atsalar, əvəzində biz iki addım atarıq. Amma biz irəliyə doğru deyil, əksinə, geriyə addım atıldığını gördükdə, əlbəttə, geriyə addım atmırıq, sadəcə olaraq yerimizdə dururuq.

**A n d r e y K a r a u l o v :** Çox sağ olun, Heydər Əliyeviç.



## MDB-nin ÜZVÜ OLAN ÖLKƏLƏRİN DÖVLƏT BAŞÇILARININ ZİRVƏ GÖRÜŞÜNDƏ İŞTİRAK ETDİKDƏN SONRA VƏTƏNƏ QAYIDARKƏN BİNƏ HAVA LİMANINDA JURNALİSTLƏRİN SUALLARINA CAVAB

*22 iyun 2000-ci il*

**S u a l :** Cənab Prezident, MDB barədə dəfələrlə tənqidi mülahizələr söyləmisiniz, MDB-nin fəaliyyətsizliyini tənqid etmisiniz. MDB-nin bu sammitindən sonra Sizin mövqeyinizdə hansısa bir dəyişiklik baş veribmi? Ümumiyyətlə, bu sammitdə hansısa ümüdverici dəyişikliklər oldumu?

**C a v a b :** Bilirsiniz, mən həqiqətən tənqid etmişəm. Ola bilər, sabah yenə də nəyisə tənqid edim. Amma bu o demək deyil ki, biz MDB-dən imtina etmişik. Mən orda da dedim – dövlət başçılarının Moskvada qapalı iclası var idi – başqa yerlərdə də demişəm. Mən bu gün Rusiyanın 50 vilayətindən gəlmiş Azərbaycan icmalarının nümayəndələri ilə görüşdüm, orada da dedim. Cənab Putinlə mənim bu gün 1 saat 40 dəqiqəlik görüşümüz oldu. Rusiyanın rəhbərliyindəki çox böyük dəyişikliklərə və Rusiya MDB-də əsas aparıcı dövlət olduğuna görə indi bu tənqidlər artıq arxada qalıbdır. İndi ümidlər var. MDB-ni təkcə mən tənqid etməmişəm, onu hamı tənqid edib. Mənə elə gəlir ki, bu ümidlərin çoxu doğrula bilər.

MDB ölkələri dövlət başçılarının bu dəfəki iclası daha səmərəli keçdi. Məsələn, biz, dövlət başçıları qapalı iclasda 2 saat çox sərbəst, geniş və müstəqil müzakirələr apardıq. Yəni o, formal xarakter daşımadı ki, kimsə hansı sənədisə hazırlayıb, gətirib ortaya qoyub, kim istəyir, kimsə istəmir.

Sonra Moskva televiziyası məndən bir müsahibə götürdü. Mən onlara da dedim. MDB-nin Zirvə görüşlərindən sonra adətən yemək verirlər. Bunlar hamısı protokol xarakteri daşıyır. Hamı, bütün nümayəndə heyətləri bir yerə yığışır. Amma bu dəfə fərqli nə idi? Dövlət başçıları Kremldə ayrıca bir salonda, nümayəndə heyətlərinin başqa üzvləri isə digər bir yerdə toplaşmışdılar. Bu da doğrudur. Çünki bizə əsa-

sən yemək lazım deyil, fikir mübadiləsi lazımdır. Biz orada da təxminən 2 saata qədər olduq, yenə də fikir mübadiləsi getdi.

Bunlar hamısı onu göstərir ki, indi MDB səmərəli ola bilər. Belə ümidlər var. Mən arzu edirəm ki, bu ümidlər doğrulsun.

**S u a l :** Cənab Prezident, səfər zamanı keçirdiyiniz digər görüşlər barədə nə deyə bilərsiniz?

**C a v a b :** Bilirsiniz, görüşlər çox olubdur. Onlar haqqında indi danışsam, vaxtı çox aparar. Bizim Dövlət Televiziyası bunların hamısını verəcəkdir, yəqin ki, bu görüşlərin hamısı sizə məlum olacaqdır. Görüşlərin hamısı yaxşı olubdur.

Yenə də deyirəm, bu gün xüsusən, Vladimir Putinlə görüşdük. Məsələn, dünən bütün ölkələrin prezidentləri görüşürdülər. Ancaq cənab Putinlə danışdıq ki, mən onunla bir az geniş söhbət etmək istəyirəm. Ona görə də belə razılığa gəldik ki, bu gün görüşək. Bütün prezidentlərin hamısı onunla görüşüb getdilər. Mən isə bu gün orada qaldım. Qalmağıma səbəb elə bu və Rusiyadakı Azərbaycan icmalarının nümayəndələri ilə görüş idi.

Bizim bugünkü görüşümüz çox uzunmüddətli, çox əhəmiyyətli və çox da səmərəli oldu. Bu görüş məndə çox böyük ümidlər yaradır.

Bilirsiniz ki, Robert Koçaryanla təkbətək görüşüm oldu. Sonra Robert Koçaryan, Heydər Əliyev, Vladimir Putin görüşü oldu. Sonra dörd ölkənin – Cənubi Qafqazın üç ölkəsinin və Rusiyanın prezidentlərinin görüşü keçirildi.

Başqa ölkələrin prezidentləri ilə də söhbətlərim olubdur. Təbiidir ki, danışmaq, hansısa məsələləri müzakirə etmək üçün orada böyük imkanlar var idi. Mən həmin imkanların hamısından istifadə etdim. Sağ olun.



## AVSTRİYAYA YOLA DÜŞMƏZDƏN ƏVVƏL BİNƏ HAVA LİMANINDA JURNALİSTLƏRƏ MÜSAHİBƏ

*3 iyul 2000-ci il*

– Siz mənim səfərimin məqsədini bilirsiniz, elan olunubdur. Avstriyaya gedirəm. Avstriyanın prezidenti cənab Tomas Klestil məni çoxdandır dəvət edibdir. Bu rəsmi ziyarəti həyata keçirmək üçün indi oraya gedirəm.

Orada Avstriyanın dövlət və hökumət başçıları ilə – həm prezidentlə, həm kanslerlə, həm də parlamentin sədri ilə, sonra xarici işlər naziri ilə görüşlər olacaqdır. Bilirsiniz ki, bu il Avstriya ATƏT-də sədrlik fəaliyyətini həyata keçirir, Avstriyanın xarici işlər naziri də ATƏT-in hazırda fəaliyyətdə olan sədridir – onunla görüş olacaqdır.

Bir də ki, bilirsiniz, beynəlxalq təşkilatların bir qisminin qərargahları Avstriyada yerləşir. O cümlədən, Birləşmiş Millətlər Təşkilatının bir neçə təşkilatının baş qərargahları da Vyanadadır. ATƏT-in də baş qərargahı Vyanada yerləşir. Ona görə də bütün bu təşkilatların rəhbərləri ilə də görüşlərim, danışıqlarım olacaqdır. Hesab edirəm ki, bu bizim ölkəmiz üçün çox əhəmiyyətlidir, vacibdir.

Avstriya kimi bir dövlətlə bizim əlaqələrimiz yaxşıdır. Nazirlər səviyyəsində, bir çox başqa səviyyələrdə Azərbaycandan Avstriyaya, Avstriyadan Azərbaycana səfərlər çox olubdur. Ancaq dövlət başçısının – prezidentin də səfəri lazımdır.

**S u a l :** Cənab Prezident, Minsk qrupunun həmsədrləri ilə görüşünüzü necə dəyərləndirirsiniz?

**C a v a b :** Görüşün əsas hissəsini televiziya ilə veriblər, yəqin ki, eşitmisiniz. Hələ ki, onlarda yeni bir şey yoxdur. Onlar Ermənistan prezidenti Koçaryanla mənim bilavasitə görüşlərimə ümid bəsləyirlər. Biz də onların fəaliyyətinə ümid bəsləyirik. Əgər dünən televiziya ilə seyr etdinizsə, mən onlara olduqca kəskin dedim ki, siz altı aydır fəaliyyətinizi dayandırmısınız, fəaliyyətinizi gücləndirməlisiniz. Onlar da söz verdilər ki, bunu edəcəklər.

**S u a l :** Cənab Prezident, Türkiyə prezidenti Əhməd Necdət Sezərin Azərbaycana qarşıdakı səfəri zamanı hansı məsələləri müzakirə edəcəksiniz və Azərbaycan qazının Türkiyəyə ixracı məsələsində Türkiyə prezidentindən hansı irəliləyişi gözləyirsiniz?

**C a v a b :** Onu Türkiyə prezidenti buraya gələndə deyərsiniz, danışarıq. Türkiyənin hörmətli prezidenti Əhməd Necdət Sezər ayın 11-də Azərbaycana rəsmi səfər edəcəkdir. Türkiyənin yeni prezidenti kimi, onun xarici ölkəyə ilk səfəri Azərbaycanadır. Bəziləri deyirlər ki, o, Kiprə getdi. Amma onlar Kipri xarici ölkə hesab etmirlər. İlk xarici səfəri Azərbaycanadır. Mən bunu xahiş etmişdim, yəqin ki, o da mənimlə eyni fikirdə olubdur. Ayın 11-də gələcəkdir. Təbiidir ki, Türkiyə ilə Azərbaycan arasında olan, indiyə qədər yaranmış əlaqələr hamısı davam edəcək, heç bir dəyişiklik olmayacaqdır. Dəyişikliyin olmasına əsas da yoxdur. Səfərə gələndə danışacağıq, onda biləcəksiniz.

**S u a l :** Cənab Prezident, Azərbaycan Avropa Şurasına üzv qəbul edildikdən sonra bu, Avropa ölkəsinə ilk rəsmi səfərinizdir. Bu səfər çərçivəsində sənədlərin imzalanması gözlənilirmi?

**C a v a b :** Bəli, gözlənilir. Bir neçə sənəd imzalayacağıq. Prezidentlə mən sənəd imzalayacağam, bir neçə başqa sənəd imzalanacaqdır. Bundan əlavə, bir neçə beynəlxalq təşkilatla Azərbaycan arasında sənədlər imzalanacaqdır.

**S u a l :** Cənab Prezident, əvvəla, Azərbaycanın Avropa Şurasına üzv olması münasibətilə Sizi təbrik edirəm. İkincisi, Sizin bu hadisəyə münasibətinizi bilmək istərdim. Yəni bundan sonra Avropanın Azərbaycana tələb və tövsiyələri çoxalacaqdır.

**C a v a b :** Mən bunu bir neçə dəfə demişəm. Siz həmişə mənim görüşlərimdə olursunuz, olmayanda da televiziya ilə onları seyr edirsiniz. Axırıncı dəfə, İtaliyanın nümayəndə heyəti burada olanda – bilirsiniz ki, indi İtaliya Avropa Şurasında sədrlik edir. Ona görə də onlar çox böyük heyətlə gəlmişdilər. İtaliya xarici işlər nazirinin müavinindən əlavə, İtaliyanın Avropa Şurasındakı daimi səfiri, İtaliyadan Avropa Şurasında çalışan bir neçə yüksək vəzifəli şəxs də gəlmişdi – mən onlara dedim və bu sözü bir neçə dəfə təkrar etmişəm ki, Avropa Şurasına daxil olmaq bizim üçün bal yemək, cənnətə düşmək deyildir. Avropa Şurasına daxil olmaq üzərimizə yeni-yeni çox böyük məsuliyyətlər götürməkdir.



Təbii ki, biz sevinməliyik – Azərbaycana diqqət göstərilir, Avropa Şurası istəyir ki, Azərbaycan onun həqiqi, tamhüquqlu üzvü olsun. Biz də istəyirik olaq. Amma ola bilər ki, bundan sonra bizim qarşımıza daha çox vəzifələr qoyulsun. Bir şeyi anlamaq lazımdır ki, – bunu Avropa Şurasında da anlamalıdırlar, təəssüf ki, bəziləri anlamır – Avropa qitəsindəki ölkələrin hamısının mentaliteti, səviyyəsi bir deyildir. Məsələn, indi fransızlardan tələb olunanı Azərbaycandan da tələb etmək o qədər də ədalətli olmaz.

Allah xeyirli eləsin. Hesab edirəm ki, yaxşı olacaqdır.

**S u a l :** Cənab Prezident, hazırda Avstriya ATƏT-in sədridir. Sizin səfərinizdən sonra Avstriyanın xarici işlər naziri xanım Benita Mariya Ferrero-Valdnerin Azərbaycana səfəri gözlənilir. Sizin səfərinizdən sonra ola bilərmi ki, Avstriya hər hansı yeni təkliflə gəlsin?

**C a v a b :** O həm Azərbaycana, həm də Ermənistana gələcəkdir. Mən xahiş edəcəyəm. Çünki dünən ATƏT-in Minsk qrupunun mənimlə görüşən həmsədrləri ayın 12-də ATƏT-in hazırkı sədrinə – Avstriyanın xarici işlər nazirinə öz məlumatlarını verəcəklər. Mən də bundan öncə onunla görüşəcəyəm və bu məsələ mənim üçün ən əsas məsələlərdən biridir.

**S u a l :** Cənab Prezident, Mahir Cavadovun Avstriya vətəndaşlığına qəbul edilməsi ilə bağlı iradınızı söyləmişdiniz. Bunu Avstriya rəsmilərinə də çatdıracaqsınızmı?

**C a v a b :** Bilirsiniz, mən deməmişəm ki, o, Avstriya vətəndaşlığına qəbul olunubdur. Düzü, heç bilmirəm ki, ona hansı status verilibdir – bəzisi deyir ki, siyasi sığınacaq verilib, bəzisi deyir başqa şey verilibdir.

Təbiidir ki, Avstriya özünü çox ədalətli, demokratik ölkə hesab edir. Eyni zamanda terroristi bir neçə il orada saxlayıblar və onun İrana getməsinə də imkan veriblər. Ancaq Avstriya vətəndaşı, heç köklü avstriyalı olmayan, türkiyəli, türk millətindən olan Kənan Gürol 1995-ci ilin mart hadisələrində həmin Mahir Cavadovla və başqa terroristlə birlikdə Azərbaycanda dövlət çevrilişi cəhdinin ən fəal iştirakçılarından biri idi. Mən sizə deyə bilərəm ki, xarici ölkələrdən iki fəal iştirakçı vardı. Biri Dəmirkol idi, hansını ki, Türkiyə prezidentinin xahişi ilə mən onlara verdim, o da getdi orada çox axmaq işlər gördü.

Amma bu, cəza aldı və cəzasını da çəkməli idi. Ancaq Avstriya hökuməti bir neçə dəfə bizə müraciət etmişdi, mən də o müraciəti nəzə-

rə alaraq onu onlara verdim. Onun ailəsindən mənə minnətdarlıq məktubu da gəlibdir. Allah eləsin ki, doğrudan da islah edilmiş olsun. Amma bəzən belə olmur, görürsən, düşdüyü yerdən çıxandan bir az sonra yenə də fikri pozulur. Ancaq bunlar bizi narahat etmir, çünki biz belə hallarla çox rastlaşmışıq.

**S u a l** : Cənab Prezident, Avropa Şurasının Azərbaycana tövsiyələrindən biri ədalətli, demokratik Parlament seçkilərinin keçirilməsidir. Prezident Aparatında hazırlanan layihə Milli Məclisdə kəskin müzakirələrə səbəb olur. Hamının fikri budur ki, layihə barədə prezident nə deyəcəkdir?

**C a v a b** : Qoy müzakirə etsinlər, axırda mən fikrimi deyərəm. Sağ olun.



## BİRGƏ MƏTBUAT KONFRANSI

*Vyana, Prezident Aparatı*
*4 iyul 2000-ci il*

**Vyanada Prezident Aparatında Prezident Heydər Əliyev və Prezident Tomas Klestil birgə mətbuat konfransında bəyanatla çıxış etdilər.**

### AVSTRİYANIN FEDERAL PREZİDENTİ TOMAS KLESTİLİN BƏYANATI

– Azərbaycan Respublikasının Prezidentini böyük maraqla, böyük sevinclə salamladım. Əvvəla, ikitərəfli münasibətlər baxımından iki dövlət arasında əlaqələrin olması vacibdir və müsbət haldır. İkincisi, hazırda Avstriya ATƏT-in sədridir və bu mənada biz Cənubi Qafqazın həmin bölgəsinə xüsusi əhəmiyyət, üstünlük veririk.

Cənab Prezidentlə söhbətimiz zamanı biz bu bölgədəki münaqişələrlə bağlı müxtəlif məsələlərə, o cümlədən Dağlıq Qarabağ məsələsinə toxunduq. ATƏT-in hazırkı sədri, Avstriyanın xarici işlər naziri indi bu məsələ ilə məşğuldur və tezliklə Bakıya səfər edəcəkdir. Cənab Prezidentlə görüşümüzdə biz indiyədək Minsk qrupunun əldə etdiyi nəticələr, habelə digər səviyyələrdəki nəticələr haqqında da danışdıq. Aydın oldu ki, bu bölgədəki münaqişənin çox böyük coğrafi-siyasi təsiri var. Belə ki, bura Ermənistan, Azərbaycan, İran və bir çox başqa ölkələrin qonşu olduğu ərazidir. Eyni zamanda bu bölgə digər maraqların olduğu bir yerdir. Ona görə də biz ATƏT-ə sədrlik etdiyimiz müddətdə bu münaqişə ilə məşğul olmağa və imkan daxilində onun həllinə öz töhfəmizi verməyə çalışırıq. Bildiyiniz kimi, bu işlə əsasən hazırda ATƏT-ə sədrlik edən Avstriyanın xarici işlər naziri məşğul olur.

* * *

### AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEVİN BƏYANATI

– Hörmətli cənab Prezident! Hörmətli xanımlar və cənablar! Hörmətli mətbuat nümayəndələri!

Mən Avstriya prezidentinin dəvəti ilə bu gün Vyanada rəsmi səfərdə olmağımdan çox məmnunam.

Cənab Prezident, məni dəvət etdiyinizə və çox qonaqpərvərliklə, mehribanlıqla qarşıladığınıza görə Sizə təşəkkür edirəm. Bu, Avstriya ilə Azərbaycan arasında yaranmış əlaqələrin inkişaf etdirilməsi üçün mühüm bir mərhələdir. Biz bunu yüksək qiymətləndiririk.

Cənab prezident, Siz söylədiyiniz kimi, indi bizim təkbətək danışığımız zamanı bir çox məsələlər, o cümlədən xüsusən Cənubi Qafqazdakı vəziyyət, bu problemin içərisində 12 il davam edən Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi müzakirə edildi.

Cənab Prezident, Siz bu problemi yaxşı bilirsiniz. Biz Sizinlə ATƏT-in 1994-cü il Budapeşt, 1996-cı il Lissabon, 1999-cu il İstanbul sammitlərində görüşmüşük və həmin sammitlərin hər birində bu məsələ gündəlikdə olubdur. ATƏT-in bu sammitlərində məsələnin ədalətli həll olunması üçün Azərbaycana verdiyiniz dəstəyə görə təşəkkür edirəm.

Bu gün biz bu məsələni Sizinlə bir daha çox ətraflı müzakirə etdik. Mən hiss etdim ki, Siz bu problemi bilirsiniz, bu problem Sizi də narahat edir. Çünki Qafqaz bölgəsində – dünyanın mühüm regionlarından biri olan bölgədə sülhün, sabitliyin, əmin-amanlığın olması Avstriya üçün də vacibdir. Mən Sizə bildirdim ki, Azərbaycan bu barədə çox səylər qoyubdur və bir çox addımlar atıbdır. 1996-cı ildə ATƏT-in Lissabon sammitində çox mühüm bir qərar qəbul edilibdir. Biz onun həyata keçirilməsinə çalışmışıq. Amma Ermənistanın qeyri-konstruktiv mövqeyi nəticəsində biz onu həyata keçirə bilməmişik.

Bu məsələlərlə 1992-ci ildən ATƏT-in Minsk qrupu məşğul olur. Minsk qrupuna Amerika Birləşmiş Ştatları, Rusiya, Fransa rəhbərlik edirlər. Ancaq bu səylər lazımi nəticə vermədiyinə görə, 1999-cu ildə Ermənistan prezidenti Robert Koçaryan ilə Azərbaycan Prezidenti Heydər Əliyev arasında bilavasitə bir neçə təkbətək görüş keçirilməsinin lazım olması məsələsi meydana çıxmışdır.

Biz bu görüşlər zamanı müəyyən qədər irəliləmişik. Hər iki prezident belə fikrə gəlibdir ki, məsələni həll etmək üçün qarşılıqlı güzəştlərə getmək lazımdır. Ancaq 1999-cu ildə bu məsələdə əldə edilmiş irəliləyiş, təəssüf ki, sonra müəyyən qədər ləngiyibdir. Biz məsələnin sülh yolu ilə həll olunmasına bundan sonra da çalışacağıq.

Cənab Prezident, mən Sizə bildirdim ki, bu münaqişə nəticəsində Ermənistan silahlı qüvvələri Azərbaycanın ərazisinin 20 faizini işğal



edibdir və həmin ərazilər Ermənistan silahlı qüvvələrinin işğalı altındadır. İşğal edilmiş torpaqlardan bir milyondan artıq azərbaycanlı zorla çıxarılıb, öz ölkələrində köçkün vəziyyətində çadırlarda ağır şəraitdə yaşayırlar.

Altı il bundan öncə, 1994-cü ildə Ermənistanla Azərbaycan arasında atəşin kəsilməsi haqqında saziş imzalanıb ki, məsələnin sülh yolu ilə həll edilməsinə nail olaq. İndi müharibə yoxdur, amma sülh də əldə edilməyibdir. Bu, Azərbaycan üçün həyati məsələdir: Azərbaycanın ərazi bütövlüyü bərpa olunmalıdır, Ermənistan silahlı qüvvələri işğal olunmuş torpaqlarımızdan çıxmalıdır. Beynəlxalq hüquq normalarına, ATƏT-in prinsiplərinə Ermənistan da riayət etməlidir və bir milyondan artıq azərbaycanlı öz yerlərinə-yurdlarına qayıtmalıdır.

Onu da bilməlisiniz ki, işğal olunmuş torpaqlarda hər şey dağıdılıbdır. Öz yerlərinə qayıdan adamlar ancaq torpaqlarına qayıdacaqlar. Onların orada yaşaması üçün hələ bir neçə il çox iş görülməlidir və buna böyük vəsait lazımdır. Amma hesab edirik ki, əgər sülh əldə olunsa, təbiidir ki, gələcək illərdə Dünya Birliyinin, Avropa Birliyinin, böyük donorların köməyi ilə bu məsələləri də həll etmək olar.

Avstriya bu il ATƏT-in sədri vəzifəsini həyata keçirir. Biz Sizə çox ümidlər bəsləyirik. Xarici işlər naziri xanım Ferrero-Valdner bu yaxınlarda bölgəmizə gələcək, Azərbaycanda olacaqdır. Biz Sizi səbirsizliklə gözləyirik. Arzu edirik ki, bu ilin ikinci yarısında – Avstriyanın ATƏT-ə sədrlik etdiyi zaman bu məsələnin həllində real bir nəticə əldə olunsun.

Cənab Prezident, Siz Avropada və dünyada çox tanınan, böyük hörmətə malik olan dövlət xadimisiniz. Mən arzu edirəm və xahiş edirəm ki, Siz öz şəxsi siyasi imkanlarınızdan da istifadə edib bu məsələnin sülh yolu ilə həll olunmasında bizə yardım göstərəsiniz. Biz Avstriyaya, prezidentə, xarici işlər nazirinə və ATƏT-ə çox böyük ümidlər bəsləyirik.

Nəhayət, cənab Prezident, mən istərdim Sizə bildirim ki, İkinci Dünya müharibəsində alman ordusu tərəfində vuruşmuş və Sovet Ordusuna əsir düşmüş Avstriya əsgərlərinin bir qismi Azərbaycana gətirilib və onlar orada su elektrik stansiyasının tikintisində iştirak ediblər. Onlardan 45 nəfəri orada vəfat edib və dəfn olunubdur. Onların qəbirləri indiyədək qorunur. Mən həmin qəbirlərin fotolarını Sizə təqdim etmək istəyirəm. Bu isə onların xatirəsinə vurulmuş lövhədir. Mən bu

barədə məlumatları da Sizə təqdim edirəm. Güman edirəm ki, fotoreportyorlar o şəkilləri çəkib nümayiş etdirsələr, daha yaxşı olar.

(Prezident Heydər Əliyev fotoşəkilləri və məlumatları prezident Tomas Klestilə təqdim etdi).

* * *

**Sonra prezidentlər jurnalistlərin suallarına cavab verdilər.**

S u a l : Cənab Prezident, mənim sualım Dağlıq Qarabağ məsələsi barədədir. Sizcə, bu məsələdə irəliləyişə, sülhə necə nail olmaq mümkündür?

**H e y d ə r Ə l i y e v :** ATƏT bütün gücünü sərf edib, ATƏT-in Minsk qrupunun həmsədrləri Rusiya, Amerika Birləşmiş Ştatları və Fransanın təsirindən istifadə edib bu məsələdə irəliləyişə, sülhə nail olmaq mümkündür. Hesab edirəm, bunun üçün Ermənistana həqiqəti anlatmaq lazımdır. Əsas da beynəlxalq hüquq normalarını, Helsinki aktını, dövlətlərin sərhədlərinin toxunulmazlığı və ərazi bütövlüyü prinsipini ortaya qoymaq lazımdır. Əgər bütün dövlətlər bunu səmimiyyətlə ortaya qoysalar və Ermənistandan bunu tələb etsələr, onda məsələni həll etmək mümkündür.

S u a l : Mənim sualım hər iki prezidentədir. Azərbaycan dövlət müstəqilliyi qazandıqdan sonra onun Prezidenti Avstriyaya ilk dəfə səfər etmişdir. Bilmək istərdim, aparılmış danışıqlar və imzalanmış sənədlər Avstriya ilə Azərbaycan arasında əlaqələrin gələcək inkişafına necə təsir göstərə bilər?

**T o m a s K l e s t i l:** Mən hesab edirəm və inanıram ki, bizim bugünkü görüşümüz və apardığımız söhbət, cənab Prezidentin hələ bu gün və sabah da aparacağı danışıqlar qarşılıqlı anlaşmanı yaxşılaşdırmaq üçün yaxşı zəmin yaradacaqdır. Bu isə öz növbəsində siyasi, iqtisadi və mədəni əlaqələrin yaxşılaşmasına səbəb olacaqdır.

Avstriyanın ATƏT-ə sədrlik etdiyi dövrdə bizim üçün ən öncül vəzifələrdən biri məhz Cənubi Qafqaz regionunda münaqişələrin, ən əsası isə Ermənistan-Azərbaycan münaqişəsinin həllinə nail olmaqdır. Bəri başdan demək lazımdır ki, biz başa düşürük ki, münaqişə təkcə Ermənistanla Azərbaycan arasında deyildir. Orada çox şey qarışıb, çulğaşıb, başqa münaqişələr də mövcuddur. Mən artıq dedim ki, həmin regionun çox böyük coğrafi-siyasi, hətta qlobal rolu var. Ona görə də məsələyə realistcəsinə yanaşmaq lazımdır. Hesab edirəm, biz bunun həllinə kömək göstərə biləcəyik.



**H e y d ə r Ə l i y e v :** Mən də cavab verməliyəm. Mən hörmətli prezidentin cavabı ilə tamamilə razıyam. Azərbaycan dövlət müstəqilliyi əldə edəndən sonra ölkələrimiz arasında əlaqə yaranıbdır. Müxtəlif nazirliklər arasında bir çox müqavilələr imzalanıbdır. Avstriyanın ayrı-ayrı nümayəndələri Azərbaycanda, Azərbaycanın nümayəndələri Avstriyada olublar. Keçən il Azərbaycanda 23-dən artıq Avstriya biznesmeni var idi və onlar Azərbaycana investisiya qoymaq məsələləri ilə məşğul olurdular. Elmi-mədəni sahələrdə, təhsil sahəsində və digər sahələrdə də ölkələrimiz arasında əlaqələr mövcuddur. Azərbaycan tələbələri Avstriyada təhsil alırlar. Avstriyanın diplomatiya kurslarında da Azərbaycan tələbələri təhsil alırlar.

Amma bunlar hamısı bu günə qədər görülmüş işlərdir. Hesab edirəm ki, mənim səfərimdən və prezidentlə apardığımız söhbətlərdən sonra bizim əlaqələrimiz daha da genişlənəcəkdir. Avstriya iqtisadi cəhətdən, texnika, texnologiya cəhətdən çox inkişaf etmiş ölkədir. Azərbaycanın zəngin təbii sərvətləri, böyük iqtisadi potensialı var. Azərbaycan xarici investisiyalara çox böyük maraq göstərir. 1994-cü ildən başlayaraq dünyanın 32 neft şirkəti Azərbaycana gəlib, müqavilələr bağlayıblar və işləyirlər. Hesab edirəm, Avstriya biznesi gərək Azərbaycana da öz münasibətini göstərsin, geri qalmasın. Düşünürəm ki, bu görüşdən sonra biz həmin məsələləri həll edə bilərik.

Amma cənab prezidentin dediyi kimi, ən əsas məsələ Ermənistan-Azərbaycan münaqişəsinin həll olunması və bu sahədə Avstriyanın bizə yardımıdır.

Hörmətli cənab Prezident, mən Sizi Azərbaycana rəsmi səfərə dəvət edirəm. Bu ay xarici işlər naziri gələcəkdir. Sizə münasib olan bir vaxtda Sizi Azərbaycanda görməkdən çox məmnun olaram. Güman edirəm, mənim bu dəvətimi qəbul edib onu həyata keçirməyə çalışacaqsınız.

Sizə bir daha təşəkkür edirəm.

## AVSTRİYA JURNALİSTLƏRİ İLƏ MÜSAHİBƏ

*6 iyul 2000-ci il*

**Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Avstriya Respublikasına rəsmi səfərinin sonuncu günü Vyanada onun üçün ayrılmış iqamətgahda ölkənin nüfuzlu mətbuat orqanlarını təmsil edən jurnalistlərlə – Livia Klinql («Kuryer» qəzeti), Paul Zablondil (APA agentliyi), Viland Şnayder («Di Presse» qəzeti) və Cozef Kirxenqäst («Ştandart» qəzeti) ilə görüşmüş və onlara müsahibə vermişdir.**

Prezident Heydər Əliyev mətbuat nümayəndələrini səmimiyyətlə qarşılayaraq dedi:

– Sabahınız xeyir olsun! Mən sizi dinləyirəm. Yəqin ki, siz mənim Avstriyaya səfərim haqqında təəssüratlarımı öyrənməyə gəlmisiniz.

Deyə bilərəm ki, təəssüratlarım çox yaxşıdır. Avstriyaya ilk rəsmi səfərim uğurlu olubdur. Bu səfərdə nəzərdə tutduğum məsələlərin hamısı həll edilibdir. Nəzərdə tutulmuş bütün görüşlər keçirilmişdir. Bu görüşlər çox işgüzar şəraitdə, dostluq, mehribanlıq şəraitində keçmişdir. Burada mənə çox gözəl, səmimi münasibət, mehribanlıq və qonaqpərvərlik göstərilmişdir. Səfərimdən razıyam.

Mən qeyd etdim ki, bu, Avstriyaya ilk səfərimdir. Azərbaycan dövlət müstəqilliyini əldə edəndən sonra Avstriya ilə Azərbaycan arasında əlaqələr yaranmış və müxtəlif səviyyələrdə inkişaf etmişdir. Nazirlər səviyyəsində, müxtəlif dövlət orqanları səviyyəsində həm Vyanada, həm də Bakıda görüşlər keçirilmişdir. İndiyə qədər Avstriya ilə Azərbaycan arasında müxtəlif sahələrdə əməkdaşlıq etmək üçün bir çox müqavilə, saziş və memorandum imzalanmışdır.

Amma Avstriyaya mənim rəsmi səfərim, təbiidir ki, bizim əlaqələrimizi daha da yüksək səviyyəyə qaldırdı. Birincisi, federal prezident cənab Klestil ilə çox səmərəli, məzmunlu, ətraflı danışıqlarımız oldu. Biz bir çox əsas məsələləri müzakirə etdik. Bunların sırasında ikitərəfli Avstriya-Azərbaycan əlaqələri, beynəlxalq məsələlər və bizim üçün əsas məsələ olan Ermənistan-Azərbaycan münaqişəsinin həlli məsələləri var idi.



Bilirsiniz ki, bu il Avstriya ATƏT-də sədrlik vəzifəsini həyata keçirir. Buna görə də Vyanada olduğum zaman bütün görüşlərdə Ermənistan-Azərbaycan münaqişəsinin həll edilməsinə Avstriyanın təkcə ATƏT-in üzvü və dünyanın nüfuzlu dövləti kimi yox, eyni zamanda bu il ATƏT-də sədrlik edən dövlət kimi yanaşması baxımından danışıqlar aparırdım.

Biz başqa məsələləri də müzakirə etdik. Mənim digər görüşlərim də oldu. Federal kansler cənab Şüssel ilə görüşdüm. Parlamentdə cənab Fişer ilə görüşüm oldu. Vyana meriyasını ziyarət etdim və orada da çox gözəl görüşlərimiz oldu.

Bilirsiniz ki, sizin ölkənin xarici işlər naziri indi ATƏT-in sədri vəzifəsini həyata keçirir. İyulun 16-17-də xarici işlər nazirinin bizim bölgəyə səfəri gözlənilir. Burada biz onunla Ermənistan-Azərbaycan münaqişəsinin həllinə dair danışıqlar prosesinin mövcud vəziyyəti haqqında geniş müzakirə apardıq.

Bütün görüşlərdə – federal prezidentlə, federal kanslerlə və xarici işlər naziri ilə görüşlərdə mən təkidlə xahiş etdim ki, Avstriya həm öz dövlət nüfuzundan istifadə edərək, həm də bu il ATƏT-in sədri olmasından istifadə edərək Ermənistan-Azərbaycan münaqişəsinin həllinə daha artıq səy göstərsin və ən əsası – biz əməli nəticə əldə edək.

Mən bütün bu danışıqlarda hiss etdim ki, Avstriya dövləti, hökuməti Dünya Birliyində tutduğu yerinə görə Azərbaycanın əhəmiyyətini həqiqətən çox qiymətləndirir. Azərbaycanla əməkdaşlığa çox maraq göstərir, Qafqazda Azərbaycanın coğrafi-strateji, coğrafi-siyasi vəziyyətini də qiymətləndirir və bunu Avstriya ilə əməkdaşlıq üçün çox əhəmiyyətli amil hesab edirlər. Mən hiss etdim ki, bizim barəmizdə çox yaxşı səmimiyyət var. Təbiidir ki, biz də və şəxsən mən də buraya ən səmimi hissiyyatlarla gəlmişik.

İqtisadiyyat Palatasında biz bir qrup biznesmenlə görüş keçirdik və iqtisadi əməkdaşlıq haqqında çox ətraflı danışıqlar apardıq. Mən onlara Azərbaycanın iqtisadiyyatı haqqında məlumat verdim, onları Azərbaycanla əməkdaşlığa dəvət etdim. Avstriya biznesmenləri üçün Azərbaycanda sərmayə qoyub yaxşı iş görmək imkanları olması haqqında məlumat verdim.

Bir də qeyd edirəm, mən buradakı görüşlərimdən çox razıyam. Təbiidir ki, Vyana şəhərində ilk dəfə olduğuma görə bu barədə də bir neçə kəlmə demək istəyirəm. Gözəl şəhərdir! Biz Vyananın, Avstriyanın

tarixini yaxşı bilirik. Ancaq kitablardan oxuduğumuz o qədər də dərin təəssürat yaratmır. Ümumiyyətlə, şəhərin özü, xüsusən tarixi-memarlıq, heykəltəraşlıq abidələri, çox əzəmətli saraylar və bu sarayların həm xarici, həm daxili gözəlliyi, həm də bu saraylarda olan qiymətli rəssamlıq əsərləri çox böyük təəssürat bağışladı.

Avstriya bitərəf ölkədir. O, iqtisadi cəhətdən çox inkişaf etmişdir. Mənə məlumat verdilər ki, Avropa Birliyindəki dövlətlər içərisində Avstriya öz iqtisadiyyatına görə təxminən beşinci yerdə durur. Əhalinin həyat, yaşayış səviyyəsi yüksəkdir. Burada keçmişdə olduğu kimi, yüksək mədəniyyət hiss etdik. Motsart orkestrinin konserti də məni çox heyran etdi.

Bilirsiniz ki, ayın 4-də mənim proqramım çox gərgin idi, bir dəqiqə də boş vaxt yox idi. Həddindən çox görüşlər, danışıqlar nəzərdə tutulmuşdu. Bəziləri təəccüblənirdilər ki, biz nə üçün belə gərgin proqram tərtib etmişik. Amma mən isə istəyirdim ki, mümkün qədər çox iş görüm. Bütün bu gərgin işdən sonra, axşam saat 8-də Hofburq sarayındakı konsert salonunda Motsart orkestrinin konserti mənim bütün yorğunluğumu çıxardı. Çox gözəl konsert idi.

Avstriyanın mədəniyyət sahəsində böyük, tarixi ənənələri var. Bunlar bizə yenə də kitablardan çox məlumdur. Hətta gərək ki, siz və ya kimsə mənə Bakıda sual vermişdi ki, «Avstriya» deyəndə birinci növbədə gözümün qarşısına nəyi gətirirəm. Dedim ki, İohann Ştraus! Ancaq Avstriyanın musiqi mədəniyyəti təkcə İohann Ştrausla bitmir. Motsart, Bethoven, Haydn, Ştraus - atası da, oğlu da...

Sizə bir şey demək istəyirəm. Hörmətli prezident bizə yemək verdiyi zaman süfrə arxasında sərbəst söhbət edirdik. Onda mən Ştrausun həyatına və musiqisinə həsr olunmuş bir filmi xatırladım. Bu, «Vyana meşəsinin nağılları» filmidir. Ancaq təəssüflər olsun ki, süfrə arxasında olan sizin adamlardan heç kəsin bu filmdən xəbəri yox idi. Ola bilər ki, o vaxt gənc olublar və bu filmə fikir verməyiblər.

Bilirsiniz ki, İkinci Dünya müharibəsi zamanı Sovet Ordusu müttəfiqlərin qoşunları ilə birlikdə Vyananı, Avstriyanı azad etmişdi, buradan bir çox qənimətlər götürmüşdü. Həmin film də bunların içərisində idi.

**Xanım Livia Klinql:** Mən həmişə elə bilmişəm ki, bu qənimətlərin içərisində saatlar da olmuşdur. Bizdə belə deyirlər ki, ruslar Avstriyaya gələndən sonra bütün saatları özləri ilə aparmışlar.



**Heydər Əliyev:** Ola bilər, qənimət çox aparırlar. Bunu nə ediblər, bilmirəm. Ancaq o filmi rus dilinə çevirib bütün Sovetlər İttifaqında göstərirdilər. Çox gözəl bir filmdir. Mən o zaman, gənc vaxtlarımda kino-teatrda bu filmə bəlkə də on-on beş dəfə baxmışam. Mən bu filmi xatırladanda gördüm ki, heç kimin xəbəri yoxdur. Amma bir-iki saatdan sonra mən Parlamentə gələndə, Parlamentin sədri cənab Fişer mənə dedi ki, ziyafətdən çıxandan sonra əmr verdim ki, bütün arxivləri axtarıb o filmi tapsınlar. O, həmin filmin surətini mənə təqdim etdi. Düzdür, qutunu açmamışam, onun içərisindəkinin həqiqətən həmin film olub-olmadığını bilmirəm. Hər halda, Bakıda açıb baxacağam, gördüyüm həmin film olsa, çox məmnun qalacağam. Əgər o film olmasa, çalışacağam ki, keçmiş Sovetlər İttifaqının kino arxivlərindən filmi tapıb cənab Fişerə göndərim.

Motsart orkestrinin konsertinin proqramı çox zəngin idi. Dirijor çox məharətlə idarə edirdi, orkestr çox gözəl idi. Bizim xoşumuza gələn o idi ki, musiqiçilərin hamısı qədim formada, paltarlarda, parikdə idilər. İki vokalçı var idi, onlar da çox gözəl oxuyurdular. Ona görə də konsertdən qayıdandan sonra mən elə hiss etdim ki, sanki o gün heç işləməmişəm.

İkinci gün, dünən mən bütün günü beynəlxalq təşkilatlarla görüşlərə həsr etdim. Hesab edirəm Vyananın dünyada ən böyük rolu bir də ondan ibarətdir ki, burada bir çox beynəlxalq təşkilatların Avropa mərkəzləri yerləşir. Mən onların hamısı ilə görüşdüm. Çünki hər bir təşkilatla danışıq aparıb müəyyən məsələləri həll etməyə ehtiyacımız var. Onlar da bu görüşlərdən razı idilər, mən də razı idim.

Dünən də axşama qədər işlədik. Bir şeyə təəssüf edirəm: heç olmasa, on dəqiqə imkanım olmadı ki, Vyananın küçələrini avtomobilsiz, piyada gəzim, binalara baxım. Gördüklərimin hamısı avtomobilin pəncərəsindən gördüyümdür. Əlbəttə, saraylarda olduğum zaman onların içərisini gördüm.

Gözəl ölkəniz, gözəl tarixiniz var. Avstriya bu gün də çox inkişaf etmiş ölkədir. Ona görə də xoşbəxt adamlarsınız. Mən sizə uğurlar arzulayıram.

* * *

**Prezident Heydər Əliyev daha sonra Avstriya jurnalistlərinin suallarına cavab verdi.**

**S u a l :** Cənab Prezident, birinci sualım belədir: Sizin fikrinizcə, Azərbaycan Avropa Şurasına nə vaxt daxil olacaq? İkincisi, Siz mətbuat konfransında dediniz ki, Azərbaycan ümid edir ki, bu ilin sonunadək Qarabağ probleminin həllində müəyyən irəliləyiş ola bilər. Bununla əlaqədar ölkəmizin xarici işlər naziri Ferrero-Valdnerin regionunuza səfərindən real olaraq nə gözləyirsiniz?

**C a v a b :** Mən unutdum, bağışlayın. İyun ayının 28-də Strasburqda Avropa Şurasının Parlament Assambleyasında Azərbaycanın Ermənistanla birlikdə, eyni vaxtda Avropa Şurasına qəbul edilməsi haqqında qərar qəbul olunubdur. Parlament Assambleyasındakı Avstriya deputatlarının da hamısı Azərbaycanın qəbul olunmasına səs veriblər, bizə yardım ediblər. Mən buna görə təşəkkürümü bildirdim.

Ancaq bir mərhələ də var. O da budur ki, Parlament Assambleyasından sonra Avropa Şurasının Nazirlər Komitəsi bu məsələyə baxmalıdır. Ola bilər ki, onlar məsələyə bu ay baxsınlar. Hər halda, bizə deyiblər ki, sentyabr ayında Strasburqda, Avropa Şurasında Azərbaycanın bayrağını qaldıracağıq.

İkinci məsələ – Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həll olunmasıdır. Bilirsiniz ki, Minsk qrupu 1992-ci ildə yaranıbdır. 1993-cü ildən mən Azərbaycanın Prezidentiyəm və o vaxtdan indiyə qədər müxtəlif səviyyələrdə həddən artıq görüşlər keçirilibdir. Məsələn, onu deyə bilərəm ki, ATƏT-in 1994-cü ildə Budapeşt Zirvə görüşündə, 1996-cı ildə Lissabon Zirvə görüşündə və 1999-cu ilin noyabrında İstanbul Zirvə görüşündə bu məsələni ən yüksək səviyyədə müzakirə etmişik.

Biz xatırladıq ki, bütün bu Zirvə görüşlərində prezident cənab Klestil də iştirak edib və həmişə Azərbaycanın mövqelərini dəstəkləyibdir. Ancaq məsələ indiyə qədər həll olunmayıbdır. Bunun da səbəbi Ermənistanın qeyri-konstruktiv mövqe tutmasıdır. Ermənistan Azərbaycan torpaqlarının 20 faizini işğal etdiyinə görə öz üstünlüyünü hiss edir və bundan sui-istifadə edir. Onlar mümkün olmayan, ATƏT-in qərarlarına, beynəlxalq hüquq normalarına zidd olan tələblər irəli sürüblər, Dağlıq Qarabağa dövlət müstəqilliyi statusu verilməsini istəyirlər. Təbiidir ki, bu mümkün deyildir. Amma onlar bütün başqa təklifləri – hansılar ki, ATƏT-in Zirvə görüşlərində öz əksini tapıb – qəbul etmirlər.

**S u a l :** Cənab Prezident, Siz Azərbaycanın mühüm coğrafi-strateji mövqeyindən danışdınız. Bildiyiniz kimi, Amerika Birləşmiş Ştatlarının Azərbaycan nefti ilə bağlı xüsusi coğrafi-strateji maraqları var. Eyni zamanda, Rusiya ABŞ-ın regionda həm iqtisadi, həm də siyasi cəhətdən güclənəcəyindən qorxur. Sizcə, bu baxımdan Dağlıq Qarabağ probleminin, eləcə də digər vacib problemlərin həlli ABŞ-la Rusiya arasında razılıq olmadan mümkündürmü?



**C a v a b :** Mümkün deyildir.

**S u a l :** Siz nikbinsinizmi, bununla razılaşmaq mümkündürmü?

**C a v a b :** Bəli, nikbinəm.

**S u a l :** Nə əsasla?

**C a v a b :** Çünki dünyada heç bir münaqişə daimi ola bilməz. Hər bir münaqişənin sonu var. Məsələn, keçən il, nəhayət, Ermənistan prezidenti Robert Koçaryanla Azərbaycan Prezidenti arasında bir neçə təkbətək görüş olmuşdur.

Bu görüşlər zamanı hər iki prezident belə fikrə gəlmişdir ki, məsələni həll etmək, çıxış yolu tapmaq üçün hər iki tərəf kompromislərə getməlidir. Əgər biz bu kompromisləri müəyyənləşdirə, iki prezident arasında müəyyən bir razılığa gələ bilsək, onda məsələnin həll olunması asanlaşar. Ancaq siz dediyiniz kimi, gərək böyük dövlətlərin də bu məsələlərə ədalətli münasibəti olsun.

**S u a l :** Cənab Prezident, Siz Avstriyada investisiyalar barədə də danışdınız. Siz inanırsınızmı ki, Dağlıq Qarabağ problemi mövcud olduqca, Azərbaycana sərmayə gəlməsi mümkündür?

**C a v a b :** İnanıram, çünki Azərbaycana sərmayələr gəlir. Son beş ildə Azərbaycana 5 milyard dollardan artıq sərmayə gəlibdir. Biz dünyanın 32 böyük neft şirkəti ilə – bunlar 14 ölkəni təmsil edir – böyük müqavilələr imzalamışıq. Bu müqavilələrin icra müddəti 30 ildir. Amma hesab edirəm ki, bu müqavilələr XXI əsrin axırınadək və bəlkə sonra da davam edəcəkdir.

Bizim imzaladığımız bu müqavilələrə görə Azərbaycana 60 milyard dollar investisiya gəlməlidir. Əgər həmin ölkələr və dünyanın böyük neft şirkətləri arxayın olmasaydılar, təbiidir ki, Azərbaycana gəlməz, müqavilələri imzalamaz və böyük sərmayə də qoymazdılar.

**S u a l :** Mən bildiyimə görə 5 milyard dollar sərmayənin 3 milyard dolları neft sektoruna cəlb olunmuşdur. Eyni zamanda, Sizin dediklərinizdən belə başa düşdüm ki, Azərbaycan təkcə neft sektoruna deyil, qeyri-neft sektoruna da investisiyaların cəlb edilməsinə çalışır. Məsələn, turizm sektoruna və digər sahələrə investisiya qoyula bilər. Ona

görə də soruşmaq istərdim: Ermənistanla Azərbaycan arasında hər hansı sülh sazişi imzalanmasa, digər sahələrə güclü investisiya axını mümkündürmü?

**C a v a b :** Siz rəqəmləri dəqiq deyirsiniz: 3 milyard dollar neft sektoruna, 2 milyard dollar da qeyri-neft sektoruna gəlibdir. Əgər bu qısa müddətdə qeyri-neft sektoruna 2 milyard dollar sərmayə gəlibsə, demək, bundan sonra da gələcəkdir. Çünki bizim qeyri-neft sektorunda da çox cəlbedici sahələr var. Onlardan biri də turizmdir, siz bunu çox doğru dediniz.

**S u a l :** Cənab Prezident, mən planlaşdırılan neft kəməri haqqında sual vermək istəyirəm. Çərçivə sazişi imzalanmışdır. Lakin şübhələr var ki, əgər regionda vəziyyət sabitləşməsə, ABŞ sərmayəçiləri bu kəmərin çəkilməsinə vəsait ayırmayacaqlar. Siz isə dediniz ki, ola bilsin, bu kəmər üç-dörd il ərzində tikilib istifadəyə verilsin. Bu o deməkdirmi ki, əgər vəziyyət sabitləşməsə də, üç-dörd ildən sonra neft kəmərindən istifadə etmək olar?

**C a v a b :** Bilirsiniz, indi iki neft kəməri işləyir: Bakı-Novorossiysk, Bakı-Supsa. Bu, birincisi. İkincisi, əgər Amerikanın, yaxud da Avropanın neft şirkətləri gəlib sərmayə qoyublarsa, neft yataqlarında iş görür və neft hasil edirlərsə – indi böyük qaz yataqları da aşkar olunmuşdur – axı bunu ixrac etməli, dünya bazarlarına çıxarmalıdırlar.

Bunun üçün də, təbiidir ki, artıq bizim müqavilə imzaladığımız Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft kəmərinin inşasına başlanmalıdır. Bilirsiniz ki, biz müqaviləni imzalamışıq və üç dövlətin – Azərbaycanın, Gürcüstanın və Türkiyənin parlamentləri bunu ratifikasiya ediblər.

Yəni, əgər xarici şirkətlər bunun inşasına başlamasalar, onda nəyə görə neft hasilatını artırmaq üçün geniş işlər görürlər? Bakı-Tbilisi-Ceyhan neft kəməri dünyada müzakirə mövzusuna çevrilibdir. Ola bilər, bəziləri real vəziyyəti bilmədiklərinə görə səhv fikirlər irəli sürürlər. Bəziləri isə, sadəcə, bu layihənin əleyhinə olduqlarına görə belə fikirlər söyləyirlər.

Amma sizə həqiqəti mən deyirəm – bu məsələni mən bildiyim qədər heç kəs bilmir.

**S u a l :** Bu kəmərin inşasına Ermənistanın cəlb olunması mümkündürmü? Çünki iqtisadiyyatı zəif olan Ermənistan buna cəlb edildiyi halda nə isə qazana bilər.



**C a v a b :** İndi mümkün deyildir. Biz vaxtilə Ermənistana təklif etmişdik ki, neft kəməri Türkiyənin ərazisinə oradan keçsin. Biz bunu münaqişənin həll olunması üçün bir vasitə hesab edirik. Amma onlar razı olmadılar. İndi onlar «oyundankənar» vəziyyətdədirlər.

**S u a l :** Siz şəxsi həyatınıza əsaslanaraq, Rusiyanın yeni seçilmiş prezidentinin siyasətini necə qiymətləndirirsiniz? O özünün bəyan etdiyi kimi, həqiqətən güclü prezident ola biləcək, ya yox? Keçmiş Dövlət Təhlükəsizliyi Komitəsindəki həmkarları bəzi məsələlərdə ona kömək edə bilərlərmi?

**C a v a b :** Bilirsiniz, son illər Rusiyada prezident çox zəifləmişdi. Yeltsin, demək olar ki, prezidentlik etmirdi. Ona görə cəmiyyət ölkəyə layiq prezident istəyirdi. Təbiidir, Rusiya elə bir ölkədir ki, orada insanlar, əhalinin əksəriyyəti istəyir ki, prezident güclü olsun. Yeltsindən sonra Putin meydana çıxdı və birinci addımları ölkədə tezliklə onun üçün populyarlıq yaratdı.

**J u r n a l i s t:** Onun ilk addımları müharibə oldu.

**H e y d ə r Ə l i y e v :** Siz müharibə deyirsiniz, amma o belə hesab edir ki, dövləti möhkəmləndirir. Buna görə də əhalinin əksəriyyəti onu dəstəklədi. Rusiyanın bu həqiqəti bilmək lazımdır. Bəzən isə Qərbdə elə hesab edirsiniz ki, hər yerdə belə olmalıdır. Amma hər ölkənin öz xüsusiyyəti, hər xalqın öz mentaliteti var.

**J u r n a l i s t :** Amma hər yerdə əsgərlər ölür.

**H e y d ə r Ə l i y e v :** Təbiidir – harada ki, müharibə gedir, əsgərlər ölür. Biz istəyirdikmi Azərbaycanın əsgərləri ölsünlər? Biz istəyirdikmi Azərbaycan torpaqlarının 20 faizi Ermənistan tərəfindən işğal olunsun? Biz istəyirdikmi bir milyondan artıq vətəndaşımız qaçqın olsun və 7-8 ildir çadırlarda yaşasın? Biz bunu istəmirdik və bunun günahkarı deyilik. Amma Ermənistan bunu etdi. Ermənistan bu münaqişəni başlayanda Ermənistan da, Azərbaycan da hələ SSRİ-nin tərkibində idi. Ancaq güclü SSRİ hökuməti və şəxsən Qorbaçov bu münaqişənin qarşısını almadılar.

SSRİ dağılandan, Azərbaycan dövlət müstəqilliyini əldə edəndən sonra da bu münaqişənin qarşısının alınması üçün, Azərbaycanın işğal olunmuş torpaqlarının azad edilməsi üçün heç bir dövlət bütün beynəlxalq təşkilatlarda təsirli iş görmədi.

1992-1993-cü illərdə Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurası Azərbaycan torpaqlarının işğal olunması ilə əlaqədar dörd

qətnamə qəbul etdi. Bu qətnamələrdə göstərilirdi ki, Ermənistan silahlı qüvvələri Azərbaycanın işğal olunmuş torpaqlarından qeyd-şərtsiz çıxmalıdır. Amma Ermənistan bunu etmədi, qətnamələri yerinə yetirmədi.

1996-cı ildə ATƏT-in Lissabon Zirvə görüşündə bir qərar qəbul olundu. Bu bizim üçün o qədər də əlverişli qərar deyildi, ancaq məsələnin sülh yolu ilə həllini müəyyən qədər təmin edərdi. ATƏT-in 54 üzvündən 53-ü bu qərarın lehinə səs verdi, təkcə Ermənistan buna etiraz etdi. Amma bu qərar da kağız üzərində qaldı və ATƏT heç bir şey etmədi ki, həmin qərar yerinə yetirilsin.

ATƏT-in Minsk qrupunun həmsədrləri üç böyük dövlətdir: Rusiya, Amerika Birləşmiş Ştatları, Fransa. Amma onlar indiyə qədər məsələni həll etmirlər. Nəinki həll etmirlər, hətta Ermənistanı Azərbaycana qarşı təcavüzkar kimi qiymətləndirmirlər.

Halbuki bu, hərbi təcavüzdür. Yəni silahlı qüvvələr müharibə edib, qonşu dövlətin – Azərbaycanın torpaqlarını işğal ediblər, işğal olunmuş torpaqlardan bir milyon azərbaycanlını zorla çıxarıblar. Bu, hərbi təcavüzdür. Hərbi təcavüzün buynuzu olmaz ki! Beynəlxalq hüquq normalarına görə, bu, hərbi təcavüzdür. Amma ATƏT bunu hərbi təcavüz kimi qiymətləndirmir. Ona görə də ədalət yoxdur.

Azərbaycanda bu qədər qan töküldü, insanlar qırıldı, amma bir dənə böyük dövlət, Avropa dövləti Azərbaycan hüquqlarını qorumadı. Yaxud, indi bizim bir milyondan artıq vətəndaşımız çadırlarda ağır vəziyyətdə yaşayır, onların hüquqları tapdalanıbdır. Bir dövlət demir ki, onların hüquqları tapdalanıbdır. Mən müharibənin, insanların qırılmasının tərəfdarı deyiləm. Ona görə də hələ altı il bundan öncə, 1994-cü ildə Ermənistanla atəşin dayandırılması haqqında saziş imzalamışıq. Amma Azərbaycana qarşı ədalətsizlik də bizi incitmişdir.

**S u a l** : Mən Putinlə bağlı suala bir daha qayıtmaq istərdim. Siz uzun müddət Rusiyada işləmisiniz, zəngin siyasi təcrübəniz var. Ona görə də soruşmaq istərdik: hazırda Rusiya Çeçenistanda apardığı müharibəni antiterror əməliyyatı kimi qiymətləndirir. Əslində isə bu, müharibədir, orada insanlar həlak olurlar. Sizcə, bunu müdafiə etmək mümkündürmü?

**C a v a b** : Ermənistanın Azəprbaycan torpaqlarını işğal etməsini müdafiə etmək mümkündürmü? Mümkündürmü?

**J u r n a l i s t**: Bunun mənə dəxli yoxdur.



**H e y d ə r  Ə l i y e v** : Necə yəni dəxli yoxdur? Siz mənə sual verirsiniz. Niyə dünyada ikili standart var. Siz bir yerə ciddi maraq göstərirsiniz... Mən bunun əleyhinə deyiləm. Mən Çeçenistanda gedən müharibəni müdafiə etmirəm. Ancaq Avropada və bütün dünyada ikili standartın olmasından narazıyam.

**J u r n a l i s t** : Mən nə Ermənistanın, nə də Rusiyanın təcavüzünü dəstəkləmirəm, sadəcə, müharibənin əleyhinəyəm.

**H e y d ə r  Ə l i y e v** : Onda mən səninlə razıyam və xahiş edirəm, Ermənistanın təcavüzünə də Rusiyanın təcavüzü kimi qiymət verəsiniz.

**S u a l** : Cənab Prezident, Siz dediniz ki, həmkarınız Koçaryanla apardığınız danışıqlarda bəzi kompromislər barədə razılığa gəlmisiniz. Bunları açıqlaya bilərdinizmi?

**C a v a b** : Yox, indi bunu açıqlamağa ehtiyac yoxdur. Çünki biz bu kompromisləri gərək tam razılaşdıraq. Gərək Minsk qrupu ilə, başqası ilə razılaşdırıla. Qarşıda hələ çox işlər var.

**S u a l** : Hazırda ATƏT-də sədrlik edən Avstriya Ermənistanın konstruktiv mövqe tutması üçün nə edə bilər?

**C a v a b** : Bunu ATƏT-in sədrindən soruşun.

**S u a l** : Siz ondan nə gözləyirsiniz?

**C a v a b** : Mən onunla çox ətraflı danışdım. Sizin xarici işlər naziri çox gözəl bir qadındır. Amma eyni zamanda ağıllı qadındır. Güman edirəm, o nəsə edə bilər. Bəzən qadınlar kişilərdən çox iş görə bilirlər.

**S u a l** : İstərdim Putinlə bağlı suala bir daha qayıdam. Siz inanırsınızmı ki, Putin öz mövqeyini gücləndirəcək, güclü prezident olacaq və Sizin regionda daimi, davamlı sülhə və əmin-amanlığa nail ola biləcəksiniz?

**C a v a b** : Bilirsiniz, bunlar elə suallardır ki, birmənalı cavab vermək olmaz. Soruşursunuz ki, güclü prezident olacaq, Rusiyanı qaldıracaq, məsələləri həll edəcəkmi? Mən bunları arzu edirəm. Hesab edirəm, indiyə qədər gördüklərim məndə elə təəssürat yaradıb ki, prezident Putin belə keyfiyyətlərə malikdir. Sizin suallarınızın cavabını gələcək göstərəcəkdir.

Mənim protokolumdakı vaxt qurtardı. Sizinlə söhbət etmək mənim üçün çox xoşdur. Görürsünüz ki, suallarınıza da çox açıq cavab verirəm. Mənimlə söhbətdən razı qaldınızmı?

**J u r n a l i s t l ə r** : Əlbəttə, çox sağ olun.

Prezident Heydər Əliyev «Kuryer» qəzetinin əməkdaşı xanım Livia Klinqlə onun Azərbaycanda olduğu zaman çəkilmiş şəkillərini hədiyyə etdi.

# AVSTRİYAYA RƏSMİ SƏFƏRDƏN QAYIDARKƏN BİNƏ HAVA LİMANINDA JURNALİSTLƏRİN SUALLARINA CAVAB

*6 iyul 2000-ci il*

**S u a l :** Cənab Prezident, səfərinizin nəticələrindən razısınızmı?

**C a v a b :** Mən çox razıyam. Hesab edirəm ki, çox uğurlu səfərdir və Azərbaycan üçün çox əhəmiyyətlidir. Bu səfərlər, yəni prezidentin, dövlət başçısının səfərləri iki məqsəd daşıyır: birincisi, Azərbaycanla səfər edilən ölkə arasındakı əlaqələri inkişaf etdirmək üçün yeni, əlavə tədbirlər görmək, ikincisi də Azərbaycanı daha yaxından tanıtmaq, Azərbaycanın həqiqətlərini çatdırmaq. Bunu mən nə üçün xüsusi qeyd edirəm? Təəssüflər olsun ki, indi Azərbaycan hələ çox ölkələrdə olduğu kimi tanınmır. Bəzən yüksək vəzifəli dövlət adamları da bunu bilmirlər. Mən bunu dəfələrlə demişəm, məsələn, Azərbaycanın çox əhəmiyyətli coğrafi-strateji vəziyyəti, zəngin təbii sərvətləri, Azərbaycan dövlətinin neft strategiyası, ölkəmizdə xarici şirkətlərin, sərmayəçilərin işləməsi – bunların hamısını müxtəlif səviyyələrdə bilirlər.

Ancaq çox yerlərdə rastlaşıram ki, təəssüflər olsun, 12 ildir davam edən Ermənistan-Azərbaycan münaqişəsini, Dağlıq Qarabağ münaqişəsini dövlət başçıları, dövlət adamları, müxtəlif səviyyələrdə olan təşkilatlar istənilən dərəcədə bilmirlər. Bu münaqişədə Ermənistanın günahkar, təcavüzkar olduğunu, Azərbaycan torpaqlarının işğal edildiyini, ölkəmizdə bir milyondan artıq qaçqın olduğunu və məsələnin də məhz Ermənistan qeyri-konstruktiv mövqe tutduğuna görə indiyə qədər həll edilmədiyini bilmirlər.

Bu bizim üçün əsas məsələdir – hər dəfə mən hansı ölkəyə səfərə gedirəmsə, görürəm ki, bunu ya bilmirlər, yaxud səthi bilirlər. Danışıqlar apararkən, bunu izah edərkən, xəritələrlə və başqa əyani vasitələrlə göstərərkən, nümayiş etdirərkən görürsən ki, həqiqətən fikirləri dəyişir. O mənada yox ki, dərhal hesab edirlər ki, bu məsələni həll etmək olar, amma onlarda obyektiv təəssürat yaranır.

Bu baxımdan, bu səfər çox əhəmiyyətli oldu. Çox görüşlər keçirdim. Mənim səfər proqramım həmişə gərgin olur. Bu dəfə də çox gərgin idi və hətta bir çox dövlət adamları təəccüb edirdilər ki, nə üçün belə gərgin proqram tutulubdur, bir-iki gün də vaxt ayırmaq olardı. Ancaq işimiz çoxdur, mən istədim ki, qısa müddətdə bu işləri görüm.



Bu səfərin bir xüsusiyyəti də ondan ibarətdir ki, Avstriya bir çox beynəlxalq təşkilatların – yəni ATƏT-in, yaxud Birləşmiş Millətlər Təşkilatının bir çox təşkilatlarının Avropa mərkəzidir. Ona görə də mənim səfərimin ikinci gününün çox hissəsi həm ATƏT-də, həm də Birləşmiş Millətlər Təşkilatının qurumlarının oradakı mərkəzlərində görüşlərə həsr olundu. Bunlar da bizim üçün lazım idi.

Müqavilələr imzalandı – Avstriya ilə Azərbaycan arasında da, bəzi beynəlxalq təşkilatlarla da müəyyən müqavilələr, protokollar imzalandı. Hər halda, mən çox məmnunam. Bizim üçün çox əhəmiyyətlisi odur ki, orada beynəlxalq əlaqələr mərkəzi, institutu var – dövlət başçıları gələndə onu dinləmək istəyirlər. Bu dəfə də belə bir tədbir nəzərdə tutulmuşdu. Mən oraya getdim. Oraya səfirlər, yüksək səviyyəli mətbuat nümayəndələri, siyasi xadimlər toplaşırlar. Avstriyada həm ayrı-ayrı dövlətlərin bu ölkədəki səfirləri, həm də bir çox ölkələrin buradakı təşkilatlarda, məsələn, ATƏT-də və sairədə səfirləri var. Ona görə də çox maraqlı auditoriya idi.

Mən orada bir saatdan artıq çıxış etdim, vəziyyəti onlara anlatdım, suallara cavab verdim.

Bu gün səhər Avstriyanın mətbuat nümayəndələri ilə bir saatdan artıq söhbət apardım. Qəzetlər əvvəlcədən də Azərbaycan haqqında müsbət məqalələr dərc etmişdi – bir müddət öncə onların müxbirləri Azərbaycana gəlmişdilər, mən onlara müsahibə vermişdim. Biz orada olan zaman da səfərimizi müsbət işıqlandırırdılar.

Qalan şeylərin hamısını siz televiziyada görəcəksiniz, hamısı çəkilibdir.

**S u a l :** Cənab Prezident, Siz ATƏT-in Minsk qrupunun həmsədrləri ilə Bakıda görüşərkən onlara öz iradlarınızı bildirdiniz. ATƏT-in hazırkı sədri ilə Avstriyada görüşünüz zamanı yeni təkliflər oldumu?

**C a v a b :** ATƏT-in sədri Avstriyanın xarici işlər naziridir, yəni Avstriya bu il ATƏT-ə sədrlik edir. Elə bu baxımdan da mənim Avstriyaya səfərim çox vacib idi. Sədrlik vəzifəsini, adətən, xarici işlər naziri həyata keçirir. Oranın xarici işlər naziri gözəl bir xanımdır. O, buraya gələcək, onu görəcəksiniz. Onunla çox ətraflı söhbətim oldu. O bu ayın 16-17-də bizim bölgədə – 16-da Ermənistanda, 17-də Azərbaycanda olacaqdır.

Təəssüflər olsun ki, o da məsələnin mahiyyətini və bizim apardığımız danışıqların, Koçaryanla mənim aramda olmuş danışıqların əsas məzmununu o qədər dərindən bilmir. Ona görə də mənim bu görüşüm çox əhəmiyyətli oldu.

Ancaq mən ona nə irad tuta bilərəm? Bilirsiniz, ATƏT elə bir təşkilatdır ki, ildə bir ölkə ona sədrlik edir. Amma onun daimi işçiləri var. Bizim üçün isə daimi təşkilat məsələmizin həlli üçün ATƏT-in yaratdığı Minsk qrupudur, onun həmsədrləridir.

Keçən il ATƏT-ə sədrlik edən Norveç idi, Vollebek buraya gəlmişdi. Ondan qabaq sədrlik edən Polşa idi. Bilirsiniz ki, bu il Avstriyadır. Bunların fəaliyyətinin müəyyən əhəmiyyəti var. Amma əsas iş böyük dövlətlərdən asılıdır, indi Minsk qrupuna həmsədrlik edən Rusiyadan, Amerika Birləşmiş Ştatlarından, Fransadan asılıdır. Hər halda mən ATƏT-in sədri ilə burada da çox ətraflı söhbət edəcəyəm.

**S u a l :** Cənab Prezident, bu günlərdə ABŞ-ın və Azərbaycanın müdafiə nazirləri birgə bəyannamə imzalayıblar. Bunu necə qiymətləndirirsiniz?

**C a v a b :** Yaxşı qiymətləndirirəm. Düzdür, hələ bilmirəm, çünki müdafiə naziri ilə sabah görüşəcəyəm. Ancaq hesab edirəm ki, bu müsbət haldır.

**S u a l :** Cənab Prezident, ATƏT-in Minsk qrupunun həmsədrləri dünən Yerevanda çıxış edərkən deyirdilər ki, bizim heç bir ümumi təklifimiz yoxdur, tərəflər kompromisli variantları özləri tapmalıdırlar. Bəs Avstriyanın xarici işlər naziri necə – o, yeni təkliflə gələcək, yoxsa?..

**C a v a b :** Gələr, görərik.

**S u a l :** Cənab Prezident, dünən Parlamentdə Milli Məclisə seçkilər haqqında qanun üçüncü oxunuşda qəbul edildi. Bu qanuna Sizin münasibətinizi bilmək istərdik.

**C a v a b :** O qanunu mən təqdim eləmişəm, bunu bilirsiniz. Amma sonra müraciət etmişdim ki, bəzi dəyişikliklər olunsun. İndi gedirəm işə, baxım, görüm vəziyyət necədir. Burada ayaqüstü bir şey deyə bilmərəm.

**S u a l :** Cənab Prezident, Sizin təkliflər Parlament çoxluğu tərəfindən qəbul olunmadı. Siz həmin qanunu imzalayacaqsınızmı?

**C a v a b :** Baxım, bəlkə veto qoyacağam.



**S u a l :** Siz dediniz ki, beynəlxalq təşkilatlarla sənədlər imzalandı. ATƏT-lə hansısa sənəd imzalandımı?

**C a v a b :** ATƏT-lə sənəd imzalamağa ehtiyac yox idi.

**S u a l :** Dağlıq Qarabağ münaqişəsinin həlli ilə əlaqədar gələcək görüşlərinizdə Minsk qrupu həmsədrlərinin indiyədək verdikləri təkliflər yenidən müzakirə olunacaqmı?

**C a v a b :** Bilirsiniz, təkliflər o qədər olub ki, bilmirəm hansını deyirsiniz. Çox təkliflər olubdur. İndi burada dedilər ki, Yerevanda bəyan ediblər ki, təklifləri yoxdur. Ona görə də çox işləmək lazımdır.

**S u a l :** Bu onu göstərmirmi ki, ATƏT artıq kənara çəkilmək istəyir?

**C a v a b :** Yox, ATƏT kənara çəkilmir, qətiyyən kənara çəkilmir. Ancaq Ermənistan və Azərbaycan prezidentləri görüşməyə başlayanda, sadəcə, bir az fasilə verdi ki, bu görüşlər nəticəsində nəsə həll olunsun ki, onlar bunun icrasında iştirak etsinlər. ATƏT-siz biz heç bir şey edə bilmərik. Biz danışa, hansısa razılığa gələ bilərik. Əgər razılığa gəlsək, onu sənədləşdirmək, həyata keçirmək çox çətin məsələdir. Siz elə təsəvvür eləməyin ki, məsələn, hansısa variantla münaqişənin həlli barədə saziş imzalasaq, hər şey qurtarır. Yox! Sonra bundan da çətin zaman gəlir. Təsadüfi deyil ki, ATƏT-in həmsədrləri burada bəyan etdilər – siz bunu eşitdiniz – onlar bir-iki həftə öncə Cenevrədə yığışmışdılar, 20-dən artıq beynəlxalq maliyyə mərkəzinin nümayəndələri ilə danışıqlar aparmışdılar. Prezident Klinton da, prezident Şirak da dəfələrlə bəyan ediblər. Bilirsiniz ki, səfərdən bir neçə gün öncə prezident Şirakla telefonla danışmışdım. Prezident Şirak mənə dedi ki, ayın 1-dən onlar Avropa Birliyində sədrlik edəcəklər, sədrlik fəaliyyətindən də, başqa imkanlardan da istifadə edəcəklər. Sülh əldə olunandan sonra rayonların bərpası və ümumiyyətlə, çox işlərin görülməsi üçün biz onlarsız heç bir şey edə bilmərik.

Lakin sülh əldə olundu, bəli, torpaqlarımız azad edildi, insanlar qayıtdı – orada nə var, hər şey dağılıbdır. Torpağa qayıtmaq həqiqətən böyük bir hadisə olacaqdır. Ancaq yəqin ki, oraya qayıdanda ilk vaxtlar çadırları söküb orada quracaqlar. Çünki ev yox, eşik yox, hər şey dağıdılıbdır – yollar, kommunikasiyalar dağılıbdır.

Biz bunları beynəlxalq birliklə bir yerdə bərpa edə bilərik. Ona görə xeyli vaxt bundan sonra da ATƏT-in rolu qalacaqdır. Məsələn, əgər münaqişə bu il həll edilsə, biz bir neçə il buna möhtac olacağıq.

**S u a l :** Cənab Prezident, ümumiyyətlə, Ermənistan tərəfinin imkanlarını, onun indiki vəziyyətini necə qiymətləndirirsiniz? Oskanyan da ATƏT-in həmsədrlərini məzəmmət edib ki, regiona gec-gec gəlirlər. Digər tərəfdən də Keri Kavano çıxışında demişdir ki, istər Ermənistan, istərsə də Azərbaycan prezidentlərinin səyləri onların sülhə nail olmağa cəhd göstərdiklərini bildirir.

**C a v a b :** Sən özün öz sualına cavab verdin.

**S u a l :** Cənab Prezident, Parlamentə seçkilər haqqında qanun qəbul olunduqdan sonra müxalifət bildirdi ki, seçkiləri boykot edəcəkdir. Onlar bildirirlər ki, ümid yalnız Prezidentədir. Prezident bu qanuna baxacaqmı? Sizin fəaliyyətiniz dövründə ilk dəfədir ki, Parlament Prezidentin təklifindən imtina etmişdir. Siz qərarınızda israrlı olacaqsınızmı?

**C a v a b :** Mən sizə dedim ki, hələ heç bir şey bilmirəm. İşə gedim, baxaram. Əgər mənim təklifimi qəbul etməyiblərsə, əlbəttə ki, bu mənim üçün bir az yaxşı hal deyildir. Bir də əgər nəzərə alsaq ki, hamınız – o cümlədən müxalifət də – öyrənmisiniz ki, Milli Məclis Heydər Əliyevin dediyinin hamısını təsdiq edir, indi görürsünüz, Milli Məclis özündə cəsarət tapıb mənim təkliflərimin bəzisini qəbul etməyibdir. Bu elə məsələdir ki, mən sizə heç bir şey deyə bilmərəm. Mən Milli Məclislə görüşəcəyəm, vəziyyəti öyrənəcəyəm. Bundan sonra öz qərarımı qəbul edəcəyəm.

**S u a l :** Cənab Prezident, Siz Mərkəzi Seçki Komissiyası haqqında qanunu imzaladınız. YAP-ın üzvü olan deputatlardan bəziləri toplantı keçirib bildiriblər ki, MSK haqqında qanuna yenidən baxılmalıdır, çünki orada boşluqlar var və müxalifət bundan istifadə edə bilər.

**C a v a b :** Qızım, bu, demokratiyadır. Demokratiyanı təkcə müxalifətdə olan deputatlar ifadə etməlidirlər? Demokratiyanı hamı ifadə etməlidir. YAP-çılar bəzən mənim əleyhimə də sözlər danışırlar. Mən heç vaxt bundan incimirəm. Bu onların öz fikridir. Xüsusən YAP-dan olan deputatlar bəzən qəzetdə elə şey yazırlar ki, baxıram, heç müxalifətdə olan adam belə şey yazmır. Amma mən bundan narazı olsam, yaxud da irad tutsam, düzgün olmaz. Gərək yavaş-yavaş hamımız – YAP-çılar da, müxalifət də, siz də, biz də demokratiyaya öyrənək. Sağ olun.



## AZƏRBAYCAN VƏ TÜRKİYƏ PREZİDENTLƏRİNİN BİRGƏ MƏTBUAT KONFRANSI

*Bakı, Prezident sarayı*
*11 iyul 2000-ci il*

**Birgə bəyanatın imzalanmasından sonra prezidentlər, Heydər Əliyev və Əhməd Necdət Sezər birgə mətbuat konfransı keçirdilər. Dövlət başçıları jurnalistlər qarşısında bəyanatla çıxış etdilər.**

### AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEVİN BƏYANATI

– Zati-aliləri, Türkiyə Cümhuriyyətinin prezidenti, əziz dostumuz, hörmətli Əhməd Necdət Sezər! Hörmətli qonaqlar! Hörmətli xanımlar və cənablar! Hörmətli mətbuat nümayəndələri!

Bu gün Türkiyə Cümhuriyyəti prezidentinin Azərbaycana səfəri xalqımız üçün çox əlamətdar hadisədir. Türkiyənin yeni seçilmiş prezidenti, onuncu prezidenti xarici ölkəyə ilk səfərini Azərbaycana edibdir. Hörmətli cənab prezident, mənim dəvətimi qəbul etdiyinizə, bu səfərə gəldiyinizə görə Sizə təşəkkür edir, minnətdarlığımı bildirirəm. Bütün xalqımızın, millətimizin, vətəndaşlarımızın minnətdarlığını bildirirəm.

Bu fakt, təbiidir ki, Türkiyə-Azərbaycan əlaqələrinin nə qədər yüksək səviyyədə olduğunu nümayiş etdirir. Ancaq bu səfər eyni zamanda gələcək üçün yeni əsaslar yaradır, əlaqələrimizin daha da inkişaf etməsi, genişlənməsi üçün böyük imkanlar açır.

Biz indicə birgə bəyanat imzaladıq. Bu bəyanat indiyə qədər Türkiyə-Azərbaycan əlaqələrinin əsasını təşkil edən sənədlərin hamısında əks olunan fikirləri, maddələri özündə ifadə edir.

Məlumdur ki, Azərbaycan dövlət müstəqilliyini əldə edəndən sonra Türkiyə ilə Azərbaycan arasında sıx əlaqələr yaranıbdır. Buna görə də çox müqavilələr, sazişlər, anlaşmalar, dostluq, əməkdaşlıq, strateji tərəfdaşlıq xarakteri daşıyan başqa sənədlər imzalanıbdır. Ona görə Türkiyə ilə Azərbaycan arasında əlaqələrin bütün sahələrdə inkişaf etməsi üçün hüquqi-normativ baza yaranıbdır.

Bu gün Türkiyənin yeni, onuncu prezidenti hörmətli Əhməd Necdət Sezərlə Azərbaycan prezidenti arasında imzalanan birgə bəyanat, qeyd etdiyim kimi, indiyə qədər imzaladığımız sənədlər əsasındadır. Eyni zamanda bu, gələcəyə yönəlibdir, gələcəkdə əlaqələrimizin inkişaf etməsi üçün xüsusi əhəmiyyət daşıyır və özündə xüsusi fikirlər əks etdirir.

Beləliklə, bizim dostluğumuz, qardaşlığımız, əlaqələrimiz yaşayır, inkişaf edir və edəcəkdir. Gördüyümüz və gələcəkdə görəcəyimiz işlər xalqlarımızı daha da birləşdirəcək, daha da yaxınlaşdıracaq və Türkiyə-Azərbaycan dostluğu, qardaşlığı əbədi, dönməz olacaqdır.

Hörmətli cənab Prezident, mənim dəvətimi qəbul edib Azərbaycana rəsmi səfərə gəldiyinizə görə Sizə bir daha təşəkkür edirəm. Ümidvaram ki, bu səfər zaman nöqteyi-nəzərindən qısa da olsa, Sizdə Azərbaycanın gerçəkliyi haqqında müəyyən təəssürat yaradacaqdır. Sizə təşəkkür edirəm.

* * *

## TÜRKİYƏ PREZİDENTİ ƏHMƏD NECDƏT SEZƏRİN BƏYANATI

– Hörmətli mətbuat nümayəndələri!

Azərbaycan Prezidenti, dəyərli qardaşım Heydər Əliyevin dəvəti ilə ilk dəfə gəldiyim Azərbaycanın paytaxtı Bakıda olmaqdan böyük bir qürur duyuram. Bir az bundan əvvəl hörmətli Əliyevlə həm təkbətək, həm də heyətlər arasında çox səmərəli və faydalı danışıqlar apardıq. Bu fürsətdən istifadə edərək ölkələrimiz arasındakı ikitərəfli münasibətlərin bütün cəhətlərini müzakirə etdik. İki ölkə arasındakı siyasi münasibətlərin qardaşlıq və dostluq əsaslarına söykənən yüksək səviyyəsi həmin əlaqələrin gələcəyi baxımından bizə böyük inam hissi aşıladığı üçün çox şad olduq. Münasibətlərimizin bundan sonra da hər sahədə inkişaf etdirilməsi barədə əzmkarlığı paylaşmaqda olduğumuzu gördük. Ölkələrimiz arasındakı iqtisadi əlaqələrin daha yüksək səviyyəyə qaldırılması üçün görülməsi lazım olan tədbirləri də müzakirə etdik. Türk iş adamlarının Azərbaycandakı investisiyalarını artırmaları üçün daha həvəsləndirici mühit yaradılması lüzumunu vurğuladıq.

Türkiyə və Azərbaycan bölgəmizin iki mühüm ölkəsidir. Ölkələrimiz beynəlxalq platformalarda dünyanın və bölgənin mühüm problemləri barədə eyni görüşləri paylaşmaqda, bir-birinə dəstək verməkdədirlər. Məsələlərə eyni baxışımız və birgə fəaliyyətimiz danışıqlar zamanı bir daha təsdiq edilmişdir.



Beynəlxalq hüquq normalarına və Birləşmiş Millətlər Təşkilatının qərarlarına məhəl qoymayan Ermənistan tərəfindən Azərbaycan ərazisinin beşdə birinin işğal edilməsi bölgədə sülhü və sabitliyi pozan bir vəziyyət yaratmışdır. Türkiyə bu problemin həlli yolunda bu günədək göstərilən sülh səylərinə və Azərbaycan Respublikasının müsbət mövqeyinə verdiyi dəstəyi bundan sonra da eyni qaydada davam etdirəcəkdir. Biz Azərbaycan xalqının öz azad iradəsi ilə qəbul edəcəyi ədalətli sülhü dəstəkləməyə hazırıq.

Sabah biz Azərbaycan torpaqlarının işğalı nəticəsində öz doğma yurd-yuvasından didərgin düşmüş qaçqınların yaşadığı bir düşərgəni ziyarət edəcəyik. Türkiyə illərdən bəri həyatını ağır şəraitdə davam etdirən bu insanlara öz imkanları ölçüsündə yardım göstərir. Bu ziyarətimiz vəsiləsi ilə Qızıl Ay Təşkilatının göndərdiyi 41 ton ərzaq, müxtəlif dava-dərman bu düşərgədə əhaliyə paylanacaq və Qızıl Ayın həkim briqadası adamları müayinə edəcəkdir.

Türkiyə hər sahədə olduğu kimi, Azərbaycanın beynəlxalq təşkilatlara üzv olmaq, Qərbin qurum və təsisatlarına inteqrasiya edilmək üçün göstərdiyi səylərə də kömək edir. Cənab Əliyevlə danışıqlarımız zamanı bu köməyin eyni şəkildə davam edəcəyini, Azərbaycanın Avropa Şurasına üzvlüyünün gerçəkləşməsi üçün Türkiyənin öz səylərini davam etdirəcəyini bir daha vurğuladım.

Noyabrın 5-də Azərbaycanda Parlament seçkilərinin demokratik, şəffaf və ədalətli keçiriləcəyinə heç bir şübhəmiz yoxdur. Bu da Azərbaycanın özünə məqsəd kimi müəyyənləşdirdiyi Qərb ilə inteqrasiya prosesinə mühüm bir töhfə olacaqdır. Azərbaycan Avropa Şurasına daxil olmaqla Avropa hüquq sisteminə bağlı ölkələr arasında bərabərhüquqlu bir üzv kimi yer tutacaq və hər sahədə öz mövqeyini digər ölkələrə bildirə biləcəkdir.

Danışıqlar zamanı bölgəmiz və ölkələrimiz üçün son dərəcə əhəmiyyətli olan Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft kəməri barəsində də fikir mübadiləsi apardıq. Kəmərin çəkilişi ilə bağlı sazişin Azərbaycan, Gürcüstan və Türkiyə Parlamentlərində təsdiq olunmasını məmnuniyyətlə qeyd etdik. Bundan başqa, Azərbaycanın təbii qazının Türkiyəyə nəqli barədə müvafiq danışıqların başlanmasını da qərara al-

dıq. Azərbaycanın təbii qazının Türkiyəyə nəql olunması üçün Trans-xəzər qaz kəmərinin böyük əhəmiyyət daşıdığını vurğuladıq. Bu boru kəmərinin layihəsinin gerçəkləşdirilməsi üçün müştərək səylər göstərilməsi lüzumunu qeyd etdik.

Bakıya qədəm qoyduğumuz andan bəri bizə göstərilən mehribanlıq və qonaqsevərlik bizi çox duyğulandırdı. Hörmətli qardaşım Heydər Əliyevə bildirdim ki, onu tezliklə Türkiyədə qonaq kimi görmək arzusundayıq. Bu dəvəti qəbul etdiyi üçün təşəkkürlərimi dilə gətirmək istəyirəm.

Bir qədər sonra Azərbaycanın baş naziri hörmətli Artur Rasizadə ilə və Konstitusiya Məhkəməsinin sədri hörmətli Xanlar Hacıyevlə ayrı-ayrılıqda görüşəcəyəm. Sabah isə Azərbaycan Milli Məclisini ziyarət edərək məclisin sədri hörmətli Murtuz Ələsgərovla görüşəcəyəm. Azərbaycan Milli Məclisində çıxış etməkdən də şərəf duyacağam. Hörmətli Heydər Əliyev ilə danışıqlarımızı sabah da davam etdirəcəyik. Bakıda olduğum üçün özümü xoşbəxt sandığımı təkrarən bildirir və hamınıza təşəkkür edirəm.



## AZƏRBAYCANDA MİLLİ MƏTBUATIN YARADILMASININ 125 İLLİYİ MÜNASİBƏTİLƏ JURNALİSTLƏRLƏ GÖRÜŞ

*Bakı, Prezident Sarayı*
*21 iyul 2000-ci il*

## AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEVİN GİRİŞ NİTQİ

– Hörmətli jurnalistlər! Mətbuat nümayəndələri! Kütləvi informasiya orqanlarının nümayəndələri!

Mən ən öncə sizi Azərbaycanda demokratik mətbuatın 125-ci ildönümü münasibətilə ürəkdən təbrik edirəm. Sizə şərəfli işinizdə uğurlar arzulayıram. Azərbaycanda mətbuat sahəsində çalışanların hamısını təbrik edirəm. Mətbuat bütün Azərbaycan xalqına, yəni cəmiyyətimizə məxsus olduğuna görə xalqımızı, millətimizi təbrik edirəm.

Bilirsiniz ki, mən Azərbaycanda milli mətbuatın yaradılmasının 125 illiyi münasibətilə bu ilin mart ayında böyük fərman imzalamışam. Bu fərmanda Azərbaycanda demokratik mətbuatın yaradılması, inkişaf etməsi və keçdiyi yol haqqında öz fikirlərimi qısa olaraq bildirmişəm. Ancaq eyni zamanda, fərmanın əsas məqsədi ondan ibarətdir ki, Azərbaycanda demokratik milli mətbuatın yaranmasının 125 illiyi geniş şəkildə, təntənəli qeyd edilsin.

Son aylar ölkəmizdə bu sahədə müxtəlif təşkilatlar tərəfindən çox işlər görülübdür. Hər halda, birincisi, bizim xalqımızın böyük demokratik mətbuata malik olduğu bir daha nümayiş etdirilibdir, təbliğ olunubdur və bugünkü nəsillərə çatdırılıbdır. İkincisi də, müxtəlif mətbuat orqanları – indi Azərbaycanda belə jurnalist təşkilatları çoxdur – onlar bu yubiley mərasimlərindən istifadə edərək öz dairələrində lazımi tədbirlər görüblər: mən bəzən televiziyanı izləyərək görürəm ki, ayrı-ayrı mükafatlar veriblər, təltiflər ediblər. Bunlar hamısı çox sevindirici haldır.

Beləliklə, biz Azərbaycanda həm demokratik mətbuatın 125 illik tarixini təbliğ edirik, həm də eyni zamanda, Azərbaycanda bu gün mət-

buatın tutduğu yeri və onun cəmiyyətimizə xidmətini və ümumiyyətlə həyatımıza olan təsirini göstəririk. Mən bütün bu tədbirləri müsbət qiymətləndirirəm. Güman edirəm ki, bu tədbirlər Azərbaycanda mətbuatın inkişafı üçün yeni bir təkan olacaqdır.

Mən çoxdan arzu edirdim ki, mətbuat nümayəndələri ilə görüşüm. Ancaq təəssüf ki, bu mənə müyəssər olmurdu. Ona görə ki, iki gün öncə özüm üçün yaratdığım iş planı, bir də görürsən, sabahı gün, o birisi gün pozulur. Bunun da səbəbi ondan ibarətdir ki, xarici ölkələrdən Azərbaycana çoxlu nümayəndə heyətləri gəlir. Onlar da bir-iki günə gəlir. Məcbursan ki, bütün başqa işlərini kənara qoyasan, onlarla görüşəsən. Çünki onları gözlətmək mümkün deyildir.

Bu gün də mənim bütün günüm, demək olar ki, görüşlərdə keçibdir. Mən bu gün «Nyu-York tayms» qəzetinə və İngiltərənin «Ekonomist» jurnalına müsahibə vermişəm. Ondan sonra isə Rusiyada yaşayan müsəlmanların ictimai-siyasi hərəkatı olan «Rifah» cəmiyyətinin dünən Azərbaycana gəlmiş nümayəndə heyətini qəbul etmişəm, onlarla söhbət aparmışam. Mən bu gün bu işləri görərək, sizinlə nəzərdə tutduğum görüşü pozmamışam. Bir az geciksək də, hər halda görüşürük.

Beləliklə, yenə də deyirəm, bu gün mənim çoxdankı arzum yerinə yetir. Amma bilirəm ki, bu sizin də bəzilərinizin arzusu idi. Çünki bir neçə vaxt bundan öncə qəzet redaktorlarından bir neçəsi mənə müraciət edib, görüş istəmişdilər. Ancaq mən düşündüm ki, təkcə onlarla yox, mətbuatımızın geniş nümayəndə heyəti ilə görüşüm. Təbiidir ki, bizim bütün jurnalistləri, mətbuat nümayəndələrini bir yerə toplasaq, gərək Respublika Sarayına yığışaq. Çünki indi onlar böyük bir ordudurlar. Bizim ictimai-siyasi şöbə bu işlə məşğul oldu, sizinlə razılaşdırılmış bir tərkib müəyyənləşdirdi və həmin tərkib bu gün buraya dəvət olunubdur.

Mən sizi bir daha təbrik edirəm. Sizi salamlayıram. Sizinlə bu görüşümdən çox məmnun olduğumu bildirirəm və indi sizi dinləməyə hazıram. Kim istəyir, buyursun.

* * *

**Heydər Əliyev:** Əli Həsənov mənə bildirib ki, bu təşəbbüskarlardan, mənə müraciət edənlərdən birinci növbədə çıxış etmək istəyənlər var. Məsələn, hesab edirəm ki, «Azadlıq» qəzetinin redaktoru Gündüz Tahirliyə birinci söz vermək lazımdır. Çünki birincisi, o, təşəbbüskarlardan biridir. İkincisi də – ola bilər, mən bunu sonra da deyim – «Azadlıq» qəzeti Azərbaycanda 1990-cı illərin əvvəlində yaranmış ilk azad, sərbəst bir qəzetdir. O vaxt onun yaranması məni çox sevindirmişdi. Mən o vaxt həmin qəzeti daim oxuyurdum. Düzdür, indi o qədər vaxtım yoxdur ki, çox oxuyum. Amma hər halda bəzi məlumatları alıram.

# AZƏRBAYCANDA MİLLİ MƏTBUATIN YARADILMASININ 125 İLLİYİ MÜNASİBƏTİLƏ RESPUBLİKA PREZİDENTİNİN YANINDA OLAN GÖRÜŞDƏ ÇIXIŞ EDƏN KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİ RƏHBƏRLƏRİNİN ÇIXIŞI

*Bakı, Prezident Sarayı*
*21 iyul 2000-ci il*

## «AZADLIQ» QƏZETİNİN BAŞ REDAKTORU GÜNDÜZ TAHİRLİNİN ÇIXIŞI

– Hörmətli cənab Prezident! Hörmətli həmkarlar!

Milli mətbuatımızın 125 illiyi münasibətilə hamınızı təbrik etməklə yanaşı, Azərbaycan mətbuatının adından danışmaq kimi məsuliyyətli bir işi Redaktorlar Birliyinin mənə həvalə etməsindən məmnun olduğumu ifadə etmək istəyirəm.

Azərbaycan mətbuatının 1988-ci ildən başlayan ən yeni tarixi həm şərəfli, həm də bəzi məqamlarda kədərləndirici dərslərinin öyrənilməsi baxımından əhəmiyyətli səhifələrlə doludur. Azərbaycan mətbuatı hələ özünü tam təsdiqləməmiş Azərbaycan demokratiyasının yetişdirməsidir. Tam məsuliyyətlə demək olar ki, Azərbaycan mətbuatı bu gün ölkədə demokratik üsul-idarənin bərqərar olması, demokratik ənənələrin təşəkkül tapması işində bir növ lokomotiv rolunu oynamaqla yanaşı, ölkəni geri qaytarmaq istəyən və hər cür antidemokratik qaydaların, üsul-idarələrin nostalgiyasını yaşayan qüvvələrin hələ də mövcud olduğu bir məqamda geriyə, yolun qarşısında dayanmış təminatlı qarantlardan biridir.

Mətbuatımız qarşıda duran bütün çətinliklərə – maliyyə sıxıntılarına, əvvəlki illərə nisbətən getdikcə azalsa da, hər halda kifayət qədər mövcud olan təqiblərə, sıxışdırmalara, ictimai həyatımızda təəssüf ki, hələ də xarakterik olan ayrı-seçkiliyə, totalitar sovet rejiminin ən mürtəce qalıqlarından olan senzuraya, eləcə də özünün fəaliyyətindəki bir sıra qüsurlara sinə gərərək, öz gücü və səyləri nəticəsində indiki durumuna nail olubdur. İndi mətbuat ölkədə baş verən ictimai, siyasi,



iqtisadi və mədəni hadisələrə, proseslərə bu və ya digər dərəcədə təsir etmək iqtidarındadır. Artıq cəmiyyətimizi azad söz və azad mətbuatsız təsəvvür etmək mümkün deyildir. Xoşbəxtlikdən, siyasi avantürizm nümunələrinə getdikcə daha az rast gəlinir.

Əlbəttə, Azərbaycan mətbuatı heç də arzuolunan, bir ideal kimi təsəvvür edilən səviyyəyə çatmayıbdır. Bəzən fəaliyyətimizdə ciddi qüsurlara, qeyri-peşəkarlıq nümunələrinə də rast gəlinməsi nadir hadisə deyildir. Mətbuatın sürətli inkişafı son bir-iki ildə xeyli səngiyibdir. Burada obyektiv və subyektiv məqamlar çoxdur. Qəzetlər və televiziyalar ictimai münasibətlərdən kənarda, əlahiddə olaraq nəzərdən keçirilə bilməz. Mətbuat bütün ölkənin, xalqın yaşantılarını, çətinliklərini hamı ilə birgə yaşayır.

Son illər ölkənin iqtisadi sahədə qarşılaşdığı problemlər mətbuatın durumuna, fəaliyyətinə və ən əsası – keyfiyyətinə bilavasitə təsir edibdir. Maddi sıxıntı, ağır və riskli jurnalist əməyinin lazımınca qiymətləndirilməsi, peşəkarlığın artırılması, çap məhsulunun istehsalı üçün zəruri olan xammalın alınması, yeni-yeni layihələrin ortaya qoyulması, təkcə Bakının deyil, eləcə də bütün ölkənin qəzeti olmaq üçün əyalətlərdə bürolar açılması və s. bu kimi əhəmiyyətli məsələlərin həlli əksər redaksiyalar üçün müşkül işə çevrilib. Bu gün Azərbaycan qəzetlərinin böyük əksəriyyətinin qarşısında duran vəzifə inkişaf etmək və bir neçə il əvvəlki vəziyyəti bərpa etmək yox, necə deyərlər, yaxşı günlərəcən yaşamağa nail olmaqdır. Şübhəsiz, bunlar obyektiv çətinliklərdir. Əlbəttə, mətbuat bütün bu ağır yaşantıları xalqla birlikdə yaşamaq əzmindədir. Amma mətbuat ordusunda kimlərin çalışmasından, bu cərgədə kimlərin üstün, kimlərinsə bir qədər az uğur qazanmasından asılı olmayaraq, mətbuatın ictimai münasibətlərdə yeri hamılıqla eyni cür düzgün qiymətləndirilirsə, məncə, problemlərin həllinə birgə nail olmağın özü bir problem olmamalıdır. Ümid edirəm ki, məndən sonra çıxış edən redaktorlar və kütləvi informasiya vasitələri təşkilatının nümayəndələri adından çıxış edəcək Arif bəy redaktorların təkliflərini səsləndirəcəklər.

Mətbuat ölkənin ictimai sabitliyinin, siyasi quruluşun, dövlət təhlükəsizliyinin təminatları sistemində vacib elementdir. Sizi əmin etmək istərdim ki, bu gün Azərbaycan mətbuatının avanqardı sayılanların mütləq əksəriyyəti bu missiyanı daşıdığını və bundan irəli gələn məsuliyyəti lazımınca qiymətləndirir. Amma təəssüflə qeyd etmək la-

zımdır ki, mətbuat cərgəsindən bu həqiqəti dəyərləndirə bilməyənlərə də ara-sıra rast gəlməklə yanaşı, hakimiyyət dairələrində mətbuata ögeycəsinə yanaşmaq, hətta bəzən düşmən gözü ilə baxmaq halları da vardır. Açıq etiraf etmək lazımdır ki, bu gün mətbuat və dövlət, məmur və jurnalist münasibətlərində ciddi problemlər vardır. Çox təəssüflə qeyd etmək lazımdır ki, bu vəziyyət çox zaman siyasi iradənin diktəsi amili ilə izah olunur.

Mətbuatın qeyri-peşəkarlığı, məlumatsızlığı və az məlumatdan çox nəticə çıxarması, yanlış faktla, qüsurlu nəticələrlə ictimai rəyi formalaşdırması son zamanların ən aktual ittihamlarındandır. Burada bir həqiqət vardır. Amma o həqiqətin səbəblərini təkcə redaksiyalarda axtarmaq, ya məsələnin mahiyyətinə vara bilməmək, ya da varmaq istəməməklə izah olunur. Bu gün Azərbaycanda öz vəzifə borcu ilə informasiya verməli olan məmurları barmaqla saymaq mümkündür.

«Kütləvi informasiya vasitələri haqqında» Qanunun redaksiyaların və jurnalistlərin məsuliyyətini müəyyənləşdirən tələblərindən fərqli olaraq, məmurların və dövlət adamlarının məsuliyyətini göstərən maddələr indiyə qədər bir dəfə də tətbiq edilməyibdir. Bəzən ən sadə məsələlərlə bağlı belə, dövlət orqanlarından hər hansı məlumat almaq mümkün deyildir. Nəinki sadə məsələlərlə bağlı, hətta, məsələn, Prezidentin hər hansı bir səfəri, hansısa bir hadisəyə münasibəti, hansısa tədbirdə iştirakı kimi məsələlər az qala dövlət sirri kimi qorunur. Təkcə «Azadlıq» qəzetinin son iki ildə müxtəlif dövlət orqanlarına göndərdiyi onlarca sorğuya cəmi bir dəfə – Milli Təhlükəsizlik Nazirliyindən cavab gəlibdir. Halbuki sorğuya cavabın verilməməsinə görə məmurun məsuliyyət daşıması, bayaq qeyd etdiyim kimi, Azərbaycan qanunvericiliyində konkret maddələrlə nəzərdə tutulubdur.

Hörmətli Prezident, bu məqamda redaktorların bu sözünü Sizə çatdırmaq istərdim. 1993-cü ildən bu yana, Siz Prezident olduğunuz vaxtdan bəri on müxtəlif kütləvi informasiya vasitələrinin müraciətinə baxmayaraq, Azərbaycan qəzetlərinə, ümumiyyətlə, Azərbaycan kütləvi informasiya vasitələrinə Prezidentin cəmi bir dəfə müsahibəsi olubdur. Bu da ANS televiziya şirkətinə.

**Heydər Əliyev:** Mənim müsahibəm?

**Gündüz Tahirli:** Bəli.

**Heydər Əliyev:** Harada olubdur?



**Gündüz Tahirli:** ANS televiziya şirkətinə. Bunun müqabilində, əlbəttə, biz xaricdə də olsa, öz həmkarlarımıza o qədər də paxıllıqla yanaşmırıq, amma hər halda xarici kütləvi informasiya vasitələrinin irili-xırdalı bir çoxlarında Sizin müsahibələrinizə rast gəlirik və bir sıra mühüm hadisələrlə bağlı Sizin açıqlamalarınız məhz xarici kütləvi informasiya vasitələrində səslənir.

**Heydər Əliyev:** Bilirsiniz, siz bunu düzgün qiymətləndirməlisiniz. Ona görə yox ki, mən müsahibə vermək istəmirəm. Mən xarici mətbuat orqanlarının nə qədər müraciətini yerinə yetirə bilmirəm. Çünki axı mənim işim çoxdur. Mən yenə də deyirəm, təsəvvür edin, bu gün saat 2-də «Tayms» qəzetinin müxbiri ilə görüşmüşəm, sonra «Ekonomist» jurnalı ilə, ondan sonra «Rifah» təşkilatının nümayəndə heyəti ilə. Mən bunların hər biri ilə görüşürəm, planlaşdırıram, deyirəm ki, məsələn, mən sənə 40 dəqiqə vaxt verirəm. Amma danışır, danışır və deyir, bir beş dəqiqə də artırın, sonra deyir, beş dəqiqə də əlavə edin. Təsəvvür edin ki, vallah, mən saat 2-yə qədər cari işlərlə məşğul oluram, saat 2-dən indiyə qədər nəfəs almağa vaxtım olmayıbdır. Başa düşürsünüz?

Əgər «Rifah» ilə görüşü çıxsaq, bu gün bütün işim mətbuatla olubdur. İndi burada nə qədər oturacağıq – Allah bilir. Güman edirəm ki, tez qurtarmayacağıq. Mən sizin bu iradınızı anlayıram və təbii ki, nəzərə alacağam. Ancaq onu bilməlisiniz ki, ona görə deyil ki, mən müsahibə vermək istəməmişəm. Ona görə yox. Ona görə ki, sadəcə, mənim vaxtım çatmır.

Müxtəlif xarici ölkələrdəki jurnalların, qəzetlərin – onların da çoxunun xahişini ödəyə bilmirəm. Ancaq hansını ki, ödəyirəm, bu da onagörədir ki, bizim Azərbaycanın içərisində nə var, özümüz bilirik. Mən müsahibə verməsəm də, siz özünüz çox şeyləri yazırsınız. Amma bu, xaricdə bilinmir. Başa düşürsünüz, xaricdə bilinmir. Bu bizim böyük bir çatışmazlığımızdır. Eyni zamanda böyük dərdimizdir.

Məsələn, ayrı-ayrı dövlətlərdə bir neçə xeyirxah adamlar deyirlər ki, sizin Avropada, Amerikada, müxtəlif xarici ölkələrdə təbliğatınız yoxdur. Ermənilərin təbliğatı var. Ona görə də siz uduzursunuz. İndi bizim təbliğatımız həqiqətən zəifdir. Birincisi, ona görə ki, biz özümüz bu barədə müəyyən qədər passivik. İkincisi də ona görə ki, bu Qarabağ məsələsi başlayandan erməni təbliğatı – təkcə Ermənistandan gedənlər yox, onlar da bizdən fəal olublar – dünyada yaşayan erməni lobbiləri-

nin heç Ermənistandan asılı olmayaraq, heç onların xəbəri olmadan apardığı təbliğat, əlbəttə ki, bizim təbliğatı üstələyibdir. Ona görə də çox ölkələrdə indi də danışanda görürsən, belə bir təəssürat var ki, Ermənistan-Azərbaycan münaqişəsində guya Azərbaycan günahkardır, Ermənistan günahkar deyil. «Yazıq ermənilər», nə bilim, «əzabkeş erməni xalqı», filan, filan, filan...

Ona görə də mənim bir Prezident kimi və məndən başqa şəxslərin də o xarici ölkələrə məlumat verməsi zəruri haldır. Bu da çox vaxt aparır. Ona görə də sizlərə vaxt çatmır. Amma mən bunu nəzərə alaram.

Vaxtilə elə dövr var idi ki, mən müsahibə vermək istəyirdim, amma məndən müsahibə qəbul eləmirdilər.

**Gündüz Tahirli:** Yadınızdadırsa, 1991-ci ildə «Azadlıq» qəzetinin iki yaşı ilə bağlı Sizə müraciət etmişdik.

**Heydər Əliyev:** Mən də sizə təbrik yazmışdım. Xatirinizdədirmi?

**Gündüz Tahirli:** Bəli. Bildirmişdiniz ki, «Azadlıq» qəzeti müxalifət qəzeti də olsa, bəzi məsələlərə hakimiyyətin qorxusundan bəzən lazımınca diqqət yetirə bilmir.

**Heydər Əliyev:** Mən sizə yazmışdım. Təşəkkür edirəm. Yenə də deyirəm, vaxt var idi ki, məsələn, mən Moskvada yaşayanda əleyhimə təbliğat gedirdi. Mən o qəzetlərlə nəinki əməkdaşlıq etmişdim, onlar məni yaxşı tanıyırdılar, onların redaktorları mənimlə uzun müddət dostluq əlaqələrində olmuşdular. Onda sistem belə idi. Mənim əleyhimə məqalələr yazmağa başladılar. Buna zəng edirdim ki, mənim məqaləmi, müsahibəmi qəbul elə – qəbul etmirdi. Ondan xahiş edirəm, bundan xahiş edirəm – qəbul eləmir. Mən sonra Azərbaycana gələndə. Mən bura gəldim, 1990-cı ildə deputat seçildim. Buraya, sessiyaya Naxçıvandan gəldim. Mən çıxış etdim. Bir qəzetə müraciət etdim ki, bunu dərc elə – eləmədi. İkincisinə müraciət etdim, bunu dərc et – eləmədi. Sonra burada Xeyrəddin Qocanın «Dan ulduzu» qəzeti var idi, Korlar Cəmiyyətinin qəzeti idi, o götürdü, bunu dərc elədi.

Yəni demək istəyirəm ki, vaxt var idi, mən xahiş edirdim, müsahibələrimi qəbul etmirdilər. Amma görürsünüz, indi də siz xahiş edirsiniz, mən isə qəbul edirəm, mən istəyirəm. Ancaq vaxt tapmaq lazımdır. Ola bilər, mən Əli Həsənova deyim ki, müəyyən bir cədvəl düzəltsin. Ayda bir dəfə hansısa bir qəzetə müsahibə verməyə hazıram. Artıq bu, bir təklifdir, meydana çıxdı.



İndiyə qədər bilmirdim ki, siz məndən müsahibə almaq istəyirsiniz. Buyurun.

**Gündüz Tahirli:** Mən yeri gəlmişkən, çıxışdan yayınaraq iki məsələ ilə bağlı münasibətimi bildirmək istəyirəm. Azərbaycanın xarici ölkələrdə təbliğatı ilə bağlı redaktorların ümumilikdə bir təşəbbüsü var idi ki, İnternetdə Qarabağ saytı yaradaq. Bu məsələ kifayət qədər ciddi məsələdir və maliyyə mənbələri tələb etdiyi üçün bir az ilişdi.

**Heydər Əliyev:** İnternet?

**Gündüz Tahirli:** Bəli, İnternet səhifəsində. Çünki dünyanın ən müxtəlif axtarış sistemlərində Qarabağla bağlı ancaq ermənilərin məlumatlarıdır. Bununla bağlı bizdə bir şey yoxdur.

**Heydər Əliyev:** Biz İnternetdə bir səhifə açmamışıq?

**Əli Həsənov** *(Prezidentin İcra Aparatının ictimai-siyasi şöbəsinin müdiri)*: Səhifələr var, amma Redaktorlar Birliyi yeni bir təşəbbüslə çıxış eləyib ki, dövlət şərait yaratsın, saytın bütün maddi-texniki təminatını öz üzərinə götürsün, redaktorlar da hər qəzetdə gedən Azərbaycan təbliğatı ilə bağlı əhəmiyyətli materialları həmin səhifələrdə yerləşdirsinlər.

**Heydər Əliyev:** Dağlıq Qarabağ problemi ilə əlaqədar.

**Əli Həsənov:** Bəli, Ermənistan-Azərbaycan münaqişəsi, Dağlıq Qarabağ problemi ilə əlaqədar.

**Heydər Əliyev:** Əsas bu məsələ ilə əlaqədar.

**Əli Həsənov:** Bəli.

**Heydər Əliyev:** Yaxşı, yaxşı, eləyin. Baxın görün, buna nə lazımdır. Mən buna kömək edərəm.

**Gündüz Tahirli:** Ümumiyyətlə, Azərbaycanda dövlət adamlarının və məmurlarının mətbuata özünəməxsus bir münasibəti vardır. Jurnalistlər hansısa bir dövlət idarəsinin, məmurun təqdirəlayiq işindən belə yazmaq istəyərkən, buna cəhd edərkən ənənəvi olaraq bir reaksiya ilə qarşılaşırlar. Məmurlar deyirlər ki, xahiş edirəm, məndən yaxşı heç nə yazmayın.

**Heydər Əliyev:** Məndən yaxşı heç nə yazmayın?

**Gündüz Tahirli:** Bəli. Çox zaman belə bir ifadə də əlavə olunur ki, nə qədər istəyirsiniz, tənqid edə bilərsiniz. Bu mənim xeyrimədir.

**Heydər Əliyev:** Hamı belə deyir?

**G ü n d ü z  T a h i r l i :** Hamı demir. Demirəm ki, elədir, amma bu, ənənəvi hal alıb.

**H e y d ə r  Ə l i y e v :** Hamı belə demir. Bəzi, bir kateqoriya adamlar var, hansılar ki, ikili oyunlar oynayırlar. Onlar belədirlər. Onların bəziləri gedib özləri haqqında müxalifət qəzetlərində məqalələr dərc etdiriblər. Çünki görürlər ki, onların günahları var, filanları var və sonra da gəlib deyirlər – görürsünüz, bu qəzet məni bu cür tənqid elədi. Sizin dediyinizdə də həqiqət var, amma o biri tərəfini mən də bilirəm.

**G ü n d ü z  T a h i r l i :** Mən bir şeyi də deyim ki, doğrusu, əsasən belə arqumentlər çox səslənir ki, Prezident deyib ki, kimi tənqid etsələr, onu işdən çıxarmayacağam.

**H e y d ə r  Ə l i y e v :** Ona görə deyirlər ki, məni tənqid et ki, işdən çıxarmasınlar. Mən bunu bir dəfə Ramil Usubovun haqqında demişəm. Mən bu gün sizinlə açıq söhbətə gəlmişəm. Heç bir şeyi gizlətməyəcəyəm.

Götürüb dalbadal yazdılar ki, Usubov işdən çıxır. Onun portretini verdilər, filan elədilər. Gördüm ki, Usubov çox narahatdır. Amma siz də bilin ha, bir Usubov deyil. Usubov daxili işlər naziridir. Onun da beş mindən çox, bəlkə ondan da artıq şəxsi heyəti var. Bu bizim böyük bir strukturdur. Bu sizə də lazımdır, bizə də lazımdır. Bu elə təkcə bizə lazım deyil ki! Bu, sizə, hər bir vətəndaşa da lazımdır.

Məsələn, indi bizdə cinayətkarlıq üzrə göstəricilər bütün başqa MDB ölkələrinə nisbətən ən yaxşı vəziyyətdədir. O mənada ki, ən ağır cinayətlərin əksəriyyəti açılıbdır. Görmürsünüz ki, nə qədər böyük-böyük adamları – onu orada öldürdülər, bunu burada öldürdülər. Gündə Moskva televiziyası verir. Burada da öldürülənlər var. Amma əksəriyyəti açılır. Ona görə də o narahatlıq ondan ibarətdir ki, deyir, «bu, şəxsi heyətə təsir edir. Çoxları fikirləşirlər ki, məni işdən çıxaracaqlar. Ona görə də mənim göstərişlərimə baxmırlar, əməl eləmirlər». Ona görə də mən mayın 9-da dedim ki, nə qədər mən varam, Usubov da var və kim onu tənqid etsə, onsuz da onu işdən çıxarmayacağam. Amma bundan sui-istifadə etmək lazım deyildir. Bu bir adama aiddir.

**G ü n d ü z  T a h i r l i :** Əlbəttə, Siz deyəndən sonra bəlkə bu cümləyə ehtiyac yox idi. Ancaq mən çıxışı yazmışam, icazə verin o cümləni oxuyum.



**H e y d ə r  Ə l i y e v :** Oxu, oxu. Nə yazmısan, hamısını oxu.

**G ü n d ü z  T a h i r l i :** Belə bir təəssürat yaranır ki, hakimiyyət dəhlizlərində mətbuata açıq olmaqdan, informasiya verməkdən patoloji bir qorxu var. Doğrudan da, hər halda belə bir təəssürat var. Çox vaxt mətbuata ziyanverici ünsür kimi baxmaq mənzərəsi də yaranır. Əlbəttə, belə vəziyyət kütləvi informasiya vasitələrinin vəziyyətinə ciddi təcir göstərir. Amma eyni zamanda unutmaq olmaz ki, bununla dövlət informasiya siyasəti həm xarici, həm də əsasən daxili ictimai rəyin formalaşdırılması işində ciddi surətdə uduzur.

Vətəndaşlar Prezidentin, nazirlərin və s. dövlət adamlarının nə etdiyi, nə düşündüyü haqqında səhih məlumat almaq istəyirlər. Çox təəssüf olsun ki, məhz bu məsələlərlə bağlı qəzetlərdə gedən materialların olduqca böyük əksəriyyəti belə ifadələrlə başlanır: «mötəbər mənbələrdən aldığımız məlumata görə», «adının çəkilməməsini istəyən bir vəzifəli şəxs» və s. Bununla onu demək istəyirəm ki, xüsusilə, məsələn, Prezident Aparatında müntəzəm olaraq Prezidentin və yaxud hökumətin, dövlətin gördüyü işlərlə bağlı jurnalistlərə və ictimaiyyətə məlumatlar verilmir. Bu da ən müxtəlif söz-söhbətlərin, bəzən təsdiqlənməmiş, bəzən qeyri-rəsmi informasiyaların həqiqət kimi mətbuata çıxmasına səbəb olur.

**H e y d ə r  Ə l i y e v :** Burada da bir əhəmiyyətli fikir var: görülən işlər haqqında məlumat vermək. Burada əhəmiyyətli fikir var. Siz onu yazın.

**G ü n d ü z  T a h i r l i :** Deməli, bunun əvəzində Azərbaycan qəzetlərinin səhifələri ən müxtəlif dezinformasiyalar və məlumat sızdırmaları üçün açıq olur. Belə vəziyyətdən ölkədəki durumu sabitsizləşdirmək istəyənlərin, o cümlədən xüsusi xidmət orqanlarının nə dərəcədə faydalanması üzərində xüsusi dayanmağa ehtiyac görmürəm.

Ümumiyyətlə, bu baxımdan mətbuat və dövlət münasibətlərinin gərgin qalması ölkədaxili sabitliyin qarşısında ən böyük əngəllərdən biridir. Çox təəssüf ki, bu həqiqəti bir çox dövlət nümayəndələri anlamaq istəmirlər. Mətbuat daim sensasiyalı və qıcıqlandırıcı materiallar əldə etmək, eləcə də qarşılıqlı münasibətlərin daha da gərginləşməsi baxımından, yüksək və nisbətən az yüksək dövlət vəzifələrində çalışanlara müntəzəm olaraq «minnətdar» olmalıdır.

Ancaq bu il ərzində qəzetlərin satışına kobud surətdə mane olmaq, müxtəlif rayonlarda icra hakimiyyəti başçıları və polis rəisləri səviyyəsində qəzetlərin tirajlarının qanunsuz olaraq müsadirə edilməsi, təkcə

bu il qəzetlərin yerli bürolarının bağlanması hallarının sayı ondan artıqdır. Jurnalistlərin peşə borcunu yerinə yetirərkən fəaliyyətlərinin məhdudlaşdırılması halları isə o dərəcədə adi bir şeyə çevrilib ki, bunun statistikasını aparmaq, sadəcə, mümkün deyildir. Yenə də təəssüflə qeyd etməliyəm ki, jurnalistlərə qarşı təqiblər, onların fiziki və mənəvi təhqir halları artma meyli ilə inkişaf edir. Düzdür, bu hadisələrin bəziləri ilə bağlı cinayət işləri açılıb, inzibati qaydada araşdırmalar aparılıb və nəticələri də vardır. Mən xüsusilə «Azadlıq» qəzetinin əməkdaşı Zamin Hacının döyülməsi və ANS-in əməkdaşı Eldəniz Elgünə qarşı zor tətbiq edilməsi hallarına şəxsən Siz işə qarışdıqdan sonra göstərilən münasibəti qeyd etmək istəyirəm. Amma bir sıra hadisələr də olubdur ki, onlarla bağlı araşdırmaların səbəbsiz olaraq uzadılması bununla işi ört-basdır etməyə cəhd göstərilməsi qənaəti yaradır.

«Yeni Müsavat» qəzetinin əməkdaşı Kamil Tağısoyun təhqir edilməsi, bu qəzetin əməkdaşı Elbəyi Həsənlinin qanunsuz olaraq Naxçıvana aparılması, həmin qəzetə qarşı qanunsuz aksiyaların keçirilməsi, «Bu gün» qəzeti əməkdaşının peşə borcunu yerinə yetirərkən polis əməkdaşları tərəfindən vəhşicəsinə döyülməsi – olduqca ciddi xəsarət alıbdır – bu halların sırasındadır. Eləcə də, bu yaxınlarda «Azadlıq» qəzetinin qadın əməkdaşı öz peşə borcunu yerinə yetirərkən Kəlbəcər rayon polis idarəsinin rəisi tərəfindən onlarca şahidin, kütləvi informasiya vasitəsi əməkdaşlarının gözləri qarşısında ən nalayiq söyüşlərlə təhqir edilib, hətta fiziki qüvvə göstərməyə cəhd olunubdur. Təəssüf ki, indiyə qədər bu məsələ ilə bağlı bizim Prokurorluq orqanına və Daxili İşlər Nazirliyinin rəhbərliyinə etdiyimiz müraciət hələ ki, cavabsızdır. Düzdür, elə böyük vaxt da keçməyibdir – iki gün keçibdir, amma hər halda indiyə qədər bir cavab alınmayıbdır. Bir sıra dövlət məmurları öz vəzifə səlahiyyətlərini aşaraq, bəzən ondan sui-istifadə edərək kütləvi informasiya vasitələrinə qarşı süni əngəllər yaradırlar. Mən bu məsələ ilə bağlı dövlət məmurlarının reklam bazarına, eləcə də xammal, kağız bazarına kobud müdaxiləsini qeyd etmək istərdim. Bir faktı deyə bilərəm ki, son üç ildə təkcə "Azadlıq" qəzetinə reklam verən 50-dən artıq yerli və xarici şirkətə müxtəlif dövlət məmurları təzyiq göstərərək bağlanmış müqavilələrin ləğv edilməsinə nail olublar. Bu təkcə «Azadlıq» qəzeti ilə bağlıdır.

Qəzetlərin təzyiqlər nəticəsində itirdiyi reklam vəsaitinin həcmi on milyon manatlarla ölçülür. Dövlət məmurlarının qəzet bazarına kobud



müdaxiləsinə ən bariz nümunə qəzet kağızı bazarının süni olaraq çərçivəyə salınması və inhisara alınması cəhdidir. Bir qayda olaraq, 1995-ci, 1998-ci illərdə və indi, seçkiqabağı vəziyyətdə qəzet kağızının qiyməti iki-üç dəfə artıb. Özü də bu qiymət artımı heç də yeni qəzetlərin, yeni çap məhsullarının ortaya çıxması ilə müşayiət olunmur. Yəni o qiymətin qalxmağına bazarın tələbatı yoxdur. Birmənalı olaraq bunu iddia etməyə əsas var ki, bunlar süni surətdə artırılır. Xüsusilə nəzərə alsaq ki, son bir ay ərzində ölkəyə gələn qəzet kağızının qarşısı süni əngəllərlə bir qədər alınmışdır. Düzdür, Dövlət Gömrük Komitəsinin rəhbərliyi ilə görüşlərdə bununla bağlı müəyyən nəticələr əldə olunsa da, amma hələ indiyə qədər vəziyyətin ciddi surətdə dəyişdiyini demək olmaz. Rusiyadan gələn qəzet kağızı Bakıya gəlib çatdığı qiymətdən iki dəfədən artıq qiymətə satılır. Bu da qəzetin maya dəyərini ciddi surətdə qaldırır və qəzetlərin maliyyə durumunu pisləşdirir.

Məndən əlavə, digər kütləvi informasiya vasitələrinin rəhbərləri adından danışmaq istəyənlər Sizin vaxtınızı çox almaq istəməsələr də, amma qəzetlərlə ən müxtəlif vətəndaşlar, o cümlədən dövlət məmurları arasında hüquqi zəmində olan məhkəmə çəkişmələri haqqında danışmaq istərdim. Əlbəttə, mən o iddiada deyiləm ki, bütün çəkişmələrin hamısında qəzetlər haqlı olublar. Şübhəsiz, haqsız olduqları da vardır. Bununla bağlı qəzetlərin öz mövqelərini bildirmələri də vardır. Amma çox təəssüf edirəm ki, bir sıra açıq-aşkar, qanunun tələbləri birmənalı şəkildə göstərildiyi halda, məhkəmələr qəzetlərin əleyhinə olan qərarlar çıxarıblar. Hazırda bu cür məhkəmə qərarları nəticəsində bir sıra redaktorların üzərində – məsələn, elə redaktor var, onun üzərində iki ildir dörd cinayət işi vardır. Şəxsən mənim üzərimdə iki cinayət işi vardır. Ola bilsin, mən bunu hüquqi baxımdan düzgün ifadə etmirəm, amma hər halda belə bir vəziyyət vardır və nəzərinizə çatdırmaq istərdim ki, qəzetlər dövlət məmurları ilə münasibətdə, ümumiyyətlə, kütləvi informasiya vasitələri dövlət orqanları ilə qarşılıqlı münasibətlərini aydınlaşdıranda hüquqi baxımdan olduqca qeyri-bərabər vəziyyətdədirlər.

Ümumiyyətlə, mən bu görüşü təşkil etdiyiniz üçün, təşəbbüsümüzə cavab verdiyiniz üçün Sizə redaktorların adından təşəkkür edirəm. Əminəm ki, bizim qaldırdığımız və məndən sonra həmkarlarımın qaldıracağı məsələlər özünün müsbət həllini tapacaqdır. Təşəkkür edirəm.

* * *

## «ASSA-İRADƏ» AGENTLİYİNİN BAŞ DİREKTORU FAZİL ABBASOVUN ÇIXIŞI

– Zati aliləri möhtərəm Prezident!

Əvvəlcə mən Sizin qarşınızda və həmkarlarım qarşısında işimiz haqqında kiçik hesabat vermək istəyirəm.

Mənim başçılıq etdiyim Azərbaycan beynəlxalq müstəqil xəbər agentliyi «ASSA-İradə» doqquz ildir, «Azər-nyus» qəzeti üç ildən çoxdur fəaliyyət göstərir. Bizim agentliyin və qəzetin bir doktrinası var: Azərbaycan gerçəkliklərini ingilis və rus dillərində dünya ictimaiyyətinə çatdırmaq, xalqımızın, dövlətimizin mənafeyinə xidmət.

Nəzərinizə çatdırım ki, bizim agentlik Xocalı faciəsini dünyaya birinci yaymışdır, ermənilərin hələ 1991-ci ilin mayında Azərbaycan torpaqlarına hücumunu birinci yaymışdır. Əlbəttə, Xocalı faciəsinin birinci çəkilişində mərhum Çingiz Mustafayevin böyük rolu olmuşdur. Amma informasiyanı bizim agentlik birinci yaymışdır.

Cənab Prezident, Siz Naxçıvanda olarkən Naxçıvanın blokadaya alınması haqqında verdiyiniz bəyanatı dünyaya birinci olaraq biz yaymışdıq. Bu da o vaxt ermənilərin guya Qarabağın blokadada saxlanması haqqında yaydıqları iftiralara tutarlı cavab idi.

Bizim qəzet də, agentlik də müstəqildir. Heç bir siyasi, maliyyə, iqtisadi quruma bağlı deyildir. Çətin olsa da, biz öz qazancımızla yaşayırıq. 125 illik tarixi olan milli mətbuatımızın gözəl ənənələrindən qidalanaraq dünya standartları səviyyəsində yayımlanan gündəlik bülletenlərimiz və həftəlik qəzetimiz respublikamızda fəaliyyət göstərən xarici səfirliklərdə, şirkətlərdə, ayrı-ayrı əcnəbi vətəndaşlar arasında yayılır, eyni zamanda elektron poçtu və İnternet vasitəsilə dünyaya yayılır. Artıq fəaliyyətimizi Avropa təsdiqləmişdir: bu il iyul ayının 3-də Parisdə bizim agentliyə 14-cü beynəlxalq Avropa prizi – «Keyfiyyətə görə mükafat» təqdim olundu. Bu mükafat təkcə Azərbaycanda deyil, bütün Qafqaz regionu mediyasında birinci olaraq bizə verilmişdir. Əlli ildən çox yaşı olan Yuqoslaviyanın «Tanyuq» kimi informasiya agentliyi ilə bizim doqquz il çalışan agentliyimizin eyni vaxtda priz alması sevindiricidir. Mən bu prizi Azərbaycan mətbuatına verilən mükafat sayıram. Bu onu göstərir ki, Azərbaycanda demokratik mətbuat vardır, Avropa standartlarına uyğun işləyə bilən xəbər agentliyi vardır.



Fürsətdən istifadə edərək, Azərbaycan informasiya məkanının qorunması haqqında məni narahat edən bir neçə fikri bölüşmək istərdim. Məlum olduğu kimi, Azərbaycan müstəqillik qazandıqdan sonra neft mədənləri, zavodlar, fabriklər kimi informasiya məkanı da əlimizə keçdi. Amma nefti çıxarmaq üçün bizim texnologiyamız, lazımi investisiyamız olmadığına görə xaricilləri Azərbaycana dəvət edirik. Mətbuat sahəsində isə bunu etmək olmaz. Mətbuat, informasiya məkanı bizim öz əlimizdə qalmalıdır. Təəssüf ki, mətbuatımızın bir qismi şimaldan, bir qismi cənubdan, İrandan, bir qismi də Avropadan gələn müxtəlif maliyyə mənbələri ilə maliyyələşdirilir. Bu da gələcəkdə informasiya məkanımızın xarici müdaxiləyə, təsirlərə məruz qalmasına səbəb ola bilər.

Siz bayaq Azərbaycanın xaricdə, dünyada təbliğ olunması barədə gözəl bir fikir söylədiniz. Təəssüf ki, mətbuatımızın bugünkü vəziyyəti belədir ki, biz ancaq daxil üçün işləyirik. Yəni özümüz deyib, özümüz eşidirik. Amma Azərbaycandan kənara informasiyaların getməsi, Azərbaycanın tanıdılması lazımi səviyyədə deyildir. Bunun üçün istərdim ki, bir mərkəz yaransın. Yəni Azərbaycandan kənara gedən informasiyaların yayılması mərkəzi. Bu mərkəz dövlət orqanları ilə sıx əlaqədə olmalıdır və erməni təbliğatına qarşı mübarizə aparmalıdır. Artıq bunu hamı bilir ki, istər siyasi debüt, istər müharibə başlayanda birinci informasiyadan başlanır – informasiya müharibəsi olur, ondan sonra ortaya hərbçilər, yaxud siyasətçilər gəlir.

İstər Sizə, istər həmkarlarıma bir fikrimi də demək istəyirdim ki, Azərbaycan mətbuatının bugünkü vəziyyəti qənaətbəxş deyildir. Azərbaycan mətbuatında qeyri-peşəkarlıq, səbatsızlıq, qaragüruhçuluq baş alıb gedir. Mətbuatımıza təsadüfi adamlar girmişdir. 600-dən çox qəzet vardır. Demək olar ki, bunların əksəriyyəti – ifadəmə görə üzr istəyirəm – elə bil ki, buna köşk, mağaza açmaq kimi baxırlar. Heç orta təhsili yoxdur, amma görürsən ki, redaktor olur. Təbii ki, bu da bizim mətbuatımızın doğru, düz yol ilə getməsinə böyük maneələr törədir.

Xalqımız mətbuata inanır. Biz jurnalistlər bundan sui-istifadə etməməliyik. Jurnalist həm hakimdir, həm müttəhimdir, həm də vəkildir. Gərək o, yazılarında bütün bu məsələlərə diqqət versin.

Diqqətinizə görə çox sağ olun.

* * *

## «YENİ NƏSİL» JURNALİSTLƏR BİRLİYİNİN SƏDRİ ARİF ƏLİYEVİN ÇIXIŞI

– Hörmətli cənab Prezident! Hörmətli həmkarlarım!

Redaktorların dərdi o qədər çoxdur ki, biri deyir onu da de, o biri deyir ki, bunu da de. Fikirlərim bir qədər qarışdı. Amma, hamı rəqəmdən başlayıb, mən də rəqəmdən başlayıram. 1995-ci ildə «Yeni nəsil» söz azadlığı haqqında ilk hesabatına başlayanda, onda belə bir ifadə var idi ki, «Azadlıq» qəzetinin əməkdaşları Prezidentin iştirak etdiyi tədbirlərə buraxılmırlar.

Bu gün «Azadlıq» qəzetinin redaktoru Prezidentin keçirdiyi görüşdə birbaşa iştirak edir. Mən belə hesab edirəm ki, bu cür hadisələrin təkcə jurnalistlərə yox, cəmiyyətə də böyük təsiri olur. Bu onu göstərir ki, Azərbaycan dəyişir. Bizi narahat edən bir şey var – Azərbaycan çox yavaş dəyişir və bəzən bu dəyişmə bizə böyük ağrılar gətirir.

Məni narahat edən bir fikri sizinlə bölüşmək istərdim. Hesab edirəm ki, Azərbaycanın müstəqil mətbuatı onun bu illər ərzində qazandığı ən böyük nailiyyətlərdən biridir.

Biz belə düşünürdük ki, müstəqil Azərbaycan mətbuatı təhlükəni artıq keçibdir. Amma mən çox narahatçılıq hissi ilə qeyd edirəm ki, 1998-ci ildən sonrakı proseslər göstərir ki, Azərbaycanın müstəqil mətbuatı bu gün olduqca ağır vəziyyətdədir. Hətta o vəziyyətdədir ki, əgər proses bu cür davam edərsə qorxuram ki, bir-iki ilə biz artıq müstəqil mətbuatla yox, tamamilə siyasi cəhətdən müxtəlif dairələr tərəfindən zəbt olunmuş bir mətbuatla üzləşməli olacağıq.

Biz həmişə deyirik ki, Azərbaycanda qəzetlərimizin sayı 350-dir. Əslində – Əli müəllimlə biz bunu hesablayırdıq – ölkəmizdə adambaşına bir nüsxə qəzet buraxılır. Bu olduqca aşağı göstəricidir. Qəzetlərin tirajı aşağıdır, sayını artıra bilmirlər. Rayonlarda qəzetlərin satışı çox çətinliklərlə, müsadirə məsələləri ilə də bağlıdır. Amma bir şey var – istənilən çətin vəziyyətdə siyasi cəhətdən tutumu olan müxalifət mətbuatı da, hökumət mətbuatı da pul tapacaqdır. Böyük əzab altında qalan müstəqil mətbuat olacaqdır. Mən Sizi inadırıram ki, bu gün heç kimin ağlına gələ bilməyəcək qəzetin redaktoru, yəni artıq sanballı, Azərbaycanda ən sayılan qəzetlərdən birinin redaktoru mənzilini girov qoyaraq qəzet buraxır.



**Heydər Əliyev:** Nə edir?

**Arif Əliyev:** Mənzilini girov qoyub qəzet buraxır.

Siz burada «Azadlıq» qəzeti haqqında çox xoş sözlər dediniz, «Azadlıq» qəzeti, digər müstəqil qəzetlərin hamısı çox böyük borclarla işləyirlər. İstənilən anda bu qəzetlərin nəşrinin dayandırılması təhlükəsi vardır. İndi də qəzet kağızı problemi yarananda redaktorlar Gömrük Komitəsinin qarşısına yığışmışdılar. Ona görə yox ki, onlar hansısa sensasiya hiss etmişdilər. Ona görə ki, mətbuat ölüm-dirim qarşısında qalmışdı. Mən o fikri tez-tez təkrar edirəm ki, qəzet velosiped kimi bir şeydir – dayandısa, yıxılacaqdır. O, daim hərəkətdə olmalıdır. Belə bir şəraitdə mən xüsusilə gözləyirəm ki, Azərbaycan dövləti, hökuməti ilk növbədə müstəqil mətbuatın mənafeyini güdərək mütləq güzəştlər sistemi tətbiq etməlidir.

**Heydər Əliyev:** Siz «müstəqil mətbuat» deyəndə hansını nəzərdə tutursunuz?

**Arif Əliyev:** Mən «müstəqil mətbuat» deyəndə o mətbuatı nəzərdə tuturam ki, onun mövqeyi hələ ki, özündən asılıdır.

**Heydər Əliyev:** Bunların neçə faizi müstəqil mətbuatdır? Məsələn, dövlət mətbuatının nə qədər olduğunu mən bilirəm: «Azərbaycan», «Xalq qəzeti», «Bakinski raboçi», «Respublika» qəzetləridir. Hərdənbir «Bakı» qəzeti, sahə qəzetləri, ordu qəzetləri və sair də çıxır. Bunlar azlıq təşkil edir. Qalan qəzetlərin hamısı qeyri-dövlət qəzetləridir. İndi mən bilmək istəyirəm, qeyri-dövlət qəzetlərinin içərisində nə qədəri müstəqil hesab olunur, nə qədəri isə qeyri-müstəqildir?

**Arif Əliyev:** Bunu prinsip etibarilə faizlə demək mümkündür. Onların sayı az olsa da, bazarda bu qəzetlər hakim mövqedədirlər. Məsələn, mən «Ayna», «Zerkalo» qəzetlərini misal gətirmək istəyirəm. Bu qəzet Azərbaycanın ən tanınmış, güclü və nüfuzlu qəzetlərindən biridir. Bu qəzetin müstəqil olmasına şübhə ilə yanaşan çox az adam tapmaq olar. Həmin qəzet də eyni çətinliklər içərisindədir. Bu iqtisadi zərbəni sabahkı gün ən çox hiss edən müstəqil qəzetlər olacaqdır. Çünki onlar satılmaq məcburiyyətində qalacaqlar. Azərbaycanın müstəqil mətbuatının 10 illiyi ərəfəsində mən bunu çox böyük məğlubiyyət hesab edərdim.

**Heydər Əliyev:** Müstəqil qəzetlər özləri-özlərini dolandırırlar, elədirmi?

**Arif Əliyev:** Bəli.

**Heydər Əliyev:** Amma eyni zamanda o qəzetlərin arxasında kimlərsə, hansısa partiya və ya şəxs durur. Onlar özlərini müstəqil hesab edirlər, onların vəziyyəti normaldır.

**Arif Əliyev:** Onların vəziyyəti normaldır. Mən o prosesi müşahidə edirəm. Həmin qəzetlər özlərini indiyə qədər saxlayıblar.

**Heydər Əliyev:** Müasir dildə desək, kimlərinsə sponsorları vardır.

**Arif Əliyev:** «Sponsor» daha mədəni ifadədir. Çünki söhbət daha çox siyasi sifarişdən gedir. Bu, mətbuat üçün çox qorxulu bir şeydir. Çünki mətbuat da son nəticədə əhali üçündür. Əgər informasiya əvvəlcədən siyasi cəhətdən "rənglənmiş» halda əhaliyə təqdim edilirsə, o ölkədə proseslər artıq çox çətinləşir. Mən başa düşürəm, ölkənin vəziyyəti çətindir, bir sıra proseslər var ki, onlar obyektiv səbəblərlə izah olunur.

Mətbuatın gəliri haradandır? Normal qəzetin xərcinin 30 faizi satışdan əldə edilir, 70 faizi isə reklamdan gəlir. Son iki ildə reklam dövriyyəsinin həcmi 800-1000 faiz aşağı düşübdür.

**Heydər Əliyev:** Niyə?

**Arif Əliyev:** Xarici şirkətlərin bir qisminin ölkədən getməsinə görə. Siz də aeroportda çıxışınızda qeyd etdiniz ki, şirkətlərin bəziləri aeroportdan qayıdır. Bir də onunla bağlıdır ki, Azərbaycanda daxili reklam bazarı yoxdur. Qəzet nümayəndəsi hansı yerli istehsalçının yanına onu reklam etmək üçün gedirsə, deyirlər ki, sən Allah, mənə yaxın gəlməyin, çünki mənim ünvanım reklamda göstərilən kimi, buraya iki satıcı gələcəksə, eyni zamanda, sanepidstansiyadan tutmuş vergiyədək on nəfər də bizi «soyan» gələcəkdir.

Daxili reklam bazarı demək olar ki, yoxdur, bu illər ərzində formalaşmayıbdır. Yəni iqtisadiyyata dəyən o zərbə özünü güzgü kimi mətbuatda göstərir. Biz həqiqətən çox narahatedici bir problem qarşısında qalmışıq. Bununla da bağlı, redaktorların müraciətində o fikir var idi ki, vergi sistemində kütləvi informasiya vasitələri üçün iki illik və yaxud üç illik güzəştlər tətbiq olunarsa, bu, indiki vəziyyətdə bəlkə də hansısa çıxış yolu ola bilər.

Hazırda redaktorlar yığışıb xarici fondlardan kredit almaq məsələsini müzakirə edirlər. Çünki bu krediti daxildən heç cür ala bilmirlər, xarici fondlara müraciət etməyə məcbur olurlar.

Mətbuat, informasiya milli təhlükəsizliklə bağlı məsələlərdir. Burada ölkənin milli təhlükəsizliyi ilə oynamaq imkanı yaranır. O yerdə ki,



kütləvi informasiya vasitəsini pul ilə ələ almaq, onu yönəltmək imkanı var, ondan istifadə edənlər yəqin ki, tapılacaqdır. Necə ki, tapılır və bundan istifadə edirlər. Məni narahat edən məsələlərdən biri budur.

İkincisi, Gündüz bəy burada sadaladı ki, son üç ayda bizim redaktorların 12 toplantısı olubdur. Bu toplantıların heç olmasa 10-u jurnalistlərin döyülməsi, təhqir olunması, redaksiyalara basqın edilməsi kimi məsələlərə həsr olunmuşdur.

Mən o qənaətdəyəm ki, belə hadisələr hələ çox olacaqdır. Bu, cəmiyyətin ümumi səviyyəsindən, demokratikləşmə dərəcəsindən asılıdır. Mənim fikrimcə, əsas göstərici bəlkə də bu hadisələrin sayı deyil, belə hadisələrə dövlətin, hökumətin göstərdiyi reaksiyanın sayıdır. Biz burada təəssüflə qeyd etməliyik ki, doğrudan da, günün günortaçağı redaksiyaya olan basqınla bağlı iki-üç ay davam edən istintaq heç bir nəticəyə gətirib çıxarmır. Təhlükəli odur ki, digər polis işçisi və yaxud əməlinin üstü açılan kimsə, ikinci dəfə heç nədən çəkinmədən fiziki güc tətbiq edir, əvvəlcə necə olmuşdusa, yenə elə olur.

İki il bundan əvvəl, 1998-ci ildə senzura ləğv olunmamışdan əvvəl Sizin fərmanınız vardı, orada bir neçə bənd də nəzərdə tutulmuşdu. Ondan sonra Respublika Prokurorluğundan bizə zəng etdilər və dedilər ki, üç il ərzində baş verən hadisələr barədə siyahını bizə verin, biz bunları araşdıracağıq, kim cəzaya layiqdirsə cəzalandıracağıq. O siyahıdan və o vəddən sonra səs-soraq çıxmadı.

Bununla bərabər, mən dəfələrlə müzakirə etdiyimiz bir məsələni də qeyd etmək istəyirəm. Siz bayaq dediniz ki, mətbuatla işləməyə çox az vaxtınız olur. Bu az vaxtda verilən fərmanların, tapşırıqların böyük bir hissəsi yerinə yetirilmir. Mətbuatla bağlı həmin o fərmanda gərək ki, altı bənd var idi. Bu bəndlərdən yalnız biri – senzuranın ləğvi ilə bağlı bənd yerinə yetirildi. Digər bəndlərin hamısı olduğu kimi qalmışdır.

Azərbaycanda Sizin imzaladığınız mətbuat haqqında yeni qanun qüvvəyə minmişdir. Həmin qanunun qəbul olunmasından, səhv etmirəmsə, yarım il keçibdir. Bu günə qədər respublikanın Nazirlər Kabineti lisenziyanın formasını işləyib Mətbuat və İnformasiya Nazirliyinə vermir ki, yeni yaranan qəzetlər qeydiyyatdan keçsinlər və yaxud kimlərin qeydiyyatı dəyişiləcəksə, bunu edə bilsinlər. Altı aydır ki, bu sənəd yoxdur. Onlarca bu cür sənəd tələb olunur.

Elektron kütləvi informasiya vasitələrinin lisenziyalaşdırılmasının 1998-ci il aprelin 16-da qəbul edilmiş qaydalarında özəl təşkilatları

dövlət təşkilatlarından birbaşa asılı vəziyyətə salan, tabeçiliyini yaradan, digər qanunları pozan nə qədər bəndlər vardır.

Kağız probleminin bir ucu Nazirlər Kabinetinə gedib çıxır. Çünki, qanuna görə, qəzet kağız alarkən gömrük rüsumundan azaddır. Lakin qəzet kağızı almaq üçün zəruri olan sənədlər arasında elə sənədlər vardır ki, onları almaq qeyri-mümkündür. Gömrük Komitəsində qəzetlərə deyirlər ki, bu fərman və yaxud qaydalar ləğv olunsun və biz də sizin kağızınızı buraxaq. Bəzən xırda bir şeydən elə böyük problemlər yaranır ki, onların qarşısında aciz qalırsan.

İnternetin inkişafı barədə burada çox vacib məsələ qaldırıldı. Çox zaman biz deyirik ki, Azərbaycan informasiya blokadasındadır. İnternet Azərbaycana gələndən sonra əgər informasiya blokadası varsa, onun birinci əmması əslində Azərbaycanın özündədir. Bu, sadəcə olaraq bizim istifadə etmədiyimiz imkanlardır. Bu barədə təklif səsləndi, mən bunu bir daha təkrar etmək istəmirəm. İnternet saytlarının yaradılması, onun inkişafı informasiya sahəsində ölkəmizə çox ucuz başa gələn böyük yardım ola bilərdi.

Bizdə jurnalist etikası və peşəkarlığı cəhətdən həqiqətən çox böyük problemlər vardır. Bəzən kifayət qədər əsaslar olur ki, cəmiyyətdə və yaxud da hər hansı bir dairədə mətbuat haqqında hansısa bir mənfi fikir formalaşır. Amma bizim bir problemimiz də vardır: Azərbaycanda jurnalistika sahəsində – mən bilmirəm, burada təhsil müəssisələrindən nümayəndə var, yoxsa yox – təhsil demək olar ki, yoxdur. Dərslik əvəzinə onlar «Yeni nəsil» Jurnalistlər Birliyinin buraxdığı bülletenlərdən, yaxud da ayrı-ayrı özəl jurnalist təşkilatlarının buraxdıqları kitablardan istifadə edirlər.

Maraq üçün mən özüm bir-iki il universitetdə dərs dedim ki, görüm bu nə deməkdir və özüm də bunun şahidi oldum. Bizdə kadrların nə hazırlanması, nə də yenidən hazırlanması sistemi yoxdur. Bəzi kütləvi informasiya vasitələri – mən bilirəm ki, ANS bunu tətbiq edir – özü kadrlar hazırlamaq sisteminə keçibdir. Bu çox yaxşı sistemdir və yəqin ki, gələcək həmin sistemindi.

Bu gün biz təhsil müəssisələrini, ümumiyyətlə, təhsil sistemini belə saxlamaqla – bu saat jurnalistika son dərəcə cavanlaşıb, orta yaş çətin ki, haradasa 30-dan yuxarı olsun – yenidən hazırlanan keyfiyyətsiz kadrlarla jurnalist bazarını doldururuq. Sabah biz və cəmiyyət bunun ağrısını çəkəcəyik. Məhkəmə prosesləri, məhkəmə sistemi, hakimiyyət-jurnalist qarşıdurması ilə yenidən üzləşəcəyik. Nəzərə almalıyıq ki, bunun əsasında, sadəcə olaraq, keyfiyyətsiz kadrlar durur. Mən bu fikirləri bildirmək istəyirdim.



Mən bilirəm ki, Azərbaycanın jurnalist təşkilatlarının çox böyük potensialı vardır. Çox təəssüf ki, bu potensialı bəzən, bayaq dediyim kimi, yaradıcı məsələlərə yox, vaxtımızın 90 faizini özümüzü kiminsə «zopa»sından qorumağa, kiminləsə münasibətləri ayırd etməyə, hansısa hakimi başa salmağa sərf edirik.

Mənim sevimli dostum, hamının hörmət etdiyi Nəcəf Nəcəfovun həmişə təkrar etdiyi bir ifadə var idi. O deyirdi: «Bir var səngərdə oturub soyuğu möhkəm hiss edən və hər bir gülllədən qorxan əsgər, bir də var təpənin başında oturub döyüşü seyr edən general. Əsgər üçün öz həyatı da, səngərin soyuğu da çox ağrılı bir şeydir. General üçün isə birinci səngərdən sonra ikinci, üçüncü səngər var».

Mən həqiqətən çox istərdim ki, potensialımızı professional məsələlərə, öz daxili işlərimizə sərf etmək üçün dövlət nümayəndələri hərdən o təpələrdən enərək həmin səngərlərdə də olsunlar. Probleme hər iki tərəfdən baxışın yəqin ki, böyük rolu olardı. Çox sağ olun.

* * *

## «SPACE» TELEVİZİYA ŞİRKƏTİNİN İCRAÇI DİREKTORU RÜSTƏM ƏLİYEVİN ÇIXIŞI

– Möhtərəm cənab Prezident! Hörmətli həmkarlarım!

Milli mətbuatın 125 illik yubileyinin qeyd edildiyi günlərdə ölkə Prezidentinin yanında belə bir görüşün keçirilməsi çox təqdirəlayiq haldır.

Milli mətbuatımızın yubileyi münasibətilə təmsil etdiyim şirkət adından hamınızı ürəkdən təbrik edirəm, sizə fəaliyyətinizdə uğurlar arzulayıram.

Mən burada elektron kütləvi informasiya vasitələrinin nümayəndəsi kimi çıxış edirəm. Ona görə də çıxışımı elektron kütləvi informasiya vasitələrində mövcud olan problemlər üzərində qurmaq istəyirəm. Elektron kütləvi informasiya vasitələri Azərbaycanda yeni yaranan və inkişaf edən bir sistemdir. Bilirsiniz ki, əvvəllər elektron kütləvi informasiya vasitələri, yəni radio, televiziya dövlətin inhisarında olmuşdur. Ölkəmiz müstəqillik əldə etdikdən sonra Azərbaycanda özəl teleradio şirkətləri formalaşmışdır. Təmsil etdiyim şirkət 1997-ci ildə yaranmışdır və bu günədək fəaliyyət göstərir. Dörd saatlıq verilişlərlə fəaliyyə-

tə başlayan «Space» bu gün 18 saat ərzində, çox az sayda işçi ilə bu qədər yayım verir.

Mən yayım problemləri üzərində dayanmaq istəyirəm. Bu gün Azərbaycanda, Bakıdan başqa digər rayonlarda Azərbaycan dövlət televiziyasını seyr etmək və oradan informasiya almaq imkanları vardır. Azərbaycanda hazırda fəaliyyət göstərən bütün elektron informasiya vasitələri əməkdaşlarının böyük arzusudur ki, dövlətin yardımı ilə bütün ölkə ərazisinə, heç olmasa onun bir hissəsinə verilişləri yayımlamaq imkanı əldə etsinlər.

Mən bir məsələyə diqqət yetirmək istəyirəm. Elektron kütləvi informasiya vasitəsinin təsis olunması və saxlanılması həmişə çox böyük maliyyə vəsaiti tələb edir. Ona görə də hazırda Azərbaycanda reklam bazarının məhdudlaşması, bu bazarın 1996-cı ilə nisbətən birdən-birə 80 faiz azalması bu gün elektron kütləvi informasiya vasitələrinə imkan vermir ki, onlar lazımi texniki cihazlar, avadanlıq alsınlar və öz verilişlərini bütün Azərbaycan ərazisinə yayımlasınlar. Lakin sovet dövründən qalmış radiorele sistemləri vasitəsilə özəl şirkətlərin də verilişlərini bütün Azərbaycana yaymaq imkanı bu gün mövcuddur. Bu imkandan istifadə olunarsa, Azərbaycanın bütün əhalisi, bütün rayonlar alternativ fikrə və plüralizmə qovuşa bilərlər, bu fikri qəbul etmək və bu fikir barədə düşünmək imkanı əldə edərlər.

Başqa bir məsələ – elektron kütləvi informasiya vasitələrinin hüquqi bazasının zəif olmasıdır. Ümumiyyətlə, Azərbaycanda kütləvi informasiya vasitələrini həmişə bir-biri ilə təmasda görürlər, elə götürürlər. «Kütləvi informasiya vasitələri haqqında» 1992-ci ildə qəbul edilmiş qanunun kiçik bir bəndi teleradionun fəaliyyətinə həsr olunmuşdu. 1999-cu ildə qəbul olunmuş yeni qanunda da yalnız bir fəsil elektron kütləvi informasiya vasitələrinə aiddir.

Diqqətinizi bir məsələyə yönəltmək istəyirəm. 1997-ci ildə Azərbaycanda teleradio fəaliyyəti haqqında qanun layihəsi işlənib hazırlandı. «Yeni nəsil» Jurnalistlər Birliyi, ABŞ-ın İnternyus humanitar təşkilatı da bu işdə yardımçı oldu, iştirak etdi. Bu qanun layihəsi ölkəmizin Milli Məclisinə təqdim olundu. Lakin hələlik Azərbaycanda teleradio fəaliyyəti haqqında qanun mövcud deyildir. Teleradionun fəaliyyətinin çap kütləvi informasiya vasitələri ilə bir yerdə nizamlanması elektron kütləvi informasiya vasitələri üçün böyük problemlər yaradır.



Bayaq Arif müəllim qeyd etdi, mən də bu məsələyə diqqəti cəlb etmək istəyirəm ki, teleradio haqqında qanunun qəbul olunması Azərbaycanda teleradionun inkişafına həqiqətən də böyük təkan verə bilər.

Əsas məsələ teleradio fəaliyyətinin lisenziyalaşdırılmasıdır. Azərbaycanda teleradio fəaliyyətinin lisenziyalaşdırılması Nazirlər Kabinetinin 1998-ci il aprel tarixli qərarı ilə həyata keçirilir. Lakin qeyd edildiyi kimi bu qərar da ölkənin bir sıra qanunvericilik aktlarına ziddir və hələlik bu qərarla lisenziya almaq böyük bir problemə çevrilmişdir.

Çıxışımın sonunda jurnalistikanın problemləri ilə bağlı bir neçə kəlmə demək istərdim. Teleradio jurnalistikası Azərbaycanda yeni sahədir. Sovet dövründə Azərbaycan Dövlət Universitetində jurnalistika fənni tədris olunub, öyrənilib, lakin teleradio jurnalistikası fənni öyrənilməmişdir.

Ümumiyyətlə, sovet dövrünün teleradio jurnalistikası müasir dövrün teleradio jurnalistikasından çox fərqlidir. Dünyada mövcud standartlar vardır ki, onlara yiyələnmək bu gün mühüm bir zərurətə çevrilmişdir. Mənə elə gəlir ki, dövlətin yardımı ilə biz müəyyən kurslar təşkil etsək və ya xarici dövlətlərdə müstəqil jurnalistika kurslarına Azərbaycandan nümayəndələr göndərsək, orada jurnalistlərin təhsilini davam etdirsək, bu gün Azərbaycan jurnalistikasında mövcud olan bir sıra problemləri yaxın illərdə müşahidə etmərik.

Digər bir problem Azərbaycan elektron kütləvi informasiya vasitələrinin yayımı və ölkəmizin qonşuluğunda olan dövlətlərin bu elektron kütləvi informasiya vasitələrinin yayımında yaratdığı problemlərdir. Yəni, bir çox dövlətlər beynəlxalq konvensiyaları imzalayıblar, lakin onlar yerinə yetirilmir. Məsələn, İrandan yayımlanan verilişlər Bakıda çox sərbəst surətdə tutulur və metrlik diapazonda efirə çıxan teleradio şirkətlərinin işinə əngəl törədir. Onlar Almaniyanın istehsalı olan çox böyük, güclü ötürücülərlə Azərbaycanın ərazisinə daxil olur və respublikamızın teleradio məkanında təxribat törədirlər.

Mənə elə gəlir ki, Rusiya, İran, hətta Türkmənistanla da müəyyən danışıqlar aparılmalıdır ki, Azərbaycanın teleradio məkanı həqiqətən ölkəmizə məxsus olsun.

**Heydər Əliyev:** Türkmənistandan da verilişlər daxil olur?

**Rüstəm Əliyev:** Bəli. Türkmənistandan da buraya siqnallar daxil olur. Məsələn, Bakıdan efirə çıxan teleradio şirkətlərinin veriliş-

lərini Hövsan qəsəbəsində tutmaq mümkün olmur. O verilişləri İranın və ya Türkmənistanın teleradiosunun siqnalları vurur. Belə problemlərin həlli Azərbaycanda elektron kütləvi informasiya vasitələrinin inkişafına böyük təkan vermiş olardı.

Sonuncu olaraq, vətəndaş cəmiyyətinin, hüquqi dövlətin əsas sütunlarından olan kütləvi informasiya vasitələrinin inkişaf etdirilməsində bütün həmkarlarıma uğurlar arzulayıram. Sağ olun.

* * *

## «ÜÇ NÖQTƏ» QƏZETİNİN BAŞ REDAKTORU XOŞQƏDƏM HİDAYƏTQIZININ ÇIXIŞI

– Cənab Prezident!

İstərdim ki, məndən əvvəl çıxış edən həmkarlarım Gündüz Tahirli və Arif bəy müharibədə şəhid olmuş jurnalistlərimizin xatirəsini bir anlığa yad etsinlər. Çünki bu bayram onların da bayramıdır. Amma onlar bunu etmədilər. Biz Çingiz Mustafayev, Alı Mustafayev, Salatın Əsgərova kimi şəhid jurnalistlər itirmişik. Mən istərdim ki, onların xatirəsini bir anlığa yad edək.

(Şəhid jurnalistlərin xatirəsi bir dəqiqəlik sükutla yad edildi.)

Cənab Prezident, mən şəxsən öz adımdan, eyni zamanda, bütün kütləvi informasiya vasitələrinin burada iştirak edən nümayəndələri adından, qiymətli vaxtınızı ayırıb bizi qəbul etdiyinizə görə Sizə təşəkkürümü bildirirəm.

Düzü, çıxışımda toxunmaq istədiyim məsələləri məndən əvvəl danışan həmkarlarım dedilər. Mən mətbuat sahəsindəki problemlərlə bağlı qısa çıxış etmək istəyirəm.

Mətbuat sahəsində problemlər kifayət qədərdir. Müstəqil mətbuatın hələ inkişafını demirəm, sadəcə, mövcud olmasına ciddi maneə törədən çoxsaylı məsələlər həll edilməzsə, onda müstəqil mətbuatın gələcəyi sual altında qalır. Bu təhlükəni yalnız dövlət aradan qaldıra bilər.

Mətbuata dövlət qayğısı olmalıdır. Dövlət qayğısı olmazsa, mətbuat ayrı-ayrı şəxslərin – korrupsiyaçıların, rüşvətxorların, lap quldurların da mənafeyinə xidmət edə bilər. Çünki söhbət mətbuatın yaşamasından gedir. Belə olan halda, obyektiv və qərəzsiz mətbuatın inkişafı inandırıcı görünmür. Dövlət mətbuat orqanları arasında ayrı-seçkilik qoymamalıdır. Dövlət üçün mətbuatın iqtidarı-müxalifəti olmamalıdır. Yalnız bu fərq aradan götürüləndən sonra müstəqil mətbuat inkişaf edəcəkdir.



Partiya maraqlarına, şəxsi maraqlara xidmət göstərən mətbuat ölümə məhkumdur. O mərhələ çatıbdır. Əgər dövlətin qayğısı olarsa, müstəqil mətbuat yeni simada ortaya çıxa bilər. Bu, Azərbaycan xalqının və cəmiyyətimizin tələbidir.

Məni və zənnimcə, digər jurnalistləri daha çox narahat edən mətbuat işçilərinin sosial problemləridir. Əvvəllər, təhsil işçiləri ilə yanaşı, jurnalistlərə də müəyyən güzəştlər nəzərdə tutulmuşdu, lakin sonradan ləğv olundu. Düzdür, ümumi vəziyyət ağırdır.

Şəxsən mənim üçün jurnalistika yalnız dərdlərimi unutmaq vasitəsidir. Bu gün düşmən əlində olan bir kənddə doğulmuşam. Nə qədər ki, dədə-baba yurdlarımız geri qaytarılmayıbdır, sözlə mübarizə aparmaq məcburiyyətindəyəm. Bu mübarizədə də düşmənlərimizə uduzuruq. Xüsusilə, Qarabağla əlaqədar təbliğatımız zəifdir. Keçən il redaktorlar buna cəhd etdilər, müəyyən işlər görməyə səy göstərdik. Yenə də maliyyə imkanlarının zəif olması qəzetlərin bu təbliğata kifayət qədər diqqət yetirməsinə imkan vermədi.

Cəmiyyətin daha informasiyalı bir təbəqəsi kimi ölkəmizin qarşılaşdığı iqtisadi çətinliklərdən biz də xəbərdarıq. Bütün bunlara baxmayaraq, jurnalistlərin sosial vəziyyəti nəzərə alınmalıdır. İndi sovet dövründən fərqli olaraq nə ev növbələri var, nə normal maaşlar var, nə də redaksiyalara icarə güzəştləri var. Redaksiyaların icarə haqları kommersiya təşkilatları ilə eyni ölçüdə götürülür. Mətbuatın rabitə xərcləri də buna bənzərdir. Halbuki qardaş Türkiyədə mətbuat rabitə xərclərini çox aşağı həddə ödəyir. Bizim mətbuat orqanlarının bir hissəsi mənzillərdə kirayənişin kimi məskunlaşmışdır.

Sovet hakimiyyəti illərində – Sizin Azərbaycana rəhbərlik etdiyiniz dövrdə mühəndislər, müəllimlər üçün xüsusi evlər tikilirdi. Təbiidir ki, vəziyyətin ağırlığını nəzərə alırıq, ancaq mətbuat üçün indi belə işlər görülsə, yaxşı olardı.

Problemlər təkcə maddi-texniki baza ilə deyil, həm də mənəvi məsələlərlə ciddi şəkildə bağlıdır. Məndən öncə Gündüz bəy dedi, mən də istəyirəm bu məsələyə toxunam. Məsələn, bu gün jurnalist üçün informasiya almaqdan çətin bir iş yoxdur. Heç bir vəzifəli şəxs informasiya vermək istəmir. Bütün nazirliklərin mətbuat xidməti var. Sosial-iqtisadi durumu o qədər yaxşı olmayan bir ölkədə bu qədər mətbuat xidməti varsa, onda niyə həmin mətbuat xidmətləri öz işləri ilə lazımınca məşğul olmurlar? Bu məsələdə Prezident Aparatının mətbuat xidməti-

nin, Daxili İşlər Nazirliyinin, Respublika Prokurorluğunun mətbuat xidmətlərinin işində narazılıqları önə çəkmək istərdim. Təəssüf ki, belə mətbuat xidmətləri az deyil. Əksinə, onların heç biri digərindən fərqlənmir. Baxmayaraq ki, onların işi mətbuatla əlaqə yaratmaq, təmsil etdikləri qurumlarla mətbuat orqanları arasında informasiya mübadiləsini təmin etməkdir. Bir sözlə, dövlət orqanlarından məlumat almaq müşkül işdir. Bəzən günlərlə zəng edirik, lakin heç kim məlumat vermir.

Cənab Prezident, Sizin özünüzə də bəllidir ki, son dövrlər Qarabağ məsələsi ilə bağlı gedən danışıqlar haqqında ictimaiyyətdə bəzən yanlış informasiya dolaşır. Bu informasiyalara aydınlıq gətirmək üçün olmazmı ki, səlahiyyətli şəxslər jurnalistlərə açıqlama verməsələr də, heç olmasa brifinqlər, redaktorlarla görüşlər keçirsinlər? Bu informasiyalar ictimaiyyətdə düzgün fikir formalaşmasına gətirib çıxarar.

Mən istərdim ki, Siz göstəriş verəsiniz, məmurlar qapılarını mətbuat nümayəndələrinə açsınlar. Bağlı qapı arxasında nə biz, nə də onlar heç nəyə nail olmayacağıq. Yəni heç bir problemimizin həllini mən görmürəm.

Vəzifəli şəxslər bəzən qəzetlərdə gedən məlumatlara dırnaqarası baxırlar. Bu barədə Gündüz bəy danışdı, mən toxunmaq istəmirəm. Bizə daha yaxın olan qonşu Türkiyəni misal göstərmək istərdim. Türkiyənin qəzetlərində adi iş adamı ilə bağlı yazı gedərsə bu, bütün gündəmi dəyişir. Bizdə isə əksinədir.

Düzdür, Azərbaycanda senzura ləğv olunmuşdur. Lakin indiki senzura əvvəlkindən daha dəhşətlidir. Redaksiyalar hansısa bir şikayətçinin məktubunu dərc etməyə belə tərəddüd edirlər.

Mətbuat haqqındakı yeni qanunda olan boşluqlar da məsələni mürəkkəbləşdirir. Yeni qanuna görə redaksiyalar şikayətçinin məktubunu redaktəsiz dərc etməyə borcludurlarsa, qanunun başqa bir bəndində mətbu orqanın həmin məktuba görə məsuliyyət daşıdığı göstərilir. Bir az öncə qeyd etdiyim kimi, mətbuat xidmətlərinin yarıtmaz fəaliyyəti şikayətçinin məktubunda göstərilən faktların dəqiqləşdirilməsində qəzetlər üçün əngəllər törədir. Saysız-hesabsız məhkəmə çəkişmələri də elə bununla bağlıdır. Düzdür, bu məsələdə biz qəzetçilərin də günahı vardır. Amma hər halda, son vaxtlar, göz dəyməsin, məhkəmələrin fəaliyyəti yalnız mətbuatın işinə baxmaqdır. Öz günahları və fəaliyyətsizliyi nəticəsində bəzi məmurlar özləri və yaxud işlədikləri



idarə ilə bağlı gedən informasiyalara, yazılara görə məhkəməyə müraciət edirlər. Təəssüflər olsun ki, bəzən də həmin məhkəmələrə müraciət xüsusi tapşırıqla həyata keçirilir.

Təəssüf edirəm ki, həmin siyahıda təkcə dövlət məmurları yox, həm də daim özlərini mətbuatın müdafiəçisi elan edən, indiki iqtidarı mətbuatı boğmaqda günahlandıran bəzi müxalifət liderləri də var. Mənim üçün olduqca maraqlıdır, adı müxalifət, əqidəsi isə məlum olmayan siyasilərimizin mətbu orqanını özləri məhkəməyə veriblərsə, nə üçün onlar iqtidarı mətbuatı boğmaqda günahlandırırlar?

Mətbuatın problemləri çoxdur. Bu problemlər haqqında saatlarla danışmaq olar. Amma mən mətbuatımızın inkişafı üçün konkret təkliflərlə çıxış etmək istəyirəm.

Birincisi, hamımıza məlumdur ki, xarici jurnalistlər Azərbaycana tez-tez səfər edirlər. Amma onların haradan informasiya almaları, kim tərəfindən istiqamətləndirilmələri bizə məlum deyildir. Məncə, xarici jurnalistlərə informasiya vermək, onları istiqamətləndirmək üçün bir qurum yaradılmalıdır.

İkincisi, mətbuat orqanlarının icarə, rabitə xərcləri minimum məbləğə endirilməlidir. Mətbuat beş il müddətinə bütün vergilərdən azad edilməlidir. Mətbuatımızın inkişafı üçün uzunmüddətli kreditlər ayrılmalıdır. Müasir tələblərə uyğun yeni mətbəə avadanlığı gətirilməlidir. Əyalətlərdə mətbuatın pulsuz paylanması dövlət büdcəsi hesabına təmin edilməlidir.

Mən qısaca arayış vermək istəyirəm. Hər kəs bilir ki, rayonlara elektrik enerjisi saatlarla verilir. Bu səbəbdən ANS, «Space» kimi müstəqil televiziya kanalları, eləcə də Rusiyanın televiziya kanalları bəzi rayonlarda göstərilmir. Azərbaycan televiziyasının verilişlərində də fasilə olduqda, deməli, bölgələrdə televiziyaya da baxa bilmirlər. Sosial-iqtisadi durum gərgin olduğundan min manat verib qəzet almaq çoxları üçün çətindir. Məhz buna görə də mən bu təklifi verirəm.

Cənab Prezident, təbii ki, bunları nəzərə almaq Sizin səlahiyyətinizdədir. Biz sadəcə olaraq, fikirlərimizi sizin nəzərinizə çatdırırıq. Fürsətdən istifadə edib, Sizə bir xahişimi də bildirmək istəyirəm. Nisbətən yaşlı nəslin nümayəndələri vaxtilə «Azərbaycan» jurnalının, «Ədəbiyyat və incəsənət» qəzetinin yubileylərində Sizin iştirakınızdan danışırlar. Əlbəttə, bu bizə əsas verir ki, mətbuatımızı həqiqətən yüksək dəyərləndirməyiniz haqqında fikir yürüdək. Şəxsən mən çox istərdim ki, mətbuatın

tədbirlərində, bayramlarında bizimlə bərabər olasınız. Hamıya bəllidir ki, vaxtınız çox azdır. Amma hər halda, mətbuatımızla bağlı tədbirlərə Sizin təşrif gətirməyiniz bizdə ruh yüksəkliyi yaradır. Elə bu gün «Azərbaycan» kinoteatrında «Yeni nəsil» Jurnalistlər Birliyinin bir tədbiri vardır. Biz Sizi orada görməkdən qürur duyardıq. Çox sağ olun.

* * *

## ANS TELEŞİRKƏTİNİN PREZİDENTİ VAHİD MUSTAFAYEVİN ÇIXIŞI

– Mən əvvəl, buraya toplaşanların hamısını Mətbuat bayramı münasibətilə səmimi-qəlbdən təbrik etmək istəyirəm.

Hörmətli cənab Prezident, bu gün bizi buraya yığdığınıza görə Sizə təşəkkürümü bildirirəm.

Bildiyiniz kimi, ANS keçmiş Sovetlər İttifaqında qeydiyyatdan birinci keçən müstəqil yayım şirkətidir. Yarandığımız gündən əsas məqsədimiz ölkəmizin müstəqilliyinin möhkəmlənməsinə xidmət etməkdir. Biz hüquqi, demokratik cəmiyyət quruculuğunda, sabit iqtisadiyyatın və sağlam özəl sektorun formalaşmasında da az rol oynamırıq.

Çox problemlərimiz var və onları özümüz həll edirik. Lakin bəzi problemlərin həllində bizə, sözsüz ki, dövlətin də köməyi lazım olardı.

Hörmətli cənab Prezident, müstəqil yayım və media şirkəti olmağın üzərimizə qoyduğu böyük məsuliyyəti duyuruq. Ona görə də problemlərimizi özümüz həll edirik və həll etməkdə də davam edəcəyik. Bildiyiniz kimi, dünyanın bütün ölkələrində üstünlük milli kanallara verilir. Bu gün Azərbaycan ərazisində dörd televiziya kanalı yayımlanır. Onlardan yalnız biri – Azərbaycan dövlət televiziyası milli kanaldır, qalan üçü isə xarici televiziyalardır. Bakı ərazisində və Abşeron yarımadasında 12 kanal yayımlanır ki, bunların da nə az, nə çox – 7-si xarici televiziya kanallarıdır.

Təbii ki, bütün əcnəbi kanallar mənsub olduqları dövlətlərin mənafelərindən çıxış edir və əksər hallarda onların maraqları Azərbaycanın maraq və mənafeləri ilə üst-üstə düşmür. İnanırıq ki, ölkəmizin maraqlarını nəzərə almayan kanalların yerini, nəhayət, milli kanallarımız tutacaqdır.

Bu sahədə əsas məsuliyyət Rabitə Nazirliyinin üzərinə düşür. Məsələn, Azərbaycan ərazisində yayımlanan «ORT» illərlə bizə bir qəpik də olsun pul verməyən kanaldır. Biz Rabitə Nazirliyindən «ORT» kanalının bizə verilməsini xahiş edəndə 700 min dollardan artıq pul istəmişdilər. Onu da nəzərinizə çatdırım ki, biz bunu peyk vasitəsilə həll etsəydik, cəmi 250 min dollar pulumuz çıxacaqdı. Lakin çox təəssüflər olsun ki, bizim bu qədər də pulumuz yoxdur.



Azərbaycana qonşu ölkələrdən gələn telesiqnallar da dövlət üçün əlavə problemlər yaradır. Şuşanın müvəqqəti süqutundan sonra oradakı retranslyatorlardan erməni işğalçıları çox gözəl istifadə edir və Füzulidən tutmuş Şəkiyə qədər Azərbaycan ərazisində proqramlar yayımlayırlar.

**H e y d ə r  Ə l i y e v :** İndə də?

**V a h i d  M u s t a f a y e v:** Bəli. Texniki nöqteyi-nəzərdən mən bu məsələni daha yaxşı bilirəm. Şuşa Azərbaycan ərazisində ən yüksək nöqtələrdən biridir və orada qoyulan hər bir ötürücü – hətta gücü az olsa da – Azərbaycanın çox uzaq bölgələrinə siqnal çatdıra bilər. Oradan erməni dilində iki proqram yayımlanır. Biri qondarma «Dağlıq Qarabağ Respublikası»nın proqramıdır. Bundan əlavə, Ermənistan televiziyasının proqramı retranslyasiya olunur. Sözsüz ki, bunların yayımlanması təbliğat məqsədi daşıyır. Mənə elə gəlir ki, belə vəziyyət davam edərsə, onlar sabah bir güllə də atmadan, təbliğatın gücü ilə sərhədi keçib bir neçə rayonu götürə bilərlər. Bu çox təhlükəli məsələdir.

**H e y d ə r  Ə l i y e v :** Onu edə bilməzlər. Sən səhv edirsən.

**V a h i d  M u s t a f a y e v :** Hər halda, Füzuli və Ağdam rayonlarını belə almışdılar.

**H e y d ə r  Ə l i y e v :** Sən bir az fantaziyaya yol verirsən. Amma sənin məlumatın əhəmiyyətlidir. Çünki mən bunu bilmirdim, birinci dəfədir eşidirəm. Təəssüf ki, bilənlər də yəqin ki, lazımi ölçü götürməyiblər...

**V a h i d  M u s t a f a y e v :** Televiziya, hər şeydən əvvəl, təbliğat üsuludur. Ona görə də erməni işğalçıları bu təbliğatla böyük nailiyyət əldə edə bilərlər. Mən torpaqlarımız azad olunana qədər belə vəziyyətdən yeganə çıxış yolunu Azərbaycanın milli kanallarının bütün ölkə ərazisinə yayımlanmasına həqiqi iqtisadi və texniki dəstək verilməsində, dövlətin bu sahədə konkret ifadə edilmiş himayədarlıq siyasəti yeritməsində görürəm.

Cənab Prezident, bizi narahat edən problemlərdən biri də, ümumiyyətlə, maliyyə vəziyyətimizdir. Burada reklam bazarının vəziyyətindən danışdılar. Doğrudan da, respublikada ümumi iqtisadi vəziyyət

çox da yaxşı deyildir. Lakin televiziya, radio kütləvi elektron informasiya vasitəsi olaraq öz maddi-texniki bazasını müntəzəm şəkildə dəyişməyə məcburdur. Filmlərin və proqramların milli dilimizə dublyajı kimi zəruri fəaliyyət sahəsinə də çoxlu vəsait ayırmaq lazımdır.

İndi Azərbaycanda dövlət və özəl televiziya kanallarının yayımının, demək olar, 70 faizi rus dilindədir. Mənə elə gəlir ki, biz öz müstəqilliyimizi başqa dildə tam bərqərar edə bilməyəcəyik. Məsələn, İran İslam Respublikasında proqram dövlət tərəfindən maliyyələşdirilir. Bir çox dövlətlərin qanunlarında müddəalar var ki, onlarda yayımlanan televiziya proqramlarının 70 faizindən çoxu öz dillərində olmalıdır. Bu qanunu tətbiq etməklə televiziya şirkətlərinə güzəştli dövlət kreditləri də vermək olardı ki, sonra onu qaytara bilək.

İcazənizlə, bir neçə kəlmə də kütləvi informasiya vasitələri və qanunvericilik haqqında deyim. Sirr deyil ki, qanunvericiliyimiz sürətlə dəyişir və bəzən elə olur ki, yeni qəbul olunmuş qanuna il ərzində onlarca əsaslı, bəzən də əsassız dəyişikliklər edilir. Etiraf etmək lazımdır ki, bu dəyişikliklərin bəziləri nə iqtisadi, nə də hüquqi zərurətdən irəli gəlmir.

Diqqətinizi yalnız iki misala cəlb etmək istərdim. Xüsusi razılıq, yəni lisenziya tələb olunan fəaliyyət növlərinin tənzimlənməsinə dair Sizin 1997-ci il 4 oktyabr tarixli fərmanınızın konkret və hüquqi cəhətdən əsaslandırılmış tələbləri hamımıza tanışdır. Lakin bu fərman əsasında Nazirlər Kabinetinin kütləvi informasiya vasitələrinin lisenziyalaşdırılmasına dair 84 nömrəli qərarında fərmanın tələbləri təhrif olunmuşdur. Nəticədə qərara dəfələrlə dəyişikliklər edilib və onun tətbiqi kütləvi informasiya vasitələri üçün lazımsız əngəllər və süründürməçiliklər yaradır.

Qərarın bəzi müddəaları nəinki hüquqi cəhətdən, hətta adi məntiq baxımından anlaşılmazdır. Məsələn, Azərbaycanda radio-televiziya yayımlarına lisenziya almaq üçün 15 milyon manat, qəzet açmaq üçün isə 100 min manat ödəmək lazımdır. Bununla əlaqədar mən hörmətli baş nazir müavini Elçin müəllimlə danışanda soruşdum ki, bu fərq nəyə görədir – nə üçün televiziya lisenziya üçün 15 milyon manat verməlidir, qəzetlər isə 100 min manat? O mənə cavab verdi ki, bilirsiniz, televiziya, ümumiyyətlə, böyük qurumdur, qəzet isə cılız qurumdur. Ona görə biz belə fikrə gəlmişik. Mən bildirəndə ki, «Faynənşl tayms» qəzetinin illik dövriyyəsi Azərbaycan Respublikasının büdcəsinə bərabərdir, buna nə deyərsiniz? Dedi ki, əşi, bilirsən, vəziyyət elədir ki, belə etmək lazımdır. Başqa heç nə başa sala bilmədi.



Daha bir misal reklam haqqında qanuna aiddir. Onun sponsorluğu tənzimləyən 20-ci maddəsində sponsorluq və reklamçılıq eyniləşdirilibdir. Bu çox böyük təhlükədir. Ona görə ki, reklam, sözsüz, kommersiyadır, bizim qazancımızdır, oradan biz dövlətə sözsüz ki, ödəmələr verməliyik və veririk də. Lakin sponsorluq xeyriyyəçilikdir. Nə qədər düzgün olardı ki, biz xeyriyyəçilikdən, kiminsə bizə xeyriyyə pulları keçirməsindən hər hansı ödəmələr həyata keçirək?

Cənab Prezident, Siz dəfələrlə əsassız təftişlərdən və dövlət orqanlarının azad sahibkarlığın işinə əngəl törətmələrindən narahat olduğunuzu bildirərək belə yoxlamaları qadağan etmisiniz. Lakin son zamanlar, xüsusilə ötən ilin sonundan ANS-də baş alıb gedən, ardı-arası kəsilməyən, heç bir normativ aktlarda nəzərdə tutulmayan və tənzimlənməyən növbəti və əsassız növbədənkənar yoxlamalar ümumi fəaliyyətimizin iş ahəngini pozur, ümumiyyətlə, bizə işləməyə imkan vermir. Keçən il noyabrın 9-dan bu günə qədər bizim şirkətlər qrupunun bütün şirkətləri Vergilər Nazirliyi tərəfindən yoxlanılır və bu yoxlamaların sonu görünmür.

Məsələ ondan ibarətdir ki, bir neçə yoxlamalar sona çatandan sonra üçillik fəaliyyətimizin yoxlama nəticələri 10 milyonla nəticələnirdi və ondan sonra da biz bunu məhkəməyə verib o 10 milyonu da sildirirdik. Ona görə ki, bu da düzgün yazılmamışdı.

Özü də ən maraqlısı da odur ki, bütün bu əsassız yoxlamalar Sizə istinadən aparılır. Dediklərimi vergilər nazirinin 22 may 2000-ci il tarixdə ANS-ə ünvanlanmış məktubu da təsdiqləyir. Məktubda Sizin fərmanınızın mənasının təhrif edilməsi gün kimi aydındır. Yəni Siz fərmanda yazmısınız ki, əngəl törədilməsin, qoyun camaat işləsin, onları yormayın. Biz isə Fazil müəllimə məktub yazıb soruşmuşuq ki, niyə axı siz bizi belə müntəzəm şəkildə yoxlayırsınız, işləməyə qoymursunuz? O da Sizin fərmanınızdan çıxarışlar göndərib ki, biz bu yoxlamaları hörmətli Prezidentimizin fərmanı əsasında aparırıq.

**Heydər Əliyev:** Deyirsiniz ki, o, fərmanı təhrif eləyir?

**Vahid Mustafayev:** Bəli, cənab Prezident...

**Heydər Əliyev:** Əgər fərmanı təhrif edirsə, sən niyə deyirsən ki, mənə istinad edir?

**Vahid Mustafayev:** O, Sizə istinad edir.

**Heydər Əliyev:** Nəyə istinad edir, fərmana istinad edir.

**Vahid Mustafayev:** Sizin fərmanınıza.

**Heydər Əliyev:** Fərmanda yazılıb ki, yoxlama olmalıdır?

**Vahid Mustafayev:** Yox.

**Heydər Əliyev:** Bəs onda niyə deyirsən?

**Vahid Mustafayev:** Mən Sizə göstərirəm ki, vəziyyət necədir.

**Heydər Əliyev:** Vəziyyəti de, amma demə ki, mənə istinad edirlər. De ki, bundan sui-istifadə edirlər.

**Vahid Mustafayev:** Sui-istifadə edirlər. Amma son nəticədə Sizin fərmanınıza istinad edirlər, yəni onu təhrif edirlər. Cənab Prezident...

**Heydər Əliyev:** Beləliklə, siz məni qızışdırmaq istəyirsiniz.

**Vahid Mustafayev:** Xeyr. Mən üzr istəyirəm, təəssüf ki, bəzi dövlət məmurları arasında, ümumiyyətlə, belə mənfi ənənə yaranıb ki, respublikada görülən müsbət işlərdən söz düşəndə özlərini, iş qalmaqallı, çətin məsələlərə gəlib çatanda Sizi irəli verirlər.

**Heydər Əliyev:** Bunda bir az həqiqət var. Heç olmasa, bunu düz deyirsən.

**Vahid Mustafayev:** Lakin yaddan çıxarmaq lazım deyil ki, biz informasiya vasitəsi olaraq hər bir məmur haqqında kifayət qədər maraqlı faktlara malikik və yaxşı biliklərlə dolğunuq.

Çox sağ olun, diqqətinizə görə minnətdaram.

* * *

## «GÜZGÜ» QƏZETİNİN BAŞ REDAKTORU SƏTTAR ZƏRDABİNİN ÇIXIŞI

Səttar Zərdabi çıxışına başlamazdan əvvəl dövlətimizin başçısına «Güzgü» qəzetinin «Dünyaya açılan pəncərə» adlı xüsusi buraxılışını təqdim edərək dedi:

– Möhtərəm Prezident, mənə elə gəlir ki, Sizə bugünkü hədiyyələrdən ən qiymətlisi budur.

**Heydər Əliyev:** Mənə bu gün hədiyyə verməyiblər axı.

**Səttar Zərdabi:** Bilirəm ki, olmalıdır.

**Heydər Əliyev:** Mənə bu gün birinci hədiyyəni sən vermisən.

**Səttar Zərdabi:** Əvəzində də heç nə istəmirik.



**Heydər Əliyev:** Çox sağ ol, təşəkkür edirəm. Yaxşı hədiyyədir.

**Səttar Zərdabi:** Mənə elə gəlir ki, o Sizə çatmış olar.

**Heydər Əliyev:** Ola bilər, çatıb.

**Səttar Zərdabi:** Pis şey olanda tez çatır, amma yaxşı şey çatmır.

**Heydər Əliyev:** Ola bilər, çatıb.

**Səttar Zərdabi:** Az qalırlar ki, mərdi qova-qova namərd eləsinlər. Elə mənim bu gün dediyim də bu mövzu olacaqdır. Əvvəla, verdiyiniz fərmana görə Həsən bəy Zərdabi adına Dünya Azərbaycanlılarının Xeyriyyə Cəmiyyəti adından Sizə öz minnətdarlığımı bildirirəm. Bu, çox dəyərli, böyük, tarixi bir fərmandır. O fərmanın da işığına bu gün toplaşmışıq.

Möhtərəm Prezident, Siz yaxşı qeyd elədiniz ki, bu gün bütün gününüzü mətbuat işçilərinə sərf eləmisiniz. Bizim milli mətbuatımızın 125 illiyidir. Bu milli mətbuatın da bünövrəsi «Əkinçi» adlanan bir qəzetlə başlayıbdır. Bu «Əkinçi» qəzeti harada çıxıb, onun ocağı, redaksiyası harada olubdur – bu gün bu bilinmir ki, aparıb oraya bir lövhə vuraq.

**Heydər Əliyev:** Tapın.

**Səttar Zərdabi:** Tapa bilmirik.

**Heydər Əliyev:** Tapın, biz də lövhəni vuraq. İndi mən nə edim? Gedim axtarım, yaxud kiməsə göstəriş verməliyimsə, buyur, de.

**Səttar Zərdabi:** Bizdə satirik qəzetdə bir karikatura getmişdi: biri yer şumlayır, bel sınır. Deyir ki, ay Allah, Heydər Əliyevin canını sağ elə, bizə kömək eləsin. Biri maşını aşırıb, deyir ki, ay Allah, Heydər Əliyevin canını salamat elə ki, bizə kömək eləsin. Biri çıxıb ağaca, düşə bilmir, deyir ki, ay Allah, Heydər Əliyevə kömək elə, gəlib bizə kömək eləsin. Biz beləyik.

**Heydər Əliyev:** Həsən bəy Zərdabinin «Əkinçi» qəzetinin çıxdığı yeri tapa bilmirsiniz?

**Səttar Zərdabi:** Tapa bilmirik. Tədqiqatçılar məşğul olmayıblar.

**Heydər Əliyev:** Heydər Əliyevin canına dua elə ki, «Əkinçi» qəzetinin çıxdığı yeri tapsın.

**Səttar Zərdabi:** Biz bu barədə Prezident Aparatına dəfələrlə müraciət etmişik, amma elə bil ki, dərin quyuya daş atırıq. Hansı

mətbuat orqanında yazırıq, altı ay, bir il gözləyirik, nəticəsi olmur. Axı nə qədər gözləmək olar?

**Heydər Əliyev:** Yaxşı, onda mən belə anladım. Mən göstəriş verirəm bizim Prezident Aparatının şöbə müdirinə – Azərbaycanda bütün tarixçiləri, başqa mütəxəssisləri cəlb eləsinlər və ciddi axtarış aparsınlar, «Əkinçi» qəzetinin çıxdığı yeri tapsınlar.

**Səttar Zərdabi:** Çox sağ olun. Görəsən tapa biləcəklərmi? Həsən bəy Zərdabi Bakıda harada yaşayıb – bilən yoxdur. Bilən olsaydı, oraya bir lövhə vurardıq. Deyirik ki, Həsən bəy milli mətbuatımızın banisidir. Bəs o, harada yaşayıbdır? Oraya bir lövhə vurmaq, ev muzeyi yaratmaq lazımdırmı?

Bizim mənəviyyatımızın pasportu olan Fəxri Xiyabanda uzun müddət idi ki, Həsən bəy Zərdabinin qəbri uçub tökülürdü. Axırı mən maşınımı, evimi satmışam, uzun müddətdir yataqxanada qalıram.

**Heydər Əliyev:** Qəbir yaxşı vəziyyətdədir ki.

**Səttar Zərdabi:** Onu yaxşı vəziyyətə mən salmışam, heç kim salmayıbdır.

**Heydər Əliyev:** Sən salmısan?

**Səttar Zərdabi:** Bəli, mən salmışam, maşınımı, evimi satmışam.

**Heydər Əliyev:** Bax, onda səhv eləmisən. Gərək sən mənə müraciət edəydin, mən bunu dərhal həll edərdim.

**Səttar Zərdabi:** Çox eləmişəm. Yazdıqlarım Sizə çatmır. Bura qırx arşın quyudan dərindir, mən açığını deyirəm.

**Heydər Əliyev:** Mən Həsən bəy Zərdabinin qəbrini yaxşı tanıyıram. Mən vaxtaşırı oraya gedirəm və o qəbri görürəm. Ancaq mən bilmirdim ki, o, yaxşı vəziyyətdə deyildir.

**Səttar Zərdabi:** Tamamilə uçub böyrü üstə dayanmışdı.

**Heydər Əliyev:** İndi orada bir iş görmək lazımdır, ya yox?

**Səttar Zərdabi:** Mən oranı bir babat düzəltmişəm. Yaxşıdır, qara mərmərdəndir. Çox sağ olun. Cəmiyyətimizə kömək eləyin, bu cəmiyyət birbaşa dövlətə xidmət edir. Kömək eləyən, qeydinə qalan yoxdur, hətta keçirdiyimiz tədbirləri də reklam edə bilmirik. Biz buraya, Sizin qəbulunuza düşə, dərdimizi deyə bilmirik. Altı ay, bir il dözür, axırı yoruluruq. Çox pis vəziyyətdir.

**Heydər Əliyev:** Ay qardaş, bilirsən, mən hər bir məktubu oxuya bilmirəm. Aparatım var, gərək onlar oxusunlar, mənə desinlər.



**Səttar Zərdabi:** Cənab Prezident, biz fəxr edirik ki, Prezidentimiz uzaqgörən Prezidentdir. Arzu edirik ki, bizim Prezidentimiz yaxını da görsün. Axı bizim ümidimiz Sizsiniz.

**Heydər Əliyev** (zarafatla): Səni görürəm. Burada oturanları da görürəm.

**Səttar Zərdabi:** Biz nə edə bilərik? Elə bilirik ki, Sizdən böyük adamımız yoxdur. İlk dəfə «göydə Allah, yerdə Heydər Əliyev» deyən adamlardan olmuşam. Mən «Heydər bayrağının altından keçək» şerinin müəllifiyəm. Mərdi qova-qova namərd eləyirlər. Ümumiyyətlə, işləyə bilmirik.

**Heydər Əliyev:** Yaxşı, indi bir az konkret danış, görüm dərdin nədir?

**Səttar Zərdabi:** Mən dərdimi yazıb Əli müəllimə verəcəyəm.

**Heydər Əliyev:** Hamısını yaz ver, onları da həll edəcəyik.

**Səttar Zərdabi:** Mənim dərdim çoxdur. Əgər hamısını danışsam, onda gərək buradakı gözəl əhval-ruhiyyəni çevirək.

**Heydər Əliyev:** Yaz ver, hamısını həll eləyək.

**Səttar Zərdabi:** Sizdən artıq dərəcədə xahiş edirəm. Sağ olun, minnətdaram.

* * *

## AZƏRBAYCAN JURNALİSTLƏR BİRLİYİNİN SƏDRİ HACI HACIYEVİN ÇIXIŞI

– Hörmətli cənab Prezident!

Mən uzun danışmaq istəmirəm. Mətbuatın bir çox problemləri, xüsusən iqtisadi vəziyyəti ilə bağlı Sizdən bir-iki şeyi xahiş etmək istəyirəm.

Birincisi, arzu edərdik ki, redaksiyaların yerləşdiyi binalar onların balansına verilsin. Yəni onlar «Azərbaycan» nəşriyyatına kirayə haqqı verməsinlər. Siz yaxşı bilirsiniz ki, vaxtilə o nəşriyyatın binası bizim qabaqcıl qəzetlərin hesabına tikilibdir. Sizin vaxtınızda tikilmişdir.

**Heydər Əliyev:** O vaxtkı qəzetlərin hesabına yox. O binanı mən tikdirmişəm, özü də dövlətin hesabına tikilmişdir. Hansı qabaqcıl qəzet?..

**Hacı Hacıyev:** Onlar çox pul qazanırdılar. Məsələn, «Kommunist» qəzeti yarım milyon tirajla çıxırdı. «Bakinski raboçi»nin tirajı

da böyük idi. Onlar gəlir götürürdülər. Mən Sizdən rica edirəm ki, redaksiyaların işlədiyi otaqları öz ixtiyarına verəsiniz. Necə ki, AzərTAc haqqında qərar qəbul edəndə onu etdiniz. İndi o otaqlar AzərTAc-ın mülkiyyətidir.

Bunu «Xalq qəzeti» üçün də tətbiq etmək olar. İndi onlar Dövlət Əmlakı Nazirliyinə, rayon mənzil idarəsinə kirayə haqqı verirlər. Məsələn, «Azadlıq» qəzetinin olduğu bina, yaxud da başqa qəzetlərin redaksiyalarının yerləşdiyi otaqlar.

İkincisi, bizim fotojurnalistlərin yaradıcılıq emalatxanaları var. Sizdən xahiş edərdim ki, həmin emalatxanalar yerləşən otaqlar da onlara verilsin. Eşitdiyimə görə, bu barədə qərar çıxmalıdır.

Üçüncüsü, xarici ölkələrdə olduğu kimi, bizdə də ayrıca komissiya yaradılsın ki, məsələn, Prezident Aparatında, Milli Məclisdə işləyən fəal jurnalistlərə xüsusi kartlar verilsin. Məsələn, Türkiyədə sarı kart var. Onu verməyin çox ciddi şərtləri var və bu şərtlərə əsasən həmin kartların sahibləri mehmanxanada qalmaq, təyyarə, başqa nəqliyyat növləri ilə gedib-gəlmək xərclərinin əlli faizini verirlər. Bu təcrübəni öyrənib bizdə də hər mətbuat orqanından bir-iki nəfər fəal jurnalistə belə kartlar vermək yaxşı olardı.

Diqqətinizə görə sağ olun.

* * *

**N a t ə v a n  A r i f q ı z ı** *(«Son söz» qəzetinin baş redaktoru)* : «Heydər Əliyev sülhün carçısıdır» və «Əsrə bərabər 30 il» kitablarını dövlətimizin başçısına təqdim edərək dedi:

– Cənab Prezident, mən «Heydər Əliyev sülhün carçısıdır» kitabımı Beynəlxalq Atatürk sülh mükafatı almağınız münasibətilə hazırlamışdım, amma Sizə təqdim edə bilməmişdim. «Əsrə bərabər 30 il» kitabını isə Sizin ad gününüz münasibətilə hazırlamışdım. Biz istəyirdik ki, bu kitabla əlaqədar qəzetimizin xüsusi nömrəsini buraxaq, amma imkan olmadı.

Cənab Prezident, mən bu kitablarımı Sizə təqdim etməkdən şərəf duyuram.

**H e y d ə r  Ə l i y e v :** Çox sağ olun, təşəkkür edirəm.

**N a t ə v a n  A r i f q ı z ı :** Çox sağ olun, Sizə minnətdaram.

* * *



## «HƏYAT» QƏZETİNİN BAŞ REDAKTORU SABİR HÜSEYNOVUN ÇIXIŞI

– Hörmətli Prezident!

Bildiyiniz kimi, müstəqilliyini yenicə əldə etmiş Azərbaycan Respublikasının siyasi, iqtisadi və ictimai həyatında böyük islahatlar gedir. Bu islahatların daha da sürətləndirilməsi eyni zamanda mətbuatın və kütləvi informasiya vasitələrinin bu mühüm məsələyə münasibətindən çox asılıdır. Bu da bir həqiqətdir ki, ölkəmizin gələcək taleyi, onun sosial-iqtisadi yüksəlişi aqrar sektorda bu gün aparılan islahatların yüksək səviyyədə təşkil edilməsindən, torpağın əsas sahibi olmuş kəndlilərin fermer təsərrüfatlarında işə həvəsləndirilməsindən, onların yeni təsərrüfatçılıq metodları ilə silahlandırılmasından çox asılı olacaqdır.

Mətbuat tariximizin ilk səhifələrini yazmış «Əkinçi»nin ənənələrini davam etdirmək 1922-ci ildən işıq üzü görmüş «Kəndçi» qəzetinə nəsib olmuşdur. Sonrakı illərdə bu qəzet «Kəndli», «Azərbaycan kolxozçusu», «Sovet kəndi», "Bərəkət" və "Həyat" adları ilə çıxmışdır. Lakin "Əkinçi"dən «Həyat»a qədər 125 illik bir yol keçən, kəndlə və aqrar məsələlərlə əlaqədar zəngin təcrübəyə, ənənələrə malik olan, Azərbaycana Sizin rəhbərlik etdiyiniz illərdə gündəlik çıxan «Sovet kəndi», indiki «Həyat» qəzeti ciddi maliyyə çətinlikləri qarşısında qalmışdır. Belə bir vəziyyət isə aqrar sahənin yeganə qəzeti olan bu mətbuat orqanına müasir mərhələdə aqrar siyasətin təbliğində fəallıq göstərməyə imkan vermir.

Möhtərəm Prezident!

Biz «Əkinçi» qəzetinin 125 illik yubileyini nəzərə alaraq, «Həyat» qəzeti redaksiyasının maddi-texniki bazasının möhkəmləndirilməsinə həmişəki kimi qayğı göstərəcəyinizə qəlbən inanırıq.

Möhtərəm Prezident, «Həyat» qəzeti redaksiyası Ziyalı Qadınlar Birliyi ilə «Əkinçi»dən «Həyata» kitabını hazırlamışdır. İcazə verin, həmin kitabı Sizə təqdim edim.

**H e y d ə r  Ə l i y e v :** Demək, belə çıxır ki, «Həyat» qəzeti «Əkinçi»nin varisidir?

**S a b i r  H ü s e y n o v :** «Əkinçi»nin ənənələrini davam etdirir və onun varisidir.

Mən bu kitabı Sizə təqdim etməkdən böyük şərəf duyuram.

**H e y d ə r  Ə l i y e v :** Çox sağ olun.

**Dilarə Hacıyeva** *(Ziyalı Qadınlar Birliyi sədrinin müavini)*: Cənab Prezident, mən bu kitabın tərtibatçısıyam.

**Heydər Əliyev:** Çox sağ olun. Təşəkkür edirəm.

* * *

## «ADDIM» QƏZETİNİN BAŞ REDAKTORU ANAR VƏZİROĞLUNUN ÇIXIŞI

– Cənab Prezident! Hörmətli həmkarlarım! Hamınızı bayram münasibətilə təbrik edirəm.

Cənab Prezident, mənim çıxış etmək fikrim yox idi. Bizə etdiyiniz iraddan sonra bu qərara gəldim. Yəni əvvəllər Siz bizi axtarmısınız, indi biz Sizi axtarırıq. Sizin sözünüzdə böyük həqiqət var.

Ola bilər, «Addım» qəzeti Prezident Aparatında, respublika səviyyəsində tanınmır. Amma «Addım» qəzeti 1990-cı ildən yol gəlir. Yadınızdadırsa, 1990-cı ildə yazıçıların qurultayında mən və bir də rəhmətlik Rəfiq Zəka Xəndan Sizə yaxınlaşdıq. O vaxt mən Sizə sual verdim ki, cənab Heydər Əliyev, eşitmişəm ki, Siz hakimiyyətə qayıtmaq istəyirsiniz? Siz cavab verdiniz ki, mən heç vaxt hakimiyyətə gəlmək istəmirəm.

Cənab Prezident, bu gün biz çox sevinirik ki, Siz hakimiyyətdəsiniz. Bu gün Sizin şəkillərinizi qəzetin birinci səhifəsində dərc edənlər deyirlər ki, Heydər Əliyevçiyik. Biz isə son vaxtlar Sizin şəkillərinizi qəzetimizə vermirik. Amma 1990-cı ildə şəxsən mən «Addım» qəzetinin birinci səhifəsində yazmışdım ki, «Mixaylo şəhərdədir», yəni Heydər Əliyev şəhərdədir. Bu gün üzr istəyərdim ki, o vaxt mən Sizi Mixayloya bənzətmişəm. Amma bu gün bir daha deyirəm ki, Siz həqiqətən Mixaylosunuz, ancaq onun taleyini Sizə arzulamazdım.

Cənab Prezident, bu gün mənim Sizdən heç bir xahişim və təmənnam yoxdur. Sadəcə, onu demək istəyirəm ki, bu gün biz hamımız yaxşı geyinirik, amma jurnalistikamızın vəziyyəti həddindən çox ağırdır.

Bu gün ola bilər ki, kimsə özünü siyasətə, kimsə şimallıya, kimsə cənubluya bağlayır. Amma bizim qəzet həmişə Sizin uğurlarınızdan yazır. Sözsüz ki, mən Sizin qəbahətlərinizi görə bilmərəm. Mən jurnalistəm, buna mənim mənəvi haqqım da yoxdur. Çünki mən ancaq gördüklərimi yaza bilərəm. Gördüklərim budur ki, müstəqil Azərbaycan Respublikası Avropa Şurasına üzv qəbul olundu və mən bu münasibətlə Sizə təbrik məktubu yazdım.



Sizi tənqid edənlər də çoxdur. Amma onu da deyim ki, jurnalistlər həmişə Sizinlə olub və olacaqlar. Yəni bu gün qınamayın ki, vaxtilə «Azadlıq» qəzeti və ya başqa qəzet Sizdən müsahibə almayıb. Mən bunu səmimi deyirəm ki, o qəzetlər var idi və Sizin haqqınızda yazırdılar. Bir faktı mən Əli Həsənova çatdırıram ki, 1990-cı ildə, Vəzirovun hakimiyyəti dövründə mənə dedilər ki, Heydər Əliyevə yaxınlaşsan, bunu videokamera vasitəsilə çəkəcəklər. Bildirdim ki, mən jurnalistəm, bu mənim borcumdur. Mən Sizə yaxınlaşdım, görüşdüm və «Addım» qəzetinin birinci səhifəsində yazdım ki, «Mixaylo şəhərdədir», yəni Heydər Əliyev şəhərdədir.

Mənim Sizdən bir xahişim var. Biz bugünkü günə əzilə-əzilə gəlib çatmışıq. Biz on ildir ki, bu yolla gəlirik. Mən bu girəvəni əldən verməyəcəyəm. Deyirlər ki, insan yol verdiyi səhvi ikinci dəfə təkrar edirsə, demək, günah onun özündədir. Mən də bu gün ikinci dəfə səhv etsəm, özümü uduzmuş hesab edəcəyəm.

Cənab Prezident, mən o vaxt Sizinlə şəkil çəkdirə bilmədim, çünki yanımızda şəkilçəkən yox idi. Biz bu gün Sizinlə şəkil çəkdirmək istəyirik.

«Addım» qəzeti on ildir addım-addım yol gəlir, ancaq hələ ən böyük addımını ata bilməyibdir, nəyə görə? Mən Bakının Nizami rayonunda yaşayıram. Dəfələrlə Sizə müraciətlər göndərildi, şükür olsun ki, rayon İcra hakimiyyətinin başçısı dəyişdirildi. Bu həm Sizin, həm də «Addım» qəzetinin qələbəsi idi. Cənab Prezident, Siz kimin yaxşı, kimin pis işlədiyini çox gözəl bilirsiniz. Mən onu da kəşf etmişəm ki, Siz bələlərini vəzifədə saxlayıb, sonra birdən aşırırsınız. Mən bunu alqışlayıram.

Yenə də deyirəm, mən 18 ildir ki, Nizami rayonunda yaşayıram. Bizim rayon çox bərbad gündə idi. Bu gün fəxrlə deyirəm ki, vəzifəyə yeni təyin etdiyiniz Eldar Əzizov Sizin sərəncamlarınızı cavan kadr kimi layiqincə yerinə yetirir. Mən fəxr edirəm ki, bizim rayona Eldar müəllim rəhbərlik edir. O, rayonumuzun ərazisini qısa müddətdə zibilliklərdən təmizləyibdir.

Cənab Prezident, jurnalistlər həmişə Sizi yüksək qiymətləndirir. Hamı bilir ki, istər yüz aparat, milyon baş nazir işləsin, dəxli yoxdur, Siz istəsəniz, jurnalistlər xoşbəxt olsun – olacaqdır.

Ötən bu on ildə mənim Sizdən bircə xahişim var. Bu, dəryada damla qədər kiçik bir məsələdir. 8-ci kilometr qəsəbəsində mənim bir yerim var. Mən həmin yeri on ildən bəridir ki, rəsmiləşdirə bilmirəm.

Prezidentin mətbuat xidməti, Prezidentin İcra Aparatının ictimai-siyasi şöbəsinin müdiri Əli Həsənov sağ olsunlar ki, mən bugünkü görüşdə iştirak edirəm. Amma mən Bakı şəhər İcra hakimiyyətinin başçısı Rəfael Allahverdiyevin qəbuluna hələ də düşə bilmirəm. Bu çıxışımla əlaqədar yəqin ki, bundan sonra da düşə bilməyəcəyəm və hətta indiyə qədər rəsmiləşdirə bilmədiyim yerimi də əlimdən alacaqdır.

**Heydər Əliyev:** İndi onun qəbuluna düşə biləcəksən.

**Anar Vəziroğlu:** Cənab Prezident, bütün jurnalist ordusu və «Addım» qəzetinin 12 nəfərlik redaksiya kollektivi adından Sizə təşəkkür edirəm.

Ola bilsin, sabah müxalifət mətbuatı məni «döyəcək» ki, sən o cür çıxış etdin. Amma mən yeganə baş redaktoram ki, işə yeni qəbul etdiyim hər bir əməkdaşa başımın üzərinə vurduğum şəklinizi göstərib deyirəm ki, o kişidən başqa kimi istəyirsiniz «vurun». Bildirirəm ki, Milli Məclisin sədrini də, daxili işlər nazirini də, prokuroru da «vurun», amma bu kişini «vurmayın». Mən Sizə bunu açıq deyirəm.

Təkrar edirəm, Heydər Əliyevin şəklini, ola bilər, kimsə qəzetin birinci səhifəsinə çıxarır və deyir ki, mən Heydər Əliyevçiyəm. Amma mən belə etmirəm. Düşünürəm ki, hər kəs öz işini sakitcə görməlidir.

Cənab Prezident, mənə vaxt ayırdığınıza görə Sizə bir daha təşəkkür edirəm. Mən bu çıxışıma əvvəlcədən hazırlaşmamışdım. Ola bilər, əvvəlcədən hazırlaşsaydım, daha rəndələnmiş sözlər deyə bilərdim. Mən bu gün Sizin iradınızdan sonra çıxış etməyə məcbur oldum. Sağ olun ki, mənə söz verdiniz.

* * *

## BDU-nun JURNALİSTİKA FAKÜLTƏSİNİN MÜƏLLİMİ AYNUR BƏŞİRLİNİN ÇIXIŞI

– Möhtərəm cənab Prezident! Hörmətli həmkarlarım!

Hamınızın bayramını təbrik edirəm. Çox təəssüf hissi keçirirəm ki, Bakı Dövlət Universitetinin jurnalistika fakültəsinin müəllimlərindən burada məndən başqa heç kəs yoxdur. Ona görə də üzərimə böyük məsuliyyət götürüb, mənim müəllimim olmuş müəllimlər adından çıxış etmək və bir sıra təkliflərimi söyləmək istəyirəm.

Əvvəlcə onu bildirim ki, BDU-nun jurnalistika fakültəsində radio-jurnalistika bölməsi çoxdan fəaliyyət göstərir.



Təklifim nədən ibarətdir? Heç kim və heç nə, o cümlədən heç bir qurum, idarə, zümrə, şübhəsiz ki, təsadüflərdən xali deyil. Amma bu təsadüfləri azaltmaq da, çoxaltmaq da olar. Jurnalistikanın hazırkı bəlası odur ki, bayaq deyildiyi kimi, bu sahədə keyfiyyətsiz kadrların sayı xeyli artıb.

Yeri gəlmişkən, mən bir misal çəkmək istəyirəm. Əgər biz yaxınlıqdakı İstiqlaliyyət küçəsi ilə Mərkəzi Univermağa tərəf getsək, oradakı binalardan birinin önünə vurulmuş elanı görərik. Həmin elanda yazılıb ki, burada aşpaz, bərbər, kosmetoloq və jurnalist kursları açılmışdır. Guya burada iki ay müddətində jurnalist hazırlanır. Əlbəttə ki, bu tamamilə başqa bir bəladır.

Bakı Dövlət Universitetinin jurnalistika fakültəsi uzun illərdir ki, fəaliyyət göstərir. Bu fakültənin borcudur ki, ölkəyə keyfiyyətli və yüksək ixtisaslı kadrlar versin. Bəs nə üçün indi bu yüksək ixtisaslı kadrlar yoxdur?

Bu salonda əyləşənlərin böyük əksəriyyəti yəqin ki, BDU-nun jurnalistika fakültəsini bitiriblər. Düşünürəm ki, onların arasında test üsulu ilə imtahan verib bizim fakültəyə qəbul olunmuş, təhsil almış, jurnalist ixtisasına yiyələnmiş adamlar çox azdır və yaxud yoxdur. Demək istəyirəm ki, test üsulu tətbiq edilməmişdən əvvəl kim jurnalistika fakültəsinə gəlirdisə, onların hamısı əvvəlcə müxtəlif mətbuat orqanlarında çıxış edirdi, sonra bu fakültəyə qəbul olunurdular. Bu, məsələnin bir tərəfidir. İkincisi isə, onlar müsahibədən keçirdilər, üçüncüsü, yaradıcılıq imtahanı verirdilər. Çünki arxitektor, aktyor, bəstəkar, pianoçu kimi, jurnalistlik də yaradıcı bir peşədir. Bu nə deməkdir? Bu o deməkdir ki, sənin yazmaq qabiliyyətin, qələmin ya var, yaxud da yoxdur. Bax, jurnalistika fakültəsi abituriyentlərin qələmini yoxlamaq üçün qəbul imtahanından əvvəl sınaq yaradıcılıq imtahanı təşkil edirdi. Bu sınaq yaradıcılıq imtahanından keçən abituriyent ümumi qaydada qəbul imtahanı verirdi.

Bəs test üsulu tətbiq ediləndən sonra vəziyyət necədir? İndi vəziyyət belədir ki, hüquqşünas olmaq istəyən abituriyent vərəqədə seçdiyi ixtisaslar siyahısında 25-ci yerdə jurnalistikanı göstərir. Axı hüquqşünas olmaq istəyən gəncin iddiası ilə jurnalist olmaq istəyənin iddiası arasında çox böyük fərq vardır. Məsələn, mən müəllim kimi auditoriyaya girəndə hüquqşünas olmaq iddiası ilə gəlib jurnalistika fakültəsinə düşmüş tələbələrlə çox çətinliklə dil tapıram. Çünki bu cür

gənclərdə baş tutmamış bir prokuror iddiası var. Onlarla necə söhbət edəsən? Belə tələbələr çəkinmədən, açıq surətdə bildirirlər ki, biz onsuz da jurnalist olmayacağıq, gəlib bu fakültəyə düşmüşük, dörd ili birtəhər başa vuracağıq. Təəccüblüdür ki, belələri hətta gəlib bəzən magistraturaya da çıxırlar.

Bakı Dövlət Universitetinin rektorluğu jurnalistika fakültəsinin dekanlığı ilə birlikdə Tələbə Qəbulu üzrə Dövlət Komissiyasına bir müraciət göndərdilər ki, jurnalist olmaq istəyənlər üçün testdən əvvəl sınaq yaradıcılıq imtahanı bərpa edilsin. Yəni biz istəyirik ki, sınaqdan keçən, yaradıcılıq qabiliyyəti, necə deyərlər, qələmi olan gənclər gəlib jurnalistika fakültəsində təhsil alsınlar. Bu cür sınaqdan keçməyən gənclərlə beş il vaxt çürütməyimizin heç bir mənası yoxdur.

Acınacaqlı cəhət budur ki, jurnalistika fakültəsinə təsadüfən gəlib çıxmış gənclər, necə deyərlər, əllərinə qələm alıb, nə istəyirlər onu da yazırlar. Onların səviyyəsizliyi istər-istəməz jurnalist adına yaraşmayan hərəkətlərə gətirib çıxarır.

Cənab Prezident, bu məsələ bu il öz həllini tapmadı. Amma bunun gələn ili, gələcəyi var. Mənim xahişim ondan ibarətdir ki, bu məsələyə yüksək səviyyədə baxılsın, yaradıcı bir peşə olan jurnalistikanı seçmiş abituriyentlərin sınaq yaradıcılıq imtahanı verdikdən sonra bu fakültəyə qəbul olunması məsələsi həll edilsin.

Möhtərəm cənab Prezident, mən digər bir məsələ barədə də danışmaq istəyirəm. Bakı Dövlət Universitetinin kompüter mərkəzi vardır. Biz internetdə erməni saytlarını tapmışdıq və Prezidentin İcra Aparatının ictimai-siyasi şöbəsinin müdiri Əli Həsənova bu barədə məktub göndərmişdik. Bu gün burada deyildi ki, Redaktorlar Şurası Dağlıq Qarabağ məsələsi ilə əlaqədar internetdə sayt açmaq fikrindədir. Mənim fikrimcə, Bakı Dövlət Universitetinin kompüter mərkəzinin – orada uşaqlar ürəkdən, təmənnasız işləyirlər və bu saytları tapırlar – jurnalistika fakültəsinin və Redaktorlar Şurasının bu sahədəki səylərini beyin mərkəzi kimi birləşdirib maliyyələşdirmək lazımdır.

Cənab Prezident, bilmirəm, belə bir fürsət nə vaxtsa mənim əlimə bir də düşəcək, yoxsa yox. Yeri gəlmişkən onu da bildirim ki, mən bu sözü Sizə çoxdan demək istəyirdim. Sadəcə, görünür, bu günün qismətinə düşdü. Mən 1994-cü ildə Bakı Dövlət Universitetini bitirdim və 1995-ci ildən başlayaraq, təxminən həmişə Sizinlə birlikdə işlədim. Mənə elə gəlir ki, Bakı Dövlət Universitetindən sonra bir jurnalist kimi mənim ikinci universitetim və ən böyük müəllimim Siz oldunuz. Ona görə də mən Sizə təşəkkür edirəm, çox sağ olun.



**H e y d ə r Ə l i y e v :** Sağ ol.

Daha kim danışmaq istəyir? Buyurun, siz gəlin.

* * *

## «QARABAĞ» QƏZETİNİN BAŞ REDAKTORU ÇİNGİZ İSMAYILOVUN ÇIXIŞI

– Cənab Prezident, 1990-cı ilin iyul ayında Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin Bürosu Dağlıq Qarabağda yaşayan azərbaycanlıların mətbu orqanı kimi «Qarabağ» qəzetini təsis etdi. Bu o dövrə təsadüf etdi ki, həmin qəzetə rəhbərliyi o vaxt imperiya ənənələrinə sadiq olan Ayaz Mütəllibov Rusiyanın canişini Viktor Polyaniçkoya tapşırdı. O vaxt Dağlıq Qarabağ üzrə Respublika Təşkilat Komitəsi yaradıldı və bu qəzet həmin təşkilatın orqanı kimi fəaliyyətə başladı.

1989-cu ilə qədər mən Dağlıq Qarabağ Vilayət Partiya Komitəsində işləyirdim. 1990-cı ildə «Qarabağ» qəzeti təsis olunanda məni baş redaktor təyin etdilər. Bu hadisələrin üstündən il yarım keçdi. Biz Dağlıq Qarabağda baş verən hadisələri, həmin dövrdə respublika rəhbərliyinin xəyanətkar siyasətini görürdük. Bunu bütün Azərbaycan xalqı görürdü. Biz dözə bilmədik, 1991-ci il noyabrın 24-də – həmin vaxt redaksiyanın bir neçə şöbəsi Xankəndində, bir şöbəsi də Ağdam şəhərində yerləşirdi – bəyanat qəbul etdik. Bildirdik ki, biz belə bir xəyanətkar quruma qulluq göstərmək istəmirik, onun orqanı olmaqdan imtina edirik. Bu imtina ilə biz dövlət himayəsindən, qayğısından da uzaq düşdük. O vaxta qədər bizim bütün ehtiyaclarımız dövlət tərəfindən təmin olunurdu.

«Qarabağ» qəzeti bu yaxınlarda 10 illik yubileyini çox sakit tərzdə qeyd etdi. Çünki Qarabağın böyük bir hissəsi işğal altındadır. 10 ildir ki, «Qarabağ» qəzeti bu işğaldan, erməni separatçılarının Azərbaycan xalqının başına gətirdiyi müsibətlərdən, Göyçənin, Zəngəzurun faciələrindən, üzləşdiyimiz bütün hadisələrdən yazır.

«Qarabağ» qəzeti öz səhifələrində igid oğlanlarımızın, şəhidlərimizin xatirəsini əbədiləşdiribdir. Qəzetimiz xüsusilə 1993-cü ildən bəri Qarabağa qayıdışa yaranmış böyük ümiddən yazır.

Cənab Prezident, Siz Azərbaycan Respublikasına yenidən rəhbərlik edəndən, atəşkəs rejimi yaranandan, Qarabağın işğal olunmuş torpaqla-

rının azad olunması uğrunda çox böyük mübarizəyə başlayandan sonra «Qarabağ» qəzeti sabaha ümidlə baxır və ümidlə yazır.

Hörmətli cənab Prezident!

1998-ci il oktyabrın 8-də prezident seçkilərinə üç gün qalmış Siz Ağdamın Quzanlı kəndinə gəldiniz. Mən və qəzetimizin əməkdaşları orada iştirak edirdik. Həmin gün yağış yağırdı, çox çiskinli bir hava idi. İstədilər çətir düzəltsinlər, Siz buna etiraz etdiniz ki, ehtiyac yoxdur. Orada Sizi çox böyük insan kütləsi gözləyirdi. Özünüz onların Sizə məhəbbətinin şahidi oldunuz. Yerindən-yurdundan didərgin düşmüş həmin insanlar üç gündən sonra keçirilən prezident seçkilərində öz sözlərini, Sizə olan məhəbbətlərini ifadə etdilər. Hörmətli Prezident, onlar Sizə səs verdilər və Siz Prezident seçildiniz.

Mən o vaxt orada bir möcüzə gördüm. İstəyirəm ki, həmin möcüzə haqqında burada da danışım, mənim həmkarlarım da bilsinlər. Cənab Prezident, Siz o vaxt orada çıxış edəndə əlinizi Şuşaya tərəf uzadaraq dediniz ki, Şuşasız, Ağdamsız, ümumiyyətlə, Qarabağsız Azərbaycan yoxdur. Sizin bu sözləriniz alqışlarla qarşılandı. Bayaq mən dedim, həmin gün çiskin yağış yağırdı. Siz bu sözləri deyəndə buludların arasından günəş göründü. Oraya toplaşan insanların hamısı bunu gördü. Qəzetimizin əməkdaşları növbəti nömrəmizdə bu görüş haqqında material hazırlayanda həmin möcüzəli hadisə barədə də yazdılar.

Cənab Prezident, mən Sizə günəş qədər ömür arzulayıram. Mən işğal olunmuş bütün torpaqlarımızın azad ediləcəyinə o günəşə inandığım qədər inanıram. İnanıram ki, respublikada heç kimin, xüsusilə də öz yurdundan-yuvasından didərgin düşmüş insanların istəyinə, arzusuna biganə qalmadığınız kimi, «Qarabağ» qəzetinin də taleyinə biganə qalmayacaqsınız. Çünki vaxtilə dövlətin təsis etdiyi bu qəzet doqquz ildir ki, ayrı-ayrı xeyirxah insanların köməyi nəticəsində ayda, üç ayda bir nömrə çıxmaqla mütəmadiliyini itiribdir.

Cənab Prezident, mənim həmkarlarım burada internet haqqında danışdılar. Çox sağ olsunlar. Redaktorlar Şurasının Dağlıq Qarabağla bağlı internetdə sayt yaratmaqla Azərbaycanın, Qarabağın reallığını bütün dünyaya yaymaq istəməsi çox böyük və vacib işdir. «Qarabağ» qəzetinin arxivlərində elə materiallar var ki, onlar dünya oxucusu üçün həqiqətən də sensasiya xarakterli xəbərlər ola bilər.

Cənab Prezident, işğal olunmuş Qarabağ torpaqlarını azad etmək uğrunda Sizin apardığınız bu böyük mübarizəni özündə əks etdirən mate-



rialları qəzetimizin vaxtında çıxmaması üzündən həftədə, ayda, iki ayda bir dəfə oxucuya çatdırmaq qəzetçilik deyil. Bu, «Qarabağ» qəzetinin taleyinə yazılmış qara bir yazıdır. Mən Sizdən çox xahiş edirəm, əgər mümkündürsə, imkan olarsa, «Qarabağ» qəzetinə dövlət himayəsini bərpa edəsiniz. Çox sağ olun, minnətdaram.

**H e y d ə r  Ə l i y e v :** Əli Həsənov, sən bu barədə mənə məruzə edərsən. Bir qız çıxış etmək istəyirdi. Buyurun.

* * *

## «FAKTOR» QƏZETİNİN BAŞ REDAKTORU FİRUZƏ ƏLİMƏMMƏDOVANIN ÇIXIŞI

– Hörmətli cənab Prezident, mənə çıxış üçün söz verdiyinizə görə sağ olun.

Mən çıxış etməyə əvvəlcədən hazırlaşmamışdım. Amma çıxış etməyə məcburam. Nəyə görə? Burada jurnalistlərin vəziyyətindən, jurnalist peşəsindən uzaq olan şəxslərin bu addan istifadə etməsindən, hətta baş redaktor olmasından çox danışıldı.

Çox vaxt deyirlər ki, jurnalist fitri istedada malik olmalıdır, onun ali təhsil alması vacib deyildir. Fikrimcə, ola bilər, insanların 3-5 faizində fitri istedad olsun, yəni ona ali təhsil almaq lazım olmasın. Amma qalan 95 faiz məhz jurnalist ali təhsili almalıdır. Əgər o, 5 il Cahangir Məmmədlinin, Əliş Nəbilinin, Yalçın Əlizadənin, Famil Mehdinin mühazirələrini dinləməyibsə, jurnalistikanın, necə deyərlər, əlifbasını öyrənməyibsə, çox güman ki, mövzuya necə yanaşmağı, onu necə yazmağı bilməyəcəkdir.

Cənab Prezident, mən istərdim ki, Bakı Dövlət Universitetində jurnalistika fakültəsinə qəbul hər il yox, 2-3 ildənbir olsun. Çünki indi jurnalistlərin sayı çoxdur. Daha doğrusu, bu fakültəni bitirənlər çoxdur, amma əsl jurnalistlər çox az olur.

Aynur xanım doğru dedi ki, jurnalistika fakültəsinə daxil olmaq üçün İncəsənət Universitetində, Musiqi Akademiyasındakı kimi test imtahanından əvvəl gərək qabiliyyət imtahanı keçirilsin. Mən özüm də jurnalistika fakültəsinə 1992-ci ildə testlə imtahan verib girmişəm. Amma mən əvvəldən jurnalist olmaq arzusunda idim.

Bəli, vaxtilə jurnalistika fakültəsinə qəbul olunmaq üçün abituriyent bir il təcrübə toplamalı, qəzetlərdə çıxış etməli idi. Qabiliyyət imtahanı zamanı isə ona müəyyən mövzu verilirdi. Əgər abituriyent öz yaradıcılıq

imkanını nümayiş etdirə bilirdisə, o, sonra imtahanları davam etdirirdi. Aynur xanımın dediyi kimi, amma indi Bakı Dövlət Universitetinin digər fakültələrinə, hətta digər universitetlərə sənəd verən abituriyentlər topladıqları ballar hesabına gəlib jurnalistika fakültəsinə daxil olurlar. Bu da sonda jurnalistikamızın bərbad vəziyyətdə olmasına gətirib çıxarır.

Yeri gəlmişkən, onu da deyim ki, bir çox vəzifəli şəxslər jurnalistləri qəbul etməkdən imtina edirlər. Açıq surətdə deyirlər ki, bizi bezdirirsiniz, jurnalistlər həddindən artıq çoxalıbdır. Onlar nə üçün belə deyirlər? Çünki jurnalistikaya təsadüfi adamlar çox gəlir. Təəssüflə bildirməliyəm ki, indi «reket jurnalistlər»in də sayı xeyli artıbdır. Məhz belələrinin günahı üzündən biz jurnalistlər vəzifəli adamların qəbuluna düşə bilmirik, saatlarla telefonda, qapılarda qalırıq. Biz hər hansı bir materialla əlaqədar vəzifəli şəxsə müraciət edəndə cavab verir ki, mən jurnalistlərin məqsədini yaxşı bilirəm, hamınız bir cürsünüz. Dövlət məmuru bəzən bizi dinləmək belə istəmir ki, görüm axı bəlkə bu jurnalistin bir şikayəti var, yaxud, doğrudan da, vacib bir məsələ ilə əlaqədar qəbula düşməyə çalışır. Həmin dövlət məmuru bizə açıq bildirir ki, bu məsələ ilə mən məşğul olmuram, sən başqasına müraciət et.

Özümü təqdim etmədim, mən «Faktor» qəzetinin baş redaktoruyam. Bizim qəzet iki aya yaxındır ki, fəaliyyət göstərir.

**Heydər Əliyev:** Hansı qəzetin baş redaktorusunuz?

**Firuzə Əliməmmədova:** «Faktor» qəzetinin.

**Heydər Əliyev:** İndi o qədər qəzet var ki, bağışlayın, mən sizin qəzeti tanımıram.

**Firuzə Əliməmmədova:** Tanımamağınız labüddür. Çünki «Faktor» qəzeti iki aya yaxındır ki, fəaliyyətə başlayıbdır. Çox gözəl jurnalist kollektivi yığmışıq.

**Heydər Əliyev:** Bu, yeni qəzetdir?

**Firuzə Əliməmmədova:** Bəli. Kollektivimizin üzvlərinin hamısı ali təhsillidir, əvvəllər bir çox qəzetlərdə çalışıblar.

Cənab Prezident, mən vaxtınızı çox almadan jurnalistlərə bir sıra imtiyazlar verilməsi barədə də danışmaq istəyirəm. Əvvəllər müəllimlərə, təqaüdçülərə, jurnalistlərə şəhər nəqliyyatından pulsuz istifadə etmək barədə sarı vərəqə verilirdi. Jurnalistin maaşı o qədər çox deyil ki, şəhər nəqliyyatı vasitələrinə gün ərzində iki-üç dəfə 500-1000 manat pul versin. Axı o, hər gün neçə-neçə obyektdə olur. Mən xahiş edirəm ki, əgər imkan varsa, jurnalistin şəhər dövlət nəqliyyatı vasitələrindən pulsuz istifadə etməsinə kömək göstərəsiniz. Əgər bu bayram münasibətilə Siz bu imtiyazları bizə versəniz, jurnalistlər bunu sevinclə qarşılayarlar.



Cənab Prezident, çıxış üçün mənə söz verdiyinizə görə Sizə bir daha minnətdarlığımı bildirirəm. Sizə cansağlığı, uzun ömür arzulayıram. Çox sağ olun.

(Sonra Firuzə Əliməmmədova «Faktor» qəzetinin yeni nömrəsini dövlətimizin başçısı Heydər Əliyevə təqdim etdi.)

**Heydər Əliyev:** Bax elə birinci səhifədə yazmısan ki, «Qadınlar qul bazarında».

**Firuzə Əliməmmədova:** Bəli, cənab Prezident. Çoxlu qul bazarları var. Ona görə də biz bu yazını dərc etmişik.

**Heydər Əliyev:** Harada yaranıb?

**Firuzə Əliməmmədova:** Nəsimi bazarının arxasında qadınların qul bazarı yaranıb. Biz kişilərin qul bazarını görmüşdük, amma qadınların yox. Azərbaycanın ayrı-ayrı rayonlarından olan qadınlar gəlib Nəsimi bazarının arxasına yığışır, dolanışıq üçün iş axtarırlar. Bu material da həmin qadınların vəziyyəti ilə bağlıdır.

**Heydər Əliyev:** Niyə buna «qul bazarı» deyirlər?

**Firuzə Əliməmmədova:** Bu, ümumi qəbul olunmuş bir addır.

**Heydər Əliyev:** Yox da, indi kimsə ona «qul bazarı» adı verib. Bilirsiniz, mən bu qul bazarı haqqında bir neçə dəfə eşitmişəm. Doğrusunu deyim ki, bu məni incidir. Biz öz ölkəmiz, millətimiz haqqında nə qədər təhriflər edirik. Amma axı bizdə qul bazarı yoxdur. Necə «qul bazarı?» İnsanlar iş axtarır.

Xatirimdədir, hələ 50-ci illərdə, Sovet hakimiyyəti vaxtında mən KQB-də işləyərkən Bilgəh tərəfdə olan istirahət evinə gedirdim. Bazar günü həmin yollarda görürdüm ki, 15, 20, 30, 40 adam toplaşıb. Kimsə bağında iş gördürmək – yer bellətmək, başqa işlər gördürmək istəyirdisə, gedib onlarla danışırdı, 3, 4, 5 nəfəri götürüb aparırdı, həmin adamları işlədirdi, pulunu verirdi. Axı bu, qul deyil. Başa düşürsünüz, həmin adam müvəqqəti iş alır.

**Firuzə Əliməmmədova:** Pis-yaxşı olsa da bu, artıq dəb halını alıbdır. Kişilərin, qadınların qul bazarı vardır. Biz də bu barədə yazmışıq.

**Heydər Əliyev:** İndi deyirsiniz. Əlbəttə, bunun müəllifi siz deyilsiniz. Amma hesab edirəm ki, bu sözü yaradanlar düz etməyiblər.

Dünyada quldarlıq ləğv olunubdur, quldarlıq yoxdur. İşsizlik var və işsiz adamlar iş axtarırlar, işə cəlb olunurlar. Bu bütün ölkələrdə var. Amerikada əhalinin 7-8 faizi işsizdir. Onlar özlərinə iş axtarırlar. Bu, qul deyil ki!

Bu «qul bazarı» sözünü Azərbaycanı, necə deyərlər, ləkələyən adamlar çıxarıblar. İndi nə etmək lazımdır ki, Azərbaycan belə keçid dövrünü yaşayır. Məgər təkcə Azərbaycanda belədirmi? Bütün dünyada belə vəziyyət var. İndi hansı bir ölkə var ki, orada işsizlik olmasın? İnkişaf etmiş bəzi ölkələrdə işsizlərin hamısı uçotdadır. Onlara müəyyən müavinətlər, pul verirlər, onlar yaşayır. Amma indi Azərbaycanda belə imkanlar yoxdur. Eyni zamanda, bizim Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi var. Onlar bu işsiz adamların çoxunu işə cəlb etmək üçün xeyli işlər görürlər. Ancaq o demək deyil ki, Azərbaycanda işsizlərin hamısı işə cəlb olunubdur. Bu o demək deyildir.

Başa düşün, indi keçid dövrüdür. Vaxtilə Azərbaycanda nə qədər fabriklər, zavodlar var idi, insanlar gedib orada işləyirdi. İndi bunların böyük bir hissəsi yoxdur – ya işləmir, yaxud da az gücü ilə işləyir. İşsiz adam özünə iş axtarır. Amma eyni zamanda, biz bazar iqtisadiyyatı yolu ilə gedirik. Sahibkarlar, biznesmenlər var. Onlar böyük miqdarda pul qazanırlar, gedib özləri üçün evlər, malikanələr, bağlar tikirlər və bu cür işçi qüvvəsini aparıb orada işlədirlər. Yaxud onlardan başqa işlərdə istifadə edirlər.

İndi biz belə bir sistemdəyik. Bunu nə etməliyik? Bunlar işsiz adamlardır, iş axtarırlar. Kimsə bunlara iş verir, kimsə onları üç-beş günlük işə götürür. Amma niyə bunu «qul bazarı» adlandıraq? Kimsə bu sözü yaradıbdır, hamı da onu təkrar edir. Mən buna tamamilə etiraz edirəm. Amma bu sizin günahınız deyil. Sizin qəzet cəmi iki aydır çıxır.

**Firuzə Əliməmmədova:** Cənab Prezident, biz bu barədə yazanda «qul bazarı» adına haqq qazandırmamışıq. Əslində biz bu problem barədə yazmışıq və hesab edirik ki, bu, qanunauyğun deyildir.

**Heydər Əliyev:** Necə?

**Əli Həsənov:** Cənab Prezident, «qul bazarı» adı qanunauyğun deyildir.

**Heydər Əliyev:** Yaxşı. Görürəm ki, yenə də çıxış etmək istəyənlər var, amma artıq saat 8-dir. Mən də bir neçə söz demək istəyirəm.

**Könül Nazimqızı:** Cənab Prezident, mən bu kitabı Sizə təqdim etmək istəyirəm.

**Heydər Əliyev:** Harada işləyirsiniz?



**Könül Nazimqızı:** Cənab Prezident, mən «Samur» qəzetində çalışıram və bu kitabımı Sizə təqdim etməkdən böyük şərəf duyuram.

**Heydər Əliyev:** Sağ olun, təşəkkür edirəm.

**Könül Nazimqızı:** Cənab Prezident, icazə versəniz, mən 5 dəqiqəlik çıxış etmək istəyirəm.

**Heydər Əliyev:** Yaxşı, çıxış et. Bilin ki, mən də bir neçə kəlmə demək istəyirəm. Əgər məni dinləmək istəyirsinizsə, bu çıxışdan sonra çıxışlar kəsilsin. Əgər məni dinləmək istəmirsinizsə, onda mən bir saat da oturaram ki, siz danışasınız. Buyurun.

* * *

## «SAMUR» QƏZETİNİN MÜXBİRİ KÖNÜL NAZİMQIZININ ÇIXIŞI

– Möhtərəm Prezident! Hörmətli həmkarlarım!

Sizi milli mətbuatımızın 125 illiyi münasibətilə təbrik edirəm. Mən burada «Samur» qəzetini təmsil edirəm. «Samur» respublikamızda Azərbaycan, ləzgi və rus dillərində çıxan mətbuat orqanıdır. Məni, azərbaycanlı qızını bu etnik qəzetdə çalışmağa nə məcbur edir? Əlbəttə, əvvəlcə qəzetin səviyyəsi. Çünki həmin qəzeti «Samur»da çalışan peşəkar jurnalistlər buraxırlar. Qəzet maarifçiliyə xidmət edir. Onun səhifələrində mənəviyyat, əxlaq mövzuları əsas yer tutur.

Mən bunu kitabımda da yazmışam, ən başlıcası isə bu qəzet xalqlar arasında dostluq münasibətlərinin inkişafına xidmət edir. «Samur» qəzetinin maraqlı cəhəti odur ki, Azərbaycan həqiqətlərini ləzgi və rus dillərində Qafqaz xalqlarına çatdırır. Bizim qəzet Azərbaycan dilində Dağıstan, ümumən Qafqazla bağlı maraqlı yazılar dərc edir. Dağıstanda çıxan bir sıra qəzetlər «Samur»a istinad edərək bir çox xəbərlər dərc edirlər.

Qəzetimizdə ləzgi dilində verilmiş «Azərbaycan Prezidenti Heydər Əliyevin siyasi portreti» məqaləsindən qonşu respublikanın bir neçə mətbuat orqanı da bəhrələnmişdir. «Samur» qəzetinin naşirləri özlərini «Əkinçi» qəzetinin yetirmələri hesab edirlər. Bu da təbiidir. Həsən bəy Zərdabi 125 il bundan əvvəl «Əkinçi» qəzetini Qafqaz xalqları arasında dostluq körpüsünə çevirmişdi. Həsən bəy Zərdabiyə «Əkinçi»ni yaymaqda həm maddi, həm də mənəvi kömək göstərənlərdən biri də görkəmli alim, şair, filosof və jurnalist Mirzə Həsən Əlqədari idi. İki Həsənin – azərbaycanlı və ləzgi ziyalıların şəxsi dostluğu məslək, əqidə birliyinə çevrilmişdi.

Yeri gəlmişkən onu da deyim ki, «Əkinçi»nin 125 illiyi ilə əlaqədar «Samur» qəzetində son dərəcə sanballı yazılar dərc olunmuşdur. Məni «Əkinçi» və "Dağıstan» mövzusunda tədqiqat aparmağa da qəzetin baş redaktoru Sədaqət Kərimova və redaktor müavini Müzəffər Məlikməmmədov ruhlandırmışlar. Mən buna görə onlara təşəkkürümü bildirirəm.

Bilirsiniz ki, bir neçə il bundan əvvəl balaca bir kitab çıxarmaq üçün nə qədər çətinliklərlə üzləşirdik. Amma 26-27 yaşım olmasına baxmayaraq, mən hörmətli Prezidentimizin sayəsində beş kitab müəllifiyəm. Cənab Prezident, bunun üçün Sizə təşəkkür edirəm. Mən çox arzulayırdım ki, Sizinlə görüşüm, heç olmasa, Sizin əlinizi sıxa bilim. Bu mənim ən böyük arzum idi. İkinci arzum da odur ki, Sizinlə şəkil çəkdirmək mənim nəsibim olsun.

Mənim çox gözəl şerlərim də var. Düzdür, mən utanıram, onları heç vaxt oxumuram. Cənab Prezident, Sizə də bir şer həsr etmişəm. İnşaallah, əgər qismət olarsa, Siz lazım bilərsinizsə, bizim qəzet üçün – mən iki aydır bu qəzetdə çalışıram – müsahibə verməyə vaxt ayırsanız, mən həmin şerimi şəxsən Sizə oxuyaram.

Cənab Prezident, mən Sizə ən böyük nemət olan cansağlığı arzulayıram. Çünki sağlam adamın min arzusu var. Xəstənin bir arzusu olur ki, ilahi pərvərdigar, kaş mən sağalaydım. Amma sağlam insanların min bir arzusu olur. Arzudan da arzu doğur.

Cənab Prezident, mən Sizə cansağlığı, uzun ömür arzulayıram. Arzu edirəm ki, bizi yaddan çıxarmayasınız. «Samur» qəzetinin işçiləri məndən xahiş ediblər ki, bizim qəzeti Prezidentimizin yadına sal. Bunu şəxsən Sədaqət xanım tapşırıbdır. Mən də bunu Sizə çatdırmağa borclu idim və onu çatdırdım.

Əziz Prezident, xalqımızın ümidi və pənahı cənab Heydər Əliyev! Azərbaycan xalqı Sizinlə öyünür, fəxr edir. İnanırıq ki, Azərbaycan Sizinlə, Sizin hünərinizlə məsud və xoşbəxt olacaq, xalqlar arasındakı dostluq əlaqələri daha da möhkəmlənəcəkdir. Biz buna ümidvarıq. Çox sağ olun.



## AZƏRBAYCAN DÖVLƏT TELEVİZİYASINA MÜSAHİBƏ

*5 avqust 2000-ci il*

**M ü x b i r :** Cənab Prezident, məlum olduğu kimi, Azərbaycan Xalq Cəbhəsi Partiyasının sədri Əbülfəz Əliyev Ankara dövlət xəstəxanasında müalicə olunur. Son vaxtlar bəzi kütləvi informasiya vasitələrində belə bir fikir səslənir ki, Azərbaycan Prezidenti Heydər Əliyev Əbülfəz Əliyevin səhhəti və müalicəsi ilə maraqlanırmı? Buna Sizin münasibətinizi bilmək istərdik.

**H e y d ə r Ə l i y e v :** Əbülfəz Elçibəyin Türkiyədə, Ankarada müalicə olunması ilə mən daim maraqlanmışam. O, xəstəliyinə görə birinci dəfə Türkiyəyə müalicəyə gedərkən bu, müəyyən qədər gizli xarakter daşımışdı, biz bilməmişdik. Ancaq mən bu barədə məlumat alandan sonra Türkiyənin hökumət və dövlət başçıları ilə əlaqə saxladım və onun müalicəsinin orada – Türkiyədə, Ankarada dövlət xəstəxanasında aparıldığı haqqında məlumat verdilər və bildirdilər ki, müalicə normal gedir, narahat olmağa ehtiyac yoxdur.

Əbülfəz Elçibəy ikinci dəfə Türkiyəyə müalicəyə gedəndən sonra mən bu məsələ ilə yenə də maraqlandım və bu barədə bir neçə dəfə telefon danışıqları aparmışam. Birincisi, Azərbaycanın Ankaradakı səfirinə göstəriş vermişəm ki, o, maraqlansın və lazım olan qayğını göstərsin. İkincisi də, Türkiyənin hökumət başçısı ilə – baş nazir hörmətli Bülənd Ecevitlə mən bu barədə iki dəfə telefonla danışmışam. Türkiyə Silahlı Qüvvələrinin Baş Qərargahı ilə mənim bu barədə danışıqlarım olubdur. Ancaq hər dəfə deyiblər ki, müalicə aparılır və heç bir əlavə tədbirlərə ehtiyac yoxdur.

Bilirsiniz ki, onun müalicəsi ilə orada onun dostları məşğul olurlar. Onun dostlarının da bəziləri hökumətin tərkibindədirlər. Ancaq buna baxmayaraq, mən hər dəfə maraqlanaraq Azərbaycan tərəfindən və şəxsən mənim tərəfimdən nə kimi yardım göstərilə biləcəyi haqqında suallar vermişəm. Mənə bildiriblər ki, müalicə aparılır. Həqiqətən də Türkiyənin tibb sistemi və ümumiyyətlə, Ankaranın dövlət xəstəxanası yüksək səviyyəli bir tibb müəssisəsidir. Güman edirəm ki, orada

müalicə yüksək səviyyədə gedir. Ancaq baş nazir Bülənd Ecevitlə və Baş Qərargah ilə danışıqlarda hətta Əbülfəz Elçibəyin müalicəsini davam etdirmək üçün Türkiyənin Gülhanə Tibb Akademiyasına keçirilməsi haqqında da fikir mübadiləsi olmuşdur – əgər lazımdırsa, oraya keçirilsin.

Beləliklə, mən həmişə həm maraqlanmışam, həm də qayğı göstərmişəm. Onun xəstəliyini də mən bilirəm, xəstəliyinin diaqnozunu da müalicənin gedişi haqqında da məlumatım var. Ancaq yenə bilirəm və müalicənin gedişi haqqında da məlumatım var. Ancaq yenə də deyirəm, onu Türkiyədə yüksək səviyyədə müalicə etdiklərinə görə, sadəcə, mənim Azərbaycan Prezidenti kimi burada əlavə tədbir görməyimə ehtiyac olmayıbdır.

Burada çoxları bilirlər ki, mən Azərbaycanda həm keçmiş illərdə işlədiyim zaman, həm də son illərdə Azərbaycanın çox insanlarına – ziyalılara, dövlət vəzifələrində olan şəxslərə, ya da adi vətəndaşlara onların müxtəlif yüksək səviyyəli xəstəxanalarda, ayrı-ayrı ölkələrdə müalicə olunması üçün tədbirlər görmüşəm, dövlətdən çox böyük vəsait ayırmışam. Ümumiyyətlə, mən təbiətcə hər bir xəstə adama həmişə qayğı göstərmişəm və hesab edirəm ki, bu hər bir şəxsin insani borcudur. Əbülfəz Elçibəy Azərbaycanın keçmişdə prezidenti olubdur. Ona görə də onun müalicəsinə həm maraq göstərmək, həm qayğı göstərmək, həm də ki, lazım olan yardımı göstərmək, Azərbaycan Prezidenti kimi mənim borcumdur. Ancaq hələ ki buna ehtiyac olmayıbdır. İndi ictimaiyyətdə kimsə maraqlanırsa, mən deyə bilərəm ki, əgər Türkiyədən əlavə, hansısa başqa bir ölkədə, hansısa başqa bir xəstəxanada Əbülfəz Elçibəyin daha da uğurla müalicəsi üçün ehtiyac olarsa, dövlət lazım olan tədbirləri görə bilər, lazım olan vəsaiti ayıra bilər və burada heç kəsdə şübhə yaranmasın. Ancaq hələ ki, buna ehtiyac yoxdur. Bir də deyirəm, mən Türkiyənin baş naziri hörmətli Bülənd Ecevitlə bu barədə iki dəfə telefon əlaqəsi saxlamışam.

Mən hesab edirəm ki, müalicə uğurla başa çatır və Allahdan da Əbülfəz Elçibəyə şəfa diləyirəm.

**M ü x b i r :** Cənab Prezident, müsahibəyə görə çox sağ olun.



## «LİTERATURNAYA QAZETA»nın XÜSUSİ MÜXBİRLƏRİ İLƏ SÖHBƏT

**– Cənab Prezident, son vaxtlar dərc olunan çoxlu yazılar ölkələrimiz arasında münasibətlərdəki müsbət dəyişikliklərdən xəbər verir. Rusiya ilə Azərbaycan arasında münasibətlərin yaxşılaşmasına gətirib çıxara biləcək obyektiv şərait varmı? İqtisadi zəmin, siyasi vəziyyətdə dəyişikliklər mövcuddurmu? Yaxınlaşma prosesi yetişibmi?**

**H e y d ə r Ə l i y e v :** Əvvəla, deməliyəm ki, indi Rusiya ilə Azərbaycan arasında münasibətlərin guya pis olduğunu qəti şəkildə iddia etmək düzgün deyildir. Əlbəttə, Rusiya ilə məsələlərimiz var və onlar münasibətlərimizə müəyyən dərəcədə təsir göstərir, amma bunlar yalnız ayrı-ayrı məsələlərdir. Xarici siyasətimizin strateji mənafeləri bundan ibarətdir ki, Rusiya ilə Azərbaycan arasında dostluq münasibətləri olmalıdır, bütün sahələrdə əməkdaşlıq olmalıdır və bu münasibətlər inkişaf etdirilməlidir, çünki onlar birgə həyatımızın çoxillik tarixinə əsaslanır. Unutmaq olmaz ki, biz XIX əsrdə də, XX əsrdə də birlikdə olmuşuq, Azərbaycan xalqı çox şeyə – ümumbəşəri dəyərlərə və Avropa dəyərlərinə, dünyəvi təhsilə Rusiya vasitəsilə qovuşmuşdur. Belə şeylər unudulmur və heç kim bütün bunları amiranə surətdə ləğv edə bilməz. Bizim Xalq Cəbhəsi Rusiyaya düşmənçilik hissləri aşılamağa çalışdı, lakin bu baş tutmadı. Şəxsən mən heç vaxt bunun tərəfdarı olmamışam və indi də tərəfdarı deyiləm.

Bununla belə cəmiyyətimizə ağır təsir bağışlamış hadisələr baş vermişdir. Birincisi, bu, Ermənistanla Azərbaycan arasında münaqişəyə çevrilmiş Dağlıq Qarabağ məsələsidir. Sovetlər İttifaqının rəhbərliyi bu məsələyə lap əvvəldən qeyri-obyektiv, qərəzli münasibət göstərdi. Mən uzun illər Siyasi Büronun tərkibində olmuşam və o dövlətin imkanlarını çox gözəl bilirəm. Mən əminəm: əgər hökumət istəsəydi, bu münaqişəyə yol verməzdi. Bu mənim rəyimdir.

**– Bunun kökündə hansısa şəxslərin subyektiv səhvləri dururdu, yoxsa bu, o vaxtkı Sovet İttifaqının siyasətinin səhvi idi?**

– Siyasət bəsitdən də bəsit idi: baş katib nə qərara gəlirdisə, o da siyasət idi. Az-az adam tapılardı ki, onun rəyi ilə razılaşmasın. Mən öz

baxışlarımı bildirirdim, lakin onlar əslində nəzərə alınmırdı. Məsələn, 1986-cı ildə mən Qazaxıstan barəsində öz rəyimi bildirərək dedim ki, qazax millətindən olmayan adamı oraya respublikanın başçısı göndərmək olmaz. Mən şəxsən Qorbaçovla bu barədə yarım saat danışdım, lakin o, fərqinə varmadan istədiyi kimi etdi. Bunun nəticələri məlumdur. Əminəm ki, Ermənistanla bizim münaqişəmizə aid məsələlərdə də əsas məsuliyyəti Qorbaçov daşıyır. Ümumiyyətlə, onunla işlədiyim dövrdə mən onun müsəlman ölkələrinə subyektiv münasibət bəslədiyini hiss edirdim.

Xalqda mənfi münasibət doğurmuş birinci məsələ budur.

İkincisi, 20 Yanvar, sovet qoşunlarının Bakıya yeridilməsidir ki, bu da günahsız insanlar arasında çoxsaylı tələfata gətirib çıxardı. Mən Sovetlər İttifaqının tarixini çox yaxşı bilirəm. Bu, ittifaqın respublika barəsində misli görünməmiş qəddarlıq hərəkəti idi.

**– Novoçerkasskda buna bənzər hadisə baş vermişdi...**

– Yox, belə deyil. Oraya bu qədər qoşun yeridilməmişdi. Orada bu qədər adam həlak olmamışdı. Həm də Azərbaycan müttəfiq respublika idi. Ona görə bu, milli faciə idi.

Üçüncüsü, Ermənistanla Azərbaycan arasında hər halda müharibə başlayanda ittifaq rəhbərliyi bu müharibəni dayandırmaq üçün heç nə etmədi. Stepanakertdə yerləşən 366-cı alay hərbi əməliyyatlarda fəal iştirak edirdi. Bundan əlavə, Ermənistan Moskvadan çox keyfiyyətli silahla, döyüş sursatı ilə təchiz olunurdu. Siz Xocalıda törədilmiş soyqırımı yada salın.

Bax, bütün bunlar, əlbəttə, əhalidə böyük narazılıq doğururdu və «Xalq Cəbhəsi» də antirus əhval-ruhiyyəni qızışdırmaq üçün bundan istifadə edirdi. İş o yerə çatdı ki, Azərbaycan MDB-nin tərkibinə daxil olmadı. Mən buraya 1993-cü ildə gəldim. Heç bilirsinizmi, Azərbaycanın bu təşkilatın tərkibinə daxil olması üçün xalqın razılığını almaqdan ötrü mən nə qədər zəhmət çəkməli oldum! Bunun üçün bir neçə ay vaxt sərf etmək lazım gəldi.

Baxın, sonra nələr oldu. Müharibə dayandırıldı, sülh necə yox idisə, eləcə də yoxdur. Respublikanın ərazisində bir milyon qaçqın var, ərazinin iyirmi faizi işğal edilibdir...

Əminəm və bunu dəfələrlə bəyan etmişəm – Qarabağ probleminin həllinin, regionun normal həyata keçməsinin açarı Rusiyanın əlindədir. Ermənistana onun təsiri çox böyükdür və vəziyyətin qəti şəkildə niza-



ma salınması Rusiyanın xoş məramından asılıdır. Konkret tədbirlər görülməsini Yeltsindən nə qədər xahiş etmişdim! Vədlərdən savayı, ayrı heç bir iş görülmədi. 1997-ci ildə Prezident Aparatının Nəzarət İdarəsi Ermənistana qeyri-leqal, qanunsuz, pulsuz olaraq bir milyard dollarlıq silah, döyüş sursatı, hərbi texnika verilməsi faktını aşkara çıxardı. Məsələ hətta Dumada müzakirə olunur və Duma işin istintaqının prokurorluğa tapşırılması haqqında qərar qəbul edir. Mən Yeltsinlə görüşürəm, o hiddətlənir: «Bəli, bütün bunları mənim nəzarət idarəm aşkara çıxarıbdır. Mən göstəriş vermişəm». Bu, 1997-ci ilin martında baş verir. İyulun əvvəllərində mən Moskvaya rəsmi səfərə gedirəm. Orada bu məsələni qaldırıram, artıq Yeltsinin avazı başqa cür gəlir. Görünür, onu müdafiə olunmağa hazırlamışdılar. O mənə deyir: «Bilirsinizmi, bunu araşdırmaq lazımdır, mənə deyirlər ki, Sovet İttifaqı dağılarkən Azərbaycanda Ermənistandakına nisbətən daha çox silah qalmışdır». Necə də qəribə məntiqdir. Deməliyəm ki, mən öz münasibətimi çox kəskin şəkildə bildirdim. Onda o mənə deyir: «Gəlin, birgə komissiya yaradaq». Mən güzəştə getdim, komissiyanı yaratdıq. Əlbəttə, hər şey bürokratik süründürməçilikdə itib-batdı. İstintaq gedir. Vəziyyət tamamilə aydındır, amma heç nə dəyişməyibdir.

Bütün bunlar yaxınlaşma üçün heç də yaxşı zəmin yaratmır.

**– Cənab Prezident, amma etiraf edin ki, hətta ən yeni tarix də, hər halda, tarix olaraq qalır. Siyasətçilər irəliyə baxmalıdırlar.**

– Mən həmişə Rusiya ilə dostluq və əməkdaşlıq mövqelərində durmuşam və indi də dururam. Səmimi dostluq və əməkdaşlıq mövqelərində. Azərbaycan da həmişə eyni mövqe tutmuşdur. Anlaşılmazlığa görə təqsirkar biz deyilik. İndi vəziyyət dəyişibdir: Yeltsin yoxdur. Onun komandasından çoxları da yoxdur. Məndə Putinə qarşı etimad yaranmışdır, ümid yaranmışdır ki, o, Azərbaycana daha obyektiv münasibətin formalaşmasına təsir göstərə bilər, Azərbaycanla Rusiya arasındakı kin-küdurətin aradan qaldırılması üçün addımlar ata bilər.

**– Sizin Putinlə şəxsi münasibətləriniz yaranıbmı?**

– Münasibətlərimiz normaldır, hətta çox yaxşıdır, mən onunla söhbətimdən razıyam. Razıyam, amma konkret addımlar gözləmək və başlıcası – Ermənistan-Azərbaycan münaqişəsini həll etmək lazımdır. Qalan hər şeyi tarixin öhdəsinə buraxaq. Açar Rusiyanın əlindədir. Heç yerdə – nə Amerikada, nə Fransada, nə də ATƏT-də deyildir. Ancaq Rusiyadadır.

**– Ermənistan lideri ilə Sizin birbaşa əlaqələriniz varmı?**

– Bəli, əlbəttə. Ötən il biz bir neçə görüş keçirdik.

**– Mövqelərdə hansısa yaxınlaşma mövcuddurmu?**

– Yaxınlaşma var idi, lakin siz bilirsiniz ki, oktyabrda Ermənistanda terror aktı törədildi, sonra orada vəziyyətin sabitliyi pozuldu və ələqələr, əslində kəsildi. Biz avqustun 18-də Yaltada görüşməliyik. Orada MDB dövlətləri başçılarının görüşü olacaqdır.

**– Axı bu münaqişə məşhur neft layihəsinə xeyli dərəcədə mane olur. İndi belə bir fikir var ki, Azərbaycan bütün Cənubi Qafqaz üçün hərəkətverici iqtisadi qüvvə ola bilər. Gürcüstan da, Ermənistan da neft hasilatının inkişafına, boru kəməri çəkilməsinə son dərəcə maraq göstərir. Layihənin indiki vəziyyətini və onun yaxın perspektivlərini qısaca səciyyələndirə bilərsinizmi? Daha bir sual. Bu layihə Azərbaycan üçün hər halda iqtisadi, yoxsa siyasi əhəmiyyətli layihədir?**

– Bu bizim üçün ilk öncə iqtisadiyyat məsələsidir. Təbii ki, bu layihənin həyata keçirilməsi təhlükəsizliyə müəyyən dərəcədə təminat verir, amma biz iqtisadi məqsəd güdürük. Ona görə ki, respublikamızı mürəkkəb vəziyyətdən çıxarmaq istəyirik. Çıxarırıq da, 1993-1995-ci illərdə və 2000-ci ildə olanlar arasında yerlə göy qədər fərq var. 1994-cü ildə imzalanmış ilk iri müqavilə planda nəzərdə tutulan müddətlər gözlənilməklə tamamilə həyata keçirilir. 1997-ci ildə biz ilkin nefti hasil etdik, neftin ixracı üçün həmin vaxtadək iki boru kəməri çəkdik. Yeri gəlmişkən, onlardan biri Bakı-Novorossiysk neft kəməridir. Mən Moskvaya getdim, Yeltsinlə, Çernomırdinlə xüsusi olaraq görüşdüm, neft kəməri haqqında saziş imzaladıq. Biz ilk nefti də məhz bu boru kəməri ilə ixrac etməyə başladıq. Sonra biz ikinci – Bakı-Supsa neft kəmərini çəkdik. Supsa Qara dənizdə Gürcüstanın limanıdır.

İndi layihənin hələlik birinci mərhələsi gedir, yəqin ki, gələn il ikinci mərhələyə başlayacağıq. Təkcə bu layihə bizə böyük mənfəət verəcək, biz isə daha 19 müqavilə imzalamışıq. Məsələn, dünən mən Kanadanın neft şirkətinin rəhbərliyini qəbul etdim. Bu şirkət bir il əvvəl buraya gəlmişdir və biz yataqların birinin 5 faizini onlara istismara vermişik.

Bu gün mənə dedilər ki, bizimlə əvvəllər də əməkdaşlıq etmək istəyən «Şell» şirkəti yenidən buraya gəlmişdir (onlar çıxıb getmişdilər,



lakin sonra buraya qayıtdılar, iki şirkətin payını aldılar). İndi onların imkanlarını genişləndirməyi xahiş edirlər. Bu günədək imzalanmış müqavilələr 60 milyard dollar məbləğində sərmayə qoyulmasını nəzərdə tutur. Birinci layihədə sərmayələrin məbləği 8 milyard dollar həcmində nəzərdə tutulurdu və indiyədək təxminən 3 milyard dollardan istifadə edilmişdir. Biz iri qaz yatağı aşkara çıxarmışıq və orada işləri genişləndiririk. Bizdə geofiziki işlər çoxdan aparılıbdır, axı biz 50 ildən çoxdur dənizdə işləyirik. Biz Xəzərin eninə də bələdik, uzununa da. Öz real imkanlarımızı bilirik, perspektivlərimizi bilirik.

Bakı-Tbilisi-Ceyhan müqaviləsi qəti şəkildə imzalanmışdır. Onun Türkiyə üçün əhəmiyyəti var, Gürcüstan üçün əhəmiyyəti var. Onlar tranzitdən böyük mənfəət götürəcəklər. Elə həmin Bakı-Ceyhan layihəsi ilə əlaqədar olduqca çoxlu şirkət müraciət edir və bu neft kəmərinin inşasına qoşulmağı xahiş edirlər, çünki onun dəyəri 2 milyard 400 milyon dollardır.

Yeri gəlmişkən, biz vaxtilə ermənilərə təklif etdik: gəlin, neft kəmərini Türkiyəyə Gürcüstandan deyil, Ermənistandan çəkək. Amma onlar məsələni həll etməkdən boyun qaçırdılar və çox şey itirdilər, çünki münaqişəyə əvvəl-axır son qoyulacaqdır.

**– Əlbəttə, hər bir müharibə hökmən sülhlə qurtarır. Yeri gəlmişkən, daha bir sual. Rusiya sərmayəsinin iştirakı ilə mümkün ola biləcək hansısa bir alüminium layihəsi Rusiyada çox qızğın müzakirə edilir. Bu, hansısa real niyyətdir, yoxsa hələlik söz-söhbətdir?**

– Real imkanlar var. Sumqayıtda iri bir Alüminium zavodumuz boş dayanmışdır. Vaxtilə Gəncədə iri Gil-Torpaq zavodu tikilmişdi. Alunit yataqlarımız var. Alunitin emalından gil-torpaq alınır. Yəni, bir vaxtlar bizdə texnoloji silsilə yaradılmışdı və bu gün o pozulubdur. İndi biz vahid kompleksi yenidən yaradırıq və xarici sərmayələr üçün tender elan etmişik. Danışıqlar aparılır. Namizədlər çoxdur, o cümlədən də Rusiyadan. Bu, böyük perspektivi olan real layihədir.

**– Hər halda tender həll edəcəkdir?**

– Əlbəttə. Əvvəla, söhbət, necə deyərlər, məhsul bölgüsündən gedir. Bundan başqa, bonus: kim daha çox bonus verirsə, kim maliyyələşdirməyə razıdırsa, üstünlüyü də o şirkətə veririk.

**– Heç bir siyasi üstünlük olmadan?**

– Yox, yox. İndi hər şeyi tender həll edir. Amma, əlbəttə, bizim üçün yüksək texnologiyaya malik etibarlı şirkətləri cəlb etmək vacibdir.

**– Bir daha «siyasi iqtisad» barədə. Siz Kalyujnının Xəzərin problemləri üzrə Rusiyanın nümayəndəsi təyin olunmasını müsbət fakt hesab edirsinizmi?**

– Çox müsbət faktdır, hesab edirəm ki, Rusiyanın keçmiş rəhbərliyinin səhvlərindən biri məhz bu sahədə idi. İnanıram ki, bu təsisat da, neft sənayesi sahəsində böyük təcrübəyə malik olan Kalyujnının özü də bir çox məsələləri tənzimləməkdə bütün Xəzəryanı ölkələrə kömək edə bilər.

**– Xəzər məkanının bölgüsü ideyasının özünə münasibətiniz necədir?**

– Əvvəlcə prinsiplərdən danışmaq lazımdır. Biz bu yaxınlarda məhz Kalyujnı ilə həmin məsələni müzakirə etdik. Mən bu fikirdəyəm ki, məsələni mərhələ-mərhələ həll etmək lazımdır. Birinci mərhələdə milli sektorlar müəyyən edilməlidir. İkinci mərhələdə sektor anlayışının özünün nəyə aid olduğu – bu, ən əvvəl dənizin dibinə aiddir – sonra isə qalan məsələlər: suyun səthi, balıq ovu, gəmiçilik barədə razılığa gəlinməlidir. Bunlar asan məsələlərdir, ən başlıcası sektorları müəyyənləşdirmək və bu barədə razılığa gəlməkdir.

**– Bu məsələ hələ həll edilməyib?**

– Bizim üçün həll olunubdur. Məsələ Rusiya ilə Qazaxıstan arasında da həll edilib, amma bizimlə, Türkmənistan və İran arasında hələ həll olunmayıbdır.

**– Yeri gəlmişkən, İranın qeyri-adi ideyası olmuşdur. Guya o, Xəzərlə İran körfəzi arasında kanal çəkilməsini təklif etmişdir.**

– Mən bunu eşitmişəm, ancaq, sözün açığı, bunu siyasi zarafat səviyyəsində qəbul edirəm.

**– Görünür, iqtisadiyyatın inkişafı üçün başlıcası regionda sabitlik məsələsidir.**

– Bəli, regionda sabitlik təkcə Azərbaycan üçün deyil, həm də Ermənistan və Gürcüstan üçün vacibdir.

**– Sabitliyin əsas göstəricilərinə görə, Azərbaycanın MDB-də tayıbərabəri yoxdur.**



– Elədir. Çoxsaylı qaçqınların olmasına, burada bir sıra dövlət çevrilişi cəhdləri edilməsinə, birbaşa terror əməlləri və s. törədilməsinə baxmayaraq, indi biz möhkəm ictimai-siyasi sabitliyə nail olmuşuq. Daxili işlər naziri ilin birinci yarısının yekunlarına həsr edilmiş geniş kollegiya iclası barədə bu gün mənə məlumat verdi. MDB ölkələri arasında cinayətkarlıqla mübarizədə ən yüksək göstəricilər bizdədir.

**– Mümkünsə, Qarabağdan sonra ikinci baş ağrıdan məsələ – Çeçenistan problemi barədə bir neçə kəlmə deyərdiniz.**

– Mən bu suala belə cavab verəcəyəm: bizə bütün Qafqazda sabitlik gərəkdir. Çeçenistan Azərbaycanın yaxınlığında yerləşir. Çeçenistan hadisələri bizi, təbii ki, narahat edir. Biz istəyirik ki, orada qayda-qanun, sabit vəziyyət olsun. Amma bununla yanaşı, biz separatçılığa yol verilməməsi mövqelərində möhkəm durmuşuq. Biz hər bir dövlətin ərazi bütövlüyü prinsipini qətiyyətlə dəstəkləyirik, çünki 12 ildən bəri bizə əzab-əziyyət verən separatizmin, dəfələrlə qarşılaşdığımız terrorizmin nə demək olduğunu gözəl bilirik. Hərçənd MDB-də hər hansı sənədlər hazırlanarkən biz oraya separatizmin pislənməsi barədə müddəa daxil etdikdə, Ermənistan isə razılaşmadıqda, bu müddəanın çıxarılması üçün bizi dilə tuturlar.

**– «Litqazeta»nın jurnalistləri Sizinlə çoxdan görüşməmişlər. Respublikada çox şey dəyişmişdir. Nə vaxtsa ancaq uzaq gələcəyin planları hesab edilən planlar artıq həyatın reallıqlarına çevrilmişdir. Siz indi deyə bilərsinizmi, Azərbaycanı beş ildən sonra necə görürsünüz?**

– Beş ildən sonra Azərbaycan dünyəvi dövlət, daha yüksək sürətlə inkişaf edən, kifayət qədər güclü iqtisadiyyata və yaxşı həyat səviyyəsinə malik respublika olacaqdır. Bu, həddən çox «əgər»lərdən asılıdır. Əgər Ermənistanla münaqişə həll olunarsa, əgər işğal altındakı ərazimiz azad edilərsə, əgər bir milyon qaçqın öz yaşayış yerlərinə qayıdarsa və onlar öz torpağında işləyib çörək pulunu özləri qazanarsa.

Ancaq artıq bu gün sıçrayış üçün zəmin var. Kənd təsərrüfatımızda problemlər yoxdur. Biz qəti addımlar atdıq və torpağı kəndlilərə payladıq – nəticələr də göz qabağındadır. Artıq bu günədək ötən ilin həmin dövrünə nisbətən 400000 ton çox taxıl yığılmışdır. Sovetlər İttifaqının ən yaxşı illərində biz təxminən 1 milyon 300 min – 1 milyon 400 min ton taxıl yığırdıq, bu il isə 1,5 milyon ton olacaqdır. Bizə başqa ölkələr-

dən çoxlu ərzaq gətirilirdi. İndi ərzaq problemlərini özümüz həll edirik. Daha ət gətirmək lazım deyil, çünki özümüzdə ət boldur. Kənd təsərrüfatının məhsuldarlığı 7 faiz artmışdır.

Bizdə ümumi daxili məhsul üzrə artım 7,5 faiz, sənaye üzrə 4,5 faizdir. Neçə illərdir inflyasiya yoxdur. İnflyasiya olmadığından alıcılıq qabiliyyəti yüksəlir, istehlak mallarının satışı artır, onların qiymətləri aşağı düşür. Ötən il və cari il ərzində mən büdcədən maliyyələşdirilən təşkilatlarda çalışan adamların bütün kateqoriyalarının əmək haqqını qaldırmışam. Tədricən emal sahələri yaradılır. Əvvəllər bizdə 120 şərab zavodu vardı, 2 milyon ton üzüm istehsal edirdik, çünki bütün bunlar Sovetlər İttifaqına lazım idi. Biz şərab materiallarını Sovetlər İttifaqının hər yerinə göndərirdik, orada şərabı şüşələrə doldurub satırdılar. İndi Rusiya bunların hamısını başqa ölkələrdən alır.

Şəhərlərin problemi sənayenin bərpası problemidir. Bu məsələ Bakıda tədricən həll edilir, çünki biz bir çox müəssisələri, əsasən, özəlləşdirmə yolu ilə dirçəldirik. Mən neft sənayesinin inkişaf edəcəyinə və ondan gəlir götürüləcəyinə əminəm. Məşğulluğu da unutmayacağıq – mədənlərdə əcnəbilər cəmi 10 faizdir, onda doqquzu bizim neftçilərdir.

Xidmət sahəsi genişlənir. Olduqca çox mehmanxana, restoran açılmışdır. Onlar adamla doludur – deməli, çox adam yüksək əmək haqqı alır.

Əlbəttə, Azərbaycan Rusiyaya dost dövlət olacaqdır.

Yeri gəlmişkən, burada mənə təzyiq göstərməyə çalışırlar: nə üçün Rusiyanın əslində bütün telekanalları translyasiya edilir? Bizdə rus dilində çoxlu qəzet çıxır, rus teatrı işləyir, Rusiya ifaçılarının müntəzəm surətdə konsertləri olur.

Lap bu yaxınlarda Moskva günləri keçirildi, Moskva hökuməti sədrinin müavini L.Şvetsova gəlmişdi. Biz onunla əslində bütün tədbirlərdə olduq. Bir deyin, hansı respublikada bundan çox edilir? Amma bütün bunları görmək, qiymətləndirmək lazımdır. Bəzi kütləvi informasiya vasitələrində edildiyi kimi, Azərbaycana qara yaxmaq lazım deyildir.

Müxalifət mətbuatı xüsusilə «fərqlənir», amma mən hesab edirəm ki, fəal müxalifətin və müxalifət mətbuatının olması respublika üçün, onun dövlət quruculuğu üçün müsbət əlamətdir.

Yəqin ki, Avropa Şurasında da belə hesab edirlər, axı Azərbaycan bu mötəbər təşkilata doğru aparan yoldadır.

Bir sözlə, mən respublikanın nurlu gələcəyinə inanıram. İnanıram və ümid edirəm.



## MDB-nin ÜZVÜ OLAN ÖLKƏLƏRİN DÖVLƏT BAŞÇILARININ QEYRİ-FORMAL ZİRVƏ GÖRÜŞÜNDƏ İŞTİRAK ETMƏK ÜÇÜN YOLA DÜŞMƏZDƏN ƏVVƏL BİNƏ HAVA LİMANINDA JURNALİSTLƏRİN SUALLARINA CAVAB

*18 avqust 2000-ci il*

**Sual:** Cənab Prezident, məlumdur ki, MDB-nin Yalta Zirvə görüşü qeyri-formal şəraitdə keçəcəkdir. Ölkələri düşündürən bir çox məsələlərin həllində belə görüşlərin nə kimi əhəmiyyəti vardır?

**Cavab:** Hər bir görüşün əhəmiyyəti var. Biz, dövlət başçıları son dəfə Moskvada görüşərkən Ukrayna prezidenti Leonid Kuçma belə bir təklif irəli sürdü ki, Yaltada qeyri-formal bir görüş keçirək. Bu görüşün əvvəlcədən heç bir gündəliyi yoxdur. O, dövlət başçılarının sadəcə, qeyri-formal şəraitdə görüşüb fikir mübadiləsi aparması məqsədi daşıyır. Biz hamımız bu təklifi bəyəndik. Həmin görüş bu gün və sabah keçiriləcəkdir. Biz hamımız Yaltada bir yerdə olacağıq.

Belə görüşlər dövlət başçılarının ikitərəfli görüşlər keçirməsinə də şərait yaradır. Ona görə də bunların hamısı faydalıdır. Biz hamımız onu qəbul etmişik. Doğrudur, bəzi ölkələrin dövlət başçıları müəyyən üzrlü səbəblərə görə Yaltaya gələ bilmirlər. Amma mən gedirəm.

**Sual:** Cənab Prezident, Siz orada Robert Koçaryanla görüşəcəksinizmi və bu görüşdən nə gözləyirsiniz?

**Cavab:** Bəli, mən Robert Koçaryanla Yaltada görüşəcəyəm. Bunu hamı artıq çoxdan bilir. Bunu bütün dünyada da bilirlər və çoxları bu görüşə böyük ümid bəsləyir. Bilirsiniz ki, biz ilk dəfə 1999-cu ilin aprelində Vaşinqtonda bilavasitə təkbətək görüş keçirdik və ondan sonra bir sıra danışıqlar apardıq, müəyyən irəliləyiş əmələ gəldi. Sonra isə Yerevanda olan terror hadisələri və Ermənistanın daxilində sabitliyin müəyyən qədər pozulması bunlara mane oldu. İndi yəqin ki, biz yenidən fikir mübadiləsi aparacağıq.

**Sual:** Cənab Prezident, Siz Qarabağ məsələsinin öncül məsələ olduğu barədə Albert Qorun fikrini necə qiymətləndirirsiniz?

**Cavab:** Mən necə qiymətləndirirəm? Əlbəttə, çox yüksək qiymətləndirirəm. Hazırda Amerika Birləşmiş Ştatlarında prezidentliyə

səsə qoyulan Albert Qor əgər belə bəyanat verirsə, deməli, o öz üzərinə öhdəlik götürür. Bu yaxşıdır.

**S u a l :** Cənab Prezident, Türkiyəyə qaz ixracı məsələsi nə yerdədir?

**C a v a b :** Bu barədə danışıqlar gedir. Türkiyənin prezidenti Əhməd Necdət Sezər Azərbaycanda olarkən də bu barədə danışıqlar apardıq. Bu işlər indi davam etdirilir, hər halda həyata keçiriləcəkdir.

**S u a l :** Cənab Prezident, Parlament seçkilərinə hazırlığı necə qiymətləndirirsiniz? Müxalifət qüvvələri seçki qanununda bəzi dəyişikliklər edilməsini istəyirlər.

**C a v a b :** Hesab edirəm ki, Parlament seçkilərinə hazırlıq yaxşı gedir. Bu barədə mənim fikrim bundan ibarətdir. Amma qaldı təzyiqlər göstərməyə, gərək heç kəs heç kəsə təzyiq etməsin. Nə dövlət vətəndaşlara, yaxud ayrı-ayrı qruplara, siyasi təşkilatlara, partiyalara təzyiq etməsin, eyni zamanda, əksinə olaraq, ayrı-ayrı partiyalar, yaxud təşkilatlar dövlətə – Azərbaycan dövlətinə – təzyiq etməyə cəhd göstərməsinlər. Çünki bu, normal hal deyildir.

Azərbaycanda müstəqil dövlət yaranıb, qurulub, inkişaf edir. Demokratiya demək olar ki, bütün sahələrdə inkişaf etdirilibdir, insanların hüquqları qorunur. Hər bir partiya sərbəst fəaliyyət göstərir. Yəqin ki, axşamlar televiziyaya baxırsınız. Mənim o qədər də vaxtım olmur, amma hərdənbir baxıram. Müxalifət qüvvələri bir gün bu partiyanın, o birisi gün digər partiyanın qərargahında yığışırlar. Bunlar nə deməkdir? Bunlar azadlıq, demokratiya, sərbəstlik deməkdir. Belə bir şəraitdə dövlətə təzyiq göstərməyə çalışmaq ağılsız bir şeydir.

Bilirsiniz, lap o ağır illərdə – 1993, 1994, 1995-ci illərdə, Azərbaycanın daxilində ictimai-siyasi sabitlik tam təmin edilməyəndə də həm xaricdən, həm də daxildən təzyiq göstərənlər olurdu. Mən hesab edirəm, müstəqil dövlətimizin ən böyük nailiyyəti ondan ibarətdir ki, dövlət öz müstəqilliyini günü-gündən təsdiq etdi, nümayiş etdirdi və həm xarici, həm də daxili bütün qüvvələrə öz müstəqilliyini sübut etdi. İndi yeddi ildən artıqdır ki, Azərbaycanda normal ictimai-siyasi vəziyyət yaranıbdır, islahatlar həyata keçirilir, insanların yaşayışı yaxşılaşır. Siz öz həyatınızdan götürün – beş il bundan öncə necə yaşayırdınız, indi necə yaşayırsınız. Mən demirəm ki, indi hər şey yaxşıdır. Yox. Mən bunu heç vaxt deməmişəm və deməyəcəyəm. Hələ çoxlu problemlərimiz, işlərimiz vardır. Hamı eyni səviyyədə yaşaya bilmir. Bundan sonra da hamı eyni səviyyədə yaşaya bilməyəcək. Amma gərək ən kasıb təbəqə normal yaşamaq imkanı əldə etsin.



Biz bunların hamısını həyata keçirdiyimiz, dövlətimizi qoruyub saxladığımız, bu dövləti yaşatdığımız halda, hələ ki dövlətə heç bir xeyir verməmiş, ancaq müxalifətçiliklə, hay-küylə məşğul olmuş hansısa qüvvələrin indi Azərbaycan dövlətinə təzyiq göstərməsi ona bərabərdir ki, gedib başını qayaya vurasan.

**S u a l :** Cənab Prezident, Rusiya gəmilərinin Azərbaycan sərhədini keçməsinə siyasi don geydirirlər. Bu məsələyə münasibətiniz necədir?

**C a v a b :** Orada elə bir problem yoxdur. Bizim Sərhəd Qoşunları bu işlə məşğul olurlar. Bizi narahat edən bir şey yoxdur.

**S u a l :** Cənab Prezident, bəzi qüvvələr Azərbaycan ilə İran arasında münasibətlərin gərginləşməsi üçün müəyyən təbliğat işi aparır. Sizin fikrinizcə, belə təbliğatın əsas məqsədi nədir?

**C a v a b :** Mən hesab etmirəm ki, Azərbaycanda dövlət səviyyəsində antiiran təbliğatı aparılır. Biz bunu heç vaxt aparmamışıq, aparmayacağıq. Dəfələrlə bəyan etmişəm – Azərbaycanın Prezidenti kimi, mənim siyasətim və dövlətimizin siyasəti qonşu İran ilə bütün sahələrdə əlaqələri inkişaf etdirməkdən ibarətdir. Məhz buna görə mən söz vermişəm ki, sentyabr ayının sonunda İrana rəsmi səfər edəcəyəm. Ancaq müxalifət, müstəqil qəzetlər sensasiya yaratmaqla məşğuldurlar. Mən onlara cavabdeh deyiləm.

## AZƏRBAYCAN VƏ GÜRCÜSTAN PREZİDENTLƏRİNİN TƏKBƏTƏK GÖRÜŞÜNDƏN SONRA JURNALİSTLƏRİN SUALLARINA CAVAB

*19 avqust 2000-ci il*

**S u a l :** Siz dünən aparılmış danışıqlar baxımından qeyri-formal görüşünüzü necə səciyyələndirirsiniz?

**H e y d ə r  Ə l i y e v :** Bilirsiniz, dünənki qeyri-formal görüş çox faydalı oldu. Bunun xüsusiyyəti ondadır ki, ümumiyyətlə, nə gündəlik vardı, nə də qabaqcadan hazırlanmış məsələlər. Biz sadəcə olaraq görüşdük, danışdıq. Prinsipcə, dünən biz hamımız dağılışarkən belə bir yekdil fikirdə idik ki, görüşlər faydalı oldu. Ona görə ki, rəsmi görüşlər həmişə qabaqcadan hazırlanmış müəyyən bir reqlament qoyur və sair. Belə qeyri-formal görüş isə daha sərbəst fikir mübadiləsi aparmağa, öz fikirlərini daha sərbəst ifadə etməyə imkan verir. Zənnimcə, həmin nöqteyi-nəzərdən bu, faydalıdır. Dünən biz hamımız həm də ona tərəfdar olduğumuzu bildirdik ki, görünür, bu cür görüşləri vaxtaşırı keçirməliyik.

**E d u a r d  Ş e v a r d n a d z e:** Mən də bu fikirdəyəm. Mən də belə düşünürəm. Yeganə olaraq əlavə edim ki, gördüyünüz kimi, bu gün prezidentlər səviyyəsində, ikitərəfli əsasda daimi görüşlər keçirilir və mənim Heydər Əliyeviçlə də, başqa prezidentlərlə də görüşlərim oldu. Dünənki tədbir bir daha ünsiyyətdə olmağa, bizi düşündürən və prezidentlər tərəfindən qərarlar qəbul olunmasını tələb edən bütün problemləri müzakirə etməyə imkan verdi.

**J u r n a l i s t :** Dünənki bəyanat paylanıb. Siz orada razılaşdırılmış mövqedən çıxış etmisiniz. Siz Nyu-Yorka, BMT tərəfindən təşkil olunan minilliyin Zirvə görüşünə gedirsiniz, bəyan etmisiniz ki, beynəlxalq təşkilat kimi, MDB adından vahid mövqedən çıxış edəcəksiniz.

**E d u a r d  Ş e v a r d n a d z e:** Hesab edirəm ki, ayrı-ayrı ölkələr də, regional təşkilatlar da Birləşmiş Millətlər Təşkilatının 50 illiyinin keçirilməsini alqışlayırlar. Bu, Birləşmiş Millətlər Təşkilatını dəstəkləyən tamamilə zərərsiz bir bəyanatdır. Heydər Əliyeviç də belə hesab edir.



**H e y d ə r  Ə l i y e v :** Siz bu bəyanatı daha düzgün başa düşməlisiniz. Bilirsinizmi, hər bir dövlət üçün başlıcası, özünün siyasətini, öz suverenliyini və Birləşmiş Millətlər Təşkilatında üzvlük hüququnu qoruyub saxlamaqdır. Bu baxımdan biz tamamilə müstəqilik, tamamilə sərbəstik. O ki qaldı bu bəyanata, orada başlıca məna ondan ibarətdir ki, bəli, biz Baş Məclisin üçüncü minilliyin əvvəlində çağırılan bu sessiyasını çox mühüm hesab edirik. Qloballaşma məsələləri də olacaq və sair. Yəni bizlərdən hər biri Nyu-Yorkda öz fikrini söyləyə bilər, bəyanatda da elə bunlar ifadə edilmişdir. Suveren dövlətlər olaraq bizi orada narahat edən xüsusi elə bir şey yoxdur.

**S u a l :** Cənab prezidentlər, dünən siz prezident Putinlə görüşdünüz. Hansı məsələləri müzakirə etdiniz? İkinci sual, Rusiya tərəfindən yenə də bəyan olunur ki, çeçen yaraqlıları Gürcüstan və Azərbaycan ərazisindən öz döyüş əməliyyatlarını hazırlayırlar, daha doğrusu, orada məşğul olurlar. Siz belə bəyanatı necə şərh edərdiniz və əgər ümumiyyətlə, həmin mövzuda danışmısınızsa, Putin bu barədə nə dedi?

**E d u a r d  Ş e v a r d n a d z e :** Məsələn, mən onunla bu barədə danışmadım, bu məsələni qaldırmadım. Bu mənim onunla üçüncü görüşümdür. Lakin əvvəlki görüşlərdə bu barədə söhbət getmişdir. Hesab edirəm ki, bu, Gürcüstan və Azərbaycan üçün tamamilə əsassız ittihamdır, xüsusən də indi belə bəyanat üçün heç bir əsas yoxdur. Dünənki söhbətdə isə bu məsələyə o da toxunmadı və mən də, necə deyərlər, lazım bilmədim.

**J u r n a l i s t :** Halbuki onun mətbuat katibi bu barədə danışmışdır.

**E d u a r d  Ş e v a r d n a d z e :** Mən mətbuat katibimə tapşıracağam ki, bu suallara cavab versin.

**S u a l :** Elə isə siz Putinlə nə barədə danışdınız? Hər halda, Rusiya bizim əsas şimal qonşumuzdur və maraqlıdır, siz onunla nə haqda, hansı mövzularda danışdınız, nəyi müzakirə etdiniz?

**E d u a r d  Ş e v a r d n a d z e :** Yəqin ki, Heydər Əliyeviç bu barədə əlavə olaraq danışacaqdır. Biz başlıca olaraq ikitərəfli münasibətlərimizi müzakirə etdik. Bilirsiniz ki, indi biz mürəkkəb bir zəmanəni yaşayırıq. Çünki Gürcüstandan Rusiya silahlı qüvvələrinin çıxarılması prosesi gedir. Bunun necə çətin proses olduğunu bilirsiniz. Deməliyəm ki, proses normal gedir. Prezident Putinin özü bu prosesdən razıdır. Mən də çox məmnun olduğumu bildirmişəm. Mən ona dedim ki,

biz bu prosesi başa çatdırdıqdan sonra ölkələrimiz arasında münasibətlər daha sistemli, daha dinamik şəkildə, dövlətlər arasında etimad əsasında inkişaf edəcəkdir.

**H e y d ə r Ə l i y e v :** İkitərəfli münasibətlər haqqında bizim də söhbətimiz oldu. Ancaq söhbətimizin əksər hissəsi Ermənistan-Azərbaycan münaqişəsinin aradan qaldırılmasına aid idi, belə ki, Rusiya ABŞ və Fransa ilə birlikdə Minsk qrupunun həmsədridir. Biz ən çox bu barədə və əlbəttə, dövlətlərarası münasibətlər haqqında danışdıq. Mən prezident Putini Azərbaycana dəvət etdim. O bu səfəri cari ildə həyata keçirməyi vəd etdi.

**S u a l :** Cənab Prezident, Bakı-Ceyhan layihəsi üzərində iş necə gedir?

**H e y d ə r Ə l i y e v :** Bakı-Ceyhan layihəsi üzərində iş, əslinə qalsa, başa çatmışdır. İndi söhbət onu gerçəkləşdirməkdən gedir. Biz ötən beş ildə olduqca böyük çətinlikləri aradan qaldıraraq nə lazımdırsa etmişik: dünya miqyasında çox böyük olan belə bir müqavilənin imzalanması – xatirinizdədir, bu, keçən ilin noyabrında İstanbulda olmuşdur – bu sənədin, bu müqavilənin Türkiyə, Gürcüstan və Azərbaycan parlamentləri tərəfindən ratifikasiya edilməsi. İndi konkret əməli işdən söhbət gedir. Bu işi vaxtilə konsorsium əmələ gətirmiş 11 neft şirkətini özündə birləşdirən Azərbaycan Beynəlxalq Əməliyyat Şirkəti və Azərbaycan Dövlət Neft Şirkəti görürlər. Hesab edirəm ki, işlər normal gedir. Şübhəsiz, çətinliklər də var.

**E d u a r d Ş e v a r d n a d z e :** Əlavə edim ki, Bakı-Tbilisi-Ceyhan layihəsinin baş tutmasında Heydər Əliyeviç Əliyev həlledici rol oynamışdır. Odur ki, gürcü xalqı bu işə töhfəsinə görə, ona hədsiz minnətdardır.



## MDB ÖLKƏLƏRİ DÖVLƏT BAŞÇILARININ QEYRİ-FORMAL GÖRÜŞÜNDƏN QAYIDARKƏN BİNƏ HAVA LİMANINDA JURNALİSTLƏRƏ MÜSAHİBƏ

*19 avqust 2000-ci il*

Prezident Heydər Əliyev dedi:

– Səfər yaxşı keçdi, çox lazımlı səfər idi. Mən görüşlərimizdən çox məmnunam.

Ölkə daxilində olan vəziyyətə görə bir neçə dövlət başçısı, məsələn, İslam Kərimov, Əsgər Akayev oraya gələ bilməmişdilər. Saparmurat Niyazov da gəlməmişdi. Ancaq qalan dövlət başçılarının hamısı vardı.

Yaxşı fikir mübadiləsi apardıq. Bu görüş qeyri-formal bir görüş idi. Yəni orada gündəlik yox idi, hansısa bir məsələ müzakirəyə çıxarılmamışdı. Sadəcə, biz MDB problemləri ilə əlaqədar fikir mübadiləsi apardıq. Mən bundan çox məmnunam.

Eyni zamanda, ikitərəfli görüşlərimiz oldu – Rusiya prezidenti Putin ilə, Ukrayna prezidenti Kuçma ilə, Ermənistan prezidenti Koçaryan ilə, Gürcüstan prezidenti Şevardnadze ilə. Bunlar xüsusi görüşlər idi, biz xeyli vaxt sərf edib danışdıq.

Ümumiyyətlə, hamımız bir yerdə idik, görüşürdük, danışırdıq.

**S u a l :** Cənab Prezident, Ermənistan prezidenti Robert Koçaryanla görüşünüz zamanı hansısa yeni təklif səsləndimi? Çünki ATƏT-in Minsk qrupunun ABŞ tərəfdən həmsədri Keri Kavano bildirib ki, Ermənistan-Azərbaycan münaqişəsinin aradan qaldırılmasına dair yeni təklif yalnız iki prezidentin görüşündə ola bilər.

**C a v a b :** Bilirsiniz, mən həmişə sizə demişəm – mən bizim bu görüşlər haqqında vaxtından əvvəl heç bir məlumat vermirəm. Biz ikimiz də eyni fikirdə olduq ki, prezidentlərin dialoqu davam etməlidir. Biz – prezident Koçaryan da, mən də bunu orada mətbuata bəyan etdik. Dialoq davam etməlidir, məsələnin sülh yolu ilə həllinə nail olmalıyıq və bunlardan ötrü qarşılıqlı kompromislərə getməliyik.

**S u a l :** Cənab Prezident, yəqin eşitmisiniz, dünən Naxçıvandan Bakıya uçan təyyarəni terrorçu ələ keçirmək istəyirdi, lakin o, türk-silah

olundu. Siz bunu necə qiymətləndirirsiniz? Mən terrorçunun müsavatçı olmasını nəzərdə tuturam.

**C a v a b :** Mən bunu eşitmişəm. Hadisə baş verən kimi məlumat almışam, daim telefon əlaqəsində olmuşam. Ancaq mən bunu heç nə cür qiymətləndirə bilmərəm, bunu yəqin ki, istintaq müəyyən edəcəkdir. Siz deyirsiniz ki, o, müsavatçıdır, yəqin onu müsavatçı kimi qiymətləndirirsiniz. Sağ olun.



## AMERİKA BİRLƏŞMİŞ ŞTATLARINA YOLA DÜŞMƏZDƏN ƏVVƏL BİNƏ HAVA LİMANINDA JURNALİSTLƏRİN SUALLARINA CAVAB

*4 sentyabr 2000-ci il*

**S u a l :** Cənab Prezident, sammitin əhəmiyyəti barədə nə deyərdiniz? Orada keçirəcəyiniz görüşlərdə Azərbaycan üçün hansı önəmli məsələləri diqqət mərkəzində saxlamaq niyyətindəsiniz?

**C a v a b :** Sammitin əhəmiyyəti çox böyükdür. Çünki bu, minilliyin sammitidir.

XX əsr qurtarır, XXI əsrə keçirik. Hər halda, Birləşmiş Millətlər Təşkilatı XX əsrin ikinci yarısında, 55 il bundan öncə yaranıb və çox işlər görübdür. Amma dünyada çox həll olunmamış problemlər vardır. Ona görə də bu sammitdə təbiidir ki, biz keçmiş dövrə qiymət verməliyik. Amma qarşımızda, yəni dünyada daha böyük təhlükələr, çətinliklər vardır, o cümlədən indiyə qədər, məsələn, 12 il müddətində həll olunmamış Ermənistan-Azərbaycan münaqişəsi. Ona görə bu, çox əhəmiyyətli sammitdir. Mən də oraya gedirəm ki, Azərbaycan xalqının, Azərbaycan dövlətinin bu barədə sözlərini onlara çatdırım.

**S u a l :** Cənab Prezident, Sizin Koçaryanla görüşünüz gözlənilirmi?

**C a v a b :** Bəli, təbii, mənim orada Koçaryanla görüşüm olacaqdır. Təkcə Koçaryanla yox, orada – Nyu-Yorkda da bir çox görüşlərim olacaqdır, Vaşinqtonda da.

**S u a l :** Cənab Prezident, Koçaryan ilə danışıqlarda münaqişənin həllinə dair konkret nə gözlənilir?

**C a v a b :** Mən də sənin kimi, istəyirəm ki, nəticə olsun.

**S u a l :** Cənab Prezident, 907-ci düzəlişlə bağlı məsələ müzakirə olunacaqmı?

**C a v a b :** Bu bizim əsas məsələmizdir. Bilirsiniz, xanım Olbraytın məktubu haqqında müxalifət çox hay-küy salmışdı. Mən hətta istədim onu dərc etdirim. Ancaq onlar məsləhət görmədilər. Çünki orada müxalifətin hay-küyü haqqında cəmi üç-dörd sətir var idi. Amma qalan məsələlər Amerika-Azərbaycan əlaqələrinə aid idi. Mən də ona yaxşı bir cavab göndərmişəm. O cümlədən, indiyə qədər 907-ci maddənin

götürülməməsini Azərbaycana qarşı ayrı-seçkilik kimi qiymətləndirmişəm. Təbiidir ki, biz bu barədə mübarizəmizi davam etdiririk.

**S u a l :** Cənab Prezident, orada neft müqaviləsi də imzalanacaq?

**C a v a b :** İmzalanacaqdır.

**S u a l :** Cənab Prezident, vitse-prezidentliyə namizəd Keyni belə bir ifadə işlədib ki, biz Azərbaycan neftinin İran marşrutu ilə nəqlinə meylliyik. Ola bilərmi ki, həmin adamlar hakimiyyətə gəlsə, Bakı-Ceyhan yox, İran marşrutu qüvvəyə minsin?

**C a v a b :** Yox, Bakı-Ceyhan layihəsi heç vaxt pozula bilməz. Bakı-Ceyhan yaranacaqdır. Buna heç kəsin şübhəsi olmasın. Ancaq əgər yeni hakimiyyət gələndə İranı da məsləhət görsələr – mən dəfələrlə demişəm, Xəzər dənizində o qədər neft var ki, hələ başqa istiqamətlər də olsa, oraya da neft göndərmək olar.

**S u a l :** Cənab Prezident, «Yeni Müsavat» qəzetinin baş redaktoru Rauf Arifoğlunun həbsinə münasibətiniz necədir? Ümumiyyətlə, son zamanlar Müsavat Partiyasının bu hadisədən sonra bağlanma ehtimalı da səslənir. Bu ehtimala və Rauf Arifoğlunun həbsinə münasibətiniz necədir?

**C a v a b :** Bilirsiniz, birincisi, mən belə şey bilmirəm. Müsavat Partiyası Mərkəzi Seçki Komissiyasında qeydiyyata alınıbdır, seçkilərə buraxılıbdır, imza yığmalıdır. Əgər imza yığa bilsə, 50 min imzanı yığa bilsə – axı onlar deyirlər biz böyük partiyayıq – təbiidir ki, seçkilərdə iştirak edəcəkdir.

O ki qaldı qəzetin redaktorunun həbsi, bilirsiniz, cəmiyyətdə heç kəs toxunulmazlıq hüququna malik deyildir. Əgər qəzet redaktorusansa, demək, cinayət edə bilərsən, yoxsa yox?

Mən bu işə qarışmıram və bilirsiniz ki, bu hadisə mən Yaltada olarkən baş vermişdir. Ancaq bizim hüquq-mühafizə orqanları araşdırırlar.

Məsələn, Naxçıvanda, Ordubadda Əbülfəz Elçibəyin mühafizəçisi də həbs olunmuşdu. Mən bunu eşitdim. Amma iki-üç gündən sonra dedilər ki, araşdırdıq, onun heç bir şeydə günahı yoxdur, azad etdilər.

Əgər günahkardırsa, əlbəttə ki, cəzasını almalıdır. Nə təhər olur, biz günahkar olanda cəza alırıq, amma jurnalist, yaxud da ki, qəzet redaktoru hər bir şey edə bilər? Ona görə də sizin jurnalistlərin bu cür hay-küy salması – nə bilim, gündə yazırsınız filankəsə azadlıq, nə bilim, qəzetlər yığışır – bunlar boş şeylərdir. Mən sizə məsləhət görürəm, bunlarla məşğul olmayın. Çünki qanun qarşısında hamı cavabdehdir. Əgər günahı varsa, cəza alacaqdır, günahı yoxdursa, cəza almayacaqdır. Mən bu sözləri sizə deyə bilərəm.



**S u a l :** Cənab Prezident, səfər çərçivəsində GUÖAM ölkələri rəhbərlərinin də görüşü nəzərdə tutulubdur. Bu görüş olacaqmı və ümumiyyətlə, GUÖAM-ın fəaliyyətini necə qiymətləndirirsiniz?

**C a v a b :** Olacaqdır.

**S u a l :** Cənab Prezident, NATO-nun Baş katibi Bakıya gələcəkdir. NATO ilə Azərbaycan arasında hansı çərçivədə əməkdaşlıq nəzərdə tutulubdur?

**C a v a b :** Gələcəkdir. Bilirsiniz, biz NATO ilə «Sülh naminə tərəfdaşlıq proqramı»nda iştirak edirik. Bir çox sahələrdə iştirak edirik. Amma təkcə biz deyilik, hamı iştirak edir. Məsələn, bəzən bizim şimal qonşularımız da deyirlər ki, siz niyə NATO ilə əməkdaşlıq edirsiniz? Mən də deyirəm bəs siz niyə əməkdaşlıq edirsiniz? İndi NATO elə bir xarakter alıbdır ki, hamı onunla əməkdaşlıq edir, biz də əməkdaşlıq edirik. Bu əməkdaşlığı davam etdirəcəyik.

**S u a l :** Cənab Prezident, Rusiyanın Bişkek sazişindən çıxması barədə qərarını Siz necə qiymətləndirirsiniz?

**C a v a b :** Mən bunu televiziya ilə dünən eşitdim. Belə bəyanatlar çox olur. Ona görə belə şeylərə hələ vaxtından qabaq reaksiya vermək, fikir söyləmək ehtiyacında deyiləm.

**S u a l :** Cənab Prezident, Qarabağ münaqişəsinin nizama salınmasına dair BMT-nin bir çox qətnamələri olubdur. Amma bunlar indiyədək həyata keçməyibdir. Bu məsələ orada qaldırılacaqmı?

**C a v a b :** Bəli, onu lap belə möhkəm qaldıracağam.

**S u a l :** Cənab Prezident, son vaxtlar mətbuatda Avropa Şurasına istinadən yazırlar ki, Azərbaycanın Avropa Şurasına tamhüquqlu üzv olması məsələsi sentyabr ayında olacaqdır. Bununla bağlı Sizin fikriniz necədir?

**C a v a b :** Bilirsiniz, mənim bu barədə məlumatım yoxdur. Ancaq bilirəm ki, müxalifət liderləri Avropa Şurasına dalbadal məktublar göndərirlər və Azərbaycanın Avropa Şurasına daxil olmasına maneçilik törətmək istəyirlər. Nə edə bilərlər, edə bilməzlər, mən bunu demək istəmirəm. Ancaq hər bir vətənpərvər insan – əgər o özünü siyasi xadim hesab edirsə, partiya lideri hesab edirsə – Azərbaycanın ümumi mənafeyini öz şəxsi mənafeyinə qurban verməməlidir. Ona görə o məktubları göndərənlər, yazanlar bilsinlər ki, Azərbaycan müstəqil dövlətdir.

İndi Azərbaycan nə Moskvaya tabedir, nə Parisə tabedir, nə Vaşinqtona tabedir, nə də başqa yerə tabedir.

Bilirsiniz, Azərbaycanın öz siyasəti vardır. Amma bu cür hərəkət edən adamlar, öz şəxsi ambisiyaları naminə Azərbaycana zərər vuranlar, nə təhər deyərlər, zəifdirlər. Başa düşürsünüz? Görürsünüz, indi parçalanırlar. Onları kim parçalayır? Özləri. Ona görə də canlarını qurtarmaq üçün oraya əl atırlar, buraya əl atırlar. Amma boş şeylərdir.

**S u a l :** Cənab Prezident, Siz çıxışlarınızın birində demisiniz ki, 2000-ci il Qarabağ münaqişəsinin həllində dönüş ili olacaqdır. Bu görüşləri dönüşün başlanğıcı hesab etmək olarmı?

**C a v a b :** Bilirsiniz, qızım, mən yeddi ildən artıqdır ki, burada işləyirəm. Vallah, billah, bilin, nə gecəm var, nə də gündüzüm. Mən bunu həll etmək istəyirəm. Amma təsəvvür edin, bu nə qədər çətindir.

Birincisi, bir tərəfdən həll edirsən, o biri tərəfdən mane olurlar. O tərəfdən həll edirsən, bu tərəfdən mane olurlar. Çünki bunun həll olunmaması üçün maraqlı qüvvələr çoxdur. Bunu bilin.

İkincisi, onu bilməlisiniz ki, Ermənistan Azərbaycanın torpaqlarını işğal etdiyinə görə, o bundan sui-istifadə edir. İndi də dünyada belə bir vəziyyət yoxdur ki, gəlib onun ağzından, başından vursunlar ki, sən ədalətsizlik edirsən. Ona görə də çalışırıq, çalışacağıq. Amma mən inanıram. Neçə dəfə demişəm ki, bunu həll edəcəyik.

Yaxşı, sağ olun.



## HEYDƏR ƏLİYEV : MƏN HƏMİŞƏ İSTƏMİŞƏM Kİ, AZƏRBAYCAN MÜSTƏQİL OLSUN

**Azərbaycan Prezidenti Heydər Əliyev indiki MDB-nin bir-iki liderindən biridir ki, vaxtilə SSRİ rəhbərlərinin məhdud dairəsinə daxil idi. Prezident Heydər Əliyev «Kommersant» qəzetinin müxbiri Azər Mürsəliyev ilə məxsusi müsahibəsində təsdiq edir ki, o, Sovet İttifaqının dağılacağını hələ 70-ci illərdə bilirdi və buna görə də öz respublikasını müstəqilliyə hazırlayırdı.**

**– Sizin siyasi rəqibiniz Əbülfəz Elçibəy bu yaxınlarda vəfat etdi. Siz onun doğmalarına və tərəfdarlarına başsağlığı verdiniz, dəfn mərasiminin təşkili üçün dövlət komissiyası yaratdınız. Bundan əvvəl, o, hələ Türkiyədə müalicə edilərkən səfirinizə tapşırdınız ki, Elçibəyə hər cür kömək göstərsin. Bu, sabiq prezidentə ehtiram əlamətidir, yoxsa ölkənin tarixində Elçibəyin roluna verilmiş qiymətdir?**

– Bəli, mən ona qayğı göstərirdim, Türkiyə rəhbərliyi ilə telefon danışıqları aparırdım, onun ən yaxşı klinikaya köçürülməsinə kömək edirdim. Əvvəla, ona görə ki, mən Azərbaycan Prezidentiyəm. Konstitusiyaya əsasən, kimliyindən və mənə necə münasibət bəsləməsindən asılı olmayaraq, öz vətəndaşlarımı müdafiə etmək öhdəliyi götürmüşəm. İkincisi, insan prinsipial olmalıdır: lazım gələn yerdə sərt olmalısan, qüssə-kədər, xəstəlik, ölüm olan yerdə isə xatırlamaq olmaz ki, o mənə qarşı terror təşkil etmişdi, mənə müxalifətdə idi, bəyan edirdi ki, Əliyev getməlidir. Bütün bunlar tarixdə qaldı. İnsan dünyasını dəyişdi. Üçüncüsü isə, hər necə olsa da, o, Azərbaycan prezidenti olmuşdur. Bir il də olsa. O, necə prezidentlik etmişdir, o vaxt nələr baş vermişdir – bu, artıq ikinci dərəcəli məsələdir. Sabiq prezidentə hörmət etməmək yolverilməzdir.

**– Bəs indi ölkənin daxilində Sizin ciddi opponentiniz varmı?**

– Ciddi opponentlər yoxdur. Amma müxalifət var. Hər hansı demokratik dövlətdə müxalifətin mövcudluğu gerçəklikdir. Amma bizdə «partiyabazlıq» meydana gəlmişdir. Hər yerindən duran partiya yaradır. Kimsə 10-15 nəfər qohum-əqrəbasını yığıb partiya təşkil edir. Bizdə

qarşıda, noyabrda parlament seçkiləri keçiriləcəkdir. 21 müxalif partiya hansısa bir blok yaratmışdır, gah bir partiyanın iqamətgahında, gah da digər partiyanın iqamətgahında çıxış edir, müzakirələr aparırlar. Bu 21 partiyadan üç-dördü, məhdud da olsa, həqiqətən müəyyən sosial bazaya malikdir, qalanları isə özlüyündə heç bir şey deyildir. Budur bizim opponentlərimiz.

Digər tərəfdən, müxalifətin hamısı əslən Xalq Cəbhəsindən olanlardır. Bəs Xalq Cəbhəsi nə olan şeydir? O, Qorbaçov başda olmaqla Sovet hökumətinin Ermənistan-Azərbaycan münaqişəsinə ədalətsiz münasibəti ilə əlaqədar başlanmış xalq hərəkatının dalğası üzərində yaranmışdı. Sonra erməni təcavüzünə sovet təcavüzü əlavə olundu – 1990-cı ilin yanvarında sovet qoşunları Bakıya soxularaq yüzlərlə günahsız insanı qırdı.

Azərbaycanın o vaxtkı kommunist hökuməti öz xalqına xəyanət mövqeyi tutmuşdu. Nəticədə də hakimiyyətdən getməli oldu. Amma onun yerinə təsadüfi, səriştəsiz adamlar gəldi və tez bir zamanda özlərini gözdən saldılar. Bir ildən sonra onların hərəsi bir yana dağılışdı, o vaxtkı prezident (Əbülfəz Elçibəy – «Kommersant») isə doğma kəndinə qaçdı. O zaman çoxları onlara divan tutmaq istəyirdi. Mən onları xilas etdim.

Bir müddətdən sonra isə onlar yenidən hakimiyyət uğrunda mübarizə aparmağa, mənim istefa verməyimi tələb etməyə başladılar. Onlar sadəcə olaraq, hakimiyyətin şirinliyini unuda bilmirlər.

– **Hakimiyyət həqiqətən şirindir?**

– Xeyr. Bu ağır, çətin zəhmətdir. Amma hakimiyyətdən varlanmaq mənbəyi kimi istifadə edənlərə o, şirin görünür. Belə adamlar hakimiyyətə gələ bilərlər, lakin onu çox tez itirirlər. Mən istisna etmirəm ki, belə adamlar mənim ətrafımda da var.

– **Heydər Əliyeviç, Siz Azərbaycana hələ sovet dövründə, 1969-cu ildən 1982-ci ilədək rəhbərlik etmisiniz. On ildən sonra Siz yenidən Azərbaycanın başçısı oldunuz. Artıq müstəqil Azərbaycanın. Prezident Əliyev birinci katib Əliyevin siyasətini davam etdirir, yoxsa bu, əvvəlki təcrübəni büsbütün inkar edən tamamilə başqa siyasətdir?**

– O vaxtlar mən KP MK-nın birinci katibi idim. İndi isə müstəqil dövlətin Prezidentiyəm. Bu, tamamilə ayrı bir işdir. Misal üçün, bizdə



böyük kimya kompleksi var. Əvvəllər mənim vəzifəm ondan ibarət idi ki, bu zavodlar işləsin, məhsul istehsal etsin və Azərbaycana fayda gətirsin. Həmin məhsul haraya gedəcək, sonra onu nə edəcəklər – bu, artıq mənim qayğım deyildi. İndi isə bir şey istehsal etmək üçün bazara malik olmalısan. Hazırda bizdə nə qədər belə müəssisələr boş dayanır, yaxud da az güclə işləyir. Yeri gəlmişkən, Rusiyada da eynilə belədir. Bazar yoxdur. Bizim əsas bazarımız Rusiya idi. Biz Rusiyaya nə qədər meyvə, nə qədər üzüm göndərirdik? İndi bu bazar yoxdur.

O sistemin də öz üstünlükləri vardı. Mən onun imkanlarından istifadə edərək, Azərbaycanın inkişafına çalışırdım. Məsələn, mən üzüm istehsalını 1970-ci ildən 1980-ci ilədək on dəfə – ildə 200 min tondan 2 milyon tonadək artırmışdım. Bunun hesabına Azərbaycan, əlbəttə, zənginləşmişdi.

Təəssüf ki, bizim əvvəllər yaratdıqlarımızın çoxunu 1988-1989-cu illərdən sonrakı keçid dövründə dağıtdılar. Birinci zərbə Qorbaçov antialkoqol kampaniyasına başlayanda endirildi, üzüm plantasiyalarını qırmağa başladılar. Biz müstəqil dövlətə çevrildikdən sonra isə Sovetlər İttifaqında mövcud olmuş iqtisadi inteqrasiyadan məhrum olduq. Biz azad bazara çıxmışıq, islahatlar – iqtisadi, sosial, siyasi islahatlar aparırıq. Biz bazar iqtisadiyyatı yolu ilə gedirik. Ona görə də indi vəziyyət sovet dövründə olduğundan qat-qat çətindir.

Mən iqtisadiyyat haqqında danışıram. Amma təbii olaraq, məsələ heç də təkcə iqtisadiyyatda deyildir. Məsələn, biz 900 müxtəlif qanun yaratmışıq. Yeni qanunlar yaratmaq isə asan deyildir. Əvvəllər, bizdə yaxşı işlənmiş bir basmaqəlib – sovet basmaqəlibi vardı. İndi isə bütün qanunlar beynəlxalq standartlara cavab verməlidir.

Lakin mən onda da bütün imkanlardan istifadə edirdim ki, Azərbaycan inkişaf etsin. Bunun üçün bu gün də bütün imkanlardan istifadə edirəm.

– **Birinci katib vəzifəsində işləyərkən Sizin gördüyünüz tam bir sıra tədbirlər sonra bəzi analitiklərə belə bir nəticə çıxarmağa imkan verdi ki, Siz hələ onda respublikanı müstəqilliyə hazırlayırdınız. Sizin vaxtınızda neft sənayesində tam tsikl yaradılmışdı, dənizdə neft hasilatı üçün platformalar zavodu tikilmişdi, Azərbaycan zabitləri korpusu formalaşdırılmışdı və sair. Siz doğrudanmı hələ 70-ci illərdə güman edirdiniz ki, SSRİ dağılacaqdır?**

– Bəli, mən istəyirdim ki, Azərbaycan müstəqil, ilk öncə iqtisadi cəhətdən müstəqil olsun. Çünki hər hansı müstəqilliyin əsasını iqtisadiyyat təşkil edir. Məsələn, mən çoxlu su elektrik stansiyası tikdirmişdim. Moskvada mənə deyirdilər: bu sizin nəyinizə gərəkdir? İzah edirdilər ki, Sovetlər İttifaqının vahid enerji sistemi var və o, bütün ölkəni elektrik enerjisi ilə təmin edir. Bunun nə üçün lazım olduğunu mən onlara demirdim. Deyirdim, istəyirəm ki, bizdə yeni iş yerləri olsun və i.a. Mingəçevirdə hərəsi 250 meqavatt gücündə doqquz blokdan ibarət iri kompleks, Şəmkir Su Elektrik Stansiyasını tikdirdim. Yenikənd SES-in tikintisinə başladım. Sonra onun tikintisi dayandırıldı. Yeri gəlmişkən, mən qayıtdıqdan sonra Dünya Bankından kredit götürdüm, onu tikdirib başa çatdırdım və istismara verdim.

Bütün bunları etmək üçün mənə imkan vermirdilər. Təkcə Dərinlik Özülləri Zavodu üçün sovet büdcəsindən 400 milyon dollar ödənilmişdi. Amma mən bilirdim ki, bizə Xəzər dənizinin dərinliklərinə doğru getmək lazımdır. Mən bilirdim. Bunu da ona görə etdim. İndi isə bu zavod çox kara gəlmişdir.

İstəyirdim ki, mənim ölkəm, xalqım bütün şəraitlərdə müstəqil yaşaya bilsin. Artıq 70-ci illərdə Sovetlər İttifaqı böhran keçirirdi. Hərbi gücü böyük idi, amma iqtisadiyyat tənəzzülə uğrayırdı. SSRİ iqtisadi rəqabətə tab gətirmirdi. Təkcə Sovetlər İttifaqı yox, Şərqi Avropa ölkələri də. Mən Şərqi Avropa ölkələrində olurdum. O vaxtlar Şərqi Almaniyada da, Qərbi Almaniyada da, Şərqi Berlində də, Qərbi Berlində olmuşdum. Şərqdə də, Qərbdə də almanlar yaşayırdı, lakin vəziyyət bambaşqa idi. Mən bunların hamısını görürdüm.,

**– Sizcə, SSRİ-nin dağılması labüd idi?**

– Bəli. Bu nə vaxt olacaqdı – o, ayrı məsələdir. Bu sonra da baş verə bilərdi. Amma Qorbaçovun gəlişindən sonra yaranmış qarmaqarışıqlıq dağılma prosesini sürətləndirdi.

**– Bəs SSRİ-nin dirçəldilməsi mümkündürmü?**

– Qətiyyən yox. Əsla yox. Mən heç zaman yol verməərəm ki, Azərbaycan hansısa bir dövlətin tərkibində olsun.



## BMT-nin İQAMƏTGAHINDA GUÖAM-ın ÜZVÜ OLAN ÖLKƏLƏRİN DÖVLƏT BAŞÇILARININ MİNİLLİYİN SAMMİTİ ÇƏRÇİVƏSİNDƏ ZİRVƏ GÖRÜŞÜ

*Nyu-York*
*6 sentyabr 2000-ci il*

**Zirvə görüşündə Azərbaycan Prezidenti Heydər Əliyev, Ukrayna prezidenti Leonid Kuçma, Gürcüstan prezidenti Eduard Şevardnadze, Moldova prezidenti Petru Luçinski və Özbəkistan prezidentinin təmsilçisi, bu ölkənin BMT yanındakı daimi nümayəndəsi Əlişir Vahidov iştirak edirdilər.**

**İmzalama mərasimindən sonra dövlət başçıları jurnalistlərin suallarına cavab verdilər.**

**J u r n a l i s t :** Cənab prezidentlər, sualım qısadır – sizcə, bugünkü görüşdən sonra GUÖAM-da nə dəyişmişdir? Xahiş edirəm, hamınız cavab verəsiniz.

**L e o n i d K u ç m a :** Məncə, dəyişikliklər var. Ən başlıcası, tərəflərdən hər birinin bu təşkilata münasibətidir. Üçillik qeyri-formal mövcudluğu, hər halda, onun həyatiliyini göstərmişdir. Çünki bu təşkilatda ən əvvəl, iqtisadi əməkdaşlıq baxımından qarşılıqlı marağı olan ölkələr toplaşmışdır. Mən əsas nəqliyyat yollarından, xüsusən İpək Yolu problemindən başlayaraq, bu barədə müfəssəl danışmayacağam. Bütün bunlardan Bakıda keçirilmiş konfransda geniş söhbət getmişdir. Biz artıq başa düşürük ki, bütün bunları iş planı olan, işin nəticələri üçün məsuliyyət daşıyan təşkilata tapşırmaq lazımdır. İkincisi, bütün dünya görür və ən əvvəl biz, Avropa qitəsində olanlar – mən inteqrasiyanın ən yüksək pilləsinə çatmış Avropa Birliyini nəzərdə tutmuram – görürük ki, MDB-də artıq bir çox illər ərzində haqqında söhbət gedən azad ticarət zonaları ancaq söz olaraq qalır. GUÖAM-a qarşı çıxan ölkələrin liderlərindən heç birində zərrə qədər də şübhə yoxdur ki, gələcək inkişaf məhz azad ticarət zonasından keçir. Biz malların, kapitalların və insanların hərəkəti yolundakı bütün məhdudiyyətləri aradan götürməliyik. Diqqətinizi cəlb etmək istədiyim başlıca məsələ, bax, budur.

**H e y d ə r Ə l i y e v :** Mən prezident Leonid Kuçma ilə razıyam və geniş danışmaq istəmirəm. Yalnız bunu deyəcəyəm ki, ötən üç ili, görünür, GUÖAM-ın təşəkkül dövrü hesab etmək lazımdır, indi isə biz artıq elə bir səviyyəyə çatmışıq ki, bu təşkilata daha məqsədyönlü, daha mütəşəkkil xarakter verə bilərik. Əslinə qalsa, bugünkü görüşümüz, imzalanmış protokol və rəsmi məlumat məhz buna sübutdur. Yəni, söhbət bundan gedir ki, təşkilatımız gərəkdir, zamanın müəyyən sınağından keçibdir, konkret məqsədlər – Ukrayna prezidenti onların haqqında danışdı – güdür ki, ondan böyük səmərə götürək, eləcə təşkilat olaraq qalmasın. Bugünkü görüşdən razıyıq, o, zəruri idi. Ümidvaram ki, bu görüş GUÖAM-ın fəaliyyətinin artıq yeni mərhələsinin bünövrəsini qoyur və bu mərhələdə işlər konkret surətdə planlaşdırılacaq və fəaliyyətimiz konkret olaraq, əsasən, Leonid Daniloviçin dediyi üç istiqamətdə həyata keçiriləcəkdir.

**E d u a r d Ş e v a r d n a d z e :** Artıq hər şey deyildi. Zənnimcə, ən vacib olan budur ki, biz dövlət başçılarının, xarici işlər nazirlərinin və ticarət nazirlərinin müntəzəm görüşləri barədə müəyyən qərara gəldik. Bu gün mən çıxışımda dedim ki, Avrasiya dəhlizi layihəsinin – TRASEKA layihəsinin gerçəkləşdirilməsi bizim üçün çox mühüm problemdir. Məhz bu vəzifə təşkilatımız üçün başlıca və aparıcı vəzifə olacaqdır. Leonid Daniloviç doğru dedi, nəzərdə tutduğumuz işlər malların, insanların sərbəst hərəkət etməsinə imkan verəcəkdir. Özü də Rusiyanın rəsmi bəyanat verərək Bişkek sazişindən çıxdığını bildirdiyi, bununla da MDB üçün, o cümlədən Gürcüstan üçün yeni problemlər yaratdığı bir vaxtda. Mən MDB məkanında insanların sərbəst hərəkət etməsi prinsipini nəzərdə tuturam.

**P e t r u L u ç i n s k i :** Bu görüşün nəyi həll etdiyi və ondan sonra nəyin dəyişdiyi barədə suala cavab vermək bəlkə də bir qədər çətindir. Əvvəla, biz təsdiqlədik ki, düz edirik ki, görüşür, təşkilatımızın gələcək fəaliyyəti barədə fikir mübadiləsi aparır və öz mülahizələrimizi söyləyirik. Bu gün mən belə deyərdim: biz öz səylərimizi konkret layihələr ətrafında birləşdiririk, bu layihələr ümumi şəkildə formalaşdırılmayıb – Leonid Daniloviç bu barədə danışdı – lakin biz onları hələ konkretləşdirəcəyik. Yəni, biz öz maraqlarımızı hansısa konkret məsələlər ətrafında yaxınlaşdırmaq fikrindəyik. Bizim təşkilatımız daxil olduğumuz və fəaliyyət göstərdiyimiz digər təşkilatlar tərəfindən göstərilmiş reaksiyaya və ya ifadə edilmiş narazılığa cavab deyildir. O, sadəcə olaraq, mənafelərimizi konkret problemlər ətrafında birləşdirir. İlk növbədə qlobal vəziyyətlə – Orta Asiyada olan sərvətlərin Qafqaz vasitəsilə Avropaya nəqli ilə bağlı problem ətrafında. Bizim ölkələrimiz isə bu yolun üstündə yerləşir. Sonrasına isə baxarıq, görək hansı problemlərdə ümumi mənafelərimiz olacaq, axtaracağıq.

## KLİVLENDDƏN ANS YAYIM VƏ MEDİA ŞİRKƏTİNƏ MÜSAHİBƏ

**J u r n a l i s t :** Salam, cənab Prezident!

**H e y d ə r Ə l i y e v :** Salam, salam. Aranı niyə qarışdırmısınız?

**J u r n a l i s t :** Cənab Prezident, əksinə, biz aranı qarışdıranların qarşısına sipər çəkmək niyyətindəyik. Ona görə də Sizdən müsahibə almaq istəyirik.

Cənab Prezident, necəsiniz, özünüzü necə hiss edirsiniz?

**H e y d ə r Ə l i y e v :** Özümü yaxşı hiss edirəm. Sabah buradan çıxıram. Mənə Avstraliyadan İlham zəng edib ki, Mirşahin telefon eləmişdi. Ona görə də bildirdim ki, qoy Mirşahin mənim özümə telefon etsin, mən ona deyim. Hesab edirəm, bu müsahibəni bu gün öz televiziyanız ilə versəniz, pis olmazdı.

**J u r n a l i s t :** Cənab Prezident, mən də belə fikirləşirəm ki, bu müsahibə Azərbaycanda əsası olmadan yaranmış vəziyyətə bir qədər sakitlik gətirəcəkdir.

Cənab Prezident, Sizə nə olmuşdu, ümumiyyətlə, nə baş vermişdi?

**H e y d ə r Ə l i y e v :** Bilirsən, heç bir şey baş verməyibdir. Mən sentyabrın 13-nə qədər Nyu-Yorkda və Vaşinqtonda öz səfər proqramımı həyata keçirirdim. Buraya gələndə, əvvəlcədən planlaşdırmışdım ki, bir günlüyə Klivlendə gedim, müayinə olunum. Bilirsiniz ki, keçən ilin aprelində mən burada cərrahiyyə əməliyyatı keçirmişdim. Mən həkimlərlə danışdım, onlar dedilər ki, birgünlük buraya gəlsəniz, pis olmaz, Sizi müayinə edərik. Ancaq iş bundadır ki, buraya gələndə mənə həm bərk soyuq dəymişdi, həm də qrip idim. Haqqına demək lazımdır ki, mən həmişə özümü işə qurban etmişəm.

Soyuqdəymə, qrip, öskürək məndə hələ sentyabrın 10-da başlamışdı. Mənim burada həkimlərim var, onlar dedilər ki, hansısa virus keçibdir, çünki burada minlərlə adamla əl verib görüşmüsünüz. Birləşmiş Millətlər Təşkilatının salonu soyuq idi, bəlkə orada bir şey olubdur.

Həkimlər mənə deyirdilər ki, bu qrip çox viruslu qripdir. Amma buna baxmayaraq, mən sentyabrın 11-də Amerika-Azərbaycan Ticarət Palatasının böyük bir konfransında iştirak etdim. Bu konfrans Amerika-Azərbaycan Ticarət Palatasının beş illiyinə həsr olunmuşdu. Həmin konfransa çox mötəbər adamlar – 300-ə qədər adam – çağırılmışdı. Mən həmin konfransda çıxış etdim. Mənim həmin çıxışımı yəqin ki, televiziyada veriblər.



Həmin gün bu konfransdan sonra mən Azərbaycanın Vaşinqtondakı Ticarət və Mədəniyyət Mərkəzinin yeni binasının açılışında iştirak etdim. Axşam isə mənim şərəfimə böyük bir ziyafət verdilər. Təxminən 350-400 adamın iştirak etdiyi həmin ziyafətdə mən çıxış etdim. Doğrudur, mən həm üşüyürdüm, həm də özümü bir az yaxşı hiss etmirdim. Ona görə də həkim gəlib mənə dedi ki, Siz çıxış etdiniz, bəlkə çıxıb gedəsiniz? Ancaq yenə də deyirəm, mən hər şeyi axıra qədər çatdıran adamam. Mən ziyafətdən çıxıb getmədim, orada 2-3 saat oturdum, söhbət etdim. Həmin ziyafətdə çox böyük, mötəbər siyasi xadimlər, dövlət departamentindən, nazirliklərdən yüksək vəzifəli şəxslər iştirak edirdilər.

Mən oradan otelə gəldim. Səhəri gün də bir tədbirdə iştirak etdim. Sonra isə təyyarə ilə Klivlendə yola düşdüm. Buraya gələn kimi məni müayinə edərək bildirdilər ki, gərək əvvəlcə qrip və soyuqdəymə müalicə olunsun. Sonra belə məlum oldu ki, məndə müəyyən qədər pnevmoniya əmələ gəlibdir. Ona görə də həkimlər dedilər ki, biz əvvəlcə bunu müalicə etməliyik, eyni zamanda, Sizi müayinədən keçirməliyik. Bu müalicə də bir az vaxt aparır. Çünki mən çox ciddi pnevmoniya olmuşdum.

Həkimlər müalicəni də apardılar, yoxladılar da. Həm müalicə çox uğurla keçdi, həm də cərrahiyyə əməliyyatı ilə əlaqədar mənim vəziyyətimi yoxladılar. Dedilər ki, indi sənin ürəyin cərrahiyyə əməliyyatından əvvəlkindən daha da yaxşı işləyir. Həkimlər mənə belə yaxşı sözlər dedilər.

Mən sabah buradan Londona gedirəm. Bir gecə Londonda qalacağam – bilirsiniz ki, mənim nəvələrim oradadırlar. O birisi gün Bakıya gələcəyəm.

Bu fitnəkarlığı, təxribatı kim yayıb, nə üçün edib? Yəqin ki, onu orada araşdırarlar. Ancaq mən sağ-salamatam, kefim də yaxşıdır. Biz Amerikada da çox dəyərli işlər gördük. Bu cür xoş əhval-ruhiyyə ilə ölkəmizə qayıdıram.

**J u r n a l i s t :** Cənab Prezident, əvvələ, mən maraqlı bir müşahidəm haqqında Sizə söhbət açmaq istəyirəm. Gülhanədə və Klivlenddə müalicə olunduğunuz ötən illərdən fərqli olaraq, bu dəfə Azərbaycan mətbuatı bu məsələyə son dərəcə təmkinlə yanaşıb və hər şey nəzarət

altındadır. Yəni kütləvi informasiya vasitələri peşəkarlıqla işləyirlər. Bu fitnəkarlığın kökü isə Rusiyanın «Qazeta.ru» deyilən bir internet səhifəsində dərc olunmuş məqalədən gəlir. Onlar yazıblar, Azərbaycan mətbuatı da çox ehtiyatlı şəkildə ona istinad edibdir.

Cənab Prezident, Rusiyanın «Qazeta.ru» internet səhifəsində dərc olunmuş informasiyaya münasibətinizi bilmək istərdik.

**Heydər Əliyev:** Bunları bilirəm. Ramiz Mehdiyev Moskva ilə, Rusiya Federasiyası Təhlükəsizlik Şurasının katibi Sergey İvanovla danışmışdı, o da prezident Putinlə məsləhətləşmişdi. Onlar da oradan təkzib veriblər ki, bunlar hamısı yalandır. Mən bunları bilirəm.

Mənim dediyim bu sözləri də, mümkün hesab edirsənsə, televiziya ilə ver, qoy camaat rahat olsun. Bəziləri isə başa düşsün ki, insan ağılla hərəkət etməlidir.

**Jurnalist:** Cənab Prezident, dərc edilmiş elə həmin məlumatlardan birində ölkənin idarə olunmasında yaranmış mürəkkəbliklərdən söhbət gedir. Şübhə edilirdi ki, Azərbaycan Prezidenti Heydər Əliyev ölkəmizdə baş verən hadisələrə müdaxilə etməyə bir balaca çətinlik çəkir.

**Heydər Əliyev:** Çətinlik çəkir?

**Jurnalist:** Ölkənin idarə olunmasında guya Sizin imkanlarınız bir az aşağı düşübdür.

**Heydər Əliyev:** Heç biri aşağı düşməyibdir. Mən gündə iki-üç dəfə həm Ramiz Mehdiyevlə, həm Murtuz Ələsgərovla, həm Artur Rasizadə ilə, həm də güc nazirlikləri ilə əlaqə saxlayırdım. Onlar mənə məlumatlar verirdilər. Hesab edirəm ki, mən müəyyən qədər burada olduğum zaman respublikada işlər yaxşı gedibdir. Mən öz həmkarlarımdan, yəni o sahədə işləyən adamlardan – birincisi, aparatın rəhbəri Ramiz Mehdiyevdən çox razıyam. Təbiidir ki, bütün bu siyasi məsələlərlə o məşğul olur. Sonra baş nazir Artur Rasizadə ilə neçə dəfə danışmışam. O, ölkəmizin iqtisadiyyatı haqqında mənə məlumatlar verir. Bilirsiniz ki, indi doqquz ay qurtarır. Proqnozlara görə, ölkəmizin iqtisadiyyatı yenə də inkişaf dövrünü keçirir, yeni nəticələr əldə olunur. Mən hər şeylə məşğulam.

Burada respublika ilə mənim əlaqəm bir gün də belə kəsilməyibdir. Təbiidir ki, orada görülən işlərin əksəriyyəti mənim göstərişimlə olubdur. Mən eyni zamanda, hesab edirəm ki, müəyyən yüksək vəzifələrdəki insanlar da orada çox namusla, qeyrətlə çalışıblar və təşəbbüskar olublar, çox işləri də görüblər, sonra mənə məruzə ediblər.



**Jurnalist:** Cənab Prezident, əgər sirr deyilsə, bu saatın özündə nə ilə məşğulsunuz?

**Heydər Əliyev:** Bu saatın özündə, indi burada səhər saat 10-dur. Başa düşdün? İndi bu dəqiqə mən səhər yeməyini yeyəcəyəm, ondan sonra da burada bir az gəzəcəyəm. Sonra axşam yeməyi yeyəcəyəm. Sabah isə buradan yola düşürəm. Sabah buradan hava limanına gedəcəyəm, oradan təyyarə ilə Londona uçacağam.

**Jurnalist:** Cənab Prezident, nəhayət, olimpiadanın gedişini izləyirsinizmi?

**Heydər Əliyev:** Bəs necə, izləyirəm. İlham hər gün oradan mənə məlumat verir. Bizim Azərbaycan idmançısı ilk dəfə olaraq olimpiadada qızıl medal alıbdır. İndi bu dəqiqə danışırdım, bir boksçumuz da orada çox yüksək nəticələr göstəribdir. Ümidvaram ki, o da medal alacaqdır. Hesab edirəm, orada da vəziyyət çox yaxşıdır. Çünki bizim komandamız indi-indi formalaşır. Belə olan halda, bu cür yüksək göstəricilər əldə etmək, təbiidir ki, sevindiricidir.

**Jurnalist:** Cənab Prezident, bu, ilk növbədə Azərbaycan bayrağının qələbəsidir. Çünki hər şeydən əvvəl, Azərbaycan bayrağı qaldırılıbdır.

Cənab Prezident, mən bir şeyi də dəqiqləşdirmək istəyirəm. Belə başa düşdüm ki, bu, Klivlenddən Sizin ilk müsahibənizdir.

**Heydər Əliyev:** Bu, ilk müsahibəmdir. Ancaq dünən də çox dedilər ki, bəlkə mən özüm buradan bir məlumat verim. Mən buna imkan vermədim. Dedim ki, indi nə məlumat verəcəyəm ki? Mən sağ-salamatam.

Respublikada aparılan işlər barədə bu gün mənə məlumat veriləndən sonra Ramiz Mehdiyevə telefon edib dedim ki, Mirşahini tap, qoy mənə telefon eləsin.

Bu mənim birinci müsahibəmdir. Buna görə də Sizin televiziya birincilik qazanıbdır.

**Jurnalist:** Olimpiadaçılarımızın ənənəsini davam etdiririk.

Cənab Prezident, sağ olun. İnşaallah, tezliklə Bakıda görüşərik.

**Heydər Əliyev:** Sən televiziya vasitəsilə bütün Azərbaycan xalqına, vətəndaşlarına mənim adımdan salam yetir və de ki, mən yaxın iki gündə Bakıdayam. Hər şey çox gözəldir. Mən çox məmnunam ki, bizim vətəndaşlarımız, Azərbaycan xalqı belə bir fitnəkarlıqdan o qədər də çaşmayıbdır. Düzdür, şayiələr yayılıb, amma çaşmayıblar. Hamıya salam və mənim xoş arzularımı söylə.

## İTAR-TASS AGENTLİYİNƏ MÜSAHİBƏSİ

*Klivlend, Ohayo ştatı*
*27 sentyabr 2000-ci il*

Azərbaycan Prezidenti Heydər Əliyev tamamilə sağlamdır, gümrah əhval-ruhiyyədədir və bu gün axşam Bakıya yola düşür. Yolüstü bir gün Londonda qalmaq niyyətindədir. Bu, sentyabrın 26-da Prezident İTAR-TASS-ın müxbiri ilə söhbət edərkən məlum olmuşdur. Prezident müxbiri müayinə kursunu başa çatdırdığı Klivlend Ürək-Damar Xəstəliklərinin Müalicəsi Mərkəzinə dəvət etmişdi. Azərbaycan lideri bir sıra kütləvi informasiya vasitələrinin onun vəfatı barədə yaydığı şayiələrdən hiddətlə danışmış, azərbaycanlılarda çox böyük narahatlıq doğurmuş bu şayiələri «antihumanist fitnəkarlıq» adlandırmışdır.

Heydər Əliyev bildirmişdir: «Mənə dedilər ki, İTAR-TASS agentliyi baş direktorunun birinci müavini Mixail Qusman bizim səfirliyimizə zəng vurmuş – özü də bu, Vaşinqtona ilk zəng idi – və belə şayiələr barədə xəbərdarlıq etmişdi». Heydər Əliyevin dediyinə görə, yayılmış yalan xəbərləri təkzib etmək üçün tədbirlər görülmüşdür. Azərbaycan Prezidenti əlavə etmişdir ki, «artıq bir gün mənə çatdırdılar ki, xalq nə baş verdiyini başa düşmüş və sakitləşmişdir».

Bəs real olaraq nə baş vermişdi? – Heydər Əliyev İTAR-TASS müxbirinin bu sualına cavab verərək bildirmişdir ki, hələ ayın əvvəllərində Nyu-Yorkda minilliyin Zirvə görüşündə iştirak edərkən ona soyuq dəymişdi. Buna baxmayaraq, Azərbaycan Prezidenti Vaşinqtona yola düşmüş, daha bir neçə şəhərə getmiş, bu şəhərlərdə onun çoxsaylı görüşləri və digər tədbirləri olmuşdur. Özünün vurğuladığı kimi, həmin görüşləri və tədbirləri təxirə sala bilməzdi. Heydər Əliyev demişdir: «Özümü bir qədər pis hiss edirdim, öskürürdüm, hərarətim qalxmışdı. Klivlendə getmək səfərimin planına daxil idi. Ötən ilin aprelində orada ürəyimdə cərrahiyyə əməliyyatı aparılmışdı və həkimlər məni müayinə üçün gözləyirdilər». Buna baxmayaraq, o, Klivlendə sentyabrın yalnız 12-də gəlib çıxmışdır. Azərbaycan Prezidenti əlavə etmişdir: «Məlum oldu ki, qriplə xəstələnmişəm, hətta pnevmoniya əlamətləri vardı. Odur ki, burada ləngiməli oldum».



Lakin indi xəstəlik artıq arxada qalmışdır. Heydər Əliyev bildirmişdir ki, həkimlər onun ürəyini müayinə etmiş və özlərinin düşündüklərindən də yaxşı olduğunu söyləmişlər.

Azərbaycan Prezidenti demişdir: «Axşam mən Londona yola düşürəm, bir gün orada qalacağam, nəvələrim orada oxuyurlar. Ertəsi gün isə Bakıya yola düşəcəyəm».

Heydər Əliyev İTAR-TASS-ın müxbiri ilə müsahibəsində Rusiya-Azərbaycan münasibətlərinin indiki vəziyyəti üzərində də dayanmışdır. Azərbaycan Prezidenti Heydər Əliyev bildirmişdir ki, Rusiya ilə Azərbaycan arasında münasibətlər yaxşı inkişaf edir, bunda RF prezidenti Vladimir Putinin xidməti az deyildir. O buna böyük əhəmiyyət verir.

Heydər Əliyev demişdir: «Vladimir Putinlə bizim aramızda lap əvvəldən yaxşı ünsiyyət yaranmışdır. O, buraya, xəstəxanaya mənə telefon etmişdi və təbii ki, səhhətimlə maraqlandı. Mən dedim: narahat olmayın, tezliklə Bakıya qayıdıram. Lakin bizim digər məsələlərimiz də oldu və onların barəsində fikir mübadiləsi apardıq. Axı mən Vladimir Putini Azərbaycana rəsmi səfərə dəvət etmişəm. Biz səfərin vaxtını götür-qoy etdik və ümidvarıq ki, səfər noyabrda həyata keçiriləcəkdir. Bu, müstəqil Rusiya prezidentinin Azərbaycana ilk səfəri olacaqdır».

Azərbaycan lideri xatırlatmışdır ki, Boris Yeltsin Azərbaycana gələcəyini bir neçə dəfə vəd etmişdi, amma gələ bilmədi. O ki qaldı Vladimir Putinə, o, prezident vəzifəsinə nisbətən bu yaxınlarda başlasa da, səfər haqqında artıq razılığa gəlmişdir. Heydər Əliyev vurğulamışdır ki, «bunun isə dəlil-sübuta ehtiyacı yoxdur».

## AzərTAc-ın ABŞ-dakı XÜSUSİ MÜXBİRİ İLƏ MÜSAHİBƏ

*Klivlend*
*27 sentyabr 2000-ci il*

**Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev sentyabrın 27-də, Klivlenddən Londona yola düşməzdən əvvəl AzərTAc-ın ABŞ-dakı xüsusi müxbirinə müsahibə vermişdir. Həmin müsahibənin mətnini oxuculara təqdim edirik.**

**S u a l :** Cənab Prezident, Sizi belə gümrah və xoş əhval-ruhiyyədə görməyimə çox şadam.

ABŞ-a bu dəfəki səfərinizi yaxından izləyirdik və müşahidəçilərin də vurğuladıqları kimi, bu çox əhəmiyyətli səfər oldu. Amma burada tibbi müayinənizin bir qədər uzanmasından Rusiyanın bəzi kütləvi informasiya vasitələri, təəssüf ki, təxribatçılıqla istifadə edərək, sensasiya yaratmaq istədilər. Sizcə, bu kimə lazım idi?

**C a v a b :** Siz Azərbaycanda yaşamısınız, böyümüsünüz. Xatirinizdədir ki, mən 1993-cü ildə yenidən Bakıya qayıdanda Azərbaycan nə vəziyyətdə idi. İndi vəziyyət tamamilə dəyişib, əmin-amanlıqdır, ictimai-siyasi sabitlik yaranıb, insanlar rahat yaşayır, axşamlar da, gecələr də arxayın gəzirlər.

Burada isə, məsələn, gecə saat 12-dən sonra bayıra çıxmaq mümkün deyil. Mənim həkimim yaxınlıqdakı oteldə yaşayır. Yanıma gəlib söhbət edəndə hər dəfə saata baxır – on bir olan kimi gedir. Deyir, gecəyə qalanda dələduzlar küçədə adamları tuturlar, qorxudurlar. Amma Azərbaycanda indi belə deyildir. Təbii ki, yaramaz adamlar var idi, hamısı silahlanmışdı. Qısa müddətdə ölkəmizin vəziyyətini bu qədər müsbət mənada dəyişdirmək, əlbəttə ki, bəzi dairələrin xoşuna gəlmirdi.

Bizim iqtisadiyyatımız inkişaf edir. Təbiidir, mən indi deyə bilmərəm ki, biz əhalimizin hamısını yaxşı təmin edə bilirik. MDB ölkələri içərisində ən yüksək göstəricilər – iqtisadi, sosial göstəricilər – Azərbaycandadır. Azərbaycan dövlətinin yeni neft siyasəti var. Bu, çoxlarını narahat edir. Bilirlər ki, bunların hamısının müəllifi və təşkilatçısı



mənəm. Bəzi ölkələrdə mənim bu siyasətimə qarşı çox böyük etirazlar var, ittihamlar var. Amma Azərbaycan tam müstəqil siyasət aparır, heç bir dövlətin təsiri altında deyil və olmayacaqdır.

Dünya belədir ki, böyük dövlətlər kiçik dövlətlərə təzyiq göstərməyə çalışırlar. Amma Heydər Əliyevin vaxtında bu mümkün deyildir. Vaşinqtondakı konfransda mənim çıxışımı dinlədiniz? Gəlib Vaşinqtonda bu cür çıxış etməyə hər adamın cürəti çatmaz. Yaxud, ziyafətdə Bjezinski çıxış etdi, sonra mən. Elə onun iki tezisi – ictimai-siyasi, iqtisadi sabitlik və demokratiya – ətrafında danışdım. Bu sizin gördüklərinizdir. Amma görmədikləriniz də var – təkbətək görüşlər, nümayəndə heyətləri ilə danışıqlar, bəzən də çox ciddi danışıqlar. Bu, təkcə Amerikada baş vermir. Məsələn, MDB ilə əlaqədar görüşlərdə Azərbaycanın müstəqil siyasət xətti həmişə görünür. Bunlara görədir ki, xaricdən bizim ölkəmizə təsir var. Amma ölkəmizin daxilində də nadürüst adamlar çoxdur. Onlar üçün xalq, dövlət mənafeyi yoxdur. Hərəsi öz şəxsi ambisiyası, şəxsi məqsədləri ilə yaşayır.

Heç bir ölkədə belə şey yoxdur ki, hər bir adam desin «prezident olmaq istəyirəm». Görürsünüz, Amerikada iki nəfər seçkiqabağı yarışır. Onlardan başqa iki partiyadan da namizəd vardı. Lakin hərəsi təxminən bir-iki faiz səs topladıqları üçün seçkiyə buraxılmayıblar. Bax, bu ən demokratik ölkədir.

Azərbaycanda isə, təəssüflər olsun ki, 1988-ci ildən ölkənin zərərinə olan bir vəziyyət yarandı. O da ondan ibarət idi ki, Ermənistan-Azərbaycan münaqişəsi başlandı, o vaxtkı Azərbaycan rəhbərliyi vəziyyətdən düzgün çıxış yolu tapmadı. Rusiya və başqa dövlətlər Ermənistana kömək edirdi...

Bunların hamısına yönəlmiş etiraz Azərbaycan xalqını böyükdən kiçiyə qədər azadlıq meydanına topladı. Bundan bəziləri hakimiyyətə gəlmək üçün istifadə etdilər. Mən adlarını çəkmək istəmirəm, elələri prezident olmaq istəyir ki, adamın lap gülməyi gəlir.

Bu xəstəlik o vaxtdan başlanmışdır. O vaxt meydana toplaşanlar Azərbaycanın mənafeyini qoruya bilməyən hakimiyyətə qarşı etiraz edirdilər. Bu adamların içərisindən bir neçəsi çıxdı və təşəbbüsü öz əllərinə aldı. İndi də danışırlar ki, bəli, Azərbaycanda milli azadlıq hərəkatı olubdur. Bu doğru deyil, tarixi təhrif etmək olmaz. Guya milli azadlıq hərəkatı nəticəsində Azərbaycan müstəqillik qazanıbdır. Onda bəs, Türkmənistan necə müstəqil oldu? Onlarda ki, heç bir milli azad-

lıq hərəkatı yox idi. Eləcə də Qazaxıstan, Özbəkistan, Qırğızıstan, Moldova, Ukrayna və sair.

Sadəcə, Sovetlər İttifaqı dağıldı – mən onun dağılması zərurətini iki-üç il əvvəldən görürdüm – hərə öz müstəqilliyini elan etdi və özü də bunu başqalarına nümunə göstərərək birinci Rusiya etdi.

1991-ci ilin dekabrınadək SSRİ-nin mövcudluğuna baxmayaraq, həmin ilin yayında Rusiya müstəqilliyini elan etdi. Azərbaycan isə müstəqillik aktını oktyabrın 18-də qəbul etdi. Bu da işin sonu deyildi. Çünki referendum keçirmək lazım idi.

SSRİ-ni hər vəchlə saxlamaq istəyən Qorbaçov 1991-ci ilin martında ortaya bir fikir atdı ki, SSRİ-nin müqəddəratını ümumxalq referendumu yolu ilə müəyyənləşdirmək lazımdır. Həmin il Azərbaycanda, Ali Sovetin mart sessiyasında, hələ ondan əvvəl fevral sessiyasında mən demişdim ki, Azərbaycan müstəqilliyini elan etməlidir, sonra gec olar. Əksəriyyət isə dedi ki, yox, SSRİ saxlanmalıdır. Mənim kəskin sözlərimi təkzib etmək üçün bir neçə adam hazırlamışdılar. Məsələn, vaxtilə, Azərbaycana rəhbərlik etdiyim dövrdə böyük vəzifələrə çatmış Səmədzadə tribunaya qalxaraq, Heydər Əliyevin dediklərinin iqtisadi baxımdan səhv olduğunu göstərməyə çalışdı. Amma mən görürdüm ki, o, necə həyəcan keçirir – su içirdi, stəkanı götürəndə əlləri əsirdi – bəlkə də məcbur etmişdilər.

Beləliklə, başqa respublikalardan fərqli olaraq, martın 17-də Azərbaycanda referendum keçirildi və Moskvaya məlumat verildi ki, əhalimiz SSRİ-nin saxlanmasının tərəfdarıdır. Naxçıvanda isə biz bu referendumu keçirməyə qoymadıq. Onda da başladılar bizi günahlandırmağa, televiziyaya adam çıxardılar ki, Heydər Əliyev Naxçıvanı Azərbaycandan ayırmaq istəyir. Təbii ki, bu, cəfəngiyat idi.

Beləliklə, martın 17-də referendum keçirdilər ki, SSRİ-ni saxlayaq, oktyabrda isə müstəqillik elan etdilər. Yenidən referendum keçirilməli idi. Onu da saldılar dekabrın 30-na ki, bəlkə SSRİ dağılmayacaq. Amma Qorbaçov nə qədər çalışdısa, prosesin qarşısını ala bilmədi və dekabrın 25-də bəyan etdi ki, SSRİ dağıldı. Bax, Azərbaycan müstəqilliyini belə əldə etdi. Bəzi adamlar isə o vaxtkı vəziyyətdən istifadə edib hakimiyyətə gəldilər, bir il içində Azərbaycanı dağıtdılar və indi də yenidən prezidentlik arzusundadırlar.

Ümumiyyətlə, hər insan özü-özünə qiymət verməyi bacarmalıdır. Bir də ki, bütün ölkələrdə seçilən prezident, baş nazir iş təcrübəsi olan



adamlardır. Məsələn, Klinton prezidentlik dövründən əvvəl 10 il ştat qubernatoru olub, Buş həm qubernator, həm senator, həm də Çin-Amerika münasibətlərinin çətin dövrlərində əlaqələndirici olubdur. Almaniyada təcrübəli sosial-demokratların hakimiyyətə gəlməsi, Fransada Parisin meri, senator olmuş Şirakın hakimiyyətə gəlməsi də dediyimə misaldır. Yəni gərək insanın işi təşkil etmək, rəhbərlik etmək, cəmiyyəti idarə etmək qabiliyyəti olsun, gərək o, iqtisadiyyatı, siyasəti bilsin. Bizim müxalifətdən prezident olmaq istəyənlərin birinə iqtisadiyyatdan üç-dörd sual ver, cavab verə bilməz. Amma bir neçə mövzu var ki, onları əzbərləyiblər – demokratiya və s.

**S u a l :** Cənab Prezident, Nyu-Yorkda Ermənistan prezidenti Robert Koçaryanla növbəti görüşünüz oldu. Neçə müddətdir davam edən birbaşa danışıqlar hələ ki, nəticə verməyibdir. Prezidentlərin birbaşa təmasda olmasının perspektivlərini necə qiymətləndirirsiniz?

**C a v a b :** Koçaryanla danışıqlarımız elə ötən il NATO-nun 50 illik yubileyində ABŞ-da başlandı. Bir neçə məsələlər müzakirə etdik və onda hiss olundu ki, bu görüşlər bəlkə də Minsk qrupunun gördüyü işlərdən səmərəli ola bilər.

Bilirsiniz ki, mən ötən il Klivlend xəstəxanasına getdim və ürəyimdə cərrahiyyə əməliyyatı keçirdilər, ona görə Azərbaycana bir qədər gec qayıtdım. Qayıtdıqdan sonra Koçaryan mənimlə əlaqə saxladı və təklif etdi ki, birgə görüşlərimizi davam etdirək. Səhhətim yaxşılaşdıqdan sonra biz Cenevrədə iki dəfə görüşdük. Sual oluna bilər, nə üçün? Əgər bir dəfə danışa bilmədiksə, ikinci dəfəyə ehtiyac qalırdımı? Qalırdı, çünki biz hiss etdik ki, irəliləyirik. Daha sonra Ermənistan-Azərbaycan sərhədində, Naxçıvanda görüşdük. Üç saatdan çox danışıq apardıq. Orada biz demək olar ki, bir çox məsələləri həll etdik. Amma ondan sonra, oktyabrın 27-də Yerevanda terror aktı baş verdi, sabitlik pozuldu, ola bilər, görüşlərimizin nəticəsini Minsk qrupunun həmsədrləri bilmişdilər, ola bilər, kimsə buna mane oldu. Hətta yadımdadır, İstanbulda görüşəndə Koçaryan mənə dedi ki, bir-iki ay lazımdır sabitliyi təmin edim, sonra bu məsələləri həll edəcəyik.

Ondan sonra vəziyyət dəyişdi. Demək olmaz ki, tam dəyişib, amma əvvəlki kimi deyildir. İndi bu danışıqlardan imtina etmək, yenə də Minsk qrupuna tapşırmaq, hesab edirəm ki, nəticə verməyəcəkdir. Düzdür, Minsk qrupu kənarlaşmayıb, fəaliyyətdədir, amma özləri gözləmə mövqeyi tutdular ki, bizim danışıqlara mane olmasınlar.

Görüşməsək, danışmasaq, nə udacağıq? Amma danışıqlar gedəndə sən fikrini deyirsən, onun fikrini dinləyirsən, bir çox məsələlərə aydınlıq gəlir, hansısa qarşılıqlı anlaşma meydana çıxır. Buna görə də mən fürsətdən istifadə edirəm.

(Söhbətimizin bu yerində dövlətimizin başçısına məlumat verdilər ki, ötən il cərrahiyyə əməliyyatını həyata keçirən cərrah Brüs Laytl buradadır, Prezidenti görməyə gəlibdir. Müsahibəyə ara veririk. Prezident yenidən otağa daxil olanda isə xoş xəbərlər eşidirik: «Brüs Laytl dedi ki, mən Sizin bütün sağlamlıq göstəricilərinizə baxdım, fevral ayındakı yoxlamaların nəticələri ilə müqayisədə xeyli yaxşılaşıbdır. Bir şeyi xəbərdar elədi ki, özünüzü qripdən, soyuqdəymədən qoruyun».)

**S u a l** : Cənab Prezident, indiki səfərinizdə daha bir yaddaqalan hadisə – GUÖAM dövlət başçılarının Zirvə görüşü oldu. Siz orada dediniz ki, üç il təşkilatın təməlinin qoyulmasına sərf olundu, artıq əməli, mərkəzləşdirilmiş, strukturlaşdırılmış fəaliyyətə başlamağın vaxtı çatıbdır. Son vaxtlar GUÖAM-a ABŞ-ın da marağı artıbdır. Bunu həm Dövlət Departamenti rəsmilərinin suallarımıza verdiyi cavablardan, həm də bu yaxınlarda Konqres komissiyasının GUÖAM ölkələrinə və Ermənistana 2000-2001-ci illərdə müdafiə və təhlükəsizlik sahəsi üçün yardım ayırmaq qərarından görmək olur. GUÖAM-ın inkişaf perspektivlərini necə qiymətləndirirsiniz?

**C a v a b** : Bilirsiniz, bu təşkilatın yaranmasına bəziləri mənfi münasibət bəsləyirdilər. Amma MDB-nin tərkibində gömrük ittifaqı var və yaxud, Rusiya-Belarus ittifaqı var. Onlar vaxtaşırı görüşürlər, məsələləri həll edirlər. Biz bunun heç birinə etiraz etmirik. GUÖAM-ın əsası Strasburqda qoyuldu. Dörd dövlət başçısına daha sonra Özbəkistan prezidenti İslam Kərimov da qatıldı. Ölkələr bir regiona məxsusdurlar, eyni problemlərlə qarşılaşırlar. Bəziləri bundan şübhələnir, zənn edirlər ki, hərbi məqsədlə birləşmişik. Bu, əsassız fikirdir. Sadəcə, bu, beş müstəqil ölkənin iradəsinin göstəricisidir.

**S u a l** : Cənab Prezident, Birləşmiş Ştatların dövlət başçısı Bill Klintonun ikinci prezidentlik müddətini ABŞ-Azərbaycan əlaqələri baxımından necə qiymətləndirirsiniz? Ümumiyyətlə, 1997-ci ildən bəri Siz bu ölkədə dəfələrlə olmusunuz, prezidentlə, dövlət katibi ilə və bir sıra rəsmilərlə danışıqlar aparmısınız. Bu səfərlərin tarixinə nəzər salanda hansı hadisələrin inkişafını görürsünüz?



**C a v a b** : Bu məsələyə iki nöqteyi-nəzərdən baxmaq lazımdır. Birincisi, Amerika-Azərbaycan əlaqələrini inkişaf etdirmək siyasətimizin öncül hissəsini təşkil edir. Ona görə də bu görüşlər, mənim ABŞ-a səfərlərim ölkələrimiz arasında münasibətləri yüksək səviyyəyə qaldırıbdır. Hətta indi mənim yanıma gələn cərrah Brüs Laytl deyir ki, burada Azərbaycan haqqında filmlər göstərirlər. İki-üç gün bundan qabaq «60 dəqiqə» verilişində yaxşı bir film göstərdilər. Ermənistandan fərqli olaraq, əvvəllər burada Azərbaycanı tanımırdılar. Tanıtmaq lazımdır. Lakin bu azdır, bu, işin başlanğıcıdır. Əlaqələri inkişaf etdirmək lazımdır. Amerika ilə əlaqələri inkişaf etdirmək bizim üçün çox əhəmiyyətlidir. Xüsusən bizim neft sektoruna gələn investisiyalar, təbiidir ki, iqtisadiyyatımıza çox kömək edir.

1995-ci ildən bəri Azərbaycana qoyulan sərmayələr 5 milyard dollar təşkil edir. Adambaşına düşən investisiyalara görə Azərbaycan MDB məkanında birinci yerdədir. Bizim neft siyasətimizin çox böyük gələcəyi və bu sahədə əməkdaşlığımızın çox böyük əhəmiyyəti var.

İkinci cəhət bundan ibarətdir ki, biz əlaqələri inkişaf etdirərək çalışırıq ki, nəticədə Ermənistan-Azərbaycan münaqişəsinin həllinə nail olaq. Mən hiss edirəm ki, onlar həqiqətən bunu çox istəyirlər, çünki indi Azərbaycana maraqları böyükdür. Görürsünüz, burada neft böhranı əmələ gəlibdir. Belə hallar gələcəkdə də ola bilər. Buna görə onlar istəyirlər ki, sabitlik olsun və Ermənistan-Azərbaycan münaqişəsinə son qoyulsun. Müəyyən tədbirlər də görürlər. Amma hələ ki, nəticəsizdir.

Bizi narahat edən bir məsələ də 1992-ci ildə Azərbaycana qarşı qəbul olunmuş, ayrı-seçkilik xarakterli 907-ci düzəlişdir. Yadınızdadır, mən onu konfransda da dedim. Dedim ki, ən ədalətli ölkədə ayrı-seçkilik qoyan qanun qəbul olunubdur. Biz onu aradan götürməyə çalışırıq. Təkcə ona görə yox ki, o, Amerika hökumətinin bizə hər türlü köməyini qadağan edir. Bu o demək deyil ki, biz yüz milyon dollar almırıq, yaşaya bilmirik. Yaşayırıq. Bunun bizim üçün siyasi, hüquqi əhəmiyyəti var. Mən ədalət tərəfdarıyam. Əgər hansısa ölkə ədalətdən danışır, demokratiyanı yüksək tutursa, o, gərək ədalətsiz işə yol verməsin.

Biz Konqresdə lehimizə olan səslərin sayını əvvəlkinə nisbətən artırmağa nail olmuşuq. Son dəfə düzəlişin ləğvi üçün cəmi 4-5 səs toplaya bilmədik. Yaxud, götürək «İpək Yolu» layihəsini. Senator Braunbek qanun layihəsi hazırladı. Orada yazmışdı ki, İpək Yolu üzərindəki ölkələr Amerikanın yardımından eyni hüquqla istifadə etməlidirlər.

Ancaq məsələ Konqresə çıxarılanda, ermənipərəst konqresmenlər çalışdılar və çoxluq əldə etdilər.

Klinton da, xanım Olbrayt də dəfələrlə mənə deyiblər ki, 907-ci düzəlişin əleyhinədirlər, bu götürülməlidir. Hətta 1997-ci ildə mən burada rəsmi səfərdə olanda biz Klintonla birgə bəyanat imzaladıq. Orada da qeyd olunub ki, 907-ci düzəliş götürülməlidir. Ancaq bilmirəm, bu, dövlətin quruluşudur, ermənilər burada güclüdür, nədirsə, buna nail ola bilmirik.

Beləliklə, Amerika ilə əlaqələrimizdə iki cəhət var. Birincisi, iqtisadi əlaqələr. Bunlar çox yaxşı inkişaf edir. Başqa sahələrdə də əlaqələr çox yaxşı inkişaf edir. Amma Ermənistan-Azərbaycan münaqişəsinin qurtarması sahəsində və 907-ci düzəlişin ləğv olunmasında ABŞ-la yaxın əməkdaşlığımız isə hələ nəticə verməyibdir.

**S u a l :** Cənab Prezident, axşam vətənə yola düşürsünüz. Əminəm ki, Sizi hamı böyük səbirsizliklə gözləyir. AzərTAc-a nə demək istərdiniz?

**C a v a b :** AzərTAc-a demək istəyirəm ki, onlar öz peşəkarlıq keyfiyyətlərini daha da mükəmməlləşdirsinlər. İndiki dövrdə biz demokratiya yolu ilə gedərkən və mətbuata tam azadlıq verildiyi bir halda, gərək hər bir jurnalist, qəzet və yaxud xəbərlər agentliyinin işçisi çox yüksək keyfiyyətlərə malik olsun və onun yazıları həmişə rəğbətlə qarşılansın. Mən birinci bunu arzu edirəm.

İkincisi, onu arzu edirəm ki, AzərTAc Azərbaycanda olan məsələləri, bizim gördüyümüz işləri daha da sürətlə dünyaya yaysın: burada müəyyən passivlik var. Azərbaycanda müstəqil agentliklər var. Bilmirsən gecə, bilmirsən səhər, nə vaxt yayırlar. AzərTAc yəqin ki, hələ köhnə ənənələrə sadiq qalaraq bu məsələləri gecikdirir. Bax, bu nöqsanı aradan götürmək lazımdır.

Ancaq bilirsiniz ki, mən AzərTAc-ın həm fəaliyyətini təkmilləşdirmək, həm də maddi-texniki vəziyyətini yaxşılaşdırmaq üçün iki dəfə fərman vermişəm. Məsələn, ilk dəfədir ki, görürsünüz, AzərTAc-ın ABŞ-da xüsusi müxbiri var. Bunlardan səmərəli istifadə etmək lazımdır. Bütünlükdə isə hamınıza cansağlığı arzu edirəm, xəstələnməsinlər, həyatlarında səadət, işlərində uğurlar arzulayıram.



## RUSİYANIN ORT KANALININ LONDONDAKI XÜSUSİ MÜXBİRİNƏ MÜSAHİBƏ

*London*
*29 sentyabr 2000-ci il*

**Azərbaycan Prezidenti Heydər Əliyev xaricə uzunmüddətli səfərdən sonra bu gün Bakıya qayıdır. O, Amerikanın Ohayo ştatındakı klinikalardan birində tibbi müayinədən keçmişdir. Bu isə Heydər Əliyevin səhhətinin guya pisləşdiyi barədə şayiələrin yayılmasına səbəb olmuşdur. Hətta bir neçə gün əvvəl Azərbaycan Prezidentinin vəfat etdiyi barədə xəbərlər verilmişdir. Heydər Əliyev vəfat etməsi haqqında şayiələrə özü yumorla yanaşdı və yolüstü Londonda olarkən «Vremya» proqramının müxbirinə müsahibə verdi.**

**M ü x b i r :** Azərbaycan Prezidenti Heydər Əliyev ABŞ-da ürəyində mürəkkəb cərrahiyyə əməliyyatı aparıldıqdan sonra, ötən ilin mayında məhz Londonun «Klaric» mehmanxanasında ilk dəfə televiziya kameraları qarşısında görünmüşdü. Azərbaycan Prezidenti Amerikadan qayıdarkən bu dəfə də yolüstü Britaniya paytaxtında dayanmışdır.

Azərbaycan Prezidenti ABŞ-ın Nyu-York, Vaşinqton şəhərlərində bir sıra işgüzar görüşlər, o cümlədən ölkənin sabiq prezidenti Buşla görüş keçirmişdir. Prezident Heydər Əliyev özünün vəfatı barədə xəbəri də ötən il ürəyində cərrahiyyə əməliyyatının aparıldığı Klivlenddə – əvvəlcədən planlaşdırılmış müayinədə olarkən eşitmişdir.

**H e y d ə r Ə l i y e v :** Cərrahiyyə əməliyyatından sonra özümü necə hiss etdiyimi müəyyənləşdirmək üçün 3-4 saatlıq müayinə lazım idi. Amma oraya yüksək hərarətlə gəldim. Odur ki, müayinə sonraya qaldı. Məni pnevmoniyadan müalicə etməyə başladılar. Buna görə də orada ləngidim. Amma, gördüyünüz kimi, bəzi yaramaz adamlar var, onlar müxtəlif şayiələr yaymışdılar... Bununla əlaqədar həmin gün çoxlu zənglər oldu, Azərbaycanda böyük narahatlıq yaranmışdı.

**M ü x b i r :** Siz bunu təsadüfi səhv hesab edirsiniz, yoxsa bu kimlərəsə sərfəlidir?

**Heydər Əliyev:** Xeyr, bu, təsadüfi bir səhv deyildir. Biz bunun haradan, necə baş verdiyini araşdıracağıq. Biz bəzi şeyləri bilirik.

**Müxbir:** Rusiyada belə bir inanc var: «Kimi ki, səhvən ölmüş hesab edirlər, onun ömrü uzun olur». Bu, Rusiyada özünü doğrultmuş inancdır.

**Heydər Əliyev:** Elə Azərbaycanda da belə bir inanc var ki, əgər kiminsə haqqında bu cür şayiələr yayırlarsa, deməli, onun ömrü xeyli uzanır. Bilirsinizmi, prinsipcə, mən bu şayiələrə sakit yanaşdım. Ona görə ki, sağlamam, mən sadəcə olaraq, öz xalqıma görə narahat idim. Ümumiyyətlə isə, dedim, qoy düşünsünlər ki, mən o dünyadayam, amma yenə qayıdacağam.

**Müxbir:** Azərbaycan Prezidenti 20 dəqiqəyədək suallara cavab verdi. O, ikitərəfli əlaqələrin inkişafına nikbinliklə baxır və Rusiya prezidentinin Bakıya səfərini gözləyir.

**Heydər Əliyev:** Mən xəstəxanada olarkən Vladimir Vladimiroviç mənə zəng vurdu. Biz bəzi məsələləri müzakirə etdik, o cümlədən bir daha təsdiqlədik ki, o, noyabrda Azərbaycana rəsmi səfərə gələcəkdir.



## BAKININ BİNƏ HAVA LİMANINDA GÖZLƏYƏN ÇOXSAYLI JURNALİSTLƏRİN SUALLARINA CAVAB

*29 sentyabr 2000-ci il*

**Sual:** Cənab Prezident, biz Sizi Azərbaycanda görməkdən çox şadıq. Sizin yolunuzu çox böyük həsrətlə gözləyirdik. Yayılan yalan şayiələrdən, qərəzli xəbərlərdən Azərbaycan xalqı böyük həyəcan içində idi. Sizə «həmişə ayaq üstə» deyirik. Sizcə bu şayiələrin yayılması düşünülmüş təxribat idi, yoxsa təsadüfi xarakter daşıyırdı?

**Cavab:** Əlbəttə, bu, təsadüfi xarakter daşımır. Yəqin ki, bunu araşdırmaq lazımdır və biz araşdıracağıq. Bunlar ilk dəfə hansı mənbədən çıxıb, onu tapacağıq.

Londonda oteldə axşam gəlib mənimlə görüşmək istədilər. Amma gec idi. Mən səhər çıxanda beş-altı nəfər, o cümlədən ORT-dən nümayəndələr var idi, çəkirdilər. Onlar da soruşurlar ki, bu nə məsələdir, nədir? Mən də dedim, – gülə-gülə – bilirsiniz nə var: iş bundadır ki, doğrudan mən orada olanda dedim, bir gedim o dünyanı görüm, nə var, nə yox. Getdim, iki gün gəzdim, onlarla tanış oldum. Azərbaycandakı vəziyyət haqqında söhbət etdik. Dedilər ki: «Narahat olmayın, biz buradan baxırıq. Azərbaycanda hər şey yaxşıdır və biz sənə deyirik ki, sənin işlərin həmişə yaxşı gedəcəkdir. Ancaq dedilər – oradakılar cəhənnəmlə cənnətin başçıları idilər – o bədxahlar, filanlar ki var, biz qərar qəbul etmişik, onlar mütləq buraya gələcəklər. Gələndə onları cəhənnəmdə xüsusi bir kameraya yerləşdirəcəyik ki, bir dəqiqənin içində yox olsunlar».

**Sual:** Cənab Prezident, indi özünüzü necə hiss edirsiniz?

**Cavab:** Yaxşı hiss edirəm.

Rusiyanın müxbirləri mənə cürbəcür suallar verdilər ki, – bəlkə indi siz vermirsiniz – bəs bu nədir, niyə belədir? Birincisi bildirir ki, deyirlər bunu Heydər Əliyev özü qəsdən edibdir. Görsün ki, orada nə var, nə yox. İkincisi deyir ki, Heydər Əliyev istəyibdir respublikada sabitliyi yoxlasın və s. Mən dedim ki, sabitlik Azərbaycanda sabitdir. Ona görə bunu yoxlamağa ehtiyac yox idi. Ancaq onlar dedilər, bizim Azərbaycanda da deyirlər: şər deməsən, xeyir gəlməz. Bu atalar sözü ondan

ibarətdir ki, kiminsə sağlığında ölüm xəbəri çıxırsa, o adamın ömrü uzun olur.

Mənim Amerikaya getməyimi, səfərimin proqramını siz bilirsiniz. Bir də təkrar etmək istəyirəm, ümumiyyətlə, mən Amerikaya gedəndə fikrim var idi ki, geriyə dönəndə üç-dörd saatlıq Klivlendə gedim. Mən fevralda da oraya getmişdim. Çünki onlar da dedilər, mən də deyirdim, yaxşı olar ki, birinci müddət yoxlayaq, baxaq, görək nə var, nə yox. Amma mən ayın 6-da axşam, BMT-nin iclasının birinci günü özümdə üşütmə hiss etdim. Ancaq əvvəllər də dəfələrlə belə olubdur, mən belə hallara heç fikir verməmişəm.

Ayın 7-də səhər BMT-də mənim çıxışım var idi. Yəqin ki, onu veriblər, eşitmisiniz. Çıxış etdim, ondan sonra bir neçə görüşlərim var idi. Axşama qədər biz məşğul olduq. Axşam isə Amerikanın prezidenti cənab Klinton ziyafət verirdi. Qızımla oraya getmişdim. Ayın 8-də səhər həkim mənə baxdı, dedi ki, çox ciddi qrip var və bir də üşütmə var. Ola bilər, bunun pis nəticəsi olsun. Gəlin, proqramı dayandıraq.

Ancaq mənim Vaşinqtonda proqramım var idi. Orada bizim Ticarət Palatasının beş illiyi qeyd olunurdu, konfrans keçiriləcəkdi. Oraya adamlar, çox böyük şirkətlərin nümayəndələrini çağırmışdılar. Dedim ki, onlar hamısı mənimlə görüşməyə, məni dinləməyə gəlirlər. Mən oraya getməsəm, düzgün olmaz. Dedim ki, gedirik.

Mən Amerikaya keçən dəfə, 1997-ci ildə gedəndə ABŞ-ın keçmiş prezidenti Corc Buş məktub göndərdi ki, əgər imkanınız olsa, mənim yaşadığım yerə gəlin, qonağım olun. O vaxt bunu edə bilmədim və məktub yazdım, üzr istədim. Vaxt olmadı. Amma indi yenə gördüm ki, bu məsələ qalxıbdır. O, Portlenddə olur, Vaşinqtondan daha da şimaldadır. Okeanın kənarında özünəməxsus bir malikanəsi var. Amma mən sizə deyim ki, bizim bu Maştağada, Bilgəhdə və s. tikilən malikanələrin yanında o, elə bil ki, birotaqlı panel evdir.

Bilirsiniz, insanlar belədir. Onlar zəngin adamlardır. Zəngin adamlar yüksək mədəniyyətə malik olurlar. Buş özü kasıb adam deyil, uzun illər böyük işlərdə işləyibdir. Ancaq onlar hesab etmirlər ki, bəzənmək, geyinmək, filan, feşməkan – bunlar həyatın mənasıdır. Həyatın mənası deyildir. Həyatın mənası – mənəviyyatdır.

Mən otelə gəldim. Bir saat sonra xəbər verdilər ki, Buş məni aparmağa gələcəkdir. Bir saatdan sonra dedilər, gəlibdir, ancaq otelin yaxınlığında qayıqdadır. İstəyir ki, Sizi okeanda qayıqda gəzdirsin. Qayığı da özü sürür, heç kəs yoxdur. Gəldim, balaca bir qayıqdır. Orada bir o, bir mən, bir də iki-üç nəfər bizim uşaqlar idi. Sürdü, oraları göstərdi, izahat verdi. Bəzi hallarda da çox yüksək sürət verirdi ki, mən görüm, hansı sürətlə gedir.



Sonra onun evinə gəldik. Orada beş saat çox ətraflı söhbət elədik. Amerikanın bir neçə böyük siyasi xadimləri də var idi. Söhbət etdik. Ondan sonra mən otelə gəldim. Həkim mənə dedi ki, Sizin vəziyyətiniz çətinləşir, üşütmə, ola bilər, daha da pis nəticə versin. Qrip də var, hərarətiniz də var. Gəlin, Vaşinqtona getməyək, elə buradan uçaq. Dedim, yox. Mən həyatım boyu öz sağlamlığımı, başqa şəxsi işlərimi ümumi işə qurban vermişəm. Mən bunu edə bilmərəm.

Getdik Vaşinqtona. Orada həftənin birinci günü, sentyabrın 11-də səhər tezdən Ticarət Palatasının konfransı idi. 400-ə qədər adam toplaşmışdı. Gəldim, orada nitq söylədim. Yəqin ki, televiziya ilə onu da veriblər. Gördünüz və hiss etdiniz ki, orada çox cəsarətli sözlər dedim.

Ticarət Palatası orada yeni bir bina götürübdür. Onun açılışı olmalı idi. Gəldilər ki, bəs, gərək onu Siz açasınız. Mən oraya getdim. Axşam da mənim şərəfimə böyük bir ziyafət verdilər. Təxminən 350-yə yaxın adam var idi. Mənə orada həkim də dedi, başqaları da dedilər ki, bilirsiniz, iki çıxış olacaqdır. Birini Bjezinski, birini də Siz edəcəksiniz. Siz danışandan sonra gedə bilərsiniz. Dedim, yaxşı.

Hörmətli Bjezinski danışdı, ondan sonra mən danışdım. Yəqin siz onu da eşitmisiniz. Bjezinskinin iki tezisi ilə mən həm sabitlik, həm də demokratiya haqqında Azərbaycana aid olan fikirlərimi söylədim. Oturandan sonra çox dedilər ki, gedin. Ancaq bilin, mənim xasiyyətim budur: fikirləşdim ki, buraya 350 adam gəlibdir, yemək yeyirlər, söhbət edirlər. Mən isə gəldim, nitq söylədim və çıxıb getdim. Bu, hörmətsizlik olacaqdır. Axıra qədər oturdum. Təxminən üç saat oturduq.

Axşam gəldik, gördüm ki, vəziyyətim yenə də ağırlaşır. Yəni hərarətim çox qalxdı. Səhər oradan Klivlendə gəldik. Əvvəl mən nəzərdə tuturdum ki, Klivlendə gəlib müayinə olunacağam. Ancaq Klivlenddə baxan kimi dedilər ki, yox, müayinə lazım deyil, əvvəlcə Sizi müalicə etmək lazımdır. Siz çox şiddətli qrip tutmusunuz, soyuqlamısınız və pnevmoniya başlayıbdır. Pnevmoniya elə xəstəlikdir ki, gərək onu bir ay müalicə edəsən. Ancaq orada çox yüksək səviyyəli mütəxəssislər var. Onlar intensiv müalicə apardılar. Əvvəlcə hərarətimi endirdilər. Sonra onlar təhqiqatlar apardılar, hamısını etdilər və hərarətim enən-

dən sonra başqa təhqiqatları mənim ürəyimlə əlaqədar da apardılar. Bütün hamısını etdilər. Dedilər ki, bir-iki gün də burada qalın, istirahət edin, sonra gedərsiniz.

Bir şeyi də deyə bilərəm ki, mənim müayinəmlə əlaqədar oraya çox böyük kardioloqlar toplaşmışdılar. Onlar həm mən cərrahiyyə əməliyyatından çıxandan sonrakı göstəricilərin, həm də fevral ayında müayinəm zamanı olan göstəricilərin hamısını görmüşdülər. Hamısı bir ağızdan dedi ki, indi Sizin ürəyinizin vəziyyəti fevral ayındakından xeyli yaxşıdır.

Ondan sonra siz məlumat verdiniz ki, Heydər Əliyev «vəfat edibdir». Məni narahat edən o idi ki, bizim xalqımız burada narahatdır. Mən tez telefon etdim. Bakı vaxtı ilə gecə saat dörd idi. Ramiz Mehdiyevə telefon etdim və dedim: «Belə bir şey var. Bu şayiə bizə gəlibdir, bəlkə hələ sizə gəlməyibdir. Ancaq siz orada baxın, tədbirlər görün». Sonra yəqin ki, hər şey aydın oldu.

Mən bunda da mənfi heç bir şey görmürəm. Mənim üçün çox əhəmiyyətli o idi ki, ölkəmizin vətəndaşları Heydər Əliyevi nə cür qiymətləndirir və münasibəti nədən ibarətdir. Mənə verilən məlumatlara görə vətəndaşlarımızın tam əksəriyyəti böyük çaşqınlıq, böyük təlaş içində idilər. Sevinənlər də var idi. Onların bəziləri məlumdur, bəziləri məlum deyil. Elə bu fakt əsas verir ki, məlum olmayanları araşdırıb tapaq.

Bunu xalqın mənim barəmdə fikrinin bir daha yoxlanması hesab edirəm və müsbət nəticəsi təbiidir ki, təkcə mənə yox, bütün millətimizə, dövlətimizə, bizim xalqımıza lazımdır. Ona görə də bu, bir macəra olubdur və ola bilər, indiyə qədər analoqu olmayan macəra olubdur. Amma mən elə adamam ki, başıma çox macəralar gəlibdir. Yəqin, bu da olmalı idi.

**S u a l :** Cənab Prezident, ömrü insana Allah verir. Biz də Sizə Allahdan uzun ömür, cansağlığı arzulayırıq.

Sizin ABŞ-a səfəriniz Qərb mətbuatının, Rusiya mətbuatının diqqət mərkəzində oldu. Xüsusən də Corc Buşla görüşləriniz Rusiya mətbuatında böyük maraq doğurdu. Hətta bunu kiçik Corc Buşun prezidentliyə namizədliyi ilə də əlaqələndirirlər. Yəni Azərbaycanın xeyrinə. Bunu necə qiymətləndirirsiniz?

**C a v a b :** Bilirsiniz, mən orada seçkiyə təsir edən deyiləm, yaxud da gözləyəm ki, indi gənc Corc Buş seçiləndən sonra Azərbaycana nə münasibət göstərəcəkdir. Heç mənim ağlıma da gəlmirdi. Sadəcə, gənc Corc Buşun atası ilə mən keçmiş zamandan tanışam. Ona görə də yenə də deyirəm, o, ikinci dəfə müraciət edəndə ki, gəl, mən oraya getdim.

**S u a l :** Cənab Prezident, yayılmış şayiəni Siz daxili, yoxsa xarici qüvvələrin cəhdi kimi qiymətləndirirsiniz?

**C a v a b :** Bilirsiniz, indi mən qəti bir fikir deyə bilmərəm. Təbiidir ki, burada həm xarici qüvvələrin... Bilirsiniz də, prezident iddiası ilə xarici ölkələrdə yaşayan bir nəfər Amerikada oturubdur, o birisi Moskvada oturubdur. Mən orada qəzetlərə baxırdım. Son zamanlar onlar daha da fəallaşıblar. Bu, onlar – imanımı itirə bilmərəm – bəlkə başqa kiminsə tərəfindən, olubdur. Hər halda bu, xüsusi məqsəd üçün edilmişdir. Məqsədi də dedim, öz «müsbət» nəticələrini verdi.

**S u a l :** Cənab Prezident, Sizinlə Robert Koçaryanın Amerikadakı görüşündən sonra Koçaryan Rusiyanın ORT televiziyası ilə belə bir çıxış etdi ki, Dağlıq Qarabağ münaqişəsi danışıqlar yolu ilə həll oluna bilər. Amma bir şərtlə ki, Dağlıq Qarabağ danışıqlarda tərəf kimi iştirak etsin. Azərbaycan bu şərtlə razılaşacaqmı?

**C a v a b :** Bilirsiniz ki, bu şərt birinci dəfə deyil, bunu 5-6 ildir qoyurlar ki, Dağlıq Qarabağ tərəf kimi çıxış etsin. Hətta mənə məlumat verdilər ki, Mütəllibov – Azərbaycanı dağıdıb gedib – orada otura-otura, deyir ki, bəli, Dağlıq Qarabağ tərəf kimi iştirak etməlidir. Əgər tərəf kimi iştirak etməlidirsə, bəs onda sən bunu niyə tərəf kimi qəbul etmirdin? Onlar torpaqları işğal edirdilər. Sən də, sənin adamların da Bakını dağıdırdınız.

Görürəm, indi müxalifət qəzetləri çox böyük yazılar verirlər, onun portretlərini verirlər ki, o, Azərbaycana gələcək, nə bilim, milyon imza toplanıbdır. Mən tapşıracağam, deyəcəyəm ki, milyon yox, heç olmasa 50 min imzanı gətirin baxaq, görək, haradandır. Bunlar hamısı uydurmalardır, yalanlardır.

**S u a l :** Cənab Prezident, bəs Putinin sözlərinə münasibətiniz necədir? O belə bir ifadə işlədib ki, bu problemin həllini Rusiyadan gözləyirlər, yəni Rusiyadan çox şey asılıdır, lakin Dağlıq Qarabağ münaqişəsinin həllində Rusiyadan asılı heç nə yoxdur.

**C a v a b :** Asılı heç nə yoxdur, deməyibdir. Bu, təbii cavabdır. Çünki heç bir ölkə istəmir ki, desinlər, o, hansısa bir ölkənin daxili işinə qarışır. Bu cavab tamamilə normal cavabdır və bundan narahat olmağa dəyməz.

Mən təyyarədə qəzetlərə baxırdım. Elə bu fikri o yana, bu yana fırladırlar. Məsələn, mən xəstələnib Klivlenddə olduğum ikinci gün idi ki, Putin mənə telefon etdi. Narahatçılığını bildirdi ki, nə olubdur. Çünki biz onunla Nyu-Yorkda bir neçə dəfə görüşmüşdük. Mən ona izah etdim. Sonra bir-iki başqa məsələ də var idi. Mən onu Azərbaycana dəvət etmişəm. O da söz vermişdi ki, noyabr ayında gələcəkdir. İndi bəlkə ürəyinə gəlib ki, bir halda Heydər Əliyev xəstədir, bəlkə noyabr ayında gəlmək mümkün deyildir. Dedim, yox, noyabr ayında biz sizi gözləyirik. O, Azərbaycana gələcəkdir.

Ümumiyyətlə, mənə çox zənglər olurdu, teleqramlar gəlirdi. Məsələn, Eduard Şevardnadze zəng elədi, dedi ki, bu xəbəri eşidəndə şok vəziyyətinə düşmüşdüm. Süleyman Dəmirəl tez-tez zəng edirdi. Türkiyənin prezidenti Əhməd Necdət Sezər, çox adamlar zəng edirdi. Bilirsiniz, adam xəstəxanada olanda bu şeyləri heç o qədər də qəbul etmir, yəni bunlara o qədər fikir vermir.

**S u a l :** Cənab Prezident, əgər Amerika Birləşmiş Ştatlarının Konqresi «erməni soyqırımı»nın tanınması barədə qərar qəbul etsə, Azərbaycan Amerika ilə münasibətlərində nəsə bir dəyişiklik etmək fikrində olacaqmı?

**C a v a b :** Təbiidir ki, bu, bir az narahatedici məsələdir. Ona görə ki, son 10-15 ilə qədər Ermənistan heç vaxt – ola bilər öz aralarında, qəzetlərində olub – belə şeyləri qaldırmamışdır. Türkiyə onlara qarşı soyqırımı edibdir və s. Amma son vaxtlar bu məsələni qaldırıblar. Konqresdə bir komitə var. O komitənin bir kiçik hissəsi, bir də böyük hissəsi var. Onun da başında duran konqresmen Smitdir. O, Azərbaycanın, Türkiyənin bir nömrəli düşmənidir və 907-ci maddənin qəbul olunmasında əsas rol oynamış adamdır.

Məsələn, bilirsiniz ki, senator Braunbek İpək Yolu ilə əlaqədar Nyu-Yorkda böyük bir konfrans keçirdi. Mən keçən dəfə, 1999-cu ilin aprel ayında orada olanda da Senatın binasında belə bir böyük konfrans keçirilmişdi. Görürsünüz, İpək Yolunun bərpa olunmasında təşəbbüskarlardan biri bizik. Senator Braunbekin qanun layihəsi müzakirəyə gələndə həmin Smit və başqaları canfəşanlıq ediblər və oradan Azərbaycanın adını çıxarıblar. Hətta mənə dedilər ki, Pop Doul var, bilirsiniz, keçən dəfə Klinton ilə bərabər öz namizədliyini vermişdi. İndi o, heç konqresmen də deyil, heç bir şey deyildir. Amma həmişə orada olan konqresmenlərin, vəzifədə olan ermənipərəst adamların başında durubdur. Hətta o öz tərəfdaşlarını daha da gücləndirmək üçün həmin müzakirəyə gəlib ki, siz mütləq bunu etməlisiniz.



Mən bu Smit haqqında niyə deyirəm, dərd, bax bundadır. O, Azərbaycanın düşmənidir, Azərbaycandan gedən müxalifət nümayəndələri də birinci onunla görüşürlər. Başqaları görüşmək istəmir. Amma o, görüşür. Ona görə görüşmür ki, Azərbaycana məhəbbəti var. Yaxud görüşür ona görə yox ki, Azərbaycanda həqiqətən onların anlayışı ilə tam demokratiya yaratmaq lazımdır. Sadəcə, ona belə bir fürsət lazımdır.

Məsələn, bilirsiniz ki, bir neçə ay bundan qabaq oraya getmişdilər. Mərhum Əbülfəz Elçibəy də, Rəsul Quliyev də, İsa Qəmbərov da, Nazim İmanov da gedib o adamın qabağında oturmuşdular ki, azərbaycanlıların başını kəsmək lazımdır. Orada hər biri yarışa girib «sübut» edirlər ki, Azərbaycanda demokratiya yoxdur, diktaturadır. İndi gəlin, açıq danışaq. Elə hər şeyi demokratiya həll edir? Azərbaycanda demokratiya var və artıq dərəcədə var. Mən bunu Vaşinqtondakı çıxışımda dedim. Amma indi siz hansı demokratiyanı istəyirsiniz? Bu, birincisi. İkincisi, yeddi ildir ki, bu sabitliyi yaratmışıq. Yeddi ildir ki, ölkəmiz, xalqımız rahat yaşayır.

Məsələn, indi mən təyyarə ilə gələndə illüminatordan baxırdım. Bizim şəhərimiz nə qədər gözəl görünür! Mənim ürəyim dağa döndü.

İndi görün, bu adamlar gedib orada Dağlıq Qarabağın işğal olunması haqqında mübarizə aparsaydılar, ona 907-ci maddə ilə bağlı sözlər desəydilər – çünki bu maddənin təşəbbüskarı odur... amma bunlar gedib onun qabağında uşaq kimi oturublar, hər biri də yazdıqları mətni oxuyublar. Biri istəyib ki, ingilis dilində oxusun. Amma deyiblər, biz başa düşmədik, bu, Çin dilindədir, ya ingilis dilindədir. O birisi özü oxumayıb, kiməsə veribdir.

İndi həyatımız belədir. Bunun eybəcərliyi ondan ibarətdir ki, bizim ən böyük problemlərimiz kənarda qalıbdır. Məsələn, Ermənistan-Azərbaycan münaqişəsinin həll olunması. Siz görürsünüz, 1999-cu ilin aprel ayından indiyə qədər mən səkkiz dəfə, bilmirəm, neçə dəfə Koçaryan ilə görüşmüşəm. Amma təkcə Koçaryan deyil axı. Mən Putin ilə də bu barədə çox geniş söhbət aparmışam. Klinton ilə də keçən il noyabr ayında İstanbulda Zirvə görüşündə çox geniş söhbətlər aparmışam. Başqalarını demirəm.

Yəqin bilirsiniz, burada televiziyada veriblər. Xanım Olbrayt ilə görüş oldu. Mən orada Azərbaycanın mənafeyinə çox açıq-aydın söz-

lər dedim. Dedim, neçə ildir siz deyirsiniz ki, 907-ci maddə ləğv olunacaq, ləğv olunmur. Biz ümid edirdik ki, siz Minsk qrupunun həmsədri olandan sonra həqiqətən bu işdə daha da fəal olacaqsınız, amma fəallığınızı görmürəm.

Bilirsiniz, deyirlər burada bunun hüququ tapdalanıb, onun hüququ pozulubdur. Ola bilər, beş-on adamın hüququ pozulsun. Mən onlara deyirdim, bəs, bir milyon adamın hüquqları pozulub, onlar səkkiz ildir çadırlarda yaşayırlar. Əgər doğrudan da siz həqiqətən hüquq tərəfdarısınızsa, insan hüquqları tərəfdarısınızsa, bu məsələni həll edin. Müxalifətdən kiminsə nəsə bir balaca xoşuna gəlmədi, tezcə o Smitdir, nə bilim, kimdir, ona xəbər verir. Onlar da deyirlər ki, Azərbaycanda insan hüquqları pozulur. Mən orada dedim – nə düşmüsünüz? Azərbaycanda insan hüquqları pozulmur. Azərbaycanda demokratiya inkişaf edir və Azərbaycanın xüsusiyyətinə görə, milli ənənələrinə görə bu inkişaf prosesi davam edəcəkdir.

Məsələn, Bjezinski dedi ki, 30 il bundan əvvəl Amerikada əhalinin bir hissəsi səsvermə hüququndan məhrum idi. Orada təkcə qaralar deyil, qadınlar da səsvermə hüququndan məhrum idilər. Dedim, görün, Amerika – ən inkişaf etmiş dövlət və demokratiya sahəsində ən yüksəkdə duran dövlət 30 il bundan qabaq nə işlər görübdür. İndi siz istəyirsiniz ki, biz 7-8-9 ildə elə edək ki, buradakı demokratiya Amerika demokratiyasından yüksəkdə dursun. Amerikanın özündə də demokratiya o qədər yoxdur. Bilirsinizmi? Ona görə mənim dərdim, mənim bütün məqsədim, gördüyüm işlər və bundan sonra görəcəyim işlər yalnız və yalnız Azərbaycanın işğal olunmuş torpaqlarını azad etmək, o insanları öz yerlərinə qaytarmaqdır. Ondan sonra gəlsinlər, kimin hüququ pozulubdur, biz ona cavabdeh olacağıq.

**Sual:** Cənab Prezident, Sizin tənqidi çıxışlarınızdan biri də Vaşinqtonda olubdur. ABƏŞ-ə daxil olan bəzi şirkətləri tənqid etmisiniz ki, Bakı-Ceyhan layihəsi ilə bağlı işləri ləngidirlər. «Eksson Mobil»dən sonra «LUKoyl» şirkəti də Bakı-Ceyhandan imtina edir. Sizcə, bu, Bakı-Ceyhanın tikintisini ləngidə bilərmi?

**Cavab:** Mən «LUKoyl» haqqında heç bir şey bilmirəm. Mən orada «Eksson»un adını çəkdim. «Eksson»un prezidenti orada idi. O, hətta Amerika-Azərbaycan Ticarət Palatasının həmsədridir. Orada elədir ki, bir müddətdən sonra sədr dəyişir. Ona orada bir mükafat da verdilər. Mən dedim ki, sizin şirkətlər, xüsusən «Eksson» şirkəti Bakı-Ceyhanın tezliklə başlanmasını əngəlləyirlər. Amma «LUKoyl» haqqında eşitməmişəm. İnanmıram ki, belə şey eləsin.



**Jurnalist:** Cənab Prezident, bədxahlarınız Sizin haqqınızda nə qədər şayiələr yaysalar da, əmin ola bilərsiniz ki, Azərbaycan xalqı bunların heç birinə inanmırdı. Çünki Azərbaycan televiziyası bu yaxınlarda Sizin Amerika Birləşmiş Ştatlarına işgüzar səfəriniz barədə silsilə verilişlər verdi. Bu verilişlərdə Siz cəsarətlə, əzmlə çıxış edirdiniz. Bu gün də sübut etdiniz ki, bəli, Sizin cəsarətiniz yerindədir, Siz həmişə əzmkarsınız.

**Heydər Əliyev:** Sağ ol. Çox sağ ol. Mən də belə düşünürəm.

# KİTABIN İÇİNDƏKİLƏR


MOSKVA, SANKT-PETERBURQ, MDB VƏ BALTİYA ÖLKƏLƏRİNİN JURNALİSTLƏRİNƏ MÜSAHİBƏ
*10 iyul 1998-ci il* ..... 5

BÖYÜK BRİTANİYAYA RƏSMİ SƏFƏR
BİNƏ HAVA LİMANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİ NÜMAYƏNDƏLƏRİNİN SUALLARINA CAVAB
*19 iyul 1998-ci il* ..... 28

LONDONDA JURNALİSTLƏRİN SUALLARINA CAVAB
*21 iyul 1998-ci il* ..... 30

BÖYÜK BRİTANİYANIN «FÖRST» JURNALININ BEYNƏLXALQ PREZİDENTİ PATRİK KORMAKIN SUALLARINA CAVAB
*21 iyul 1998-ci il* ..... 33

Bİ-Bİ-Sİ TELEVİZİYASININ MÜXBİRİ İLƏ MÜSAHİBƏ ..... 38

JURNALİSTLƏRLƏ SÖHBƏT
*24 iyul 1998-ci il* ..... 40

LONDONDAN BAKIYA QAYIDARKƏN BÖYÜK BRİTANİYAYA RƏSMİ SƏFƏRİN YEKUNLARI BARƏDƏ TƏYYARƏDƏ JURNALİSTLƏRLƏ MÜSAHİBƏ ..... 43

BİNƏ HAVA LİMANINDA JURNALİSTLƏRİN SUALLARINA CAVAB ..... 52

UKRAYNANIN KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞ ..... 54

BİNƏ HAVA LİMANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİ NÜMAYƏNDƏLƏRİNİN SUALLARINA CAVAB
*9 avqust 1998-ci il* ..... 79





SİMFEROPOL HAVA LİMANINDA UKRAYNANIN VƏ XARİCİ ÖLKƏLƏRİN JURNALİSTLƏRİNİN SUALLARINA CAVAB
*9 avqust 1998-ci il* ..... 82

YALTADAN BAKIYA QAYIDARKƏN SƏFƏRİN YEKUNLARI BARƏDƏ TƏYYARƏDƏ JURNALİSTLƏRLƏ MÜSAHİBƏ ..... 83

XARİCİ MƏTBUAT SƏHİFƏLƏRİNDƏ
*19 avqust 1998-ci il* ..... 93

BİNƏ HAVA LİMANINDA JURNALİSTLƏRİN SUALLARINA CAVAB
*7 sentyabr 1998-ci il* ..... 103

TÜRKİYƏNİN «NƏRGİZ TV» KANALININ BAKIDA STUDİYASININ AÇILIŞI
*29 sentyabr 1998-ci il* ..... 108

AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEVİN NİTQİ ..... 108

AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEVİN «NƏRGİZ TV»yə MÜSAHİBƏSİ ..... 111

NATO-nun BAŞ KATİBİ HAVYER SOLANA İLƏ BİRGƏ MƏTBUAT KONFRANSI
*30 sentyabr 1998-ci il* ..... 115

AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEVİN BƏYANATI ..... 115

NATO-nun BAŞ KATİBİ HAVYER SOLANANIN BƏYANATI ..... 116

PREZİDENT SEÇKİLƏRİ BARƏDƏ YERLİ VƏ XARİCİ JURNALİSTLƏR ÜÇÜN MƏTBUAT KONFRANSI
*13 oktyabr 1998-ci il* ..... 117

AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEVİN BƏYANATI ..... 117

TÜRKİYƏ CÜMHURİYYƏTİNİN 75 İLLİK YUBİLEYİNDƏ İŞTİRAK ETMƏK ÜÇÜN QARDAŞ ÖLKƏYƏ SƏFƏR
*28 oktyabr 1998-ci il* ..... 132

TÜRKİYƏNİN «TRT-1» TELEVİZİYA KANALINA MÜSAHİBƏ ..... 135

RUSİYANIN «VESTİ» İNFORMASİYA PROQRAMININ BAKI MÜXBİRİNƏ MÜSAHİBƏ
*29 oktyabr 1998-ci il* ........ 136

BİNƏ HAVA LİMANINDA JURNALİSTLƏRLƏ MÜSAHİBƏ
*30 oktyabr 1998-ci il* ........ 137

MƏTBUAT NÜMAYƏNDƏLƏRİ ÜÇÜN BİRGƏ BRİFİNQ
*25 noyabr 1998-ci il* ........ 141

AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEVİN BƏYANATI ........ 141

ATƏT-in HAZIRKI SƏDRİ BRONİSLAV GEREMEKİN BƏYANATI ........ 142

ANS TELEVİZİYA ŞİRKƏTİNİN RƏHBƏRLƏRİ İLƏ GÖRÜŞ
*7 dekabr 1998-ci il* ........ 143

BİNƏ HAVA LİMANINDA MOLDOVA JURNALİSTLƏRİNİN SUALLARINA CAVAB
*18 dekabr 1998-ci il* ........ 146

TÜRKİYƏDƏ AzərTAc-ın VƏ AZƏRBAYCAN TELEVİZİYASININ MÜXBİRİNƏ MÜSAHİBƏ
*19 yanvar 1999-cu il* ........ 148

ANS TELEŞİRKƏTİNİN XÜSUSİ MÜXBİRİNƏ MÜSAHİBƏ
*19 yanvar 1999-cu il* ........ 153

RUSİYANIN NTV TELEKANALININ MÜXBİRİ İLƏ MÜSAHİBƏ
*20 yanvar 1999-cu il* ........ 160

TÜRKİYƏNİN «NƏRGİZ-TV» TELEVİZİYSINA MÜSAHİBƏ
*20 yanvar 1999-cu il* ........ 163

«MOSKOVSKİ KOMSOMOLETS» QƏZETİNİN MÜXBİRİNƏ MÜSAHİBƏ
*26 yanvar 1999-cu il* ........ 167

TÜRKİYƏNİN TRT-1 TELEVİZİYASINA MÜSAHİBƏ
*6 aprel 1999-cu il* ........ 177

GÜRCÜSTAN JURNALİSTLƏRİ İLƏ MÜSAHİBƏ
*7 aprel 1999-cu il* ........ 188



NATO-nun 50 İLLİK YUBİLEYİNDƏ İŞTİRAK ETMƏK ÜÇÜN ABŞ-a YOLA DÜŞƏRKƏN BİNƏ HAVA LİMANINDA JURNALİSTLƏRİN SUALLARINA CAVAB
*22 aprel 1999-cu il* ........ 193

«VAŞİNQTON POST» QƏZETİNİN JURNALİSTLƏRİ İLƏ GÖRÜŞ
*26 aprel 1999-cu il* ........ 195

ORT TELEKANALI MÜXBİRİNƏ MÜSAHİBƏ
*19 may 1999-cu il* ........ 206

RUSİYANIN NTV TELEKANALI MÜXBİRİNƏ MÜSAHİBƏ
*19 may 1999-cu il* ........ 212

Bİ-Bİ-Sİ RADİOSU MÜXBİRİNƏ MÜSAHİBƏ ........ 216

TÜRKİYƏNİN «CEYLAN-TV» TELEKANALINA MÜSAHİBƏ
*26 may 1999-cu il* ........ 218

«SAMANYOLU» TELEVİZİYASINA MÜSAHİBƏ
*28 may 1999-cu il* ........ 225

TÜRKİYƏNİN «CEYLAN-TV» TELEVİZİYASI MÜXBİRİNİN SUALLARINA CAVAB
*9 iyun 1999-cu il* ........ 234

BİNƏ HAVA LİMANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİ NÜMAYƏNDƏLƏRİNİN SUALLARINA CAVAB
*15 iyul 1999-cu il* ........ 236

BİNƏ HAVA LİMANINDA JURNALİSTLƏR QARŞISINDA BƏYANAT
*17 iyul 1999-cu il* ........ 238

AZƏRBAYCAN RESPUBLİKASININ MƏTBUAT İŞÇİLƏRİNƏ
*21 iyul 1999-cu il* ........ 239

BİNƏ HAVA LİMANINDA JURNALİSTLƏRİN SUALLARINA CAVAB
*21 avqust 1999-cu il* ........ 241

ERMƏNİSTAN PREZİDENTİ İLƏ KEÇİRİLMİŞ TƏKBƏTƏK GÖRÜŞDƏN SONRA BƏYANAT
*22 avqust 1999-cu il* ........ 243

RUSİYANIN XARİCİ İŞLƏR NAZİRİ İLƏ KEÇİRİLMİŞ GÖRÜŞDƏN SONRA MƏTBUAT ÜÇÜN BƏYANAT
*2 sentyabr 1999-cu il* ..... 245

BİNƏ HAVA LİMANINDA JURNALİSTLƏRİN SUALLARINA CAVAB
*9 sentyabr 1999-cu il* ..... 247

BALTİK-QARA DƏNİZ SAMMİTİNDƏN VƏTƏNƏ QAYIDARKƏN BİNƏ HAVA LİMANINDA JURNALİSTLƏRİN SUALLARINA CAVAB
*11 sentyabr 1999-cu il* ..... 248

TÜRKİYƏNİN «SAMANYOLU» TELEVİZİYASININ MÜXBİRİ İLƏ MÜSAHİBƏ
*14 oktyabr 1999-cu il* ..... 249

AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEVİN VƏ POLŞA PREZİDENTİ ALEKSANDR KVASNEVSKİNİN BİRGƏ MƏTBUAT KONFRANSI
*27 oktyabr 1999-cu il* ..... 255

AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEVİN BƏYANATI ..... 255

POLŞA PREZİDENTİ ALEKSANDR KVASNEVSKİNİN BƏYANATI ..... 256

TÜRKİYƏ PREZİDENTİNİN DƏVƏTİLƏ QISAMÜDDƏTLİ İŞGÜZAR SƏFƏRƏ YOLA DÜŞMƏZDƏN ƏVVƏL BİNƏ HAVA LİMANINDA JURNALİSTLƏRİN SUALLARINA CAVAB
*31 oktyabr 1999-cu il* ..... 261

ATATÜRK ADINA HAVA LİMANININ ŞƏRƏF SALONUNDA JURNALİSTLƏRİN SUALLARINA CAVAB
*31 oktyabr 1999-cu il* ..... 263

KOCAELİNİN «KÖSƏKÖY» HAVA LİMANINDA JURNALİSTLƏR QARŞISINDA BƏYANAT
*1 noyabr 1999-cu il* ..... 266

TÜRKİYƏYƏ QISAMÜDDƏTLİ İŞGÜZAR SƏFƏRDƏN VƏTƏNƏ QAYIDARKƏN BİNƏ HAVA LİMANINDA JURNALİSTLƏRİN SUALLARINA CAVAB
*2 noyabr 1999-cu il* ..... 268

TÜRKİYƏYƏ ATƏT-in NÖVBƏTİ ZİRVƏ GÖRÜŞÜNƏ YOLA DÜŞMƏZDƏN ƏVVƏL BİNƏ HAVA LİMANINDA YERLİ VƏ XARİCİ JURNALİSTLƏRİN SUALLARINA CAVAB
*17 noyabr 1999-cu il* ..... 271



TƏYYARƏDƏ JURNALİSTLƏRLƏ GÖRÜŞ ..... 276

ATƏT-in NÖVBƏTİ ZİRVƏ GÖRÜŞÜNDƏN VƏTƏNƏ QAYIDARKƏN BİNƏ HAVA LİMANINDA JURNALİSTLƏRİN SUALLARINA CAVAB
*20 noyabr 1999-cu il* ..... 284

TÜRKİYƏYƏ QISAMÜDDƏTLİ İŞGÜZAR SƏFƏRƏ YOLA DÜŞMƏZDƏN ƏVVƏL BİNƏ HAVA LİMANINDA JURNALİSTLƏRƏ SÖZÜ
*27 noyabr 1999-cu il* ..... 292

BİNƏ HAVA LİMANINDA JURNALİSTLƏRƏ TÜRKİYƏ RESPUBLİKASINA SƏFƏR BARƏDƏ MƏLUMAT
*29 noyabr 1999-cu il* ..... 293

UKRAYNAYA İŞGÜZAR SƏFƏRƏ YOLA DÜŞMƏZDƏN ƏVVƏL BİNƏ HAVA LİMANINDA JURNALİSTLƏRİN SUALLARINA CAVAB
*30 noyabr 1999-cu il* ..... 296

BİNƏ HAVA LİMANINDA JURNALİSTLƏRİN SUALLARINA CAVAB
*2 dekabr 1999-cu il* ..... 297

BİRGƏ MƏTBUAT KONFRANSI
*2 dekabr 1999-cu il* ..... 302

AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEVİN BƏYANATI ..... 302

BOLQARISTAN PREZİDENTİ PETR STOYANOVUN BƏYANATI ..... 303

RUSİYA JURNALİSTLƏRİ QRUPU İLƏ GÖRÜŞ
*25 dekabr 1999-cu il* ..... 307

TÜRKİYƏYƏ QISAMÜDDƏTLİ İŞGÜZAR SƏFƏRƏ YOLA DÜŞMƏZDƏN ƏVVƏL BİNƏ HAVA LİMANINDA JURNALİSTLƏRİN SUALLARINA CAVAB
*9 yanvar 2000-ci il* ..... 325

ANKARANIN ESENBOĞA HAVA LİMANININ ŞƏRƏF SALONUNDA AZƏRBAYCANIN, TÜRKİYƏNİN VƏ XARİCİ ÖLKƏLƏRİN ANKARADA AKKREDİTƏ OLUNMUŞ JURNALİSTLƏRİ QARŞISINDA BƏYANAT
*10 yanvar 2000-ci il* ..... 328

BİNƏ HAVA LİMANINDA JURNALİSTLƏRİN SUALLARINA CAVAB
*10 yanvar 2000-ci il* ..... 331

MÜSTƏQİL DÖVLƏTLƏR BİRLİYİNİN ÜZVÜ OLAN ÖLKƏLƏRİN DÖVLƏT BAŞÇILARININ NÖVBƏTİ ZİRVƏ GÖRÜŞÜNDƏ İŞTİRAK ETMƏK ÜÇÜN YOLA DÜŞMƏZDƏN ƏVVƏL BİNƏ HAVA LİMANINDA JURNALİSTLƏRİN SUALLARINA CAVAB
*23 yanvar 2000-ci il* .......... 334

MÜSTƏQİL DÖVLƏTLƏR BİRLİYİNİN ÜZVÜ OLAN ÖLKƏLƏRİN DÖVLƏT BAŞÇILARININ NÖVBƏTİ ZİRVƏ SAMMİTİ ƏRƏFƏSİNDƏ JURNALİSTLƏRLƏ GÖRÜŞ
*24 yanvar 2000-ci il* .......... 336

MDB ÖLKƏLƏRİ DÖVLƏT BAŞÇILARININ MOSKVA ZİRVƏ GÖRÜŞÜNÜN YEKUNLARINA DAİR BİRGƏ MƏTBUAT KONFRANSI
*25 yanvar 2000-ci il* .......... 338

MÜSTƏQİL DÖVLƏTLƏR BİRLİYİNİN ÜZVÜ OLAN ÖLKƏLƏRİN DÖVLƏT BAŞÇILARININ MOSKVADA KEÇİRİLƏN NÖVBƏTİ ZİRVƏ GÖRÜŞÜNDƏN QAYIDARKƏN BİNƏ HAVA LİMANINDA JURNALİSTLƏRİN SUALLARINA CAVAB
*25 yanvar 2000-ci il* .......... 340

İSVEÇRƏYƏ SƏFƏRDƏN VƏTƏNƏ QAYIDARKƏN BİNƏ HAVA LİMANINDA JURNALİSTLƏRİN SUALLARINA CAVAB
*30 yanvar 2000-ci il* .......... 343

AMERİKA BİRLƏŞMİŞ ŞTATLARINA YOLA DÜŞMƏZDƏN ƏVVƏL BİNƏ HAVA LİMANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİ NÜMAYƏNDƏLƏRİNİN SUALLARINA CAVAB
*12 fevral 2000-ci il* .......... 348

ABŞ PREZİDENTİ İLƏ GÖRÜŞ BAŞA ÇATDIQDAN SONRA AĞ EVİN QARŞISINDA YERLİ VƏ XARİCİ JURNALİSTLƏRLƏ GÖRÜŞ .......... 350

«NYU-YORK TAYMS» QƏZETİNİN ƏMƏKDAŞLARI İLƏ GÖRÜŞ .......... 352

BİNƏ HAVA LİMANINDA JURNALİSTLƏRİN SUALLARINA CAVAB
*28 fevral 2000-ci il* .......... 362

RUSİYA MƏTBUATI AZƏRBAYCAN PREZİDENTİ VƏ ONUN KOMANDASI HAQQINDA .......... 371

DÜNYA MƏTBUATININ DİQQƏT MƏRKƏZİNDƏ .......... 374



RUSİYA JURNALİSTLƏRİNİ QƏBUL
*4 mart 2000-ci il* .......... 383

BİRGƏ MƏTBUAT KONFRANSI .......... 408

AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEVİN BƏYANATI .......... 408

UKRAYNA PREZİDENTİ LEONİD KUÇMANIN BƏYANATI .......... 409

AZƏRBAYCAN VƏ GÜRCÜSTAN PREZİDENTLƏRİNİN BİRGƏ MƏTBUAT KONFRANSI
*22 mart 2000-ci il* .......... 419

BİNƏ HAVA LİMANINDA JURNALİSTLƏRİN SUALLARINA CAVAB
*23 mart 2000-ci il* .......... 425

GÜRCÜSTAN MİLLİ TELEVİZİYASINA MÜSAHİBƏ
*23 mart 2000-ci il* .......... 430

AZƏRBAYCANDA MİLLİ MƏTBUATIN YARADILMASININ 125 İLLİYİ HAQQINDA AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI
*27 mart 2000-ci il* .......... 434

AZƏRBAYCAN VƏ QAZAXISTAN PREZİDENTLƏRİNİN BİRGƏ MƏTBUAT KONFRANSI
*7 aprel 2000-ci il* .......... 440

AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEVİN BƏYANATI .......... 440

AZƏRBAYCAN PREZİDENTİNİN MƏTBUAT ÜÇÜN QISA BƏYANATI
*8 aprel 2000-ci il* .......... 445

TÜRKDİLLİ DÖVLƏTLƏRİN BAŞÇILARININ VI ZİRVƏ GÖRÜŞÜNÜN YEKUNLARINA DAİR BİRGƏ MƏTBUAT KONFRANSINDA BƏYANAT
*8 aprel 2000-ci il* .......... 446

«JURNALİST»in BAŞ REDAKTORU GENNADİ MALTSEVİN SUALLARINA CAVAB .......... 448

ŞƏMKİR SES-də JURNALİSTLƏRLƏ SÖHBƏT
*23 may 2000-ci il* .......... 454

İQTİSADİ ƏMƏKDAŞLIQ TƏŞKİLATININ (EKO-nun) ÜZVÜ OLAN ÖLKƏLƏRİN DÖVLƏT VƏ HÖKUMƏT BAŞÇILARININ ZİRVƏ GÖRÜŞÜNƏ YOLA DÜŞMƏZDƏN ƏVVƏL BİNƏ HAVA LİMANINDA JURNALİSTLƏRİN SUALLARINA CAVAB
*9 iyun 2000-ci il* ..... 462

«DİALOQ AVRASİYA» DƏRGİSİNİN TƏQDİMAT MƏRASİMİNDƏ NİTQİ
*13 iyun 2000-ci il* ..... 467

MÜSTƏQİL DÖVLƏTLƏR BİRLİYİNİN ÜZVÜ OLAN ÖLKƏLƏRİN DÖVLƏT BAŞÇILARININ NÖVBƏTİ ZİRVƏ GÖRÜŞÜNDƏ İŞTİRAK ETMƏK ÜÇÜN MOSKVAYA YOLA DÜŞMƏZDƏN ƏVVƏL BİNƏ HAVA LİMANINDA JURNALİSTLƏRİN SUALLARINA CAVAB
*20 iyun 2000-ci il* ..... 476

«HƏQİQƏT ANI» TELEVİZİYA PROQRAMININ APARICISI ANDREY KARAULOV İLƏ MÜSAHİBƏ
*21 iyun 2000-ci il* ..... 478

MDB-nin ÜZVÜ OLAN ÖLKƏLƏRİN DÖVLƏT BAŞÇILARININ ZİRVƏ GÖRÜŞÜNDƏ İŞTİRAK ETDİKDƏN SONRA VƏTƏNƏ QAYIDARKƏN BİNƏ HAVA LİMANINDA JURNALİSTLƏRİN SUALLARINA CAVAB
*22 iyun 2000-ci il* ..... 495

AVSTRİYAYA YOLA DÜŞMƏZDƏN ƏVVƏL BİNƏ HAVA LİMANINDA JURNALİSTLƏRƏ MÜSAHİBƏ
*3 iyul 2000-ci il* ..... 497

BİRGƏ MƏTBUAT KONFRANSI
*4 iyul 2000-ci il* ..... 501

AVSTRİYANIN FEDERAL PREZİDENTİ TOMAS KLESTİLİN BƏYANATI ..... 501

AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEVİN BƏYANATI ..... 501

AVSTRİYA JURNALİSTLƏRİ İLƏ MÜSAHİBƏ
*6 iyul 2000-ci il* ..... 506

AVSTRİYAYA RƏSMİ SƏFƏRDƏN QAYIDARKƏN BİNƏ HAVA LİMANINDA JURNALİSTLƏRİN SUALLARINA CAVAB
*6 iyul 2000-ci il* ..... 516



AZƏRBAYCAN VƏ TÜRKİYƏ PREZİDENTLƏRİNİN BİRGƏ MƏTBUAT KONFRANSI
*11 iyul 2000-ci il* ..... 521

AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEVİN BƏYANATI ..... 521

TÜRKİYƏ PREZİDENTİ ƏHMƏD NECDƏT SEZƏRİN BƏYANATI ..... 522

AZƏRBAYCANDA MİLLİ MƏTBUATIN YARADILMASININ 125 İLLİYİ MÜNASİBƏTİLƏ JURNALİSTLƏRLƏ GÖRÜŞ
*21 iyul 2000-ci il* ..... 525

AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEVİN GİRİŞ NİTQİ ..... 525

AZƏRBAYCANDA MİLLİ MƏTBUATIN YARADILMASININ 125 İLLİYİ MÜNASİBƏTİLƏ RESPUBLİKA PREZİDENTİNİN YANINDA OLAN GÖRÜŞDƏ ÇIXIŞ EDƏN KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİ RƏHBƏRLƏRİNİN ÇIXIŞI
*21 iyul 2000-ci il* ..... 528

«AZADLIQ» QƏZETİNİN BAŞ REDAKTORU GÜNDÜZ TAHİRLİNİN ÇIXIŞI ..... 528

«ASSA-İRADƏ» AGENTLİYİNİN BAŞ DİREKTORU FAZİL ABBASOVUN ÇIXIŞI ..... 538

«YENİ NƏSİL» JURNALİSTLƏR BİRLİYİNİN SƏDRİ ARİF ƏLİYEVİN ÇIXIŞI ..... 540

«SPACE» TELEVİZİYA ŞİRKƏTİNİN İCRAÇI DİREKTORU RÜSTƏM ƏLİYEVİN ÇIXIŞI ..... 545

«ÜÇ NÖQTƏ» QƏZETİNİN BAŞ REDAKTORU XOŞQƏDƏM HİDAYƏTQIZININ ÇIXIŞI ..... 548

ANS TELEŞİRKƏTİNİN PREZİDENTİ VAHİD MUSTAFAYEVİN ÇIXIŞI ..... 552

«GÜZGÜ» QƏZETİNİN BAŞ REDAKTORU SƏTTAR ZƏRDABİNİN ÇIXIŞI ..... 556

AZƏRBAYCAN JURNALİSTLƏR BİRLİYİNİN SƏDRİ HACI HACIYEVİN ÇIXIŞI ..... 559

«HƏYAT» QƏZETİNİN BAŞ REDAKTORU
SABİR HÜSEYNOVUN ÇIXIŞI ........ 561

«ADDIM» QƏZETİNİN BAŞ REDAKTORU
ANAR VƏZİROĞLUNUN ÇIXIŞI ........ 562

BDU-nun JURNALİSTİKA FAKÜLTƏSİNİN
MÜƏLLİMİ AYNUR BƏŞİRLİNİN ÇIXIŞI ........ 564

«QARABAĞ» QƏZETİNİN BAŞ REDAKTORU
ÇİNGİZ İSMAYILOVUN ÇIXIŞI ........ 567

«FAKTOR» QƏZETİNİN BAŞ REDAKTORU
FİRUZƏ ƏLİMƏMMƏDOVANIN ÇIXIŞI ........ 569

«SAMUR» QƏZETİNİN MÜXBİRİ
KÖNÜL NAZİMQIZININ ÇIXIŞI ........ 573

AZƏRBAYCAN DÖVLƏT TELEVİZİYASINA MÜSAHİBƏ
*5 avqust 2000-ci il* ........ 575

«LİTERATURNAYA QAZETA»NIN XÜSUSİ
MÜXBİRLƏRİ İLƏ SÖHBƏT ........ 577

MDB-nin ÜZVÜ OLAN ÖLKƏLƏRİN DÖVLƏT BAŞÇILARININ
QEYRİ-FORMAL ZİRVƏ GÖRÜŞÜNDƏ İŞTİRAK ETMƏK ÜÇÜN
YOLA DÜŞMƏZDƏN ƏVVƏL BİNƏ HAVA LİMANINDA
JURNALİSTLƏRİN SUALLARINA CAVAB
*18 avqust 2000-ci il* ........ 585

AZƏRBAYCAN VƏ GÜRCÜSTAN PREZİDENTLƏRİNİN TƏKBƏTƏK
GÖRÜŞÜNDƏN SONRA JURNALİSTLƏRİN SUALLARINA CAVAB
*19 avqust 2000-ci il* ........ 588

MDB ÖLKƏLƏRİ DÖVLƏT BAŞÇILARININ QEYRİ-FORMAL
GÖRÜŞÜNDƏN QAYIDARKƏN BİNƏ HAVA LİMANINDA
JURNALİSTLƏRƏ MÜSAHİBƏ
*19 avqust 2000-ci il* ........ 591

AMERİKA BİRLƏŞMİŞ ŞTATLARINA YOLA DÜŞMƏZDƏN ƏVVƏL
BİNƏ HAVA LİMANINDA JURNALİSTLƏRİN SUALLARINA CAVAB
*4 sentyabr 2000-ci il* ........ 593



HEYDƏR ƏLİYEV : MƏN HƏMİŞƏ İSTƏMİŞƏM Kİ,
AZƏRBAYCAN MÜSTƏQİL OLSUN ........ 597

BMT-nin İQAMƏTGAHINDA GUÖAM-ın ÜZVÜ OLAN
ÖLKƏLƏRİN DÖVLƏT BAŞÇILARININ MİNİLLİYİN
SAMMİTİ ÇƏRÇİVƏSİNDƏ ZİRVƏ GÖRÜŞÜ
*6 sentyabr 2000-ci il* ........ 601

KLİVLENDDƏN ANS YAYIM VƏ
MEDİA ŞİRKƏTİNƏ MÜSAHİBƏ ........ 604

İTAR-TASS AGENTLİYİNƏ MÜSAHİBƏSİ
*27 sentyabr 2000-ci il* ........ 608

AzərTAc-ın ABŞ-dakı XÜSUSİ MÜXBİRİ İLƏ MÜSAHİBƏ
*27 sentyabr 2000-ci il* ........ 610

RUSİYANIN ORT KANALININ LONDONDAKI
XÜSUSİ MÜXBİRİNƏ MÜSAHİBƏ
*29 sentyabr 2000-ci il* ........ 617

BAKININ BİNƏ HAVA LİMANINDA GÖZLƏYƏN ÇOXSAYLI
JURNALİSTLƏRİN SUALLARINA CAVAB
*29 sentyabr 2000-ci il* ........ 619

**HEYDƏR ƏLİYEV və MƏTBUAT**

Nəşriyyat redaktorları: Nərgiz Rüstəmli, Xəlil Talıbov
Bədii redaktor: İntizar Əliyeva
Rəssam: Azər Ələkbərov
Texniki redaktor: Hümbət Musayev
Korrektorlar: Ofeliya Bayramlı, Suğra Osmanova

Yığılmağa verilmişdir: 22. 12. 2002. Çapa imzalanmışdır: 29. 04. 2003. Nəşrin ölçüsü: 70×90 1/16. Ofset kağızı №1. Tayms qarnituru. Ofset çapı. Fiziki çap vərəqi: 40,0. Sifariş: 18. Sayı: 500 ədəd. Müqavilə qiyməti ilə.

NURLAR

Bakı–370122, H.Zərdabi pr.-78. Tel: 977021, 971362.
Faks: 971295. E-mail: nurlar @ azdata.net

Ф3(2)1)
265